R.İ.Xasbulatov

# BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏR

BAKI - 2015

***Kitabın nəşrinə göstərdiyi köməyə görə Azərbaycan Respublikası Milli Məclisinin deputatı cənab Çingiz Əsədullayevə minnətdarlığımızı bildiririk.***

*Tərcümə edən:* ***Rauf Şaiq oğlu Hacıyev***
*iqtisad elmləri namizədi*

*Elmi redaktor:* ***Şəmsəddin Hümmət oğlu Hacıyev***
*iqtisad elmləri doktoru, professor*

**УДК 33 ББК 65.5 я 73**
X24

Xasbulatov R.İ. "Beynəlxalq iqtisadi münasibətlər" / Rus dilindən tərcümə. Bakı, "Zərdabi LTD" MMC, 2015, 808 səh.

İqtisad elmləri doktoru, professor, Rusiya Elmlər Akademiyasının müxbir üzvü, Rusiya Federasiyasının əməkdar elm xadimi R. İ. Xasbulatovun müəllif olduğu kitabda beynəlxalq iqtisadi münasibətlərin müasir sisteminin əsas problemləri, onların formaları və təzahürləri nəzərdən keçirilir, nəzəriyyə və metodologiya məsələlərinə diqqət yetirilir. Burada istehsal amillərinin beynəlxalq miqyasda hərəkəti, beynəlxalq ticarət və beynəlxalq valyuta- maliyyə münasibətlərinin dinamikası, tənzimləmə orqanlarının, transmilli korporasiyaların fəaliyyəti, strukturu və təkamülünün yeni istiqamətləri açıqlanır. Müəllif beynəlxalq əmək qüvvəsi bazarının, milli və beynəlxalq əmək miqrasiyasının məzmununu, müasir formalarını və tənzimlənməsi üsullarını açıqlayır, beynəlxalq iqtisadi təşkilatların fəaliyyətini təhlil edir. Dünya ölkələrinin beynəlxalq iqtisadi münasibətlərdə, dünya təsərrüfatında gedən proseslərdə iştirakı barədə məlumat verilir. XXI əsrdə bəşəriyyətin qlobal problemlərinin əsas əlamətləri və xüsusiyyətləri göstərilir.

Müəllimlər, elmi işçilər, tələbələr, iş adamları, habelə dünya iqtisadiyyatı və beynəlxalq iqtisadi münasibətlər problemləri ilə maraqlananlar üçündür.

**ISBN 978-5-9916-1618-8**

© Xasbulatov R.İ., 2014
©"Zərdabi LTD" M MC, 2015

**II BOLMƏ**
**MÜASİR BEYNƏLXALQ TİCARİ-İQTİSADİ MÜNASİBƏTLƏR VƏ DÜNYA TİCARƏT SİYASƏTİ**

**Fəsil 3. BİM SİSTEMİNDƏ ÖLKƏNİN XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİ ........................................................74**
3.1. Beynəlxalq ticari-iqtisadi əməkdaşlıq...........................................74
3.2. Xarici iqtisadi əlaqələrin nəzəri aspektləri.....................................76
3.3. Xarici iqtisadi əməliyyatlar: anlayışların kateqoriyaları, təsnifatı ........................................................................ 78
3.4. Xarici iqtisadi əlaqələrin tənzimləyiciləri: xarici iqtisadi siyasət ................................................................................85
*Xülasə*...............................................................................................87
*Yoxlama sualları* ................................................................................88
*Referatların mövzuları* .......................................................................88

**Fəsil 4. DÖVLƏTİN XARİCİ İQTİSADİ SİYASƏTİ VƏ İQTİSADİ DİPLOMATİYASI.........................................................................89**
4.1. Dövlətin xarici iqtisadi siyasəti, onun fonnalaşması mexanizmi ..............................................................................89
4.2. ABŞ-m xarici iqtisadi siyasətinin mexanizmi...............................92
4.3. İqtisadi diplomatiya və beynəlxalq danışıqların texnologiyası........99
*Xülasə*.............................................................................................106
*Yoxlama sualları* ..............................................................................107
*Referatların mövzuları* .....................................................................107

**Fəsil 5. BEYNƏLXALQ TİCARƏTDƏ TƏDİYYƏ BALANSLARI...108**
5.1. Tədiyyə balansının ümumi təsviri.................................................108
5.2. Tədiyyə balansının standart modeli və onun strukturu ..................118
5.3. Xarici ticarətin multiplikatoru........................................................122
*Xülasə*.............................................................................................128
*Yoxlama sualları* ..............................................................................130
*Referatların mövzuları* .....................................................................130

**Fəsil 6. MÜASİR BEYNƏLXALQ TİCARƏT: NƏZƏRİYYƏ .............131**
6.1. Beynəlxalq ticarətin nəzəriyyəsi ...................................................131
6.2. Hekşer-Olinin beynəlxalq ticarət nəzəriyyəsi, Samuelsonun töhfəsi, Leontyev paradoksu və s ............................138
6.3. Porterin rəqabət üstünlükləri nəzəriyyəsi.......................................131
6.4. Dünya bazarı və beynəlxalq ticarət................................................148
6.5. Beynəlxalq ticarətin xüsusiyyətləri və dinamikası.........................170

MÜNDƏRİCAT

**Qəbul edilmiş ixtisarlar .....................................................................13**
**Ümumi xülasə ..............................................................................16**

**I BÖLMƏ**
**BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRİN NƏZƏRİYYƏSİ**
**Fəsil 1. BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRİN (BİM) ANLAYIŞLARI, KATEQORİYALARI VƏ MƏZMUNU .........20**
1.1. BİM-in əsas kateqoriyaları, onların məzmunu..............................20
1.2. BİM-in subyektləri. Quruluşu və strukturu....................................25
1.3. BİM-in fonuaları və istiqamətləri ..................................................26
1.4. BİM-in təhlilinin metodları və tipləri ............................................28
1.5. BİM və əlaqəli tədris fənləri ..........................................................29
1.6. İqtisadi tənzimləmənin Amerika və Avropa təcrübəsinin nəzərə alınmasının vacibliyi..........................................................32
*Xülasə* ..............................................................................................37
*Yoxlama sualları* ..............................................................................40
*Referatlarin mövzuları* ......................................................................41

**Fəsil 2. BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRİN ƏSAS NƏZƏRİYYƏLƏRİ VƏ KONSEPSİYALARI ............................42**
2.1. BİM konsepsiyalarının inkişafı və təşəkkülü .................................42
2.2. Keyns məktəbinin sonu və libertarianizmin beynəlxalq siyasi arenaya çıxması ..................................................44
2.3. Yeni məktəb: beynəlxalq siyasi iqtisad yaxud beynəlxalq iqtisadiyyat..........................................................46
2.4. Beynəlxalq iqtisadi münasibətlərin müasir nəzəriyyələri ...............51
2.5. Beynəlxalq münasibətlərin radikal solçu nəzərij/yələri: hiper-liberalizmin tənqidi...............................................................56
2.6. Qlobal böhran şəraitində kapitalizmin yeni modellərinin axtarışı: səmərəli inkişaf nəzəriyyəsi ..........................................................61
2.7. Səmərəli inkişaf və idarəetmə doktrinası: yeni təsisatlar ................63
2.8. İnkişaf prosesinin idarə olunmasının təmin edilməsi proqramı ......64
2.9. İnkişaf dövlətinin potensialının yaradılması ...................................67
*Xülasə* ..............................................................................................69
*Yoxlama sualları* ..............................................................................71
*Referatların mövzuları* ......................................................................71

*Xülasə* ....................................................................................178
*Yoxlama sualları* ....................................................................................181
*Referalların mövzuları* ....................................................................................181

**Fəsil 7. İNKİŞAF ETMƏKDƏ OLAN ÖLKƏLƏRİN VƏ KEÇİD İQTİSADİYYATI ÖLKƏLƏRİNİN BEYNƏLXALQ TİCARƏTİ ............................................ 182**
7.1. «İnkişaf etmiş - inkişaf etməkdə olan ölkələr» azimutu üzrə beynəlxalq ticarət....................................182
7.2. Çin və onun beynəlxalq ticarətdə mövqeləri ................................183
7.3. Asiyanın ticarəti (Çinsiz) ..........................................184
7.4. Latın Amerikası və Karib dənizi hövzəsi ölkələrinin beynəlxalq ticarəti ....................................187
7.5. Afrika ölkələrinin ticarəti..........................................188
7.6. MDB iştirakçısı olan ölkələrin və Rusiyanın beynəlxalq ticarəti . 192
*Xülasə* ....................................................................................194
*Yoxlama sualları* ....................................................................................196
*Referatların mövzuları* ....................................................................................196

**Fəsil 8. RUSİYA FEDERASİYASI BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ..........................................197**
8.1. Ümumi təsvir ....................................................................197
8.2. 1991-2009-cu illərdə Rusiyanın əsas iqtisadi göstəriciləri ...........197
*Xülasə* ....................................................................................208
*Yoxlama sualları* ....................................................................................209
*Referatların mövzuları* ....................................................................................210

**Fəsil 9. ABŞ-ın BEYNƏLXALQ TİCARƏTİ.........................................211**
9.1. ABŞ-ın beynəlxalq ticarətdə mövqeləri.......................................211
9.2. ABŞ-ın ixrac mövqeləri ..................................................211
9.3. ABŞ-ın idxal mövqeləri ..................................................213
9.4. ABŞ-ın beynəlxalq ticarət balanslan..........................................216
9.5. ABŞ-ın ticarət siyasətinin iki konsepsiyası..................................221
*Xülasə* ....................................................................................223
*Yoxlama sualları* ....................................................................................225
*Referatların mövzuları* ....................................................................................225

**Fəsil 10. BEYNƏLXALQ VƏ REGİONAL TİCARƏT, AVROPA İTTİFAQININ TİCARƏT SİYASƏTİ........................................226**
10.1. Avropa müasir kapitalizmin vətənidir........................................226

10.2. Avropa ticarəti: ticarət siyasətinin təkamülü ............................ 229
10.3. 2000-2010-cu illərdə Aİ ölkələrinin beynəlxalq ticarəti............ 231
10.4. Aİ ölkələrinin daxili (regional) ticarəti.......................................233
10.5. Aİ-nin xarici və daxili ticarətində ticarət balansları ...................237
10.6. Aİ-nin beynəlxalq və daxili ticarətinin əmtəə strukturu .............240
10.7. Qərbi Avropa, Yaponiya və Çinin əmtəə münasibətləri.............242
10.8. Aİ - Çin münasibətləri: yeni təzahürlər .....................................244
*Xülasə* .................................................................................................245
*Yoxlama sualları*...................................................................................247
*Referatlann mövzuları* .........................................................................247

**Fəsil 11. BEYNƏLXALQ TİCARƏTDƏ BİZNES VƏ TURİZM SEKTORLARI ..................................................................248**
11.1. Biznes xidmətləri. Mahiyyəti və məzmunu ...............................248
11.2. Beynəlxalq biznes xidmətləri ilə ticarətin artması.......................250
11.3. İnkişaf etməkdə olan ölkələrdə biznes xidmətləri .......................253
11.4. Xidmətlərlə beynəlxalq ticarətin xüsusİ5^ətləri..........................254
11.5. Xarici ticarətlə bağlı nəqliyyat xidmətləri ..................................255
11.6. İnformasiya sahəsində beynəlxalq xidmətlər...............................258
11.7. Beynəlxalq iqtisadi münasibətlər sistemində təhsil ....................264
11.8. Beynəlxalq turizm.......................................................................269
11.9. Beynəlxalq turizmin iqtisadi artıma təsiri...................................270
11.10. Beynəlxalq səyahətlərə tələbatın formalaşması ........................275
11.11. Müasir dünyada beynəlxalq miqrasiya sahəsində yeni təzahürlər.............................................................282
*Xülasə* .................................................................................................285
*Yoxlama sualları*...................................................................................288
*Referatlann mövzuları* .........................................................................289

**Fəsil 12. BEYNƏLXALQ TİCARƏTDƏ QİYMƏTLƏR ......................290**
12.1. Məsələnin nəzəriyyəsi və qiymətlərin təsnifatı...........................290
12.2. Tariflər və rüsumlar ....................................................................296
12.3. 2000-2010-eu illərdə beynəlxalq əmtəə bazarlarında qiymətlərin hərəkəti..................................................................301
12.4. Qiymətlərin beynəlxalq tənzimlənməsinin mexanizmi ...............307
*Xülasə* .................................................................................................312
*Yoxlama sualları*...................................................................................314
*Referatlann mövzuları* .........................................................................315

**III BÖLMƏ**
**KAPİTALIN BEYNƏLXALQ YERDƏYİŞMƏSİ VƏ TMK-NIN FƏALİYYƏTİ - BEYNƏLXALQ SAHİBKARLIQ**

**Fəsil 13. ƏMƏK RESURSLARININ BEYNƏLXALQ HƏRƏKƏTİ....317**

13.1. işçi qüvvəsinin beynəlxalq əmək miqrasiyası anlayışı və onun məzmunu ....317
13.2. İqtisadi aspekt ....327
13.3. Milli və beynəlxalq qanunvericilik ....329
13.4. İnkişaf etmiş ölkələrin əcnəbi işçi qüvvəsinə münasibətdə siyasəti ....333
*Xülasə* ....339
*Yoxlama sualları* ....342
*Referatlann mövzuları* ....342

**Fəsil 14. KAPİTALIN BEYNƏLXALQ HƏRƏKƏTİ-XBİ: TƏBİƏTİ, NƏZƏRİ ƏSASLARI....343**

14.1. Kapitalın beynəlxalq hərəkətinin ümumi təsviri ....343
14.2. Beynəlxalq istehsalın formalaşması, kapitalın, malların və xidmətlərin ölkədən çıxarılması ....361
14.3. XBİ-nin ölkəyə axınına şərait yaradan investisiya iqlimi, işgüzar mühit ....363
14.4. Kapitalın beynəlxalq hərəkətinin formaları. Kapitalın strukturu....369
14.5. Beynəlxalq investisiya rejiminin mahiyyəti və məzmunu ....373
14.6. İnvestisiya siyasətində milli və beynəlxalq səviyyələrdə baş verən son dəyişikliklər ....376
*Xülasə* ....383
*Yoxlama sualları* ....386
*Referatlann mövzuları* ....387

**Fəsil 15. TMK DÜNYA İQTİSADİYYATININ BEYNƏLMİLƏLLƏŞMƏSİNİN DƏRİNLƏŞMƏSİNİN ƏSAS AMİLİDİR.... 388**

15.1. TMK: inkişaf naminə ekspansiya, yoxsa super gəlirlər dalınca qaçma? ....388
15.2. Müasir TMK-nm genezisi, mahiyyəti və təkamülü ....390
15.3. TMK-nın fəaliyyətinin çoxfunksiyalılığı ....426
15.4. TMK dövlətlərin qarşılıqlı asılılığının güclənməsinin amili kimi ..428
15.5. TMK beynəlxalq istehsalın maddi bazasıdır: qlobal təzahürlər . 429

*Yoxlama sualları* ........................................................................ 434
*Referatlann mövzuları* ................................................................... 435

**Fəsil 16. DÜNYA HASİLAT SƏNAYESİNDƏKİ TMK-lar .................436**
16.1. TMK-nm fəaliyyətinin sahədə ümumi təsviri ............................ 436
16.2. Özəl və dövlət TMK-sı .............................................................. 439
16.3. TMK-nm fəaliyyətinin qəbul edən ölkələr üçün nəticələri ......... 446
16.4. TMK-nm fəaliyyətinin dövlət tənzimlənməsinin zəruriliyi, normalar və üsullar ...................................................................... 451
*Xülasə* ................................................................................................ 456
*Yoxlama sualları* ............................................................................... 458
*Referatlann mövzuları* ...................................................................... 459

**Fəsil 17. KƏND TƏSƏRRÜFATI İSTEHSALINDA VƏ İNFRASTRUKTUR LAYİHƏLƏRİNDƏ TMK-lar: İNKİŞAF ETMƏKDƏ OLAN VƏ KEÇİD İQTİSADİYYATI ÖLKƏLƏRİ ......................................................460**
17.1. Dünyada ərzaqla təminatın ümumi vəziyyəti ............................. 460
17.2. Bəzi ölkələrin aqrar sektorunda birbaşa xarici investisiyaların artması ..................................................... 461
17.3. Podrat metodu .............................................................................. 466
17.4. Kənd təsərrüfatı istehsalında TMK-nm fəaliyyətinin xüsusiyyətləri ..................................................... 467
17.5. İEÖ-nin regional qarşılıqlı əlaqələrinin güclənməsi: «Cənub-Cənub» XBİ artımı ............................................................ 475
17.6. TMK-nm təsirinin xarakteri ........................................................ 476
17.7. TMK-nm infrastruktur layihələrində iştirakının ilkin ümumi şərtləri .................................................... 478
*Xülasə* ................................................................................................ 490
*Yoxlama sualları* ............................................................................... 492
*Referatlann mövzuları* ...................................................................... 493

**IV BOLMƏ**
**BEYNƏLXALQ MALİYYƏ SİSTEMİ:**
**VALYUTA-MALİYYƏ MÜNASİBƏTLƏRİ Fəsil 18. DÜNYA MALİYYƏ SİSTEMİ ..................................................................................496**
18.1. Dünya maliyyə sisteminin tərkibi, quruluşu və strukturu ........... 496
18.2. Ssuda kapitalının hərəkəti: dünya kapitallar bazarının institusional subyektləri ............................................ 501
18.3. Beynəlxalq kredit: təsnifatı ......................................................... 503

18.4. Maliyyə sistemlərinin tipləri ..... 507
18.5. Beynəlxalq maliyyə qurumları;
valyuta-kredit və maliyyə təşkilatlan ..... 510
18.6. Ümumdünya valyuta sisteminin təkamülü ..... 510
18.7. Bretton-Vuds valyuta sistemi (1944-1976-cı illər) ..... 515
18.8. Yamayka konfransı. Müasir valyuta sistemi ..... 517
18.9. Valyuta məzənnələri ..... 520
18.10. Valyutanın alıcılıq qabiliyyəti ..... 524
18.11. Valyutaların xassələri ..... 528
18.12. Ehtiyat valyutası ..... 530
18.13. Qızıl-valyuta ehtiyatlan ..... ' ..... 532
18.14. Maliyyə alətləri: bazarın mexanizmləri - derivativlər ..... 539
*Xülasə* ..... 554
*Yoxlama sualları* ..... 557
*Referatların mövzuları* ..... 558

**Fəsil 19. AVROPANIN MALİYYƏ SİSTEMİ ..... 559**
19.1. Avropa valyuta sisteminin (European Monetary Sistem)
təşəkkülünün çətin yolu ..... 559
19.2. AİB-in tədricən Avropa İttifaqına çevrilməsi, avroya keçid ..... 562
19.3. Avro və dollar müasir ümumdünya valyuta sistemində ..... 565
*Xülasə* ..... 571
*Yoxlama sualları* ..... 574
*Referatların mövzuları* ..... 574

**Fəsil 20. BEYNƏLXALQ BANKLAR VƏ MALİYYƏ MƏRKƏZLƏRİ ..... 575**
20.1. Transmilli banklar (TMB) ..... 575
20.2. Beynəlxalq Valyuta Fondu (BVF) ..... 577
20.3. Beynəlxalq Yenidənqunna və İnkişaf Bankı (BYİB)
yaxud Dünya Bankı (DB) ..... 588
20.4. Beynəlxalq İnkişaf Assosiasiyası (BİA) ..... 592
20.5. Beynəlxalq Maliyyə Korporasiyası (BMK) ..... 593
20.6. Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) ..... 595
20.7. Beynəlxalq Hesablaşmalar Bankı(BHB) ..... 597
20.8. İslam bankları ..... 599
20.9. Beynəlxalq maliyyə mərkəzləri: Nyu-York, London və Tokio ..... 603
20.10. Ofşor maliyyə mərkəzləri ..... 607
20.11. Beynəlxalq bank «pul»ları: Paris və London klubları ..... 612
*Xülasə* ..... 613

*Yoxlama sualları*...615
*Referatlann mövzuları*...615

Fəsil 21. DÜNYA QİYMƏTLİ KAĞIZLAR BAZARI:
FOND VƏ VALYUTA BİRJALARI...616
21.1. Dünya qiymətli kağızlar bazan valyuta bazarının bir hissəsi kimi...616
21.2. Birjalar...622
21.3. Fond bazarı və fond birjası...625
21.4. Beynəlxalq birjalar...633
21.5. Nyu-York Fond Birjası (NFB)...634
21.6. Amerika Fond Birjası (AFB)...635
21.7. Beynəlxalq fond birjaları...636
21.8. Tokio Fond Birjası (TFB)...636
21.9. London Fond Birjası (LFB)...638
21.10. London Beynəlxalq Maliyyə Fyuçersləri Birjası (LBMFB)...639
21.11. Birja fəaliyyətini tənzimləyən beynəlxalq təşkilatlar...640
21.12 Birja indeksləri...640
*Xülasə*...642
*Yoxlama sualları*...644
*Referatlann mövzuları*...645

V BÖLMƏ
BİM SİSTEMİNDƏ BEYNƏLXALQ TƏŞKİLATLAR Fəsil 22.
BEYNƏLXALQ TƏŞKİLATLARIN FƏALİYYƏTİNİN XÜSUSİYYƏTLƏRİ...647
22.1. Beynəlxalq əməkdaşlıq və iqtisadi münasibətlərin beynəlxalq-hüquqi tənzimlənməsi...647
22.2. Beynəlxalq iqtisadi təşkilatların təsnifatı...649
22.3. Beynəlxalq təşkilatların iqtisadi fəaliyyətinin ümumi təsviri...652
22.4. BMT və onun qurumları, əsas funksiyaları və vəzifələri...654
22.5. BMT-nin yaradılması...655
22.6. BMT Baş Məclisi (BMT BM) və onun əsas qurumları...661
22.7. BMT-nin əsas təşkilatlarının və qurumlarının fəaliyyəti...666
22.8. BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı (UNCTAD)...670
22.9. BMT sisteminin tərkibinə daxil olmayan beynəlxalq təşkilatların fəaliyyəti...683
22.10. Avropa Şurasının, Britaniya Millətlər Birliyi (BCN), Şimal Əməkdaşlığı (NC), Avropada Təhlükəsizlik və Əməkdaşlıq

Təşkilatının (OSCE), «İslam Konfransı» Təşkilatının (OIC) fəaliyyətinin xüsusiyyətləri ........ 695
22.11. Beynəlxalq Əmək Təşkilatı ........ 701
22.12. Bazarın ayrı-ayrı seqmentlərində fəaliyyət göstərən beynəlxalq dövlətlərarası təşkilatlar ........ 705
22.13. Beynəlxalq valyuta-kredit və maliyyə-iqtisad təşkilatları ........ 706
*Xülasə* ........ 707
*Yoxlama sualları* ........ 712
*Referatlarin mövzuları* ........ 713

**Fəsil 23. ÜMUMDÜNYA TİCARƏT TƏŞKİLATI (ÜTT) VƏ ƏLAQƏDAR TƏŞKİLATLAR ........ 714**
23.1. Tariflər və Tiearət üzrə Baş Saziş Təşkilatı (GATT) ........ 714
23.2. Ümumdünya Ticarət Təşkilatı (ÜTT) ........ 717
23.3. 1994-cü il Tariflər və Ticarət üzrə Baş Saziş - Uruqvay raundu ...721
23.4. Xidmətlər sahəsində Ticarət üzrə Baş Saziş (GATS - The General Agreement on Trade in Services) ........ 725
23.5. Beynəlxalq ticarət sistemi ........ 728
23.6. Beynəlxalq Ticarət Palatası (BTP) ........ 729
*Xülasə* ........ 730
*Yoxlama sualları* ........ 731
*Referatlarm mövzuları* ........ 732

**VI BÖLMƏ**
**XXI ƏSRDƏ BƏŞƏRİYYƏTİN QLOBAL PROBLEMLƏRİ**
**Müasir qlobal problemlərin təsnifatı ........ 735**

**Fəsil 24. QLOBAL YOXSULLUQ VƏ DÜNYADA ƏRZAQ BÖHRANI ........ 740**
24.1. Qlobal yoxsulluq probleminin anlayışı, mahiyyəti vəməzmunu ...740
24.2. Yoxsulluq necə ölçülür? Todaro modeli ........ 744
24.3. Gəlirlərin bölgüsü ilə qeyri-bərabərlik arasındakı əlaqə ........ 745
24.4. Qlobal yoxsulluq probleminin anlayışı, mahiyyəti vəməzmunu ...755
*Xülasə* ........ 764
*Yoxlama sualları* ........ 767
*Referatlarm mövzuları* ........ 768

**Fəsil 25. QLOBAL EKOLOJİ BÖHRAN ........ 769**
25.1. Mahivvəti. formalasmasının səbəbləri ........ 769

25.3. Ekoloji problemlər inkişaf etməkdə olan
ölkələrin tərəqqisini ləngidir ........ 772
25.4. Yerin təbii resurslarının qorunması ........ 773
25.5. Qlobal ekoloji problemlər qlobalyanaşma tələb edir ........ 776
25.6. Dayanıqlı inkişaf ........ 777
*Xülasə* ........ 781
*Yoxlama sualları* ........ 783
*Referatlarm mövzuları* ........ 784

**Fəsil 26. SÜLHÜN QORUNMASI, NÜVƏ MÜHARİBƏSİNİN VƏ SİLAHLI MÜNAQİŞƏLƏRİN QARŞISININ ALINMASI 785**
26.1. Problemin qoyuluşu ........ 785
26.2. Tərksilah iqtisadiyyatı problemi baxımından beynəlxalq
əməkdaşlıq ........ 793
26.3. Konversiya və dövlətin iqtisadi sağlamlaşdırılması ........ 794
26.4. Qlobal müharibə ehtimalı ilə müşayiət olunan hərbi
və başqa təhdidlərin təsnifatı ........ 796
*Xülasə* ........ 800
*Yoxlama sualları* ........ 802
*Referatlarm mövzuları* ........ 802
**Ədəbiyyat ........ 803**

# Qəbul edilmiş ixtisarlar

## Təşkilatlar

**AATA** - Avropa Azad Ticarət Assosiasiyası (EFTA - European Free Trade Assosiation)

**Aİ** - Avropa İttifaqı (EU - European Union)

**AİB** - Avropa İqtisadi Birliyi (EEC - European Economic Community)

**AK** - Avropa Komissiyası (EC - European Commission)

**AMB** - Avropa Mərkəzi Bankı (ECB - European Central Bank)

**APEC** - Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatı (APEC - Asia-Pacific Economic Cooperations)

**ASEA>(** - Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyası (ASEAN - Association of South East Asia Nations)

**BƏT** - Beynəlxalq Əmək Təşkilatı (ILO - International Labour Organization)

**BHB** - Beynəlxalq Hesablaşmalar Bankı (BIS - Bank for International Settlements)

**BMT** - Birləşmiş Millətlər Təşkilatı (UNO - United Nations Organization)

**BRICS** - inkişaf etməkdə olan beş ölkədən: Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrikadan ibarət qrup (BRICS - Brazil, Russia, India, China, South Afirica)

BTP-Beynəlxalq Ticarət Palatası (ICC - International Chamber of Commerce)

**BVF** - Beynəlxalq Valyuta Fondu (IMF - International Monetary Fund)

**BYİB** - Beynəlxalq Yenidənqunua və İnkişaf Bankı (IBRD - International Bank for Reconstruction and Development)

**DB** - Dünya Bankı (WB - World Bank)

**ECOSOC** - BMT-nin İqtisadi və İctimai Şurası (ECOSOC - United Nations Economic and Social Counsil)

**GATT** - Ticarət və Tariflər üzrə Baş Saziş (GATT - General Agreement on Tariffs and Trade)

**İƏİT** - İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD - Organization for Economic Co-operation and Development)

**İƏT** - Avropa İqtisadi Əməkdaşlıq Təşkilatı (OEEC - Organization for the European Economic Co-operation)

**İTA** - İnvestisiyaların Təşviqi üzrə Agentlik (IPA - Investment Promotion Agency)

**İVB** - İqtisadi və Valyuta Birliyi (EMU - Economic and Monetary Union)

**MERCOSUR** - Cənub Konusu Ümumi Bazarı (MERCOSUR - The Common Market of the Southenu Cone)

**NAFTA** (North American Free Trade Agreement) - Şimali Amerika Azad Ticarət Zonası

**UNCTAD** - BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı (UNCTAD - United Nations Conference for Trading and Development)

**UNDP** - BMT-nin İnkişaf Proqramı (UNDP - United Nations Development Programme)

**UNECE** - BMT-nin Avropa İqtisadi Komissiyası (UNECE - United Nations Economic Commissions for Europe)

**UNIDO** - BMT-nin Sənaye İnkişafı Təşkilatı (UNIDO - United Nations Industrial Development Organization).

**ÜST** - Ümumdünya Səhiyyə Təşkilatı (WHO - World Health Organization)

**ÜTT** - Ümumdünya Ticarət Təşkilatı (WTO - World Trade Organization)

## Terminlər

**ÜDM** - Ümumi Daxili Məhsul (GDP - Gross Domestic Product)

**ÜMM** - Ümumi Milli Məhsul (GNP - Gross National Product) **iiS** - İkitərəfli İnvestisiya Sazişi (BİT - Bilaterial Investment Treaty) **İVAQM** - İkiqat Vergitutmanm Aradan Qaldırılması Müqaviləsi (DTAA - Double Tax Avoidance Agreement)

**STZ** - Sərbəst Ticarət Zonası (FTZ - Free TradeZone)

**QRQİ** - Qlobal Rəqabət Qabiliyyəti İndeksi (GCI — Global Competitivness Index)

**İKT** - İnfonuasiya-Kommunikasiya Texnologiyaları (ICT - Infonnation and Communications Technology)

DDM - Dünya üzrə Daxili Məhsul (CWP - Gross World Prodcut)

BİS - Beynəlxalq İnvestisiya Sazişləri (IIA - International Investment Agreement)

BƏK - Beynəlxalq Əmək Kooperasiyası (ILC - International Labour Cooperation)

BQHT - Beynəlxalq Qeyri-Hökumət Təşkilatları (INGO - International Non-Govemmental Organization)

BƏB - Beynəlxalq Əmək Bölgüsü (IDL - International Division of Labor)

BİM - Beynəlxalq İqtisadi Münasibətlər (lER - International Economic Relations)

Bİİ - Beynəlxalq İqtisadi İnteqrasiya (lEI - International Economic Integration)

MG - Milli Gəlir (N1 - National Income)

YSÖ - Yeni Sənaye Ölkələri (NIC - New Industrial Countries)

ETTKİ - Elmi-Tədqiqat və Təcrübə-Konstruktor İşləri (R&D Research and Development)

İRY - İnkişaf üçün Rəsmi Yardım (ODA - Official Development Assistance)

XBİ - Xarici Birbaşa İnvestisiyalar (EDI - Foreign Direct Investment) AQP - Alıcılıq Qabiliyyəti Pariteti (PPP - Purchasing Power Parity) VAQP - Valyutaların Alıcılıq Qabiliyyəti Pariteti (CPPP - Currenc Purchasing Power Parity)

RTS - Regional Ticarət Sazişləri (RTAs - Regional Trade Agreements)

XBH - Xüsusi Borclanma Hüquqları (SDR - Special Drawing Right)

QƏ - Qovuşmalar və Əldəetmələr (M&A - Merges and Acquisitions)

MHS - Milli Hesablar Sistemi (NAS - National Accounts System)

XİZ - Xüsusi İqtisadi Zona (SEZ - Special Economic Zone)

TMB - Transmilli Banklar (TNB - Transnational Banks)

TMK - Transmilli Korporasiyalar (MNC - Multinational Corporations) MSQ - Maliyyə-Sənaye Qmpları (FIG - Financial Industrial Groups) İVB - İqtisad və Valyuta Birliyi (EMU - Economic and Currency Union)

İB - İqtisadi Birlik (EU - Economic Union)

ZİÖ - Zəif inkişaf etmiş ölkələr (LDC - Least Developed Countries)

# U M U M I   X Ü L A S Ə

Kitab həm «Beynəlxalq İqtisadi Münasibətlər» fənni üzrə müstəqil dərslik, həm də «Dünya İqtisadiyyatı» kursunun davamı kimi nəzərdən keçirilə bilər.

Kitab altı bölmə və 26 fəsildən ibarətdir.

**I Bölmə:** «Beynəlxalq iqtisadi münasibətlərin nəzəriyyəsi» BİM-in kateqoriyalarının və anlayışlarının təhlilinə, istehsal amillərinin beynəlxalq hərəkəti predmetinin tədqiqi metodologiyası və formalaşması məsələlərinə, habelə BİM-in ənənəvi və müasir nəzəriyyələrinə həsr olunmuş iki fəsildən ibarətdir.

**II Bölmə:** «Müasir beynəlxalq ticari-iqtisadi münasibətlər və dünya ticarət siyasəti» on fəsildən ibarətdir. Burada beynəlxalq ticarətin inkişafında ümumi və yeni təzahürlərin, o cümlədən əsas iqtisadi güc mərkəzləri arasında əmtəə axınlarının, onların nisbətlərinin dəyişməsi dinamikasının, Asiya, Afrika, Latın Amerikası ölkələrinin, Rusiya və MDB-nin tiearət əlaqələrinin təhlili verilir.

**III Bölmə:** «Kapitalın beynəlxalq yerdəyişməsi və TMK-nm fəaliyyəti - beynəlxalq sahibkarlıq» beş fəsildən ibarətdir. Bura dünya təsərrüfatının müxtəlif sahələrində fəaliyyət göstərən güclü transmilli korporasiyaların işinin əsas məsələləri; TMK fenomeninin nəzəri aspektləri, onların dünya və milli iqtisadiyyatlardakı rolu; müxtəlif sahələrdə və bir çox ölkələrdə fəaliyyətinin nəticələri açıqlanır. Burada həmçinin, kapitalın XBİ vasitəsilə beynəlxalq yerdəyişməsi, əmək resurslarının beynəlxalq hərəkəti təhlil olunur. Göstərilir ki, TMK və TMB dünya iqtisadiyyatının əsas subyektləri, dünya iqtisadiyyatının maliyyə cəhətdən qloballaşmasının amilləridir; onların əməliyyatları, xüsusilə də dünyada baş verən böhran şəraitində daha ciddi milli nəzarətə möhtacdır.

**IV Bölmə:** «Beynəlxalq maliyyə sistemi: valyuta-maliyyə münasibətləri» dörd fəsildən ibarətdir. Burada dünya iqtisadiyyatının altsistemi kimi, müasir dünya maliyyə sisteminin əsas elementləri, onların fəaliyyəti və əsas qurumları nəzərdən keçirilmişdir.

**V Bölmə:** «BİM sistemində beynəlxalq təşkilatlar» iki fəsildən ibarətdir. Burada ümumdünya əməkdaşlığının və dünya təsərrüfatı münasibətlərinin

tənzimlənməsinin təşkilində mühüm vəzifələri yerinə yetirən müxtəlif tip beynəlxalq təşkilatların fəaliyyəti təsvir olunur. Malların və xidmətlərin, investisiyaların, əmək resurslarının hərəkəti sahəsində beynəlxalq əməkdaşlığa, mülkiyyət münasibətlərinə, hüquqi tənzimləməyə mühüm təsir göstərən BMT-nin əsas maliyyə, iqtisadi və hüquqi idarələrinin, Bretton-Vuds qurumlarının və başqa təşkilatların işinin əsas istiqamətləri göstərilmişdir.

**VI Bölmə:** «XXI əsrdə bəşəriyyətin qlobal problemləri» üç fəsildən ibarətdir və əsasən cəmiyyətin yoxsulluq (yoxsulluq anlayışı və onun ölçülməsi üsulları nəzərdən keçirilir), ekoloji böhran, silahlı münaqişələr və. nüvə müharibəsi təhlükəsi kimi problemlərinə həsr olunmuşdur.

Tədris nəticəsində tələbə;

• ümumilikdə dünya iqtisadiyyatının nəzəriyyəsini və metodologiyasını, habelə müxtəlif ölkələrin, xüsusilə də dünyanın aparıcı dövlətlərinin milli iqtisadiyyatlarını; dünya bazarının və onun müxtəlif seqmentlərinin funksiyalarını və təşkilini; insan, cəmiyyət və şirkət, müxtəlif ölkələrin sakinləri, insan və ətraf mühit arasındakı münasibətləri **bilməlidir;**

• müxtəlif ölkələrdən olan tərəfdaşlarla danışıqlar aparmağı, müqavilə və sazişlərin (investisiyalar, icarə, ticarət və s. məsələlər üzrə) layihələrini hazırlamağı; sahibkarlığın inkişafının korporativ proqramları əsasında müxtəlif şəraitdə və ölkələrdə obyektlərin təşkili və idarə olunmasının fərqli variantlarını işləyib hazırlamağı, istehsal, iqtisadi və sosial səmərəlilik meyarları üzrə onların seçimini əsaslandırmağı **bacarmalıdır;**

• dünya bazarlarında yaranan konyunkturanın təhlili və qiymətləndirilməsi metodlarına **yiyələnməli,** onlardan həm nəzəriyyədə, həm də praktikada, o cümlədən fond bazarlarında, müxtəlif əmtəə qruplarının və xidmətlərin qiymətinin müəyyənləşdirilməsində uğurla istifadə etməli; əldə olunmuş biliklərdən və xarici təcrübədən ölkəmizdəki iqtisadi fəalİ3q/ətin müxtəlif sahələrinin təkmilləşdirilməsi üçün yararlanmalıdırlar.

# I Bölmə

# BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRİN NƏZƏRİYYƏSİ

# Fəsil 1

# BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRİN (BİM) ANLAYIŞLARI, KATEQORİYALARI VƏ MƏZMUNU

## 1.1. BİM-in əsas kateqoriyaları, onların məzmunu

ümumi şəkildə götürüldükdə, ***BİM*** ölkələr arasında beynəlxalq əməkdaşlığı və onun tənzimlənməsini təmin edən təsərrüfat-istehsal, ticari-iqtisadi, maliyyə, elmi-informasiya və insani münasibətlər sistemidir. Beləliklə, BİM-in predmeti istehsal amillərinin milli sərhədləri aşması və digər proseslər zamanı meydana çıxan, bununla da ***beynəlxalq əmtəə*** yaradan iqtisadi münasibətlərdir. Bu münasibətlər təkcə malların və xidmətlərin hərəkəti ilə deyil, həmçinin, əqli əmək məhsullarının yerdəyişməsi, maliyyə axınları, əmək miqrasiyası, insanların işgüzar səfərlər və turist səyahətləri, beynəlxalq qİ3onətlərin müəyyənləşdirilməsi, TMK-nın, inteqrasiya qruplarının fəaliyyəti ilə əlaqədardır.

Beləliklə, söhbət ən müxtəlif beynəlxalq iqtisadi-maliyyə və digər münasibətlər və qarşılıqlı əlaqələrdən gedir, onların məcmusu isə dünya bazarını təşkil edir. Bu əlaqələr və münasibətlər dövlətlərin, beynəlxalq təsərrüfat-maliyyə və başqa sahələrin nizama salınması (tənzimlənməsi), xarici və be3məlxalq iqtisadi münasibətlərlə bağlı əlaqələrin inkişaf etdirilməsi və (və ya) buna yardım göstərilməsi ilə məşğul olan beynəlxalq təşkilatların, fınna və bankların, hüquqi və fiziki şəxslərin bir-birinə qarşılıqlı təsiri nəticəsində formalaşır. Belə halda müasir dövrün qlobal problemləri əməkdaşlığın xüsusi sahələrini müə3^ənləşdirir.

Britaniyanın «Makmillanm müasir iqtisadi nəzərij/yə lüğəti»ndə beynəlxalq iqtisadi münasibətlər (international economics) nəzəriyyəsi «iqtisadi nəzəriyyənin ölkələr arasında malların və xidmətlərin alqı-satqısı, maliyyə axınları və istehsal amillərinin yerdəyişməsi sahəsində əməliyyatları öyrənən bölməsi»* kimi müəyyənləşdirilmişdir. Görünür ki, Makmillan lüğətinin tərtibatçıları professor H.S.Qruber tərəfindən ifadə olunmuş açıqlamanı mövcud olanlar içərisində ən uğurlu hesab etmişlər. Sonra anlayış

^ Словарь современной экономической теории Макмиллана / под общ. ред. Д.У.Пирса. М., 1997. С. 252.

bu cür təfsir olunur: «O (yəni nəzəriyyənin bir hissəsi - ***R.X.),*** adətən iki fənn sahəsinə bölünür: xalis nəzəriyyə və pul nəzəriyyəsi. Bunlardan birincisi öz diqqətini ticarətdən faydalar (gains from trade), ticarət şərtləri (tenus of trade), ticarətin strukturu və s. kimi real kəmiyyətlər, ikincisi isə valyutaların məzənnələrinin (exchange rate) və tədiyyə balansının (balance of payment)' tarazlığının tənzimlənməsi mexanizmlərinin (adjusment mechanizm) müəyyənləşdirilməsi üzərində cəmləşdirir. BİM-in bu cür müəyyənləşdirilməsi və təfsiri onun məzmununu, əsas istiqamətlərini və formalarını kifayət qədər dolğun ifadə edir. Bu, həmçinin, İngiltərə-Amerika elmi və tədris ədəbiyyatında BİM- in əsas məsələlərinə necə yanaşıldığı barədə təsəvvür yaradır.

BİM öyrənilərkən bir sıra prinsipal məqamları fərqləndinnək vacibdir.

1. BİM nəzəri fənn kimi, ümumi iqtisadi nəzəriyyənin və ya siyasi iqtisadın bölmələrindən biridir. Müasir formaları (beynəlxalq ticarət istisna olunmaqla) dünya iqtisadiyyatının inkişafının yalnız yetkin mərhələlərində - XX əsrdə sistem şəklində formalaşdığına görə, BİM nəzəriyyələri nisbətən gec inkişaf etməyə başlamışdır.

2. BİM nəzəriyyəsi dünya iqtisadiyyatı nəzəriyyəsinin bünövrəsi üzərində qurulmuşdur, onunla sıx əlaqədardır və buna görə də bir sıra məfhum kateqoriyaları biliklərin bu sahələri üçün ümumidir (bu, beynəlxalq iqtisadiyyat təmayüllü əlaqədar tədris fənlərinə də şamildir).

3. Bu səbəbdən «bazisin» və ya özünəməxsus platformanın (yəni dünya iqtisadiyyatının) strukturunda baş verən proseslər dərhal «üstqurumda» (yəni BİM-də) öz əksini tapır. Eynilə BİM sistemindəki dəyişikliklər dünya iqtisadiyyatında təzahür edir.

4. BİM-in bütün formaları qeyri-adi dinamikliyə malik sistemdir. Adətən, dünya iqtisadİ3^atmdakı dəyişikliklərlə (böhran, tənəzzül yaxud artım), maliyyə axınlarının hərəkətinin dinamikası, valyuta məzənnələrinin tərəddüdü ilə əlaqələndirilən bütün hadisələr dərhal BİM-də əks olunur və yalnız bundan sonra dünya iqtisadiyyatının strukturları (o cümlədən dünya bazarları) üzərinə «keçir».

5. Sonuncu məqam milli, xüsusilə də aparıcı ölkələrin iqtisadiyyatında gedən qloballaşma əsrində dövlət sərhədlərini aşan proseslərin dinamikası ilə əlaqədardır. Ən ümumi şəkildə BİM (bazar agentləri - şirkətlər, banklar, birjalar və s. onun fonnaları çərçivəsində fəaliyyət göstərirlər) həm pozitiv

^ *Grubel H.C.* International Economics, revised edn. Irvin, Yomewood, Illinois, 1981.

(məsələn, artım şəraitində), həm də dağıdıcı (tənəzzül və böhranlı enmə dövrlərində) proseslərin daşıyıcısı qismində çıxış edir. Eyni zamanda BİM sahələrində bütövlükdə dünya iqtisadiyyatında sabitliyi təhdid edən *vəziyyətlərin* idarə olunması üzrə konkret *əməliyyatlar* yerinə yetirilir.

***BİM-in predmeti.*** Beynəlxalq iqtisadi münasibətlərin əsas formaları və istiqamətləri, bütöv sistem kimi, BİM-in predmeti qismində çıxış edir. BİM vasitəsilə milli əmtəə axınlarının transfonuasiyası (istehsal amillərinin beynəlxalq hərəkəti) baş verir, vahid dünya bazarı və sahələr üzrə malların, xidmətlərin, kapitalların, işçi qüvvəsinin, texnologiyaların və s. beynəlxalq bazarları fəaliyyət göstərir.

***BİM-in obyekti.*** BİM-in obyekti, əsas etibarilə, milli bazarlarda mövcud olan mallar, xidmətlər, kapitallar və əqli əmək məhsullarıdır. Lakin onlar burada *halım dəyişmiş formada, yəni «kağızlarda»* təmsil olunduğuna görə, *«fiziki iştirak»* etmir, özü də dünya bazarlarında abstraktlaşma səviyyəsi son dərəcə yüksəkdir. Bundan başqa, beynəlxalq əməkdaşlıq və dünya təsərrüfatında yaranan vəziyyətlərin beynəlxalq tənzimlənməsi sahələrində baza münasibətləri də BİM-in obyekti kimi çıxış edir.

**Ölkələrin təsərrüfat əlaqələrində beynəlmiləlləşmə proseslərinin təsiri, beynəlxalq əmək bölgüsü, beynəlxalq kooperasiya.** Tarixən ilkin kapitalist münasibətlərinin milli sərhədlərdən kənara «çıxması» Böyük Coğrafi Kəşflər - Yeni Dünyanın (1500-cü ildə Kolumbun Cənubi Amerika sahillərinə üçüncü səyahəti), Avropadan Hindistana yolların kəşf edilməsi. Afrikanın müstəmləkəyə çevrilməsi dövrünə təsadüf edir. Sonrakı 500 il ərzində ölkələrarası təsərrüfat əlaqələrinin intensivləşməsi nəticəsində XIX əsrin sonu - XX əsrin başlanğıcında dünya təsərrüfatı formalaşmışdır. XX əsrdə elmin, texnikanın və texnologiyaların sürətlə tərəqqisi nəticəsində beynəlmiləlləşmə prosesləri dinamik surətdə inkişaf edirdi. İqtisadi və maliyyə beynəlmiləlləşməsi prosesləri ölkələrin, regionların beynəlxalq və qarşılıqlı asılılığının, müxtəlif ölkələrin bazarlarında fəaliyyət göstərən subyektlərin (firmaların) təsərrüfat əlaqələrinin güclənməsinə təsirini göstənnişdir. İstər- istəməz beynəlxalq tiearətin və təsərrüfat-maliyyə münasibətlərinin vahid qaydalarını qəbul edən milli iqtisadiyyatların get-gedə açılınası dünyanın əksər ölkələrini, hətta özünün ifrat dərəcədə möhkəm avtargiya rejimini saxlamağa səy göstərən Şimali Koreya tipli dövlətləri beynəlxalq əmək bölgüsünün yeni sxemlərinin formalaşmasına cəlb etmişdir.

Lakin iqtisadi həyatın beynəlmiləlləşməsinə yönəlmiş bu universal meyil bəzən, xüsusən də, müxtəlif daxili (tsiklik enmələr) və xarici (siyasi vəziyyətin kəskinləşməsi, regional silahlı münaqişələr və s.) səbəblərin təsiri altında dünya təsərrüfatının ümumi vəziyyətinin pisləşməsi üzündən əks-meyillərlə kəsilir (qısa müddətə olsa da). Lakin təkrar edək: dövlətlərin ümumi mənafelərinin mövcudluğu nəticəsində bu qısamüddətli meyillər dayanır və bu zaman beynəlmiləlləşmənin qlobal prosesləri tam gücü ilə işləməyə başlayır.

Təsərrüfatın beynəlmiləlləşməsi özünü aşağıdakı formalarda büruzə verir:

- iqtisadi inkişaf proseslərinin bir dövlətin hüdudlarından kənara çıxması;
- BƏB-in istehsal, texnoloji, maliyyə münasibətlərinin və müxtəlif dövlətlər arasında qarşılıqlı əlaqələrin dərinləşməsinə aparan yeni mərhələsi;
- bunun əsasında istehsalın beynəlxalq ixtisaslaşmasının və kooperasiyasının formalaşması;
- dünya əmtəə bazarlarının, kapital bazarlarının, işçi qüvvəsi bazarlarının formalaşması;
- qlobal nəqliyyat infrastrukturunun, boru kəmərlərinin formalaşması;
- vahid informasiya məkanının yaradılmasına aparan meyillərin güclənməsi.

***BİM-in əsas əlamətləri.*** Müasir BİM-in təməlində əsasən istehsal amillərinin yüksək dərəcədə inkişafı, yəni elmi-texniki tərəqqinin birbaşa təsiri nəticəsində (bütövlükdə dünya təsərrüfatında olduğu kimi) əmək bölgüsü prosesləri durur. BİM sistemi dünya iqtisadiyyatı əsasında, lakin ondan bir qədər «geridə qalmaqla» inkişaf edirdi və bu, beynəlxalq münasibətlərin vasitəçi xarakteri ilə izah olunur.

BİM-in əsas əlamətləri yaxud xüsusiyyətləri ən ümumi şəkildə aşağıdakı kimi təsvir oluna bilər:

- BİM-də istehsal amilləri beynəlxalq formada çıxış etsələr də, əmtəə milli bazarlarla birgə müəyyən müstəqil kəmiyyət formasında mövcud olan dünya bazarına çıxarılınır. Əmtəə konkret ölkədə istehsalın nəticəsi qismində deyil, dünya bazarında tələb və təklifin obyekti kimi nəzərdən keçirilir. Başqa sözlə, əmtəə müvafiq «kağızlarda» təsbit olunur və burada beynəlxalq bazarlarda abstraktlaşma səviyyəsi dəfələrlə yüksəlir;
- dünya bazarları milli bazarlarla müqayisədə nəzərəçarpan dominant

mövqe tutmağa başlayır və onlara güclü təsir göstərir. Burada tələb və təklif qanunları milli bazarlarla müqayisədə daha aydın fomıalarda təzahür edir (xüsusilə də inkişaf etmiş dövlətlərin dar dairəsindən kənarda qalan dünyanın əksər ölkələrindən söz getdikdə);

• BİM-in başqa xüsusiyyəti, bazar subyektlərinin beynəlxalq sahədə rəqabət mübarizəsinin milli bazarlarda olduğundan daha «qəddar olması» ilə fərqlənir. Bununla yanaşı, burada bazarlar obyektiv olaraq həddən artıq liberaldır, rəqabət mexanizmi isə daha sərbəst fəaliyyət göstərir. Deməli, beynəlxalq qiymətqoyma prosesi də, bazarın kortəbii rəqabət əsaslarının daha güclü təsirinə məruz qalır;

• beynəlxalq əmtəə və pul bazarlarında yeni meydana çıxan xüsusiyyətlərdən biri - BİM-in tənzimlənməsi mexanizmlərindəki pozuntular nəticəsində ehtikarçıhq ünsürlərinin, o cümlədən iri subyektlərin maksimum qazanc əldə etmək üçün istifadə etdikləri çoxsaylı üsulların mövcud olduğu ayrı-ayrı formalarının güclü inkişafıdır;

• BİM-in institusional mexanizmlərinin yaradılması milli təsərrüfatçılıq sistemlərinin qarşılıqlı təsirinin get-gedə mürəkkəbləşən fonualarınm tələblərini əks etdirir. Onların yaradılmasının əsasında ikili məqsəd - qarşılıqlı və beynəlxalq əməkdaşlığı və müəyyən sahələrin beynəlxalq səviyyədə tənzimlənməsini gücləndirmək dururdu. Əmək bölgüsü və elmi-texniki tərəqqi prosesləri mürəkkəbləşdikcə, bu mexanizmlər və institutlar daha da şaxələnir və müxtəlifləşirdi. Bunun nəticəsində BİM sistemi təşkilatların və idarələrin səciyyəvi, getdikcə genişlənən xüsusi infrastrukturuna malikdir. Bu genişlənmə, bir qayda kimi, BİM sahəsində siyasətin yeni elementlərinin işlənib hazırlanması üçün beynəlxalq qurumların yaradılması vasitəsilə baş verir;

• BİM-in yeni xassələrə malik obyektlərinin meydana çıxması, kapitalın və işçi qüvvəsinin hərəkəti, TMK-nm fəaliyyəti, elmi-texniki informasiya və biliklərlə mübadilə və s. sahələrdə yaranan inteqrasiya qrupları çərçivəsində onun regional altsistemlər kimi fornıalarımn inkişafını şərtləndirmişdir;

• BİM-in iqtisadi və siyasi problemlərin get-gedə daha çox qovuşması kimi xassəsi fonnalaşır, BİM-də siyasi amilin rolunun yüksəlməsi prosesi səbatlı olaraq davam edir;

• ətraf mühit ilə insan fəaliyyəti arasında qlobal ziddiyyətlərin güclənməsi prosesinin əksi kimi, ekologiyalaşma BİM-in mühüm xassəsinə

çevrilmişdir. Fəaliyyətin bu sahəsi müasir dövrdə xüsusi aktuallıq kəsb etməyə başlamışdır.

## 1.2. BİM-in subyektləri. Quruluşu və strukturu

Beynəlxalq iqtisadi münasibətlərin subyektləri qismində aşağıdakılar çıxış edir:

- dövlətlər və onların rəsmi qurumları;
- ölkələrin inteqrasiya qrupları (Aİ-27, NAFTA, MERCOSUR, MDB, ASEAN və s.);
- universal xarakterli beynəlxalq maliyyə-iqtisadi idarələr (BMT-nin strukturları);
- dövlətlərarası təşkilatlar;
- çoxtərəfli xarakter daşıyan beynəlxalq maliyyə-iqtisadi və başqa qurumlar (BVF, ÜTT, BHB (Bazel), ÜTT);
- BTP, BƏT;
- qeyri-rəsmi maliyyə-iqtisadi təşkilatlar (Paris Bankı, London Bankı);
- regional dövlətlərarası qruplar çərçivəsində fəaliyyət göstərən qurumlar (Aİ-nin Mərkəzi Bankı və s.);
- dövlətlərin rəsmi şəxslərinin iştirak etdiyi qeyri-rəsmi qeyri-hökumət təşkilatları «Group-8» (G-8), «Group-20» (G-20), Davos İqtisadi Forumu və s.);
- transmilli korporasiyalar və banklar, özəl şirkətlər, öz ölkələrindən kənarda ticari-iqtisadi fəaliyyətlə məşğul olan təşkilatlar və fiziki şəxslər;
- QHBT (qeyri-hökumət beynəlxalq təşkilatları)

***BİM-in təşkilati quruluşu və strukturu.*** BİM sistemi özünün altsistemlərinin, müxtəlif qurumlarının və idarələrinin tərkibi baxımından mürəkkəb quruluşa malikdir. Onun strukturu sxematik olaraq 1.1 şəklində təsvir edilmişdir.

1.1 şəklindəki sxem kifayət dərəcədə şərti xarakter daşısa da, BİM-in dünya iqtisadiyyatına əsaslanan, dünya siyasəti və beynəlxalq siyasi münasibətlərlə sıx əlaqədar olan mürəkkəb sistem olması barədə təsəvvür yaradır. Sxemə «Ətraf mühit» baza elementinin daxil edilməsində XXI əsrin reallıqları, bu sahənin müasir bəşəriyyət üçün həyati əhəmiyyət kəsb etməyə başlaması əks olunur.

***BİM-in vəzifələri və funksiyaları.*** BİM-in vəzifəsi, ilk növbədə, milli

iqtisadiyyatların nizama salınmış qaydada dünya təsərrüfatı sisteminə «daxil edilməsi» vasitəsilə dünya iqtisadiyyatına təsir göstənnəkdir. Özü-özlüyündə milli təsərılifat sistemləri avtomatik olaraq vahid dünya təsərrüfatını fonnalaşdıra bilməz: bunun üçün onları, birincisi, dünya bazarları, ikincisi isə, BİM-in subyektləri olan başqa dövlətlərlə birləşdirən müəyyən institusional əlaqələrin mövcudluğu vacibdir. Bunun üçün BİM subyektlərinin konkret əməkdaşlıq orqanları vasitəsilə xarici əlaqələrin müəyyən sahəsini tənzimləyən qurumlarının çevik fəaliyyəti tələb olunur.

## 1.3. BİM-in formaları və istiqamətləri

Uzun müddət ərzində BİM-in fomıalan kifayət qədər dayanıqlı olmuş və əmtəələrlə beynəlxalq ticarət, bu ticarət ətrafında pul əməliyyatları, habelə iş axtaran insan axınlarının hərəkəti ilə məhdudlaşmışdır. Beynəlxalq əmək bölgüsü, elm və texnikanın tərəqqisi, istehsal və mübadilə proseslərinin mürəkkəbləşməsi, mütərəqqi beynəlxalq iqtisadi əlaqələrin yeni fonualarınm və istiqamətlərinin daim artması ən müasir BİM sisteminin formalaşmasına imkan yaratmışdır. Şərti olaraq bu formaları aşağıdakı kimi ifadə etmək mümkündür:

- ayrı-ayrı ölkələrin xarici iqtisadi əlaqələri (münasibətləri);
- beynəlxalq ticarət və beynəlxalq ticarət siyasəti;
- mallar və xidmətlərlə beynəlxalq ticarət, ümumdünya ticarət siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi;
- biliklər və elmi-texniki infonuasiya ilə beynəlxalq mübadilə;
- kapitalın beynəlxalq yerdəyişməsi (hərəkəti), TMK-nm və TMB-nin fəaliyyəti;
- milli təsərrüfat sistemləri əsasında regional inteqrasiya qruplarının səciyyəvi formalarının inkişafı;




*Şəkil 1.1.* **Beynəlxalq iqtisadi münasibətlərin quruluşu və strukturu**

- istehsal amillərinin hərəkətinin beynəlxalq qiymət tənzimlənməsi;
- ölkələr arasında valyuta-maliyyə və kredit əlaqələri, onların tənzimlənməsi;
- BİM-in müxtəlif formalarının fəaliyyətinin əsas tənzimləyiciləri qismində beynəlxalq iqtisadi təşkilatlar sistemi;
- müasir dövrün qlobal problemlərinin həllində ayrı-ayrı dövlətlərin və beynəlxalq təşkilatların fəaliyyəti.

Qeyd edək ki, ayrı-ayrı təhlilçilər BİM-in fonualarımn və istiqamətlərinin müxtəlif toplusunu müəyyən etsələr də, onların əsası *təqribən eyni tiplidir* və bizim təklif etdiyimizə uyğundur; fərq yalnız məqamlarda və ayrı-ayrı ifadələrdədir.

Həm dünya iqtisadiyyatının, həm də BİM-in foiTnalarınm öyrənilməsində «baza materialı» qismində ayrı-ayrı ölkələrin və onların qruplarının iqtisadiyyatları, iqtisadi və siyasi hərəkətləri çıxış edir. Lakin BİM-in dünya iqtisadiyyatından prinsipcə fərqi bundadır ki, onun obyekti qismində iqtisadiyyatın (milli, regional, ümumdünya) özü deyil, *ölkələrin iqtisadi münasibətləri,* onların bu sahədə bir-birinə qarşılıqlı təsiri; *iki başlıca* strateji istiqamətdə - ikitərəfli və çoxtərəfli əməkdaşlıq fonuasmda və müxtəlif fəaliyyət sahələrinin yaxud məsələlərin ikitərəfli və çoxtərəfli tənzimlənməsi fonuasmda fəaliyyətlə əlaqədar olan münasibətlər çıxış edir.

## 1.4. BİM-in təhlilinin metodları və tipləri

Belə bir xüsusiyyət qeyd olunmalıdır: BİM nəzəriyyəsi ümumi iqtisadi nəzəriyyənin nisbətən yeni sahəsi olsa da, BİM nəzəriyyəsinin tərkib hissələrindən biri kimi nəzərdən keçirilən beynəlxalq ticarət nəzəriyyəsi ümumi iqtisadi nəzəriyyənin ən qədim sahələrindəndir. BİM nəzəriyyəsinin tədqiqində və öyrənilməsində iqtisadi nəzəriyyənin və dünya iqtisadiyyatının metodlarının zəngin xəzinəsindən istifadə olunur. Belə ki, *abstraksiyalar və fərziyyələr* metodu hadisələrin inkişafının ümumi xarakterini təsəvvür etməyə və gözlənilən gələcək barədə ehtimallar qurmağa (göstəricilərin *ekstrapolyasiyası* vasitəsilə) imkan yaradır. İnkişafın konkret göstəricilərinin təhlili müasir dövrün vəziyyətini dəqiqliklə müəyyənləşdirməyə imkan verir *{induktiv metod).* İnduktiv metoddan istifadə edərkən, dahi riyaziyyatçı Anri Puan-

karenin xəbərdarlığım yaddan çıxarmamalıyıq: «Daş qalağı ev olmadığı kimi, faktların toplanması da hələ elm deyil». Faktları obyektiv surətdə, o cümlədən elmin başqa metodları və üsulları ilə təhlil etməyi bacarmaq lazımdır və yalnız bu halda əsaslandırılmış fərziyyələr qurula bilər. *Fərziyyə-deduksiya metodu* təfərrüatlara fikir venuədən, dünya iqtisadiyyatının inkişafında baş verən ən müxtəlif hadisələr üçün ümumi məxrəc tapmağa imkan verir. Hələ dahi Dekartın dövründən başlayaraq, induksiya faktların məntiqi ardıcıllıqla, aydın, dəqiq və sistemləşdirilmiş şəkildə ifadə olunmasını tələb edir. Təsadüfi deyil ki, XX əsrin ən aqil və universal təhsilli iqtisadçılarından olan Pol Samuelson faktların təhlilinə «operasionalizm mövqeyindən yanaşılmasını», onlardan hər hansı subyektiv fikirlərin «əsaslandırılması» üçün deyil, obyektiv nəticələrin əldə olunmasına imkan verən tərzdə yaralanmaq bacarığının olmasının zəruriliyini israr edirdi. Bu yanaşma müasir infonnasiya-kompüter texnologiyaları dövründə yoxlanılmalı və təkrarən yoxlanılmalı olan, habelə riyazi statistika təhlili metodlarına əsaslandığı hallarda fərziyyə-deduksiya metodunun səmərəliliyini gücləndirən faktların (statistikanın) dəqiqliyini nəzərdə tutur.

BİM nəzəriyyəsinin *özəl fərziyyələri* və *özəl problemləri* mövcuddur. Onun fərziyyələri (yaxud aksiomları) istehsalın, bölgünün və mallar, xidmətlər, insan fəaliyyətinin başqa nəticələri ilə mübadilənin həyata keçirildiyi bölgələrin iqtisadi quruluşunun xüsusiyyətlərinə əsaslanır. Deduksiya və induksiya metodları ilə bərabər, *tarixi və məntiqi metodlar* da abstraksiyalar və fərziyyələr metodunu daim müşayiət etmişdir. Bu ənənəvi *metodlara* və *yanaşmalara* müasir *iqtisadi-riyazi (statistik)* və *sistemli metodlar (yanaşmalar),* habelə *informasiya-kommunikasiya texnologiyalarına əsaslanan metodlar* əlavə olunur.

## 1.5. BİM və əlaqəli tədris fənləri

Elmi ədəbiyyatda və dərsliklərdə beynəlxalq iqtisadi problemlər sahəsindəki fənlərin iyerarxiyasına metodoloji yanaşmada müəyyən anlaşılmazlıq mövcuddur. Bu fənlərin öyrənilməsi zamanı anlayışların çoxsayhlığı, məfhumların və kateqoriya aparatının müxtəlif tərzdə təfsiri ilə qarşılaşırıq.

Metodoloji yanaşmaların çoxsayhlığı həm BİM-in təfsirinin, həm də başqa fənlərin və kursların (beynəlxalq iqtisadiyyat, xarici ölkələrin iqtisadiyyatı və s.) müxtəlifliyində öz əksini tapır.

***Xarici ölkəhrin iqtisadiyyatının predmeti*** ayrı-ayn ölkələrin milli iqtisadiyyatının bütöv iqtisadi sistemlər kimi öyrənilməsidir. Bu fənni ölkələri *vəhdət və məcmu şəklində, ümumdiinya iqtisadi sistemi kimi* öyrənən dünya iqtisadiyyatı fənnindən fərqləndirən ən mühüm cəhət də məhz bununla ifadə olunur. Xarici ölkələrin iqtisadiyyatı fənninin məntiqinə ciddi və ardıcıl surətdə riayət olunduqda, beynəlxalq iqtisadi təşkilatların, beynəlxalq inteqrasiya proseslərinin və s. öyrənilməsi buradan kənarda qalacaqdır.

***Beynəlxalq iqtisadiyyatın predmeti.*** Müasir TMK-nın milli iqtisadiyyatlar sahəsindən «çıxmaq» meyli ilə fomralaşdırdığı beynəlxalq istehsalın öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Mövcud təsvirdə bu anlayışa əsassız olaraq geniş məna verilsə də, biliklərin bu sahəsi indiki dövrdə «beynəlxalq iqtisadiyyat» kimi nəzərdən keçirilir. Beynəlxalq iqtisadiyyat məfhum və mahiyyət kimi, transmilli təsərrüfatçılıq subyektlərinin iqtisadiyyatlarının birləşmiş məcmusunü əks etdirir və buna müvafiq olaraq dünya iqtisadiyyatının çox mühüm, dinamik artan, amma yalnız bir hissəsidir. Dünya iqtisadiyyatının və dünya maliyyəsinin (beynəlxalq iqtisadiyyatın) məhz bu hissəsinin dinamizmi bütün müasir ümumdiinya təsərrüfatına (dünya iqtisadiyyatına) qlobal əlamətlər və xüsusiyyətlər verir.

***Xarici iqtisadi əlaqələr tədris predmeti kimi.*** Elmi ədəbiyyatda bu anlayışdan çox vaxt əsassız olaraq genişləndirilmiş mənada, «be5məlxalq iqtisadi münasibətlər» tenuininin sinonimi kimi istifadə edilməsi mahiyyət baxımından düzgün hesab edilə bilməz və metodoloji qarışıqlıq yaradır. «Xarici iqtisadi əlaqələr» («xarici iqtisadi münasibətlər») anlayışının özü bu əlaqələrin subyektindən (dövlət, onun rəsmi orqanı, məsələn, nazirliklər və təşkilatlar), firmadan (bankdan), fiziki şəxslərdən törəmə xarakteri daşıyır. Bu açıqlamaya başqa bir təyin, yəni «dövlətin xarici iqtisadi fəaliyyəti», «müəssisənin xarici iqtisadi fəaliyyəti» (firmanın, təşkilatın) kimi anlayışlar müvafiqdir. Buradan belə bir təfsir irəli gəlir; *dövlətin xarici iqtisadi əlaqələri* - həmin dövlətin və onun təsərrüfatçıhqla məşğul olan təşkilatlarının (habelə fiziki şəxslərinin) ölkədən kənarda həyata keçirdiyi beynəlxalq əməkdaşlığının formaları və növləri sistemi, yəni bu dövlətin başqa dövlətlərlə və beynəlxalq maliyyə-iqtisadi təşkilatlarla əlaqələri və münasibətləri kompleksidir. Deməli, burada söz bu fənnin ciddi təyinatını unudaraq, istər-istəməz onu «dünya iqtisadiyyatı» və «beynəlxalq iqtisadi münasibətlər» fənləri ilə əvəz etməyə cəhd göstərən bir çox tədris nəşrlərinin müəlliflərinin iddia etdikləri kimi.

ümumiyyətlə, xarici iqtisadi əlaqələrin özündən deyil, məhz həmin dövlətin (firmanın) müəyyən əlaqələrinin və münasibətlərinin öyrənilməsindən gedir.

***«Beynəlxalq münasibətlər» fənninin anlayışları.*** «Beynəlxalq münasibətlər» termini elmi və praktiki dövriyyəyə onu dövlətlər arasında ünsiyyət prosesində yaranan münasibətlər kimi təfsir edən ingilis filosofu və sosioloqu İyeremiya Bentam (1748-1832) tərəfindən daxil olunmuşdur. Həmin dövrdən termin beynəlxalq hüquqşünaslar tərəfindən, o cümlədən dövlətlərin qarşılıqlı münasibətlərini müəyyənləşdirən beynəlxalq xarakterli hüquqi sənədlərdə əsaslı surətdə təkmilləşdirilmişdir. Hər bir ictimai məflium kimi, bu tennin əsasən Qərbin, nisbətən az dərəcədə isə ölkəmizin elmi və tədris ədəbiyyatında transfonuasiyaya məruz qalmışdır. Bu anlayışın ən dolğun təfsirlərindən biri, beynəlxalq münasibətləri «dünya arenasında fəaliyyət göstərən əsas siniflər, əsas sosial, iqtisadi, siyasi qüvvələr, təşkilatlar və ictimai hərəkatlar, yəni sözün geniş mənasında xalqlar arasındakı iqtisadi, siyasi, hüquqi, diplomatik və başqa əlaqələrin məcmusu»' kimi nəzərdən keçirən akademik N.N.İnozemtsevə mənsubdur. Qeyd edək ki, beynəlxalq münasibətlər sisteminə iqtisadi, siyasi, ideoloji (mədəni), hüquqi, diplomatik və digər əlaqələrin daxil edildiyi bu cür yanaşmada şübhəsiz ki, beynəlxalq münasibətlərin inkişafının məntiqi əks olunmuşdur.

Beynəlxalq münasibətlərin məşhur fransız sosioloqu R.Aron tərəfindən ifadə olunan açıqlaması da, yuxarıda göstərilənə kifayət qədər yaxındır: «Beynəlxalq münasibətlər - yunan polislərinin, Roma yaxud Misir imperiyalarının, Avropa monarxiyalarının, burjua respublikalarının, və ya xalq demokratiyalarının daxil edildiyi siyasi vahidlər arasındakı münasibətlərdir... Beynəlxalq münasibətlərin məzmunu əsas etibarilə dövlətlər arasındakı münasibətlərdən ibarətdir: belə ki, beynəlxalq münasibətlərə əsil nümunə dövlətlərarası müqavilələrdir».'^

Bir sıra tədqiqatçıların, məsələn, C.Rozenaunun fikrincə, dünya siyasətində dövlət deyil, bir-biri ilə münasibətlər quran konkret şəxslər get-gedə əsas rol oynamağa başlayır. Rozenaunun rəyinə görə, beynəlxalq münasibətlər sahəsində baş verən köklü dəyişikliklər simvolik subyektləri turist və terrorçu olan «beynəlxalq kontinuumun» yaranması ilə nəticələnmişdir.^ Bu təfsirlərin

' *Иноземцев Н.Н.* Ленинский курс международной политики КПСС. М., 1978.

^ *Aron R.* Une Sosiologie des relations internationales // Revue française de sociologie. 1963. Vol. IV. №3.

' *Цыганков П.А.* Теория международных отношений. М., 2005. С. 23.

zəif cəhəti bundadır ki, orada öz «yumşaqlığına» baxmayaraq, beynəlxalq siyasi və iqtisadi həyatdakı rolu get-gedə artan beynəlxalq qurumların və dövlətüstü idarələrin fəaliyyəti məsələsinə praktiki olaraq toxunulmur.

***BIM - müasir beynəlxalq siyasi münasibətlərin mərkəzi elementlərindən biridir.*** Müasir beynəlxalq əlaqələrin təfsirlərinin müxtəlifliyinə baxmayaraq, onların hamısı özündə iqtisadi münasibətlər sahəsini baza elementi kimi ehtiva edir. Müasir dövrdə siyasi münasibətlərin get-gedə daha çox «iqtisadi- ləşməsi», eyni zamanda isə iqtisadi münasibətlərin «siyasiləşməsi» baş verir. Dövlətlər arasındakı münasibətlərin tənzimlənməsi məqsədilə yaradılmış, ən qədim institutlardan biri olan diplomatiya indi daha çox dövlətin iqtisadi maraqlarını təmin edən təsisata çevrilir. Beynəlxalq siyasi və iqtisadi münasibətlərin xüsusi sahəsi kimi, ***«iqtisadi diplomatiya»*** məhz bu əsasda formalaşmışdır.

## 1.6. iqtisadi tənzimiəmənin Amerika və Avropa təcrübəsinin nəzərə aimmasınm vacibiiyi

Hər bir iri və unikal ictimai hadisə kimi, Amerikanın və Avropanın iqtisadi təcmbəsi həmişə alimlərin və mütəxəssislərin diqqətini cəlb etmiş, onu müxtəlif dövlətlərin, o cümlədən sosialist ölkələrinin hökumətləri dərindən öyrənmişlər. Bu tədqiqatlar iki məqsədlə: birincisi, elmi-dərketmə, ikincisi isə, praktiki istifadə üçün aparılırdı. Lakin xüsusi mülkİ3^ət prinsipinin inkar edildiyi sosializm şəraitində müəssisələrin (fınnalarm) idarə olunmasının, onlarda innovasiyalarm, mühasibat uçotunda maliyyə nəzarəti sisteminin bəzi aspektləri istisna olunmaqla. Qərbin və başqa qabaqcıl ölkələrin pozitiv təcrübəsindən yararlanmaq, demək olar ki, qeyri-mümkün idi.

Amerikalı iqtisadçı-alimlər indinin özündə də iqtisadi təfəkkürün inkişafına güclü təsir göstərirlər. Onlar tərəfindən hazırlanan dərsliklərdən dünyanın, demək olar ki, bütün ölkələrində böyük müvəffəqiyyətlə istifadə olunur. Belə bir fakt inkarolunmazdır ki, iqtisadi sistemin sosializm modelindən kapitalizm modelinə keçərkən, keçmiş sosialist ölkələri, daha dəqiq desək, onların hökumətləri Avropanın və Amerikanın nümunəsindən, onların (əsasən ABŞ-m) məsləhətçilərinin köməyindən yararlanmışdır.

Şərqi Avropa ölkələrində (Polşa, Macarıstan, Çexiya, Bolqarıstan, Rumıniya, Slovakiya, Albaniya) Amerika təcrübəsinin və məsləhətçilərinin təsiri İkinci Dünya müharibəsindən sonra Qərbi Avropanın bərpası üzrə

Marşalı planı ilə müqayisədə, şübhəsiz ki, pozitiv amil olmuşdur. Belə bir məqamı da qeyd edək ki, özünün «islahatçılar» adlandırılan hakim dairələrinin son dərəcə uğursuz fəaliyyətinə bəraət qazandırmaq üçün Rusiyada bu barədə çox danışılsa və yazılsa da, həmin ölkələrin hökumətləri heç bir «şok terapiyası» tətbiq etməmişdir.

Bizim rəyimizə görə, Amerikanın və Qərbi Avropanın təcrübəsi bir-birini qarşılıqlı surətdə tamamlayır. Ölkənin daxili şəraitindən asılı olaraq həm nəzəri iqtisadi məktəblərin, həm də praktiki iqtisadi siyasətin elementləri bazar qurumları zəif inkişaf etmiş yaxud yenidənqunuaya ehtiyac duyulan ölkələr üçün faydalı ola bilər. Bundan başqa, çox hallarda Amerika və Avropanın nəzəri məktəbləri arasında kəskin fərqləri müəyyənləşdirmək çətindir. Keynsçilik və neokeynsçilik, habelə monetar nəzəriyyələri buna nümunədir: həm birincilər, həm də ikincilər Qərbi Avropa ölkələrində və Amerikada işlənib hazırlanmış, hökumətlərin iqtisadi siyasətində müvəffəqiyyətlə istifadə olunmuşdur (olunur).

Beləliklə, hal-hazırda dünyada iqtisadi təfəkkürün iki iri - Amerika və Avropa istiqaməti mövcuddur. Heç bir müstəqil (ilkin), yəni Asiya, Yaponiya, Çin, Rusiya, Afrika, Latın Amerikası və s. nəzəriyyələri mövcud deyil. Bu, müasir kapitalizmin iqtisadi tarixinin realhqlannm obyektiv əks olunmasıdır. Kapitalizm Qərbi Avropada yaranmış, sonra onun bəzi elementləri Qərbi Avropadan olan kolonistlər tərəfindən ABŞ-a gətirilmiş və məhz bu iki qitədə ilk dəfə olaraq özünün mükəmməl klassik fonualarını almışdır. Asiya, Afrika və Latın Amerikası ölkələrində, Rusiyada isə kapitalizm iqtisadi sistem kimi, ***köçürülmə, yəni törəmə iqtisadi münasibətlər*** xarakterində olmuşdur.

Amma bu, kapitalizmin iki - Qərbi Avropa və Amerika tipləri arasında heç bir əsaslı fərqlərin mövcud olmadığı demək deyil. Söhbət məqamlardan getsə də, qeyd etməliyik ki, onlar çox hallarda Amerika və Qərbi Avropa arasındakı təbii-coğrafi, geosiyasi və başqa fərqlərlə yanaşı son dərəcə mühüm əhəmiyyətə malikdir və bəzən həlledici rol oynayır. Buradan aşağıdakı nəticələri çıxarmaq olar:

• Amerika və Qərbi Avropa iqtisadi məktəbləri arasında rəqabət həmişə pozitiv əhəmiyyət daşıyaraq, nəzəriyyənin inkişafına xidmət etmişdir. 1970-ci illərdən başlayaraq Amerika məktəbinin dominantlığı dünya iqtisadiyyatının zəifləməsi, ABŞ da daxil olmaqla, ən yetkin seqmentdə istehsal amillərinin açıq-aşkar inkişafının geridə qalması, böhran potensialının güclənməsi ilə

nəticələnmişdir;

• inkişaf etmiş dövlətlərin hökumətləri tərəfindən həyata keçirilən iqtisadi siyasətin əsas müddəaları çox zaman başqa ölkələrdə uzun müddət istifadə üçün qeyri-konstruktivdir və bunu 1990-cı illərdə, XXI əsrin ilk onilliyində Rusiyanın (bütövlükdə MDB-nin), başqa inkişaf etməkdə olan ölkələrin nümunəsində görmək mümkündür;

• Qərbin iqtisadi siyasətinin tənqidi yanaşmadan istifadə olunan nümunələri yaxın dövrdə yoxa çıxmış doqmatik sosializmin iqtisadi konstruksiyalarını xatırladır;

• Rusiya kimi dövlətlər üçün ənənəvi Amerika, Avropa və Rusiya iqtisad məktəblərinin zəminində beynəlxalq iqtisadi münasibətlərə üzvi surətdə qovuşan adekvat iqtisadi siyasətin işlənib hazırlanması tələb olunur.

**Etika BİM-in daxili elementi kimi.** İctimai həyatın minilliklərə hesablanan dövrü ərzində bəşəriyyət etik, əxlaqi-mənəvi qaydaların və normaların toplusunu hazırlamış, onların bir qismi dünya dinlərinə, bir qismi isə «xeyir», «şər», «yaxınlarını özün kimi sev» və sair qlobal-universal kateqoriyalarla ifadə olunaraq, insan həyatının üzvi daxili qanununa, ənənəvi qaydasına çevrilmişdir. Afrikadakı kiçik qəbilə, Amazoniya cəngəlliklərindəki hindular və mədəni Avropa pa^/taxtlarmm sakinləri qəribə də olsa, «özünə bənzərini öldürmə», «oğurlama», «hiyləgərlik etmə» və sair kimi anlayışların və həqiqətlərin eyni dərəcədə tərəfdarıdırlar. Əzəldən nəcib yaxud rəzil xalqlar mövcud deyil, onların hamısı Təbiətin övladlarıdır və hamısına *eyni dərəcədə* dərrakə verilmişdir, amma həyat şəraitinin və keyfiyyətinin müxtəlifliyi insanların şüuruna özünün güclü təsirini göstərir. Lakin bu təsir nə qədər güclü olsa da, *törəmə xarakteri* daşıyır. İlkin olan *istisna edilmədən Homo sapiens növü kimi planetimizin bütün xalqlarının şüurunun eyni səviyyədə olması, əqli potensialıdır.*

Aydındır ki, *bütün insanların,* hətta sivilizasiyanın inkişafından uzaqda təkamül edən xalqların «xeyir» və «şər» kateqoriyalarını instinktiv olaraq eyni qaydada qavraması buradan qaynaqlanır. Buna müvafiq olaraq, insan birlikləri həmişə qeyri-bərabərlik və ədalətsizlik ideyalarından daha çox, bərabərlik və ədalət ideyalarını dərk etməyə hazır olmuşlar. Qeyri-bərabərlik ideyalarının mövqelərini əsaslandırmaq üçün ədalətliliklə bərabərliyin zidd, demokratiyanın isə yalnız varlanmaq imkanı qazananların hakimiyyəti olmasını izah edən təbliğatın əsrlər boyu aparılması lazımdır.

Bütün mədəniyyətlər *qlobal etikanın* təməlini təşkil edən ümumi baza dəyərlərinə tərəfdar çıxır. BMT-nin «İnsan İnkişafı - 2000» Hesabatında qeyd olunur ki, qlobal etika bəşəriyyətə Qərb dəyərlərinin zorla qəbul etdirilməsindən ibarət deyil. Bu eür fikir qlobal etika sahəsinin süni məhdudlaşdırılması ilə bərabər, başqa mədəniyyətlərin, dinlərin, eəmiyyətlərin təhqir olunmasıdır. Qlobal etikanın başlıca mənbəyi insanın zəifliyi və hər bir şəxsin iztirablarını mümkün qədər yüngülləşdinnək ideyasıdır. Digər mənbə bütün insanların əzəldən mənəvi bərabərliyinə inamdır. Başqalarına qarşı özünə münasibət göstərilməsini arzuladığın tərzdə yanaşılmasını əmr edən ehkam xristianlıqda, islamda, konfusiçilikdə, induizmdə birbaşa göstərilir və demək olar ki, bütün etiqadların praktikasında nəzərdə tutulur.

Bütün mədəniyyətlərdə əks olunmuş məhz bu nəzəriyyələrin əsasında dünya dövlətləri *Ünmmdünya İnsan Hüquqları Bəyannaməsini,* ona əlavə olunmuş vətəndaş və siyasi hüquqlar, iqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq paktları qəbul etmişdir. İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası, Amerika İnsan Hüquqları Konvensiyası, İnsan və Xalqların Hüquqları haqqında Afrika Xartiyası buna bənzər yaxud analoji sənədlərdən irəli gəlir. 2000-ci ildə BMT- nin Baş Məclisində onun üzvü olan bütün dövlətlər tərəfindən qəbul edilmiş Minilliyin Bəyannaməsində insan hüquqlarına, əsas azadlıqlara, istisna qoyulmadan bütün insanların hüquq bərabərliyinə hörmətlə yanaşılması təsdiqlənmişdir. Adı çəkilən Hesabata əsasən, qlobal etika anlayışına beş əsas element daxildir:

1) *bərabərlik.* Sinfi, irqi yaxud gender mənsubiyyətindən, hər hansı cəmiyyətə və ya yaş qrupuna aidiyyətindən asılı olmayaraq bütün insanların bərabərliyinin tanınması ümumbəşəri dəyərlərin mahiyyətini təşkil edir. Bərabərlik həmçinin, növbəti nəsillər tərəfindən istifadə oluna biləcək ekoloji və təbii resursların qorunub saxlanmasının zəruriliyini əhatə edir;

2) *insanın hüquqları və məsuliyyəti.* İnsan hüquqlarına riayət olunması beynəlxalq davranışın mütləq normasıdır. Əsas məsələ bütün insanların azadlığa və bərabərliyə təhdidlərdən qorunmasıdır. İlk növbədə insan hüquqlarına əhəmiyyət verilməsi onda təcəssüm olunmuş, qrup və kollektiv dəyərlərə istinad edən bütün iddialardan üstün tutulan bərabərliyi əks edir. Amma hüquqlar vəzifələrdən ayrılmazdır. Seçim hüququ olmadıqda, vəzifələr çətinliklər törədir, vəzifələr yaratmayan seçim isə anarxiyaya aparır;

3)***ədalətlilik.*** İnsanın ayrılmaz hüquqları barədə zaman keçdikcə dəyişən təsəvvürlərlə bağlı zərurət anlayışı olmaqla, ədalətlilik prinsipinin kökləri uzaq keçmişə gedir. Qədim Çinin, antik dünyanın (Yunanıstan və Roma) filosofları bərabərlik məsələləri ilə yanaşı ədalət məsələlərinə də mühüm əhəmiyyət verir, onları dövlət idarəçiliyi sistemi, mülkiyyət və mövcud ictimai-siyasi münasibətlərlə əlaqələndirirdi. Əsrlər boyu bütün böyük inqilabi hadisələr azadlıq, bərabərlik, ədalətlilik və qardaşlıq şüarları altında baş vermişdir. «Ədalətlilik» kateqoriyasının məzmununun mühüm tərəfi, şübhəsiz ki, «sosial ədalət» - XX əsrdə müxtəlif dövlətlərin, o cümlədən sosialist ölkələrinin elmi-praktiki təcrübəsinin ümumiləşdirilməsinin nəticəsi anlayışıdır. Sosializm iqtisadi sisteminin dünya kapitalizmi ilə rəqabətə tab gətinuəməsi, heç də müasir iqtisadi siyasətdə olduğu kimi, sosial ədalət ideyasının və praktikasının inkar edilməsinə əsas vermir.

Aydındır ki, «qlobal etika» anlayışının tərkib hissələrinin sadalandığı BMT-nin «İnsan İnkişafı 2000» Hesabatında (habelə sonrakı hesabatlarda) «ədalətlilik» kateqoriyasının adının çəkilməməsi təsadüf deyil. Buna görə də Hesabatı hazırlayan BMT mütəxəssislərinin təfsirində «qlobal etika» anlayışının başqa mühüm tərəfləri (demokratiya, bərabərlik və s.) açıqlansa da, onun təsviri bütövlüklə verilmir. 1980-ci illərdən başlayaraq rəsmi iqtisadi doktrinada maddi-pul amilinin qüdrətinin total təbliğatı XXI əsr dünyasına inkarolunmaz və son dərəcə təhlükəli bir təzahür - cəmiyyətin azsaylı həddən ziyadə varlı hissəsi ilə dünyanın əksər ölkələrində yoxsulların sayı arasında fərqlərin sürətlə artmasını gətirmişdir. Başqa bir nəticə isə mədəni səviyyənin enməsi meyillərinin, əxlaqi-mənəvi düşkünlüyün ümumdünya tendensiyasına çevrilməsidir. Aydındır ki, ədalətlilik ideyasını boğan universal libertarianiz- min qalib gəldiyinə görə, iri xüsusi mülkiyyəti absolyuta çevirən modellər və onun tənzimlənməsindən imtina olunması cəhdləri «ədalətlilik» anlayışı ilə açıq-aşkar ziddiyyət təşkil edir. Bu cür yanaşma, sözsüz ki, tarixi perspektivdə yeni sosial fəlakətlərə və inqilablara aparır, formal olaraq yeni inqilabların əleyhinə çıxan, əslində isə bir ovuc super-varhlarm maraqlarını qoruyan, «şəxsi azadlıq», «seçim hüququ», «imkanların bərabərliyi», «qanun qarşısında eyni məsuliyyət» və sair şüarları istismar edən müstəbid rejimlərin meydana çıxmasına səbəb olur;

4)***demokratiya.*** Bu prinsip siyasi müstəqilliyin təmin olunmasına, insanın əsas hüquqlarının qorunmasına, vətəndaşların sosial, siyasi və iqtisadi

inkişafda bərabər iştirakı üçün şərait yaradılmasına xidmət edir. Qlobal səviyyədə isə demokratik normalar yoxsul ölkələrin, marjinal cəmiyyətlərin və ayrı-seçkiliklə yanaşılan azlıqların qərarlar qəbul edilməsində iştirakının və səsvermə hüququnun təmin olunmasında mühüm əhəmiyyətə malikdir;

5) *azlıqların müdafiəsi.* Azlıqlara qarşı ayrı-seçkilik tanmılmama, siyasi hüquqlardan məhrumetmə, zorakılıq, o cümlədən etnik və dini mənsubiyyətə görə ictimai-siyasi həyatdan təcridolunma fonnalarında hər yerdə pozulur. Azlıqlar milli və qlobal cəmiyyət çərçivəsində qəbul edilənə və bərabər hüquqlar alana qədər qlobal etika ümumbəşəri ola bilməz. Bu prosesdə etnik tolerantlığın bərqərar olması, sözsüz ki, başlıca rol oynayır. Bir çox silahlı münaqişələr, hətta müharibələr etnik və dini amillərlə əlaqəlidir.

***Münaqişələrin sülh yolu ilə həlli və ədalətli danışıqlar.*** Ədalətlilik və bitərəflik qərəzli əxlaqi prinsiplərin zorla qəbul etdirilməsi yolu ilə əldə oluna bilməz. İxtilaflar yalnız danışıqlar yolu ilə həll edilməli, özü də, bütün tərəflər səs hüququna malik olmalıdır. Amma qlobal etika sülhə, inkişafa yaxud müasirləşməyə aparan yeganə yol deyil. O, yalnız cəmiyyətlər tərəfindən problemlərin sülh yolu ilə həllinə imkan yaradan zəmindir'.

Bizim fıkrimizcə, müasir dövrdə müharibə problemlərinin Foma Akvinskinin mülahizələri ruhunda «ədalətli müharibələr» və «ədalətsiz müharibələr» kimi təfsir olunması aktual deyil. Bütün müharibələr və daxili silahlı münaqişələr ədalətsizdir və onlar yalnız hökumətlərin xalqın rifahı və sülh naminə ona xidmət etmək vəzifəsinə məsuliyyətsiz yanaşmasını, beynəlxalq təşkilatların müharibələr və silahlı münaqişələr baş verdiyi hallarda onların qarşısının alınması yaxud aradan qaldırılması üzrə nizamnamə öhdəliklərini yerinə yetirməkdə acizliyini ifadə edir.

## Xülasə

• Beynəlxalq iqtisadi münasibətlər - dünya iqtisadi}^atı subyektlərinin beynəlxalq əməkdaşlıq və bu əlaqələrin tənzimlənməsi, habelə başqa mühüm sahələrin, o cümlədən müasir dövrün qlobal problemlərinin həlli üzrə fəaliyyətini birləşdirən təsərrüfat, elmi-texniki, istehsal-idarəçilik, kommersiya, valyuta-maliyyə münasibətlərinin ümumdünya sistemidir.

^ World Commission on Culture and Devolopment 1995. UN, 2000; Доклад ООН о развитии человека-2004. С. 108,

• Beynəlxalq iqtisadi münasibətlərin təhlili və öyrənilməsində dövlətlərin iqtisadi tarixi başlıca əhəmiyyətə malikdir. Digər amillərlə birlikdə, 0, dünya təsərrüfatında baş verən proseslərin tipologiyasım müəyyənləşdirməyə imkan verir. Söhbət iqtisadiyyatın milli təsərrüfatları arasında əlaqələri müəyyən edən tipik münasibətlərdən gedir. Bu isə, öz növbəsində, həmin münasibətlərin xüsusiyyətlərinin müəyyənləşdirilməsini, onların eyniləşdirilməsini, BİM agentlərinin bir-birinə qarşılıqlı təsirinin nəticələrinin və aqibətinin, onlar tərəfindən qlobal iqtisadiyyata ötürülən siqnalların aşkar olunmasını tələb edir. Metodoloji baxımdan BİM fənni üçün: dünya təsərrüfatı əsasında BİM-in birinci mərhələsinin nə vaxt başlanması; sonra hansı mərhələlərdən keçəcəyi, onların nə ilə xarakterizə ediləcəyi və təkamülünün necə baş verəcəyi; qlobal böhranın BİM-in vəziyyətinə hansı təsirləri göstərəcəyi və həm BİM formalarının, həm də bütövlükdə bu sistemin hansı yönümdə inkişaf edəcəyi; beynəlxalq tənzimləmə qurumlarının hansı dəyişikliklərə məruz qalacağı məsələləri vacibdir.

BİM-in əsasını ümumi iqtisadi nəzəriyyə və dünya iqtisadİ3^atmın nəzəriyyəsi təşkil edir. Dünya iqtisadiyyatı BİM-in elmi-texniki tərəqqinin və beynəlxalq əmək bölgüsünün güclü təsiri altında olan, dinamik inkişaf edən formaları tərəfindən hərəkətə gətirilən ümumi baza qismində çıxış edir. Buna görə də BİM-in fonnalarmm sayı, o cümlədən elmi-texniki informasiya və əqli əmək məhsullarının mübadiləsi kimi variantları kifayət qədər böyük sürətlə artır; təhsil, elm, mədəniyyət sahələrində münasibətlər, işgüzar və kommersiya BİM-in müasir dövrün qlobal problemləri sahəsində fəaliyyət kimi sahəsi də inkişaf edir. Bütün bunların məcmusu BİM-in məzmununu təşkil edir.

• BİM fənni çərçivəsində öyrənilməli olan əsas məsələləri (problemləri) şərti və bitkin olmayan halda aşağıdakı şəkildə fərqləndirmək olar:

■ beynəlxalq ticari-iqtisadi axınlar və onların iqtisadi diplomatiya adlandırılan sahə də daxil olmaqla, tənzimlənməsi;

■ xarici valyuta, dövlətlərin və beynəlxalq təşkilatların maliyyə-kredit sahəsində fəaliyyəti;

■ beynəlxalq ticarətin və ticarət siyasətinin beynəlxalq tənzimləyiciləri və tərkib hissələri kimi, gömrük qaydalarının işlənib hazırlanması, tətbiqi və təkmilləşdirilməsi;

■ dünya iqtisadiyyatında və onun milli iqtisadi altsistemlərində əmtəə axınlarının dunnadan genişlənməsi prosesində meydana çıxan münasi-

bətlər və qarşılıqlı əlaqələr;

■ beynəlxalq əməkdaşlığın və yaranan vəziyyətlərin beynəlxalq tənzimlənməsi mexanizmini təşkil edən aparıcı beynəlxalq qurumların, valyuta-maliyyə, ticarət və digər tənzimləyici dövlətüstü idarə və təşkilatların fəaliyyəti.

• Dünya elmi ədəbiyyatında bərqərar olmuş yanaşmaya əsasən beynəlxalq iqtisadi münasibətlər sisteminin müxtəlif və mürəkkəb məsələlər kompleksi inkişaf etmiş kapitalist, inkişaf etməkdə olan və transformasiya olunan ölkələrin üç qrupu üzrə BİM-in öyrənilmə obyektini təşkil edir. Ümumilikdə, bu ölkələrin beynəlxalq iqtisadi əlaqələri qarşılıqlı təsir və qovuşma nəticəsində qlobal iqtisadi əlaqələrin vahid sisteminin mürəkkəb bünövrəsini yaradır. Həmin mürəkkəb problemlər kompleksi BİM-in aşağıdakı səviyyələrdə öyrənilməsini nəzərdə tutur:

■ əməkdaşlığın və ümumdünya təsərrüfatçılıq sahəsində dünya iqtisadiyyatının, onun bütün mürəkkəb münasibətlər və qarşılıqlı əlaqələr kompleksinin qlobal səviyyəsi;

■ tənzimləmənin və əməkdaşlığın tənzimlənməsinin dövlətüstü orqanları rolunda çıxış etməklə yanaşı, beynəlxalq maliyyə-təsərrüfat əlaqələrinin inkişafının fomıası olan beynəlxalq maliyyə-iqtisad təşkilatlarının və idarələrinin səviyyəsi.

• Ayrı-ayrı ölkələrin xarici iqtisadi siyasəti, habelə dünya birliyi tərəfindən qəbul edilən dövlətüstü təsisatların (məsələn, GATT, ÜTT) müəyyənləşdirdiyi beynəlxalq qaydalar dünya bazarlarında malların, xidmətlərin və investisiyaların hərəkətinə əhəmiyyətli dərəcədə təsir göstərir; BİM-də bu məsələlər üzrə (misal üçün, valyutaların məzənnələri barədə) kəskin münaqişələr meydana çıxır; beynəlxalq bazarlarda qiyməqoymanm transformasiyası nəticəsində əmtəələrin qiymətləri beynəlxalq qiymətlərə yaxınlaşır. Müasir dünya bazarı təkcə mallar və xidmətlərlə ticarəti deyil, həmçinin, kapitallar, innovasiyalar, lisenziyalar bazarlarını, turizm sektorunu, insanların müxtəlif fonuada yerdəyişməsini əhatə edir. Bütün bunlar BİM-in inkişaf etmiş formaları vasitəsilə reallaşdırılır.

• Beynəlxalq iqtisadi münasibətlər adekvat və məntiqi (o cümlədən iyerarxiyasının öyrənilməsi baxımından) yanaşma tələb edir. Bu mövqelərdən məqsədlərin aşağıdakı iyerarxiyası məqsədəuyğun hesab oluna bilər;

1) ümumdünya təsərrüfat əlaqələri kompleksinin inkişafda, vəhdətdə və bütövlükdə öyrənilməsi (inkişaf etmiş kapitalist dövlətləri, inkişaf etməkdə olan ölkələr, transformasiya olunan, yəni keçid iqtisadiyyatlı ölkələr). Bu, müəyyən mənada BİM sisteminin təşəkkül tapmasının və inkişafının dinamikasını özündə ehtiva edən *qlobal makro-təhlildir* (meqa-makro- təhlildir). Bu zaman dünya təsərrüfatının təkamül baxımından inkişafının əsas hissələrinin (istehsalın milli və beynəlxalq amilləri yaxud məhsuldar qüvvələr, BƏB, qlobal inteqrasiya prosesi, transmilli kapitalın inkişafı, əmtəələrin, işçi qüvvəsinin və maliyyə resurslarının ümumdünya miqyasında yerdəyişməsi, beynəlxalq təşkilatların fəaliyyəti və s.) dərin nəzəri təhlilinin aparılması zəruridir;

2) BİM sektorlarının ölkə, region və universal-qlobal səviyyələrdə öyrənilməsi, BİM-in yeni altsistemlərinin əsas əlamətlərinə və makroiqtisadi göstəricilərinə görə təhlili, regional inteqrasiyanın, beynəlxalq əməkdaşlıqda və bütün səviyyələrdə beynəlxalq tənzimlənmədə qlobal qarşılıqlı təsir prosesinin tədqiq olunması. Bu, *sektorlar üzrə makro və mikro-təhlildir.*

3) beynəlxalq iqtisadi münasibətlərin subyektlərinin, konkret qurumların (beynəlxalq və milli) BİM sistemində fəaliyyətinin institusional baxımdan öyrənilməsi. Bu, *qlobal mikro-təhlildir.*

## Yoxlama sualları

1. «Beynəlxalq iqtisadi münasibətlər» fənni nəyi öyrənir?
2. BİM-in predmetini və obyektini müəyyən edin.
3. BİM-in əsas əlamətləri və xassələri nədir?
4. BİM-in məzmunu nədən ibarətdir?
5. BİM anlayışını izah edin.
6. BİM-in vəzifələri və funksiyaları nədən ibarətdir?
7. BİM-in əsas fonnalarmı sadalayın.
8. BİM-in beynəlxalq iqtisadi problematika üzrə başqa fənlərlə əlaqəsini izah və təsvir edin.
9. Etik prinsiplər BİM-də hansı rol oynayır? Müasir dövrdə onlar niyə xüsusi aktuallıq kəsb etməyə başlayır?

## Referatların mövzuları

1. Müasir beynəlxalq iqtisadi münasibətlər anlayışı, onun məzmunu və mahiyyəti
2. Beynəlxalq iqtisadi münasibətlər sistemində müasir elmi-texniki əlaqələr

# Fəsil 2

# BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRİN ƏSAS NƏZƏRİYYƏLƏRİ VƏ KONSEPSİYALARI

## 2.1. BİM konsepsiyalarının inkişafı və təşəkkülü

Avropanın aparıcı dövlətlərinin ticari-iqtisadi əlaqələrinin ilkin nəzəri əsaslandırmaları həmin ölkələrin xarici ticarəti, daxili mənbələrin səfərbər olunmasında bunun yerinin müəyyənləşdirilməsi ilə bağlı idi və fiziokratlar və merkantilistlərin nəzəriyyələri çərçivəsində inkişaf edirdi. Onların nəzəriyyələri əsasən məhdud sayda nəzəri problemlər toplusunun: dövlətin xarici əlaqələrdəki rolu, «metal» (qızıl və gümüş) pula münasibət, xarici ticarətin tənzimlənməsinin xarakteri, fritrederçılik (free trade), yəni dövlətin proteksionizm siyasəti vasitəsilə bu sahənin tənzimlənmə dərəcəsinin müəyyənləşdirilməsi üzərində qurulmuşdu.

***Adam Smit və beynəlxalq təsərrüfat əlaqələrinin onun tərəfindən təfsir olunması.*** Müstəmləkəçilik dövründə Qərbi Avropanın aparıcı dövlətlərinin sürətli inkişafı sənaye inqilabları ilə birlikdə təsərrüfatların beynəlmiləlləşməsinə doğru universal tendensiyaya dinamizin vermişdi. Əmtəə kütləsinin ölkədən çıxarılması ilə bərabər, kapitalın daha faydalı qoyuluşu məqsədi üçün ölkələr arasında yerdəyişməsi, habelə əmək resurslarının miqrasiyası genişlənməyə başlayır. Milyonlarla adam Avropadan, Asiyadan və dünyanın başqa regionlarından Amerikaya, Kanadaya, Avstraliyaya üz qoyaraq, orada işgüzar mühit yaradır. Beynəlxalq iqtisadi inkişafın baş verən proseslərini əsaslandıra biləcək iqtisadi nəzəriyyədə sıçrayışlı irəliləyiş üçün zəmin yaranır. Bu sıçrayışı klassik iqtisadi nəzəriyyənin banisi Adam Smit həyata keçirdi. O, özünün «Xalqların sərvəti» əsərində (1776) təkcə bir ölkədə deyil, real iqtisadi həyatın mövcud olduğu hər yerdə sərbəst sahibkarlıq üçün zəruri olan ən mühüm müddəaları əsaslandırmışdır. Məhz bu, iki başlıca məqamı: birincisi, öz dövlətindən (liberal siyasət, ixrac və idxala yüksək gömrük rüsumlarının tətbiqinin inkarı), ikincisi isə «özgə» dövlətdən (proteksionizmin inkarı, ticarətdə liberalizm siyasəti) asılılığın olmamasım nəzərdə tutan, sahibkarlıq azadlığına əsaslanan Laisses faire konsepsiyasının ümumiləşdirilmiş variantı

dır. 200 ildən çox dövr ərzində kapitalizm iqtisadi liberalizmin Smit nöqteyi-nəzərindən izahına istinadən qurulan iqtisadi siyasət əsasında inkişaf etmişdir. Sonradan bir sıra təhlilçilər onun nəzəriyyəsinə çoxsaylı «düzəlişlər» etmiş, iqtisadi nəzəri}q/ədə klassik nəzəriyyənin banisinin fikirlərini «sərbəst» şərh edən «neoklassik istiqamət» meydana çıxmışdır. Nəticədə bu nəzəriyyədə kifayət qədər eklektika hökm sürməyə başlamasına baxmayaraq, «klassikanın» məhz Adam Smitin adı ilə möhkəm bağlılığı qəbul edilmişdir. Smit nəzəriyyəsindən guya irəli gələn əsas müddəa neoklassik-liberallar tərəfindən qəti tezis-ultimatum mövqeyindən belə izah edilirdi: bazar mexanizmləri əsasında fəaliyyət göstərən kapitalist iqtisadiyyatı özünün fasiləsiz inkişafını və artımını iqtisadiyyata dövlət tərəfindən heç bir müdaxilə olmadan təmin etməyə qadirdir və bundan savayı, bu cür müdaxilə bir halda «pozuntular» (böhranlar), digər halda isə «totalitar sosializm» ilə nəticələnir. Fridrix Hayek, Milton Fridman və bir sıra «iqtisadçı-liberallar» belə fikirdə idilər. Qeyd edək ki, XX əsr - XXI əsrin birinci onilliyinin ən görkəmli iqtisadçılarından olan professor Pol Samuelson nəzəriyyənin bu istiqamətinin ciddi elmi əsasının olmasını inkar edərək, onu «libertarianizm» adlandırır.

Buna baxmayaraq, libertarianizmin göstərilən müddəası kapitalizmin aksiomu kimi qəbul edilmiş, dünyanın bütün ölkələrində dominant mövqe tutmuş, beynəlxalq iqtisadi və siyasi münasibətlərin bütün elementlərinə əsaslı surətdə daxil olmuşdur. 1970-ci illərin ortalarından 2008-ci ildə başlayan qlobal böhrana qədər məhz bu əqidə dünyada dominantlıq edən siyasi və işgüzar dairələr üçün adekvat intellektual resurs olmuşdur.

***Keynsçilik libertarianizmə qarşı.*** «Neoklassisizm» (qeyd edək ki, Smitin ilkin nəzəriyyəsi deyil) dünya kapitalizmini bir neçə onillik geri atan, onu az qala məhv edəcək Böyük böhran (1929-1933-cü illər) zamanı devrilmişdir. Qurtuluş «iqtisadçı-liberalların» qəti surətdə inkar etdiyi tərəfdən, yəni iqtisadi həyata dövlətin güclü müdaxiləsi sayəsində mümkün oldu. Əsas xilasedici isə hələ Böyük böhranadək çoxsaylı elmi əsərlərində milli iqtisadiyyatların miqyasının genişlənməsinin, əsas kapitalist ölkələrinin dövlətlərarası əlaqələrinin sıxlaşmasmm və maliyyə kapitalının qovuşmasının yalnız bir ölkədə meydana çıxa biləcək kataklizmlər səbəbindən baş verən böhranın digər ölkələrə sirayət etməsi ilə nəticələnəcəyini, dövlətlərin isə bunun qarşısında aciz qalacağını sübuta yetirən ingilis iqtisadçısı və siyasi xadimi C.M.Keyns olmuşdur. Onun fundamental olan «Məşğulluğun, faizin və pulun ümumi

nəzəriyyəsi» kitabında (1936) ilk növbədə siyasətin güclü əks-tsiklik təsiri əsaslandırılırdı. Bu dahi iqtisadçı XX əsr iqtisadiyyatında dövlətin fəal rolu olmadan kapitalizmin inkişafını qeyri-mümkün edən səbəbləri izah edərək yazırdı ki, «Sərbəst sahibkarlıq kraliça Viktoriyanın dövründə qalmışdır». Keyns nəzəriyyəsi yalnız müharibədən sonrakı onilliklərdə, onun əsas ideyaları bütün qeyri-sosializm ölkələrinin iqtisadi siyasətinin tərkib hissəsinə çevrildikdə özünün hərtərəfli fundamental və praktiki təsdiqini tapdı. Keynsçi ideyalar həmçinin, beynəlxalq siyasət praktikasında və dünya iqtisadiyyatı nəzəriyyəsində konkret təzahür olunmuşdur.

## 2.2. Keyns məktəbinin sonu və libertarianizmin beynəlxalq siyasi arenaya çıxması

1970-ci illər bütövlükdə inkişaf etmiş ölkələr üçün çətin dövr olmuşdur: Yaxın Şərqdə ərəblər və yəhudilər arasındakı müharibə nəticəsində baş verən «neft şokları» (neftin qiymətinin dəfələrlə bahalaşması) onların bu regiondan idxal edilən neftdən asılı olan iqtisadiyyatlarını, demək olar ki, dağıtmışdı. İşsizliyin kəskin surətdə artdığı vəziyyətdə keynsçi anti-böhran və anti-tsiklik siyasətlər öz təsirini göstənuirdi. Avropa və ABŞ-da transmilli kapitalın mənafelərini əhəmiyyətli dərəcədə ifadə edən, iqtisadçı-libertarianizm düşərgəsindən olan keynsçilik əleyhdarları bu ideyalardan imtina edilməsinə müvəffəq olaraq, liderlik edən (rəsmi) iqtisadi doktrinanın nümayəndələri qismində onun yerini tutdular və bu, dərhal ümumdünya iqtisadi siyasətində və beynəlxalq iqtisadi münasibətlərin konsepsiyalarında öz əksini tapdı. Belə ki, bütün sonrakı onilliklər ərzində, qlobal böhran başlayanadək iri korporasiyaların, bankların, maliyyə mərkəzlərinin fəaliyyəti (həm milli, həm də beynəlxalq səviyyədə), kapital axınlarının beynəlxalq hərəkəti, qiymətli kağızlarla və törəmə alətlərlə (hedcinq-fondlar, derivativlər və s.) tiearət üzərində nəzarət mexanizmləri müntəzəm qaydada zəiflədilirdi. Bu, 2008-ci ildə başlamış qlobal böhranın səbəblərindən biridir.

***Beynəlxalq monetarizm libertarianizmin növü kimi.*** Beynəlxalq monetarizm neoliberal-monetarist istiqaməti məktəbindən törəmə olan iqtisadi təfəkkür cərəyanıdır. Onun nəzəriyyəçiləri ümumdünya pul kütləsinin (money supply) dəyişməsinin dünya iqtisadiyyatında inflyasiya və deflyasiya proseslərinin başlıca mənbəyi olması barədə müddəaya istinad edirlər. Belə ki, nisbətən iri ölkədə yaxud çoxsaylı kiçik ölkələrdə pul kütləsinin eyni vaxtda

sürətlə artması təsbit edilmiş valyuta məzənnələri (fixed exchange rate) rejimi şəraitində bütün dünya üzrə inflyasiya təzyiqi yaradır. Valyuta məzənnələrinin təsbit olunması nəticəsində beynəlxalq ehtiyatlar axınlarının tədiyyə balansı profisitli yaxud kəsirli olan ölkələrdə pul kütləsini müvafiq olaraq artırması yaxud azaltması, inflyasiya templərinin bütün dünya üzrə bərabərləşməsi meylini yaradır. Buradan belə nəticə çıxarmaq olar ki, təsbit edilmiş valyuta məzənnələri olan dünyada açıq iqtisadiyyatlı kiçik ölkədə inflyasiyanın templəri onun ümumdünya templərindən asılıdır.

Bu nəzəriyyələrə uyğun olaraq, aşağıdakı mexanizm işləyir. Konkret ölkədə pul kütləsinin izafi artımı nağd pul ehtiyatlarının izafi çoxalmasına və bundan sonra yerli və xarici əmtəələri, qiymətli kağızları almaq yolu ilə ölkə daxilində pul və başqa aktivlər arasında arzulanan nisbətin bərpası cəhdlərinə səbəb olur. Nəticədə tədiyyə balansının cari və (və ya) kapitalın hərəkəti maddələri üzrə xarici borclar və valyuta ehtiyatlarının azaldılması hesabına maliyyələşdirilməli olan kəsir yaranır. Ehtiyatların həcmi və borclanma imkanları ölkənin pul kütləsini və deməli, daxili qiymətlərin səviyyəsinin arta biləcəyi hüdudları müəyyənləşdirir. Bunun əksinə olaraq, tədiyyə balansının (balance of payments) cari əməliyyatlar və kapitalın hərəkəti maddələri üzrə yeni valyuta axınlarının profisiti olan ölkələrə yönəldilməsi pul kütləsinin artmasına gətirib çıxaracaq. Nağd pulların həcminin azaldılması üçün dövlət istiqrazlarının genişmiqyaslı satışı vasitəsilə daxil olan bu geniş axının qarşısını almağa cəhd göstənnək olar, amma həmin prosesin də müəyyən hüdudları vardır. İstiqrazların fasiləsiz satılması onların qiymətinin ucuzlaşması və faiz dərəcəsinin yüksəlməsi ilə nəticələnəcək, bu isə, öz növbəsində, kapital axınını stimullaşdıracaq. Beləliklə, kəsiri olan ölkədə pulların ölkədən çıxarılması və inflyasiya təzyiqinin azalması meyli müşahidə olunacaq, profisiti olan ölkədə isə pulların ölkəyə axını və deməli, inflyasiya baş verəcək. Bu proseslər nəticəsində inflyasiyanın templəri bərabərləşməli, tədiyyə balanslarının tarazlığı isə bərpa olunmalıdır.

«Üzən» valyuta məzənnələri halında daxili pul kütləsinin sürətli artımı bilavasitə valyutanın dəyərsizləşməsinə səbəb olur. Bu ölkənin rezidentləri onlarda olan pulun məbləğini azaltmağa və dəyərini xarici malların və qiymətli kağızların əldə olunması yolu ilə bərpa etməyə çalışacaqlar. Pul kütləsinin artım sürətinin gəlirlərin çoxalması sürətindən az olduğu ölkələrdə isə rezidentlər öz pul vəsaitlərinin məbləğini artırmağa cəhd göstərəcək və bu.

onlara böyük həcmdə tranzaksiyaları maliyyələşdirmək imkanı verəcək. Rezidentlərinin pul vəsaitlərinin məbləğini artınnaq məqsədi ilə ixracı artınnası yaxud xarici qiymətli kağızları satması nəticəsində ölkəyə fondların xalis axını baş verəcək. Beləliklə, real gəlirlərin sürətlə çoxalması və pul kütləsinin yavaş artımı baş verən ölkənin tədiyyə balansında kapitalların hərəkəti yaxud cari əməliyyatlar maddələri üzrə qalıq yaradan meylilərin təsiri natieəsində həmin ölkənin valyutasının dəyəri yüksələcək.

BVF inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələr üçün məhz bu siyasəti model layihəsi qismində qəbul etmişdir. Bu nəzəriyyə və ona əsaslanan siyasət 2008-2010-cu illərin qlobal böhranı zamanı iflasa uğradı.

## 2.3. Yeni məktəb: beynəlxalq siyasi iqtisad yaxud beynəlxalq iqtisadiyyat

1970-1980-ci illərdə elmdə yeni istiqamət - beynəlxalq siyasi iqtisad yaxud beynəlxalq iqtisadiyyat formalaşmağa başladı. Onun meydana çıxması müəyyən dərəcədə libertarianizmin dominantlığına şərait yaradan səbəblər, yəni ABŞ və Qərbi Avropanın iqtisadi problemlərinin atması ilə bağlı idi. İnkişaf etmiş ölkələrin özündə iri firmaların investisiya fəallığı kəskin dərəcədə zəiflədi, kapitalizm bir sistem kimi yeni, o cümlədən texnoloji inqilabın təzəcə başlanan mərhələsi tərəfindən qarşıya qoyulan məsələləri: işsizliyin artımını, 1971-ci ildə Bretton-Vuds sisteminin dağılmasını və s. aradan qaldırmaq iqtidarında olmadı.

Yeni beynəlxalq siyasi iqtisad prinsipcə təzə olan iki məsələdən qaynaqlanırdı: birincisi, dövlət aparatının işində dövlətin vəhdət təşkil edən ənənəvi siyasi fəaliyyəti ilə iqtisadi sahədə iştirakı arasında aşkar olunan «aralanmanın» aradan qaldırılmasının zəruriliyi; ikincisi, beynəlxalq münasibətlər sahəsində dövlətin siyasi fəaliyyətinin «iqtisadiləşdirilməsinin» əsaslandırılması. Beləliklə, söhbət funksiyaların daxili siyasətdə deyil, beynəlxalq iqtisadi münasibətlər sahəsində genişləndirilməsindən gedirdi. Yarandığı ilk gündən yeni məktəb özündən əvvəlki bəzi ənənələrə istinad edirdi. Belə ki, Amerika tədqiqatçıları C.Fridman, D.Layk və R.Qilpin beynəlxalq siyasi iqtisadın üç cərəyanına: ***realizmə, liberalizmə və marksizmə {neomarksizmə)*** istinad edirlər.

***iqtisadi realizm.*** Bu, iqtisadi təfəkkürün beynəlxalq münasibətlərdə siyasi amilə iqtisadi amil üzərində açıq-aşkar üstünlük verilməklə, merkan-

tilizm və millətçilik məktəblərini özündə birləşdirən ümumi istiqamətidir. İqtisadi realizm öz iqtisadi üstünlüyünü möhkəmləndirmək yaxud «hegemon mövqelərini» qoruyub saxlamaq üçün hökmran mövqe tutan dövlət tərəfindən münaqişəli hallarda hərbi-siyasi qüvvədən istifadə olunmasının zəruriliyini qeyd edir. Müasir beynəlxalq siyasi münasibətlərin nüfuzlu məktəbi olan neorealizm bu əsasda fonualaşmışdır. İqtisadi cərəyan növü kimi, «realizm» libertarianizmlə paralel inkişaf edir və Fridman libertarianizminin ümumi məcrasında bir növ «ehtiyat» yaxud «paralel» rol oynayır.

***Neorealizm.*** Beynəlxalq münasibətlər haqqında elmdə neorealizmin meydana çıxması, professor P.A.Tsıqankovun qeyd etdiyi kimi, Kennet Uoltsun «Beynəlxalq siyasət nəzəriyyəsi» kitabının (1979) nəşri ilə əlaqələndirilir. Neorealizm məktəbinin nümayəndələri qarşılanna yeni beynəlxalq şərait nəzərə alınmaqla, klassik nəzəriyyənin üstünlüklərini qoruyub saxlamaq vəzifəsini qoyurdular. Bu halda da siyasi realizmin «qüvvə», «milli maraqlar», «rasional davranış» və sair anlayışları beynəlxalq münasibətlərin təhlilinin əsas vasitəsi kimi qalır. Eyni zamanda neorealizm siyasi sahənin beynəlxalq münasibətlərin başqa sahələrindən (məsələn, iqtisadi) ayrılmasının zəruriliyinə əsaslanır, bu isə, qanunauyğunluqlar axtarılarkən diqqəti ona xas olan cəhətlərin öyrənilməsi üzərində cəmləşdirməyə imkan verir. Qeyd edək ki, beynəlxalq münasibətlərin «iqtisadiləşməsi» prosesinin qaçılmaz olduğu şəraitdə iqtisadiyyatın siyasətdən bu cür «təcrid edilməsi» tədqiqatın obyektini və subyektini açıq-aşkar kəsadlaşdırır.

Uoltsa görə, beynəlxalq sistemin aparıcı prinsipi beynəlxalq münasibətlərdə min illər boyu dəyişməyən anarxiyadır. Uoltsun fikrincə, buna görə də gələcəkdə anarxiyanın öz keyfiyyətini itirəcəyini ehtimal etməyə əsas yoxdur və beynəlxalq sistemin dəyişdirilməsinə yönələn, liberal-idealist təsəvvürlərə istinad edən bütün layihələr uğursuzluğa düçardır. Digər tərəfdən, beynəlxalq sistemin struktur xüsusiyyətləri əslində kiçik və orta dövlətlərin fəaliyyəti ilə, demək olar ki, əlaqədar olmayaraq, fövqəldövlətlər arasında qarşılıqlı əlaqələrin nəticəsidir. Deməli, beynəlxalq münasibətlərin «təbii halı» yalnız sonunculara xasdır. Başqa ölkələr fövqəldövlətlər tərəfindən yaradılan beynəlxalq siyasətin nüfuz dairəsindədir. Neorealistlərin bu ideyası beynəlxalq münasibətlərdə dövlətin dominant rolunun əbədiliyi prinsipinə əsaslanır. Məsələn, Uolts iddia edir ki, ayrı-ayrı ölkələrin rolu eyniləşdikcə, ölkələrin qarşılıqlı asılılığı barədə yaranan fikir yalnız dəyişən beynəlxalq şəraitin

emosional tərzdə qavramimasının nəticəsidir; o, yalnız mikro-səviyyədə mövcuddur və bu, dünya iqtisadiyyatında TMK-nın mövqelərinin güclənməsində təzahür olunur. Amma qarşılıqlı asılılıq dövlətin roluna əhəmiyyətli dərəcədə təsir göstərmir. Bundan savayı, hakimiyyətin fövqəldövlətlərin dar çərçivəsində cəmləşməsi qarşılıqlı asılılığın, çox ehtimal ki, zəifləməsinə dəlalət edir. Bu müddəa müasir dövrlə müqayisədə XVII-XIX əsrlərdə daha güclü asılılığı olan Avropa dövlətlərinin timsalında daha aydın görünür. Bir sıra zəif cəhətlərinə («təbii vəziyyətin» əbədiliyi və dayanıqlığı, beynəlxalq sistemin sabitləşdirilməsi üsulu kimi güclər arasında tarazlıq, kiçik və orta ölkələrin roluna əhəmiyyət verilməməsi və s.) baxmayaraq, neorealizmin güclü dövlət ideyasına əsaslanan ilkin şərtləri bir çox iri dövlətlərdə kifayət qədər populyardır və beynəlxalq münasibətlərdə neoliberalizm məktəbi ilə real rəqabət apara bilir.

***Neoliberalizm.*** Neorealizm ideyalarının cazibəli olmasına baxmayaraq, onun müddəaları, fövqəldövlətlərin hakim dairələrinə kifayət qədər arxaik görünür. İki siyasi-iqtisadi sistem arasında qlobal sistemlərarası («so3mq») müharibə keçmişdə qalmışdır. Ümumi siyasi meyillərin beynəlxalq terrorizmlə mübarizənin keçmiş kommunizm sistemi ilə rəqabəti əvəz edərək, çox güman ki, əsas hədəfə çevriləcəyinə baxmayaraq, müasir şərait beynəlxalq siyasi və iqtisadi münasibətlərin təhlilinə tamamilə başqa yanaşmalar tələb edir. Dünya sosializm sistemi dağıldıqdan sonra beynəlxalq münasibətlər nəzəriyyəsinin belə istiqamətlərindən biri neoliberalizmdir. Müasir neoliberalizm keçmiş dövrlərin klassik siyasi və iqtisadi məktəbinin cərəyanlarından biri olan klassik liberalizmdən keyfiyyətcə fərqlənir; o, Samuelson tərəfindən düzgün olaraq *libertarizm* - ABŞ və başqa inkişaf etmiş ölkələrin sağçı işgüzar və siyasi qüvvələrinin radikal ideologiyası kimi xarakterizə olunmuşdur. Bu cərəyanın əsas ehkamlarını sadalayaq.

Birincisi, dövlət beynəlxalq siyasi və iqtisadi səhnədə yeganə və əsas agent deyil və bundan əlavə, heç də bütün dövlətlər, ümumiyyətlə, bu agent qismində çıxış etməyə qadir ola bilməz. Burada qüdrətli TMK-lar, TMB-lər, müxtəlif qeyri-hökumət birlikləri, peşə assosiasiyaları, cinayətkar və terrorçu qruplar fəaliyyət göstərir. Beynəlxalq münasibətlərin istənilən iştirakçısı burada əhəmiyyətli dəyişikliklər apara, dövləti gözlənilməz addımlar atmağa məcbur edə bilər.

İkincisi, beynəlxalq münasibətlər sistemi idarəetmə alətlərinin itirilməsi

təhlükəsi altındadır. Dünya kommunizminin süqutundan sonra insanların ünsiyyət imkanlarının genişlənməsi, dövlətlərin parçalanmasını müşayiət edən stress vəziyyəti, müharibələr və silahlı, o cümlədən etnik münaqişələr, çoxsaylı inşan kütləsinin yerdəyişməsi, qeyri-sabitliyi gücləndirən, əhalinin böyük hissəsinin yoxsulluğunu artıran, aclığına, dilənçi halına düşməsinə səbəb olan cinayətkarlıq və terrorizm - bütün bunlar gözlənilən qlobal sarsıntıların və hətta anarxiyanın əlamətləridir. Bu problemlərin həlli və təhdidlərin qarşısının alınması üçün məşhur «kooperativ təhlükəsizlik» konsepsiyası, yəni be}məlxalq əməkdaşlığın yeganə dövlətin himayəsi altında möhkəmləndirilməsi yolu təklif edilir.

Üçüncüsü, neoliberalizm dövlət daxilindəki münasibətlərə, bir tərəfdən, dünya ictimaiyyəti, digər tərəfdən isə, ayrıca götürülən fərdlə müqayisədə törəmə qismində yanaşma ənənəsini gücləndirir. Buna görə də, be3məlxalq münasibətlər sahəsində qərarlar qəbul edilərkən həm qlobal sosiuma, həm də ayrıca götürülən fərdə üstünlük verilir. Buna uyğun olaraq, ölkələrin suverenliyi problemi sanki «əriyir». Dövlət siyasətinin qiymətləndirilməsi üçün əsas mənəvi meyarlar qismində irəli sürülən ***«liberal demokratiya*** və ***insan hüquqları»*** konsepsiyası bunun əsasında inkişaf edir, özü də, istənilən ölkə bu meyarlara cavab verməlidir. Qeyd edək ki, məhz bu «meyarlara» müvafiq olaraq, 1990-cı illərdə Rusiyanın iqtisadi siyasətinə Milton Fridmanm libertarianizm ideyalarına əsaslanan Vaşinqton konsensusunun konstruksiyaları daxil edilmişdir. Onlara uyğun olaraq, həm Rusiyaya, həm də başqa, o cümlədən, inkişaf etməkdə olan ölkələrə əslində tərk-sənayeləşmə ilə nəticələnən iqtisadi islahatlar siyasəti qəbul etdirilmişdi. Rusiyaya dəyən ziyan 1941-1945-ci illərin Böyük Vətən müharibəsindəki itkilərlə müqayisə olunandır. Nəticədə ölkə hətta bu gün xalqın rifahının 1980-ci illərin ortalarmdakı səviyyəsinə yaxınlaşa bilməmiş, cəmİ3^ətin sosial təbəqələşməsi isə qorxu doğuran həddə çatmışdır.

Dördüncüsü, həm neoliberalizm, həm də neorealizm təhlükəsizliyin təmin edilməsini dünya ictimaiyyəti qarşısında duran əsas məsələlərdən biri hesab edir. Onun tərəfdarları belə bir prinsipal müddəaya istinad edirlər ki, təhlükəsizliyə nail olunmasının yeganə yolu bütün dünyada demokratiyanın bərqərar edilməsi və demokratik dövlətlərin birləşməsidir. Amma «demokratik dövlətlər» qrupuna BMT üzvü olan 200-dən çox dövlətdən yalnız 30-35 ölkə daxil edilmişdir. Bəs qalan 170 ölkəyə necə yanaşmalı? Cavab yoxdur.

Neoliberalizmin və onun növü olan libertarianizmin tənqidi dövlətlərin və xalqların bərabərsizliyinə, dünyada iqtisadi tarazlığın pozulmasına, dünya maliyyə sisteminin qeyri-sabitliyinin artmasına, ölkələrin sosial problemlərinin kəskinləşməsinə, dövlətin öz ayrılmaz funksiyalarını itirməsinə və s. əsaslanan beynəlxalq iqtisadi siyasət doktrinasının doğurduğu real ziddiyyətlərin təhlilinə əsaslanır.

***Neoınarksizm.*** Ehkamçılıqdan tutmuş, bəzi mühüm marksist müddəalara qarşı tənqidi yanaşmayadək baxışlar neomarksizm adlandırılsa da, bütövlükdə bu nəzərİ3^ə dünyada yaranmış müasir iqtisadi vəziyyəti ümumi marksist mövqelərindən izah edir. Neomarksizmin ardıcılları həm marksist təhlil aparatını, həm də ictimai-siyasi proseslərin təhlilinə yanaşmaları təkmilləşdirməyə cəhd göstərirlər. 1960-1970-ci illərdə Qərbi Avropada marksist təhlilinin yenidən canlanması marksizm nəzəri}^əsinin müasir iqtisadi nəzəriyyənin əsas cərəyanına inteqrasiya edilməsi sayəsində mümkün olmuşdur. Marksistlərin çoxu məcmu tələbatın müasir iqtisadi nəzəriyyələrinin əhəmiyyətini təsdiq edirlər. Marksist iqtisadi nəzəriyyənin P.Baran və P.Suizi kimi marksistlər tərəfindən ona keynsçi nəzəriyyə elementlərinin və son illərdə kapitalizm sistemində baş verən real dəyişikliklərin daxil edilməsi yolu ilə modernləşdirilməsi, Kari Marksm iqtisadi nəzəriyyəyə töhfəsinin məşhurlaş- masına səbəb olmuşdur. İtalyan iqtisadçı P.Sraffa və Kembric məktəbinin nümayəndələri tərəfindən neoklassik nəzəriyyənin tənqidi baxımdan təhlili də, marksist nəzəriyyəyə, əmək dəyəri nəzəri)^əsinə və transformasiya problemlərinə yenidən baxılmasına öz təsirini göstərmişdir. Marksizm məktəbi iqtisadçılarının ümumi vəzifəsi kapitalizm iqtisadi sisteminin uzunmüddətli inkişafını təhlil etməkdən ibarətdir və bu zaman kapital yığımının roluna, izafi dəyərin bölüşdürülməsinə, ictimai siniflərin qarşılıqlı münasibətlərinə xüsusi diqqət yetirilir.

Hazırda neomarksist baxışlar Latın Amerikasının universitet dairələrində, Rusiyada və Çində geniş yayılmışdır. Qərbi Avropa dövlətlərində neomarksizm 2008-2010-cu illərin qlobal iqtisadi böhranı zamanı, iri korporasiyalar kapitalizmi nüfuzunu itirdikdən sonra güclü təkan almışdır.

## 2.4. Beynəlxalq iqtisadi münasibətlərin müasir nəzəriyyələri

***Beynəlxalq siyasi iqtisad.*** Beynəlxalq iqtisadi münasibətlər əsas fənlərindən biri «beynəlxalq iqtisadiyyat» olan beynəlxalq siyasi iqtisad kateqoriyası çərçivəsində tədqiq edilir. Predmetin tədqiqi əsasən aşağıdakı istiqamətlərdə həyata keçirilir;

1) beynəlxalq iqtisadi mexanizmlərin köklərinin aşkar olunması və adekvat siyasi qərarların işlənib hazırlanması nöqteyi-nəzərindən. Əvvəlki əsərlərimdə təhlil olunmuş «Vaşinqton konsensusu»nu buna nümunə kimi göstəmrək olar;'

2) iqtisadi və siyasi elmlərin metodlannm intensiv inteqrasiyası prosesi baş verir, beynəlxalq iqtisadi münasibətlərin təhlilində inteqral yanaşma fonualaşır;

3) beynəlxalq siyasi münasibətlər çərçivəsində beynəlxalq siyasi iqtisadın vahid elm kimi, o eümlədən siyasi və iqtisadi yanaşmalar arasındakı fərqin aradan qaldırılması məqsədilə institusional fonnaları və alətləri işlənib hazırlanır. Bu prosesin kifayət qədər mürəkkəb və güman ki, o qədər də məhsuldar olmadığı aşkar edilmişdir.

Beləliklə, beynəlxalq iqtisadi münasibətlər nəzəriyyəsinin ümumi inkişafı mono-fənn kimi yanaşmanın məhdudiyyətlərinin aradan qaldırılması istiqamətində gedir, bu isə, öz növbəsində, iqtisadi problematikanın mürəkkəbləşməsi ilə nəticələnir; eyni zamanda nəzərij^ə qarşısında dünya təsərrüfatının inkişafının siyasi tələblərinə cavab vermək vəzifəsi qoyulur.

Buna baxmayaraq, beynəlxalq siyasi iqtisad çərçivəsində çox ziddiyyətli meyillər inkişaf edir. Belə ki, bəzi iqtisadçılar beynəlxalq siyasi iqtisadın yeni məktəbinin: birincisi, siyasi və iqtisadi amillərin heç də inteqrasiya əsasında deyil, siyasi elementin üstünlüyü şəraitində divergensiyası ilə; ikincisi, neorealizm tərəfə çox güclü əyintisi ilə və üçüncüsü, «hakimiyyət fetişizminin» yenidən dirçəlməsi ilə xarakterizə olunduğu fikrindədir.

***M.Olsonun «kollektiv təsir» nəzəriyyəsi.*** Neorealizmin istiqamətlərindən biri professor M.Olsonun «ümumi dəyərlər» nəzəriyyəsinin və «liderlik» anlayışının konseptual yanaşmalarına istinad edən «kollektiv təsir» nəzəriyyəsidir. «Ümumi dəyərlər» nəzəriyyəsi məşhur tarixçi və iqtisadçı Kindiberger

^ *Хасбулатов Р.И.* Мировая экономика. Теория, принципы, политика. В 2 т. М., 2001.

tərəfindən işlənib hazırlanmışdır. Olsona görə, beynəlxalq münasibətlərdə dominantlıq edən dövlət beynəlxalq sistemə xas olan arxaikliyi məhdudlaşdırmaq və «hegemonçu sabitlik» təmin etməklə, beynəlxalq sistemdə «kollektiv sərvətləri» bölüşdünuək iqtidarındadır. Kindibergerin fikrincə, «dünya iqtisadiyyatının sabitləşməsi üçün tarazlaşdırıcmm, yeganə tarazlaşdıncmm olması vacibdir». Hegemonçu sabitlik nəzəriyyəsinin ardıcılları həm 1929-1933-cü illərin Böyük böhranının, həm də İkinci Dünya müharibəsinin səbəblərini bu cür beynəlxalq tarazlaşdırıcmm olmamasında görürlər. ABŞ möhkəmləndikcə, onlar məhz Amerikanı Kindibergerin beynəlxalq münasibətlər sistemində zəruriliyini təkidlə qeyd etdiyi bu cür «tarazlaşdırıcı» qismində nəzərdən keçirməyə başladılar. Deməli, bütün bəşəriyyət üçün «ümumi dəyərlər» naminə dünya ictimaiyyəti ilk növbədə Amerika Birləşmiş Ştatlarının maneəsiz inkişafını təmin etməlidir - həmin doktrinanın dolayısı ilə əsaslandırdığı nəticə budur.

***Beynəlxalq rejimlər nəzəriyyəsi*** neoliberal meyil çərçivəsində inkişaf etmişdir. Bu nəzəriyyənin konseptual və məzmun müddəaları neoliberal ideyalarla qovuşur. R.Kohen və C.Nay özlərinin birgə əsərində bu istiqamət haqqında yazarkən, onu «ətrafında müəlliflərin ehtimallarının cəmləşdiyi aşkar və gizli prinsiplərin, normaların, qaydaların və məsələlərin həlli prosedurlarının məcmusu kimi izah edirlər... Beynəlxalq rejimlər son nəticədə bir növ «kollektiv sərvətlərin» bölgüsünə yardım edən «hegemon dövlətin» (dövlətlər birliyinin) fəaliyyət dairəsini müəyyənləşdirir».

Göründüyü kimi, nəzərdən keçirdiyimiz iki nəzəri yanaşma arasındakı fərq 0 qədər də böyük deyil: «hegemonçu sabitlik» nəzəriyyəsinin tərəfdarları üçün «rejimlərin» saxlanması dominant dövlət statusunu (onun hegemonluğunu) təmin edən imperativ şərtdir; beynəlxalq rejimlər nəzəri}^əsində isə bu şərt o qədər də qəti qoyulmur. Kohenin rəyinə görə, sonuncu nəzəriyyədə başlıca məqam onun «dövlətlərin gələcəyi nəzərdə tutmayan maraqlarının» aradan qaldırılmasına köməklik edə biləcək dövlətlərarası kooperasiyanın müxtəlif formalarını yaratmağa imkan vennəklə, «rasional seçim» konsepsiyasını zənginləşdirməsidir.

Neoliberalizmin ümumi bazasına əsaslandığına yaxud onunla qovuşduğuna görə, nəzəriyyənin hər iki növü kifayət dərəcədə yaxındır. Bu səbəbdən, müasir siyasi iqtisadın banilərindən bəzisi, o cümlədən S.Strenc və R.Qilpin onlar arasındakı ziddiyyətlərin aradan qaldırılması (həmçinin, bir sıra

neomarksist konsepsiyalardan yararlanmaqla) üzrə cəhdlər göstərmişdir. Bu problemin başqa məşhur tədqiqatçısı J.Kussinin qeyd etdiyi kimi, sonuncu məqamı «beynəlxalq siyasi iqtisad üzrə bir çox əsərlərdə müşahidə etmək olar».

Bunun üçün, göstərilən müəlliflər qeyd etdiyimiz bütün nəzəriyyələr çərçivəsində tənqidi axtarışlan birləşdirmək məqsədi güdən ümumi problemləri ifadə etmişlər. Belə ki, onlar sualları üç qrup üzrə birləşdinnişlər:

1) qlobal bazar iqtisadiyyatının genezisi barədə ümumi sual: bazar özünün inkişaf məntiqinə tabedir yaxud dövlətin təsirindən, onun tənzimləyici hərəkətlərindən asılıdır?

2) iqtisadi və siyasi amillərin qarşılıqlı təsiri barədə suallar: məsələn, iqtisadi qeyri-sabitlik ölkələrdə gedən siyasi proseslərə necə təsir göstərir? Dövlətlərin öz suverenliyini qorumaq səyləri ilə iqtisadi tənzimləmə üsullannın qloballaşması neçə əlaqələndirilir?

3) dövlətlərin qloballaşan məkana «daxil olması» məsələsi: dövlət bazara nəzarətin hansı vasitələrinə malikdir və bazarın (bazar qüvvələrinin), dövlət tərəfindən qo5nılan məhdudiyyətləri dəf etmək ehtimalı da daxil olmaqla, hansı imkanları vardır?

Qilpinin çıxardığı ümumi nəticə bundan ibarətdir ki, «dünyaya iqtisadi sabitlik ümidini mülayim formada olan merkantilizm verir». Bu, neorealizmin mövqeyidir.

***BİM nəzariyyBsində dövlət və bazar.*** Beynəlxalq siyasi iqtisadın yaxud BİM-in əsas məsələsi dövlətlə bazar arasında nisbətdir. BİM sahəsində mütəxəssislərin çoxu, o cümlədən S.Strenc bu məsələni dövlət hakimiyyətinin struktur təhlili baxımından nəzərdən keçirir. Məsələn, S.Strenc hakimiyyətin qarşılıqlı ünsiyyətdə olduğu dörd strukturu sadalayır: istehsal, təhlükəsizlik, biliklər və maliyyə.

Onun fikrincə, beynəlxalq sistem ziddiyyətlərin həllinə öz mövqeyindən yanaşılmasını bu dörd struktura zorla qəbul etdirməyə çalışan müxtəlif tip hakimiyyətlərin mübarizəsinin, toqquşmalarının, danışıqlarının və qarşılıqlı güzəştlərinin arenasıdır. Müasir zamanda təsvir olunan mübarizədə bazar qüvvələrinin üstünlüyü müşahidə olunur və bunun səbəbləri: birincisi, texnoloji inqilab, ikincisi isə kapitalın dəyərinin artması və müəssisələrin öz fəaliyyətinin maliyyələşdirilməsinə tələbatının çoxalmasıdır. Bu isə, öz növbəsində, hakimiyyətin dövlətdən TMK-ya və banklara keçməsinə doğru

aparır. İqtisadiyyatın bütün sahələrində istehsal fəaliyyəti dövlətin iştirakı olmadan həyata keçirilir, firmalar dövlətin sosial idarəetmə, məşğulluğun təmin olunması, əmək şəraitinin və onun ödənilməsi şərtlərinin müəyyənləşdirilməsi funksiyalarına yiyələnmişdir. Bütün bunlar artıq qanunlarla deyil (hərçənd, onlar formal qüvvəsini saxlasa da), firmaların özünün daxili reqlamenti ilə tənzimlənir. Onlar dövlətin fiskal orqanlarını öz mənafelərinə xidmətə vadar etməklə, vergi sahəsində güclənən rol oynayırlar. İri korporasiyalar siyasətdə, təhlükəsizlikdə, iqtisadiyyatda, kommunikasiyalarda dövlətin oynadığı rola xələl gətirir və hətta onun zorakılıq üzərində mütləq inhisarına qəsd etməyə çalışır (özlərinin polis dəstələrini, axtarış xidmətlərini, xüsusi həbsxanalarını yaradır). Bununla belə, dövlətin «ixtisar olunmasının», onun funksiyalarının «çözülməsinin» necə baş verdiyinin çox gözəl təhlilini aparan S.Strenc belə bir nəticəyə gəlir ki, bütün bunlar dövlətin «yoxa çıxacağı» yaxud TMK-nın tam nəzarəti altına keçəcəyi ehtimalını ifadə etmir. Tarix göstərir ki, institusional- siyasi və iqtisadi hakimiyyətlər arasındakı nisbət dəyişən, keçici amildir. Ümumdünya iqtisadi böhranmadək vəziyyət dövlətin xeyrinə deyildi və bu, qlobal böhranın əsas səbəblərindən biri olmuşdur. Amma vəziyyətin gələcəkdə necə olacağını qloballaşma göstərəcəkdir.

S.Strencin nöqteyi-nəzərincə, dövlətlər arasında asimmetriyanm artması onların öz cəmiyyətlərini və iqtisadiyyatlarını idarə etmək qabiliyyəti baxımından daha əhəmiyyətlidir. Onun rəyinə görə, dövlətdə gedən bütün ictimai prosesləri səmərəli tərzdə tənzimləmək üçün lazım olan strukturlar yalnız ABŞ-da mövcuddur. Strencə görə məhz bu səbəbdən ABŞ-m hegemonluğunu itirməsi barədə nəticə əsassızdır, xəyali xarakter daşıyır. Strencin əsas ideyalarını qiymətləndirən Qrats qeyd edir ki, «S.Strencin iqtisadi strukturalizmi təkcə nəzəri sinkretizm, yəni beynəlxalq siyasi iqtisadla rəqabət aparan mövqelərdə ifratçılığın aradan qaldırılmasına və üstünlüklərin birləşdirilməsinə cəhd olmamışdır». Mahiyyət etibarilə, bu cür təfsir qloballaşma proseslərinin və bu proseslərin daşıyıcıları olan TMK-nın mədhiyyəsi deməkdir, bu isə, Vaşinqton konsensusu ruhunda müasir iqtisadi neolibe- ralizmin əsasını təşkil edir. Kussi ədalətli olaraq yazır ki, «Strencin bu cür təfsir olunmasının bir çox müddəaları neoklassik yanaşmalara istinad edən «neoliberal inqilabla» paradoksal şəkildə üst-üstə düşür».

***TMK-nın qloballaşması konsepsiyası: dövlət və milli müstəqillik.*** istehsal amillərinin inkişafının təbii prosesi və iri korporasiyaların

strategiyasının nəticəsi kimi nəzərdən keçirilən qloballaşma iqtisadi strukturalizmin əsas kateqoriyalarından biri kimi çıxış edir. «Yeni siyasi iqtisad» bunları müasir texnoloji inqilab şəraitində inkişafın obyektiv qanunları kimi izah edərək, qloballaşma proseslərinin tənzimlənməsi məsələsinin gündəmə gətirilməsini belə, «nəzakətsiz hərəkət» hesab edir və bununla da həmin müddəaları daha da gücləndirir. Müstəsna olaraq iqtisadi qanunlara tabe olan bazarlara istənilən müdaxilənin «nasazlıqlara» gətirə biləcəyinə görə, onlara dövlət tərəfindən təsir göstərilməsi cəhdləri də, eyni dərəcədə «qeyri- rasional» təsəvvür olunur. Buna görə də beynəlxalq iqtisadi münasibətlərin «yeni siyasi iqtisadı» tərəfdarlarının mülahizələr sistemi müasir iqtisadi proseslərin «siyasətdən təcrid olunmasının» zəruriliyi barədə nəticəyə gətirib çıxarır. Bu məktəbin nümayəndələri, o cümlədən A.Kryuger, R.Palan, D.Kollander belə bir ideyanı əsaslandırmağa çalışırlar ki, milli iqtisadiyyatın dövlət tənzimlənməsi irrasional prosesdir və onu özünütənzimləmə (yəni bazar) əvəz etməlidir. Bunun nəticəsində beynəlxalq iqtisadi münasibətlər siyasətdən uzaqlaşacaq, dövlətlərarası münaqişələrin əsası zəifləyəcək, dövlətin rolu isə yalnız təmsilçilik funksiyaları ətrafında cəmləşəcək. Bu mülahizələrin qeyri- konstruktiv olmasını yenə də dünyada baş verən böhran göstərdi: bu zaman TMK-lar, 0 cümlədən onlann ən iriləri öz bacarıqsızhğım və çaşqınlığını göstərdiyi halda, yalnız dövlətin və cəmiyyətin müdaxiləsi nəticəsində onun aradan qaldırılması mümkün oldu.

Lakin bu nəzəriyyənin tərəfdarlarının fikrinə görə, qlobal liberallaşma universal əsasda, hətta lazım gələrsə, güc tətbiq edilməklə yayılmalıdır və bu halda dövlətin imkanlarından istifadə istisna olunmur. Qəribə olsa da, onların düşüncəsinə görə, dövlət öz məhvini təmin etmək üçün özünün amirlik səlahiyyətlərindən istifadə etməlidir. Amma belə bir paradoks neoliberalları çaşqın vəziyyətə salmır. Gücdən istifadə səciyyəvi olsa da, fövqəladə tədbirdir və hələ də nüfuzlu olan bu doktrinanın tərəfdarları iqtisadi siyasətin seçilməsinə ehtiyatla yanaşan ölkələrə neoliberalizm və be)məlxalq monetarizmin açıq-aşkar zorla qəbul etdirilməsində beynəlxalq təşkilatların (ÜTT, BVF, DB və s.) imkanlarından yararlanmağın mümkünlü5mnü nəzərdən keçirir. Qeyd edək ki, qlobal böhranın baş verdiyi 2008-ci ilədək neoliberalizm, demək olar ki, bütün iqtisadiyyat aləmini fəth etmişdi.

Bütövlükdə isə, beynəlxalq siyasi iqtisadda təmsil olunan müxtəlif növ liberalizm və libertarianizm doktrinaları aydın ifadə edilən, nəzəri kompro

misləri çətinləşdirən ehkamçı müddəalarla, beynəlxalq iqtisadi münasibətlərdən iqtisadi elementləri «sıxışdırıb çıxararaq», bazar qüvvələrinin hətta kraliça Viktoriya vaxtında, liberalizmin və fritrederçiliyin ən yüksək tərəqqisi dövründə belə mövcud olmayan, daxili və xarici iqtisadi proseslərin dövlət tənzimlənməsinin minimum səviyyəyə endiyi sərbəstliklə əvəzlənməsi cəhdləri ilə səciyyələnir.

Elmi inandırıcılıq baxımından aşkar qüsurluğuna və neoliberalizm konsepsiyalarına əsaslanan iqtisadi siyasətin daimi «uğursuzluqlarına» baxmayaraq, bu məktəb heyranedici inadla bütün dünyaya yayılırdı. Şübhəsiz ki, bu, həmin konsepsiyanın TMK və TMB-nin özünün birgə gücü baxımından bütün dövlətlərin olmasa da, onların çoxunun ümumi imkanlarını üstələyən unikal lobbiçinin - strateji maraqlarına daha çox cavab verməsi ilə izah edilir. Bununla bərabər, TMK və TMB-nin aparıcı dövlətlərin hökumətləri ilə sıx əlaqədə olmasını nəzərə alsaq, onların qüdrətinin, siyasətə, sosial münasibətlərə, zəhmətkeş kütlələrin vəziyyətinə təsir gücünün artmasının təsadüf olmadığı aydınlaşar. Belə bir fakt paradoksaldır ki, heç bir hökumət (hətta inkişaf etməkdə olan ölkələr sırasından) 1960-1970-ci illərdə olduğu kimi, onlarla münaqişəyə ginrıəyə cəsarət etmir. Burada bəzi təbliğatçılann əsassız olaraq iddia etdikləri kimi, ölkələrin «kommunizm əsarətinə» düşməsi ilə bağlı olan seçiminə müəyyən şərait yaradan rəqib dünya iqtisadi sisteminin (sosializmin) süqutu öz rolunu oynamışdır. Əsas səbəb başqadır: bütün ölkələrin qarşılıqlı bağlılığı və qarşılıqlı asılılığı getdikcə güclənir; bu əlaqələrdə yoxsul ölkələr daha da zəifləyir və ictimai-iqtisadi inkişafın qarşısıalınmaz hadisələri onlann asılı «paradiqma» vəziyyətində öz iqtisadi siyasətinə təsir etmək imkanlarını daha da daraldır.

## 2.5. Beynəlxalq münasibətlərin radikal solçu nəzəriyyələri: hiper-liberalizmin tənqidi

Libertarianizm, neoliberalizm, realizm və digər nəzəri}^ələrin ən radikal tənqidçiləri qismində ənənəvi olaraq, rəsmi libertarianizm doktrinasının iflası sayəsində son illərdə mövqeləri möhkəmlənmiş neomarksist siyasi iqtisadın nümayəndələri çıxış edirlər. Belə bir məqamı qeyd edək ki, ümumilikdə onlar müasir beynəlxalq siyasi-iqtisadi nəzəriyyənin inkişafında nəzərəçarpan rol oynamışlar. Bu istiqamətin ictimai-iqtisadi təfəkkürün kifayət qədər geniş və

müxtəlif cərəyanlarım özündə birləşdinnəsi, onu ənənəvi klassik marksizmdən əsaslı dərəcədə fərqləndirir. Xatırlayaq ki, keçmiş SSRİ ölkələrində marksizmin və neomarksizmin tədqiqatları cüzi dərəcədə aparılır, müəlliflərin əksərİ3^əti isə nüfuzlu iqtisadçı alimlər sırasında hətta böyük mütəfəkkir K.Marksı (indi imperializmi çox uğurla tədqiq etmiş V.İ.Leninin adı çəkilmir) yada salmaqdan sözün tam mənasında utanırlar.

Neomarksizm nəzəriyyələri Qərbdə müəyyən dərəedə yayılmış və yayılmaqdadır. Onlar inkişaf etməkdə olan ölkələrdə, xüsusilə Latın Amerikasının universitetlərində həmişə geniş təmsil olunmuşdur. İqtisadi nəzəri}q/ə sahəsində strateji ideyaların çatışmadığı müasir dövrdə neomarksist konsepsiyaların «marjinallığı» barədə danışmaq prinsipcə düzgün deyil və yeni konseptual ideyaların meydana çıxmasını, ilk növbədə, inkişaf etməkdə olan ölkələrin məktəblərindən gözləmək lazımdır.

Məlumdur ki, beynəlxalq iqtisadi nəzəriyyədə neomarksist istiqamətin yaranmasında Argentina iqtisadçısı Raul Prebişin 1950-ei illərdə rəhbərlik etdiyi BMT-nin Latın Amerikası üzrə İqtisadi Komissiyası (ECLA - Economic Comission for Latin Ameriea) çərçivəsində işləyən alimlər qrupunun əsərləri böyük rol oynamışdır. Eləmin dövrdə Prebiş və onun məsləhətçi-alimlər qrupu regiondakı iqtisadi vəziyyətin təhlilinə «amillərlə təmin olunma» mövqeyindən yanaşmaya əsaslanan neoklassik baxışların dar çərçivəsi ilə kifayətlənən realizm konsepsiyasının əsaslandırılmış tənqidi təşəbbüsü ilə çıxış etdi. Prebiş qitənin xammal ixrae edən ölkələri («əmək amili ilə təmin olunmuş») və hazır məhsullar ixrac edən ölkələri («kapital amili ilə təmin olunmuş») arasında kapitalist əmək bölgüsünün onun geridə qalmış formalarını saxladığını sübut edərək, bu konsepsiyanı dağıdıcı tənqid atəşinə tutdu.

Latın Amerikası ölkələrinin timsalında «periferiya kapitalizminin» problemlərini hərtərəfli nəzərdən keçirərək, Prebiş bir sıra, o cümlədən TMK- nın fəaliyyəti, qitədə ticarətin, investisiya siyasətinin xüsusiyyətləri və s. ilə bağlı olan qarşılıqlı asılılıqları aşkar etmişdir. Prebiş «periferiyanın» «mərkəzdən» asılılığının aradan qaldırılması yolunu qitə ölkələrinin xammal ixracına istiqamətlənmiş iqtisadiyyatının əhalinin əsas ehtiyaclarının ödənilməsinə yönəlmiş iqtisadiyyatla əvəz olunması məqsədilə iqtisadi siyasətdə köklü dəyişikliklərin aparılmasında görürdü. Bununla bərabər, Prebiş sənayeləşmənin («idxalın əvəzləndirilməsi») TMK-nı qəbul edən ölkələrin maraqlarının nəzərə alınmasının yeni prinsiplərini və s. təklif edirdi.

Müasir dövrün məşhur iqtisadçıları (onları bəzən neomarksist adlandırırlar), o cümlədən I.Vallerstayn, S.Amin, Y.Qaltunq, R.Koks və başqaları *beynəlxalq münasibətləri müxtəlif dövlətlərin, iqtisadiyyatların, cəmiyyətlərin, ideologiyaların və mədəniyyətlərin qlobal sistemi* kimi müəyyən edir. Bu nəzəriyyəçilərin istifadə etdiyi əsas anlayışlar «ümumdünya sistemi» («dünya-sistem») və «dünya iqtisadiyyatı»dır. «Dünya iqtisadiyyatı» anlayışı beynəlxalq agentlərin qarşılıqlı münasibətləri sistemini əks edir və burada iqtisadi baxımdan daha güclü olan tərəf həlledici rol oynayır. Onların baxışlarına müvafiq olaraq, dünya iqtisadiyyatının əsas əlamətləri istehsalın ümumdünya miqyasında təşkili, əmək bazarının seqmentləşməsi, istehlak modellərinin standartlaşması, dövlətin maliyyə sahəsinə müdaxilə imkanlarının məhdudlaşması və «hərtərəfli maliyyələşmə» (maliyyə alətləri ilə manipul-yasiya) meylilərinin qlobal miqyasda güclənməsi, total özəlləşmə şəraitində TMK-nın, maliyyə idarələrinin əhəmiyyətinin artmasıdır. Bu konseptual müddəalar bütövlükdə dünya iqtisadiyyatında 2008-ci ilədək mövcud olan reallığı əks etdirirdi.

Neomarksistlər dünya kapitalizm sistemini sosial xərclərin azalmasına, tam məşğulluq siyasətinin pozulmasına, vergi (fiskal) sistemlərinin varlı ölkələrin maraqlarına uyğun olaraq dəyişdirilməsinə görə kəskin tənqid edirdilər. Onlar düzgün qeyd edirdilər ki, dövlətlər öz sosial funksiyalarını get- gedə itirir, əhali dövlət hakimiyyəti elementlərini (onlara keçən sosial funksiyalarla bərabər) ələ keçirən qüdrətli korporasiyalar və banklarla təkbətək qalır. Bu siyasət nəticəsində beynəlxalq sistemin üzvləri (agentləri) arasında qeyri-bərabərliyin artması prosesi sürətlənir. Bu isə, öz növbəsində, sistemin «periferiya» agentlərinin (zəif inkişaf etmiş ölkələr və regionlar) «mərkəzlər» və özləri arasında fərqlərin aradan qaldırılmasının hətta ayrı-ayrı imkanlarından məhrum olunması ilə nəticələnir. Varlı ölkələrin və əhalinin ən zəngin təbəqələrinin maraqlarına xidmət edən və dünyaya zorla qəbul etdirilən «hiperliberalizm» ideologiyası (radikal liberalizm, libertarizm) xüsusilə kəskin tənqidə məruz qalırdı.

Hiperliberalizm sərvətlərin yoxsul ölkələrin xeyrinə yenidən bölgüsü cəhdlərini belə rədd edərək, bunu «proteksionist müdaxilə» hesab edir (F.Hayekin və M.Fridmanm konsepsiyasının mahiyyəti bundadır), dövlətin roluna müstəsna olaraq qlobal bazar qüvvələrinin maraqları nöqteyi-nəzərindən yanaşır. Neomarksistlər qeyd edirdilər: dünyada dominantlıq edən bu irticaçı

radikal-liberal ideologiya kütləvi şüura TMK-nın qloballaşmasına alternativin olmadığını təlqin edir. Bu, keçmişdə marksizm ehkamlarının («marksizmin sarsılmaz qanunları») yayılmasından o qədər də fərqlənmir. Bu halda hiperliberalizmin ardıcılları inkişaf etmiş dövlətlərin və yoxsul, o cümlədən yeni kapitalist ölkələrindəki (Rusiya, Şərqi Avropa, Mərkəzi Asiya dövlətləri) hakim dairələrin maraqlarına açıq-aşkar xidmət edirlər; onlar müasir dünya sistemində baş verən ziddiyyətli meyilləri; *cəmiyyətin get-gedə daha böyük hissəsinin hakimiyyət və iri korporasiyalar tərəfindən zorla qəbul etdirilən siyasi, ictimai, sosial-mədəni münasibətlərdən təcrid olunmasını* gönnəməyə çalışırlar. Neomarksizm nəzəriyyəçiləri müasir beynəlxalq iqtisadi münasibətlərin son dərəcə ədalətsizliyini kəskin ifşa edir, onun keyfiyyət baxımından təftiş olunmasım tələb edirlər. «Mərkəz» öz imtiyazlarını və «periferiya» ilə qeyri-bərabər mübadilədən mənfəət əldə etmək imkanlarını qorumağa təkidlə çalışdığına görə, sonuncular öz maraqlarını «mərkəzlə» getdikcə daha az bağlayırlar: yoxsul ölkələr, onların xalqları «mərkəzlə» yaxınlaşmağa yönəlmiş təşviqedici səbəbləri görmürlər və bu əsasda muxtariyyətçilik prosesləri inkişaf edir. Aydındır ki, bütün bunlar «mərkəzdən» idarə oluna bilməyəcək yeni təhlükəli vəziyyət yaradır. Neomarksist təfəkkürə görə, bu vəziyyətdən çıxış yolu Samir Aminin ifadə etdiyi kimi, *«azğın qloballaşma»* olan neoliberal siyasətdən imtina edilməsi yolundadır. Bu cür qloballaşmanın yoxsul ölkələr və xalqlar üçün dağıdıcı xarakteri beş inhisardan: yeni texnologiyalar üzərində inhisardan, maliyyə axınlarına nəzarət üzərində inhisardan, təbii resursların əldə edilməsi üzərində inhisardan, strateji kommunikasiyalara nəzarət üzərində inhisardan, kütləvi qırğın silahlarına malik olma üzərində inhisardan qaynaqlanır.

Buna görə də «mərkəzdən» asılı olan «periferiya» ölkələrinin başlıca vəzifəsi «mərkəzin» «əyalət» üzərində dominantlığmı dağıtmaq yolu ilə mövcud sistemlə «fərqlərin aradan qaldırılması strategiyasım» həyata keçirməkdir. Təhlilçilərin ehtimalına görə, bunun üçün «anti-sistem qüvvələr cəbhəsinin» fonnalaşdırılması vacibdir. Bu cəbhə millətçiliyin geniş yayılmış, iri kapitalın: TMK, TMB və onların hökumətlərinin strategiyaları ilə stimullaşdırılan cəhalətpərəst etnik, dini və şovinist formalarına qarşı «pozitiv millətçilik» vasitəsilə yaradıla bilər. *«Pozitiv millətçilik»* məfhumunun özünün neoliberalizmin radikal meyarlar baxımından təfsiri regional əməkdaşlığı nəzərdə tutur və sıx inteqrasiya olunmuş ölkələrin, regionların sərhədyanı

ölkələrlə iqtisadi və siyasi əməkdaşlığının formalaşmasının zəruriliyinə istinad edir. Onlar öz müstəqilliyi uğmnda yuxarıda göstərilən «beş inhisara» qarşı fəal mübarizə apara bilərlər. Xalqa və demokratik birliklərə istinad etdiyi halda, Latın Amerikasında, Afrikada, Yaxın Şərqdə, qitə ölkələri (Çin və Hindistan) ətrafında birləşən Cənub-Şərqi Asiya dövlətlərində, habelə Avropada yaradılan inteqrasiya qurumları son nəticədə «böyük kapitalı» dövlətlərin və xalqların məhz bu ittifaqlarının tələblərinə uyğun olaraq genişlənməyə vadar edəcək. Sonra bu ittifaqlar təsərrüfat həmrəyliyinin və qarşılıqlı asılılığının daxili və regionlararası proqramlarını, o cümlədən kapitallar bazarlarının stimullaşdırılması, istehsal və başqa sektorlara investisiya qoyuluşunun genişləndirilməsi, qarşılıqlı ticarət üzrə layihələri işləyib hazırlamalıdır. Bu cür proqramların məcmusu dövlətlərdə hətta dünya sistemi səviyyəsinə uyğun olan demokratik islahatların keçirilməsi proseslərinə güclü təkan verə bilər. S.Aminin konsepsiyasına görə, bu proqramlar uzun müddət üçün «dünya kapitalizmindən dünya sosializminə keçidin bir sıra mərhələdən ibarət» vəzifə ola bilər.

Beynəlxalq iqtisadi münasibətlərin radikal solçu nəzəriyyəsinin başqa görkəmli nümayəndəsi olan, 30ixanda sitat gətirdiyimiz R.Koks da analoji ideyaları inkişaf etdirir. O, qloballaşma, yoxsulluğun artması və dövlətin öz sosial funksiyalarını yerinə yetirməkdən imtina etdiyi şəraitdə iri kapitalın qüdrətinin möhkəmlənməsi proseslərini təhlil edir. Bunlar, öz növbəsində, qaçılmaz olaraq insanların mövcud olan sistemin ayrı-ayrı tərəflərindən deyil, bütövlükdə qlobal sistemdən narazılığının artmasına gətirib çıxarır. Buna görə də insanların və qurumların fəaliyyəti daha sıx əlaqələndirilməli, aralarındakı münasibətlər təkmilləşdirilməli, nəticədə isə dünya sisteminin humanizm istiqamətində təkamülünə təsir güclənməlidir.

Qeyd edək ki, «solçu» nəzəriyyəçi-iqtisadçılar və onların baxışları təkcə beynəlxalq siyasi və iqtisadi münasibətlər sahəsində aparılan tədqiqatlara deyil, həmçinin, beynəlxalq münasibətlərin sosiologiyasına da müəyyən təsir göstərir. Bunu təsadüf hesab etmək olmaz: hər bir dominant nəzəriyyəyə, məsələn, əsasən hakim dairələrin maraqlarını əks etdirən radikal neoliberalizmə düşkünlük, ehkamçılıq, tənəzzül, perspektiv (strateji) ideyaların çatışmazlığı xasdır. Tamamilə başqa mövqelərdən çıxış edən, qarşılanna qlobal vəziyyəti dəyişdinnək vəzifəsi qoyan alimlər daha perspektiv və maraqlı ideyaları taparaq, onları hökumətlərin və iri korporasiyaların hələ də əl çəkmədiyi.

qlobal böhranın ən ağır formalarda təzahürü nəticəsində əmək haqqı hesabına yaşayan milyonlarla insana ziyan vuran köhnəlmiş libertarianizmə qarşı qoyurlar.

## 2.6. Qlobal böhran şəraitində kapitalizmin yeni modellərinin axtarışı: səmərəli inkişaf nəzəriyyəsi

***iqtisadi liberalizm (libertarianizm) rəsmi doktrinasının böhranı.*** Ümumdünya elmi-iqtisadi ictimaiyyət 2008-ci ildəki qlobal böhranın birinci fazasından başlayaraq hərəkətə gəldi və sözün hərfi mənasında böhranın səbəblərinin, yeni Böyük böhranın qarşısını ala bilən «iksirin» axtarışına başladı. Təhlilçilərin, demək olar ki, əksəriyyəti mərkəzi ideya ətrafında cəmləşir: bəşəriyyət öz məhvinin passiv müşahidəçisi mövqeyini tutmaq istəmirsə, kapitalizmin simasını əsaslı surətdə dəyişdinnəlidir.

Bu mənada vəziyyət 1929-1933-cü illərin Böjmk böhran dövründə yaranan mühitin güzgü əksini xatırladır. O zaman əsas elementi heç nə ilə məhdudlaşdırılmayan sahibkarlıq azadlığı, «laisses faire» olan klassik liberalizmin sonunun yetişdiyi aydın idi. Bu azadlığın tərəfdarlarının qəzəbli müqavimətinə baxmayaraq, daha uzaqgörən siyasətçilər prezident Ruzveltin, onun yeni kursunun ətrafında birləşdilər. Kapitalizmin gələcək inkişafına dövlət tənzimlənməsinin bütöv sisteminə əsaslanan keyfiyyətcə yeni baxışın qalib gəlməsi «ümumi rifah dövlətinin» inkişafının, qarışıq iqtisadiyyatın formalaşmasının, sosial dövlətin təşəkkül tapmasının bünövrəsini qoydu. Pol Samuelsonun «qoca, xeyirxah kapitalizmi» dəyişdirmədən qoruyub saxlamağa çalışan ehkamçı-inqilabçılara ünvanlanmış: «tam sərbəst sahibkarlıq dövıli kraliça Viktoriya dövründə qaldı» kəlamı məşhurdur (F.Hayek, C.Fridman və başqaları).

İndinin özündə də dövlətin rolunun güclənməsi ilə bərabər, son 30 ildə hadisələrin son dərəcə qeydi-adi əlverişli məcrada cərəyan etməsindən (libertarianizm siyasəti) sıçrayışla zənginləşmək üçün istifadə edən iri korporasiyaların və bankların fəaliyyəti üzərində cəmiyyətin nəzarətinin artmasından dəhşətə gələn ehkamçı liberallara (daha dəqiq desək, ***libertarianlard)*** rast gəlmək olar. Buna baxmayaraq, hazırda dünyada kapitalizmin islah olunması məsələsində müəyyən konsensus formalaşmışdır. Sual yalnız onun necə islah olunmasındadır. Hansı istiqamətlərdə və fonnalarda? Hansı dərinliklə və radikallıqla? Dövlətin iqtisadiyyata

müdaxiləsinin, onun fəallığının hüdudları haradadır? Müzakirələr məhz bu sualların ətrafında gedir. Amma Rusiyada bu müzakirələr akademik və elmi dairələrin müzakirə dairəsindən kənara çıxmır.

Bu baxımdan Braun universitetinin beynəlxalq siyasi iqtisad üzrə professoru Mark Blaytın «Kapitalizmin sonu? Mark Tven, Leyk Voqebon və indiki böhran» məqaləsində söylənilən mülahizələr maraq doğurur. Müəllif mənfəət dalınca qaçaraq ən incə metodlardan istifadə edən iri bankların və korporasiyaların tamahkarlığından şikayətlənir. Amma dağıdıcı meyilin səbəbkarı onları yoldan çıxaran dövlətin özüdür. Hansı yolla? Banklar qarşısında duran,»onların mənfəət uğrunda bir-birini dəlicəsinə təqib etməsi qarşısında bütün maneələr aradan götürülmüşdü».

Blayta görə, dərin böhranın səbəbi dövlətin seçdiyi siyasət modelinin qüsurlu olmasındadır. Siyasətçilər, ekspertlər və ictimaiyyət bazara yöndəmsiz və səmərəsiz dövlət müdaxiləsindən imtina olunan kimi, möcüzəli qaydada özünü tənzimləyən, heç bir risk olmadan get-gedə daha çox fayda verə bilən mexanizm kimi yanaşmağa başlamışdı - hər iki partiyanın siyasətçiləri məhz bu cür hərəkət etmişdilər. Bütün bunlar maliyyə sektorunun daim ortadan yüksək mənfəətə can atılmasından asılı vəziyyətə düşməsi, eyni zamanda ABŞ- m ÜDM-in get-gedə daha böyük və mühüm hissəsinə çevrilməsi ilə nəticələnmişdir.

Mark Blaytın qeyd etdiyi səbəblər qlobal böhranın dərkində həqiqətən də mühüm əhəmiyyətə malikdir. Lakin onun son nəticəsi daha tutarlı hesab oluna bilər: «bazarın faydası şübhə doğurmayan və özünü tənzimləyən struktur, dövlətin isə həmişə və hər yerdə zorla tənzimləməni tətbiq etməyə çalışan bədheybət olması barədə daha bir ideologiya iflasa uğradı». Bu ideologiya kapitalizmin tarixində dəfələrlə təkrarən qayıdan gecə qarabasmasma bənzəyir. Blayt yazır ki, «1930-cu illər bizə bazara və özünütənzimləməyə inamın səhv olduğunu öyrədərək, tənzimlənən maliyyənin «və ümumi rifah dövlətinin» keynsçi dövrünü bəxş etdi. XX əsrin 1970-ci illərindəki digər böhran dövrü «bizə Keynsin səhv etdiyini və maliyyə tənzimlənməsindən imtina edərək, açıq bazara keçmək vaxtının yetişdiyini göstərdi. Neoliberal qloballaşma adlandırıla biləcək bu sistem indicə partlamışdır. Bu dəfə biz hansı nəticələri çıxaracağıq? Amma görünür ki, Keyns o qədər də səhv etmirdi; onun sistemini dağıtmaq yox, təkmilləşdirmək lazım idi. Lakin yanaşmasının məntiqindən irəli gəlsə də, Blayt belə bir nəticəyə, hələ ki, gəlməmişdir. İndiki böhrandan hələ tam

mənada çıxarılmalı olan ümumi nəticə bundadır ki, *bazar və dövlət həmişə və hər yerdə bir-birini tamamlayır, zəruridir, antaqonist və məhsuldardır. Kapitalizm bir sistem kimi, dövlət tərəfindən düşünülmüş tənzimləmə şəraitində ən yaxşı nəticələr verir və Amerika kapitalizmi buradan istisna deyil.* Dövlət və bazar arasında dəqiq balans yaradılması siyasi məsələdir və hər bir ölkə bunu özü həll etməlidir. Lakin belə balansın zəmri olması fikri ilə dövlətlərin əksəriyyəti, hətta ABŞ razılaşır.

## 2.7. Səmərəli inkişaf və idarəetmə doktrinası: yeni təsisatlar

UNCTAD -m bir çox hesabatlarında (2008-2010-cu illər) və son dövrün başqa beynəlxalq tədqiqatlarında dövlətin maliyyə-iqtisadi və kredit-büdcə siyasətinin əhəmiyyətli dərəcədə yenidən baxılması ideyaları ilə bağlı məsələlər nəzərdən keçirilir. Bu, «yeni kensçiliyin» yaxud «keynsçiliyə qayıdışın» müəyyən dərəcədə əsaslandırılmasıdır. Əsas dəlil bundan ibarətdir ki, qlobal böhranın nəticələri dalğasında bütün: həm inkişaf etmiş, həm inkişaf etməkdə olan, həm də keçid iqtisadiyyatlı ölkələrdə «dövlətin rolu, prinsipcə, yenidən nəzərdən keçirilməlidir»'.

Müasir dövrdə XXI əsrdə qarşılıqlı asılılığı olan dünya qarşısında duran çağırışlara uyğunlaşmış *inkişaf dövləti* tələb edilir. Bu dövlət problemlərin həll olunmasına aşağıdan gələn təşəbbüslər əsasında, maraqlı tərəflərin və vətəndaşların iştirakını təmin etməklə yanaşmalı, demokratik praktikanın mikro-əsaslarını fonnalaşdırmalı və yenidən qunnalı, buna istiqamətlənmiş yerli qüvvələri cəmiyyətin xidmətinə cəlb etməyə çalışmalıdır. O, həmçinin, qarışıq iqtisadiyyat çərçivəsində özəl sahibkarlıq təşəbbüsünün fəallaşdırılması üçün inkişaf prosesinin idarə olunmasının çoxsaylı modellərindən və mexanizmlərindən istifadə etməlidir. Lakin hazırda bir çox ölkələrdə səmərəli idarəetməyə yönəlmiş institusional islahatlar *səmərəli idarəetmə konsepsiyasının* çox dar mənada başa düşülməsi əsasında təbliğ olunur və həyata keçirilir. Həmin konsepsiya bu cür dar mənada təfsir olunarkən, inkişafın ölçülməsi özünə layiq yer tutmur. Bu cür anlamanın mənbəyi «yaxşı» və «pis» dövlət sistemləri arasında məşhur dixotomiyadadır. Belə halda səmərəli idarəetmə

^ ЮНКТАД. Наименее развитые страны. Государство и управление процессом развития. Обзор, представленный Генеральным секретарем ЮНКТАД, 2009. С. 9.

sisteminin formal tipi qeyri-fomıal, şəxslə əlaqələndirilmiş «pis idarəetmə» sistemi ilə qarşı-qarşıya qoyulur. İdarəetmə sisteminin hər iki tipi konkret ölkələrin reallıqlarından müeərrədləşdirilmiş «ideal tiplərdir»; stereotip təsəvvürlərə görə, idarəetmənin «yaxşı sistemləri» inkişaf etmiş ölkələr, pis sistemlər isə yoxsul və keçid iqtisadi}^atlı ölkələr üçün səciyyəvidir. İslahatların həyata keçirilməsi proqramlarına səmərəli idarəetmə mövqelərindən yanaşma göstərir ki, onların həddən artıq iddialı olması islahatların yenidən başlanılmasma gətirib çıxara və bununla da ölkələrin imkanlarını məhdudlaşdıra bilər. Son nəticədə belə bur sual yaranır: inkişaf etmiş ölkələrdəki idarəetmə qurumlarının yoxsul, çox da böyük maliyyə imkanları olmayan ölkələrə köçürülməsi mümkün və arzuolunandınm? Bu zaman əksər hallarda yoxsul ölkələrdə qüsurlu idarəetmə sistemi mövcuddur, hakimiyyət iqtisadi siyasətin həyati əhəmiyyət kəsb edən mühüm məsələləri üzrə əsaslandırılmamış qərarlar qəbul edir. Belə bir məqam tamamilə aydındır ki, inkişaf etmiş dövlətlərdə pozitiv nəticə verən təsisatların yoxsul yaxud keçid iqtisadiyyatlı ölkələrə köçürülməsi düzgün deyil; buradakı ***şərait başqa olduğuna görə,*** onlar lazımi pozitiv nəticə verə bilməz. UNCTAD -m Hesabatmdakı bəzi nəticələrə görə, Asiya və Latın Amerikasının sürətlə inkişaf edən ölkələrinin təcrübəsi və Rusiyadakı uğursuzluqlar bunu sübut edir.

## 2.8. İnkişaf prosesinin idarə olunmasının təmin edilməsi proqramı

UNCTAD-m Hesabatında təsdiqlənir ki, indi ümumi vəzifə institusional islahatlar çərçivəsindən çıxıb inkişaf prosesinin səmərəli idarə olunması məsələlərinin həllinə keçməkdir. İnkişaf prosesinin idarə olunmasının (inkişaf mövqeyindən idarəetmənin) məqsədi iqtisadi inkişafı stimullaşdırmaq, o cümlədən struktur islahatlarını sürətləndinnək üçün dövlətin nüfuzundan istifadə sayəsində cəmiyyət üzvlərinə daha yaxşı gələcək təmin etməkdir. Ümumi planda bu cür idarəetmə hökumət, dövlətin rəsmi təsisatları, o cümlədən icra və qanunvericilik hakimiyyəti, bürokratiya, məhkəmə hakimiyyəti və polis orqanları ilə cəmiyyət arasında qarşılıqlı əlaqələr prosesindən ibarətdir.

İnkişaf prosesinin idarə edilməsi inkişaf sahəsində ümummilli problemlərin həllinə, milli inkişafın ümumi məqsədlərinə nail olunması vasitəsilə cəmiyyət üçün yeni imkanların yaradılmasına yönəldilmiş

idarəçilikdir. Burada, sadəcə olaraq, müvafiq təsisatların təşkili yox, onların işlənib hazırlandığı və yaradıldığı çərçivə daxilində siyasət və proseslər nəzərdə tutulur. Təsisatların seçilməsi həyata keçirilən siyasətdən ayrılmazdır. Beləliklə, inkişaf prosesinin idarə olunması, milli inkişafın məqsədyönlü həvəsləndirilməsi və təmin edilməsi, onun məsrəflərinin və xeyrinin düşünülmüş şəkildə bölüşdürülməsi ilə bağlı olan texnologiyaların, siyasətin və təsisatların məsələsidir. İcra hakimiyyətinin resursların bölgüsünü qəsb etmək hüququ yoxdur, bu başlıca məsələ cəmiyyətin nəzarəti altında olmalıdır.

1960-1970-ci illərdə inkişafın planlaşdırılması çox geniş yayılmışdı. Bundan savayı, beynəlxalq maliyyə qurumları və donorlar da çox zaman ölkələrə planlaşdırma ilə məşğul olmağı tövsiyə edirdi. 1980-ci illərdə inkişaf etməkdə olan ölkələr borc böhranının, habelə, dövlətin «məkrli» rolu barədə ehkamçı təsəvvürlərin (SSRİ-nin süqutundan sonra) təsiri altında struktur yenidənqurması və özəlləşdirmə proqramları qəbul etdi; planlaşdırma tamamilə dayandırıldı, bununla bağlı olan qurumlar dağıdıldı və inkişafın stimullaş- dırılması siyasəti həyata keçirilməyə başlandı. Bu ölkələrin (Çin və qismən Hindistanla Braziliya istisna edilməklə) iqtisadi həyatında dövlətin rolu kəskin surətdə aşağı düşdü, ***sabitləşməyə, özəlləşdirməyə, liberallaşmaya və tənzimləmədən imtinaya*** yönəlmiş «islahat proqramlarında» təcəssüm olunan «iqtisadiyyata qarışmama» prinsipləri rəhbər götürüldü. Həmin illərdə keçid iqtisadiyyatlı ölkələrin bir çoxunda bəzi sahələrə yaxud şirkətlərin işinə yüksək səvi)^ədə inzibati müdaxilə şəraitində iqtisadi idarəetmənin rasional sistemi sındırıldı. Bunun nəticəsi isə strukturlarda tarazlığın pozulması, qeyri-sabitliyin kəskin güclənməsi, hazır məhsul istehsal edən sahələrin «çökməsi» oldu; bu proses maddi sektorun böhranlı həcmədək kiçildiyi, hazır məhsulların idxalı ilə əlaqədar ticari kəsiri yaranan ABŞ iqtisadiyyatına da sirayət etdi.

UNCTAD-m Hesabatında inkişaf prosesinin idarə olunması lehinə çıxış edən müəlliflər inkişafın planlaşdırılmasmm «köhnə üslubuna» qayıdılmasım müdafiə etmirlər. Onlar, həmçinin, 1960-1970-ci illərdəki inkişaf dövləti modelinə dönməyə də səsləmirlər. Müəlliflər buna istinad edirlər ki, ötən dövrlərdə inkişaf dövlətinin hərəkətlərində həm müvəffəqiyyətlər, həm də uğursuzluqlar olmuşdur. Onlar təsdiq edir ki, daha dövlətin fəal iqtisadi roluna etinasızlıqla yanaşıb, bütövlüklə bazara etibar etmək olmaz, indi dövlətin iştirakı olmadan bazar «avtomatik tənzimləyici» rolunu oynaya bilməz. Hesabatda göstərilir ki, yaxın keçmişdə öz inkişafında və XXI əsrin

reallıqlarına uyğunlaşmada böyük nailiyyətlər əldə etmiş ölkələrin təcrübəsindən yararlanmaqla, ölkələrdə inkişaf prosesinin idarəçiliyi proqramını işləyib hazırlamaq olar. Bunlara ən parlaq nümunə *müasir Çinlə* yanaşı yeni sənaye ölkələri (YSÖ) qrupudur.

Bu ölkələr qrupunun təcrübəsindən irəli gələn əsas nəticə bundadır ki, orada milli siyasət struktur islahatlarının həyata keçirilməsinə istiqamətlənmişdi. Bu məqsədə inkişaf siyasətinin makroiqtisadi və sektorlar üzrə tədbirlərinin bir-birinə uyğunlaşdırılması yolu ilə nail olunmuşdur. Bu məqsədin obyektləri qismində sahələr qrupu: kənd təsərrüfatı və qeyri-aqrar sektorlar çıxış edirdi. Aqrar siyasət kənd təsərrüfatında məhsuldarlığı məhdudlaşdıran struktur problemlərinin aradan qaldırılmasına və ilkin dövrdə kənd rayonlarında daxili tələbatın möhkəmlənməsinə yönəlmişdi. Bu siyasət həm sektorlararası, həm də sektordaxili səviyyələrdə struktur transformasiyanı stimullaşdıran sənaye siyasəti ilə dolğunlaşdırıhr, özü də siyasət tədbirlərinin uyğunlaşması, sadəcə olaraq, yeni fəaliyyət növlərinin fonnalaşması ilə məhdudlaşmayaraq, dinamik struktur dəyişikliklərinin bazisi olan kapital yığımının və texnoloji tərəqqinin həvəsləndirihnəsinə yönəlirdi.

Siyasətin bu tədbirləri milli sərvətlərin çoxaldılması və həyat səviyyəsinin yüksəldilməsi məqsədləri üçün *istehsal potensialının inkişafına, məhsuldar məşğulluğun genişlənməsinə və əmək məhsuldarlığının artırılmasına* yönəlmişdi. Aydındır ki, bütün bu məsələləri dövlətin «neytral» mövqe tutduğu şəraitdə yalnız özəl şirkətlərə ümid bağlamaqla həll etmək ağlasığmazdır. Bu ölkələrdə dövlət iqtisadi fəalİ3^ətin güclü subyekti kimi çıxış edərək, bilavasitə infrastrukturun, sənayenin yeni sahələrinin yaradılması, inkişafın innovasiya proqramlarının işlənib hazırlanması ilə məşğuldur. Bu halda dövlət özəl sahibkarlığı sıxışdırmayaraq, ona həmişə yad olan ictimai maraqlar mövqeyindən çıxış edir.

UNCTAD -m Hesabatında XXI əsrin çağırışlarına cavab verə biləcək yeni inkişaf dövlətinin qurulması üçün aşağıdakılar təklif olunur:

• artım və inkişaf proseslərində biliklərin roluna istinadın güclənməsi. Bu, dövlətin libertarianizmin və monetarizmin ehkamçı üsullarından fərqlənən yeni prioritetlər əsasında yeni fəal maliyyə siyasəti ilə yanaşı, biliklər sisteminə və milli innovasiya proqramlarına diqqətin artırmasının zəruriliyini şərtləndirir;

• struktur dəyişiklikləri nəzərə alınmaqla, iqtisadiyyatın şaxələnməsinin (diversiflkasiyasmm) çoxsaylı tipləri əsasında iqtisadi artımın və inkişafın

stimullaşdınimasının geniş proqramlarının işlənib hazırlanması. Bu artım modernləşdirməyə əsaslanır və binuənalı olaraq dövlətin iqtisadi rolunun yüksəlməsini, o cümlədən iqtisadiyyatın yeni dövlət sektorunun (bu elementsiz heç bir modernləşdirmə baş verə bilməz) inkişaf etdirilməsini nəzərdə tutur;

• cəmiyyət və mülkiyyətçilər arasında xüsusilə iri istehsal amillərinin «özgəninkiləşdirilməsi» səbəbinin «aradan qaldırılması» yaxud zəiflədilməsi ilə əlaqədar məsələlər kompleksinə baxılması; cəmiyyətdə sosial fərqlərin azaldılmasına (l;5-dən yüksək olmayan detsil əmsalı) nail olmaq üçün hərəkətlər; sahələrin bütöv qruplarında ağlabatan milliləşdirmə aparılması;

• qlobal miqyasda istehsal-satış zənciri ilə əlaqələr çərçivəsində inkişaf və modernləşdirmə məqsədi üçün daxili və xarici kapital arasında qarşılıqlı təsir imkanlarından XBİ-nin faydasının artırılması yolu ilə daha yaxşı istifadə olunması məsələsinin öyrənilməsi;

• artım və inkişaf prosesinə struktur dəyişikliklərinin ölkənin bütün ərazisi üzrə eyni qaydada həyata keçməsinə şərait yaradan, mərkəzlə regionların birgə fəaliyyətinin potensialından yararlanmağa imkan verən, daha dəqiq ifadə olunmuş regional yanaşma ilə silahlanma (regional iqtisadi siyasət).

UNCTAD Hesabatının müəllifləri hesab edirlər ki, yeni inkişaf dövləti inkişaf sahəsində uğurlar əldə etmiş bəzi ölkələrdə (Şərqi Asiya, postkommunist) istifadə edilən, bir çox hallarda liderlərinin külli məbləğdə maliyyə resurslarına təkbaşına sərəncam verə bildiyi avtoritar təcrübədən imtina etməlidir. Bununla əlaqədar inkişaf dövlətinin başqa tipinin nümunələrinin təcrübəsinə, məsələn. Şimali Avropa və ya «Kelt pələngi» modelinə müraciət etmək olar. Demokratik inkişaf dövlətinin qurulması vətəndaşların inkişaf, idarəçilik və mühüm qərarların qəbulu proseslərində iştirakını nəzərdə tutmalıdır. Bu, insanların və onların təşkilatlarının ümumi problemlərin həlli və inkişaf məqsədilə bir-biri ilə əlaqəyə girməsinə imkan verən məşvərətçi demokratik yanaşmalara xüsusi diqqət yetirilməsi deməkdir'.

## 2.9. İnkişaf dövlətinin potensialının yaradılması

Səmərəli inkişaf dövlətinin yaradılması məsələsinin həllində uğur əldə olunmasının əsas şərti realizmdir. Məlumdur ki, maliyyə resursları kimi.

^ ЮНКТАД. Наименее развитые страны. Государство и управление процессом развития. Обзор, представленный Генеральным секретарем ЮНКТАД. 2009. С. 13.

yüksək ixtisaslı kadrlar da həmişə və hər yerdə çatışmır (avtokratiya dövlətləri istisnadır, burada istedadlı adamlar rejim tərəfindən qəbul olunmur, hakim bürokratiya isə nuvorişlərdən ibarətdir). Buna görə də məqsədlərin aydınlaşdırılması və yüksək ixtisaslı kadrların seçilməsi ali idarəçiliyin ən mühüm ilkin vəzifələrindən biridir. Amma təşkilatlarının nəzərə çarpan müvəffəqiyyətləri olmadan asan yolla pul qazanmaq elementlərini özünə hopduran menecer təbəqəsinin bu prosesə cəlb edilməsindən çəkinmək lazımdır. Burada aşağıdakı məqamlar nəzərə alınmalıdır:

• birincisi, müvəffəqiyyət əldə etmiş inkişaf dövlətlərinin təcrübəsi göstərir ki, ilkin dövrlərdə onların texniki potensialı o qədər də inkişaf etməmişdi. Burada inkişaf dövləti potensialı müəyyən müddət ərzində, bir çox hallarda isə dövlət qurumlarının təkmilləşdirilməsinə istiqamətlənmiş strategiya çərçivəsində formalaşmışdır;

• ikincisi, son illər inkişaf etməkdə olan ölkələr kimi, keçid iqtisadiyyatlı bir sıra ölkələrdə institusional islahatlar keçirilərkən əldə edilən müvəffəqiyyətlərin məhdudluğu ilk növbədə onların təşəbbüskarının çox vaxt «xarici dövlətlər» olması ilə əlaqədardır. İnkişaf layihələrində ölkənin özünün, onun elmi-akademik və təhsil dairələrinin əhəmiyyəti artdıqca, inkişaf dövlətinin potensialının yaradılması məsələsinin həlli asanlaşır. Başa düşülməlidir ki, iri korporasiyaları və onların menecerlərini, ilk növbədə özlərinə böyük gəlir gətirən vəziyyət qane edir, bu isə, heç də bütün hallarda onların fəaliyyət göstərdikləri ölkələrin uğurlu inkişafında, layihənin müvəffəqiyyətlə həyata keçirilməsində marağının olmasını nəzərdə tutmur;

• üçüncüsü, inkişaf etmiş ölkələrin səmərəli idarəetmə modellərinin tətbiqinin nəticəsi kimi, YSÖ-dən olan müvəffəqiyyət qazanmış ölkələrin modellərinin kor-koranə təkrarlanmasının yekunu da, çox güman ki, məhdud olacaq;

• dördüncüsü, həm təşkilati-texniki, həm də siyasi potensialın mühüm əhəmiyyəti vardır. Bunlardan birincisini əsasən elm və təhsil dairələrindən müstəqil təfəkkürə malik olan, işbilən, korrupsiyaya meyil göstərməyən, vəzifəli şəxslər qarşısında mütiliyi və yaltaqlığı (zəif rəhbərlərin xüsusiyyəti «təşəbbüssüz» və «sözəbaxan» adamlara üstünlük verməkdir) inkar edən peşəkarların cəlb edilməsi əsasında formalaşdırmaq olar;

• beşincisi, maliyyə-iqtisadi proseslərinin müəyyən millətüstü mexanizmlər vasitəsilə tənzimlənməsini bütövlükdə gücləndirmək lazımdır.

Maraqlıdır ki, sonuncu bənd, yəni qlobal maliyyə sisteminin mexanizmlərinin gücləndirilməsinin zəruriliyi ilə «Soros Fund Management» korporasiyasının idarə heyətinin sədri, məşhur maliyyəçi C.Soros da razılaşır. Bu halda o, «bazar tarazlığı nəzəri}q/əsinin yanlışlığına» əsaslanır. Soros onun niyə düzgün olmadığını izah etmir. Amma cavab sadədir: iqtisadi sistemin fəaliyyətinin qanunauyğunluqları pozulursa, o, partlamalıdır. Qərb dövlətlərindən tənzimləmə «şlaqbaumlarmm» aradan qaldırılmasına (Blaytın ifadəsinə görə) nail olan iri oyunçuların (o cümlədən Sorosun özünün) hədsiz böyük ehtikarçılıq əməliyyatları sistemin dayanıqlılığını pozmuşdur və təbii ki, bu şəraitdə bazar tarazlığı nəzəriyyəsi özünü doğrulda bilməz.

## Xülasə

• XX əsrin ikinci yarısında formalaşan ümumi iqtisadi nəzəriyyə sistemində beynəlxalq iqtisadi münasibətlər nəzəriyyəsi nisbətən yenidir. Eyni zamanda onun ayrı-ayrı elementləri fiziokratların və merkantilistlərin ilkin iqtisadi konsepsiyalarına tərkib hissələr kimi daxil edilmişdi.

• Dünya təsərrüfatı, əlaqələrinin inkişafına güclü təkan vermiş klassik iqtisadi nəzəriyyənin - siyasi iqtisadın əsasını qoymuş ingilis iqtisadçısı Adam Smitin adı ilə bağlıdır. Onun ardıcılları - David Rikardo, C.Mill və başqaları beynəlxalq əmək bölgüsünün (BƏB) və get-gedə daha çox ölkənin bu prosesə cəlb olunmasının başa düşülməsinə öz töhfələrini vermişdir. Adam Smit Böyük böhran (1929-1933-cü illər) başlayanadək 150 il ərzində üstünlük təşkil edən liberal iqtisadiyyatın nəzəri əsasını qoymuşdur.

• Böyük böhrandan sonra kapitalist iqtisadiyyatının dövlətin fəal iştirakı olmadan inkişafının qeyri-mümkün olması barədə tezisdən irəli gələn keynsçi nəzəriyyənin yüksəlişi başlandı. Bu nəzəriyyə inkişaf etmiş ölkələrin iqtisadi siyasətinin fundamental bazasına çevrildi. Keynsçiliyin konseptual baxışları çərçivəsində ümumi rifah dövləti meydana çıxdı, cəmiyyətin varlı, orta və yoxsul təbəqələri arasındakı fərqlər azaldı; qarışıq iqtisadiyyat çiçəkləndi.

• 1970-1980-ci illərdəki «neft şokları» və inkişaf etmiş ölkələrdə iqtisadi inkişaf templərinin zəifləməsi, dominantlıq təşkil edən keynsçilik doktrinasının yerinin Adam Smitin klassik nəzəriyyəsinin davamçısı roluna iddia edən neoliberal doktrina tərəfindən (daha dəqiq desək, libertarizmin) tutulması ilə nəticələndi.

• Neoliberalizm çərçivəsində beynəlxalq monetarizm doktrinası

formalaşmış və son 25 ildə həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrdə tətbiq edilmişdir. Milli islahatlar proqramları hazırlanarkən baza kimi istifadə edilən bu doktrinanın yayıcısı BVF olmuşdur. Doktrinanın mahiyyəti dövlətin rolunun, demək olar ki, bütövlüklə aradan qaldırıldığı vəzİ3^ətdə istehsal amillərinin inkişafının mümkün qədər liberallaşdırılmasmdadır. 2008-ci ildə bütün dünya iqtisadiyyatını bürümüş qlobal böhran bu nəzəriyyənin qüsurlu olduğunu göstərdi.

• 2008-2010-cu illərdə dünyanın bütün ölkələrində və beynəlxalq təşkilatlarda qüvvədə olan tənzimləmə modellərinin qüsurluluğunun və böhranın ən təhlükəli formalarının yayılmasına gətirib çıxarmasının dərk edilməsi yeni modellərin və nəzəriyyələrin axtarışı sahəsində müəyyən anlaşma əldə olunmasına imkan vennişdir. Lakin problem bundadır ki, yeni strateji ideyaların axtarılması və tapılması xeyli vaxt tələb edən mürəkkəb prosesdir, iqtisadi vəziyyət isə gözləməyə imkan vermir.

• Tapılan həll yollarından biri (heç də yeni olmayan!) ke3msçiliyin elementlərinin geri qaytarılması, o cümlədən dövlətin tənzimləyici rolunun gücləndirilməsidir. BİM sahəsində «səmərəli idarəetmə» və sair bu kimi konsepsiyaların formalaşması buna istinad edir. Bu ideyalar təkcə alimlər tərəfindən söylənilmir, BMT də daxil olmaqla, beynəlxalq təşkilatların hesabatlarında öz əksini tapır.

• UNCTAD -ın son hesabatlarında (2009-2010-cu illər), başqa beynəlxalq tədqiqatlarda və görkəmli təhlilçilərin əsərlərində göstərilir ki, hökumətlər böhrandan sonrakı dövrdə yaranan qlobal iqtisadi şəraitdə öz inkişafının trayektoriyasmda dönüş nöqtəsini görməlidir. Onlar yeni şəraiti nəzərə almaq üçün inkişaf istiqamətlərini yenidən nəzərdən keçirməli, əvvəlki dövrlərdə iqtisadi siyasətdə yol verdikləri səhvləri aradan qaldırmalıdır. Dövlətin iqtisadi və sosial funksiyaları yenidən dəyərləndirilməli, onun iqtisadi fəaliyyətinin «qeyri-səmərəliliyi» barədə mübahisələrə son qoyulmalıdır. Səmərəli idarəçilik proqramlarına dövlətin fəallığına istinad olunmaqla yeni aspektlərin daxil edilməsi vaxtı çatmışdır. Siyasətin işlənib hazırlanmasına görə məsul şəxslər onun bir sıra ölkələrdə inkişafın sürətləndirilməsi, struktur islahatlarının keçirilməsi üçün istifadə edilən, XXI əsrin çağırışlarından irəli gələn mümkün variantları barədə daha çox bilməli və məlumatlı olmalıdırlar. Ümumilikdə isə söhbət özünü doğrultmayan neoliberal-monetar ideologiyaya alternativ olan yeni qlobal ideyaların axtarılmasından gedir.

## Yoxlama sualları

1. Beynəlxalq əlaqələrin müasir nəzəriyyəsinin inkişafı və təkamülü necə baş vermişdir?

2. Xarici iqtisadi münasibətlər barədə ilkin nəzəri baxışların formalaşmasında fiziokratların və merkantilistlərin rolunu izah edin.

3. BİM-in konseptual bazasının inkişafında Adam Smit və iqtisadi nəzəriyyənin başqa klassikləri hansı rolu oynamışlar?

4. Adam Smitin yaratdığı iqtisadi liberalizm nəzəriyyəsi 150 il ərzində, Böyük böhran başlayanadək niyə əngəlsiz fəaliyyət göstərə bilmişdir?

5. Nəyə görə liberal nəzəriyyələr kenysçi nəzəriyyə ilə əvəz olunmuşdur? İqtisadi təfəkkürün bu iki istiqamətini fərqləndirən əsas cəhət nədir?

6. 1970-1980-ci illərdə keynsçılik öz dominant rolunu neoliberal iqtisadi nəzəriyyəyə hansı səbəblərdən verməli oldu? Doktrinaların dəyişməsinin yeganə səbəbinin «neft şokları» və yeni şəraitdə tənzimləmənin keynsçi modellərinin «işləməməsi» olduğunu iddia etıfıək düzgündürmü?

7. Niyə Qərb ölkələrinin liderləri, habelə təhlilçilər 2008-2010-cu illərdə tüğyan edən qlobal böhranın başlıca səbəblərindən birinin neoliberal modellər olduğunu hesab edirlər?

8. Beynəlxalq monetarizm konsepsiyasının əsas müddəalanm izah edin.

9. Böhrandan sonrakı dövrdə BİM sahəsində nəzəriyyə hansı istiqamətlərdə inkişaf edir?

## Referatların mövzuları

1. BİM-də liberal və neoliberal doktrinalar
2. Beynəlxalq iqtisadi münasibətlərdə keynsçilik
2. BİM-in yeni və ən yeni konsepsiyaları

# II Bölmə

# MÜASİR BEYNƏLXALQ TİCARİ-İQTİSADİ MÜNASİBƏTLƏR VƏ DÜNYA TİCARƏT SİYASƏTİ

# Fəsil 3

# BİM SİSTEMİNDƏ ÖLKƏNİN XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİ

## 3.1. Beynəlxalq ticari-Iqtisadi əməkdaşlıq

***Beynəlxalq ticari-iqtisadi əməkdaşlıq anlayışı.*** Ümumdünya yaxud beynəlxalq ticari-iqtisadi əməkdaşlıq milli sərhədlərin hüdudlarından kənarda işçi qüvvəsinin, malların və xidmətlərin hərəkəti ilə əlaqədar olan, çox mürəkkəb qlobal kompleks təşkil edən ticarət, istehsal-iqtisadi, maliyyə əlaqələrinin və münasibətlərinin məcmusudur. Beynəlxalq ticari-iqtisadi əməkdaşlığın bu cür təfsiri prinsipal fərqlər olmasa da, ənənəvi «beynəlxalq (ümumdünya) ticarət» tenninindən daha geniş və mürəkkəb məna daşıyır.

***Tarixi aspekt: təkamül.*** Əsrlər ərzində ikitərəfli qaydada, sadəcə olaraq, malların dəyişdirilməsindən qlobal əməkdaşlığın mürəkkəb formalarına və növlərinə doğru təkamül baş vennişdir. *Beynəlxalq iqtisadi əməkdaşlıq (BİƏ)* bəşəriyyətin məhsulu kimi, tarixi və iqtisadi kateqoriyadır. Onun kökləri insanların ictimai əlaqələrinin yaranmasından qaynaqlanaraq, qonşu qəbilələrin bir-biri ilə mal dəyişdirmə əməliyyatları aparması dövrünə gedib çıxır və bunu *xarici iqtisadi əlaqələrin ilkin formaları* kimi nəzərdən keçinnək olar. Bu ilkin təsərrüfat əlaqələri (və həmin əlaqələrlə bağlı münasibətlər) *dövlətin meydana çıxması və inkişafından sonra* get-gedə yeni keyfiyyət vəziyyətinə doğru təkamül etmiş və transfonnasiya olunmuşdur. Roma imperiyasının çiçəkləndiyi dövrdə («maşın sivilizasiyası» meydana çıxanadək) bu münasibətlər özünün *klassik vəziyyətinə* çatmışdır. Təsadüfi deyil ki, hüququn ümumi və xüsusi sahələri sivilizasiyanın Yunan-Roma dövründə yetkin həddə çatmışdır. Roma hüququ o qədər universal əhəmiyyətə malik idi ki, yarandığından min illər sonra. Napoleon müharibələri Qərbi Avropada feodalizm münasibətlərinin qalıqlarını məhv edib kapitalist münasibətlərinin inkişafı üçün geniş üfüqlər açdıqda yenidən tələb olunmuşdu. Bu prosesin mütləqiyyət və spesifik Rus- Asiya feodal münasibətləri fonnaları çərçivəsində inkişaf edən Rusiyadan yan keçməsinə yalnız təəssüflənmək olar.

Qədim dövrlərdə intensiv ticarət əlaqələri təkcə gələcək Avropa ölkələri

üçün deyil, özünün çiçəklənmə dövründə yüzlərlə dövləti və knyazlığı nəhəng imperiya hüdudlarında birləşdirən Ərəb Xəlifəliyi üçün də səciyyəvi idi. Ticarət karvanları imperiyanın şəhərləri arasında gecə-gündüz fasiləsiz axın şəklində hərəkət edirdi. Çinin, Hindistanın, Kiçik Asiyanın, antik dünyanın və sonrakı sivilizasiyaların ərəb-müsəlman Şərqi tərəfindən üzvi surətdə mənimsənilmiş ticari-iqtisadi və mədəni nailiyyətləri onilliklər ərzində onun sürətli inkişafına şərait yaratmışdır. Hətta Qərb antik irsə əhəmiyyətli dərəcədə Şərq vasitəsilə yiyələnmişdir: qədim yunanların və romalılarm məşhur əsərləri əvvəlcə ərəb dilinə, sonra isə ərəb dilindən Avropa dillərinə tərcümə olunmuşdur.

Ərəb Xəlifəliyinin intensiv ticari-iqtisadi əlaqələrinə Yaxın Şərqdən Həbəşistana, Çinə, İspaniyaya və Fransaya, Orta Asiyaya, Qafqaza, Volqaboyu Skif dövlətinədək dünyanın ən iri şəhərləri cəlb olunmuşdu.

Avropa hökmdarlarının və Vatikanın «Qüdsdə Allahın tabutu» uğrunda apardığı xaç müharibələri və yürüşləri əslində çiçəklənən dövlətlərin zəbt olunaraq əsarət altına düşməsi, sərvətlərinin talan olunması ilə nəticələndi. Eyni zamanda bu müharibələr Avropada feodalizmin ən geridə qalmış formalarının möhkəmlənməsinə, mədəniyyətinin məhdudlaşmasına, millətlər arasında uzun sürən ədavətə səbəb olurdu. Dünyanın ticari-iqtisadi əlaqələri Makedoniyalı İsgəndər dövründən əvvəlki vaxtlaradək geri atıldı.

Buna baxmayaraq, feodal cəmiyyətlərin dərinliklərində Böyük Coğrafi Kəşflərə gətirib çıxaran pozitiv əsaslar da inkişaf edirdi və bunun ən parlaq nümunələri Kolumbun və Ameriqo de Vespuççinin kəşfləri. Magellanın qitələr arasında mütəmadi əlaqələr yaradan uzaq dəniz səfərləri idi. Bütün bunlar sonradan *dünyanın vahid ticari-iqtisadi əlaqələrlə birləşməsinin* obyektiv təməlini qoymuşdur.

Yalnız İntibah dövrü kimi unikal hadisənin, sonradan isə Avropa inqilabları və Napoleon müharibələrinin güclü zərbələri altında feodalizmin çürüməsi natural təsərrüfatdan qəti olaraq birdəfəlik *əmtəə-pul münasibətlərinə* keçilməsi, bu isə, öz növbəsində, kapitalist (burjua) münasibətlərinin yaranması, *milli əmtəə bazarlarının inkişafı və mübadilənin sürətlənməsi* ilə nəticələndi. Bu dərin istehsal-iqtisadi proseslər *əmtəələrin milli sərhədlərdən kənara sıxışdırılıb çıxarılmasına* təkan verir, *beynəlxalq ticarətin* inkişafına, *dünya təsərrüfatının və dünya bazarının* fonnalaşmasma şərait yaradırdı.

## 3.2. Xarici iqtisadi əlaqələrin nəzəri aspektləri

***Xarici iqtisadi əlaqələr (XİƏ) anlayışı.*** Ayrı-ayrı dövlətlərin ticari-iqtisadi yaxud xarici iqtisadi əlaqələri, adətən, *beynəlxalq iqtisadi münasibətlərin* bir hissəsi kimi nəzərdən keçirilir. Xarici iqtisadi əlaqələrin özəl xüsusiyyəti onların milli iqtisadiyyatı dünya iqtisadiyyatı ilə, milli iqtisadi münasibətləri beynəlxalq iqtisadi münasibətlərlə birbaşa bağlamasıdır. Bununla da, onlar milli xariei iqtisadi əlaqələrdən yüksəkdə qurulan BİM-in bütün mürəkkəb sisteminin «əsas özəyi» kimi çıxış edir və onun tərkibinə daxil olurlar.

Beləliklə, iqtisadi kateqoriya kimi, xariei iqtisadi əlaqələr *resursların bir dövlətdən başqa milli təsərrüfatçılıq subyektlərinə hərəkəti zamanı meydana çıxan təsərrüfat münasibətləri sistemidir.* «Bir ölkə - başqa ölkə (ölkələr)» münasibəti kimi möveud olduğuna görə, onlar fonnaea *ikitərəfli münasibətlərdir.* Münasibətlərin məğzi baxımından, burada ticari-iqtisadi əməkdaşlığın neçə ölkə ilə aparıldığının heç bir prinsipal fərqi yoxdur. Bu ikitərəfli münasibətlər ölkənin iqtisadi həyatının bütün sahələrini, başlıca olaraq, onun istehsal, ticarət, maliyyə bölmələrini, habelə investisiya qoyuluşları, işçi qüvvəsinin miqrasiyası və sair aspektlərini əhatə edir. Əlbəttə, hər bir ölkə öz xarici iqtisadi əlaqələrinin şaxələnməsində, yəni təsərrüfat əlaqələrinin bir yaxud iki tərəfdaş ölkə ilə deyil, mümkün qədər çox dövlətlə qurulmasında maraqlıdır.

***Xarici iqtisadi əlaqələrin mahiyyəti, onların funksiyaları.*** Xarici iqtisadi əlaqələrin şərti qaydada iki funksiyasını fərqləndirmək olar:

1) beynəlxalq əmək bölgüsünün məhsulu qismində çıxış edən təbii sərvətlər və əmək fəaliyyətinin maddiləşmiş (hazır məmulatlar, xammal, yarım-fabrikatlar) və dəyər formaları ilə beynəlxalq mübadilənin təşkili və ona xidmət göstərilməsi. Bu funksiyanın məzmunu, milli məhsulun xariedə satılmaq üçün əşya və dəyər fonnalannda konkret istehlakçıya çatdırılmasından ibarətdir;

2) xarici iqtisadi əməliyyatların həyata keçirilməsi prosesində milli pul tədavülünün bir hissəsinin beynəlxalq formalara transformasiya olunması. Xariei maliyyə sektorunun bir hissəsi (ticarətə xidmət göstərilməsi və s.) bunun nəticəsində formalaşır. İkinci funksiyanın məzmun tərəfi kimi, əmtəə-pul münasibətləri və pulun BƏB məhsuluna dəyişdirilməsi proseslərinin tam başa çatmasıdır. Bu proses nəticəsində məhsulda təcəssüm olunmuş istehlak dəyəri

beynəlxalq miqyasda tanınır (beynəlxalq qiymət ekvivalenti) və müəyyən qiymətlə satılır.

Malların, xidmətlərin və insan fəaliyyətinin başqa məhsullarının bir ölkədən başqa ölkəyə (ölkələrə) fasiləsiz hərəkətini təmin edən *dayanıqlı xarici-iqtisadi (və maliyyə) mexanizmi yaxud kompleksi* belə fonnalaşır. Əlbəttə, bu yalnız ümumi sxemdir, bu prosesə çoxlu «bloklar» - xarici bazarların, alıcıların tələbatlarının öyrənilməsi, danışıqların aparılması, müqavilə şərtlərinin yerinə yetirilməsi, valyuta (pul) əməliyyatları və s. cəlb olunmuşdur.

Bir tərəfdən, ölkənin xarici iqtisadi əlaqələri başqa dövlətlərlə və beynəlxalq təşkilatlarla əməkdaşlığın müxtəlif fonnalarmı əhatə edən bütöv istiqamətdir. Buna müvafiq olaraq, beynəlxalq əməkdaşlığın fonnaları da çox müxtəlifdir. Bunlar, ilk növbədə, fiziki və hüquqi şəxslərin əməkdaşlığı (bir yaxud bir neçə əcnəbi tərəfdaşla), konkret ölkənin BMT, GATT, ÜTT kimi universal təşkilatlarla qarşılıqlı münasibətləridir. Əməkdaşlığın bu fonnaları eyni zamanda birgə fəaliyyətin konkret sahələrinin *xarici iqtisadi tənzimlənməsinin formaları* kimi də çıxış edə bilər.

Digər tərəfdən, dünya bazarının mallara, xidmətlərə, innovasiyalara, investisiya resurslarına olan tələbatı xarici iqtisadi əlaqələr mexanizmi vasitəsilə başqa ölkənin (ölkələr qrupunun) daxili bazarına köçürülür. Beləliklə məhsuldar qüvvələrin artımına tələbat, buradan isə, öz növbəsində, sənayenin, kənd təsərrüfatının, ticarətin, xidmətlər sahəsinin və maliyyə qurumlarının inkişafına şərait yaranır. Belə vəziyyətdə daxili bazarının inkişafı ölkə daxilində təklif həcminin tələbat həcmini üstələməsi, bu isə, öz növbəsində, xarici ticarət əməliyyatlarının genişlənməsi, kapitalın dəyərinin ucuzlaşması, istehsal və tədavül xərclərinin azalması ilə nəticələnir.

***XlƏ-nin təsnifatı.*** XlƏ-nin və onun idarə olunması mexanizminin təşkilinin səmərəliliyi bir çox cəhətdən onun təsnifatı ilə müə^/yən olunur. *XİƏ-nin təsnifatı dedikdə, onun qarşıya qoyulan məqsədlərə uyğun olaraq, müəyyən əlamətlər üzrə konkı~et qruplara bölgüsü* nəzərdə tutulur. Xarici iqtisadi əlaqələrin təsnifat sistemi əlaqələrin növlərindən və formalarından ibarətdir.

***XlƏ-nin növləri.*** *Xarici iqtisadi əlaqələrin növü* - bir ümumi əlamət, məsələn, əmtəə axınının istiqaməti və öz strukturuna əsasən birləşmiş təsərrüfat əlaqələrinin məcmusudur. Bu əlamətə görə xarici iqtisadi əlaqələr aşağıdakılara bölünür:

1) malların satılması və ölkədən çıxarılması ilə əlaqədar olan ixrac;
2) malların alınması və ölkəyə gətirilməsi ilə əlaqədar olan idxal.

Xarici iqtisadi əlaqələrin struktur əlaməti üzrə təsnifatı onların qrup tərkibini müəyyən edir. O, iqtisadi maraqlar sahəsi və dövlətin xarici iqtisadi fəaliyyətinin əsas məqsədi ilə bağlıdır. Struktur əlaməti üzrə xarici iqtisadi əlaqələr aşağıdakılara bölünür:

1) xarici ticarət;
2) maliyyə;
3) istehsal;
4) investisiya.

***Xarici əlaqəbrin formaları.*** Xarici əlaqələrin formaları dedikdə, həmin əlaqə növünün mövcudluq üsulu, hər hansı konkret əlaqənin mahiyyətinin zahiri təzahürü (tərtib olunması) nəzərdə tutulur. Xarici iqtisadi əlaqələrin fonualarına: ticarət, barter, turizm, injinirinq, françayzinq, lizinq və başqaları aid edilir, (şəkil 3.1)

Göstərilən sxemdə xariei iqtisadi əlaqələrin çoxsaylı formaları ən ümumi şəkildə verilmişdir. Ticari-iqtisadi əlaqələr inkişaf etdikeə və dərinləşdikeə, ənənəvi fonualar və istiqamətlər parçalanır (şaxələnir), yeni formalar, növlər, hətta istiqamətlər meydana çıxır.

Məlum olduğu kimi, xariei tiearət milli qanunvericilik və beynəlxalq qaydalar nəzərə alınmaqla, ticarətin başlıca məqsədi olan qazanca əsaslanaraq aparılan konkret əməliyyatlar vasitəsilə həyata keçirilir. Bu zaman işgüzar mübadilənin adətləri mühüm rol oynayır.

## 3.3. Xarici iqtisadi əməiiyyatlar: anlayışiarın kateqoriyaları, təsnifatı

***işgüzar mübadilə adəti*** hüquqi cəhətdən məcburi olan beynəlxalq-hüquqi adətlərdən fərqli olaraq, xarici ticarət kontraktına yalnız tərəflərin müqavilə bağlayarkən razılığa gəldiyi hallarda tətbiq olunur. 1980-ci ildə Vyanada BMT-nin beynəlxalq alqı-satqı müqavilələri haqqında Konvensiyası qəbul edilmişdir (Rusiya Federasiyası Vyana Konvensiyasına 1991-ci ildən qoşulmuşdur). Vyana Konvensiyasının 9-cu maddəsində aşağıdakılar nəzərdə tutulur:

• tərəflər razılığa gəldikləri istənilən adətlə və öz qarşılıqlı əlaqələrində müəyyən etdikləri praktika ilə bağlıdır;

• başqa hal nəzərdə tutulmadıqda, tərəflərin müqaviləyə və ya onun

bağlanmasına münasibətdə bildiyi yaxud bilməli olduğu, beynəlxalq ticarətdə geniş məlum olan və bu növ ticarətin müvafiq sahəsində bağlanılan müqavilələrdə tərəflərin daim riayət etməli olduğu adət tətbiq edilir.

Xarici iqtisadi əlaqələr sahəsində işgüzar mübadilə adətləri bir çox hallarda beynəlxalq qeyri-hökumət təşkilatları tərəfindən təfsir olunur. BTP tərəfindən işlənib hazırlanmış Ticarət terminlərinin təfsirinin beynəlxalq qaydalarını (Inkoterms 2010) buna nümunə göstənnək olar. Müqavilə bağlayarkən, tərəflər bu qaydaları öz münasibətlərinə şamil edə bilər.

***İxrac*** - malların, işlərin, xidmətlərin, əqli mülkiyyətin nəticələrinin, habelə onlar üzərində müstəsna hüquqların geri qaytanua öhdəliyi olmadan gömrük ərazisindən xaricə çıxarılmasıdır. İxrac faktı malın gömrük sərhədini keçdiyi, xidmətlərin və əqli fəaliyyətin nəticələri üzərində hüquqların verildiyi anda təsbit olunur. Əmtəələri gömrük ərazisindən xaricə çıxarmadan həyata keçirilən bəzi kommersiya əməliyyatları da ixrac hesab olunur. Beynəlxalq ticarətin, başqa sözlə, dünya üzrə ticarət dövriyyəsinin həcmi ancaq ixrac həcminin toplanılması yolu ilə, adətən, ABŞ dolları yaxud FOB (free on board) qiymətləri əsasında hesablanır. FOB qiyıuəti satıcının daşınma və sığorta üzrə xərclərin bir hissəsini yalnız malın gəmi göyərtəsinə çatdırıldığı anadək çəkdiyini nəzərdə tutur. Bu barədə dərsliyin 11-ci fəslində daha ətraflı danışılır.




*Şəkil 3.1.* **Ölkələrin xarici iqtisadi əlaqələrinin ümumi təsnifatı**

***idxal*** - malların, işlərin, xidmətlərin, əqli mülkiyyətin nəticələrinin, habelə onlar üzərində müstəsna hüquqların geri qaytarma öhdəliyi olmadan xaricdən gömrük ərazisinə gətirilməsidir. İdxal faktı malın gömrük sərhədini keçdiyi, xidmətlərin və əqli fəaliyyətin nəticələri üzərində hüquqların alındığı anda təsbit olunur.

CIF - dəyər, sığorta, fraxt (CIF - cost, Insurance and freight) - bu göndəriş şərtinə əsasən satıcı malın təyinat məntəqəsinədək (adətən, bu idxal edən ölkədəki limandır) daşınmasını və daşınma zamanı malların sığorta olunması xərclərini öz üzərinə götürür. Buna görə də CIF qiymətinə malın dəyəri, onun fraxtı və sığortalanması xərcləri daxildir.

Bazar agentinin ***xarici iqtisadi fəaliyyəti*** mallar, işlər, xidmətlər, infonnasiya, əqli fəaliyyətin nəticələri, o cümlədən onlar üzərində müstəsna hüquqlarla (əqli mülkiyyət) beynəlxalq mübadilə sahəsində sahibkarlıq fəaliyyətidir. Bu halda «mal» anlayışı istənilən daşmar əmlakı (enerjinin bütün növləri daxil olmaqla), habelə daşınmaz əmlaka aid edilmiş hava, dəniz gəmilərini, daxili sularda üzən gəmiləri və xarici ticarət fəaliyyətinin predmeti olan kosmik obyektləri ifadə edir. Beynəlxalq daşımalar haqqında müqavilələrdə istifadə edilən nəqlİ3^at vasitələri mal deyil.

Xidmətlərlə beynəlxalq ticarət ***gözəgörünməz ixrac*** da adlandırılır. O, insanların və təşkilatların ehtiyacları ilə bağlı olan ən müxtəlif fəaliyyət növlərini həyata keçirməklə, başqa şəxslərin tələbatlarının ödənilməsinə yönəlmiş sahibkarlıq fəalij^əti kimi təfsir olunur. Xidmətlərlə ticarətə aşağıdakılar aiddir:

• xarici hüquqi və fiziki şəxslərlə bağlanılmış müqavilələr (onlara bərabər tutulan sənədlər) əsasında göstərilən xidmətlər;

• xarici gəmilərə xidmət göstərilməsi - losman bələdçiliyi, liman yığımlarının bütün növləri, liman donanmasının xidmətləri, təmir və başqa işlərlə bağlı olan xidmətlər (işlər);

• bilavasitə Rusiya hava limanlarında və hava məkanında xarici hava gəmilərinə göstərilən xidmətlər, o cümlədən aeronaviqasiya xidmətləri;

• ixrac olunan xidmətlər - Rusiya müəssisələrində hazır məhsul şəklinə salınıb, MDB iştirakçısı olan dövlətlərin sərhədlərindən kənara çıxarılmaq üçün onun gömrük ərazisinə əcnəbi sifarişçinin gətirdiyi xammalın emalı üzrə xidmətlər (tollinq əməliyyatları).

***Tollinq*** - yenidən ixrac məqsədi ilə emal olunan müəyyən əmtəəlik

məhsul üçün razılaşdırılmış gömrük rüsumunun bir növüdür.

*Françayzinq* (franchise - *iistimliik, hüquq)* - texnologiyaya və əmtəə nişanına lisenziyanın verilməsi yaxud satılması sistemidir. Beynəlxalq françayzinq assosiasiyası bu sistemi françayz alanın lisenziya müqaviləsi əsasında ödədiyi maliyyə kompensasiyası müqabilində françayz verən tərəfindən ona sahibkarlıq fəaliyyətində və təlim keçilməsində yardım göstərilməsinə, marketinq, idarəçilik və s. sahələrdə müstəsna hüquqların verməsini nəzərdə tutan *davamlı münasibətlər* kimi müəyyənləşdirir. Françayzinqin mahiyyəti, bazarda möhkəm müsbət imici olan firmanın (françayz verənin) öz texnologiyalarım və əmtəə nişanı altında işləmək hüququnu, yəni lisenziyanı (françayzı) istehlakçılara məlum olmayan firmaya (françayz alana) razılaşdırılmış şərtlərlə verməsi müqabilində müəyyən kompensasiya (gəlir) əldə etməsindədir. Françayzinq müqaviləsinə əsasən fəaliyyət göstərmək hüququ, adətən, müəyyən ərazi üzrə və müəyyən müddətə verilir.

Rusiya Federasiyasında françayzinqin qüvvədə olması RF Mülki Məcəlləsinin 54-cü, «Kommersiya konsessiyası» və 4-cü hissəsi ilə reqlamentləşdirilir.

Françayzinqin əsas prinsipi françayz verənin *nou-hausunun* françayz alanın *kapitalı* ilə əlaqələndirməkdir. Françayz alan *iki funksiyam* yerinə yetirir:

- ticarət müəssisəsinin yaradılması üçün kapital verilməsi;
- öz ticarət müəssisəsinin idarə olunması.

Beləliklə, françayzinqin ən mühüm elementi françayz alanın kapital mənbəyi rolunu 05mamasıdır.

*İnjinirinq* - müəssisələrin və obyektlərin yaradılması üzrə mühəndis-məsləhətvermə xidmətləridir. Sahibkarlıq fəaliyyətinin xüsusi növü kimi, injiniringin aşağıdakı özəllikləri vardır:

- bu, istehsal təyinatlı xidmətlərin məhsulun əşyalaşmış deyil, ondan əldə olunan səmərədə təcəssüm olunan formasıdır. Bu səmərə maddi daşıyıcıda (layihələr və texniki sənədlər, qrafiklər, çert.yojlar və s.) və başqa formada (təlim keçmə, idarəçilik və s.) ola bilər;
- alqı-satqı obyekti qismində çıxış edir;
- françayzinq və nou-haudan fərqli olaraq, injinirinq təkrarlana bilən, yəni dəyəri istehsal edilməsi üçün ictimai-zəruri olan vaxtla rriüə3^ənləşdirilən

xidmətlərlə əlaqəlidir və onun satılması çoxsaylı satıcıların olmasını tələb edir.

*Tender* (tender - təklif, podrat üçün ərizə) - podrat müzaidələrinin müsabiqə yolu ilə keçirilməsinin formasıdır. Onun mahiyyəti iddiaçılar tərəfindən irəli sürülən təkliflərin tender sənədlərində əks olunan meyarlara uyğunluq nöqteyi-nəzərindən seçilməsindədir.

*Lizinq* (lease - icarə) - torpaq sahələri və başqa təbii obyektlər istisna edilməklə, avadanlığın, nəqliyyat vasitələrinin, digər daşınmaz və daşmar əmlakın istifadəyə verilməsi ilə bağlı olan uzunmüddətli icarə formasıdır. Lizinq, maddi-texniki təchizatın kreditləşmə və icarəyə vermə ilə eyni zamanda müşayiət olunan fonnasıdır. Lizinqdə həmişə iki tərəf iştirak edir:

1) lizinq verən - lizinq fəaliyyətini, yəni lizinq müqaviləsi əsasında bunun üçün xüsusi alınmış əmlakın lizinqə verilməsini həyata keçirən təsərrüfatçılıq subyekti yaxud fərdi sahibkardır;

2) lizinq alan - əmlakı lizinq müqaviləsi əsasında alan təsərrüfatçılıq subyekti yaxud fərdi sahibkardır.

*Nou-hau* (know how - bilirəm necə) - texniki biliklər və kommersiya sirləri kompleksidir. Nou-haunun əsas əlaməti konfidensiallıqdır. Adətən, texniki və kommersiya xarakterli nou-hau fərqləndirilir. *Texniki xarakterli nou- hauya* bunlar daxildir:

1) məmulatların təcrübə və qeydiyyatdan keçirilməmiş nümunələri, maşın və aparatlar, ayrı-ayrı detallar, alətlər, emal cihazlan və s.;

2) texniki sənədlər - düsturlar, hesablamalar, planlar, çertyojlar, sınaqların nəticələri, yerinə yetirilmiş elmi-tədqiqat işlərinin məzmunu və onların nəticələri, müəyyən istehsala yaxud texnologiyaya tətbiq oluna bilən hesablamalar, materialların keyfiyyəti barədə məlumatlar; işçi heyətin hazırlanması üçün tədris planları;

3) məmulatın konstruksiyası, hazırlanması yaxud istifadəsi barədə məlumatlar olan təlimatlar; istehsalat təcrübəsi, texnologiyalann təsviri; dizayn üzrə praktiki göstərişlər; texniki qaydalar, istehsalın planlaşdıniması və idarə olunması üzrə məlumatlar və s.

*Kommersiya xarakterli nou-hauda* aşağıdakılar göstərilir:

1) məlumat banklarının ünvanları;

2) müştərilərin kartotekası;

3) malgöndərənlqrin kartotekası;

4) istehsalın təşkili və səmərəliliyi, məhsul buraxılışının həcmi barədə

məlumatlar və s.

Nou-haunun satılmasının bir sıra özəllikləri vardır: belə ki, nou-haunu qiymətləndirmək üçün alıcı, az da olsa, onun mahij^əti ilə tanış olmalıdır və bu halda onun sahibi nou-haunu satmadan, üzərində inhisarı itirmək riski ilə üzləşir.

Nou-haunun qiyməti müəyyənləşdirilərkən yadda saxlanmalıdır ki, ona çəkilən xərclər istifadəçinin gələcək gəlirləri ilə əvəzlənəcək; əks halda, onun mənfəəti az yaxud ümumiyyətlə, olmayacaq. Nou-haunun dəyərinin ödənilməsinin bir neçə üsulu var:

• ***royalti*** (royalty - yeraltı sərvətlərə görə ödəniş, müəllif qonorarı) - nou-haudan istifadə zamanı müəyyən göstəricilərə əsasən tədricən ödəmələr. Royalti hazır məhsulun buraxılışına başlama anından etibarən, lisenziya müqaviləsinin qüvvədə olduğu hər ilin sonunda ödənilir. Real mənfəəti müə5^ənləşdirmək çətin olduğu hallarda satış həcminə nisbətən hesablama formasından istifadə edilir. Dünya bazarlarında qiymətlərin tərəddüdü royaltinin təsbit olunmuş məbləğdə ödənilməsini kifayət dərəcədə çətinləşdirir. Buna görə də uzunmüddətli müqavilələrdə illər üzrə diferensiallaşdırılmış dərəcələrdən istifadə edilir.

• ***panşal ödəniş*** (almanca pauchal - bütövlüklə götürülmüş) - əvvəlcədən razılaşdırılmış birdəfəlik ödənişdir. Pauşal ödənişlər nou-haunun təsirindən səmərəni proqnozlaşdırmaq çətin olduqda yaxud lisenziyanın dəyəri ucuz olduğu hallarda tətbiq edilir. Pauşal ödənişlərdən əsasən qeyri-istehsal sahələrində istifadə olunur. Mahiyyətcə, onlar lisenziyanın faktiki qiymətini ifadə edir. Pauşal ödəniş şəklində mükafatlandırma royaltinin kapitallaş- dırılması, yəni onun vaxtından əvvəl birdəfəlik qaydada ödənilməsidir.

• ***kost plas*** (cost plus - qiymət üstəgəl) - əlavə xidmətlərə görə razılaşdırılmış tarif üzrə müqavilədə göstərilən qiymətdən əlavə ödənişlər. Ödənişlərin qarışıq formaları da tətbiq oluna bilər.

Nou-hau lisenziya razılaşmalarının (pulsuz lisenziyaların) müstəqil obyektidir. Bir sıra şirkətlər yeni ixtiraları, prosesləri və metodları patentləş- dirmək əvəzinə lisenziya əsasında nou-hau qismində vennəyi üstün tutur.

## 3.4. Xarici iqtisadi əlaqələrin tənzimləyiciləri: xarici iqtisadi siyasət

Xarici iqtisadi əlaqələr müxtəlif tənzimləyicilər, yəni əlaqələrin meydana çıxmasına, onları dövlətin maraqlarını müdafiə edən vahid və səmərəli siyasi-iqtisadi sistemə yönəldən alətlərin təsiri altında fonnalaşır. Xarici iqtisadi əlaqələrin tənzimləyiciləri iqtisadi və təşkilati-sərəncamverici ola bilər.

*İqtisadi tənzimləyicilər* ictimai istehsalda müxtəlif əlaqələr meydana çıxdıqca və reallaşdıqca iqtisadi maraqlara təsir göstərir. Bunlara: tələb və təklif arasında nisbət; dünya və daxili (ölkə) bazarlarında qiymətlər, rüsum və tariflər, val)oıta məzənnələri, bankların faiz dərəcələri arasında nisbətlər; dünyada və ölkədə malların (işlərin, xidmətlərin) istehsal səviyyələrinin həcmə, keyfiyyətə və səmərəliliyə görə nisbətləri; iqtisadi stimullar; proqnozlar, planlar, proqramlar və sair aiddir. Nəzərə alınmalıdır ki, plan kapitalist bazar iqtisadiyyatında direktiv xarakter daşımır. Ondan yalnız inkişafın perspektiv məqsədlərinin müəyyənləşdirilməsində və dövlət (hökumət) tərəfindən ən mühüm makroiqtisadi tənasüblərin aşkar olunmasında istifadə edilir.

*Təşkilati-sərəncamverici tənzimləyicilər* tamamilə olmasa da, adətən avtokratik dövlətlərdə istifadə edilən amiranə-inzibati xarakterli alətlərdir. Buna baxmayaraq, həmin tənzimləyicilərin bir çoxu universal xarakterdədir. Həmin alətlərlə tənzimləmə dövlətin və onun orqanlarının xarici iqtisadi əlaqələrin formalaşmasına və inkişafına müxtəlif direktiv aktlar vasitəsi ilə birbaşa müdaxiləsini nəzərdə tutur. Bunlara: malların (işlərin, xidmətlərin) ixracının və idxalının kvotalaşdırılması və lisenziyalaşdırılması; ayn-ayrı fəaliyyət növlərinin lisenziyalaşdırılması; malların (işlərin, xidmətlərin) ixracından əldə edilən valyuta mədaxillərinin bir hissəsinin məcburi qaydada satılması; gömrük rejimləri; malların ölkəyə gətirilməsinin və ölkədən çıxarılmasının gömrük rəsmiləşdirilməsi; valyuta nəzarəti; gömrük nəzarəti; ixrac nəzarəti; idxala nəzarət və s. aiddir. Xarici iqtisadi əlaqələrin dövlət tərəfindən fəal tənzimlənməsi dövlətin xarici iqtisadi siyasətinin əsas məqsədidir.

*Dövlətin xarici iqtisadi siyasəti* - onun öz potensialını (siyasi, iqtisadi, hərbi, sosial, ekoloji və s.) möhkəmləndirmək və dünya iqtisadiyyatında səmərəli iştirak etmək məqsədi ilə xarici iqtisadi əlaqələrin formalaşmasına və bundan yararlanmasına istiqamətlənmiş məqsədyönlü fəaliyyətidir. Dövlətin

xarici iqtisadi siyasəti ölkənin texnoloji inkişaf səviyyəsindən, malların və xidmətlərin keyfiyyətindən, onun tədi^/yə balansından çox asılıdır.

*İxrac üzrə xarici iqtisadi siyasət* rəqabətqabiliyyətli malların dünya bazarlarında satılmasının və onların istehsalının stimullaşdırılmasına yönəlmişdir. İxracqabiliyyətli istehsalların stimullaşdırılması üçün dövlət sifarişlərindən, büdcədən maliyyələşdirmədən, kreditlərdən, ETTKİ-nin malİ3^ələşdirilməsindən və s. istifadə olunur.

*İdxal üzrə xarici iqtisadi siyasətin* məqsədi ölkəyə xarici malların (işlərin, xidmətlərin) gətirilməsini tənzimləməkdir. Bu tənzimləmənin alətləri aşağıdakılardır:

• milli iqtisadiyyatın müdafiəsi üçün idxalın birbaşa məhdudlaşdırılması. Bunun üçün idxalın lisenziyalaşdırılmasmdan və kontingentləşməsindən, antidempinq və kompensasiya rüsumlarından, minimum idxal qiymətlərindən və s. istifadə olunur;

• kontingentləşdirmə - xarici ticarətin dövlət tərəfindən kontingent adlandırılan ixrac və idxal kvotalarının müəyyənləşdirilməsi vasitəsilə tənzimlənməsi formalarından biridir. Kontingent (latınca contingens - paya düşən) - xarici ticarətdə bəzi malların ölkəyə gətirilməsi və ölkədən çıxarılması yaxud müəyyən dövlətlərə tranziti üzrə çəki yaxud dəyər vahidi ilə ifadə olunmuş ən yüksək hədd nonnasının müəyyənləşdirilməsidir;

• idxalın birbaşa məhdudlaşdırılmasına yönəlməsə də, təsiri nəticəsində xarici ticarəti çətinləşdirən *inzibati rəsmiləşdirmələr.* Bunlara gömrük rəsmiləşdirmələri, sanitariya və baytarlıq normaları, texniki standartlar və s. daxildir. İdxal üzrə xarici iqtisadi siyasət öz hərəkətlərində ölkə iqtisadiyyatında idxalın rolunu nəzərə almalıdır. Birincisi, idxal dövlətin gömrükdən daxilolmalarının ənənəvi mənbəyidir; ikincisi, antiinhisar alət və ölkədə buraxılan mallar üçün rəqabət yaradan elementdir; üçüncüsü (bu isə başlıcadır), idxal əhalinin ölkədə istehsal olunmayan mallara tələbatının ödənilməsini təmin edir.

*Xarici investisiya siyasəti* xarici investisiyaların ölkə ərazisinə cəlbi və onlardan istifadə olunması, öz investisiyalarının ölkədən xaricə çıxarılmasının tənzimlənməsi üzrə tədbirlər kompleksidir. *İnvestisiya* - investorun mənfəət əldə etmək məqsədi ilə sahibkarlıq fəaliyyət obyektlərinə qoyduğu əmlak və əqli mülkiyyət dəyərlərinin bütün növləridir. İnvestisiyalarda əsas rolu kapital oynayır. Sözün dar mənasında, *kapital — gəlir əldə olunması üçün təyin olunan*

***puldur.*** Kapital idarəçilik və mənfəət üzərində hüquqların əldə edilməsi üçün müəssisənin yaradılmasına (birbaşa investisiyalar), qiymətli kağızların alınmasına (portfel investisiyaları) yaxud faiz ödənilməsi şərtilə kreditə verilə (kredit kapitalı) bilər.

## Xülasə

• ölkənin xarici iqtisadi əlaqələri - BİM-in tərkib hissəsi olmaqla, özündə ölkənin ticari, istehsal-sənaye, elmi-texniki, maliyyə, əqli və başqa əlaqələrini (məsələn, işçi qüvvəsinin hərəkəti, işgüzar səfərlər və səyahətlər sahələrində) birləşdirir. Bütün bu əlaqələr və münasibətlər beynəlxalq ticari- iqtisadi əməkdaşlıq adlandırılan mürəkkəb və qlobal kompleks təşkil edir. Bu sistemin mərkəzi həlqəsi mallar və xidmətlərlə ticarətdir; burada investisiyalar mühüm yer tutmağa başlamışdır.

• BİƏ predmetinin başa düşülməsi üçün müvafiq düşüncə aparatını mənimsəmək, xarici əlaqələrin həm özünün müxtəlif formalarını, növlərini və əlamətlərini, həm də xarici iqtisadi əməliyyatlarla məşğul olan, o cümlədən əcnəbi tərəfdaşlarla müxtəlif işgüzar əməliyyatlar aparan və müqavilələr bağlayan mütəxəssisin spesifik lüğətinə daxil olan anlayışları bilmək lazımdır.

• İstənilən xarici fonua (əməliyyat) konkret münasibətlərin (əlaqələrin) meydana çıxmasını şərtləndirən müxtəlif növ tənzimləyicilərin (qaydaların) təsiri altında formalaşır və həyata keçirilir. Onların xüsusiyyətləri və yaranma mənbəyi müxtəlif olsa da, başlıcası, dövlət tərəfindən fəal tənzimləmədir. Buna görə də həmişə dövlətin xarici iqtisadi siyasətinin nəzərə alınması, onun əsaslarının nəzərdən keçirilən sahədə dövlətin kompleks fəaliyyəti kimi öyrənilməsi zəruridir.

• Rusiya təşkilatlarının xarici iqtisadi fəaliyyətini tənzimləyən əsas normativ aktlar (qanunlar, qərarlar) Rusiyanın Ali Soveti tərəfindən 1991-1993-cü illərdə ölkənin transformasiyasının əsas mərhələsində qəbul olunmuşdur. Sonrakı illərdə müəyyən dəyişikliklər edilmiş, 8 dekabr 2003-cü il tarixli 164-03 №-li «Xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin əsasları haqqında» Federal Qanun qəbul olunmuşdur. Rusiyada xarici iqtisadi və gömrük tənzimlənməsinin bazası gömrük-tarif sistemi və bu sahədə dövlət siyasətidir, onun mərkəzi elementi isə RF-in 21 may 1993-cü il tarixli 5003-1 №-li «Gömrük tarifi haqqında» Qanunu və 28 may 2003-cü il tarixli 61-03 №-

li Gömrük Məcəlləsidir (Gömrük İttifaqı yaradıldıqdan sonra onu Avrasiya İqtisadi Birliyinin Dövlətlərarası Şurasının dövlət başçıları səviyyəsində qərarı ilə qəbul olunmuş Gömrük İttifaqının Gömrük Məcəlləsi haqqında Müqavilə əvəz etmişdir). Bir çox hallarda dövlət qeyri-tarif, məsələn, 8 dekabr 2003-cü il tarixli 165-03 №-li «Mallar idxal edilərkən xüsusi müdafiə, antidempinq və kompensasiya tədbirləri haqqında» Federal Qanunu əsasında tənzimlənmə metodlarından istifadə edir. Tez-tez kvota və lisenziyaların tətbiqi vasitəsilə miqdar məhdudiyyətləri tətbiq olunur. Proteksionizm aləti qismində vergi siyasətindən, idxal rüsumlarının artırılmasından və s. istifadə edilir. Belə ki, 2008-2010-cu illərdəki böhran zamanı köhnə avtomobillərin ölkəyə gətirilməsinə görə idxal rüsumlannm artırılması üzrə birmənalı qəbul olunmayan tədbirlər, habelə bir sıra başqa proteksionist hərəkətlər həyata keçirilmişdi. Qeyd olunmalıdır ki, hökumətlərin bu cür hərəkətləri konyunktura xarakteri daşıyır, konkret vəziyyətdən irəli gəlir və bir qayda olaraq, fors-major şəraiti aradan qaldırılanadək qüvvədə olur.

## Yoxlama sualları

1. Xarici iqtisadi əlaqələrin mahiyyəti və məzmunu nədən ibarətdir, onların təsnifatı necədir, növləri və formaları hansılardır?

2'. Dövlətin xarici iqtisadi siyasəti necə formalaşır, onun məzmunu, prinsipləri yə məqsədləri nədən ibarətdir?

3. Xarici iqtisadi əlaqələr necə tənzimlənir?

## Referatların mövzuları

1. Xarici iqtisadi siyasət nəzəriyyəsi və Rusiyanın xarici iqtisadi əlaqələri
2. Xarici iqtisadi əlaqələrin tənzimləyiciləri

# Fəsil 4

# DÖVLƏTİN XARİCİ İQTİSADİ SİYASƏTİ VƏ İQTİSADİ DİPLOMATİYASI

## 4.1. Dövlətin xarici iqtisadi siyasəti, onun formalaşması mexanizmi

Xarici iqtisadi siyasət ölkənin dünya bazarlarında müəyyən üstünlüklər qazanması və eyni zamanda daxili bazarın xarici malların rəqabətindən qorunmasına yönəlmiş tədbirlər sistemidir. Buradan belə nəticə çıxarmaq olar ki, 0, dövlətin təkcə xarici deyil, həm də daxili iqtisadi siyasətinin ən mühüm həlqələrindən biridir və məhz sonuncu, xarici iqtisadi siyasətinin səmərəliliyini müəyyən edir.

Xarici iqtisadi siyasətin məzmunu və istiqamətləri geosiyasi, geoiqtisadi və başqa amillərin, habelə milli iqtisadi inkişafın, ölkələrin inteqrasiyasının vəzifələrinin məcmusu ilə müəyyənləşdirilir. Xarici iqtisadi siyasətin ölkənin ümumi beynəlxalq və daxili siyasəti ilə üzvi əlaqəsi nəticəsində dünya təsərrüfatının mürəkkəb koordinatlar sistemində milli və dünya iqtisadiyyatlarının qarşılıqlı təsiri daha da güclənir. Ölkə ərazisinin böyüklüyü, onun qüdrəti və dünyadakı nüfuzu xarici iqtisadi siyasətin formalaşmasında mühüm rol oynayır. Dünya təsərrüfatmdakı əlaqələrdə yeni meyillər ölkələrin iqtisadiyyatlarının təkrar istehsalın beynəlmiləlləşmiş həlqələrinə cəlb olunmasını şərtləndirir, bu isə, öz növbəsində, onları qlobal iqtisadi kompleksin tərkib hissəsinə çevirir. Dünya iqtisadiyyatının və BİM-in beynəlmiləlləşməsinin yeni mərhələsi dünyanın siyasi xəritəsini prinsip etibarilə dəyişərək, milli iqtisadİ3^atlarm «silinməsi», yeni strateji məqsədlərin və inteqrasiya qurumlarının fomıalaşması ilə yanaşı, yeni iqtisadi sərhədlər çəkir. Qlobal iqtisadi sistemdə maliyyə-kredit və informasiya strukturları xüsusilə fərqlənir.

BİM-də xarici aləmlə qarşılıqlı əlaqələrin üsullarının, qaydalarının, normalarının çox geniş bazası mövcuddur və onlardan bacarıqla yararlandıqda, məsələləri münaqişəsiz həll etmək mümkündür. Xarici iqtisadi siyasətin sütununu təşkil edən dövlət tədbirləri kompleksi aşağıdakı məqsədlərə nail olunmasına şərait yaradır:

• ölkənin istehsal həlqələrinin dünya bazarlarına çıxması və fəaliyyət göstənnəsi üçün şəraitin yaradılması;

• ölkənin xarici iqtisadi maraqlarının qomnmasmm təmin edilməsi;

• ticarət blokları, ayrı-ayrı ölkələr və təşkilatlarla əlaqələrdə əlverişli ticarət rejimlərinin fonnalaşdırılması, habelə beynəlxalq maliyyə təşkilatları, kreditor ölkələr və debitorlarla qarşılıqlı münasibətlərin tənzimlənməsinə imkan yaradan valyuta-maliyyə platformalarının yaradılması.

Xarici iqtisadi siyasətin iki funksiyanı: proteksionizm (müdafiə) və hücum funksiyalarını yerinə yetinuəsi hamı tərəfindən etiraf edilir. Funksiyaların bu cür bölgüsü onlardan hər birinin geniş mənada təfsir olunmasını istisna etmir. Belə ki, ABŞ və Çin kimi dövlətlərin hücum siyasətinə nüfuz dairələrinin bölgüsünün təmin edilməsi kimi ekspansiya tədbirləri daxil edilə bilər. Başqa ölkələrə münasibətdə hücum siyasəti əməkdaşlığın genişləndirilməsi ilə yanaşı, mehriban qonşuluq və sülh prinsiplərinin həyata keçirilməsini ifadə edə bilər. Tamamilə aydındır ki, dövlətlərin iqtisadiyyatında islahatların aparılması üçün seçilmiş hər bir model xarici iqtisadi siyasətin eyni elementlər bazasına istinad edir. Fərqlər yalnız elementlərin seçilən sayında və liderlik edən (istehsala cəlb olunan işçi qüvvəsinin yüksək faizi, ən yeni texnologiyaların (hight-trust societies) aparıcı rolu) və təqib edən (low-trust societies) inkişaf strategiyalarının əlaqələndirilməsindədir.

Xarici iqtisadi siyasətin əsas istiqamətləri xarici iqtisadi fəaliyyətin bütün məcmusunu: malların və xidmətlərin, maddi, əmək, pul və əqli resursların beynəlxalq hərəkətini tənzimləyir. Müvafiq olaraq, onun əsas elementləri xarici ticarət siyasəti, istehsal və elmi-texniki əməkdaşlıq sahəsində siyasət, valyuta-kredit siyasəti, xarici investisiyalar, texnologiyaların ötürülməsi sahələrində və s. siyasətlərdir.

Dövlətin xarici iqtisadi siyasətinin işlənib hazırlanması müəyyən bazanın: müvafiq iqtisadi qurumlar sisteminin; dövlətin milli özəlliklərini nəzərə alan nonuativ-hüquqi əsasın; cəmiyyətin demokratikləşməsinin lobbiçilik qarşısında sədd çəkə bilən səviyyəsinin; hər hansı həlqənin iqtisadiyyatda lider rolunu oynamayacağma zəmanət verən milli bazar strukturlarının geniş şəbəkəsinin mövcudluğunu tələb edir.

Beləliklə, ***xarici iqtisadi siyasət (XİS)*** dövlətin və onun orqanlarının xarici iqtisadi fəaliyyət rejiminin müəyyənləşdirilməsi, ölkənin beynəlxalq

əmək bölgüsündə iştirakının optimallaşdırılması üzrə məqsədyönlü hərəkətləridir. XİS ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar olaraq, ayrı-ayrı ölkələrlə və regionlarla xarici iqtisadi əlaqələrin coğrafi baxımdan tarazlaşdırılması məsələsini həll edir.

Xarici iqtisadi siyasətin ölkənin sərəncamında olan geniş alətlər toplusu ona öz iqtisadiyyatının strukturunun formalaşmasına və inkişaf istiqamətlərinə fəal təsir göstərmək imkanı verir. XİS-də fəaliyyətin iqtisadi diplomatiya adlandırılan spesifik sahəsi formalaşmışdır.

***İqtisadi diplomatiyanın məzmunu və təcrübəsi.*** Müasir dövrdə qloballaşma proseslərinin sürətli inkişafı beynəlxalq münasibətlər sisteminə iqtisadi amillərin təsirinin get-gedə güclənməsi ilə müşayiət olunur. Müasir diplomatiyanın iqtisadi tərkib hissəsi beynəlxalq münasibətlərin dinamikasını, habelə dünya dövlətlərinin inkişafının templərini və istiqamətlərini mühüm dərəcədə müə5^ənləşdirir.

Dünya siyasətinin qlobal iqtisadi sisteminin formalaşması baş verir, onun əsas aktorları (subyektləri) isə, ilk növbədə, maliyyə-iqtisadi maraqlarını əldə rəhbər tuturlar. Buna görə də iqtisadi diplomatiya dünya siyasətinin və beynəlxalq siyasi münasibətlərin çox mühüm, ayrılmaz tərkib hissəsinə çevrilir. Bu tendensiyaların düzgün başa düşülməsi üçün iqtisadi diplomatiyanın mahiyyətinin və mənbələrinin öyrənilməsi vacibdir. Buna parlaq nümunə İkinci Dünya müharibəsindən sonra Avropanın bərpası Proqramı formasında ifadə olunmuş Marşall planıdır. Marşall planının xarici siyasətinin tarixi böyük maraq doğurur. Bu plan müharibədən sonrakı dövrün başlanğıcında ABŞ strategiyasında mühüm yer tuturdu və onun xarici siyasətinin inkişafının tarixi mərhələsi idi. Sonradan Marşall planı iqtisadi yardım üzrə başqa proqramlarda öz uğurlu davamını tapdı, onun mexanizmindən indi də istifadə olunur. Marşall planının ideyasının müəllifi hesab edilən biznesmen və diplomat V.Kleyton onu bu tərzdə müdafiə edirdi: «Birləşmiş Ştatlar xalqının ehtiyacları və maraqları baxımından bizə almaq və satmaq üçün bazarlar, böyük bazarlar lazımdır... özünü iqtisadi üsullarla müdafiə etmək daha ucuz başa gəlir və bunlar bizdə kifayət qədərdir»’.

Amerikanın tarixində iqtisadi amillər ABŞ-m milli maraqlarının müəyyən edilməsində, xarici siyasi vəzifələrin və prioritetlərin formalaş-

^ Цит. по: *Каррьер Г.К. де ла.* Экономическая дипломатия. Дипломат и рынок. М., 2003. С. 60.

masında, habelə milli qüdrətin müxtəlif elementlərindən beynəlxalq arenada istifadəsində ənənəvi olaraq nəzərəçarpan rol oynamışdır. Dünyanın başqa ölkələrinin əksəriyyətinin xarici siyasəti ilə müqayisədə Amerikanın xarici siyasətində iqtisadi maraqların üstünlüyü həmişə daha parlaq təzahür olunmuşdur. Buna bir sıra şərtlər və vəziyyətlər; ABŞ-m uzun müddət ərzində dünyanın əsas güc mərkəzlərindən təcrid olunması, coğrafi şərait nəticəsində təhlükəsizliyin yüksək səviyyədə təmin edilməsi, amerikalılara xas olan, özünü xarici siyasətdə də büruzə verən ənənəvi praqmatizm şərait yaratmışdır. Avropada siyasi münasibətlər çox zaman iqtisadi əlaqələrdən çox öndə gedərək, müxtəlif ölkələrin iqtisadi maraqlarının irəliləməsinin bünövrəsini qoyurdusa, ABŞ üçün, əksinə, iqtisadi ekspansiyanın irəlidə olması və onun nəticələrinin müvafiq siyasi və hüquqi münasibətlər şəklində təsbit edilməsi xarakterik idi. Məşhur Amerika tədqiqatçısı D.Geddis qeyd edirdi; «İkinci Dünya müharibəsindən sonra ABŞ qlobal ekspansiya kursunu qəbul etmişdir».' Buna müvafiq olaraq, Amerikanın iqtisadi diplomatiyası müharibədən əvvəlki və sonrakı dövrlərin təcrübəsi nəzərə alınmaqla, bu geosiyasi kursun həyata keçirilməsinə istiqamətlənmişdi.

## 4.2. ABŞ-ın xarici iqtisadi siyasətinin mexanizmi

ABŞ-m İkinci Dünya müharibəsindən sonra iqtisadi ekspansiyasını izah edən çoxsaylı fikirlər mövcuddur. Ənənəçilərin əksərij^əti ABŞ-m özünün və Qərbi Avropa dövlətlərinin təhlükəsizliyin təmin olunması və demokratiyanın müdafiəsi ehtiyaclarına istinad edirlər; revizionistlər bunu kapitalizmin malların satış, ixrac və idxal bazarlarını genişləndimıək, investisiyaların müdafiə olunması zəruriliyi nöqteyi-nəzərindən izah edir, başqa sözlə, ekspansiyanın səbəblərinin yalnız iqtisadi maraqlardan yarandığını düşünürlər. Postrevizionistlər bir sıra əlavə amillərə, məsələn, tarixdə mövcud olmuş bütün böyük dövlətlər kimi, ABŞ-m da bu cür xarici siyasəti öz siyasi və iqtisadi sisteminin xüsusiyyətlərinə uyğun olaraq, məcburiyyət qarsısmda həyata keçirdiyinə əsaslanırlar. Onlar ekspansiyanı ABŞ-m vəzifəsi hesab edirlər. Amerikanın iqtisadi maraqlarının dəstəklənməsinə yönəlmiş konkret xarici siyasi aksiyalara dair çoxsaylı nümunələr göstərmək olar. Biznes maraqları ilə

^ *Крвменюк В.* Процесс международных переговоров. М., 2003. С. 47.

ABŞ-ın xarici siyasət proqramlarının üzvi vəhdət təşkil etdiyi artıq aksiomdur. Nəzəri baxımdan, iqtisadi qüdrət bir çox ənənəvi alətlərlə, o cümlədən hərbi qüvvə ilə müqayisədə xarici siyasətin daha əlverişli vasitəsinə çevrilmişdir.

Müharibədən sonrakı onilliklərin təcmbəsi Amerikanın xarici siyasətinin bütün iri müvəffəqiyyətlərinin möhkəm iqtisadi bünövrəyə istinad etdiyini göstərir. Belə ki, müharibədən sonrakı dövrdə beynəlxalq münasibətlərin bütövlükdə uğurlu hesab edilə bilən sisteminin formalaşması siyasətinə iqtisadi tərkib hissəsi kimi Qərbi Avropa ölkələri üçün Marşall planı, Yaponiya üçün sabitləşmə proqramı, Amerikanın kapital qoyuluşlarının Latın Amerikasında genişlənməsi, BVF, GATT, BYİB kimi nüfuzlu beynəlxalq iqtisadi təşkilatlar sisteminin yaradılması daxil idi.

Müasir ABŞ-da xarici iqtisadi siyasətin və iqtisadi diplomatiyanın mürəkkəb, şaxələnmiş mexanizmi yaradılmışdır. Burada ABŞ-ın Dövlət Departamenti və Ticarət Nazirliyi mərkəzi yer tutur.

*ABŞ Ticarət Nazirliyi* dövlətin xarici iqtisadi siyasətinin işlənib hazırlanması prosesinin əsas iştirakçısıdır, ticarət naziri Beynəlxalq Ticarət üzrə Komitənin (BTK) üzvüdür. Bu komitə xarici ticarət sahəsində əsas sahələrarası əlaqələndirmə orqanıdır, onun tərkibinə tutduğu vəzifəyə görə dövlət katibi, habelə kənd təsərrüfatı, ticarət, əmək və maliyyə nazirləri, ticarət nümayəndəsinin qərarına əsasən başqa nazirliklərin və idarələrin vəzifəli şəxsləri daxildir.

Ticarət Nazirliyi çərçivəsində ABŞ-ın xarici ticarət sahəsində ən mühüm məsələlərini həll etmək səlahiyyəti verilmiş iki struktur bölməsi; *Beynəlxalq Ticarət üzrə İdarə (BTİ)* və *İxrac Nəzarəti Bürosu (İNB)* fəaliyyət göstərir. Onlara ABŞ ticarət nazirinin müavinləri rəhbərlik edir.

BTİ ticarət üzrə danışıqların hazırlandığı və keçirildiyi dövrdə ABŞ ticarət nümayəndəsinə analitik yardım göstərilməsini təmin edir, çoxtərəfli və ikitərəfli ticarət müqavilələrinin yerinə yetirilməsinə, habelə ABŞ-ın antidempinq qanunvericiliyinə və kompensasiya rüsumlarının tutulması üzrə iddiaların qaldırılması işləri ilə bağlı qanunvericiliyin tələblərinə riayət olunmasına nəzarəti həyata keçirir. BTİ Amerika ixracına nəzarəti milli maraqlara uyğunluq, milli təhlükəsizlik tələblərinə cavabvermə, strateji materialların satışının qarşısının alınması mülahizələri baxımından həyata keçirir. BTİ, həmçinin, ABŞ-ın İsrailə münasibətdə xarici ticarət siyasətinin həyata keçirilməsi məsələləri ilə məşğuldur.

Ticarət Nazirliyinin fəaliyyətinin ən vacib istiqamətlərindən biri milli infrastrukturun möhkəmləndirilməsi və mühafizəsi sayəsində ABŞ-m dünya bazarlarında rəqabət qabiliyyətinin güclənməsinə yardım göstəmıəkdir.

Milli iqtisadiyyatın bütün infrastrukturu: zavodlar, fermalar, özəl müəssisələr, universitetlər, yəni ölkə iqtisadiyyatını yaradan və iş yerlərinin mövcudluğunu təmin edən bütün obyektlər Ticarət Nazirliyinin diqqət mərkəzindədir. Yuxarıda qeyd olunan strateji xətt öz əksini bir sıra konkret proqramlarda tapmışdır. ABŞ Ticarət Nazirliyinin əsas proqramlarını sadalayaq:

1) ticarətin inkişafına yardım üzrə əlaqələndimıə Komitəsi ilə birlikdə ABŞ Prezidentinin milli ixrac strategiyasının həyata keçirilməsi; bu məqsədə nail olmaq üçün BTİ müdafiə tədbirləri də daxil olmaqla, ticarət sisteminin möhkəmləndirilməsi və ona yardım göstərilməsi üzrə işlər görür;

2) ticarətdə sərbəstliyin və ədalətin təmin olunması məqsədilə ticarət qanunvericiliyinə riayətə və ticarət müqavilələrinin yerinə yetirilməsinə nəzarət edir;

3) ticarətə (xüsusilə də yeni yaranan bazarlarda) yardım göstərilməsi üzrə tədbirlərin gücləndirilməsi və institusional təsbit olunması; bu məqsədlə BTİ işgüzar əməkdaşlığın genişləndirilməsi üzrə komitələr və birgə komissiyalar fonualaşdırır, mallarını Qərbi Avropanın inkişaf etmiş ölkələrinin, Yaponiyanın və Kanadanın bazarlarına ixrac edən Amerika şirkətlərinin sayının artırılmasına istiqamətlənmiş tədbirlər həyata keçirir;

4) ixrac nəzarəti sisteminin strukturunun XXI əsrin tələblərinə uyğun olaraq yenidən qurulması; bu işdə əsas rolu Amerika şirkətləri və hökumət idarələri ilə birlikdə aşağı riskli ixrac müqavilələrinin sayının artmasına və yüksək riskli müqavilələrinin sayının məhdudlaşdırılmasma yardım göstərən İxrac Nəzarəti Bürosu oynayır;

5) hüquq-mühafizə proqramlarının səmərəli fəaliyyətinin təmin olunması; ABŞ-ın milli təhlükəsizliyinin və xarici siyasətinin müdafiəsi; ikili təyinatlı materialların, kimyəvi silahların yayılmasının qarşısının alınmasına yardım göstərilməsi; terrorizmə qarşı mübarizənin dəstəklənməsi; ictimai təhlükəsizlik maraqlarının qorunması;

6) müdafiə sənayesi sahələrinin konversiyasına yardım göstərilməsi;

7) Amerikanın iqtisadi siyasətinin cəmiyyət tərəfindən, o cümlədən beynəlxalq səviyyədə müdafiə olunması;

8) inkişafdan geridə qalan ərazilərə və rayonlara öz iqtisadi artım potensialının yaradılmasında yardım göstərilməsi;

9) iqtisadi inkişaf problemlərinin başa düşülməsi üçün texniki informasiyanın toplanılmasmm, öyrənilməsinin və təhlilinin təmin olunması, onların yerli səviyyədə həlli üçün qeyri-federal resursların səfərbər edilməsi;

10) əsas sahələrdə milli azlıqların nümayəndələrinə mənsub olan müəssisələrin inkişafına imkanlar yaradılması, onların eoğrafı baxımdan yerləşdirilməsi üzrə tələblərə riayət olunması;

11) milli azlıqlara mənsub olan müəssisələrin malij^ə resurslarını əldə etməsi sisteminin təkmilləşdirilməsi;

12) metrologiya və standartlaşdmna üzrə milli infrastruktura texniki rəhbərliyin təmin olunması; milli metrologiya və standartlaşdırma sisteminin möhkəmləndirilməsi, malların xassələrinin milli standartların tələblərinə uyğunluğunun təmin edilməsi;

13) xırda istehsalçıların rəqabət qabiliyyətinin möhkəmləndirilməsi üçün onlara müşayiətedici xidmətlər göstərilməsi proqramının həyata keçirilməsində yardım edilməsi;

14) əmək məhsuldarlığının və istehsalın səmərəliliyinin daim yüksəldilməsi məqsədilə Amerika sahibkarlarına milli keyfiyyət nişanının verilməsi proqramı çərçivəsində yardım göstərilməsi;

15) sənaye ilə xərclərin mütənasib bölgüsü şərtləri əsasında əməkdaşlıq münasibətlərinin qurulması yolu ilə ən yeni texnologiyaların işlənib hazırlanması hesabına ABŞ-m iqtisadi artımının stimullaşdırılması;

16) sənaye istehsalının rəqabət qabiliyyətinin yüksəldilməsi məsələləri üzrə müəssisələr, akademiyalar və ştatların administrasiyası ilə birlikdə idarələrarası işlərin yerinə yetirilməsinin əlaqələndirilməsi və buna rəhbərlik edilməsi;

17) əqli mülkiyyət hüquqlarının ABŞ-da və xaricdə qorunması sisteminin inkişafına, mühafizəsinə və genişləndirilməsinə yardım göstərilməsi;

18) bütün amerikalılar üçün əlçatan olan milli infonuasiya infrastrukturunun işlənib hazırlanmasının dəstəklənməsi;

19) beynəlxalq bazarların açılması və ABŞ-m maraqlarının təmin olunmasına kömək göstərilməsi üçün beynəlxalq telekommunikasiya sahəsində milli maraqların qorunması;

20) federal səvij^ədə radio tezliklərindən səmərəli və məqsədəmüvafiq

tərzdə istifadə olunması istiqamətlərinin işlənib hazırlanması;

21) milli səviyyədə telekommunikasiya və yeni öncül sahələrdə siyasətin istiqamətlərinin işlənib hazırlanmasına rəhbərliyin həyata keçirilməsi;

22) naviqasiya və kartoqrafıya sahələrində inqilabi elmi-texniki nailiyyətlərin tətbiqi sayəsində gəmiçiliyin təhlükəsizliyinə yardım göstərilməsi;

23) ictimai təhlükəsizlik sisteminin möhkəmləndirilməsi üçün operativ xəbərdarlıq və havanın proqnozlaşdırılması sisteminin təkmilləşdirilməsi.

BTİ-nin 70 ölkədə nümayəndəliyi vardır və burada xarici ticarət sahəsində ixtisaslaşmış mütəxəssislər çalışır. Bu idarələr xarici bazarlar haqqında infonnasiyanı toplayır və təhlil edir, Amerika biznesinin maraqlarını xaricdə təmsil edir. BTİ aşağıdakı funksiyaları yerinə yetirir;

- Amerika istehsalçılarının məhsullarının bazara çıxarılması imkanlarını, habelə Amerika biznesinin iştirakı ilə həyata keçirilə bilən perspektiv layihələri üzə çıxarır;
- ticarətin maliyyələşdirilməsi məsələləri də daxil olmaqla, Amerika şirkətlərinə məsləhət vennəklə yardım göstərir;
- ticarət siyasəti problemləri, habelə bazara daxilolmanın mümkünlüyü məsələləri üzrə bazar tədqiqatları və təhlilləri aparır; irimiqyaslı layihələr həyata keçirilərkən, satınalma əməliyyatları aparılarkən Amerika şirkətləri adından onların maraqlarını qoruyur;
- ABŞ-m xarici ticarətinin genişlənməsinə yardım göstərilməsi üzrə tədbirləri təşkil edir və həyata keçirir.

***İxrac Nəzarəti Bürosu*** çoxtərəfli nəzarət rejiminin səmərəliliyinin yüksəldilməsində aparıcı rol oynayır. İNB bioloji silahların qadağan edilməsi Konvensiyasının məsələləri üzrə fəaliyyət sahəsində ABŞ sənayesini beynəlxalq arenada təmsil edir. ABŞ-m kimya sənayesi İNB-nin proqramlarında iştirak sayəsində siyasətin sahə üçün mühüm olan istiqamətlərinin işlənib hazırlanmasında səs hüququ qazanır. İxrac müqavilələri üzrə son istehlakçılara münasibət və ixrac olunan mallardan istifadə olunması məsələlərinə nəzarət də, İNB-nin funksiyalarına daxildir. İNB xarici dövlətlərin ixrac nəzarəti xidmətlərinin nümayəndələri ilə əməkdaşlıq edir. Mərkəzi Avropanın və Şərqi Asiyanın bəzi ölkələrində ABŞ-m səfirliklərinin müvafiq xidmətləri və onların yerləşdiyi dövlətlərin hökumətləri ilə birgə ixrac nəzarətini həyata keçirmək üçün orada öz heyətini saxlayır.

iqtisadi statistika idarəsinin nəzdindəki *İqtisadi Təhlil Bürosu* beynəlxalq təşkilatların standartlaşdınna məsələləri üzrə işində iştirak edir və bu, beynəlxalq statistika sisteminin eyniləşdirilməsinə, keyfiyyətinin yüksəlməsinə xidmət göstərir. Bu isə, öz növbəsində, ABŞ hökumətinə iqtisadi inkişafın qiymətləndirilməsini və təhlilini təkmilləşdirmək üçün şərait yaradır.

*Milli Standartlaşdırma və Texnologiyalar İnstitutu* (Texniki idarənin tərkibinə daxildir) beynəlxalq ticarətin inkişafına yardım göstərilməsi məqsədi ilə beynəlxalq metrologiya və standartlaşdırma sistemlərinin hanuonizasiyası üzrə işlərə başçılıq edir. İnstitut ABŞ-da aparılan sınaqların xarici yaxud beynəlxalq standartlara uyğunluğunun qarşılıqlı tanınması haqqında müqavilələrin işlənib hazırlanmasında iştirak edir.

ABŞ-m ticarət naziri ticarətin inkişafına yardım üzrə Əlaqələndinuə Komitəsinin - vəzifələri ABŞ Prezidenti və Konqres tərəfindən müəyyənləşdirilən, milli ixrac strategiyasının həyata keçirilməsinə xidmət edən təş- kilatlararası işçi orqanın sədridir. Komitənin işi Amerika şirkətlərinin xarici bazarlara çıxmasına yardım göstərməklə, rəqabət qabiliyyətinin yüksəldilməsi sahəsində federal hökumətin fəaliyyətini istiqamətləndirməkdən ibarətdir. Dövlət Departamenti, Maliyyə Nazirliyi, Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Əmək Nazirliyi, Nəqliyyat Nazirliyi, Energetika Nazirliyi, Ticarət Nümayəndəsi Aparatı, İqtisadi Müşavirlər Şurası, Beynəlxalq İnkişaf Agentliyi, Kiçik Biznes İşləri üzrə İdarə, Ətraf Mühitin Mühafizəsi üzrə Agentlik, ABŞ İxrac-idxal Bankı (Ex-Im Bank of the United States), Özəl Xarici İnvestisiyalar Korporasiyası (OPIK - Overseas Private Investment Corporation), Ticarət və İnkişaf üzrə Agentlik, (USTDA - United States Trade and Development Agency), bu Komitənin tərkibinə daxil olan federal idarələr ticarət və onun maliyyələşdirilməsinə yardım üzrə dövlət proqramlarının inkişafına və möhkəmləndirilməsinə istiqamətlənmiş işi həyata keçirir.

Ticarət Nazirliyi həmçinin, dövlət və özəl sektor arasında qarşılıqlı əlaqələr yaradır (məsələn, ABŞ Prezidenti yanında İxrac Şurası və sənaye şirkətləri üçün məsləhət Proqramları vasitəsilə).

Elm və texnika sahəsində öncül mövqelərin əldə olunmasına yönəlmiş strateji məqsədə nail olunması Ticarət Nazirliyinin Amerika sənayesinin yüksək rəqabət qabiliyyətinin saxlanması üzrə işinin ən mühüm elementlərindəndir. Güclü və zəif cəhətlərin təhlili əsasında ETTKİ-nin inkişafına və yeni texnologiyaların yaradılması proqramlarına kapital

qoyuluşları axınları tənzimlənir. Yeni nəsil avtomobillərin istehsalı üçün texnoloji bazanın yaradılması, emal sənayesi sahələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi üzrə təşkilatlararası işin uzlaşdırılması, habelə yeni texnologiyaların inkişafı sahəsində ştatlar və federal hökumət arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi məsələləri əlaqələndirilir.

ABŞ-m Ticarət Nümayəndəsi ABŞ-m xarici ticarət siyasətinin işlənib hazırlanmasına və əlaqələndirilməsinə görə məsuldur. O, Beynəlxalq Ticarət üzrə Komissiyaya (ITC - International Trade Commission) başçılıq edir.

ABŞ-m Ticarət Nümayəndəsi ticarət məsələləri üzrə Prezidentin əsas müşaviri və onun rəsmi təmsilçisidir. O, mallar və xidmətlərlə ticarət, habelə xarici birbaşa investisiyaların cəlb olunması məsələləri üzrə danışıqların aparılmasına görə cavabdehdir. Eyni zamanda Ticarət Nümayəndəsi «Ticarət haqqında» Qanunun Amerikanın ixracına münasibətdə haqsız ticarət praktikası hallarını tənzimləyən, daha çox «301-ci maddə» adı ilə məşhur olan 301-310- cu və onun əlavələri olan Super 301 və Spesial 301 maddələrinə riayət olunmasının təmin edilməsinə görə şəxsi məsuliyyət daşıyır.

ABŞ Ticarət Nazirliyi nəzdində ixrac əməliyyatları barədə statistik iqtisadi məlumatları toplayan Statistika Bürosu fəaliyyət göstərir. Kənd Təsərrüfatı Nazirliyi kənd təsərrüfatı məhsulları istehsalçılarına müxtəlif yardım proqramlarının həyata keçirilməsi ilə məşğul olaraq, xaricə mal göndərişlərini subsidiyalaşdırır, Amerika məhsullarını alan xarici dövlətlərə kredit qarantiyalan verir, Amerikanın sənaye qrupları ilə əməkdaşlıq çərçivəsində xarici bazarların tədqiqi üzrə kompleks proqramların maliyyələşdirilməsində iştirak edir, habelə qeyri-kommersiya ixracını nəzərdə tutan ərzaq yardımı proqramlarının həyata keçirilməsini dəstəkləyir. Nazirliyin Xarici Kənd Təsərrüfatı Xidməti ABŞ məhsullarının xaricdə satılmasına yardım göstərir.

*İdxal-İxrac Bankı (Ex-lm Bank)* Amerika mallarının və xidmətlərinin ixracına yardım göstərmək üçün kreditləşmə, sığorta, zəmanət verilməsi proqramlarını həyata keçirir.

*Özəl Xarici İnvestisiyalar Korporasiyası (OPIK)* investisiyaların siyasi risklərdən sığortalama vasitəsilə, onların inkişaf etməkdə olan ölkələrə, habelə «yeni» bazarlara istiqamətləndirilməsinə yardım göstərir.

*Ticarət və İnkişaf üzrə Agentlik, (USIA)* müstəqil dövlət agentliyi olmaqla, Amerika şirkətlərinə inkişaf etmiş və gəlirləri orta səviyyədə olan ölkələrdə iri layihələrin həyata keçirilməsi üçün maliyyə vəsaitləri ayırır.

Layihələrin işlənib hazırlanması və planlaşdırılması mərhələsində yardım göstərməklə, agentlik ABŞ-ın özəl şirkətlərini onların həyata keçirilməsinə cəlb edir, bu isə, ölkənin ixrac imkanlarını genişləndirir.

1912-ci ildə yaradılmış ***ABŞ Ticarət Palatasının*** mənzil-qərargahı Vaşinqtonda yerləşir. Dünyada özəl fınualarm ən iri birliyi olmaqla, özündə 3 milyon özəl şirkəti, 3 min yerli ticarət-sənaye müəssisəsini, 775 işgüzar assosiasiyanı və Amerikanın xaricdə yerləşmiş 85 ticarət palatasını birləşdirib, onların maraqlarını təmsil edir. Fəaliyyətinin öncül istiqamətləri şirkətlərin və özəl müəssisələrin maraqlarına konqresdə, administrasiyada, tənzimləmə və nəzarət agentliklərində, məhkəmələrdə və KİV-də lobbiçilik; kiçik və orta biznesin maraqlarını müdafiə; Amerikanın ixracını dəstəkləməkdir. Ticarət Palatası «Biznesin səsi» həftəlik məcmuəsini nəşr edir. Palata ilə assosiasiya olunmuş əsas təşkilatlar bunlardır:

• ***Özəl Sahibkarlığın Stimullaşdırılması üzrə Beynəlxalq Mərkəz.*** 1983-cü ildə yaradılmışdır, 40 ölkədə iqtisadi islahatların dəstəklənməsi üzrə 200- dən çox müxtəlif layihəni həyata keçirir;

• ***İşgüzar Münaqişələrin Həlli üzrə Milli Palata.*** Şirkətin fəaliyyəti özəl şirkətlərin maraqlarının məhkəmələrdə və vergi orqanlarında müdafiə olunmasına istiqamətlənmişdir.

• ***Keçid İqtisadiyyatlı Ölkələr üçün Amerika İşgüzar Alyansı.*** Palata üzvlərinin maraqlarını Mərkəzi və Şərqi Avropa, MDB ölkələrində müdafiə edir. 50 ölkə, o cümlədən Belarus, Bolqarıstan, Macarıstan, Polşa, Rumıniya, Slovakiya, Ukrayna, Çexiya alyansın üzvüdür.

Beləliklə, ABŞ-da xarici iqtisadi siyasəti uğurla həyata keçirməyə, ilk növbədə Amerika biznesinin maraqlarını müdafiə etməyə imkan verən institusional struktur yaradılmışdır.

## 4.3. İqtisadi diplomatiya və beynəlxalq danışıqların texnologiyası

***Anlayış.*** Ölkələrin siyasi münasibətlərində iqtisadi amilin əhəmiyyəti artdıqca, dünya siyasətində iqtisadi diplomatiyanın da rolu yüksəlir, mali]/yə-iqtisadi sahəyə həsr olunmuş beynəlxalq danışıqlar üçün xüsusi prosesin zəruriliyinin dərki güclənirdi. İqtisadi diplomatiya XX əsrin birinci yarısına xas olan epizodik fəaliyyətdən həm siyasətin, həm də diplomatiyanın daimi amilinə çevrildi.

Beynəlxalq danışıqlar prosesi barədə çoxdan, dövlətin yarandığı dövrdən, müharibələr, xüsusilə də Papa, hökmdarlar və azad şəhərlər arasında yaxınlaşma prosesi nəticəsində qarşılıqlı siyasi münasibətlər məkanının fonualaşmağa başladığı Orta əsrlər tarixindən yaxşı məlumdur. Məhz bu dövrdə N.Makiavellinin, F.Rablenin, F.de Kominin əsərləri meydana çıxmış və onlarda diplomatiya məharətinə nail olmağın zəruriliyi göstərilmişdir.

«Danışıqlar haqqında elm» anlayışı çox şərti məna daşıyır. Təsadüfi deyil ki, müasir dövrün danışıqlar üzrə ən məşhur və ciddi mütəxəssislərindən biri, Harvard Universitetinin (ABŞ) professoru X.Rayffa danışıqların aparılması barədə kitabını «Danışıqların aparılması incəsənəti və elmi» adlandırmışdır. Beynəlxalq danışıqlardan söz getdikdə diplomatın, ümumiyyətlə, danışıqlardan söz getdikdə isə qərar qəbul edən şəxsin elmi bilikləri və danışıq aparmaq bacarığı bu prosesdə aydın üzə çıxır. Predmetin özü mübahisə doğurmasa da, «iqtisadi diplomatiya» anlayışı da, bu cür şərti məna daşıyır.

Buna görə də danışıqların elmi tədqiq olunmasından möcüzəli nəticə əldə ediləcəyini gözləmək lazım deyil. İnsanın davranışı ilə əlaqəli başqa sahələrdə olduğu kimi, elm burada da yalnız qanunauyğunluqların aşkar edilməsi, danışıqların elmi tədqiqat subyekti kimi nəzərdən keçirilə biləcəyi çərçivənin müəyyənləşdirilməsi, tövsiyələrin hazırlanması və tədris prosesinin qurulmasına lazım olan bazanın ən dayanıqlı xüsusiyyətlərinin aşkarlanması üçün yardımçı rolunu oynaya bilər. Amma bu nəticələr belə, adətən danışıqların yaradıcılıq tərkib hissəsini ləğv etmədən onların orta səviyyəli vətəndaş və məmur tərəfindən aparılmasını mümkün edir.

**Danışıqlar prosesi.** Danışıqlar prosesinin elmi baxımdan ümumiləşdirilməsi üçün onların məzmun tərəfinin müəyyənləşdirilməsi vacibdir. Danışıqlar barədə mövcud olan ədəbiyyat (memuarlar, sənədlər, diplomatlann yaxud işgüzar aləm nümayəndələrinin hesabatları) və danışıqları öyrənən əsərlər əsasında danışıqlar prosesinin aşağıdakı kimi təsnifləşdirilməsi qəbul edilmişdir. Onun danışıqlar barədə müə}^ən mənada tam təsəvvür yaradan üç tərkib hissəsi fərqləndirilir:

- özünəməxsus, xüsusi şəraitdə (tərəflərin suverenliyi, beynəlxalq hüququn və prosedurların təsiri, beynəlxalq ictimaiyyətin başqa üzvlərinin maraqlarının nəzərə alınması və s.) kollektiv qərarların işlənib hazırlanması və qəbul olunması;
- məhz müəyyən hadisənin özəllikləri ilə (məlumatların müəyyən

həcmdə seçilməsi, onun başqa tərəfə ötürülməsi fonualları, faktların verifikasiyası və s.) bağlı olan infonnasiya ilə mübadiləsi prosesi;

• dövlətin, təşkilatın, beynəlxalq münasibətlərin istənilən digər iştirakçısının xarici strategiyasının daha ümumi olan məsələlərinin həlli fonnaları .

***Danışıqlar prosesi qərarların qəbul olunması prosesinin variantı kimi.*** Qərarların işlənib hazırlanması və qəbul olunması haqqında elmdə həmin mərhələləri səciyyəvi, «interaktiv» proses kimi təqdim edən xüsusi bölmə vardır. Bu bölmə qərarların qəbul olunmasının dominant paradiqmalarınm Rusiyada «inzibati-amirlik metodlarından demokratik yönümlü metodlara keçid» adını alan, yəni iştirakçı tərəflərin bərabərliyi, fikir azadlığı, qəbul edilən qərarın qarşılıqlı faydalılığı prinsiplərinə əsaslanan metodlarla əvəz olunması ilə əlaqədar meydana çıxmışdır. Qərarların qəbul olunmasının əsas prinsipi, məsələnin həlli konsepsiyası çərçivəsində tərəflərin səlahiyyətlərinə aid olan və onların maraqlarına eavab verən qarşılıqlı güzəştlərdir.

Danışıqlar prosesinin bu aspekti danışıqlara sistemli yanaşma tərəfdarları tərəfindən çox mühüm sayılır. Belə ki, X.Raffanm yuxarıda göstərilən «Danışıqların aparılması ineəsənəti və elmi» kitabında qarşılıqlı informasiya mübadiləsi və güzəştlər vəziyyətində qərarların qəbul olunmasında yaxud işlənib hazırlanmasında interaktivlik anlayışı müəyyənləşdirilir və tədqiq edilir. Danışıqların aparılması üzrə məşhur mütəxəssis olan riyaziyyatçılar A.Verjbitski (Polşa), R.Avenhaus (Almaniya), V.M.Sergeyev və başqaları da sistemli yanaşmanın tərəfdarlarıdır.

***Danışıqlar informasiya prosesi kimi.*** İnformasiya mübadiləsi danışıqlarda həll yollarının tapılması və razılıq əldə edilməsinin üsuludur. Danışıqlar zamanı hər iki tərəf problemə aid olan müəyyən həemdə infonnasiyanı: danışıqların predmeti, tərəflərdən hər birinin maraqları, danışıqların predmeti və problemin həlli barədə təsəvvürləri (bir çox hallarda çoxsaylı əlaqədar hadisələr nəzərə alınmaqla) verir və qəbul edir. İnformasiya mübadiləsinin məqsədi qarşı tərəfdə danışıqların mövzusu və onun nə ilə nəticələnə biləcəyi, özünün mövqeyi, təklif edilən həll variantlarının səmərəliliyi və hətta qərar qəbul olunmadığı təqdirdə tətbiq ediləcək «sanksiyalar» haqqında təsəvvür yaratmaqdır.

Bu cür informasiya mübadiləsi «təbliğat müharibəsi» (hərçənd, bu

^ *КреМВНioК В.* VКаЗ. сон. С. 60.

danışıqlar prosesinin pərdələnməsinin bir hissəsi də ola bilər) deyil, əksinə, danışıq aparan tərəflərin kompromis əldə edə biləcəyini, arzu edilən razılığa nail olacağını yaxud bunun onların istəkləri və imkanları hüdudundan kənarda qalacağını müəyyənləşdirən mənalı və məhsuldar prosesdir. Danışıqlarda müxtəlif informasiya axınları; «stolüstü» (danışıq aparan tərəflər arasında), «stolun özünə mənsub hissəsində» yaxud nümayəndəliklər daxilində və «mərkəzlər arasında», yəni marağı olan müxtəlif təşkilatlar arasında baş verir. Danışıqların «infonrıasiya nəzəriyyəsi» ilə mütəxəssislər məşğul olmuş və olurlar. İdeyalarının çoxu müasir diplomatiyada universal məna almış K.Yonson onların ən nüfuzlularmdan biri hesab edilir.

***Danışıqlar prosesi informasiyanın tənzimlənməsi əsasında qərar qəbul olunmasının metodu kimi.*** Bu metod hələ antik dövrdən məlumdur və ritorika incəsənətinin və elminin əsaslarından birini təşkil edir. Amma iqtisadiyyat üzrə danışıqlar zamanı tərəfdaşa hissələrə bölünmüş infonrıasiya vasitəsilə məqsədyönlü təsirdən yararlanma həmişə mümkün olduğuna görə həmin sahənin məsələləri müzakirə olunarkən bu metod xüsusi aktuallıq kəsb edir. Mütəxəssislər hesab edirlər ki, bu sahə informatikaya (onun məqsədyönlü informasiya axınları ilə məşğul olan hissəsinə) daha çox meyil etsə də, danışıqların öyrənilməsi sahəsində əhəmiyyətli rol oynayır.

***Danışıqlar xarici iqtisadi strategiyanın bir hissəsi qismində.*** Əvvəl qeyd etdiyimiz kimi, biz iqtisadİ3^atm siyasətlə get-gedə daha çox qovuşması ilə qarşılaşırıq: bu, dövlətlərin daxili işlərində baş versə də, onların xarici siyasət sahəsində daha qabarıq əks olunur. Qlobal dünyada siyasətin və diplomatiyanın dövlətlərin iqtisadi maraqlarına doğru istiqamətlənməsi müşahidə edilir. Bu baxımdan danışıqlar onu aparan tərəflərin öz strateji vəzifələrini yerinə yetirməsinin və məqsədlərinə çatmasının məxsusi olsa da, güclü alətinə çevrilir. Bu zaman xarici siyasi yaxud iqtisadi strategiyanın dominant məqsədləri ilə danışıq iştirakçılarının davranışı arasında birbaşa asılılıq heç də həmişə müşahidə olunmur. Özünəməxsus formada olsa da, ümumi xarici strategiya yalnız ümumi vəzifələri və məqsədləri müəyyənləşdirməklə bərabər, danışıqların konkret məqsədindən, gündəliyindən, diplomatiya və siyasətin başqa təsir vasitələrindən asılı olaraq iştirakçı tərəflərə davranış tərzini seçmək üçün geniş imkanlar yaradır.

İqtisadi və siyasi amillərin əlaqələndirilməsinin uğurlu nümunələrindən biri 1922-ei ildə keçirilmiş, minimum resurslara malik olan, böyük dövlətlər

tərəfindən zorla təcrid edilmiş gənc dövlətə dünya siyasətində böyük nailiyyət qazanmağa imkan verən Genuya konfransıdır.

Beləliklə, iqtisadi diplomatiya sahəsində danışıqlar prosesi, onların get-gedə böyük siyasi və iqtisadi vəzifələrin yerinə yetirilməsi vasitəsinə çevrilməsi ilə əlaqədar olaraq, perspektiv və ümidverici istiqamətdir.

Bu baxımdan danışıqların elmi dərk olunması vəzifəsinin adekvat yerinə yetirilməsi üçün həmin prosesin yaxşı təşkil olunmasının mümkün sxemləri yaxud matrisi barədə məsələ qarşıya çıxır. Tədqiqatların beynəlxalq praktikasında bu məsələ «beşüzvlü» təhlil sxemi vasitəsilə həll olunur. Nətieədə danışıqlar prosesi barədə geniş miqyaslı təsəvvür yaranır. Təhlilin «beşüzvlü» sxeminə aşağıdakılar daxildir:

• danışıqların iştirakçıları;

• danışıqların strukturu, danışıqlar predmetinin gündəlikdə əks olunması, danışıq iştirakçıları arasında fikir ayrılıqlarının strukturu;

• ayrı-ayrı iştirakçıların danışıqları apanna strategiyası, onların məqsədləri və buna nail olunması vasitələri, danışıqların aparılmasında üstünlük verilən metodlar;

• danışıqlar prosesi, onun məzmunu, təklif olunan strategiyalar və qarşıya qoyulan problemlərin həlli yolları, prosesin dinamikası və mərhələləri;

• danışıqların başa çatması, onların fonnalarınm nəticəsi, həyata keçirilməsi.

Gördüyümüz kimi, təhlilin göstərilən sxemi universal olsa da, kifayət qədər konkretdir. Danışıq iştirakçılarının təsviri, onların resursların, mürəkkəb məsələlərin həllinə, o cümlədən həmin danışıqların predmetinə münasibəti, qərarların qəbul olunmasının struktum, qüvvələrin yerləşdirilməsi, danışıq apanuaq səlahiyyəti verilən şəxslər - bütün bunlar diplomatik və elmi təhlilin əlifbasına aiddir. Bu hərəkətlər danışıqların iştirakçıları yaxud danışıqları müşahidə edənlər tərəfindən həmişə (demək olar ki, həmişə) yerinə yetirilir.

Həll olunan problemin strukturu, onun gündəlikdə əks olunması, gündəliyin hər bir bəndi üzrə tərəflərin mövqeyi, onların maraqları və imkanları, çoxtərəfli danışıqlar apanidıqda isə başqa iştirakçıların mövqeyi və qüvvələrin yerləşməsi, mümkün koalisiyalar - bütün bunlarda xüsusi məxfilik yoxdur. Bu məsələlərlə həmişə mütəxəssis-praktiklər və nəzəriyyəçilər məşğul olmuşlar və buna dair külli miqdarda məlumat tapmaq mümkündür.

İştirakçıların danışıqları apanuaq strategiyasının, onların maraqlarının.

ənənələrinin, müxtəlif məktəblər çərçivəsində baxışlarının, habelə mənafelərinə toxunulan siyasi dairələrin, dəvət edilmiş mütəxəssislərin və təhlil mərkəzlərinin təhlili sxemin daha böyük maraq doğuran və nisbətən az tədqiq olunmuş hissəsidir. Bütün bunlar əvvəllər öyrənilsə də, müasir dövrdə siyasi proseslərin aşkarlığının artması, siyasi təhlil üçün şəraitin yaxşılaşması əlavə imkanlar yaradır və perspektivlər açır. Eyni fikri danışıqların aparılması prosesi haqqında da demək olar; onun öyrənilməsi danışıqlar haqqında əhəmiyyətli əlavə informasiya əldə etmək imkanı verdiyi üçün mütəxəssislərin diqqətini nisbətən yaxın dövrdə, 1970-1980-ci illərdə cəlb etməyə başlamışdır.

Danışıqların nəticələrinə, onların yerinə yetirilməsinə və bütün əlaqədar problemlərin həllinə gəldikdə isə burada müxtəlif danışıqların nəticələrinin bir-birindən asılılığı, yəni bir razılaşmanın yerinə yetirilməsinin digər danışıqlarda həmrəyliyin əldə edilməsi üçün şərt olması kimi həlqə aşkarlanmışdır. Belə hallarda əlavə olaraq verifıkasiya və monitorinq problemləri meydana çıxır. Onların yerinə yetirilməsi danışıqlar üzrə qərarların qəbul olunmasının ayrılmaz hissəsinə çevrildiyinə görə çox zaman razılıq əldə olunması prosesini mürəkkəbləşdirir.

Sonuncu qeyd isə danışıqların elmi cəhətdən öyrənilməsi barədədir. «İqtisadi danışıqlar» və onların vasitəsilə həll olunan problemlərin sayı sürətlə artır. Beynəlxalq maliyyə dayanıqlığına nail olmaq üçün danışıqlar yolu ilə əldə edilən qərarların əhəmiyyəti artır. Danışıqların müvəffəqiyyətsizliyi artıq ayrıca götürülmüş bir ölkənin iflası ilə deyil, bununla bağlı olaraq müzakirə edilən bir çox məsələlərə zərbə vurulması ilə nəticələnir. Buna görə də müasir beynəlxalq danışıqların sistemli xarakteri, onların qarşılıqlı əlaqədə, kompleks şəklində olması barədə danışmaq zərurəti yaranır.

***«İqtisadi danışıqlar Məcəlləsinin» yaradılmasının vacibliyi.*** Danışıqların sistemliliyi haqqında məsələnin qaldırılması danışıqlar problematikasmm, onun müasir beynəlxalq danışıqlarda yerinin, mübahisəli problemlərin həlli üsullarının və metodlarının daha dərindən və sistemli tədqiqinə yol açır. Bu, ilk növbədə, mövcud olan və yaradılan danışıq rejimlərinin (məsələn, ÜTT tipli), onların danışıqlar prosesinin inkişafına təsirinin öyrənilməsi; münaqişələrin həlli cəhdlərindən onların resurs, hüquqi və infonnasiya bazaları da daxil olmaqla, hərtərəfli müzakirəsinədək mübahisəli problemlərin qoyuluşuna yeni yanaşmadır. Nəhayət, bu danışıqların aparılmasının və başa çatdırılmasının daha səmərəli və münasib formalarını nəzərdə tutan, universal qaydalar və

prosedurlar toplusu şəklində olan vahid «danışıqlar Məcəlləsinin» yaradılmasıdır'.

Əgər bütün bu məsələlər müəyyən dərəcədə keçmişdə öyrənilmiş və indi də öyrənilirsə, onların mühüm əhəmiyyət kəsb edən bir çox məqamları kölgədə qalır, aparıcı ölkələrdə nəşr edilən dərsliklərdə isə bunun üstündən sükutla keçilir (bir növ beynəlmiləl bürokratiya həmrəyliyində ifadə olunur). Bu zaman aşağıda göstərilən bir sıra ümumi şərtlər dairəsi nəzərdə tutulur:

• ölkənin bütün idarələri və vəzifəli şəxsləri tərəfindən həyata keçirilən ümumi siyasətin, xarici iqtisadi strategiyanın vəhdəti. Danışıqlar zamanı yüksək vəzifəli şəxs dövlətin ümumi xəttindən kənara çıxan nə isə söyləyirsə, nəinki ümumi strategiya, həmçinin dövlət, onun hakim dairələri nüfuzdan düşür. Danışıqların konkret məqsədlərinə nail olunması böyük problemə çevrilir;

• həm xarici siyasi və xarici iqtisadi komplekslərdə, həm də icra və qanunvericilik hakimiyyətləri daxil olmaqla, daxili siyasətdə dövlətin yüksək ixtisaslı kadrlarla təmin olunması. Siyasət və iqtisadiyyat arasında get-gedə güclənən əlaqələr dövlətin idarə olunmasının ali eşelonlarında işləmək qabiliyyəti olan insanların seçilməsini tələb edir;

• həyata keçirilən siyasətin, ölkənin bütövlükdə müasir dünyada, regionlarda, dost alyanslarda və bloklarda gücünün və imkanlarının aydın təsəvvür olunmasının zəruriliyi. Ölkənin siyasəti, onun xarici iqtisadi əlaqələri haqqında real təsəvvürlər olmadan aparılan danışıqlar, «başqa» tərəfin danışıqlar üzrə tərəfdaşının nəyə nail olmaq istədiyini başa düşməməsi nəticəsində uğursuzluğa düçardır.

Dərin biliklərə və yüksək əqli inkişafa əsaslanan peşəkarlıq rəsmi nümayəndə heyətlərinin gündəlik fəaliyyətinə də, keçirdiyi görüşlərdə beynəlxalq iqtisadi problemlərlə qarşılaşan siyasətçiyə də, sıravi mütəxəssisə də baza qismində lazım olan keyfiyyətdir.

***«Beynəlmiləl bürokratiya həmrəyliyi».*** Bu təzahür sonuncu onilliklərdə nəzərə çarpmağa başlamışdır. O, beynəlxalq münasibətlərin ən müxtəlif səviyyələrində və ən müxtəlif fonnalarda mövcuddur:

• müharibə və sülh problemlərinin, insan hüquqlarının və təhlükəsizliyin təmin olunması sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatların işində;

• dövlətlərin iqtisadi problemlər üzrə səlahiyyətli nümayəndələrinin

*KpeMeHtoK B.* Vkəs. com. C. 64.

iştirak etdiyi, eqoistik maraqların açıq formada toqquşması nəticəsində «ədalətli beynəlxalq iqtisadi münasibətlər» anlayışının belə, istehza ilə qarşılandığı beynəlxalq konfransların işində;

• «beynəlmiləl bürokratiya həmrəyliyi» özünü G7 və G8 sammitlərinin keçirilməsi zamanı ən aşkar formada bümzə verir. Dünya ictimaiyyətinin liderləri zahiri atributlara daha çox fikir verərək, ən mühüm qlobal problemləri ümumi xülasələrlə ifadə etməklə, nümayəndələrin görüşlərini keçirməklə kifayətlənirlər. Bu gün isə beynəlxalq siyasi və iqtisadi arenada iştirak edən əsas dövlətlərin, onların müasir dünyanın reallıqlarını dərindən başa düşən istedadlı nümayəndələrinin qüvvəsinin bir yerə cəmlənməsi zəruridir.

## Xülasə

• iqtisadi diplomatiya BİM-in və xarici iqtisadi siyasətin ən mühüm hissələrindən biridir. Qeyd olunmalıdır ki, bu xüsusi elmə təkcə öz dövlətinin xarici iqtisadi əlaqələrinin inkişaf etdirilməsi ilə məşğul olan dövlət qulluqçuları deyil, həmçinin, şirkətlərin əcnəbi tərəfdaşlarla müxtəlif əməliyyatlar aparan işçiləri də yiyələnməlidir. Buna görə də biz nəzəri məsələlərlə yanaşı, danışıqların texnikası və texnologiyası kimi praktiki aspektlərə və problemlərə diqqət vennişik.

• Buna müvafiq olaraq, həm xarici iqtisadi əlaqələrin özünün qavranılma aparatının, fomıalanmn, növlərinin və əlamətlərinin, həm də xarici iqtisadi əməliyyatlar aparan, o cümlədən əcnəbi tərəfdaşlarla müxtəlif işgüzar müqavilələr bağlayan mütəxəssisin xüsusi lüğətinə daxil olan anlayışların mənimsənilməsi vacibdir.

• Hər bir xarici forma (əməlİ3^at) konkret münasibətlərin (əlaqələrin) yaranmasını şərtləndirən müxtəlif tənzimləyicilərin (qaydaların) təsiri altında formalaşır və həyata keçirilir. Onların xassələri və meydana çıxma mənbələri fərqlənsə də, ən başlıcası, fəal dövlət tənzimlənməsi aləti olmasındadır. Buna görə də dövlətin xarici iqtisadi siyasəti nəzərə alınmalı, onun əsasları dövlətin nəzərdən keçirilən sahədə fəaliyyət kompleksi kimi öyrənilməlidir.

## Yoxlama sualları

1. iqtisadi diplomatiya anlayışı və onun məzmunu.
2. Dövlətin siyasəti və iqtisadi diplomatiyası.
3. İqtisadi diplomatiya təcrübəsi nəyi təsdiq edir?
4. Amerikanın iqtisadi diplomatiyasının xüsusiyyətləri hansılardır?
5. Rusiyanın iqtisadi diplomatiyası nədən ibarətdir və onun alətləri hansılardır?
6. Bu diplomatiyada hansı maliyyə-iqtisadi idarələri iştirak edir?
7. Rusiya iqtisadi diplomatiyasının hansı uğurları vardır və onlar nədə ifadə olunur?

## Referatların mövzuları

1. Dövlətin xarici iqtisadi siyasəti: nəzəriyyə və praktika
2. İqtisadi diplomatiya; mahiyyəti və məzmunu
3. Müasir dövrdə iqtisadi diplomatiyanın əhəmiyyəti niyə artır?

# Fəsil 5

# BEYNƏLXALQ TİCARƏTDƏ TƏDİYYƏ BALANSLARI

## 5.1. Tədiyyə balansının ümumi təsviri

***Anlayış.*** Tədiyyə balansı və onun alətləri (mexanizmi) vasitəsilə malların, xidmətlərin və kapitalın, pul resurslarının (axınlarının) hərəkətinin başqa fonualarınm ***milli və beynəlmiləl bazarlarının birləşməsi*** baş verir. Öz formasına görə tədiyyə balansı - idxal və ixrac olunan malların və xidmətlərin dəyərini, xarici yardımın, borclar və hədiyyə formasında kapitalın məbləğini, xarici turizmdən daxilolmaları, ölkəyə gətirilən və ölkədən çıxarılan qızılın qiymətini əks edən hökumət sənədidir. Bütün bunlar müəyyən dövr ərzində ölkənin xaricə ödəmələrinin və xaricdən ölkəyə daxilolmaların məbləği arasındakı nisbəti təhlil etməyə imkan verir. Beləliklə, birincisi, tədiyyə balansı müəyyən dövrdə (il, rüb, ay və s.) ölkə rezidentlərinin başqa ölkələrlə apardığı bütün iqtisadi əməliyyatların sistemləşdirilmiş təsviri kimi, dövlətin xarici iqtisadi mövqeləri barədə obyektiv nəticələr əldə etmək imkanı verir; ikincisi, makroiqtisadi (büdcə-vergi, pul-kredit və s.) siyasət işlənib hazırlanarkən səmt göstəricisi kimi istifadə olunur.

Başqa sözlə, ***tədiyyə balansı*** bir ölkənin rezidentləri (ev təsərrüfatları, fımıalar, hökumətlər) ilə qalan ölkələr arasında aparılan bütün əməliyyatların nəticələrinin sistemləşdirilmiş qaydada qeydiyyatıdır. «Tədiyyə balansı» termini firmanın kommersiya fəaliyyəti üçün toplanılan pul vəsaitlərinin mənbələrini və onlardan istifadə olunmasını müəyyənləşdirən «uçot sistemi» tennini ilə əlaqəlidir. Bu, dövlətin tədiyyə balansında pul vəsaitlərinin ödənilməsi və alınması əməliyyatları ilə bağlıdır.

***Tədiyyə balansının məzniıınu.*** Tarixən tədij^ə balansı hökumətlərin müəyyən dövr ərzində həyata keçirilən xarici əməliyyatlar və müqavilələrin nəticələri barədə dürüst məlumatlar əldə etmək cəhdləri ilə bağlı olan sənəd kimi fonnalaşmışdır. İxrac və idxal olunan malların və xidmətlərin, borcların, kreditlərin və başqa daxilolmaların (eynilə onların ölkədən axınının) real dəyəri pul amilləri məcmusu əsasında müəyyən olunduğuna görə bu sənəd milli

valyutanın qiyməti, habelə ticarət əməliyyatları aparılan ölkələrin valyutalarının məzənnəsinin tərəddüdü, dünyanın əsas valyutalarının vəziyyəti ilə ən sıx surətdə bağlıdır. Tədiyyə balansının təhlilinin zərurəti beynəlxalq valyuta sisteminin və maliyyə resurslarının dövlətlərarası hərəkəti baxımından meydana çıxır; ölkələrin çoxunda tədiyyə balansı əsas problemlərdən biri olaraq, cəmiyyətdə ən çox müzakirə olunan mövzulardandır.

***Tədiyyə balansının maddələrində müqavilələr.*** Tədiyyə balansı tərtib olunarkən, milli iqtisadi agentlərin əcnəbi tərəfdaşlarla bağladığı müxtəlif müqavilələr təsnifləşdirilərək, ayrı-ayrı maddələrdə cəmləşdirilir. Nəticədə tədiyyə balansı fərdi deyil, aqreqatlaşdırılmış beynəlxalq müqavilələri əks etdirir.

Beynəlxalq xarakterli müqavilələr (rezidentin xarici hüquqi yaxud fiziki şəxslə bağladığı, malların, xidmətlərin, maliyyə vəsaitlərinin ölkələrarası hərəkətini nəzərdə tutan bütün müqavilələr buna aiddir) müəyyən mübadiləni: mallar və xidmətlərlə ticarəti, barteri, aktivlərin dəyişdirilməsini, beynəlxalq turizmi və s. nəzərdə tutur. Birtərəfli köçürmələr, məsələn, humanitar yardım da bunlara aiddir. Eyniləşdirməyə məruz qalan beynəlxalq müqavilədə onun mülkiyyət hüququnun (aktivlər üzərində) keçməsini təsbit edən vaxt (müqavilənin bağlanma tarixi, malların göndərilməsi, gömrük prosedurlarından keçmə və s.) mühüm əhəmiyyətə malikdir və bu, milli hesablarda öz əksini tapır.

Tədiyyə balansı ölkə və əcnəbi rezidentlər arasında bağlanan müqavilələrin nəticələrini əks etdirdiyinə görə, «rezident» anlayışını açıqlamaq lazımdır.

*Rezident* məfhumu aşağıdakıları nəzərdə tutur:

• ölkədə daimi əsasda yaşayan fiziki şəxslər və fəali}^ət göstərən hüquqi şəxslər;

• ölkənin qanunvericiliyi əsasında yaradılan və onun ərazisində yerləşən, hüquqi şəxs olmayan fınnalar və təşkilatlar;

• ölkə ərazisindən kənarda yerləşən diplomatik və başqa nümayəndəliklər;

• rezidentlərin ölkə ərazisindən kənarda yerləşən filialları və nümayəndəlikləri.

*Qeyri-rezident* məfhumu aşağıdakıları nəzərdə tutur:

• ölkə ərazisindən kənarda daimi yaşayan, o cümlədən bu ölkədə müvəqqəti qalan fiziki şəxslər;

• xarici ölkənin qanunvericiliyi əsasında yaradılan və ölkənin ərazisindən kənarda olan hüquqi şəxslər;

• öz ölkələrinin qanunvericiliyi əsasında yaradılan, hüquqi şəxs olmayan firmalar və təşkilatlar;

• diplomatik və başqa nümayəndəliklər, habelə beynəlxalq təşkilatlar və filiallar;

• qeyri-rezidentlərin ölkədə yerləşən xarici filialları.

***Tədiyyə balansı təsisatının təşəkkülü.*** Tədiyyə balansının tərtib olunmasına ilk cəhdlər Orta əsrlərə aiddir, ***«tədiyyə balansı»*** tenuini isə elmi və praktiki dövriyyəyə XVIII əsrdə sonrakı dövr merkantilizmin nümayəndəsi, ölkənin varlanma mənbəyini onun aktiv ticarət balansında görən C.Stüart tərəfindən daxil edilmişdir.

Beynəlxalq müqayisələr sahəsində ilk tədqiqatlar Millətlər Liqasının aparatında aparılmış, bu isə, tədiyyə balanslarının tərtibi metodikasının eyniləşdirilməsini tələb etmişdir. Həmin iş BMT-nin idarələri və BVF çərçivəsində əsaslı və hərtərəfli inkişaf etdirilmişdir. Hazırda 1993-cü il Standart sxeminin beşinci nəşri qüvvədədir və dünya ölkələrində tədiyyə balansı tərtib olunarkən bundan istifadə edilir.

***Əsas prinsip.*** Tədiyyə balansında ikili qeydiyyat sistemi prinsipindən istifadə olunur: hər bir əməliyyatın iki tərəfi - debeti və krediti vardır. Bu uçot sisteminə əsasən, debetdəki ümumi məbləğ həmişə kreditdəki ümumi məbləğə bərabər olmalıdır. Tədiyyə balansının uçot məbləği iqtisadçılar tərəfindən qiymətləndinuələr aparılarkən göstərici qismində istifadə olunur. Buna görə də tədiyyə balansının iki tərəfindəki əməliyyatların təsviri üçün istifadə edilən iqtisadi terminologiyada aydınlıq olması vacibdir.

Mədaxil üzrə əməliyyatlara malların və xidmətlərin ixracı, kapitalın ölkəyə axını daxildir və pul vəsaitlərinin mənbəyini təşkil edir. Xərclər üzrə əməliyyatlara malların və xidmətlərin idxalı, kapitalın ölkədən axını daxildir və pul vəsaitlərindən istifadə olunması üsullarını təşkil edir.

***Tədiyyə balanslarının məlumatlarından istifadə olunması.*** Çoxsaylı banklar, başqa maliyyə qurumları, şirkətlər və hökumət idarələri tədiyyə balansında olan məlumatlarla işləyir və onlardan aşağıdakı məqsədlər üçün istifadə edir:

• ölkənin krediti qaytamıa qabiliyyətinin qiymətləndirilməsi;

• ölkənin iqtisadi inkişaf meyilləri təhlil olunarkən iqtisadi tsiklin

müddətinin müəyyənləşdirilməsi;

- valyuta məzənnələrinə təsir göstərilməsi proqnozlarının tərtib olunması;
- hökumətin siyasətinin proqnozlaşdırılması;
- ölkədə riskin təhlili nəticələrinin daha aydın başa düşülməsi;
- dövlətin iqtisadi vəziyyətinin qiymətləndirilməsi.

***Tədiyyə balansının maddələri: cari əməliyyatlar balansı və kapitalın hərəkəti balansı.*** BVF-in standart təsnifatına görə, tədiyyə balansında uçota alınan bütün beynəlxalq müqavilələr (və əməliyyatlar) aşağıdakı kimi təsvir olunur:

1) cari əməliyyatlar (ölkənin milli sərhədlərini keçən mallar və xidmətlər, habelə birtərəfli transfertlər);

2) kapitalla aparılan əməliyyatlar (aktivlərin ən müxtəlif formalarda və ifadədə alınması və satılması).

Tədiyyə balansında - cari əməliyyatlar balansında və kapitalın hərəkəti balansında da elə bu qruplar əks olunur.

***Cari tədiyyə balansında yaxud cari əməliyyatlar üzrə balansda*** malların ixracı və idxalı ilə yanaşı, xidmətlərlə ticarət, xarici turizm, birtərəfli köçürmələr, çoxsaylı beynəlxalq müqavilələr uçota alınır. Cari əməliyyatlar hesabı üzrə saldo nəqliyyat, rabitə, turizm xidmətlərinin təqdim olunmasının, lisenziya və patentlərin nəticələrini, investisiyalarda gəlirləri əks etdirir. Cari əməliyyatlar üzrə balansda həmçinin əməyin ödənilməsi, xarici dövlətlərə subsidiyalar, beynəlxalq təşkilatlara ödənilən üzvlük haqları uçota alınır. Əcnəbi alıcı ona lazım olan malları və xidmətləri əldə etmək üçün milli valyuta almağa məcbur olduğuna görə, əmtəə ixracı valyutaya tələbatı artırır. Bu, valyuta bazarında milli valyutaya ehtiyac yaradır və «müsbət» işarəsi ilə qeydiyyata alınmalıdır.

Cari tədiyyə balansının düsturu aşağıdakı kimi ifadə oluna bilər:

Cari tədiyyə balansı = ixracdan gəlirlər - idxal üzrə xərclər - Xaricə xalis transfertlər

Cari əməliyyatlar üzrə balans müəyyən dərəcədə əmtəə ixracı ilə əlaqədar olduğuna görə, onun həcminin dəyişməsinə təsir göstərən amillər tədiyyə balansı tərtib olunarkən və yekunlaşdırılarkən diqqət mərkəzindədir. Bu amillər hansılardır? Onlardan əsaslarını sadalayaq: qiymətlərin ölkədəki və xaricdəki

nisbəti; xaricdə əldə olunan gəlirlər; xaricdə idxal rüsumları və kvotaları; valyuta məzənnəsi; malların və xidmətlərin ixracı; malların və xidmətlərin idxalı. Göstərilən amilləri təfsilatı ilə nəzərdən keçirək.

***Qiymətlərin ölkədəki və xaricdəki nisbəti.*** Ölkədəki inflyasiya tempi tiearət aparılan ölkələrdəkindən yüksəkdirsə, başqa şərtlər eyni olduğu halda, istehsal edilən əmtəələrin rəqabət qabiliyyətinin zəifləməsi nəticəsində ixracın həcmi azalacaqdır. Xaricə yalnız ölkədə nisbətən ucuz (yəni istehsalında ölkənin müəyyən qədər üstünlük qazandığı) yaxud daxili tələbat nisbətən az olan əmtəələr ixrac olunacaqdır. Əcnəbi alıcıların real gəlirlərinin çoxalması obyektiv olaraq, ixrae bazarında ölkənin buraxdığı əmtəələr üçün əlverişli şərait yaradacaq. Buna müvafiq olaraq, xaricdən gəlirlərin, ixracın həcminin artımı baş verir və ölkənin valyutasına tələbat artır.

***Rüsumlar və tariflər.*** Ölkənin xariei tiearəti üzərində qiymətlər vasitəsilə nəzarətin ən geniş yayılmış tipi rüsum və tariflərdir.

Rüsum dövlət yaxud öz aralarında özəl münasibətlərə (məsələn, icarə, qiymətli kağızların ötürülməsi haqqında müqavilə bağlanması, qiymətləndirmə barədə razılaşma) girən fiziki və hüquqi şəxslərdən tutulan istehlak vergisinin növüdür. Praktikada və nəzəriyyədə rüsumların çoxsaylı növləri (tipləri): birja (birja komitəsi tərəfindən qiymətli kağızların alıeılanndan tutulan pul yığımı), veksel (veksel saxlayanın notarius tərəfindən müxtəlif növ protestlərin verilməsinə görə ödədiyi məbləğ), yol (keçidə görə ödəniş), patent (ixtiradan istifadəyə patent əsasında müstəsna hüququn verilməsinə görə ödəniş), məhkəmə (hüquqi və fiziki şəxslər tərəfindən qaldırılan iddia ərizələrinə və kassasiya şikayətlərinə baxılmasına görə ödəniş) və sair ilə qarşılaşmaq olar. Bizi rüsumların aşağıdakı növləri maraqlandırır: dövlət, xariei ticarət, gömrük, liman, habelə onların bəzi variantları.

*Dövlət rüsumu* - xüsusi səlahiyyət verilmiş idarə tərəfindən müəssisə, təşkilat və vətəndaş üçün yerinə yetirilən hərəkətlərə, hüquqi əhəmiyyətə malik olan sənədlərin verilməsinə görə alınan məbləğdir.

*Gömrük rüsumu* - xariei malların ölkəyə gətirilməsi (idxal rüsumu), malların ölkədən çıxarılması (ixrae rüsumu) yaxud malların tranziti (tranzit rüsumu) ilə əlaqədar olaraq alınan rüsumdur. Gömrük rüsumu bir sıra növ qruplarına bölünür:

*Xarici ticarət rüsumu* - ölkənin gömrük sərhədindən buraxılan mallara tətbiq edilən dövlət rüsumudur (vergisidir). Hesablanma metodlarına və tətbiq

olunma üsullarına görə xarici ticarət rüsumlarının vergi qoyulan malların qiymətinə faiz nisbəti (ad valorem) və müvafiq ölçü vahidinə görə təsbit olunmuş məbləğ kimi müəyyənləşdirilən növləri fərqləndirilir. Xarici ticarət rüsumunun tətbiq edildiyi malların siyahısı və gömrük rüsumlarının dərəcələri gömrük tarifində göstərilir.

*Uman rüsumu* - gəmi sahibinin bəzi limanlarda tərsanəyə girmək imkanı qazanmaq üçün ödədiyi məbləğdir.

Rüsum mal vahidinə görə pul ödənişi şəklində də müəyyən oluna bilər və bu halda o*, spesifik rüsum* adlandırılır. Bəzi hallarda eyni mal üzrə eyni vaxtda həm spesifik, həm də advalor rüsum müəyyənləşdirilə bilər. Belə rüsum *qarışıq rüsum* adlandırılır. Gömrük işçilərinə faiz tutulmalı olan dəyəri müəyyənləşdimrək lazım olmadığına görə, spesifik rüsumun qoyulması daha asandır.

Sənayeləşmiş iri ölkələr üçün böyük əhəmiyyət kəsb etməyən idxal rüsumu inkişaf etməkdə olan ölkələrin əksəriyyətinin gəlirlərinin əsas mənbələrindən biridir. Dövlət hakimiyyəti orqanlarının şəxsi və korporativ gəlirlər üzrə vergiləri hesablamaq və toplamaqla müqayisə olunduqda, sərhədi keçən malların həcminin və xarakterinin müəyyənləşdirilməsinə nəzarət etmək imkanları daha genişdir. Bu, iqtisadiyyatı transformasiya olunan yeni ölkələr (Rusiya, Ukrayna, Mərkəzi Asiya ölkələri) üçün də səciyyəvi haldır.

*Tarif* - təşkilatlar və şirkətlər tərəfindən əhaliyə və müxtəlif idarələrə göstərilən istehsal və qeyri-istehsal xarakterli xidmətlərə görə ödəniş dərəcələri sistemidir. Tariflərin tipləri və növləri də fərqlənir.

*Gömrük tarifi* - ölkəyə gətirilən və ölkədən çıxarılan mallara görə ödənilən, əmtəə qrupları üzrə sistemləşdirilmiş rüsumların siyahısı olmaqla, xarici ticarətin tənzimlənməsi alətidir; malların adlarının, rüsum tutuan vahidin və rüsumun dərəcələrindən ibarətdir. Gömrük tarifləri *avtonom* (dövlətlərin birtərəfli qaydada tətbiq etdiyi), *konvensiya* (dövlətlər tərəfindən beynəlxalq sazişlər əsasında tətbiq edilir və faiz dərəcələri nisbətən aşağıdır), *kombinə edilmiş* (gömrük tarifinin hər iki növünü ehtiva edir və müxtəlif ölkələrə münasibətdə onların fərqli növü tətbiq olunur) növlərə bölünür.

*İxrac tarifi* - müəyyən malların ixracının dövlət tərəfindən tənzimlənməsi üçün tətbiq olunan vergi növüdür.

Gəlir vergisi şəklində tarif idxala münasibətdə daha geniş yayılmışdır, amma xammal ixrac edən ölkələrin çoxu malın dəyərinə təsir göstərməklə.

ixrac rüsumlarını da tətbiq edir. *Tranzit rüsumları* İkinci Dünya müharibəsi başlananadək bəzi ölkələrin gəlirinin əsas mənbəyi olmuşdur. GATT-ÜTT-in yeni ticarət müqavilələri və qaydaları qüvvəyə mindikdən sonra onlar, demək olar ki, hər yerdə ləğv olunmuşdur.

Öz gəlir mənbələrini şaxələndirməyə və ixrac edilən xammalın dəyərinə emal dəyərinin əlavə olunması yolu ilə onu artırmağa çalışan inkişaf etməkdə olan ölkələrdən idxal olunan emal sənayesi məhsullarına münasibətdə inkişaf etmiş ölkələrin tətbiq etdiyi tarif rejimi əsas problemlərdən biridir. İnkişaf etmiş ölkələrin bazarlarına xammal çox vaxt rüsumsuz daxil olur, amma emaldan sonra həmin materiallara adətən rüsum tətbiq edilir. Bu, inkişaf etmiş ölkələrin öz emal sənayesi məhsulları üçün xarici bazarlar tapmasına çətinlik törədir. Bununla bərabər, onların özündə buraxıla biləcək bir çox mallar inkişaf etmiş ölkələrdə istehsal olunur.

Əcnəbi tərəfdaşların yüksək tarifləri və aşağı idxal kvotaları, habelə ticarətdə ciddi qeyri-tarif məhdudiyyətlərinin mövcudluğu ölkənin ixracını ixtisar edir.

*Valyuta məzənnəsi* (xarici valyutanın milli valyutada ifadə olunan qiyməti). Malların ölkədəki və xaricdəki qiymətlərinin müəyyən olunmuş nisbətləri çərçivəsində milli valyutanın mübadilə məzənnəsinin yüksəldilməsi ölkənin mallarının ixrac qİ3anətlərini artırır və ixracın həcmini azaldır.

*Malların ixracı* ölkənin valyutasına olan tələbatı genişləndirir və *xidmətlərin ixracını* (burada xidmətlərin yalnız bəzi xüsusi növləri, məsələn, rezidentlərin əvvəlki dövrlərdə investisiya qoyuluşundan gəlirləri nəzərdə tutulur. Bu gəlirlər kapitalın investisiyalara yönəldilən həcmindən, ssuda faizinin dərəcəsindən, dividendlərin və mənfəətin məbləğindən asılıdır) müəyyən edən eyni proseslərin və amillərin təsirinə məruz qalır.

*Malların və xidmətlərin idxalı.* Onun həcmi ixrac barəsində danışıldıqda nəzərdən keçirilən eyni proseslərin, ilk növbədə isə, idxalın artmasının yaxud azalmasının əsas amilləri olan miqdar və qiymət amillərinin təsiri altında formalaşır. Başqa şərtlər eyni olduqda, malların ölkədaxili qiymətləri analoji xarici malların qiymətinə nisbətən bahadırsa, ölkənin idxalının həcmi artır.

Tariflərin aşağı olması, yüksək idxal kvotaları, ölkənin valyutasının xarici valyuta bazarlarında yüksək qiymətləndirilməsi idxal həcminin artmasına təsir göstərir. Cari balans üzrə saldonun (cari əməliyyatlar üzrə hesabın) müsbət və ya mənfi kəmiyyətini tam təsəvvür etmək üçün ixracın

məbləği ÜDM ilə müqayisə olunur. Nəticə ölkənin xarici ticarət əməliyyatlarının xarakteri və vəzi}^əti barədə real təsəvvür yaradır.

Mənfi saldonun neqativ nəticələri cari əməliyyatlar üzrə tədiyyə balansında kəsir yaranmış ölkənin onu maliyyələşdirmək üçün başqa ölkələrdən və beynəlxalq təşkilatlardan borc almağa yaxud öz aktivlərini azad bazarlarda satmağa vadar olmasında təzahür edir.

Amma bu cür kəsirli maliyyələşdirmənin hüdudları xaricdən borclanma mənbələrinin tükənməsi, ölkənin bazarda tələbat olan aktivlərinin dəyərdən düşməsi ilə məhdudlaşır. Belə vəziyyətlərdə ölkə tədiyyə balansında (daha geniş planda isə daxili və xarici xərcləri ixtisar etməklə dövlət büdcəsində) düzəlişlər etməyə məcburdur.

***Kapitalın hərəkəti balansının formalaşması.*** Kapitalın hərəkəti balansı (kapital və maliyyə əməliyyatları hesabı) kapitalın yerdəyişməsi ilə əlaqədar olan be}məlxalq maliyyə əməliyyatları hesabları qrupunun sayəsində fonnalaşır. Bura aktivlərin alqı-satqısı və başqa maliyyə əməli}^atlan, o cümlədən dövlət və özəl kapitalın, uzunmüddətli və qısamüddətli kreditlərin və borcların, portfel investisiyalarının ixracı və idxalı daxildir. Beləliklə, bu halda kapitalın hərəkəti balansını əks etdirən müqavilələrin ümumi nəticəsi nəzərdə tutulur. Bu hərəkətin düsturu aşağıdakı kimidir;

| | | | |
|---|---|---|---|
| Xaricdə aktivlərin əldə olunması üzrə xərclər | Beynəlxalq borclar və kreditlər üzrə daxilolmalar | Kapitalın hərəkəti üzrə Mərkəzi Bankın əməliyyatlarından daxilolmalar | Kapitalın satışından daxilolmalar |

Malların və xidmətlərin satışı kimi, xarici aktivlərin satılması da xarici valyutanın daxil olması ilə nəticələnir. Xarici aktivlərin alınması isə, əksinə, xarici valyutanın xərclənməsi deməkdir. Bir çox dövlətlər üçün beynəlxalq və ikitərəfli müqavilələr üzrə, o cümlədən BVF, DB, BYİB xətti ilə alınan borclar və kreditlər, habelə ölkələrin mərkəzi banklarının aktivlərin satışı nəticəsində forması dəyişdirilmiş mədaxilləri olan beynəlxalq əməliyyatları da böyük əhəmiyyətə malikdir. Kapitalın ölkədən axını pul vəsaitlərinin başqa ölkələrə köçürülməsini (aktivlərə yönədilməsini), ölkəyə axını isə tədiyyə balansı qiymətləndirilməli olan ölkəyə köçürülməsini əks etdirir. Kapitalla aparılan əməliyyatlar həm özəl, həm də dövlət sektorları vasitəsilə həyata keçirilə bilər. Şübhəsiz ki, dövlət kreditləri xarici siyasətə müəyyən dərəcədə təsir göstərir və bu, müxtəlif formalarda təzahür edə bilər.

Tədiyyə balansı baxımından ***kapitalın ölkədən axını*** aşağıdakı əməliyyatları əhatə edir;

- fınnaların xaricə birbaşa investisiya qoyuluşları;
- ölkə investorlarının xarici səhmləri və istiqrazları alması;
- milli kreditorların başqa ölkələrin borcalanlarma kredit verməsi;
- milli rezidentlərin xarici banklarda bank depozitlərini əldə etməsi.

***Kapitalın ölkəyə axınına*** aşağıdakı əməliyyatlar daxildir:

- xarici finnalar tərəfindən ölkəyə birbaşa investisiya qoyuluşları;
- ölkənin səhmlərinin və istiqrazlarının əcnəbi investorlar tərəfindən alınması;
- xarici kreditorların ölkədə olan borcalanlara kredit verməsi;
- ölkə banklarının depozitlərinin qeyri-rezidentlər tərəfindən əldə olunması.

Ölkəyə kapital axınının ölkədən kapital axınını üstələməsi cari (ticarət) hesablar balansını mənfi saldosunun neqativ nəticələrini minimuma endirir və dayanıqlı iqtisadi artım üçün əlverişli mühit yaradır.

***Bazis balansı.*** Bazis balansı cari hesablar balansı ilə kapitalın hərəkəti balansının toplanması nəticəsində fonnalaşır. Onun əhəmiyyəti milli iqtisadiyyatın əmək məhsuldarlığı, beynəlxalq rəqabət qabiliyyəti, investisiya mühiti, alıcıların verdiyi üstünlüklər və s. kimi mühüm xüsusiyyətlərini əks etdirməsindədir.

***Rəsmi ehtiyatlar.*** Tədiyyə balansının nəzərdən keçirdiyimiz maddələrinin balansı yaxud bazis balansı təşkil edən iki balans - cari əməliyyatlar və kapitalın hərəkəti üzrə balanslar tədiyyə balansı adlandırılmaq üçün tam və kifayət deyil. Onun üçüncü tərkib hissəsi «Rəsmi ehtiyatlar» maddəsidir.

Müxtəlif ölkələrin mərkəzi banklarında ***rəsmi ehtiyatlar*** adlandırılan külli məbləğdə xarici valyuta vardır. Ehtiyatlardan, bir qayda olaraq, tədiyyə balansının cari əməliyyatlar və kapitalın hərəkəti (dollar, funt sterlinq, avro və s. dönərli valyutalar, habelə qızıl) balanslarının tənzimlənməsi üçün istifadə edilir. Kapitalın hərəkəti hesabının balansının aktivi, maliyyə ilində cari əməliyyatlar hesabı üzrə balansın passivindən xeyli azdırsa, ölkənin birləşdirilmiş (konsolidə olunmuş) hesabatları üzrə xalis kəsir yaranacaqdır. Başqa sözlə, beynəlxalq ticarətdə və maliyyə əməlij^atlarmda ölkə xarici valyutanı qazandığından daha çox, xərcləmişdir. Mərkəzi bankların rəsmi ehtiyatlarından valyuta bazarına onların bir hissəsini çıxarmaq yolu ilə milli

valyutanın məzənnəsinin saxlanması üçün də istifadə olunur.

Qeyd olunmalıdır ki, tədiyyə balansının hər üç tərkib hissəsinin (cari əməliyyatlar hesabı, kapitalın hərəkəti hesabı, rəsmi ehtiyatlar hesabı) cəminin yekunu sıfra bərabər olmalıdır. Beynəlxalq əməliyyatlarda istifadə olunmuş xarici valyutanın hər vahidinin (<aTiənfı» maddələr, yəni ödənişlər və ya debitor əməliyyatları) özünün mənbəyi («müsbət», yəni daxilolmalar, o cümlədən kredit əməliyyatları hesabına) olmalıdır.

İndi qızıldan tədiyyə balansının tənzimlənməsi üçün demək olar ki, istifadə olunmur. Rəsmi ehtiyatların əsas hissəsi (monetar qızıl nəzərə alınmadan) sənayeləşmiş aparıcı ölkələrin valyutalannm payına düşür. 2010-cu ildə onların xüsusi çəkisi 96,3% (avro və dollar) olmuş, BVF-də ehtiyat mövqeyi isə 3,5%-i aşmamışdır.

Beləliklə, «Rəsmi valyuta ehtiyatlarının hesabı» maddəsində rəsmi hesablaşmalar üzrə tədiyyə balansının tənzimlənməsinin metodları və mənbələri əks olunur. Tədiyyə balansının kəsiri Mərkəzi Bank tərəfindən xarici valyutanın xalis satışlarına, bunun əksinə, tədiyyə balansının müsbət saldosu Mərkəzi Bankın aldığı xarici valyutanın xalis alışına bərabər olacaqdır.--

Əvvəl dediyimiz kimi, ölkə uzun müddət ərzində tədiyyə balansını kəsirlə yekunlaşdıra bilməz, çünki belə hal onun rəsmi valyuta ehtiyatlarının tükənməsinə, tədiyyə balansının qaçılmaz böhranına gətirib çıxaracaqdır. Bu, ölkənin xarici borcları ödəmək iqtidarında olmaması, yeni borcların alınmasının qeyri-mümkünlüyü deməkdir. Belə vəziyyətlərdə yeganə çıxış yolu kimi mübadilə məzənnəsində düzəlişlər aparılmasına əl atılır (valyutanın devalvasiyası). Amma mübadilə məzənnəsində düzəlişlərin aparılması iqtisadiyyat üçün neqativ nəticələr verə bilər.

Beynəlxalq hesablaşmalar üçün əsas vasitə kimi istifadə olunan valyutaya, məsələn, ABŞ dollarına malik ölkələrdə isə hadisələr başqa məcrada inkişaf edir. Dünya puluna tələbatın artması nəticəsində əsas valyutaya malik olan ölkə öhdəlikləri aktivlərindən çox olan adi bank kimi fəaliyyət göstərir, bu isə, onun rəsmi hesablaşmalar üzrə tədiyyə balansını, o cümlədən cari əməliyyatlar üzrə balansını uzun müddət ərzində heç bir ciddi problem yaratmadan kəsirlə yekunlaşdırmağa imkan verir (1970-ci illərin ortasından ABŞ cari əməliyyatlar üzrə balansı kəsirlə başa vurur).

Beynəlxalq təşkilatların fəaliyyətində və beynəlxalq hesablaşmalar praktikasında xalis rəsmi valyuta ehtiyatları göstəricisindən də istifadə olunur.

Bu göstərici ölkənin xarici kreditorlar qarşısında olan borcunu ödəmək qabiliyyətini qiymətləndinnəyə imkan verir. Xalis rəsmi valyuta ehtiyatlarının məbləğindən, həmçinin valyuta ehtiyatlarının ölkənin idxalını ödəmək üçün nə dərəcədə kifayət etməsi göstəricisinin aşağıdakı kimi hesablanması üçün də istifadə olunur;

$$\frac{\textit{Xarici valyutanın xalis ehtiyatları}}{\textit{İdxalın ümumi həcmi}} \times 12 \; ay$$

Bu göstərici ölkənin mövcud valyuta ehtiyatları hesabına idxalı ödəyə biləcəyi müddəti məhdudlaşdırır. Beynəlxalq kreditləri almaq imkanı (inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələr) bu göstəricinin kəmij^ətindən asılıdır. Belə ki, bu göstərici idxalın 3 aydan az müddətdə təmin olunmasından aşağı səviyyədədirsə, vəziyyət qeyri-qənaətbəxş hesab olunur və yeni kreditləri almaq imkanı cüzidir.

***Ehtiyat fondları.*** Dünyanın neft və qaz bazarlarında satışdan əlavə gəlirlər əldə edən bəzi ölkələr ehtiyat fondları - Gələcək nəsillərin Fondu (Norveç), Sabitləşdirmə fondu (Rusiya) və s. yaradır. Əksər hallarda ölkələr belə fondların vəsaitlərini ABŞ-da, aşağı gəlirli dövlət istiqrazlarında yerləşdirməyə üstünlük verir. *Səmərəli iqtisadi siyasət yeridilərkən heç zaman və heç bir vəziyyətdə artıq olmayan* malij^ə resurslarının bir hissəsinin ölkədən çıxarılması ilə eyniləşdirilə bildiyinə görə, bu, milli ehtiyatların yerləşdiril- məsinin ən israfçı formasıdır. Rusiya iqtisadçılarının ən sadə hesablamalarına görə, *ölkənin illik investisiya tutumu ən azı 120-150 milyard dollardır.* Özü də istehsal, və sosial infrastruktur yaradıldıqca və ərazi üzrə «artım nöqtələri» formalaşdıqca, bu göstərici yüksələcəkdir. Milli iqtisadiyyatın inkişafı üçün onun sabitliyini təmin etmək vəzifəsi qarşıya qoyulmalıdır, bunun başqa zəmanəti yoxdur.

## 5.2. Tədiyyə balansının standart modeli və onun strukturu

***Standart model anlayışı və onun strukturu.*** Dünya iqtisadiyyatında və beynəlxalq iqtisadi münasibətlərdə fəal iştirak edən, get-gedə genişlənən ticarət münasibətlərinə cəlb olunmuş ölkələr labüd olaraq beynəlxalq hesablaşmaların əsas göstəricilərindən (standartlarından) istifadəyə keçir. Ölkənin beynəlxalq təsərrüfat əlaqələri sisteminə «çıxmasının» ən əsas tərəflərindən biri keçid

həlqəsidir. Universal istifadə üçün təyin olunmuş «tədiyyə balansının standart modeli» milli bazarlardan dünya bazarına çıxış həlqəsi rolunu oynayır.

Struktur etibarilə, tədiyyə balansının standart modeli yuxarıda nəzərdən keçirdiyimiz üç tərkib hissəsinin vahid sənəd şəklində birləşdirilməsidir (cədvəl 5.1).

Tədiyyə balansının əsasını malların ixracını və idxalını xarakterizə edən, sərhədi həqiqətən keçən malların həcminin uçotunu aparan gömrük statistikasının məlumatlarına əsaslanan ticarət (xarici ticarət) balansı təşkil edir. Xarici ticarət müqavilələrinin vaxt baxımından üst-üstə düşməməsinə baxmayaraq, tədiyyə balansı xarici ticarət dövriyyəsi prosesində pul ödənişlərini və daxilolmalarını əks etdirir.

*Cədvəl 5.1*

**Tədiyyə balansının standart strukturu**

| | |
|---|---|
| *Birinci variant* | |
| Kredit | Debet |
| 1. Cari əməliyyatlar üzrə hesablar | |
| 1. Malların ixracı | 2. Malların idxalı |
| Xarici ticarət balansının saldosu | |
| 3. Xidmətlərin ixracı<br>5. İnvestisiyalardan xalis gəlirlər | 4. Xidmətlərin idxalı<br>6. Xaricə xalis cari transferlər |
| Cari əməliyyatlar üzrə balansın saldosu | |
| II. Kapital və maliyyə əməliyyatları hesabı | |
| 7. Xaricdən xalis kapital transferləri 9. Uzunmüddətli və qısamüddətli kreditlərin alınması 10. Səhvlər və buraxılmalar | 8. Uzunmüddətli və qısamüddətli kreditlərin verilməsi |
| Rəsmi hesablaşmalar balansının saldosu | |
| III. Rəsmi valyuta ehtiyatları hesabı | |
| *ikinci variant* | |
| A. Cari əməliyyatlar<br>Mallar<br>Xidmətlər<br>İnvestisiyalardan gəlirlər Sair xidmətlər və gəlirlər Fərdi birtərəfli köçürmələr | |

Yekun: A - cari əməliyyatların balansı B. Birbaşa investisiyalar və digər uzunmüddətli kapital Birbaşa investisiyalar

Portfel investisiyaları Digər uzunmüddətli kapital

C. Digər qısamüddətli kapital

D. Səhvlər və buraxılmalar

Yekun: A+B + C + D- kapitalın hərəkəti balansı

E. Kompensasiyaedici maddələr

F. Saldonun örtülməsinin fövqəladə mənbələri

G. Xarici rəsmi orqanların valyuta ehtiyatlarını təşkil edən öhdəliklər Yekun: A + B + C + D + E + F + G

Fl. Ehtiyatların yekun dəyişməsi

Qızıl XİH

BVF-də ehtiyat mövqeyi Yekun: A + B + C+ D + E + F + G + H

Ölkələrin bir çox hallarda standart tədiyyə balansının tövsiyələrinə dəqiq əməl etməməsi, inkişaf yekunlarının beynəlxalq təşkilatlar tərəfindən qiymətləndirilməsində çətinliklər yaradır. Lakin bəzi hallarda, məsələn, əlavə məlumatlar barəsində bu kənarlaşmalar özünü doğruldur. Belə ki, cari əməliyyatlar maddəsinə uzunmüddətli və qısamüddətli kreditlərin verilməsini və alınmasını, habelə xalis transferləri əks etdirən kapital və maliyyə əməliyyatları hesabının maddələrinin əlavə olunması rəsmi hesablaşmalar balansını əldə etmək imkanı verir.

Rəsmi hesablaşmalar balansına, həmçinin «Səhvlər və buraxılmalar» maddəsi daxil olunur. Nəzəri baxımdan hər bir müqavilə tədiyyə balansında iki dəfə: debet və kredit üzrə əks edilməli olsa da, praktikada bu tələb bəzən yerinə yetirilmir. Bir çox hallarda bağlanılan müqavilələr müxtəlif xidmətlər tərəfindən qeydiyyata alınır, onlar barədə infonnasiya həm vaxt, həm də kəmiyyətcə fərqlənə bilər. Bəzi müqavilələr, xüsusilə də qanuna zidd olanlar ümumiyyətlə statistika uçotundan kənarda qalır. Nəzərə alınmayan bu cür axınların ümumi məbləğini yalnız kredit və debet üzrə ümumi yekunlar hesablandıqdan sonra müəyyənləşdirmək mümkündür.

***İkili qeydiyyat*** prinsipi əsasında tərtib olunan tədiyyə balansı ***sıfra bərabərdir,*** bu isə, ölkənin borclar üzrə bütün hesablarının ödənilməli olmasını ifadə edir. Buna görə də cari əməliyyatlar hesabları üzrə kəsir tam dəqiqliklə kapital və maliyyə əməliyyatları hesabının müsbət saldosuna uyğun olmalıdır. Ölkənin rezidentləri xarici malların, xidmətlərin və aktivlərin alınmasına öz

mallarının, xidmətlərinin və aktivlərinin əcnəbilərə satılmasından əldə etdikləri məbləğdən daha çox pul xərcləyirlərsə, yəni rəsmi hesablaşmalar balansı kəsirlə yekunlaşırsa, borclar Mərkəzi bank tərəfindən rəsmi xarici valyuta ehtiyatlarının azaldılması hesabına ödənilir. Amma bu hal bankın mübadilə valyutalarının məzənnəsində təshih apardığı vəziyyətdə baş verir.

***Xarici ticarətin inkişafının tədiyyə balansı əsasında proqnozlaşdırılması.*** Tədiyyə balansı əsasında əsas göstəriciləri, o cümlədən xarici iqtisadi əlaqələr və onların uzunmüddətli perspektivlərini proqnozlaşdınnaq mümkündür. Bu zaman gələcəkdə mübadilə məzənnələrinin mümkün olan inkişafının öyrənilməsi zəruridir. Bunun üçün adətən iki metoddan istifadə olunur. Birinci metod tədiyyə balansının hər bir tərkib hissəsinin qiymətləndirilməsindən sonra proqnozlaşdırılan balansın bütövlüklə tərtib olunmasını, gəlirlər və xərclər baxımından fərqlərin müəyyənləşdirilməsini nəzərdə tutur. Həmin fərq əsasında valyutanın dəyərinin (mübadilə məzənnələrinin dəyişmə səviyyəsinin) yüksəlməsi yaxud aşağı düşməsi barədə proqnoz nəticə əldə etmək mümkündür. Digər metod çoxsaylı qarşılıqlı əlaqələri tənliklər şəklində ifadə edən (ticarət müqavilələri, gəlirlərin və qiymətlərin dəyişməsi, bu göstəricilərin qarşılıqlı təsiri təhlil olunur) mürəkkəb ekonometrika modelinin qurulmasını tələb edir. Müqavilələrin istiqamətinin və mübadilə məzənnələrinin dəyişməsi meyillərinin aşkarlanması tədiyyə balansının cari tərkib hissələrinin və kapitalların hərəkətinin hesablarını tarazlaşdırır. Bu proqnozlar bir çox üstünlüklərə malik olsalar da, mütəxəssislərdən yüksək ixtisas, elmi tədqiqatlara yaxın ciddi təhlil işlərinin aparılmasını tələb edir.

Cədvəl 5.2-də regionlar və inkişaf səviyyəsi üzrə qruplaşdırılmış dünya ölkələrinin cari əməliyyatlar hesabları balanslarının vəziyyəti göstərilmişdir.

Cədvəl 5.3-də həmin ölkə qruplarının 2000-2008-ci illərdə olan dövrdə tədiyyə balanslarının müqayisəli təhlili verilmişdir.

2000-2009-cu illərdə ölkələrin müxtəlif qruplarının tədiyyə balanslarının müqayisəli təhlili dünyanın inkişaf etmiş ölkələrinin əksəriyyətinin xarici ticarət əməliyyatlarında böyük kəsir olduğunu əyani göstərir, özü də burada ABŞ liderlik edir; bundan başqa, daimi kəsir Fransa, Böyük Britaniya, İtaliya, İspaniya və bir sıra başqa ölkələr üçün səciyyəvi haldır. Üç qrup: inkişaf etmiş, inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrin cari əməliyyatlar hesabları üzrə tədiyyə balanslarının vəziyyətinin müqayisəli göstəriciləri

ümumiləşdimıələr üçün daha böyük maraq doğurur. 5.2 və 5.3 cədvəllərinin məlumatlarından aşağıdakı nəticələrə gəlmək olar:

Birincisi, 2000-2008-ci illəri əhatə edən uzun dövr ərzində, yəni ümumdünya böhranının baş verməsindən əvvəl inkişaf etmiş ölkələrin tədiyyə balansı təqribən 707,9 milyard dollar məbləğində mənfi saldo olmuşdujr.

İkincisi, həmin illərdə inkişaf etməkdə olan ölkələrin tədiyyə balansı daha çox sabitlik və dayanıqlıqla xarakterizə olunur, 2008-ci ildə onların məcmu müsbət saldosu 778,5 milyard dollar təşkil etmişdir.

Üçüncüsü, keçid iqtisadiyyatlı ölkələrdə kiçik məbləğdə, məsələn, 2008-ci ildə (qlobal böhran başlayanadək) 86,4 müsbət saldo səciyyəvi idi.

## 5.3. Xarici ticarətin muitipiikatoru

***Xarici ticarətin multiplikatoru*** - milli gəlirin dəyişməsinin buna səbəb olmuş ixraca olan nisbətidir. Məsələn, ölkənin ixracı 100 milyon dollar artırsa, onun milli gəliri iqtisadiyyatdan pul vəsaitlərinin axını (çıxarılması), yəni əmanətlər, idxal və vergilər 100 milyon dollara çatanadək, həmin məbləğə bölünən kəmiyyət qədər artacaqdır.

*Cədvəl 5.2*

**Dünya ölkələrinin cari hesablar üzrə tədiyyə balansları, 2001-2008-ci illər, milyard do lar**

| Dünya ölkələri | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 |
|---|---|---|---|---|---|---|---|---|---|
| *İnkişaf etmiş ölkələr* | -324,1 | - 282,5 | -287,4 | -319,9 | -337,5 | -522,3 | -603,1 | -551,2 | -702,9 |
| Yaponiya | 119,6 | 87,8 | 112,6 | 136,2 | 172,1 | 165,7 | 170,4 | 211,0 | 157,1 |
| ABŞ | -417,4 | -398,3 | -459,1 | -521,5 | -631,1 | -748,7 | -803,5 | -726,6 | -706,1 |
| Avropa | -28,4 | 20,4 | 64,3 | 86,6 | 143,8 | 89,8 | 61,5 | 17,1 | -103,5 |
| Aİ-15 | -61,0 | -8,2 | 36,8 | 45,3 | 108,1 | 29,9 | 8,6 | 9,2 | -84,2 |
| *Aİ-nin yeni üzvləri* | -22,4 | -18,5 | -19,9 | -27,6 | -42,6 | -37,3 | -57,3 | -92,3 | -112,5 |
| *Keçid iqtisadiyyatı ölkələri* | 47,0 | 31,0 | 25,3 | 30,3 | 56,2 | 80,0 | 87,5 | 56,1 | 86,4 |
| Cənub-Şərqi Avropa | -1.3 | -2,1 | -5,0 | -5,5 | -7,3 | -7,5 | -8,5 | -15,3 | -22,4 |
| MDB | 48,5 | 33,4 | 30,6 | 36,2 | 63,9 | 88,2 | 97,2 | 73,5 | 111,7 |
| *İnkişaf etməkdə olan ölkələr* | 91,4 | 70,5 | 120,1 | 213,4 | 275,0 | 461,6 | 688,3 | 767,7 | 778,5 |
| Yanacağın xalis ixracı | 79,3 | 34,1 | 27,5 | 76,0 | 132,2 | 268,6 | 375,1 | 351,5 | 461,4 |
| Yanacağın xalis idxalı | 12,1 | 36,4 | 92,6 | 137,4 | 142,7 | 193,0 | 313,3 | 416,2 | 317,2 |
| *Latın Amerikası və Karib dənizi hövzəsi ölkələri* | -47,3 | -52,8 | -15,2 | 10,5 | 23,1 | 36,7 | 50,2 | 15,9 | -27,2 |
| Yanacağın xalis ixracı | -14,1 | -21,1 | -0,6 | 12,4 | 14,0 | 26,6 | 34,9 | 18,7 | 31,1 |
| Yanacağın xalis idxalı | -33,2 | -31,7 | -14,6 | -1,9 | 9,0 | 10,1 | 15,3 | -2,8 | -58,3 |
| *Afrika* | 8,6 | -2,1 | -12,6 | -6,4 | 0,5 | 10,7 | 47,6 | 33,4 | 35,1 |
| Yanacağın xalis İxracı | 26,5 | 13,3 | -1,9 | 12,6 | 27,0 | 50,1 | 95,7 | 94,1 | 118,9 |
| Yanacağın xalis idxalı | -17,8 | -15,4 | -10,7 | -19,0 | -26,5 | -39,4 | -48,0 | -60,7 | -83,8 |
| *Qərbi Asiya* | 36,7 | 31,7 | 21,1 | 41,0 | 72,8 | 148,3 | 190,7 | 166,1 | 246,1 |
| Yanacağın xalis ixracı | 50,3 | 32,5 | 24,6 | 49,0 | 88,1 | 170,8 | 217,8 | 205,3 | 292,2 |
| Yanacağın xalis idxalı | -13,6 | -0,8 | -3,5 | -8,1 | -15,3 | -22,4 | -27,1 | -39,2 | -46,1 |
| *Şərqi və Cənubi Asiya* | 93,4 | 93,7 | 126,8 | 168,4 | 178,7 | 265,9 | 399,8 | 552,3 | 524,6 |
| Yanacağın xalis ixracı | 16,6 | 9,4 | 5,4 | 2,0 | 3,1 | 21,1 | 26,7 | 33,3 | 19,2 |
| Yanacağın xalis idxalı | 76,8 | 84,4 | 121,4 | 166,4 | 175,5 | 244,7 | 373,1 | 519,0 | 505,4 |
| *Dünya üzrə qalığı* | -185,6 | -181,0 | -141,9 | -76,2 | -6,2 | 19,2 | 172,7 | 272,6 | 162,0 |

M ə n b ə : IMF, World Economic Outlook, October 2009.

*Cədvəl 5.3*

**İnkişaf etmiş, inkişaf etməkdə olan və keçid iqtisadiyyatı ölkələrinin tədiyyə balanslarının müqayisəli təhlili, 2000- 2008-ci illər, milyard dollar**

| Ölkələr | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 |
|---|---|---|---|---|---|---|---|---|---|
| *İnkişaf etmiş ölkələr* | | | | | | | | | |
| Ticarət balansı | -297,6 | -262,6 | -262,5 | -312,6 | -426,0 | -641,0 | -790,8 | -784,3 | -880,1 |
| Xalis xidmətlər | 82,5 | 77,1 | 97,0 | 115,3 | 168,3 | 206,8 | 278,8 | 386,8 | 429,9 |
| Xalis gəlir və zərər | 27,7 | 40,5 | 18,8 | 145,9 | 123,0 | 154,2 | 146,4 | 132,9 | 72,5 |
| Xalis cari transfertlər | -136,7 | -137,5 | -140,6 | -168,5 | -202,7 | -242,3 | -237,5 | -286,7 | -325,2 |
| Tədiyyə balansının cari hesabları | -324,1 | -282,5 | -287,4 | -319,9 | -337,5 | -522,3 | -603,1 | -551,2 | -702,9 |
| **Yaponiya** | | | | | | | | | |
| Ticarət balansı | 114,93 | 69,17 | 92,46 | 103,99 | 128,46 | 93,85 | 81,12 | 105,09 | 38,43 |
| Xalis xidmətlər | -45,89 | -42,71 | -40,71 | -31,44 | -34,25 | -24,08 | -18,17 | -21,20 | -20,81 |
| Xalis gəlir və zərər | 60,40 | 69,22 | 65,78 | 71,21 | 85,72 | 103,50 | 118,17 | 138,63 | 152,56 |
| Xalis cari transfertlər | -9,83 | -7,88 | -4,92 | -7,51 | -7,85 | -7,58 | -10,68 | -11,55 | -13,10 |
| Tədiyyə balansının cari hesabları | 119,6 | 87,8 | 112,6 | 136,2 | 172,1 | 165,7 | 170,4 | 211,0 | 157,1 |
| **ABŞ** | | | | | | | | | |
| Ticarət balansı | -454,69 | -429,90 | -482,83 | -549,01 | -671,83 | -790,85 | -847,26 | -830,99 | -840,25 |
| Xalis xidmətlər | 74,85 | 64,39 | 61,23 | 53,97 | 61,84 | 75,58 | 86,90 | 129,57 | 144,32 |
| Xalis gəlir və zərər | 21,05 | 31,72 | 27,41 | 45,30 | 67,22 | 72,36 | 48,08 | 90,85 | 118,23 |
| Xalis cari transfertlər | -58,65 | -64,48 | -64,95 | -71,80 | -88,36 | -105,77 | -91,27 | -116,00 | -128,37 |
| Tədiyyə balansının cari hesabları | -417,4 | -398,3 | -459,1 | -521,5 | -631,1 | -748,7 | -803,5 | -726,6 | -706,1 |
| **Avropa** | | | | | | | | | |
| Ticarət balansı | 1,4 | 49,1 | 96,5 | 107,7 | 86,1 | 20,8 | -56,5 | -83,4 | -116,9 |
| Xalis xidmətlər | 56,6 | 59,6 | 79,2 | 98,1 | 147,7 | 164,3 | 221,2 | 295,3 | 331,3 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Xalis gəlir və zərər | *-17,2* | -22,0 | -40,5 | -30,1 | 15,9 | 32,2 | 31,1 | -36,7 | -134,9 |
| Xalis cari transfertlər | *-69,2* | -66,3 | -70,8 | -89,1 | -105,9 | -127,5 | -134,4 | -157,4 | -183,0 |
| Tədiyyə balansının cari hesabları | -28,4 | 20,4 | 64,3 | 86,6 | 143,8 | 89,8 | 61,5 | 17,7 | -103,5 |
| **Aİ-15** | | | | | | | | | |
| Ticarət balansı | 8,2 | 52,9 | 95,2 | 106,8 | 83,1 | 8,3 | -63,2 | -72,0 | -123,5 |
| Xalis xidmətlər | 28,3 | 32,9 | 52,6 | 67,7 | 113,3 | 123,6 | 171,3 | 229,8 | 251,5 |
| Xalis gəlir və zərər | -28,5 | -28,2 | -40,7 | -38,9 | 18,7 | 23,2 | 36,1 | 11,2 | -30,1 |
| Xalis cari transfertlər | -69,0 | -65,8 | -70,4 | -90,3 | -107,1 | -125,3 | -135,6 | -159,8 | -182,2 |
| Tədiyyə balansının cari hesabları | -61,0 | -8,2 | 36,8 | 45,3 | 108,1 | 29,9 | 8,6 | 9,2 | -84,2 |
| **Aİ-nin yeni üzvləri** | | | | | | | | | |
| Ticarət balansı | -29,8 | -26,7 | -25,5 | -29,1 | -34,3 | -35,2 | -51,0 | -72,4 | -86,6 |
| Xalis xidmətlər | 9,4 | 9,7 | 8,8 | 8,3 | 9,4 | 13,0 | 15,5 | 21,9 | 26,0 |
| Xalis gəlir və zərər | -7,3 | -7,9 | -10,9 | -16,6 | -28,1 | -26,5 | -35,3 | -56,5 | -67,5 |
| Xalis cari transfertlər | 5,2 | 6,3 | 7,6 | 9,8 | 10,3 | 11,5 | 13,16 | 14,8 | 15,6 |
| Tədiyyə balansının cari hesabları | -22,4 | -18,5 | -19,9 | -27,6 | -42,6 | 37,3 | -57,3 | -92,3 | -112,5 |
| *Keçid iqtisadiyyatı ölkələri* | | | | | | | | | |
| Ticarət balansı | 53,7 | 37,8 | 34,4 | 43,1 | 71,3 | 106,6 | 128,5 | 110,2 | 166,4 |
| Xalis xidmətlər | -4,3 | -7,2 | -8,3 | -7,1 | -10,7 | -12,7 | 11,8 | -18,4 | -22,0 |
| Xalis gəlir və zərər | -9,6 | -6,8 | -8,9 | -16,3 | -17,1 | -28,5 | -44,9 | -52,2 | -79,4 |
| Xalis cari transfertlər | 7,2 | 7,2 | 8,2 | 10,6 | 12,8 | 14,5 | 15,8 | 16,5 | 21,5 |
| Tədiyyə balansının cari hesabları | 47,0 | 31,0 | 25,3 | 30,3 | 56,2 | 80,0 | 87,5 | 56,1 | 86,4 |
| **Cənub-Şərqi Avropa** | | | | | | | | | |
| Ticarət balansı | -9,0 | -10,9 | -14,1 | -18,7 | -22,6 | -23,1 | -25,5 | -34,0 | -42,3 |
| Xalis xidmətlər | 2,6 | 3,5 | 3,5 | 6,2 | 6,5 | 7,1 | 8,0 | 9,7 | 11,7 |
| Xalis gəlir və zərər | 0,2 | 0,1 | 0,0 | -0,3 | -0,3 | -1,0 | *-1,2* | -1,9 | -3,2 |
| Xalis cari transfertlər | 4,9 | 5,2 | 5,6 | 7,3 | 9,1 | 9,5 | 10,1 | 10,9 | 11,4 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Tədiyyə balansının cari hesabları | -1,3 | -2,1 | -5,0 | -5,5 | -7,3 | -7,5 | -8,5 | -15,3 | -22,4 |
| **MDB** | | | | | | | | | |
| Ticarət balansı | 63,2 | 49,2 | 49,0 | 62,4 | 94,8 | 130,9 | 156,0 | 147,2 | 212,5 |
| Xalis xidmətlər | -7,0 | -10,8 | -11,9 | -13,4 | -17,3 | -19,8 | -20,0 | -28,3 | -33,7 |
| Xalis gəlir və zərər | -9,7 | -6,8 | -8,9 | -16,0 | -16,9 | -27,6 | -43,9 | +50,3 | -76,1 |
| Xalis cari transfertlər | 2,1 | 1,8 | 2,3 | 3,1 | 3,3 | 4,6 | 5,1 | 4,9 | 9,0 |
| Tədiyyə balansının cari hesabları | 48,5 | 33,4 | 30,6 | 36,2 | , 63,9 | 88,2 | 97,2 | 73,5 | 111,7 |
| *İnkişaf etməkdə olan ölkələr* | | | | | | | | | |
| Ticarət balansı | 199,6 | 171,9 | 214,6 | 285,5 | 343,0 | 525,5 | 711,0 | 772,3 | 811,4 |
| Xalis xidmətlər | -50,8 | -57,1 | -57,0 | -56,4 | -50,1 | -59,9 | -68,3 | -75,9 | -109,2 |
| Xalis gəlir və zərər | -117,4 | -111,2 | -115,9 | -117,6 | -134,9 | -154,3 | -140,3 | -140,9 | -156,4 |
| Xalis cari transfertlər | 60,1 | 66,9 | 78,5 | 101,8 | 117,0 | 150,2 | 186,0 | 212,2 | 232,7 |
| Tədiyyə balansının cari hesabları | 91,4 | 70,5 | 120,1 | 213,4 | 275,0 | 461,6 | 688,3 | 767,7 | 778,5 |
| **Latın Amerikası və Karib dənizi hövzəsi ölkələri** | | | | | | | | | |
| Ticarət balansı | 1,6 | -5,5 | 21,9 | 43,8 | 59,3 | 82,2 | 101,4 | 72,1 | 45,6 |
| Xalis xidmətlər | -14,3 | -17,6 | -12,7 | -11,9 | -12,4 | -16,8 | -17,7 | -23,4 | -28,9 |
| Xalis gəlir və zərər | -56,0 | -56,0 | -54,1 | -59,1 | -68,5 | -81,8 | -97,3 | -98,7 | -109,4 |
| Xalis cari transfertlər | 21,5 | 26,3 | 29,8 | 37,7 | 44,8 | 53,1 | 63,8 | 65,9 | 65,6 |
| Tədiyyə balansının cari hesabları | -47,3 | -52,8 | -15,2 | 10,5 | 23,1 | 36,7 | 50,2 | 15,9 | -27,2 |
| **Afrika** | | | | | | | | | |
| Ticarət balansı | 20,0 | 606 | -0,6 | 7,3 | 19,5 | 38,0 | 56,2 | 56,5 | 75,1 |
| Xalis xidmətlər | -5,4 | -5,7 | -7,8 | -7,6 | -8,9 | -13,1 | -14,4 | -24,5 | -37,5 |
| Xalis gəlir və zərər | -21,7 | -19,3 | -21,7 | -26,8 | -35,2 | -44,8 | -41,8 | -52,7 | -63,7 |
| Xalis cari transfertlər | 15,7 | 16,2 | 17,5 | 20,8 | 25,0 | 30,7 | 47,7 | 54,0 | 61,2 |
| Tədiyyə balansının cari hesabları | 8,6 | -2,1 | -12,6 | -6,4 | 0,5 | 10,7 | 47,6 | 33,4 | 35,1 |
| **Qərbi Asiya** | | | | | | | | | |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Ticarət balansı | 67,5 | 64,5 | 61,9 | 83,4 | 114,2 | 187,2 | 238,2 | 229,8 | 350,5 |
| Xalis xidmətlər | -19,9 | -20,6 | -23,4 | -21,8 | -24,6 | -27,9 | -46,0 | -61,0 | -85,1 |
| Xalis gəlir və zərər | 2,7 | -2,2 | -6,4 | -9,3 | -5,3 | -3,0 | 11,6 | 16,6 | 8,7 |
| Xalis cari transfertlər | -8,2 | -9,9 | -11,0 | -11,4 | -11,5 | -8,0 | -13,2 | -19,2 | -28,0 |
| Tədiyyə balansının cari hesablan | 36,7 | 31,7 | 21,1 | 41,0 | 72,8 | 148,3 | 190,7 | 166,1 | 246,1 |
| **Şərqi Asiya** | | | | | | | | | |
| Ticarət balansı | 119,7 | 117,6 | 139,2 | 166,3 | 180,3 | 255,4 | 366,8 | 474,3 | 450,8 |
| Xalis xidmətlər | -11,9 | -13,9 | -13,9 | -16,9 | -10,8 | -12,7 | -6,2 | 9,6 | 12,7 |
| Xalis gəlir və zərər | -29,5 | -27,2 | -26,4 | -14,4 | -18,6 | -14,6 | -4,6 | 1,5 | 17,4 |
| Xalis cari transfertlər | 9,0 | 9,8 | 14,3 | 19,5 | 24,9 | 33,4 | 38,2 | 51,5 | 63,3 |
| Tədiyyə balansının cari hesabları | 87,3 | 86,4 | 113,2 | 154,5 | 175,8 | 261,5 | 394,3 | 536,9 | 544,1 |
| **Cənubi Asiya** | | | | | | | | | |
| Ticarət balansı | -9,2 | -11,3 | -7,8 | -15,3 | -30,3 | -37,2 | -51,6 | -60,5 | -110,6 |
| Xalis xidmətlər | 0,8 | 0,8 | 0,8 | 1,9 | 6,6 | 10,6 | 15,9 | 23,4 | 29,7 |
| Xalis gəlir və zərər | -7,6 | -6,6 | -7,3 | -7,9 | -7,2 | -10,0 | -8,2 | -7,5 | -9,3 |
| Xalis cari transfertlər | 22,1 | 24,6 | 27,9 | 35,2 | 33,8 | 41,0 | 49,5 | 60,0 | 70,6 |
| Tədiyyə balansının cari hesabları | 6,1 | 7,4 | 13,7 | 13,9 | 2,9 | 4,4 | 5,6 | 15,4 | -19,6 |
| **Dünya üzrə qalıq** | | | | | | | | | |
| Ticarət balansı | -44,3 | -52,9 | -13,6 | 16,0 | -11,7 | -8,9 | 48,6 | 98,2 | 97,7 |
| Xalis xidmətlər | 27,4 | 12,8 | 31,6 | 51,7 | 107,5 | 134,2 | 198,7 | 292,5 | 298,7 |
| Xalis gəlir və zərər | -99,3 | -77,6 | -106,0 | -87,9 | -29,1 | -28,5 | -38,8 | -60,2 | -163,3 |
| Xalis cari transfertlər | -69,5 | -63,3 | -53,9 | -56,0 | -73,0 | -77,6 | -35,8 | -58,0 | -71,1 |
| Tədiyyə balansının cari hesabları | -185,6 | -181,0 | -141,9 | -76,2 | -6,2 | 19,2 | 172,7 | 272,6 | 162,0 |

M ə n b ə : müəllif tərəfindən beynəlxalq statistik məlumatlar əsasında tərtib edilmişdir.

Xarici ticarətin multiplikatoru milli gəlirə multiplikativ təsir göstərən, gəyişkən kəmiyyəti ixrac olan adi multiplikatordur. Multiplikatorun düsturu aşağıdakı şəkildədir:

$$K = \frac{1}{1 - MPC}$$

Burada K - multiplikator; MPC - yerli malların istehlakma meylin son həddidir.

Eyni zamanda bu multiplikatoru məxrəcində maliyyə vəsaitlərinin ölkədən axınına yönəlmiş meyillərin son həddini ifadə edən kəmiyyət kimi də nəzərdən keçirmək olar:

$$K = MPS - MPPT - MPM$$

Burada MPS - əmanətlərə meylin son həddi; MPPT - vergilərin ödənilməsinə meylin son həddi, yəni artmış gəlirdən vergilərin ödənilməsinə sərf olunan hissə; MPM - idxala meylin son həddidir.

Xarici ticarətin multiplikatoru tədiyyə balansının tarazlaşdırılması mexanizmində müəyyən rol oynayır. Bir tərəfdən, tədiyyə balansını yaxşılaşdıran ixracın artması bu müsbət balansın qiymətini endinnəyə səy göstərən qüvvələri formalaşdırır (multiplikator gəlirləri çoxaltdıqca, idxalın həcminin artmasım stimullaşdırır). Digər tərəfdən, idxalı ixracından daim çox olan ölkələrdə yerli malların «sıxışdırılması» baş verir (tədiyyə balansının pisləşməsindən əlavə olaraq). Buna görə də həmin məsələdə milli iqtisadi siyasətin əsas vəzifəsi ixracla idxal arasında lazımi balansın əıdə olunması, əhalinin maraqlarının təmin edilməsidir.

## Xülasə

• Tədiyyə balansı və onun göstəriciləri (pul vəsaitlərinin mənbələri, malların və xidmətlərin ixracı, kapitalın ölkəyə axını, malların və xidmətlərin idxalı, kapitalın ölkədən axını və s.) ölkə iqtisadiyyatının vəziyyətinin dinamikasını il ərzində və daha qısa müddət (bir ay) kəsiyində qiymətləndimıəyə, həcm və dəyər göstəricilərində milli iqtisadiyyatın istənilən sektorunun artımını gönuəyə və buna müvafiq olaraq, fasiləsiz aparılan təhlillərin nəticələrindən dövlətin iqtisadi siyasətində istifadə etməyə imkan verir.

• Cari əməliyyatlar üzrə balansın fonnalaşmasmda əsas rol oynadığına görə, xarici ticarət balansı tədiyyə balansına bütövlükdə həlledici təsir göstərir.

• Mənfi saldonun ildən-ilə toplanaraq artması ölkənin xarici borcunu formalaşdırır.

• Tədiyyə balansı müasir ölkənin maliyyə-iqtisadi sahədə universal uçot aləti olmaqla, konkret ildə onun ümumi vəziyyətinin əsas parametrlərini obyektiv qiymətləndirməyə, müxtəlif sosial-iqtisadi, istehsal, texniki vəzifələrini necə yerinə yetirdiyini hesablamağa imkan verir, dövlətin fəali}ryət göstənnəsinə zəmin yaradır.

• Eyni zamanda bu uçot aləti ölkənin dünya iqtisadiyyatı və dünya bazarı sistemində qarşılıqlı əlaqələrini kəmiyyət baxımından müəyyənləşdirməyə, bu əlaqələrin və münasibətlərin xarakterini (keyfi3^ətini) qiymətləndirməyə imkan verir. Bu cəhət ölkənin xarici iqtisadi əlaqələrinin inkişafının, habelə ümumilikdə dünya iqtisadi}^atı və onun ayrı-ayrı istiqamətlərinin (ümumdünya tiearəti və maliyyəsi, birbaşa xarici investisiyaların çoxalması və s.) iqtisadi artımının proqnozlaşdırılması üçün xüsusi əhəmiyyət kəsb edir.

• Tədiyyə balansı milli iqtisadiyyatın dünya iqtisadiyyatı ilə qovuşmasının mühüm alətidir. Bu qovuşmanın praktikada necə baş verdiyinin dərk olunmasının vacibliyi buradan irəli gəlir. Ölkənin tədiyyə balansı müəyyən dövr ərzində onun xarici iqtisadi əməliyyatlarının və müqavilələrinin nəticələri haqqında dürüst informasiya verir. O, milli və beynəlxalq valyutalarla sıx surətdə bağlıdır və dövlətin maliyyə siyasətinin ən «həssas» elementlərindən biridir. Müqayisəli təhlildə ayrıca götürülən ölkənin (ölkələr qrupunun) ümumi maliyyə vəziyyətini müəyyənləşdirməyə imkan verən «Cari əməliyyatların balansı (hesabı)» xüsusi rol oynayır. Qeyd edək ki, ticarət balansının yüksək və daim artan kəsiri istənilən ölkənin iqtisadiyyatı üçün ciddi təhlükə yaradır. Bu səbəbdən dövlətin daxili və xarici iqtisadi siyasətinin ən mühüm vəzifələrindən biri tədiyyə balansını müsbət saldo ilə yekunlaşdınnaqdır. Bu prinsip hər bir şirkətin fəaliyyətində də aktualdır. Göstərilən prinsipin pozulması gec-tez faciəvi nəticələrə gətirib çıxarır və bunu əksər ölkələrdə çoxlu sayda şirkəti və bankı məhv etmiş qlobal böhran əyani sübut etmişdir.

## Yoxlama sualları

1. Tədiyyə balansı nədir? O, milli iqtisadiyyatda hansı vəzifələri yerinə yetirməlidir? Onun məzmunu nədən ibarətdir?
2. Tədiyyə balansının maddələrində hansı müqavilələr nəzərə almır?
3. Tədiyyə balansında «rezident» və «qeyri-rezident anlayışlarının necə başa düşüldüyünü izah edin.
4. Tədiyyə balansında hansı əsas prinsip tətbiq olunur?
5. Tədiyyə balansının məlumatlarından hansı məqsədlər üçün istifadə edilir?
6. «Cari tədiyyə balansı» yaxud «cari əməliyyatlar üzrə balans» anlayışlarının məzmununu izah edin.
7. Kapitalların hərəkəti balansı necə formalaşır?
8. Bazis balansı necə formalaşır?
9. Rəsmi ehtiyatların açıqlamasını verin. Onların mənası nədir?
10. Tədiyyə balansının üç tərkib hissəsi hansılardır?
11. Tədiyyə balansının standart modelinin və onun strukturunun izahını verin.
12. Ölkələrin 5.2-ci cədvəldə verilən cari tədiyyə balanslarının təhlili nəticəsində siz hansı qənaətə gəlirsiniz?
13. Xarici ticarətin multiplikatoru tədiyyə balansında hansı rolu oynayır?

## Referatlarm mövzuları

1. Tədiyyə balansının mahiyyəti və məzmunu
2. ABŞ və Rusiya Federasiyasının 2011-ci ildə tədiyyə balanslarının müqayisəli təhlili

# Fəsil 6

# MÜASİR BEYNƏLXALQ TİCARƏT: NƏZƏRİYYƏ VƏ İNKİŞAF

## 6.1. Beynəlxalq ticarətin nəzəriyyəsi

Beynəlxalq ticarət anlayışı. ***Beynəlxalq ticarət*** - sözün geniş mənasında ölkələrin milli iqtisadiyyatları tərəfindən istehsal edilmiş malların və xidmətlərin dünya bazarlarında müxtəlif müqavilələrin predmeti olan hissəsidir. Beynəlxalq ticarət həmçinin, kapitalın, işçi qüvvəsinin, əqli mülkiyyətin hərəkətinin müxtəlif seqmentlərini əhatə edir.

***Ölkənin xarici ticarəti*** - ölkədə istehsal edilən əmtəənin satılmaq üçün onun ərazisindən kənara çıxarılan hissəsi, habelə ölkənin xaricdən gətirdiyi maddi və qeyri-maddi elementlərdir.

İqtisadi nəzəriyyə həmişə xarici ticarəti mənfəət normasının «sönməsinin» onun aşağı düşməsinə yönəlmiş təbii meylə əks-təsir göstərən amil kimi nəzərdən keçirmişdir. Bu meyil hələ XVIII-XIX əsrlərdə klassiklər tərəfindən aşkar olunsa da, öz əhəmiyyətini saxlamaqdadır. Korporasiyalar xaricdəki nisbətən ucuz işçi qüvvəsindən, xammaldan, bazarlardan yararlanaraq, istehsal xərclərini azaldır, əməliyyatların mənfəətliyini yüksəldir. Firmalar əmtəə istehsalını artıq təkcə milli və yerli bazarlara deyil, həmçinin, dünya bazarlarına istiqamətləndirir, xərclərini və əsas kapital üzrə məsrəflərini azaldaraq, kütləvi və iri seriyalı istehsala keçirlər. Xarici ticarət daimi kapitalın bir sıra elementlərini, habelə dəyişkən kapitalın çevrildiyi zəruri həyat vasitələrini ucuzlaş- dıraraq, mənfəət nonnasmın yüksəlməsinə (əlavə dəyər nonnasım artırdığına görə) şərait yaradır və daimi kapitalın maya dəyərini azaldır. Bununla da, xarici ticarət istehsalın miqyasını artırmağa imkan verir. Bunun nəticəsində inkişaf etmiş ölkələrdən olan istehsalçı-ixracatçılar öz mallarını nisbətən zəif inkişaf etmiş ölkələrin bazarlarında satmaq sayəsində əlavə mənfəət əldə edirlər.

***Merkantilizm nəzəriyyəsi. Ölkələr hir-biri ilə niyə ticarət edir?*** Bu sual nəzəriyyəçi iqtisadçılar tərəfindən XVll əsrin sonlarında - XVIII əsrin əvvəllərində iqtisadi təfəkkürün xarici ticarət məsələlərinə böyük diqqət yetirməyə başlayan ilk məktəblərinin yaranması ilə eyni zamanda

qoyulmuşdur. Bu məktəblər hələ Böyük Coğrafi Kəşflər dövrünün ilkin mərhələsində və Avropanın birinci sənaye inqilabı yoluna qədəm qoyduğu vaxt, bütün dünyanın dəniz yolları vasitəsilə birləşməsi nəticəsində iqtisadi məsələlərin, o cümlədən yeni yaranan ümumdünya ticarətinin nəzəri ümumiləşdirilməsi və təhlili zəruriliyi meydana çıxdıqda yaranmışdır.

Əvvəl qeyd etdiyimiz kimi, həmin dövrdə qızılın əhəmiyyəti həddən ziyadə böyük idi. Bu qiymətli metal müstəmləkəçi dövlətlərin daxili və xarici siyasətinin həyata keçirilməsində pul bazası rolunu oynayaraq, bilavasitə pul qismində istifadə olunurdu. Həmin dövrdə qızıl üzərində inhisar mərkəzləşdirilmiş Avropa dövlətlərinin möhkəmlənməsinə xidmət etdiyinə görə, hökmdarlar feodal pərakəndəliyinə qarşı mübarizədə özlərinin dayağı kimi tacirləri və yeni yaranan şəhər burjuaziyasını dəstəkləyir, onlara dənizaşırı müstəmləkələri ram etməkdə yardım göstərir və bu siyasəti metropoliyalardakı mövqelərinin gücləndirilməsi amili kimi nəzərdən keçirirdilər. Belə şərait xarici ticarətin və ekspansiyanın, müstəmləkələrin zəbtinin səmərəliliyini əsaslandıran iqtisadi nəzəriyyələrin formalaşmasına münbit zəmin yaradırdı. Eyni zamanda bu yeni nəzəriyyələr xarici ticarətin istinad etdiyi, təşəkkül tapmağa başlayan sənaye istehsalının *əmtəə xarakterinə* əsaslanırdı. Bu məsələləri merkantilizmin nəzəriyyəçiləri olan və bir çox hallarda mühüm dövlət vəzifələrini tutan Avropa mütəfəkkirləri, o cümlədən Tomas Men, Jan Batist Kolber, Vilyam Petti və başqaları qarşıya qoymuş və həll etmək cəhdi göstərmişlər. Merkantilizm mövqeyindən iqtisadi sistem bir-biri ilə qarşılıqlı əlaqədə olan üç hissədən: *istehsal sektorundan, kənd təsərrüfatı sektorundan, xarici müstəmləkələrdən* ibarətdir. Tacirlər iqtisadi sistemin ən vacib sosial qrupu, əmək istehsalın əsas amili kimi nəzərdən keçirilirdi. Merkantilistlərdə zənginliyin amili kimi qızıl və gümüş çıxış edirdi. Bu nəzəriyyəyə görə, məhz onlar var-dövlətin meyarı və hesablaşmalar üçün pul nişanı idi.

***Merkantilistlərin xarici ticarət prinsipləri.*** Xarici ticarətin əsas prinsipləri merkantilizm ehkamına əsaslanırdı və buna müvafiq olaraq dövlət:

- Xarici ticarət üzərində inhisan təmin etməlidir;
- Müəyyən şirkətlərə (məsələn, Qudzon körfəzi şirkətinə, Ost-Hindistan şirkətinə) dünyanın müxtəlif regionlarında xarici ticarət apannaq hüququ verməlidir (yaxud bundan imtina etməlidir);
- İxrac subsidiyalarının verilməsi, idxala görə gömrük rüsumları kimi alətlərdən istifadə etməlidir;

• Müsbət ticarət saldosunu təmin etməlidir, çünki yalnız bu halda hökumətin ölkəyə qızıl və gümüşün sabit axınını saxlamaq imkanı yaranır;

• Tariflərin, kvotaların və inzibati təsirin başqa alətlərinin tətbiq olunması (ticarətdə müsbət saldo təmin etmək üçün) yolu ilə sərt dövlət tənzimlənməsini həyata keçinnəlidir;

• Xammalın idxalını qadağan (müvafiq xammal ölkədə olduqda) və əksinə, onun rüsumsuz idxalını (həmin xammal ölkədə olmadıqda) təmin etməlidir. Bu eür yanaşma, qızıl ehtiyatlarının toplanılması ilə yanaşı, hazır məhsulun ixrae qiymətlərini aşağı səviyyədə saxlamalıdır;

• Öz müstəmləkələrinin başqa ölkələrlə hər hansı tiearətini qadağan etməlidir.

Beləliklə, sərt proteksionizm dominantlıq təşkil edirdi. Qeyd olunmalıdır ki, merkantilistlər iqtisadi nəzəriyyənin əsaslarının inkişafına böyük töhfə verməklə yanaşı, ümumdünya ticarəti məsələlərini, proteksionizm siyasətinin mexanizmlərini işləyib hazırlamış, ***onu tədiyyə balansı, ticarətdə müsbət və mənfi saldo*** kimi anlayışlarla zənginləşdirmişdir. Təqribən iki əsr ərzində merkantilistlərin nəzəriyyələri dünyanın dənizə çıxışı olan böyük dövlətlərinin təsərrüfat praktikasında hökmran mövqe tutmuşdur. Eyni zamanda onların nəzəri ideyaları bütün dünyanın ticarətdə məhdudiyyət normalarının o dərəcədə mürəkkəb toru ilə bürümüdü ki, dünya həmin buxovdan yalnız XX əsrin ikinci yarısında azad ola bilmişdir.

Kapitalizm inkişaf etdikcə, merkantilizmin bir sıra müddəalan təsərrüfata, özəl sənaye müəssisələrinin fəaliyyətinə dövlət müdaxiləsinin izafi «merkantilizmi» (həddən artıq yüksək səviyyədə) səbəbindən milli iqtisadiyyatın tərəqqisinə və xariei iqtisadi əlaqələrin qurulmasına, sadəcə, mane olurdu. Yeni sahibkarlar nəslinin bir çox nümayəndələri dövlətin iqtisadiyyata və xarici ticarətə müdaxiləsini inkar edərək, ticarət azadlığı (free trade), daha geniş götürüldükdə isə laissez faire prinsipləri uğrunda mübarizə aparırdı.

***XVIII əsrin ikinci yarısında - XIX əsrdə dünya təsərrüfatı və ticarət.*** Tiearət-sənaye burjuaziyasının möhkəmlənməsi, bütün qitələri əhatə edən və dünya bazarını yaradan xarici ticarət əlaqələrinin coşqun inkişafı nəzəri-metodoloji əsaslandırma tələb edirdi. Bu rolu həmin dövrün görkəmli iqtisadçıları müvəffəqiyyətlə yerinə yetirdilər və ingilis iqtisadçı-alimi A.Smitin adı öncüllər sırasında çəkilir. Həmin dövrün İngiltərəsi nə cür idi?

XVIII əsrdə və XIX əsrin birinci yarısında Afrika ərazisinin 80,8%-i, Amerikanın 27,5%-i, Asiyanın 51,5%-i, Okeaniyanın 56,7%-i, Avstraliyanın 100%-i Avropa dövlətlərinə və ABŞ-a mənsub idi. İngiltərənin müstəmləkələrinin ərazisi 22,5 milyon kv. km (metropoliyanın öz ərazisindən 75 dəfə çox), əhalisi isə 252 milyon nəfər (metropoliyadan 6 dəfə çox) təşkil edirdi. İngiltərənin ixracının 30%-i müstəmləkələrin payına düşürdü. 1850-ci ildə ümumdünya ticarətinin 14,5 milyard markalıq ümumi dövriyyəsinin 5,24 milyard markası İngiltərənin (müstəmləkələrlə birgə), ümumilikdə 4,9 milyard markası isə Fransa, Almaniya və ABŞ-ın payına düşürdü. 1870-ci ildə 37,5 milyard marka ümumi dövriyyədə İngiltərənin payı 14 milyard marka təşkil edir, göstərilən üç ölkənin birgə payı isə çətinliklə 12 milyard markaya çatırdı. Sözsüz ki, həmin dövrdə İngiltərə ən iri müstəmləkəçi dövlət idi və onun imperiyasının üzərində «Günəş heç vaxt batmırdı».

İngiltərənin dünyada ticarət-sənaye hegemonluğunun mühüm elementi kreditin sürətlə inkişaf etməsi olmuşdur. İngiltərənin dünya sənayesində və ticarətində dominant mövqeyi böyük məbləğdə yığımla təmin olunmuşdu və bu, kreditin inkişafı üçün şərait yaradırdı. XIX əsrdə London xarici dövlətlərin istiqrazlarının yerləşdirildiyi əsas maliyyə mərkəzinə çevrilmişdi. İngilis kapitalizmi dünya fabrikantı, taciri, malların daşıyıcısı və bankiri rolunu oynayırdı. XIX əsrin ortalarında ölkə dünya sənaye məhsulunun təxminən yarısını istehsal edirdi və burada bir-birinin ardınca sənaye inqilabları baş verirdi, hərçənd başqa ölkələr bu məsələdə xeyli geridə qalırdı. İngiltərənin ticarət-sənaye hegemonluğuna Britaniya monarxiyasının iqtisadi siyasəti şərait yaradırdı. 1840-cı illərədək İngiltərədə xarici mallara yüksək gömrük rüsumu tətbiq edilirdi. İngilis sənayesi xarici rəqabət qarşısında qorxudan xilas olduqda isə burjuaziya ticarətə fritrederçilik {*ingiliscə:* free trade - azad ticarət) adlandırılan hədsiz sərbəstlik verildiyini bəyan etdi. Fritrederçiliyin ən əsas aktlarından biri 1846-cı ildə çörək qanunlarının ləğvi oldu.

***Fritrederçilik və Adam Smitin nəzəriyyəsi.*** Smitin azad ticarət konsepsiyasının yaxud fritrederçiliyin məzmun tərəfi Bö}4ik Britaniyanın xarici ticarətində idxal olunan, demək olar ki, bütün malların gömrük rüsumlarından azad edilməsinə və bunun müqabilində başqa ölkələrin də ingilis mallarının idxalında gömrük rüsumlarının ləğvi yaxud əhəmiyyətli dərəcədə aşağı salınmasına hesablanmışdı. Fritrederçilik əsasında İngiltərə 1860-cı illərdə Fransa, Belçika, İtaliya, Avstriya, İsveç və başqa ölkələrlə bir

sıra ikitərəfli müqavilələr bağlamışdı. Fritrederçilik dünya sənayesində, ticarətində, kreditdə, dəniz daşımalarında İngiltərənin dominant mövqelərini möhkəmləndirirdi.

Sonrakı nəşrlərdə «Xalqların sərvəti» adlandırılan «Xalqların sərvətinin təbiətinin və səbəblərinin tədqiqi» kitabında (1176-cı il) A.Smit merkantilistlərin əsas ehkamlarını, o cümlədən ölkənin sərvətinin cəvahiratdan asılı olduğunu tənqid etmişdir. Smitə görə, bu cür yanaşma, ölkələr üçün inkişafda geridə qalmaq təhlükəsi yaradır, çünki sərvət cəvahiratda deyil, istehsalın torpaq, əmək və kapital kimi inkişaf etmiş amillərindədir. Smit *bir ölkənin əmtəəni daha səmərəli üsulla istehsal edərək, bu əsasda digər ölkələrlə azad ticarət vasitəsilə reallaşdırüan mütləq üstünlük qazanması* müddəasına əsaslanan *mütləq üstünlüklər nəzəriyyəsini* işləyib hazırlamışdır.

Fritrederçilik üçün ənənəvi olan bu ideyaya istinad edərək, Smit bütün başqa keyfiyyətləri bərabər olduğu halda, xarici mallar ölkədə buraxılanlardan ucuz qiymətə satıldıqda, istənilən ölkənin vətəndaşları üçün həmin xarici malları almağın daha sərfəli olması fikrini əsaslandırmışdır. Smitə görə, iqtisadi artımın əsasını malların, pulun və adamların sərbəst yerdəyişməsini tələb edən əmək bölgüsü təşkil edir. Buradan *ticarət azadlığının zəruriliyi* (sərbəst yaxud liberal ticarətə nail olmaq üçün *onun liberallaşdırılması)* barədə nəticə çıxarılır. Smitə əsasən, ticarət sərbəstləşdirildikdə, ölkələrin ixtisaslaşması güclənəcək və buna müvafiq olaraq əmək məhsuldarlığı artacaq, çünki: a) müəyyən növ əmtəəlik məhsulun buraxılmasında ixtisaslaşan işçi qüvvəsi yüksək peşəkarlıq və təcrübə qazanır; b) səmərəlilik eynicinsli məhsulun uzun müddət ərzində buraxılması sayəsində yüksələcək, bu isə, yeni, daha məhsuldar iş metodlarının meydana çıxmasını stimullaşdıracaq, müəssisələrin bir əmtəəlik məhsul növündən digərinin istehsalına keçməsi zamanı vaxt itkilərini aradan qaldıracaq və s. Ölkənin «ixtisaslaşması» məsələsinə gəldikdə isə Smit bu məsələnin müstəqil olaraq optimal həllini tapa biləcək dünya bazarının qüdrətinə arxalanırdı.

Smit iddia edirdi ki, ölkə *məhsulun buraxılışında müəyyən, məsələn, iqlim, təbiət, torpaq qatı sayəsində «təbii üstünlüklərə»* malik ola bilər, bu isə, özlüyündə əməyin «təbii» bölgüsü üçün şəraitin mövcudluğu deməkdir. Əvvəlki əsrlərdə yüksək qiymətləndirilən Şərq ədviyyatı və tropik bitkilər çox spesifik əmtəələr olmaqla, onları istehsal, ixrac edən konkret dövlətlərlə sıx əlaqəlidir və bu, həmin ölkələrə «təbii» üstünlüklər təmin edir. Yerin təkində

neft və qazın, dəmir filizinin, qızıl və almazların və s. mövcudluğu bu təbii sərvətlərə malik olan ölkələrin danılmaz «təbii» üstünlükləridir. Limanlara (xüsusilə də donmayan dənizlərdə və okeanlarda), rahat körfəzlərə yaxınlıq ümumdünya ticarətində mütləq üstünlük elementləri yaradan «təbii» üstünlüklər kateqoriyasmdandır. Bunlar, sadəcə olaraq, «üstünlük» deyil, bacarıqla istifadə olunduğu təqdirdə inkişafın şərtləri və resurslarıdır.

Smitə görə, ölkə elm və texnikanın nailiyyətlərindən yararlanmaqla, istehsalları öz ərazisində uğurla yerləşdirirsə, *qazanılmış üstünliikbrə* müvəffəq ola bilər. Smitin bu ideyasının düzgünlüyünün müasir dövrdə sübutu kimi, Yaponiyanın idxal olunan xammal hesabına işləyib, dünya bazarlarına yüksək keyfiyyətli polad məmulatları ixrac edən poladəritmə zavodları nümunə göstərilə bilər. Şübhəsiz ki, ölkənin xarici ticarətində onun ərazisinin ölçüləri, təhsilin və mədəniyyətin səviyyəsi, istehsal miqyası effekti, nəqliyyat xərcləri kimi amillər böyük əhəmiyyətə malikdir. Smit bütün bunları ticarətin tam azadlığı, dövlət tərəfindən müdaxilənin olmadığı halda, xarici ticarətdə təmin edilən mütləq üstünlüklər hesab edirdi. Smitin nəzəri mühakimələri ölkədə tam sərbəst hərəkətin təmin olunduğu halda istehsal amillərinin onun mütləq üstünlük qazandığı (aldığı) rayonlarına doğru istiqamətlənəcəyi barədə müddəaya əsaslanırdı. Rayonlar «doyduqdan» və bərabərləşdikdən sonra bu cür yerdəyişmə gəlir vermir.

***Nisbi (müqayisəli) üstünlüklər nəzəriyyəsi yaxud Rikardonım biramilli modeli.*** A.Smitin xarici ticarət mexanizmində mütləq üstünlüklər nəzəriyyəsi D.Rikardo tərəfindən əhəmiyyətli dərəcədə inkişaf etdirilmiş və tamamlanmışdır. Özünün əsas əsəri olan «Siyasi iqtisadın və vergiqoymanm əsasları»nda (1817) Rikardo *xarici ticarətdə nisbi üstünlüklər nəzəriyyəsini* işləyib hazırlamışdır. O, ölkədə istehsal olunan iki əmtəə vahidinin onların istehsalına sərf edilmiş iş vaxtı ilə ifadə olunan daxili bazar qiymətlərinin sadəcə müqayisəsindən ibarət olan alternativ qiymətlər yaxud əvəzedilmə xərcləri anlayışından istifadə etmişdir. Bu nəzəriyyənin mahiyyəti Rikardonun *əmək məhsuldarlığı amilinə* Smitin «mütləq üstünlüklərindən» asılı olmayaraq, ölkənin istehsal edə biləcəyi bütün əmtəələrlə ticarəti faydalı edən yeganə şərt kimi yanaşmasından ibarətdir.

Xarici ticarətin nisbi yaxud müqayisəli üstünlüklər nəzəriyyəsi Rikardo tərəfindən inkişaf etdirilmiş əmək dəyəri nəzəriyyəsinə əsaslanır. Ölkə müəyyən əmtəənin istehsalı üzrə ixtisaslaşamaqla yüksək səmərəyə və

məhsuldarlığa (başqa ölkələrlə müqayisədə məhsul vahidinin istehsalına az xərc çəkirsə) nail olursa, həmin əmtəələrlə dünya bazarlarında ticarətdən faydalanacaqdır. Beləliklə, Rikardonun modelində həlledici məqam ölkənin dünya bazarına çıxması üçün məhsuldarlığın (istehsal olunan əmtəə vahidinə sərf edilən əmək) əsas amil olmasıdır. Öz nəzəriyyəsinin müddəalarım inkişaf etdirərkən, Rikardo nümunə qismində İngiltərə və Portuqaliyanı, onun təsviri üçün əmtəə kimi isə çaxırı və mahudu göstərsə də, onun düsturu istənilən əmtəəyə tətbiq edilmək üçün yararlıdır.

Sonradan bu nəzəriyyə xarici ticarət mexanizmində Rikardonun biramilli modeli kimi məşhurlaşmışdır. Əslində, Rikardo beynəlxalq əmək bölgüsünün Smit tərəfindən dolayısı ilə formalaşdırılmış əsas prinsipini inkişaf etdirmişdir. Nisbi üstünlüklər nəzəriyyəsi xarici iqtisadi əlaqələri elmi əsasda qurmaq, xarici ticarət praktikasında məhdudlaşdırmalarm (proteksionizmin) zərərini sübut etmək imkanı yaradır. Rikardo 1815-ci ildə Napoleonun məğlubiyyətindən sonra Böyük Britaniyada qəbul olunmuş, torpaq aristokratiyası üçün xeyirli, sənaye aristokratiyasına isə zərər yetirən çörək qanunlarının əleyhinə çıxış edirdi. Amma Rikardo öz mülahizələrini iqtisadi nəzəriyyə mövqelərindən ifadə edərək, ticarət azadlığının Böyük Britaniyanın maraqları üçün faydalı olduğunu sübut edirdi. İlk dəfə olaraq, iqtisadi nəzəriyyədən siyasət aləti kimi istifadə edilirdi.

***istehsal amillərinin nisbəti nəzəriyyəsi: Hekşer-Olin modeli.*** Smit və Rikardonun mütləq və nisbi üstünlüklər nəzəriyyələrində azad bazarın istehsal amillərini öz ölkəsinin sahibkarlarının daha səmərəli üsulla buraxa biləcəyi əmtəələrə yönəldəcəyi və onlan rentabelsiz istehsallardan imtinaya məcbur edəcəyi barədə tezis qəbul olunur. Ölkələrin mütləq və nisbi üstünlüklərə malik olan istehsallar üzrə ixtisaslaşma yolu ilə məhsul buraxılışı həcmini artırmasının mümkünlüyünü sübut etsələr də, bu alimlər həmin *üstünlüklərm hansı əmtəələr hesabına təmin olunacağını* izah etməmişlər. D.Rikardodan 125 il sonra iki İsveç iqtisadçısı, Eli Hekşer və Bertil Olin *istehsal amillərinin nisbəti nəzəriyyəsini* işləyib hazırlamışlar. Bu nəzəriyyənin əsasında ayrı-ayrı ölkələrdə əməyin payı ilə torpağın yaxud kapitalın payı arasındakı fərqlərin istehsal amillərinin dəyərindəki fərqlərlə izah olunması ideyası durur. Beləliklə, nisbi qiymətlərdə fərqlərin mövcudluğu ölkələrin istehsal amilləri ilə müxtəlif dərəcədə təmin olunması ilə şərtləndirilir. Alimlər belə bir mülahizəyə istinad edirdilər ki, əmək resursları torpaq və kapitalla müqayisədə artıq olarsa.

əmək məsrəfləri aşağı, kapital xərcləri isə torpağın və kapitalın dəyərinə nisbətdə yüksək olacaqdır. Bu amillərin dəyəri ölkələri izafi və daha ucuz istehsal amilləri istifadə olunan sahələrdə məhsul buraxılışını genişləndirməyə və ixracını artırmağa sövq edə bilər.

İstehsal amillərinin nisbəti nəzəriyyəsi istehsal amillərinin nisbətlərində, bazarın xarakterində, əmtəələr və istehsallar barəsində müxtəlif cür ehtimallara əsaslanır və bunlar mütləq və müqayisəli xərclər nəzəriyyəsində olanların eynidir. Fərq yalnız bundadır ki, istehsal amillərinin nisbəti nəzəriyyəsi yalnız iki ölkənin və iki əmtəənin mövcud olması ehtimalına istinad edir: bunlardan biri *əmək tutumlu,* digəri isə *kapital tutumludur* və *bir* deyil (A.Smit və D.Rikardonun nəzəriyyəsində - əmək), *iki amil istehsal amili, dinək və kapital* vardır. Özü də, hər bir ölkə bu istehsal amilləri ilə müəyyən dərəcədə təmin olunmuşdur. Deməli, bu konsepsiyada dəyərin əmək nəzəriyyəsi inkar edilməyərək, dəyərin yaradılmasında təkcə əməyin deyil, başqa istehsal amillərinin də iştirakı ideyası əlavə edilir.

Hekşer-Olinin yanaşması ümumdünya ticarətinin xarakterini izah etmək qabiliyyəti baxımından çoxsaylı empirik yoxlamalara məruz qalmışdır. Ən məşhur sınaq 1954-cü ildə V.Leontyev tərəfindən ABŞ-m xarici ticarətinin strukturu öyrənilərkən işləyib hazırladığı «xərclər - buraxılış» metodologiyası (modeli) vasitəsilə keçirilmişdir. Leontyev ABŞ-ın ixracında və idxalında istehsal amillərinin tərkibini tədqiq edib ABŞ ixracının əmək intensivlikli, idxalı əvəz edən mallarının isə kapital intensivlikli olması barədə maraqlı nəticə çıxarmışdır. Alınan nəticələr Hekşer-Olin modelini guya inkar etdiyinə görə «Leontyev paradoksu» adlandırılmışdır.

## 6.2. Hekşer-Olinin beynəlxalq ticarət nəzəriyyəsi, Samuelsonun töhfəsi, Leontyev paradoksu və s.

Aşağıda bu məsələlərin Pol Samuelson tərəfindən həyata keçirilmiş təhlilini Mark Blauqun şərhində təfsilatı ilə nəzərdən keçirək.'

***Amillərin qiymətlərinin bərabərləşməsi haqqında Samuelsonun teoremi.*** Nəzərİ3^əçilərin çoxu Blauqun nəyə şəhadət etdiyini nəzərdən qaçınnışlar: Hekşer-Olin modeli Hekşerin əsas təşkil edən və sonradan

^ *Блауг М.* Методология экономической науки, или Как экономисты объясняют ; 2-е изд. М., 2004. С. 288.

«Regionlararası və beynəlxalq ticarət» (1933) əsərində yeniləşdirilmiş və genişləndirilmiş məqaləsinin (1919) müddəalarından daha çox, Samuelsonun 1940-cı illərin sonu - 1950-ci illərin əvvəlində çap edilən bir neçə məqaləsinə istinad edir. Hekşer və Olin ehtimal edirdilər ki, azad ticarət beynəlxalq ticarətin istehsal amillərinin ölkələr arasında hərəkətini əvəz edə biləcəyi səviyyədə onların nadirlik dərəcəsini və deməli, onların bütün dünya üzrə qiymətlərini eyniləşdirməlidir; Olin həmin prosesin ümumi bərabərləşmə ilə yekunlaşmayacağmı ehtimal etmək üçün tutarlı səbəbləri görürdü. Samuelson isə bəzi xüsusi hallarda (müasir rəqabət, nəqliyyat xərclərinin sıfır səviyyəsi, natamam ixtisaslaşma, eyni, oxşar istehsal funksiyalarını yerinə yetirmə, xarici iqtisadi əlaqələrin yoxluğu, amillərin qiymətləri nisbi dəyişmədikdə onlardan istifadənin nisbi intensivliyinin sabitliyi, amillərin keyfiyyət baxımından eyniliyi, amillərin sayının əmtəələrin miqdarından çox olmaması) azad ticarət amillərinin qiymətlərinin bəzilərinin deyil, ümumilikdə dəyişəcəyi ilə nəticələnəcəyini sübut edən ***amillərin qiymətlərinin bərabərləşməsi teoremini*** isbat etmişdir. Blauq yazır ki, bu cür zərif ifadə sonradan ***n*** ölkəyə, ***n*** amilə və ***n*** əmtəəyə qədər ümumiləşdirilir, halbuki, indiyədək iki ölkə, iki amil və iki əmtəə halı üçün teorem olaraq qalan Hekşer-Olin modeli haqqından bunu demək olmaz.

***Leontyev paradoksu.*** Professor Vasiliy Leontyev hələ 1950-ci illərdə ABŞ-ın xarici ticarətinin strukturuna aid məşhur «xərclər cədvəli» olan əsərlərini nəşr etdikdən sonra Hekşer-Olin nəzəriyyəsini heçə endirdi. Leontyev aşkar etdi ki, ölkə Hekşer-Olin nəzəriyyəsinə əsasən ixrac edilməsi gözlənilən malların tam əksinə olaraq, əmək intensivliyi nisbətən yüksək olan malları ixrac edir. Sonradan onun çıxardığı nəticələr «Leontyev paradoksu» adlandırılmışdır. Bu paradoks bütün nəzəriyyəçilər tərəfindən həqiqət kimi qəbul olunmasa da, onlar, o cümlədən Pol Samuelson faktların ifadə olunmasının səlisliyini və məntiqinin qüsursuzluğunu etiraf edirdilər.

Bununla əlaqədar olaraq Çariz Kindlerger yazırdı; «O (Leontyev - R.X.), ABŞ-ın kapital baxımından yoxsulluğunu və əmək resursları ilə zənginliyini deyil, Hekşer-Olin teoreminin səhv olduğunu sübut edir. Ticarət nəzəriyyəçilərinin əksəriyyəti aşkar surətdə təkzib olunmuş amil nisbətləri nəzəriyyəsini mükəmməlləşdirməyi davam edərək, get-gedə Leontyev paradoksunun yaratdığı texniki tapmacalara daha çox təəccüblənirdilər.

^ *Bnayz M.* TaM we. C. 289.

Məsələn, istehsal amili nədir və istehsal proseslərində neçə amil iştirak edir? Çoxamilli dünyada amillərin intensivliyinin dəyişməsi istisna oluna bilənni? Amillərin sayı artdıqca, onların qiymətlərin bərabərləşməsi nəzəriyyəsinə uyğun olması üçün hansı şərtlər zəruridir?»'

***Olin-Samuelsoniın tədqiqat proqramının sonu və Leontyev paradoksu.*** M.Blauqun fikrincə, Leontyev paradoksu Olin-Samuelsonun tədqiqat proqramına son qoymamışdır. Bundan başqa, Olin-Samuelson yanaşması əsasında edilən yeni kəşflərin əksəriyyəti faktdan daha çox, beynəlxalq və daxili ticarətin fenomenlərinin analitik ümumiləşdirilməsi idi. Bu yanaşma müharibədən sonrakı dövrdə bölgü problemləri üzrə mübahisələrin aparıldığı son məhsuldarlıq həddinin sadələşdirilmiş nəzəriyyəsinin geniş yayılmasına öz töhfəsini vermişdir; beynəlxalq ticarəti amillərin nisbəti ilə izah edən model miqyasdan əldə olunan fayda şəraitində istehsal funksiyaları ilə aqreqatlaşdırılmış iki ölkə, iki əmtəə və iki amil alleqoriyasını stimullaşdırırdı. Beləliklə, daxili və xarici ticarətin təhlili qadir olduğundan da artıq vəd edən, xeyli sadələşdirilmiş ümumi tarazlığın aqreqatlaşdırılmış nəzəriyyəsi vasitəsilə vahid şəklə salınmışdı. Bununla bərabər, Blauqun təsdiqlədiyinə görə, Olin-Samuelson yanaşmasını Hiks-Samuelsonun daha geniş olan ümumi tarazlıq modelindən (proqramından) ayırmaq yaxud ona qarşı qoymaq olmaz. Blauqun fikrincə, qəribə təsadüf nəticəsində bu işin böyük hissəsi iqtisadi nəzəriyyədə operasionalizmin başlıca müdafiəçisi olan Samuelsonun qüvvəsi ilə, hər halda onun tədqiqatlarının ilkin mərhələlərində stimullaşdırılmış və təbliğ edilmişdir. Şərhçilərdən birinin dediyi kimi: «Bütün mübahisələr (amillərin qiymətlərinin bərabərləşməsi barədə) yaxşılığı yaxud pisliyindən asılı olmayaraq, özlüyündə qeyri-operasionalist nəzəriyyəçiliyin nümunəsidir».^ Samuelson amillərin qiymətləri arasında real dünyada müşahidə olunan fərqlərlə statistik rəqabət şəraitində amillərin qiymətlərinin bərabərləşməsinin ideallaşdırılmış şəkli arasında güclü ayrılıq yaranacağını səmimiyyətlə etiraf edirdi. Buna baxmayaraq, Samuelson amillərin qiymətlərinin bərabərləşməsi nəzəriyyəsi üzrə öz tədqiqatlarını səylə davam etdirərək, əmin idi ki, o, «ümumdünya ticarətinin simasını formalaşdıran qüvvələrin dərindən başa düşülməsinə həqiqətən də kömək edir».'" Mark Blauq buradan belə bir nəticə çıxarır:

^ *Блауг М.* Указ. соч. С. 291.
^ *Блауг М.* Указ. соч. С. 292.
^ Вах: *Caves R.E.* 1960. P. 92.
*Marchi de N.* 1976. P. 1/8.

«Amillərin qiymətlərinin bərabərləşməsi barədə mübahisə əqli əyləncə olmuşdur. Onun xalis nəzəriyyənin stmkturunu aydınlaşdırmaqla müəyyən faydalı nəticələr verməsinə, ... ticarətin bəzi hallarda amillərin qiymətlərinin bərabərləşməsinə doğru hətta meyil belə yaratmaması barədə maraqlı nəticəyə gətirib çıxarmasına baxmayaraq, fakt budur: qərar qəbul edən heç bir siyasətçi heç zaman azad ticarətin statistik yaxud real dünyanın problemlərinin həlli üçün hər hansı əhəmiyyətə malik olması barədə düşünməmişdir».'

***Problemin əlava tədqiqatları.*** Hekşer-Olin nəzəriyyəsinin empirik əsaslılığı problemi çoxsaylı tədqiqatlarda diqqətlə öyrənilmiş və onların əksəriyyəti hələ Leontyev dövründən adı çəkilən nəzəriyyənin təkzib olunması ilə nəticələnmişdir. Robert Stera yazırdı; «Hekşer-Olinin sadə modelinin heç bir ciddi empirik əsası yoxdur. Əgər təbii resursları və insan kapitalını həqiqətən də nəzərə alsaq, model sanki daha çox başa düşməyə... (bununla belə) imkan verir ki, səmərəlilik məsələsində ölkələrarası fərqlər kifayət dərəeə inandırıcı sübutdur və bu, amillərlə təmin olunma barədə fərziyyənin universal empirik tətbiqini şübhə altına alır».[2]

R.Stemin rəyincə, ticarətin əmtəənin həyat dövrü, texnoloji fərqlər və miqyas hesabına qənaət vasitəsilə izah edilməsi özünü daha yaxşı doğrultmuşdur, lakin kvazidinamik modellərin nisbətən mülayim öncəgönrıələri ilə statistik modellərin ciddi proqnozları arasında müqayisənin bizə məlum olan problemləri, xüsusilə də sonuncular «ad hoc»^ kimi müxtəlif əlavələrlə müşayiət olunduqda, bizə hər hansı tərəfin qəti qələbəsi barədə mülahizə söyləməyə imkan vennir." Nəzəriyyəyə gəldikdə isə problem amillərlə təminolunma modelinin hələ uzun müddət ərzində texnologiyaların yaradılması və yayılması mexanizmi ilə sistematik qaydada inteqrasiya olunmasının zəruriliyindədir.

Həmçinin belə hesab edilir ki, Hekşer-Olin nəzəriyyəsində başlıca səhv hətta işçi qüvvəsinin ixtisası kimi amil ölkə daxilində və müxtəlif ölkələr üzrə fərqləndiyi halda, bütün istehsal amillərinin eynicinsliliyinin ehtimal olunmasmdadır. Amma bu qrupların peşəkar hazırlığına sərf olunmuş işçi qüvvəsinin müxtəlif növləri və kapital nəzərə alındıqda, Hekşer-Olinin istehsal amillərinin nisbəti nəzəriyyəsi ölkələrin istehsal amilləri ilə təminatı

^ *Gorden K.M.* 1965. P. 31.

^ *Stern R.M.*

Ad hoc - latınca bunun üçün, yəni müəyyən təyinatı olan, xüsusi məqsədi olan. '

*Stern R.M.*

səviyyəsinə diferensial yanaşılması səbəbindən cəlbedicidir. Eyni zamanda bu təhlilçilərin nəzəriyyəsində aşkar zəiflik Rikardo-Marksm dəyər nəzəriyyəsinə etinasızlıq, qiymətin formalaşmasında bazar amillərinin rolunun mütləqləşdirilməsidir. Son qiymətə real əmək məsrəflərinin nəzərə alınmamasının mümkünlüyü və müvafiq olaraq müasir dövrdə bazar agentlərinin fəaliyyətində xüsusilə böyük rol oynayan, bazarın tarazlığını pozan «möhtəkirliyin leqallaşdırılması» buradan irəli gəlir.

***Xarici ticarətin spesifik amillərinin modeli.*** Bu model P.Samuelson və R.Conson tərəfindən Olin modelinin yoxlanılması zamanı «əlavə nəticə» kimi işlənib hazırlanmışdır.' Həmin yanaşmanın mahiyyəti bundan ibarətdir: iqtisadiyyatda şərti olaraq iki əmtəənin istehsal edildiyini və buna müvafiq olaraq əməyin iki sahədə istifadə oluna biləcəyini nəzərdə tutan Rikardo modeli əsasında yaradılan bu model, əmək amilindən əlavə *başqa* amillərin mövcudluğunu əsaslandırır.

Burada əmək bir sahədən digərinə yerdəyişmə qabiliyyəti olan *mütəhərrik amil*, digər spesifik amillər isə yalnız müəyyən sahələrdə əmtəə istehsalı üçün istifadə edilə bilindiyinə görə *hərəkətsiz* kimi nəzərdən keçirilir. P.R.Kruqman və M.Obstfeld bu müddəanın əyani təsviri üçün iki növ əmtəə: *sənaye malları və ərzaq* istehsal edilən ölkənin iqtisadiyyatına baxmağı təklif edirlər. Burada verilən şərt üç istehsal amilinin: əməyin (L), kapitalın (K) və torpağın (T) mövcudluğudur. Sənaye malları hazırlanarkən əməkdən və kapitaldan (torpaq lazım olmur), ərzaq məhsullarının istehsalında isə əməkdən və torpaqdan (kapitalsız) istifadə olunur.^ Müəj^ən əmək və kapital məsrəfləri halında nə qədər məhsul əldə olunacağını göstərən, tətbiq olunmuş əmək və kapitalın miqdarı (həcmi) arasındakı nisbət kimi müəyyən edilən *istehsal funksiyası* bu əsasda hesablanır. Hər bir sektor üzrə istehsal funksiyalarının özünün düsturları vardır.

^ *Samuelson P.* Ohilin Was Right // Swedish Journal of Economics. 1971. №73. P. 365-384; *Johnes R.W.* A Three - Factor Modal in Theory, Trade and History // Bhagwati et al. eds. Trade, Balance of Payments, and Growth, Amsterdam. North Holland, 1971. P. 3-21.

^ *Кругман П.Р.* Международная экономика. Теория и политика / П.Р.Кругман, М.Обстфелд. М.: ЮНИТИ, 1997, С. 39.

I. Sənaye malları sektoru üçün;

**Sənaye mallarının buraxılışı** $(Qm)$ =

**Kapital məsrəfləri** $(K)$ + **Əmək məsrəfləri** $(Lm)$

II. Ərzaq məhsulları sektoru üçün:

**Ərzaq məhsullarının buraxılışı** $(Qf)$ =

**Torpağın miqdarı** $(T)$ + **Ərzaq istehsalında əmək məsrəfləri** $(Lf)$

III. Bütövlüklə iqtisadiyyat üzrə istifadə olunan əməyin ümumi miqdarı bu cür olacaq:

$$Lm + Lf = L$$

İqtisadiyyatın hər bir sektorunda istehsal funksiyalarının təhlili amillərdən hər birinin istehsal imkanlarını, yəni sənaye mallarının buraxılış həcmini *(əmək məhsulunun son həddi)* müəyyənləşdirməyə imkan verir. Bu, xarici ticarətin ilkin iqtisadi şərtlərini formalaşdıran istinad nöqtəsi kimi nəzərdən keçirilə bilər. Onun reallaşdırılması üçün zəruri olan digər şərt ixracatçı ölkə ilə idxalçı ölkə arasında *malların müxtəlif nisbi qiymətlərinin olmasıdır* (göstərilən halda sənaye mallarının). Malların qiymətləri arasında nisbi fərqlərin olmaması xarici ticarəti prinsipcə qeyri-mümkün etdiyinə görə, bu, xarici ticarətin bünövrəsini təşkil edən ehkamdır.

***Əmtəənin həyat dövrü nəzəriyyəsi.*** Əmtəənin həyat dövrünün mərhələləri əsasında hazır məmulatlarla ümumdünya ticarətinin nəzəriyyəsi belə adlanır. Bu nəzəriyyəyə görə, əmtəənin (məhsulun) bəzi növləri yaradılmadan, artımdan, yetkinlikdən və tənəzzüldən ibarət olan dörd mərhələdən keçir. Buna müvafiq olaraq, həmin əmtəənin istehsalı dövrün mərhələsindən asılı olaraq ölkədən-ölkəyə yerini dəyişir. Bu mərhələlər bir-biri ilə sıx əlaqədədir və bir növ kontinuum təşkil edir. Müvafiq dəyişikliklər (mərhələlər üzrə) 6.1 cədvəlində göstərilmişdir.

***1-*** *ci mərhələ - yaradılma.* Bu mərhələ aşkar edilən ehtiyaca uyğun olaraq yeniliyin işlənib hazırlanmasını; yeni əmtəənin ölkə daxilində istehsalını və satışını; yeni əmtəənin ölkədən ixracını əhatə edir. Belə bir cəhət qeyd olunur ki, son onilliklərdə ABŞ yeni malların buraxılışının və texnologiyaların əsas təşəbbüskarıdır, hərçənd sənayeləşmiş dövlətlər, ilk növbədə, Yaponiya öz töhfəsini verir. Bu fakt ABŞ-m əsasən əməktutumlu məhsulları ixrac etdiyini

göstərən «Leontyev paradoksu»nu başa düşməyə imkan verir. ABŞ-da maaşlar dünyada ən yüksəklərdən biri olduğuna görə, onun belə mallarının dünya bazarında rəqabət mövqeləri barədə sual meydana çıxır. İzahlardan biri - əmtəə istehsalçılarının inhisarçı mövqe tutmaq sayəsində xərcləri həmin yeni malın qiymətinin ucuzlaşmasını gözləmək istəməyən istehlakçıların üzərinə qoymaq imkanıdır.

***2- ci mərhələ - artım.*** Əmtəə istehsala buraxıldıqdan və satışı başlandıqdan sonra rəqiblərin hərəkətə başlaması üçün stimul yaranır, bu isə, inhisarçının tutduğu mövqeni pozur. Bir qayda olaraq, əhəmiyyət kəsb etməyən dəyişiklik aparılması yolu ilə yeni əmtəənin patent müdafiəsi aradan qaldırılır. Eyni zamanda başqa ölkələrdə, ilk növbədə isə inkişaf etməkdə olan ölkələrin bazarlarında tələbat artmağa başlayır. Bununla da, həm ixracın artması, həm də müxtəlif ölkələrdə yeni müəssisələrin yaradılması hesabına bazarın genişlənməsi baş verir.

***3- cü mərhələ - yetkinlik.*** Yetkinlik mərhələsində dünyada məmulata olan tələbat tarazlaşmağa başlayır, hərçənd ki, bu zaman bəzi ölkələrdə istehsalın və satışın artımı, digərlərində isə azalması baş verə bilər. Amma bir qayda olaraq, bu mərhələdə məmulatların modelləri yüksək dərəcədə standartlaşdırıldığına, onların dəyərinin isə rəqabətin mühüm alətinə çevrildiyinə görə ilkin istehsalçıların sıxışdırılması müşahidə edilir. Məhsul vahidinin dəyərini endirən xarici istehsalçıların iri seriyalı məhsul buraxılışı başlayır və bu zaman nisbətən aşağı maya dəyəri inkişaf etməkdə olan ölkələrdə satış həcmini artımıaq imkanı yaradır. Bazarlar genişləndikcə və texnologiyalar yayıldıqca, yeniliyi yaradan ölkə tədricən öz istehsal üstünlüklərini itinnəyə başlayır. Müəssisələrin işçi qüvvəsinin nisbətən aşağı ixtisaslı, lakin ucuz olduğu inkişaf etməkdə olan ölkələrə köçürülməsinə stimullar meydana çıxır. Bu, tələbat olan əmtəənin mənfəətli və səmərəli istehsalını təşkil etməyə imkan verir.

***4- cü mərhələ - tənəzzül.*** Bu mərhələdə inkişaf etmiş ölkələrdəki bazarlar tədricən əmtəədən imtina etməyə başlayır, onun istehsalı azalır, əhalinin təminatlı təbəqələri yeni mallara üstünlük verirlər. Bu məqamadək bütün istehsal inkişaf etməkdə olan ölkələrdə cəmləşir və inkişaf etmiş ölkələrin daralan bazarlarını müvafiq mallarla onlar təmin edirlər.

*Cədvəl 6.1*

**Əmtəənin həyat dövrü nəzəriyyəsi***

| **Göstəricilər** | **Həyat dövrünün mərhələləri** | | | |
|---|---|---|---|---|
| | **Yaradılma** | **Artım** | **Yetkinlik** | **Tənəzzül** |
| İstehsalın yerləşməsi | Yeniliyin yaradıldığı ölkə (adətən, sənayesi inkişaf etmiş) | Yeniliyin tətbiq olunduğu ölkə və sənayesi inkişaf etmiş başqa ölkələr | Bütün ölkələr | Əsasən inkişaf etməkdə olan ölkələr |
| Bazarın yerləşməsi | Əsasən yeniliyin tətbiq olunduğu ölkə (müəyyən həcmdə ixracla) | Əsasən sənayesi inkişaf etmiş ölkələr. Xaricdəki istehsal bazarlarda sürətlə artan tələbatı ödəməklə, get-gedə ixracı əvəz edir və ixrac bazarlarına doğru meyil başlayır | İnkişaf etməkdə olan ölkələrdə artım; sənayesi inkişaf etmiş ölkələrdə müəyyən enmə; tələbatın ümumi sabitləşməsi | Əsasən inkişaf etməkdə olan ölkələr. Tələbatın ümumi azalması |
| Konkret amillər | Demək olar ki, inhisarçı mövqe. Satış əvvəlki malın qiymətinə deyil, malın unikallığına əsaslanır | Rəqiblərin sayı artır. Rəqiblərin bəzisi qiymətləri ucuzlaşdırmağa başlayır. Əmtəə daha da standartlaşır | Rəqiblərin sayı azalır. Qiymət mühüm əhəmiyyət kəsb edir (xüsusilə inkişaf etməkdə olan ölkələrdə) | Qiymət əsas silahdır. İstehsalçıların sayı getdikcə azalır |
| İstehsal texnologiyası | Xırda seriyalı istehsal. Əmtəənin təkmilləşlməsini təmin edən metodların tətbiqi. Yüksək əmək tutumu və yüksək ixtisas. Nisbətən az kapital məsrəfləri | Kapital məsrəflərinin artması, daha çox standartlaşdırılmış metodlar | Yüksək kapital tutumlu iri seriyalı istehsal. Yüksək dərəcədə standartlaşma. Nisbətən aşağı ixtisaslı işçi qüvvəsi tələb olunur | Mexanikləşdiri İmiş iriseriyalı istehsal şəraitində ixtisassız işçi qüvvəsi |

* *Дэниелс Д.Д.* Международный бизнес / Д.Д.Дэниелс, Л.Х.Радеба. М.: Дело Лтд, 2001. С. 133.

***Ölkələrin bənzərliyi nəzəriyyəsi.*** Bu nəzəriyyə belə bir ideya ilə əsaslandırılır: yeni əmtəəni daxili bazarın tələbinə uyğun olaraq satmaq üçün işləyib hazırlayan sahibkar-firma «öz» bazarında möhkəmləndikdən sonra

***analoji mallarla*** başqa ölkələrin bazarlarına çıxır. Yeni əmtəələrin əksəriyyətinin inkişaf etmiş ölkələrdə buraxıldığına və daxili bazarlarda satış üçün (onların tələbləri nəzərə alınmaqla) təyin olunduğuna görə, onlar əsasən həmin ölkələrin nəhəng bazarlarında dövr edir; yüksək keyfiyyət və buna müvafiq olan baha qiymət onların ikinci və üçüncü dünya ölkələrinin bazarlarına intensiv surətdə daxil olmasına imkan vemıir. Amma sonuncuların bazarlarına həmin mallar postsənaye ölkələrinin əmtəələrini təqlid edən surroqatlar şəklində iri həcmdə tullanır yaxud yuxarıda dediyimiz kimi, inkişaf etmiş ölkələrin bazarları artıq tələb olmayan mallarla dolduqdan sonra oradakı istehsallar inkişaf etməkdə olan ölkələrə köçürülür.

Amma burada təkcə əmtəənin istehsalı və təklifi amili deyil, həm də tələb amili mühümdür. Bu amillərin əsrlər ərzində kortəbii qaydada müəyyənləşdirilən ***uyğunluğu*** olmadan, mükəmməl ümumdünya ticarəti mümkün deyil. Uyğunluq burada ümumdünya ticarətində tarazlığı, tələb və təklif arasında balans yaradılmasını ifadə edir. Bir ölkə çərçivəsindəki balansdan fərqli olaraq, ümumdünya səviyyəsində asılılıq və qarşılıqlı asılılıq amillərinin çox mürəkkəb uçotu aparılır; bir (birinci) ölkənin istehsal imkanları orada buraxılan əmtəəlik malın (və xidmətlərin) müəyyən hissəsinin ikinci ölkə tərəfindən istehlak olunması imkanı ilə təmasa girir. Bu yanaşma beynəlxalq ticarət problemlərinin, o cümlədən ümumdünya ticarətinin standart modelinin işlənib hazırlanmasında əsas rol oynayan «əvəzetmənin son həddi» konsepsiyası üçün təməl təşkil edir. Əslində, bu, ingilis iqtisadçısı A.Marşallm («son səmərəlilik həddi» konsepsiyasının müəllifi) təkmil şəkildə (müasir anlamda) ümumi tarazlıq kimi ifadə etdiyi ümumdünya ticarətinin tarazlığı (balansı) ideyasının özüdür. Əvvəllər bu ideya C.St.Mill tərəfindən təsvir olunmuş, onun işlənib hazırlanmasına marjinalizm məktəbinin nümayəndəsi F.Ecuort, sonradan isə kapitalın hərəkətini və ümumdünya ticarətini tədqiq etmiş C.Mid öz töhfələrini vennişdir.

Bu nəzəriyyənin əsas anlayışı ***qarşılıqlı tələb,*** yəni tələb və təklifi sintez edən, ölkəyə bir əmtəənin ixracını təmin etmək üçün başqa əmtəənin idxalının hansı miqdarda lazım olduğunu ifadə edən göstəricidir. Beləliklə, ümumdünya ticarətinin həcmi, əmtəənin daxili istehsalı ilə istehlakı arasında olan fərqdir. İstehsal istehlakdan çox olduqda, ölkə ixrac, az olduqda isə idxal edir.

Buna müvafiq olaraq, əgər $Q_1$ və $Q_2$ 1-ci və 2-ci əmtəənin istehsalının (təklifinin) həcmi, $D_j$ və $D_2$ onların istehlakıdırsa (tələbidirsə). $Q_1 - D_2$

malların ixracı, D? - $Q_2$ isə 2-ci əmtəənin idxalıdır. Ümumdünya ticarəti nəzəriyyəsinin nisbi qiymətlər anlayışına istinad etdiyini nəzərə alsaq, 2-ci əmtəənin idxalı, 1-ci əmtəənin ixracının, onun nisbi qiymətinə hasilinə bərabər olmalıdır və bunun nəticəsində aşağıdakı düstur alınır:

$$D_2-Q_2 = (Q_1-D_1) x P_1/P_2$$

Bu halda ölkənin xarici ticarətinin ümumi tarazlığına - əmtəəyə olan tələbatın və təklifin həm daxili, həm də beynəlxalq ticarətdə eyni zamanda bərabərləşməsinə nail olmaq mümkündür.

***Nisbi üstünlüklər nəzəriyyəsi və əmək məhsuldarlığı amili: Balassa modeli.*** Hələ 1963-cü ildə macar iqtisadçısı B.Balassa 1951-ci ildə ABŞ və Böyük Britaniyanın 26 sənaye sahəsi üzrə ixrac və hər iki ölkədə sahələr üzrə əmək məhsuldarlığının nisbəti barədə məlumatlardan istifadə etməklə, Rikardo metodologiyası əsasında onlar arasındakı ticarətin müqayisəli təhlilini aparmışdır. 6.1-ci şəkildə onun modeli təsvir edilmişdir və orada məhsuldarlıq göstəricisinin nisbətləri üfüqi, ixrac üzrə müvafiq göstəricilər isə şaquli xətt üzrə göstərilmişdir. Hər iki xətdə müvafiq göstəricilərin loqarifmləri əks olunmuşdur. Bunun heç bir prinsipal əhəmiyyəti olmasa da, ticari-iqtisadi proses haqqında aydın təsəvvür yaradır.

Məlumdur ki, Rikardo nəzəriyyəsinə görə ABŞ-da hər hansı bir sahədə əmək məhsuldarlığı yüksək olarsa, bu ölkənin firmaları Böyük Britaniyanın yaxud başqa ölkənin eyni sahədə fəaliyyət göstərən firmalarına nisbətən daha çox əmtəə ixrac edə biləcək. Bu, 6.1 şəklindən də görünür. Müvafiq göstəricilər müəyyən maili xətt ətrafında kifayət qədər yaxın məsafədə səpələnmişdir. İstənilən iqtisadi statistikada olduğu kimi, bu müqayisəli təhlildə istifadə olunan statistikanın da müəyyən xətalarını nəzərə alsaq, əldə edilən nəticələr kafidən artıq hesab edilə bilər.

Balassa ticarətin mütləq deyil, müqayisəli üstünlüklər əsasında qurulması barədə Rikardonun fundamental müddəasının doğruluğunu təsdiqlədi. Təhlilin aparıldığı ilin göstəricilərinə əsasən, Amerika sənayesi məhsuldarlığına görə Böyük Britaniya sənayesini təqribən iki dəfə üstələyirdi. Balassa seçilmiş ixrac malları toplusundan ölkənin yalnız istehsalında əmək məhsuldarlığına görə Böyük Britaniyadan üstün olan əmtəələri ixrac edəcəyi barədə geniş yayılmış yanlış fikri aşkarlamışdır. Rikardo modeli göstərir ki, müəyyən malı ixrae

etmək imkanı qazanmaq üçün xarici istehsalçıları yalnız məhsuldarlıq üzrə üstələmək azdır. Bunun üçün göstərilən sahədə nisbi məhsuldarlıq həmin ölkənin digər sahələrində olduğundan da yüksək olmalıdır. Yeri gəlmişkən, Marks da ABŞ-m daha məhsuldar sahələrində Böyük Britaniyanın daha geniş empirik ixracı barədə məlumatlardan istifadə edərək bunu təsdiq edirdi.




*Şəkil 6.1.* **Balassanın müqayisəli üstünlüklər modeli**

Adətən əmək məhsuldarlığı ilə ixrac-idxal arasındakı nisbətin təhlili üçün istifadə olunan Balassa modeli birinci amilin sahələrin «xarici ticarət yönümünə» təsirini nümayiş etdirir. Amma bu cür təhlil son dərəcə dəqiqliyi və mükəmməlliyi ilə fərqlənməlidir. Məsələn, sənaye cəhətdən geridə qalmış ölkələrin xammal sahələrində əmək məhsuldarlığı aşağı, bəzi hallarda isə primitiv olsa da, həmin ölkələr öz daxili bazarlarında qıt olduğu halda belə, buraxılan məhsulu ixrac edə bilər. Buna görə də söhbət dünya bazarı sistemində beynəlxalq qaydalar əsasında iştirak edən ölkələrin və onların iqtisadiyyatlarının tutuşdurula bilən göstəricilərinin, ümumiyyətlə, istənilən iqtisadiyyatda deyil, bazar iqtisadiyyatı sistemində müqayisəli təhlilindən getməlidir.

## 6.3. Porterin rəqabət üstünlükləri nəzəriyyəsi

Amerika iqtisadçısı Maykl Porter istehsal amilləri nəzəriyyəsi və firmaların xarici ticarət fəaliyyəti nəzəriyyəsini keyfiyyətcə yeni əsasda

əlaqələndirməyə cəhd göstənnişdir.

0, 1980-ci illərin sonunda payına dünya üzrə ixracın 50%-dən artıq hissəsi düşən, sənayeləşmiş 10 ölkənin 100-ə yaxın sahəsinin irimiqyaslı tədqiqatını aparmışdır. Nəticədə M.Porter ölkənin rəqabət üstünlükləri haqqında orijinal nəzəriyyə işləyib hazırladı. Onun konsepsiyasında başlıca yeri ölkənin firmalarının fəaliyyət göstərdiyi rəqabət makromühitini formalaşdıran dörd əsas parametrin qarşılıqlı əlaqəsi barədə ideya tutur.

M.Porterin fikrinə görə, müasir beynəlxalq ticarətin inkişafını müəyyənləşdirən əsas parametrlər bunlardır;

1) amillərin şərtləri;
2) tələbatın şərtləri;
3) əlaqəli və xidmətedici sahələr;
4) firmanın strategiyası və rəqabət.

***Amillərin şərtləri.*** İstehsal amillərinə ölkənin rəqabət qabiliyyətinə təsir göstənnə nöqteyi-nəzərindən baxarkən, M.Porter ənənəvi amillərlə (əmək, torpaq, kapital, sahibkarlıq qabiliyyəti) yanaşı, elmi, texniki habelə bazar strukturlarının informasiya təminatı, nəqliyyat, səhiyyə, rabitə sistemlərinin vəziyyəti və hətta əhalinin mənzil fondu ilə təminatı kimi amilləri seçir. Amillərin şərtlərinin (onların sayı isə çoxdur) əhəmiyyətini təsdiqləyərək, Porter beynəlxalq ticarətin neoklassik nəzəriyyəsinin yaradıcılarından fərqli olaraq, belə hesab edir ki, onların əksəriyyəti ölkəyə miras kimi qalmayaraq, istehsalın inkişafı (genişlənməsi) prosesində yaradılır. Məsələn, Yaponiyada torpaq amilinin qıtlığı sonradan dünya bazarında tələb olunan yığcam texnoloji proseslərin işlənib hazırlanması üçün əsas olmuşdur.

Porterin rəyincə, rəqabət üstünlükləri ölkədə mövcud olan şərait ilə konkret firmanın seçdiyi strategiyanın səmərəli tərzdə uyğunlaşmasının və istifadəsinin son nəticəsidir. Müəyyən ölkənin şəraiti firmaların beynəlxalq miqyasda rəqabət üstünlüklərinə nail olması üçün zəmin yarada bilər, bundan istifadə etmək yaxud etməmək isə fınnanm özünün işidir.

***Tələbatın şərtləri (parametrləri)*** — ilk növbədə tələbatın tutumu, onun inkişafının dinamikası, məhsul növlərinə tələbatın fərqlənməsi, alıcılar tərəfindən malların və xidmətlərin keyfiyyətinə qarşı yanaşmanın ciddiliyidir. İnkişaf etmiş tələbat şəraitində yeni mallar dünya bazarlarına çıxarılmazdan əvvəl məhz daxili bazarda sınaqdan keçirilməlidir. Məsələn, sahəsi kiçik olan mənzillərdə yaşamağa vərdiş etmiş yaponlar ucuz, enerjiyə qənaət edən

kondisionerlərdən istifadə etmək istəyirdilər və ölkə sənayesi bu cür mal buraxmağa başladı. Sonradan həmin kondisionerlərdən bütün dünyada geniş istifadə olunmağa başlanması yapon şirkətlərinin ixracı üçün böyük imkanlar açdı.

***Əlaqəli və xidmətedici sahələr.*** Milli iqtisadiyyatda ixracyönümlü sahələrdə fəaliyyət göstərən ölkə fıraıalarım lazımi materiallar, yarımfabrikatlar, komplektləşdirici məmulatlar və başqa materiallarla, inforaıasiya ilə təmin edən əlaqəli və yardımçı sahələrin mövcudluğu həmin firmaların dünya bazarlarında rəqabət qabiliyyətinin yaradılmasının və saxlanmasının mühüm şərtidir. Məsələn, zərgərlik məmulatları istehsal edən İtaliya firmaları, ölkənin qiymətli metalların və daşların emalı üçün maşınlar istehsalı sahəsində dünyada lider olması sayəsində çiçəklənir. Başqa bir nümunə: 1960-cı illərin sonu - 1970-ci illərin əvvəlində Amerikanın çox gəlirli olan böyük motosikletlər bazarında Britaniya firmaları «Honda» və «Suzuki» yapon firmaları tərəfindən sıxışdınimışdı. Ekspertlərin müəyyənləşdirdiyinə görə, bunun səbəblərindən biri həmin yapon firmalarının yeganə vəzifəsi texnikanın son nailiyyətləri əsasında onlar üçün xüsusi dəzgahlar buraxmaq olan törəmə şirkətlər yaratması idi. Britaniya firmaları isə ümumi təyinatlı, heç bir unikal rəqabət keyfiyyətlərinə malik olmayan dəzgahlardan istifadə edirdi.

***Firmanın strategiyası və rəqabət.*** Ölkənin rəqabət üstünlüyünün təmin edilməsində firmaların strukturu və onların yarışması nəticəsində yaranan rəqabət mühiti mühüm əhəmiyyətə malikdir. M.Porter istehsalın yalnız bir milli, özü də dövlətin dəstəyindən yararlanan firmada cəmləşdirilməsinin potensial faydasını qətiyyətlə inkar edir. Belə firmaların əksəriyyəti səmərəliliyin və əmək məhsuldarlığının aşağı olması, resurslardan istifadədə israfçılıqla fərqlənir. Daxili bazarda kəskin rəqabət firmanın ölkədən xaricə çıxmasını, yeni xarici bazarlar axtarmasını stimullaşdırır. «Evdəki» mübarizədə möhkəmlənmiş, müvəffəqiyyət qazanmış finnalar bu zaman əldə etdikləri rəqabət qabiliyyətindən daha sərt (bəzən isə qəddar) olan dünya bazarlarında istifadə edir. «Evdəki» mübarizə nə qədər amansız olarsa, belə firmaların zamanın sınağından çıxması və xaricdə hökmran mövqelər tutması ehtimalı daha da yüksəlir.

M.Porter hesab edir ki, rəqabət qlobal xarakter daşımalıdır. Finna öz mallarını təkcə daxili bazarda deyil, bütün dünyada satmalıdır. M.Porter ölkədə istehsal edilən malların rəqabət qabiliyyətinin təmin edilməsində firmaların

strategiyalarına və təşkilati quruluşuna xüsusi yer ayırır. M.Porterin fikrincə, bütün fınualar tərəfindən bütün ölkələrdə tətbiq oluna biləcək hər hansı universal firma strategiyasını yaxud idarəçilik sistemini müəyyənləşdirmək mümkün deyil. Mebel, işıqlandınua qurğuları, ayaqqabı istehsalında liderlik edən İtaliya firmalarına idarəçiliyin sərt fomıaları və idarəetmə strukturlarının sürətlə dəyişdirilməsi xas deyil. Amma optika və dəqiq maşınqayınua sahəsində böyük səmərə ilə ixtisaslaşan alman firmaları üçün mərkəzləşdirilmiş sərt idarəçilik sistemi səciyyəvidir.

Yuxarıda nəzərdən keçirilənlərdən başqa, M.Porter rəqabət üstünlüklərini müəyyənləşdirən ümumi parametrlər sisteminə ölkənin malik olduğu rəqabət üstünlüklərini gücləndirə yaxud zəiflədə bilən təsadüfi hadisələrin rolunu da daxil edir. Belə hadisələrin ölkənin inkişafının ümumi şərtləri ilə əlaqəsi çox zəifdir və onlara çox zaman nə firmalar, nə də hökumətlər təsir göstərə bilmir. Bu qəbildən olan ən mühüm hadisələrə yeni ixtiralar, böyük texnoloji irəliləyişlər (sıçrayışlar) resursların qiymətlərinin kəskin dəyişməsi (məsələn, «neft şokları»), dünyanın maliyyə bazarlarında əhəmiyyətli dəyişikliklər, müharibələr və s. aiddir.

Ölkənin rəqabət üstünlüklərinin formalaşmasında hökumət böyük rol oynayır. Hökumət özünün pul-kredit, büdcə-vergi və gömrük siyasəti vasitəsilə tələb və istehsal amillərinə birbaşa təsir göstərir. Antiinhisar tənzimləməni həyata keçirərkən, hökumət milli iqtisadiyyatın aparıcı sahələrində və sektorlarında optimal rəqabət mühitinin saxlanmasına təsir göstərir, əsas ixrac sahələri ilə qarşılıqlı fəaliyyətdə olan əlaqəli və xidmətedici sahələrin inkişafını dəstəkləyir.

Beləliklə, M.Porterin nəzəriyyəsi müasir dövrdə müəyyən ölkənin rəqabət üstünlüklərini müəyyənləşdirən əsas parametrlər məcmusunu daha dolğun əks edir.

***Xarici ticarətin standart modeli.*** Xarici ticarət təhlil olunarkən, hər hansı bir müəyyən yanaşmaya (modelə) istinad etmək mümkün deyil. İqtisadi həyatın gerçəklikləri və real iqtisadi proseslərin baş verdiyi şərait o qədər çoxcəhətli, mürəkkəb və qarşılıqlı asılı, keçmişin heç bir nəzəri modelində qabaqcadan düşünülməmiş yeni vəziyyət yaratmaqla, o dərəcədə dinamik inkişaf edəndir ki, obyektiv məqsədə nail olmaq üçün çox zaman: birincisi, xarici ticarət sahəsində məlum olan bütün yaxud təqribən buna yaxın olan sayda yanaşmalardan, ikincisi, əvvəl təsvir olunanlar yeni proseslərə və

hadisələrə adekvat olmadığına görə yeni metodlardan və metodikalardan istifadə etmək zərurəti yaranır. Xarici ticarətin standart modelinin işlənib hazırlanmasında bir neçə səviyyəni aşkar etmək olar.

*Birinci səviyy>əyə* aşağıdakı baza prinsipləri daxildir:

- açıq bazar iqtisadiyyatında qüvvədə olan prinsiplər;
- iqtisadi artımın tipləri;
- milli iqtisadi}^atın istehsal potensialı.

Milli iqtisadiyyatın istehsal potensialı ölkələr üzrə əhəmiyyətli dərəcədə fərqlənən, xarici ticarət üçün təkcə stimul deyil, həmçinin, fundamental baza olan istehsal imkanlarının hədləri ilə təsvir olunur. Bununla yanaşı, hər bir ölkənin istehsal imkanları nisbi tələbatlar məcmusunun xarakterini (iqtisadiyyatın xarici sektorunun istehsalı daxil olmaqla) müəyyənləşdirir.

*Tarazlığın didə olunması.* Dünya bazarlarındakı tarazlıq ümumdünya nisbi tələblə ümumdünya nisbi təklif əsasında müəyyən olunur. Göstərilən konsepsiyalarda (yanaşmalarda, modellərdə) ümumi cəhətlərin mövcudluğu onları vahid, daha ümumi modelin elementləri kimi çıxış edən xüsusi hallar kimi nəzərdən keçirməyə əsas verir.

*İkinci səviyyə* aşağıdakı qarşılıqlı əlaqələrin təhlilini əhatə edir:

- istehsal imkanlarının hüdudlan ilə nisbi təklif əyrisi arasında;
- nisbi mərkəzlərlə nisbi təklif arasında;
- ümumdünya orta çəkili qiymətlər vasitəsilə ifadə olunan ümumdünya nisbi tələb və təklif arasında;
- ölkənin rifah səviyyəsi ilə xarici ticarətin şərtləri (ölkənin ixrac etdiyi malların orta qiymətinin idxal olunan malların orta qiymətinə nisbəti) arasında.

*Üçüncü səviyyə.* Baza amillərinin istifadə olunan keyfiyyəti müxtəlif: ümumdünya, sahə, ölkə səviyyələrində eyniləşdirilməlidir. Bu amillərə aşağıdakılar aiddir:

- ölkələrin iqtisadi inkişafının xüsusiyyətləri:
- ölkələrdə mövcud olan ticarət şərtləri;
- ölkələrdəki tariflər və ixrac üçün subsidiyalar;
- gəlirlərin yenidən bölgüsü yaxud beynəlxalq transfer.

***Praqmatik yanaşmalar.*** Konkret ticari-iqtisadi reallıqlar ayrı-ayrı dövlətlərin xarici ticarət siyasəti və onların iqtisadi agentlərinin beynəlxalq ticarət əməliyyatlarının həlledici amili altında fonualaşan müxtəlif nəzəri konstruksiyalara və yanaşmalara güclü təsir göstərir. Bu, praktiki müstəvidə

beynəlxalq ticarətin tənzimlənməsinin xarakterinə görə ilk baxışdan bir-birini təkzib edən nəzəriyyələrin sintezi əsasında fonnalaşan praqmatik yanaşmaların əksər hallarda üstün olmasını ifadə edir. Bu yanaşmalar əsasən dünya iqtisadiyyatının və buna müvafiq olaraq ümumdünya ticarətinin böhranlı mərhələlərində yaxud dünyada iqtisadi vəziyyətin gələcək perspektivlərində müəyyən mücərrədlik yarandığı şəraitdə xüsusilə üstün mövqe tutmağa başlayır.

Məsələnin həlli axtarılarkən əvvəlki nəsillərin təcrübəsinə müraciət olunması zərurətinin meydana çıxması, bir qayda olaraq, təlatümlü vaxtların yetişməsinin əlamətidir. Məsələn, indi «Marşall planı», maliyyə qeyri- sabitliyinə müqavimət göstərmək üçün Tobin vergisi, deflyasiya təhlükəsi ilə mübarizə məqsədilə Keynsin xərclərin stimullaşdırılması modeli yada düşür. UNCTAD -m Hesabatında göstərildiyi kimi, bütün bəlaların mənbəyi «liberal beynəlxalq iqtisadi qaydalarda ritorika və reallıq arasındakı rabitəsizlikdir. Bu uyğunsuzluq özünü heç bir yerdə beynəlxalq maliyyədə və beynəlxalq ticarətdə olduğu qədər aydın büruzə vermir. Azad ticarətin üstünlüklərini göylərə qaldırmaqla tərifləyən hökumətlər öz əhalisini və öz istehsalçılarını beynəlxalq rəqabətin dağıdıcı küləklərindən qorumaq üçün bu prosesə müdaxilə etməyə can atır. Məsələn, neomerkantilizm nəzəriyyələrinin qalıqları Uruqvay raundu zamanı əldə edilən razılıqların pozulmasına öz təsirini göstərmişdir»*.

Əlbəttə, UNCTAD mütəxəssislərinin Uruqvay raundunun «pozulmasında» «merkantilizm qalıqlarının» təqsirli olması barədə fikirləri həddən ziyadə şişirdilmə kimi görünür. Uruqvay raundu başa çatdıqdan sonra, o cümlədən Doha raundunun gedişində beynəlxalq ticarət sahəsində irəliləyişlərin olmamasının əsas səbəbləri dünyanın əsas ticarət dövlətlərinin inkişaf etməkdə olan ölkələrin maraqlarına zidd olaraq, öz iri şirkətlərinə üstünlüklər yaradan ticarət rejimlərini möhkəmlətmək məqsədi güdən eqoistik istəyindədir. Təbii ki, bu halda onlar müasir iqtisadi nəzəriyyələrə, ilk növbədə isə malların, ticarətin, pul axınlarının və s. beynəlmiləlləşməsi qarşısında bütün maneələrin aradan götürülməsi ideyasına istinad edən neoliberal beynəlxalq monetarizm nəzəriyyələrinə əsaslanırlar. Amma bu zaman ticari-iqtisadi sahədə hakim mövqe tutan dövlətlər «xüsusi növ əmtəələr» buraxan ölkə istehsalçılarına münasibətdə «müdafiə sədlərini» qoruyub saxlayır (məsələn, kənd təsərrüfatı sahəsində ABŞ, Kanada, Aİ). Bu ziddiyyətlər ÜTT-nin danışıqlarının yeni

' UNCTAD. Trade and Development Report, 2002. UN. N.Y., Geneva, 2002. P. 3.

mərhələsinin (Doha raundu, Qətər, 2001) gedişində, beynəlxalq ticarət danışıqlarının bu yeni mərhələsinin başlanmasından on ildən çox keçdikdən sonra aşkar edilmişdir.

## 6.4. Dünya bazarı və beynəlxalq ticarət

***iqtisadi artım və ticarət şərtləri.*** Ölkələrin ticarət mövqelərinin dəyişməsi barədə ən təsirli təəssüratı müharibədən sonrakı bütün müddət ərzində ABŞ, Qərbi Avropa və Yaponiya arasında bu sahədə irəliləyişlərin təhlili yaradır. İkinci Dünya müharibəsinin sonuna yaxın bütün kapitalizm aləminin ÜDM-in təqribən 50%-i və ümumdünya ticarətinin 47%-i ABŞ-m payına düşürdüsə, 1990-cı ildə bu göstəricilər müvafiq olaraq 32 və 26 faizədək, 2004- cü ildə isə təqribən 30 və 23 faizədək azalmışdır. Ticarət şəraiti ABŞ üçün get- gedə pisləşirdi. Amma əslində bu proses həqiqətən də çox mürəkkəb və çox hallarda ölçülə bilməyən idi. Belə ki, istehsal miqyası hesabına qənaət amilinin, habelə yüksək səviyyədə beynəlxalq əmək bölgüsündən ümumi faydalanma nəzərə alınmaqla, ticarətdə gözəgörünən zərər (əgər bunu belə adlandırmaq mümkündürsə) başqa, o cümlədən gəlirlərin ölkələr arasında bölgüsü ilə əlaqədar’olan amillərin sayəsində kompensasiya olunur.

***Transferlər problemi: xarici ticarət şəraitinə təsiri.*** Dünya iqtisadiyyatı nəzəriyyəsində beynəlxalq transferlərin təsiri onların ticarət şəraitinə və bazar tələbinə (tələbin defomıasiyası) nüfuz etməsi baxımından öyrənilməyə başlamışdır. Tarixən transfer probleminin mənşəyi müharibələrin başa çatması, məğlub ölkənin kontribusiyalar ödəməyə vadar edilməsi (məsələn, 1871-ci ildə Fransa Prussiyaya alçaldıcı məğlubiyyətindən sonra kontribusiya ödəmiş. Birinci Dünya müharibəsindən sonra isə Antanta üzrə müttəfiqlər Almaniya üzərinə reparasiya qoymuşdu) ilə əlaqədar olmuşdur. Transferlərin başqa forması (gəlirlərin transferi) İkinci Dünya müharibəsindən sonra ABŞ tərəfindən müttəfiqlərə və məğlub edilmiş Almaniya və Yaponiyaya kömək göstərilməsidir. 1950-ci ildən etibarən, inkişaf etmiş ölkələr yoxsul ölkələrə və keçmiş müstəmləkələrinə müxtəlif növ iqtisadi və texniki yardımlar göstənnəyə başlamışdır. İqtisad elmi geri qaytarılmalı olduğuna görə xarici borcları transfer kimi nəzərdən keçiraıəsə də, qısamüddətli planda borcların alınması transferdən heç nə ilə fərqlənmir və onunla eyni olan təsir göstərir.

Maraqlıdır ki, transfer probleminin özü iki görkəmli iqtisadçı - B.Olin ilə C.M.Keyns arasında baş venniş məşhur mübahisə zamanı aktuallaşmış, daha

dəqiq desək, yenidən meydana çıxmışdır. Bu mübahisənin predmeti Birinci Dünya müharibəsindən sonra Almaniyanın ödəyəcəyi reparasiyalar olmuşdur. İki məşhur alim reparasiyalarm alman iqtisadiyyatının inkişafına kömək edəcəyi (maneələr yaradacağı) barədə bir-birinə əks olan fikirdə idi'.

Keyns keçirdiyi hərtərəfli tədqiqat nəticəsində sübut edirdi ki, alman iqtisadiyyatının inkişafına qoyulan məhdudiyyətlər Antanta müttəfiqləri tərəfindən Almaniyadan tələb edilən pul ödənişləri ilə bir araya sığmır. Bu ödənişləri yerinə yetimıək üçün Almaniya ixracı artınnalı və idxalın qabağını almalıdır. Buna yalnız ixrac mallarının qiymətlərini ucuzlaşdırmaqla nail olmaq mümkündür. Ticarət şəraitinin pisləşməsi və Almaniya üzərinə qoyulan məhdudiyyətlər reparasiyalarla birlikdə iqtisadi inkişaf üçün əlavə maneəyə çevrilirdi.

Öz növbəsində, Olin sübut edirdi ki, Almaniya reparasiyalarm maliyyələşdirilməsi məqsədilə vergiləri artırdığına və bununla da xarici mallara tələbi ixtisar etdiyinə görə bu reparasiyalar onun ticarət şəraitini o qədər də mürəkkəbləşdirmir. Eyni zamanda reparasiyalarm ödənilməsi onları alan ölkələrdə vergilərin səviyyəsini aşağı salmağa imkan yaradır və bununla da xarici, 0 cümlədən alman mallarına tələbi genişləndirir. Olinin fikrincə, buna görə Almaniya öz idxalını azaltmaq və ixracını artırmaq imkanı qazanır, bu isə, onun ticarət şəraitini heç də pisləşdirmir.

Müəj^ən müddətdən sonra qalib müttəfiqlər reparasiyaları yalnız Almaniyaya «bağışladığına» görə, mübahisənin predmeti olan alman reparasiyaları aktuallığını itirdi. Lakin problem qaldırılmışdır və iqtisadi nəzəriyyə ona mühüm əhəmiyyət verir. Fikirləşirəm ki, bu mübahisədə həmin konkret şəraitə və Almaniyanın iqtisadiyyatına uyğun olaraq, Keyns haqlı idi. Olin isə başqa məsələdə: alman reparasiyalarmm İkinci Dünya müharibəsindən sonrakı 15 il ərzində Almaniyada yaranan ticarət şəraiti nöqteyi-nəzərindən təsirində haqlı oldu. Əvvəlki, «bağışlanılmış» reparasiyalardan fərqli olaraq. İkinci Dünya müharibəsində məğlubiyyətindən sonra Almaniya özü də reparasiyalarm əksər hissəsini SSRİ-yə göndərilən zavodlarla, avadanlıqla, dəzgahlarla ödəməyə məcbur oldu. Ancaq ABŞ-ın köməyi ilə alman iqtisadiyyatı tez bir zamanda, özü də yeni texnoloji baza əsasında (köhnəsi sökülərək başqa ölkələrə «transfer edilmişdi) yenidən quruldu. Bunun

^ *Keynes G.M.* The German Transfer Problem; *Ohiin B.* The German Transfer Problem ; A Discussions // Economic Journal. 1925. №39. P. 172-182.

nəticəsində ölkənin ticarət şəraiti sürətlə yaxşılaşdı və bu, ona dünya bazarında kütləvi əmtəə ekspansiyasına başlamaq imkanı verdi.

Bu mübahisədə istifadə olunmuş bəzi anlayışları izah edək.

*İxraca son hədd meyli.* Donor-ölkənin özündə onun ixrac predmeti olan malların son istehlak həddinin transfer alan ölkə ilə müqayisədə yüksək olması səciyyəvidirsə və onun ticarət şəraitini pisləşdirirsə, transfer donor-ölkə üçün müflisləşdirici ola bilər. Bu meyil transferi alan ölkə ilə müqayisədə az olarsa, əksinə, donor-ölkənin ticarət şəraitini yaxşılaşdıracaqdır. Transferlərin və xarici yardımların ticarət şəraitinə təsiri ən müxtəlif planlı və mürəkkəb olduğuna, onların çoxsaylı daxili amillərlə toqquşmasının isə bir çox hallarda gözlənilməz effekt doğurduğuna görə, özlüyündə həm Keyns, həm də Olin haqlı idilər.

*İdxala son hədd meyli* - milli gəlirin bir valjoıta vahidinə (dollara) artımına nisbətən idxalın həcminin artmasıdır. Müəyyən gəlirlər səviyyəsində ixracla idxal arasındakı fərq xalis ixracı yaxud ticarət balansını ifadə edir. Gəlirlər aşağı olduqda, idxala çəkilən xərclər ixrac xərclərindən az olduğuna görə, ixrac dəyərinin idxal dəyərini üstələməsi müşahidə ediləcəkdir. Gəlirlərin yüksək olduğu şəraitdə isə idxal ixracdan çox olacaq və ticari kəsir yaranacaqdır.

*Ticari kəsir* - malların idxalının onların ixracından çox olmasıdır. Bundan əlavə, ixrac dəyişmədiyi halda idxal çoxaldığına görə, gəlirlərin artması aktiv ticarət saldosunu azaldacaq, ticari kəsirin məbləğini isə yüksəldəcəkdir.

*İdxal və məşğulluğun səviyyəsi.* Ümumi qəbul olunmuş fikir bundan ibarətdir ki, idxal adamların işini əlindən alır. Buna görə də idxalı ixtisar etməklə, ölkə daxilində məşğulluq səviyyəsini artırmaq mümkündür. Bu nöqteyi-nəzər qismən düzgün olsa da, kifayət qədər təhlükəlidir. Onun düzgünlüyü bundadır ki, xaricdə deyil, ölkənin özündə istehsal olunmuş mallara sərf edilən istehlakçı xərclərinin artması, daxili tələbatın çoxalması və deməli,məhsul buraxılışının və məşğulluq səviyyəsinin yüksəlməsi ilə nəticələnməlidir. Deməli, hər dəfə ölkədə işsizlik müşahidə edildikdə, biz məşğulluq səvijq/əsini istehsalı ölkədə mümkün olan malların idxalını məhdudlaşdmnaq yolu ilə yüksəldə bilərik.

İdxalın məhdudlaşdırılmasmm ölkə daxilində məşğulluq səviyyəsinə müsbət təsir göstənnəsi barədə fikrin təhlükəsi isə bu cür ideyaların gerçəkliyə

çevrilməsinin ticarətin dünya miqyasında məhdudlaşması ilə nəticələnə biləcəyindədir. Hər bir ölkə qalan dünyanın hesabına daha yüksək məşğulluq səviyyəsinə nail olmağa çalışacaqdır. İdxalı ixtisar etməklə, hökumətlər qarşılıqlı əlaqədə olan məsələləri, o cümlədən ölkədə məşğulluq səviyyəsini yüksəltmək məqsədi güdür. Amma eyni zamanda həmin iş yerlərinin sayı dünyanın başqa ölkələrində azalır. Onlar da, öz növbəsində, buna həmin ölkədən idxalın azaldılınası ilə cavab verir və orada istehsalın həcmi aşağı düşməyə başlayır. Beləliklə, son nəticədə məşğulluq səviyyəsi məsələsində heç bir tərəf qalib gəlməsə də, ümumdünya ticarətinə ciddi zərbə vurula bilər. Buradan belə nəticə çıxarılır ki, dünyada növbəti iqtisadi tənəzzül baş verdikdə, hər bir ölkənin «məşğulluğu xaricdən oğurlamağa» cəhd etmək siyasəti deyil, qarşılıqlı faydalı, açıq ticarət siyasəti həyata keçirilməlidir! Lakin məhz iqtisadi çətinliklər şəraitində hökumətlərin qarşılıqlı fayda verən ticarət siyasəti üzrə uzlaşdırılmış və açıq addımlar atılınası barədə razılıq əldə etmələri xüsusilə mürəkkəbləşir.

***Xarici ticarət və ölkələrin dünya bazarından asılılığı.*** Ölkələrin iqtisadi asılılığı, müstəqilliyi və qarşılıqlı asılılığı problemləri bəşəriyyətin iqtisadi tarixini daim müşayiət etmişdir. 1960-1970-ci illərdə, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında münasibətlərin xüsusilə kəskinləşdiyi dövrdə əslində qeyri-adekvat tərəfdaşlar - bir tərəfdən, sənayeləşmiş, digər tərəfdən isə, inkişaf etməkdə olan ölkələr arasında ticarətin xarakteri ilə bağlı olan fundamental bazaya istinad edən bu problem ətrafında mübahisələr yeni qüvvə ilə alovlandı. 1990-cı illərdə əvvəlki onilliklər ərzində qarşılıqlı ticarət münasibətlərinin artıq ənənəyə çevrilmiş bu sxemi də mürəkkəbləşdi: sənaye ölkələri qrupu ilə qarşıdurma təşkil edən inkişaf etməkdə olan ölkələr qrupuna, demək olar ki, eyni iqtisadi struktura malik, keçmiş sosializm sisteminin sənayesi dağılmış ölkələri bazasında yaranan yeni bir qrupun qoşulması nəticəsində bir növ üçbucaq meydana çıxdı. Bu, ümumdünya ticarətinin təşəkkül tapmaqda olan mexanizmini son dərəcədə mürəkkəbləşdirdi, bir sıra hallarda orada yaranmış əlaqələri, o cümlədən uzunmüddətli münasibətləri deformasiyaya uğratdı. Burada aşağıdakı xüsusiyyətlərin qeyd olunması zəruridir':

*Birinci xüsusiyyət* inkişaf etmiş və göstərilən iki qrupdan olan ölkələrin xarici ticarətində köklü fərq kimi, ixrac edilən malların tərkibinin sayca [*]

* *Fisher C.* Economy / C.Fisher, C.Dorybus, P.Shmalenz. M. 1997. P. 537.

məhdud olmasındadır: inkişaf etməkdə olan ölkələr təbii məhsullar və xammal, yeni kapitalist ölkələri isə xammal və sadə məmulatlar, məhdud sayda maşın-texnika məhsulları (silah barədə danışıldıqda, bu mallar Rusiya və Ukraynanın sənayesi dağılmış iqtisadi mühitindən istisnadır) təklif edirlər.

***İkinci xüsusiyyət*** inkişaf etməkdə olan və yeni kapitalist ölkələrinin dünya bazarlarından güelü asılılığıdır. Nisbətən zəif inkişaf etmiş iqtisadi sistemlərin incə cəhəti onların xarici ticarətinin əsasən xammal ixracına istiqamətlənərək, hazır məhsullar istehsal edən sahələrdən, demək olar ki, təcrid olunmuş halda fəaliyyət göstərməsidir. Bu sektordan gələn valyuta mədaxilləri hesabına həm bütövlükdə iqtisadi sistem, həm də muzdlu işçi qüvvəsinin əsas hissəsinin son dərəcə aşağı olan əmək haqqının səvİ5^əsi saxlanılır.

***Malların və xidmətlərin ixracı və idxalı baxımından iqtisadi artım tipi.*** Xarici ticarətin istiqamətlənməsi xarakterinə görə iqtisadi artımın aşağıdakı tipləri fərqləndirilir:

• istehsal imkanlarını ixrac olunan mal istiqamətində qeyri-bərabər tərzdə genişləndirən ixracyönümlü artım;

• istehsalın ölkəyə gətirilən malların idxalının əvəzləndirilməsinə yönəlmiş artımı.

Müəyyən vaxt silsiləsində aparılan təhlil göstərir ki, ixracyönümlü artım iqtisadiyyatı inkişaf edən ölkələrin ticarət şəraitini pisləşdirir. İdxalın əvəz olunmasına yönəlmiş artım iqtisadiyyatı inkişaf edən ölkələrin ticarət şəraitini yaxşılaşdırır.

İxrac sahələrinin genişlənməsinin ticarət şəraitini həddən böyük miqyasda pisləşdinnəsi nəticəsində maddi rifahın yüksəlməsi ilə onların artımı arasında əlaqənin kəsildiyi vəziyyətin yaranması da mümkündür. Belə vəziyyət iqtisadi ədəbiyyatdan müflisləşdirici artım hadisəsi kimi məlumdur (1992- 1999-cu illərdə Rusiyadakı vəziyyət, habelə 2001-2008-ci illərdə sel kimi axıb gələn neft dollarları şəraitində artım buna nümunədir).

***Müstəqillik, asılılıq və qarşılıqlı asılılıq konsepsiyaları.*** Bu konsepsiyalar ümumdünya ticarətinin stmkturunu və ölkələrin ticarət siyasətini izah etməyə imkan verir. Müstəqillik halında ölkə malların, xidmətlərin yaxud texnologiyaların başqa dövlətlərdən alınmasından asılı deyil. Qarşılıqlı asılılıq onların müdafiəsizlik dərəcəsinin aşağı salınması fonnalarından biri kimi nəzərdən keçirilir. Buna misal olaraq, çox zaman iqtisadiyyatları bir-birindən

3äiksək dərəcədə qarşılıqlı asılı olan Almaniya və Fransanı göstərirlər. Bu asılılıq o dərəcədədir ki, onlardan birinin müəyyən sahədə, məsələn, ticarətdə digərinin maraqlarına toxunması, həmin andaca buna təşəbbüs göstərən ölkəyə qarşı adekvat zərər vurulması ilə nəticələnə bilən addımların atılmasına səbəb olacaq. Buna görə də onların bir-birinə qarşı məhdudi)^ətlər tətbiq etməsi ehtimalı, demək olar ki, yoxdur.

«Asılılıq» anlayışı, ümumi iqtisadi və texniki geriliyi, xammal və aqrar sahələrin üstünlük təşkil etməsi nəzərə alınaraq, adətən inkişaf etməkdə olan ölkələrə şamil edilir. Amma burada inkişaf etməkdə olan ölkələrin çoxunun məhdud sayda ixrac malları yönümündə ixtisaslaşması və öz ixracını az sayda ölkələrə göndərməsinə kifayət qədər diqqət yetirilmir. Eyni zamanda inkişaf etmiş ölkə olan Kanada öz ixracının yarısından çoxunu yalnız bir ölkəyə, ABŞ- a göndərir və buna görə də orada baş verən enmələr və böhranlar dərhal sinxron surətdə Kanadanın iqtisadiyyatında, ilk növbədə, onun ixracyönümlü sahələrində əks olunur. Bütövlükdə isə, bu münasibətlər inkişaf etməkdə olan ölkələrin əlaqələrinə aid olunur. Aşağıda bu cür asılılıq barədə məlumatlar verilir (cədvəl 6.2).

*Cədvəl 6.2*

**İnkişaf etməkdə olan ölkələrin bir tərəfdaşdan asılılığı*, 1995-2000-ci illər**

| ölkə | İxrac bazarı | İnkişaf etməkdə olan ölkənin payı, % |
|---|---|---|
| Bruney | Yaponiya | 52 |
| Mərkəzi Afrika Respublikası | Fransa | 38 |
| Mavriki | Böyük Britaniya | 40 |
| Meksika | ABŞ | 60 |
| Somali | Səudiyyə Ərəbistanı | 85 |
| Kot-d'İvuar | Fransa | 57 |

* Yearboook of International Statistics. UN Departments of International Economic and Social Affairs, 1996; 2009; Survey of Current Business, 2009. P. 119.

1950-1980-Cİ illərdən fərqli olaraq, hazırda yalnız bir-iki növ ticarət məhsulundan asılı olan ölkələrin sayı azdır. Amma ticarətinin əsas hissəsi cəmi 2-5 dövlətin payına düşən inkişaf etməkdə olan ölkələrin sayı çoxdur və onların həmin dövlətlərdə işgüzarlığın inkişaf mərhələsindən asılılığı güclüdür. Görünür ki, bir neçə on il əvvəl inkişaf etməkdə olan ölkələrin iqtisadi artımını

və onun şaxələnmə proseslərini ləngidən bu asılılıq, ticarət strategiyaları işlənib hazırlanarkən amil kimi nəzərə alınmışdır. Buna görə də onlar inkişaf etməkdə olan ölkələrin klassik mallardan, məsələn, yalnız xammal və tropik bitkilərin ixracından asılılığını azaltmaq üçün vəziyyəti dəyişdirməyə çalışırdı. Bu məqsədlə inkişaf etməkdə olan ölkələr hazır məhsulların istehsalının, o cümlədən ixracının genişləndirilməsinə səylər göstərirdi. İnkişaf etməkdə olan ölkələrin özünəməxsus *üç ticarət strategiyası* məhz bu nöqteyi-nəzərdən müəyyənləşdirilmiş və bunların hər birinə ölkələr qrupları daxil olmuşdur.

*Birinci qrnpım ölkələri* inkişaf etmiş ölkələrə yaxınlaşır və bura Honkonq, Sinqapur, Tayvan, Cənubi Koreya, İsrail kimi dövlətlər daxildir. Bu ölkələrin hamısında təbii resurslar kasaddır və buna görə də onlar öz səylərini əməktutumlu son məhsulun ixracı üzərində cəmləşdirməyə məcburdur. Onlar hələ 1960-1970-ci illərdə dünya bazarlarına kifayət qədər mürəkkəb məmulatlar ixrac etməyə başlamış və Qərb ölkələri ilə müvəffəqi}^ətlə, o cümlədən işçilərin əmək haqlarının aşağı olması sayəsində rəqabət apara bilmişlər. Portuqaliya və Yunanıstan kimi dövlətlər isə artıq 1970-ci illərin sonunda inkişaf etmiş ölkələr qrupuna daxil olmuşdur.

*İkinci qrupun ölkələri* - Argentina, Braziliya, Meksika və Türkiyə (inkişaf etməkdə olan ölkələrin orta kapitalist yetkinliyi ölkələri ilə həmsərhəd «yuxarı» qrupu); bunlar emal olunaraq hazır məmulata çevrilmək üçün xammala və kifayət qədər tutumlu daxili bazara malikdirlər. Sonuncu məqam öz növbəsində onlara irimiqyaslı istehsalı təşkil etməyə imkan yaradırdı. Bu strategiyanın sayəsində həmin ölkələr həm istehsal təyinatlı və aralıq məhsulların ixracında, həm də istehlak bazarlarında, o cümlədən tikintidə müəyyən nailiyyətlər əldə etmişdir.

*Ölkələrin üçüncü qrupuna,* adətən, sürətli inkişafla fərqlənən Hindistanı və Misiri aid edirlər. Onlar standartlaşdırılmış aralıq məhsulların (toxuculuq malları, məişət texnikasının lisenziyalaşdırılmış növləri, tikinti məmulatları və s.) ixrac üçün buraxılışını təşkil etmişlər. Son illərdə burada autsorsinq müvəffəqiyyətlə inkişaf etməyə başlamışdır.

Yuxarıda göstərilən hər üç strategiyanı birlikdə tətbiq edən Çin *xüsusi halı* təmsil edir.

***İxrac imkanları.*** Firmalar, bir qayda olaraq, cari və uzunmüddətli dövrdə daxili tələbatın zəifliyi yaxud başqa səbəblərdən təyinatı üzrə istifadə edilməyən istehsal güclərinə, məsələn, təbii resurslar ehtiyatlarına, müəyyən

məhsulun buraxılması üçün təyin olunmuş və başqa malların istehsalında tətbiq edilə bilməyən istehsal güclərinə və s. malik olur.

Şirkətlər məhsul buraxılışını iki dəfə artırdıqda öz xərclərini 20-30% azalda bilər. Buna görə də müasir şəraitdə şirkətlər, xüsusilə də iri şirkətlər məhsul istehsalının artırılması üzrə əməliyyatlarını planlaşdırarkən, yalnız ölkədaxili dəyişikliklərlə məhdudlaşmayaraq, onların bazarlarını qlobal mövqedən müəyyənləşdirir.

***İxrac üçün istehsal şirkətlərin mənfəətliliyinin artırılması amili kimi.*** Müəyyən şəraitdə istehsalçı firma öz məhsullarını xarici bazarlarda evdəki ilə müqayisədə daha böyük fayda ilə sata bilər. Bu, müxtəlif səbəblər, o cümlədən əmtəənin xaricdə başqa həyat dövründə olması ilə əlaqədar olaraq, ölkə daxilində və xarici ölkədəki rəqabət mühitinin müxtəlifliyi ilə bağlı ola bilər. Nəticədə ölkə daxilində yetkinlik mərhələsi malın daxili qiymətinin ucuzlaşmasına, eyni zamanda xaricdə artım mərhələsində olması isə qiymət probleminin aradan qaldırılmasına gətirib çıxara bilər. Mənfəətlilik, həmçinin, ölkədə və xaricdə dövlət tənzimlənməsinin müxtəlifliyi (gəlirlərə vergi qoyulması, qiymətlərin, tariflərin, rüsumların tənzimlənməsi və s.) nəticəsində də arta bilər.

***Risklərin bölüşdürülməsi.*** İstehsalçı fınna öz mallarının satışını bir ölkə bazarının hüdudlarından kənara çıxartdıqda, eyni malın həyat dövrünün mərhələləri ilə ölkələrin işgüzar fəallıq mərhələlərinin fazalarının müxtəlif olması səbəbindən tələbatın tərəddüdü minimum səviyyəyə enir. İxrac vasitəsilə riskin aşağı salınmasının başqa istiqaməti istehlakçılar dairəsinin genişləndirilməsidir ki, bu halda ölkə daxilində müştərilərin bir hissəsinin itirilməsi kompensasiya olunur.

***İdxal imkanları.*** Şirkətlər öz istehsal müəssisələrində istifadə etmək üçün daha ucuz, keyfiyyətli xammal və materiallar, hazır və komplektləşdirici məmulatlar axtardıqlarına görə xarici ticarətdə iştirak üçün siqnal (impuls) təkcə ixracatçıdan deyil, həmçinin, idxalçıdan da daxil ola bilər. Başqa halda fınna özünün əmtəə qrupunun çeşidini artırmaq məqsədilə başqa ölkələrdə istehsal olunmuş yeni mallar axtarır və bu, ona təklifi artırmağa, idxala isə ticarət-bölgü şəbəkəsinin izafi güclərindən yararlanmaq imkanı verir.

Xammalın, materialların və komplektləşdirici məmulatların beynəlxalq göndərişləri istehsal xərclərini azaltmağa yaxud hazır məhsulların keyfiyyətini yüksəltməyə imkan yaratdıqda isə onları alan fınna idxal edilən mallarla

rəqabətə tab gətirə bilir yaxud özü ixrac bazarlarında uğurla rəqabət aparır. Bununla əlaqədar olaraq, təhlilçilər qlobal rəqabətə nümunə kimi, xərclərin azaldılması baxımından subpodratçılardan, o cümlədən xarici malgöndərənlərdən asılı olan avtomobilqayırma sənayesinə istinad edirlər'.

İdxalçı da ixracatçı kimi hərəkət edir: malgöndərənlər dairəsini genişləndirərək, firma yeganə malgöndərənin (inhisarçının) iradəsindən (hökmündən) asılılığını zəiflədir və bununla da, öz əməliyyat risklərini bölüşdürür.

***Xarici ticarətdə tarazlığın şərtləri.*** Xarici ticarətdə tarazlığın şərtləri - bir ölkənin ixracı ilə idxalı həcmlərinin arasındakı nisbətdir və onun konkret ixrac həcmi müqabilində xaricdən nə qədər məhsul ala biləcəyini göstərir. Xammalın və kənd təsərrüfatı məhsullarının qiymətləri hazır malların qiyməti ilə müqayisədə ləng bahalaşdığından, müəyyən müddətdən sonra onların əldə olunması üçün daha çox ilkin material tələb olunur. Bununla yanaşı, ilkin materiallara tələbin də hazır mallarla müqayisədə ləng artması nəticəsində inkişaf etməkdə olan ölkələr sənaye ölkələrindən fərqli olaraq get-gedə daha da yoxsullaşır. Bu fakt gələcəkdə ənənəvi xammal və materialları əvəz edəcək emal sənayesi məhsulları istehsal edən yeni müəssisələrin fəaliyyətinin müdafiə olunmasını tənzimləyən müvafiq normaların işlənib hazırlanmasını şərtləndirir.

Xarici ticarətdə tarazlıq şərtlərinin inkişaf etməkdə olan ölkələr üçün pisləşməsi müəyyən dərəcədə kənd təsərrüfatı məhsullarına tələbatın geridə qalması və başqa ölkələrdə resurslara qənaət edən texnologiyaların yaradılması ilə izah olunur. Başqa bir səbəb rəqabət şərtləri üzündən ilkin məhsulların istehsal xərclərini aşağı salan texniki təkmilləşdirmələrdən əldə olunan qənaətin bö3mk bir hissəsinin istehlakçıların üzərinə keçirilməsi, hazır məhsulların istehsal xərclərinin azalmasının isə mənfəətin və əmək haqqının artmasına imkan yaratmasıdır.

***İdxalın əvəzləndirilməsi yaxud ixracın stimullaşdırılması.*** İdxala məhdudiyyətlər qoyulduğu bir çox hallarda ölkənin yerli istehlak üçün əvvəllər xaricdən gətirdiyi malları özünün istehsal etməyə başlaması üçün şərait yarana bilər. Bu hal idxalın əvəzləndirilməsi kimi məlumdur. Son onilliklərdə müxtəlif ölkələrin mütəxəssisləri ixracın ölkədə buraxılan mallarla əvəz olunmasının

*ДэниэлсД.Д.* Международный бизнес/Д.Д.Дэниэлс, Л.Х.Радеба. М.: Дело Лтд, 2001. С. 142-144.

yeni istehsal sahələrinin proteksionizm tədbirlərininköməyi ilə inkişaf etdirilməsi üçün, həqiqətən də, ən yaxşı üsul olduğuna şübhə ilə yanaşmağa başlamışlar. İş burasındadır ki, əvəz olunmuş sahələr səmərə vermədikdə, istehlakçılar onların dəstəklənməsi üçün baha qiymət və həddən yüksək vergilər ödəmək məcburiyyəti qarşısında qalırlar. Bundan başqa, əsas avadanlıq və başqa maddi-texniki vəsaitlər adətən idxal edilməli olunduğuna görə valyutaya qənaət minimum məbləğə düşür. Dünya ixrac sahələrinin stimullaşdırılması, ixracyönümlü inkişaf kimi məlum olan proses sayəsində Malayziya və Cənubi Koreyanın sürətli inkişafının, tez bir zamanda aktiv ticarət balansına və iqtisadi artıma nail olmasının sübutudur. İndinin özündə də bəzi ölkələr bu məqsədlə məntiqə görə ixrac bazarlarının mövcudluğu tələb edilən sahələri (məsələn, hazırda dünya bazarına emal olunmamış halda ixrac edilən xammalın emalı) sənaye əsasına keçirməyə cəhd göstərir. Bu dəyişikliklər həmin ölkələrdə fəaliyyət göstərən transmilli şirkətlərin maraqlarına da toxunur; əvvəl onlar xarici ölkədə istehsal etdikləri malları elə oradaca sata bilirdilərsə, indi onlardan həmin məhsulları ixrac etmək tələb olunur. Bu strategiya iqtisadiyyatı transformasiya olunan bir sıra ölkələrdə (o cümlədən Rusiya, Ukrayna, Qazaxıstan və başqalannda) həyata keçirilməyə başlamışdır.

Reallıqda isə sənayeləşmənin iki tipini fərqləndinnək o qədər də asan, ixraca yönəlmiş istehsalı inkişaf etdirmək isə bir sıra hallarda, ümumiyyətlə, mümkün deyil. Sənayeləşdirmə ilk vaxtlar idxalın əvəzləndirilməsi ilə nəticələnsə də, sonrakı dövrlərdə həmin məhsulun ixrac üçün istehsal edilməsinin inkişafı da mümkündür. Ölkənin sənayeləşdirmə üzrə fəaliyyətinin nisbi üstünlüklərə malik olan mallar üzərində cəmləşdinnəsi hələ bu əsasda ixracın inkişaf edəcəyinə heç bir təminat vennir. Bundan başqa, İƏİT qrupuna daxil olmayan ölkələrin hazır mallarının ixracının inkişafını problemə çevirən müxtəlif sədlər (biz onları aşağıda nəzərdən keçirəcəyik) mövcuddur.

***Başqa ölkələrlə əlaqələr.*** Xarici ticarətə məhdudiyyətlər qoyan ölkələr bu yolla özlərinin iqtisadi və siyasi mövqelərini möhkəmləndirir yaxud buna səy göstərir. Bu, özünü *tədiyyə balansının tənzimlənməsində* ifadə edir. *Xarici ticarət balansı* əksər ölkələrdə *ümumi tədiyyə balansının* əsas tərkib hissəsi olduğuna görə hökumətlər ixrac və idxalın hərəkətinə təsir göstənuək üçün müxtəlif cəhdlər edir. Xarici ticarətə təsir göstərilməsi tədiyyə balansının tənzimlənməsinin iqtisadiyyatın deflyasiyası və valyutanın devalvasiyası kimi

vasitələrindən əsasən daha dəqiq seçmə qabili}q/əti ilə fərqlənir. Dövlət tənzimlənməsinin başqa mexanizmləri ilə müqayisə olunduqda, onun həm üstün, həm də çatışmayan cəhətləri mövcuddur. Misal üçün, ölkənin tədiyyə balansında kəsir varsa, devalvasiya yaxud daxili deflyasiya ölkədə istehsal olunan malları xarici mallara nisbətən ucuzlaşdıra bilər. Bu, ixraca və idxala, habelə xidmət sahələrinə, o cümlədən turizm daxil olmaqla xidmət sahələrinə hərtərəfli təsir göstərəcəkdir. Bəzən daxili qiymətlərdə başqa ölkələrin qiymətləri ilə müqayisədə hətta nəzərə çarpmayan dəyişikliyin baş verməsi tədiyyə balansının vəzij^ətinə mənfi təsirini göstərir. Bundan başqa, belə hal xarici mühitin güclü təsiri nəticəsində istənilən sahənin tənzimlənməsinin səmərəliliyini zəiflədir.

***Ölkələrin beynəlxalq ticarətə cəlbolunmai səviyyəsi (ölkənin beynəlmiləlləşməsi indeksi).*** Milli və beynəlxalq statistik məlumatların təhlili ölkənin ÜDM-də ticarətin payı göstəricisini, yəni ölkələrin beynəlxalq ticarət sisteminə cəlb olunmasının getdikcə güclənən meyllini müəyyənləşdirməyə imkan verir. Buna müvafiq olaraq, konkret ölkə barədə danışıldıqda, onun bu prosesə cəlb olunmasının ***dərəcəsi və miqyası*** nəzərdə tutulur. Məsələnin bu cür qoyulduğu halda bütün ölkələri bir neçə qrupa bölmək olar.

***Birinci qrup.*** Avropanın «kiçik ölkələrinin» (Belçika, Hollandiya, Benilüks ölkələri), habelə Skandinaviya ölkələrinin (İsveç, Finlandiya, Danimarka, Norveç, İrlandiya və İslandiya) beynəlxalq ticarətdə iştirak payı ənənəvi olaraq yüksəkdir. Onların beynəlxalq ticarətinə milli iqtisadiyyatın, demək olar ki, bütün sektorları cəlb olunmuşdur (85%-dən yuxarı), xarici ticarətin həcmi göstəricisinin ÜDM-ə nisbəti isə ən yüksəkdir (yalnız Honkonqdan geridə qalır). Bu, beynəlxalq ticarətə yüksək səviyyədə (əmsalla) cəlb olunmuş ölkələr qrupudur.

***İkinci qrupa*** İƏİT ölkələrinin əksəriyyəti, Yaponiya, ABŞ (ÜDM-də pay 1970-ci illərin əvvəlində 7-8%, 2003-2008-ci illərdə isə 25-26%-dən yuxarı), Almaniya, Fransa, İtaliya, İspaniya və başqaları daxildir.

***Üçüncü qrup*** qalan ölkələrdən ibarətdir, hərçənd burada, o cümlədən inkişaf etməkdə olan ölkələr arasında müvafiq təsnifatlaşdırmanm aparılması vacibdir. Bu ölkələr də beynəlxalq ticarətə cəlb olunmuşdur.

Ölkələrin ticarət mövqelərində daim dəyişikliklər baş verir: bəzilərininki yaxşılaşır, başqalarında müxtəlif amillərin təsiri altında pisləşir, digərlərinin mövqeyi dəyişmir və s. Bununla bərabər, ölkələrin çoxunun ***kompensa-***

***siyalaşdıran*** ticarət siyasətini həyata keçimıək imkanı yaranır. Məsələn, müasir dünyanın inkişaf dinamikası ticarət bazarlarının ABŞ və Qərbi Avropadan inkişaf etməkdə olan ölkələrə, o cümlədən Asiya-Sakit Okean dövlətlərinə, ASEAN-a, Çinə və Hindistana, Afrika və Latın Amerikası ölkələrinə (MDB məkanına isə nisbətən az) doğru yerdəyişməsinin beynəlxalq ticarət və beynəlxalq maliyyənin sağlamlaşdırılmasma əhəmiyyətli dərəcədə pozitiv təsir etdiyini göstərir. Son illərdə ümumdünya ticarətinin dinamikası ilə ümumdünya iqtisadi artım templəri arasındakı əlaqələr daha da aydın nəzərə çarpır. İndi bu üç region Avropanın istənilən ölkəsi ilə müqayisədə Amerika malları üçün daha böyük potensial bazara çevrilmişdir.

Ümumilikdə isə dünya üzrə malların idxalının 55-60%-i (bəzi tərəddüdlə) inkişaf etmiş ölkələrin payına düşür. Bu payın 75%-ə yaxmı inkişaf etmiş ölkələrin özləri arasında satılır, təqribən 20%-i inkişaf etməkdə olan ölkələrə yönəldilir, 2%-ə yaxmı isə postsosialist ölkələrinə düşür. Bu nisbətlər sonuncu onillik ərzində, demək olar ki, dəyişməmişdir. Öz növbəsində inkişaf etməkdə olan ölkələr ixrac etdikləri malların 75%-ə yaxınını sənayeləşmiş ölkələrə göndərir. Malların təqribən 20%-i onların öz aralarındakı qarşılıqlı ticarətdə satılır, 4%-i isə keçmiş sosializm və MDB ölkələrinin payına düşür. İnkişaf etmiş ölkələr və Çin ümumdünya ticarətini daim nəzarətdə saxlayır: onun həcminin əsas hissəsi dörd aparıcı mərkəzin (qlobal kvadriliya) payına düşür. Burada da dünya üzrə malların ixracının və idxalının 41%-ə yaxmı Qərbi Avropanın, təqribən 20%-i Şimali Amerikanın, təxminən bu qədəri Asiyanın, 6%-ə qədəri Latın Amerikasının, 4%-i Orta Şərqin, 3,6%-i Afrika ölkələrinin payına düşür.

Qeyd olunmalıdır ki, 1980-2008-ci illərdə inteqrasiya birliklərinin üzvü olan ölkələrin region daxilində ixracının payı fasiləsiz artmışdır. Bu, ilk növbədə, Avropa İttifaqına, NAFTA-ya və APEC ölkələrinin göstəricilərinə aiddir. Təşkilati baxımdan APEC iştirakçılarını mütləq öhdəliklərlə və şərtlərlə ən aşağı səviyyədə bir-birinə bağlayan amorf beynəlxalq təşkilatdır. Buna baxmayaraq, onun iştirakçılarının ticarət əlaqələrinin təmərküzləşmə dərəcəsi yalnız Avropa İttifaqından geri qalmaqla, başqa inteqrasiya qruplarından yüksəkdir. Amma APEC ölkələri ticari-iqtisadi əlaqələrin genişləndirilməsi məsələlərini ikitərəfli və çoxtərəfli danışıqlar yolu ilə öz aralarında müstəqil həll etdiyinə görə bu regionda ticarət əlaqələrinin intensivləşməsini təkcə APEC-in fəaliyyəti ilə əlaqələndirmək olmaz.

Aİ, NAFTA, ASEAN və müəyyən dərəcədə APEC kimi birliklərdə regiondaxili ticarətin xüsusiyyəti, sahənin həmin ölkələrin iqtisadiyyatlarının *bir-birini tamamlayan* xarakterdə olması sayəsində inkişaf etməsindədir. Bu xüsusiyyət qarşılıqlı maraqları gücləndirir, ticarət üçün əlavə stimullar yaradır. Düzdür, ölkələrin iqtisadiyyatlarının bir-birini bu cür obyektiv tamamlaması ticarətdə həmişə müsbət nəticə vennir. Buna nümunə milli iqtisadi}^atları tarixən uzun müddət ərzində ümumi, vahid regional-ölkə sisteminin altsistemi şəklində inkişaf edən, bir-birini tamamlaması, demək olar ki, mütləq xarakter daşıyan MDB-dir. Buna baxmayaraq, MDB-də qarşılıqlı ticarət aşkar surətdə ixtisara meyillidir. Görünür ki, bəzi hallarda siyasi instinktlər *iqtisadi tendensiyaların müəyyənləşdirilməsində* həlledici rol oynayır və bu, özünü diktatura qalıqları olan, xüsusi mülkiyyət institutları möhkəmlənməmiş zəif ölkələrdə daha aydın büruzə verir.

Aİ ölkələri arasında qarşılıqlı ticarətin payının azalmasını mütləqləşdirmək lazım deyil, bu hal zaman və məkan baxımından müvəqqəti xarakter daşıyır. Bu birliyə 12 yeni ölkənin daxil olması Avropa İttifaqının ticarət ekspansiyasına təkan versə də, iqtisadi inkişaf səviyyəsinin qeyri- bərabərliyi, əhalinin rifahının fərqlənməsi, struktur və regional məsələlər və s. ilə əlaqədar olaraq, onlar ciddi problemlərlə qarşılaşırlar. Bu problemlər hələ uzun illər ərzində özünü göstərəcəkdir. Ehtimal ki, 2010-2011-ci illərdə Yunanıstanın problemləri qlobal böhran şəraitində Brüsselin diqqətinin Aİ-nin çoxsaylı, çətin idarə olunan iştirakçıları arasında dağılması nəticəsində yığılıb qalmışdı.

Aydındır ki, inkişaf etmiş ölkələr üçün regiondaxili əlaqələrin gücləndirilməsi keyfiyyətcə daha yüksək olan başqa bir prosesin - beynəlxalq əmək bölgüsünün təkmilləşdirilməsi ilə əlaqədar olaraq, Qərbi Avropa ölkələrinin bir-biri ilə rəqabət aparan müəssisələrində istehsal bazasının institusional dəyişikliklərə uyğunlaşması nəticəsində yeni texnologiyalara transformasiyasının təzahürüdür. «Aralıq vəziyyətdə» (məsələn, inkişaf etməkdə olan klassik ölkələrdən orta səviyyədə inkişaf etmiş ölkələrə keçid) olan ölkələrdə isə regional əlaqələrin güclənməsi keçmiş metropoliyalar üçün maraq kəsb etməyən yerli mallara satış bazarlarının axtarılması məqsədinə tabedir. Amma son iki onillik ərzində bütün dünyada şaxələnmiş istehsal- satış şəbəkəsi olan TMK-nm nüfuzunun həmin ölkələrdə güclənməsi səbəbindən onların öz istehsal-ticarət (iqtisadi) vəziyyəti kifayət qədər

mürəkkəbləşir. Məlumdur ki, TMK-nm mərkəzləri, adətən, inkişaf etmiş ölkələrdə yerləşir, kooperasiya əlaqələri isə bəzən onun öz filialları arasında qapanır. Nəticədə TMK-nın istehsal-satış fəaliyyəti milli iqtisadiyyatın hüdudlarından «kənara çıxarıldığına» və yerləşdiyi ölkə üçün bir növ virtual xarakter daşıdığına görə onlar bu işlərdən gözlənilən faydanı əldə etmir. Buna baxmayaraq, ümumi statistik göstəricilər, o cümlədən regional və beynəlxalq ticarət haqqında məlumatlar getdikcə pozitivləşir.

Bununla yanaşı, idxal olunan xammalın fiziki həcminin azalmasının ümumi tendensiyası müşahidə olunmaqdadır. Burada enerji resursları istisnalıq təşkil edir: bu tələbat Çində və Hindistanda, habelə son onillik ərzində intensiv inkişaf edən başqa YSÖ-də xüsusilə sürətlə artır. Öz növbəsində, xammal idxalının payının aşağı düşməsi üç əsas səbəblə izah edilir:

1) kimya sənayesinin inkişafı əsasında sintetik materialların istehsalının genişlənməsi;

2) ölkənin öz xammalından istifadə etməsi imkanlarının artması;

3) resurslara qənaət edəri texnologiyalara keçid.

Eyni zamanda kimya sənayesinin inkişafı və yanacaq-enerji balansının strukturunda dəyişikliklərin baş vemıəsi nəticəsində mineral yanacaq - neft və təbii qazla beynəlxalq ticarətin həcmi kəskin surətdə artmışdır. Lakin bu meyil qeyri-sabit xarakter daşıyır, istehsalın texnoloji bazasında baş verən dəyişikliklərdən, habelə dünya iqtisadiyyatında öz-özünə meydana çıxaraq zahirən təsadüfi hal kimi görünən amillərin təsirinə məruz qalan sənaye mərhələsinin dinamikasından asılıdır. Məsələn, 1996-2000-ci illərin əvvəlini əhatə edən dövrə nəzər yetirdikdə, iki səciyyəvi meyli fərqləndirmək olar: birincisi. Qərbi Avropa və Şimali Amerika ölkələrinin sabit iqtisadi inkişafı üçün yaranan əlverişli şərait enerji daşıyıcılarına tələbatın artmasını və neftin qiymətinin sabit qalmasım şərtləndirmişdir; ikincisi, dünya bazarlarında neftin qiymətinin misli görünməmiş dərəcədə ucuzlaşması. Yalnız 1999-cu ildə neftin qiyməti yüksəlməyə başlamış və müəyyən dövrdə paradoksal səviyyəyə çatmışdır (2008-ci ilin iyununda 1 barrelə görə təqribən 150 dollar olmuşdur); bu sahədə möhtəkirlik amilinin rol oynadığı aydındır. Neftin qiymətinin bahalaşması üç ildən çox (1999-2002-ci illər) davam etmiş, sonra barrelə görə 28-30 dollar civarında sabitləşərək 2004-cü ilin baharınadək 30 dollar ətrafında tərəddüd etmişdir. 2004-cü ilin yayında neftin qiyməti sürətlə yuxarı sıçrayaraq, ilk dəfə barrelə görə 50 dollar həddini keçmiş, bəzən isə Nyu-York

fond birjasında 60 dollaradək bahalaşmışdır. 2004-2008-ci illərdə neftin barelinin qiyməti 80 dollardan aşağı düşməmiş və qeyd etdiyimiz kimi, 150 dollara çatmışdır.

***Regional artım və ümumdünya ticarətinin əmtəə strukturu müasir istehsal vasitələrinin payının çoxalması meylinin təzahürüdür.*** Sonuncu on il ərzində ümumdünya ticarətinin əmtəə strukturunda baş verən ən böyük dəyişikliklər hazır məhsulların payının artması vəziyyətində xammalın payının getdikcə azalması ilə əlaqədardır. Bu dəyişikliklər istehsal amillərinin inkişafının, BƏB dərinləşməsinin və əsasən, texnoloji inqilabların, milli iqtisadiyyatların strukturundakı irəliləyişlərin nəticəsidir.

Ticari axınların sənaye mərkəzləri arasında təmərküzləşməsinin ümumi meylinin dayanıqlılığına baxmayaraq, yüksək ehtimalla gələcəkdə daha böyük əhəmiyyət kəsb edə biləcək yeni proseslər də müşahidə olunur. Məsələn, 1990- cı illərdə və 2001-2010-cu illərdə Avrasiya və Şərqi Avropa ölkələrinin payına düşən ticarətin azalması ilə yanaşı, ümumdünya ticarətində «Çin amili» güclənir, Hindistanın ticari-iqtisadi potensialı sürətlə yüksəlir; bu cəhətdən Latın Amerikası ölkələri (Braziliya, Argentina, Çili, Meksika), Misir, Səudiyyə Ərəbistanı, BƏƏ daha böyük rol oynamağa başlayır. Mahiyyətcə, ticarətin artımı dünya bazarında beynəlxalq istehsalın və maliyyə-bazar xidmətlərinin regional strukturunu kifayət qədər dəqiq əks etdirir. Buna müvafiq olaraq, ticari axınların güclənməsi ölkələr və regionlar üzrə əhəmiyyətli dərəcədə seçilir, ümumdünya ticarətinin nəzərəçarpan artdığı yaxud azaldığı sahələr fərqlənir.

Birincisi, onilliklər ərzində ciddi çətinliklərə məruz qalan Yaponiyada iqtisadi artımın səngiməsi ilə bağlı olaraq, onun idxalı azalmışdır. İyenanın məzənnəsinin yüksəlməsi və ölkənin ixracında bahalı malların payının çoxalması (bəzi hallarda «ixracda könüllü məhdudiyyətlərin» tətbiqi ilə əlaqədar) nəticəsində ticarət balansının dollarla ifadə olunmuş kəsirinin artmasına baxmayaraq, Yaponiyanın ixracının fiziki həcminin artım tempi də zəifləmişdi.

İkincisi, ABŞ-m xarici ticarətinin mütəmadi olaraq kəsirlə yekunlaşmasına baxmayaraq, 1993-cü ildən sonra ölkənin ixracı və idxalı 2008-ci ilin ortasınadək artmışdır (müəyyən tərəddüdlərlə). Yalnız Klintonun prezidentliyinin son illərində (1998-2000-ci illər) ABŞ-m ticari kəsiri xarici aləmdə yaranan bir sıra əlverişli amillər sayəsində qısa müddət ərzində müsbət saldo ilə əvəzlənmişdir.

Üçüncüsü, artım templərinin aşağı olduğu 2002-2008-ci illərdə Qərbi

Avropa ölkələrinin ticarəti şübhəsiz ki, hələ kompensasiya funksiyalarını yerinə yetirirdi. Qlobal böhran baş verənədək, burada əhəmiyyətli dərəcədə böyük müsbət saldo mövcud olmuşdu. Kəsir ticarətin yalnız müəyyən, hazır məhsullarla mübadilə üzrə ixtisaslaşmış hissəsi, əsasən qarşılıqlı ticarət (Aİ üzvü olan dövlətlər arasında) üçün səciyyəvi idi.

Dördüncüsü, 2001-2008-cü illərdə inkişaf etməkdə olan ölkələrdə beynəlxalq tiearətin vəziyyəti bir-birindən xeyli dərəcədə fərqlənirdi. Belə ki, son iyirmi il ərzində Şərqi Asiyanın xarici ticarəti inkişaf etməkdə olan dünyanın başqa regionları ilə müqayisədə ən yüksək dinamizmi ilə seçilirdi. Latın Amerikasının da ixracı və idxalı artırdı və bunun böyük bir hissəsi ABŞ, Aİ və Çinin payına düşürdü.

Beşincisi, Şərqi Avropanın bir sıra dövlətlərinin, neft ixracı əsasında iqtisadiyyatın dinamik artımı sayəsində MDB-nin (xüsusilə Rusiya və Qazaxıstan) xarici ticarət həcminin əhəmiyyətli dərəcədə çoxalması davam edirdi. Amma bütün bu tendensiyalar 2008-2010-cu illərdə baş verən ümumdünya maliyyə-iqtisadi böhranı nəticəsində dayanmışdı. Ümumdünya ticarətinin yeni təsviri, çox güman ki, dünya iqtisadiyyatı tam bərpa olunduqdan sonra təqribən 2011-2012-ci illərdə formalaşacaqdır.

***Çoxtərəfli ticarət sisteminin*** səmərəliliyinin daha da zəifləməsinin gerçəkləşməsi də göz qabağındadır. Bunun səbəblərinin müəyyən qismi regional ticarət bloklarının geniş yayılması və onların möhkəmləndirilməsi üzrə həyata keçirilən tədbirlərlə, habelə ticarətin RTS vasitəsilə tənzimlənməsi cəhdləri ilə əlaqədardır. Hələ 2001-ci ildə Dohada (Qətər) başlanmış beynəlxalq danışıqlar raundu ətrafında yaranmış vəziyyətlə bağlı öz bacarıqsızlığmı göstərən ÜTT rəhbərliyi də bu sistemə ciddi zərbə vurur.

Fransalı iqtisadçı, professor Jan-Lui Muçelli beynəlxalq ticarətin ölkənin ixtisaslaşması ilə müəyyən dərəcədə bağlı olan məsələlərini aşağıdakı kimi ifadə etmişdir:

1. Konkret ölkə beynəlxalq ticarət mübadiləsində nə üçün iştirak edir?
2. Bu iştirakın fomıalan hansılardır?
3. İxtisaslaşma xarici ticarət balansı və ticarətdən gəlir əldə olunması baxımından səmərəlidinni?
4. Ən səmərəli beynəlxalq ixtisaslaşma hansıdır və beynəlxalq ixtisaslaşmanın dərinləşdirilməsi, yaxşılaşdırılması yaxud dəyişdirilməsi məqsədi ilə hansı makroiqtisadi və ticarət siyasətləri həyata keçirilməlidir?

5.Avropa İttifaqı çərçivəsində inteqrasiya prosesi ixtisaslaşmaya nə eür təsir göstərir?'

## 6.5. Beynəlxalq ticarətin xüsusiyyətləri və dinamikası

***ümumi təsvir.*** Malların və xidmətlərin ayrı-ayrı ölkələr arasında hərəkəti onların milli bazarlarını vahid ümumdünya (qlobal) sistemdə birləşdirir və buna müvafiq olaraq, ölkələrin iqtisadi baxımdan qarşılıqlı asılılığını gücləndirir. Bu, ölkələrin vahid ümumdünya ticarəti sisteminə cəlb olunmasının fasiləsiz surətdə artmasının nəticəsidir. Beynəlxalq ticarətin miqyası haqqında aşağıdakı məlumatlar təsəvvür yaradır: ümumi ixrac 1970-ci ildəki 318 milyard dollardan 1990-cı ildə 2 trilyona qədər artmış, 2008-ci ildə 16 trilyon dollardan çox, 2009-cu ildə 14,6 trilyon dollar, 2010-cu ildə 15,7 trilyon dollar olmuşdur.

Bu illər ərzində idxal 222 milyard dollardan 1990-cı ildəki 2,4 trilyon dollara çatmış və 2008-ci ildə 16 trilyon dollardan çox olmuşdur. Milli iqtisadiyyatların getdikcə daha böyük hissəsi (sənayeləşmə və xüsusilə də postsənayeləşmə) beynəlxalq ticarətin qlobal sisteminə birbaşa cəlb olunur. İxrac və idxalın istehsal edilmiş ÜDM-ə nisbəti əsasında ***ölkənin beynəlxalq ticarətə cəlbohmma əmsalı*** hesablanır.

Müharibədən sonrakı dövrdə beynəlxalq ticarətdəki təzahürlərə aşağıdakıları aid etmək olar:

• İkinci Dünya müharibəsindən sonrakı dövrdə beynəlxalq ticarətin həcmi əhəmiyyətli dərəcədə artmışdır. Ticarətin xidmətlərlə ticarət kimi yeni fonnalarmm yaratdığı üstünlüklər mallarla ənənəvi ticarətin təmin etdiyi üstünlüklərdən o qədər də güclü fərqlənmir;

• ölkələr qrupunun ticarəti qarşısında duran bir çox proteksionist gömrük maneələri inteqrasiya çərçivəsində aradan qaldırıldıqdan sonra regional inteqrasiyadan və ümumdünya inteqrasiyasından əldə olunan faydalar böyük əhəmiyyət kəsb edir;

• beynəlxalq ticarətin potensial üstünlüklərinin reallaşdırılması beynəlxalq kooperasiya nəticəsində daha da sürətlənmişdir;

• ÜTT-nin ticarət raundları beynəlxalq ticarətin liberallaşmasında

' *Mucchelli Jean-Louis.* Principes d'Economie Internationale. Paris, 1988. P. 2,

mühüm əhəmiyyətə malik olmuşdur.

Beynəlxalq ticarətin nisbi əhəmiyyətinin qiymətləndirilməsinin üsullarından biri, ticarət axınlarının dəyərinin ümumi iqtisadi fəallıqla müqayisə olunmasıdır. XX əsrin ikinci yarısı - XXI əsrin birinci onilliyində ümumdünya ticarətinin artımı dünya üzrə məhsul istehsalının artımını ötüb keçmişdir (şəkil 6.2). Əgər 1950-ci ildə bütün ölkələrin əmtəə ixracının məcmusu DDM-in cəmi 8%-i həcmində idisə, 2009-cu ildə ixrac qlobal böhran şəraitində xeyli azalaraq, DDM-in təqribən 20%-inə bərabər olmuş, maksimum hədd isə 2007-ci ildə DDM-in 20%-inə çatdıqda əldə olunmuşdur.




*Şəkil 6.2.* **1950-2010-cu illərdə mallarla ticarətin və real ÜDM-in dinamikası**

6.2-ci şəkildəki qrafik müharibədən sonrakı onilliklər ərzində dünya ticarətinin fasiləsiz artdığını əks etdirir. Bu zaman onun artım templəri ümumdünya ÜDM-nin artımını 2008-ci ilədək üstələyir, sonra isə qrafik enmə nümayiş edir; yeni yüksəliş 2009-cu ildən başlayır.

Beynəlxalq ticarətin həcminin çoxalması məhsul buraxılışının həcminin artımı ilə müşayiət olunurdu və bu, qismən də olsa, yeni bazarların açılması, beynəlxalq ticarət sistemindən əldə olunan faydalarla izah edilir. Ümumdünya ticarətinin artması həmçinin, nəqliyyat xərclərinin azalması nəticəsində ticarətin genişlənməsini; yeni istehsal proseslərinin şirkətlərə müxtəlif ölkələrdə mallar istehsal etmək və toplamaq imkanı yaratmasını; informasiya texnologiyalarının alıcılar və satıcılar arasında əlaqələri asanlaşdınnasmı əks etdirir. Bütün bunlar ticarət edən tərəflərə müxtəlif ölkələrdə resurslara vəsait

qoyuluşlarının məbləği və ayrı-ayrı sahələrdə məhsuldarlıq arasındakı fərq hesabına üstünlüklər əldə etməyə imkan yaradır.

Beynəlxalq ticarətin dinamikası bütövlükdə dünya iqtisadiyyatmdakı vəziyyətin, kapitalın hərəkətinin, beynəlxalq maliyyə sisteminin ən həssas barometridir. Dünya bazarı xarici ticarətin şərtlərinin müəyyənləşdirilməsinə, təkrar istehsal prosesinə güclü təsir göstərir, milli iqtisadiyyatın uzunmüddətli artımına yaxud əksinə, böhran yaradan enməsinə və depressiyasına səbəb olur.

Ümumdünya ticarətinin artımına təsir göstərən daha bir struktur amili 1990-cı illərdə və XXI əsrin əvvəlində xarici kapital axınının güclənməsidir. Bu sürətli artım ölkələrin hər iki - inkişaf etmiş (xüsusilə «böyük yeddilikdə») və inkişaf etməkdə olan ölkələr qrupunda baş vermiş və indi də davam etməkdədir. Belə halda 1980-1990-cı illərdəki beynəlxalq ticarətdən fərqli olaraq, XXI əsrin ilk illərində beynəlxalq idxal beynəlxalq ixracı üstələyir.

XXI əsrin başlanğıcında dünyanın üç aparıcı regionunun - ABŞ, Avropa İttifaqının və Yaponiyanın ixracında və idxahndakı enmə müxtəlif dinamikalarla olsa da, 2003-cü ildə dayanıqlı artımla əvəzlənmişdir: minimum artım Yaponiyada, zəif artım Avropa İttifaqında və kifayət dərəcədə yüksək artım ABŞ-da olmuşdur. 2004-2007-ci illərin məlumatları göstərir ki, dünyanın inkişaf etmiş ölkələrində idxalın və ixracın həcmində müəyyən dayanıqlılıq əldə olunmuş, vəziyyət yalnız 2008-ci ildə başlanan qlobal böhran nəticəsində pisləşmişdir. Qeyd etməliyik ki, 2008-ci il ərzində də beynəlxalq ticarət dinamik inkişafını inersiya üzrə davam etdirmiş, 2009-cu ildə isə ümumdünya ticarətində çox güclü enmə baş vermişdir.

Böhrana qədər ümumdünya ticarətində müşahidə olunan artımın özəlliyi onun bütün iqtisadi güc mərkəzlərində - ənənə üzrə həm ABŞ-da, Avropa İttifaqında, Yaponiyada, həm yeni yarananlarda, xüsusilə də Çində, Hindistanda, həm də Latın Amerikasının iri ölkələri olan Braziliya, Argentina, Meksika, Çili və Asiyada (ASEAN) - eyni zamanda inkişaf etməsində idi. Bu ölkələrə kapital axını dünyanın başqa regionları ilə müqayisədə daha güclü olmuşdur. Amma kapital axınlarının bu həcmi fasiləsiz və uzunmüddətli ola bilməzdi. Xaricdən böyük məbləğdə alman borcların müvafiq əmtəə ixracı ilə təmin edilməməsi onların artmasına gətirib çıxarmışdı. Bir qayda kimi, belə hallarda ölkə ciddi maliyyə çətinlikləri ilə qarşılaşır və bura xarici kapitalın (müxtəlif formalarda) axını kəskin azalır. Bu isə, öz növbəsində. Latın Amerikasının və «orta dərəcədə inkişaf etmiş kapitalist» ölkələrində 1980-

1990-cı illərdə baş verdiyi kimi, əmtəə ixracına mənfi təsir göstərir.

Nəhayət, struktur dəyişikliklərinin beynəlxalq ticarətin artımına güclü təsir göstərən digər problemi beynəlxalq istehsal şəbəkələrinin genişlənməsi və sənaye malları ilə ticarətin (ilk növbədə, elektronika, elektrotexniki mallar və paltar ilə) artmasıdır. Sənaye istehsalının və ticarətin bu sahəsi TMK-nın kapitallarının axınları, onların istehsal-satış şəbəkələri («üçüncü bazar») ilə sıx bağlıdır. Burada həm beynəlxalq ticarətin liberallaşdırılması baş verir, həm də kapital axınlarının nəticəsi kimi, şaquli inteqrasiya olunmuş əlaqələr inkişaf edir. Beynəlxalq ticarət axınlarının coğrafiyası aşağıda təfsilatı ilə göstərilmişdir (cədvəl 6.3).

Bu məlumatlar son onillik ərzində bütövlükdə beynəlxalq ticarətin hərəkətinin real dinamikasını əks etdirir. Nə ixracın, nə də idxalın ***əhəmiyyətli*** azalmasının baş vennədiyi, onların ümumi həcminin, demək olar ki, sabit saxlandığı yeganə ölkə Çindir. Məsələ burasındadır ki, həmin ölkə böhran şəraitində kifayət qədər dayanıqlı, 2008-2009-cu illərdə 7,5%-dən çox iqtisadi artım nümayiş etdirmişdir.

Beynəlxalq ticarətin son illərdəki coğrafiyası 6.4 və 6.5 cədvəllərində təqdim olunur.

Cədvəllərin məlumatlarından görünür ki, beynəlxalq ticarətin əsas axınları «dördlük»; Aİ, ABŞ, Çin və Yaponiya arasında bölüşdürülmüşdür. Xatırladaq ki, 1960-cı illərin əvvəlindən XXI əsrin başlanğıcınadək beynəlxalq ticarətin əsas axınları «Böyük triada»; ABŞ - Qərbi Avropa - Yaponiya arasında dövr edirdi.

Gördüyümüz kimi, XXI əsrin birinci onilliyində «Böyük triada» Çinin hesabına genişlənərək, «Böyük kvartetə» çevrilmişdir.

6.3 və 6.4 cədvəllərinin məlumatları XXI əsrin birinci onilliyi ərzində ümumdünya ticarətinin dinamikasını göstərir: iki qəflət enmə (2001-ci ildə -3,9% və 2009-cu ildə -23,9% ) nəzərə alınmazsa, dünya üzrə ticarət hər il sabit olaraq 17% səviyyəsində dinamik artım nümayiş etdirmişdir. Bu şəraitdə ümumdünya ticarətinin inkişaf templəri ölkələrin bütün qruplarında: inkişaf etmiş, inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrdə, o eümlədən qitə baxımından Latın Amerikası, Şimali Amerika, Afrika, Asiya və Avropada eyni dərəcədə yüksək olmuşdur.

*Cədvəl 6.3*

**Ümumdünya ticarəti: ölkələr qrupu üzrə ixracın və idxalın dəyər həcminin dəyişməsinin dinamikası*, 2000- 2010-cu illər**

| Ölkələr qrupu | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| *İxracın həcmi, %* | | | | | | | | | | | |
| **Bütün dünya** | 13,2 | -1,1 | 4,4 | 5,6 | 10,6 | 8,0 | 9,6 | 6,6 | 2,8 | -12,6 | 5,5 |
| **İnkişaf etmiş ölkələr** | 12,6 | -0,9 | 2,2 | 3,0 | 8,3 | 5,6 | 9,0 | 4,9 | 3,3 | -15,2 | 4,9 |
| Şimali Amerika | 14,0 | -5,5 | -2,4 | 0,7 | 6,6 | 7,1 | 7,3 | 5,5 | 4,3 | -13,5 | 7,6 |
| Aİ və qalan Avropa | 11,9 | 2,3 | 3,1 | 2,9 | 8,0 | 5,2 | 9,3 | 4,4 | 2,6 | -13,2 | 2,6 |
| Asiyanın inkişaf etmiş ölkələri | 12,7 | -6,6 | 6,6 | 7,9 | 12,1 | 4,8 | 10,7 | 6,4 | 4,8 | -26,1 | 11,5 |
| **Keçid iqtisadiyyatı ölkələri** | 15,2 | 3,8 | 7,9 | 13,3 | 14,2 | 0,7 | 7,6 | 9,5 | 2,6 | -9,6 | 1,9 |
| Cənub-Şərqi Avropa | 13,5 | 5,5 | 5,2 | 8,7 | 11,8 | 8,3 | 13,2 | 21,6 | 9,8 | -20,2 | 5,0 |
| MDB | 15,4 | 3,6 | 8,0 | 13,8 | 14,5 | -0,2 | 6,9 | 8,1 | 1,6 | -8,0 | 1,5 |
| **İnkişaf etmiş ölkələr** | 14,5 | -1,9 | 8,6 | 9,8 | 14,6 | 12,7 | 10,7 | 9,1 | 2,1 | -8,9 | 6,5 |
| Latın Amerikası və Karib dənizi hövzəsi ölkələri | 4,6 | -0,1 | 1,7 | 4,9 | 11,9 | 7,2 | 8,6 | 5,2 | -0,4 | -11,1 | 4,2 |
| Afrika | -9,2 | -2,0 | 4,7 | 8,3 | 14,6 | 29,0 | -6,9 | 10,9 | 3,4 | -2,4 | 5,8 |
| Qərbi Asiya | 37,2 | 3,0 | 4,5 | 8,2 | 7,6 | 5,2 | 4,0 | 9,1 | -2,3 | -6,3 | 3,0 |
| Cənub-Şərqi Asiya | 15,3 | -3,5 | 12,0 | 11,5 | 16,7 | 13,7 | 14,4 | 9,7 | 3,1 | -9,4 | 7,6 |

*Cədvəl 6.3-ün davam*

| Ölkələr qrupu | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| *İdxalın həcmi, %* | | | | | | | | | | | |
| **Bütün dünya** | 13,8 | -0,5 | 4,1 | 5,3 | 11,4 | 7,5 | 8,9 | 6,7 | 3,1 | -12,3 | 5,4 |
| **İnkişaf etmiş ölkələr** | 11,0 | -0,6 | 2,5 | 4,0 | 8,6 | 5,8 | 7,5 | 3,7 | 0,1 | -12,3 | 3,9 |
| Şimali Amerika | 12,3 | -3,6 | 3,2 | 0,2 | 7,2 | 7,8 | 4,3 | -0,6 | -4,1 | -12,7 | 9,1 |
| Aİ və qalan Avropa | 10,7 | 1,0 | 2,0 | 5,7 | 9,3 | 5,0 | 9,7 | 6,4 | 1,0 | -11,7 | 2,0 |
| Asiyanın inkişaf etmiş ölkələri | 9,0 | 0,3 | 3,1 | 6,3 | 8,8 | 4,5 | 4,8 | 1,1 | 7,1 | -14,7 | 1,5 |
| **Keçid iqtisadiyyatı ölkələri** | 21,8 | 14,0 | 11,8 | 12,2 | 14,1 | 15,9 | 23,1 | 27,7 | 14,8 | -35,9 | 12,1 |
| Cənub-Şərqi Avropa | 17,4 | 15,3 | 17,0 | 9,9 | 6,2 | 11,3 | 11,4 | 15,8 | 7,9 | -23,0 | 3,9 |
| MDB | 23,9 | 13,8 | 10,7 | 12,7 | 15,7 | 16,8 | 25,2 | 29,6 | 16,0 | -32,7 | 4,6 |
| **İnkişaf etmiş ölkələr** | 20,8 | -0,9 | 7,4 | 7,9 | 17,4 | 10,5 | 10,6 | 10,7 | 7,5 | -10,1 | 7,4 |
| Latın Amerikası və Karib dənizi hövzəsi ölkələri | 17,5 | -0,4 | -4,1 | -2,2 | 13,7 | 12,1 | 13,5 | 11,5 | 8,1 | -14,9 | 7,5 |
| Afrika | 1,8 | 6,3 | 5,0 | 7,1 | 14,3 | 15,9 | 10,4 | 16,3 | 17,5 | -7,9 | 6,1 |
| Qərbi Asiya | 22,9 | 2,4 | 7,3 | 5,7 | 23,3 | 5,7 | 6,1 | 22,2 | 13,1 | -15,7 | 1,7 |
| Cənub-Şərqi Asiya | 20,3 | -2,4 | 11,4 | 11,1 | 17,7 | 10,4 | 10,7 | 8,2 | 5,2 | -8,0 | 8,6 |

* World Economic Situation and Prospects, 2010.

*Cədvəl 6.4*

**Dünyanın əsas treyderləri: dünya üzrə ixracda milli ixracın payı'***

| **Ölkələr və ölkələr qrupları** | **2000** | **2005** | **2006** | **2007** | **2008** | **2009** |
|---|---|---|---|---|---|---|
| Aİ-27 | 17,5 | 18,0 | 17,3 | 17,4 | 16,6 | 16,2 |
| Kanada | 6,2 | 5,0 | 4,6 | 4,3 | 3,9 | 3,7 |
| ABŞ | 17,4 | 12,4 | 12,3 | 11,9 | 11,2 | 10,8 |
| Çin (Honkonqsuz) | 5,5 | 10,5 | 11,5 | 12,5 | 12,4 | 12,8 |
| Yaponiya | 10,7 | 8,2 | 7,7 | 7,3 | 6,8 | 5,7 |

* Eurostat, 01.07.2010.

*Cədvəl 6.5*

**Dünyanın əsas treyderləri: dünya üzrə idxalda milli idxalın payı'***

| **Ölkələr və ölkələr qrupları** | **2000** | **2005** | **2006** | **2007** | **2008** | **2009** |
|---|---|---|---|---|---|---|
| Aİ-27 | 19,3 | 19,0 | 19,1 | 19,1 | 19,0 | 19,0 |
| Kanada | 5,0 | 4,1 | 3,9 | 3,7 | 3,4 | 3,2 |
| ABŞ | 25,4 | 22,5 | 21,6 | 19,6 | 17,9 | 17,5 |
| Çin (Honkonqsuz) | 4,7 | 8,5 | 8,9 | 9,3 | 9,3 | 9,2 |
| Yaponiya | 8,0 | 6,7 | 6,5 | 6,0 | 6,3 | 6,5 |

'*' Eurostat, 01.07.2010.

Bununla bərabər, həmin məlumatlar bütün qruplardakı ölkələrlə ümumi qlobal proseslər arasında qeyri-adi dərəcədə yüksək qarşılıqlı asılılığın və əlaqənin mövcudluğunu sübut edir: belə ki, ümumdünya böhranı 2009-cu ilin ikinci yarısından başlayaraq, ticarətin hər yerdə ixtisarına səbəb olmuşdur; 2010-cu ildə isə templər fərqlənsə də, ölkələrin bütün qruplarında artım müşahidə olunur. Ümumdünya istehsalı ilə ümumdünya ticarətinin yüksək dərəcədə sinxronluğu, dünya ölkələrinin beynəlxalq ticarətə cəlb olunmasının səviyyəsi burada əks olunur. Bununla belə, inkişaf etməkdə olan ölkələr qrupunun tərkibində güclü fərqlər meydana çıxmış, ümumdünya ticarətinə cəlb olunma göstəricisi üzrə inkişaf etmiş ölkələrin səviyyəsinə çatmaqda olan 20-25 ölkədən ibarət qrup yaranmışdır.

Bütövlükdə isə qlobal istehsalat və korporativ mənfəətin çoxalması ilə müqayisədə «böyük liberallaşdmna», şaquli inteqrasiya və kapitallar axınının güclənməsi kimi amillər beynəlxalq ticarətin sürətli artımına daha güclü təsir göstərmişdir. Tarixi təcrübə ticarətin qlobal miqyasda liberallaşdırılmasmm və qlobal iqtisadi inteqrasiyanın ticarət ekspansiyası və əhalinin məşğulluğunun təmin olunması üçün mühüm şərtlər olduğunu, ölkənin çiçəklənməsi və əhalinin rifahının yüksəlməsi üçün şərait yaratdığını, buna analoji olaraq XBİ sayəsində iqtisadi artıma, insan potensialının və maliyyə infrastrukturunun inkişafına təkan verdiyini göstərir. Bütün bunların məcmusu tam məşğulluğa, ümumdünya ticarətinin ekspansiyasına və ölkələrin liberallaşma yolu ilə böyük inteqrasiyasına əsaslanan beynəlxalq iqtisadi sistemin yaradılmasının ümumi şərtlərini formalaşdmnışdır. Nəticədə isə müstəqil inkişaf edən yeni beynəlxalq ticarət prosesinin əvvəlki iqtisadi qurumlar çərçivəsində mövcud olan artım məhdudiyyətləri arasında toqquşma, yəni Şumpeterin «yaradıcı dağıdıcılıq» (Creative destruction) adlandırdığı hadisə baş verir. «Merkantilizm impuls-larmm» (proteksionizm elementlərinin) aradan qaldırılması, beynəlxalq ticarətin tam liberallaşdırılmasınm əldə olunması dünya iqtisadiyyatının əvvəl keçdiyi istənilən mərhələlərlə müqayisədə daha səmərəli inkişafına aparan yoldur.

Bir daha qeyd edək ki, yeni minillikdə beynəlxalq ticarətin artımı təkcə inkişaf etmiş deyil, həm də inkişaf etməkdə olan ölkələrin yerləşdiyi bölgələrdə baş verir. Son onilliklərdə isə inkişaf etməkdə olan ölkələrin beynəlxalq ticarətinin həcminin artım tempi ümumdünya və inkişaf etmiş ölkələrin ticarətinin templərini geridə qoymuşdur. Belə ki, 1990-cı illərdə və 2000-2010-cu illərdə onun fiziki həcminin orta illik artım tempi 9%, göstərilən dövrdə ümumdünya ticarəti (7%) və inkişaf etmiş ölkələrlə (6,3%) müqayisədə çox olmuşdur.

Digər qanunauyğunluq ümumdünya ticarətinin dünya üzrə istehsalı ötməklə, onu stimullaşdınnasıdır. 1980-1990-cı illərdə başqa amillərin təsiri altında fasilələr yaransa da, bu, ümumi, universal təzahürdür. Həmin təzahür XXI əsrin birinci onilliyində böhran dövrünə qədər davam etmiş, özünün sadəcə meyil olmasını deyil, artıq qanunauyğunluğa çevrilməsini əks etdirmişdir.

# Xülasə

• Ümumdünya ticarəti hər bir insanın həyat və fəaliyyətinin ən mühüm sahələrində böyük əhəmiyyətə malikdir. Ötən əsrdən fərqli olaraq, insanların iqtisadi, sosial, mədəni, infonnasiya sahələrində ünsiyyətinin son dərəcə güclənməsi nəticəsində qarşılıqlı ticari-iqtisadi təsir, demək olar ki, mütləq kəmiyyətlərə yaxınlaşmış və bu, ümumdünya ticarətinin qloballaşması barədə fikir söyləməyə əsas verir. Öz növbəsində, ümumdünya ticarəti əzəldən istehsal amillərinin (məhsuldar qüvvələrin) beynəlmiləlləşməsi prosesini sürətləndirmiş, dünya təsərrüfatının regional və qlobal miqyasda inteqrasiyası üçün şərait yaratmışdır.

• Dünya üzrə malların və xidmətlərin ixracının məcmu DDM-ə nisbətinin onun 3/1 hissəsindən (18 trilyon dollardan artıq) çox olması ümumdünya ticarətinin nəhəng miqyasda olmasını sübut edir. Müxtəlif dövrlərdə ümumdünya ticarətinin artım tempi DDM-in artım tempini ötüb keçmişdir.

• «Böyük kvadriliya», yəni dünyanın iqtisadi güc mərkəzləri olan ABŞ, Qərbi Avropa, Yaponiya və Çin arasında əmtəə axınları xüsusilə dinamik inkişaf edirdi. Bu dinamizmin əsasını TMK və onların filial-şirkətlərinin sayının artması və bu şəbəkənin ümumdünya ticarətinin qloballaşmasına təsiri təşkil edir. Çin ümumdünya ticarətində 50 ildən artıq dominantlıq edən «Böyük triadanı» sözün hərfi mənasında sındırmışdır.

• Ticarət və ticarət siyasətinin müasir nəzəriyyələrinin bəzisi hələ də ticarətə dövlətin minimum səviyyədə müdaxiləsi şəraitində sərbəst sahibkarlıq siyasətinin ***{laissez-faire)*** dominanthğınm zəruri olmasını iddia edir. Qlobal böhran həmin ideyalara istinad edən nəzəriyyələrin tutarsızlığını, əsassızlığını və ağlabatan olmadığım göstərdi.

• Yeni təzahürlər əvvəlki dövrlərdə toplanmış biliklərə istinad etməklə, təhlil olunmasını, müasir şəraitdə beynəlxalq ticarətin inkişafının qanunauyğunluqlarının aşkarlanmasını tələb edir. Hələ kapitalizmin ilkin mərhələsində dünya iqtisadiyyatı nəzəriyyəsində müxtəlif baxışlar meydana çıxmışdır. Belə ki, ticarətin merkantilist nəzəriyyəsi dövlətə qızıl axınının təmin edilməsi üçün aktiv ticarət balansı prinsipinə (malların idxalından çox, ixracı) istinad edirdi. Onun nəzəriyyəçiləri belə bir müddəaya tərəfdar çıxırdılar ki, dövlətin sərvəti yalnız qızıl ola bilər. Lakin onlar aktiv ticarət

balansına nail olunmasının zəruriliyi ideyasını əsaslandırsalar da, bu zaman hökmdarın mütləq hakimiyyətinin aradan qaldırılması və tacirlərin yeni yaranan sinfinin fəaliyyət azadlığına yol verilməməsi kimi sosial və siyasi məqsədlər prioritet təşkil edirdi.

• Klassiklər, o cümlədən A.Smit istehlakçıların öz ölkələrində istehsal ediləndən daha ucuz mallar almaq imkanı olduğu halda maddi rifahının yüksələcəyini iddia edən mütləq üstünlüklər nəzəriyyəsini işləyib hazırlamışlar. Bunun üçün sərbəst sahibkarlıq və azad ticarət (free trade) zəruridir: yalnız bu halda iqtisadi qanunlar işləyəcəkdir.

• Mütləq üstünlüklər nəzəriyyəsi ölkənin öz təbii üstünlükləri (xammalın mövcudluğu, əlverişli iqlim və s.) yaxud da qazanılmış üstünlüklər (qabaqcıl texnologiyalar, yüksək ixtisaslı işçi qüvvəsi və s.) sayəsində əmtəələri daha səmərəli üsulla istehsal edə biləcəyinə əsaslanır. D.Rikardo, sonra isə K.Marks beynəlxalq ticarətin əmək məsrəfləri və onun müxtəlif sahələrdə müqayisə olunması mövqeyindən yanaşan əmək dəyəri nəzəriyyəsini inkişaf etdirmişdir.

• Ərazinin ölçülərinə əsaslanan ticarət nəzəriyyəsi daha böyük məkanı olan ölkələrin, adətən, müxtəlif iqlim şəraitləri və təbii ehtiyatları olduğuna görə, özlərini kiçik ölkələrlə müqayisədə daha yaxşı təmin edə bildiyini iddia edir. Bununla belə, onların istehsal mərkəzlərinin başqa ölkələrdən daha uzaq məsafədə yerləşməsi xarici ticarətdə nəqliyyat xərclərinin artmasına səbəb olur.

• Nisbi üstünlüklər nəzəriyyəsi bir ölkənin müəyyən əmtəənin istehsalında mütləq üstünlüyə malik olduğu halda belə, məhsul buraxılışının ümumi həcminin xarici ticarət hesabına artırıla bilməsinin mümkünlüyü müddəasına əsaslanır.

• İstehsal amillərinin nisbəti nəzəriyyəsinə görə, əmtəələrin müqayisəli dəyəri torpağın, əmək resurslarının və kapitalın istehsal amilləri qismində nisbətindən asılıdır. Bu xərclər isə ölkənin hansı malları səmərə və məhsuldarlıqla, daha böyük fayda ilə istehsal edə biləcəyini əvvəlcədən müəyyənləşdirir.

• Əmtəənin həyat dövrü nəzəriyyəsi bir çox hazır məhsulların əvvəlcə işlənib hazırlandığı ölkədə istehsal olunacağı ideyasına istinad edir. İlk növbədə, bunlar ABŞ kimi sənayeləşmiş dövlətlərdir. Əmtəənin həyat dövrü ərzində onun istehsalının kapital tutumu artır və başqa, nisbətən zəif inkişaf etmiş ölkələrə doğru yönəldildikdə, inhisar mənfəətini tədricən azaldır.

Nəhayət, bu istehsal inkişaf etməkdə olan ölkələrə köçürülür və həmin mallar uzun illər ərzində orada mənfəət verir.

• Ölkələrin bənzərliyi nəzəriyyəsi ***bazarlarında oxşar seqmentlər*** olduğuna görə xarici ticarətin böyük hissəsinin sənayeləşmiş ölkələr arasında hazır məhsullarla ticarətin payına düşdüyü ideyası əsasında qurulmuşdur.

• Beynəlxalq ticarətin müasir nəzəriyyələri neoklassik istiqamətin neoliberal ideyalarına: makroiqtisadiyyatm monetar konsepsiyalarına əsaslanır. Bu konsepsiyalar iqtisadiyyata dövlət tərəfindən müdaxilənin bütün formalarının tamamilə aradan qaldırılmasını, onların ÜTT qaydaları və başqa ticarət sazişləri ilə əvəz olunmasını zəruri hesab edir.

• Ticarət nəzəriyyələrinin müxtəlifliyinə baxmayaraq, onların hamısına xas olan ümumi cəhət, ticarət haqqında qərarların ***firma səviyyəsində*** qəbul edildiyi halda, ümumdünya ticarətinin fayda və məsrəflərinin ***ölkələr səviyyəsində*** nəzərdən keçirilməsidir. Finnalar izafi güclərdən yararlanmaq, istehsal xərclərini aşağı salmaq yaxud riskləri bölüşdünnək üçün xarici ticarətin imkanlarının axtarılması ilə məşğul ola bilər. Eyni zamanda onlar müxtəlif səbəblər üzündən (o cümlədən bazarı tanımaması, riskin yüksəkliyi ehtimalı və s.) xarici ticarət fəaliyyətində iştirak etməyə də bilərlər.

• XXI əsrin birinci onilliyində iki ümumdünya böhranı arasında uzun sürən iqtisadi tsikl ərzində, o cümlədən 2002-2008-ci illərdə beynəlxalq ticarətin həm bütövlükdə, həm də ayrı-ayrı sahələrində inkişaf templəri yüksək olmuşdur. Müxtəlif qitələrdə yerləşən və fərqli şəraitdə inkişaf edən ölkələr qrupunun: Çin, Hindistan, Braziliya və Rusiyanın beynəlxalq ticarəti daha böyük sürətlə inkişaf edirdi. Ölkələrin bu qrupu özünün təbii və nisbi üstünlüklərindən yararlana bildiyinə görə mallarının dünya bazarlarında qazancla satışına müvəffəq ola bilmişdir. Eyni zamanda, inkişaf etməkdə olan ölkələrin əsas hissəsi, əvvəlki kimi, dünya üzrə mal mübadiləsində məhdud, artımının müəyyən hüdudları olan əmtəə qrupları vasitəsilə cəlb olunmuşdur.

• Qlobal ticarət oyunçularının konfiqurasiyasında baş verən başqa şəkil dəyişikliyi «Böyük triadaya» Çinin birləşməsi hesabına onun «Böyük kvadriliyaya» çevrilməsidir. Xronoloji baxımdan bu transfonnasiya qəti olaraq 2008-2010-cu illərdəki ümumdünya maliyyə-iqtisadi böhran dövründə başa çatmışdır.

• İnkişaf etmiş ölkələr beynəlxalq ticarətdə liderliyini itirərək, yerlərini inkişaf etməkdə olan ölkələrə verir. Bu hal rəqabət qabiliyyəti daha yüksək

olan ölkələr tərəfindən inkişaf etmiş ölkələrin fınnalarınm əvvəllər dominantlıq etdiyi bazarların tutulması ilə bağlıdır. Nəticədə inkişaf etməkdə olan ölkələrin sürətlə artan şirkətləri ABŞ, Aİ və Yaponiyanın mövqelərini ələ keçirir və dünya bazarlarında onlarla uğurlu rəqabət apara bilir.

## Yoxlama sualları

1. Beynəlxalq və xarici ticarət anlayışlanm izah edin.
2. Ölkələr bir-biri ilə niyə ticarət edir?
3. Merkantilizm nəzəriyyəsi nə vaxt və hansı şəraitdə meydana çıxmışdır? Onun əsas müddəaları (prinsipləri) hansılardır?
4. Fritrederçilik konsepsiyasını necə başa düşürsünüz? Adam Smitin beynəlxalq ticarət nəzəriyyəsinə töhfəsi nədən ibarətdir?
5. David Rikardonun nisbi (müqayisəli) üstünlüklər haqqında nəzəriyyəsinin mahiyyəti nədən ibarətdir? Onu niyə biramilli model adlandırırlar?
6. İstehsal amillərinin nisbətləri barədə Hekşer-Olin modelinin mahiyyətini və məzmununu izah edin.
7. Xarici ticarətin spesifik amillərinin P.Samuelson və D.Conson tərəfindən işlənib hazırlanmış modelinin mahiyyətini və məzmununu izah edin.
8. Əmtəələrin həyat dövrü nəzəriyyəsinin mahiyyəti nədən ibarətdir və o, xarici ticarətdə hansı əhəmiyyətə malikdir?
9. Ölkələrin bənzərliyi nəzəriyyəsini necə başa düşürsünüz? Onun praktikada tətbiqi necədir?
10. Balassa modelini yaxud müqayisəli üstünlüklər və əmək məhsuldarlığı amili nəzəriyyəsini izah edin.
11. Xarici ticarətin standart modelini təsvir edin.
12. Xarici ticarətdə tarazlıq yaranmasının şərtlərini izah edin.

## Referatlarm mövzuları

1. Beynəlxalq ticarətin əsas konsepsiyaları, onların nəzəri və praktiki əhəmiyyəti
2. Ölkənin iqtisadi artımı ilə xarici ticarəti arasındakı əlaqələr

# Fəsil 7

# İNKİŞAF ETMƏKDƏ OLAN ÖLKƏLƏRİN VƏ KEÇİD İQTİSADİYYATI ÖLKƏLƏRİNİN BEYNƏLXALQ TİCARƏTİ

## 7.1. «İnkişaf etmiş - inkişaf etməkdə olan ölkələr» azimutu üzrə beynəlxalq ticarət

Beynəlxalq statistika tədqiqatları nəticəsində əldə olunan məlumatlar 1980-2010-cu illəri əhatə edən onilliklər ərzində inkişaf etməkdə olan ölkələrin hazır məhsulların dünya üzrə ixracındakı payının üç dəfə: 10-12%-dən 28-30%-dək artdığını göstərir. Bu gün inkişaf etməkdə olan ölkələr orta və yüksək texnologiya malları, habelə kompüter texnologiyaları ilə ticarət üzrə dünya bazarının ⅓ hissinə nəzarət edir. Amma həmin ölkələrin ABŞ, Qərbi Avropa və Yaponiyanın TMK-ı ilə müəyyən dərəcədə bağlılığı qeyd olunmalıdır. Eyni zamanda baş verən sıçrayış 30-35 ölkəyə aiddir (onlardan təqribən 15 ölkə liderdir). Beynəlxalq ticarətdə bu cür irəliləyiş inkişaf etməkdə olan ölkələrdə insan kapitalı sahələrinin: təhsilin, səhiyyənin, elmin - sürətli inkişafı, sosial məqsədlərə xərclərin ümumi artımının və əlbəttə ki, həmin ölkələrin sənaye bazasının müəyyən dərəcədə müasirləşməsinin nəticəsidir.

İnkişaf etməkdə olan ölkələrin beynəlxalq ticarətinin özəlliyi onların əsas əmtəə axınlarının inkişaf etmiş ölkələr zonasına istiqamətlənməsidir. Qarşılıqlı ticarətə gəldikdə isə bunun həcmi 0 qədər də böyük deyil. Bu cəhət Asiya və Latın Amerikası, inkişaf etməkdə olan ölkələrin inteqrasiya qrupları, habelə Afrika üçün səciyyəvidir. Bu qitədə Böyük Səhranın cənubunda yerləşən, zəif inkişaf etmiş ölkələr qrupuna daxil olan ölkələr əvvəlki kimi, ənənəvi tropik malları kiçik həcmdə ixrac edir, inkişaf etmiş və yeni sənaye ölkələrindən isə texniki məmulatları, istehlak mallarını böyük miqyasda idxal edir. Bundan əlavə, son illərdə Afrika qitəsində ənənəyə çevrilmiş aclıq problemi yenidən baş qaldırır.

## 7.2. Çin və onun beynəlxalq ticarətdə mövqeləri

Müasir beynəlxalq ticarətdə Çinin xüsusi çəkisi böyük sürətlə artır. Qeyd edək ki, bir sıra görkəmli alim və mütəxəssislər Çin yuanmm devalvasiyasını 1997-ci ildə Cənub-Şərqi Asiyada maliyyə böhranının yaranmasının səbəblərindən biri kimi göstərir. Buna görə də Çin ilə ikitərəfli ticarətində ABŞ-m ticarət balansında iri məbləğdə mənfi saldo yaranması nəticəsində beynəlxalq təşkilatların və ABŞ-m yuanı devalvasiya etmək tələbinə ölkə hökumətinin ehtiyatla yanaşması da təsadüfi hal deyil.

2000-2010-cu illərdə Çinin xarici ticarətinin illik artım tempi 14,7%, o cümlədən 2008-ci ildə 11%, 2010-cu ildə 9,4% olmuşdur. Xarici ticarətin artım templəri yalnız 12%-ə, idxalı 13,1%-ə düşmüş, ixrac isə 17,1% artmışdır. Dövr ərzində ABŞ ilə ticarətdə ticarət balansının müsbət saldosunun orta illik məbləği 90 milyard dollar, Aİ ilə 40 milyarddan çox, inkişaf etməkdə olan ölkələrlə 14 milyarddan artıq olmuşdur. Rusiya və Yaponiya da daxil edilməklə, Çinin dünyanın, demək olar ki, bütün ölkələri ilə münasibətlərində ticarət balansı müsbət olsa da, ayrı-ayrı ölkələrlə ikitərəfli ticarətin göstəriciləri əhəmiyyətli dərəcədə fərqlənir (qeyd edək ki, keçmişdə Çinin Asiya ölkələrinin əksəriyyəti və Yaponiya ilə xarici ticarətində profisit yaranmırdı). Latın Amerikası ölkələri, Avstraliya və Yeni Zelandiya ilə ticarətində Çinin ticarət balansının müsbət saldosu əhəmiyyətli məbləğdədir.

Artıq qeyd etmişik ki, ABŞ-m Çinlə xarici ticarətində kəsirinin getdikcə artması səbəbindən onun bu ölkə ilə münasibətləri mürəkkəbləşir. Son illərdə hər iki ölkə qarşılıqlı ticarət məsələləri barədə dəfələrlə danışıqlar aparsa da, hələlik ABŞ-m kəsirinin aradan qaldırılması yolları tapılmır.

Qeyd olunmalıdır ki, 1990-cı illərdə Çinin ümumi, o cümlədən «uzaq» ixracının sürətlə artması və 2000-2010-cu illərdə bunun davam etməsi Cənub-Şərqi Asiya ölkələrinə ixracı tempinin səngiməsi ilə müşayiət olunmamışdır. Buna görə də təhlilçilərin müəyyən ölkələrin sürətli yüksəlişinin başqalarının yoxsullaşması hesabına baş verməsi barədə geniş yayılmış fikirləri ilə razılaşmaq olmaz; hər halda burada birbaşa əlaqə müşahidə edilmir. Çox güman ki, bu əlaqə inkişafın daxili dinamizmində və keyfiyyətində, ixtisaslaşmış bazarlardakı vəziyyət daxil olmaqla, beynəlxalq rəqabət qabiliyyətinin səviyyəsində mövcuddur.

## 7.3. Asiyanın ticarəti (Çinsiz)

Ümumiyyətlə götürüldükdə, cari onillikdə Asiyanın ticarəti dünyanın inkişaf edən başqa regionları ilə müqayisədə daha yüksək templərlə artırdı. Asiyada birinci və ikinci dalğanın YSÖ, xüsusilə də Çin və Hindistan ticarətdə daha böyük dinamizm ilə fərqlənir. Onlar üçün ümumilikdə iqtisadi artımın yüksək dinamikası, Hind Okeanı-Sakit Okean regionundakı inteqrasiya proseslərinə cəlb olunma səciyyəvidir. Bu regionda beynəlxalq ticarətin dinamik inkişafının amillərindən biri, paradoksal olsa da, 1990-cı illərdə yapon iqtisadiyyatının artım templərinin zəifləməsidir.

1997-ei ilin ikinei yarısında İndoneziya və Malayziyada başlayan böhranadək, son onilliklər Asiya ölkələrinin bütöv bir qrupu (əsasən ASEAN) üçün xarici ticarətin intensiv inkişaf dövrü olmuşdur. 1997-ci ilin oktyabrında maliyyə böhranı Honkonqa çatmış və burada fond bazarının mövcudluğu ərzində ən böyük enmə qeydə alınmışdır. Sonra isə böhran yeni sənaye ölkələrinin «birinci dalğasına» daxil olan dövlətlərə (Cənubi Koreya, Sinqapur, Çinin Tayvan əyaləti) sirayət etmişdir. Dünyada məişət elektronikası, yarımkeçiricilər, yayma polad, neft-kimya məhsulları kimi mallara tələbatın azalması nəticəsində onların qiymətlərinin kəskin ucuzlaşması 1990-1996-cı illərdə bu ölkələrin ÜDM-nin orta illik artım tempi 6,5%-dən 2%-ə düşmüşdür. Buna baxmayaraq, Asiya böhranının ən qızğın dövründə belə Çin iqtisadiyyatı yüksək artım tempini (7%) qoruyub saxlaya bilmiş, ixrac potensialını artırmış, yeni bazarlara çıxa bilmişdir.

Qeyd etməliyik ki, 1980-1990-cı illərdə dünyanın heç bir regionunda Asiya bazarında olduğu qədər idxalın güelü artımı müşahidə olumnamışdır. Onun bu cür əhəmiyyətli artımı 2001-2002-ci illərin ümumdünya böhranı nəticəsində ciddi enmədən sonra 2002-2007-ci illərdə baş vennişdir.

Ümumilikdə isə region xammal və yanacağın əsas növlərinin, müxtəlif dəmir və qeyri-dəmir filizlərinin, ərzağın, oduncağın, kənd təsərrüfatı məhsullarının əsas idxalçılarından biridir.

Qeyd etmək lazımdır ki, inkişaf etməkdə olan regionların Asiya bazarlarından asılılığı hələ 1990-cı illərdə nəzərəçarpan dərəcədə olmuş və XXI əsrin birinci onilliyində artmaqda davam etmişdir. Məsələn, son illərdə Latın Amerikası kənd təsərrüfatı məhsullarının 15%-dən çoxunu və dağ-mədən sənayesi mallarının 14%-ə yaxınını Asiyaya ixrac edir. İxrac və idxalda

sənayenin payı müvafiq olaraq təqribən 19% və 18% təşkil edir; Yaxın Şərq ölkələrinin neft ixracının 10%-i Asiyaya yönəldilir. Yuxarıda göstərdiyimiz kimi, Asiya ölkələri bir-biri üçün mühüm satış bazarlarıdır. Asiya mallarının məcmu ixracının yarısından çoxunun region ölkələrinə göndərilməsi Asiya- Sakit Okean zonasında regiondaxili iqtisadi proseslərin yüksək dərəcədə inteqrasiyasına şəhadət edir.

2002-2008-ci illərdə Yaponiyanın idxalı ildə orta hesabla 9% artmışdır; bu artım yalnız 2009-cu ildə ümumdünya böhranı nəticəsində yaranan çətinliklər səbəbindən donmuşdur.

Asiyada bir neçə ölkə (Malayziya, Tailand və Filippin) baş vermiş böhran nəticəsində 2008-ci ildə idxal həcmini iki dəfə artırmış, malların və xidmətlərin ixracını kəskin azaltmışdır. İnfonnasiya texnologiyaları məhsullarına tələbat da aşağı düşmüşdür. Eyni zamanda, ixrac strukturu daha çox şaxələnmiş ölkələr, məsələn, Çin və Hindistan da mallarının xaricə satılmasında müəyyən məhdudiyyətlərlə üzləşsələr də, bütövlükdə bu cür ticarət çətinliklərindən yayına bilmişdilər. Artıq 2009-2010-cu illərdə bu subregion informasiya texnologiyaları sektoru məhsullarının alqı-satqısında artım nümayiş etdinniş və bununla da regional ticarətdə pozitiv nəticələr əldə olunmuşdur. Bu vaxtadək Malayziyada, Tailandda, İndoneziyada, Sinqapurda iqtisadi vəziyyət sağlamlaşmışdır; Vyetnam mallarının ixracında mühüm çətinliklərlə qarşılaşsa da, kifayət qədər intensiv iqtisadi inkişafını davam etdirirdi.

Son illər xarici ticarət sahəsində yüksək inkişaf templəri ***Hindistan*** üçün də səciyyəvidir. Çin və Hindistandan başqa, regionun inkişaf etməkdə olan bir çox ölkələri də ixrac və idxalın yüksək templərinə (5%) nail olaraq, nisbətən əlverişli ticarət balansını qoruyub saxlaya bilmişdir.

Ölkələrin bu qrupunun kommersiya xidmətləri ilə ticarətdə mövqeləri də güclənmişdir və Asiya burada dünya üzrə ikincidir. 2002-2007-ci illərdə dünya idxalında onun payı 25%-ə yaxın olmuşdur. Region üzrə məcmu idxalın böyük hissəsi (təqribən 21%) xidmətlərdən ibarətdir və dünya üzrə müvafiq göstəricidən yüksəkdir. Xidmətlərin üç əsas kateqoriyası (nəqliyyat, səyahətlər və digər kommersiya xidmətləri) üzrə Asiya ən iri regionlar arasında ikinci yer tutur. Turist səyahətlərinə gəldikdə isə son illərdə Asiyada xarici turizm nəzərəçarpan dərəcədə artmışdır və dünya turizminin 14%-i qədərdir (böhranadək). Asiyanın idxalı geniş spektrlidir, özü də region əsas məhsulların.

0 cümlədən yanacağın, qida məhsullarının, filizlərin və metalların, habelə kənd təsərrüfatı məhsullarının iri idxalçısıdır. Okeanda baş verən güclü zəlzələlər və onların doğurduğu, 200 min nəfər insanın həlakına səbəb olan sunamilər 2005- ci ildə regionun turistlər üçün cəlbediciliyini müvəqqəti zəiflətsə də, ilin sonunda vəziyyət sabitləşmiş və 2008-ci illədək dayanıqlı inkişaf etmişdir.

Son illər dünyanın, demək olar ki, bütün regionları Asiya üçün təyin olunmuş ixrac payını artınnışdır. 2003-2008-ci illərdə İƏİT ölkələrindən ən böyük pay Yaponiyanın (41,4%), ondan sonra ABŞ və Kanadanın (35,1%), Qərbi Avropanın (11,8%) idi. Ayrı-ayrı ixrac maddələri üzrə isə bu pay daha böyük (məsələn, ABŞ-m kənd təsərrüfatı məhsullarının 42%-i) olmuşdur.

Asiyanın ixrac etdiyi mallar regiondaxili ticarətdən başqa, əsasən Şimali Amerikaya (22%) və Qərbi Avropaya (16,8%), Yaxın Şərqə (32%), Latın Amerikasına (2,8%), Afrikaya (2,1%) göndərilir. 2008-ci ildə dünya üzrə maşın və nəqliyyat vasitələrinin ixracında Asiya ölkələrinin payı 30%-ə çatmış və yalnız Qərbi Avropanın göstəricisi bundan çox olmuşdur. Asiyanın ixracında «Ofis və telekommunikasiya cihazları» mal qrupunun xüsusi çəkisi 48% təşkil etmişdir (1996-cı ildəki 50%-dən bir qədər aşağı düşərək). Asiya ölkələri dünya bazarında avtomobil satan əsas və sürətlə inkişaf edən ixracatçılardan birinə çevrilərək, onun 20%-ini tutmuşdur; onlar həmçinin, toxuculuq malları, xüsusilə də paltar bazarında dominantlıq edir və payı 42%-ə çatmışdır (2002-2005-ci illər).

Cənub-Şərqi Asiya ölkələri iqtisadiyyatının sürətli inkişafı bu regionda xammalın əsas növlərinə tələbatı əhəmiyyətli dərəcədə artınnışdır. Burada xammalın, o cümlədən ərzağın, kənd təsərrüfatı məhsullarının, mineralların, metalların istehlakı əvvəllər çox aşağı səviyyədə olduğuna görə, bütövlükdə, bu cür malların idxal potensialı çox yüksək kimi qiymətləndirilirdi. İqtisadi artımın enerji və material tutumlu sahələr sayəsində baş vennəsi sürətli iqtisadi ekspansiya illərində kənd təsərrüfatı məhsullarının və metalların istehlakmm çoxalması ilə nəticələnmişdir. Dünya üzrə kənd təsərrüfatı və mineral xammal istehlakında Asiya «beşliyinin» («Asiya-5») xüsusi çəkisi cəmi bir onillik ərzində iki dəfədən çox artmışdı. «Beşliyin» ölkələri arasında Cənubi Koreya, pambıq istisna olunmaqla, sadalanan malların ən böyük istehlakçısıdır; pambığın ən böyük hissəsi İndoneziyada işlədilir və bu halda Şərqi Asiyanın bütün ölkələri istifadə etdikləri pambığın və yunun əsas hissəsini xaricdən alır. Başqa ölkələrlə müqayisədə təbii ehtiyatları az olan Cənubi Koreya istehsal

məqsədləri üçün istifadə etdiyi pambığı, kauçuku, alüminiumu və qurğuşunu, demək olar ki, bütövlüklə idxal edir.

XXI əsrin birinei onilliyində Cənubi və Şərqi Asiya, o eümlədən Çin Latın Amerikasından ixrac olunan ərzağın təqribən 10%-ni, kənd təsərrüfatı məhsullarının təxminən 15%-ni, metalların və filizlərin 11%-ni mənimsəmişdir. Latın Amerikasından əsas xammal növlərinin ixracı sürətlə çoxalmışdır. 1980-2000-ci illərdə filizlərin və metalların ixracının artım tempi 12%-dən çox olmuşdusa, ərzağın və kənd təsərrüfatı məhsullarının ixracı hər il 9%-dən yuxarı yüksəlmişdir (dünya üzrə Latın Amerikasının ixracının artım templəri isə müvafiq olaraq 2,4% və 3,3% idi).

Asiya, Afrika ölkələri üçün kifayət qədər böyük bazardır və bu regiondan kənd təsərrüfatı məhsullarının, filizlərin və metalların ixracının 27%-i onun payına düşür. İdxalın sürətli artımı Şərqi və Cənub-Şərqi Asiyanı, xüsusilə də Cənubi Koreyanı və Malayziyanı nəhəng regionun ən mühüm idxal mərkəzlərindən birinə çevirmişdir. 2000-2008-ci illərdə bu regionda beynəlxalq ticarətin göstəriciləri həm ümumdünya, həm də inkişaf etməkdə olan ölkələrin göstəricilərindən yüksək idi: bu dövrdə ASEAN qrupu ölkələrinin beynəlxalq ticarətinin ümumi artımı 11,7% olmuşdur; regionda qarşılıqlı ticarət 17% artmış və 46%-i ötüb keçməmişdir. Amma bu xüsusi çəki Avropa İttifaqı ölkələrinin qarşılıqlı ticarətinə düşən paydan xeyli aşağıdır: hələ 1930-cu illərdə Qərbi Avropa dövlətlərində bu pay 70% təşkil edirdi. Xatırlamaq lazımdır ki, üç onillik əvvəl ASEAN ölkələri öz birləşmə hərəkatına başlayanda onların qarşılıqlı ticarətinin xüsusi çəkisi cəmi 2% idi.

## 7.4. Latın Amerikası və Karib dənizi hövzəsi ölkələrinin beynəlxalq ticarəti

2002-2008-ci illərdə beynəlxalq ticarətdə dinamik yüksəliş nümayiş etdirib, 2001-2002-ci illərlə müqayisədə iki dəfədən çox artıma nail olan Latın Amerikası ölkələrindəki vəziyyət bir sıra ölkələrin borc problemini mürəkkəbləşdirən ümumdünya böhranı nəticəsində kəskin pisləşmişdir. Xarici kapital axınlarının azalması və xarici borclanmanm ixtisar olunması ilə yanaşı, ümumilikdə ixrac 12%, idxal isə 8%-dən artıq aşağı düşmüşdür. Məsələn, 2009-cu ildə Argentinanın idxalı onun 2007-ci ildəki ümumi həcminin yarısı qədər olmuşdur. Region dövlətlərinin ixracı müstəsna olaraq ABŞ-ın daxili tələbatı sayəsində saxlanılırdı və qitənin ixracının 60%-dən çoxu bura

yönəlmişdi. Braziliya, Argentina, Meksika və Çilinin yalnız Çinlə ticarəti müəyyən dərəcədə dayanıqlı idi və həmin ölkələrin ixracının artan həcmi onun payına düşürdü. Aİ və ABŞ-a mal göndərişləri isə xeyli azalmışdı.

***Preferensial ticarət və ticarət müqavilələri.*** Son illərdə Latın Amerikası ölkələrinin hökumətləri yeni regional ticarət müqavilələrinin bağlanmasına diqqəti artırmışdır. Bu müqavilələrin bəzisi ticarətin sürətli inkişafını stimullaşdırsa da, digərləri o qədər də səmərəli olmamışdır. Latın Amerikası ölkələrinin ticarət müqavilələrinin işlənib hazırlanması sahəsində səylərini uğurla birləşdimıəsini, həmçinin, MERCOSUR-un yaradılmasını. And Paktının və Mərkəzi Amerika Ümumi Bazarının bərpasını xüsusilə qeyd etmək lazımdır.

And birliyi və MERCOSUR 2000-ci ildə azad ticarət zonasının yaradılması barədə saziş imzalamışdır. Bununla bərabər. And birliyi ilə Panama arasında azad ticarət zonasının yaradılması və son nəticədə Panamanın birliyə tam hüquqla daxil olması haqqında çərçivə sazişi imzalanmışdır. Nəhayət, MERCOSUR və Mərkəzi Amerika Ümumi Bazarı (Qvatemala, Honduras, Kosta-Rika, Nikaraqua və Salvador daxildir) azad ticarət zonasının yaradılmasında ilk addım kimi tariflərin aşağı salınması üzrə proqramın həyata keçirilməsinə başlanması barədə razılıq əldə etmişlər.

Bu cür preferensial ticarət zonalarının yaradılmasına səy göstərilməsi həm siyasi (Latın Amerikası ölkələrinin hökumətləri qonşular arasında ənənəvi gərginliyi azaltmağa çalışır), həm də iqtisadi inkişaf sahəsində mülahizələrdən (hökumətlərin daha çox xarici bazarlara istiqamətlənmiş strategiyaları qəbul etməsi, onları ticarət sahəsində ənənəvi münasibətlər dairəsindən çıxaraq yeni, əlverişli tərəfdaşlar axtarmağa məcbur edirdi) irəli gəlirdi. Latın Amerikası ölkələri preferensial ticarət haqqında sazişlərdən asılı olmayaraq, ticarət maneələrini aşağı salmaqda davam etdiklərinə görə, həmin sazişlər çərçivəsində məhdudi^/yətlərin aradan qaldırılması prosesi yüksək sürətlə gedirdi. Bu ölkələrin ticarəti Şimali Amerikanın nəhəng bazarının tələbatından həlledici dərəcədə asılı olduğuna görə onların qarşılıqlı münasibətlərinə, regional ticarətinə, inteqrasiya templərinə ABŞ da böyük maraq göstərir.

## 7.5. Afrika ölkələrinin ticarəti

Dünyanın başqa regionları ilə ticarət əlverişli olmadığından, ümumilikdə Qərbi Avropa dövlətlərinə doğru yönəldildiyinə görə. Afrika ölkələrində ixracın və idxalın həcmi orta hesabla 2,6% artmışdır. BVF-in məlumatlarına

əsasən, Böyük Səhranın cənubunda yerləşən ölkələr qrupunun beynəlxalq tiearəti həlledici dərəcədə tropik bitkilərin qiymətlərinin sabitliyi amilindən asılıdır, lakin onlar həm 2001-ci, həm də 2002-ci illərdə aşağı düşmüşdü. Ölkələrin bu qrupunun idxalı onların ixracı ilə müqayisədə daha sürətlə artırdı. Afrika qitəsi ölkələrinin xarici ticarətinin ümumi şərtləri sənayeləşmənin səviyyəsi, istehsal amillərinin (məhsuldar qüvvələrin) vəziyyəti əsasında müəyyənləşdirilir. Afrika ölkələrinin strukturuna görə aqrar iqtisadiyyatına xas olan başlıca meyillər əmək məhsuldarlığının yüksəlməsi, həmçinin, milli təsərrüfatların ixrac olunan əsas mallar toplusundan ənənəvi asılılığının aradan qaldırılmasıdır. Bu meyillərin kifayət qədər uzun tarixi vardır. Müstəqilliyini bəyan etdikdən sonrakı dövrdə Afrika ölkələrinin əksəriyyətinin səyləri idxalı əvəzləndirən mallar buraxan sahələrin inkişafı üzərində cəmləşmişdi (bu isə, əmək məhsuldarlığının yüksəldilməsini, istehsalın strukturunun şaxələnməsin! tələb edirdi). Müasir dövrdə bu iqtisadi siyasətin həyata keçirilməsi üzrə cəhdlər göstərilsə də, əsas meyil ixracın strukturunun yaxşılaşdırılmasıdır. Getdikcə aydınlaşır ki, yerli bazarların məhdudluğu və milli iqtisadiyyatın aralıq məhsulların (yarımfabrikatların) və istehsal təyinatlı malların idxalından asılılığı şəraitində ixrac potensialının genişləndirilməsi və beynəlxalq bazarlarda rəqabət qabiliyyətinin gücləndirilməsi sürətli artım və inkişaf üçün həyati əhəmiyyət kəsb edir. Buna müvafiq olaraq, problemin həlli üçün investisiyaların daha yüksək səviyyədə inkişaf etməsi və ticarətlə kapital yığımı arasında möhkəm qarşılıqlı əlaqələrin qurulması lazımdır. Həmin qarşılıqlı əlaqələrin əsas məsələsi investisiyaların strukturunun müəyyən edilməsidir.

İnkişaf səviyyəsi nisbətən yüksək olan iqtisadiyyatlar üçün insan kapitalının inkişafına, əmək məhsuldarlığının və beynəlxalq rəqabət qabiliyyətinin yüksəlməsinə istiqamətlənmə sənayenin əməktutumlu sahələrinin yenidən dirçəlməsindən çox asılıdır. Yuxarıda göstərdiyimiz kimi, müstəmləkədən sonrakı dövrdə Afrika regionunda mövcud olan sənaye sahələrinin çoxu idxalın əvəz olunması konsepsiyası əsasında fonnalaşmışdır. Beynəlxalq istehsal amillərinin və beynəlxalq rəqabətin dinamik dəyişkənliyi səbəbindən 1980-1990-cı illərdə onların resursları əsasən tükənmişdi.

***Böyük Səhranın cənubunda yerləşən Afrika ölkələrinin*** ticarətində son dərəcə arzuolunmaz vəziyyət qalmaqdadır. Dünya Bankının ekspertlərinin gəldiyi qənaətə görə, dünyanın başqa regionları ilə müqayisədə 20 zəif inkişaf

etmiş ölkənin yerləşdiyi bu nəhəng zonada 1980-1990-cı illərdə və XXI əsrin əvvəlində vəziyyət son dərəcə əlverişsiz olmuşdur.

Görünür ki, Böyük Səhranın cənubunda yerləşən ölkələrin çoxunun iqtisadiyyatının rəqabət üstünlükləri təkcə təbii resursların emalının xüsusi çəkisinin artırılması vasitəsilə onların işlənilməsinin və istismarının genişləndirilməsi ilə bitmir. Riskləri bütövlükdə azalsa da, şaxələnmə özlüyündə dayanıqlı iqtisadi artıma zəmanət verə bilməz. Belə vəziyyətdə əlavə olunmuş dəyəri böyük, əmək məhsuldarlığı yuxarı, bazar dəyişikliklərinə nisbətən mallarına tələbatın elastikliyi daha yüksək olan sahələrin tapılması, dəstəklənməsi və inkişaf etdirilməsi zərurətə çevrilir.

Region ölkələrinin iqtisadiyyatının son dərəcə geridə qaldığı şəraitdə onların xarici ticarəti də əslində öz funksiyalarını yerinə yetirə bilmir. Müəyyən səmərə əldə etməyin mümkün olduğu sahələrdə (xammal, tropik bitkilər) isə artım infrastrukturun zəif inkişafı və korrupsiya, ümumi siyasi qeyri-sabitlik, silahlı münaqişələrlə məhdudlaşdırılır.

Beynəlxalq tədqiqatçılar ümumilikdə Afrika ölkələrinin xarici amillərdən, o cümlədən əsas ixrac mallarının beynəlxalq bazarlarda satılmasından və dövlətlərarası maliyyə yardımından güclü asılılığını qeyd edirlər. Belə sahələrin tərkibində səmərəli və rəqabət qabiliyyətli müəssisələrin fərqləndirilməsi həm fiziki, həm də insan kapitalına real investisiyaların qoyulmasını tələb edir. Buna baxmayaraq, 1990-cı illərin ikinci yarısından başlayaraq 2004-cü ilin əvvəlinədək Afrika ölkələrinin çoxu müxtəlif dərəcədə olsa da, xarici ticarətdə öz mövqelərini möhkəmləndirə bilmişdi. Bu, həm Afrikanın daxilində, həm də Avropa İttifaqı və Asiyanın sürətlə inkişaf etməkdə olan ölkələri ilə aparılan ticarətə aid idi. Afrika və ərəb ölkələri, ö cümlədən, Misir, Şimali Afrika (Məğrib dövlətləri olan Əlcəzair, Mərakeş, Tunis, Liviya) ilə ticarət bir qədər canlanmışdı. Bunu, ilk növbədə, Misirə - 1990-2008-ci illərdə xarici ticarətdə ən dinamik artım (orta hesabla 7%-dən yuxarı) nümayiş etdirən dövlətə şamil etmək olar.

Frank zonasına daxil olan (CFA) ölkələrin əksəriyyəti 1995-ci ildə qeyd olunmuş yüksək göstəricilərini saxlamış və qitədə iqtisadi şəraitin, ümumiyyətlə, pisləşməsinə baxmayaraq, 1990-cı və 2000-2003-cü illərdə qənaətbəxş nəticələr əldə etmişdir. CFA zonasına iki regional inteqrasiya birliyi daxildir: Qərbi Afrika İqtisadi və Valyuta İttifaqı (UEMOA - The West African Economic and Monetary Union) və Mərkəzi Afrika İqtisadi və Valyuta

Birliyi (CEMAC - Economic and Monctary Community of Central Africa). Birinci birləşmənin tərkibinə Benin, Burkina-Faso, Qvineya-Bisau, Kot- d'İvuar, Mali, Niger, Seneqal və Toqo daxildir. İkinci birləşmənin üzvləri Qabon, Kamerun, Konqo, Mərkəzi Afrika Respublikası, Çad və Ekvatorial Qvineyadır. Ekspertlərin qiymətləndirməsinə görə. Qərbi Afrika İqtisadi və Valyuta İttifaqının üzvü olan dövlətlərdə ÜDM 1990-1999-cı illərlə müqayisədə 52%-dən 2000-2008-ci illərdə 31%-dək enmişdir. Mərkəzi Afrika İqtisadi və Valyuta Birliyinə daxil olan ölkələrin məcmu ÜDM-i isə, 2000- 2008-ci illərdə 4,2% artmışdır (1990-1999-cu illərdə - 4,1%). 2000-2010-cu illərdə inkişaf etməkdə olan ölkələrin əksərij^ətində artım templərinin kəskin zəifləməsi fonunda həmin regional birliklərdə ən yüksək göstəricilər əldə edilmişdir. Buna baxmayaraq, CFA ölkələrinin bir çoxu əvvəlki kimi, ən zəif inkişaf etmişlərə, yəni gəlirləri aşağı olan, inkişafın struktur xüsusiyyətindən irəli gələn ciddi problemlərlə üzləşən dövlətlərə aid edilir. Bu, qarşılarında duran çoxsaylı sosial-iqtisadi məsələləri həll etmək üçün həmin ölkələr tərəfindən artımın uzun müddət ərzində əldə olunmuş templərinin saxlamasının vacibliyini göstərir.

Ölkələr üzrə ciddi fərqlərin olmasına baxmayaraq, ümumilikdə Afrika ölkələri ixrac imkanlarının genişləndirilməsi istiqamətində böyük addım atmışdır. Beynəlxalq rəqabət və beynəlxalq əmtəə təklifi də regiondaxili ticarət potensialının inkişafına güclü təsir göstərir. Məsələn, Afrika Cənubunun İnkişafı Birliyi (SADC - Southern African Development Community) ölkələrinin Aİ-yə ixracının həcminin artması Lome Konvensiyasında nəzərdə tutulmuş preferensial bazar şərtləri ilə dəstəklənsə də, həmin ixracatçıların Cənubi Afrika Gömrük İttifaqı (SACU - Southern African Customs Union) ölkələrinə ixrac axınları ilə rəqabət apara biləcəyi yaxud bu sektorda analoji güzəştlər və yardım mexanizmlərinin yaradılmasının zəruriliyi məsələsi açıq qalır. Bundan başqa, SADC ölkələrinin SACU ölkələrinə mal ixracına əlverişli şərait yaradılması, çox güman ki, Aİ-yə ixrac axınlarının sadəcə olaraq regiondaxili ticarətə yönəlməsinə deyil, SADC ölkələrinin ticarət dövriyyəsinin artımına gətirib çıxaracaqdır.

SADC ölkələrinin ixracatçılarının SACU ölkələri ilə müqayisədə rəqabət qabiliyyəti gücləndikcə. Cənubi Afrikada genişlənən regiondaxili ticarət qitə dövlətləri arasında pozulmuş ticarət balansını bərpa edə bilərdi. Cənubi Afrikada məhz SADC ölkələrinin ticarətdə böyük artım nümayiş etdirdiyini

nəzərə alsaq, buradan qitənin başqa ölkələrinə ixracın çoxalması disbalansın hər iki tərəfdən pozulmasını əhəmiyyətli dərəcədə aradan qaldıra bilər. Böyük Səhranın cənubunda yerləşən ölkələrin regiondaxili ticarətinin genişlənməsinin bu cür perspektivlərini kapital yığımının artmasından və dayanıqlı inkişafın təmin edilməsinin əsasının yaradılmasından asılı olmayan təzahür kimi nəzərdən keçinrıək olmaz. Amma region daxilində ticarətin azacıq artması belə, idxalçılarla münasibətdə tədiyyə balansının yaxşılaşdırılması yolu ilə regional artımın qapalı dairəsində yaranan təkan sayəsində yeni ixrac imkanlarının inkişafına yardım göstərir, dünya miqyasında onların rəqabət qabiliyyətinin yüksəlməsi ilə nəticələnən «treninqinə» səbəb olur. Belə təsəvvür yaranır ki, gələcəkdə Böyük Səhranın cənubunda yerləşən ölkələrin daxili ticarətinin genişlənməsi mərkəzi subregionda, daha çox inkişaf etmiş Cənubi Afrika Respublikasında, Keniyada və ola bilsin ki, Kot-d'İvuarda baş verəcək, qalan dövlətlərin perspektivləri isə infrastruktur şəraitinin (nəqliyyat, rabitə və s.) yaxşılaşmasından və oradakı siyasi vəziyyətin sabitliyindən asılı olacaqdır.

Hesablamalar (beynəlxalq mənbələrin təhlili bazasında) qitə dövlətlərinin fəal ticarət mübadiləsi üçün böyük potensial resurslara malik olduğunu, bunun isə, öz növbəsində, onların iqtisadi artımının dinamikası ilə birbaşa bağlılığını göstərir. Bununla yanaşı, aydındır ki, Afrika ölkələrinin dünya iqtisadiyyatından təcrid olunmuş vəziyyətdə inkişaf etməsi, prinsipcə, qeyri- mümkündür. Deməli, burada əsas məsələ qitənin XXI əsrdə inkişaf prosesində olan qlobal əmək bölgüsü sxeminə hansı yolla və necə «daxil olmasıdır».

## 7.6. MDB iştirakçısı olan ölkələrin və Rusiyanın beynəlxalq ticarəti

MDB iştirakçısı olan ölkələrin çoxunda iqtisadi artımın canlanması onların xarici ticarətinin dinamikasında da öz əksini tapmışdır. 2000-2008-ci illərdə ixracın fiziki həcmi 7,8% çoxalmış, idxalın fiziki həcminin artımı isə 11% olmuşdur. Bu ölkələrin ixracı az, 6% olsa da, əsasən Rusiya, Qazaxıstan, Belarus və Ukraynanın hesabına artmışdır (cədvəl 7.1). Bu ölkələr əsas ticarət axınlarını Çin, Avropa və Türkiyəyə yönəldir.

1991-ci ildən başlayaraq, MDB ölkələrinin qarşılıqlı ticarətinin payının azalması və inkişaf etmiş ölkələrlə ticarətin xüsusi çəkisinin artması meyilləri formalaşmışdır. Ümumilikdə 2000-2010-cu illərdə MDB daxilində qarşılıqlı

ticarətin artımı səngimiş, bəzən isə aşağı düşmüşdür. Çox güman ki, Rusiya, Belarus və Qazaxıstan tərəfindən Gömrük İttifaqının yaradılması bu vəziyyəti dəyişdirəcək, onlar arasında ticarət dövriyyəsini artıracaqdır.

MDB daxilində qarşılıqlı ticarətin zəif artımı, faiz nisbəti ilə götürüldükdə onun dünyanın başqa ölkələri ilə ticarətə nisbətən gələcəkdə də ixtisar olunacağını göstərir. Yalnız uzaq ölkələrin bazarlarında yer tuta bilməmələri MDB ölkələrini ticarətdə bir-birinə doğru addımlar atmağa vadar edəcəkdir. MDB ölkələrinin ümumi ticarətində qarşılıqlı ticarət dövriyyəsinin xüsusi çəkisi 1991-ci ildəki 78,6%-dən 2009-cu ildəki 23%-ə düşərək, üç dəfə ixtisar olmuşdur. Belə ki, Azərbaycanın ixracının 80%-i, idxalının isə 60%-i Türkiyə və İranın payına düşür. Qırğızıstanın və Moldovanın ixracatının təqribən yarısı müvafiq olaraq Çin və Rumıniyaya göndərilir. 2001-2009-cu illərdə bu nisbətlər xarici iqtisadi əlaqələrin müə5^ən şaxələnməsi və Qərbi Avropa dövlətləri, Hindistan, Misir, Pakistan və başqa dövlətlərlə ticarətin artması, həmçinin, Rusiya və Qazaxıstandan MDB üzvü olan digər ölkələrə neft və qaz göndərişlərinin rolunun yüksəlməsi nəticəsində bir qədər dəyişmişdir.

*Cədvəl 7.1*

**2008- ci ildə Belarus, Qazaxıstan, Rusiya və Ukraynanın qarşılıqlı ticarəti (MDB ölkələri ilə ticarətin ümumi həcminə nisbətən, %-lə)***

| MDB ölkələri | Belarus | Qazaxıstan | Rusiya | Ukrayna | MDB-nin başqa ölkələri |
|---|---|---|---|---|---|
| Belarus: | | | | | |
| ixrac | | 0,1 | 87,0 | 10,7 | 2,2 |
| idxal | - | 0,1 | 93,6 | 5,0 | 1,4 |
| Qazaxıstan: | | | | | |
| ixrac | 0,2 | | 69,8 | 16,8 | 13,2 |
| idxal | 1,4 | - | 88,7 | 4,1 | 5,8 |
| Rusiya: | | | | | |
| ixrac | 35,8 | 19,6 | | 37,0 | 7,6 |
| idxal | 33,9 | 18,3 | - | 35,0 | 12,8 |
| Ukrayna: | | | | | |
| ixrac | 4,9 | 2,4 | 80,0 | | 12,7 |
| idxal | 5,2 | 8,0 | 65,8 | - | 21,0 |

*Статистический сборник Содружества Независимых Государств, 2001-2009 гг.

Birlik üzvlərinin qarşılıqlı ticarətinin həcminin azalmasına və onların ticarət tərəfdaşlarının seçiminə uzaq məsafə, dəmir yolu ilə daşıma tariflərinin yüksək olması kimi amillər də öz təsirini göstərir. Məsələn, hazırda e}mi malların Belarusa Qazaxıstandan, Qırğızıstandan və Özbəkistandan gətirilməsi, onların Polşadan və Almaniyadan idxalı ilə müqayisədə 1,4-1,6 dəfə baha başa gəlir.

MDB ölkələrinin regiondaxili ticarət dövriyyəsində sənaye resursları və ərzaq 57-60% təşkil edir, maşın və avadanlığın payına 11%, nəqliyyat vasitələrinin payına isə 7,5% düşür. MDB daxilində ticarətin əmtəə strukturu kənd təsərrüfatı, dağ-mədən yaxud xammalın ilkin emalı sənayesi məhsulları ilə mübadiləni həyata keçirən inkişaf etməkdə olan ölkələrin regional qruplaşmalarında olduğunun təqribən eynidir. Aydındır ki, ticarət dövriyyəsinin strukturunun bu cür olması Birlik ölkələrinin təsərrüfatlarının qarşılıqlı əlaqəsini kəskin zəiflədir, onların bir-birinə iqtisadi maraqlarını azaldır. Bu isə, bəzən eyni bazarlarda onların rəqib kimi çıxış etməsinə gətirib çıxarır. MDB ölkələrinin ticarət dövriyyəsinin strukturunun problemləri texnoloji inkişafın aşağı səviyyədə olmasının birbaşa nətieəsidir və xarici iqtisadi əlaqələrdə əksini tapır. MDB-nin nəhəng daxili bazarlarının üstünlüklərindən səmərəli tərzdə yararlanmama problemi isə ölkələrin bu qrupunun ticari-iqtisadi əlaqələrinə ciddi təsir göstərən ənənəvi siyasi uzaqgörməzlikdir.

## Xülasə

• XXI əsrin birinci onilliyində tərəqqi yolundakı çətinliklərə baxmayaraq, inkişaf etməkdə olan ölkələr beynəlxalq ticari-iqtisadi münasibətlərini genişləndirə bilmişdir. Onların bir çoxu öz təbii üstünlüklərindən (xammal, ucuz işçi qüvvəsi, enerji resursları) həm iqtisadi və sosial inkişaf üçün, həm də inkişaf etmiş dövlətlərin bazarlarına girmək üçün istifadə edə bilmişdir. İnkişaf etməkdə olan ölkələrin beynəlmiləl qruplarında və keçid iqtisadiyyatlı ölkələrdə (məsələn, MDB-də) regiondaxili ticarətin payı da bir qədər artmışdır.

• Son onilliklərdə bir sıra ölkələr istehsala cəlb olunan resursların keyfiyyətini və kəmiyyətini dəyişdinuək, səylərini malik olduqları üstünlüklərdən yararlana biləcəkləri sahələrdə cəmləşdinnək yolu ilə ticarətin genişləndirilməsinə yönəlmiş tədbirlər həyata keçinnişdir. Bu cür yanaşmaların

məqsədəuyğunluğu son dövrlərdə baş qaldıran ciddi çətinliklərə baxmayaraq, Asiya ölkələrinin və Cənubi Koreyanın iqtisadi və ticari müvəffəqiyyətlərinin nümunəsi ilə təsdiqlənir. Cənubi Koreya, Malayziya və Tailand çox qısa müddətdə yoxsul kənd təsərrüfatı ölkələrindən hazır məhsulların ciddi ixracatçılarına çevrilmişdir.

• Xarici ticarətdə əldə olunan uğurlara YSÖ-nin iqtisadiyyatın başlıca sektorlarının (xüsusilə də polad, avtomobil və məişət elektronikası istehsalı) aşkar olunması üzrə fəal siyasət həyata keçirilməsi nəticəsində ixracyönümlü sahələrin fonnalaşması öz təsirini göstənnişdir. Bununla bərabər, hökumətlərin işçilərin ixtisas səviyyəsinin yüksəldilməsi məqsədilə təhsilə, elmi-texniki tədqiqatlara və texnologiyaların işlənib hazırlanmasına iri məbləğdə kapital qoyması, son nəticədə ölkələrin və dünya bazarlarına çıxarılan malların rəqabət qabiliyyətinin güclənməsinə imkan yaratmışdır.

• Bəzi Asiya ölkələrinin nailiyyətlərinin başqa dövlətlərin də ticarət üstünlüklərinin gücləndirilməsinə yönəlmiş hərəkətlərini stimullaşdıracağını ehtimal etmək olar, amma dövlət tərəfindən dəstəklənən müstəqil sahələrin müqavimətinin baş qaldıracağını da nəzərdən qaçırılmamalıdır. Təbii ki, uğurlu ticarət siyasətinin bir ölkədən digərinə köçürülməsi barədə mübahisələrin davam edəcəyini də gözləmək lazımdır.

• Bir sıra proseslərin və meyillərin inkişafı qeydə alınmışdır. Onlara aşağıdakılar aiddir:

■ eyni zamanda iki prosesin: ticarət azadlığının və ayrı-ayrı ölkələrin iqtisadi vəziyyətinin pisləşməsi şəraitində yaxud ölkənin əmtəə istehsalçılarına üstün mövqelərin təmin edilməsi cəhdləri göstərildikdə proteksionizmin inkişaf etməsi;

■ iqtisadiyyat inkişaf etdikcə, çoxsahəli istehsalın məhdud məkanda yerləşdirilməsinin səmərəliliyi yüksəlir; əksər hallarda ölkə daxilindəki istehsal xarici ticarəti əvəz etmək imkanı yaradır. Robot texnikasından istifadə olunmaqla xırda seriyalı çevik istehsal metodları hətta kiçik ölkələrə zəruri idxal halları istisna edilməklə, bir çox istehlak mallarını daxildə səmərə ilə buraxmağa imkan verir (Skandinaviya ölkələri, İsveçrə, Niderland buna nümunədir). İnkişaf etməkdə olan bəzi ölkələr, xüsusilə Latın Amerikası dövlətləri (Braziliya, Çili, Argentina) də bu yolla getmişdir.

## Yoxlama sualları

1. inkişaf etməkdə olan ölkələrin beynəlxalq ticarətinin rolunun yüksəlməsinin əsas prinsiplərini izah edin.

2. Asiya ölkələri beynəlxalq ticarətdə hansı rol oynayır? Çinin və Hindistanın iri ticarət dövlətləri kimi rolu nədən ibarətdir?

3. Dünyanın dörd əsas iqtisadi mərkəzi olan ABŞ - Qərbi Avropa - Çin - Yaponiya arasında əmtəə axınlarının dinamik artmasının əsasını nə təşkil edir?

4. ABŞ-m, Avropa İttifaqının, Yaponiyanın, Çinin, dünya regionlarındakı (Asiya, Latın Amerikası, Afrika, Şərqi Avropa) əsas ticari-iqtisadi ittifaqların ticarət mövqelərinin təhlilini aparın. Ticarətin əsas göstəricilərini müqayisə edin, meyilləri aşkarlaym.

5. MDB-də beynəlxalq ticarətin mövqeləri nə cürdür?

6. MDB-də qarşılıqlı ticarətin metodları hansılardır?

7. Rusiyanın ixracının və idxalının strukturunu izah edin.

8. Bu dövlətlər arasında ticarət münasibətlərinin özəl cəhətləri nədən ibarətdir: a) Yaponiya ilə Qərbi Avropa arasında; b) Yaponiya, Avstraliya və Yeni Zelandiya arasında; c) Rusiya ilə dünyanın inkişaf etmiş ölkələri arasında?

9. Beynəlxalq ticarətin artımı ilə dünya üzrə işgüzarlıq mərhələlərinin dəyişməsi arasında əlaqələri aşkar edin.

10. Rusiyanın xarici ticarətinin özəl cəhətləri hansılardır? Onun ticarətdə əsas tərəf-müqabilləri hansı ölkələrdir?

11. Ölkənin ticarət kəsiri necə formalaşır və onun iqtisadiyyatına necə təsir göstərir? Ticarət kəsirlərinin rolu nədə təzahür olunur? ABŞ-m ticarət kəsirinin xüsusİ3^ətlərini müəyyən edin.

12. Xarici və beynəlxalq ticarətin tənzimlənməsi məqsədi ilə hansı tədbirlər həyata keçirilir?

## Referatların mövzuları

1. Beynəlxalq ticarətin müasir nəzəriyyələri

2. Rusiyanın xarici ticarəti. Hazırki vəziyyəti və inkişafının perspektivləri

3. Ərzaqla beynəlxalq ticarət: müasir vəziyyət və problemlər

# Fəsil 8

# RUSİYA FEDERASİYASI BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ

## 8.1. Ümumi təsvir

Şərqi Avropada və Şimali Asiyada yerləşən Rusiya dünyanın ən böyük dövlətidir (17 075 400 kv. km yaxud Yerin quru hissəsinin 11,46%-i). Rusiyanın ərazisində 11 saat qurşağı mövcuddur. Ölkənin əsas hissəsi düzənlikdir. Dağ rayonları ölkənin cənubunda və şərqində üstünlük təşkil edir. Rusiyada 120 min çay və 2 milyona yaxın göl var. 2010-cu ildə Rusiyanın əhalisi təqribən 141 milyon nəfər olmuşdur (1999-cu ildə 148 milyon nəfər). Ölkənin ən iri dəniz limanları Sankt-Peterburq, Arxangelsk, Vladivostok, Kalininqrad, Murmansk, Novorossiysk, Naxodka və Maqadandadır.

Ölkə xammal resursları: neft, qaz, kömür, dəmir filizləri, qızıl və gümüş, almaz, platin, qurğuşun, sink, qalay, nikel və s. ilə zəngindir. Rusiya ərazisində unikal Baykal gölü daxil olmaqla, nəhəng həcmdə içməli su ehtiyatları cəmləşmişdir. Rusiya iqtisadiyyatı dünyada ən irilərindəndir, ÜDM-in həcminə görə ölkə dünyanın sənayeləşmiş dövlətlərinin ilk onluğu siyahısına daxildir (2010-cu ildə 1,3 trilyon dollar). Rusiyanın sənaye sahələri sırasında ən güclüləri yanacaq-energetika sektoru, faydalı qazıntılarının hasilatı; sellüloz- kağız istehsalı (ölkənin meşə ehtiyatları dünyada ən böyükdür); nəşriyyat və poliqrafiya fəaliyyəti; metallurgiya; elektrik enerjisi, qaz və suyun istehsalı və bölgüsüdür. Rusiyada nəhəng təbii qaz yataqları mövcuddur və ölkə bunun ən böyük istehsalçısıdır. Bundan başqa, Rusiya hasil olunan neftin həcminə görə dünyada birinci-ikinci yerləri, onun ixracının həcminə görə isə ikinci yeri tutur. Rusiyada iri kömür yataqları vardır, ölkə qızılla zəngindir.

XXI əsrin birinci onilliyində Rusiya əsasən neftin, qazın, metallurgiya məhsullarının və oduncağın xarici bazarlarına çıxmaqla, ümumdünya təsərrüfat əlaqələrinə getdikcə daha çox cəlb olunur.

## 8.2.1991-2009-cu illərdə Rusiyanın əsas iqtisadi göstəriciləri

***Əhali*** Əhalinin sayı ölkələrin iqtisadi inkişafında böyük rol oynayır. Bu məqam ərazi baxımından iri olan ölkələrə daha çox aiddir. Son 20 ildə Rusiya əhalisinin göstəricilərinin dinamikası 8.1-ci cədvəldə göstərilmişdir.

*Cədvəl 8.1*

**Rusiya əhalisinin ümumi sayı və onun dünya əhalisinin sayındakı payı* (milyon nəfər)**

| Göstəricilər | 1991 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Say** | **147,205** | **146,669** | **146,041** | **145,339** | **144,598** | **143,863** | **143,169** | **142,530** | **141,941** | **141,394** | **140,873** |
| **Dünya əhalisinin sayındakı payı** | **2,44** | **2,40** | **2,36** | **2,32** | **2,28** | **2,24** | **2,20** | **2,16** | **2,13** | **2,09** | **2,6** |
| **Əmək resurslarının payı** | **48,64** | **49,39** | **50,04** | **50,61** | **51,04** | **51,34** | **51,99** | **52,72** | **53,60** | **53,59** | **53,49** |
| **ÜDM-in DDM-də payı** | **3,83** | **0,81** | **0,96** | **1,04** | **1,16** | **1,41** | **1,68** | **2,01** | **2,34** | **2,76** | **2,17** |

* Müəllif tərəfindən UNCTAD-ın məlumatları əsasında tərtib olunmuşdur, 2010.

*Cədvəl 8.2*

**Rusiya ÜDM-nin sahə strukturu*, %**

| Göstəricilər | 1991 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| ÜDM-də kənd təsərrüfatının xüsusi çəkisi | 7,58 | 6,68 | 6,83 | 6,61 | 6,67 | 6,01 | 5,42 | 4,98 | 4,86 | 4,87 | 4,85 | 4,75 |
| ÜDM-də sənayenin xüsusi çəkisi | 37,23 | 37,95 | 35,70 | 33,03 | 32,91 | 36,51 | 38,21 | 37,33 | 36,70 | 36,12 | 36,0 | 36,3 |
| ÜDM-də xidmətlərin xüsusi çəkisi | 55,18 | 55,37 | 57,47 | 60,36 | 60,42 | 57,48 | 56,38 | 57,69 | 58,45 | 59,01 | 60 | 60,1 |

* Müəllif tərəfindən UNCTAD-ın məlumatları əsasında tərtib olunmuşdur, 2010.

Cədvəl məlumatlarından görünür ki, 1991-2009-cu illərdə Rusiyanın əhalisi təqribən 7 milyon nəfər azalmışdır. Bu hadisə prezident Yeltsin hökumətinin həyata keçirdiyi son dərəcə sərt (daha doğrusu, qəddar) sosial-iqtisadi siyasəti müəyyən dərəcədə əks edir. Həmin siyasətin nəticəsində aqrar-sənaye

kompleksləri məhv edilmiş, iqtisadiyyat tərk-sənaye olunmuş, yoxsulluq

kütləvi hal almış, əhali arasında xəstəliklər geniş yayılmış, ömür müddəti sürətlə qısalmışdır (1990-cı ildəki 70,1 yaşdan 2000-ci ildə 55 yaşadək).

***ÜDM-in dinamikası.*** Ölkənin məhsuldar qüvvələrinin deqradasiyasının (iqtisadiyyatın tərk-sənaye olunmasının) nəticəsi kimi, 1991-2000-ci illərdə ÜDM-in əhalinin hər nəfərinə düşən məbləği 5 min dollardan 2,3 min dollaradək azalmışdır. Bu cür enməni Rusiya ilə müqayisə oluna bilən heç bir ölkədə müşahidə etmək mümkün deyil. Yalnız 2001-ci ildə iki amilin: dünya bazarlarında neftin qiymətinin sürətlə bahalaşması və Rusiyanın idarə olunmasına yeni adamların gəlməsi nəticəsində dayanıqlı artım başlanmışdır. Bu artım 2003-cü ildən 2008-ci ilədək - həmin göstəricinin 2,9 min dollardan 11,8 min dollara yüksəldiyi dövrdə xüsusilə nəzərə çarpır. 2009-cu ildə güclü iqtisadi tənəzzülün təsiri altında ÜDM-in əhalinin hər nəfərinə düşən həcmi 8,8 min dollara enmiş, amma 2010-cu ildə yenidən 10,2 min dollaradək qalxmışdır.

Dünya üzrə məcmu məhsulda Rusiyanın ÜDM-inin xüsusi çəkisi cüzidir, 1991-2000-ci illərdə bu göstərici üç dəfə ixtisar olunmuş, onun artımı 2001-ci ildə başlanmış və bu gün 2%-dən bir qədər çoxdur. Rusiyanın DDM-də ən yüksək payı 2008-ci ildə 2,76%-ə çatmış, 2009-cu ildə isə yenidən enərək 2,17% olmuşdur. Həmin göstəricilər mütləq rəqəmlərlə bu cür ifadə olunur: 1991-ci ildə Rusiya Federasiyasının ÜDM-i 2,6 trilyon dollar, 1997-ci ildə 1,2 trilyon dollar, 2008-ci ildə 1,7 trilyon dollar. Cari onilliyin, demək olar ki, hər ilində Rusiya iqtisadiyyatı artmış və miqyası genişlənmişdir. 2008-ci ildə baş verən ümumdünya böhranının Rusiya iqtisadiyyatına neqativ təsiri 2009-cu ildə ÜDM-in 1,2 trilyon dollara enməsində əks olunur (Rusiya iqtisadiyyatının sahə strukturu 8.2-ci cədvəldə göstərilir).

1999-2010-cu illərdə Rusiyanın ÜDM-ini sahə kəsimində nəzərdən keçirərkən görürük ki, xidmət sahələri ən böyük xüsusi çəkiyə (60%-ə yaxın) malikdir. İkinci yerdə ÜDM-in təqribən 35%-i həcmində olan sənaye durur. ÜDM-in 6%-dən az həcmlə kənd təsərrüfatı üçüncü yerdədir.

Bu məlumatlar 2003-cü ildən (yeni minillikdə enmənin aşağı nöqtəsi) başlayaraq,

iqtisadiyyatın bütün sektorlarının artıma doğru meylini nümayiş etdirir. Həmin illərdə ölkə təsərrüfatının bütün makroiqtisadi göstəriciləri əlverişli olmuş, pozitiv dinamika (2010-cu ildəki yüksək, 12% inflyasiya istisna olunmaqla) nümayiş etdirmişdir. Bir cəhəti də qeyd etmək lazımdır ki, Rusiyanın dövlət borcu getdikcə azalır. 1999-cu ildə bu göstərici 73,39% idisə, 2008-ci ildə 20,7% olmuş, 2010-cu ilin nəticələri üzrə bir qədər artmışdır (21,1%).

***Dünya iqtisadiyyatında Rusiyanın yeri.*** 2010-cu ildə Rusiyanın iqtisadiyyatı qlobal rəqabət qabilİ5^ətinə görə dünyada 63-cü yerdə qərarlaşmış, qlobal rəqabət qabiliyyəti indeksi (GCI - Global Competitiveness Index) isə 4,15 olmuşdur. Ən yaxşı nəticə 2009-cu ildə GCI 4,31-ə bərabər olduqda, 51-ci yer əldə edilmişdir.

Rusiyanın beynəlxalq iqtisadi əlaqələrdə iştirakının göstəriciləri 8.3 cədvəlində verilmişdir.

Cədvəl məlumatlarından ötən 10 il ərzində ölkənin xarici ticarətinin artım dinamikasının yüksək olduğu görünür. 1999-cu ildən 2008-ci ilədək olan dövrdə Rusiyanın əmtəə ixracının artımı xüsusilə intensiv idi. İxracın ən yüksək artımı 2004-2008-ci illərə təsadüf edir: 2008-ci ildə onun həcmi 400 milyard dollar olmuşdur. Amma 2009-cu ildə dünya bazarlarında neftin qiymətinin ucuzlaşması nəticəsində Rusiyanın ixracı 303,3 milyard dollara düşmüşdü. Onu da qeyd edək ki, dünya üzrə ticarət dövriyyəsində Rusiyanın payı böyük deyil: 1999-cu ildə 1,03% olan bu göstərici 2008-ci ildə 2,44%-ə yüksəlmiş, 2010-cu ildə isə 2,07%-ə enmişdir.

Sonuncu 10 il ərzində Rusiyanın xarici ticarət balansının müsbət olması onun ixracının idxalından çox olduğunu sübut edir. Lakin bu göstərici balanslaşdırılmamışdır və ölkənin xarici ticarətinin ümumi dövriyyəsinin ±5-7%-ini təşkil edir (cədvəl 8.4).

Deyildiyi kimi, Rusiyanın ixracının əmtəə strukturunda əsas xammal növləri üstünlük təşkil edir və ölkənin ixracında bunun payı 64-77%-dir. İkinci yeri filizlərin müxtəlif növləri, metallar, qiymətli daşlar və qeyri-sikkə qızılının ixracı tutur. Hazır məmulatlar ixracının xüsusi çəkisi cəmi 4% təşkil edir. Eyni zamanda ölkə maşın və texnikanın, ərzaq və istehlak mallarının, demək olar ki bütün növlərinin idxalçısıdır. Məhz bu, ölkə təsərrüfatının tarazlaşdırıl-madığının sübutudur. İxracın coğrafi strukturu 8.5 cədvəlində göstərilmişdir.

*Cədvəl 8.3*

**Rusiyanın xarici iqtisadi əlaqələrdə iştirakının əsas göstəriciləri* (milyon dollar)**

| Göstəricilər | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Həcm | 75665 | 105565 | 101884 | 107301 | 135929 | 183207 | 243799 | 303926 | 354403 | 471765 | 303388 | 340500 |
| Dünya ticarətin-dəki pay | 1,03 | 1,18 | 1,28 | 1,33 | 1,43 | 1,56 | 1,79 | 1,98 | 2,13 | 2,44 | 2,06 | 2,07 |
| Ticarət balansı | 32078 | 56440 | 42744 | 40238 | 52252 | 76087 | 105822 | 122765 | 108566 | 150595 | 92404 | 98000 |

* Müəllif tərəfindən UNCTAD-ın məlumatları əsasında tərtib olunmuşdur, 2010.

*Cədvəl 8.4*

**Rusiyanın ixracının əmtəə strukturu*, %**

| İllər | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| *İxrac* | | | | | | | | | | | |
| Xammalın əsas növləri | 64,51 | 65,64 | 66,22 | 68,05 | 69,62 | 71,30 | 74,60 | 75,01 | 74,24 | 76,71 | 77,02 |
| Ərzaq | 2,83 | 2,71 | 2,99 | 3,66 | 3,44 | 2,41 | 2,51 | 2,36 | 3,03 | 2,60 | 3,80 |
| Kənd təsərrüfatı və emal olunmamış materiallar | 3,71 | 3,38 | 3,63 | 3,96 | 3,76 | 3,49 | 3,14 | 2,94 | 3,05 | 2,44 | 2,47 |
| Filizlər, metallar, qiymətli daşlar və qeyri-sikkə qızılı | 16,51 | 16,32 | 13,88 | 11,63 | 11,15 | 11,84 | 10,20 | 10,89 | 10,43 | 8,23 | 7,50 |
| Kimya məhsulları | 6,33 | 6,53 | 6,32 | 6,11 | 6,07 | 5,90 | 5,39 | 4,78 | 5,06 | 5,98 | 5,32 |
| Maşın və nəqliyyat vasitələri | 6,11 | 5,43 | 6,96 | 6,58 | 5,96 | 5,06 | 4,15 | 4,02 | 4,19 | 4,04 | 3,89 |
| *İdxal* | | | | | | | | | | | |
| Xammalın əsas növləri | 32,18 | 31,85 | 28,63 | 27,10 | 25,86 | 24,02 | 22,60 | 20,58 | 18,71 | 18,53 | 22,72 |
| Ərzaq | 24,16 | 19,97 | 20,59 | 20,33 | 19,41 | 17,40 | 16,85 | 15,25 | 13,79 | 13,23 | 17,62 |
| Kənd təsərrüfatı və emal olunmamış materiallar | 1,79 | 2,19 | 1,77 | 1,53 | 1,45 | 1,30 | 1,12 | 1,08 | 1,00 | 0,93 | 1,26 |
| Filizlər, metallar, qiymətli daşlar və qeyri-sikkə qızılı | 3,87 | 5,19 | 3,80 | 3,19 | 2,91 | 3,29 | 3,06 | 2,81 | 2,55 | 2,69 | 2,22 |
| Kimya məhsulları | 9,98 | 11,67 | 12,61 | 12,10 | 12,44 | 12,15 | 12,74 | 12,98 | 11,74 | 11,01 | 14,30 |
| Maşın və nəqliyyat vasitələri | 28,03 | 29,12 | 32,60 | 35,75 | 37,93 | 41,84 | 43,62 | 47,31 | 52,20 | 53,62 | 41,86 |

* Müəllif tərəfindən UNCTAD-m məlumatları əsasında tərtib olunmuşdur, 2010.

*Cədvəl 8.5*

**Rusiyanın ixracının coğrafi strukturu*, %**

| Dünya ölkələri | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ən az inkişaf etmiş öikəiər | 0,35 | 0,24 | 0,20 | 0,51 | 0,30 | 0,32 | 0,29 | 0,26 | 0,27 | 0,31 | 0,34 |
| İnkişaf etməkdə oian öikəiər | 20,13 | 19,75 | 21,10 | 22,04 | 21,00 | 21,03 | 20,21 | 18,59 | 20,07 | 20,77 | 22,80 |
| Keçid iqtisadiyyatı ölkələri | 15,65 | 13,98 | 14,19 | 15,32 | 15,62 | 15,39 | 13,80 | 14,01 | 16,31 | 15,19 | 14,83 |
| İnkişaf etmiş ölkələr | 63,88 | 66,03 | 64,51 | 62,12 | 63,08 | 63,25 | 65,70 | 67,14 | 63,35 | 63,72 | 62,04 |

* Müəllif tərəfindən UNCTAD-m məlumatları əsasında tərtib olunmuşdur, 2010.

*Cədvəl 8.6*

**Rusiyanın idxalının coğrafi strukturu*, %**

| Dünya ölkələri | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ən az inkişaf etmiş ölkələr | 0,30 | 0,23 | 0,23 | 0,24 | 0,22 | 0,23 | 0,30 | 0,26 | 0,22 | 0,20 | 0,27 |
| İnkişaf etməkdə olan ölkələr | 17,22 | 14,86 | 17,09 | 18,46 | 19,17 | 19,50 | 22,29 | 23,40 | 25,30 | 25,00 | 26,58 |
| Keçid iqtisadiyyatı ölkələri | 24,84 | 29,99 | 21,59 | 19,30 | 19,46 | 18,09 | 16,28 | 14,04 | 13,94 | 13,22 | 12,10 |
| inkişaf etmiş ölkələr | 57,64 | 54,92 | 61,08 | 62,00 | 61,15 | 62,18 | 61,13 | 62,30 | 60,54 | 61,58 | 61,05 |

Müəllif tərəfindən UNCTAD-ın məlumatları əsasında tərtib olunmuşdur, 2010.

Rusiya öz mallarının çoxunu (təqribən 63%) inkişaf etmiş ölkələrə ixrac edir. İxracın təxminən 20%-i inkişaf etməkdə olan ölkələrin, 15%-i keçid iqtisadiyyatlı ölkələrin payına düşür. Ötən onillikdə MDB ölkələri Rusiyanın xariei iqtisadi əlaqələrində prioritet tərəfdaş mövqelərini itinrıişdir. Ön plana Aİ ölkələri (Almaniya, İtaliya, Fransa), inkişaf etməkdə olan ölkələrdən isə Çin, Türkiyə, Hindistan, ərəb ölkələri çıxmışdır. Rusiyanın idxal coğrafiyasının struktum 8.6-cı cədvəldə göstərilmişdir.

Tədqiq edilən dövrdə Rusiyanın idxal üzrə əsas tərəf-müqabili inkişaf etmiş ölkələrdir. Bu qrupdan idxal onun bütün həcminin 61%-i qədər olmuşdur. Keçid iqtisadiyyatlı ölkələrdən idxalın xüsusi çəkisi azalmış və 2003-cü ildən üçüncü yerə düşmüş, ikinci yeri isə inkişaf etməkdə olan ölkələr qrupu tutmuşdur. Keçid iqtisadiyyatlı ölkələr (MDB) idxal üzrə öz paylarını
2009- cu ildəki 2,1%-dən 2010-cu ildə 11,5%-dək ixtisar etmişdir (o cümlədən Belarusdan idxalın azalması nəticəsində).

1999-2000-ci illəri əhatə edən dövrdə Rusiyanın idxalında xammalın əsas növləri (təqribən 32%) üstün olmuş, maşınlar və nəqliyyat avadanlığı ikinci yeri tutmuşdur (29%-ə yaxın). 2001-ci ildən başlayaraq Rusiyanın idxalında maşınlar və nəqliyyat avadanlığı önə keçmiş, özü də bu pay get-gedə artmaqdadır (2001-ci ildəki 32,6%-dən 2008-ci ildəki 53,62%-dək); xammalın əsas növləri ikinci yerdə, ərzaq malları üçüncü yerdədir.

***Tədiyyə balansı.*** Ölkənin tədiyyə balansının göstəriciləri 8.7 cədvəlində sistemləşdirilmişdir.

Rusiyanın «cari əməliyyatlar» hesabı üzrə müsbət saldosu onun malları və xidmətləri idxaldan çox ixrac etdiyini göstərir. 2009-cu ildə müsbət saldo 49 433 milyon dollar olmuşdur. Kapital və maliyyə resursları ilə əməliyyatlar hesabının saldosu isə müxtəlif illərdə həm müsbət, həm də mənfi kəmiyyətlə ifadə olunmuşdur. 2009-cu ildə saldonun -43491 milyon dollar olması kapitalın xaricə axdığını sübut edir. Bu meyil 2010-cu il ərzində də davam etmiş və 2011-ci ilin əvvəlindən dəyişməyə başlamışdır.

***İxrac, idxal və xarici ticarət kvotaları.*** Göstərilən məlumatlara istinad edərək, il ərzində ixracın ümumi həcmini həmin ilin ÜDM-nə bölüb, nəticəni 100 faiz vahidinə vurmaqla, Rusiyanın ixrac kvotasını hesablamaq olar. Məsələn, 2009-cu ildə Rusiyanın ixrac kvotası bu düsturla hesablanır:

$$\frac{\text{ixrac}}{\text{UDM}} \times 100\% = \frac{303388}{1241511} \times 100\% = 24.44\%$$

İxrac kvotasının ölkənin ÜDM-nin 24,44%-i səviyyəsində olması çox yüksək göstəricidir. İxrac kvotası *milli iqtisadiyyatın (və resursların) BƏB-ə cəlbohınma dərəcəsini* göstərir. Bu göstərici üzrə Rusiya iqtisadiyyatını sadəcə «açıq» yox, ciddi beynəlmiləlləşmiş hesab etmək olar. Bunu digər göstərici - idxal kvotası da sübut edir. Bu kvota da göstərilən metodika üzrə hesablanır:

$$\frac{\text{İdxal}}{\text{ÜDM}} \times 100\% = \frac{210984}{1241511} \times 100\% = 16{,}99\%$$

Buna müvafiq olaraq, 2009-eu ildə Rusiyanın idxalı onun ÜDM-nin təqribən 17%-i qədər idi. İdxal kvotası ölkənin xariei amildən, yəni dünya iqtisadiyyatmmm vəziyyətindən asılılığını göstərir. 2009-eu ilin idxal kvotasına əsaslanaraq, Rusiya iqtisadiyyatının idxaldan asılı olmadığını söyləmək olsa da, bu yalnız nəzəriyyə baxımından düzgündür. Məsələ burasındadır ki, kvota ümumi göstəricidir və *sahə kvotalarını* nəzərə almır.

Kvotanın müddətlər üzrə göstəricilərinin ümumiləşdirilməsi əsasında Rusiyanın bütövlükdə xarici ticarət kvotasını hesablamaq olar. Nəzərdən keçirdiyimiz 2009-cu ildə bu göstərici aşağıdakı üsulla hesablana bilər:

$$\frac{\frac{1}{Y}(\text{İxrac} + \text{İdxal})}{\text{UDM}} \times 100\% = \frac{\text{i}\,(303\,388 + 210984)}{1\,241511} \times 100\% = 20{,}72\%$$

Beləliklə, 2009-eu ildə Rusiyanın xarici ticarət kvotası 20,72%, başqa sözlə, malların və xidmətlərin ixracı və idxalı ölkənin ÜDM-nin 1/5 hissəsindən bir az artıq olmuşdur. Buradan belə nəticə çıxarmaq olar ki, Rusiya iqtisadiyyatı *nisbətən açıq* və *lazımi qədər beynəlmiləlləşmişdir.* Konkret göstəricilərdə bu, aşağıdakı rəqəmlərlə ifadə edilir: 1999-cu ildə Rusiyada xarici ticarətin əhalinin hər nəfərinə düşən həcmi 810 dollar, 2008-ci ildə isə artıq 5607 dollara bərabər olmuşdur. 2009-cu ildə bu göstərici 3651 dollara düşsə də, 2010-cu ildə 4000 dolları ötüb keçmişdir (xarici ticarət dövriyyəsinə dair məlumatlar 8.8-ci cədvəldə verilmişdir).

*Cədvəl 8.7*

**Rusiyanın tədiyyə balansı*, milyon dollar**

| Tədiyyə balansının hesabları | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2006 | 2007 | 2008 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cari əməliyyatlar hesabı | 24616 | 46839 | 33935 | 29116 | 35410 | 55512 | 84602 | 94686 | 77768 | 103661 | 49433 |
| Kapital və maliyyə resursları ilə əməliyyatlar hesabı | -14357 | -21539 | -16172 | -11664 | 129 | -8403 | -15228 | 3263 | 84507 | -131311 | -43491 |

Rusiya Bankının saytından götürülmüşdür.

*Cədvəl 8.8*

**Xarici ticarət dövriyyəsinin əhalinin hər nəfərinə düşən həcmi*, dollarla**

| Göstərici | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Xarici ticarətin əhalinin hər nəfərinə düşən həcmi | 810,11 | 1054,68 | 1102,59 | 1199,70 | 1518,73 | 2018,08 | 2666,61 | 3403,40 | 4228,80 | 5607,98 | 3651,32 |

* Müəllif tərəfindən UNCTAD-ın 2010-cu ilin məlumatları əsasında tərtib olunmuşdur.

**Rusiya ixracının və idxalının təmərküzləşmə və şaxələndirmə indeksləri***

*Cədvəl 8.9*

| | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| İxracın təmərküzləşmə indeksi | 0,23 | 0,26 | 0,27 | 0,29 | 0,30 | 0,31 | 0,36 | 0,36 | 0,36 | 0,37 | 0,38 |
| İxracın diversifikasiya indeksi | 0,67 | 0,65 | 0,64 | 0,65 | 0,66 | 0,65 | 0,65 | 0,64 | 0,62 | 0,61 | 0,64 |
| İdxalın təmərküzləşmə indeksi | 0,04 | 0,04 | 0,05 | 0,05 | 0,05 | 0,06 | 0,06 | 0,07 | 0,08 | 0,09 | 0,05 |
| İdxalın diversifikasiya indeksi | 0,37 | 0,37 | 0,35 | 0,34 | 0,32 | 0,32 | 0,34 | 0,34 | 0,34 | 0,36 | 0,32 |

* Müəllif tərəfindən UNCTAD-m 2010-cu ilin məlumatları əsasında tərtib olunmuşdur.

Dövlətin beynəlxalq ticarətdə iştirakının indikatoru qismində adətən ölkənin ixracının və idxalının təmərküzləşməsi və şaxələndirilməsi indekslərindən istifadə olunur. Bu indekslərin Rusiyanın xarici ticarətinə tətbiqi müvafiq göstəriciləri hesablamağa imkan verir (cədvəl 8.9).

*ixracın təmərküzləşmə indeksi* ölkənin ixrac etdiyi mallar spektrinin nə dərəcədə geniş olduğunu göstərir. 8.9-cu cədvəldə göstərildiyi kimi, Rusiyada bu indekslər yüksəlir və bu, ölkənin ixrac etdiyi əmtəələrin kateqoriyasının genişləndiyini ifadə edir. 2009-cu ildə ixracın təmərküzləşməsi indeksi 0,3 8-ə bərabər olmuşdur. *İxracın şaxələndirilməsi indeksi* ölkənin ixracının əmtəə strukturunun dünya üzrə ixracın strukturundan kənarlaşmasını göstərir. Rusiyada bu göstərici kifayət qədər yüksəkdir və 2009-cu ildə 0,64 olmuşdur. Bu, Rusiya ixracının dünya üzrə ixracın strukturundan kənarlaşdığını, yəni onun ölkədən çıxardığı əmtəə qruplarının məhdudluğunu ifadə edir. Bu baxımdan Rusiya ixracının əmtəə strukturu inkişaf etməkdə olan ölkələrin müvafiq «klassik» strukturuna bənzəyir.

*İdxalın təmərküzləşməsi indeksi* ölkənin idxal etdiyi malların spektrinin nə dərəcədə geniş olmasını göstərir. Rusiyada bu göstəricinin çox aşağı, 2009- cu ildə cəmi 0,05 olması əmtəə idxalı spektrinin darlığını ifadə edir. *İdxalın şaxələndirilməsi indeksi* ölkənin idxalının əmtəə strukturunun dünya üzrə idxalın strukturundan kənarlaşdığını göstərir. 2009-cu ildə idxalın şaxələndirilməsi indeksi Rusiyada 0,32 olmuşdur. Bu, Rusiyaya idxal olunan malların dünya üzrə idxalın strukturundan azacıq kənarlaşdığını nümayiş edir.

Xarici ticarət şəraitinin şərtləri indeksinə nəzər yetirək. Ölkənin ticarət şəraiti onun ixrac etdiyi əmtəənin qiymətinin idxal olunan əmtəənin qiymətinə nisbəti ilə müəyyənləşdirilir (cədvəl 8.10).

*Cədvəl 8.10*

**Rusiyanın ticarət şəraiti indeksi*, %**

| illər | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| İndeks | 100 | 80,17 | 74,46 | 75,59 | 79,59 | 82,23 | 78,07 | 67,09 | 68,36 | 66,92 |

* Müəllif tərəfindən UNCTAD-ın 2010-cu ilin məlumatları əsasında tərtib olunmuşdur.

2000-ci ildən başlayaraq, Rusiyada bu göstəricinin aşağı düşməsi və 2009-cu ildə 66,92% səviyyəsində olması ixrac edilən mallarla müqayisədə idxal olunan malların qiymətlərinin bahalaşmasına dəlalət edir. Bu məqam

ailələrin büdcəsinə, daha çox isə ölkənin iqtisadiyyatına neqativ təsir göstərir. Bunun səbəbi ölkənin xarici malları onların dünya bazarlarındakı qiymətlərindən yüksək qiymətlərlə alması və ya malları dünya bazarlarının qiymətləri ilə alıb, onlara yüksək daxili qiymətlər müəyyənləşdirməsi ola bilər (sonuncu Rusiya şirkətləri üçün daha xarakterikdir). Bununla da əhalinin rifah səviyyəsi aşağı düşür, bu sahədə ÜTT-nin qüvvədə olan qaydaları pozulur; başqa nəticə isə kapitalın ölkədən xaricə axıb getməsidir.

## Xülasə

• ÜDM-in həcminə görə, Rusiya dünyanın aparıcı dövlətlərinin onluğuna daxildir. Sənayenin, kənd təsərmfatmm və təbii resursların potensialı nəzərə alınarsa, ölkə dünyada iqtisadi inkişafın mühüm mərkəzlərindən biri kimi mövqe tuta bilər. Bununla belə Rusiya bir çox göstəricilərinə görə dünyanın ABŞ, Yaponiya, Almaniya və Çin kimi inkişaf etmiş dövlətlərindən xeyli geridə qalır. Sonuncu onillikdə Rusiyanın iqtisadiyyatında mühüm pozitiv dəyişikliklər baş vermişdir: ixrac və idxal artmış, ölkənin ÜDM-nin böyük hissəsini təşkil edən xidmətlər sektoru sürətlə inkişaf etmişdir. Ölkə beynəlxalq ticarətdə fəal iştirak etməyə başlamış, onun dünya üzrə ticarət dövriyyəsindəki payı əhəmiyyətli dərəcədə artmışdır.

• Bunlara baxmayaraq, Rusiya gəlirlərinin əsas hissəsini neft, qaz və başqa resursların ixracından əldə edərək, hələ də xammal ölkəsi olaraq qalır. Emal, maşınqayınna, kimya sənayelərinin sahələri çox ləng templərlə inkişaf edir. Nəzərdən keçirdiyimiz 1999-2010-cu illərdə Rusiya iqtisadiyyatının ən yüksək göstəriciləri 2008-ci ildə əldə olunmuş, lakin 2009-cu ildə ümumdünya böhranı nəticəsində böyük enmə baş venuişdir. Amma artıq 2010-cu ildə iqtisadiyyatda artım müşahidə olunmağa başlamış, ÜDM 3%-dən yuxarı artmışdır.

• 2008-ci ildə başlayan ümumdünya böhranı ölkənin iqtisadiyyatına mənfi təsir göstənuişdir. İqtisadi göstəricilərin bir çoxu pisləşmiş, bəziləri isə hətta iki dəfə aşağı düşmüşdür (o cümlədən ticarət dövriyyəsinin artım templəri). Buna baxmayaraq, qeyd etdiyimiz kimi, 2010-cu ilin sonunda Rusiya iqtisadiyyatı böhranın nəticələrini bütövlükdə aradan qaldıra bilərək, nisbətən sürətli inkişaf mərhələsinə qədəm qoymuşdur.

• 1999-2010-cu illərdə Rusiyanın xarici ticarət siyasətində müəyyən

dəyişikliklər baş vennişdir. Bir sıra göstəricilərdə, o cümlədən xarici ticarət dövriyyəsinin əhalinin hər nəfərinə düşən həcminin ilbəil çoxalmasında müsbət dinamika müşahidə olunur. Bu, Rusiya iqtisadiyyatının miqyasının genişləndiyinin sübutudur. Özü də, idxalla müqayisədə ölkənin ixracı daha sürətli templərlə artır və bu, onun dünya üzrə ticarət dövriyyəsində payını artırmaq, dünyanın bir çox ölkələri ilə ticarət münasibətlərini möhkəmləndirmək səylərini ifadə edir. Lakin bunların əsasən xammal sektorunda ekspansiya sayəsində baş vennəsi neqativ, o cümlədən malların idxal qiymətlərinin ixrac qiymətləri ilə müqayisədə bahalaşması kimi meyilləri formalaşdırır. Rusiyanın öz mallarını ucuz qiymətlə ixrac edib, xaricdən malları baha qiymətə alması, kapitalın ölkədən axınını asanlaşdırır. Bu isə, ölkə iqtisadiyyatına ümumilikdə neqativ təsir göstərir.

- Dövlət müxtəlif alətlərin köməyi ilə idxalı azaltmalı və iqtisadiyyatın şaxələndirilməsi vasitəsilə diqqəti məhsulların ölkə daxilində istehsalının genişləndirilməsinə yönəltməli, onların dünya bazarlarında rəqabət qabiliyyətini təmin etməlidir. İqtisadiyyatın açıqlığına gəldikdə isə, Rusiya iqtisadi}^atı qismən açıq olan ölkələr sırasındadır. Qeyd edildiyi kimi, 2009-2010-cu illərdə ixracın həcmi ölkənin ÜDM-nin 14 hissəsinə yaxınlaşmışdır. Amma ölkənin idxaldan asılılığı ciddidir: 2009-2010-cu illərdə idxal ÜDM-in 17-18%-i qədər olmuşdur. Özü də, Rusiya maşınların, avadanlığın, qida məhsullarının, xammalın və s. idxalından asılı vəziyyətə düşmüşdür. Bunu da qeyd etməliyik ki, 1991-ci ildə Rusiya Federasiyasının xarici bazarlardan asılılığı bütövlükdə iqtisadiyyat üzrə 5% idi (müxtəlif sahələrdə vəziyyət fərqlənirdi). Buna görə də ixracı inzibati tədbirlər vasitəsilə deyil (bu əhalinin ərzaqla və geniş istehlak malları ilə təminatını pisləşdirir, qıtlıq yaradır, qiymətləri bahalaşdırır), ölkədə istehsalın genişləndirilməsi yolu ilə azaltmaq gərəkdir. Lakin bunun üçün başqa iqtisadi siyasət lazımdır.

## Yoxlama sualları

1. Rusiyanın hansı geosiyasi, təbii-iqlim və iqtisadi xüsusiyyətləri var?
2. Ölkənin əsas makroiqtisadi göstəricilərinin təhlilini aparın.
3. 1991-2010-cu illər ərzində ölkənin ÜDM-nin dinamikasını göstərin. 1994-2000-ci illərdə ölkənin tərk-sənaye olunmasının səbəbləri nədir? 2001-2008-ci illərdə Rusiya iqtisadiyyatının artımına hansı amillər təsir göstənnişdir?
4. Rusiyanın beynəlxalq iqtisadi mövqeləri necədir?

5. Ölkə ixracının və idxalının əmtəə strukturu necədir? Onlar nəyə dəlalət edir?

6. Ölkənin ən mühüm ticarət tərəfdaşları hansı dövlətlərdir?

7. «İxrac kvotası», «idxal kvotası», «ixracın və idxalın təmərküzləşməsi və şaxələnməsi» kimi anlayışların mahiyyətini və məzmununu izah edin.

## Referatlann mövzuları

1. Rusiya iqtisadiyyatının dünya iqtisadiyyatı sistemində tutduğu yeri və əhəmiyyəti: müasir vəziyyət və perspektivlər

2. Rusiya Federasiyasının xarici iqtisadi fəaliyyətinin öncül istiqamətləri

# Fəsil 9

# ABŞ-ın BEYNƏLXALQ TİCARƏTİ

## 9.1. ABŞ-ın beynəlxalq ticarət tutduğu mövqelər

Bəzi hallarda ABŞ-ın ixraca verdiyi töhfə, onun idxala olan ehtiyacı ilə müqayisədə qabarıq nəzərə çarpmasa da, ölkə dünyada malların və xidmətlərin ən böyük idxalçısı və ixracatçısıdır. Bunun səbəbi ABŞ ixracının əsas hissəsinin pərakəndə satışa çıxarılmayan istehsal vasitələrindən ibarət olmasıdır. Başqa ölkələrlə müqayisə olunduqda, Amerika ixracının strukturu ixtisaslı işçi qüvvəsinin və yüksək texnologiyaya əsaslanan istehsalların izafılıyini əks etdirir. ABŞ-ın ixraca təyyarələr göndərib, əvəzində ayaqqabı və paltar idxal etməsinin səbəbi də bu izafılıklə izah olunur. ABŞ tutumuna görə nəhəng daxili bazara malik olsa da, onun ixracı dünyanın ixrac bazarlarının həyat qabiliyyətindən qismən asılıdır. ABŞ-ın ticarət tərəfdaşları, ilk növbədə, Avropa və Yaponiyanın artımı zəiflədikdə (bu isə, böhrandan əvvəlki bir neçə il ərzində olmuşdur), onlar ABŞ-dan az mal idxal edir və öz mallarının və xidmətlərinin ixracını artırmağa çalışırdı.

ABŞ ticarətinin miqyasına (ixrac 1,3 milyard dollar yaxud dünya üzrə ixracın 11%-i, idxal 2,1 milyard dollar yaxud dünya üzrə idxalın 16,4%-i) görə beynəlxalq ticarət sistemində mühüm yer tutur. Malların və xidmətlərin ixracı baxımından ABŞ ***ticarətin beynəlmiləlləşməsi indeksinə*** (ÜDM-in həcminin 12%-i) görə liderlər sırasına daxil deyil.

## 9.2. ABŞ-ın ixrac mövqeləri

Amerikanın xarici ticarətinin miqyası böyükdür, coğrafiyası isə bütün dünyadır (cədvəl 9.1). Amerikanın əsas ticarət tərəfdaşları Avropa İttifaqıdır (əsasən avro zonası ölkələri) və 2008-ci ildə onların payı müvafiq olaraq 335 və 272 milyard dollar idi. İkinci yerdə ixrac həcnji 272 milyard dollar olan Kanada, üçüncü yerdə isə Meksikadır (148 milyard dollar). Xatırladaq ki, ABŞ, Kanada və Meksika Qitə Beynəlmiləl Qrupunun üzvləri olduğuna görə mallar və xidmətlər onlar arasında maneəsiz hərəkət edir. Avropa ölkələrindən Amerika ixracının daha böyük həcmi Böyük Britaniya (57,3 milyard dollar), Almaniya (55,3 milyard dollar), Fransa (29,6 milyard dollar) ilə aparılan

ticarətdədir. Çinə ixrac sürətli templərlə inkişaf edir və həcmi 73 milyard dollara çatmışdır. Yaponiyaya ixrac isə faktiki olaraq 2000-ci il səviyyəsində qalmış, 67 milyard dollar olmuşdur. 2008-ci ildə Amerika ixracının ən böyük axını (344,4 milyard dollar) Asiyaya və Sakit Okean regionuna (Çin, Yaponiya, Hindistan, Cənubi Koreya, Sinqapur və s.) yönəldilmişdir. Latın Amerikası ölkələrinə ixrac 281 milyard dollar. Afrikaya 26,5 milyard dollar, Yaxın Şərq ölkələrinə 50,3 milyard dollar, OPEC üzvü olan dövlətlərə 58 milyard dollar təşkil etmişdir. ABŞ-m ixracında Hindistanın əhəmiyyəti durmadan artır və 2000-ci ildən sonra 17,5 milyard dolları ötüb keçmişdir. Venesuela ilə siyasi ziddiyyətlərə baxmayaraq, bu ölkəyə də ixracın həcmi artır və 2000-2009-cu illərdə 18 milyard dollardan 52,2 milyard dollaradək çoxalmışdır; bununla müqayisədə Braziliyaya ixrac xeyli azdır (30 milyard dollar). Başqa ölkələrin və onların sənaye-ticari fırmalannm mövqeləri möhkəmləndikcə, Amerika şirkətləri çox hallarda dünya və regional ticarətin bəzi, 0 cümlədən müasir yüksək texnologiyalar (İKT), aviatexnika, enerji avadanlığı, istehlak malları (məişət elektronikası) və s. bazarlarında tam hökmranlığını itirir.

Amerika korporasiyaları bütün dünyada həm Avropa və Yaponiya, həm də Çin, Asiya və Latın Amerikası ölkələrinin sənaye-ticari şirkətləri ilə getdikcə güclənən amansız rəqabət aparmaq məcburiyyəti qarşısında qalır. Bir məqam da aydındır ki, sonuncuların rəqabət qabiliyyəti amili də ticarət balansının kəsirinin artmasına öz təsirini göstərmişdir. 1960-cı illərin ortalarından başlayaraq, ticarət balansının kəsiri Amerika iqtisadiyyatı üçün səciyyəvi hadisəyə çevrilmişdir. 1990-cı illərdə bu kəsir sürətli templərlə artaraq, 2010-cu ildə ixracın ümumi həcminin, demək olar ki, 50%-inə çatmışdır.

Ölkənin tiearət kəsirini təhlil edərkən, problemin sahə və regional (coğrafi) aspektlərinin nəzərdən keçirilməsi mühümdür. Əvvəlki onilliklərdə ABŞ böyük həemdə xammal idxal edib, hazır məhsullar ixrac etdiyinə görə kəsirin strukturu nisbətən sadə idi və aydın təhlil oluna bilirdi. Kəsir ölkəyə gətirilən xammalın və yanacağın dəyərinin ixrac edilən hazır məhsulların dəyərini üstələməsi əsasında müəyyənləşdirilirdi. Bu halda ABŞ-m dünyada dominantlıq etdiyi eimtutumlu məmulatlar üçün müsbət saldo səciyyəvi idi.

1980-ci illərdə ABŞ üçün ən kəsirli ticarət «Hazır məmulatlar» maddəsi üzrə olduqda, vəziyyət keyfiyyətcə dəyişdi. XXI əsrin birinci onilliyində ən

böyük kəsir istehlak təyinatlı mallar üzrə yaranmış, onun həcmi kəsirin 50%-nə çatmışdı. Nəqliyyat üzrə kəsir 25%, xammal, materiallar və digər dəstləşdirici məmulatlar üzrə 22%-dən çox olmuşdu. Ötən onillik ərzində ABŞ «Yüksək texnologiya məmulatları» maddəsi üzrə də ticarət mövqelərini tədricən itirməyə başlamışdır. Beləliklə, 2010-cu ilə yaxın ABŞ-ın ticarət kəsiri strukturunun ümumi vəziyyətində ciddi dəyişiklik baş verdi, onun ənənəvi mənbəyi olan xammal və yanacaq idxalı birinci və ikinci deyil, hətta üçüneü rolu oynamağa başladı. Məhz bu məqam rəqabət mübarizəsi nətieəsində keyfiyyət, qiymət və s. göstəriciləri üzrə daha çox tələbat yarada bilən istehsalçıların mallarının önə çıxması nəticəsində milli və beynəlxalq tiearətdə baş verən ümumi irəliləyişlərin əksidir (cədvəl 9.1).

9.1-ci cədvəlin məlumatları ABŞ-m müasir maşın-texnika məhsullannm istehsalçısı mövqelərini, tədricən də olsa, qarşısıalınmaz surətdə itirdiyini göstərir.

Müharibədən sonrakı onilliklərdə texnoloji baxımdan ən müasir, qabaqcıl sənaye məhsullarının satışı Amerika ticarətinin əsas istiqamətlərindən biri olmuşdur. Lakin 1986-cı ildə bu maddə üzrə balans ilk dəfə kəsirlə (təqribən 2,6 milyard dollar) yekunlaşdırılmış, 2002-2009-cu illərdə faiz ifadəsində xeyli aşağı düşsə də, bu göstəriei təqribən həmin səviyyədə qalmışdır. ABŞ Tiearət Nazirliyinin «Eimtutumlu məmulatlar» kateqoriyasına daxil etdiyi 10 əmtəə qrupundan 3-ü üzrə (kommunikasiya avadanlığı və elektron komponentlər, elmi və peşəkar alətlər, motorlar və turbinlər) xarici ticarət saldosu 1980-1990- cı və 2001-2009-cu illərdə passivlə yekunlaşmışdır. 1980-1990-cı illərdə balansın aktiv saldosunu təyyarələr, aviasiya motorları və onların hissələri, plastik kütlələr, dəftərxana avadanlığı və EHM ilə tiearət kimi maddələr formalaşdırırdı. 2001-2009-cu illərdə bu sahələr rəqiblər tərəfindən sıxışdırılsa da, Amerikanın xarici ticarətində aktiv saldo nümayiş etdirirdi. Bu illərdə ən böyük kəsir kommunikasiya avadanlığı və elektron komponentlərlə ticarətdə yaranmışdı.

## 9.3. ABŞ-ın idxal mövqeləri

***Amerika bazarının cəlbediciliyinin amilləri.*** Amerikanın nəhəng bazarı dünyanın nisbətən böyük olan bütün şirkətləri üçün cəlbedieilərdən biri olmuşdur. Bu, öz təsirini çoxdan göstərən amillərdən: birincisi, Amerika

*Cədvəl 9.1*

**Əmtəələrin əsas kateqoriyaları üzrə ABŞ-ın ixrac mövqeləri*, milyon dollar**

| İllər | İxrac | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | Cəmi | Kənd təsərrüfatı məhsulları | Qeyri-kənd təsərrüfatı məhsulları | | | | |
| | | | Cəmi | Sənaye materialları | İstehsal vasitələri (avtomobil istisna olmaqla) | Avtomobilqayırma | Sair |
| 1965 | 26,5 | 6,3 | 20,2 | 7,6 | 8,1 | 1,9 | 2,6 |
| 1970 | 42,5 | 7,4 | 35,1 | 12,3 | 14,7 | 3,9 | 4,3 |
| 1980 | 224,3 | 42,0 | 182,2 | 65,1 | 76,3 | 17,4 | 23,4 |
| 1990 | 387,4 | 40,2 | 347,2 | 97,0 | 153,0 | 36,2 | 61,0 |
| 2000 | 772,0 | 52,8 | 719,2 | 163,9 | 357,0 | 80,4 | 117,9 |
| 2001 | 718,7 | 54,9 | 663,8 | 150,5 | 321,7 | 75,4 | 116,2 |
| 2002 | 682,4 | 54,5 | 627,9 | 147,6 | 290,4 | 78,9 | 110,9 |
| 2003 | 713,4 | 60,9 | 652,5 | 162,5 | 293,7 | 80,6 | 115,7 |
| 2004 | 807,5 | 62,9 | 744,6 | 192,2 | 331,4 | 89,2 | 131,7 |
| 2005 | 894,6 | 64,9 | 829,7 | 221,5 | 363,3 | 98,4 | 146,6 |
| 2006 | 1023,1 | 72,9 | 950,2 | 263,2 | 415,0 | 107,0 | 165,1 |
| 2007 | 1148,5 | 92,1 | 1056,4 | 302,3 | 447,4 | 121,0 | 185,6 |
| 2008 | 317,8 | 29,5 | 288,4 | 89,3 | 116,5 | 30,6 | 51,9 |
| 2009 | 337,3 | 32,5 | 304,9 | 99,5 | 120,1 | 31,0 | 54,1 |

*Məlumatlar ABŞ-ın tədiyyə balansı əsasında (müdafiə istisna alınır. olmaqla) göstərilmişdir, 1990-ci ilin iyunundan isə, təkrar ixrac nəzərə Economic Report of the President. USA, Washington, 2009.

*Cədvəl 9.2*

**Əmtəələrin əsas kateqoriyaları üzrə ABŞ-ın idxal mövqeləri*, milyon dollar**

| İllər | İdxal | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | Cəmi | Neft | Qeyri-neft məhsulları | | | | |
| | | | Cəmi | Sənaye materialları | İstehsal vasitələri (avtomobil istisna olmaqla) | Avtomobilqayırma | Sair |
| 1965 | 21,5 | 2,0 | 19,5 | 9,1 | 1,5 | 0,9 | 8,0 |
| 1970 | 39,9 | 2,9 | 36,9 | 12,4 | 4,0 | 5,5 | 15,0 |
| 1980 | 249,8 | 79,5 | 170,2 | 53,0 | 31,6 | 28,3 | 57,4 |
| 1990 | 498,4 | 62,3 | 436,1 | 83,0 | 116,4 | 88,2 | 148,5 |
| 2000 | 1226,7 | 120,3 | 1106,4 | 181,9 | 347,0 | 195,9 | 381,6 |
| 2001 | 1148,2 | 103,6 | 1044,6 | 172,5 | 298,0 | 189,8 | 384,3 |
| 2002 | 1167,4 | 103,5 | 1063,9 | 164,6 | 283,3 | 203,7 | 412,2 |
| 2003 | 1264,3 | 133,1 | 1131,2 | 181,4 | 295,9 | 210,1 | 443,8 |
| 2004 | 1477,1 | 180,5 | 1296,6 | 232,5 | 343,6 | 228,2 | 492,4 |
| 2005 | 1681,8 | 251,9 | 1429,9 | 272,7 | 379,3 | 239,4 | 538,5 |
| 2006 | 1861,4 | 302,4 | 1559,0 | 300,1 | 418,3 | 256,6 | 584,0 |
| 2007 | 1967,9 | 331,0 | 1636,9 | 308,4 | 444,5 | 258,9 | 625,1 |
| 2008 | 528,8 | 112,2 | 416,7 | 80,5 | 113,6 | 64,3 | 158,3 |
| 2009 | 553,6 | 123,6 | 430,0 | 86,0 | 117,3 | 62,5 | 164,2 |

* Economic Report of the President. USA, Washington, 2010.

bazarının nisbətən açıq olmasından; ikincisi, Şimali Amerika qitəsini bütünlüklə əhatə edən bazarın miqyasından; üçüncüsü, kommunikasiyaların inkişaf etmiş istehsal infrastrukturundan; dördüncüsü, həm siyasi, həm də iqtisadi sistemin sabitliyindən, nisbətən əhəmiyyətli hadisələr barədə, siyasi və iqtisadi xarakterli qərarlar haqqında real proqnozlar verilməsinin mümkünlüyündən irəli gəlir.

9.2-ci cədvəlin məlumatları dünyanın müxtəlif ölkələrindən ABŞ-a idxal olunan mallar barədə ümumi təsəvvür yaradır.

Nadir istisnalar edilməklə, ABŞ-a ixrac edən əsas ölkələr və ölkə qrupları onun məhsullarının idxalçılarıdır. 2008-ci ildə ABŞ idxalının ümumi həcmi 2 trilyon dollardan çox olmuşdur (2000-ci ildə 1,2 trilyon dollar). Onun ən böyük hissəsi Avropanın (456 milyard dollar) payına düşmüşdür. ABŞ-a idxal axınları yönəldən iri Avropa dövlətləri Almaniya (103,3 milyard dollar), Böyük Britaniya (58,6 milyard dollar), Fransa (45 milyard dollar), İtaliyadır (37,7 milyard dollar). İdxalın 360 milyard dolları Kanadanın, 388,9 milyard dolları Latın Amerikası və Cənub yarımkürəsi ölkələrinin, o cümlədən Meksikanın (226,5 milyard dollar), Venesuelanın (52,2 milyard dollar) payına düşür. Çindən idxal sürətlə artaraq, 2000-ci ildəki 100 milyard dollardan 2008-ci ildə 314 milyard dollara çatmışdır. Cənubi Koreyadan idxal 49,7 milyard dollar. Yaxın Şərqdən isə 114,7 milyard dollar olmuşdur. İdxal həcminin 123,3 milyard dolları Afrikanın, 253,7 milyard dolları OPEC ölkələrinin payına düşmüşdür.

## 9.4. ABŞ-ın beynəlxalq ticarət balansları

Amerika şirkətlərinin bütün dünya üzrə və xarici şirkətlərin ABŞ-da həyata keçirdikləri qlobal beynəlxalq ticarətin balansı necədir?

Məlumatlar maşın-texnika məhsullarının bütün siniflərinin, materialların, neftin və s. idxalının durmadan artması prosesini əks etdirir və buna görə də yüksək texnologiya məhsullarının əsas növləri üzrə ABŞ-ın ticarət balansının passiv olması təəccüblü deyil. Özü də malların böyük bir qisminin kəsiri durmadan artırdı. Belə ki, 2008-ci ildə əczaçılıq məhsulları ilə xarici ticarətdə kəsir 20 milyard dollar (1997-ci illə müqayisədə dörd dəfə artmışdır), kompüter və periferiya avadanlığında 25,1 milyard dollar (1997-ci illə müqayisədə artım 1,5 dəfə), audio-video avadanlığında 26,2 milyard dollar (artım - 1,5 dəfə) olmuşdur. Amerikanın kommunikasiya avadanlığı ilə

ticarətinin balansı 1998-ci ildə passiv olmuş və 2002-ci ildə 22 milyard dollaradək yüksəlmişdir. ABŞ-da ən böyük ticarət profisiti aerokosmik sənayenin məhsulları ilə ticarət sahəsində 2008-ci ildə, 31,2 milyard dollar həcmində müşahidə olunmuşdur. Uzun müddət ərzində aerokosmik sənaye məhsullarının istehsal həcmi Müdafiə Nazirliyinin sifarişləri əsasında müəyyənləşdirilirdi. Amma indi sahənin məcmu satışlarının yalnız 30%-i bu cür sifarişlərin payına düşür. 1985-ci ildən 1999-cu ilədək dünya üzrə aerokosmik sənaye məhsulların ixracında ABŞ-m payı orta hesabla 72%-dən 53%-ə düşmüşdür. Düzdür, 2000-2007-ci illərdə bu pay yenidən 58%-dək yüksəlmiş və 2008-2009-cu illərədək göstərilən səviyyədə qalmışdır.

Eyni zamanda fasiləli, qeyri-rəvan xarakter daşısa da, idxalın artımı qeydə alınır (əsasən Amerikanın aviasiya şirkətlərinin xarici təyyarələri ölkəyə gətirməsinin genişlənməsi hesabına).

Onillik ərzində beynəlxalq ticarət balansı ABŞ-m xeyrinə olmamışdır. Kəsir fasiləsiz surətdə ildən-ilə artmış və 2008-ci ildə 854 milyard dollar həcmində olmuşdur. Ən böyük kəsir ABŞ-m Asiya və Sakit Okean regionunun ölkələri ilə ticarətində 2007-ci ildə 410 milyard dollardan çox məbləğdə formalaşmış və 2008-ci ildə bir qədər azalaraq 376,5 milyard dollara enmişdir; ikinci yerdə OPEC ölkələri ilə ticarətdəki kəsirdir - 195,4 milyard dollar; Avropa ilə ticarətdəki kəsir - 121 milyard dollar üçüncü yerdədir; dördüncü yeri Latın Amerikası ölkələri ilə ticarət - 103 milyard dollardan çox tutur.

Şübhəsiz ki, bütün bunlar ABŞ-ın beynəlxalq rəqabət mövqelərinin zəifləməsinin nəticəsidir. Ölkənin rəqabət mövqeləri isə, ilk növbədə ticarət agentlərinin, yəni şirkətlərin rəqabət qabiliyyəti əsasında formalaşır. Kəsirin artmasının səbəbləri müxtəlifdir. Məsələn, səbəblərdən biri son onilliklər ərzində yapon ixracında eimtutumlu malların payının fasiləsiz artdığı halda, Amerikanın yuxarıda qeyd etdiyimiz kimi, iqtisadiyyatının maddi istehsal sektorunu, 0 cümlədən bu sahəni ləng də olsa, durmadan ixtisar etməsidir. Buna görə də həmin əmtəə qrupunun Yaponiya, Avropa və Çində istehsal edilən malları daha yüksək tələbatla qarşılanmağa başlamışdır. Yaponiya ilə ticari münasibətlərdə ticarət saldosunun aktiv maddələri əsasən ərzaq, xammal və materiallardır. Lakin resurslara qənaət edən texnologiyalardan istifadənin genişlənməsi Yaponiyanın ABŞ-dan və başqa ölkələrdən asılılığını get-gedə azaldır. 1970-1980-ci illərdə ikitərəfli ticarətdə iri məbləğdə saldonun daim Yaponiyanın xeyrinə olması səbəbindən ABŞ ilə Yaponiya arasında kəskin ticarət münaqişələri meydana çıxdı. ABŞ bu ölkədən güzəştlərə nail olmağa,

daxili maneələri aradan qaldırmağa, qanunvericiliyi dəyişməyə, öz kəsirini azaltmağa cəhd göstərirdi. Yaponiyanın dünya iqtisadiyyatında mövqeləri bütövlüklə zəiflədikdə, həmin ziddiyyətlər yoxa çıxdı. Bununla bərabər, ABŞ- ın Çinlə ticarəti sürətlə, özü də saldo sonuncunun xeyrinə (2008-ci ildə 100 milyard dollardan çox) olmaqla, artır. Görünür ki, ABŞ və Çin arasında münasibətlərdə Yaponiya ilə yaranan vəziyyət təkrarlanır: iki ölkə arasındakı ticarətdə münaqişələr getdikcə intensivləşir.

Əvvəlki onilliklərdə ABŞ hökumətinin xarici ticarət siyasətini də ölkənin ticarət balansının qeyri-qənaətbəxş vəziyyətə düşməsinin amillərindən biri kimi nəzərdən keçirmək lazımdır. Amma ticarətdə kəsir yaranmasında onun rolu birmənalı deyil. Bir tərəfdən, hökumətin səyləri, adətən malların, xidmətlərin və kapitalın beynəlxalq axınlar balansının təmin olunmasına yönəlmişdir və bu, ticarət kəsirinin həcminin sabitləşməsi yaxud aşağı düşməsi ilə nəticələnməlidir. Digər tərəfdən, dövlətin xarici ticarət siyasəti milli istehsalçıların beynəlxalq rəqabət qabiliyyətinin güclənməsi ilə yanaşı, əhalinin xarici mallara və xidmətlərə olan tələbatının daha dolğun və səmərə ilə ödənilməsinə şərait yaratmalıdır. Müxtəlif dövlətlərin bu məqsədlərə nail olunmasına yönəlmiş səyləri, bir qayda kimi, xarici əmtəə axınlarının strukturunda və dinamikasında müəyyən dəyişikliklərə səbəb olur, ölkələrin ticarət balansının profisitinin yaxud kəsirinin artması və ya azalması ilə nəticələnir. Ölkə iqtisadiyyatının beynəlmiləlləşmə dərəcəsi nə qədər yüksəkdirsə, ona beynəlxalq amillərin - dünya bazarlarının təsiri güclənir. Amma ən əsası, mexanizmlərin dövlət tərəfindən dağıdılmasına əsaslanan libertianizm siyasətinin, maliyyə-bank sektorunun ekspansiyasının açıq-aşkar görünən əyintiləridir. Nəticədə maliyyə-bank sektorunun mənfəətə yönümü güclənmiş, bu isə, maddi istehsalın «çözülməsinə», onun istehsal-təsərrüfatçılıq sistemində əhəmiyyətinin zəifləməsinə gətirib çıxarmışdır.

Böyük həcmdə malları, xidmətləri, kapitalı özünə cəlb etdiyinə görə Amerika bazarında çoxlu sayda ölkələrin maraqları qovuşur. Buna görə ABŞ-a münasibətdə ticarət siyasəti, ölkədə xarici şirkətlərin fəaliyyəti, onun ixracı qarşısında maneələr qurulması və bazarına yönələn əcnəbi ixracatçılara subsidiyaların verilməsi, onların haqsız ticarət praktikası Amerikanın xarici ticarət balansının kəsirli olmasının az qala ən əsas səbəbləri kimi nəzərdən keçirilir. Bu müddəanın təsdiqi kimi, Amerika ixracatçıları qarşısında tarif və həm birbaşa, həm də dolayısı ilə qeyri-tarif maneələrinin qoyulması barədə məlumatlara istinad edilir. İqtisadçıların rəyinə görə, bunlar ABŞ-ın potensial

ixrac imkanlarını hər il on milyardlarla dollar məbləğində azaldır. Bu zaman ABŞ-m özünün ticarət siyasətinin açıq-aydın proteksionizm xarakteri, onun qoyduğu maneələrin isə rəqib ölkələrlə müqayisədə çox vaxt daha yüksək olması məqamı kölgədə qalır.

Buna baxmayaraq, Amerikanın elmi dairələrində belə bir fikir üstündür ki, ölkənin xarici ticarətinin kəsirli olmasının başlıca səbəblərindən biri, ABŞ- m ticarət tərəfdaşlarının onun bazarlarında işləməyin dünya iqtisadİ3^atmm liderlərinə çatmaq vasitəsi kimi nəzərdən keçirən fəal iqtisadi və ticari siyasətidir. Bundan əlavə, ABŞ-m tərəfdaşlarının ticarət balansının aktiv olması onlara xarici investisiyalardan gəlirlərin ödənilməsinin və kapitalın xaricə, 0 cümlədən ABŞ-a çıxarılmasının maliyyə mənbəyi qismində xidmət göstərir. Amma bundan ABŞ-m özü də faydalanır: ticarət balansının kəsiri xarici rəqabətin təsiri altında Amerikanın əmək və investisiya resurslarını azad edib, öncül sahələrə yönəltməklə, iqtisadiyyatda texniki yeniləşməni həyata keçirməyə imkan yaradır. Amma bu, ABŞ iqtisadiyyatının perspektiv planda ümumi itkilərini əvəz edə bilməyən xüsusi pozitiv nəticədir.

***ABŞ ilə Yaponiya arasında ticarət münasibətləri.*** Yaponiya ənənəvi olaraq. Birləşmiş Ştatlar üçün ən zəif ixrac bazarlarından biridir və onunla ticarətdə ABŞ-m həmişə böyük ticarət kəsiri olmuşdur. Yuxarıda deyildiyi kimi, 1960-1980-ci illərdə ABŞ-m bu dövlətlə ticarətində kəsir problemi hər iki ölkənin iqtisadi və siyasi çevrələrinin münasibətlərində əsas qıcıqlandırıcı məqam olmuşdur. 1970-1990-cı illərdə Yaponiya ABŞ-a on milyardlarla dollar məbləğində mal ixrac edirdi, bu isə, Amerikadan idxalı üstələyirdi. Nəticədə Yaponiya ilə ticarətdə ABŞ-m saldosunun mənfi olması adi hala çevrilmişdi. Lakin son illərdə bu fərqin azalması, habelə ABŞ ilə ticarətdə Yaponiyanın əvvəlki dövrlərdə tutduğu mövqelərin Çin tərəfindən zəbt edilməsi nəticəsində ziddiyyətlərin kəskinliyi bir qədər zəifləmişdir. 2008-ci ildə ABŞ ilə ikitərəfli ticarətdə Çinin müsbət saldosu 120 milyard dollar olmuşdur (müqayisə üçün: həmin ildə Yaponiyanın müvafiq göstəricisi 90 milyard dollar idi). Beləliklə, Yaponiya iqtisadiyyatının sürətli yaxud zəif templərlə inkişaf etməsindən asılı olmayaraq, onun ABŞ ilə ikitərəfli ticarətindəki müsbət saldo hələ 1970-ci illərdən başlayaraq davam edən dayanıqlı və ənənəvi təzahürdür. Buna görə də dünyanın bu iki aparıeı dövləti arasında əzəldən mövcud olan ziddiyyətlər *daimi* olsa da, səngiyən xarakter daşıyır. Bu, yapon şirkətlərinin və banklarının ABŞ şirkətlərini dalbadal satın aldığı vaxtlarla müqayisədə Yaponiyanın get- gedə ABŞ bazarında dinamik ekspansiya qüvvəsini itinnəsi ilə bağlıdır. O

zaman Amerika ictimaiyyəti ölkənin Yaponiya tərəfindən az qala zəbt olunduğunu düşünürdü. İndi vəziyyət dəyişmişdir və bu strategiya Yaponiyadan başqa ölkələr qrupuna keçmişdir.

ABŞ öz ticarət tərəf-müqabilləri ilə mübarizədə çox vaxt proteksionizmin klassik metodlarından yararlanır. Bu yanaşmadan ABŞ-m təkcə Yaponiya ilə deyil, həmçinin, Latın Amerikası və Avropa İttifaqı ölkələri ilə apardığı ticarət danışıqlarında geniş istifadə olunmuşdur. Son illərdə həmin metodlar koıporasiyaları ABŞ-m daxili bazarına daxil olmağa çalışan inkişaf etməkdə olan ölkələrlə ticarət münasibətlərində də tətbiq olunur.

***ABŞ ilə Kanadanın ticarət münasibətləri.*** İkitərəfli Amerika-Kanada ticarət münasibətlərinin ənənəvi olaraq mühüm əhəmiyyət kəsb etməsi, özünə qarşı daim diqqət tələb edir. Özü də burada əsas məsələ ticarətin həcminin böyük (xüsusilə Kanada üçün) olmasında deyil. İki ölkə arasındakı ticarətin özünün səciyyəvi cəhətləri vardır. Birincisi, hər iki istiqamətdə ixracın və idxalın əsas hissəsi Amerika şirkətlərinin Kanadada yaxud beynəlxalq korporasiyaların Kanadada, qismən isə ABŞ-da yerləşən törəmə müəssisələrində buraxılan mallardır. İkincisi, Kanadanın sənayesini müəyyən mənada ABŞ sənayesinin təbii davamı kimi nəzərdən keçinnək olar. Qitədə iqtisadi inteqrasiya prosesləri hələ 1950-ci illərdən dərin xarakterdədir. Bu zaman inteqrasiyanın əsas hərəkətverici qüvvəsi kimi dövlət (Qərbi Avropadakı kimi) deyil, iri korporasiyalar çıxış edirdi, yəni burada ***inteqrasiyanın xüsusi inhisarçı forması*** təşəkkül tapmışdı. Buna görə də hər iki ölkənin həm ixracının, həm də idxalının əsas hissəsi (80%-i) hazır məmulatlardan (maşın- texnika məhsullarından) və avadanlıqdan ibarət idi. Kənd təsərrüfatı məhsullarının payı 5%-dən azdır. Bununla yanaşı, Kanada Amerikanın müəssisələrinə böyük həcmdə neft və dağ-mədən məhsulları (polad, mis, alüminium, sink və s.) ixrac edir.

İnteqrasiya əsasında mal göndərişləri yanacağa daha çox aiddir: Kanadanın neft çıxarılan Qərb əyalətləri (Alberta əyaləti) onu Amerikanın sərhəd yaxınlığındakı neft emalı zavodlarının yerləşdiyi Şərq əyalətlərinə göndərir; Kanadanın sənaye mərkəzləri olan Kvebek və Ontario əyalətləri isə neft və yanacaqla ABŞ ərazisindən təchiz olunur. Mineral resursların və sənaye mərkəzlərinin coğrafi yerləşməsi ilə diktə olunan bu cür ərazi üzrə ixtisaslaşmadan hər iki ölkə faydalanır.

***ABŞ ilə Çinin ticarət münasibətləri.*** İki ölkə arasındakı ticarət son 10-15 il ərzində böyük sürətlə artmış və həm Amerikanın, həm də dünyanın əmtəə

bazarları üçün ciddi amilə çevrilmişdir. Amerika bazarlarına Çindən ipək, toxueuluq məhsulları, paltar, oyuncaqlar, çini qablar, elektronika məmulatları və bir çox başqa mallar daxil olur. Çin ABŞ-m əsas tiearət tərəfdaşıdır.

Əks istiqamətdə, Amerikadan Çinə isə yük və minik avtomobilləri, inşaat texnikası, mürəkkəb texnoloji avadanlıq, dəzgahlar, rabitə sistemləri və s. gətirilir. Davamlı olaraq bir neçə ildir ki, ABŞ-m tiearət balansı getdikcə artan kəsirlə yekunlaşır. ABŞ Çinin ÜTT-yə daxil olmasını dəstəkləməklə, onun daxili bazarının liberallaşdırılması nəticəsində öz korporasiyalarının bura nüfuz edəcəyinə, fəal ticarət əks-hücumuna keçəcəyinə ümid bəsləyirdi. Həqiqətən də, Çin ÜTT-nin tələb və qaydalarının əksər hissəsini yerinə yetimıişdir. Amma Çinin daxili bazarında fəaliyyət göstərmək hüququ qazanan inkişaf etmiş dövlətlərin firmaları kimi, Amerika korporasiyaları da vəziyyəti ABŞ-m xeyrinə (ticarət sahəsində) dəyişə bilmədi. Güman ki, çevikliyi, bazar taktikasında məharətlə manevr etmək qabiliyyəti, əmək haqqına məsrəfləri aşağı olması sayəsində yüksək rəqabət qabiliyyəti olan çoxsaylı kiçik və orta firmaların fəaliyyət göstərdiyi Çin bazarına uyğunlaşmaq onlar üçün çətindir. Digər tərəfdən, Çinin ixrac şirkətləri ya dövlətə məxsusdur, ya da dövlət tərəfindən himayədarlıq edilən özəl firmalardır. Nəticədə Çindən güclü mal axını Amerika bazarlarına qarşısıalınmaz dalğa kimi daxil olaraq, rəqiblərin (amma istehlakçıların yox) cərgəsində təşviş yaradır və bu, ölkənin hakim işgüzar və siyasi dairələrinin əhval-ruhiyyəsində əksini tapır.

İkitərəfli Çin-ABŞ ticarətinin məsələləri son illərdə onların hökumət nümayəndələri arasında keçirilən danışıqların mövzusu olsa da, hələlik nəzərəçarpan nəticələr vennəmişdir. Hətta ABŞ şikayətlə ÜTT-yə müraciət edərək, onu «haqsız» ticarət siyasəti yeritməkdə günahlandırmış, milli pul vahidini həddən artıq «yüngülləşdirməklə», ölkə şirkətlərinin rəqabət qabiliyyətini gücləndirməkdə ittiham etmişdir. Son dövrlərdə Amerikaya Çindən böyük axınla gələn toxuculuq mallarına görə ölkələrin ticarət münasibətlərində gərginlik yaranmışdır. Nəticədə Amerika şirkətləri rəqabətə tab gətirmir və böyük ziyana düşür. Aydındır ki, gələcəkdə iki ölkə arasında ticari-iqtisadi münasibətlər sahəsində ziddiyyətlər daha da kəskinləşəcəkdir.

## 9.5. ABŞ-ın ticarət siyasətinin iki konsepsiyası

ABŞ-da demokratların və respublikaçıların yaratdığı hökumətlər arasında ölkənin ticarət siyasətinə dair kifayət dərəcədə qabarıq görünən fərqlər möv

cuddur və bunlar dövlət büdcəsinin kəsirinə müxtəlif yanaşmalarda da əksini tapır. Bu fərqlər prezident R.Reyqamn dövründə xüsusilə aydın görünürdü. Respublikaçı nəzəriyyəçilərin müddəaları əsasən buna istinad edir: kəsirlər beynəlxalq ticarət üçün açıq olan iqtisadiyyatlarda azad rəqabət qüvvələrinin fəaliyyətinin nəticəsidir. Bu cür şəraitdə iqtisadi artım və əhalinin həyat səviyyəsinin yüksəlməsi üçün nisbətən qapalı olan, hər şeyin idxalın məhdudlaşdırılması ideyasına tabe edildiyi sistemlərlə müqayisədə daha əlverişli mühit fonnalaşır. Bu konsepsiyaya C.Buş hökuməti də tərəfdar çıxırdı. Ticarət kəsirini optimistliklə qavrayan respublikaçılar ABŞ-da işsizliyin artımının ÜDM ilə müqayisədə cüzi olduğuna, sənayedə istehsal güclərinin yüksək dərəcədə yükləndiyinə, dolların dayanıqlığına əsaslanaraq, ticarətdə kəsir olmasının Amerika iqtisadiyyatına heç bir mənfi təsir göstərmədiyini sübut etməyə çalışırlar. Bu tezis 2001-2007-ci illərdə Prezidentə edilən hesabatlarda əksini tapmışdır. Bu Hesabat işsizliyin həqiqətən də aşağı olması, tam məşğulluq, iqtisadi artım tempinin yüksəkliyi barədə məlumatlara istinad edirdi.

Demokratlar və onların iqtisadi nəzəriyyəçiləri isə, bir qayda olaraq, ABŞ-m ticarətində kəsirlə bağlı olan uzunmüddətli xərclər, o cümlədən idxalın əmək haqqının aşağı düşməsinə təsirinin nəticəsi kimi, iş yerlərinin ixtisarı barədə öz təşvişlərini bildirir. Onlar belə bir ehkama əsaslanır ki, xroniki ticarət kəsiri ABŞ-m istehsal bazasının dağıdılmasına və ölkənin uzunmüddətli rəqabət qabiliyyətinin itirilməsinə gətirib çıxara bilər.

Amerikanın xarici ticarətində ixracla idxal arasında get-gedə artan disbalansm aradan qaldırılması üçün adətən iki variantda qərarın qəbul edilməsi təklif olunur. Birinci qərar dolların dəyərsizləşdirilməsini davam etdirib, Amerika ixracının və idxalının nisbi qiymətlərinə təsir göstərmək yolu ilə ticarət balansını tənzimləməkdir. Amma valyuta məzənnələri heç də həmişə ticarət balansında təshihlərin aparılması üçün əlverişli olan istiqamətdə dəyişmədiyinə görə bu yolla əldə edilə biləeək pozitiv nətieələr məhduddur. Özü də dolların əhəmiyyətli dərəcədə devalvasiyası bütün dünyada iqtisadi sabitliyin pozulması təhlükəsini yaradır.

İkinci qərar Amerika iqtisadiyyatının artımını stimullaşdırmağa cəhd göstərməkdir. Bu cür yanaşma, Amerikanın indiki hökumətinin və prezident Obamanm siyasəti üçün səciyyəvidir. Bu kursun həyata keçirilməsi üçün 2009-2010- cu illərdə ümumilikdə Amerika şirkətlərinin xarici ticarət ekspansiyası, iqtisadiyyatın istehsal-texniki bazasının möhkəmləndirilməsinin dəstəklənməsi üçün ciddi stimullar yaradılmışdı.

Aydındır ki, ABŞ-ın xarici ticarətində kəsir problemi bəşəri məsələdir və onun həlli ən azı «Group-20» çərçivəsində beynəlxalq səylərin göstərilməsini tələb edir. ABŞ-m xarici ticarətinin kəsiri başqa dövlətlər tərəfindən öz iqtisadiyyatlarının artım tempinin sürətləndirilməsinə yönəlmiş tədbirlər həyata keçirdiyi halda ixtisar oluna bilər. Xarici ölkələrdə milli gəlirin çoxalması Amerika ixracına tələbatı artıracaq və bunun nəticəsində onun ticarət saldosu nisbətən az passivlə yekunlaşacaq. Ancaq əsrimizin birinci onilliyində Avropanın iqtisadiyyatı bütövlükdə aşağı templərlə inkişaf etmiş, Asiya, Latın Amerikası ölkələrində isə iqtisadi artım mütəmadi baş verən maliyyə sarsıntıları səbəbindən o qədər də sabit olmasa da, hər halda Aİ-dən, Yaponiyadan və ABŞ-dan yüksək olmuşdur. Onların Amerika və Avropa bazarlarında dinamik ekspansiyasının səbəbi də bununla izah edilir. Bu problemin həllinin ABŞ ilə qalan dünya arasında əmtəə axınlarında təshihlər aparılması ilə bağlı olması haqqında nöqteyi-nəzər daha düzgün görünür. Xarici amillər baxımından ABŞ-a müəyyən üstünlüklər təmin edən xidmətlərlə ticarətin artmasının müəyyən kompensasiyaedici təsiri ola bilər, amma ABŞ-ın ümumi ticarət balansında onların xüsusi çəkisinin cüziliyi səbəbindən bunun rolu şişirdilməməlidir. Hazırda ABŞ-m ixracında eimtutumlu malların onun ümumi həcminin ***%-i*** qədər, yəni ən böyük seqment olması məqamını qeyd etməliyik. İxracın bu növünün artması Amerikanın ticarət balansının passiv saldosunun dayanıqlı artımının amortizatorlarmdan yalnız birinin rolunu oynamağa qadirdir.

## Xülasə

• Amerika bütün xarici ölkələrin şirkətləri üçün malların və xidmətlərin dünyada ən iri regional bazarıdır. Onların ixracının ən böyük axını, özü də həm hazır mallar, həm də xammal və yarımfabrikatlar bura yönəldilir. Öz növbəsində, Amerika şirkətləri ən geniş spektrdə olan məhsullarının - sənaye məhsullarından ərzağadək böyük həcmini ixrac edirlər.

• Bununla bərabər, ABŞ tutduğu mövqeləri tədricən də olsa, başqa ölkələrə verir. Bu təzahür qüdrətli ölkənin iqtisadi mövqelərinin sarsılmasına səbəb olur. Məsələn, İkinci Dünya müharibəsinin sonuna yaxın bütün kapitalizm dünyasının ÜDM-nin yarısından çoxu ABŞ-m payına düşürdüsə, 2009-cu ildə bu göstərici 1/5 hissəyədək azalmış, bəzi ölkələr isə əmək məhsuldarlığının səviyyəsinə görə Amerikanı geridə qoymuşdur. Ticarətdə

ABŞ üçün mövcud olan şərait daim pisləşir. Amma əslində, beynəlxalq əmək bölgüsündən əldə olunan faydalar nəzərə alındıqda, kənardan zahirən görünən birbaşa zərər bir çox amillərin, o cümlədən gəlirlərin ölkələr arasında yerdəyişməsi hesabına kompensasiya olunur.

• Statistika başqa ölkələrin, ilk növbədə, Yaponiya və Çinin rəqabət hücumlarının təsiri altında ticarət şərtlərinin ABŞ üçün getdikcə pisləşməsi prosesini əks etdirir. Asiya və Latın Amerikasının YSÖ-nin şirkətləri Amerika bazarlarında müvəffəqiyyətlə fəaliyyət göstərir. Ölkənin misli görünməmiş iqtisadi artımı və 1990-eı illərdə bura sel kimi gələn nəhəng kapital axınları nəticəsində ABŞ-m ticarət şəraiti şərtlərinin indeksi əyrisi yüksəlmişdir. Gəlirlərin bu eür beynəlxalq yerdəyişməsi (kapital formasında), o cümlədən miqyas hesabına qənaət amilinin dinamik yüksəlişi rəqabət mövqelərini zəifldən birbaşa amillərin təsirini neytrallaşdırır.

• Əlverişli tiearət indeksi başqa daxili və beynəlxalq amillərlə birlikdə ABŞ-m dünya bazarının bütün sistemində ticarət mövqelərinin dinamik artımı və Amerikanın iri korporasiyalarının və banklarının buradakı nüfuzunun güelənməsi üçün şərait yaratmışdır. Amma bu, qısamüddətli təsir göstərən amil idi. XXI əsrin əvvəlindən Amerikada başlanan qlobal böhranadək ümumi beynəlxalq ticarət şərtləri ABŞ üçün getdikcə pisləşirdi. Birincisi, maddi istehsal məhsullarının deyil, xidmətlərin ön plana çıxması nəticəsində ölkənin ixrac etdiyi malların sayı azalırdı; ikincisi, Amerika mallarının rəqabət parametrləri pisləşməyə başlamışdı; üçüncüsü, Amerika bazarının özü Almaniya, Yaponiya, Çin, Cənubi Koreya, Braziliya, Kanada və başqa ölkələrin daha dinamik inkişaf edən və təcavüzkar şirkətlərinin böyük rəqabət meydanına çevrilmişdi.

• Bütün bunlar ABŞ-m nəhəng ticarət kəsirinin daha da artması ilə nəticələndi. Bu, tədiyyə balansının kəsiri ilə birlikdə maliyyə sisteminə və iqtisadi artıma mənfi təsir göstərir. Amerika iqtisadiyyatının vəziyyətinin bütün dünya iqtisadiyyatına güclü təsir göstənuəsi faktı danılmaz olduğuna görə bu hal dünyanın siyasi və işgüzar dairələrində böyük təşviş yaradır.

• ABŞ hökuməti ticarət kəsirinin azaldılması məqsədilə həm iqtisadi artımın ümumi proqramını, həm də Amerika şirkətlərinin xaricdən dəstəklənməsi məqsədilə onların stimullaşdırılması planını işləyib hazırlamışdır. Amma beynəlxalq ticarət balansının xeyli yaxşılaşdırılması üçün ABŞ-ın maddi istehsalında böyük irəliləyişlər tələb edildiyinə, bu məsələ isə uzunmüddətli xarakter daşıdığına görə həmin metodların cari proseslərə

əhəmiyyətli dərəcədə təsir göstərmək iqtidarında olması inandırıcı deyil.

• Amerika iqtisadiyyatının sağlamlaşdırılmasmm və beynəlxalq ticarətdə mövqelərinin yaxşılaşdırılmasının digər istiqaməti dövlətin iqtisadi funksiyalarını gücləndirib, libertarian tənzimləmədən qətiyyətlə imtina etməkdir.

## Yoxlama sualları

1. ABŞ beynəlxalq ticarətdə hansı mövqeləri tutur?
2. Amerika mallarının və xidmətlərinin beynəlxalq ixracının coğrafiyası necədir?
3. ABŞ-a malların və xidmətlərin beynəlxalq idxalının coğrafiyası necədir?
4. ABŞ-m əsas ticarət tərəfdaşlarını xarakterizə edin. ABŞ və Kanada arasında ikitərəfli ticarət necə baş verir?
5. ABŞ və Aİ arasında beynəlxalq ticarəti xarakterizə edin: ixrac və idxal.
6. Əvvəlki dövrlərdə ABŞ ilə Yaponiya arasında ikitərəfli ticarət sahəsində ziddiyyətlərin yaranmasının səbəbi nədir? İndi bu ziddiyyətlər niyə arxa plana keçmişdir?
7. ABŞ-Çin ticarətinin təhlilini verin. Onun strukturu necədir? Amerika tərəfi Çinlə ticarətin bəzi aspektlərindən niyə narazıdır?
8. ABŞ-m, demək olar ki, bütün digər ölkələrlə ticarətində böyük kəsirinin olmasının səbəbi nədədir?
9. Böyük və getdikcə artan ticarət kəsiri ölkənin iqtisadiyyatına necə təsir göstərir?
10. Ticarət kəsiri probleminin həlli üçün əvvəlki Amerika hökuməti hansı tədbirləri həyata keçirmişdi?

## Referatların mövzuları

1. ABŞ-m beynəlxalq ticarətdə tutduğu mövqe: vəziyyəti və perspektivləri
2. ABŞ-m Asiya, Latın Amerikası və Afrika ölkələri ilə beynəlxalq ticarəti
3. ABŞ ilə Avropa İttifaqı arasında ticari-iqtisadi ziddiyyətlər

# Fəsil 10
# BEYNƏLXALQ VƏ REGİONAL TİCARƏT, AVROPA İTTİFAQININ TİCARƏT SİYASƏTİ

## 10.1. Avropa müasir kapitalizmin vətənidir

Kapitalizmin təsərrüfat münasibətləri Qərbi Avropada yaranmış, burada böyük və çoxillik müharibələr baş vermiş, dəniz səyyahları buradan özlərinin dövr-aləm səyahətlərinə yollanaraq, bütöv qitələri öz ölkələrinə birləşdirmişlər. Burada ən qanlı inqilablar və əks-inqilablar baş vermiş, gələcək bankirlərin sələfləri olan ilk küçə sərrafları, sonra isə ilk banklar meydana çıxmış, indi menecerlərlə əvəz olunmuş dükançılar və tacirlər işləmişlər. Müasir kapitalizm müəyyən münasibətlər sistemi kimi, ilk növbədə. Qərbi Avropa regionunun sosial-iqtisadi təkamülünün və siyasi inkişafının məhsuludur. Amerikanın kəşfi. Yeni Dünya aşkar olunduqdan sonra Avropanın əsas ölkələrində baş verən amansız müharibələr və hakim elitanın toqquşmaları yeni yaranan kapitalist münasibətlərinin Avropadan Amerikaya keçməsinə, oradakı kapitalizmin müəyyən özəl cəhətlərinin formalaşmasına səbəb olmuşdur. Böyük coğrafi kəşflər və Avropa dövlətlərinin yeni ölkələri zəbt edib öz imperiyalarına birləşdirmək məqsədilə apardığı müstəmləkə müharibələri son nəticədə xıx əsrin sonu - XX əsrin əvvəllərində dünyanın bütün ölkələrinin təşkilati-iqtisadi baxımdan beynəlxalq istehsal amillərinə adekvat olaraq, dünya təsərrüfatı sistemində birləşməsinə gətirib çıxarmışdır.

Avropanın aparıcı ölkələrinin iqtisadi təkamülü onların başqa dövlətlərlə münasibətlərini əks etdirən müxtəlif nəzəriyyələrin yaranması üçün ideya platforması olmuşdur. XVI-XVIl əsrlərdə kapitalizmin ilk nəzəriyyəçiləri (merkantilistlər) müstəmləkələrin metropoliyalarla ticarəti üçün sərt qaydaların müəyyənləşdirilməsini, ixracın idxal üzərində üstünlüyünə nail olunmasını, dövlət xəzinəsində yalnız qiymətli metalların saxlanmasını və s. tələb edirdilər. XVII əsrin əvvəllərindən başlayaraq Avropa dövlətlərinin möhkəmlənməsi və özəl şirkətlərin qüvvətlənməsi, onlardan bəzilərinin (Ost-Hind və Vest-Hind şirkətləri və s.) isə müstəmləkələrdə əslində dövləti əvəzləməsi nəticəsində həmin dövrün dominant iqtisadi təfəkkürü dövlətin iqtisadi sahəyə müdaxiləsinin məhdudlaşdırılmasmı tələb etməyə başladı. Məsələn, fiziokrat olah F.Keno və A.R.J.Tryuqo təbii hüquqlara (natural law) əsaslanan qaydalara

istinad edir, sənayenin dövlət tərəfindən tənzimlənməsini inkar edərək, yalnız torpaq vergisini tanıyırdılar. Onların ideyaları klassik iqtisadi nəzəriyyənin (A.Smit, D.Rikardo, S.Mill, T.R.Maltus, K.Marks, A.Marşall və başqaları) fonnalaşmasma güclü təsir göstərmişdir. Bu halda klassik iqtisadi nəzəriyyənin bir neçə istiqaməti fomıalaşmışdır. Bu klassiklərin təlimi iqtisadi nəzəriyyələrə və məktəblərə güclü təsir göstənniş və indi də göstərməkdədir. Böyük Britaniyanın dövlət xadimi və iqtisadçısı C.M.Keynsin və Amerika iqtisadçısı M.Fridmanin təlimləri də müasir iqtisadi təfəkkürə bu cür, bəlkə bundan da güclü təsir göstərir. Onların hər ikisi iqtisadi təfəkkürdə metodologiyasına və buna müvafiq olaraq iqtisadi proseslərə siyasət tərəfindən təsir göstərilməsinin çox cəhətlərinə görə bir-birinə diametral əks olan istiqamətlərin baniləridir.

Dünya təsərrüfatının ayrı-ayrı problemlərinin tədqiqi ilə məşğul olan ilk iqtisadi məktəblərin də Qərbi Avropada (Böyük Britaniya, Fransa, Almaniya, Avstriya, İtaliya, İsveçrə, İsveç) meydana çıxması da qanunauyğun məqamdır. Bir qədər sonra XD( əsrdə iqtisadi məktəblər ABŞ-da: Harvard, Çikaqo, Kolumbiya, Yeli universitetlərində yaranmağa başlamışdır. XX əsrin ikinci yarısından iqtisadi məktəblər başqa ölkələrdə də (Yaponiya, Avstraliya, Finlandiya və s.) formalaşmağa başlamışdır. Burada qeyd edək ki, nə dünya iqtisadiyyatının vahid nəzəriyyəsi, nə beynəlxalq iqtisadi münasibətlərin vahid nəzəriyyəsi, nə də beynəlxalq ticarətin vahid nəzəriyyəsi mövcud deyil. Müxtəlif məktəblər və tədqiqat mərkəzləri ayrı-ayrı alimlərin dünya iqtisadiyyatı və orada gedən proseslərlə əlaqədar olan konkret məsələlərin (dünyada iqtisadi tsikllərin hərəkəti, investisiya siyasəti, ticarət, maliyyə və s.) öyrənilməsi sahəsində mühüm nəticələr əldə etməsi sayəsində dünya şöhrəti qazanmışdır.

Nəzəriyyəyə görə, dünya iqtisadiyyatı proseslərinin tədqiqinə vahid mövqedən yanaşmaya iki qlobal sosial sistemin: kapitalizm və sosializmin mövcudluğunun mane olduğu fərz edilirdi. Amma dünyada əslində yalnız vahid qlobal kapitalizmin mövcud olduğu (Çinin də 1,3 milyard əhalisi ilə qlobal kapitalist münasibətlərinin ümumi sistemində olduğunu nəzərə alaraq) son 20 il ərzində iqtisad elmi dairələrində dünya iqtisadiyyatının bütöv sistem kimi tədqiqinə və dərkinə eyni yanaşmaya doğru heç bir irəliləyiş nəzərə çarpmır. Buna görə də dünya iqtisadiyyatının və beynəlxalq iqtisadi münasibətlərin müəyyən baza konstruksiyalarının fonnalaşması, bunun qismən münasib olan vahid nəzəriyyəsinin qurulması üçün ilkin şərtlər də yoxdur. Bu baxımdan ***qlobal iqtisadi siyasətin*** yeridilməsində daha böyük müəyyənlik əldə

edilmişdir. Göstərdiyimiz kimi, bu siyasət (onun ayrı-ayrı elementləri növbəti fəsillərdə açıqlanacaq) ideyalarının mənbəyi hələ ***Smitə qədərki nəzəriyyəyə*** (XVIII əsrin fiziokratları) gedib çatan liberal iqtisadi təfəkkürün R.Lukas və M.Fridman (Çikaqo məktəbi), R.Bar (Harvard universitetinin məktəbi) və başqalarının «pul» (monetar) istiqaməti məcrasında yeniləşmiş təfsirinə əsaslanır. BVF və DB-nin mütəxəssislərinin genişləndirilmiş təfsirinə əsasən bu istiqamət ümumilikdə «beynəlxalq monetarizm» termini ilə adlandırılır. Beləliklə, XVIII əsrin yüksəlməkdə olan kapitalizminin liberal ticari-iqtisadi konsepsiyasının və müasir dünyanın ən iri fövqəldövlətinin (ABŞ XX əsrin ortası) pul tənzimlənməsi ideyalarının süni birləşdirilməsi əsasında dünyanın bütün ölkələrində dayanıqlı iqtisadi artımı və cəmiyyətin tərəqqisini təmin edə biləcək universal vasitə kimi, milli hökumətlərin fəali}^ətində tətbiq olunan qlobal iqtisadi siyasətin nəzəriyyəsi yaradılmış və platfonnası işlənib hazırlanmışdır. Bu halda beynəlxalq neoliberal monetarizmin dominantlığı müharibədən sonrakı onilliklərdə (1970-ci illərin sonunadək) inkişaf etmiş ölkələrin iqtisadi siyasətində bərqərar olmuş keynsçi yanaşmaların sıxışdırılması yolu ilə baş verirdi.

Qlobal monetarizmin hücuma keçməsinin müəyyən obyektiv əsasları var idi. Dünyada iqtisadi tarazlığın pozulmasının müxtəlif, lakin əsasən milli iqtisadiyyatlar hüdudlarında yaxud 1970-ci illərin ortalarından aydın nəzərə çarpmağa başlayan regional maliyyə sarsıntılarında təzahür edən formalarının dünyadakı iqtisadi inkişaf qarşısında yaratdığı yeni problemlərin neokeynsçi metodlar çərçivəsində həllinin qeyri-mümkünlüyü səbəbindən, onlar səmərəli tənzimləmə obyekti ola bilməzdi. Dünya iqtisadiyyatının yeni keyfiyyətinə adekvat olmayan neokeynsçi təlimin böhranı da məhz bundan irəli gəlirdi. Ancaq keynsçilikdə baş verdiyi kimi təkzibə və devrilməyə yox, modemləşdirilməyə, tənzimləmə mexanizmləri cəbbəxanasını genişləndirilməsinə, iqtisadi nəzəriyyənin və siyasətin monetar istiqaməti ilə sintez olunmaya ehtiyacı var idi. Bunun əvəzində isə qlobal monetarizmin universal keynsçilik və neokeynsçilik üzərinə kütləvi hücumu başlandı.

Müasir dünyanın iqtisadi inkişafı iri korporasiyalar və banklar, beynəlxalq təşkilatlar tərəfindən güclü himayə olunmasına baxmayaraq, beynəlxalq neoliberal monetarizm məktəbinin ona olan ümidləri doğrultmadığını göstərir. Son illərin (2008-2011) hadisələri bu konsepsiyanın, onun metodologiyasının və üzərində qurulan iqtisadi siyasətin tam iflasa uğradığını sübuta yetirmişdir.

Böhran vəziyyətindən çıxışın ***keynsçiliyə qayıdış*** (o cümlədən dövlətin rolunun gücləndirilməsi, milliləşdirmə aləti və s.) yolunda axtarılması cəhdləri də buradan irəli gəlir; eyni zamanda həmin ölkələrin siyasi və elmi dairələrində başqa konsepsiyalarla sintez olunmaqla, iqtisadi siyasətdə yeni yanaşmaların işlənib hazırlanması üçün ***radikal solçu iqtisadi ideyalara*** diqqət güclənir. Ümumilikdə isə, XXI əsrin dünya iqtisadiyyatının vəziyyətinə adekvat olan strateji ideyaların mövcudluğunun, qlobal iqtisadi siyasətin başqa paradiqmasmm yaradılmasının zəruriliyi aydındır. Bu isə, mürəkkəb milli maliyyə-təsərrüfat altsistemlərindən ibarət olan, təkcə universal deyil, həmçinin, konkret ölkə üçün olan səciyyəvi meyillərin təsir göstərdiyi dünya iqtisadiyyatına sintez əsasında yanaşma vasitəsilə mümkündür. Bu, ilk növbədə, özünün özəl xüsusiyyətləri və tənzimləmə alətləri ilə vahid dünya tiearət sisteminə daxil olan ölkələrin ticarət sistemlərinə aiddir. Amma bunun üçün əvvəlcə qlobal ticarət sisteminin öneül cərgəsində olan Avropa İttifaqının beynəlxalq tiearətinin ümumi vəziyyətini və dinamikasını müəyyən etmək lazımdır.

## 10.2. Avropa ticarəti: ticarət siyasətinin təkamülü

XX əsrin müharibədən sonrakı onilliklərində beynəlxalq tiearətin artması bir çox eəhətdən, əksər hissəsi tarixən Qərbi Avropada baş verən struktur və institusional dəyişikliklərin və islahatların nətieəsidir. Bu məqamı da qeyd edək ki, XX əsrin birinci yarısında dünya üzrə beynəlxalq tiearətin artımının 2/3 hissəsi Qərbi Avropanın payına düşmüşdür. Dəyişikliklərin əksəriyyəti Avropanın regiondaxili (ölkələr arasında) ticarətinin artımı hesabına baş vennişdi. Burada vahid sənaye kompleksləri hüdudlarında həyata keçirilən, bölmələri Avropanın müxtəlif ölkələrində yerləşdirilmiş sənaye sahələri arasındakı kooperasiya əsasında ticarət mühüm rol oynamışdır.

Avropada ticarətin inkişafı hələ 1950-ci illərdə müharibədən əvvəlki dövrdə mövcud olan və müharibədən sonrakı yenidənqurmanın gedişində həll edilən bir sıra struktur problemləri ilə üzləşmişdir. Belə ki, 1935-ci ildə qitə ölkələrinin beynəlxalq ticarətinin 57%-i Avropadaxili ticarətin payına düşürdüsə, 1952-ci ildə bu pay cəmi 53% təşkil etmiş, amma 1973-cü ildə artıq 70%-dək artmışdır.

Avropanın inteqrasiya prosesi 1940-1950-ci illərdə ölkələrin qarşılıqlı ticarətində maneələrin, o eümlədən köklü struktur dəyişiklikləri (islahatları)

vasitəsilə aradan qaldırılmasından ibarət idi. İlkin mərhələdə bu proses Avropa hökumətlərinin uzun müddət davam edən müharibə nəticəsində dağıdılmış milli dövlət və inzibati idarəçilik sistemlərinin nonnal işlinin bərpası istiqamətində çətin fəaliyyəti olmuşdur. Bu vaxt institusional dəyişikliklərin həyata keçirilməsində bərpa, yenidənqurma və yardım proqramları (o cümlədən məşhur Marşall planı) böyük rol oynamışdır. Qərbi Avropa ölkələrinin bərpa edilməsinin artıq birinci mərhələsində gələcək inteqrasiya üçün institusional şərtlər, o cümlədən İƏT, Avropa Ödənişlər Birliyi (1951- 1961) vasitəsilə şərait yaradılırdı. Bu qurumlar Qərbi Avropa ölkələri arasında ticarətdə ayrı-seçkilik şərtlərinin aradan qaldırılmasına xidmət edirdi. GATT-m ticarət raundları da bu istiqamətdə fəaliyyət göstərirdi. Struktur dəyişikliklərinin növbəti mərhələləri 1957-ci ildə 6 Avropa dövlətinin (Fransa, Almaniya, İtaliya, Belçika, Niderland, Lüksemburq) daxil olduğu AİB-in yaradılması (bundan əvvəl onlar Avropa Atom Enerjisi Birliyini (Euratom - European Atomic Energy Community), Avropa Polad və Kömür İttifaqını (ECSC - The European Coal and Steel Community) yaratmaqla, birlik üçün ciddi istehsal-iqtisadi bazanı təmin etmişdilər); AİB ölkələrinin BVF-də rolunun əhəmiyyətli dərəcədə yüksəldilməsi (fonddakı kvotalarının xeyli artırılması başqa məsələlərlə birlikdə onların milli valyutalarının dönərliyini təmin etmişdi); İƏİT çərçivəsində ticarətin liberallaşdırılması olmuşdur.

1960-cı ildə yaradılmış AİB artıq 3 ildən sonra «altılığın» qarşılıqlı ticarətində gömrük tariflərini və başqa ticari məhdudiyyətləri ləğv edərək, uğurla fəaliyyət göstərmişdir. Bir ildən sonra, 1961-ci ildə Böyük Britaniya başda olmaqla, 12 Avropa dövlətindən ibarət AATA da üzv ölkələrinin qarşılıqlı ticarətində tarifləri 20% aşağı saldı. Həmin vaxt Avropa xalqlarına inteqrasiyanın iki sxemini təklif edən bu iki nüfuzlu təşkilatın rəqabət mübarizəsi başlandı. AİB-in təklif etdiyi birləşmə templərinə və konsepsiyasına davam gətinnəyən AATA-nm üzvləri bir-birinin ardınca AİB- in qapısını döyməyə başladı. Özünün inteqrasiya konsepsiyasının məğlub olduğunu görən Britaniya da AİB-ə daxil oldu. İndi Avropa İttifaqı 27 ölkədən ibarətdir. Aİ ölkələri beynəlxalq ticarətlərinin 70%-dən çoxunu öz aralarında aparır. Aİ ölkələri arasında ticarətin özəlliyi bundadır ki, rəsmi statistikaya əsasən beynəlxalq ticarət sinfinə daxil edilməyərək, regional ticarət kimi nəzərdən keçirilir. Aİ üzvü olan dövlətin yalnız onun sərhədlərindən kənarda olan bazarlara düşən hissəsi xarici yaxud beynəlxalq ticarətə aid edilir.

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Litva | 9958 | 12 498 | 15 429 | 17 813 | 21 144 | 13 073 |
| Lüksemburq | 16 116 | 17 597 | 21 163 | 20 114 | 21475 | 17 480 |
| Macarıstan | 48 668 | 53 494 | 62 331 | 69 730 | 74 069 | 56 034 |
| Malta | 2927 | 2988 | 3430 | 3473 | 3252 | 2586 |
| Niderland | 256 989 | 292 438 | 331979 | 359 442 | 394 980 | 319 451 |
| Avstriya | 96 395 | 102 345 | 109 280 | 118 962 | 125 301 | 102 795 |
| Polşa | 72 109 | 81697 | 101 138 | 120 912 | 141966 | 105 123 |
| Portuqaliya | 44 174 | 49 179 | 53 100 | 57 056 | 61174 | 50 074 |
| Rumıniya | 26 281 | 32 569 | 40 746 | 51 305 | 57 148 | 38 891 |
| Sloveniya | 14 276 | 16 346 | 19 227 | 23 027 | 25 180 | 18 956 |
| Slovakiya | 24 006 | 27 851 | 35 828 | 44 229 | 50 253 | 39 569 |
| Finlandiya | 41356 | 47 236 | 55 253 | 59 616 | 62 402 | 43 250 |
| İsveç | 80 740 | 89 781 | 101583 | 111334 | 113 638 | 85 356 |
| Böyük Britaniya | 378 353 | 412 887 | 478 993 | 454 503 | 430 361 | 344 874 |
| İslandiya | 2988 | 4024 | 4788 | 4881 | 4167 | Məlumat yoxdur |
| Norveç | 38 991 | 44 709 | 51 129 | 58 478 | 60 447 | 48 234 |
| İsveçrə | 89 903 | 101 757 | 112 655 | 117 600 | 124 435 | 111 663 |

* Eurostat, last update, 01.17.2010

Aİ-nin əsas ticarət tərəfdaşları ABŞ, Çin, Yaponiya, Türkiyə, Cənubi Koreya, Afrika və Latın Amerikası ölkələri, Rusiyadır. Həm ixracın, həm də idxalın ən böyük hissəsi Şimali Amerikanın və Asiyanın, bir qədər azı isə Afrikanın payına düşür. Bütövlükdə Avropanın xarici ticarətinin 70%-dən çoxu dünyanın bu 3 regionu ilədir.

Bunun səbəbi nədədir? Birincisi, ABŞ və Kanada Qərbi Avropanın əsas iqtisadi fövqəldövlətləri üçün ənənəvi tərəf-müqabilidir, onların iqtisadiyyatları üzvi əlaqədardır. İkincisi, 1960-cı illərdən Qərbi Avropa ilə sıx ticari-iqtisadi əlaqələri olan Yaponiya Asiyada yerləşir; yeni iqtisadi güc mərkəzləri olan Çin və Hindistan, həmçinin ən iri iqtisadiyyatlar - Cənubi Koreya, Malayziya, Tailand və başqaları sürətlə inkişaf edir. Üçüncüsü, Afrika Avropanın yaxınlığında yerləşir və bu qitənin ölkələri əsrlər boyu Avropanın fövqəldövlətlərinə «bağlanmışdır». Göstərilən amillər Aİ-nin beynəlxalq ticarətinin intensiv olaraq, ilk növbədə, bu 3 geoiqtisadi istiqamətə yönəlməsini şərtləndirir.

## 10.4. Aİ ölkələrinin daxili (regional) ticarəti

Əvvəl qeyd etdiyimiz kimi, Aİ üzvü olan dövlətlərin öz aralarındakı ticarəti çoxdandır ki, «beynəlxalq ticarət» kimi nəzərdən keçirilmir və onların hamısı üçün vahid olan ticarət qanunvericiliyi sistemi vasitəsilə tənzimlənir. Aİ-nin birləşmiş iqtisadiyyatı, ilk növbədə məhz daxili ticarətə istiqamətlənmiş, malların və xidmətlərin 60-80%-i (Böyük Britaniya - 53%-ə yaxın və Niderland - təqribən 49,2% istisna edilməklə) onun hüdudlarında satılır. Aİ ölkələrinin daxili regional ticarətdə ixrac və idxal mövqelərini diqqətlə nəzərdən keçirək (cədvəl 10.3 və 10.4).

Cədvəllərdəki rəqəmlər təsərrüfat-istehsal proseslərinin dərindən qovuşması şəraitində Aİ-nin təsərrüfat komplekslərinin vahid qitə iqtisadi sistemində inteqrasiyasının son dərəcə yüksək səviyyədə olduğunu əks etdirir.

Burada qeyd olunmalıdır ki, qlobal iqtisadi böhran dövründə Aİ-də ölkələrarası ticarətin dinamikası dünya üzrə ticarət dinamikasına analoji inkişaf etmiş, istisna edilmədən bütün Aİ ölkələrinin xarici ticarətində çox güclü azalma baş vermişdir. Avropa ticarətinin ümumi həcmi 2,63 trilyon avrodan 2,1 trilyon avroya enmiş, yəni 500 milyard avrodan çox ixtisar olunmuşdur. Avropa İttifaqının yarandığı 1957-ci ildən bəri onun tarixində bu cür azalma olmamışdı. Ayrı-ayrı ölkələrin Aİ-nin başqa dövlətləri ilə xarici ticarəti əhəmiyyətlidir; Almaniyanın (təqribən 120 milyard avro), Fransanın (50 milyard avrodan çox), Niderlandın (ixracda 70 milyard avrodan çox) ixracının azalması (həcminə görə) xüsusilə nəzərə çarpır. Bu dərin enmə Aİ ölkələrinin qarşılıqlı ticarətdə faiz nisbətlərinin göstərildiyi 10.3-cü cədvəldə əks olunmuşdur.

## 10.3. 2000-2010-cu illərdə Aİ ölkələrinin beynəlxalq ticarəti

Avropa İttifaqının beynəlxalq ticarət mövqeləri bütün onillik ərzində kifayət dərəcədə sabit və dayanıqlı olmuşdur: onilliyin əvvəlində dünya ticarətinin təqribən 20%-i, sonunda isə bir qədər azalaraq, 17-18%-i onun payına düşmüşdür. Buna baxmayaraq, Aİ-27 dünya bazarlarına böyük həcmdə mal və xidmətləri göndərib, öz növbəsində, bütün dünyada istehsal olunmuş malları və xidmətləri də iri həcmdə qəbul edən ən böyük regiondur.

***Aİ ölkdlərinin ixracı.*** Aİ ölkələrinin və İsveçrənin ixrac mövqeləri 10.1 cədvəlinin məlumatlarında əks olunmuşdur.

***Aİ ölkələrinin idxalı.*** Sonuncu onillikdə Aİ ölkələrinin xarici idxalının dinamikası 10.2 cədvəlində təqdim edilmişdir.

*Cədvəl 10.1*

**Aİ-27 ölkələrinin və İsveçrənin xarici ixracı*, milyon avro**

| Ölkə | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|---|---|
| Aİ (27 ölkə) | 952 955 | 1 052720 | 1160 101 | 1 241 498 | 1 306528 | 1094 417 |
| Aİ (25 ölkə) | 969 303 | 1071375 | 1 183 900 | 1 270 080 | 1338 408 | 1 117 290 |
| Avro zonası (16 ölkə) | 1145 679 | 1235 391 | 1 381320 | 1 502 652 | 1557 326 | 1 275 423 |
| Belçika | 246 697 | 268 789 | 292 087 | 314 449 | 320 805 | 265 160 |
| Bolqarıstan | 7985 | 9223 | 11 748 | 13 512 | 15 204 | 11787 |
| Çexiya | 55 460 | 62 785 | 75 604 | 89 382 | 99 809 | 81213 |
| Danimarka | 61966 | 68 420 | 73 716 | 75 163 | 79 254 | 66 922 |
| Almaniya | 731 479 | 780 415 | 882 532 | 964 038 | 983 255 | 803 899 |
| Estoniya | 4769 | 6202 | 7719 | 8034 | 8465 | 6475 |
| İrlandiya | 84 242 | 88 142 | 86 593 | 88 686 | 85 477 | 82 084 |
| Yunanıstan | 12 306 | 13 888 | 16 525 | 17 205 | 17 440 | 14 377 |
| İspaniya | 146 815 | 154 846 | 170 211 | 184 821 | 191 388 | 156 645 |
| Fransa | 363 458 | 372 501 | 394 925 | 402 686 | 408 776 | 341 566 |
| İtaliya | 284 413 | 299 923 | 332 013 | 364 744 | 369 016 | 290 113 |
| Kipr | 762 | 1177 | 1062 | 1017 | 1110 | 895 |
| Latviya | 3223 | 4149 | 4902 | 6062 | 6897 | 5465 |
| Litva | 7478 | 9490 | 11 263 | 12 509 | 16 077 | 11795 |
| Lüksemburq | 13 063 | 15 109 | 18 241 | 16 337 | 17 224 | 14 913 |
| Macarıstan | 44 671 | 50 588 | 59 936 | 69 610 | 73 772 | 60 036 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Malta | 2023 | 1928 | 2226 | 2246 | 2003 | 1504 |
| Niderland | 287 336 | 326 640 | 369 249 | 401 864 | 433 722 | 357 342 |
| Avstriya | 95 165 | 100 621 | 108 913 | 119 387 | 123 259 | 98 650 |
| Polşa | 60 332 | 71889 | 88 229 | 102 259 | 115 895 | 96 396 |
| Portuqaliya | 28 770 | 30 665 | 34 511 | 37 589 | 37 949 | 31085 |
| Rumınıya | 18 935 | 22 255 | 25 850 | 29 543 | 33 679 | 29 116 |
| Sloveniya | 13 153 | 15 471 | 18 501 | 21964 | 23 204 | 18 804 |
| Slovakiya | 22 305 | 25 632 | 33 340 | 42 696 | 48 370 | 40 115 |
| Finlandiya | 49 458 | 52 647 | 61489 | 65 688 | 65 580 | 44 897 |
| İsveç | 99 097 | 105 266 | 117 707 | 123 218 | 124 653 | 93 954 |
| Böyük Britaniya | 279 358 | 309 040 | 357 322 | 320 388 | 312 528 | 252 256 |
| İslandiya | 2322 | 2487 | 2758 | 3479 | 3650 | Məlumat yoxdur |
| Norveç | 66 145 | 83 574 | 97 331 | 99 265 | 113 571 | 85 473 |
| İsveçrə | 95 480 | 105 280 | 117 506 | 125 535 | 136 315 | 123 955 |

* Eurostat, last update, 01.17.2010.

*Cədvəl 10.2*

**Aİ-27 ölkələrinin və İsveçrənin xarici idxalı*, milyon avro**

| Ölkə | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|---|---|
| Ai (27 ölkə) | 1 027 522 | 1 179 569 | 1352 787 | 1434 009 | 1 564 992 | 1 199 669 |
| Aİ (25 ölkə) | 1 032 358 | 1 183 500 | 1356 138 | 1434 429 | 1 562 679 | 1 206 384 |
| Avro zonası (16 ölkə) | 1 080 587 | 1 228 355 | 1400 382 | 1490 540 | 1 611841 | 1 253 588 |
| Belçika | 229 617 | 256 169 | 280 053 | 300 298 | 317 043 | 252 326 |
| Bolqarıstan | 11619 | 12 497 | 15 424 | 21862 | 25 094 | 16 726 |
| Çexiya | 56 248 | 61500 | 74 220 | 86 224 | 96 572 | 75 267 |
| Danimarka | 54 793 | 60 752 | 68 100 | 71526 | 74 776 | 59 383 |
| Almaniya | 575 401 | 624 606 | 722 112 | 769 779 | 805 730 | 668 104 |
| Estoniya | 6703 | 8230 | 10 711 | 11439 | 10 868 | 7291 |
| İrlandiya | 49 694 | 55 112 | 58 233 | 61 162 | 57 088 | 44 636 |
| Yunanıstan | 42 415 | 43 755 | 50 668 | 55 634 | 60 975 | 42 881 |
| İspaniya | 207 678 | 232 124 | 261 784 | 284 058 | 286 105 | 206 170 |
| Fransa | 378 603 | 405 212 | 431 602 | 452 006 | 478 294 | 396 109 |
| İtaliya | 285 634 | 309 292 | 352 465 | 373 340 | 382 050 | 294 213 |
| Kipr | 4423 | 5077 | 5518 | 6286 | 7237 | 5577 |
| Latviya | 5704 | 6991 | 9191 | 11180 | 10 975 | 6897 |

*Cədvəl 10.3*

**Aİ-27 ölkələrinin və İsveçrənin daxili ixracı*, milyon avro**

| Ölkə | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|
| Ai (27 ölkə) | 2 071765 | 2 214 982 | 2 496 314 | 2 653 599 | 2 708 282 | 2 183 044 |
| Belçika | 190 059 | 206 230 | 223 135 | 239 248 | 246 595 | 201 215 |
| Bolqarıstan | 4970 | 5537 | 7129 | 8220 | 9118 | 7585 |
| Çexiya | 48 330 | 53 702 | 64 789 | 76 233 | 84 768 | 68 738 |
| Danimarka | 43 754 | 48 363 | 52 398 | 52 650 | 55 273 | 45 193 |
| Almaniya | 472 272 | 501 637 | 561 348 | 623 856 | 622 664 | 504 857 |
| Estoniya | 3833 | 4847 | 5063 | 5642 | 5929 | 4496 |
| İrlandiya | 52 974 | 56 229 | 54 820 | 56 276 | 53 694 | 50 477 |
| Yunanıstan | 7902 | 8586 | 10 558 | 11182 | 11 207 | 9011 |
| İspaniya | 109 156 | 112 048 | 121 128 | 130 792 | 133 155 | 107 753 |
| Fransa | 239 805 | 236 467 | 258 686 | 261 008 | 259 569 | 211 215 |
| İtaliya | 175 947 | 183 661 | 203 069 | 222 173 | 217 210 | 165 781 |
| Kipr | 513 | 862 | 746 | 730 | 770 | 596 |
| Latviya | 2493 | 3176 | 3553 | 4395 | 4730 | 3677 |
| Litva | 5023 | 6230 | 7166 | 8100 | 9694 | 7582 |
| Lüksemburq | 11793 | 13 565 | 16 328 | 14 462 | 15 293 | 13 025 |
| Macarıstan | 37 111 | 40 923 | 47 473 | 54 963 | 57 672 | 47 345 |
| Malta | 1000 | 1004 | 1155 | 1106 | 922 | 638 |
| Niderland | 229 535 | 260 683 | 292 284 | 313 779 | 342 350 | 275 598 |
| Avstriya | 69 990 | 72 280 | 78 415 | 86 645 | 89 024 | 70 816 |
| Polşa | 48 465 | 56 521 | 69 674 | 80 658 | 90 178 | 76 428 |
| Portuqaliya | 23 045 | 24 524 | 26 722 | 28 820 | 28 006 | 23 272 |
| Rumıniya | 14 139 | 15 598 | 18 167 | 21 265 | 23 758 | 21630 |
| Sloveniya | 8877 | 10 544 | 12 653 | 15 224 | 15 799 | 13 032 |
| Slovakiya | 19 338 | 22 346 | 28 947 | 37 071 | 41 285 | 34 425 |
| Finlandiya | 28 712 | 29 908 | 35 225 | 37 332 | 36 668 | 24 946 |
| İsveç | 58 491 | 62 123 | 70 807 | 75 395 | 74 893 | 54 941 |
| Böyük Britaniya | 164 238 | 177 387 | 224 873 | 186 374 | 178 057 | 138 772 |

* Eurostat, last update, 01.17.2010

*Cədvəl 10.4*

**Aİ-27 ölkələrinin və İsveçrənin daxili idxalı*, milyon avro**

| Ölkə | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|---|
| Ai (27 ölkə) | 1 725 933 | 1 993 361 | 2 140 655 | 2 416 775 | 2 582 300 | 2 630 159 | 2 113 422 |
| Belçika | 136 152 | 167 221 | 184 691 | 200 115 | 211 903 | 221 585 | 179 300 |
| Bolqarıstan | 3748 | 6624 | 7821 | 9431 | 12 779 | 14 228 | 10 082 |
| Çexiya | 26 022 | 45 159 | 50 067 | 59 738 | 69 069 | 74 260 | 58 645 |
| Danimarka | 35 605 | 38 819 | 43 136 | 49 193 | 52 088 | 53 709 | 41480 |
| Almaniya | 340 141 | 377 748 | 402 690 | 460 130 | 497 279 | 512 768 | 433 299 |
| Estoniya | 3256 | 4943 | 6279 | 7974 | 8994 | 8664 | 5809 |
| İrlandiya | 35 006 | 32 719 | 36 751 | 39 877 | 42 797 | 39 902 | 29 142 |
| Yunanıstan | 23 526 | 25 518 | 25 484 | 29 014 | 32 178 | 33 635 | 27 577 |
| İspaniya | 114 512 | 141103 | 148 945 | 161 716 | 179 004 | 169 596 | 126 744 |
| Fransa | 246 951 | 263 608 | 273 678 | 298 642 | 311103 | 323 146 | 272 388 |
| İtaliya | 157 695 | 177 575 | 183 847 | 202 859 | 215 453 | 208 784 | 167 563 |
| Kipr | 1985 | 3066 | 3511 | 3787 | 4330 | 4915 | 4017 |
| Latviya | 2576 | 4316 | 5263 | 7035 | 8658 | 8284 | 5166 |
| Litva | 3112 | 6323 | 7433 | 9683 | 12 173 | 12 169 | 7686 |
| Lüksemburq | 10 243 | 12 243 | 12 816 | 14 918 | 14 797 | 16 018 | 12 536 |
| Macarıstan | 23 027 | 33 343 | 37 386 | 43 766 | 48 446 | 50 521 | 38 561 |
| Malta | 2241 | 2143 | 2265 | 2425 | 2561 | 2402 | 1780 |
| Niderland | 125 941 | 136 627 | 144 575 | 165 246 | 180 155 | 190 034 | 157 238 |
| Avstriya | 62 832 | 79 757 | 82 372 | 87 047 | 94 354 | 97 762 | 80 154 |
| Polşa | 36 602 | 54 319 | 61540 | 73 832 | 88 611 | 102 006 | 75 732 |
| Portuqaliya | 33 065 | 34 071 | 37 654 | 40 155 | 43 016 | 44 987 | 39 073 |
| Rumıniya | 9294 | 17 326 | 20 513 | 25 815 | 36 579 | 39 827 | 28 511 |
| Sloveniya | 8449 | 11714 | 12 978 | 14 948 | 16 980 | 17 942 | 13 427 |
| Slovakiya | 9700 | 18 929 | 21 668 | 26 925 | 33 015 | 36 724 | 29 541 |
| Finlandiya | 24 963 | 27 853 | 31508 | 35 342 | 38 187 | 38 710 | 28 055 |
| İsveç | 53 957 | 58 275 | 63 186 | 70 773 | 78 960 | 78 311 | 58 160 |
| Böyük Britaniya | 195 331 | 212 019 | 232 599 | 276 390 | 248 833 | 229 270 | 181 753 |

* Eurostat, last update, 01.17.2010.

Aİ ölkələrinin faizlə ifadə olunmuş daxili ixracı onların inteqrasiya qrupunun ixracının ümumi həcmində xüsusi çəkisini, habelə irəliləyişlərin dinamikasını daha qabarıq əks etdirir. Aİ-də ixrac baxımından ən çox inteqrasiya olunan ölkə Lüksemburqdur, ötən onillikdə onun ixracının xüsusi çəkisi 86-87% səviyyəsində sabitləşmişdir. Ondan sonra Slovakiya (85,5%), Norveç (80,1%), Macarıstan (79%), Belçika (76%), Portuqaliya (75%) gəlir. 2009-cu ildə Aİ-27 üzrə ümumi ixracın faiz göstəricisi 66,6% olmuşdur (2000-ci ildə - 68%).

Aİ-də idxalın faizlə ifadə olunan göstəriciləri Aİ-27-də daxili ticarət əlaqələrinin dayanıqlığını əks etdirir. Belə ki, sonuncu onillikdə daxili idxalın xüsusi çəkisi 63,5-63,8% səviyyəsində qalmışdır. Qlobal böhranın təsiri altında eyni vaxtda həm ixrac, həm də idxal azaldıqda, bəzi ölkələrin idxal mövqelərində dəyişikliklər baş vermişdir. Bir çox dövlətlərdə Aİ-nin başqa ölkələrindən idxalın faiz göstəriciləri yüksəlmiş (Belçika, Bolqarıstan, Yunanıstan, İtaliya, Malta, Çexiya, Kipr, Rumıniya), başqalarında isə bir qədər azalmış yaxud əvvəlki səviyyədə qalmışdır (Danimarka, Estoniya, İrlandiya, Latviya, Lüksemburq, Maearıstan, Polşa, Portuqaliya, Sloveniya, İsveç, Böyük Britaniya, Norveç, İsveçrə).

## 10.5. Aİ-nin xarici və daxili ticarətində ticarət balansları

***Aİ-nin xarici ticarətində ticarət balansları.*** XXI əsrin birinci onilliyi ərzində Avropa İttifaqında ticarət böyük mənfi saldo ilə yekunlaşdırılmışdır (cədvəl 10.5).

Cədvəlin məlumatlarından görünür ki, 2000-ci ildə Aİ-nin xarici ticarət balansının kəsiri təqribən 143 milyard avro məbləğində olmuş, 2009-cu ildə isə 105 milyard avroyadək azalmışdır. Almaniyanın xarici ticarətdə müsbət saldosu dayanıqlıdır: 2000-ci ildə bu məbləğ 59 milyard avro olmuş və dunnadan artmış, 2008-ci ildə zirvə nöqtəsinə çatıb 171,5 milyard avro təşkil etmiş, 2009-cu ildə isə 135,8 milyard avroya enmişdir. Eyni zamanda Fransa üçün xarici ticarətdə mənfi saldo səciyyəvidir: 2008-ci ildə bu rəqəm 69,5 milyard avro, 2009-cu ildə isə bir qədər azalaraq, 54,5 milyard avro olmuşdur. Mənfi saldonun böyük məbləğləri Böyük Britaniya (92,6 milyard avro), İspaniyada (49,5 milyard avro), Yunanıstanda (28,5 milyard avro). Polşadadır (19 milyard avro). Belçikanın, Çexiyanın, İrlandiyanın saldoları müsbətdir.

Avropa İttifaqı ölkələri ABŞ ilə ticarətdə böyük müsbət saldoya malikdir; 2000-ci ildə bu göstərici 235 milyard avro, 2008-ci ildə zıı-və həddinə çataraq 588 milyard avro, sonra isə azalaraq, 2009-cu ildə 410 milyard avroya düşmüşdür. Bununla yanaşı, Aİ-nin mənfi saldosu Çinlə ticarətdə 32 milyard avro (2008-ci il), Yaponiya ilə - 12,8 milyard avro, Kanada ilə - 32 milyard avrodur.

*CədvəllO.5*

**Aİ-27 ölkələrinin və İsveçrənin xarici ticarətinin balansı *, milyon avro**

| Ölkə | 2000 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|---|---|---|
| Ai (27 ölkə) | -142 956 | -74 567 | -126 849 | -192 686 | -192 511 | -258 464 | -105 251 |
| Avro zonası (16 ölkə) | -29 491 | 65 092 | 7036 | -19 062 | 12 111 | -54 515 | -21 835 |
| Belçika | 11758 | 17 080 | 12 620 | 12 034 | 14 151 | 3762 | 12 833 |
| Bolqarıstan | -1832 | -3635 | -3274 | -3676 | -8349 | -9890 | -4939 |
| Çexiya | -3119 | -789 | 1285 | 1384 | 3159 | 3237 | 5946 |
| Danimarka | 6210 | 7173 | 7668 | 5616 | 3637 | 4478 | 7540 |
| Almaniya | 59 130 | 156078 | 155809 | 160 420 | 194 259 | 177525 | 135795 |
| Estoniya | -1168 | -1934 | -2028 | -2992 | -3406 | -2403 | -816 |
| İrlandiya | 28 553 | 34 548 | 33 030 | 28 359 | 27 524 | 28 389 | 37 448 |
| Yunanıstan | -23 527 | -30 108 | -29 867 | -34 143 | -38 429 | -43 535 | -28 504 |
| İspaniya | -44 274 | -60 863 | -77 278 | -91 573 | -99 237 | -94 717 | -49 526 |
| Fransa | -12 266 | -15 145 | -32 712 | -36 677 | -49 320 | -69 519 | -54 543 |
| İtaliya | 1907 | -1221 | -9369 | -20 452 | -8596 | -13 035 | -4100 |
| Kipr | -2955 | -3661 | -3899 | -4456 | -5269 | -6126 | -4682 |
| Latviya | -1443 | -2481 | -2842 | -4290 | -5117 | -4078 | -1432 |
| Litva | -1826 | -2480 | -3008 | -4167 | -5303 | -5067 | -1278 |
| Lüksemburq | -3140 | -3052 | -2488 | -2922 | -3776 | -4251 | -2567 |
| Macarıstan | -4308 | -3997 | -2906 | -2395 | -121 | -297 | 4002 |
| Malta | -1040 | -903 | -1060 | -1204 | -1228 | -1249 | -1082 |
| Niderland | 16 092 | 30 347 | 34 201 | 37 271 | 42 422 | 38 742 | 37 891 |
| Avstriya | -5071 | -1230 | -1724 | -367 | 425 | -2043 | -4146 |
| Polşa | -18 711 | -11777 | -9807 | -12 909 | -18 652 | -26 072 | -8727 |
| Portuqaliya | -16 878 | -15 404 | -18 514 | -18 589 | -19 467 | -23 225 | -18 989 |
| Rumıniya | -2962 | -7346 | -10 313 | -14 895 | -21 762 | -23 469 | -9775 |
| Sloveniya | -1491 | -1123 | -875 | -726 | -1063 | -1976 | -152 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Slovakiya | -1005 | -1702 | -2219 | -2488 | -1533 | -1883 | 546 |
| Finlandiya | 12 624 | 8101 | 5411 | 6237 | 6072 | 3178 | 1646 |
| İsveç | 15 432 | 18 357 | 15 485 | 16 124 | 11884 | 11014 | 8598 |
| Böyük Britaniya | -67 813 | -98 994 | -103 847 | 121 672 | -134 116 | -117 833 | -92 618 |
| İslandiya | -745 | -666 | -1537 | -2030 | -1403 | -517 | Məlumat yoxdur |
| Norveç | 26 392 | 27 153 | 38 864 | 46 202 | 40 787 | 53 124 | 37 238 |
| İsveçrə | -2162 | 5577 | 3523 | 4851 | 7935 | 11880 | 12 293 |

* Eurostat, last update, 01.17.2010.

*Cədvəl 10.6*

**Aİ-27 ölkələrinin daxili ticarətinin balansı *, milyon avro**

| **Ölkə** | **2000** | **2004** | **2005** | **2006** | **2007** | **2008** | **2009** |
|---|---|---|---|---|---|---|---|
| Ai (27 ölkə) | 79 831 | 78 404 | 74 328 | 79 539 | 71299 | 78 123 | 69 622 |
| Belçika | 20 395 | 22 838 | 21539 | 23 020 | 27 345 | 25 010 | 21915 |
| Bolqarıstan | -797 | -1654 | -2283 | -2302 | -4559 | -5110 | -2497 |
| Çexiya | 1040 | 3171 | 3636 | 5051 | 7164 | 10 508 | 10 092 |
| Danimarka | 3580 | 4935 | 5227 | 3205 | 561 | 1563 | 3713 |
| Almaniya | 46 481 | 94 524 | 98 946 | 101 218 | 126 577 | 109 896 | 71558 |
| Estoniya | -222 | -1111 | -1432 | -2911 | -3352 | -2735 | -1313 |
| İrlandiya | 19 270 | 20 255 | 19 479 | 14 943 | 13 479 | 13 793 | 21335 |
| Yunanıstan | -15 640 | -17 615 | -16 898 | -18 456 | -20 996 | -22 427 | -18 566 |
| İspaniya | -23 420 | -31947 | -36 898 | -40 588 | -48 212 | -36 441 | -18 992 |
| Fransa | -16 998 | -23 803 | -37 210 | -39 956 | -50 095 | -63 577 | -61173 |
| İtaliya | 2510 | -1629 | -186 | 210 | 6721 | 8427 | -1782 |
| Kipr | -1724 | -2553 | -2649 | -3042 | -3600 | -4145 | -3420 |
| Latviya | -943 | -1823 | -2087 | -3481 | -4263 | -3554 | -1489 |
| Litva | -231 | -1300 | -1202 | -2517 | -4072 | -2474 | -104 |
| Lüksemburq | -2374 | -450 | 749 | 1410 | -335 | -725 | 489 |
| Macarıstan | 2501 | 3768 | 3537 | 3707 | 6518 | 7151 | 8783 |
| Malta | -1339 | -1143 | -1261 | -1270 | -1454 | -1480 | -1142 |
| Niderland | 79 306 | 92 909 | 116 108 | 127 038 | 133 624 | 152 316 | 118 359 |
| Avstriya | -8040 | -9767 | -10 092 | -8632 | -7709 | -8738 | -9338 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Polşa | -8688 | -5854 | -5019 | -4158 | -7953 | -11 828 | 696 |
| Portuqaliya | -11 543 | -11027 | -13 130 | -13 433 | -14 196 | -16 981 | -15 801 |
| Rumıniya | -1157 | -3187 | -4915 | -7647 | -15 314 | -16 069 | -6880 |
| Sloveniya | -1601 | -2837 | -2435 | -2295 | -1756 | -2143 | -395 |
| Slovakiya | 1798 | 409 | 678 | 2022 | 4056 | 4561 | 4884 |
| Finlandiya | 6523 | 859 | -1600 | -117 | -855 | -2043 | -3109 |
| İsveç | 2931 | 216 | -1063 | 35 | -3565 | -3418 | -3220 |
| Böyük Britaniya | -11 787 | -47 781 | -55 212 | -51 516 | -62 459 | -51 213 | -42 981 |

* Eurostat, last update, 01.17.2010.

***Aİ-nin daxili ticarətində ölkələrin ticarət balansı.*** 10.6-cı cədvəldə verilən rəqəmlər 2000-2009-cu illərdə daxili ticarətdəki dinamikanı əks etdirir.

Cədvəlin məlumatlarından görünür ki, dayanıqlı müsbət ticarət balansı Almaniyada (2000-ci ildə 40 milyard avro, 2008-ci ildə 109,8 milyard avro, 2009-cu ildə 71 milyard avro), Niderlandda (2000-ci ildə 79 milyard avro, 2008-ci ildə 152 milyard avro, 2009-cu ildə 119 milyard avro), olmuşdur. Müsbət saldo, həmçinin, Belçika, Çexiya, İrlandiya, Finlandiya və Slovakiya üçün səciyyəvidir. 2009-cu ildə böyük mənfi ticarət balansı Fransada - 61 milyard avro (2008-ci ildə 63 milyard). Böyük Britaniyada - 43 milyard avro (2008-ci ildə 51 milyard avro), Yunanıstanda - 18,5 milyard avro (2008-ci ildə 22,4 milyard avro), Avstriyada - 9,3 milyard avro (2008-ci ildə 8,7 milyard avro), Portuqaliyada - 15,8 milyard avro (2008-ci ildə 17 milyard avro), Sloveniyada - 395 milyon avro (2008-ci ildə 2,1 milyard avro) olmuşdur.

## 10.6. Aİ-nin beynəlxalq və daxili ticarətinin əmtəə strukturu

***ixracın strukturu.*** Aİ-nin ixracı qlobal xarakterdədir və dünyanın ən ucqar ölkələrinədək gedib çatır. Bunun səbəbi isə Aİ-nin əsas iqtisadi fövqəldövlətlərinin keçmiş müstəmləkə metropoliyaları olması və inkişaf etməkdə olan ölkələrlə sıx ticari-iqtisadi əlaqələrini saxlamasıdır.

Aİ-nin ixracının strukturunda sənaye malları 85%, kimya məhsulları 16%, ərzaq 5% təşkil edir. Aİ ölkələri, xüsusilə də Almaniya, Fransa, Böyük Britaniya, İtaliya, Niderland, Belçika və İsveç dünya bazarlarına avtomobilləri.

mürəkkəb sənaye avadanlığını və bütöv zavod komplekslərini, təyyarələri və mühərrikləri, dəniz, çay və xüsusi təyinatlı gəmiləri, inşaat texnikasını, kimya məhsullarını, kənd təsərrüfatı texnikasını, elektronikanı, enerji avadanlığını və s. böjdik həcmdə göndərir; onlar, həmçinin taxıl, başqa aqrar və heyvandarlıq məhsullarını ixrac edirlər. Aİ-nin ticarət ekspansiyasının əsas yönümü Amerika, Uzaq Şərq-Asiyadır; Afrika və Latın Amerikası istiqamətlərinin də əhəmiyyəti getdikcə artır. Amma Avropanın ixracının 30-35%-i Amerikanın, Aİ ixracının 15%-i Yaponiyanın və Çinin, 6-8%-i başqa Asiya ölkələrinin, 7%- i Afrika, Yaxın Şərq və Orta Şərq ölkələrinin, 5%-i Latın Amerikası ölkələrinin, 3-4%-i Şərqi Avropanın payına düşür; idxalda da təqribən bu cür mənzərə yaranmışdır.

***İdxalın strukturu.*** Avropa İttifaqının ölkələri əsasən xammal, duru yanacaq, enerji, sənaye məhsulları (YSÖ-dən) və başqa malları idxal edir. Sonuncu onillikdə idxalın strukturu sürətlə dəyişirdi. Məsələn, 2000-ci və 2009-cu illərdə ilkin məhsulların xüsusi çəkisi 27%-dən 35%-ə çatmışdır; eyni vaxtda idxalda sənaye məhsullarının payı azalmışdır. Bunun əsas səbəbi üçüncü ölkələrdən (Afrika və Rusiyadan) enerji xammalının idxalının sürətli artımı olmuşdur. Bununla bərabər, yuxarıda qeyd olunduğu kimi, Aİ onun bazarlarına müasir maşın-texnika məhsulları, sənaye avadanlığı, elektronika, və başqa hazır məmulatları böyük həcmdə göndərən ABŞ, Kanada, Yaponiya, Çin şirkətləri üçün cəlbedici regiondur. Nəticədə Avropa bazarı dünya bazarları arasında rəqabət mübarizəsinin ən kəskin formalar aldığı çox geniş meydana çevrilmişdir.

Aİ-nin beynəlxalq ticarətini nəzərdən keçirərkən qeyd etməliyik ki, Avropa İttifaqı üçüncü dövlətlərə münasibətdə proteksionist siyasət yeridən, onların mallarının Avropa bazarlarına daxil olması qarşısında maneələr yaradan qapalı ticarət təşkilatı deyil. Başqa regional bazarlarla müqayisədə Avropa bazarları daha açıq və liberaldır, Aİ bazarlarında mal axınlarını tənzimləyən çoxsaylı qaydalar nəinki YTT-nin qaydalarına zidd deyil, hətta çox zaman müxtəlif ölkələrin, o cümlədən inkişaf etməkdə olan ölkələrin malları və xidmətləri üçün yol açılması məsələlərində onlan qabaqlayır.

Aİ-nin- ticarətində 5 əsas istiqaməti fərqləndirmək olar:

1) Avropadaxili ticarət, yəni İttifaq ölkələrinin özləri arasında, habelə A ATA üzvləri (4 dövlət) ilə ticarət;

2) ABŞ, Yaponiya, başqa inkişaf etmiş ölkələrlə (Kanada, Avstraliya, Yeni Zelandiya) ticarət;

3) Aİ-nin inkişaf etməkdə olan ölkələr qrupu ilə bağladığı xüsusi sazişlər əsasında preferensial ticarət və Aralıq dənizi ölkələri ilə ticarət;

4) inkişaf etməkdə olan ölkələrlə ticarət;

5) keçid iqtisadiyyatlı ölkələr ilə ticarət.

Avropa bazarlarına təkcə Amerikanın və Yaponiyanın deyil, həmçinin, Çinin, Honkonqun, Ta5rvanın və çox zaman işçilərə (malları və xidmətləri istehsal edən və bazarda səmərəli satan) ödənilən maaşın aşağı olması sayəsində rəqabət üstünlüklərindən yararlanan müxtəlif ölkələrin fınnalan da hücuma keçmişlər. Onlar Avropa İttifaqı ilə ticarətdə böyük müsbət saldoya malikdirlər; ancaq qlobal böhranın Avropa bazarlarının vəziyyətinə təsir etməsi nəticəsində onların Aİ-ya ixracı ixtisar olunmuşdur.

## 10.7. Qərbi Avropa, Yaponiya və Çinin əmtəə münasibətləri

Yaponiya-Avropa iqtisadi münasibətləri 1970-ci illərdən başlayaraq sürətlə artmağa başlamışdır. Doğrudur, həmin dövrdə onlar birtərəfli xarakter daşıyırdı: Yaponiya dinamik surətdə AİB-ə daxil olurdu, amma Qərbi Avropanın şirkətləri bir sıra səbəblər, o cümlədən təcrübənin və biliklərin olmaması, habelə Yaponiyada möhkəm qoruyucu sədlərin mövcudluğu üzündən oraya «getməyə» hazır deyildi.

Yaponiya həmişə Aİ-də gedən inteqrasiya proseslərini diqqətlə müşahidə etmiş və Qərbi Avropanın birləşmiş bazarına nüfuz edilməsi ilə bağlı şərtlərə uyğunlaşmağa hazırlaşmışdı. Bu zaman Yaponiya Avropa inteqrasiyasının dərinləşməsinin yapon şirkətlərinin maraqları üçün maneələr yaratmayacağma, əksinə, bütün Qərbi Avropanın irimiqyaslı, birləşmiş bazarında müvəffəqiyyətlə fəaliyyət göstərməsi üçün əlavə imkanlar yaradacağına əmin idi. Həmin vaxt bu cür optimizm üçün Yaponiyanın tutarlı əsasları var idi: onun uğur qazanmış sahibkarları və mühəndisləri ən müasir texnologiyalara istinad edən güclü super-sənaye bazası yaratmış, yüksək səviyyəli menecerləri isə Avropanın bazarlarına bacarıqla daxil olmaqla, Brüsselin üçüncü dövlətlərə qarşı hazırladığı ticarət maneələrindən yan keçməklə. Qərbi Avropa dövlətləri sənayesinin müxtəlif sahələrində birbaşa investisiyalar fonnasmda klasterlər yarada bilmişdilər. Bu məsələ Qərbi Avropada (həmçinin ABŞ-da) daim ciddi narahatlıq doğururdu, amma 1990-cı illərin ortasında Yaponiya ilə Aİ

arasındakı gərginlik xeyli azaldı (10 illik depressiya səbəbindən Yaponiyanın ticarət ekspansiyası zəifləmişdi).

Qeyd olunmalıdır ki, 1990-cı illərin ikinci yarısından Yaponiya ilə Aİ arasında ticari-iqtisadi ziddiyyətlərin nisbətən yumşaldılmasma bir sıra, ilk növbədə, Yaponiyanın həyata keçirdiyi tədbirlər: Amerika və Qərbi Avropa kapitalının yapon daxili bazarına girişinin müəyyən dərəcədə liberallaşdırılması, habelə daxili tələbatın stimullaşdırılması siyasəti nəticəsində Qərbi Avropanın Yaponiyaya ixracının nəzərəçarpan dərəcədə artması öz təsirini göstəraıişdir. Müqayisə üçün: Aİ-nin Yaponiyaya ixracının həcmi 1990-cı ildə 12 milyard dollar, 2000-ci ildə 60 milyard dollar, 2008-ci ildə isə 95 milyard dollar olmuşdur. Qərbi Avropadan Yaponiyaya avtomobillər (əsasən alman, fransız, italyan və İsveç), kimya-əczaçılıq məhsulları və ərzaq ixrac edilir. İyenanın Qərbi avropalıların rəqabət qabiliyyəti mövqelərinin yaxşılaşdırılmasına yönəlmiş revalvasiyası da buna xidmət edir.

Yaponiyanın Qərbi Avropaya təzyiqini zəiflədən digər amil regionda Çin iqtisadi nəhənginin gücünün və nüfuzunun sürətlə artdığı şəraitdə onun daxili vəziyyətinin pisləşməsi, artım templərinin aşağı düşməsi və staqnasiyanm baş venTiəsidir.

Bununla bərabər, Yaponiyanın Aİ ilə münasibətlərində ticarət siyasətinin bir çox məsələləri üzrə kifayət dərəcədə əhəmiyyət kəsb edən ziddi}^ətlər hələ də qalmaqdadır. Yaponiya tərəfi Aİ-də mövcud olan proteksionizm nəticəsində Avropa bazarlarına yapon mallarının və xidmətlərinin daxil olmasını çətinləşdirməklə, onlardan daha çox, ilk növbədə. Birliyin və onun əhalisinin maraqlarına ziyan dəydiyini iddia edir. Burada Yaponiya ayrı-ayrı ölkələrin bazarlarına seçimlə yanaşaraq. Birlik daxilindəki ziddiyyətlərdən məharətlə yararlanmışdı. Lakin Aİ-də yapon şirkətlərinə Avropa firmalarının rəqabət mövqelərini ciddi surətdə sarsıda bilən qüvvə kimi yanaşırlar.

Yapon tərəfinin fikrincə, bazar münasibətlərini tənzimləyən əsas qayda Qərbi Avropanın formalaşmaqda olan vahid bazarına istənilən ölkədə, bütün formalarda sərbəst və qeyd-şərtsiz daxilolma imkanlarının təmin edilməsidir və yalnız belə halda həmin bazarın üstünlüklərindən ticari cəmiyyətin hər bir üzvü bəhrələnəcək. Buna cavab olaraq avropalılar (həmçinin amerikalılar) yapon standartlarının (xüsusilə də adətlərinin) Avropada istehsal olunan malların yapon bazarına daxil olmasını çətinləşdirdiyini, şirkətlərinin fəaliyyət sərbəstliyini məhdudlaşdırdığını sübuta yetinnəyə çalışırlar.

Bunu da qeyd etməliyik ki, neft alınması ilə əlaqədar olaraq Yaxın Şərq ölkələri ilə ticarətdə daimi kəsir istisna edilməklə, 1990-cı illərdən başlayaraq, Yaponiyanın başqa iri ticarət tərəfdaşları, xüsusilə də Aİ və Asiya ilə münasibətlərində ticarət balansının aktiv saldosu əhəmiyyətli məbləğdə artırdı. Vəziyyət 1990-cı illərin ikinci yarısı - XXI əsrin əvvəllərində yapon ixracı azalmağa başladıqda dəyişdi. Bunun əsas səbəbi iqtisadi artım templərinin zəifləməsinə görə Yaponiyada xarici mallara tələbatın azalması idi. Yarımfabrikatlarm idxalı xüsusilə azalmışdı: məsələn, Aİ-dən və ABŞ-dan idxal 41%, Yaxın Şərq zonasından neft məhsullarının idxalı isə təqribən 20% ixtisar edilmişdi. 1997-1998-ci illərdə ASEAN ölkələrində baş verən böhranla əlaqədar olaraq, Yaponiyanın bu ölkələrdən idxalının azalması yapon ticarətinin ümumi dinamikasında əks olunmuşdu. Doğrudur, 2000-2007-ci illərdə Yaponiya ilə Al arasında ticarətin həcmi, cüzi də olsa, yenidən artmışdı. Buna, bir tərəfdən, Yaponiyada başlayan iqtisadi artımın nəticəsində ABŞ və Aİ-dən idxalın çoxalması şərait yaratmışdı. Digər tərəfdən isə Yaponiya- Avropa ticarətinin artımı yapon mallarının və xidmətlərinin iri istehlakçısı olan Almaniyadan, Fransadan və Böyük Britaniyadan idxalın ixtisarı nəticəsində məhdudlaşdırılmışdı.

Bütün bunlar Yaponiyanın Avropa İttifaqındakı mövqelərini zəiflədir və onun işgüzar dairələrinin diqqətini Uzaq Şərq və Asiya regionlarına, xüsusilə də Çin və ASEAN ölkələri ilə daha sıx ticari-iqtisadi əlaqələrin qurulmasına yönəldir. Çox güman ki, bəzi ərazi iddiaları (Çin, Yaponiya və Vyetnamın tələb etdiyi bəzi adalar), habelə Yaponiyanın Çin və Cənubi Koreya ilə qarşılıqlı münasibətlərində əzəli etibarsızlıq və dərin psixoloji problemlər olmasaydı, Yaponiya Asiya regionunda daha inamla, dinamik hərəkət edə bilərdi. Amma bu amillərin mövcudluğuna baxmayaraq, Yaponiyanın gələcəkdə qlobal ticarət-investisiya oyunçusu rolunu oynaya bilməyəcəyini başa düşən yapon şirkətləri Asiya regionunda kifayət qədər fəal hərəkət edir. Bu ölkə açıq-aşkar regional iqtisadi fövqəldövlətə transformasiya edir, burada birinci dominant iqtisadi oyunçu rolu isə özünün bütün göstəricilərinə görə qlobal iqtisadi fövqəldövlətə çevrilmək imkanlarına malik olan Çinə keçir.

## 10.8. Aİ - Çin münasibətləri: yeni təzahürlər

Çinin Aİ ilə ticari-iqtisadi və maliyyə əməkdaşlığı sürətlə inkişaf edir. 2011- ci ilin yanvarında Pekin kreditə ehtiyacı olan Aİ ölkələrinə maliyyə

yardımı göstənnəyə hazır olduğunu rəsmi bəyan etdi. İlin əvvəlində İspaniya və Portuqaliyanın mali}/yə mövqelərinin qismən möhkəmlənməsi də, çox güman ki, Çinin bu ölkələrin dövlət borc öhdəliklərinin (yəni dövlət istiqrazlarını) böyük hissəsini elan edilmiş hərraclarda almaqla, satışının təmin etməsi ilə əlaqədardır. Ancaq Çinin Avropada işgüzar fəallığının əsas istiqaməti Almaniyadır. Çin rekord səviyyəli iqtisadi artım və böyük məbləğdə valyuta potensialı (2011-ci ilin əvvəlində 2,85 trilyon dollar yaxud ÜDM-in artımının 10%-i) topladığını nümayiş etdirir. 2010-cu ilin yekunlarına görə, Aİ üzvü olan dövlətlər arasında ən münasib göstəricilər Almaniyada olmuşdur. Hər iki ölkə 2010-cu ildə ixrac üzrə rekord göstəricilərə nail olmuşdur: Çin - 1,58 trilyon dollar, Almaniya - 959 milyard dollar. Çinin Aİ-yə ixracının 30%-i Almaniyanın payına düşür. Bəzi göstəricilər miqyasına görə heyrətlən- diricidir: məsələn, 2010-cu ildə «Volksvagen» öz məhsullarının Çində satışını 37% artırmışdır (1,92 milyon avtomobil satılmışdır). Ötən il iki ölkə arasında ticarətin ümumi dövriyyəsi 140 milyard dollar olmuşdur (həmin ildə Rusiya- Çin mübadiləsi 55,4 milyard dollar idi). 2011-ci ilin yanvarında Çinin baş nazir müavini Li Kiçiyan Kansler Angela Merkel və federal nazirlərlə görüşmüş, iki ölkənin sənaye-iqtisadi əməkdaşlığı sahəsində 9 milyard avro məbləğində yeni müqavilələr bağlanmışdır. Çindən Almaniyaya nadir metalların göndərilməsi barədə danışıqlar aparılmışdır. Nadir metalların dünya üzrə hasilatının 97%-i Çinin payına düşür, onların 17 növü isə kompüterlərin, hibrid avtomobillərin, mobil telefonların və başqa yüksək texnologiya məhsullarının istehsalı üçün zəruridir. Öz növbəsində, Çin tərəfi Aİ-nin hərbi texnikanın satılması üzərində qoyduğu qadağanın götürülməsini, habelə Qərbin onu dempinqdə günahlandırmasmdan qurtulmaq üçün ölkənin bazar statusunun tanınmasını Berlindən xahiş etmişdi. Hazırda Rusiyada 6,1 min alman firması təmsil olunduğu halda Çində onların sayı 4,5 mindir.

İkitərəfli əlaqələrin inkişaf templəri o qədər yüksəkdir ki, Çin Almaniya üçün Aİ xaricində olan istənilən ölkə, o cümlədən təkcə Rusiya deyil, həmçinin, ABŞ ilə müqayisədə daha prioritet tərəfə çevrilir.

## Xülasə

• Avropa müasir kapitalizmin vətənidir və buradan bütün dünyaya yayılıb, ilkin «artım nöqtələri» yaratmaqla, ölkələri və qitələri vahid ticari- iqtisadi məkan halında birləşdirmişdir. Ticarətin və iqtisadi inkişafın bütün əsas

nəzəriyyələri Avropada meydana çıxmışdır; 30-a yaxın ölkənin ticarətə və insanların hərəkətinə mane olan gömrük və başqa maneələri aradan qaldıraraq unikal Birlik yaratması burada baş vennişdir.

• İndi Avropa İttifaqı böyük ticarət gücünə, imkanlarına və potensialına malikdir. Təbii ki, bu, İttifaqa daxil olan ölkələrin iqtisadiyyatının dünyanın başqa dövlətləri ilə münasibətlərdə qapalılığını ifadə etmir. Bundan əlavə, rəqabət mübarizəsinin güclənməsi İttifaqın hər bir üzvünün yeni satış bazarları, xammal mənbələri, kooperasiya üzrə tərəfdaşlar axtarmasını labüdləşdirir. Onların üçüncü ölkələrlə ticarətində aşağıdakı 5 istiqaməti fərqləndinuək olar: Avropadaxili, o cümlədən AATA ilə ticarət, ABŞ, Yaponiya və sənayeləşmiş başqa ölkələrlə (Kanada, Avstraliya, Yeni Zelandiya və s.) ticarət, keçid iqtisadiyyatlı ölkələrlə ticarət və inkişaf etməkdə olan ölkələrlə ticarət. Son illərdə mallara və xidmətlərə tələbatın artmasının müşahidə olunması, jdiksək ixrac göstəricilərinin qorunub saxlanması Aİ-nin ixrac fəaliyyətinin nəticələrinə müsbət təsir etmiş, həmin dövrdə Birliyə daxil olan ölkələrin beynəlxalq səviyyədə yüksək rəqabət qabiliyyətinə nail olduğunu göstərmişdir.

• Aİ-nin ekspansiyasının əsas istiqamətləri Amerika və Uzaq Şərq - Asiyadır; Afrika və Latın Amerikası istiqamətlərinin də əhəmiyyəti getdikcə artır. Amma Avropa ixracının 30-35%-i Amerikanın, 15%-i Yaponiya və Çinin, 6-8%-i başqa Asiya ölkələrinin payına düşürsə, burada Afrikanın, Yaxın və Orta Şərqin payı 7%, Latın Amerikasının payı 5%, Şərqi Avropanın payı 3- 4% təşkil edir. İdxalın vəziyyəti də təxminən bu cürdür.

• XXI əsrin birinci onilliyində Aİ-nin əsas ölkələri və onların beynəlxalq ticarəti tənəzzül keçirmiş, mənfi saldoların həcmləri artmışdır. Avronun bahalaşması nəticəsində Avropa mallarının və xidmətlərinin cəlbediciliyi bir qədər azalmış, Amerika və Yaponiyanın Avropa bazarlarında fəaliyyət göstərən ticarət-sənaye korporasiyaları isə qısa müddət ərzində də olsa, rəqabətdə müəyyən üstünlüklər qazanmışdır.

• Avropa bazarlarına təkcə Amerika və Yaponiyanın deyil, həmçinin Çin, Honkonq, Tayvan və müxtəlif ölkələrin malları və xidmətləri istehsal edib, bazarlarda səmərə ilə satan işçilərinin aşağı maaşı hesabına rəqabət üstünlükləri qazanan firmaları hücuma keçmişdir. Həmin fimıalann yerləşdiyi ölkələr Avropa İttifaqı ilə ticarətdə böyük müsbət saldoya malikdir.

• Aİ üzvü olan dövlətlərin xarici ticarətinin əsas hissəsi Avropa İttifaqının daxilində qarşılıqlı ticarətin payına düşür. Ticari-iqtisadi təşkilatın mövcud olduğu onilliklər ərzində istehsal-texnoloji və iqtisadi əlaqələr, işçi

qüvvəsinin, kapitalın və xidmətlərin hərəkəti bu ölkələri iqtisadi tellərlə vahid təsərrüfat mexanizmi halında o qədər güclü birləşdirmişdir ki, onların arasındakı ticarət artıq beynəlxalq deyil, daxili ticarət ***(intratrade)*** kimi nəzərdən keçirilir.

## Yoxlama sualları

1. Aİ ölkələrinin beynəlxalq və qarşılıqlı ticarətinin hansı əsas xüsusiyyətləri var?
2. Aİ ixracının xüsusiyyətləri nədir?
3. Aİ idxalının xüsusiyyətləri nədir?
4. Avropanın daxili və beynəlxalq ticarətində Aİ ölkələrinin xüsusi çəkisi nə qədərdir?
5. Aİ-nin beynəlxalq ticarətinin coğrafiyası necədir?
6. Aİ-nin əsas tərəfdaşlarla beynəlxalq ticarətinin təhlilini verin.
7. Aİ-nin əsas ölkələrinin ABŞ, Çin və Yaponiya ilə beynəlxalq ticarətinin təhlilini verin.
8. Avropa İttifaqının ticarət siyasətinin əsas istiqamətləri hansılardır?
9. Avropa İttifaqının Asiya, Afrika və Latın Amerikası ölkələri ilə ticarət əlaqələrini təhlil edin.

## Referatların mövzuları

1. Aİ-nin Asiya ölkələri ilə ticari-iqtisadi əlaqələri
2. Aİ-nin Latın Amerikası ölkələri ilə ticari-iqtisadi əlaqələri
3. Aİ-nin ABŞ ilə ticari-iqtisadi əlaqələri
4. Aİ-nin Rusiya ilə ticari-iqtisadi əlaqələri: mövcud vəziyyət və perspektivlər

# Fəsil 11
# BEYNƏLXALQ TİCARƏTDƏ BİZNES VƏ TURİZM SEKTORLARI

## 11.1. Biznes xidmətləri. Mahiyyəti və məzmunu

***Anlayış.*** Beynəlxalq ticarət sahəsində biznes xidmətləri (xarici turizm daxil olmaqla) mənşə etibarilə mallarla ticarət ilə birbaşa bağlı deyil. Bu xidmətlərin inkişafı beynəlxalq mübadilə mexanizmlərinin mürəkkəbləşməsi, bu sahəyə elm və texnikanın son nailij^ətlərinin, ilk növbədə, təminat strukturlarına həm müxtəlif biliklərin, həm də müvafiq mütəxəssislərin cəlb olunmasını tələb edən müasir informasiya texnologiyalarının tətbiqi ilə əlaqədardır. Digər amil getdikcə çox sayda adamın istirahət və ola bilsin ki, eyni vaxtda tərəfdaşlarla işgüzar danışıqlar aparmaq məqsədi ilə öz ölkəsindən kənara çıxmağa səy göstərməsidir.

Burada müxtəsər nəzəri izahat verilməlidir. Makroiqtisadiyyatda müxtəlif problemlər üzrə alimlərin və mütəxəssislərin qarşısına qoyulan əsas məsələlərdən biri ölkənin məcmu xarici ticarət dövriyyəsini, yəni müəyyən ölkənin dünyanın başqa ölkələri ilə mübadilə edəcəyi malların və xidmətlərin ümumi həcmini proqnozlaşdırmaqdır. Bu zaman yerli istehsal mallarının əcnəbi rezidentlər, xaricdə buraxılan malların isə yerli rezidentlər tərəfindən satınalmalarının ümumi həcmi mühüm əhəmiyyət daşıyır. Bu, həmin ticarət əməliyyatları məcmusunun iqtisadi)^at daxilində xərclərin ümumi məbləğinə və bununla da, istehsalın həcminə və məşğulluq səviyyəsinə təsir göstərməsi ilə əlaqədardır. Beynəlxalq yük daşımaları, beynəlxalq turizm, xaricdə inşaat sahəsində həyata keçirilən müxtəlif layihələr istisna olunmaqla, xidmətlərin əksər qismi əvvəllər «beynəlxalq ticarətin predmeti» sayılmırdı, milli gəlir və tədiyyə balansı təhlil edildikdə isə ticarətə yalnız fiziki malların alqı-satqısı aid edilirdi. Ancaq son illər, beynəlxalq ticarət dövriyyəsində həcmi sürətlə artan beynəlxalq xidmətlərin müxtəlif növləri «ticarəti predmeti» hesab edilməyə başlamışdır.

***Beynəlxalq biznes xidmətləri.*** Beynəlxalq biznes xidmətləri kateqoriyasına aşağıdakılar daxil edilir;

1) rabitə sahəsində xidmətlərin də daxil edildiyi beynəlxalq fəaliyyətin müxtəlif növləri;

2) xarici ticarətin proqram təminatının işlənib hazırlanması, məlumatlar bazasının idarə olunması;

3) xarici kompüter xidmətləri;

4) əcnəbi tərəf-müqabillərinə patentləşdirilmiş informasiyanın yaxud təkmilləşdirilmə işlərinin müqavilə əsasında verilməsi;

5) mühasibat uçotunun aparılması üzrə beynəlxalq xidmətlər;

6) mühəndis-inşaat xidmətləri;

7) xarici bazarlarda beynəlxalq hüquq xidmətləri;

8) idarəçilik və texniki məsələlər üzrə məsləhətvermə, beynəlxalq işgüzar konsaltinq.

Rabitə texnikasının sürətli inkişafı və beynəlxalq ticarət siyasətində fəal iştirak edən ölkələr dairəsinin genişlənməsi nəticəsində müxtəlif növ xidmətlərin bazarları əslində milli sərhədlərin hüdudlarından çıxmış, bəzi hallarda isə qloballaşmışdır. Belə ki, informasiya əsrinin nisbətən yeni fəaliyyət növləri biznes xidmətləri ilə beynəlxalq ticarətin artmasına, demək olar ki, sənaye malları ilə ticarətin çoxalması qədər nəzərəçarpan təsir göstərir.

***Biznes xidmətlərinə tələbatın artması.*** Malların inkişaf etmiş dünya bazarının təşəkkül tapması və onun zənginləşməsi xidmətlərə olan tələbatı artırmış, bu isə, öz növbəsində, beynəlxalq xidmətlər bazarının intensiv inkişafına təkan vennişdir. *Xidmət* - müəyyən istehlak dəyərinə malik fəaliyyət (hərəkət) olub, onun həyata keçirildiyi an insan ehtiyaclarının ödənilməsində ifadə olunan faydadır. Xidmət maddi (mal) yaxud qeyri-maddi formada göstərilir. Xidmətlərin istehsalının bu iki üsuluna müvafiq olaraq, onların özünün iki növü vardır:

1) istehlak malları vasitəsilə ifadə edilən və onlarla bağlı olan xidmətlər. Məzmun baxımından bu cür xidmətlərin göstərilməsi əmək prosesindən, demək olar ki, fərqlənmir; belə ki, burada əməyin bütün beş elementi: əmək vasitələri, əmək predmeti, texnologiya, əməyin təşkili və insanın məqsədyönlü fəaliyyəti kimi əməyin özü iştirak edir. Nəticədə bu növ xidmətləri *maddi* kimi ifadə etmək olar;

2) təsiri insana yaxud onun olduğu şəraitə birbaşa yönəlmiş xidmətlər; bu xidmətlərin maddi məhsullarla *əlaqəsi yoxdur,* onların istehsalı isə istehlakı ilə üzvi surətdə bağlıdır, ondan ayrılmazdır. Bura insanın şəxsi müşahidəsi, onun mədəni ehtiyaclarının ödənilməsi məqsədilə beynəlxalq səyahətləri aid olunur.

## 11.2. Beynəlxalq biznes xidmətləri ilə ticarətin artması

***Biznes xidmətlərinin artması səbəbi.*** Xidmətlərin xaricdə satılması bir ölkənin rezidentləri tərəfindən başqa ölkənin rezidentlərinə xidmət göstərilməsinin yeganə üsulu deyil və çox vaxt o qədər də geniş yayılmış. Bir sıra sektorlarda xidmətlərin başqa ölkələrdə şirkətlərin filiallarının yaradılması (məsələn, xariei bankın filialı tərəfindən pərakəndə bank xidmətləri) vasitəsilə göstərilməsi daha geniş yayılmışdır. Əslində, xariei bazarlarda vaxtilə «yerli» xarakter daşıyan biznes xidmətlərinin varlığının təmin edilməsinin əsas üsulu birbaşa investisiyalardır. Ancaq son zaman xidmötlərlə ticarətin rolu getdikcə artmaqdadır. Görünür ki, konkret ölkənin intensiv ticari-iqtisadi inkişafı, onun beynəlxalq iqtisadi münasibətlərdə rolunun güclənməsi, beynəlmiləlləşmə əmsalının artması ilə həmin ölkənin beynəlxalq xidmətlərinin həcminin çoxalması, bu ölkədən və bu ölkəyə beynəlxalq səyahətlərin sayının artması arasında əlaqə möveuddur.

Buna baxmayaraq, beynəlxalq ticarətin baza göstəriciləri xidmətlərlə ticarətin nəzərəçarpan dərəcədə artdığını göstərmir. 2002-2008-ci illərdə bütün növ xidmətlərlə ticarətin illik ümumi həcmi dəyər ifadəsində mallarla ticarətin həcminin 24%-i qədər olmuşdur. Bu nisbət 1970-ci ilin səviyyəsindən (21%) bir qədər çoxdur. Ayrı-ayrı dövrlərdə bu göstərici aşağı düşürdü: 1980-ci ildə xidmətlərlə beynəlxalq tiearətin həcmi mallarla ticarətin həcminin 19%-ni təşkil etsə də, həmin il neftin qiymətinin misli görünməmiş bahalaşması nəticəsində göstərilən nisbətin aşağı rəqəmlə ifadə olunması qeyd edilməlidir. Beynəlxalq ticarətdə xidmətlərin payının nisbətən sabitliyi son 25 il ərzində əsas xidmətlərlə ticarətin həcminin dəyər ifadəsində artım templəri izah olunur. Beynəlxalq tiearətdə nəqliyyat xidmətlərinin həcminin dəyər ifadəsi 1970- 1980-ci, 1980-1990-cı və 1991-2010-cu illəri əhatə edən dövrlərdə bütün mallarla və xidmətlərlə ticarətin orta həcmi ilə müqayisədə aşağı templərlə artmışdır. Nəqliyyat xidmətlərinin orta dəyərinin kəskin aşağı düşməsi 2008- 2009-cu illərə təsadüf etsə də, artıq 2009-eu ilin sonundan və 2010-cu ilin birinei yarısında bunun bərpası baş vermişdir.

Təxmini olsa da, göstərieilərdən biri xidmətlər və mallarla beynəlxalq ticarətin dəyər ifadəsində həcmləri arasındakı nisbətin bir qədər aşağı düşməsidir: 1970-ci ildə - 9%, 1980-ci ildə - 8%, 1990-cı ildə - 7%-ə yaxın və 2001-2010-cu illərdə 6,5%. Bu meyil ümumi texnoloji tərəqqini və yeni texniki vasitələrdən (məsələn, dənəvər yaxud maye mallar daşıyan yük

gəmiləri, supertankerlər, konteyner daşımaları) istifadə sayəsində *miqyas effektinin əldə olunmasını,* habelə sərnişin daşımalarının maya dəyərinin aşağı düşməsini əks etdirir. Amma son onillikdə neft, qaz, metallar və kömürün qiymətlərinin sürətlə bahalaşması ilə əlaqədar olaraq bu meyil dəyişməyə başlamışdır. Buna görə də sahibkarlığın bu sahələri və beynəlxalq ticarət ətrafında xidmətlərin göstərilməsi üzrə kommersiya fəaliyyəti ilə bağlı olan amilin dəyərinin fasiləsiz surətdə artacağı gözlənilməlidir. Beynəlxalq səyahətlərə gəldikdə isə iqtisadi münasibətlərin və işgüzar sahibkarlığın bu fonuasmm əhəmiyyətinin getdikcə güclənməsi qeyd olunmalıdır. Eyni zamanda bu sahəyə cəlb edilən maliyyə vəsaitlərinin məbləği də çoxalır. Güman ki, bu artım daha çox adamda səyahət etmək imkanının yaranması, habelə korporasiyaların transmilli fəaliyyətinin genişlənməsi ilə bağlı olaraq işgüzar səfərlərin sayının çoxalması ilə izah edilməlidir.

***Biznes xidmətlərinin formaları.*** Məlumdur ki, xidmətlər ən müxtəlif; malın satılması ilə əlaqədar yaxud bundan asılı olmayaraq, son istifadəçiyə birbaşa və ya vasitəçilərin köməyi ilə çatdırılması; ayrıca xidmət yaxud hər hansı layihəyə kompleks xidmət fonnalarmda göstərilir. Bundan başqa, informasiya xidmətləri sənayesinin qlobal strukturlarının daim əhəmiyyətli dəyişikliklərə məruz qalması, müxtəlif xidmətlərin göstərilməsi üçün istifadə edilən texnologiyaların yaxınlaşması (məsələn, rəqəmsal siqnallardan səsin, videotəsvirin və məlumatların ötürülməsi üçün istifadə olunur) çoxlu sayda yeni servis şirkətlərinin meydana çıxması ilə nəticələnir; mövcud şirkətlər arasında qovuşmalar, şaquli inteqrasiya və şaxələnmə baş verir. İnşaat və nəqliyyat xidmətləri, kommunikasiyalar, sığorta biznesi, royalti və maliyyə sahələrində xidmətlər sürətlə inkişaf edir.

Yuxarıda qeyd etdiyimiz kimi, biznes xidmətlərinin əsas hissəsi inkişaf etmiş ölkələrin payına düşsə də, inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrdə də onların həcminin sürətlə çoxalması dünyanın bu guşələrində TMK-nm fəaliyyətinin və regional inteqrasiyanın, be3məlxalq əməkdaşlığın genişlənməsi proseslərinin təsiri altında iqtisadi artımın dinamikliyini əks etdirir.

Biznes xidmətlərinin ən dinamik kateqoriyası *informasiya xidmətləri və rabitə, proqram təminatı vasitələrinin işlənib hazırlanması, kompüter xidmətləri və məlumatların işlənməsidir.* 2002-ci ildə dünyada informasiya xidmətlərinə çəkilən xərclərin həcmi 550 milyard dollar məbləğində qiymətləndirilirdisə, 2009-cu ildə bunun dəyəri 780 milyard dolları dək

artmışdır. Bu, infonuasiya texnologiyalarının inkişafında və onların işgüzar əməliyyatların geniş çərçivəsində tətbiqində böyük nailiyyətlərin əldə olunduğunu əks etdirir. Bundan başqa, həmin xidmətlərlə beynəlxalq ticarət, onların göstərilməsi üzrə funksiyaların əcnəbi podratçılara ötürülməsi (yəni onların müstəqil təchizatçılardan alınması), sənayenin yenidən təşkili və texniki yenidənsilahlandırılması ilə əlaqədar olaraq bu xidmətlərə tələbatın artması nəticəsində genişlənmişdir.

***Miqyas və struktur.*** Turizm və nəqlij^at daşımalarından fərqli olaraq, ***biznes xidmətləri*** həm 1970-ci illərdə, həm də sonrakı, xüsusilə də 1990-cı illərdə beynəlxalq satışların həcmi mallar və xidmətlərlə ticarətin məcmu məbləği ilə müqayisədə daha yüksək templərlə artan ***yeganə iri xidmətlər kateqoriyasıdır.*** XXI əsrin birinci onilliyinin sonunda xidmətlərin bu qrupu ən iriyə çevrilmişdir, ümumi satışların ümumi həcminin 40%-i onun payına düşmüş, ixracının ümumi dəyəri isə 780 milyard dollara çatmışdır (cədvəl 11.1).

***Cədvəl 11.1***

**Dünya üzrə xidmətlərin ixracının strukturu, xidmətlərlə ticarətin ümumi həcminə nisbətən %***

| Xidmətlərin növü (forması) | 1970-ci il | | | 2009-cu il | | |
|---|---|---|---|---|---|---|
| | bütün ölkələr | inkişaf etmiş ölkələr | inkişaf etməkdə olan ölkələr | bütün ölkələr | inkişaf etmiş ölkələr | inkişaf etməkdə olan ölkələr |
| Nəqliyyat daşımaları | 35,1 | 36,3 | 23,1 | 23,0 | 23,3 | 23,2 |
| Turizm (səyahətlər) | 27,0 | 25,8 | 37,1 | 32,8 | 38,5 | 37,3 |
| Biznes xidmətləri | 27,0 | 28,0 | 19,8 | 38,8 | 44,1 | 30,0 |
| Dövlət xidmətləri | 10,9 | 9,7 | 20,0 | 5,4 | 4,1 | 4,6 |
| Xidmətlər, cəmi | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 |

*World Tourists Organization, Geneva, 2010. P.19.

Biznes xidmətləri əsasən inkişaf etmiş ölkələr tərəfindən ixrac olunur və 2008-ci ildə bununla ticarətin həcminin 90%-i onların payına düşmüşdür. Dünya üzrə xidmətlər ixrac edən yeddi ən iri ölkə (azalma sırası ilə) ABŞ, Niderland, Fransa, Yaponiya, Böyük Britaniya, Almaniya və İtaliyadır. Biznes

xidmətlərinin dünya üzrə ixracının ya hissəsi onların payına düşür. Ən iri ixracatçı ABŞ-dır və onun xidmətlər ixracının həcmi 2008-ci ildə 500 milyard olmuşdur (2009-cu ildə 410 milyard dollaradək düşmüşdür). Qərbi Avropanın aparıcı ölkələrinin ixracı da böyük həcmdə olmuşdur.

***İnkişaf etmiş ölkahrdə beynəlxalq turizm və biznes xidmətləri.*** İnkişaf etmiş ölkələr, həmçinin, biznes xidmətlərinin dünyada ən iri alıcılarıdır. 7 ən iri ixracatçıdan ABŞ, Böyük Britaniya, Fransa və Niderland netto-ixracatçı, İspaniya, Almaniya, İtaliya və Yaponiya isə netto-idxalçıdır, biznes xidmətlərinin ümumi həcminin Ys hissəsi onların payına düşür. Əlbəttə, xidmətlər ixracının alternativi birbaşa investisiyalar olduğuna görə bu, birinci qrupa daxil olan ölkələrin həmin xidmətlərlə təchizatçılarının rəqabət qabiliyyətinin həmişə daha yüksək olmasını ifadə etmir. Ancaq vəzi}q/ət sürətlə dəyişir; beynəlxalq biznes xidmətlərinin ixracı sahəsində Çin, Hindistan, Braziliya və bir sıra başqa ölkələrin əhəmiyyəti yüksəlir. Bəzi inkişaf etməkdə olan ölkələrdə, məsələn, Malayziyada və Tailandda beynəlxalq turizmdən əldə olunan gəlirlər dayanıqlı surətdə ÜDM-in həcminin 6-7%-ni təşkil edir. Dünya Turizm Təşkilatı 2008-ci ildə 700 milyon, 2009-cu ildə isə 640 milyon turist (səyyah) qeydə almışdır. Ümumdünya böhranı beynəlxalq turist səyahətlərinin həcmini ciddi azaltmışdır, amma artıq 2010-cu ilin ikinci yarısından bu sahədə canlanma başlamışdır. Dünya Turizm Təşkilatı 2011-ci ildə turizmin 710 milyon nəfərədək artacağını proqnozlaşdırır. 2009-cu ildə turizm xidmətlərinin həcmi ümumilikdə 3% (sayının azalınası ilə yanaşı), Asiya-Sakit Okean regionunda 8%, Orta Şərqdə 11% artmışdır. Avropa və Böyük Səhranın cənubunda yerləşən ölkələrdə turizm sabit olaraq əvvəlki illər səviyyəsində qalmış, amma Yaxın Şərq, Şimali və Cənubi Amerikada bir qədər artmışdır. MDB ölkələri zonasında beynəlxalq turizm ixtisar olmuşdur (-2%).

## 11.3. inkişaf etməkdə olan ölkələrdə biznes xidmətləri

Bir məqamı qeyd etmək zəruridir: inkişaf etməkdə olan ölkələr tərəfindən göstərilən xidmətlərin həcminin dəyər ifadəsinin az olmasına baxmayaraq, bütövlükdə onların artım tempi inkişaf etmiş ölkələrin müvafiq göstəricisi ilə müqayisədə daha yüksək olmuşdur. İnkişaf etməkdə olan ölkələrin biznes xidmətlərinin ixracının genişlənməsində Şərqi və Cənubi Asiyanın sürətlə tərəqqi edən ölkələrinin rolu böyükdür: burada xidmətlərin ixracı dollar

ifadəsində 12%, Latın Amerikasının (4%) və Afrikanın (2%) həmin göstəricilərindən xeyli çox olmuşdur. 2001-2008-ci illəri əhatə edən dövrdə Latın Amerikası və Afrika daha yüksək templərlə (11%) inkişaf etmişdir. Biznes xidmətləri ilə ticarət edən 30 aparıcı ölkə sırasına 11 inkişaf etməkdə olan ölkə, 0 cümlədən Asiyanın 5 ölkəsi - Cənubi Koreya, Malayziya, Sinqapur, Tailand və Filippin daxildir. 2008-ci ildə inkişaf etməkdə olan ölkələrdən ixrac edilən biznes xidmətlərinin ümumi həcminin təqribən yarısı onların payına düşmüşdür. Biznes xidmətlərindəki payı sürətlə artan Çin və Hindistan da bu göstəriciyə yaxınlaşmağa başlamışdır. Ənənə üzrə həmin sahədə biznes xidmətlərinin ixracının ümumi həcmi 14 milyard dollar, bunlarla ticarətdə müsbət saldosu 5 milyarddan çox olan Sinqapur aparıcı yer tuturdu. Eyni zamanda Cənubi Koreya, Malayziya və Tailand ticarətdə daim kəsiri olmasına baxmayaraq, biznes xidmətlərinin böyük idxalçısıdır.

İnkişaf etməkdə olan ölkələrin bir çoxunda, xüsusilə Asiya ölkələri qrupunda, o cümlədən Çin və Hindistanda 2002-2008-ci illərdə biznes xidmətlərinin artımı 180 milyard dollar olsa da, təkeə ABŞ-m ixracından (570 milyard dollar) dəfələrlə azdır. İnkişaf etməkdə olan ölkələrin əksəriyyətində lazımi kadrlar, elmi-tədqiqat və təcrübə-konstruktor bazası, habelə bu cür xidmətlərin göstərilməsində rəqabətin təmin edilməsi üçün zəruri olan müasir infonnasiya infrastrukturu yoxdur. Biznes xidmətlərinin ixracından ən iri netto-daxilolmalarm sahibləri Sinqapur və Filippindir. 2008-ci ildə Braziliya, Tailand və neft ixrac edən bir sıra ölkələr nisbətən böyük netto-idxalçı olduğu halda (bu ölkələrin hər birində biznes xidmətləri ilə ticarətdə kəsir ən azı 1 milyard dollar idi) onların ixracı müvafiq olaraq 11,5 milyard və 20,7 milyard dollar idi. Özü də, sonuncu qrup ölkələrinin idxalında neftin hasilatı və emalı, inşaat sahəsi ilə bağlı olan xidmətlər üstünlük təşkil etmişdir.

Biznes xidməti sənayesi Qərbi Asiyada, ərəb ölkələri zonasında: Səudiyyə Ərəbistanı, BƏƏ, Liviya, Misir, Afrikanın cənubunda və ASEAN ölkələrində sürətlə inkişaf edir. Hindistan, Çin, Cənubi Koreya, Latın Amerikası ölkələri biznes xidmətləri göstərilməsinin güclü mərkəzlərinə çevrilmişdir.

## 11.4. Xidmətlərlə beynəlxalq ticarətin xüsusiyyətləri

Mallarla ticarətlə müqayisə olunduqda, xidmətlərlə beynəlxalq ticarətin aşağıdakı xüsusiyyətləri vardır:

• sərhəddə deyil, ölkə hüdudlarında, daxili qanunvericiliyin müddəaları əsasında tənzimlənir. Xidmətin sərhədi keçməsi faktının mövcudluğu yaxud yoxluğu onun ixracının meyarı kimi çıxış edə bilməz (həmçinin, bu xidmətin ödənildiyi valyuta);

• xidmətlər saxlanıla bilməz. Onlar istehsal edildiyi andaca istehlak edilir. Buna görə də xidmət növlərinin çoxu onların istehsalçısı və istehlakçısı arasında bağlanılan müqavilələrə əsaslanır;

• xidmətlərin istehsalı və satışı maddi istehsal və ticarətlə müqayisədə dövlət tərəfindən daha güclü mühafizə olunur. Bir çox ölkələrdə nəqliyyat, rabitə, maliyyə və sığorta xidmətləri, elm, təhsil, səhiyyə bütünlüklə yaxud qismən dövlətin mülkiyyətindədir və ya onun ciddi nəzarəti altındadır;

• xidmətlərlə beynəlxalq ticarət mallarla ticarət ilə sıx əlaqədədir və ona güclü təsir göstərir;

• mallardan fərqli olaraq, xidmətlərin heç də hamısı ticarət predmeti deyil. Əsasən şəxsi istehlaka yönələn xidmətlər beynəlxalq təsərrüfat dövriyyəsinə cəlb oluna bilməz.

***Beynəlxalq xidmətlərin növləri.*** Beynəlxalq bazarın əmtəə kütləsi ilə həddən artıq dolduğu və burada rəqabətin gücləndiyi şəraitdə sahibkarlara xidmətlər göstərilməsi, menecment, audit, injinirinq, lizinq, françayzinq və s. böyük əhəmiyyət kəsb etməyə başlamışdır. Müasir xidmətlər bazarı idarəçilik fəaliyyətində (menecmentdə) yardım göstərilməsi üzrə xidmətlərin geniş çeşidini təklif edir. Burada, həmçinin əqli fəali}^ətin nəticələrinin: lisenziyaların, nou-haunun, patentlərin, EHM üçün proqramların və s. alqı- satqısı ixrac-idxal əməliyyatlarının predmetidir. Mülkİ3ryət hüququ verilmədikdə isə podrat, yəni sifarişçinin tapşırığı ilə müə}^ən işlərin yerinə yetirilməsi barədə əqdlər həyata keçirilir. Podratın predmeti adətən geoloji- axtarış, layihə-tədqiqat, tikinti və montaj işləri, sənaye və başqa obyektlərin yenidən qurulması və modemləşdirilməsidir. Xidmətlərin göstərilməsi sahəsində xüsusilə iri layihələri yerinə yetinnək üçün firmalar konsorsiumlar şəklində birləşir.

## 11.5. Xarici ticarətlə bağlı nəqliyyat xidmətləri

***Anlayış.*** Biz xarici ticarət əlaqələrinin nəqliyyat, rabitə, infonnasiya mübadiləsi, reklam və s. xidmətlərin intensiv inkişafını labüdləşdirdiyini qeyd etmişdik.

Daşımalar üçün istifadə edilən növündən asılı olaraq, dəniz, çay, hava, dəmir yolu və avtomobil nəqlİ3^atı fərqləndirilir. Məlumdur ki, beynəlxalq daşımaların birbaşa və kombinə edilmiş növləri vardır. *Birbaşa beynəlxalq daşımalar* nəqliyyatın bir növü, *kombinə edilmiş* isə iki və daha çox növü ilə yerinə yetirilir. Yüklərin və sərnişinlərin kombinə edilmiş daşımaları orada iştirak edən bütün nəqliyyat növlərini əhatə edən bir nəqliyyat sənədi ilə rəsmiləşdirilə bilər. Bu cür daşımalar bəzən birbaşa qarışıq daşımalar adlandırılır. Belə halda mal daşıma vasitəsinin köməyi ilə istehsal olunduğu yerdən istehlak edildiyi məntəqəyədək yerini dəyişir. Burada malın yerdəyişməsi zamanı onun ilkin dəyərinə (qiymətinə) nəqliyyat xidmətinin dəyəri (qiyməti) əlavə olunaraq, istehsal prosesi tədavül sahəsində davam edir.

Böyük həcmli yüklərin uzaq məsafələrə daşınmasının ən universal və səmərəli vasitəsi *dəniz nəqliyyatıdır.* Beynəlxalq ticarətdə malların daşınmasının 80%-dən çoxu nəqliyyatın bu növünün payına düşür. Dəniz, habelə hava daşımaları üçün konosamentdən istifadə olunur.

*Konosament* (fransızca: connaissement, ingiliscə: bili of ladinq B/L) orada göstərilmiş konkret mal üzərində mülkiyyət hüququnu ifadə edən qiymətli kağızdır. Dəniz daşımalarında bu nəqliyyat sənədində bunun şərtləri göstərilir və onu saxlayan 3dik barəsində sərəncam vermək hüququ qazanır. Konosament anlayışı, onun zəruri rekvizitləri, tərtib olunma şərtləri Ticarət Gəmiçiliyi Məcəlləsində müəyyən edilmişdir. Konosament 3dikü qəbul etdikdən sonra daşıyıcı tərəfindən malgöndərənə verilir və bununla da müqavilənin bağlanılma faktı təsdiqlənir. Konosament daşıma tərzindən - gəminin bütünlüklə, ayrı-ayrı yerlərinin təqdim edilməsi yaxud bu şərt olmadan, istənilən mala görə verilir. Hər hansı başqa dövlətin hüququ tətbiq edilmədikdə, konosament əsasında su yolu ilə daşımalar 25 avqust 1925-ci il «Konosament şərtlərinin unifıkasiyası haqqında» Beynəlxalq Konvensiyasında göstərilən olan Haaqa qaydaları əsasında həyata keçirilir.

Konosamentin xətti, çarter, sahil və bort kimi növləri vardır. *Xətti konosamentdə* yükün daşınması barədə müqavilənin bağlanması üzrə malgöndərənin tələbləri ifadə olunur; *çarter konosamentində* çarter əsasında daşınan 3üikün qəbul olunmasını təsdiq edən sənəd verilir. Çarter - gəminin reysin yerinə yetirilməsi yaxud müəyyən müddətə muzd müqabilində götürülməsi haqqında fraxt müqaviləsidir. Amma bu halda gəminin çarter fonuasmda fraxtı barədə ayrıca müqavilə bağlandığına görə çarter konosament! dəniz daşımaları müqaviləsinin rəsmiləşdirilməsi üçün sənəd hesab edilmir.

Beynəlxalq ticarət praktikasında xarici ticarət qiymətində nəqliyyat amilinin nəzərə alınması məqsədi ilə malların göndərilməsinin müxtəlif bazis tipləri tətbiq olunur. Alqı-satqı müqavilələrinin bazis şərtlərinin sistemləşdirilməsi Beynəlxalq Ticarət Palatasına həvalə olunmuşdur. Bazis şərtlərinin izahı üzrə qaydalar son dəfə 1 yanvar 2011-ci ildə İnkotenns 2010 qüvvəyə mindikdə nəşr olunmuşdur. 11.2-ci cədvəldə «İnkotenns 2010»-da olan iki əsas terminoloji qnıp göstərilmişdir.

*Cədvəl 11.2*

**İnkoterms 2010-a daxil edilmiş terminlər**

| | | |
|---|---|---|
| **1. Nəqliyyatrn istənilən növü yaxud növləri üçün qaydalar** | | |
| EXW | Ex Works | Franko-zavod |
| FCA | Free Carrier | Franko-daşıyıcı |
| CPT | Carriage Paid to | Daşıma ...dək ödənilmişdir |
| CİP | Carriage and insurance Paid to | Daşıma və sığorta ...dək ödənilmişdir |
| DAT | Delivered at Terminal | Terminala çatdırılma |
| DAP | Delivered at Place | Təyinat yerinə çatdırma |
| DDP | Delivered Duty Paid | Rüsumları ödəməklə çatdırma |
| **2. Dəniz və daxili su nəqliyyatı üçün qaydalar** | | |
| FAS | Free Alongside Ship | Gəmi göyərtəsi boyunca sərbəst |
| FOB | Free on Board | Gəmi göyərtəsində sərbəst |
| CFR | Cost and Freight | Dəyər və fraxt |
| CİF | Cost Insurance and Freight | Dəyər, sığorta və fraxt |

Birinci qrupa daşınmanın seçilmiş üsulundan və bir yaxud bir neçə nəqliyyat növünün tətbiqindən asılı olmayaraq istifadə edilə bilən yeddi termin daxildir. Bu qrupa EXW (franko-zavod), FCA (franko-daşıyıcı), CPT (daşıma ...dək ödənilmişdir), CIP (daşıma və sığorta ...dək ödənilmişdir), DAT (tenninala çatdmna), DAP (təyinat yerinə çatdınna) və DDP (rüsumları ödəməklə çatdınna) daxildir. Dəniz yolu ilə daşıma olmadıqda belə, bunlardan istifadə edilə bilər. Bununla yanaşı, yadda saxlanmalıdır ki, həmin terminlər daşımalarda gəmidən istifadə olunduğu halda tətbiq edilə bilər.

«İnkotenns 2010» ikinci tenninlər qrupunda alıcı tərəfindən daşman malın çatdırılma məntəqəsi və yeri liman olduğuna görə həmin tenninlər «dəniz və daxili su nəqliyyatı üçün qaydalar» adlandırılır. Bu qrupa FAS (gəmi göyərtəsi boyunca sərbəst), FOB (gəmi göyərtəsində sərbəst), CFR (dəyər və fraxt) və CİF (dəyər, sığorta və fraxt) tenninləri daxildir. Mal gəminin

«göyərtəsində» yerləşdirildikdən sonra göndərilmiş hesab edildiyinə görə son 3 termində onun göndərilmə məntəqəsi qismində gəminin tutacağı (the ship's rail) barədə heç bir xatırlatma yoxdur. Bu məqam müasir kommersiyanın reallıqlarını daha dəqiq əks etdirir və riskin fərziyyəvi perpendikulyar xətt üzrə geri-irəli yerdəyişməsi barədə təsəvvür yaranmasının qarşısını alır. Göstərilən terminləri bilmək, onları mənimsəmək malların beynəlxalq daşımaları ilə məşğul olan mütəxəssisin ümumi biliklərinin ilkin səviyyəsidir.

Göründüyü kimi, nəqliyyat xidmətləri beynəlxalq ticarətin özəl xüsusiyyətləri olan əmtəəsidir. Bu xidmətlər beynəlxalq nəqli}^at bazarlarında satılır və alınır. Nəqliyyat xidmətlərinin qiymətləri və onların göstərilməsinin başqa şərtləri bəzən marağı olan tərəflər arasında aparılan danışıqların predmetidir, digər hallarda isə hüquq mənbələrinin özü tərəfindən müəyyən olunur.

***Logistik yanaşma.*** Nəqliyyat daşımalarının səmərəliliyi onlara logistik yanaşmadan mühüm dərəcədə asılıdır. *Logistika {ingiliscə:* logistics), ilk növbədə, malların hərəkətinin təşkili vasitəsilə kommersiya fəaliyyətinin daha səmərəli metodlarının müəyyən olunmasıdır. Məlumdur ki, hazırda qlobal Avropa nəqliyyat sistemi formalaşır. Beynəlxalq nəqliyyat dəhlizləri paralel mal axınlarının yaranması nəticəsində artıq fəalij^ət göstərən xətlərin iqtisadi fəaliyyətinə zərər dəyməsini istisna edən tərzdə salınır. Avropada multimodal və qarışıq daşımalarda arasında get-gedə daha çox fərq qoyulur. Multimodal daşımalar modulların yerdəyişməsi ilə əlaqədardır; bu halda yük konteynerlərdə, althqlı «paketlərdə» yaxud treylerlərdə qablaşdırılır. Yüklərin və yük axınlarının müxtəlif forma, növ və sistemlərinin dinamik surətdə bir- biri ilə əlaqələndirilməsi baş verir.

## 11.6. informasiya sahəsində beynəlxalq xidmətlər

Dünyada baş verən əmtəə və maliyyə axınlarında beynəlxalq informasiya mübadiləsinin rolu getdikcə artır.

***Beynəlxalq informasiya mübadiləsi*** - informasiya məhsullarının ötürülməsi və alınması, habelə bir ölkəyə başqa ölkənin dövlət sərhədi üzərindən informasiya xidmətlərinin göstərilməsidir. 4 iyul 1996-cı ildə Rusiyada «Beynəlxalq informasiya mübadiləsində iştirak haqqında» 85-03 №- li Federal Qanun qəbul edilmişdir. Bu qanuna müvafiq olaraq, sənədləşdirilmiş infonuasiya, informasiya resursları, informasiya məhsulları, beynəlxalq

infonnasiya mübadiləsi vasitələri beynəlxalq informasiya mübadiləsinin obyektləridir.

*Sənədləşdirilmiş informasiya* - sənəd, yəni rekvizitləri olan, onu eyniləşdirməyə imkan verən maddi daşıyıcıda yerləşdirilmiş məlumatdır. Onlar kütləvi və konfıdensial növlərə bölünür. Kütləvi informasiya adamların qeyri-məhdud dairəsi üçün təyin olunmuşdur. Bu, audio, audio-vizual və başqa məlumatlar, materiallardır. *Konfidensial informasiya* şəxslərin məhdud dairəsi üçündür.

*İnformasiya resursları* ayrıca sənədlər və sənəd massivləri, informasiya sistemlərində (kitabxanalarda, arxivlərdə, fondlarda və s.) yerləşdirilmiş ayrıca sənədlər və sənəd massivlərindən ibarətdir.

*İnformasiya məhsulları* - istifadəçilərin ehtiyaclarına uyğun olaraq hazırlanmış, istehlakçı-istifadəçilərin tələbatlarının ödənilməsi üçün təyin olunmuş və ya tətbiq edilən sənədləşdirilmiş məlumatlardır.

*İnformasiya xidmətləri* - subyektlərin (informasiya sahibinin) istifadəçiləri informasiya məhsulları ilə təchiz olunmasına yönəlmiş hərəkətləridir.

*Beynəlxalq informasiya mübadiləsi vasitələri* beynəlxalq informasiya mübadiləsi üçün istifadə olunan informasiya sistemləri, şəbəkələri və rabitə şəbəkələridir.

***İnternet.*** İnternet və onun qlobal şəbəkəsi, həqiqətən də, informasiya və reklam xidmətlərinin inkişafının aparıcı istiqamətinə çevrilmişdir. Bu şəbəkə aşağıdakılara imkan verir:

- malların reklamını beynəlxalq səviyyədə təşkil etməyə;
- tərəfdaşların cəlb olunması məqsədilə firmanın reklamını təşkil etməyə;
- investorların cəlb olunması məqsədilə layihələri reklamlaşdırmağa;
- satılan malın sifarişi sistemini təşkil etməyə;
- elektron poçt vasitəsilə və tərəfdaşların informasiya resurslarına birbaşa daxil olmaq üçün onların ticarət nümayəndələri ilə çevik qarşılıqlı əlaqə yaratmağa və s.

*İnternet* - müxtəlif infonnasiya saxlanılan, aralarında rabitə yaradılmış infonnasiya server-kompüterləri ilə infonnasiya istifadəçilərinin məcmusudur. Bu infonnasiya əsasən World Wide Web (ixtisar olunmuş formada WWW yaxud WEB) texnologiyası vasitəsilə əldə oluna bilər. Bu texnologiya öz adını hər bir istifadəçiyə Yeri sözün hərfi mənasında hörümçək tom kimi bürümüş

serverlərin hansı coğrafi məkanda yerləşməsindən asılı olmayaraq, sərbəst surətdə onların birindən digərinə keçmək imkanı verildiyindən almışdır.

***Beynəlxalq auditor xidmətləri*** xarici iqtisadi əlaqələrin yeni növlərinə aiddir. Dünyada 50-dən çox qlobal mühasibat şəbəkəsi fəaliyyət göstərir. Rusiyanın auditor şirkətləri olan «Audit-Ajur» («Maoris Rowland International» assosiasiyasına daxildir); «MKD» («Pannel Kerr-Forster»-ə daxildir); «Petro-Balt-Audit» («Alliot Pirson Intemational»-a daxildir) və başqaları fəaliyyət göstərir. Rusiyanın auditor firmalarında müştərilərə göstərilən xidmətlərin həcmi genişlənmiş, keyfiyyəti yüksəlmişdir.

İnfonuasiya xidmətlərinin ən iri təchizatçısı ABŞ-dır: 2008-ci ildə beynəlxalq bazarda onun payı 45%, bütün Qərbi Avropa ölkələrinin birgə payından (34%) çox olmuşdur. ABŞ texnoloji cəhətdən liderdir və əsasən ölkənin iritutumlu və rəngarəng daxili bazarında sınaqdan keçmiş geniş çeşiddə xidmətlər təklif edir. ABŞ-m üstünlüklərindən biri də müştərilərin əksəriyyəti üçün aydın olan, dünyada geniş yayılmış ingilis dilindən istifadə olunmasıdır. ABŞ-ın rabitə, kompüter və məlumatlar bazası ilə əlaqəli olan xidmətləri xarici filiallara göstərilən xidmətlər çıxılmaqla, 1990-2002-ci illərdə hər il təqribən 10% artaraq, 2002-ci ildə 12 milyard dollar təşkil etmişdir. Avropa ölkələrinin bu bazarın müxtəlif seqmentlərində rəqabət qabiliyyətinin olmasına və başqa regionların bazarlarına daxil olmasına baxmayaraq, həmin xidmətlərin əsas idxalçıları onlar və Yaponiyadır.

İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında informasiya xidmətlərinin göstərilməsi sahəsində heyətin ixtisas səviyyəsi və texnologiyaların inkişafı baxımından böyük fərq mövcuddur. İnkişaf etməkdə olan ölkələrin çoxunda informasiya xidmətləri hələ rüşeym halmdadır və əsas komponentlərin çoxu inkişaf etmiş ölkələrdən idxal edilir. Kompüterlərdən istifadə genişləndikcə və rabitə infrastrukturu təkmilləşdikcə, bu xidmətlərə tələbat hər il təqribən 10-15% artır.

***Rabitə sahəsində xidmətlər.*** Rabitə üzrə xidmətlər informasiya bazarında xüsusilə mühüm yer tutur. Bu xidmətlərin göstərilməsinə görə istifadəçidən alman haqqa xərclərdən başqa bir-birindən xeyli fərqlənən iqtisadi renta daxil edildiyinə görə (xüsusilə də telefon rabitəsində), bu sahədə ənənəvi olaraq həm beynəlxalq bazarda, həm də bir çox ölkələrin daxili bazarında rəqabət nisbətən zəifdir. Yaranmış praktikaya uyğun olaraq, daxili sistemin beynəlxalq şəbəkəyə birləşməsi üçün haqq ölkələrin hökumətləri (dövlət elektrik rabitəsi şirkətləri yaxud reqlament təyin edən orqanlar) tərəfindən müəyyən olunur və bunun

nəticəsində bir ölkə ilə ondan eyni məsafədə yerləşmiş başqa ölkə arasında bənzər avadanlıqdan istifadə olunmaqla yerinə yetirilən telefon danışıqlarının tarifləri xeyli fərqlənə bilər.

İnkişaf etmiş ölkələrin dövlət rabitə xidmətlərinin satışından əldə etdiyi gəlir 2009-cu ildə 1,1 trilyon dollardan 1,7 trilyon dolları̇dək qiymətləndirilir. 2009-cu ildə bu satışlardan əldə olunan gəlirin ümumi məbləğinin 38%-dən çoxu (2004-cü ildə - 40%) ABŞ-ın payına düşmüşdür. Rabitə üzrə xidmətlərin əsas komponenti telefon rabitəsi xidmətləridir, amma son illərdə kabel televiziyası, «əlavə haqq müqabilində» xidmətlər (o cümlədən adi telefon şəbəkəsi yaxud xüsusi ötürücü şəbəkə vasitəsilə əldə olunması mümkün olan müxtəlif ixtisaslaşdırılmış xidmətlər), məlumatların ötürülməsi və radio-telefon rabitəsi kimi növlər dinamik inkişaf edir. Bu xidmətlərin müxtəlif komponentlərinin başqa ölkələrdə, o cümlədən Rusiyada, Ukraynada və s. təqdim olunması üzrə ixtisaslaşan firmalar arasında yaradılan alyansların sayı artır.

İnkişaf etməkdə olan ölkələr arasında rabitə sektorunda Şərqi və Cənub-Şərqi Asiya regionu daha yüksək dinamizmi ilə fərqlənir. Başlanğıcda aşağı səviyyədə olsa da, ötən onillik ərzində bu regionun bəzi ölkələrində bu növ xidmətlərin ixracından əldə edilən gəlirlər yüksək templərlə artmışdır. İnkişaf etməkdə olan ölkələrin bir çoxu rəqəmsal rabitə sistemləri qurur, lazımi texnoloji bazaya və ixtisaslı kadrlara malik olanlar isə texniki cəhətdən mürəkkəb olan sistemlərin tətbiqinə hazırlaşır. Ancaq güclü rabitə şəbəkəsinin yaradılmasının bahalığmı nəzərə alaraq, inkişaf etməkdə olan ölkələrin şirkətləri qlobal rabitə şəbəkəsinə daxil olmaq üçün inkişaf etmiş ölkələrin şirkətləri ilə strateji ittifaqa girir.

Afrika ölkələrində rabitə infrastrukturunun möhkəmləndirilməsi və daxili sistemlərin qlobal sistemlərə qoşulması üzrə tədbirlərin yerinə yetirilməsinə başlanmasına baxmayaraq, rabitə sektoru hələ inkişafın ilkin mərhələsindədir.

***Proqram təminatı (PT).*** Fərdi kompüterlərin yeni texnologiyalardan istifadə etməklə şəbəkələrə qoşulmasının sayı artdıqca, istehsalın başqa sahələrində proqram təminatı vasitələrinə tələbat sürətlə artır. Müxtəlif sistemlərin bir-birinə uyğunlaşdırılınası məsələsi get-gedə mürəkkəbləşdikcə, bəzi şirkətlər öz fəaliyyətini kompüter texnikasının istehsalından proqram təminatı sahəsində xidmətlərin göstərilməsinə səmtləşdirir. Tələbatın artımı, həmçinin iqtisadiyyatın qlobal yüksəlişi ilə stimullaşdırıhr. Proqram təminatı mallar və xidmətlər arasında orta mövqe tutmaqla, beynəlxalq ticarətin ən mürəkkəb sahələrindən biridir. Xüsusi olaraq əcnəbi istifadəçi üçün yazılmış

proqram birmənalı olaraq ixrac olunan xidmətdir, bazarda kütləvi şəkildə təklif olunan proqram təminatı paketləri isə öz xarakterinə görə daha çox mala uyğundur və tieарət balansında çox vaxt bu qisimdə uçota alınır. Amma proqram təminatı paketi mənşə etibarilə əqli mülkiyyət olduğuna görə dəyəri maddi məhsul qismində qiymətindən xeyli yüksəkdir və bu səbəbdən onu ixrac olunan xidmətlər kateqoriyasına daxil etmək daha ədalətli olardı.

XXI əsrin ilk illərində dünyada proqram təminatı paketlərinin satışından daxilolmalar hər il 15% artaraq, 2009-cu ildə 240 milyard dollara çatmışdır. Dünya bazarlarında proqram təminatı paketlərinin əsas satıcısı ABŞ-dır və dünyada onlarla ticarətin ümumi həcminin 65%-dən çoxu bu ölkənin payına düşür (2002-ci ildə - təqribən 75%). 2009-cu ildə xaricə satışların ümumi həcmi 120 milyard dollar, əcnəbi satıcılardan satmalmalann həcmi isə 76 milyard dollar məbləğində dəyərləndirilirdi. Qərbi Avropanın və Yaponiyanın payları cüzi olsa da, rəqabətin güclənməsi nəticəsində proqram təminatının qiymətləri əhəmiyyətli dərəcədə ucuzlaşır. Asiyanın dinamik inkişaf edən bir sıra ölkələrində (o cümlədən Honkonq, Hindistan, Çin, Cənubi Koreya, Sinqapur, Çinin Tayvan əyaləti və Filippin) və Latın Amerikasının bəzi ölkələrində (Argentina, Braziliya, Meksika) proqram təminatı vasitələrinin istehsalı sənayesi, ilkin bazasının zəifliyinə baxmayaraq, sonuncu onillikdə kifayət qədər yüksək artım templəri ilə fərqlənmişdir.

Amma bu ölkələrdən bəzisinin hesablama texnikasının iri istehsalçısına çevrilməsinə baxmayaraq, burada proqram təminatı vasitələri istehsalının həcmi hələ də azdır. Bu ölkələr proqram təminatı sistemlərinin ən mürəkkəb vasitələrini idxal etməyə məcburdur. Latın Amerikasının Argentina, Braziliya və Meksika kimi ölkələri müasir informasiya sənayesi yaratmağa cəhd edir və bu sahədə müəyyən nailiyyətlər əldə etmişlər. Eyni zamanda onların istehsal etdiyi proqram təminatı vasitələri əsas etibarilə inzibati idarəçilik və mühasibat uçotu kimi mürəkkəb olmayan sahələrdə tətbiq üçün nəzərdə tutulmuşdur. Afrikanın bir çox ölkələrində fərdi kompüterlər yalnız son vaxtlar meydana çıxmışdır və onlara satışdan sonra bəzi xidmətlər göstərilsə də, proqram təminatı sahəsində xidmətlərin həcmi, bir qayda olaraq, cüzidir.

İnkişaf etməkdə olan ölkələrin bir çoxunda, o cümlədən Braziliya, Hindistan, Çin, Meksika, Filippin, Honkonq və Tailandda əməktutumlu ***kompüter xidmətlərinin*** ixracının sürətlə artması ötən onilliyin gözəçarpan hadisələrindən biri olmuşdur. Bu, şirkətlərin əksəriyyətinin həmin xidmətləri əcnəbi təchizatçılardan satın alınması praktikasına keçməsini və inkişaf etmiş

ölkələrdə mütəxəssis çatışmazlığım əks etdirir. Nümunə kimi, proqram təminatı vasitələrinin daxili istehsalı və ixracı sürətlə artan Hindistanı göstərmək olar. Kompüter texnologiyaları sahəsində jdiksək ixtisaslı mütəxəssislərinin maaşı inkişaf etmiş ölkələrdəki mütəxəssislərin 1/5-i məbləğində olan Hindistan, işçi qüvvəsinə çəkilən xərclərin məcmu istehsal məsrəflərində əhəmiyyətli pay tutduğu bu sektorda yüksək rəqabət qabiliyyətinə malikdir. Hindistan hökuməti də xarici investisiyaların ölkəyə axınını və ixracı stimullaşdırır. Beləliklə, Hindistanın proqram təminatı vasitələri sənayesi ucuz əməyə əsaslanan məlumatların işlənməsindən proqram təminatı üzrə daha mürəkkəb layihələrə sürətli keçid dövrünü yaşayır. Bu imkanlardan yararlanmaq üçün get-gedə daha çox fımıa öz istehsallarını Hindistana və bənzər vəziyyətdə olan ölkələrə köçürür. Bu məqsədlə şirkətlərin bir ölkədən başqasına yerdəyişməsi forması olan autsorsinqdən istifadə edilir.

***Digar xidmatbr.*** İnformasiya əsrinin dinamik inkişaf edən xidmətlərindən başqa, biznes xidmətlərinin ənənəvi olan növləri ilə fəal beynəlxalq ticarət həyata keçirilir. Bunlardan biri insan resurslarının iki növünün: yüksək ixtisaslı mütəxəssislərin və yarımixtisash işçi qüvvəsinin olmasını tələb edən ***mühəndis-inşaat xidmətləridir.*** Buna görə də podrat işləri ilə məşğul olan beynəlxalq şirkətlər çox vaxt inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin firmalarının iştirakı ilə müştərək müəssisə formasında fəaliyyət göstərir.

Xidmətlərin bu növünün yüksək ixtisaslı mütəxəssislərin əməyi ilə əlaqədar olan hissəsində (məsələn, mühəndis-məsləhətçilər) inkişaf etmiş ölkələr bazarda dominant mövqedədir. 225 aparıcı şirkətin gəlirlərinə baxsaq, görərik ki, hələ onilliyin ortalarında beynəlxalq inşaatdan əldə olunan 160 milyard dollar məbləğində ümumi gəlirin 80%-dən çoxu inkişaf etmiş ölkələrin payına düşürdü. Bu ölkələr arasında lider Yaponiyadır (20%), onun ardınca isə ABŞ (16%), Fransa (13%), Böyük Britaniya (12%) və Almaniya (11%) gəlir. Amma 2005-2010-cu illərdə Çinin mövqeləri sürətlə möhkəmlənməyə başlamış, bu ölkə ABŞ ilə birlikdə beynəlxalq inşaat layihələrinin həyata keçirilməsində ilk yerləri tutmağa başlamışdır. Çin şirkətləri hətta böhranlı 2008-2010-cu illərdə ABŞ, Kanada, Aİ, Şərqi Asiya və Latın Amerikasında dayanıqlı artım nümayiş etdirmişdir. Daha geniş müqayisə olunduqda, birinci yerdə inşaat bazarındakı payı 30% (2003-cü ildə - 47%) olan Avropa İttifaqıdır.

İnkişaf etməkdə olan ölkələrin regional bazarları arasında Şərqi və Cənub-Şərqi Asiyanın bazarı daha dinamik inkişaf edir. Bu regionda podrat

tikintisi infrastruktur layihələrinin (elektrik stansiyalarının və nəqliyyat sistemlərinin inşası kimi) həyata keçirilməsindən kimya müəssisələrinin, neft emalı zavodlarının, emal sənayesinin başqa istehsal güelərinin və iri binaların inşasmadək dəyişir. Regionun ölkələri əsas inşaat xidmətlərini transmilli şirkətlərdən alır və bu, yerli mütəxəssislərin ixtisas səviyyəsinin aşağı olması, maliyyə vəsaitlərinin çatışmazlığı ilə izah edilir; amma yuxarıda qeyd etdiyimiz kimi, bu ölkələrin bəzisi inşaat xidmətlərini ixrac da edir. Biznesin mühasibat uçotu, hüquq, tibbi xidmətlər, teleradio yayımı, kinematoqrafıya və reklam kimi digər növlərinin inkişafını isə transsərhəd əməlij^atlarmm aparılması üçün əcnəbi təchizatçının ixtisas səviyyəsinə dair tələblərin qoyulması, ölkənin milli təhlükəsizliyi, əhalinin sağlamlığının qorunması, mədəniyyətin mühafizəsi mülahizələri əsasında həmin xidmətlərin göstərilməsinin qadağan olunması ləngidir. Eyni zamanda infonuasiya texnologiyalarının inkişafı sayəsində bu xidmətlərin göstərilməsi qarşısındakı texnoloji maneələr xeyli endirildiyindən, onlarla ticarət genişlənir.

## 11.7. Beynəlxalq iqtisadi münasibətlər sistemində təhsil

ötən əsrdə təhsil, sadəcə olaraq, milli mədəniyyətlərin deyil, həmçinin, millətlərin özünün də formalaşmasında çox mühüm rol oynamışdır. Təhsil, nəsillərin təcrübəsini və dünyada mövcud olan pozitiv bilikləri özünə hopduraraq, dövlətlərin təşəkkül tapmasında başlıca və bəlkə də, həlledici rol oynamaqla inkişaf etmişdir. Təhsil dövlətin müdafiə, məhkəmə hakimiyyəti, polis idarələri kimi təbii funksiyası qismində çıxış edirdi. Buna görə də dövlət maarif qurumlarını: universitetləri və məktəbləri saxlayırdı.

Son illərdə təhsil sistemində köklü dəyişikliklər baş verir. Bir tərəfdən, ona daha milli mədəniyyətin əsas dayaqlarından biri kimi yanaşılmır, dövlət isə maarifçilik funksiyasını aktiv surətdə «üzərindən atır» (bütövlüklə sosial funksiyalar kimi), təhsil amansızcasına bazara və müvafiq pul münasibətləri sahəsinə sıxışdırıhb çıxarılır. Digər tərəfdən, təhsil, xüsusilə də ali məktəblər getdikcə daha dinamik surətdə beynəlxalq iqtisadi münasibətlər sisteminə, bu sahədə ümumdünya əməkdaşlığına, habelə hələlik beynəlxalq hesabatların təsnifatlarında özünə yer tapmamış təhsil almaq məqsədilə beynəlxalq miqrasiya proseslərinə də nüfuz edir. Bu halda peşə əlamətlərinə əsasən təhsilin müəyyən ümumi standartlarının və modellərinin fonnalaşmasma yönəlmiş qlobal tendensiya meydana çıxmışdır. Görünür ki, son dərəcə

uğursuz formalarını və həyata keçirilmə metodlarını seçsələr də, Vahid Dövlət İmtahanını tətbiq edənlər məhz bu meyli nəzərə almışdılar.

Sonuncu onillikdə iqtisadi, sosial, mədəni və siyasi proseslərin dinamikası, ölkələrin, millətlərin və mədəniyyətlərin qarşılıqlı asılılığının misli görünməmiş tərzdə güclənməsi hazırki dövrdə bütün dünyanı əhatə edən ***qlobal təhsil məkanının*** formalaşması ilə nəticələnmişdir. Bu məkan kifayət dərəcədə aydınlıqla ölkələrin qlobal iqtisadi və sosial-mədəni proseslərdəki ümumi mövqeyi əsasında müəyyənləşdirilən müvafiq iyerarxiyada tutduğu yerə uyğun olaraq, beynəlxalq əmək bölgüsünün yeni sisteminə daxildir. Bununla bağlı olaraq, professor A.A.Andreyev düzgün qeyd edir ki, bu iyerarxiyanın yüksək mərtəbələrini öz dövrü üçün daha mürəkkəb sayılan innovasiya fəaliyyəti növlərini həyata keçimıəyi bacaran ölkələr tutur. Zaman keçdikcə, öz avanqard əhəmiyyətini itirən bu fəaliyyət növləri yerini başqalarına verir. XX əsrin ikinci yarısında sənaye mərhələsindən postsənaye mərhələsinə keçid vaxtı köhnəlmiş texnologiyaların bu cür «atılmalarının» bir neçə dalğası olmuşdur. Bu vəziyyətlərdə lider ölkələr ixtisaslaşmalarının vaxtında yenidən fonnalaşdırılması sayəsində öz imtiyazlı mövqelərini qoruyub saxlaya bilmişdi. İlk zaman onların keyfiyyət üstünlüyünü ağır sənaye təmin edirdi; sonradan bu sənaye hissələrlə «yeni sənaye ölkələrinə» köçürüldükdə, həmin yeri elektronika və eimtutumlu istehsallar tutdu. Bizim dövrdə isə liderlik edən «avanqard» iqtisadiyyatlara mənsubiyyət, ilk növbədə, dünya bazarlarına əşyaları (hətta çox mürəkkəb və bahalı) göndərməkdən daha çox, onların istehsalı üçün zəruri olan biliklər və texnologiyalar əsasında müəy- yənləşdirilməyə başlandı.'

Ancaq biliklərin və texnologiyaların üzərində inhisarın da əbədi olmadığı aydındır. Artıq bu gün öz inkişafında liderlərin arxasınca gedən bəzi iri ölkələr tədqiqatların və elmi-texniki işlərin hələ bu yaxınlarda onlar üçün əlçatmaz olan səviyyəsinə qalxmışdır. Gözləmək olar ki, yaxın perspektivdə dünya ixtisaslaşmasında «ali» (və daha çox gəlir verən) rolu biliklərin istehsalından daha çox, onların yaradıcılarının istehsalı oynayacaqdır. Təbii ki, bu təhsil, daha dəqiq ifadə etsək, ***yüksək keyfiyyətli, elita səviyyəsində*** təhsildir. Bu gün yüksək texnologiyalar ilə əlaqələndirilmiş təhsil innovativ inkişafın əsas tərkib hissəsinə, onun «lokomotivinə» çevrilərək, hərəkətverici qüvvə rolunu elmi-

^ *Андреев А.А.* Инновационный путь развития России в контексте глобального пространства образования // Вестник Российской Академии наук, февраль 2011. С. 99.

texniki tərəqqinin ənənəvi lideri olan hərbi-sənaye kompleksindən almaq iddiasındadır.

Yaxın vaxtlaradək təhsilə dövlətin mədəni-maarifçilik funksiyası qismində yanaşılırdısa, bu gün vəziyyət dəyişir. Bütün inkişaf etmiş ölkələrdə və bəzi xüsusi uğur qazanmış inkişaf etməkdə olan ölkələrdə şagird və tələbələrin sayının sürətlə çoxalması nəticəsində pullu təhsil xidmətlərindən əldə olunan gəlirlər artmaqla yanaşı, təhsili iqtisadiyyatın mənfəətli sahələrindən birinə çevirmişdir. Belə ki, əcnəbilərin təhsil alması ABŞ iqtisadiyyatına ildə 13 milyard dollar (ABŞ iqtisadiyyatının ixrac sahələri arasında beşinci yer) gətirir.

Dünyanın təhsil bazarı təqribən 100 milyard dollar civarmda dəyərləndirilir. Bu rəqəm dünyanın qızıl, emal olunmamış almazlar və zərgərlik üçün brilyantların ümumi bazarlarının illik dövriyyəsinin cəminə bərabərdir. Bu sahənin rəqabət qabiliyyəti getdikcə güclənir, burada şagird və tələbələr (o cümlədən əcnəbi) peşəkar müəllim kadrları, pedaqoji texnologiyalar və tədris prosesini asanlaşdıran resursların əldə edilməsi uğrunda mübarizə gedir.

Belə şəraitdə böyük imkanlara malik olan ölkələr miqrasiyanın seçim əsasında təşviqi strategiyasından istifadə edir. Bunun nəticələri göz qabağındadır: indi «Microsoft» şirkətinin heyətinin 'A hissəsi Hindistan mənşəli işçilərdən ibarətdir; NASA heyətində də hindlilər təqribən bu qədərdir. Ekspertlərin hesablamalarına görə, hazırda ABŞ-da işləyən, doktorluq elmi dərəcəsi olan mütəxəssislərin təqribən 40%-i bu ölkədə doğulmamışdır, informasiya texnologiyaları və elektronika kimi sahələrdə isə onlann xüsusi çəkisi 50%-dən artıqdır. Rəqabət məcmu dünya intellekti uğrunda strateji mübarizə səthinə keçmişdir. Təhsil sahəsində siyasət ölkələr və beynəlxalq birliklər arasında qlobal rəqabətin istiqamətlərindən birinə çevrilmişdir.

Məlumdur ki, əvvəlki onilliklərdə inkişaf etməkdə olan ölkələrə «yardıma» böyük önəm verilir və bunun çərçivəsində onlar üçün mütəxəssislər hazırlanırdı. Bu zaman Qərbdə təhsil alan əcnəbi tələbələrin böyük əksəriyyətinin oxuduqdan sonra aldığı bilikləri öz vətənlərində tətbiq edəcəyi nəzərdə tutulurdu. Son illərdə bu cür təhsil tələbələri qəbul edən ölkələr tərəfindən özü üçün kadr hazırlanmasının praktiki olaraq heç bir xərc tələb etməyən üsulu kimi nəzərdən keçirilir. ABŞ, Böyük Britaniya, Fransa, Kanada, Almaniya, Avstraliya və başqa ölkələrdə ən yaxşı əcnəbi tələbələrin təhsil aldığı ölkədə işə götürülməsi üçün müvafiq hüquqi mexanizmlər və əlverişli şərait yaradılmışdır.

Burada yerli sakinlərlə əcnəbilərin təhsil haqqının məbləğində böyük fərq vardır. Bəzi hallarda bu bu fərq 8-10 dəfəyə çatır. İnkişaf etmiş ölkələrdə təhsil sistemində öz vətəndaşlarının güzəştlə təhsil almaları nəzərdə tutulur və bu, dolayı yolla əcnəbilər tərəfindən subsidiyalaşdırılır. Bunun nəticəsində son bir neçə onillik ərzində təhsil sahəsində beynəlxalq münasibətləri qlobal dünyanın əqli və maliyyə resurslarının yenidən bölgüsünün səciyyəvi kanalına çevirən «akademik kapitalizm» yaranmışdır. Dünya iqtisadiyyatında TMK və TMB-nin fəaliyyətinə analoji olaraq, təhsil sistemində transmilli tipli institusional subyektlər - təhsil xidmətlərinin ***ümumdünya provayderhri*** əmələ gəlmişdir. Amma bu provayderlər şəbəkəsi son dərəcə qeyri-bərabər bölünmüşdür. Hazırda onlarla ölkənin tədris müəssisəsi əcnəbilərə təhsil xidməti göstərir və bunlardan 30-dan çoxu hər il gənclərin kifayət qədər böyük (10 mindən çox) kontingentini qəbul edir. Transsərhəd təhsil miqrasiyasının ən iri axınları Qərb ölkələri vasitəsilə baş verir. Ənənəvi olaraq, burada əsas rolu ABŞ, Böyük Britaniya, Almaniya və Fransa oynayır. Bu ölkələr ali təhsil alan əcnəbilərin sayma görə dünyada ilk 4 yeri tutur və xaricdə təhsil alan tələbə kontingentinin yarısından çoxu onların payına düşür. Beşinci yerdə Avstraliyadır və ondan sonra böyük, demək olar ki, iki dəfə geriliklə Yaponiya gəlir.

Cənub-Şərqi Asiyanın sürətlə inkişaf edən ölkələri də təhsilin səviyyəsini yüksəltməyə səy göstərir və bura böyük məbləğdə maliyyə resursları yönəldir. Çinin müvəffəqiyyətləri xüsusilə nəzərəçarpandır. Amma ümumilikdə regionun payına xaricə gedən tələbələrin təxminən 15%-i düşür. Regiondakı miqrasiya bu ölkələr arasında baş verir, ancaq əksər hallarda onlar Avstraliyaya və ya Qərbə yollanırlar. Bununla yanaşı, avstraliyahlar istisna olmaqla, qərbli tələbələr yapon universitetlərinə düşməyə o qədər də meyilli deyillər. Çin xaricdə təhsil alanların 10%-ni, Yaponiya isə cəmi 5%-ni cəlb edə bilir. Dünya təhsil bazarının qlobal miqyasda əhatə olunmasına məhdud sayda lider ölkə: ABŞ, Böyük Britaniya, Fransa, Almaniya və Kanada nail ola bilmişdir. Rusiya isə bu sahədə öz mövqelərini 1990-cı illərdə itirmişdir.

Hazırda XXI əsrin birinci onilliyinin sonunda xaricdə təhsil alan tələbələrin ümumi sayı 1980-1990-cı illərlə müqayisədə təqribən 2,3 dəfə çoxalmışdır. Aparıcı xarici ölkələrin hamısı qəbul etdikləri əcnəbi tələbələrin sayını xeyli artırmışdır. Göstərilən dövrdə onların sayı 400 min nəfərdən 600 min nəfərə, Fransada 135 min nəfərdən 250 min nəfərədək çoxalmışdır. Çində nisbətən qısa müddətdə (1998-ci ildən 2010-cu ilədək) əcnəbi tələbələrin sayı 5 dəfə artmışdır (1998-ci ildə -43 min nəfər, 2010-cu ildə - 210 min nəfər).

Rusiya isə 1980-ci illərdə SSRİ-nin göstəricilərini belə, azaltmışdır. İndi Rusiyanın ali məktəblərində əcnəbi kontingentin böyük hissəsi 1992-ci ilədək öz vətəndaşları hesab olunan, postsovet respublikalarından gələn «yeni əcnəbilərdən» ibarətdir. Rusiyanın tələbə kontingentinin ümumi sayında əcnəbilərin faizi (1%) başqa ölkələrdə olduğundan xeyli aşağıdır: halbuki bu göstərici ABŞ və Yaponiyada 2,5-3,5%, Böyük Britaniya, Almaniya, Avstriya və Fransada 11-13,5%, Avstraliyada, Yeni Zelandiyada, Sinqapurda 15-18,5%- dir. Əcnəbi tələbələrin böyük kontingenti (1000 nəfərdən çox) olan ali məktəblərin sayı Rusiyada 15-dən artıq deyil (ABŞ-da həmin göstərici 150-ni aşır). Bundan savayı, Qazaxıstan istisna olunmaqla, Rusiyanın heç bir iri tərəfdaşı üçün onun xidmətləri prioritet hesab edilmir. Rusiyada əcnəbi tələbələrin ən böyük qrupu çinlilərdən ibarətdir: 2008/2009-cu tədris ilində ölkənin ali məktəblərində onların sayı 14 min nəfərdən artıq olmuşdur. Həmin dövrdə ABŞ-da 68 mindən artıq, Yaponiyada 82,5 min. Böyük Britaniyada 50 min, Almaniyada 28 mindən çox, Avstraliyada 38 min çinli təhsil alırdı. Rusiyanın ali məktəblərində 46 min, ABŞ-da isə 85 mindən artıq tələbə təhsil alırdı. Ukraynanın Almaniyaya göndərdiyi tələbə, aspirant və təcrübəçilərin sayı Rusiyaya göndəriləndən 2 dəfə çoxdur.

Bu vəziyyət əsasən Rusiya təhsilinin maddi bazası ilə əlaqədardır. Cari onilliyin əvvəlində Rusiyada ali təhsilin maliyyələşdirilməsinin səviyyəsi bir tələbə hesabı ilə dünya liderlərindən xeyli geridə qalırdı: ABŞ-dan təqribən 20 dəfə, Almaniyadan, Böyük Britaniyadan, Belçikadan, Danimarkadan - 10 dəfə, təhsil xidmətləri sahəsində o qədər də öncül yer tutmayan Portuqaliya və Türkiyədən - 2 dəfə. Bu fərq öz real təzahürünü köhnə, xarab olmuş avadanlıqda, beynəlxalq rahatlıq standartlarına cavab verməyən, bir çox hallarda hətta təhlükəsizlik meyarlarının tələblərini ödəməyən yataqxanalarda, çoxdan təmir olunmayan auditoriyalarda tapır.

Təhsil müəssisəsinin qazandığı şöhrət, yerləşdiyi ölkənin nüfuzu, habelə onun informasiya və ad-san çıxarma siyasəti böyük əhəmiyyət kəsb edir. Məlumdur ki, Britaniyanın aparıcı ali təhsil məktəblərinin çoxu ABŞ-da yerləşənlərlə müqayisədə sadədir, onlarda tələbəyə çəkilən illik xərclərin məbləği təqribən 2 dəfə aşağıdır. Buna baxmayaraq, Oksford, Kembric, London İqtisadiyyat məktəbinin dünyanın müxtəlif ölkələrindən cəlb etdiyi tələbələrin sayı Harvard, Yeli, Prinston, Stenford, Kolumbiya universiteti və başqalarından az deyil. Əsas vəzifə ölkədə ali təhsilin Qərbin ali təhsil müəssisələri ilə rəqabət apara biləcək ixrac potensialını fonnalaşdırmaqdan

ibarətdir. Demək olar ki, istehsal infrastrukturunun (ilk növbədə, avtomobil yollan şəbəkəsinin) yaradılması ilə bərabər, bu potensial ölkə iqtisadiyyatında modernləşmənin və innovasiya sıçrayışının təməli olacaqdır.

## 11.8. Beynəlxalq turizm

Xidmətlərin xüsusi sahəsi olan beynəlxalq turizm ictimai əhəmiyyətli müəyyən hadisələrin (təbii fəlakətlər, temorizm aktları, regional müharibələr və silahlı münaqişələr) təsirinə məruz qalsa da, dinamik inkişafa doğru meyil göstərir.

İnsanın dünya səyahətinə çıxmaq, xalqlar, onların adətləri, mədəniyyəti və tarixi ilə tanış olmaq kimi heç nə ilə izah oluna bilməyən tələbatı vardır. Əlbəttə, bu, intellektual istirahətin ən yüksək formalarından biridir, özü də əksər hallarda müxtəlif növ əyləncələrlə müşayiət olunur. Buna görə də insanlar müharibələrə, yolların yoxluğuna, aclığa, başqa məhrumiyyətlərə baxmayaraq, min illər boyu həmişə səyahət etmişdir. Antik filosoflar öz ölməz əsərləri üçün faktları haradan götürürdülər? Əlbəttə ki, ilk növbədə, hələ əsrlər öncə mütərəqqi biliklər, texnoloji təcrübə ilə tanış olub, onları öz ölkələrinə gətirən səyyahların dediklərindən. Məsələn, Çində ipək istehsalının texnologiyasını (dünyada məşhur «ipək sapını») ölkədən kənara çıxarmağı qadağan edən qanun mövcud idi və dövlət onunla ticarətdən külli məbləğdə gəlir əldə edirdi. Lakin rahiblərdən biri ipəkqurdunun tırtılını əsa içərisində gizlədərək, bu sirri ölkədən çıxara bildi; beləliklə, Hindistan təbii ipəyin dünyada ikinci mərkəzinə çevrildi, sonra isə onun istehsalı başqa ölkələrə yayıldı.

Səyahət formasında beynəlxalq turizm iki dünya müharibəsi (1914-1918-ci və 1939-1945-ci illər) dövrü istisna edilməklə, XX əsrdə sürətlə inkişaf edirdi. Turizmin və ondan əldə olunan gəlirlərin artım tempi son 20 ildə xüsusilə sürətli olmuşdur (şəkil 11.1).




*Şəkil 11.1.* **Beynəlxalq turizm**

M ə n b ə : World Tourism Organization (UNWTO).

11.1-ci şəkildəki qrafiklər beynəlxalq səyahətlər əyrisinin durmadan artdığını göstərir. Bu artım 2008-ci ilin birinci yarısında (beynəlxalq maliyyə bazarlarında böhrana və bundan sonrakı iqtisadi geriləməyədək) ciddi müsbət nəticələrin əldə olunmasını şərtləşdinnişdir. İqtisadiyyatın başqa sahələri ilə müqayisədə turizm sektoruna böhrandan o qədər də böyük ziyan dəyməsə də, 2008-ci ilin ikinci yarısında enmə qeydə alınmışdır.

## 11.9. Beynəlxalq turizmin iqtisadi artıma təsiri

Hələ 1990-cı illərdə beynəlxalq turizmdən gəlirlər, həmin dövrdə neftin ixracından hər il orta hesabla əldə olunan 350 milyard dolları ötüb keçmişdir. Yalnız XXI əsrin əvvəlindən neftin qiymətlərinin ildırım sürəti ilə bahalaşması nəticəsində neft sahəsi qabağa keçdi və beynəlxalq turizmin göstəricilərini üstələdi. Amma biznes xidmətlərinin əksər növlərindən və beynəlxalq səyahətlərdən söz getdiyi halda, turizmin miqyası və buradakı maliyyə resurslarının həcmi həddən artıq böyük olduğuna görə heç bir sahə ona hətta yaxınlaşa bilməz. Qiymətləndinnələrə görə, 2005-2009-cu illərdə dünya turizm sənayesinin ümumi gəliri 4 trilyon dollardan çox olmuşdur. 2010-cu ildə bütün dünya üzrə bu sahədə işləyənlərin sayı 285 milyon nəfər olmuşdur. 2008-ci ildə

istirahət məqsədilə səyahətlər 51% (467 milyon turist), 2009-cu ildə isə 411 milyon nəfərədək azalmışdır. Beynəlxalq turistlərin 15%-i üçün səyahətin məqsədi ezamiyyət, 27%-i üçün dostları və yaxınları ilə görüş, müalicə yaxud dini maraqlar olmuş, 7%-nin məqsədi müəyyən edilməmişdir. Turistlərin 52%- i təyyarə ilə, 38%-i avtomobildən, 3%-i dəmir yolundan, 6%-i su nəqliyyatından istifadə etməklə səyahət edir. 2008-ci ildə beynəlxalq sərnişin nəqliyyatından gəlirlər 183 milyard dollar məbləğində qiymətləndirilirdi, bu isə, gündə 3 milyard dollar deməkdir. Göstərilən sektor xidmətlərin dünya üzrə ixracının 30%-ni, məcmu ixracın isə 6%-ni təşkil edir.

Dünyanın bütün regionlarında beynəlxalq turizmin artımı müşahidə olunur. 2008-ci ildə ən yaxşı göstəricilər Yaxın Şərqdə qeydə alınmış, burada turistlərin sayı 55 milyon nəfərə (2007-ci illə müqayisədə artım - 18%) çatmışdır. Afrikada orta illik artım 4%-dir. Bu göstərici Amerikada 3%, Asiyada və Sakit Okean hövzəsində 1 % səviyyəsindədir.

Beynəlxalq turizmin iqtisadiyyata göstərdiyi təsir özünə daha çox əcnəbi səyyah cəlb edə bilən ölkələrdə xüsusilə aydın təzahür edir. Bunlar, ilk növbədə, Qərbi Avropa dövlətləridir. İnkişaf səviyyəsindən, habelə ölkənin turist xidmətlərinin netto-ixracatçısı yaxud netto-idxalçısı qismində çıxış etməsindən asılı olaraq, beynəlxalq turizm bütün Avropa ölkələrinin iqtisadiyyatına pozitiv təsir göstərir. Ənənə kimi. Qərbi Avropada Avstriya, İsveçrə, İspaniya, İtaliya, Fransa, Türkiyə, Portuqaliya turizm xidmətlərinin netto-ixracatçısıdır. Başqa ölkələrin beynəlxalq turizmə çəkdiyi xərcləri əldə olunan gəlirindən çox olduğuna görə onlar turizm məhsulunun netto- idxalçısıdır.

Amma ümumilikdə götürüldükdə, turizm üzrə gəlirlər və xərclər arasındakı nisbət deyil, turizm sənayesinin fonnalaşmasmı və inkişafını stimullaşdıran ölkəyə gələn xarici turistlərin sayı, bunun artım dinamikası və xarakteri daha mühüm ilkin göstəricidir. Həm turizm üzrə tədiyyə balansının saldosu müsbət olan ölkələrin (İtaliya, Yunanıstan, İspaniya, Fransa, Avstriya) həm də böyük kəsiri olanların (Almaniya, Böyük Britaniya, Skandinaviya ölkələri, ABŞ) ümumi gəlirlərində turizmdən daxilolmaların payı yüksəkdir. Xarici turizmin iqtisadiyyata töhfəsini qiymətləndinnək üçün bir göstəricidən deyil, onun turizm infrastrukturu ilə yanaşı, ümumilikdə turizm sənayesini formalaşdıran başqa istehsal və xidmət sahələrində də iş yerlərinin yaradılmasını əks etdirən göstəricilər sistemindən istifadə olunması məqsədəuyğundur. Ölkənin ÜDM-də turizm sənayesinin müxtəlif sektorlarında

istehsal edilən xidmətlərin və malların xüsusi çəkisi yekun göstəricidir. Turizmin ölkə iqtisadiyyatındakı rolunu xarakterizə etmək üçün onun regional inkişafa, məxsusi olaraq xarici səyyahların tələbatının ödənilməsi üçün nəzərdə tutulan malların və xidmətlərin istehsalının yeni sahələrinin yaradılmasına stimullaşdırıcı təsirini müəyyənləşdirmək vacibdir.

Turistlərə xidmət göstərilməsi sahəsində birbaşa məşğulluqla yanaşı, turizmlə əlaqəli olan sahələrdə də məşğulluğun artımı müşahidə olunur. Turistlərin istehlakı birbaşa yaxud dolayısı ilə müvafiq malları və xidmətləri istehsal edən sahələrin inkişafını stimullaşdırır və deməli, ora kapital qoyuluşlarını artırır: göstərilən sahələrdə idxalın həcmi azaldıqca, turizmin onlara göstərdiyi təsir güclənir.

İnkişaf etməkdə olan ölkələrdə səyahətlərdən daxilolmaların artımı əsasən Yaponiya, Çin, Cənub-Şərqi və Qərbi Asiya ölkələri tərəfindən təmin olunur. Lakin ayrı-ayrı inkişaf etməkdə olan ölkələrdə 1990-2010-cu illərdə artım templəri əhəmiyyətli dərəcədə, ildə 1%-dən 18,5%-dək dəyişirdi (İndoneziyada - böhranadək). Ümumilikdə isə, sürətli artıma meyil inkişaf etməkdə olan ölkələrin 3 qrupu üçün səciyyəvidir; turizm üçün yaxşı təbii resursları olan və bu sahədə fəal siyasət həyata keçirən ölkələr; sürətli sənayeləşmə və iqtisadiyyatın super-liberallaşdırılması mərhələsini yaşamış ölkələr; yaxın keçmişdə miqrasiya və emiqrasiyanm böyük axınlarının mənbəyi olmuş ölkələr.

***Turist səfərlərinin və onlardan əldə olunan gəlirlərin fərqləndirilməsi.*** Yuxarıda qeyd etdiyimiz kimi, beynəlxalq turizmdən maliyyə daxilolmalarının mütləq ifadədə bÖ3dik hissəsi inkişaf etmiş ölkələrin payına düşür. Ancaq faizlə götürüldükdə, inkişaf etməkdə olan bir çox ölkələrdə səyahətlərin sürətlə artması səbəbindən onların payı ixtisar olunur. Belə ki, son 25 ildə inkişaf etmiş ölkələrin qlobal mədaxillərində turizmin payı 6 faiz-bənd azalmış, inkişaf etməkdə olan ölkələrdə isə bu qədər çoxalmışdır. Buna baxmayaraq, ölkələrin göstərilən qmpu beynəlxalq səyahətlərdə lider mövqeyini saxlayır. 2008-ci ildə dünyada turizm xidmətlərinin 20 ən iri ixracatçısının 11-i inkişaf etmiş ölkələr qrupuna daxil idi. Ən iri ixracatçı 2007-ci ildə 100 milyard dollar gəlir əldə edən ABŞ-dır. Bütün dünyada səyahətlərdən əldə olunan mədaxillərdə onun payı əsasən dolların məzənnəsinin başqa əsas valyutalara nisbətdə aşağı düşməsi hesabına 1,5 dəfə, 1970-ci ildəki 12%-dən 1995-ci ildəki 19,3%-dək yüksəlmişdi. 2000-2007-ci illərdə bu pay bir qədər, 15%-ə düşmüşdü. İspaniya və İtaliyanın payları nisbətən sabit qaldığı halda, başqa inkişaf etmiş ölkələrin, o cümlədən Avstriya, Danimarka, Finlandiya, Almaniya, İrlandiya, Niderlan və

İsveçrənin payı azalmışdı. Bu ölkələrdə nisbi xərclər yüksək olduğuna görə səyyahlar başqa, o cümlədən inkişaf etməkdə olan ölkələrdəki marşrutlara üstünlük verirdi.

İki qrup dövlətdə: inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə turizmdən daxilolmalann məbləği müqayisə edildikdə görünür ki, beynəlxalq turizmdən əldə olunan mənfəəti iqtisadiyyatı daha çox inkişaf etmiş dövlətlər (ABŞ, Fransa, İtaliya, İspaniya, Böyük Britaniya, Almaniya, Avstriya, İsveçrə, İsveç) əldə edir. Çinə turist axını misli görünməmiş yüksək templərlə artır: 1980-ci ildə turizm bu ölkəyə 617 milyon dollar, 1995-ci ildə 7,8 milyard dollar, 2009-cu ildə 14 milyard dollardan çox gətirmişdir.

1990-cı illərdə və 2000-2009-cu illər dövründə inkişaf etmiş ölkələrdə beynəlxalq turistlərin y4 hissəsi, oradan gələnlərin payı cəmi 35% təşkil edən Yaponiya istisna olunmaqla, həmin qrupa daxil olan ölkələrin payına düşür, başqa sözlə, dünyanın ən çox inkişaf etmiş dövlətlərinin özlərinin arasında səyyahların mübadiləsi baş verirdi. Bu meyil XXI əsrin birinci onilliyində də qalmışdır. 1990-cı illərdə və 2001-2007-ci illərdə Qərbi Avropada turizmin % hissəsi regiondaxili olmuş, özü də bu cür turizmin ölkələr üzrə payı Böyük Britaniyadakı 65%-dən Portuqaliyadakı 95%-dək fərqlənmişdir. Aralıq dənizi sahilində yerləşən ölkələrə turist axınının nisbətən çox olması Şimali Avropadan olan səyyahların daha əlverişli iqlimi olan yerləri gəzmək istəyi ilə yanaşı, bəşər mədəniyyətinin mənbələri ilə ünsiyyətə girmək arzusunu ifadə edirdi. Sonuncu onillikdə Avropaya ABŞ-dan gələnlərin sayı xeyli azalmış, Çindən, Yaponiyadan və ASEAN ölkələrindən isə artmışdır. Yaxın illərdə Qərbi Avropaya start səviyyəsi son dərəcə aşağı olsa da, bəzi Şərqi Avropa ölkələrindən gələnlərin sayı sürətli templərlə artırdı. Turizm sahəsində böyük imkanlar, inkişaf etmiş mehmanxanalar şəbəkəsi və infrastruktur, Avropa İttifaqının sərhədlərinin açılması, La-Manş altındakı tunel, yüksəksürətli dəmir yolu şəbəkəsinin inşası və səyyahlar arasında qısamüddətli məzuniyyət götürmək meylinin güclənməsi sonuncu onillikdə Qərbi Avropaya turist axınının dayanıqlılığına öz təsirini göstərmişdir.

Ən çox pul xərcləyənlər də inkişaf etmiş ölkələrin turistləridir. 2001-2009-cu illərdə dünya üzrə bu cür xərclərin həcminin 80%-i onların payına düşürdü. Sakinləri turizmə ən çox pul xərcləyən 20 ölkədən 17-si inkişaf etmiş ölkələrdir, Almaniya isə hətta ABŞ-ı ötüb keçmişdir: onun turistlərinin xərcləri ümumdünya həcminin 13%-i qədərdin ABŞ-m payı 1980-ci ildəki 22%-dən 2009-cu ildə 12%-ə enmişdir. Xərclərin həcminə görə sonra gələn ölkələr

Yaponiya, Böyük Britaniya, Fransa, Çin və İtaliyadır. Dünyada beynəlxalq turizmə çəkilən ümumi xərclərin yarısından çoxu bu 5 ölkənin payına düşür. Yaponiyanın payı xüsusilə böyükdür (1970-ci ildəki 1,7%-dən 2006-cı ildə 12%-ə və 2009-cu ildə 11%-dək). 1970-ci ildən 2010-cu ilədək Yaponiya turistlərinin çəkdiyi xərclərin həcminə görə dünyada 3-cü yeri tuturdu. İxracdan gəlirlərin və milli gəlirin ümumi həcmində səyahətlərdən əldə olunan vəsaitlərin əhəmiyyəti həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə daim artmaqdadır, amma bu nisbətlər birinci qrupla müqayisədə ikincidə bir qədər yüksək olmuşdur. 2001-2010-cu illərdə inkişaf etməkdə olan 30 və inkişaf etmiş 10 ölkədə səyahətlərdən daxilolmalar malların ixracının dəyərini 10% üstələmişdir. Bu ölkələrin çoxunda turizm ən böyük ixrac maddəsinə çevrilmişdir və yuxarıda qeyd etdiyimiz kimi, bunun əsas axını Qərbi Avropa ölkələrinin payına düşür. Beynəlxalq turizm Qərbi Avropa dövlətlərinin iqtisadiyyatına çoxcəhətli təsir göstərir. Ayrıca götürülən ölkə üçün turizm tədiyyə balansının gəlir hissəsini valyuta mədaxilləri ilə qidalandıran mənbədir. Beynəlxalq turizm inkişaf etdikcə, özündə mehmanxana təsərrüfatını, nəqli}^atı, qida, ayaqqabı, tikiş sənayelərini, maşınqayırmanı, ekskursiya xidmətlərini, maddi istehsalın və xidmətlərin digər sahələrini birləşdirən turizm sənayesi sürətli templərlə fomıalaşır. İnkişaf edən turizm sənayesinin yeni iş yerləri yaratması, əhalinin gəlirlərini və məhsul buraxılışını artırması nəticəsində bütövlükdə xalqın rifah səviyyəsi yüksəlir.

Turistlərin ən böyük sayı Fransanın payına düşür (75,2 milyon nəfər), onun ardınca İspaniya (49,5 milyon nəfər), ABŞ (45 milyon nəfər), İtaliya (39,5 milyon nəfər). Böyük Britaniya (23 milyon nəfər), Niderland (19,5 milyon nəfər), Avstriya (18 milyon nəfər), Kipr (18 milyon nəfər), Portuqaliya (12 milyon nəfər) gəlir. İnkişaf etməkdə olan ölkələrə, xüsusilə də Asiya və Latın Amerikasına gələn turistlərin artımı müşahidə edilir. İsrail istisna edilməklə (-4,6%), Aralıq dənizinin Şərq sahillərinə gələn turistlərin sayı Türkiyədə 13,5%, Kiprdə 5,6% artmışdır. Şimali Avropaya turist səfərlərinin sayı da artmış, ən yüksək artım Şimali İrlandiya (+4,9%), Finlandiya, Danimarka, Sloveniya, Polşa və Slovakiyada olmuşdur.

***Beynəlxalq idman.*** Beynəlxalq idman turizmi sənayesi sürətlə inkişaf edir. Müxtəlif səviyyəli çempionatlar. Olimpiya Oyunlarına uzunmüddətli və baha başa gələn hazırlıq, ayrı-ayrı ölkələrdə beynəlxalq və regional əhəmiyyətli, son dərəcə intensiv idman tədbirlərinin keçirilməsi nəhəng maliyyə axınları olan güclü idman sənayesini formalaşdırmışdır.

## 11.10. Beynəlxalq səyahətlərə tələbatın formalaşması

***Tələbatın amilləri.*** XX əsrin son 25 ilində beynəlxalq turizmin dinamik inkişafı və çeşidinin genişlənməsi səyahətlər sənayesinin bütün tərkib hissələrinə sirayət etmiş çoxsaylı sosial-iqtisadi, demoqrafik, ekoloji, texnoloji institusional amillərin mürəkkəb qarşılıqlı təsirinin nəticəsidir. Bu amillər rəqabət qabili}^ətinin əsaslarını dəyişmiş və beynəlxalq səyahətlərə çəkilən xərclərin strukturuna təsir göstənuişdir. Burada əsas rolu tələbat amilləri oynamışdır.

Beynəlxalq səyahətlərə tələbat müxtəlif məqsədlərlə xaricə yollanan adamların çoxcəhətli xüsusiyyətlərini əks etdirən səbəblərin təsiri altında formalaşır. Həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə ən böyük qmp asudə vaxtını keçirmək üçün xaricə yollanan adamlardan ibarətdir. Buna görə də həmin kontingentlə bağlı olan amillər başlıca rol oynayır. Dünya Turizm Təşkilatının məlumatlarına əsasən, 2002-ci ildə dünyada səyyahların ümumi sayının 68,1%-i istirahət edənlərdən ibarət idi. İşgüzar və başqa məqsədlərlə, o cümlədən qohumları və dostlan ilə görüşmək üçün səfər edənlərin sayı bundan az olsa da, mühüm kateqoriyanı, müvafiq olaraq, 16,5% və 15,1% təşkil edirdi. Ancaq xaricə gedən adamlar çox vaxt səfər zamanı müxtəlif, məsələn, işgüzar, əyləncə yaxud müalicə və s. məqsədlərini bir araya sığışdırmaq istədiklərinə görə, bu kateqoriyalar arasında bəzən aydın seçilən sərhəd qoymaq çətindir. Sahibkarlıq fəaliyyətinin qloballaşması, gəlirlərin yüksəlməsi, səyahətlərin real dəyərinin aşağı düşməsi və asudə vaxtın çoxalması ilə əlaqədar olaraq turist səfərlərinə tələbatın sürətlə artması beynəlxalq turizm axınlarının güclənməsi üçün stimula çevrilmişdir. Xaricə səfərlər qarşısında məhdudiyyətlərin zəiflədilməsi, dövlət və özəl təşkilatlar tərəfindən yardım göstərilməsi də turizmin inkişafı üçün stimuldur. Ucuz kompleks turların geniş yayılması və başqa səbəblər xarici turist axınını gücləndirmişdir; immiqrasiya və əmək miqrasiyası, siyasi qalmaqallar, iqtisadi çətinliklər və s. də öz təsirini göstərmişdir.

Tələbatı müəyyən edən bu amillər arasında ən mühümləri gəlirlərin səviyyəsi və səyahətlərin qiymətidir. Beynəlxalq turizm istehlak səbətində firavanlıq predmeti kimi nəzərdən keçirildiyinə görə onun həcmi gəlirlərin səviyyəsindən asılı olaraq dəyişir. Bu qanunauyğunluq (tam təsdiqlənməsə də, beynəlxalq turizm getdikcə daha çox adamın asudə vaxtının keçirilməsinin adi

fonnasına çevrildiyinə görə,) öz əksini turizmin artım tempinin ÜDM-in artım tempindən yüksək olmasında tapır. Gəlirlərin ümumi artımı baş verdikdə, onun səyahətlərə sərf olunan hissəsi, bir qayda kimi, tam təmin olunma səviyyəsinə çatanadək çoxalır. Gəlirlərin səviyyəsinin dövri dəyişməsi ilə turizmə tələbatın, demək olar ki, paralel surətdə artıb-azalması bu pozitiv qarşılıqlı əlaqənin mövcudluğunu sübut edir. Amma turizm enmədən daha çox yüksəlişə reaksiya verdiyinə görə (bu, əsasən sosial güzəştlər və qloballaşma prosesləri kimi struktur amilləri ilə izah olunur), onun göstəricilərinin gəlirlərin dəyişməsinin dövriliyindən asılılığı nəzərəçarpan dərəcədə asimmetrikdir. Dünya üzrə turizmə çəkilən xərclərdə əhalisinin gəlirləri yüksək olan ölkələrin xüsusi çəkisinin böyüklüyü də gəlirlərdən asılılığı əks etdirir.

Tələbatı müəjryənləşdirən mühüm amillərdən biri də sərnişin daşımalarının tarifləridir. Belə ki, hava yolu ilə daşımaların qiymətinin kəskin ucuzlaşması uzun məsafələrə səyahətlərin əlçatanlığmı təmin etdi və sonuncu 10 ildə beynəlxalq turist axınlarının artmasında həlledici rol oynadı. Turistlərin xərclərinə (səyahətlərin dəyərinə) valyutaların mübadilə məzənnələrinin dəyişməsi və inflyasiya da təsir göstərir.

İş həftəsinin ixtisarı nəticəsində asudə vaxtın çoxalması və yeni rəsmi bayramların təsis olunması da xarici turizmə tələbatın dayanıqlı artımına şərait yaratmışdır. İnkişaf etmiş ölkələrdə ödənişli məzunİ3^ətlər ABŞ-dakı 2 həftədən Niderlanddakı 7 həftəyədək davam edir və bu fərq turist səfərlərinin müddətinə ciddi təsir göstərir. Amma son vaxtlar bu güzəştin verilməsinə münasibət dəyişmişdir və inkişaf etmiş ölkələrin çoxunda ödənişli məzuniyyətlər uzadılmır. Bu ölkələrin bir çoxunda məzuniyyət müddətinin yuxarı həddinin müəyyənləşdirilməsi xarici turist səfərlərinə tələbatın artımını məhdudlaşdıran amilə çevrilir.

Ölkələrin çoxunda xaricə getmək istəyən vətəndaşlar və ölkəyə gələn turistlər üçün müxtəlif məhdudiyyətlərin azaldılması da beynəlxalq turist səyahətlərinin sürətli artımını təmin edən səbəblərdəndir. Məsələn, Cənubi Koreyada ölkədən çıxış məhdudiyyətlərinin yumşaldılması 1980-ci illərin ikinci yarısında xaricə istirahətə gedənlərin sayını kəskin surətdə, hər il 30% artması ilə nəticələnmişdir. Son illərdə keçid iqtisadiyyatlı ölkələrin dünya bazarı sisteminə qovuşması da onlardan xarici ölkələrə, o cümlədən Cənub- Şərqi Asiyaya və Cənubi Afrikaya gedən vətəndaşların sayını çoxaltmışdır.

Regional inteqrasiya templərinin sürətləndiyi bölgələrdə regiondaxili səyahətlərin həcmi durmadan artır. İnteqrasiya qısa müddətə istirahətə

gedənlərin, əmək miqrantlarınm və işgüzar məqsədlərlə ölkədən çıxanların region daxilində hərəkətini asanlaşdınmşdır. Şengen sazişinin bağlanması Avropa İttifaqı ölkələrində sərhəd nəzarətini aradan qaldırmışdır. Bu tərəqqiyə baxmayaraq, ölkələrin çoxunda şəxslərin hərəkəti qarşısındakı maneələr hələ da qalmaqdadır. Bunların ən əsasları giriş-çıxışda birbaşa inzibati nəzarət, məsələn, vizanın, xarici pasportun və giriş üçün icazənin tələb edilməsi; dolayı nəzarət, məsələn, xarici valyutanın gətirilməsinin yaxud aparılmasının məhdudlaşdırılması, əsasən immiqrasiyaya və işçilərin miqrasiyasına aid olunsa da, həmçinin, səyyahlara da şamil edilən müxtəlif qanunlar və qaydalardır. Bu maneələrin aradan qaldırılması, inkişaf etməkdə olan ölkələrin çoxunda və keçid iqtisadiyyatlı ölkələrdə turizmə indiyədək reallaşdırılmamış tələbatın kəskin surətdə artması ilə nəticələnə bilər.

Demoqrafik dəyişikliklər, sosial-mədəni və ekoloji şəraitə diqqətin artması nəticəsində istehlakçıların verdiyi üstünlüklərin dəyişməsi inkişaf etmiş ölkələrdə turistlərin tələbatının xarakterinə getdikcə daha güclü təsir göstərir. Məsələn, İkinci Dünya müharibəsindən sonra doğulmuş nəsil və bu adamların firavanlıq şəraitində ömrünün uzanması ehtimalı potensial turist-səyyahların sayının artmasına gətirib çıxarmışdır. Bunun nəticəsində ağırlıq mərkəzi (xüsusilə inkişaf etmiş ölkələrdə) ənənə üzrə Günəşə, dənizə, qumlu çimərliklərə istinad edən standart kütləvi turizmdən, istirahətin geniş maraqlar dairəsini, 0 cümlədən mədəniyyətin, tarixi irsin, təbii landşaftının öyrənilməsini, əyləncələri, habelə idmanı, tədrisi, sağlamlığın möhkəmləndirilməsini və başqa özəl tələbatları əhatə edən, daha çevik və rəngarəng formalarına keçir.

Bununla belə, xərclərə miqyas və standartlaşdırma hesabına qənaət olunmasına əsaslanan ucuz, kütləvi turizmin yayılması gəlirləri nisbətən aşağı səviyyədə olan adamlara xaricə səfər etmək imkanı yaratdığına görə beynəlxalq turizmi inkişaf etdirir. Son illər inkişaf etmiş ölkələrdə turizmin yeni növlərinin artım templəri ciddi reqlamentləşdirilmiş kompleks turlardan istifadə olunmasını üstələməyə başlasa da, adi kütləvi turizm hələ müəyyən müddət ərzində inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrdə istirahətin əsas forması kimi qalacaqdır. Beləliklə, turistlərin hər bir yaş qrupu dünya turizm sənayesində öz yerini tutacaq.

Ticarətə və xarici investisiyalara qoyulan məhdudiyyətlər işgüzar səfərlərə dolayısı ilə təsir göstərir. Son vaxtlar sahibkarlıq fəaliyyətinin qloballaşmasının təsiri altında işgüzar, o cümlədən ticarət yarmarkalarına, sərgilərə və seminarlara səfərlərin sayı sürətli templərlə artmağa başlamışdır.

Bir qayda kimi, bu səfərlər beynəlxalq səyahətlərin daha mürəkkəb və bahalı, yüksək xidmət göstərilən növüdür. Geniş xarici ticarət əlaqələrinə və iri məbləğli xarici kapital qoyuluşlarına malik olan ölkələr, adətən, işgüzar məqsədlərlə səyahətə çıxan adamları çoxlu sayda qəbul edir və xaricə göndərir. Avropada işgüzar səfərlər, adətən, daha çox Fransa, İtaliya və Böyük Britaniyaya edilir. XX əsrin son onilliyində xarici ticarətin və investisiyaların həcminin sürətlə çoxalması inkişaf etməkdə olan ölkələrə səyahətlərin sayını da xeyli artırmışdır.

Müstəmləkə tarixi yaxın vaxtlaradək davam etmiş, keçmiş metropoliyaları ilə işgüzar və mədəni əlaqələrini itirməmiş yaxud əmək miqrant- larının, immiqrantlarm və qaçqınların böyük axınları ilə üzləşən dövlətlərdə xarici səfərlərin əksər qismi dostlar və qohumlarla görüşmək məqsədi daşıyır. Buna nümunə olaraq, Fransa ilə onun Afrikada və Asiyadakı keçmiş müstəmləkələri, Almaniya, Türkiyə və Portuqaliya, habelə ABŞ ilə Vyetnam arasında cərəyan edən turist axınlarını göstərmək olar. Son vaxtlar Asiyanın bəzi ölkələrindən Avstraliya, Kanada, Yeni Zelandiya və Qərbi Asiyanın neft ixrac edən ölkələrinə böyük immiqrasiya və xarici işçi qüvvəsinin geniş axınları onların qohumlarının bu marşrutlar üzrə səfərlərinin sayının artmasına səbəb olmuşdur.

Suyun bərk və maye tullantılarla çirklənməsi, ekoloji sistemlərə ziyan vurulması, ənənəvi mədəniyyətə yad ünsürlərin daxil edilməsi, əhalinin sıxlığı, cinayətkarlığın artması və adamların daha çox gəldiyi yerlərdə xəstəliklərin yayılması ilə bağlı olan problemlər insanlara səyahətlərin və turizmin artmasının sosial və ekoloji hüdudlarının olduğunu dərk etməyə kömək etdi. Bu, öz əksini ekoloji turizmin və aqro-turizmin getdikcə daha çox ölkədə yayılmasında tapır. Məsələn, zəngin biomüxtəlifliyə və əsrarəngiz təbii landşafta malik olan Braziliya və Kosta-Rika ekoloji vəziyyətin daha da pisləşməsinin qarşısını almaq və eyni zamanda öz valyuta daxilolmaları mənbələrini şaxələndirmək üçün ekoloji turizmi müvəffəqiyyətlə inkişaf etdirir. Analoji meyillər get-gedə daha çox sayda ölkədə inkişaf edərək, turizm sahəsində sahibkarlıqda xidmətlərin yeni növlərini yaradır.

***Taklif amilləri.*** Səyyah-turistlərə cürbəcür mallar və xidmətlər lazım olduğuna görə beynəlxalq turizm sahəsində təklifi müəyyənləşdirən amillər çoxsaylı və müxtəlifdir. Turizmin dağlar, çimərliklər, rütubətli tropik meşələr, qaynar bulaqlar, əlverişli iqlim şəraiti və mədəniyyət abidələri kirrii təkrar istehsal olunmayan təbii və mədəni resursları; səyyahların yerləşdirilməsi

vasitələri və infrastruktur; insan resursları və texniki imkanlar xüsusi əhəmiyyət kəsb edir. Bu amillər tələbatın ödənilməsi üçün potensialı müəyyənləşdirməklə yanaşı, ayrı-ayrı ölkələrin rəqabət qabiliyyətinin və ixtisaslaşmasının əsasını təşkil edir.

Ənənəvi təbiət və mədəniyyət resursları turistlərin cəlb olunmasının ən mühüm amilləridir. Bu resurslar əsasən dəyişmir və onlarla zəngin olan ölkələrə üstünlük təmin edir. Onlar bəşər tarixi ərzində böyük mədəni potensial toplamış Avropa dövlətlərinin kütləvi turizmi üçün ənənəvi cəlbediciliyin əsasıdır. Bununla yanaşı, Karib dənizi hövzəsi ölkələri. Şimali Afrika və Asiya-Sakit Okean regionunun ixrac alternativi olmayan yaxud əsas xammal növlərinin ixracının azalması təhlükəsi ilə qarşılaşan inkişaf etməkdə olan ölkələri öz təbiətinin üstünlüklərindən və ucuz işçi qüvvəsindən istifadə hesabına rəqabət qabiliyyətli turizm sənayesini genişləndirir. Son iki onillikdə Malayziya, Tailand və İndoneziyada ixracın şaxələndirilməsi nöqteyi- nəzərindən ən etibarlı alternativ kimi, beynəlxalq turizmin inkişafı dəstəklənirdi; yuxarıda qeyd etdiyimiz kimi, XXI əsrin ilk illərində turizmin gətirdiyi gəlirlər həmin ölkələrin ənənəvi ixrac maddələrindən: palma yağından və xam neftdən əldə olunan gəlirlərdən artıq olmuşdur; 2003-2005-ci illərdə bu meyil daha da möhkəmlənmişdi.

Turizm xidmətlərinin təklifi, ilk növbədə, turistlərin yerləşdirilməsi vasitələrinin tutumundan və keyfiyyətindən, infrastrukturdan, onlara xidmət göstərilməsinin başqa vasitələrindən asılıdır. Beynəlxalq səyahətlər üçün nəqliyyat imkanları xüsusi əhəmiyyət kəsb edir. Bütün bu amillərin inkişafı üçün isə iri məbləğdə kapital qoyuluşları tələb edilir. İnkişaf etmiş ölkələrin, bir qayda kimi, yüksək səviyyəli infrastrukturu vardır. Onun elementlərinin bir çoxundan, məsələn, otellərdən və nəqliyyatdan turizmlə yanaşı, başqa məqsədlər üçün də istifadə olunur. Eyni zamanda, daxili bazarda turizmə böyük tələbat müstəsna olaraq bu məqsəd üçün vasitələrin və obyektlərin yaradılmasını stimullaşdırır. Buna baxmayaraq, inkişaf etmiş dövlətlərin əksəriyyətində, xüsusilə də çoxsaylı səyyahları qəbul edən ölkələrdə mövsümün ən gərgin vaxtında hava limanları və yol nəqliyyatı həddən artıq yükləndiyindən, bu cür problemlərin aradan qaldırılması üçün əlavə səylər tələb olunur.

İnkişaf etməkdə olan ölkələrin çoxunda və MDB-də turistlərin qəbul olunması vasitələrinin tələblərə cavab verməməsi və infrastrukturun qüsurları turizm sənayesinin inkişafını ləngidir. Bu ölkələrin həmin sahələrə lazım olan

investisiyalar yönəltmək üçün vəsaitləri çatışmır. Məsələn, Afrikada, Cənubi və Qərbi Asiyada əksər hallarda turist səyahətlərinə tələbatın əsas mərkəzləri ilə birbaşa hava əlaqəsi yoxdur, yol-nəqliyyat şəbəkəsinin qeyri-məqbul vəziyyəti isə sosial-iqtisadi inkişafın, ümumi^/yətlə, aşağı olduğunu əks etdirir. Cənub-Şərqi Asiyanın iqtisadiyyatı dinamik inkişaf edən və infrastrukturu daha yüksək səviyyədə olan ölkələrində səyyah axınlarının sürətli artımı, inkişaf etmiş ölkələrdə olduğu kimi, onların imkanlarını üstələyir.

İnkişaf etməkdə olan ölkələrin çoxunda və keçid iqtisadiyyatlı ölkələrdə mehmanxana xidmətləri səviyyəsinin qeyri-qənaətbəxşliyi, kompleks turlar təşkil edən iri xarici turizm operatorları ilə danışıqlar apararkən özləri üçün daha sərfəli şərtlər əldə etmək imkanlarının məhdudluğu səbəbindən bir turistdən əldə edilən gəlirlərin həcmi cüzidir. Hər turist üzrə hesablanan mədaxillərin azlığı həmin ölkələrin yüksək keyfiyyətli xidmət üçün lazım olan maliyyələşməni təmin etmək qabiliyyətinə mənfi təsir göstərir. Ancaq inkişaf etməkdə olan ölkələrin bəzisində, turizmin genişlənməsində və onun marketinqində transmilli mehmanxanalar şəbəkələri böyük rol oynayır. Daha yüksək təşkilatçılıq səviyyəsi, xidmətlərin keyfiyyətinin sabitliyi və yaxşı tənzimlənmiş qlobal satış şəbəkəsi onlara turist axınını lazımi səviyyədə saxlamağa imkan verir. İnkişaf etməkdə olan ölkələrə maliyyə və texniki yardım göstərməklə, idarəçilik təcrübəsini və nou-haunu verməklə, onlar bu ölkələrə turizm sənayesini müasir səviyyədə qurmaq üçün öz potensialını yaratmaqda kömək edə bilər. Amma buradakı rəqabətin kifayət dərəcədə kəskin olduğuna və fırmalann fayda əldə edə bilməyəcəyi halda öz biliklərini potensial rəqiblərinə könülsüz verdiyinə görə bu, yalnız fərzİ5^ədir.

***Dövlətin rolu.*** Hökumət turizm sənayesinin inkişafında mühüm rol oynayır. Belə ki, inkişaf etməkdə olan ölkələrin çoxu xarici vaİ5mtanm əldə edilməsinin və ixrac bazasının genişləndirilməsinin strateji mühüm sektoru olan turizmin artması üçün məqsədyönlü səylər göstərir. Bu məqsədlə onlar turist axınlarının gəldiyi ölkələrlə hava əlaqəsini yaxşılaşdırır, xidmətlərin yeni növlərini işləyib hazırlayır, xarici valyutaların mübadiləsi rejimini daha da sadələşdirir, öz valyutasının devalvasiyasını həyata keçirir, turistlərin yerləşdirilməsi və turizm sektorunun özəlləşdirilməsi üzrə güzəştli tariflər müəyyən edirlər. Onlar investisiya xarakterli kapitalın çatışmazlığını aradan qaldırmaq üçün xarici investorların cəlb olunmasını stimullaşdırır və müştərək müəssisələrin yaradılması məqsədilə güzəştlər təyin edirlər.

Regional inteqrasiya üzrə səylərin gücləndirilməsi mənasında hökumətlər

regiondaxili səyahətlərə qoyulan məhdudiyyətləri aradan qaldırmağa, nəqliyyatı tənzimləməyə, öz qanunlarını və qaydalarını razılaşdınnağa, ümumi strategiya işləyib hazırlamağa cəhd edir. Onlar regional turizmin resurslarını birləşdinnək, daha cəlbedici olan müştərək turizm xidmətləri kompleksi təklif etmək, regional infrastrukturu inkişaf etdinnək, regionun ekologiyasını mühafizə etmək və öz turizm xidmətlərini reklamlaşdırmaq məqsədilə əməkdaşlığı daha da genişləndirir.

***Turizm sənayesinin qloballaşması.*** Sürətlə inkişaf edən qloballaşma və regional inteqrasiya prosesləri birbaşa və dolayısı ilə turist-səyyahların axıb gəlməsinə səbəb olur. Tələbatın təmin olunması baxımından insanların yerdəyişməsinə qoyulan məhdudiyyətlərin aradan qaldırılması və iqtisadiyyatın tənzimlənməsi normalarına yenidən baxılması hərəkət sərbəstliyini artırır və bununla da səyahətlər bazarını genişləndirir. Təklif baxımından bunlar bazara xarici rəqiblərin buraxılması sayəsində turizm sənayesinin rentabelliyini və rəqabət qabiliyyətini yüksəldir, habelə xarici kapital, informasiya texnologiyaları, hava xətlərinin müasir şəbəkələri, idarəçilik təcrübəsi və ixtisaslı işçi qüvvəsi kimi xarici resurslann əlçatanlığmı asanlaşdırır. Amma inkişaf səviyyəsindən, iqtisadiyyatının strukturundan və dövlət idarəçiliyinin xarakterindən asılı olaraq, bu amillərin təsir dərəcəsi ölkələr üzrə müxtəlif olacaqdır. Bu sahədəki maneələr yüksək, ölkələr arasındakı fərqlər əhəmi)^ətli olduğundan, beynəlxalq səyahətlərin liberallaşdırılması potensial fayda götürülməsini vəd edir.

Sahibkarlıq fəalİ3^ətinin ölkədən-ölkəyə daha sərbəst yerdəyişməsi və qloballaşma nəticəsində rəqabətin güclənməsi çox vaxt nəzarətin az sayda iri transmilli mehmanxana konsernlərinin əlində cəmləşməsinə səbəb olur. Güclü rəqabət qabiliyyətinə malik olan bu cür iri mehmanxanalar şəbəkələrinin, adətən, təşkilati səviyyəsi zəif, kapital, idarəçilik təcrübəsi və marketinq baxımından əlverişsiz mövqedə olan kiçik yerli mehmanxanalar üzərində dominantlıq edəcəyi təhlükəsi vardır. Turizm sənayesinin əsasən çoxsaylı xırda müəssisələrlə təmsil olunduğu Fransa, İtaliya və Böyük Britaniya kimi ölkələrdə qloballaşma buna əhəmiyyətli təsir göstərə bilər. İnkişaf etməkdə olan ölkələrdə də yerli sahibkarlara məxsus olan mehmanxanalardakı vəziyyət bənzərdir. Müflisləşməmək üçün kiçik fınnalar ən iri mehmanxana konsernləri ilə əsasən françayzinq müqavilələri və idarəçilik haqqında müqavilələri bağlamaq yolu ilə strateji ittifaqa girməyə çalışır yaxud turistlərin konkret tələbatını ödəməklə bazar «boşluqlarma» xidmət sahəsində ixtisaslaşır. Bunun

nəticəsində bazar parçalanır, xidmətlər, habelə müxtəlif turist marşrutlarının qiymətlərinin geniş diapazonu əmələ gəlir.

## 11.11. Müasir dünyada beynəlxalq miqrasiya sahəsində yeni təzahürlər

1951-ei ildə yaradılmış, mənzil-qərargahı Cenevrədə yerləşən Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT, IMO - International Migration Organization) 2010-cu ilin sonunda «Dünya Miqrasiya Hesabatı 2010» nəşr etmişdir. BMqT-nin qiymətləndinnəsinə görə, 2010-cu ildə dünyada miqrantlarm sayı 214 milyon nəfər olmuşdur. Dünya əhalisində miqrantlarm xüsusi çəkisi 3,1% (2005-ci ildə - 3%) təşkil etmişdir. Əvvəlki illərdə olduğu kimi, ölkədəki miqrantlarm sayma görə dünyada birinei yeri ABŞ tutur (42,8 milyon nəfər) və bu göstəriciyə görə özündən sonra gələn Rusiya, Almaniya, Səudiyyə Ərəbistanı, Kanada, Fransa və Böyük Britaniya, İspaniya, Hindistan və Ukraynam bir neçə dəfə ötür. Dünyadakı miqrantlarm 9/10 hissəsi (90%-i) bu 10 ölkənin, 0 cümlədən 1/5 hissəsi ABŞ-m və 6%-dən azı Rusiyanın payına düşür.

Hesabatın müəllifləri xüsusi qeyd edirlər ki, yuxarıda göstərilən ölkələrdən beşi: Almaniya, Hindistan, Rusiya, Ukrayna və Böyük Britaniya təkeə ərazisində olan xarici vətəndaşların (immiqrantlarm) sayma görə deyil, həmçinin, xaricə yollanmış vətəndaşlarının (mühacirlərin) sayma görə də birinci onluğa daxildir. Bu fakt miqrantlarm qarşılıqlı axınlarının, yəni artıq uzun illərdir ki, beynəlxalq ticarət və kapitalların hərəkəti üçün səciyyəvi olan meylin rolunun getdikcə güclənməsinə dəlalət edir.

Hesabatda böhranın miqrasiya proseslərinə təsirinin nəticələri təhlil edilir. Belə ki, böhran miqrantlarm öz vətənlərinə göndərdikləri pul köçürmələrinə daha çox təsir göstənuiş, onun məbləği 1985-ci ildən sonra ilk dəfə olaraq 2009-cu ildə 414 milyard dollara düşmüşdür. Pul köçürmələrinin % hissəsinə yaxmı inkişaf etməkdə olan ölkələrin payına düşür və onların tədiyyə balansında və ümumiyyətlə, iqtisadiyyatında mühüm rol oynayır. 2009-cu ilin məlumatlarına əsasən, miqrantlardan alman pul köçürmələrinin ilk onluğuna (milyard dollarla) Hindistan (49,3), Çin (47,6), Meksika (22,2), Filippin (19,7), Fransa (15,3), Banqladeş (10,7), İspaniya (10,0), Almaniya (9,9), Nigeriya (9,6) və Belçika (9,5) daxildir. Böhran miqrantlar arasında işsizliyə də nəzərəçarpan təsir göstərmiş, bu göstərici yerli əhali ilə müqayisədə dəfələrlə

çox artmışdır. Nəticədə miqrantlarla yerli əhalinin işsizlik səviyyələri arasındakı ənənəvi fərq 2010-cu ildə misli görünməmiş həddə çatmışdır. Məsələn, İspaniyada miqrantlar arasında işsizlik səviyyəsi 28%, yerli əhalininki isə 15,8% olmuşdur.

Hesabatda BMqT-nin sərhədi müvafiq icazə olmadan keçən şəxslər kimi yanaşdığı qeyri-leqal miqrantların və viza yaxud iş üçün icazə müddəti bitmiş adamların problemlərinə də böyük diqqət yetirilir. Müxtəlif qiymətləndinnələrə görə, dünyadakı miqrantların ümumi sayının 10-15%-i, o cümlədən ABŞ-da təqribən 22%-i qeyri-leqaldır. Belə hesab olunur ki, inkişaf etməkdə olan ölkələrdən gəlmiş qeyri-leqalların payı onların ümumi sayının *'A-i* qədərdir. Miqrasiyanın qeyri-qanuni təzahürlərinin: insan hüquqlarının pozulması, cinayətlərin bəzi növləri, insanın alveri, millətlərarası münaqişələr və s. məhz bununla əlaqədardır.

Maraqlıdır ki, böhrana baxmayaraq, qeyri-leqal miqrantların çoxunun vətənə qayıtmaq üçün vəsaiti olmadığından onların ümumi sayı 2010-cu ildə də əvvəlki ilin səviyyəsində qalmışdır. Bundan başqa, dünyanın əksər ölkələrində işgüzar fəallığın zəiflədiyi şəraitdə miqrant axınlarının istiqamətləndiyi əsas ölkələrdə iş üçün rəsmi icazələrin verilməsinin məhdudlaşdırılması səbəbindən onların sayı hətta çoxala bilərdi.

2009-2010-cu illərdə bir sıra ölkələrdə miqrasiya siyasətinin sərtləşdirilməsi və sərhəd nəzarətinin gücləndirilməsi nəticəsində qeyri-leqal miqrantlarm yeni axınının qarşısı alınırdı. Məsələn, görülən tədbirlər nəticəsində ABŞ-Meksika sərhədində qeyri-leqal miqrasiya 2006-cı ildəki 1 milyon nəfərdən 2009-cu ildə 600 min nəfərə və 2010-cu ildə 550 min nəfərədək azalmışdır.

İtaliyanın Lampeduza adasında sahilə düşüb Avropaya gələn qeyri-leqal miqrantların sayının çoxalması ilə əlaqədar olaraq, qitənin ölkələri Aİ daxilində sərhəd nəzarətinin gücləndirilməsi barədə düşünür.

Hesabatın BMqT tərəfindən MDB ölkələrinin, Albaniyanın və keçmiş Yuqoslaviyanın bəzi dövlətlərinin daxil edildiyi «Şərqi Avropa və Mərkəzi Asiya» bölməsi xüsusi maraq doğurur. BMqT-nin qiymətləndirməsinə görə, bu regionda 2010-cu ildə cəmi 25,6 milyon miqrant, o cümlədən (min nəfərlə): Rusiyada - 12270, Ukraynada - 5258, Qazaxıstanda - 3079, Özbəkistanda - 1176, Belarusda - 1090, Serbiyada - 525, Moldovada - 408, Ermənistanda - 324, Tacikistanda - 284 və Azərbaycanda - 264 olmuşdur. 2000-2005-ci illərlə müqayisədə miqrantların sayının artımı yalnız Rusiyada və Qazaxıstanda müşahidə edilmiş, adı çəkilən qalan 8 ölkədə isə onların sayı azalmağa doğru

meyil etmişdir.

Regionun əsas ölkələrinin əhalisinin ümumi sayında miqrantlarm xüsusi çəkisi Qazaxıstanda - 19,5%, Ukraynada - 11,6%, Moldova və Belarusda - 11,4% və Rusiyada - 8,7% olmuşdur. 2009-cu ilin məlumatlarına görə. Şərqi Avropa və Mərkəzi Asiya dövlətlərinə miqrantlardan daxil olan pul köçünnələrinin ümumi məbləği 27,1 milyard dollar, o cümlədən Rusiyaya - 5,5 milyard dollar, Serbiyaya - 5,4 milyard dollar, Ukraynaya - 4,5 milyard dollar, Bosniya və Herseqovinaya - 2,6 milyard dollar, Tacikistana - 1,8 milyard dollar idi. Baş vermiş böhran nəticəsində göstərilən ölkələrin hamısında bu göstərici əvvəlki illə müqayisədə aşağı olmuşdur.

Hesabatda qeyd olunduğu kimi, iqtisadİ3^atı miqrantlarm pul köçürmələrindən daha güclü asılı olan ölkələr məhz Şərqi Avropada və Mərkəzi Asiyadadır. Bu baxımdan Tacikistan dünya rekordçusudur: 2008-ci ildə onun ÜDM-nin 49,6%-i həmin köçürmələrdən ibarət olmuşdur; onun ardınca Moldova (31,4%), Qırğızıstan (27,9%), Bosniya və Herseqovina (14,8%), Albaniya (12,2%) gəlir.

Ərazisində olan miqrantlarm öz vətənlərinə pul köçürmələri nəticəsində regionun ölkələrindən vəsait axını isə bura miqrasiya kanalları yolu ilə daxil olan pulların məbləğindən çox olmuşdur. Məsələn, 2008-ci ildə regiondan pul vəsaitlərinin axınının məbləği 31,7 milyard dollar idi. Bu məbləğin 80%-dən çoxu Rusiyanın payına düşür: buradan miqrantlarm pul köçürmələri yolu ilə 26,1 milyard dollar çıxmışdır (2007-ci ildə 17,8 və 2006-cı ildə 11,5 milyard dollar). Başqa sözlə, Rusiyada miqrantlarm pul köçünnələri yolu ilə çıxartdığı vəsait, daxil olan məbləği 4 dəfədən artıq üstələmişdir.

Bununla bərabər. Hesabatda keçmiş SSRİ vətəndaşları üçün prosedurların sadələşdirilməsi üzrə 2006-cı ildə qanunvericiliyində aparılan dəyişikliklər nəticəsində Rusiyanın nail olduğu müəyyən tərəqqi də qeyd edilir. Bu vaxtadək qeydiyyatdan keçməmiş immiqrantlarm payı 46%-dən növbəti ildə 15%-dək aşağı düşmüşdü.

Hesabatın böyük bir hissəsi miqrasiya axınlarının artması ilə əlaqədar meydana çıxan problemlərin həllinə yönəlmiş təcili tədbirlərin həyata keçirilməsinin əsaslandırılması zəruriliyinə həsr olunmuşdur. Müəlliflərin fikrincə, dünya üzrə 2000-ci ildə 150 milyon nəfər olan miqrantlarm sayının 2010-cu ildə 214 milyon nəfərə çatması durmadan davam edəcək və 2050-ci ildə 405 milyon nəfər ola bilər. Bu artımın əsas hərəkətverici qüvvələri əvvəlki kimi, inkişaf etməkdə olan yoxsul ölkələrdə işçi qüvvəsinin izafıliyi ilə inkişaf

etmiş və sürətlə tərəqqi edən ölkələrdə bunun çatışmazlığı arasında qeyri-mütənasibliyin artması, urbanizasiya, əhalinin qocalması, ətraf mühitdə baş verən arzuolunmaz dəyişikliklər, təbii fəlakətlərdir.

Hesabat müəlliflərinin rəyinə görə, bu qlobal çağırışa adekvat cavab vemıək üçün bütün ölkələrin hökumətləri əvvəlcədən zəruri tədbirlər işləyib hazırlamalı, müvafiq malİ3^ə və insan resurslarının ehtiyatlarını yaratmalıdır. Yalnız bu yolla miqrasiyadan maksimum faydalı nəticə əldə etmək və onunla bağlı olan mənfi təzahürlərin qarşısını almaq mümkündür. Hesabatda tövsiyə olunan tədbirlər miqrantlarm mənşə, təyinat və tranziti ölkələri arasında əməkdaşlığın və koordinasiyanın gücləndirilməsini, miqrasiya siyasətinin bütün səviyyələrində qısa və uzunmüddətli məqsədlərin dəqiq müəyyənləş- dirilməsini, miqrasiya proseslərinin idarə olunmasının hüquqi bazasının yaradılmasını, statistik məlumatlarla daha çevik mübadilə edilməsini və onların dəqiq seçiminin təmin olunmasını, müxtəlif monitorinq sistemlərinin yaradılmasını nəzərdə tutur. Hesabatın müəlliflərinin rəyinə görə, bu məqsədlərə çatmaq üçün hazırda gözəl şanslar mövcuddur. Hesabatın mühüm məqamlarından biri, əmək resurslarının hərəkətinin mütəhərrikliyinə və bununla da ayrı-ayrı ölkələrin iqtisadi, sosial inkişafına mənfi təsir göstərə bildiyinə görə, miqrasiyanın süni surətdə məhdudlaşdırılması tədbirlərinin həyata keçirilməsinə nəinki bəraət qazandırılmaması, hətta tövsiyə edilməməsidir.'

Düşünürəm ki, «Dünya Miqrasiya Hesabatı 2010» bütövlükdə, o cümlədən Rusiya şəraitində və postsovet məkanında miqrasiyanın mürəkkəb problemlərinin gələcək təhlili üçün kifayət qədər geniş və keyfiyyətli material verir.

## Xülasə

• Beynəlxalq ticarətin ümumdünya sistemində beynəlxalq biznes xidmətləri və beynəlxalq turizm mühüm yer tutur. Son onilliklərdə beynəlxalq biznes xidmətləri xüsusi sürətlə inkişaf edir, özü də müştəriyə təklif olunan xidmətlərin sayı çoxsaylı amillərlə müəyyən olunur. «Biznes xidmətləri»nin təhlilinin predmeti mallarla klassik ticarətlə müqayisədə daha mürəkkəbdir və insanların yeni tələbatlarına uyğun olaraq təklif edilən biznes xidmətlərinin çeşidi genişləndikcə, daha da çətinləşir. Beynəlxalq bazarda təklif olunan biznes xidmətlərinin çoxu «duyulmayan» aktiv, yəni əqli mülkiyyətin bir

^ *Сафронов С.В.* Все о миграции в мире // Независимая газета, 2011. 19 янв. С.6.

hissəsidir və istehsalçı-şirkətə həmin xidməti satarkən rəqabət üstünlükləri təmin edir.

• Biznes xidmətlərinin inkişafının intensivliyi baxımından, sözsüz ki, informasiya texnologiyaları və rabitə ilə bağlılığı olan xidmətlər birinci yerdədir və bu, malların, kapitalların yerdəyişməsi, habelə yüklərin və sərnişinlərin daşınmasının nəqliyyat təminatı üçün böyük əhəmiyyətə malikdir. Güman ki, biznes xidmətlərinin bu istiqaməti artıq yaxın illərdə menecmentlə əlaqədar olan xidmətlərlə birlikdə dinamik inkişaf edəcəkdir. Beynəlmiləlləşmə proseslərinin dərinləşməsi, beynəlxalq əmək bölgüsü, elmi-texniki tərəqqi, həyat səviyyəsinin yüksəlməsi və başqa struktur amilləri xidmətlər sənayesinin, 0 cümlədən onun beynəlxalq turizm kimi sahəsinin fonnalaşmasmda getdikcə güclənən rol oynamağa başlayır.

• TMK-nm beynəlxalq istehsalının sürətli inkişafı, sahibkarlıq fəaliyyətinin yerdəyişməsi, beynəlxalq ticarətin mürəkkəbləşməsi, maliyyə axınlarının intensivləşməsi, nəqliyyat vasitələrinin və informasiya texnologiyalarının yayılınası beynəlxalq biznes xidmətlərinin yeni növlərini yaradır.

• Beynəlxalq səyahətlərin artımına inkişaf etməkdə olan və keçid iqtisadiyyatı ölkələrində varlı orta təbəqənin formalaşması, inkişaf etmiş ölkələrdə zövqlərin və həyat tərzinin dəyişməsi, turizm sahəsində yeni xidmət növlərinin təklif olunması və bunun marketinqi getdikcə daha çox təsir göstərir. Gözlənildiyi kimi, bütün bunlar rəqabətin stimullaşdırılması, rentabelliyin və keyfiyyətin yüksəlməsi, təklif olunan xidmətlər spektrinin genişləndirilməsi yolu ilə beynəlxalq səyahətlərin gələcək sürətli inkişafını təmin etməlidir. İnkişaf etmiş ölkələr tənzimləmniş daxili turizm sənayesinin və infrastrukturun mövcudluğu, qabaqcıl texnologiyalardan, insan və maliyyə resurslarının daha səmərəli istifadə olunması sayəsində bu sahəni gələcəkdə də genişləndirmək imkanlarına malikdir. Yüksək rəqabət qabiliyyəti olan mehmanxana konsernlərinin, hava xətlərinin və səyahət bürolarının getdikcə genişlənən şəbəkəsi infonnasiya sistemlərinin qloballaşması ilə birlikdə, gələcəkdə də əcnəbi turistlərin həmin ölkələrə cəlb olunmasına imkan verəcək.

• Turizmin yeni istiqamətləri inkişaf etmiş ölkələrdə təklif edilən xidmətlərin təkmilləşdirilməsi, bazarın seqmentləşdirilməsi və xidmət keyfiyyətinin yüksəldilməsi üzrə daha böyük potensialın mövcudluğu sayəsində artım üçün əlavə imkanlar açır. Turizmin yeni, yüksək keyfiyyətli və xüsusi maraqlar nəzərə alınmaqla daha çox diferensiallaşdırılmış məhsulları onları nisbətən baha qiymətlə satmaq imkanı yaradır və həmin ölkələrə mütləq

üstünlük təmin edir. Bu istiqamətlərdə onlar xidmətləri diferensiallaşdımıaq və keyfiyyətini yüksəltmək yolu ilə inkişaf etməkdə olan ölkələrin az maaş alan işçi qüvvəsi ilə rəqabət apara bilir. Bazarın müəyyən «boşluqlarma» xidmət sahəsində ixtisaslaşmaqla, bu ölkələrin kiçik firmaları hətta amansız rəqabət şəraitində belə, salamat qala bilir.

• Turizm üçün böyük resurslara və ucuz işçi qüvvəsinə malik inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrin çoxunda, ehtimal ki, bu sahə xarici valyuta mədaxillərinin alternativ strateji mənbəyi olacaqdır. Belə ki, coğrafi cəhətdən turizmin əsas mənbələrindən uzaqda yerləşən inkişaf etməkdə olan ölkələrlə hava əlaqəsinin müasir vasitələri tətbiq olunduqdan sonra onlar tezliklə dünya səyahətlər bazarında yeni rəqabət qabiliyyətli bölgələrə çevrilə bilər.

• Turizm müəssisələrinin və onlarla əlaqədar olan maliyyə kapitalının nisbətən sərbəst yerdəyişməsi inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrdə səyahətlər sənayesinin inkişafının maliyyələşdirilməsindəki çətinlikləri aradan qaldırmağa yardım edəcək. Məsələn, transmilli mehmanxanalar şəbəkəsi genişlənəcək, onların kapitalı və təcrübəsi isə ucuz yerli işçi qüvvəsi və turizmin təbii resursları ilə qovuşaraq, regionlarda turizm sənayesinin rəqabət qabiliyyətinin yüksəlməsinə səbəb olacaq. Bu transmilli şəbəkələr, həmçinin, marketinq baxımından da üstünlüklər təmin edəcək. Lakin transmilli mehmanxanalar şəbəkəsinin yerli turizm sənayesinə verə biləcəyi töhfə onlar və yerli mehmanxanalar arasında bağlanılan müqavilələrin real məzmunundan asılıdır.

• Beynəlxalq turizm səyahətlərinin liberallaşdırılması və şirkətlərin, o cümlədən turizm sənayesinin transmillliləşməsi, regional və beynəlxalq institusional müqavilələrlə birlikdə qlobal turizm bazarının daha da genişlənməsinə və milli sərhədlərin şəffaflığının artmasına imkan yaradacaq. Artıq beynəlxalq səyahətlərin qiyməti potensial turist kütləsi üçün əlçatan olmuş, ölkədən-ölkəyə yerdəyişmə zamanı yoldaolma müddəti qısalmışdır. Turizm operatorları səyahətin qiymətini və vaxtını optimallaşdırmaq üçün bir turda bir neçə təyinat məntəqəsini coğrafi yaxınlıq və turizm imkanlarının bir- birini tamamlama baxımından birləşdirdiyinə görə, çox ölkəni əhatə edən kompleks turlar ölkələrin ixtisaslaşması arasındakı sərhədləri silmişdir. Həyat tərzindəki fərqlər, rifahın yüksəlməsi, demoqrafik dəyişikliklər və uzun məsafələr üçün nəzərdə tutulan xidmətlərin yayılması, şübhəsiz ki, XXI əsrdə səyahətlərin inkişafına öz təsirini göstərməlidir.

• MDB üzvü olan ölkələrin, demək olar ki, hamısı xarici turistləri qəbul etmək üçün potensial imkanlara malikdir. Ancaq infrastrukturun onlara xas olan geriliyi, hələlik bu potensialı reallaşdırmağa imkan vermir. Birliyin daxili potensialı da istifadəsiz qalır. Səbəblər göz qabağındadır: 1996-cı ildə MDB- nin Beynəlxalq Turizm Assosiasiyası tərəfindən «MDB iştirakçısı olan ölkələr arasında turizm əlaqələrinin inkişafı haqqında» Dövlətlərarası Məqsədli Proqramının hazırlanmasına baxmayaraq, qiymətlərin əsaslandırılmadan bahalaşması, şəxsi təhlükəsizliyə təhdidlərin güclənməsi, istirahət üçün lazımi şəraitin olmaması və s. MDB daxilində, o cümlədən Rusiyada (bu, xüsusilə Moskvaya aiddir) səyahətlərin sayının azalmasına və turistlərin xarici ölkələrə üz tutmasına səbəb olmuşdur. Bu isə, əldən buraxılmış gəlir şəklində maliyyə itkiləri ilə nəticələnir.

## Yoxlama sualları

1. Beynəlxalq biznes xidmətlərinin mahiyyəti və məzmunu nədən ibarətdir, onların hansı növləri var? Biznes və kommersiya xidmətləri ilə ticarətin artımının səbəbləri nədir? Dünya üzrə xidmətlərin ixracının strukturu və onların miqyası necədir?
2. Biznes xidmətlərinin formaları hansılardır?
3. Biznes xidmətləri inkişaf etmiş, inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrdə necə yayılır? Xidmətlərin ölkələr üzrə cəmləşməsin! xarakterizə edin.
4. Xidmətlərlə beynəlxalq ticarətin xüsusiyyətləri özünü nədə büruzə verir?
5. Xarici ticarətə xidmətlər göstərilməsi ilə bağlı olan nəqliyyat xidmətlərinin rolu nədədir? Nəqliyyat xidmətlərinin göstərilməsində «İnkotenns-2010» sənədinin əhəmiyyəti nədən ibarətdir?
6. Konosamentin mahiyyətini izah edin və onun növlərini sadalayın.
7. İnformasiya, İnternet, rabitə xidmətləri, proqram təminatı sahəsində xidmətlərin məzmununu izah edin.
8. Beynəlxalq ticarətdə turizm sektorunu təhlil edin, onun əhəmiyyətini müəyyənləşdirin.
9. Beynəlxalq turizm məsələlərini təhlil edərkən hansı metodlardan istifadə olunur? 2001-2010-cu illərdə beynəlxalq turizmdə hansı meyillər üstün

olmuşdur? Beynəlxalq turizmin uçotu iqtisadi artıma necə təsir göstərir?

10. 2001-2010-cu illərdə beynəlxalq turizmin əsas göstəricilərinin təhlilini verin və beynəlxalq turizm səfərlərinin ölkələr üzrə mərkəzləşməsin! göstərin.

11. Beynəlxalq səfərlərə tələbat necə fonnalaşır? Turizm xidmətlərinin təklifinin amilləri, tələbatın keyfiyyəti amilləri hansılardır? Turizm sənayesinin qloballaşmasının mahiyyəti nədədir?

## Referatlann mövzuları

1. Be)məlxalq ticari-iqtisadi fəaliyyətdə biznes xidmətləri anlayışı və onun məzmunu
2. Beynəlxalq səyahətlər (turizm) anlayışı və onun məzmunu
3. Dünya regionlarında biznes xidmətlərinin ümumi xarakteristikası
4. Beynəlxalq turizmin ümumi xarakteristikası və 2001-2010-cu illərdə ona təsir göstərən amillər. Coğrafiya, göstəricilər
5. Biznes xidmətlərinin fonnaları, növləri və tipləri. Xidmətlərin yeni fonnaları

# Fəsil 12

# BEYNƏLXALQ TİCARƏTDƏ QİYMƏTLƏR

## 12.1. Məsələnin nəzəriyyəsi və qiymətlərin təsnifatı

***Qiymət anlayışı, onun məzınımu və mahiyyəti*** İqtisadi nəzəriyyəyə görə, *qiymət* - dəyərin çevrilmiş formasıdır. *Dəyər* (qiymətlilik) - əmtəənin həcminin (miqyasının əhəmiyyətliyinin) daxili meyarıdır. Dəyər pulla ifadə olunarsa, qiyməti müəyyən edir. Aristotelin vaxtından *istehlak* və *mübadilə* dəyəri anlayışları fərqləndirilir. *İstehlak dəyəri* əmtəənin insanların tələbatlarını ödəmə qabiliyyətini əks etdirir. *Mübadilə dəyəri* - əmtəənin başqa əmtəələrə dəyişmək qabiliyyəti baxımından qiymətliyidir. İki əmtəənin mübadilə nisbəti onların sabit pul əmtəəsində ifadə olunmuş nisbi qiymətlərini ifadə edir. Əmtəənin mübadilə dəyəri istehsal məsrəfləri (əmək haqqı, mənfəət və renta) əsasında müəyyənləşdirilir. Əmtəənin təbii qiymətinin istehsal məsrəfləri üzrə fonnalaşmasma və faktiki qiymətinin tələbatdan asılı olaraq onun ətrafında tərəddüd etməsinə əsaslanan A.Smit əmtəənin qiymətini bu cür izah edirdi. Əmək - dəyər (qiymətlilik) nəzəriyyəsinin banisi D.Rikardo iddia edirdi ki, «əmtəənin dəyərliyi... onun istehsalı üçün zəruri olan əməyin nisbi miqdarından asılıdır»

XIX əsrin ikinci yarısında neoklassik məktəbin iqtisadçıları diqqətlərini daxili dəyər üzərində deyil, bazar qiymətini müəyyənləşdirən amillər üzərində cəmləşdirirdi. Onlar sələflərindən fərqli olaraq, mübadilə dəyəri nəzəriyyəsini hazırlayarkən əmtəənin faydahlığına müraciət etmişdilər. Qiymət mübadilə dəyərinin səbəbi və mənbəyi olan son faydalılıq həddi ilə müəyyən edilir. Buna əsaslanaraq, A.Marşall bazar qİ3mıətinin tələb və təklifin təsiri altında yaranması ideyasını irəli sürmüşdür. Müasir iqtisadi nəzərij^ə təhlil prosesində dəyərlilik nəzəriyyəsi ilə qiymətin əmələ gəlməsi nəzəriyyəsini bir-birindən ayıran marksist yanaşmasını təkzib edərək, bu istiqamətdə inkişafı davam etdirmişdir.

Elmi və ixtisaslaşmış iqtisadi ədəbiyyatda, beynəlxalq ticarət təcrübəsində qiymətin müxtəlif anlayışı ilə qarşılaşmaq olar. Onların bəzilərini nəzərdən keçirək:

- *ədalətli qiymət* (just price) - əxlaq nöqteyi-nəzərindən *düzgün* kimi

dəyərləndirilən qiymət. Bu qiymət təbii ədalətlilik prinsiplərinə istinad edir və bazar qiymətindən fərqli olaraq, resursların allokasiyası (sahələr, regionlar, fəaliyyət növləri arasında bölgüsü) funksiyalarını yerinə yetirmir;

• ***təbii qiymət*** (natural price) - əmtəənin bazar dəyəri ətrafında tərəddüd edən dəyərini (qiymətliyini) təsvir etmək üçün A.Smit tərəfindən istifadə olunmuş tennin;

• ***alternativ qiymət*** (opportunity cost) - müəyyən əmtəə vahidinin istehsalı üçün zəruri olan iş vaxtının başqa əmtəə vahidinin istehsalı üçün lazım olan iş vaxtı vasitəsilə ifadə olunması;

• ***transfer qiymətləri*** (transfer prices) - eyni korporasiyanın müxtəlif ölkələrdə yerləşən bölmələri arasında korporasiyadaxili qiymətlərindən fərqlənən qiymətlər; bu qiymətlərdən mənfəətin köçürülməsi və vergilərin azaldılması məqsədilə istifadə olunur;

• ***kölgə qiyməti*** (shadow price) - bazar qiyməti olmayan malın yaxud xidmətin şərti qiyməti. Bazar qiymətləri alternativ məsrəfləri əks etdinnədiyi halda, xərclərin təhlili zamanı kölgə qiymətlərinə müraciət olunur. Termindən həmçinin, «adekvat» (amma elmi yanaşma ilə heç bir əlaqəsi olmayan) kölgə qiymətlərinin mövcud olduğu kölgə iqtisadiyyatı təhlil olunarkən istifadə edilir.

Tarixən hər hansı şirkətin yaxud tacirin konkret malı satmaq üçün milli sərhədlərdən kənara çıxarması daha yüksək mənfəət normasının axtarıldığını ifadə edirdi və bu halda əmtəənin qiyməti amili həlledici rol oynayırdı. Əmtəənin qiyməti (alınan və ya satılan) alqı-satqı müqaviləsinin ən mühüm şərtlərindən biridir. Buna görə də hər bir xarici ticarət sazişində onun ən mühüm məqamı kimi, qiymət haqqında şərtlər göstərilir.

***Dünya bazarlarında qiymətlərin müxtəlifliyi*** Dünya bazarlarında müxtəlif firmaların istehsal etdiyi eyni mallann ayrı-ayrı ölkələrdə yaxud öz mallarını müxtəlif ölkələrdə və hətta eyni ölkənin müxtəlif şəhərlərində satan firmaların bir-birindən fərqlənən çoxsaylı qiymətləri mövcuddur. Beynəlxalq bazarlarda qiymətlərin səpələnməsi beynəlxalq ticarət əlaqələrinin müxtəlifliyi, ayrı-ayrı ölkələrdə, regionlarda istehsal amilləri arasındakı fərqlər, habelə əmtəənin qiymətinin bahalaşmasına yaxud ucuzlaşmasına təsir göstərən başqa, 0 cümlədən siyasi amillərin təsiri ilə izah olunur. Bu amillərə aşağıdakılar daxildir:

- bazarın strukturundakı fərqlər;
- vergi, gömrük, büdcə siyasəti;

• resursların ölkələr və ölkə daxilində hərəkətindəki sürət arasında fərqlər;

• daxili və xarici ticarətə dövlət müdaxiləsi dərəcəsinin müxtəlifliyi və s.

Qeyd olunmalıdır ki, dünya bazarı istənilən milli bazarla müqayisədə xeyli mürəkkəb təzahürdür. Məsələn, dünya bazarları üçün rəqabətin daha kəskin olması və dövlət müdaxiləsinin özünəxas fonnaları xarakterikdir. Hər bir ölkənin qiymətin əmələ gəlməsinə və qiymətlərin hərəkətinə müxtəlif tərzdə təsir göstərən qanunları vardır. Burada konkret əmtəənin (onun əvəzedicilərinin) dünya bazarının konyunkturunun öyrənilməsinə, onun bazara çıxarılmasına çəkilən xərcləri və s. nəzərə almaq lazımdır. Bunlar tranzaksiya yaxud marketinq xərcləri adlandırılır.

***Qiymətlərin növləri.*** Dünya bazarının konyunkturasının uçotu və təhlili üçün qiymətlərin aşağıdakı növlərindən istifadə olunur və onlar nəşr edilir;

• sorğu qiymətləri («soruşulan», satışda isə aşağı olan qiymətlər);

• xarici ticarətin statistikası qiymətləri (yerinə yetirilmiş sazişləri və xarici ticarət qiymətlərinin dinamikasını əks etdirir);

• birja kotirovkalarmm qiymətləri (birjada müvafiq qiymətlərlə yerinə yetirilən əməliyyatları təsbit edir);

• faktiki yerinə yetirilmiş əməliyyatların və kontraktların qiymətləri (əmtəənin konkret növlərinin bazar qiymətlərini daha dolğun əks etdirir).

Kontrakt qiymətində qiymətin ölçü vahidi, bazis, valyuta, təsbit olunma üsulu və qiymətin səviyyəsi müəyyən olunur.

***Qiymətin ölçü vahidi.*** Kontrakt qiyməti müxtəlif ölçü vahidlərində müəyyən oluna bilər;

• çəki, uzunluq, sahə, həcm, ədəd yaxud hesablama vahidləri (yüzlük, düjün və s.) formasında;

• malda əsas maddənin bazis tərkibi (filizin, kimyəvi məmulatın və s.) əsasında çəki vahidlərində;

• kənar qatışıqlarm mövcudluğundan (artıb-azalmasından) və rütubətdən asılı olan çəki vahidlərində;

• sonradan təsbit olunan qiymət kontraktın icra olunması prosesində təyin edilir; bu halda təsbitolunmanm və qiymətin səviyyəsinin müəyyənləşdirilməsi prinsipi əvvəlcədən razılaşdırılır (bunlar onkol qiymətləri adlandırılır).

*Bazis qiymətləri* - ən mühüm şərtləri, məsələn, nəqliyyat, sığorta, anbar və s. xərclərin qiymətə daxil edilib-edilmədiyini təyin etdiyinə görə kontraktın

mühüm elementidir.

*Qiymətin valyutası.* Çox vaxt kontraktda qiymət ixracatçı və ya idxalçı dövlətin valyutası ilə, amma, bir qayda kimi, onu «üçüncü» ölkənin valyutasına (daha dayanıqlı olan) «bağlamaqla» ifadə olunur.

*Qiymətin təsbitohmma üsulu.* Kontraktda qiymətin təsbit edilməsindən asılı olaraq, onun aşağıdakı növləri fərqləndirilir: möhkəm, dəyişkən, sürüşən (sonradan təsbit olunmaqla). Bu qiymətlərdən hər birində müəyyən qeyd-şərt ola bilər və bundan əsasən dəyişkən qiymətlərdə istifadə edilir. Adətən, kontraktda bazar qiymətindən kənarlaşmasına yol verilən, 2-5% civarmda minimum göstərilir.

*Kontrakt qiymətinin əmələ gəlməsində ixracatçı və idxalçı.* İxracatçı və idxalçı qiymətqoyına məsələlərində bir-birinə əks olan maraqlar mövqeyindən çıxış etdiklərinə görə, onların kontrakt qiymətinin əmələ gəlməsində rolu və buna müvafiq olaraq yanaşmaları da fərqlidir. Hər bir tərəf, ilk növbədə, zərərdən yayınmağa, ikincisi, faydalanmağa, mənfəət əldə etməyə çalışır. Buna görə də müqavilənin yerinə yetirilməsinə təsir göstərə biləcək çoxsaylı amillər (nəqliyyat xərcləri, rüsumlar, maliyyələşdirmə və sığorta xərcləri, komissiya mükafatları, malın qablaşdırılması, gözlənilməz xərclər və s.) nəzərə alınır.

***Xarici ticarətdə qiymətlərin müəyyənləşdirilməsi üsulları.*** Xarici ticarət təcrübəsində qiymətin təyin olunmasının iki metodundan istifadə olunur. Birinci metoda müvafiq olaraq, tam istehsal məsrəfləri hesablanır və əldə olunan məbləğin üzərinə müə5^ən firmanın mənfəət şəklində əldə etməyi nəzərdə tutduğu faiz əlavəsi artırılır. İkinci metod son hüdud məsrəflərindən istifadə olunmasına əsaslanır; bu halda yalnız xarici bazara çıxarılan əmtəənin istehsalı ilə birbaşa bağlı olan xərclər nəzərə alınır.

***Qiymətlərin iki qrupu.*** Dünya qijmıətləri iki böyük qrupa bölünür:

1) emal sənayesi məhsullarının qiymətləri;
2) xammalın qiymətləri.

Birinci qrupun qiymətləri daxili qi)mıətlərə ümumi istiqamət götürülməklə, iri firmaların ixrac qiymətləri əsasında formalaşır. İkinci qrupun qiymətləri müəyyənləşdirilərkən, beynəlxalq bazarlarda tələb və təklif arasındakı nisbət, habelə xammalı ixrac yaxud idxal edən iri firmaların qiymətləri əsas rol oynayır. Xammal üçün dünya qiymətləri qismində onun əsas istehsalçılarının və ABŞ, Çin, Qərbi Avropa ölkələri bazarlarının qiymətləri əsas götürülür. Məsələn, iri birjaların və hərracların qiymətləri (əlvan metalların qiymətlərini London Əlvan Metallar Birjası təyin edir),

əslində, müvafiq malların, OPEK-in qiymətləri (kvotaların müəyyən olunması vasitəsilə) isə neftin dünya qiymətidir.

***Vahid (dünya) qiyməti Qanunu*** belə müddəaya əsaslanır ki, nəqliyyat xərcləri və rəsmi ticarət maneələri (rüsumlar) olmadıqda, mallar müxtəlif ölkələrin konkret bazarlarında eyni valyuta ilə ifadə olunan eyni qiymətə satılmalıdır. Vahid qiymətin düstum aşağıdakı kimi ifadə olunur:

$$PL = \{Es/ E) X Pi$$

Burada - ***i*** malının ABŞ-da satılarkən dollarla qiyməti;

***Pg*** - malın müvafiq qiymətinin avro ilə ifadəsi;

***E^f E*** - malın Amerika və Avropa qiymətlərinin nisbəti.

Bu halda vahid qiymət Qanunu ***i*** malının dollar qiymətinin dünyanın hansı yerində satılmasından asılı olmayaraq, eyni olacağını ehtimal edir.

***Xarici ticarət qiymətlərinə dövlətin təsiri.*** Dövlətin daxili qiymətlərin tənzimlənməsi və ixracın subsidiyalaşdırılması, idxalın dəstəklənməsi, gömrük-tarif siyasətinin həyata keçirilməsi sahəsində gördüyü tədbirlər xarici ticarət qiymətlərinə güclü təsir göstərir. Dövlət daxili bazarın qiymətlərini əsasən iki alət vasitəsilə: istehsalçılara satış qiymətlərinin səviyyəsinə dair zəmanət verməklə və istehsal xərclərinin ödənilməsinə subsidiyalar verməklə tənzimləyir. ABŞ-da kənd təsərrüfatının dövlət tərəfindən dəstəklənməsini və Aİ-nin aqrar siyasətini buna nümunə göstərmək olar. ABŞ-da qiymətlər zəmanət verilmiş səviyyədən aşağı olduğu halda dövlət subsidiya verir. Zəmanət verilmiş qiymətlər üzrə xüsusi dövlət komissiyası istehsalçılardan kənd təsərrüfatı məhsullarını girov kimi qəbul edir. Bazar qiyməti zəmanət verilmiş qiymətdən yuxarı olduqda, istehsalçı məhsulu satın alaraq bazarda satır, bazar qiyməti zəmanət qiymətindən ucuz olduqda isə mallar dövlət təşkilatının mülkiyyətinə keçir. Avropa İttifaqmin konsolidə edilmiş büdcəsinin təqribən $^1/_3$ hissəsi Aİ ölkələrində kənd təsərrüfatı istehsalının və heyvandarlığın dəstəklənməsinə yönəldilir. Bütün bunlar qiymətin əmələ gəlməsinə güclü təsir göstərir və onun təbii xarakterini deformasiyaya uğradır.

***Gizli alyanslar.*** Satılan məhsulun qiymətinin əmələ gəlməsinin xarakteri və təcrübəsi göstərir ki, ixracatçılar istənilən qərarları, o cümlədən: qiymətin təyin olunması, istehsal həcminin müəyyənləşdirilməsi, investisiyalar və s. qəbul etməzdən əvvəl rəqiblərin reaksiyasını öyrənməlidir. Dünya qiymət-

lərinin əmələ gəlməsi məsələlərində nisbi sabitliyin qomnub saxlanmasında əsas rəqiblərin qeyri-rəsmi razılaşmaları mühüm rol oynayır. Xüsusi danışıqlar zamanı qiymətlərin təsbit olunması, satış bazarlarının bölgüsü, istehsalın həcminə dair razılaşmalar əldə edilir. Bunlar oliqopoliyanm çox vaxt aydın fırıldaqçılığa bərabər olan gizli yaxud aşkar sövdələşmələridir. Gizli sövdələşmələr əksər hallarda məxfi qalır (bunlar çox vaxt dostluq şəraitində keçən naharlarda və şam yeməklərində əldə olunan centlmen razılaşmaları adlandırılır); aşkar fonnalara gəldikdə isə buna ən parlaq klassik nümunə 1970- ci illərdən başlayaraq dünya neft bazarında qiymətləri tənzimləyən OPEK-dir.

***Kartelhr.*** Bir çox hallarda dünya bazarında əlaqələndirmənin zəruriliyi nəticəsində kifayət dərəcədə yüksək səmərəliliklə təsir göstənnək imkanı olan xüsusi mexanizmlər yaradılırdı. Bu mexanizmin yaxşı məlum olan forması istehsal həcmi və qiymət siyasəti barədə razılığın əldə edilməsini nəzərdə tutan karteldir. Şirkətlər qiymətlərin təsbit olunmuş səviyyəsini saxlamaq üçün satış bazarlarının bölüşdürülməsi barədə razılığa gəlir. Buna klassik nümunə yenə də OPEK-dir.

Bu cür mexanizmlərin işində iştirak edən şirkətlər üçün mənfəətin maksimum həddə çatdırılması səciyyəvidir, onların hərəkətləri isə xalis inhisarların hərəkətlərinə bənzəyir.

***Dempinq.*** Ucuz qiymətlərin (ölkədə buraxılan malların maya dəyərindən aşağı) təyin olunması, adətən, dempinq adlandırılır. Ölkələrin çoxunda malların dempinq qiymətləri ilə idxalı qanunvericiliklə qadağan edilmişdir. Bu qanunvericilik, adətən, idxal edilən mallar ölkədəki istehsalı pozduğu hallarda tətbiq olunur. Əgər həmin mallar ölkədə buraxılmırsa, dempinqin idxal edən ölkə üçün yeganə nəticəsi istehlakçıların bu üsulla subsidiyalaşdırılması olacaqdır. Məhsulu istehsal edən ölkəyə gəldikdə isə onun istehlakçıları və vergi tədiyyəçiləri əslində xarici ölkələri subsidiyalaşdırdıqlarını nadir hallarda dərk edirlər. ABŞ-m antidempinq qanunvericiliyi son dərəcə ziddiyyətlidir. Məsələn, valyuta məzənnələrinin tərəddüdü daha böyük fərq yarada bildiyi halda, ixrac qiyməti ölkədəki qiymətdən 0,5% ucuz olarsa, firma cərimələnə bilər. Ticarətə dövlət tərəfindən təsir göstərilməsinin zəruriliyini əsaslandıran dəlillərdən biri, optimal tarif nəzərİ3^əsidir. Bu nəzəriyyə xarici istehsalçının məhsulu vergilərə cəlb olunduğu halda onun qiymətinin ucuzlaşdırılacağını iddia edir; bu halda xeyir idxalçı ölkəyə keçəcəkdir. Xarici istehsalçı məhsulunun qiymətini ucuzlaşdıranadək, xeyir idxalçı ölkə tərəfə meyil göstərəcək və gömrük vergisi optimal kimi nəzərdən keçiriləcəkdir. Məlumdur

ki, istənilən ölkənin öz xarici ticarətinə təsir göstənnək istiqamətində atdığı addımlar həmişə xaricdə müvafiq reaksiya doğurur və başqa ölkələrin hökumətləri arzulanan məqsədlərə nail olunması yolunda maneəyə çevrilən cavab tədbirləri həyata keçirir. Buna görə də xarici ticarətin vəzifələrinin reallaşdırılması alətləri seçilərkən, ölkənin və xarici dövlətlərin əhali qruplarının onlara qarşı tamamilə müxtəlif reaksiya verəcəyini nəzərə almaq lazımdır. Ticarətə təsir: birincisi, qiymətlərin tənzimlənməsi yolu ilə satışların həcminin dəyişməsinə, ikincisi isə bilavasitə mallar axınının özünə təsir göstərilməsi vasitəsilə ola bilər. Tarif və qeyri-tarif maneələri ticarətə müxtəlif cür təsir göstərir. Tarif maneələri qiymətlərə, qeyri-tarif maneələri isə qiymətlərə yaxud bilavasitə satışların həcminə təsir edir.

## 12.2. Tariflər və rüsumlar

***Rüsum.*** Bu vergi növü dövlətlə yaxud öz aralarında xüsusi münasibətlərə (məsələn, icarə, qiymətli kağızların verilməsi müqavilələri, qəyyumluq sazişləri) girən fiziki və hüquqi şəxslərdən tutulan istehlak vergisidir. Praktikada və nəzəriyyədə rüsumların çoxsaylı növləri (tipləri) ilə rastlaşmaq olar: birja (birja komitəsi tərəfindən qİ5nnətli kağızların alıcılarından tutulan haqq), veksel (notarius tərəfindən müxtəlif protestlərin verilməsinə görə veksel saxlayanın ödədiyi haqq), yol (gedişə görə haqq), patent (verilən patentə uyğun olaraq ixtiradan müstəsna istifadə hüququnun verilməsinə görə haqq), məhkəmə (hüquqi və fiziki şəxslər tərəfindən iddia ərizələrinə və kassasiya şikayətlərinə baxılmasına görə haqq) və s. Bizi rüsumların dövlət, xarici ticarət, gömrük, liman rüsumları, habelə onların bəzi növləri maraqlandırır.

***Dövlət rüsumu*** - xüsusi səlahiyyətlər verilmiş dövlət orqanları tərəfindən müəssisələrin, təşkilatların və vətəndaşların maraqları üçün hərəkətlərin yerinə yetirilməsinə və hüquqi əhəmiyyəti olan sənədlərin verilməsinə görə ödənilən haqdır.

***Gömrük rüsumu*** - xarici malların ölkəyə gətirilməsinə (idxal rüsumu), ölkədə istehsal edilən malların xaricə göndərilməsinə (ixrac rüsumu) yaxud tranzitinə (tranzit rüsumu) görə tutulan vergidir. Gömrük rüsumunun özü də növlər qruplarına bölünür.

***Xarici ticarət rüsumu*** - malların ölkənin gömrük sərhədindən keçirilməsinə görə tutulan dövlət rüsumudur (vergisidir). Hesablama metod-

larına və tətbiq olunma üsullarına görə vergi tutulan malların qiymətinə əlavə kimi müəyyən olunan yığım (ad valorem) kimi yaxud müvafiq ölçü vahidinə görə təsbit olunan formada tutulan xarici ticarət rüsumları fərqləndirilir. Xarici ticarət rüsumu tutulan malların siyahısı və gömrük rüsumunun dərəcələri gömrük qanunvericiliyində müəyyən olunur.

***Liman rüsumu*** - gəmi sahibinin bəzi limanlardakı və portlardakı tərsanələrə daxil olmaq imkanı üçün ödədiyi haqdır.

***Tarif.*** Tarif - əhaliyə və idarələrə müxtəlif təşkilatlar və şirkətlər tərəfindən göstərilən müxtəlif istehsal və qeyri-istehsal xarakterli xidmətlərə görə ödənişlərin rüsum dərəcələri sistemi; əməyin ödənilməsi dərəcələri sistemi. Tariflərin tipləri və növləri də müxtəlifdir.

***Gömrük tarifi*** - ölkəyə gətirilən yaxud ölkədən çıxarılan mallara tətbiq edilən və mal qrupları üzrə sistemləşdirilmiş rüsumların siyahısıdır; malların adından, vergitutma vahidindən və rüsumların dərəcələrindən ibarətdir. Gömrük rüsumları dövlətlər tərəfindən birtərəfli qaydada müəyyən edilən ***avtonom;*** dövlətlərin beynəlxalq sazişlər əsasında təyin etdiyi (bunların dərəcələri nisbətən aşağıdır) ***konvensiya',*** gömrük tarifinin hər iki növünü özündə ehtiva edən, ölkədən asılı olaraq birinci və ikinci yanaşmanı nəzərdə tutan ***qarışıq.***

***İxrac tarifi*** - müəyyən malların ixracının dövlət tənzimlənməsi məqsədi ilə tətbiq olunan vergi növüdür.

Əsas problemlərdən biri - öz gəlirlər mənbələrini şaxələndinuəyə və xammal ixracına istehsal dəyərinin əlavə olunması yolu ilə artırmağa çalışan inkişaf etməkdə olan ölkələrdən gətirilən məmulatlara münasibətdə inkişaf etmiş ölkələrin tətbiq etdiyi tarif rejimidir. İnkişaf etmiş ölkələrin bazarlarına gətirilən xammaldan əksər hallarda rüsum tutulmur, amma həmin xammal emaldan keçdikdə, adətən rüsum tətbiq edilir. Bu, inkişaf etməkdə olan ölkələrin ernal sənayesinin məhsulları üçün xarici bazarlar tapmasını çətinləşdirir. Özü də, orada səmərə ilə istehsal edilə bilən malların çoxu inkişaf etmiş ölkələrdə buraxılır.

İnkişaf etməkdə olan ölkələrlə aparılan rəqabət onların mallarının inkişaf etmiş ölkələrin bazarlarına buraxılmasına maneçilik törədən «təzyiq qruplarının» formalaşması ilə nəticələnir. Digər problem isə inkişaf etməkdə olan ölkələrin mallarına güzəştli idxal rejiminin tətbiqinə baxmayaraq, sürətlə inkişaf edən həmin ixracatçıların çoxunun güzəşt statusunun itirildiyi həddə çatmasıdır. Məsələn, Tayvan, Sinqapur, Honkonq (Syanqan) və Cənubi

Koreyanın uzun müddət ərzində ABŞ ilə ticarətdə güzəştli rejimi olmuşdur. Amma göstərilən ölkələr öz ticari-iqtisadi potensialını möhkəmləndirdiyi, bəzi hallarda isə Amerika korporasiyalarının mallarını sıxışdırmağa başladığı üçün 1990-cı illərin sonunda ABŞ bu rejimi ləğv etmişdi. Xüsusi rejim inkişaf etməkdə olan ölkələrin UNCTAD-da göstərdiyi təsir nəticəsində meydana çıxmışdı. Bu rejim Ümumiləşdirilmiş Preferensiyalar Sistemi - GSP (Generalized System of Preference) kimi məlumdur. Dəyişdirilən və modifikasiya olunan bu rejim rəsmən indi də qüvvədədir.

***Tariflər və ixrac subsidiyaları.*** Dövlətlərin xarici ticarət sahəsində qarşılarına qoyduğu vəzifələr ticarət şəraitinə təsir göstərilməsi ilə məhdudlaşmayaraq, gəlirlərin yenidən bölgüsünü, milli iqtisadiyyatın əsas sahələrinin dəstəklənməsini, tədiyyə balansının yaxşılaşdırılmasını və s. əhatə edir.

İxrac tariflərinin və subsidiyalarının xüsusiyyəti onlann təsiri nəticəsində dünya və daxili qiymətlər arasında fərqin yaranmasmdadır. Tarifdən birbaşa effekt xarici malların ölkədən kənardakı dəyəri ilə müqayisədə bahalaşmasıdır. İxrac subsidiyası - yerli istehsalçılara ixraca gedən malların buraxılışına görə verilən ödənişlərdir. Bunun nəticəsində həmin mallann ölkə daxilindəki qiyməti bahalaşır və buna müvafiq olaraq, onların istehsalı yaxud buraxılışının artırılması üçün stimul yaradılır. Tariflərin və subsidiyaların məbləğinin artması nəticəsində qiymətlərin dəyişməsi həm nisbi təklifə, həm də nisbi tələbə təsir göstərir, bunun nəticəsində isə ölkə daxilində və başqa ölkələrin bazarlarına münasibətdə ticarət şəraiti dəyişir.

Tariflərin və subsidiyaların dünya ticarətinə təsiri həlledici dərəcədə iki amildən: istehsalın gücündən və ölkənin ərazisindən asılıdır. Məsələn, ABŞ idxala 20% tarif tətbiq edərsə, ərazisi həddən artıq böyük olan bu ölkədə ticarət şəraiti bəzi qiymətləndirmələrə görə, 15% yaxşılaşa bilər. Bu, ABŞ-m ixrac etdiyi malların qiymətinin idxal etdiyi malların qiyməti ilə müqayisədə 15% aşağı düşməsi deməkdir. Tarifin tətbiqindən əldə edilən müxtəlif istiqamətli bu effektin nəticəsində daxili qiymətlər yalnız 5% bahalaşacaq. Eyni zamanda bu tarifi Paraqvay yaxud Lüksemburq tətbiq edərsə, onların ticarət şəraitində, çox güman ki, heç bir dəyişiklik baş verməyəcək. Mütəxəssislər hesab edir ki, tariflər və subsidiyalar ümumilikdə malın qiyməti amilinə təsir göstərməklə, iqtisadiyyatda idxalın əvəzləndirilməsi meylini gücləndirir və ixrac sektorunu boğur.

Həddən yüksək tariflərin neqativ təsirinin xüsusi halı, məzmununa görə «müflisləşdirici artım» və «alanı müflisləşdirən transfer» konsepsiyalarına

bənzəyən «Metsler paradoksudur». Müəyyən vəziyyətlərdə və hökumətin son dərəcə naşı siyasəti nəticəsində yaranma ehtimalı olsa da, təcrübədə ona, demək olar ki, təsadüf edilmir.

İstehsalçıların öz mallanm xaricdə satdıqda çəkdiyi zərərin kompensasiya olunması üçün hökumət tərəfindən onlara birbaşa ödənişlərin verilməsi təcrübəsi də vardır. Ancaq çox hallarda bunun əvəzində fımıalara xarici əməlİ3^atlarınm ucuzlaşması yaxud mənfəətliyinin ytiksəldilməsi məqsədilə informasiya əldə olunması, malların göndərilməsi və xaricdə ticarət əməliyyatlarının aparılması üçün əlaqələrin yaradılması ilə bağlı olan pulsuz xidfnətlərin göstərilməsi şəklində yardım göstərilir. Əsasən bazarın təkmilləşdirilməsi və milli şirkətlərin mövqelərinin möhkəmləndirilməsi məqsədinə xidmət etdiyinə görə, xidmətlər şəklində verilən bu cür subsidiyalar rüsumlarla müqayisədə iqtisadi baxımdan daha məntiqidir.

Qiymətin əmələ gəlməsinə təsir göstərən ***başqa subsidiya növləri*** ziddiyyətlidir və istehsalçılar çox vaxt ədalətsiz rəqabətlə, məsələn, «subsidiyalaşdırılan ixracla» qarşılaşdıqlarını iddia edirlər. Subsidiyalaşdırılan ixrac nə deməkdir? Onun mahiyyəti ən ümumi formada ixracatçılara dövlət tərəfindən yardım göstərilməsi olsa da, bu barədə vahid fikir yoxdur. Dövlət ixracın mənfəətliliyinə birbaşa yaxud dolayısı ilə təsir göstərən elmi, təcrübə-konstruktor işlərinin və proqramlarının maliyyələşdirilməsinin təmin olunmasından, digər vasitələrdən istifadə edir. İnkişaf etmiş ölkələr əvvəlki onilliklərdə kənd təsərrüfatı məhsullarının ixracına dövlət tərəfindən təsir göstərilməsini tələb edərək, inkişaf etməkdə olan ölkələri tənqid edirdisə, indi inkişaf etməkdə olan ölkələr inkişaf etmiş ölkələrdən aqrar firmalara subsidiyaların, kreditlərin verilməsi və vergi dərəcələrinin aşağı salınması şəklində yardım göstənnələrini dayandınnağı tələb edir.

İxracın dövlət tərəfindən dəstəklənməsinin digər formaları, o cümlədən xarici ölkələrin yardımları və borcları da mövcuddur. Həmin yardımı alan vəsaitləri kreditorun ölkəsində xərcləməli olduğuna və bununla da əks halda rəqabətə davam gətirə bilməyən bəzi malların rəqabət qabiliyyətinin yüksəlməsinə kömək göstərdiyinə görə, bu fonnalar, demək olar ki, həmişə «əlaqələndirilmiş» xarakterdədir. «Əlaqələndirilmiş» yardım telekommunikasiyaların yaradılması, dəmir yollarının və elektrik stansiyalarının inşası layihələrinin həyata keçirilməsi üzrə kontraktların alınması üçün xüsusi əhəmi}q>'ət daşıyır. Təsdiqlənmişdir ki, dünyada satılan istehsal təyinatlı malların '***A*** hissəsi «əlaqələndirilmiş» yardım zərfləri vasitəsilə maliyyələşdirilir. İnkişaf etmiş

ölkələrin çoxu öz ixracatçılarının kredit riskini sığortalamaqla, xaricdə satışlar üzrə ödənişlərin yerinə yetirilməməsi ehtimalını azaldır. Dəstəklənmənin geniş yayılmış sxemlərindən biri də öhdəliklər üzrə faizlərin rəqib ölkələrə çox aşağı görünməməsi üçün yardımın borc verilməsi ilə əlaqələndirilməsidir (bu məsələlərin qiymətin əmələ gəlməsi ilə əlaqəsi olsa da, başqa aspektləri vardır və dərsliyin digər fəsillərində nəzərdən keçirilir).

***Gömrük qiymətləndirilməsi.*** Bir çox ölkələrin gömrük işçiləri idxal olunan mallara «ad valorem» rüsumunun təyin edilməsi üçün dəyərin müəyyənləşdirilməsində geniş seçim imkanlarından yararlanırlar. Bu cür geniş seçim imkanı ixracatçıların və idxalçıların yüksək rüsumdan yaymmaq^üçün hesab-fakturalarda istədikləri aşağı qiymət göstərnıələrinin qarşısının alınmasına yönəlmişdir. Amma təcrübədə azad seçim imkanından bəzi hallarda xarici malların idxalının onların dəyərini yüksəltmək yolu ilə məhdudlaşdırılması qismində istifadə olunur. Bu, malın qiymətinə birbaşa təsir göstərilməsi üsuludur. Hazırda dəyərin qiymətləndirilməsinin ilk vaxtlar inkişaf etmiş ölkələr tərəfindən tətbiq olunan vahid metodikası mövcuddur. Gömrük işçiləri qaimədə göstərilmiş malın qiymətini əvvəlcədən öyrənməyə borcludurlar. Bu qiymət göstərilmədikdə yaxud həqiqiliyi şübhə doğurduqda, qiymətləndirmə eyni malların dəyəri əsasında, bunlar olmadıqda isə həmin vaxt yaxud yaxın zamanda ölkəyə gətirilən bənzər malların əsasında aparılır. Bu metodlar tətbiq oluna bilmədikdə, gömrükçülər qiyməti həmin malın satışının son dəyəri yaxud ona çəkilən əsaslandırılmış xərclər əsasında müəj^ən edirlər. Gömrük qiymətləndirilməsinin daha bir problemi ticarətə çoxlu sayda malların cəlb olunması ilə əlaqədardır. Çox asanlıqla (təsadüfən və ya bilərəkdən) mah daha yüksək gömrük rüsumu tətbiq olunan təsnifata daxil edib, onun qiymətinə təsir göstərmək mümkündür.

***Qiymətlərə birbaşa təsirin başqa üsulları.*** Dövlət bir sıra hallarda qiymətlərə təsir göstərilməsinin xüsusi yığımlar (məsələn, konsul və gömrük «təmizlənməsi», sənədlərin tərtibi), gömrük ödənişlərinin mal göndərilənədək yerinə yetirilməsi, gömrük «təmizlənməsindən» sonra malların minimum qiymətlə satılması tələbinin qoyulması və s. kimi vasitələri tətbiq edə bilər.

Qiymətlərə təsirin bu növləri rəngarəngdir və onların ifrat dərəcədə «sərbəst» təfsirolunma əsasında rəsmi-bürokratik tətbiqi ölkəyə böyük, o cümlədən məmurların korrupsiya fəaliyyəti formasında ziyan vurur. Normativ aktın son dərəcə səlis və birmənalı olması, habelə malların hərəkəti üzrə əməliyyatların yerinə yetirilməsini aydın (şəffaf) əks etdirməsi zəruridir.

## 12.3. 2000-2010-cu illərdə beynəlxalq əmtəə bazarlarında qiymətlərin hərəkəti

Aparıcı ölkələrin valyutalarının məzənnələrinin kəskin tərəddüdü, dünyanın fond bazarlarındakı vəziyyət ilk baxışdan həmin proseslərin muxtariyyatı, bir-biri ilə əlaqəsinin zəifliyi haqqında xəyal yaratsa da, mallarla beynəlxalq ticarətdə qiymətlərin hərəkəti, bir qayda kimi, ümumi iqtisadi tsiklin vəziyyəti və dinamikası ilə sıx əlaqədardır. Bu meyil müxtəlif ölkələrin ixrac etdiyi, məsələn, sənaye mallarının indekslərinin hərəkəti təhlil edilərkən müşahidə olunur. Görünür ki, XXI əsrin ilk illərində yanacaq və maşın-texnika məhsulları istisna olunmaqla, indekslərin ümumi meyli yüksəlişə yönəlmişdir. 2001- ci ildə ölkələrin əksəriyyətində ixrac olunan mal qmpları üzrə qiymətlər aşağı düşmüşdür (3-4%-dək). Lakin 2002-ci ildə qiymətlərin aşağı düşməsi meylinin saxlanmasına baxmayaraq, ixrac edilən malların, demək olar ki, bütün növlərinin qiymətinin yeni ümumi artımı başlandı, bir çox hallarda isə onlar 2001- ci ilin səviyyəsində qaldı. Bunun əsas səbəbləri infonuasiya texnologiyalarının müasir sektorlarında əmək məhsuldarlığının yüksəlməsi, habelə dünyanın inkişaf etməkdə olan regionlarına (artımı daha aydın görünən ölkələr qrupuna) nəqliyyat vasitələrinin ixracının genişlənməsi olmuşdu. ABŞ-da. Qərbi Avropada və Yaponiyada işgüzar fəallığın zəifləməsinə 2001-ci ildə Şərqi Asiyada baş verən böhranın əlavə olunması da qiymətlərin hərəkətinə öz təsirini göstərmişdir. Bütün bunlar qlobal iqtisadiyyatın artımını ləngitmiş və bu, qiymətlərin hərəkəti amilində öz təzahürünü tapmışdır. Bundan əlavə, «zəif dollar» amili də təsirini göstərməkdə davam etmişdir.

Məlumatlar 2001-2007-ci illərdə inkişaf etmiş ölkələr qrupunda sənaye məmulatlarının qiymətinin bahalaşmasının dünya iqtisadİ3^atınm ümumi artım tempindən yüksək olduğunu göstərir. 1995-2000-ci illərlə müqayisədə, həmin dövrdə inkişaf etməkdə olan ölkələrin əsas mal qruplarının qiymət indekslərinin aşağı düşməsi yaxud artım tempinin ləngiməsi müşahidə olunmuşdur. Ancaq 2002-2007-ci illərdə həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələr zonasından ixrac olunan malların qiymətləri dünya iqtisadiyyatında ümumi canlanmanın təsiri altında daha intensiv yüksəlmişdir. 2003-2008-ci illərdə bəzi mal qruplarının, o cümlədən kənd təsərrüfatı xammalının, metalların və mineralların qiymətləri bahalaşmışdır. Bu zaman inkişaf etməkdə olan ölkələrin aqrar məhsullannm, məsələn, buğda, kauçuk, bitki yağları, toxumlar və kakaonun qiymətləri 2007-ci ildə inkişaf etməkdə olan ölkələrin

çoxu ərzaq qıtlığı ilə üzləşənədək, cüzi dəyişirdi. Bu dövrdə qiymətlərin artması haqqında ümumiləşdirilmiş məlumatlar 12.1-ci cədvəldə verilmişdir.

*Cədvəl 12.1*

**1998- 2008-ci illərdə beynəlxalq iqtisadi şəraitin göstəriciləri**

| Dünya qiyməti | 1998 | 2000 | 2001 | 2002 | 2003 | 2005 | 2008 |
|---|---|---|---|---|---|---|---|
| Neft (barrelə görə ABŞ dolları ilə) | 12,7 | 28,3 | 24,4 | 25,0 | 28,0 | 37,2 | 93 |
| Qeyri-yanacaq xammalı (1990-cı il 100% götürülür) | 91,5 | 80,6 | 78,3 | 76,7 | 77,8 | 78,5 | 80,5 |
| Sənaye mallarının ixrac qiyməti (1990-cı il 100% götürülür) | 95 | 87 | 84 | 86 | 88 | 90 | 98 |
| ABŞ dollarının yanacaq əsasında qəbul olunan orta məzənnəsi (1997-ci il 100% götürülür) | 116,5 | 119,7 | 126,1 | 127,1 | 125,2 | 127,5 | 126,4 |
| Faiz dərəcəsi (6 aylıq LİBOR ABŞ) | 5,6 | 6,7 | 3,7 | 1,9 | 2,2 | 2,3 | 4,6 |
| Formalaşan bazarlarda gəlirlik spredi (%) | 11,5 | 7,6 | 7,3 | 7,7 | 7,9 | 8,3 | 9,8 |

2000-2008-ci illərdə beynəlxalq ticarət mallarının qiymətlərinin ümumi dinamikası 1990-cı illərdə təşəkkül tapmış əsas meylilərə uyğun olmuş, XXI əsrin ilk illərinin iqtisadi artım şəraitini bütövlükdə əks etdirmişdir. Beynəlxalq bazarda sahələr üzrə yalnız iki böyük mal qruplarında qiymət siyasəti arasındakı fərq daha qabarıq görünür: hazır məmulatların (ilk növbədə, inkişaf etmiş ölkələrdə istehsal olunan maşın-texnika məhsulları) qiymətlərinin dünya bazarının bütün seqmentlərində artması davam etdiyi halda, strateji xammalın (neft və qaz istisna olunmaqla), kənd təsərrüfatı və heyvandarlıq məhsullarının, tropik bitkilərin qiymətləri kifayət qədər aşağı həddə sabitləşmiş, bahalaşması yaxud ucuzlaşması cüzi olmuşdur.

Göstərilən iki mal qrupları üzrə qiymətlər dollarla deyil, avro ilə ifadə olunduqda, birincinin faktiki revalvasiyasınm baş verməsi nəticəsində ekspansiyaya qısamüddətli olsa da, imkan yaranması səbəbindən fərqin kəskinliyi nəzərə çarpır.

inkişaf etməkdə olan ölkələrin əsas ixrac malları üzrə qiymətlər indeksinin tədricən aşağı düşməsi meyli bu göstəricinin 1990-cı illərin ortasında zirvə həddinə çatmasından sonra başlamışdır. 2002-2003-cü illərdə malların böyük əksəriyyətinin qiyməti əsasən dünyada iqtisadi fəallığın zəifləməsi nəticəsində aşağı düşmüşdür. Qeyri-yanacaq mallarının qiymətləri metal və faydalı qazıntılar kimi mal qrupları üzrə əhəmiyyətli tərəddüdlərin baş verməsi ilə, ildə orta hesabla 2% ucuzlaşırdı. Artım, enerji daşıyıcılarının qiymətinin bahalaşması, habelə Avropa İttifaqının iqtisadiyyatında canlanmanın təsiri nəticəsində 2004-cü ilin əvvəlindən səciyyəvi hala çevrilmişdir (cədvəl 12.2).

12.2-ci cədvəldə verilən məlumatlar təhlil edilərkən nəzərə alınmalıdır ki, 1980-2009-cu illərdə xammalın əsas növlərinin qiymətinin dinamikası həmin uzun dövr ərzində dünya üzrə işgüzarlıq mərhələsinin dinamikası ilə heç də həmişə həmahəng olmamışdır və bunu yuxarıda qeyd etmişdik. Burada bir neçə xüsusiyyəti fərqləndinnək olar: bir sıra hallarda idxal qiymətlərinin ucuzlaşması böhranlı enmədən əvvəl baş vermiş, lakin əksər vəziyyətlərdə bu ucuzlaşma müvafiq enməni müşayiət etməmişdir. Belə ki, 1990-1999-cu illər dünya iqtisadiyyatının kifayət qədər sürətli inkişafı fonunda qiymət dinamikasının ləng yüksəlməsi dövrü olmuş, xammalın idxalında artım meyillərinin yaranmasına imkan vennişdir. Amma sənaye xammalının qiymətlərinin bahalaşması cüzi olmuşdur. Beləliklə, qiymətlərin dinamikasında yeni yüksəliş meyli yalnız XXI əsrdə, qiymət mexanizmi balansı neoliberalizmin zərbələri altında ciddi surətdə pozulduqda yaranmışdır.

Bununla yanaşı, bir sıra amillərin təsiri nəticəsində (ABŞ və Çinin artan iqtisadiyyatının xammala, o cümlədən enerji resurslarının bütün növlərinə tələbatının getdikcə çoxalması) enerji daşıyıcılarının qiymətləri sürətlə artmaqda davam edirdi.

Başqa özəllik bundadır ki, adətən qiymətlərdəki sıçrayış əvvəlcə inkişaf etməkdə olan ölkələrdə baş verir və enerji daşıyıcılarının, xüsusilə də neftin qiymətlərinin də analoji surətdə bahalaşacağının müəyyən əlamətidir. Güman ki, dünya iqtisadiyyatının çox yüksək templərlə artımı (2000-ci ilin sonunadək, habelə 2001 və 2002-ci illərdən sonra) neftin qiymətinin fomıalaşması amilinə (OPEC-in hərəkətləri nəzərə alınmadan) çox güclü tərzdə təsir göstənnişdir. Neftin qiyməti hətta 2001-2002-ci illərdə dünya iqtisadiyyatında ciddi enmə dövründə baha olmuş və 2003-2004-cü illərdə heç bir təhlilçinin ehtimal etmədiyi halda 48-50 dollar səviyyəsinə qalxmış və 2008-ci ilin iyulunadək

artmaqda davam edərək, barrelə görə təqribən 150 ABŞ dollarına çatmışdır. Böhran dövründə, 2008-ci ilin payızında qiymət 50 dollaradək düşsə də, bu hal uzun müddət davam etməmiş, barrelə görə 100 dollardan yüksək səviyyədə bərqərar olmuşdur.

*Cədvəl 12.2*

**1980-2010-cu illərdə xammalın, kənd təsərrüfatı məhsullarının və tropik bitkilərin əsas növləri üzrə bazar qiymətlərinin illik indeksi**

| Xammalın (məhsulun) növü (1990-cı il 100% götürülür) | 1980 | 1995 | 2000 | 2002 | 2003 | 2005 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Bütün xammal (məhsul) növləri | 130,8 | 111,3 | 81,1 | 77,0 | 82,5 | 89,5 | 129 | 98 | 103 |
| Ərzağın bütün növləri | 160,5 | 115,8 | 82,9 | 82,5 | 86,4 | 92,5 | 125 | 110 | 45 |
| Qida məhsulları və tropik bitkilər | 160,8 | 112,0 | 81,8 | 80,1 | 85,2 | 86,4 | 118 | 95 | 99 |
| Ərzaq | 155,2 | 105,2 | 79,3 | 79,8 | 83,4 | 85,7 | 127 | 110 | 115 |
| Buğda | 128,7 | 130,7 | 87,1 | 110,7 | 68,5 | 70,2 | 95 | 90 | 93 |
| Qarğıdalı | - | 115,2 | 80,7 | 89,6 | 58,2 | 64,3 | 91 | 94 | 90 |
| Düyü | 151,0 | 112,0 | 71,0 | 66,7 | 85,6 | 87,5 | 115 | 92 | 85 |
| Şəkər | 228,4 | 105,8 | 65,2 | 54,9 | 102,1 | 103,1 | 140 | 135 | 130 |
| Mal əti | 190,0 | 74,9 | 76,1 | 83,4 | 151,4 | 156,2 | 160 | 175 | 170 |
| Banan | 72,1 | 84,7 | 80,9 | 101,5 | 93,4 | 95,8 | 120 | 105 | 101 |
| istiot | 115,7 | 211,4 | 242,2 | 128,5 | 83,5 | 92,4 | 105 | 35 | 93 |
| Balıq | 122,4 | 120,1 | 100,2 | 147,0 | 75,3 | 82,5 | 120 | 40 | 105 |
| Soya paxlası | 120,9 | 98,5 | 93,4 | 89,4 | 140,2 | 143,2 | 160 | 147 | 155 |
| Tropik bitkilər | 191,0 | 149,3 | 95,4 | 81,4 | 116,5 | 11,4 | 132 | 115 | 125 |
| Qəhvə | 185,2 | 164,0 | 106,3 | 67,6 | 112,5 | 117,9 | 128 | 119 | 125 |
| Kakao | 204,7 | 112,7 | 69,8 | 139,8 | 88,5 | 81,3 | 110 | 105 | 110 |
| Çay | 109,2 | 80,1 | 126,2 | 112,5 | 116,5 | 121,4 | 130 | 170 | 155 |
| Tərəvəz, yağlı bitkilər | 157,8 | 159,9 | 96,0 | 110,8 | 112,5 | 117,9 | 135 | 127 | 122 |
| Soya paxlası | 120,1 | 105,1 | 85,8 | 86,2 | 88,5 | 91,6 | 115 | 105 | 110 |
| Soya yağı | 133,7 | 139,7 | 75,6 | 101,5 | 112,4 | 117,8 | 127 | 117 | 124 |
| Günəbaxan yağı | 129,3 | 141,7 | 80,1 | 121,4 | 126,5 | 130,2 | 155 | 128 | 134 |
| Yerfındığı yağı | 89,1 | 102,8 | 74,1 | 71,3 | 74,5 | 77,4 | 104 | 82 | 56 |
| Hind qozunun ləpəsi | 196,4 | 190,1 | 132,1 | 115,4 | 121,4 | 128,5 | 141 | 128 | 131 |
| Kokos yağı | 200,4 | 199,0 | 133,8 | 125,1 | 130,4 | 135,4 | 152 | 139 | 141 |
| Palma yağı | 217,3 | 202,9 | 132,8 | 124,5 | 129,2 | 133,6 | 156 | 34 | 146 |
| Kənd təsərrüfatı xammalı və materialları | 96,4 | 113,4 | 74,8 | 68,1 | 71,2 | 76,4 | 99 | 94 | 86 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Tütün | 67,0 | 77,8 | 88,0 | 80,7 | 82,3 | 89,7 | 127 | 122 | 120 |
| Kətan yağı | 98,3 | 92,8 | 56,2 | 73,3 | 80,3 | 86,8 | 119 | 108 | 112 |
| Pambıq | 113,4 | 117,9 | 71,7 | 56,0 | 65,7 | 71,2 | 98 | 98 | 92 |
| Yun | 125,8 | 115,3 | 88,6 | 92,5 | 96,4 | 102,8 | 128 | 113 | 122 |
| Sizal | 105,8 | 102,5 | 105,2 | 104,6 | 105,2 | 105,6 | 126 | 119 | 122 |
| Cut | 76,8 | 89,5 | 68,2 | 66,3 | 70,2 | 71,1 | 85 | 77 | 82 |
| Iynəyarpaqlı olmayan ağacdan oduncaq | 75,5 | 120,8 | 114,8 | 117,8 | 121,4 | 126,5 | 142 | 128 | 132 |
| Tropik meşə materialları | 73,3 | 99,2 | 71,2 | 67,8 | 72,3 | 78,4 | 94 | 81 | 83 |
| Tropik taxta- şalban | 70,1 | 146,3 | 101,4 | 95,6 | 97,8 | 102,3 | 132 | 118 | 121 |
| Yapışdırılmış faner | 77,1 | 164,2 | 126,4 | 113,5 | 116,4 | 119,2 | 143 | 127 | 129 |
| Rezin və kauçuk | 164,4 | 184,9 | 77,3 | 88,4 | 92,5 | 94,6 | 121 | 112 | 115 |
| Dəri və xəz | 96,5 | 102,5 | 61,2 | 78,2 | 82,3 | 87,5 | 102 | 91 | 93 |

12.2-ci cədvəldəki məlumatlar 2003-2007-ci illərdə (böhrandan əvvəl) xammal qrupu mallarının, habelə ərzağın qiymətlərinin sürətlə artmasını göstərir. İnkişaf etməkdə olan ölkələr (xammal ixracatçıları) hələ qlobal böhran mərhələsinə «daxil olmadıqlarına» görə, bu bahalaşma 2008-ci ildə də davam etmişdir. Yalnız 2008-ci ilin sonundan başlayaraq və 2009-cu il ərzində xammal və ərzaq bazarlarında güclü qiymət ucuzlaşması baş vermişdi.

Ərzaq bazarında qiymətlərin ucuzlaşması qısamüddətli olmuş və artıq 2009-cu ilin əvvəlindən ərzaq mallarının əksər növünün qiymətləri sürətlə bahalaşmağa başlamışdır. Məsələn, dünyada şəkərin ən böyük istehlakçısı olan Hindistanda onun qiyməti məhsulsuz dövrdə bahalaşmış, şəkər ixracının böyük həcmdə artması ilə nəticələnmişdi. Bir sıra məhsulların istehsalının azalmasına səbəb nisbətən baha gübrələrdən istifadənin ixtisarı və maliyyə çətinlikləri olmuşdu. Bundan savayı, alternativ dənli bitkilərin qiymətinin bahalığı fermerləri ixtisaslaşmanı dəyişdirməyə və misal üçün, pambıq becərilməsinə keçməyə vadar etmişdi. Başqa mallarla müqayisədə, ərzaq mallarına tələbatın elastikliyi xeyli aşağı olduğundan, onlara olan tələbat işgüzar fəallığın mərhələsindən o qədər də asılı deyil. Bu məqam kənd təsərrüfatının qlobal iqtisadi böhrana qarşı həssaslığını zəiflədir.

Strateji malların əksəri}^ətinin qiymətinin nə qədər dəyişkən olduğunu başa düşmək üçün əmtəə və maliyyə bazarları arasındakı əlaqələrin aşkar olunması zəruridir. Məsələn, neftin istehlakı cəmi 14% artdığı halda.

qiymətinin nominal olaraq 3 dəfə bahalaşmasını məhz bu yolla izah etmək mümkündür. Ehtimal ki, səbəblərdən biri dolların avroya nisbətdə ucuzlaşması, 2008-ci ildə isə qiymətlərin kəskin enməsinin dolların dəyərinin artması ilə paralel baş verməsi olmuşdur. Bu sahəyə təsir edən başqa amil fond birjalarında fəaliyyət göstərən maliyyə axınlarının, o cümlədən hecinq fondları, daxilə derivativlər atan qurumların və s. cəlb olunduğu dayanıqlı «sabun köpüklərinin» formalaşmasıdır. Onların manipulyasiya etdiyi maliyyə resurslarının böyük gücü sayəsində neftin qiyməti real istehlakçılardan «qopardılmış» və sırf möhtəkirlik əsasında fonnalaşır. Məsələni bu cür diqqətlə nəzərdən keçirməyimiz təsadüfən deyil: iş burasındadır ki, neftin qiyməti, buğdadan başlayaraq, mürəkkəb kompüterə və minik avtomobilinədək bütün qiymətlərdə əks olunur.

***Xammal sahəsində ticarət şərtlərinin dəyişkənliyi.*** Yuxarıda deyilmişdi ki, dünya bazarının konyunkturu xammalın əsas istehsalçısı olan ölkələrdə, ən əsası isə ümumdünya xammal bazarında onun qiymətinin təsiri altında formalaşır. Müasir şəraitdə prinsipial əhəmiyyəti olan ən vacib məsələ xammal mənbələri üzərində birbaşa nəzarət deyil, xammal bazarı, onun dünya bazarlarına çatdırılması vasitələri üzərində nəzarət problemidir. Buna görə də strateji xammalın əsas sahibləri, yəni inkişaf etməkdə olan ölkələrin resurslar üzərində öz nəzarətini saxlamaq uğrunda ənənəvi mübarizəsi tamamilə başqa müstəvi: dünya bazarlarında öz xammalının qiymətinin sabit və sərfəli səviyyəsini necə və hansı üsulla təmin etmək üzərinə keçmişdir.

Bu problemin qeyri-adi şəkildə aktuallaşması xammalla (metallar, neft, qaz, kömür və s.) zəngin olan Rusiyanın və keçmiş SSRİ-nin Mərkəzi Asiya respublikalarının tərk-sənayeləşməsi onları inkişaf etməkdə olan ölkələrin çox güclü rəqibinə çevirmiş, bu isə, dünya strateji xammal bazarlarında qiymətlərin aşağı düşməsi meylini formalaşdırmışdır. Bununla yanaşı, TMK-lar öz qlobal qüdrəti hesabına dünya iqtisadiyyatında təkrar istehsal prosesini təmin edən əsas xammal növlərinin qiymətinin nə kritik dərəcədə ucuzlaşmasına, nə də bahalaşmasına imkan verməyərək, dünya xammal bazarlarında qiymətləri tənzimləmək imkanına malikdir.

Qeyd edək ki, dünyada sənaye yüksəlişinə baxmayaraq, inkişaf etməkdə olan ölkələrin ixrac etdiyi xammalın qiyməti 30 ildən artıq müddətdə, 1980-ci illərdən başlayaraq tədricən bahalaşmışdır; onların kənd təsərrüfatı məhsullarının vəziyyəti də eyni idi.

Ancaq XXI əsrin ilk onilliyinin ikinci yarısında inkişaf etməkdə olan

ölkələrin çoxunda ərzaq qıtlığı yeni meyillə, kənd təsərrüfatı məhsullarının və ərzağın qiymətinin bahalaşması ilə nəticələndi.

1990-cı illərdə ərzaq mallarının qiyməti orta hesabla 6% artmışdısa, bu göstərici 2001-2005-ci illərdə 11%, 2006-2008-ci illərdə isə artıq 16% səviyyəsinə yüksəlmişdir. Bu, tələbatın çoxalmasını və dünya bazarlarında tədarüklərin həcminin lazımi qədər olmadığının sübutudur (həmin ərzaq qıtlığı bir çox ölkələrin heyvandarlıq təyinatlı torpaq sahələrini ixtisar edib, bundan bioloji yanacaq üçün «yaşıl kütlə» yetişdirilməsi məqsədilə istifadə etməsi kimi strateji səhvi ilə müəyyən dərəcədə bağlıdır). Ən böyük artım son illərdə gəlirləri qismən sabit templərlə artan inkişaf etməkdə olan ölkələrdə baş verirdi. Yüksək templərlə sənayeləşən ölkələrdə idxal rüsumlarının aşağı salınması və yerli istehsalın ixtisar olunması bütün dünyada buğda, düyü, mal əti, bitki yağları və yağlı bitkilərin toxumları kimi ərzaq mallarına, habelə yemlik taxıla, məsələn, qarğıdalıya və soya ununa tələbatın artmasına səbəb olmuşdu. Bu meylin təsdiqi üçün, nümunə kimi, əvvəlki onilliklərdə böyük həcmdə düyü və qarğıdalının ixracatçısı olan Çinin 1995-ci ildən həmin məhsulların iri xalis idxalçısına çevrilməsini göstərmək olar.

Lakin bütün malların qiymətlərinin bahalaşması güclü enişlə dayandırıldı: qiymətlər aşağı sürüşməyə başladı. Belə ki, 2008-ci ildə xammalın bütün növlərinin qiyməti 22,5%, ərzağın - 19,3%, tropik bitkilərin - 11,8%, qəhvə - 15,8%, kakao - 10,9%, çay - 1%, şəkər - 1,8%, ət - 8,3%, qarğıdalı - 25,4%, buğda - 38,7%, düyü - 40,2%, banan - 23,8% ucuzlaşdı.

Xammal bazarlarının konyunkturuna gəldikdə isə, ümumilikdə dünya bazarlarmdakı perspektivlər qeyri-müəyyəndir. Bununla belə, müəyyən hadisələr xammalın bəzi, xüsusilə də ən yoxsul və daha zəif ixracatçıları üçün vəziyyətin sabitləşəcəyini vəd etmir. Ümumdünya böhranından sonrakı canlanmanın zəif olacağı gözlənilir və buna görə də tələbatın genişlənəcəyini ehtimal etmək çətindir.

## 12.4. Qiymətlərin beynəlxalq tənzimlənməsinin mexanizmi

***Dünya bazarlarında qiymətlərin tənzimlənməsinin mexanizmi.*** Dünya bazarlarında qiymətin əmələ gəlməsinə təsir göstərən əsas təşkilati mexanizm, ilk növbədə ÜTT-nin iştirakı ilə işlənib hazırlanan, ticarətin liberallaş- dırılmasmı (ticarət rüsumlarının aradan qaldırılmasını) nəzərdə tutan

beynəlxalq qaydalardır. Başqa beynəlxalq təşkilatlar da məhsul istehsalının həcmini müəyyənləşdirmək vasitəsilə qiymətlərə dolayı təsir göstərməklə (OPEC bu cür hərəkət edir) qiymətlərin tənzimlənməsi ilə məşğul olur. Ölkələrin iqtisadiyyatı üçün xammalın əhəmiyyətinin fasiləsiz surətdə artması onu həm beynəlxalq, həm də milli səviyyələrdə siyasətin diqqət mərkəzinə çəkir, nəzəri iqtisadi təhlilin obyektinə çevirir. Bir sıra strateji xammal məhsullarının qıtlığının aşkar edilməsinin digər nəticəsi isə bu malların və mal qruplarının qiymətlərinin beynəlxalq səviyyədə tənzimlənməsi zəruriliyinin dərk olunmasıdır.

1990-cı illərdə qiymətlərin səviyyəsinin saxlanmasının bufer ehtiyatları və ixrac nəzarəti kimi mexanizmləri barədə əvvəlki müddəalar olmasa da, kakao və qəhvə üzrə beynəlxalq mal sazişləri bağlanmışdı. 1998-ci ilin martında Kakao üzrə Beynəlxalq Təşkilatın (ICCO - International Cocoa Organization) üzvü olan ölkələr 1993-cü il Kakao üzrə Beynəlxalq Sazişin 29- cu maddəsinə əsaslanaraq «Kakao istehsalının idarə olunması» adlı plan işləyib hazırladı. Burada tələbatdan artıq mal göndərişlərinin həcmini azaltmaq və bütün dünyada ona olan tələblə təklif arasında nisbətin sabitliyini qorumaq üçün kakaonun istehsalı, istehlakı və ehtiyatlarının yaradılmasının konkret hədəf göstəriciləri müəyyən olunmuşdur.

Qeyd etməliyik ki, xammalın qiymətinin dinamikası, bir qayda kimi, dövri xarakter daşıyır. Eyni zamanda tez-tez baş verən hərbi-siyasi münaqişələr bazar konyunkturunun qeyri-sabitlik dərəcəsinin yüksəlməsi və buna müvafiq olaraq, xammalla beynəlxalq ticarət çərçivəsində qiymətlərin dayanıqlığının zəifləməsi ehtimalının artmasını göstərir. Hərbi-siyasi münaqişələr nəticəsində qiymətlərin enməsi və yüksəlməsi ümumilikdə dünya üzrə işgüzar dövrün hərəkət dinamikasında əks olunur.

Bundan əlavə, beynəlxalq müqavilələrə uyğun olaraq, ixracatçıları birləşdirən bir sıra assosiasiyalar dağıldıqdan sonra xammalla beynəlxalq ticarət qiymətlərin sabitləşdirilməsi mexanizmindən getdikcə daha az istifadə olunmaqla həyata keçirilir.

Ayrı-ayrı hallarda xammal istehsalçısı olan ölkələr onun ixracını çoxaltmağa və bundan əldə etdikləri daxilolmaları artırmağa cəhd göstərərək, təklifi və bazar qiymətlərini tənzimləmək üçün əmtəə sazişləri mexanizmindən müstəqil surətdə istifadə edir. Son illərdə alüminium, qəhvə və qalay üzrə bağlanılan sazişlərdən nisbətən uğurla istifadə olunsa da, onların çoxu qiymətlərin kəskin tərəddüd etdiyi şəraitdə, habelə saziş iştirakçıları arasında

məqsədlərə, strategiyalara, xərclərin və gəlirlərin bölgüsünə dair fikir ayrılığı yarandıqda özünü doğrultmurdu.

İstehsalçılar qiymətlərin tərəddüdü ilə bağlı olan risklərdən fyuçerslər bazarlarında hecinq yolu ilə sığortalanmağa çalışırlar. İnkişaf etmiş və inkişaf etməkdə olan bəzi ölkələrdə kənd təsərrüfatı məhsulları və mineral xammal üzrə fyuçerslər bazarı artıq təşəkkül tapmışdır və buna müvafiq olaraq son illərdə xammal və törəmə maliyyə alətləri ilə bağlı ümumdünya ticarəti genişlənmişdir. Fyuçerslərin bağlandığı və dövriyyədə olduğu yaxud əlavə maliyyə alətlərinin buraxıldığı yeni bazarlar Argentinada, Zimbabvedə, Malayziyada, Cənubi Afrikada, Macarıstanda, Polşada və bir sıra başqa ölkələrdə meydana çıxmışdır.

Alüminiumun qiymətlərinin tənzimlənməsinə cəhdlər də göstərilir. Belə ki, alüminium istehsal edən iri korporasiyalar bu məhsulun istehsal həcminə dair tövsiyələr olan memorandum imzalamışdır. Sənəd məcburi öhdəliklər yaratmasa da, tərəflərin onun müddəalarına əməl etməsi sayəsində alüminium bazarını müəyyən dərəcədə sabitləşdimıək mümkün olmuşdu.

Qəhvə İstehsalçıları Assosiasiyasının üzvü olan əsas ölkələr də qəhvənin ixracına məhdudiyyətlər qoymuşdur. Ancaq bəzi dövrlərdə bu məhsulun qiymətinin bahalaşmasının əsas səbəbi ixracın məhdudlaşdırılması mexanizminin tətbiqi deyil, əlverişsiz hava şəraiti nəticəsində istehsalın azalması və istehlakçı ölkələrdə tələbatın artması idi. Bundan başqa, gəlirləri aşağı səviyyədə, qəhvə ixracından asılılığı güclü olan bir neçə ölkə qrupa daxil olsa da, adətən, müəyyən edilən ixrac məhdudiyyətlərinə məhəl qoymayaraq, qiymətlərin bahalaşdığı dövrlərdə əlavə valyuta daxilolmaları əldə etməyə çalışır.

Amma sahə xarakteri daşıyan xüsusi sazişlər heç də bütün hallarda lazımi səmərə vermir. Yalnız bir misal: 1978-ci ilin fevralından Təbii Kauçuk üzrə Üçüncü Beynəlxalq Saziş (ESİRA - International Natural Rubber Agreement) qüvvəyə minmişdir. Dünyada bu məhsulun 99%-ini istehsalı edən 6 ölkə və 16 istehlakçı ölkə, o cümlədən Aİ və ABŞ kimi iri idxalçılar bu sazişin iştirakçısıdır. INRA bufer ehtiyatlarının yaradılması mexanizmini nəzərdə tutan yeganə beynəlxalq saziş deyil. 2002-ci ildə İndoneziya, Malayziya və Tailand Beynəlxalq Üçtərəfli Kauçuk Təşkilatını (ITRO - International Third Rubber Organization) yaratmışdır. Buna baxmayaraq, kauçukun qiyməti 2002-ci ilədək ucuzlaşmaqda davam etmiş və yalnız bu məhsula tələbatın artması 2003-2007- ci illərdə onun qiymətini yeni səviyyəyə qaldırmışdır.

Son illərdə xammalla ticarəti əhatə edən maliyyə alətlərinə daha çox diqqət yetirilməsinin zəruriliyi aşkar olunmuşdur. Əmtəə fyuçersləri və xammalla bağlı olan digər törəmə maliyyə alətləri ilə əməliyyatlar xammal bazarlarında qiymətlərin dövri surətdə tərəddüdünə səbəb olmuşdur. Bu sahədə daha çox məşhur olan iki hadisə 1995-ci ildə məhdud məsuliyyətli açıq səhmdar cəmiyyəti olan «Beringe»nin iflası və 1996-cı ildə «Sumimoto» şirkətinin münaqişələr nəticəsində baş şirkətlərin və mis bazarında fəaliyyət göstərən birjaçılarm böyük məbləğdə zərər çəkməsidir. Bu iki hadisədən, habelə 1997-ci ildə Asiyada baş verən böhrandan sonra bir sıra ölkələrin tənzimləmə orqanları qlobal maliyyə və xammal bazarları üzərində beynəlxalq nəzarətin güeləndirilməsinə yönəlmiş tədbirlər görməyə başlamışdır.

Bu istiqamətdə mühüm addım 1997-2003-cü illər arasındakı dövrdə, Aİ-nin, ABŞ-m Yaponiyanın və inkişaf etməkdə olan bəzi ölkələrin tənzimləmə orqanlarının nümayəndələri tərəfindən xammalla bağlı olan törəmə maliyyə alətləri bazarının fəaliyyətinə nəzarət sahəsində beynəlxalq standartlara uyğun olan bir sıra müddəalar qəbul olunduqda atılmışdır. Əldə edilən razılıqlar törəmə maliyyə alətləri üzrə kontraktların tərtibinin ümumi qəbul olunmuş «ən yaxşı təcrübəsinə», bazarların vəziyyətinə nəzarət qaydalarına, sabitliyi poza bilən potensial bazar vəziyyətləri və ticarət praktikasının aşkarlanması məqsədilə tənzimləmə orqanlan arasında informasiya mübadiləsi qaydalarına əsaslanan baza müddəalarına istinad edir. Sonrakı dövrdə (2004-2005-ei illər) ölkələr əldə olunan razılıqların tam yerinə yetirilməsini təmin etmək üçün öz üzərilərinə milli qanunverieiliyin qəbul olunmuş müddəalara uyğunlaşdırılması barədə öhdəliklər götürmüşdür; amma təerübə göstərir ki, bu cür öhdəliklər çox vaxt yerinə yetirilmir yaxud qismən reallaşır. ÜTT-nin Dohada (Qətər) keçirilən ticarət danışıqlarının yeni raundu çərçivəsində, habelə Monterrey konsensusuna uyğun olaraq, ölkələr öz üzərilərinə ticarətin inkişafına maliyyə dəstəyi verilməsi öhdəliyini qəbul etsələr də, onlar icra olunmamışdır.

***Neft İxrac edən Ölkələr Təşkilatı (OPEC - Organization of Petroleum Exporting Countries).*** OPEC 1960-cı ildə Bağdadda keçirilən konfransda yaradılmışdır. Onun 1961-ei ildə təsdiq olunmuş nizamnaməsinə sonradan dəfələrlə yenidən baxılmışdır. OPEC nizamnaməsinin 7-ci maddəsinə əsasən, yalnız təsisçilər və təşkilata qəbul olunmaq barədə ərizələri OPEK-in konfransı tərəfindən bəyənilmiş ölkələr onun üzvü ola bilər. Xam nefti böyük həcmdə ixrac edən və maraqları təşkilatın mənafeləri ilə üst-üstə düşən başqa ölkənin tam hüquqlu üzv olması üçün onun qəbulunun lehinə OPEC üzvlərinin Y4

hissəsi, 0 cümlədən təsisçi-ölkələrin hamısı səs verməlidir.

OPEC-in təsisçi üzvləri 6 dövlətdir: Venesuela, İran, İraq, Küveyt, Liviya, Səudiyyə Ərəbistanı. Sonradan təşkilata daha 6 ölkə qəbul olunmuşdur: Əlcəzair, Qabon, İndoneziya, Qətər, Nigeriya, BƏƏ.

*OPEC-in məqsədləri'.*

- üzv-dövlətlərin neft siyasətinin əlaqələndirilməsi və eyniləşdirilməsi;
- onların maraqlarının qorunmasının ən səmərəli fərdi və kollektiv vasitələrinin müəyyənləşdirilməsi;
- dünya neft bazarında qiymətlərin sabitliyinin təmin olunmasının lazımi vasitələrindən və üsullarından yararlanması;
- gəlirlərinin sabitliyini təmin etməklə, neft hasil edən ölkələrin maraqlarının qorunması;
- istehlakçı-ölkələrin neftlə səmərəli, mütəmadi və rentabelli təchizatının təmin edilməsi;
- investorların neft sahəsinə kapital qoyuluşlarından ədalətli gəlir əldə etməsinin təmin olunması;
- ətraf mühitin qorunmasının təmin edilməsi;
- dünya neft bazarının sabitləşdirilməsi üzrə təşəbbüslərin həyata keçirilməsi məqsədilə OPEC üzvü olmayan ölkələrlə əməkdaşlıq.

1991-ci ildən başlayaraq, OPEC başqa təşkilatlarla. Müstəqil Neft İxracatçıları Təşkilatı, (IPEC - Independent Petroleum Exporting Countries), Aİ, Beynəlxalq Enerji Agentliyi (lEA - International Energy Agency) energetika, sənaye sahəsində əməkdaşlıq, ekoloji problemlər, bazar mexanizmlərindən istifadə olunması və dünya neft bazarının inkişafı üzrə keçirilən əlaqələndinnə danışıqlarında iştirak edir.

OPEC-in ali orqanı üzv-dövlətləri təmsil edən, neft, hasilat sənayesi yaxud energetika nazirlərinin başçılıq etdiyi nümayəndə heyətlərindən ibarət olan konfransdır. Konfransın iclasları ildə iki dəfə, adətən, OPEC-in Vyanada (Avstriya) yerləşən mənzil-qərargahında keçirilir. Konfrans OPEC-in siyasətinin əsas istiqamətlərini, onun həyata keçirilməsi yollarını və vasitələrini müəyyən edir və Direktorlar Şurasının təqdim etdiyi hesabatlar və tövsiyələr, habelə büdcə üzrə qərarlar qəbul edir. Konfrans öz işində bir sıra komitələrə istinad edir.

1976-cı ildə OPEC Beynəlxalq İnkişaf Fondunu (OPEC Fondu) - OPEC üzvü olan dövlətlərlə inkişaf etməkdə olan başqa ölkələr arasında əməkdaşlığı dəstəkləmək üçün çoxtərəfli maliyyə qurumunu təsis etmişdir. Fəaliyyəti

inkişaf etməkdə olan ölkələrə fayda verən beynəlxalq təsisatlar, OPEC-ə daxil olmayan inkişaf etməkdə olan ölkələr də Fondun köməyindən yararlana bilər. OPEC-in üzvü olan 12 dövlət Fondun üzvüdür.

OPEC-də neft ixracatçıları qismində başlıca rolu neftin hasilatı və qiymətinin sabitliyi baxımından «status-kvo»nun bütövlükdə saxlanmasında ümumi marağı olan Səudiyyə Ərəbistanı, həmçinin, İran, Küveyt, Venesuela, BƏƏ oynayır. OPEC neft hasilatının həcmini tənzimləməklə, onun qiymətlərinə əhəmiyyətli təsir göstərir. OPEC üzvü olan hər bir dövlətin müxtəlif həcmdə neft hasil etmək kvotası var. Amma bütövlükdə, bu təşkilatın neftin qiymətlərinə təsir göstənuək imkanları şişirdilmişdir. Neftin əsaslandırılmamış yüksək qiymətlərini tənzimləyə biləcək nüfuzlu beynəlxalq təşkilatların olması zəruridir. Görünür ki, OPEC-in buna gücü çatmır.

İxrac və idxal qiymətləri arasındakı nisbətin dəyişməsindən ən güclü neqativ təsiri Afrika ölkələri və ən geridə qalmış ölkələr, habelə neftin qiymətlərindən asılılığı olan Latın Amerikasının, Qərbi Asiyanın və MDB-nin bir sıra ölkələri hiss etmişdir. İnkişaf etməkdə olan ölkələrin çoxu ixracın bu növü üzrə vergi daxilolmalarından əhəmiyyətli dərəcədə asılı olduğuna görə malların ixrac qiymətinin aşağı düşməsi çox vaxt dövlət büdcəsinə təsir göstərir, bu isə, öz növbəsində, ictimai istehlakm və investisiyaların həcminin azalmasına gətirib çıxarır.

## Xülasə

• Dövlət qiymətin əmələ gəlməsinə güclü təsir göstərsə də, şirkətlər rəqabətdən asılı olmayaraq «qiymət fonu» formalaşdırır (sövdələşmələr, kartellər, gizli alyanslar və s. vasitəsilə).

• Tariflər və rüsumlar dünya bazarlarında malların qiymətlərinin əsas tənzimləyiciləridir. Tarif siyasəti xarici ticarətin tənzimlənməsinin başlıca alətlərindən biri və dövlətin ticarət siyasətinin elementidir.

• Dünya bazarlarında qiymətlərin hərəkəti çox mürəkkəb təzahürdür, nəzəriyyəni bilmədən onun izahı çətindir. Buna görə də qiymətin əmələ gəlməsi və beynəlxalq hərəkəti ilə bağlı olan əsas nəzəri müddəalar öyrənilməlidir.

• Milli bazarlarla müqayisədə, beynəlxalq bazarın qiymətlərinin formalaşması daha mürəkkəbdir və bunun əsas səbəbləri aşağıdakılardır:

1) ixrac-idxal məhsulları istehsal edən şirkətlərin xarici əməliyyatlarına

dövlətin müdaxilə etməsi dərəcəsinin müxtəlifliyi;

2) bazarların müxtəlifliyi və çoxluğu;

3) məhsul ixrac edilərkən qiymətlərin artması;

4) təsbit olunan və dəyişən qiymətlərin müəyyənləşdirilməsi təcrübəsində əhəmi}^ətli fərqlərin mövcudluğu;

5) şirkətlərin xarici bazarlarda rəqabət mübarizəsinin aparılması strategiyalarında fərqlərin olması.

• Qiymətin əmələ gəlməsi ilə bağlı olan qərarlar bir qayda kimi, ticarət əməliyyatları aparan firmaların fəaliyyət göstərdiyi ölkələrdə valyuta məzənnələrinin dəyişməsini nəzərə almalıdır. İnflyasiya və vergiqoyma amilləri qiymətin əmələ gəlməsinə güclü təsir göstərir.

• Rəqabətin qeyri-qiymət metodlarının artmasına baxmayaraq, malın qiyməti firmanın rəqabət qabiliyyətinə, o cümlədən onun dünya bazarına daxil olmaq imkanlarına birbaşa təsir göstərən ayrılmaz amildir.

• «Sərbəst qiymətlər» amili rəqabət aparan qüvvələrin milli qanunvericilikdə məhdudlaşdırıcı tədbirlərin (proteksionizm) mövcudluğuna baxmayaraq, getdikcə daha çox ÜTT-nin müəyyənləşdirdiyi beynəlxalq standartlara yaxud onun tövsiyələrinə riayət etməyə başlayan inkişaf etmiş bazarlarda təsir göstərir. Burada istehsal miqyası effektindən, xidmətin yüksək keyfiyyətindən və s. yararlanan firmaların üstünlüyü aydın nəzərə çarpır.

• Qiymətin əmələ gəlməsi praktikasında ənənəvi proteksionizmin fonna və metodları - rüsumlar, tariflər, ixrac subsidiyaları öz əksini tapır, burada dempinq, dövlət nəzarətinin müxtəlif fonnaları tətbiq olunur. Qiymətin əmələ gəlməsi praktikasına dövlətin təsir göstənnəsinin ən tipik nümunəsi, dövlətlərarası nəzarət forması olduğuna və birbaşa qiymətlərə deyil, neftin hasilat həcminə şamil olduğuna görə bütövlükdə «dövlət tənzimlənməsinə» aid edilməsi o qədər də düzgün olmayan, OPEC tərəfindən neftin qiymətlərinin tənzimlənməsidir. Nümunənin dünya bazarlarında neftin qiymətləri ilə bağlı olan bir tərəfi, onun iri dövlətlərin dünya siyasətini, ikincisi isə daxili siyasətin dinamikasını cəmiyyətin maraqları baxımından əks etdirməsidir. Dövlət özünün xarici iqtisadi siyasətinin nəticələrini, onun daxili siyasətdə necə əks- səda verəcəyini daim nəzərə almalıdır.

• Strateji xammalın ən mühüm növlərinin dünya qiymətlərinə təsir göstənnəsi əlavə gəlirlərin əldə olunması üçün güclü alətdir və çox vaxt böyük siyasətlə, beynəlxalq münasibətlərlə, dövlətlərin maraqları ilə kəsişir. Bunu, neftin qiymətlərinin hərəkəti sahəsində siyasət daha yaxşı nümayiş edir.

• 2000-2010-cu illərdə neftin qiymətləri baha olmuş, bəzən isə qısamüddətli enməyə və yeni sıçrayışlara məruz qalmışdır. Ən yeni tarixdə «neft qiymətləri» dünya iqtisadiyyatının vəziyyətinə, başlıcası isə neftin istehlakınm əsas mərkəzləri olan ABŞ, Qərbi Avropa, Yaponiya və Çində iqtisadi duruma güclü təsir göstərir. Onların tələbatı neftin qiymətinə və dolayısı ilə qiymətlərin bütün spektrinə həlledici təsir edir. Dünya yanacaq balansında tarazlığın son dərəcə pozulması və bunun nəticəsində həmin sahədə möhtəkirlik proseslərinin baş qaldmuası bununla izah edilir.

## Yoxlama sualları

1. Qiymət nədir? Onun təbiəti, mahiyyəti və məzmunu nədən ibarətdir?
2. Malın və xidmətin beynəlxalq qiyməti necə müəyyən olunur?
3. Aşağıdakı malların dünya bazarlarında qiymətinin hərəkəti nə ilə bağlıdır?
    - hazır məmulatlar;
    - kənd təsərrüfatı məhsulları və xammal;
    - tropik bitkilər.
4. Beynəlxalq ticarətdə qiymət amilini, qiymətin rolunu, dünya bazarlarında qiymətlərin müxtəlifliyini xarakterizə edin. Hansı iki qiymət qrupunu tanıyırsınız? Qiymətlərin hansı növləri vardır?
5. Qiymətin əmələ gəlməsi metodlarını təhlil edin.
6. Malların dünya bazarlarında qiymətləri necə formalaşır? Qiymətin əmələ gəlməsi baxımından bazarların hansı tipləri var?
7. Vahid (dünya) qiymət qanununu ifadə edin. Xarici ticarət qiymətlərinə dövlətin təsiri nə cürdür? Gömrük qiymətləndinnəsi nə deməkdir?
8. 2000-2004-cü illərdə dünya bazarlarında xammalın və ərzaq mallarının qiymətlərini xarakterizə edin.
9. Dünyada malların qiymətinin qlobal perspektivləri necədir?
10. İdxal qiymətləri və ixrac qiymətləri - onların formalaşması mexanizmi necədir?
11. Qiymətlərin beynəlxalq tənzimlənməsinin mexanizmlərini sadalayın.

## Referatların mövzuları

1. Vahid qiymət anlayışı və onun məzmunu
2. Qiymətlərin beynəlxalq tənzimlənməsi
3. 1995-2010-cu illərdə dünya bazarlarında sənaye malları, kənd təsərrüfatı məhsulları və yanacağın qiymətlərinin hərəkətinin təhlili

## Bölmə

# KAPİTALIN BEYNƏLXALQ YERDƏYİŞMƏSİ VƏ TMK-nın FƏALİYYƏTİ - BEYNƏLXALQ SAHİBKARLIQ

# Fəsil 13

# ƏMƏK RESURSLARININ BEYNƏLXALQ HƏRƏKƏTİ

## 13.1. işçi qüvvəsinin beynəlxalq əmək miqrasiyası anlayışı və onun məzmunu

Əmək istehsalın əsas amillərindən biridir. İqtisadi artım ümumiləşdirilmiş şəkildə iki göstəricinin: əhalinin və mövcud resursların artımı ilə xarakterizə olunur. Dünya ölkələri əhalisinin sayı və strukturu, maddi təminat, elmin, təhsilin, mədəniyyətin, cəmiyyətin inkişafı, əmək ehtiyatları və miqrasiya - bu məsələlər (amma bunlarla bitməyən) bilavasitə ölkələrin və ümumilikdə dünya iqtisadiyyatının artımı ilə birbaşa əlaqədardır. Əhalinin çoxalması və işçilərin sayının artım dinamikası, onların əmək funksiyalarının keyfiyyəti və yaranan əmək münasibətləri əsrlər boyu dünya ölkələrinin iqtisadi artımının və inkişafının əsas mənbəyi olmuşdur.

***Anlayışı, mahiyyəti.*** İstehsal amilləri, o cümlədən işçi qüvvəsi beynəlxalq miqyasda hərəkət etmək qabiliyyətinə malik olduğuna görə müəyyən dərəcədə beynəlxalq ticarət münasibətlərini əvəz edə bilər. Bu fəsildə nəzərdən keçirəcəyimiz materialdan görünür ki, işçi qüvvəsinin beynəlxalq miqrasiyasının və onun nəticələrinin bir çox aspektləri ölkələrin xarici ticarətindən əldə olunan effektin bənzəridir. İşçi qüvvəsi aşkar artıqlığı mövcud olan ölkədən onun aşkar qıtlığı qeydə alınan ölkəyə yönəlir. Şübhəsiz ki, bu cür yerdəyişmə əcnəbi işçilərin əməyindən istifadə edən ölkədə milli iqtisadiyyatın səmərəliliyini artırır. Bu əlavə işçi qüvvəsi dünya bazarı üçün malların buraxılışını genişləndirir və eyni zamanda gəlirlərin yenidən bölgüsü effekti yaratmaqla, əhalinin müxtəlif qruplarının maraqlarına toxunur.

BƏB əsasında kooperasiya iki formada həyata keçirilir:

1) əmtəə mübadiləsi;
2) əmək miqrasiyası.

Problemin məfhum kimi dərk olunması baxımından işçi qüvvəsinin ölkə daxilində, onun regionları arasında baş verən «daxili» və iki yaxud daha çox ölkə arasındakı «xarici» miqrasiyası mövcuddur. Siyasi mühacirlər işə düzələrək işçi miqranta çevrildiyinə görə, bəzən siyasi emiqrasiya əmək

miqrasiyasına transfermasiya olunur; bu, məcburi xarici emiqrasiyanm bir növüdür.

*İşçi qüvvəsinin beynəlxalq miqrasiyası* - əmək qabiliyyətli yaşda olan əhalinin iqtisadi səbəblər (iş tapmaq məqsədi ilə) üzündən müəyyən ölkədən başqasına bir ildən artıq müddətə köçməsidir.

*Emiqrasiya* - əmək qabiliyyətli əhalinin müəyyən ölkədən başqa ölkələrə çıxıb getməsidir; *iınmiqrasiya* - əmək qabiliyyətli əhalinin müəyyən ölkəyə başqa ölkələrdən gəlməsidir. *«Zəka axını»* - yüksək ixtisaslı mütəxəssislərin beynəlxalq miqrasiyasıdır. *Reeıniqrasiya* - emiqrantlarm daimi yaşamaq üçün vətənə qayıtmasıdır.

Əmək miqrasiyası qədim zamanlardan mövcud olan təzahürdür. Buna görə də onun əvvəlki dövrlərdə hansı fonuada və növlərdə müşahidə olunduğunu bilmək vacibdir. Sosial mütəhərrikliyin fonuaları dəyişəndir, amma təzahürün özü insan cəmiyyətlərinin hamısına xasdır.

Pitirim Sorokinə görə, sosial mütəhərriklik cəmiyyətə xas olan adi vəziyyətdir. Bu, təkcə fərdlərin, qrupların deyil, sosial obyektlərin, yəni bəşəriyyətin fəaliyyət prosesində yaratdıqlarının da yerdəyişməsini nəzərdə tutur. Sorokin siniflər nəzəriyyəsinin əleyhinə çıxış edirdi və ilk dəfə olaraq, gəlir səviyyəsinə və məşğuliyyət növünə görə dayanıqlı sosial qrupları nəzərdə tutan «iqtisadi stratifıkasiya» məfhumunu işlətmişdir. Onun gəldiyi qənaətə görə, əsas struktur qrupları yalnız adını dəyişərək, ən qədim zamanlardan indiyədək məlum olan bütün cəmiyyətlərin həyatında, bütün dövlət sistemlərində; demokratiya, kommunizm, diktatura və s. mövcudluğunu davam edir. «Hər hansı an ərzində stratifıkasiyanm bəzi fonnaları pozularsa, onlar köhnə yaxud modifıkasiya olunmuş formada yenidən meydana çıxır və çox hallarda bərabərlik tərəfdarlarının öz əlləri ilə yaradılır». Bu stratifıkasiya qruplarına ən güclü zərbələri müharibələr və başqa sosial münaqişələr vurur və partlayışa bənzər qaçqın axını, yaradır. Nəticədə xalqın əsrlik ənənələri dağılır, etnosun strukturunda geriləmə prosesləri başlayır, sivillikdən kənar yeni münaqişələr baş qaldırır (şəkil 13.1).

13.1-ci şəkildə müasir miqrasiyanın kifayət qədər mürəkkəb strukturu təsvir olunmuşdur; burada göstərilən anlayışlar əmək miqrasiyasına birbaşa yaxud dolayısı ilə aidiyyəti olan miqrasiyaların bütöv təsnifat qrupunun hərəkətverici səbəblərini özündə ehtiva edir.

***Miqrasiyaların ümumi səbəbləri.*** Bəşər tarixində çoxlu sayda mühüm ərazi yerdəyişmələri baş vennişdir və bunlardan biri «xalqların böyük köçü»

adını almışdır. İlkin dövrlərdə əhali ənənəvi yaşayış yerlərindən səbəblər kompleksinin təsiri altında köçürdü və bu zaman təbii-iqlim şəraiti həlledici rol oynayırdı. Bir qədər sonra ara verməyən müharibələr dövrü başlandı və əsir götürülənlərin qul kimi satılmaq üçün qaliblərə verilməsi mükafatlandınnanm əsas fonnasına çevrildi. Sonra demoqrafik və iqtisadi, Ən yeni tarixdə isə daha çox iqtisadi səbəblər əsas rol oynamağa başladı. İki Dünya müharibəsi arasında olan, on milyonlarla adamın bir ölkədən başqa ölkəyə köçürülmüş olduğu 1914-1918-ci və 1939-1945-ci illər bu qaydadan istisnalıq təşkil etsə də, bu cür yerdəyişmələrin nəticəsi «böyük köç» dövründə baş verən hadisələrdən zəif təəssürat bağışlamamışdır. XX əsrin sonunda tez-tez baş verən regional münaqişələr nəticəsində iş axtarılması ilə əlaqədar olmayan (bu məsələ bir qədər gec, sağ-salamat qaldığına əmin olmuş qaçqın sığınacaq və qida axtarmağa başladıqda meydana çıxır) regional-beynəlxalq məcburi miqrasiya yaranmışdır. Vyetnam, Kamboca, Çili, Kuba, Haiti, Yunanıstan (1950-1970-ci illərdə «qara polkovniklərin» çevrilişindən sonra) qaçqınlarını, habelə faşist senator Makkarti dövründə ABŞ ziyalılarını buna nümunə göstənnək olar - onların hamısı vətəni təqib və repressiyalar üzündən tərk etməyə məcbur olmuşdur. 1960-1990-cı illərdə Afrika və Latın Amerikasında baş verən hərbi münaqişələr milyonlarla qaçqının meydana çıxmasına səbəb olurdu. Keçmiş Yuqoslaviyadakı etnik müharibə, sonra isə NATO-nun hərbi qüvvələri tərəfindən Serbiyanın bombardmanı milyonlarla insanın böyük faciəsinə çevrilmiş, yüz minlərlə adam öz vətənindən qaçmağa məcbur olmuşdu.

SSRİ-nin ərazisində hərbi əməliyyatlara çevrilən lokal münaqişələr (Özbəkistan, Qazaxıstan, Baltikyanı ölkələr, Moldova, Cənubi Osetiya, İnquşetiya və Şimali Osetiya, Abxaziya, nəhayət. Çeçenistan) meşə yanğını kimi yayılmağa başladı. Hərbi münaqişələr və SSRİ-nin dağılması 10 milyona yaxın adamın qaçqına çevrilməsinin birbaşa səbəbidir.

NATO-nun Liviyada keçirdiyi əməliyyatlar qaçqınların yeni axınını yaratmışdır.

Qeyd edək ki, müharibədən sonrakı dövrdə əmək resurslarının beynəlxalq miqrasiyasının əsasını təkcə göstərdiyimiz hərbi-siyasi deyil, başlıca olaraq iqtisadi səbəblər təşkil edir. Əmək resurslarının miqrasiyası həm resipiyent, həm də donor-ölkələrdə böyük dəyişikliklərə səbəb olmuşdur. Dəyişikliklər çoxcəhətli xarakter daşıdığına görə iqtisadçıların, sosioloqların, demoqrafların və s. diqqətini cəlb edir.




*Şəkil 13.1.* **Əhali miqrasiyasının strukturu**

Beynəlxalq miqrasiya bütün ölkələr, xalqlar və qitələr üçün aktual məsələyə çevrilmişdir. BMT miqrasiya təzahürünü «insanların yaşayış yerini 12 aydan çox müddətə tərk etməklə, milli sərhədlərdən kənara çıxmaqla istənilən yerdəyişməsi» kimi təfsir edir. BMT-nin rəsmi məlumatlarına görə, 1994-cü ildə qaçqınların sayı 24 milyon nəfərdən çox olmuşdur (1980-ci ildə - 10 milyon nəfərdən az). 2010-cu ildə dünya üzrə miqrantların sayı 214 milyon nəfərə yaxın olmuşdur və buna görə də XX əsrin «qaçqınlar əsri» adlandırılması təsadüf deyil.

***inkişaf etməkdə olan ölkələrdən immiqrantlar.*** İşsizlik, həyat səviyyəsinin aşağı olması, yoxsulluqdan can qurtannaq cəhdləri inkişaf etməkdə olan ölkələrdən inkişaf etmiş ölkələrə immiqrasiyanın əsas səbəbləridir. Əhalinin mütəhərrikliyinin aydın ifadə olunmuş iqtisadi səbəbləri ilə yanaşı, yaşayış yerinin müəyyən müddətə dəyişilməsinə yaxud həmişəlik tərk olunmasına təsir göstərən siyasi, sosial və demoqrafik amillər də baş qaldırır və güclənirdi. İnkişaf etməkdə olan ölkələrdə onların təsir dərəcəsi

müxtəlif olsa da, çox vaxt həlledici rol oynayırdı.

Əhalinin mütəhərrikliyinin onun sıxlığından daha çox, var-dövlət baxımından qütbləşmə və inkişaf etməkdə olan ölkələrin sakinlərinin sürətlə çoxalması ilə əlaqələndirmək lazımdır. Asiya və Afrikanın, nisbətən az isə Latın Amerikasının yoxsul ölkələrinin ümumi cəhəti əhalinin sürətlə çoxalmasıdır və bu, onların həyatının bütün sahələrinə təsir göstərir. Məlumdur ki, 1950-1995-ci illərdə Asiyanın əhalisi 1,8 milyard nəfər, yəni inkişaf etmiş ölkələrini indiki əhalisinin ümumi sayından çox kəmiyyət qədər artmışdır.

Demoqrafik partlayış nəticəsində Asiya və Afrikanın demək olar ki, bütün ölkələrində əhalinin sıxlığı artmış, ən vacibi isə bir kəndli ailəsinə düşən becərilən torpaqların ölçüləri ixtisar olunmuşdur. Məsələn, Hindistanda 1950-1995-ci illərdə torpaq sahələrinin ölçüsü 3 dəfə, Pakistanda isə müstəqillik elan olunduqdan sonrakı dövrdə 2,7 dəfə azalmışdır; Türkiyədə 1950-ci ildə kənd əhalisinin hər nəfərinə 0,7 hektar becərilən sahə, 1960-cı ildə əvvəllər istifadə olunmayan torpaqların mənimsənilməsi nəticəsində isə 0,8 hektar düşmüş, sonradan bu göstərici mütəmadi azalaraq, 1995-ci ildə 0,4 hektara düşmüşdür.

Əhalinin artımı ilə bərabər, ərzağa, mənzilə, becərilən torpaqlara, su təchizatına, enerji güclərinə, habelə iş yerlərinə tələbat da çoxalırdı. Əhalinin bunlarla təmin olunmasının obyektiv imkanları isə tükənir. Bütün bunlar ölkələrin əhalisinin sürətlə artmasının yoxsul dövlətlərdə emiqrasiyanm ən vacib səbəblərindən biri olması barədə fikir söyləməyə əsas verir. Əmək resurslarının beynəlxalq hərəkətinin səbəbləri və nəticələri birmənalı deyil, bunlar mütəxəssislər tərəfindən hər bir ölkə (ölkələr qrupu) üzrə daim tədqiq olunur.

***Yoxsulluq əmək miqrasiyasının əsas səbəbidir.*** Əmək miqrasiyasının əsas səbəbi (sadaladığımız başqa tərkib hissələrinin mühümlüyü nəzərə alınmaqla) insana (və təbii ki, onun ailəsinə) layiqli həyat sürmək imkanı verən iş axtarılmasıdır. İnkişaf etmiş ölkələrdə mütəxəssislər arasında bir ölkədən başqasına, məsələn. Böyük Britaniyadan ABŞ-a, Kanadaya, Avstraliyaya yaxud əksinə köçməklə, şəraiti, ölkəni, iş yerini dəyişməyə müəyyən meyil vardır. Lakin çox vacib sosial-iqtisadi və beynəlxalq hadisə kimi, müasir əmək miqrasiyasının əsasını bu səbəblər təşkil etmir. Bu təzahürün təməlində iqtisadi cəhətdən zəif, işsizlik səviyyəsinin yüksək, iş tapıldıqda belə, pis şəraitinə yaxud məvacibin az olmasına görə insanı çox vaxt qane etməyən ölkələrdə mövcud, onlara xas olan *yoxsulluq* durur.

Buna görə də müasir əmək miqrasiyasının yaranmasının əsas mənbəyi

iqtisadiyyatı zəif inkişaf etmiş ölkələrdir. Özü də, burada çox mürəkkəb şəkil meydana çıxır. Məsələn, alimlərin, təhlilçilərin, yüksək ixtisaslı fəhlələrin çoxu Rusiyadan Qərbi Avropa ölkələrinə daha yaxşı həyat və iş şəraiti tapmaq məqsədilə çıxıb gedirlər. Amma öz növbəsində, Rusiyaya bu şəraitin daha pis olduğu keçmiş müttəfiq respublikalardan miqrantlarm kütləvi surətdə axını baş verir. Bu cür vəziyyət bir sıra ölkələr qrupu, o cümlədən kifayət qədər sürətlə inkişaf edən, lakin sosial parametrlərinə görə inkişaf etmiş ölkələr qrupundan geridə qalan keçid iqtisadiyyatlı ölkələr üçün də səciyyəvidir.

Aydınlaşdırdığımız kimi, adamların iş axtarışı məqsədilə ölkədən getməsinin başlıca səbəbi yaşamaq üçün vəsait axtarışıdır. Sosial-iqtisadi inkişafın qeyri-bərabərliyi hər nəfərə düşən milli gəlirin əvvəlcə sənaye ölkələrində, sonra isə neft hasil edən dövlətlərdə (daha dəqiq desək, böyük həcmdə neft ixrac edən) artmasına, ənənəvi cəmiyyətlərin müasirləşməsinə və adamların bir hissəsinin yerdəyişməsinə səbəblər meydana çıxararaq, orada güclü daxili irəliləyişlərə təkan vennişdir. Əlbəttə, inkişaf etməkdə olan ölkələrdə də milli gəlir artır, amma onlann çoxunda bu proses ləng gedir, əhalinin varlı və aztəminatlı təbəqələrində hər nəfərə düşən gəlirlərdəki fərq böyükdür. Həyat səviyyəsinin aşağı olması, bəzən isə ümidsiz yoxsulluq, ilk növbədə, qida məhsulları istehlakının azlığında ifadə olunur; bu vəziyyətdə uzun müddət istifadə olunan mallardan danışmağa belə dəyməz. Miqrasiyanın səbəblərinin digər qrupu əsasən sosial xarakter daşıyır. Yerli təhsil sisteminin, səhiyyə idarələri şəbəkəsinin inkişafdan geridə qalması, sabahki günə inamsızlıq, primitiv həyat tərzindən narazılıq - bütün bunlar emiqrasiya potensialının formalaşmasına səbəb olur, həyat şəraiti daha yaxşı olan ölkələrə köçüb getmək arzusu doğurur. Bir çox hallarda əmək miqrasiyasının səciyyəvi fonualarım fərqləndirmək olar. Bunlara gənc pakistanlıların Sultanın ordusunda muzdla xidmət üçün Omana köçməsini aid etmək olar. Miqrasiyanın başqa, nisbətən nadir təsadüf olunan forması ölkəni nikaha girmək məqsədi ilə tərk etməkdir. Məsələn, AFR-da yaxın vaxtlaradək varlı kişilər üçün Cənub- Şərqi Asiyadan həlim xasiyyətli, itaətkar gəlinlərin gətirilməsi ilə məşğul olan 500-dən artıq nikah agentliyi fəaliyyət göstərirdi. Əmək haqqının azlığı, sənaye bazasının zəifliyi, alınan biliklərin ölkəsində tətbiq edilməsinin qeyri- mümkünlüyü şəraitində inkişaf etməkdə olan və yeni kapitalist ölkələrində yaşayan yüksək ixtisaslı mütəxəssislər də vətənlərini tərk etməyə üstünlük verirlər. «Zəkaların axını» sahəsində miqrasiya axını: yüksək ixtisaslı kadrların və gənc, perspektivli alimlərin ölkədən köçüb getməsi belə formalaşır.

Başqa səbəb xarici işçilərin son dərəcə mütəhərrikliyidir (elastikliyi) və bu özünü iki halda büruzə verir:

1) perspektivsiz sahələrdən yeni, daha perspektivli sahələrə keçərkən. Məsələn, bütün sənayeləşmiş ölkələrdə və neft hasil olunan dövlətlərdə immiqrantlar əsasən xidmət sahəsində çalışır;

2) 1980-ci illərədək Qərb ölkələrində, neft hasil edən dövlətlərdə isə indiyə qədər işsizlik müavinəti almadığından, işsizlik yaxud deportasiya təhlükəsi yarandığı halda immiqrantlar tezliklə bir ölkədən başqasına köçürlər.

İmmiqrantlar işsizliyin azalmasına müəyyən dərəcədə kömək edirlər: xarici işçilər müxtəlif malları və xidmətləri istehlak etməklə, tələbatı yüksəldir. İstehsalın genişləndirilməsi isə həm xarici, həm də milli işçi qüvvəsinin hesabına əlavə iş yerlərinin yaradılmasını tələb edir. Nəticədə immiqrantlarm əməyi sayəsində bütün resipiyent-ölkələrdə həm yerli əhali, həm də miqrantlar arasında işsizlik sabit qaldığı halda, məşğulluq daim artırdı.

***Kruqman-Obstfeld qrafiki.*** P.R.Kruqman və M.Obsfeld işçi qüvvəsinin miqrasiyasının ümumi meyillərinə (əmək haqqının bərabərləşməsi, dünyada məhsul istehsalının artımı, əhalinin müxtəlif qruplarına ziddiyyətli təsir göstərilməsi) əmək resurslarının dünya üzrə yenidən bölgüsü amili kimi yanaşmaqla, işçi qüvvəsinin mütəhərrikliyinin (hərəkətinin) səbəblərini və nəticələrini əks etdirən qrafik qurmuşlar (şəkil 13.2).

***İmmiqrasiya effekti.*** Miqrasiya axınlarının qəbul edən cəmiyyətin həyatına dərin və çoxcəhətli təsir göstərdiyi şübhəsizdir. Bu təsirin əsas sahələrini qeyd edək:

• miqrasiya effekti əhəmiyyətli dərəcədə onun miqyası ilə müəyyən olunur. BMT-nin məlumatlarına əsasən, ABŞ-da miqrantların sayı 35 milyon nəfərdir, ondan sonra isə Rusiya (13 milyon), Almaniya (7,3 milyon), Fransa (6,2 milyon), Kanada (5,8 milyon), Avstraliya (4,7 milyon) gəlir. İnkişaf etmiş ölkələrdə hər doqquzuncu sakin miqrantdır, onlardan bəzilərində isə əhalinin böyük qismini miqrantlar təşkil edir: Avstraliyada - 24%, İsveçrədə - 19%, Kanadada - 17%, ABŞ-da - 11%.

• miqrasiya axınlarının sırf kəmiyyət parametrləri ilə yanaşı, stmktur göstəriciləri, o cümlədən ***miqrantların müxtəlif kateqoriyalarının nisbətləri*** də vacibdir. Bir neçə ölkədən ibarət qrup (İsveçrə, Avstraliya, Portuqaliya və Böyük Britaniya) istisna edilməklə, iqtisadi və sosial sahələrin tələblərinə uyğun olaraq qəbul edilən iqtisadi miqrantların ümumi miqrant axınlarında xüsusi çəkisi o qədər də böyük deyil. Miqrantların böyük əksəriyyəti, əvvəllər

olduğu kimi, iqtisadi deyil, humanitar mülahizələr əsasında qəbul edilir. ABŞ- da, İsveçdə, Danimarkada gəlmə sakinlərin 70-80%-i ailələrin birləşməsi kanalları vasitəsilə gəlir. Norveç, Fransa və İsveçdə yaşayan xaricilərin 20%-i qaçqınlardır. Belçika və Niderlandda isə əhalinin ümumi sayında immiqrantlarm xüsusi çəkisi daha çoxdur. Bu cür miqrantlar dövlət himayəsində olanların sayını artırır və cəmiyyətin üzərinə düşən əlavə yük yaradır;

**Son hodd mohsulu** *MPL, MPL*




**ölkədən xaricə miqrasiyası**

**Dünyada məcmu işçi qüvvəsi**

*Şəkil 13.2.* **Kruqman-Obstfeldin qrafik düsturu**

• müasir dövrdə miqrantlarm ***təhsil və peşə-ixtisas səviyyəsi*** getdikcə daha böyük rol oynamağa başlayır. Bir qayda kimi, immiqrantlarm təhsil səviyyəsi, yerli sakinlərlə müqayisədə, aşağıdır. Ancaq son dövrdə Kanadada, Cənubi və Mərkəzi Avropanın bəzi ölkələrində əks təzahürlər müşahidə olunur: 2000-2005-ci illərdə Kanadada 25-44 yaşlı immiqrantlarm təqribən 26%-nin üçüncü pillə təhsili olduğu halda, həmin yaşda olan yerli sakinlərin bu göstəricisi 20% olmuşdur. Yeni gələn işçilərin tərkibində onların xüsusi çəkisi daha yüksəkdir. 2001-2006-cı illərdə Kanadanın ixtisaslı işçilər proqramı üzrə daimi yaşamaq üçün qəbul etdiyi immiqrantlarm 46%-nin üçüncü pillə təhsili, 0 cümlədən 15%-nin ən azı magistr diplomu var idi. İmmiqrantlarm peşə-

ixtisas tərkibindəki güclü qütbləşmə xarici işçi qüvvəsinə olan müasir tələbatı, habelə bir tərəfdən, müəyyən kateqoriyadan olan yüksək ixtisaslı mütəxəssislərin, digər tərəfdən isə, kənd təsərrüfatının, turizm biznesinin və s. tələbatını ödəmək üçün lazım olan mövsümi, aşağı ixtisaslı fəhlələrin ölkəyə axınını stimullaşdıran xüsusi proqramların mövcudluğunu əks etdirir. Son illərdə yeni gələn, iqtisadi fəal olan əcnəbilərin tərkibində mühəndislərin, alimlərin və menecerlərin payı Aİ-də 40%, ABŞ-da isə təxminən 35% olmuşdur. Yüksək ixtisaslı miqrantlar, adətən daha böyük iqtisadi fayda verdiyi, sosial-iqtisadi inteqrasiya prosesini asanlıqla keçdiyi və yerli əhalinin sosial davranış standartlarını tezliklə mənimsədiyi halda, aşağı ixtisaslı miqrantlarm qəbulu arzuolunmaz sosial-siyasi nəticələrə gətirib çıxara bilər.

• immiqrasiyanm ***milli tərkibi*** məsələsi də aktualdır. AFR-da immiq-rantlarm ***16*** hissəsi - türklər, Fransada - mərakeşlilər və əlcəzairlilər, ABŞ-da - meksikalılardır. Özgə etnosdan olan gəlmə əhalinin sayının artması, etnik anklavların formalaşması, qəbul edən ölkənin multimədəniyyət cəmiyyətinə çevrilməsi orada etnoslararası münasibətləri gərginləşdirir, bu isə, ksenofo-biyanm güclənməsinə, ekstremist qüvvələrin mövqelərinin möhkəmlənməsinə səbəb olur;

• immiqrasiyanm pozucu effektinə onun axınının böyük hissəsinin ***qeyri-leqal xarakteri*** güclü təsir göstərir. Bəzi qiymətləndirmələrə görə, qeyri-qanuni immiqrantların sayı Avropa ölkələrində 2,5 milyondan 7 milyona, ABŞ-da 9- 10 milyon nəfərədək çatır. İnkişaf etmiş ölkələrdə əhalinin planlaşdırılmayan, çətin nəzarət olunan, kortəbii yerdəyişməsinə milli təhlükəsizliyə təhdid, ilk növbədə, terrorizm, kriminogen, sanitar-epidemioloji vəziyyət və s. Baxımından yanaşılır.

***Miqrantlarm olması niyə zəruridir?*** Əhalinin qocalması və sayının azalması, onun əmək qabiliyyəti olan və olmayan hissələri arasında nisbətlərin dəyişməsi indi inkişaf etmiş ölkələrin çoxu üçün səciyyəvidir və yaxın 50 ildə Aİ əhalisinin təqribən 12% azalacağı gözlənilir. Ömür müddətinin uzanması fonunda indi Aİ-nin hər altıncı sakininin yaşı 65-dən yuxarıdır, 2050-ci ildə isə hər 4 (bəlkə də hər 3) nəfərdən biri bu yaşda ola bilər, özü də, 65-69 yaşında olan əhali qrupunda yaşlıların yalnız 10%-i işləməyə davam edəcəkdir. Bunun nəticəsində iqtisadi fəal əhalinin sayı azalır. Hazırda inkişaf etmiş ölkələrdə demoqrafik artımın yarısından çoxunu, Avropada isə 90%-ə yaxınını immiqrantlar təmin edir. BMT-nin proqnozlarına görə, 2000-2050-ci illərdə iqtisadi fəal əhalinin sayını saxlamaq üçün Aİ ölkələri hər il 1,4 milyon adam

qəbul etməlidir. Bundan başqa, immiqrasiya immiqrant ailələrində doğum sayının yüksək göstəricilərinin (xüsusilə də köçdükdən sonrakı ilk illərdə) olmasını qəbul edən ölkədə demoqrafik vəziyyətə əlavə təsir də göstərir. Buna müvafiq olaraq, inkişaf etmiş ölkələrin çoxunda işçi qüvvəsində əenəbilərin xüsusi çəkisi artır: bu göstərici Avstraliyada - 24,6%, İsveçrədə - 21,8%, Kanadada - 19,9%, ABŞ-da 15,3%-dir.

Əmək resurslarının sosial-peşə tərkibi də immiqrasiyanm güclü təsirinə məruz qalır. İşçi qüvvəsi bazarının peşə-sahə və ərazi strukturunda kəskin qeyri-mütənasibliklər şəraitində bu təsir birmənalı xarakter daşımır. Qərb ölkələrində həm xroniki, həm də dövri olaraq, yerli əhalinin yerinə yetinnəkdən imtina etdiyi ağır, çirkli, təhlükəli və aşağı ödənişli işlər üçün ixtisassız heyətə müvəqqəti və mövsümi tələbat yaranır. Məsələn, Belçikada mədən fəhlələrinin yarısından çoxu, İsveçrədə tikintidə işləyən fəhlələrin 40%- i, ABŞ-da aqrar sektorda çalışanların 70%-i immiqrantlardan ibarətdir.

Eyni zamanda texniki təmayüllü yüksək ixtisaslı mütəxəssislər və orta ixtisas səviyyəli fəhlələr qruplarında muzdlu işçilərin çatışmazlığı hiss olunur. Belə ki, 2001-2006-cı illərdə Avstraliyada informasiya texnologiyaları sahəsində mütəxəssislərin çatışmazlığı 27-35 min nəfər eivarmda qiymətləndirilirdi.

İndi ABŞ-da əcnəbi mənşəli 1,5 milyon (vətəndaşlıq verilmiş əcnəbilər daxil olmaqla) alim və mühəndis, Aİ-də 2 milyona yaxın əcnəbi alim, mühəndis, menecer və texnik işləyir. Yüksək ixtisaslı mütəxəssislər arasında əcnəbilərin ən yüksək xüsusi çəkisi on illər ərzində dünyanın ən güclü zəkalarının cəlb olunması üzrə məqsədyönlü siyasət həyata keçirən ənənəvi emiqrasiya ölkələrində: Avstraliya (25%), Kanada (18%) və ABŞ-dadır.

Xarici tələbələrin qəbulu da elmi-texniki sahədə insan resurslarının artırılmasının mühüm kanalı kimi nəzərdən keçirilir. Hazırda inkişaf etmiş ölkələrdə 5 milyondan çox əcnəbi tələbə təhsil alır və onların təxminən '***A*** hissəsi ABŞ-ın payına düşür. Özlərinin təbiət və texniki fənlər üzrə təhsil alan tələbələrinin sayının azaldığı şəraitdə bu ölkələr həmin ixtisaslar üzrə təhsilini bitirən əcnəbi tələbələrə getdikcə daha böyük maraq göstərir, bu məzunların işçi vizası almasını asanlaşdırmaq məqsədilə öz miqrasiya siyasətində dəyişikliklər aparır. Məsələn, Kanadada əcnəbi tələbələrin 36%-i bu fənlər üzrə təhsil alır, ABŞ-da isə PhD dərəcəsi alanların 22%-i əcnəbilər olduğu halda, mühəndis elmləri, riyaziyyat və infomıasiya texnologiyaları sahəsində onların payı 60%-dən çox olmuşdur.

## 13.2. İqtisadi aspekt

Dayanıqlı demoqrafik enmə və əmək bazarında qeyri-mütənasibliklərin güeləndiyi şəraitdə immiqrasiya əmək resurslarını artınnaqla və məşğulluq sahəsində boşluqları doldumaqla, qəbul edən cəmiyyətdə mühüm sosial- iqtisadi funksiyanı yerinə yetirir. Aydındır ki, öz əmək resurslarının məhdudluğunu nəzərə alan inkişaf etmiş ölkələr, əvvəlki kimi, miqrantlarm müəyyən kateqoriyasının immiqrasiyasını stimullaşdıracaq.

İmmiqrantlar milli məhsulu istehsal və istehlak etməklə, vergiləri ödəməklə, əmanətlər qoymaqla və s. qəbul edən ölkənin təsərrüfatının inkişafına nəzərəçarpan təsir göstərir.

İxtisası olmayan işçilərin immiqrasiyası iqtisadiyyatın nomal fəaliyyətini təmin edən ənənəvi sektorları və ictimai-zəruri fəalij^ət növlərini qoruyub saxlayır. Bundan başqa, boşluqları doldumaqla, immiqrantlar yerli kadrların ixtisasından daha böyük səmərə əldə etməyə və bununla da, onların əmək məhsuldarlığının artmasına imkan yaradırlar. AFR-da aparılan tədqiqatlar göstərir ki, immiqrasiya olmadığı halda təsərrüfatın inkişafı dəfələrlə ləngiyər və yüksək inflyasiya yaxud istehsalın xarici ölkələrə köçürülməsi ilə müşayiət edilərdi.

İxtisassız əcnəbi işçi qüvvəsindən istifadənin bimənah olmayan nəticələrindən fərqli olaraq, ölkəyə yüksək ixtisaslı mütəxəssislərin, alimlərin, habelə tələbələrin axını, sözsüz ki. Qərbin aparıcı dövlətlərinin innovativ inkişafında və iqtisadi artımında böyük pozitiv rol oynayır.

ABŞ-da kimya üzrə Nobel mükafatı laureatlarının 35%-nin xarici mənşəli olması immiqrantlarm ölkənin elmi-texniki inkişafına töhfə vemәsinin sübutudur. Maraqlıdır ki, ABŞ-da innovasiyalara görə verilmiş ən məşhur patentləri və mükafatları alanların 18%-dən çoxu başqa ölkələrdə doğulanların payına düşür. Beynəlmiləlləşmə prosesləri Qərbi Avropanın ETTKİ sahəsinə getdikcə daha dərin nüfuz edir. Aparıcı tədqiqat mərkəzlərində əcnəbilərin payı 10%-ə çatır. Əcnəbi alimlər müasir həyatın keyfiyyətinə həlledici təsir göstərən sahələrdə tədqiqat işlərinin aparılması üçün cəlb olunurlar. Bunlar, ilk növbədə, İKT, kənd təsərrüfatı, səhiyyə və tibbdir. 2000-ci ildə AFR-m Əmək İnstitutu tərəfindən avropalı sahibkarlar arasında keçirilən sorğu eimtutumlu sahələrdə dinamik inkişaf edən müəssisələrin əcnəbi peşəkarların əməyindən fəal istifadə etdiyini göstərmişdir: firmaların 39%-i yüksək ixtisaslı əcnəbi mütəxəssisləri cəlb edir, onların müvafiq səviyyəli işçi heyətindəki xüsusi çəkisi isə 11%

təşkil edirdi; ETTKİ sahəsində bu göstəricilər uyğun olaraq 61% və 16% olmuşdur. Alman fıraıalarmda çalışan yüksək ixtisaslı əcnəbi işçilər arasında sorğu edilənlərin 48%-nin İKT ilə bağlı ixtisasları, 45%-nin mühəndislik işi üzrə diplomu və dərəcəsi olduğu halda, AFR vətəndaşları arasında biznes məsələləri üzrə ekspertlər liderlik edirdi (70%).

Başqa ölkələrdə doğulanlar sahibkarlığın, o cümlədən innovasiya sahələrinin inkişafında nəzərəçarpan rol oynayırlar. Yaxın keçmişdə immiqrantlarm sahibkarlıq sahəsində fəallığı nəticəsində ABŞ-da, Los-Ancelesdə «Korritaun» və «Kiçik Sayqon», Oklenddə «Çaynataun» yaxud Mayamidə «Kiçik Havana» kimi sürətlə inkişaf edən işgüzarlıq mərkəzləri meydana çıxmışdı.

Əcnəbilərin ucuz əməyindən geniş istifadə olunan sahələrdə əməyin ödənilməsi xərclərinə qənaət və buna müvafiq olaraq, şirkətlərin gəlirlərinin çoxalması bir qayda kimi, investisiya fəllığmm yüksəlməsi ilə nəticələnir. Bundan başqa, işçi qüvvəsinin mütəhərrikliyini artırmaqla, immiqrantlar şirkətlərin kapitalın hərəkətinə çəkdiyi xərclərinə qənaət etməsi üçün şərait yaradırlar.

Bütövlükdə isə, immiqrasiya zəruri insan kapitalı (işçi əlləri, xüsusi biliklər, yüksək peşə hazırlığı, idarəçilik təcrübəsi, işdə müvəffəqiyyət qazanmaq səyi) ilə yanaşı, investisiya resurslanmn axınını, onların bir hissəsinə qənaət olunmasım təmin etməklə, ölkə təsərrüfatının inkişafında pozitiv rol oynayır.

İmmiqrasiyanm qəbul edən ölkənin büdcəsi üzərinə ağır yük kimi yatdığı barədə fikir geniş yayılmışdır. Həqiqətən də, gəlmə əhalinin cəmləşdiyi bölgələrdə dövlət tərəfindən göstərilən sosial xidmətlər və ödəmələr büdcəyə çox güclü təzyiq göstərir. İmmiqrantlarm aztəminatlı ailələrinin məktəb təhsili, tibbi xidmət göstərilməsi və sosial təminatı ilə bağlı olan zəruri xərcləri yerli büdcələr üçün əlavə yükdür. ABŞ-da intensiv qeyri-leqal immiqrasiya axınlarının yönəldiyi ştatlar bundan xüsusilə böyük zərər çəkir.

Ancaq ABŞ və Kanadada keçirilən tədqiqatlara görə, ölkənin yerli əhalisinin orta vətəndaşı ilə müqayisə olunduqda, orta immiqrantm aldığı sosial ödəmələr az, ödədiyi vergilər isə çoxdur.

Bir çox ölkələrdə müəllim kadrlarının qocalması fonunda əcnəbi alimlər və müəllimlər universitet həyatına yeni təravət gətirir. Universitet müəllimləri arasında əcnəbilərin payı İsveçrədə 13%, ABŞ-da 8,3% təşkil edir. Öz vəsaiti yaxud onları göndərən dövlətin hesabına təhsil alan əcnəbi tələbələrin qəbulu

daha böyük əhəmiyyət kəsb edir. Təhsil xidmətlərinin ixracı inkişaf etmiş ölkələrin çoxunda xaricdən maliyyə vəsaitlərinin daxil olmasının mühüm mənbəyinə çevrilmişdir.

Beləliklə, immiqrasiyanm iqtisadiyyata, büdcəyə və sosial infrastruktura göstərdiyi təsir ümumilikdə pozitiv kimi qiymətləndirilə bilər.

Qərbi Avropa dövlətləri, ABŞ, Kanada və Avstraliya miqrasiya prosesləri üzərində nəzarətin gücləndirilməsi və yeni immiqrant axınlarının məhdudlaşdırılması sahəsində ciddi addımlar atmağa başlamışdır. Bir sıra beynəlxalq sazişlər bağlanmış, əhali qruplarının miqrasiyasının yeni dalğasının müxtəlif cəhətlərinin müzakirə olunduğu beynəlxalq konfranslar, görüşlər və konfranslar keçirilmişdir. Buna baxmayaraq, iqtisadi vəziyyətin mürəkkəbləşməsi, siyasi qeyri-sabitlik, millətlərarası münaqişələrin və ziddiyyətlərin güclənməsi üzündən bu problem kəskinliyini hələ də itinnəmişdir.

***Ziddiyyətli nəticələr.*** Ölkələrin bəzisi başqa dövlətlərdə işləyən vətəndaşlarının pul köçürmələrindən ciddi iqtisadi səmərə əldə edir, digərləri isə nəzərəçarpan zərər çəkir.

2007-ci ilin məlumatlarına görə, miqrantlar tərəfindən ən böyük məbləğdə pul Hindistana (35 262 milyon dollar), Çinə (32 262 milyon dollar), Meksikaya (27 144 milyon dollar), ABŞ-a (45 643 milyon dollar), Rusiya Federasiyasına (17 716 milyon dollar), İsveçrəyə (16 273 milyon dollar) köçürülür. Pul köçürmələrinin regional strukturuna nəzər yetirsək, onların daxil olan axınlarına görə Asiya (141 398 milyon dollar), çıxan axınlarına görə isə Avropa (126 169 milyon dollar) liderlik edir.

Belə bir fakt da qanunauyğundur ki, insan potensialının inkişafı yüksək olan ölkələrə 163 563 milyon dollar, orta olan ölkələrə isə 189 093 milyon dollar köçürülür. ’

## 13.3. Milli və beynəlxalq qanunvericilik

Hər bir ölkənin milli qanunvericiliyi və normativ fəaliyyəti öz miqrasiya siyasətinin məqsədlərini və istiqamətlərini müstəqil müəyyən etmək hüququnu nəzərdə tutur. Amma bu məsələlərin nizamlanmasında beynəlxalq təşkilatların sənədlərində təsbit olunmuş beynəlxalq hüquqi standartlar xüsusi əhəmiyyətə

^ Доклад о развитии человека. Преодоление барьеров: человеческая мобильность и развитие. ПРООН, М.: Весь мир, 2009. С. 159-166.

malikdir. Beynəlxalq konvensiyaları ratifikasiya edərkən demokratik ölkələrin çoxu (amma hamısı yox) beynəlxalq hüquq normalarının milli qanunverieilik üzərində üstünlüyünü tanıyır.

Xariei əmək miqrasiyasının beynəlxalq-hüquqi əsasını: 10 dekabr 1948- ci il «İnsan hüquqları haqqında ümumi Bəyannamə», 16 dekabr 1966-cı il «Vətəndaş və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt», 1 avqust 1975-ci il Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Yekun Aktı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin nümayəndələrinin 1986-cı il Vyana görüşünün Yekun Aktı, BMT-nin «Bütün əmək miqrantlarının və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında» Konvensiyası təşkil edir. BƏT-in «Əmək miqrantları haqqında» 97№-li Konvensiyasının əsas ideyalarından biri, həmin sənədi ratifikasiya edən dövlətlər tərəfindən milliyyət, irqi, dini mənsubiyyətindən, cinsindən və s. asılı olmayaraq miqrantlara münasibətdə hüquq bərabərliyinin tanımasıdır. Bu Konvensiyada əmək miqrantlarının qəbul edən ölkənin vətəndaşları ilə həmin sənəddə müəyyən edilən məsələlər üzrə eyni hüquqlara malik olmasını təmin edən şərtlər barədə müddəalar vardır.

***Miqrasiyanın tənzimlənməsi üzrə tədbirlər sisteminin məzmunu.*** BƏT-in 1949-eu ildə qəbul etdiyi 97№-li Konvensiyaya müvafiq olaraq, əmək miqrantlarının hüquqlarının ümumi müdafiəsi dövlət tədbirləri sistemi ilə təmin olunur və buraya aşağıdakılar daxildir:

• miqrantlara yardım üçün pulsuz xidmətlərin təşkili və onların lazımi infomıasiya ilə təmin olunması;

• vətəndaşların immiqrasiyası və emiqrasiyası məsələləri üzrə mötəbər olmayan infonnasiya və təbliğat əleyhinə tədbirlərin görülməsi;

• miqrasiyanın bütün mərhələlərini: ölkədən getmə, yerdəyişmə və miqrantların qəbulunu asanlaşdıran tədbirlərin görülməsi;

• müvafiq tibbi xidmətlərin təşkili;

• əmək miqrantlarma qazanelarmı və əmanətlərini vətənə köçünuək üçün icazə verilməsi.

BƏT-in 97№-li Konvensiyasında miqrantların muzdla işə qəbulu, yerləşdirilməsi və əmək şəraiti barədə müddəalar vardır, bir maddə isə miqrantların şəxsi əşyalarını, iş alətlərini və avadanlığını ölkəyə gətirməsi məsələlərini tənzimləyir.

Vətəndaşların iş üçün xaricə köçməsi ilə bağlı olan məsələlərin işlənib hazırlanması ilə əlaqədar olaraq, Rusiya qanunvericiliyi baxımından əmək

miqrantlannm ölkəyə cəlbi, ölkədən çıxmasının rəsmiləşdirilməsi və işə götürülməsi daha böyük maraq doğumr. Burada miqrantlarm işə düzəldilməsi üzrə vasitəçilik fəaliyyəti ilə aşağıdakıların məşğul olmasına yol verildiyi göstərilir:

• miqrantın maraqları baxımından zəruri olduğu hallarda səlahiyyətli dövlət orqanlarından icazə alınması və onların nəzarəti altında fəaliyyət göstərilməsi şərti ilə, ehtimal olunan işəgötürən yaxud onun qulluğunda olan və adından çıxış edən şəxs;

• ərazinin qanunvericiliyi yaxud həm qəbul edən, həm də göndərən ölkələrin səlahiyyətli orqanları arasında bağlanılan sazişlə nəzərdə tutulduğu hallarda ərazi hakimiyyətindən əvvəlcədən icazə almış özəl agentlik.

Bu sənəddə həmçinin, göstərilir ki, qeyri-qanuni miqrasiyaya şərait yaradan şəxs yaxud təşkilat müvafiq məsuliyyətə cəlb olunacaqdır. Bundan başqa, BƏT-in 97№-li Konvensiyasında əmək müqavilələrinin yazılı rəsmiləşdirilməsinin vacibliyi və əmək miqrantlannm muzd müddəti, əmək şəraiti və məzmunu, onun ödəniş səviyyəsi göstərilən sənədləri almaq hüququnun olması göstərilir.

Miqrantlarm əmək haqqı səviyyəsinin və əmək şəraitinin müəyyənləşdirilməsinə dair beynəlxalq normalar xüsusi diqqətə layiqdir. BƏT-in sənədləri miqrantlar və onların olduğu ölkənin vətəndaşları arasında əmək haqqının minimum səviyyəsinin bərabərliyi, milli qanunvericiliklə nəzərdə tutulduğu hallarda isə onlann əmək haqqının məbləğinin müəyyənləşdirilməsində iştirak hüququnun olmasını bəyan edir. Bu zaman əmək miqrantlarına əmək haqqının mütəmadi qaydada və nağd şəkildə verilməsi şərti qoyulur. Qeyd edək ki, beynəlxalq hüququn bu mühüm norması işəgötürənlərin utanmadan muzdurların əməyini ödəmədiyi, bununla da onları və ailə üzvlərini aclığa, təhqirə və iztirablara düçar etdiyi dövlətlərdə açıq-aşkar pozulur.

BƏT-in 97№-li Konvensiyasının 9-cu maddəsində əmək miqrantınm valyuta vəsaitlərini sərbəst surətdə vətəninə köçümıək hüququ təsbit olunmuşdur. Beynəlxalq standartlarla əmək miqrantınm olduğu ölkədə təhsil almaq yaxud ixtisas səviyyəsini yüksəltmək imkanları nəzərdə tutulur. Belə ki, BƏT-in 100 və 151 №-li Tövsiyələrində miqrantlarm təhsil almaqda qəbul edən ölkənin vətəndaşları ilə bərabər hüquqlarının olması şərti qoyulur. BƏT- in əmək miqrantları haqqında 86 №-li Tövsiyəsi BƏT-in 97№-li Konvensiyasının əsasən əmək miqrantlannm infomıasiya ilə təmin olunması (III hissə), seçim və muzdla işə götümıə (IV hissə) məşğulluq sahəsində

rəftarın bərabərliyi (V hissə) məsələləri üzrə maddələrini dolğunlaşdırır. Bu sənəddə əmək miqrantlarmın vəsait çatışmazlığı və əmək bazarındakı vəziyyətin pisləşməsi səbəbindən vətənə geri göndərilməsindən müdafiəsinə yönəlmiş maddələr (IV hissə) də vardır. Həmin sənədə əlavədə dövlətlər arasında ikitərəfli müqavilələr bağlanarkən BƏT-in 97№-li Konvensiyasında və BƏT-in 86 №-li Tövsiyəsində nəzərdə tutulan müddəaların nəzərə alınması üçün məsləhət olunan nümunəvi mətn də verilir.

BƏT-in 118№-li Konvensiyası ölkə vətəndaşlarına, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə sosial təminat sahəsində bərabər hüquqlar verir. Konvensiyanı ratifikasiya edən dövlətlər onu imzalamış bütün dövlətlərin vətəndaşlarına münasibətdə ölkədə qalma müddətindən asılı olmayaraq sosial təminatda bərabər hüquqlar verilməsi öhdəliyini qəbul edir. Tərəflərin istəyindən asılı olaraq, qəbul edilən öhdəliklər bir yaxud daha çox sosial təminatı - tibbi xidməti, əmək qabiliyyəti itirildikdə müavinəti, pensiya təminatını, əmək qabiliyyəti müvəqqəti itirildikdə müavinəti, işsizliyə görə müavinəti və s. nəzərdə tuta bilər.

BƏT-in miqrasiya sahəsində sui-istifadə və əmək miqrantlarmın sosial və vətəndaşlıq hüquqlarının bərabərliyinin təmin edilməsi haqqında 143 №-li Konvensiyası öz ölkələri ilə müqayisədə, olduğu ölkədə bütün miqrantlarm bərabər olmasını nəzərdə tutsa da, bəyan edilmiş bu hüquq milli qanunvericiliklərdə çox nadir hallarda öz əksini tapır və hər yerdə pozulur. Konvensiyanın birinci bölməsi əmək miqrantlarmın hüquqlarına riayət olunmasına dair ümumi tələbləri müəyyən edir. Sənədə müvafiq olaraq, dövlət öz ərazisində qeyri-leqal miqrasiyanı aşkara çıxarmalı və onun azaldılmasına yönəlmiş tədbirlər həyata keçirməlidir. Konvensiyanın ikinci bölməsinə əsasən, dövlətin qarşısında qanuni əmək miqrantı qismində olan şəxslər və onların ailə üzvləri ilə davranışda, məşğulluq, sosial təminat, həmkarlar təşkilatlarında iştirak, digər vətəndaşlıq hüquqları və sosial təminat məsələlərində öz vətəndaşları üçün nəzərdə tutulan eyni yanaşma tələbi qoyulur.

BƏT-in 157 №-li Konvensiyasında (1982-ci il) əmək miqrantlarmın sosial təminat sahəsində hüquqlarının təmin olunmasının beynəlxalq sistemi vardır. Aİ-nin 1990-cı illərdə qəbul etdiyi Konvensiya inkişaf etməkdə olan ölkələrdən miqrasiya barədə müddəaları əsaslı surətdə inkişaf etdirdi. Bu Konvensiyanın məqsədi milli sosial təminat sxemlərinin ölkələrin inkişaf səviyyələrindəki fərqlər nəzərə alınmaqla əlaqələndirilməsidir. Məqrib ölkələri Şurasında qəbul edilən xüsusi konvensiya ərəb regionunda miqrasiya ilə

bağlıdır. Burada ərəb ölkələrində hərəkət sərbəstliyinin təmin olunması üzrə tədbirlər nəzərdə tutulur. Bu tədbirlər 1990-cı illərdə və XXI əsrin ilk illərində ərəb dövlətləri tərəfindən imzalanmış beynəlxalq müqavilələr zərfində inkişaf etdirilmişdir.

## 13.4. İnkişaf etmiş ölkələrin əcnəbi işçi qüvvəsinə münasibətdə siyasəti

Qeyd etdiyimiz kimi, İkinci Dünya müharibəsindən sonra Qərbi Avropa ölkələri və onlardan bir qədər az ABŞ, işçi qüvvəsinin cəlb olunmasına bÖ3dik ehtiyac duyurdu və buna görə də iqtisadiyyatın bəıpa olunması üçün onun axınının ölkələrinə yönəldilməsinin stimullaşdırıİması yolunu tutdu. Əmək immiqrantları kütləsi 3 əsas axından ibarət idi:

- müstəmləkələrdən olan işçilər;
- Qərbi Avropanın iqtisadiyyatı geridə qalmış ölkələrindən (Yunanıstan, İspaniya, Portuqaliya və qismən İtaliya) olan işçilər;
- Şərqi Avropanın ərazilərindən köçürülmüş şəxslərdən olan işçilər.

Bunlardan başqa, ABŞ-m aşağı ixtisaslı işçi qüvvəsini Cənubi və Mərkəzi Amerikadan cəlb etmək üçün hədsiz böyük imkanları həmişə olmuşdur.

Qərbi Avropada miqrantlara münasibətdə ümumi dövlət siyasəti tədricən, yaranan daxili şərait və iqtisadi konyunktura nəzərə alınmaqla işlənib hazırlansa da, işləmək üçün ölkəyə kimin dəvət olunmasının prioritetləri hələ 1940-ci illərin sonu - 1950-ci illərin əvvəlində müəyyənləşdirilmişdi. Onlardan bəzilərini nəzərdən keçirək.

***Avropada qasterbayterlərə qarşı tələblər.*** Bu tələblər miqrantların müxtəlif kateqoriyalarına şamil olunur: minimal ödəniş müqabilində ağır, ziyanlı, ixtisas tələb olunmayan işləri yerinə yetinnəyə hazır olan fəhlələr; yeni sahələrdə və istehsallarda işləmək üçün müsabiqə əsasında işə qəbul olunan mütəxəssislər; nadir peşə sahibləri, o cümlədən həkimlər, musiqiçilər, alimlər və idmançılar; öz layihələrini həyata keçirmək istəyən biznesmenlər.

Təhsil səviyyəsinə, istehsal təcmbəsinə (iş üzrə staj) dair ciddi tələblər müəyyən olunmuşdu. Belə ki, iş iddiası ilə ölkəyə gələn şəxs orta məktəbi yaxud texniki-peşə məktəbini bitirməli və bu, müvafiq diplomla təsdiqlənməli idi. Yaş məhdudiyyətləri (20-40 yaş), tibbi, sosial və siyasi xarakterli şərtlər müəyyənləşdirilmişdi (məsələn, məhkumluğu olmuş şəxslər ölkəyə buraxıl-

mırdı). Hər bir ölkə kvota (kəmiyyət məhdudi]/yəti) müəyyənləşdirir, hər il immiqrantlarm ixtisas səviyyəsi və peşəsinə dair tələbləri yeniləşdirirdi. Aİ yaradıldıqdan sonra Birliyin ölkələri işçi qüvvəsinin miqrasiyasını qismən kollektiv şəkildə həyata keçinnəyə başlamışdır. AİB-in yaradılması haqqında 25 mart 1957-ci il Roma Müqaviləsi «üzv-dövlətlər arasında şəxslərin, xidmətlərin və kapitalın sərbəst hərəkəti qarşısında maneələrin aradan qaldırıldığını» bəyan edirdi. Roma Müqaviləsinin 48-ci maddəsində vətəndaşların onu imzalayan ölkələrin ərazisində sərbəst hərəkəti və «Ümumi Bazar» hüdudlarında faktiki təklif olunan işləri qəbul etmək imkanı, 49-cu maddəsində isə bu məqsədlə xüsusi dövlət təşkilatlarının yaradılması nəzərdə tuturdu. Əcnəbi işçilərə münasibətdə hər cür ayrı-seçkiliyin aradan qaldırıldığı bəyan olunurdu.

«Hərəkət sərbəstliyi» üç mərhələdə həyata keçirilmişdir. Birinci mərhələdə işə götürülərkən həm AİB-dən, həm də istənilən başqa ölkədən olan mühacirlərlə müqayisədə ölkənin işçilərinə üstünlük verilməsi qalırdı. İkinci mərhələdə yerli işçilərin «Ümumi Bazar» iştirakçısı ölkələrindən olan mühacirlərlə müqayisədə imtiyazları qismən ləğv olundu. Üçüncü, yekun mərhələdə boş iş yeri tutularkən, işçilərin hər hansı bir kateqoriyasına üstünlük verilməsini aradan qaldırırdı (təbii ki, iddiaçı AİB ölkəsindən gəlmişdirsə). AİB daxilində bu cür tam həcmdə hərəkət sərbəstliyi rəsmi olaraq 1969-cu ildən tətbiq edilmişdi.

Roma Müqaviləsi əsasında hazırlanan proqram, bir tərəfdən işçilərin hərəkət sərbəstliyini nəzərdə tutsa da, digər tərəfdən, ölkələr yalnız ucuz deyil, həm də peşə hazırlığı yüksək olan işçi qüvvəsini cəlb etməyə səy göstərdiyi üçün əcnəbi işçilərdən istifadə olunması qarşısında pilləli maneələr sistemi müəyyənləşdirirdi. Məsələ «Ümumi Bazar» hüdudları ilə məhdudlaşmırdı. Qərbi Avropa ölkələrinin çoxunda işçi əllərinin çatışmazlığı əmək resurslarının AİB-ə daxil olmayan ölkələrdən cəlb olunmasını tələb edirdi. Tezliklə Şimali Afrika və Yaxın Şərq ölkələrinin (əsasən keçmiş müstəmləkələrin) AİB-in assosiasiya olunmuş üzvü statusunu əldə etməsi onlara Birliklə xüsusi, o cümlədən əmək miqrasiyası sahəsində əlaqələr quraraq imkanı verdi.

***Immiqrasiyanın tənzimlənməsi.*** Avropa quruculuğunun ilkin mərhələlərində AİB-in yaradılması ayrı-ayrı ölkələrin əcnəbi işçilərin qəbulu barədə müqavilələr bağlaması imkanını istisna etmirdi. Belə ki, Fransa bu cür müqavilələri 1963-cü ildə Mərakeş və Tunislə, 1964-cü ildə Əlcəzairlə, 1965- ci ildə Türkiyə ilə bağlamışdır. İmmiqrasiya üzərində hökumət nəzarəti

qoyulmuş, bir çox donor-ölkələrdə isə köçməyə namizədlərin sağlamlıq vəzi)^ətini və peşə hazırlığım yoxlayan fransız missiyaları açılmışdı. İşçi qüvvəsinin axını mütəşəkkil xarakter almış və burada 18-45 yaşı olan yüksək ixtisaslı fəhlələrə üstünlük verilirdi. Əvvəllər kənd sakinləri üstün olduğu halda, immiqrantlarm bö}mk ***(Vs)*** hissəsi şəhərlərdə məskunlaşırdı.

Fransanın Əleəzairlə müqaviləsində (1964) kvota müəyyənləşdirilirdi: Əleəzair Milli İşçi Qüvvəsi Departamenti 12 min fəhlə götürür, 9 ay ərzində vətəndaşlara Fransada iş axtarmaq imkanı verir, uğursuzluq halında isə vətənə qayıtmağa məcbur edirdi. Mərakeşdə və Tunisdəki milli immiqrasiya mərkəzləri də həmin işi yerinə yetirirdi.

Bir qədər sonra İngiltərə də öz immiqrasiya siyasətində təqribən bu cür metodları tətbiq etdi. Belə ki, «Banqladeş İnsan Resursları Bürosu», «Pakistan Miqrasiya Bürosu» və s. açılmışdı. İstanbulda büro açan AFR da, bu tərzdə hərəkət etməyə başlamışdı. İkitərəfli müqavilələr rəsmi olaraq bərabər hüquq əsasında bağlanırdı. Miqrasiya siyasətində donor-ölkələrin müəyyən hüquqlara nail olmasına baxmayaraq, tərəflərin zahiri bərabərliyi şəraitində işçi qüvvəsinin qəbul edilməsində həlledici söz Avropa dövlətlərinə mənsub idi.

1970-ci illərin ortalarında Qərbin sənayeləşmiş ölkələrinin, demək olar ki, hamısı əcnəbi işçilərin ölkəyə gəlməsini məhdudlaşdıran qanunvericilik aktları qəbul etdi, miqrantlarm axını xeyli zəiflədi, amma onların ümumi sayı 1973-1974-cü illərdə yalnız Avstriya, AFR və İsveçdə azaldı, Fransa və Belçikada əvvəlki səviyyədə qaldı, qalan ölkələrdə isə artmaqda davam edirdi. Bu, immiqrantlarm çoxunun vətənə qayıtmaması, sadəcə olaraq bir ölkədən başqasına, məsələn, AFR-dan Fransaya köçməsi ilə izah edilir. Belə vəziyyət Qərbi Avropa dövlətlərində narazılıq doğururdu. Buna görə də Fransada əlavə addımlar atıldı: 1997-ci ildə ölkəni ödənişsiz tərk etmək hüququ yalnız burada ən azı 5 il işləyənlərə verildi. Bundan əlavə, hər bir ailəyə Fransaya bir daha iş axtamıaq məqsədilə qayıtmamaq şərti ilə 10 min frank ödənilirdi. 1980-ci ilin məlumatlarına görə, ümumi sayı 3,4 milyon olan əcnəbi əhalinin 76 min nəfərinə, yəni cəmi 2,2%-nə bu cür 39 min müavinət verilmişdi. 1981-ci ildən müavinətlərin verilməsi dayandırıldı.

1981-ci ildə iqtisadi resessiya nəticəsində AFR immiqrasiya ölkəsi olmadığını bəyan etmək məcburiyyəti qarşısında qaldı, 1982-ci ildən isə ölkəyə daxil olmaq üçün vizada geri qayıtmaq öhdəliyinin rəsmiləşdirilməsinə başlandı. Qanunun sərtləşdirilməsi, ilk növbədə, AİB üzvü olmayan dövlətlərdən gəlmiş işçilərə şamil olunurdu. 1983-cü ildən AFR vətəninə

qayıtmaq istəyənə 10,5 min marka, hər uşağa görə 1,5 min marka verməyə, habelə sosial sığorta fonduna ödənilmiş haqları geri qaytannağa başladı.

Bir çox hallarda immiqrantlarm ölkədən kütləvi halda məcburi köçürülməsi tətbiq olunurdu. Belçika ictimai əmin-amanlığa və milli təhlükəsizliyə təhlükə yarada bilən şəxslərin ölkədən çıxarılması barədə qanun qəbul etdi. 1980-1990-cı illərdə başqa Qərbi Avropa dövlətləri də işçilərin məcburi qaydada köçürülməsi barədə qanunlar qəbul etdi.

Böyük Britaniya da ölkəyə daxilolmada məhdudiyyətlər tətbiq etdi. Onun yeni qanunları ərlə arvadı, valideynləri uşaqlardan ayırırdı. 1980-1990-cı illərdə İngiltərəyə gəlmək icazəsi gözləyənlərin 90%-i ailəsinin ölkədə yaşayanlarla birləşdirilməsini tələb edən arvadlardan, ərlərdən və valideynlərdən ibarət idi. Ancaq verilən icazələrin sayı getdikcə azalırdı; 1980-ci illərdə ölkəyə gəlmək üçün verilən ərizələrin 36%-i, 1990-cı illərdə 34%-i rədd edilmişdi. İngiltərədə yaşayan və işləyən ərlərinin yanına gəlməsinə icazə verilməyən arvadları ifadə edən «immiqrasiyanm dul qadınları» ifadəsi meydana çıxdı. Vizalar yalnız yüksək ixtisaslı yaxud böyük təcrübəsi olan işçilərə verilirdi.

Qərbi Avropada başlayan uzunmüddətli iqtisadi canlanma dövrü dövlətlərin viza təcrübəsinə nəzərəçarpan dəyişikliklər gətirdi. 1985-ci ildə Lüksemburqun Şengen kəndində 5 təşəbbüskar ölkə: Belçika, Niderland, Lüksemburq, Fransa və AFR bu qrupa daxil olan ölkələr arasındakı sərhədlərin insanların hərəkəti üçün maneə olmadığı, yəni həmin ölkələrdən birində verilən vizanın başqalarında da tanınması barədə saziş imzaladı. 1990-cı illərin əvvəlində Şengen sazişini daha 4 ölkə: İtaliya, Yunanıstan, İspaniya və Portuqaliya imzaladı. Bu saziş 1995-ci ildən qüvvəyə mindi.

1990-cı illərdə Qərbi Avropanın bir sıra ölkələri öz immiqrasiya qanunvericiliyini sərtləşdirdi. Belə ki, 1993-cü ilin yeni qanununa əsasən işəgötürən inkişaf etməkdə olan ölkə vətəndaşının müvafiq peşə üzrə nə Fransada, nə də Aİ-nin başqa ölkələrində münasib iş tapa bilməməsi səbəbindən dəvət olunduğunu sübuta yetimıəli idi. Yalnız Fransada 2 il yaşadıqdan sonra miqrant öz arvadını yanma çağınuaq hüququ əldə edirdi, tələbələrin isə ailələri ilə birləşmək hüququ, ümumiyyətlə, yox idi.

Avropa İttifaqında miqrantlar haqqında Dublin Sazişi qüvvədədir və problemə ümumi yanaşmalar ona əsasən müəyyən olunmuşdur. Bununla belə, miqrantların qəbulu haqqında qərarı İttifaqın ölkələri müstəqil olaraq qəbul edir. Avropa ölkələrində immiqrantlarm sayının artması qaçılmazdır və

ekspertlərin hesablamalarına görə, 2020-ci ilədək Qərbi Avropa 30 milyon adamı qəbul edəcək. Mütəxəssislərin və Avropanın siyasi xadimlərinin fikrincə, Aİ-nin bu sahədəki siyasəti təzahürün miqyasına müvafiq deyil, Aİ ölkələrinin ərazisində yaşayan üçüncü ölkə vətəndaşlarının sosial-iqtisadi uyğunlaşması məsələləri, miqrant axınları üzərində nəzarət üçün inzibati tədbirlərin görülməsi isə təxirəsalınmazdır. İndi Avropa hökumətlərində və Brüsseldə immiqrasiya kvotaları haqqında məsələ fəal müzakirə olunur, amma aydındır ki, Aİ öz sərhədlərini qapamağı (Rusiyanın 2002-ci ildə etdiyi kimi) planlaşdırmır. İqtisadi artım və Avropa ölkələrinin rəqabət qabiliyyətinin güclənməsi, miqrasiya proseslərinin idarə olunmasına və immiqrantlarm Avropa cəmij^ətlərinə uyğunlaşdırılmasına iri məbləğdə investisiya qoyuluşlarını nəzərdə tutan düzgün planlaşdırılmış immiqrasiya siyasəti olmadan mümkün deyil. Bəzi təhlilçilər olimpiya obyektlərini Beynəlxalq Olimpiya Komitəsinin müəyyən etdiyi müddətlərdə təhvil vermək üçün Yunanıstanın keçmiş Makedoniyadan 40 min inşaatçını qəbul etməsini pozitiv nümunə kimi göstərirlər.

2004-cü ildə Aİ-nin ***Siyasi Qaçqınlar haqqında Saziş*** qəbul etməsi bu mürəkkəb məsələnin hüquqi baxımdan tənzimlənməsi istiqamətində ciddi irəliləyiş hesab olunur. Saziş 2005-ci ildə qüvvəyə minmişdir. Aİ-nin bir çox dövləti «sərhəd məkanı»nm yaradılmasının vahid qaydalarını tətbiq etmək qərarına gəldi və bu məqsədlə Maastrix Müqaviləsində işçi qüvvəsinin Avropa İttifaqı daxilində sərbəst hərəkətinə dair bənd də nəzərdə tutulmuşdu. 1994-cü ildən Aİ ölkələri vahid nümunəli kağızları verməyə başlasalar da, işçilərin hərəkətinə qoyulan məhdudiyyətlər aradan tam qaldırılmamışdı.

1990-cı, xüsusilə də XXI əsrin ilk illərində sənaye ölkələrinə imtiyazlı qaçqın statusu əldə etməyə iddialı olan adamların axını xeyli artmışdı. Bu statusu alan qaçqınlar müəyyən sosial imtiyazlardan yararlandığına görə işlə bağlı məsələləri daha asan həll edirdilər.

Qərbin əmək miqrasiyasına münasibətdə yeni yanaşmaları bunlardan ibarətdir: birincisi, resipiyent-ölkələr yüksək ixtisaslı kadrlar üçün müəyyən istisnaları saxlayaraq, əcnəbilərin ölkəyə gəlməsinin qarşısını kəskin məhdudlaşdırdı. İkincisi, onlar əcnəbi işçilərin ölkədən getməsini maddi cəhətdən həvəsləndirirdilər (bəzi hallarda məcburən köçürürdülər). Üçüncüsü, bəzi Qərbi Avropa ölkələrində immiqrantlarm vətənə qayıtdıqdan sonra oradakı iş şəraitinə alışdırılması üzrə kurslar təşkil olunmuşdu. Nəticədə əcnəbi işçilərin sayının artması tempi kəskin aşağı düşdü. İşçi qüvvəsinin Şərq

ölkələrindən Avropaya ümumi axınının müvəqqəti azalması baş versə də, XXI əsrin əvvəlindən onun yeni artımı başlayır.

Qeyd olunmalıdır ki, son onilliklərdə inkişaf etmiş ölkələrin əcnəbi işçilərin sosial-məişət şəraitinin yaxşılaşdırılması üzrə ciddi tədbirlər həyata keçimıəyə başlaması nəticəsində oradakı iş yerləri inkişaf etməkdə olan, habelə Şərqi Avropa, Baltikyanı ölkələr, Rusiya və MDB-nin başqa ölkələri üçün cəlbedici olmuşdur.

***ABŞ: əcnəbi işçilər.*** Xüsusi etno-demoqrafık şərait ABŞ-da mövcuddur. Yarandığı dövrdə ölkə əhalisinin sayı az olduğuna görə, Amerika hökuməti bütün millətlərdən və dini təriqətlərdən olan adamlara yeni dövlətin formalaşmasında iştiraka çağırış ilə müraciət etdi. XIX əsrin əvvəlində immiqrantlar əsasən Cənubi Amerikadan və Cənubi Asiyadan gəlirdi. Son onilliklərdə onların əsas axını Latın Amerikasından, Cənub-Şərqi Asiyadan və qismən Afrikadan gəlirdi.

Ənənəvi fikir bundan ibarətdir ki, ABŞ unikal «əritmə qazanı» olmuş, müxtəlif ölkələrdən, guya ki, «Amerika arzusuna» mübtəla olmuş milyonlarla adam burada «Amerika millətinə» çevrilmişdir. Çox vaxt immiqrantların öz köklərini, doğma dillərini, əcdadlarının ənənələrini itirmələrinə görə təəssüflənmədikləri barədə yazırlar. Sözsüz ki, yeni həyata qovuşmaq arzusu onlardan böyük qurbanlar tələb etməsinə baxmayaraq, onlardan çoxu, xüsusilə də hindular, eskimoslar, aleutlar və bura Afrikadan gətirilmiş kölələrin nəsilləri öz xüsusiyyətlərini qoruyub saxlamaqda davam edirlər. Nisbətən yaxın dövrlərdə Latın Amerikasından və Şərq ölkələrindən gətirilən, burada «yaş kürəklər» adlandırılan əmək miqrantları «yenidən əridilməyə» qarşı daha müqavimətli idilər.

Latın Amerikasından olanlar əvvəlcə anklavlar şəklində, əsasən Meksika ilə sərhəddə məskunlaşırdılar, sonra isə ABŞ-m Şimalına da köçmüşdülər. Zəncilər kimi, onlar da əvvəlcə öz gettolarında sıx halda yaşayır və yerli hökumətə qarşı getdikcə daha çox tələblər irəli sürürdülər. Bunlardan ən başlıcası, ispan dilinin rəsmiləşdirilməsi idi. İki rəsmi dövlət dilinin olmasını dəstəkləyən C.Karter ABŞ prezidenti seçilənədək məsələnin həlli ləngiyirdi. XXI əsrin başlanğıcında Los-Ancelesin təkcə bir rayonunda fəaliyyət göstərən 900 məktəbdə 750 min şagird təhsil alırdı və onlardan 300 min Latın Amerikası mənşəli uşaq müəllimlərin ingilis dilindən daha yaxşı, ispan dilində danışdığı ikidilli məktəbdə oxuyurdu.

XXI əsrin ilk illərində ABŞ-da Latın Amerikasından gəlmiş 35 milyon

adam yaşayırdı (sayına görə onlar zənci əhalidən çoxdur). Onların bəzisi Amerika vətəndaşlığını almışdır, başqaları isə müvəqqəti, çox vaxt rəsmi icazə olmadan işləyir. Latın Amerikasından olan diaspora o qədər çoxsaylı və nüfuzludur ki, ABŞ-da ispandilli məktəblərlə yanaşı, bu dildə qəzetlər və jurnallar nəşr olunur, radio və televiziyada verilişlər aparılır. Latın Amerikasından gəlmələr öz milli mədəniyyətini saxlayır və inkişaf etdirir. Demoqrafik vəziyyətin dəyişməsinə Asiya ölkələrindən olan miqrantlar: çinlilər, vyetnamlılar, hindistanlılar, indoneziyalılar, malayziyalılar, pakistanlılar, banqladeşlilər, ərəblər və türklər güclü təsir göstərir. Onlar özlərinin anklav məskənlərini yaratmaqla, dillərini, adətlərini və- dini təriqətlərini qoruyub saxlayırlar. Amerikalı demoqraflarm rəyincə, 2040-cı ildə ABŞ-da ağdərili əhali yalnız 30% təşkil edəcəkdir. Bu proqnozlarla bağlı olaraq, ABŞ-da bir çoxları xalqın öz milli xüsusiyyətlərini itirəcəyindən narahatlığını bildirir. Başqaları isə, bunun əksinə olaraq, hesab edirlər ki, bu cür cəmiyyət təkmillətli cəmiyyətlər qarşısında unikal üstünlüklərə malikdir və milliyyəti müxtəlif olan adamların vahid dövlətdə birləşərək inkişaf etməsinin gözəl nümunəsidir. Buna görə də Amerika cəmiyyətinin mümkün inkişafını çox mürəkkəb olan çoxmillətli demoqrafik prosesin yalnız kəmiyyət cəhətinə istinad etməklə neqativ qiymətləndinnək düzgün olmazdı.

## Xülasə

• Əmək resurslarının beynəlxalq miqrasiyası ölkə sərhədlərindən xaricə xüsusi xassəli əmtəəni: işçi qüvvəsini çıxarır. İşçi qüvvəsinin xüsusiyyəti, onun başqa əmtəələrin istehsalının mənbəyi olmasıdır. İşçi qüvvəsini ixrac edən ölkə, bunun əvəzində əmək miqrantlarmm xərclərinin bir hissəsi kimi, valyuta köçürmələri (bir növ işçi qüvvəsi fonnasmda olan əmtəəyə görə ödəniş) əldə edir. Yüksək ixtisaslı işçi qüvvəsinin ölkədən axını faydalı olmasa da, bu prosesin onlara öz daxili məsələlərini həll etməkdə kömək göstərməsi şübhəsizdir.

• İnkişaf etməkdə olan ölkələrdən gələn immiqrantlar ABŞ-ın və Fransanın kənd təsərrüfatında, İngiltərənin nəqliyyatında, AFR-ın sənayesində. Qərb sənaye ölkələrinin hamısının. Yaxın və Orta Şərqin neft hasil edən dövlətlərinin xidmət sektorunda işçi qüvvəsinin bö3dik əksəriyyətini təmin edirlər. İnkişaf etməkdə olan ölkələrdən gəlmiş milyonlarla adam resipiyent-

ölkələrin iqtisadiyyatının modernləşməsinə və əhalisinin həyat səviyyəsinin yüksəlməsinə mühüm təsir göstərmişdir.

• İnkişaf etməkdə olan ölkələrdən, 1990-cı illərin əvvəlindən isə, həmçinin. Şərqi Avropa dövlətlərindən gələn işçi miqrantlar müvəqqəti amildən dünya ölkələrinin dayanıqlı struktur elementinə çevrilmişdir. Amma inkişaf etmiş ölkələr işçi qüvvəsinin ixracında marağı olan yoxsul ölkələrin izafi əmək resurslarından asılı vəziyyətə düşdüyünə görə, bu məqam dünyanın varlı və yoxsul dövlətlərinin mənafelərinin bir-birini müvəqqəti tamamlaması, onlann həmahəngliyi barədə görüntü yaradır. İstehsalda enmə baş verdiyi zaman, ilk növbədə əmək miqrantları işdən çıxarıldıqda isə bu xülya tezliklə yoxa çıxır.

• İnkişaf eünəkdə olan ölkələrdən əmək miqrasiyası sənaye dövlətləri qrupunun, ilk növbədə, Qərbi Avropa və ABŞ-m nəzarəti altındadır. Elə onlann özü qanunlarında dəyişiklik aparmaqla, lazım olduqda, onların ölkədən köçürülməsini və hətta deportasiyasını təşkil edir. Buna baxmayaraq, «maraqların ahəngdarlığı» xülyası resipiyent-ölkələr tərəfindən inkişaf etməkdə olan ölkələrin özünə gərəkli yüksək ixtisaslı işçilərin idxalına başladıqda dağıldı. Eyni vaxtda bu dövlətlər inkişaf etməkdə olan ölkələrdən immiqrant axınının qarşısını almaq üçün kifayət qədər sərt qanunvericilik aktları qəbul etməyə başladı. Belə bir məqamı da qiymətləndirmək lazımdır ki, leqal əmək miqrantları bütün sosial nemətlərdən yararlanırlar və sosial həyatın həmin ölkələrdə qüvvədə olan standartlan tam həcmdə olmasa da, onlara şamil edilir.

• Potensial miqrasiya təkcə inkişaf etməkdə olan ölkələrdə deyil, həmçinin, sənayeləşmiş dövlətlərdə də mövcuddur. Belə ki, müxtəlif məlumatlara görə, XXI əsrin əvvəlində başqa ölkələrə köçmək istəyən əhalinin payı İngiltərədə 30%, Meksikada 3%, Almaniyada 28%, Taj^anda 20%, Fransada 20%, Yaponiyada 20%, Kanadada 14%, Hindistanda 18%, Tailandda 15%, ABŞ-da 10%, İspaniyada 20% təşkil edirdi. İnkişaf etmiş ölkələrdə köçmək əhval-ruhiyyəsinin səbəbləri iqtisadiyyat və siyasətdən daha çox, iqlim, ekologiya, ailə, psixologiya ilə bağlı olmuşdur.

• Sənayeləşmiş və neft hasil edən dövlətlər əcnəbi işçi qüvvəsinin istismarından fayda ilə yanaşı, sosial-siyasi xarakterli müəyyən xeyir əldə etmişdir. İş burasındadır ki. Şərq ölkələrindən gəlmiş ucuz və itaətkar işçi qüvvəsindən istifadə olunması əmək bazarını daim təzyiq altında saxlayır. Bununla da, yerli işçilərlə sosial münaqişələrin kəskinliyi zəiflədilmiş, 1950-

1970-ci illər üçün səciyyəvi olan kütləvi tətil mübarizəsi əleyhinə vasitə tapılmışdı. Neft hasil edən dövlətlərdə əmək miqrantlarınm birliyinin zəifliyi yaxud tamamilə təşkilatlanmaması onları tərəqqisini təmin etdikləri cəmiyyətin ən aşağı və ixtiyarsız pilləsinə qoyulmasına imkan vermişdir.

• Əmək miqrasiyası mürəkkəb sosial-iqtisadi, demoqrafik və siyasi təzahürdür. O, donor-ölkələrin və miqrantlarm özünün müəyyən fayda əldə etmədiyi halda, inkişaf edə bilməzdi. Sözsüz ki, valyutaların köçürülməsi ölkələrin tədiyyə balansını yaxşılaşdırır, onları daha etibarlı borcalana çevirir, daha çox müasir texnika və zəruri miqdarda ərzaq almaq imkanı yaradır. Bundan başqa, bir çox hallarda miqrantlar vətənə qayıtdıqdan sonra yiyələndikləri peşələrdən yararlana bilir.

• Əmək resurslarının miqrasiyası ən qiymətli milli kapitalın; yüksək ixtisaslı işçi qüvvəsinin ötürülməsi ilə müşayiət olunduğuna görə işləyən şəxslərdən ibarətdir. İxtisası olmayan işçilərin ölkədən axını müəj^ən, tam olmayan dərəcədə valyuta köçürmələri ilə əvəz olunsa da, «zəkaların axını» bu cür kompensasiya verə bilmir və ən məhsuldar işi yerinə yetirməyə hazır olan vətəndaşlarının normal həyat şəraitini təmin edə bilməyən ölkələrin iqtisadiyyatına böyük zərər vurur.

• Son bir neçə onillik ərzində donor-ölkələr müvəqqəti əmək miqrasiyasının səmərəliliyinin yüksəldilməsi problemini həll etməyə səy göstərir. Sözsüz ki, miqrant axınlarının idarə olunması vasitələri onlann əlində olmadığına görə, bunu etmək çox çətindir. Buna baxmayaraq, bir sıra şərtlər yerinə yetirildikdə, öz işçi qüvvəsini xaricə göndərən ölkənin faydasını artırmaq mümkündür: emiqrantlarm xarici valyuta köçürmələri vətəndə kapital qoyuluşları mənbəyinə çevrilir; emiqrantm xaricdə əldə etdiyi ixtisas və təcrübə onun vətənə qayıtdıqdan sonra yerli əmək resurslarının kəmiyyət tərkibini yaxşılaşdırır; əhali artıqlığı olan ölkələrdən yaxud əmək resursları izafi olan bölgələrdən axın müasir texnika və texnologiyanın tətbiqinə, iqtisadi fəal əhalinin əmək məhsuldarlığının və təşəbbüskarlığının artmasına imkan yaradır; «zəkaların axını» resipiyent-ölkələr tərəfindən tam dayandırılacaq yaxud xeyli azaldılacaq.

• Əmək resurslarının miqrasiyası onları həm göndərən, həm də qəbul edən ölkələrə münasibətdə binnənalı nəticələr vermir. Amma ümumilikdə resipiyent-ölkələrin faydalandığı, donor-ölkələrin isə uduzması barədə təəssürat yaranır. Həmin dövlətlərdə həyat səviyyəsinin göstəricisi də bunun sübutudur. Son onilliklərdə ÜDM-in əhalinin hər nəfərinə düşən həcmindəki

fərq xeyli artmışdır və inkişaf etməkdə olan ölkələrin çoxu nəinki «təqib edən inkişafa» nail olmuş, hətta sənaye ölkələrindən geridəqalmanı şiddətləndirmişdir. Ümumilikdə isə, ehtimal ki, beynəlxalq ticarət nəticəsində yaranan, lakin bir qədər daha güclü pərdələnmiş fonuada effekt meydana çıxır: güclü ölkələr qalib gəlir, zəif və yoxsul ölkələr isə uduzur.

## Yoxlama sualları

1. işçi qüvvəsinin beynəlxalq miqrasiyası anlayışını, əmək miqrasiyasının məzmununu və növlərini izah edin.
2. Beynəlxalq iqtisadi münasibətlərin forması kimi, əmək miqrasiyası nə deməkdir? Əmək miqrasiyası təzahürünün məzmununu və xarakterini təsvir edin.
3. Miqrasiyaların (və emiqrasiyanm) səbəbləri nədir?
4. Əmək resurslarının yerdəyişməsini tənzimləyən milli və beynəlxalq qanunvericiliyi xarakterizə edin.
5. ABŞ və Qərbi Avropanın immiqrantlarm statusunu tənzimləyən qanunvericiliyini təhlil edin.
6. Əcnəbi işçilər qəbul edən ölkənin əmək bazarına necə təsir göstərir? İxtisaslı işçi qüvvəsini xaricə göndərən ölkədən axın həmin ölkəyə təsir göstərirmi? Bu təsirin xarakteri necədir?
7. inkişaf etməkdə olan ölkələrdə miqrasiya necə tənzimlənir?
8. Dünyanın inkişaf etmiş ölkələri arasında işçi qüvvəsinin miqrasiyasının hansı özəllikləri vardır? Kruqman-Obstfeld qrafiki nəyi təsvir edir?
9. ABŞ, Qərbi Avropa ölkələri, Yaponiya və başqa ölkələrin işçi qüvvəsinin miqrasiyasına dair siyasətini şərh edin.
10. Rusiyada miqrasiya proseslərinin ümumi xarakteristikasını verin.

## Referatların mövzuları

1. Beynəlxalq əmək miqrasiyası anlayışı və onun məzmunu
2. Əmək miqrasiyası sahəsində beynəlxalq hüquqi normalar
3. Ölkələrin əcnəbi işçi qüvvəsinə münasibətdə siyasəti: Aİ, ABŞ və Rusiya

# Fəsil 14

# KAPİTALIN BEYNƏLXALQ HƏRƏKƏTİ - XBİ: TƏBİƏTİ, NƏZƏRİ ƏSASLARI

## 14.1. Kapitalın beynəlxalq hərəkətinin ümumi təsviri

***Anlayış.*** İqtisadi nəzəriyyədə ***kapital,*** adətən maşınlarla, avadanlıqla və istehsal binaları ilə (fiziki kapital) yaxud pulla (maliyyə kapitalı) təmsil olunmuş istehsal amilidir. Nisbətən dar mənada bu anlayış bir sıra başqa aktivlərə: nizamnamə kapitalı, səhmdar kapitalı, əqli kapital, insan kapitalı, kapital qoyuluşları və/və ya iqtisadiyyata maddi yaxud pul vəsaitlərinin investisiya şəklində qoyulması (kapital qoyuluşları və investisiyalar sinonimdir) da kapitaldır.

İnvestisiyaların mahiyyətinin müəyyənləşdirilməsi mühüm metodoloji məsələdir. Bunun birmənalı təfsirinin olmaması investisiya fəaliyyəti ilə bağlı olan həm elmi, həm də praktiki məsələlərin həllini müəyyən dərəcədə mürəkkəbləşdirir.

Qərbi Avropa iqtisad məktəbinin nümayəndələri investisiyaların dinamiklik (investisiya qoyuluşu prosesini xarakterizə edir); yönəldilmə istiqaməti (vəsaitlərin, əsas fondların, müəssisələrdə iştirak payının, qiymətli kağızların alınması); qoyuluş forması; məqsədi (mənfəətin, gəlirin yaxud başqa səmərənin əldə olunması) kimi cəhətlərini fərqləndirirlər. İnvestisiyaların digər əsas növü - maliyyə investisiyaları (financial investment) - qiymətli kağızların alınmasıdır.

Bununla əlaqədar olaraq P.Mass qeyd edirdi ki, «kapital qoyuluşu prosesi ən ümumi şəkildə bu cür təfsir edilə bilər: investisiya qoyuluşları, bu gün ödənilə biləcək ehtiyacların investisiyaya yönəldilmiş sərvətlər vasitəsilə gələcək ümidlərə mübadilə olunması aktıdır»'. C.Keyns investisiyaları investisiya siyasəti, gəlirlər və məşğulluq siyasəti baxımından əsaslandırırdı . Onun nəzəriyyəsində investisiyalar və əmanətlər eyni təzahürün iki tərəfidir: investisiyalar bir tərəfdən, bu köçürülmə nəticəsində baş verən istehsal fəaliyyəti zamanı daşınmaz əmlakın dəyərinin cari artımı, digər tərəfdən isə

^ *Масс П.* Критерии и методы оптимального определения капиталовложений. М., 1991. С. 27.

^ *Кейнс Дж.* Общая теория занятости процента и денег. М., 1978. С. 117.

müvafiq dövrdə istehlak üçün istifadə olunmamış gəlirin bir hissəsidir. K.Makkonelin və S.Bryunun , habelə E.C.Dollanm və D.E.Lindseyin' əsərlərində investisiyalar keynsçi model çərçivəsində makroiqtisadi səviyyədə nəzərdən keçirilir.

Bütün bunlar görkəmli nəzəriyyəçi-iqtisadçılar tərəfindən investisiyalara əsas etibarilə kapitalın artırılmasının yaxud təkrar istehsal prosesində gəlir əldə olunmasının resursu kimi yanaşıldığını təsdiqləyir; cari istehlaka sərf olunmayan gəlirin bir hissəsi yeni investisiyaların mənbəyinə çevrilir.

Rusiya qanunvericiliyində də investisiyalara resurs kimi yanaşılır. Məsələn, RF-nin 26 i)om 1991-ci il 1488-1№-li «RSFSR-də investisiya
o
fəaliyyəti haqqında» Qanununda maddi və əmlak hüquqlarının bütün növləri: pul vəsaitləri, məqsədli bank əmanətləri, paylar, səhmlər və başqa qiymətli kağızlar, texnologiyalar, maşınlar, avadanlıq, lisenziyalar, o cümlədən əmtəə nişanları; daşınmaz və daşmar əmlak: binalar, qurğular və başqa maddi sərvətlər; torpaq və başqa təbii resurslardan istifadə hüquqları; mənfəət (gəlir) əldə etmək və müsbət sosial səmərəyə nail olmaq üçün sahibkarlıq və başqa fəaliyyət növləri obyektlərinə qoyulan əqli dəyərlər investisiya hesab edilir.

İnvestisiyaların təsərrüfatçılıq subyektinin gəlirini istehlaka deyil, investorun sərəncam verə bildiyi resurs qismində səmərə əldə olunması üçün kapitalın təkrar istehsalı fonuasmda sahibkarlıq fəaliyyəti obyektlərinə məqsədli surətdə yönəltdiyi hissə kimi təsəvvür olunması, onu iqtisadi kateqoriya kimi xarakterizə etməyə əsas verir.

Kapitalın beynəlxalq hərəkəti çox vaxt maliyyə resurslarının yaxud investisiyaların hərəkəti adlandırılır. Əmanətlərin, yəni pul formasında kapitalın mövcudluğu investisiyaların və istehsalın genişləndirilməsinin mühüm ilkin şərtidir. Mali}^ə resurslarının beynəlxalq hərəkətinin (malij^ə kapitalının ölkədən çıxarılmasının) məzmunu kapitalın müəyyən hissəsinin bir ölkənin milli dövriyyə prosesindən çıxarılaraq, başqa ölkələrdə ən müxtəlif formalarda (birbaşa və dolayı) istehsal prosesinə yaxud digər dövriyyəyə daxil edilməsidir. Belə halda ixrac edilən əmtəələrdə təcəssüm olunmuş əlavə dəyərin satılması aktı deyil, onun istehsal prosesinin özünün çıxarılması baş verir. Müasir dövrdə maliyyə resurslarının ötürülməsi milli təsərrüfatların

' *Макконел К.Р.* Экономикс / К.Р.Макконел, С.Б.Брю. Т. 1. М., 1993. С. 136.

^ *Доллан Э.Дж.* Макроэкономика / Э.Дж.Доллан, Д.Линдсей. СПб., 1994. С. 14.

^ Qanunun "Rusiya Federasiyasında kapital qoyuluşları formasında həyata keçirilən investisiya fəaliyyəti haqqında» 25 fevral 1999-cu il 39-ФЗ №-li Qanuna zidd olan hissələri qüvvədən

funksiyasıdır və bunun əhəmiyyəti getdikcə artır. Bununla yanaşı, beynəlxalq ticari-iqtisadi əlaqələr yalnız təsərrüfatçılıq subyektlərinin fəaliyyəti dairəsindən çıxır və dövlətlər, onların hökumətləri, beynəlxalq təşkilatlar buna, xüsusilə də iqtisadiyyata ***birbaşa investisiyalarla əlaqədar olan*** hissəsinə böyük maraq göstəmıəyə başlayır. İnvestisiyalar real iqtisadi}^atla qarşılıqlı əlaqələr, yəni malların və xidmətlərin istehsalı və istehlakı kontekstində nəzərdən keçirilməyə başlayır, başqa sözlə desək, burada əsas kapitaldakı dəyişikliklər nəzərdə tutulur. «Kapital» anlayışı çoxsaylı mənada işlənsə də, burada onun ənənəvi təfsirindən; istehsal olunmuş mallar və xidmətlər, biliklər və təcrübə, habelə maliyyə resursları istifadə olunur. Ehtimal ki, bu cür dar məna təhlilin başqa növləri üçün, məsələn, ətraf mühitin vəziyyətinin pisləşməsinə, bioloji müxtəlifliyə yaxud «insan kapitalına» həsr olunmuş tədqiqatlar çərçivəsində aparılan təhlillər üçün qəbuledilməzdir.

***Kapitalın birbaşa investisiyalar formasında hərəkətinin səbəbləri.*** Aydındır ki, kapital «öz» ölkəsindən xaricə, ***daha yüksək mənfəət norması*** ardınca istiqamətlənir. Amma hazırki şəraitdə kapitalın ölkədən çıxarılmasının bu klassik düsturu əhəmiyyətli dərəcədə şəklini dəyişmişdir (səbəblər yox, reallaşma fonnası baxımından) və hər halda xətti deyil, dolayısı, özü də çoxsaylı effektlərlə müşayiət olunmaqla təsir göstərir. Qoyulmuş kapital üzrə yüksək mənfəət normasının əldə edilməsi mümkün olmayan ölkələrə beynəlxalq banklar tərəfindən böyük məbləğdə borcların verilməsi göz önündə olan faktdır. Amma bu borclar onu alan tərəfin kapital daşıyıcıları olan firmaların maneəsiz fəaliyyəti üçün şərait və ilkin şərtlər yaratmaq üzrə ümumi öhdəliyi ilə müşayiət edildikdə, israr etmək olar ki, onların məqsədinin tərkibində «təxirə salınmış tələbatın» (sonrakı dövrlərdə reallaşan) təmin olunması da vardır. Uzun illərdən bəri maliyyə kapitalının ölkədən çıxarılmasının (hərəkətinin) ilkin və zəruri səbəbi onun nisbi artıqlığı olmuşdur və bu zaman qazancla sərmayəyə yatırılmaq üçün kapital xaricə istiqamətlənmişdir. Təbii ki, bu amil hazırda da təsirini göstərir, lakin beynəlmiləlləşmənin əhəmiyyətinin güclənməsi, dünya təsərrüfatının qloballaşması mərhələsində beynəlxalq və dövlətlərin, təsərrüfatçılıq subyektlərinin milli maraqlarının qovuşması nəticəsində xeyli mürəkkəbləşmişdir.

***XBİ-nin dinamikası və onun göstəriciləri.*** XBİ-nin dinamikası iqtisadi artımın ümumi templəri ilə üzvi surətdə əlaqədardır. Məlumatlar göstərir ki, XX əsrin 1980-1990-cı illərində və XXI əsrin birinci onilliyində (qlobal

böhrana qədər) XBİ-nin ölkəyə axını inkişaf etmiş ölkələr arasında, habelə Asiyada xüsusilə dinamik olmuşdur. Qeydiyyatdan keçdiyi ölkədən qəbul edən ölkədəki filiallarına göndərilən və buna müvafiq olaraq qarşıdan gələn investisiyaların axını ötən onillikdə dunnadan artırdı. 1990-cı ildə ölkələrə daxil olan XBİ-nin ümumi məbləği 2 trilyon dolları ötüb keçmişdi. Həmin ildə ölkələrə daxil olan XBİ-nin məbləği 208 milyard dollar, ölkədən çıxarılan məbləği isə 241 milyard dollar olmuşdur. Müharibədən sonrakı illərdə ölkədən çıxarılan XBİ-nin məbləği 1940-cı ildəki 2 trilyon dollardan 2008-ci ildəki 18,9 trilyon dollaradək artmışdır.

Artıq beynəlxalq bazarlara sırf iqtisadi təzahür deyil və onlara siyasi amillər də güclü təsir göstərir. Bu cəhət XBİ-nin əsas daşıyıcıları olan TMK və TMB-nin fəaliyyətində xüsusilə aydın əks olunur. Müharibədən sonrakı onilliklərdə inkişaf etmiş ölkələrin maliyyə resurslarının beynəlxalq hərəkətinin həcmi fasiləsiz artır, XBİ-nin inkişaf etməkdə olan ölkələrdən miqrasiyasının məbləği də çoxalır. Bunun vasitəsilə malların və xidmətlərin təkrar istehsalının ziddiyyətləri qismən həll olunur, avadanlığa, xidmətlərə daxili tələbatın yüksəlməsi nəticəsində ölkələrin ixracı artır və bununla da dünyada iqtisadi tarazlığın bəzi strateji məsələləri həll edilir. 1980-1990-cı illərdə və XXI əsrin birinci onilliyində (qlobal böhrana qədər) maliyyə kapitalının ixracının templəri inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin həm ÜDM-nin, həm də mallar ixracının artımını üstələməyə başlamışdır.

Belə ehtimal olunurdu ki, kapitalın bu cür qabaqlayıcı hərəkətinin uzun müddət davam edən meyli əvvəlki dövrlərdən (1992/1993 - 2000/2001-ci illər) sonra başlayan yeni ümumdünya tsiklində dayanacaqdır. Dünya iqtisadiyyatında dərin tənəzzül aradan qaldırıldıqdan sonra 2002-ci ildə yeni iqtisadi tsikl başlayır və bu prosesin əvvəlində beynəlxalq ticarətin həcminin artması fonunda kapitalın hərəkətinin yavaş tempi xarakterik olmuşdur. Eynilə aydındır ki, 2001-2002-ci illərin qlobal depressiya dövründə dünya üzrə XBİ-nin həcminin 2 dəfə aşağı düşməsi dərin (2001-ci ildə), lakin qısamüddətli xarakter daşımışdır və 2003-cü ildə XBİ-nin sürətli artımının ümumi dinamikası bərpa edilmişdi. Bu meyil 2003-2007-ci illərdə dünyanın müxtəlif regionlarına XBİ- nin həcminin fasiləsiz artması ilə ifadə olunmuşdur. 2007-ci ildə XBİ-nin ümumi həcmi 2000-ci ildəki maksimal səviyyəyə - 1,979 milyard dollara çatmışdır. Amma 2008-ci ildə bu həcm 14% azalaraq, 1,697 milyard dollar təşkil etmişdir. 2009 və 2010-cu illərdə də bu enmə davam edirdi və yalnız 2010-cu ilin sonunda yüksəliş müşahidə olunmağa başladı (cədvəl 14.1).

Cədvəlin məlumatlarından 2007-2009-cu illər arasında bütün göstəricilər üzrə böyük enmələr görünür: 2008-ci ildə - 15,7%, 2009-cu ildə - 37,1%. Ölkədən kapitalın çıxarılması da 2008-ci ildə 14,9%, 2009-cu ildə isə daha 42,9% enmə ilə xarakterizə olunur. Bu göstəricilərin enmə tempi dünya üzrə daxili məhsulun (DDM) 2009-cu ildə 9,5%, habelə həmin ildə malların və xidmətlərin ixracının 21,4% təşkil etmiş enmə templərini ötmüşdür. 2009-eu ilin ikinci yarısında qlobal xarici birbaşa investisiyalar enmənin ən aşağı nöqtəsindən qalxmağa başlamışdır. 2010-cu ilin birinei yarısında onun səviyyəsi bir qədər bərpa olunmuş, ikinci yarısında isə qismən artım baş vermişdir. Malİ3^ə bazarında yeni böhran baş verməsə, XBİ-nin səviyyəsinin bərpası 2011-ci ildə də davam edəeəkdir.

XBİ-nin qlobal strukturunda ümumdünya böhranından əvvəl başlamış, orta və qısamüddətli dövrdə güelənəeəyi ehtimal olunan bir sıra iri dəyişikliklər müşahidə olunmaqdadır. Birineisi, inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrin qlobal XBİ-nin həm yerləşdirilmə obyekti, həm də mənbəyi kimi xüsusi çəkisinin artacağı gözlənilir. 2009-cu ildə xarici birbaşa investisiyaların yarısının yönəldildiyi bu ölkələr XBİ-nin canlanmasında aparıcı rol oynayır. İkincisi, qeyd olunan son dövrdə xidmət və hasilat sənatesi sahələrinə, kənd təsərrüfatına və hasilat sektorlarına yönəldilən investisiyalarla müqayisədə emal sənayesinə qoyulan XBİ-nin müşahidə olunan azalması, çox güman ki, davam edəcəkdir. Üçüncüsü, XBİ üçün ciddi mənfi nəticələrinə baxmayaraq, böhran istehsalın getdikcə beynəlmiləlləşməsi prosesini dayandıra bilməmişdir.

2009-cu ildə XBİ-nin enməsi əsasən ***tramsərhəd QƏ-nin*** kəskin azalması ilə izah edilir. ***Yeni XBİ layihələrinin*** sayı 15% azaldığı halda, xariedə satınalmaların həcmi 34% (dəyər üzrə - 65%) aşağı düşmüşdü. Birinci göstəriləndən fərqli olaraq, QƏ-nin dinamikası maliyyə şərtlərinə daha həssas reaksiya verir. Məsələ bundadır ki, fond bazarlarındakı qarışıqlıqlar QƏ-nin istinad etdiyi qiymət siqnallarını pərdələyir, digər tərəfdən isə QƏ-nin investisiya dövrü yeni layihələrə sərmayə qoyuluşları ilə müqayisədə qısadır. Qlobal böhran səbəbindən XBİ-nin maliyyələşdirilməsi imkanları məhdudlaşmış və buna müvafiq olaraq, satınalmaların sayı azalmışdır. Bir tərəfdən, fond bazarlarında fonnalaşan qiymətlərin ueuzlaşması əqdlərin dəyərini aşağı salırdı, digər tərəfdən isə onlar qlobal struktur dəyişmələri ilə birlikdə geniş maliyyə imkanları olan TMK-lar üçün müəyyən imkanlar yaradırdı. Bazara çıxışın hər iki halında XBİ-nin səviyyəsinin bərpası müşahidə olunsa da, QƏ-nin həcmi daha tez artır.

*Cədvəl 14.1*

**XBİ və beynəlxalq istehsalın ayrı-ayrı göstəriciləri**

| Göstərici | Cari qiymətlərlə dəyər həcmi (milyard dollar) | | | | İllik artım (%) | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **1990** | **2005** | **2008** | **2009** | **1991-1995** | **1996-2000** | **2001-2005** | **2008** | **2009** | **2010** |
| XBİ ölkəyə axını | 208 | 986 | 1771 | 1114 | 22,5 | 40,0 | 5,2 | -15,7 | -37,1 | 1,1 |
| XBİ ölkədən axını | 241 | 893 | 1929 | 1101 | 16,8 | 36,1 | 9,2 | -14,9 | -42,9 | 2,8 |
| Ölkəyə daxil olan XBİ həcmi | 2082 | 11525 | 15 491 | 17 743 | 9,3 | 18,7 | 13,3 | -13,9 | 14,5 | 15,2 |
| Ölkədən çıxarılan XBİ həcmi | 2087 | 12 417 | 16 207 | 18 982 | 11,9 | 18,4 | 14,6 | -16,1 | 17,1 | 19,3 |
| Ölkəyə daxil olan XBİ-dən gəlir | 74 | 791 | 1113 | 941 | 35,1 | 13,4 | 31,9 | -7,3 | -15,5 | 6,7 |
| Ölkədən çıxarılan XBİ-dən gəlir | 120 | 902 | 1182 | 1008 | 20,2 | 10,3 | 31,3 | -7,7 | -14,8 | 5,9 |
| Transsərhəd Q və B | 99 | 462 | 707 | 250 | 49,1 | 54,0 | 0,6 | -30,9 | -64,7 | 17,1 |
| Xarici filialların satış həcmi | 6026 | 21 721 | 31 069 | 29 298 | 8,8 | 8,2 | 18,1 | -4,5 | -5,7 | 2,8 |
| Xarici filialların ümumi istehsalı | 1477 | 4327 | 6163 | 5812 | 6,8 | 7,0 | 13,9 | -4,3 | -5,7 | 1,2 |
| Xarici filialların ümumi aktivləri | 5938 | 49 252 | 71694 | 77 057 | 13,7 | 19,0 | 20,9 | -4,9 | 7,5 | 8,3 |
| Xarici filialların ixracı | 1498 | 4319 | 6663 | 5186 | 8,6 | 3,6 | 14,8 | 15,4 | -22,2 | 1,9 |
| Xarici filiallarda məşğulluq (min nəfər) | 24476 | 57 799 | 78 957 | 79 825 | 5,5 | 9,8 | 6,7 | -3,7 | 1,1 | 1,0 |
| *Məlumat üçün* | | | | | | | | | | |
| ÜDM (cari qiymətlərlə) | 22 121 | 45 273 | 60 756 | 55 005 | 5,9 | 1,3 | 10,0 | 10,3 | -9,5 | 1,2 |
| Əsas kapitalın ümumi yığımı | 5099 | 9833 | 13 822 | 12 404 | 5,4 | 1,1 | 11,0 | 11,5 | -10,3 | 1,8 |
| Royalti və lisenziya ödəmələri şəklində daxilolmalar | 29 | 129 | 177 | Məlumat yoxdur | 14,6 | 8,1 | 14,6 | 8,6 | 2,6 | 3,2 |
| Malların və xidmətlərin ixracı | 4414 | 12 954 | 19 985 | 15 716 | 7,9 | 3,7 | 14,8 | 15,4 | -21,4 | 2,1 |

*UNCTAD, World Investment Report, 2010. P. 16.

Dünya iqtisadiyyatının bütün əsas sahələrində: kənd təsərrüfatında, sənayenin hasilat, avtomobilqayırma və kimya sektorlarında XBİ axınları zəifləmişdir. 2009-cu ildə böhranın ilkin mərhələsində müqavimət göstərə bilən sahələrdə, o cümlədən əczaçılıq və yeyinti sənayelərində də XBİ azalmağa başladı. 2008-ci illə müqayisədə 2009-cu ildə yalnız bir neçə: o cümlədən elektrik, qaz və su təchizatı sahələrinə, elektron avadanlıq istehsalına, tikintiyə və telekommunikasiyaya XBİ artmağa başladı. Ümumilikdə isə, böhran emal sənayesi sektomnda XBİ-yə daha güclü zərbə vurmuşdur və 2008-ci illə müqayisədə 2009-cu ildə transsərhəd QƏ-nin 77% aşağı düşməsi bunu sübut edir. Hasilat sənayesində və kənd təsərrüfatında, xidmətlər sektorunda bu cür sazişlərin sayının azalması bu dərəcədə köklü deyildi: müvafiq olaraq 47% və 57%. Bunun nəticəsində hasilat sənayesi hesabına dünya üzrə transsərhəd QƏ-də onların xüsusi çəkisi artmaqda davam edirdi. Bununla belə, bu seqmentdə də bəzi sahələrə ciddi zərər dəymişdi. Məsələn, maliyyə xidmətləri sahəsində transsərhəd QƏ-nin dəyər həcminin 87% sürətli enməsi qeydə alınmışdı.

***Ümumdünya istehsalının getdikcə beynəlmiləlləşməsi.*** Qlobal böhranın XBİ axınlarına təsir göstənuəsinə baxmayaraq, istehsalın beynəlmiləlləşməsi prosesi davam edirdi. 2008 və 2009-cu illərdə TMK-nm xarici filiallarının satışlannm və əlavə olunan dəyərinin azalması həcmi ümumdünya iqtisadi}^atmm tənəzzülü miqyasına gəlib çatmamışdı. Nəticədə xarici filialların DDM-də xüsusi çəkisi artmaqda davam edir və rekord səviyyəyə - 11%-ə yüksəlmişdi. 2009-cu ildə TMK-nın əcnəbi işçilərinin sayı bir qədər artaraq, 80 milyon nəfər təşkil etmişdi. Beynəlxalq istehsal strukturlarında inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrin xüsusi çəkisinin artması aydın müşahidə olunur. Hazırda xarici filialların işçi qüvvəsinin əksər hissəsi bu ölkələrdə məşğuldur. 2008-ci ildə dünyada mövcud olan 82 000 TMK-nm 28%-i onların payına düşürdü və bu, 2006-cı illə müqayisədə 2 faiz-bənd çox idi. Müqayisə üçün: 1992-ci ildə bu göstərici 10%-ə çatmırdı və bu, göstərilən ölkələrin həm də XBİ-nin yerləşdirildiyi məkan qismində rolunun gücləndiyini göstərir.

2009-cu ildə əsasən ölkələrə daxil olan XBİ-nin ümumi məbləğinin 18 trilyon dollara çatması hesabına TMK-nm xarici filiallarının aktivləri 7,5% artmışdır. XBİ-nin ümumi həcminin artımı qlobal таИзгуэ bazarlarında fəallığın əhəmİ3^ətli dərəcədə güclənməsi, habelə tempi aşağı düşsə də.

ölkələrə XBİ axınının genişlənməsinin saxlanması ilə izah edilir. 6 illik fasiləsiz artımdan sonra inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrə XBİ axını 2009-cu ildə 27% aşağı düşmüşdü (548 milyard dollaradək).

***XBİ-nin regionlar üzrə dinamikasının qeyri-bərabərliyi.*** Yuxarıda verilən məlumatlardan göründüyü kimi, XBİ axınlarının ümumi qlobal dinamikası regionlar üzrə daha mürəkkəb və rəngarəng olan real vəziyyəti bir növ kölgədə qoyur. İnkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrdə XBİ-nin əsas hissəsi az sayda, əsasən bazarı formalaşan iri dövlətlərə daxil olurdu (cədvəl 14.2).

XBİ-nin regionlar və ölkələr, o cümlədən dünyanın aparıcı dövlətləri üzrə cəmləşməsini təfsilatı ilə nəzərdən keçirək. Hər bir ölkə özünün investisiya siyasətini işləyib hazırlayır (hər halda belə hesab edir) və bunun çərçivəsində investisiya strategiyasını həyata keçirir, o cümlədən xarici maliyyə resurslarım cəlb etmək üçün müvafiq şərait yaradır. Bir qayda kimi, bu şərait müxtəlif ölkələrdə fərqlidir. Aydındır ki, dünya üzrə XBİ axınlarının fəallaşmasının arxasında, ilk növbədə, inkişaf etmiş ölkələrin, habelə Çin, Hindistan, Braziliya və inkişaf etməkdə olan ölkələrin TMK-ı durur. Lakin XBİ-nin əsas ixracatçıları və idxalçıları inkişaf etmiş dövlətlər; ABŞ, Fransa, Honkonq, Çin, Böyük Britaniya, Almaniya, Səudiyyə Ərəbistanı, Hindistan, Avstriya, Kanada, İsveç, Niderland, Rusiya və Avropanın bir sıra başqa ölkələridir, (şəkil 14.1 və 14.2).

Bu məlumatlar 2008-2009-cu illərdə inkişaf etmiş ölkələrin bütün qrupları üzrə XBİ-nin böyük enişini və buna müvafiq olaraq, beynəlxalq maliyyə axınlarının hərə-

*Cədvəl 14.2*

**XBİ axınları, regionlar üzrə***

| Region | Ölkəyə axın | | | Ölkədən axın | | |
|---|---|---|---|---|---|---|
| | 2007 | 2008 | 2009 | 2007 | 2008 | 2009 |
| *XBİ, milyard dollar* | | | | | | |
| Dünyanın bütün ölkələri | 2100 | 1771 | 1114 | 2268 | 1929 | 1101 |
| İnkişaf etmiş ölkələr | 1444 | 1018 | 566 | 1924 | 1572 | 821 |
| İnkişaf etməkdə olan ölkələr | 565 | 630 | 478 | 292 | 296 | 229 |
| Afrika | 63 | 72 | 59 | 11 | 10 | 5 |
| Latın Amerikası və Karib dənizi hövzəsi ölkələri | 164 | 183 | 117 | 56 | 82 | 47 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Qərbi Asiya | 78 | 90 | 68 | 47 | 38 | 23 |
| Cənubi, Şərqi və Cənub-Şərqi Aşıya | 259 | 282 | 233 | 178 | 166 | 153 |
| Cənub-Şərqi Avropa və MDB | 91 | 123 | 70 | 52 | 61 | 51 |
| Struktur cəhətdən zəif və kiçik iqtisadiyyatlı ölkələr | 42,5 | 62,1 | 50,5 | 5,3 | 5,8 | 4,2 |
| inkişafı ən zəif olan ölkələr | 26 | 32 | 28 | 2 | 3 | 1 |
| Dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr | 16 | 26 | 22 | 4 | 2 | 3 |
| inkişaf etməkdə olan kiçik ada ölkələri | 5 | 8 | 5 | 0 | 1 | 0 |
| *XBİ ümumdünya axınlarında payı, %* | | | | | | |
| inkişaf etmiş ölkələr | 68,8 | 57,5 | 50,8 | 84,8 | 81,5 | 74,5 |
| inkişaf etməkdə olan ölkələr | 26,9 | 35,6 | 42,9 | 12,9 | 15,4 | 20,8 |
| Afrika | 3,0 | 4,1 | 5,3 | 0,5 | 0,5 | 0,5 |
| Latın Amerikası və Karib dənizi hövzəsi ölkələri | 7,8 | 10,3 | 10,5 | 2,5 | 4,3 | 4,3 |
| Qərbi Asiya | 3,7 | 5,1 | 6,1 | 2,1 | 2,0 | 2,1 |
| Cənubi, Şərqi və Cənub-Şərqi Aşıya | 12,3 | 15,9 | 20,9 | 7,9 | 8,6 | 13,9 |
| Cənub-Şərqi Avropa və MDB | 4,3 | 6,9 | 6,3 | 2,3 | 3,1 | 4,6 |
| Struktur cəhətdən zəif və kiçik iqtisadiyyatlı ölkələr | 2,0 | 3,5 | 4,5 | 0,2 | 0,3 | 0,4 |
| inkişafı ən zəif olan ölkələr | 1,2 | 1,8 | 2,5 | 0,1 | 0,2 | 0,1 |
| Dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr | 0,7 | 1,5 | 2,0 | 0,2 | 0,1 | 0,3 |
| inkişaf etməkdə oian kiçik ada ölkəiəri | 0,3 | 0,4 | 0,4 | 0,0 | 0,0 | 0,0 |

*UNCTAD, World Investment Report, 2010. P. 8

** Bəzi ölkələr göstərilən üç qrupdan ikisinə aid edildiyinə görə, təkrar hesabsız.

kətinin dinamikasının kəskin zəiflədiyini göstərir. Bu zəifləmə dünyanın iqtisadi qüdrətinin cəmləşdiyi ənənəvi mərkəzdə; ABŞ - Aİ - Yaponiyada xüsusilə nəzərə çarpır. Beynəlxalq kapital axınlarının sonrakı bərpası (canlanması), ən azı, bu mərkəzlərlə bağlıdır.

***XBİ-nin ixracında və idxalında inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrin artan rolu.*** İndi XBİ-nin qlobal miqyasda axınının yarısından çoxu inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrə daxil olur. XBİ-nin inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrə axını 6 illik

fasiləsiz artımdan sonra 2009-cu ildə 27%, yəni 548 milyard dollaradək aşağı düşmüşdür. XBİ-nin azalmasına baxmayaraq, dövlətin xilasedici maliyyə əməliyyatları nəticəsində ölkələrin bu qrupu inkişaf etmiş ölkələrlə müqayisədə böhranın təsirinə qarşı daha dayanıqlı olmuşdur. 2009-cu ildə Çin ən iri XBİ alanlar sırasında Birləşmiş Ştatlardan sonra ikinci yeri tutmuşdur. XBİ axınlarının istiqamətləndiyi 6 əsas ölkədən yarısı inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrdir. Transsərhəd QƏ xətti üzrə əməliyyatların ys hissəsi, əvvəlki kimi, inkişaf etmiş ölkələrin iştirakı ilə aparılsa da, bu əməliyyatlarda qəbul edən tərəf qismində çıxış edən inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrin xüsusi çəkisi 2007-ci ildəki 26%-dən 2009-cu ildə 31%- ə yüksəlmişdir. Bundan başqa, 2009-cu ildə «sıfırdan» başlayan layihələrin 50%-dən çoxu bu qrupa daxil olan ölkələrin payına düşmüşdür. İnvestisiyaların ölkədən çıxarılması seqmentində Honkonq (Çin) və Rusiya Federasiyası (göstərilən ardıcıllıqla) dünyanın 20 ən iri investoru qrupuna daxildir (şəkil 14.1 və 14.2).

5 illik yüksələn trenddən sonra inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrdən XBİ çıxarılması 2009-cu ildə 21% azalmışdır. Lakin bu ölkələrdən olan TMK-nm rolunun gücləndiyi şəraitdə XBİ-nin ixtisarı inkişaf etmiş ölkələrə (burada XBİ 48% aşağı düşmüşdü) nisbətən o qədər də kəskin olmamışdır. Bundan başqa, inkişaf etməkdə olan ölkələrdə XBİ-nin səviyyəsi daha tez bərpa olunur. Onların ölkədən çıxardıqları investisiyaların payı, əvvəl olduğu kimi, xeyli aşağıdır, amma artımın güclənən templəri şəraitində qlobal miqyasda ölkələrdən çıxarılan XBİ-nin % hissəsinə yaxınlaşır. İnkişaf etməkdə olan ölkələrdə vəziyyəti regional-qitə kəsimində təfsilatı ilə nəzərdən keçirək. Xarici investisiyaların 10 illik fasiləsiz artımından sonra 2009-cu ildə Afrikaya XBİ axını 59 milyard dollaradək ixtisar olunmuşdur və bu, 2008-ci illə müqayisədə 19% azalmadır. Əsas səbəb xammala qlobal tələbatın azalması və müvafiq olaraq, onun qiymətinin ucuzlaşmasıdır. Belə halda Qərbi və Şərqi Afrikadakı xammal hasilatçılarma zərər dəymişdi. XBİ-nin strukturunun daha çox şaxələndirilməsinə və özəlləşdirmə proqramlarının davam etməsinə baxmayaraq. Şimali Afrikaya da investisiya axını aşağı düşmüşdü. Afrikada xidmət sahələrinə investisiya axınının ixtisarı başqa sektorlarla müqayisədə o qədər də nəzərə çarpmırdı. Fəaliyyət miqyasının genişlənməsi ilə bağlı olaraq, daxil olan XBİ-nin əsas hissəsi telekommunikasiya sahəsinə yatırılırdı.




*Şəkil 14.1.* **Qlobal XBİ-nin ölkəyə axınları***

* 2009-cu ildə XBİ axınlarının həcminin ardıcıllığı üzrə

M ən b ə : UNCTAD. World Investment Report, 2010. P. 10.

Ötən bir neçə il ərzində inkişaf etməkdə olan və keçid iqtisadİ5ryath ölkələrin TMK-sı öz investisiyalarım get-gedə daha çox Afrikada yerləşdirirdi. 2005-2008-ci illər arasındakı dövrdə regiona daxil olan investisiyaların 22%-i onların payına düşürdü (1995-1999-cu illərdə - 18%). Əvvəl olduğu kimi, XBİ-nin Afrikanın payına düşən hissəsi cüzi olsa da, ən fəallar sırasında Çin, Malayziya, Hindistan və Körfəz Ölkələrinin Əməkdaşlıq Şurasının investorlarını göstənnək lazımdır. Afrikanın Cənub hissəsindən və Şimali Afrikadan olan investorlar da regionda fəallaşmışlar. İnvestisiyaların bu yeni mənbələri inkişaf üçün əlavə imkanlar açmaqla bərabər, böhran vəziyyətinə qarşı potensial sipər yaradır, onun sərmayəçiləri isə ənənəvi investorlarla müqayisədə daha dayanıqlıdır.

Cənubi, Şərqi və Cənub-Şərqi Asiyaya XBİ axınlarının dinamikasında 2001-ci ildən bəri böyük enmə qeyd olunsa da, onlar indiki enişdən birinci

çıxıb bərpa olmalıdır. 2009-cu ildə regiona investisiya axını 17% azalaraq, 233 milyard dollar səviyyəsinə düşmüşdür və bunun əsas səbəbi transsərhəd QƏ-in, xüsusilə də xidmətlər sahəsində (51%), azalması olmuşdur. İnkişaf etmiş ölkələrdən investisiyaların qlobal miqyasda aşağı düşdüyü şəraitdə regiondaxili investorların mövqeləri möhkəmlənmişdir və hazırda region ölkələrinə XBİ axınının ümumi həcminin yarısından çoxu onların payına düşür. Region ölkələrindən XBİ çıxarılmasının ümumi həcmi 8%, yəni 153 milyard dollaradək aşağı düşmüş və belə halda transsərhəd QƏ xətti üzrə satınalmalar 44% azalmışdır. Bu meyillər fonunda Çin mineral resursları əldə etmək üçün imkanlar axtararaq, qeyri-maliyyə sektorunda ölkədən investisiya çıxarılmasını, sənayenin strukturunun qlobal miqyasda yenidən qurulması sayəsində QƏ sektorunda açılan imkanlardan istifadə olunmasını genişləndirmişdir.




*Şəkil 14.2.* **Qlobal XBİ-nin ölkədən axınları***

* 2009-cu ildə XBİ axınlarının həcminin ardıcıllığı üzrə M ən b

ə : UNCTAD. World Investment Report, 2010. P. 12.

Cənubi, Şərqi və Cənub-Şərqi Asiyada XBİ səviyyələrinin bərpası 2009- cu ildə başlamışdır və region qlobal iqtisadiyyatın canlanmasında aparıcı

rollardan birini oynadığına görə, çox güman ki, tempini sürətləndirəcəkdir. Belə ki, artıq 2009-cu ilin ortasından Çinə və Hindistana XBİ axınının genişlənməsi müşahidə olunur və onlardan XBİ çıxarılmasının sabit dinamikasının regiondan investisiya çıxarılması göstəricilərini artım trayektoriyasına yönəldəcəyi ehtimalı yaradır. Bununla belə, yeni sənayeləşmiş 4 ölkədə (Honkonq (Çin), Cənubi Koreya, Sinqapur və Çinin Tayvan əyaləti) XBİ-nin daxil olması və çıxarılması səviyyələri, çox güman ki, asta və məhdud miqyasda bərpa olunacaqdır.

Asiyada genişlənən regiondaxili investisiyalar texnologiyaların yayılmasının, müqayisəli üstünlüklərin «dövrünün yeniləşdirilməsinin» və rəqabət qabiliyyətinin yüksəldilməsinin alətlərindən biridir. Bu amil inkişafın müxtəlif dövrlərində olan ölkələrin təsərrüfat sahələrinin mərhələlərlə modernləşdirilməsində mühüm rol oynayır. Regional inteqrasiya, Çin iqtisadiyyatının misli görünməmiş inkişafı hazırda bu prosesi sürətləndirir və Kamboca, Laos Xalq Demokratik Respublikası, Myanma kimi daha geniş çevrəyə daxil olan ölkələrin inkişafı üçün imkanlar açır. Bundan başqa, mərhələlərlə modernləşmə prosesi elektronika kimi sahələr çərçivəsindən çıxaraq, daha yüksək texnologiya məhsullarını əhatə etməyə başlayır.

Beynəlxalq kredit bazarlarında vəziyyətin gərginləşməsi və beynəlxalq ticarətin ixtisarı XBİ-nin Qərbi Asiyaya axınına ciddi zərbə vuraraq, 2009-cu ildə 24% azalmasına yaxud 68 milyard dollaradək düşməsinə səbəb oldu. Qətər, Küveyt və Livan istisna olmaqla, regiona XBİ-nin daxil olması xeyli azaldı. Türkiyə və Birləşmiş Ərəb Əmirlikləri bundan daha çox zərər çəkdi. Türkiyədə transsərhəd QƏ bazarı çökdü və ixracyönümlü sahələr qlobal böhran nəticəsində ciddi ziyana düşdü. Region ölkələrindən XBİ çıxarılması (bunun 87%-i Körfəz Ölkələrinin Əməkdaşlığı Şurasının payına düşür) 39% azalaraq, 23 milyard dollara düşdü. Səudiyyə Ərəbistanından çıxarılan investisiyaların artımı «Dubai World»da yaranmış böhranın nəticələrini aradan qaldırmaq üçün kifayət etmədi. Qərbi Afrikanın bu böhranın sakitləşəcəyinə və beynəlxalq kredit bazarlarında vəziyyətin sabitləşəcəyinə ümid bəsləyən ölkələri möhtəşəm infrastruktur planlarında düzəlişlər aparmadı və bu amilin həmin ölkələrə daxil olan XBİ-nin səviyyəsinin bərpası prosesini saxlayacağı ehtimal olunur. Digər tərəfdən, qısamüddətli planda investisiyaların ölkədən çıxarılması prosesinin dinamikası ləngiyəcəkdir. Regionda əsas investor olan dövlət müəssisələri daxili bazara səmtləşmişlər və «Dubai World»dakı böhranlı

vəziyyət Birləşmiş Ərəb Əmirliklərindən XBİ çıxarılmasına təsirini göstərməkdə davam edəcəkdir.

Qlobal iqtisadi və maliyyə sarsıntıları şəraitində Latın Amerikası və Karib dənizi hövzəsi ölkələrinə XBİ axınları 2008-ci ilin səviyyəsi ilə müqayisədə 36% azalaraq, 117 milyard dollara düşmüşdür. Region üzrə ən çox zərər çəkən ölkənin daxil olan investisiyalarının ixtisarı 42% təşkil edən Braziliya olmasına baxmayaraq, hələ də ən böyük həcmdə XBİ alandır. Aparılan tədqiqatların nəticələrinə əsasən, əvvəl olduğu kimi, Braziliya və Meksika investisiya qoyuluşlarının obyekti kimi dəyərləndirilir və buna görə artım meylinin ortamüddətli perspektivdə bərpa olunacağı ehtimal edilir.

Braziliyadan XBİ çıxarılması göstəricisinin mənfi 10 milyard dollar olması ölkə şirkətlərinin xarici filiallarının öz baş müəssisələrinə verdiyi fırmadaxili kreditlərinin kəskin artması ilə izah olunur. Nəticədə regiondan investisiya çıxarılması 42% aşağı düşmüşdü. Buna baxmayaraq, regionun transmilli korporasiyalarının QƏ xətti üzrə əsasən inkişaf etmiş ölkələrdə transsərhəd satınalmaları göstəricisi 52% artaraq, 3,7 milyard dollara çatmışdır. Regionun TMK-nm formalaşmasının 2003-cü ildə başlayan prosesi ortamüddətli planda XBİ çıxarılması üçün zəmin yaradacaqdır. Latın Amerikası və Karib dənizi hövzəsi ölkələrindən XBİ çıxarılmasının orta illik göstəricisi 1991-2000-ci illərdəki 15 milyard dollardan 2003-2009-cu illərdə 48 milyard dollarıdək artmışdır. Latın Amerikasının get-gedə daha çox ölkəsinin, əsasən də Braziliya və Meksikanın şirkətləri region hüdudlarından çıxaraq, öz fəaliyyətlərini başlıca olaraq inkişaf etmiş ölkələrdə genişləndirir.

2003-2008-ci illərdə regionda əlverişli iqtisadi şəraitdən başqa, fınnalarm daxili bazarda mövqelərinin möhkəmlənməsinə və fəaliyyətinin xaricdə genişlənməsinə dövlət siyasəti də imkan yaratmışdır. Hazırda regionun əsas xarici investorları idxalın əvəz olunması dövründə uğur qazanmış ən iri və yetkin işgüzar qruplardır. Bundan başqa, Braziliya və Meksika kimi ölkələrdə özəlləşdirmə siyasətinin həyata keçirilməsi nəticəsində «milli çempionlar» meydana çıxmışdır. Bir qədər sonra Braziliyada şirkətlərin fəaliyyətinin xarici bazarlara çıxış ilə müşayiət olunan genişlənmə prosesi hökumət tərəfindən yaradılan stimullara, o cümlədən ünvanlı kredit xətlərinə istinad edirdi. Ancaq gələcək genişlənmə ölkədən maliyyələşdirilmənin məhdud olması və beynəlxalq maliyyə bazarlarında yaranmış gərgin vəziyyət səbəbindən ləngiyə bilər. Bu TMK-lar üçün onların borcu ilə mənfəəti arasındakı nisbətin aşağı

olması, böhrandan ziyan çəkmiş sahələrdə fəaliyyətin məhdud həcmi və region iqtisadiyyatının müqavimət gücünün nisbətən yüksək səviyyəsi kimi amillər müsbət rol oynayacaqdır.

8 illik 3diksəlişdən sonra Cənub-Şərqi Avropaya və MDB-yə XBİ axınları 2008- ci ilin səviyyəsi ilə müqayisədə 43% aşağı düşərək, 69,9 milyard dolláradək azalmışdır. 2009-cu ildə hər iki subregiona XBİ axınının azalması qeyd olunsa da, Cənub-Şərqi Avropaya axının dinamikası MDB ilə müqayisədə az zərər çəkmişdir. Daxili tələbatın ətalətliliyi, təbii resurslar sektorunda layihələrin gözlənilən gəlirliyinin aşağı düşməsi və «dairəvi sxem» üzrə qoyulan XBİ mənbələrinin tükənməsi səbəbindən Rusiya Federasiyasına investisiya axını təqribən 2 dəfə ixtisar olunmuşdu. Buna baxmayaraq, 2009-cu ildə Rusiya Federasiyası dünyada investisiya qoyuluşlarının əsas obyektləri siyahısında 6-cı yer tuturdu. Transsərhəd QƏ bazarı regionda ən iri investor olan Aİ şirkətlərinin fəallığının zəifləməsinə görə çökmüşdü. Bununla bərabər, inkişaf etməkdə olan ölkələrdən, o cümlədən Çindən investisiyaların artması qeyd olunmuşdu. XBİ-nin ölkəyə axınından fərqli olaraq, bu cür investisiyaların regiondan çıxarılması o qədər də kəskin olmamışdı (-16%).

2009- cu ildə regiondan çıxarılan XBİ-nin, şübhəsiz ki, iri mənbəyi olan Rusiya Federasiyası xalis xarici investora çevrildi. Xammalın qiymətinin sabitləşməsi, özəlləşmənin yeni raundunun başlanması, iri xammal ixracatçıları olan ölkələrdə (Qazaxıstan, Rusiya Federasiyası və Ukrayna) iqtisadi yüksəliş regionda XBİ dinamikasının tədricən canlanması üşün zəmin yaratmalıdır.

2010- cu ildə Qazaxıstana XBİ axını 60 milyard dolları ötüb keçərək, böhrandan əvvəlki ilin (2007) səviyyəsindən yüksək olmuşdu.

Strukturun yenidən qurulması və özəlləşdirmə proqramlarının həyata keçirilməsi sayəsində Cənub-Şərqi Avropanın bank sahəsində XBİ həcmi yeni minilliyin ilk illərindən artmağa başlamışdır. Nəticədə 2008-ci ilin sonunda bank aktivlərinin 90%-i xarici sahiblərə məxsus olmuşdur. Qlobal böhran zamanı xarici banklar regionda pozitiv rol oynamışdı. Bununla belə, Yunanıstanın dövlət borcu ilə əlaqədar olaraq yaranan böhran, xarici bankların iri miqyasda iştirakının sistemli risklərin regiona köçürülməsi kanalma çevriləcəyi qorxusu yaratmışdır.

Bütün regionlar arasında XBİ-nin dinamikasında ən güclü enmə inkişaf etmiş ölkələrə axında - 44% yaxud 566 milyard dollaradək qeydə alınmışdır. Ancaq indiki iqtisadi və maliyyə sarsıntılarının xeyli ciddi olmasına

baxmayaraq, bu ixtisar 2000-2003-cü illərin iqtisadi tənəzzül dövrünə nisbətən 0 qədər də miqyaslı olmamışdı. Aİ üzvü olan 27 dövlət zərbəyə daha yaxşı davam gətirdiyi, Almaniyada isə fınnadaxili kreditlərin kəskin artması sayəsində 46% artım qeydə alındığı halda, bu proses Şimali Amerikaya güelü təsir göstərmişdir. Digər tərəfdən. Böyük Britaniyaya XBİ axınları əvvəlki illə müqayisədə 50% azalmışdı. İnkişaf etmiş ölkələrdə transsərhəd QƏ Ys dəfə aşağı düşmüş, özü də, emal sənayesi sektorunda əqdlər təqribən 80% azalmışdı.'

İqtisadiyyatda zəif canlanma 2010-cu ildə investisiya axınlarını sabitləşdirmiş və gözlənildiyi kimi, inkişaf etmiş ölkələrə XBİ daxilolmalarını 2009-cu ilin səviyyəsindən yüksəyə qaldırmağa imkan verməlidir (amma bu, daha çox ABŞ, AFR, İsveçrə və bir sıra kiçik ölkələrə aiddir). Həmçinin, 2009- cu ildəki 48% enmədən sonra XBİ-nin ölkədən çıxarılması səviyyəsinin bərpa olunacağı və ortamüddətli perspektivdə bütün dünyada, o cümlədən inkişaf etməkdə olan ölkələrdə iqtisadi durumun perspektivlərinin yaxşılaşması sayəsində artım tempinin sürətlənəcəyi gözlənilir. Lakin bu yüksəliş meyli, Avropanın bir sıra ölkələrində dövlət borcu üzrə defolt riskinin artması və bunun avro zonasına yayılması duyğusunun güclənməsi üzündən pozula bilər.

İqtisadi tənəzzül inkişaf etməkdə olan ölkələrdə istehsalın beynəlmiləlləşməsinin məşğulluq səviyyəsinə təsir göstərəcəyi barədə çoxdan mövcud olan qorxunu yenidən oyatdı. Ötən onillik ərzində ölkədən XBİ çıxarılmasının sürətli artımı nəticəsində inkişaf etmiş ölkələrin TMK-nm xarici ölkələrdə çalışan işçilərinin sayı çoxalmışdır. Bununla bərabər, TMK-nm yerləşdiyi ölkənin məhsullarının ixracım genişləndirdikdə yaxud investisiya qoyan şirkətin rəqabət qabiliyyətini gücləndirdikdə, XBİ cəlb edildiyi ölkədə iş yerlərini qoruyub saxlamağa və hətta artırmağa imkan verir. Aparılan tədqiqatlar XBİ-nin ölkədən çıxarılmasının orada iş yerlərinin ixtisar olunması prosesinə təsir göstərməsi sualına birmənalı cavab vermir. Həqiqətən də, nəticələrin xarakteri investisiyaların növündən, filialların yerləşməsindən və TMK-nm yeritdiyi məşğulluq siyasətindən asılıdır.

Qlobal böhran dövründə ən zəif inkişaf etmiş (ZİÖ) 49 ölkəyə XBİ axını 14%, yəni 28 milyard dollar səviyyəsinə düşmüşdür. Əsas kapitala vəsait qoyuluşlarının ümumi həcmində XBİ-nin xüsusi çəkisinin yüksək (2009-cu ildə 24%) olması və kapital yığımının mühüm tərkib hissəsini təşkil etməsi

ЮНКТАД. Доклад о мировых инвестициях. Обзор ООН. 2010. С. 16.

göstərir ki, investisiya axınlarının ixtisarı ölkələrin bu qrupu üçün xüsusilə ciddi fəsadlar törədəcəkdir. ZİÖ-yə daxil olan XBİ əvvəlki kimi, onun qlobal axınlarının cəmi 3%-ni və inkişaf etməkdə olan ölkələrə axınlarının 6%-ni təşkil edir. Əvvəllər olduğu kimi, XBİ böyük həcmdə təbii sərvətlərə malik olan bir neçə ölkədə cəmləşmişdir. Bu ölkələrdə XBİ-nin əsas hissəsi tamamilə yeni layihələrə yatırılır, özü də, 2009-cu ildə həmin layihələrin 60%-dən çoxu inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrin özünün təşəbbüsü ilə həyata keçirilmişdir. Ölkələrin bu qrupuna XBİ-nin əsas hissəsi, əvvəl olduğu kimi, inkişaf etmiş ölkələrdən daxil olur. XBİ-nin dinamikasının ortamüddətli perspektivləri ZİÖ-də struktur qüsurlarının aradan qaldırılmasından asılıdır. UNCTAD-m mütəxəssisləri hesab edirlər ki, bu əlverişsiz amillərin təsirini zəiflətmək üçün, inkişaf məqsədilə verilən yardımlardan daha səmərəli istifadə olunmalı, yəni onlar qəbul edən ölkənin istehsal potensialının stimullaşdırılmasma və bununla da, XBİ-nin cəlb olunması vasitəsinə çevrilməsinə sərf olunmalıdır'.

Ənənəvi olaraq, dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr qrupu XBİ-nin yerləşdirilməsi obyekti qismində o qədər də cəlbedici deyil. Struktur çatışmazlıqları ilə yanaşı, əlverişsiz coğrafi yerləşmə onların iqtisadiyyatının fəaliyyətinə mənfi təsir göstərir. Bununla belə, iqtisadi islahatların aparılması və investisiya rejiminin liberallaşdırılması, habelə qlobal iqtisadi şəraitin əlverişli olması sayəsində 2000-2008-ci illərdə XBİ axını durmadan artırdı. 2009-cu ildə XBİ-nin 27% yaxud 22 milyard dolları dək aşağı düşməsi dünyanın başqa ölkələri ilə müqayisədə mülayim olmuşdur. Dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələrdə istehsal potensialının şaxələndirilməməsi nəticəsində XBİ, əvvəlki kimi, yenə də zəngin təbii resurslara malik olan bir neçə ölkədə cəmləşmişdir (2009-cu ildə XBİ-nin ümumi həcminin 58%-i Qazaxıstanın payına düşürdü). İnkişaf etməkdə olan ölkələrin investorlarının Asiya və Afrika ölkələrində yerləşdirdiyi XBİ-nin həcminin dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələrdə sürətli artımı gözlənilmir. Əlverişsiz coğrafi yerləşmə ilə bağlı olan çətinlikləri dəf etmək üçün həmin ölkələr diqqətini daha böyük həcmdə biliklər və informasiya tələb edən, resursların gətirilməsi üçün nəqliyyat xərclərinə ehtiyac olmayan sahələrdə cəmləşdirməlidir. Onların daxil olduğu regional inteqrasiya qrupları yerli bazarların ölçülərini böyütməyə imkan yaratmaqla, bu ölkələrin

^ ЮНКТАД. Доклад о мировых инвестициях. Обзор ООН. 2010. С. 18.

iqtisadiyyatını investorlar üçün cəlbediciyə çevirə bilər.

Adalarda yerləşən 29 inkişaf etməkdə olan kiçik ölkə də XBİ cəlb etməyə səy göstərir. Birbaşa investisiya yatıranlar onların daxili bazarının, təbii və insan resursları bazasının məhdud olmasından və yüksək tranzaksiya məsrəflərindən, o cümlədən nəqliyyat xərclərindən ehtiyat edir. Amma 2009-cu ildə 35% yaxud 5 milyard dollar məbləğinə düşməsinə baxmayaraq, daxili kapital qoyuluşlarının kəskin azaldığına görə, onların ümumi həcmində XBİ- nin payı əvvəlki kimi 30%-dən yüksək qalırdı. Ölkələrin bu qrupuna daxil olan ümumi XBİ-nin yarısı investisiyaların əsas alıcıları olan 3 ölkədə (Yamayka, Trinidad və Tabaqo, Baham adaları - göstərilən ardıcıllıqla) cəmləşmişdi.

2009- cu ildə XBİ axınlarının ‘A hissəsi vergi sığınacaqları olan bu ölkələrin payına düşsə də, beynəlxalq qaydaların sərtləşdirilməsi nəticəsində bura XBİ daxilolmaları azalır. Ehtimal ki, coğrafi yerləşməsi əlverişsiz olduğuna görə, həmin ölkələr gələcəkdə turizm kimi ənənəvi sahədə mövcud olan potensiala istinad etməlidir. Ölkələrin bu qrupu üçün adekvat informasiya-telekommunikasiya infrastrukturunun yaradıldığı və onlar tərəfindən özlərinin insan potensialı inkişaf etdirildiyi halda, biliklərə əsaslanan sahələr seqmentində də perspektivlər açılır.

***XBİ-nin ixtisarının struktur xüsusiyyətbri.*** 2008-2009-cu illərdə və 2010- cu ilin birinci yarısında XBİ-nin hər üç tərkib hissəsi: paylı investisiyalar, başqa kapital axınları (əsasən korporasiyadaxili borclar) və şirkətlərin investisiyaya yönəldilmiş mənfəəti üzrə əhəmiyyətli ixtisar qeydə alınmışdır. Paylı investisiyalar transsərhəd QƏ ilə birgə azalmışdı. TMK-nm xarici filiallarının mənfəətinin azalması yenidən investisiyaya yönəldilən gəlirlərin ixtisarına gətirib çıxardı və nəticədə 2009-cu ildə inkişaf etmiş ölkələrdən XBİ çıxarılması 47% aşağı düşdü. Bəzi hallarda TMK-nm baş şirkətinin və mənzil-qərargahlarının strukturunun yenidən qurulması xarici filialların onlardan aldığı borcların geri qaytarılmasına və TMK ilə onların xarici filialları arasında xalis korporasiyadaxili kapital axınlarının zəifləməsinə səbəb oldu. Mütləq qeyd edilməlidir ki, 2008-2009-cu illərdə paylı investisiyaların ixtisarı, dünya iqtisadİ3^atmda baş vermiş əvvəlki tənəzzüllə (2001-2002-ci illər) müqayisədə, daha əhəmiyyətli olmuşdu. 2008-ci ilin ortasından bir sıra ölkələrdə investisiyaların geri götürülməsi, o cümlədən investisiyaların reparasiyası, kreditlərin qaytarılması və filiallar tərəfindən öz baş şirkətlərinə olan borclarının ödənilməsi XBİ-nin ümumi axınlarından çox olmuşdur. Məsələn,

2008-ci ildə Almaniyadan investisiyaların geri götürülməsi şəklində XBİ axınları 110 milyard dollar yaxud onun ümumi XBİ axınlarının 40%-i həcmində olmuşdur. 2009-cu ildə QƏ üzrə bütün transsərhəd əqdlərinin ⅓hissəsindən çoxu xarici firmaların başqa finnalara yenidən satışı (qəbul edən ölkədə, yerləşdiyi ölkədə və «üçüncü ölkələrdə») ilə əlaqədar idi. Bu, 2009- 2010-cu illərdə XBİ axınlarını daha da azaltdı. İnvestisiyaların geri götürülməsi nadir hal olmasa da (adətən XBİ sahəsində bütün layihələrin '***A*** hissəsindən 4/5 hissəsinədək), böhran dövründə daha da aydın nəzərə çarpmağa başladı’.

## 14.2. Beynəlxalq istehsalın formalaşması, kapitalın, malların və xidmətlərin ölkədən çıxarılması

Dünya iqtisadiyyatmdakı mövqeləri möhkəmləndikcə, TMK-lar beynəlxalq istehsalın çox güclü sektorunu fonnalaşdırır. Təhlil göstərir ki, bu sektor, birincisi, ümumdünya iqtisadiyyatının artımım üstələyən artım indeksinə malikdir; ikincisi, dövri tərəddüdlərə məruz qalsa da, +1,5 bənddən aşağı düşmür (1982-2007-ci illər dövründə). Yalnız ümumdünya böhranı onun artım tempini 2006-cı ildəki 47,2%-dən 2007-ci ildəki 29,9%-dək aşağı sala bilmişdir; görürük ki, templər zəifiəsə də, qlobal böhran şəraitində belə, artım saxlanılmışdır.

İstehsal amillərinin beynəlmiləlləşməsi prosesinin sürətlənməsinin, onların beynəlxalq xarakterinin formalaşmasının ən güclü vasitələrindən biri beynəlxalq istehsaldır. İzah edək: «beynəlxalq istehsal» termini başqa ölkələrdə yerləşən şirkətlər (TMK) tərəfindən buraxılan və nəzarət olunan mallara və xidmətlərə aiddir. Bu ölkələrdə (qəbul edən ölkələr) istehsala nəzarət, bilavasitə məhsul buraxan müəssisələrin əsas vasitələrinin minimum hissəsinə sahiblik hüququ verən sadə səhmlərin minimum zərfinin əldə olunması yaxud bu nəzarətin həyata keçirilməsini nəzərdə tutan müqavilələr (səhmləri satın almadan) əsasında yerinə yetirilə bilər. İstehsala nəzarət, habelə xaricdə yerləşən müəssisənin (xarici filialın) idarə olunmasında kapital qoyuluşları vasitəsilə yaxud bağlanmış müqavilələr əsasında iştirak beynəlxalq istehsalı xarakterizə edir.

^Доклад о мировых инвестициях, 2009 год; транснациональные корпорации, сельскохозяйственное производство и развитие. ЮНКТАД, Нью-Йорк; Женева, 2009. С. 9; World Investment Report, 2010. P. 17.

***Siyasətdə son dəyişikliklər.*** İnvestisiya siyasətində mövcud olan meyillər ümumilikdə liberallaşma və xarici investisiyaların qoyulması prosedurlarının daha da sadələşdirilməsi ilə xarakterizə edilir. Eyni zamanda dövlət siyasətinin məqsədlərinə (məsələn, ətraf mühitin mühafizəsi, yoxsulluqla mübarizə və/və ya milli təhlükəsizlik mülahizələri) nail olunması üçün xarici investisiyaların tənzimlənməsi üzrə səylər də güclənmişdir. Siyasətdə bu cür parçalanma, dövlətlə investorların hüquqları və öhdəlikləri arasında balansı pozmaq cəhdləri həm milli, həm də beynəlxalq siyasət səviyyələrində müşahidə olunur və belə halda dövlətin roluna üstünlük verildiyi nəzərə çarpır. Beynəlxalq investisiya sazişləri (BİS) sistemi get-gedə daha çox yayılır, BİS rejiminin balanslaşdırılmasına və daxili uzlaşdırılmasına cəhdlər göstərilir. Bundan başqa, investisiya siyasətinin işlənib hazırlanması prosesində onun başqa, o cümlədən nisbətən ümumi olan iqtisadi, sosial və ekoloji məsələlərlə daha güclü əlaqələndirilməsinə xüsusi diqqət yetirilir.

***Liberallaşmanın dövlət tənzimlənməsi ilə uzlaşdırılması.*** Ölkələrin investisiya rejimlərinin xarici investisiyalar üçün əlverişliliyi getdikcə güclənsə də, hökumətlər tənzimləmənin rolunu daha çox qabartmağa çalışır. Bir tərəfdən, ölkələr XBİ-yə möhtacdır, digər tərəfdən isə, böhran onları istər- istəməz «Dövlətin heç bir müdaxiləsi olmamalıdır!» şüarı altında keçən əvvəlki libertarian siyasətdən əl çəkməyə vadar edir. UNCTAD-2010 Hesabatının müəllifləri belə hesab edirlər ki, 2009-cu ildə xarici investisiyalar sahəsində milli siyasətin aşkar olunmuş 102 yeni tədbirindən əksəriyyəti (71-i) daha çox liberallaşmaya və xarici investisiyaların həvəsləndirilməsinə səmtləşmişdi. Bu, qlobal iqtisadi və maliyyə sarsıntılarının hələ investisiya sahəsində proteksionizmin güclənməsi ilə nəticələnməməsi faktını təsdiqləyir. Əvvəlki vaxtda xaricilər üçün qapalı olan sektorlara girişin, torpaq sahələrinin satın alınması rejiminin liberallaşdırılması, inhisarların ləğvi və dövlət müəssisələrinin özəlləşdirilməsi görülən tədbirlər sırasına daxil idi. Həvəsləndirmə və prosedurların sadələşdirilməsi tədbirləri, ilk növbədə, konkret sahələrdə və regionlarda, o cümlədən xüsusi iqtisadi zonalarda XBİ üçün əlverişli vergi-büdcə və maliyyə stimullarının yaradılmasını; yoxlama prosedurlarının sadələşdirilməsini; təsdiq prosedurlarının sadələşdirilməsini; layihələrin həyata keçirilməsinə icazə verilməsi prosedurlarının tezləşdirilməsini nəzərdə tuturdu. İşgüzar mühitin yaxşılaşdırılması üçün bəzi, məsələn, inkişaf etmiş, Asiya və Afrikanın inkişaf etməkdə olan ölkələrində korporasiyalardan tutulan vergilərin

dərəcələri aşağı salınmışdı. Bütövlükdə isə dövlətlər əvvəlki illərdə işlənib hazırlanmış və ölkəyə XBİ axınlarının artmasına imkan verən ümumi şərtlərə riayət edir.

## 14.3. XBI-nin ölkəyə axınına şərait yaradan investisiya iqlimi, işgüzar mühit

Dünya təcrübəsində konkret ölkələrə xarici investisiya axınlarının cəlb olunmasına imkan yaradan müəyyən meyarlar işlənib hazırlanmışdır. Bunun əsasında UNCTAD tərəfindən öz ölkəsinə xarici investisiyalar cəlb etmək istəyən ölkələr üçün bu şərtlərin və meyarların mütləq nəzərə alınmalı olan minimum, bir növ universal siyahısı tərtib edilmişdir (cədvəl 14.3 və 14.4).

İnvestisiya rejimləri barədə göstərilən məlumatlar hazırda bir növ universal indikatorlar qismində çıxış edir və ölkəyə XBİ cəlb olunması üzrə müxtəlif əməliyyatlar aparılarkən onları bilmək və nəzərə almaq lazımdır. Əslində, onlar ölkələrin müxtəlif qrupları üzrə müvafiq investisiya rejimlərini formalaşdırır. Onlar həm xarici investisiyaların cəlb olunmasında mühüm rol oynadığına, həm də xaricdən daxilolmaların minimuma düşdÜ34i şəraitdə milli kapitalın ölkədən qaçmasına həlledici təsir göstərdiyinə görə, diqqətlə öyrənilməlidir.

Ölkələrdə investisiya qərarlarının qəbuluna təsir göstərən başqa amillər qismində regional inteqrasiya, habelə ölkənin siyasətində milli investisiya rejimində sistemli dəyişikliklər doğura bilən ümumi mülahizələrin əlaqələndirilməsi dərəcəsinin yüksəldilməsi və nəzərə alınmasının zəruriliyi çıxış edir. Eyni zamanda bu amillər daha yaxşı uzlaşdırılmış, balanslaşdırılmış, münasib inkişaf, səmərəli beynəlxalq investisiya rejimi üçün imkanlar yaradır. Ehtimal edirik ki, beynəlxalq investisiya rejiminin möhkəmlənməsinin amilləri aşağıdakılardır:

1) iştirakçılar dairəsi məhdud olan, investisiya məsələlərinə dair müddəalar nəzərdə tutulan, mövzusuna görə geniş iqtisadi sazişlərin sayının artması;

2) regional (əsasən Cənub - Cənub xətti üzrə) investisiya zonalarının yaradılınası üzrə səylər;

*Cədvəl 14.3*

**Ölkəyə XBİ axınına şərait yaradan resipiyent ölkələrin xarakteristikaları***

| **XBİ qəbul edən ölkələrin ümumi şəraiti** | **TMK-nm məqsədlərinə əsasən təsnifləşdirilmiş XBİ-nin tipi** | **Resipiyent ölkələrin əsas iqtisadi xarakteristikaları** |
|---|---|---|
| 1. XBİ üçün siyasi mühit<br>İqtisadi, siyasi və sosial sabitlik;<br>İnvestorun gəlməsini və fəaliyyətini tənzimləyən qaydalar;<br>Xarici şirkətlərin filiallarına münasibət;<br>Bazarların fəaliyyəti və strukturu (xüsusilə, rəqabət, qovuşmalar və birləşmələr siyasəti);<br>XBİ-yə şərait yaradılması üzrə beynəlxalq müqavilələr; Özəlləşdirmə siyasəti;<br>Ticarət siyasəti (tarif və qeyri-tarif maneələri; | A. Satış bazarının genişləndirilməsi<br>B. Təbii resursları (aktivləri) əldə etmək | Bazarın həcmi və əhalinin hər nəfərinə düşən gəlir;<br>Regional və qlobal bazarlara çıxış:<br>İstehlakçıların ölkə üçün səciyyəvi olan verdiyi üstünlüklər;<br>Bazarların strukturu;<br>Xammal;<br>Ixtisassız, aşağı ödənişli işçi qüvvəsi;<br>İxtisaslı kadrlar;<br>Texnoloji, innovasiya və yaradılmış başqa aktivlər (məsələn, ticarət markaları), o cümlədən insanlarda, firmalarda yaxud onların qruplarında təcəssüm olunmuş aktivlər;<br>Maddi infrastruktur (limanlar, yollar, elektrik təchizatı, rabitə) |
| 2. İqtisadi xarakteristikalar<br>Konkret mexanizmlər;<br>Bazar infrastrukturu;<br>iqtisadi azadlıq ______<br>3. Biznesə yardım göstərilməsi<br>İnvestisiyaların irəli hərəkəti (o cümlədən imicin yaradılması, investisiyaların dəstəklənməsi üçün vasitələrin axtarılması və xidmətlərin inkişaf etdirilməsinə yönəlmiş tədbirlərin həyata keçirilməsi);<br>investisiyaların stimullaşdınlması;<br>Korrupsiya, idarəçiliyin səmərəliliyi | , XBİ, ticarət və vergi siyasətlərinin qarşılıqlı əlaqəsi .<br>İstehsalın səmərəliliyinin yüksəldilməsi | Əmək məhsuldarlığı ilə birlikdə, resursların və aktivlərin dəyəri amili<br>Digər məsrəflər, məsələn, resipiyent ölkə daxilində / xaricə nəqliyyat və rabitə xərcləri,<br>aralıq məhsulların əldə olunması məsrəfləri |

| | | |
|---|---|---|
| və s. ilə bağlı olan «əlavə məsrəflər»;<br>Sosial mühit (iki dildə dərs keçilən məktəblər, həyatın keyfiyyəti və s.);<br>investisiyadan sonrakı xidmətlər | | Korporasiyanın regional şəbəkəsinin yaradılmasına imkan verən regional inteqrasiya qruplaşmalarında üzvlük |

* World Investment Report: 2004: Trend and Determinants, Table : IV. P.l

*Cədvəl 14.4*

**Mərkəzi və Şərqi Avropa ölkələrində xarici birbaşa investisiyaların ölkəyə (ölkədən) axınına təsir göstərən amillər***

| Amil | Dəstəkləyən amil | Ləngidən amil |
|---|---|---|
| *iqtisadi amillər* | | |
| Əmək haqqı səviyyəsi | 13 | - |
| işçilərin bacarığı | 12 | 1 |
| Bazarın həcmi | 2 | 8 |
| Bazarın artım templəri | 2 | 3 |
| Təbii resurslar | 1 | 5 |
| idarəçilik bacarığı | 1 | 1 |
| Maddi infrastruktur | 1 | 4 |
| Maliyyə infrastrukturu | 1 | 3 |
| Bazara çıxış imkanları | - | 1 |
| Sənayenin vəziyyəti | - | 1 |
| *Siyasi amillər* | | |
| Makroiqtisadi sabitlik | 9 | 1 |
| Siyasi mühit | 3 | 2 |
| Valyutanın dönərliyi | 5 | - |
| Özəlləşməni dəstəkləyən strategiya | 4 | 3 |
| Özəlləşmənin templəri | 2 | 2 |
| Yerli firmaların rəqabətə hazırlığı | 3 | 2 |
| İqtisadiyyatın yenidən qurulması imkanları | 3 | 3 |
| Vergi sistemi | 1 | 2 |
| Hüquqi sabitlik, məhkəmə sistemi | | 5 |
| Mövcud müəssisələrin yenidən qurulmasının xarakteri | - | 3 |
| *Biznesin dəstəklənməsi* | | |

| | | |
|---|---|---|
| investorlara subyektiv yaxınlıq | 11 | - |
| informasiya | 3 | 5 |
| Ölkənin imici | 1 | 8 |
| Maliyyə stimulları | 1 | 8 |
| Bazar stimulları | 1 | 3 |
| Müəssisələrin qeydiyyatdan keçməsi | 1 | 4 |

* UNCTAD World Investment Report: 2004: Trend and Determinants, Table IV. P. 1; World Investment Report, 2010. P. 23.

3) Aİ-də xarici investisiyalar üzrə məsələlərin dövlətüstü orqanların səlahiyyətinə aid edilməsi;

4) müqavilə bazasının eyniləşdirilməsi və başqa sənədlərlə ziddiyyətlərin aradan qaldırılması məqsədi ilə sazişlərin bəzi tiplərinin ləğv edilməsi;

5) nümunəvi müqavilələrin işlənib hazırlanması, müvafiq sazişlər şəbəkəsini və onların nəticələrini təhlil edib, əvvəllər bağlanmış müqavilələrin inkişafı yaxud denonsasiyası yolu ilə dövlətlərin çoxunun beynəlxalq investisiya siyasətinə yenidən baxması.

Yeni bağlanmasından, müddətinin uzadılmasından yaxud yenidən nəzərdən keçirilməsindən asılı olmayaraq, son dövrün investisiya müqavilələri göstərir ki, həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrin hökumətləri dövlətin tənzimləməni həyata keçirmək hüququnun qorunub saxlanması üçün onların müddəalarını daha aydın ifadə etməyə, konkret öhdəliklərin təsir dairəsini yaxud mənasını dəqiqləşdimıəyə çalışır. Bundan başqa, təbiəti mühafizə, habelə korporasiyaların sosial sahələrdə lazımi tərzdə davranışının təmin edilməsinə yönəlmiş müddəalar müqavilələrə getdikcə daha çox daxil olunur. Bununla • belə, investisiya müqavilələrinin inkişafın məqsədlərinin əldə olunmasına səmtləşdirilməsi, əvvəlki kimi, asan iş deyil.

Beynəlxalq investisiya arbitrajının investisiya mübahisələrinin həllinin əsas aləti kimi qalmasına baxmayaraq, bu məsələnin tənzimlənməsinin mövcud mexanizmində sistemli problemlər aydın nəzərə çarpır. Nəticədə bir çox ölkələr investorların iddia qaldınuası riskini azaltmağa yaxud mübahisələrin yoluna qoyulması prosesinin legitimliyinin səmərəsini yüksəltməyə cəhd edərək, özlərinin investisiya müqavilələrində investorlar və dövlət arasında mübahisələrin həllinə dair müddəaları «əl ilə sazlama» rejimində təkmilləşdirir. Bundan başqa, beynəlxalq arbitraj normalarının bir sıra komplekslərinə, o

cümlədən İnvestisiya Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəzin (IMHBM), BTP-nin, BMT-nin Beynəlxalq Ticarət Hüquqları üzrə Komissiyasının (UNCITRAL) qaydalarına yenidən baxılmış yaxud baxılma prosesi davam edir. Bununla belə, bir sıra inkişaf etməkdə olan ölkələr IMNBM Konvensiyasını qüvvədən düşmüş elan edərək yaxud mübahisələrin həllinin və qarşısının alınmasının alternativ mexanizmlərindən istifadə olunmasının mümkünlüyünü nəzərdən keçirərək, beynəlxalq arbitraj prosedurlarından imtina edir.

***investisiya məsələləri üzrə digər təşəbbüslər.*** İnvestisiya müqavilələrindən başqa son vaxtlar qlobal məsələlərin həlli məqsədi ilə irəli sürülən strateji təşəbbüslər də beynəlxalq investisiya fəaliyyəti üçün nəticələr doğurur. Məsələn, UNCTAD, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Kənd Təsərrüfatının İnkişafının Beynəlxalq Fondu və Dünya Bankı Qrupu tərəfindən kənd təsərrüfatına məsuliyyətli investisiya qo3aıluşlarmm dəstəklənməsi üzrə birgə təşəbbüs qaldırılmışdır. Qəbul və praktikada tətbiq edildiyi halda, bu prinsiplər kənd təsərrüfatında mümkün ola bilən mənfi nəticələrin təsirini zəiflətməklə, XBİ-nin səmərəsini artıra və bununla da, yerli səviyyədə ərzaq təhlükəsizliyinə və inkişafa şərait yarada bilər. «Qrup-20»-nin üzvləri ticarət və investisiyalar sahələrində himayədarlıqdan çəkinmək öhdəliyini qəbul etmiş, həmin sahələrdə proteksionizmin dəyişməsi və bunun barəsində informasiyanın dərc olunması ilə əlaqədar beynəlxalq təşkilatları, o eümlədən UNCTAD-ı dəstəkləmişdir. Maliyyə sistemində həm milli, həm də çoxtərəfli səviyyələrdə islahatların aparılması, qlobal maliyyə böhranına səbəb olmuş zəif yerlərin möhkəmləndirilməsi üzrə iş aparılır. Bu səylər XBİ axınları üçün ciddi nəticələr verməlidir. Buna müvafiq olaraq, əvvəlki onilliklərdə formalaşmaqda olan beynəlxalq maliyyə və investisiya sistemləri mexanizmlərinin qarşılıqlı təsirinin müəllif tərəfindən dəfələrlə sadalanan səbəblər (o cümlədən mühüm qüsurları olan iqtisadi siyasət) üzündən nəzərdən qaçırılmış bütün aspektlərinin əhəmiyyətli dərəcədə öyrənilməsi vacibdir.

Göstərilən iki sistemin inkişafı paralel surətdə getsə də, onlar kapitalın qısamüddətli və uzunmüddətli transsərhəd axınlarını tənzimləyir.

***Xarici investisiyaların aşağı karbohidrogenli iqtisadiyyata cəlb olunması: TMK-lar problemin bir hissəsi və onun həlli vasitəsi kimi.*** UNCTAD-2010 Hesabatında iqlim dəyişməsi probleminə xüsusi diqqət yetirilir; özü də, artıq «Nə isə etmək lazımdırmı? sualı qoyulmur. İndi əsas

məsələ hərəkətlərin miqyası, hansı tədbirlərin həyata keçiriləcəyi və bunun kim tərəfindən edilməsidir»'. Havaya istixana qazlarının (İQ) atılmasının azaldılması üzrə qlobal məsələnin səviyyəsi hədsiz böyük maliyyə vəsaitləri və texnoloji cavab tədbirlərin yerinə yetirilməsini tələb edir. UNCTAD hesab edir ki, TMK-lar özlərinin nəhəng beynəlxalq əməliyyatları prosesində tullantıların iri mənbəyinə çevrildiyinə, habelə texnologiyaların yaradılmasında və yayılmasında çox mühüm mövqe tutduqlarına görə, sözsüz ki, aşağı karbo- hidrogenli iqtisadiyyata keçilməsində aparıcı rol oynamalı və havaya İQ tullanması ilə mübarizəyə vəsait qoyuluşlarım maliyyələşdirməlidir. Şübhəsiz ki, TMK-lar həm problemin, həm də onun həllinin bir hissəsidir. Ekspertlərin qiymətləndirmələrinə görə, 2010-2015-ci illərdə havaya istixana qazlarının tullanmasını məhdudlaşdıraraq, istiləşmənin 2°C hədəf göstərici hüdudlarında (Kopenhagen razılaşmalarına uyğun olaraq) saxlanması üçün qlobal miqyasda ***hər il*** əlavə 440 milyard dollar məbləğində vəsait qoyuluşu tələb olunur. 2030- cu ilədək tələbatın məbləği daha çox, hər il 1,2 trilyon dollaradək çoxalacaqdır. Beynəlxalq tədqiqatların hamısında qeyd olunur ki, dünya ölkələrinin əksəriyyətində böyük məbləğdə büdcə kəsirinin olması nəzərə alınaraq, ümumdünya iqtisadiyyatında nisbətən əlverişli mühitin yaradılmasına yönəlmiş səylərdə irəliləyişə nail olmaq üçün özəl sektorun maliyyə dəstəyi son dərəcədə vacibdir. Buna görə də iqlim dəyişmələri ilə mübarizənin milli iqtisadi inkişaf strategiyaları ilə, TMK və xarici investisiyalara istinad etməklə aşağı karbohidrogeni! iqtisadiyyata keçid məsələləri siyasətinin əlaqələndirilməsi vacibdir.

***Özəl sektorun səfərbər olunması üçün səmərəli mexanizmlərin zəruriliyi.*** Son dövrdə müəyyən irəliləyişlərə baxmayaraq, iqlim dəyişmələri məsələləri üzrə beynəlxalq rejim, aşağı karbohidrogeni! iqtisadiyyata investisiya qoyuluşlarının həvəsləndirilməsi və bununla əlaqədar olan texnologiyaların axını (xüsus-ilə inkişaf etməkdə olan yoxsul ölkələrə) baxımından gözlənilən ümidləri doğrultmamışdır. 2009-cu ilin dekabrında keçirilən görüşdən sonra da gələcəkdə tullantıların hədəf göstəricilərinə, qurumların xarakterinə, konkret mexanizmlərə və maliyyələşdirmə mənbələrinə aydınlıq gətirilməmişdir. Beynəlxalq siyasətin əsas aləti, əvvəllər olduğu kimi, perspektivləri qeyri-müəyyən olan Kioto protokoludur. Beləliklə, iqlim dəyişmələri üzrə mövcud rejim özəl sektorun öz işgüzar strategiyalarını səmtləşdinnək üçün lazım olan siyasətin dəqiq, sabit və

^ ЮНКТАД. Доклад о мировых инвестициях. Обзор ООН. 2010. С. 29.

çərçivəsinə olan ehtiyacını ödəməyə qadir deyil.

Kioto protokolunun müsbət tərəfi kimi, tullantıların azaldılması üçün mexanizmlərin, o cümlədən inkişaf etməkdə olan ölkələrin dayanıqlı iqtisadi inkişafına yardım göstərilməsi kanalı kimi nəzərdən keçirilən *Təmiz İnkişaf Mexanizminin* yaradılması göstərilir. Ancaq Kioto protokolunun mexanizmləri tullantıların azaldılmasının hədəf göstəricilərinə milli səviyyədə riayət olunması üçün işlənib hazırlandığına görə, özəl sektorun həmin fəaliyyətə cəlb olunması məsələsinin həlli ölkələrin hökumətlərinin səlahiyyətindədir və bu, bazarların fraqment halına düşməsi ilə nəticələnir. Bu gün aydındır ki, növbəti «möhtəşəm sazişin» bağlanması kifayət deyil. Özəl sektorun bu məsələyə kapitalın transsərhəd axınları və texnologiyaların yayılması (xüsusilə yoxsul ölkələrdə) fonnasmda töhfəsinin səmərəliliyini yüksəltmək üçün dəqiq işləyən mexanizmlərinin həm beynəlxalq, həm də milli səviyyələrdə hazırlanması zəruridir.

## 14.4. Kapitalın beynəlxalq hərəkətinin formaları. Kapitalın strukturu

***Formalar.*** Kapitalın beynəlxalq hərəkəti müxtəlif fonnalarda həyata keçirilir və buna görə də xarici kapitalın milli qanunvericiliklərlə nəzərdə tutulan növlərinin və hərəkət formalarının bir sıra hallarda beynəlxalq aləmdə təzahür olunanlar ilə uyuşmaması təcrübədə nəzərə alınmalıdır.

Dünya bazarında hərəkətdə olan kapital mənşəyinə görə iki kateqoriyaya: rəsmi, yəni dövlət və özəl kapitala bölünür.

*Rəsmi (dövlət) kapital* - dövlət büdcəsinin müvafiq maddələrində nəzərdə tutulan və xaricə köçürülən vasitələri yaxud ikitərəfli və çoxtərəfli sazişlər əsasında hökumətin qərarı ilə xaricdən qəbul olunan vasitələrdir.

*Özəl kapital* - korporasiyaların və fərdi əmanətçilərin vəsaitləridir.

***Dövlət kapitalının növləri.*** Bu, ilk növbədə, dövlətlərarası müqavilələr əsasında bir ölkənin başqasına verdiyi bütün dövlət borcları, ssudalar, bəxşişlər (qrantlar), yardımlar və sairdir. Rəsmi kapitalın başqa növü - beynəlxalq təşkilatların, 0 cümlədən BVF-in, BHB-nin, BMT strukturlarının və s. vəsaitləri hesabına verilən kapitaldır.

*Rəsmi kapitalın mənbəyi* dövlət büdcəsinin vəsaitləri, son nəticədə isə vergi tədiyyəçilərinin pullarıdır və buna görə də kapitalın bir ölkədən başqasına köçürülməsi haqqında qərar ali təmsilçilik orqanlarının (bəzi ölkələrdə qərarı

parlament qəbul etməlidir, digərlərində parlament özünün komitələri və komissiyaları vasitəsilə razılığım bildirməlidir, avtoritar dövlətlərdə isə bu qərar ali icra hakimiyyəti tərəfindən qəbul olunur) iştirakı ilə qəbul edilir.

*Özəl (qeyri-dövlət) kapital* - fiziki şəxslərin, fıraıaların, bankların və digər qeyri-dövlət təşkilatlarının vəsaitləridir. Bu vəsaitlər ölkədən-ölkəyə fiziki şəxslərin yaxud təşkilatların, daha dəqiq desək, sahiblərinin yaxud bu vəsaitlərə sərəncam vermək səlahiyyəti olan şəxslərin qərarı ilə köçürülür.

*Özəl kapitalın növləri.* Kapitalın beynəlxalq hərəkətinin bu kateqoriyası da müxtəlifliyi ilə fərqlənir: fiziki şəxslər və fınuaların xarici investisiyaları (kapital qoyuluşları), kreditlərin verilməsi (ticarət üçün, banklararası, layihələrin həyata keçirilməsinə və s.), borclar.

Kapitalın bu formaları və növləri «kapitalın xalis hərəkəti» anlayışının tərkibinə daxildir. Maliyyə kapitalının ötürülməsinin (ölkədən çıxarılmasının) ayrı-ayrı formaları aşağıdakılardır:

- xalis dividendlər və faizlər;
- resursların rəsmi qaydada xalis ötürülməsi;
- resursların xərc qaydasında xalis ötürülməsi;
- rəsmi resurslardan istifadə olunması.

Bu kapitalın *mənşəyi* özəl firmaları özlərinin yaxud borc aldıqları vəsaitlərdir. Ancaq hökumət tərəfindən kapitalın ölkələr arasında hərəkəti kifayət qədər ciddi nəzarət altına götürüldüyünə və tənzimləndiyinə görə fiziki şəxslərin öz hökumətlərinin kursuna riayət etməməsi çox nadir haldır. Lakin istisnalar da olur: avtoritar ölkələrdə bu cür kapitalın sahibləri onun köçürülməsi məsələsini «mətbəx diplomatiyası» yolu ilə «həll» edirlər.

***Kapitalın quruluşu.*** Kapital mürəkkəb struktur hissələrindən və fəaliyyət formalarından ibarətdir.

*Sahibkarlıq kapitalı* - mənfəət əldə olunması məqsədilə birbaşa yaxud dolayısı yolla istehsala yönəldilmək üçün nəzərdə tutulan vəsaitlərdir. Kapitalın bu növü özəl formada olmasına baxmayaraq, həmin məqsədlərə dövlət vəsaitlərindən istifadə olunması hallarına da təsadüf edilir (ən tipik nümunə neft hasil edilən ərəb dövlətləridir).

*Ssııda kapitalı* - faiz formasında mənfəət əldə olunması məqsədi ilə borc verilən vəsaitlərdir. Beynəlxalq təcrübədə ssuda kapitalı qismində əsasən mənbəyi dövlət vəsaitləri olan rəsmi kapitaldan istifadə edilir; bir qədər kiçik miqyasda isə beynəlxalq (çoxmillətli) kreditləşdirmə tətbiq edilir.

*Müddətinə görə* kapital qısamüddətli, ortamüddətli və uzunmüddətli olur.

Sahibkarlıq kapitalının birbaşa və portfel investisiyaları formalarında bütün qoyuluşları, habelə ssuda vəsaitləri həmişə kifayət qədər uzun müddətə verildiyinə görə dövlət krediti (və borcları) şəklində verilən ssuda kapitalı *uzunmüddətli* (5 ildən artıq) hesab olunur.

*Ortamüddətli kapital* - bir qayda kimi, 1 ildən 3 ilədək verilən vəsaitlərdir.

*Qısamüddətli kapital* 1 ilədək müddətə verilir və adətən ticarət kreditlərində ssuda kapitalı fonnasında çıxış edir.

Kapitalın beynəlxalq hərəkətinin təhlilində onu adətən iki: birbaşa və portfel kapital qoyuluşları (investisiyaları) formasında nəzərdən keçirirlər.

*Birbaşa investisiyalar* - investorun kapital yerləşdirdiyi ölkədə uzunmüddətli iqtisadi maraqlar əldə etmək məqsədi ilə müəyyən obyekt üzərində nəzarətini təmin edən kapital qoyuluşudur. Bir qayda kimi, bu cür investisiyalar özəl mənşəlidir və sahibkarlıq kapitalının ölkədən çıxarılması ilə əlaqədardır. Çox nadir hallarda xaricdə maliyyə əməliyyatları keçirən dövlət fımıaları və bankları vasitəsilə dövlət kapitalından istifadə olunur.

*Portfel investisiyaları* - kapitalın xarici qiymətli kağızlarda, kapital qoyuluşu (investisiyanın yerləşdirilməsi) obyekti üzərində real nəzarət imkanı ilə bağlı olmadan yerləşdirilməsidir. İnvestisiyaların bu növləri də əsasən özəl fonnadadır, amma dövlət də bu cür investisiya qoyuluşundan istifadə edə bilər.

***Kapitalın beynəlxalq hərəkətinin bölgüsü.*** Beynəlxalq statistikada kapitalın beynəlxalq hərəkəti aşağıdakı formalarda nəzərdən keçirilir:

- birbaşa investisiyalar; qoyuluş məkanı - investorun öz ö'lkəsinin sərhədlərindən kənardadır, kapitalın rezident və qeyri-rezident arasında hərəkəti kimi müəyyənləşdirilir, onların arasında uzunmüddətli iqtisadi maraqlar və əlaqələr yaradır;
- portfel investisiyaları, aktivlər və passivlər; kapitalın qiymətli kağızların əldə edilməsi və satışı ilə bağlı olan hərəkətidir;
- sair investisiyalar, aktivlər və passivlər; kapitalın dövlətlərarası kreditlə və bank depozitləri ilə əlaqədar olan hərəkətidir;
- ehtiyat aktivləri; sikkə qızılı, XBH, BVF-də ehtiyat mövqeyi, xarici valyuta - bütün bunlar tədiyyə balansının saldosunun tənzimlənməsi üçün hökumətin istifadə edə bildiyi aktivlərlə bağlı olan kapitalın hərəkətidir.

Kapitalın ixracı da müxtəlif formalarda həyata keçirilir: dövlət

kapitalının ixracı, özəl kapitalın ixracı, beynəlxalq təşkilatların ixracı.

***Dövlət kapitalının ixracı.*** Kapitalın dövlət tərəfindən ixracı (ölkədən çıxarılması) 1960-1970-ci illərdən milli maraqların xaricdə möhkəmləndirilməsinin əsas alətlərindən birinə çevrilmişdir. Kapital ixracının böyük həcmdə beynəlxalq yaxud milli banklar tərəfindən həyata keçirilməsi ilə əlaqədar olaraq, 1980-ci illərin əvvəlindən bu funksiya zəifləməyə başlamışdır. Dövlət kapitalının rolunun yenidən güclənməsi kommunizm sisteminin dağılması ilə əlaqədardır. Dünyanın fövqəldövlətləri yeni ölkələrin müəyyən təkamülündə birbaşa maraqlı olduğuna görə, onlar kapital ixracından əvvəlcə güclü siyasi təzyiq vasitəsi kimi istifadə edir, sonra isə buna iqtisadi yardım kimi münasibət göstərir. Eyni zamanda bu «ssenari»yə özəl kapital da cəlb olunur. Dövlət kapitalının ixracı mənfəət əldə etmək məqsədi ilə deyil, əsasən siyasi və ideoloji maraqlar mülahizələrinə əsasən həyata keçirildiyinə görə, adətən aparıcı donor-ölkələrin maraqları nöqteyi-nəzərindən vacib olan ölkələrə və onların iqtisadiyyatının sahələrinə (o cümlədən xammal) yönəldilir.

Ölkədən çıxarılan kapitalın ümumi həcmində dövlət kapitalının payı 1988-ci ildə təqribən 30% (1970-ci illərdə 40-42%) və 1990-1995-ci illərdə 35%-ə yaxın olmuşdur (sürətli artım); sonrakı 12 il ərzində bu həcm azalmış və 1997-2007-ci illərdə 30%-dən artıq olmamışdır. Kapitalın əsas hissəsi (90%-ə yaxmı) ənənəvi olaraq inkişaf etməkdə olan ölkələrə yönəldilirdi, amma 1990- cı illərin sonu - XXI əsrin ilk illərində kapitalın ölkədən çıxarılmasının coğrafiyası dəyişməyə başladı, bunun təqribən 30%-i Şərqi Avropaya və MDB- yə - iqtisadi sistemin transfonnasiyası yoluna cəsarətlə qədəm qoymuş ölkələrə yönəldilməyə başladı. İxracatçı-ölkələr, bir qayda olaraq, özəl xarici investisiyalar və kreditlər üçün qarantiya sistemi, özəl firmaların investisiya fəaliyyəti üçün əlverişli mühit (dövlət kapitalının ən mühüm funksiyalarından biridir) yaradırdı. Bu cür həvəsləndirici əməliyyatların bir neçə növü vardır:

- əvəzsiz subsidiyalar və dotasiyalar;
- inkişaf üçün dövlətin uzunmüddətli kreditləri (25-40 illik);
- dövlətin kommersiya kreditləri;
- özəl ixrac kreditlərinə dövlət qarantiyası verilməsi.

Beləliklə, dövlət tərəfindən kapitalın ölkədən çıxarılması, birincisi, ölkəyə kapitalın beynəlxalq axınının bazar mexanizminin səmərəliliyinin lazımi dərəcədə olmamasını kompensasiya edən beynəlxalq maliyyə-iqtisadi sahədə dövlət tənzimlənməsinin formasıdır. İkincisi, dövlətlərin və beynəlxalq

maliyyə qurumlarının siyasətinin aləti qismində çıxış edir. Ölkədən beynəlxalq təşkilatlar vasitəsilə çıxarılan kapitalın həcmi də buna dəlalət edir: 2001-2008- ci illərdə ixrac olunan kapitalın ümumi həcmində onun xüsusi çəkisi 15% olmuşdur (1990-1999-cu illərdə - 12%).

Kapitalın çıxarılması - TMK-nın, TMB-nin və beynəlxalq təşkilatların sürətlə genişlənən funksiyasıdır və bu, lokal maliyyə-iqtisadi böhranlara (1997-ci ildə Asiya böhranı, 1990-cı illərdə Argentina, Çili, Braziliya, Meksika və Rusiyadakı böhranlar, 2001-2002-ci ildə ümumdünya böhranı, 2008-2010-cu illərdə qlobal böhran) qarşı getdikcə həssaslaşan beynəlxalq maliyyə sistemində baş verən miqyaslı pozuntularla izah edilir. Asiya, Afrika və Latın Amerikası ölkələrində yoxsulluğun və səfalətin artması, inkişaf etməkdə olan ölkələrin bir çoxunda cəmij^ətin məzlum təbəqələrinin mübarizəsinin silahlı toqquşma formalarına keçməsi nəticəsində sülhə yeni təhdidlərin meydana çıxması ilə bağlı problemlərin obyektiv surətdə aktuallaşması, maliyyə vəsaitlərinin dövlət tərəfindən verilməsi formalarının əhəmiyyətini yüksəltmişdir.

Kapitalın ölkədən axınının həcmi nöqteyi-nəzərindən, vəziyyət kapital axınlarının inkişaf etmiş ölkələrdə cəmləşməsinə analojidir. Yalnız bir, lakin çox mühüm xüsusiyyət vardır: investisiya kapitalının çatışmadığı şəraitdə inkişaf etməkdə olan ölkələrdən, habelə yeni transfonnasiya olunan dövlətlərdən (o cümlədən MDB-dən) kapitalın xaricə intensiv axını müşahidə olunur və bəzən kapitalın ölkədən axını ölkəyə XBİ axmlannı üstələyir. Qeyd edək ki, ABŞ texnologiyaların ötürülməsi sahəsində beynəlxalq köçürmələr üzrə dünyada ən iri alıcı və Yaponiyadan sonra ikinci tədiyyəçidir: 2007-ci ildə vəsaitlərin 57%-i beynəlxalq hesabların ödənilməsi üçün istifadə olunmuş, royalti və lisenziya üzrə 24% ödəmələr həyata keçirilmişdir.

## 14.5. Beynəlxalq investisiya rejiminin mahiyyəti və məzmunu

Qeyd etmişdik ki, təkcə beynəlxalq ticarət sahəsində deyil, ümumiyyətlə, beynəlxalq iqtisadi münasibətlərdə iki tarixi meyil mövcuddur:

1) BİM-in liberallaşmasına doğru, özü də bu, qlobal xarakter alır;

2) təcridolunma və avtargiya. Bu meyil lazımınca dəyərləndirilməlidir: hətta XXI əsrin birinci onilliyinin sonunda belə, bu meyil ABŞ-dan başlayaraq,

Rusiyayadək onlarca ölkənin xarici iqtisadi siyasətində kifayət dərəcədə aydın nəzərə çarpmışdır. 11 O-dan çox dövlət ÜTT-nin qaydalarına (Doha və Uruqvay raundları) zidd olan qanun və başqa nonuativ-hüquqi aktlar qəbul etmişdir.

Başlıca problem bundadır ki, rəvan, böhransız inkişaf şəraitində iqtisadi beynəlmiləlçiliyə meyil güclənir və BİM pozitiv inkişaf üçün təkan alır. İqtisadi sarsıntılar, enmələr, depressiyalar dövründə isə «Bacaran canını qurtarsın!» prinsipi üzrə qədim siyasət üstünlük təşkil etməyə başlayır. Həmin andaca dünya iqtisadiyyatının inkişafının çoxəsrlik təcrübəsində bu prinsipin həm ölkənin, həm də bütün dünya birliyinin vəziyyətini daha da qəlizləşdirdiyi tamamilə unudulur.

Buna baxmayaraq, biz dünya ölkələrinin bu sahədə iqtisadi həmrəyliyinin əsas formalarını ümumiləşdimıəyə çalışacağıq.

Liberallaşmaya doğru ümumi meylin mövcudluğuna baxmayaraq, milli siyasətin 31 yeni tədbirində XBİ-nin tənzimlənməsinin sərtləşdirilməsi nəzərdə tutulurdu. 30 faizlik səviyyədən yüksələrək, bu tədbirlərin payı UNCTAD-m müvafiq məlumatları dərc etməyə başladığı 1992-ci ildən sonra 2009-cu ildə ən yüksək nöqtəyə çatmışdı. Bu tədbirlərin həyata keçirilməsi müəyyən dərəcədə strateji sahələrin qorunması və milli resursların mühafizəsi, milli təhlükəsizliyin təmin olunmasına görə narahatçılığın artması ilə izah olunur. Son dövrün böhranları, o cümlədən maliyyə bazarlarmdakı sarsıntılar və ərzağın qiymətinin bahalaşmasının nəticələri də bir sıra sahələrin fəaliyyətini tənzimləmək istəyi doğurmuşdur. Nəhayət, bazarları formalaşmaqda olan ölkələr ətraf mühitin qorumasına və sosial müdafiəyə daha çox diqqət yetirməyə başlayır, zəif inkişaf etmiş ölkələr isə öz tənzimləmə rejimlərindəki çatışmazlıqları aradan qaldırır. Bunun nəticəsində bəzi sahələrdə əcnəbilərin iştirakına yeni məhdudiyyətlər meydana çıxmış yaxud investisiya layihələrinin seçilməsi və təsdiqi prosedurları sərtləşdirilmişdi (bəzən milli təhlükəsizlik mülahizələrinə görə).

Dövlətin iqtisadiyyata müdaxilə miqyasının genişlənməsi, əsasən bir sıra Latın Amerikası dövlətlərində əmlakın müsadirə edilməsi faktlarında, habelə xilasediei maliyyə əməliyyatları çərçivəsində şirkətlərin kapitalında dövlətin iştirakının artmasında təzahür olunmuşdu; sonuncu hal həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə baş venuişdir. 2010-cu ildə strateji kimi nəzərdən keçirilməsi mümkün olan sahələrdə müvəqqəti milliləşdirmə dalğasının baş qaldırması, bir sıra hallarda isə, özəlləşdirilmiş şirkətlərin milli

sahibkarların əlində saxlanması məsələsində hökumətlərin israrlı mövqe tutması yaxud istehsalın və iş yerlərinin xaricə köçürülməsinə maneçilik törətmək məqsədilə investorlara təzyiq göstərməsi ilə nəticələnir. Beləliklə də, xilasedici tədbirlərin anti-böhran proqramlarının dayandırılması ilə müşayiət olunan iqtisadi millətçilik inkişaf etməyə başlayır. Bütün bunlar qlobal böhran fonunda meydana çıxan riskin, mümkün ki, dayanıqlı xarakter aldığını da sübuta yetirir.

2009-cu ildə həm ikitərəfli, həm də çoxtərəfli, o cümlədən ikiqat vergitutmanm aradan qaldırılmasını nəzərdə tutan BİS-in artımının yeni prosesi qeyd olunmuşdur. Bunun inkişafına maliyyə sektorunda bir neçə yüz bankın, fondun və s. dövlət tərəfindən dəstəklənməsi ilə bərabər, qejTİ-maliyyə sektorunda ən azı 20 min şirkətin əvvəlki kimi, təcili yardım göstərilməsi proqramları xətti ilə bu himayədarlıqdan yararlanması imkan vermişdir. Şübhəsiz ki, bu sazişlər ölkənin xaricdən daxil olan investisiya kapitalı baxımından potensialını möhkəmləndirmişdi.

Milli iqtisadi siyasət XBİ-nin cəlb olunmasında həlledici rol 05mayır. Onun xarici iqtisadi komponenti investisiyaların cəlb olunmasına, bazar mühitinin yaradılmasına, kapitaldan mənfəətlə istifadə olunmasına şərait yaradılmasına kömək göstərilməsi ilə ifadə edilir. Amma bunlar kifayət deyil. Yalnız hökumət cəmiyyətin sabit siyasi həyatını təmin etməyə, həmişə iqtisadi korrupsiyaya meyil göstərməklə əmanətçiləri ehtiyatlı hərəkətə vadar edən cinayətkarlığın və məmur özbaşınalığının miqyasını nəzarətdə saxlamağa qadirdir. Hansısa ideal qanunvericilik bazasını yaratmaq, ölkə iqtisadiyyatının liberallığını bəyan etmək prinsip baxımından mümkün olsa da, sosial qayda-qanunu təmin edə bilməyən siyasi rejim, hökumətin düşünülməmiş hərəkətləri nəinki xarici, hətta ölkənin öz investorlarında da qorxu hissi yaradacaqdır.

Aydındır ki, xarici kapitalın cəlb olunması üçün hazırda qüvvədə olan BİS-dən səmərəli tərzdə istifadə edə bilən dəqiq sistem yaradılmalıdır. TMK- nın yerləşdiyi ölkələrin əsas vəzifəsi daha yüksək şəffaflıq, sabitlik, XBİ-ni qəbul edən ölkələrdə tənzimləmə rejimlərinin əvvəlcədən müəyyənləş- dirilməsini və etibarlığmı təmin etmək, onların axını qarşısındakı maneələri endirməkdir. Amma belə hallarda səviyyəsindən asılı olmayaraq, XBİ-nin tənzimlənməsinin, ən azı münasib üsulu seçilməlidir.

## 14.6. İnvestisiya siyasətində milli və beynəlxalq səviyyələrdə baş verən son dəyişikliklər

2008-ci ildə və 2009-cu ilin birinci yarısında investisiya proteksionizminin artmasının mümkünlüyü barədə narahatçılığa baxmayaraq, XBİ siyasətində daha böyük aşkarlıq, o cümlədən onların qarşısında duran maneələrin bir çoxunun aradan qaldırılması, koıporativ gəlirlər üzrə vergi dərəcələrinin endirilməsi meyilləri saxlanırdı. UNCTAD tərəfindən XBİ sahəsində milli qanunlarda və təlimatlarda dəyişikliklərin hər il aparılan tədqiqi göstərir ki, 2008-ci ildə burada 110 yeni tədbir qüvvəyə minmiş və onlardan 85-i məqsədəmüvafıq olmuşdur. 2007-ci il ilə müqayisədə XBİ üçün əlverişli olmayan tədbirlərin payı dəyişməmişdir (cədvəl 14.5).

14.5-ci cədvəlin məlumatlarından görünür ki, ümumilikdə dünya iqtisadiyyatının inkişafının iki ortamüddətli dövrü ərzində, yəni 1992-2008-ci illərdə xarici investisiyalar sahəsində investisiya rejimlərinin tənzimlənməsində birləşmə meyilləri üstünlük təşkil etmişdir (fasiləli, dayanıqsız olsa da). Hətta 1990-cı illərdəki investisiya rejimi 2001-2008-ci illərdəki yüksəliş dövrünün müvafiq rejimi ilə müqayisədə daha əlverişli olmuşdur.

**Milli tənzimləmə sistemlərində aparılmış dəyişikliklər** *

| Göstəricilər | Orta illik göstəricilər | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 1992-1994 | 1995-1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 |
| Tənzimləmə rejimində dəyişiklik etmiş ölkələrin sayı | 49 | 66 | 70 | 71 | 72 | 82 | 103 | 92 | 91 | 58 | 55 |
| Tənzimləmə rejimində edilmiş dəyişikliklərin sayı | 95 | 132 | 150 | 207 | 246 | 242 | 270 | 203 | 177 | 98 | 110 |
| Daha münasib dəyişikliklər | 94 | 121 | 147 | 193 | 234 | 218 | 234 | 162 | 142 | 74 | 85 |
| Münasib olmayan dəyişikliklər | 1 | 11 | 3 | 14 | 12 | 24 | 36 | 41 | 35 | 24 | 25 |

* UNCTAD. World Investment Report, 2009: Transnational Corporations, Agricurtural Production and Development. Table 1. P. 14

Beynəlxalq investisiya rejimi miqyası, əhatə dairəsi baxımından genişlənmiş və dövlətlərin, investorların hüquqlarının və vəzifələrinin daha dəqiq

uyğunlaşdırılması istiqamətində inkişaf edir. Həm yeni sazişlərin bağlanması, həm də arbitraj qərarlarının sayının çoxalması nəticəsində investisiya rejiminin sürətli təkamülü baş verir. 2009-cu ildə 211 yeni BİS bağlanmış (82 İİM, 109 İVAQM və 20 başqa BİS), yəni həftədə təqribən 4 yeni saziş imzalanmışdır. İlin sonunda isə sazişlərin sayı 5939-dək artmışdır. Sazişlərin tezliklə bağlanması meyli 2010-cu ildə də davam etmiş və ilk 5 ay ərzində daha 46 BİS imzalanmışdır (6 İİM, 33 İVAQM və 7 başqa BİS). Lissabon müqaviləsinə əsasən XBİ məsələləri üzrə səlahiyyətlərin üzv-dövlətlərdən alınaraq, ümumilikdə Aİ-yə verilməsi nəticəsində Avropada ciddi irəliləyişlər əldə olunmuşdur. İnvestorlarla dövlətlər arasında mübahisələrin həllinə gəldikdə isə 2009-cu ildə ən azı 32 yeni iş başlanmış və 44 qərar qəbul olunmuş, bunun nəticəsində ilin sonunda qaldırılmış işlərin ümumi sayı 357-ə çatmışdır. Bu işlərin əksəriyyətində iddiaçı qismində inkişaf etmiş ölkələrin investorları çıxış etmiş, cavabdeh isə inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələr olmuşdur. Təhlilçilərin rəyinə görə, arbitraj qərarlarının bəzisinin tam məntiqi olmamasına yaxud bir-biri ilə uzlaşmamasma baxmayaraq, ümumilikdə konsolidasiya meyilləri bərpa olunur (şəkil 14.3).

14.3-cü şəkildəki diaqramda 2009-cu ildə beynəlxalq investisiya sazişlərinin (İİM, İVAQM və sair) sayının zəif də olsa, artım prosesi əks olunur. 2010-cu ildə də bu çoxalma davam etmişdir. Eyni vaxtda milli təhlükəsizlik mülahizələri əsasında xarici investisiyalar üzərində nəzarət meyilləri də öz təsiri qüvvəsini saxlamışdır. Bu məqsədlə İƏİT ölkələrinin bəzisində dövlət tənzimlənməsi tədbirləri həyata keçirilmişdir. Onlar mütləq xəbərdarlıq qaydasının təsir dairəsini genişləndinniş yaxud hökumətə ölkə şirkətlərinin kapitalında səhm paylarının satın alınmasını məhdudlaşdırmaq hüququ vemaişdir. Latın Amerikasının bir çox ölkələrində hasilat sənayesində xarici müəssisələrin milliləşdirilməsi meyli də qalmaqdadır.

Yuxarıdakı cədvəllərin və diaqramların məlumatlarından görünür ki, axırıncı 10 ildə (2001-2010-cu illər), ikitərəfli və regional səviyyələrdə bağlanılan BİS-in sayı xeyli çoxalmışdır. İkitərəfli səviyyədə ən mühüm müqavilə alətləri bunlardır:

- ikitərəfli investisiya sazişləri (İİS);
- ikiqat vergitutmanm aradan qaldırılması haqqında müqavilələr (İVAQM).




il ərzində bağlanmış İkitərəfli İnvestisiya Müqavilələrinin (İİM)

il ərzində bağlanmış ikiqat Vergiqoymanm Aradan Qaldırılması Müqavilələrinin

Beynəlxalq İnvestisiya Sazişlərinin (BİS) artan yekunla

*Şəkil 14.3.* **Beynəlxalq İnvestisiya Sazişlərinin (BİS) və başqa müqavilələrin (İİM, İVAQM)* bağlanılmasının dinamikasında tendensiyalar**

* UNCTAD. World Investment Report, 2010. P. 23

Son vaxtlar bəzi ölkələrlə bağlanan sazişlər daha çox liberallaşma effekti versə də, İİS investorların müdafiə olunması alətidir. Dünya üzrə XBİ-nin təqribən 7%-i, inkişaf etməkdə olan ölkələrdə, Mərkəzi və Şərqi Avropa ölkələrində XBİ-nin ümumi həcminin 22%-i bu müqavilələrlə əhatə edilir. İVAQM vergi tutulan gəlirlərin bölgüsü ilə əlaqədar olan məsələlərin həlli, o cümlədən ikiqat vergitutmanın miqyasının azaldılması məqsədi ilə bağlanılır. Dünya üzrə XBİ-nin təqribən 87%-i, inkişaf etməkdə olan ölkələrdə. Mərkəzi və Şərqi Avropa ölkələrində isə onların ümumi həcminin 57%-i bu müqavilələrin əhatə dairəsindədir.

Kapitalizmin 3 aparıcı mərkəzi çərçivəsində bağlanmış müqavilələrin və sazişlərin (İİS, İVAQM) əksəriyyəti həm investisiyaların, həm də ticari-iqtisadi əməkdaşlıq üzrə ən önəmli tərəfdaşlarla münasibətlərin qarşılıqlı surətdə tənzimlənməsini nəzərdə tutur. Müqavilələrin bu tipi bazarın perspektivliyi və sahibkarlıq fəaliyyəti baxımından daha böyük maraq kəsb edən ölkələrlə daha intensiv bağlanılır. Başqa məlumatlar da bu fikri təsdiqləyir.

Bəzi regional müqavilələr yalnız investisiyalara aid olsa da, son vaxtadək bu məsələlərin ticarət sazişləri vasitəsilə tənzimlənməsinə meyil göstərilməsi müşahidə edilirdi. Bu, ikitərəfli ticarət sazişlərinə də şamil olunur. Bundan

əlavə, indi azad ticarət haqqında müqavilələr bir çox hallarda həm də azad investisiya rejimi haqqında razılaşma əldə olunduğunu da ifadə edir.

Az sayda mövcud olan çoxtərəfli sazişlər konkret investisiya məsələlərinə (məsələn, ticarətlə əlaqədar investisiya tədbirləri, sığorta, mübahisələrin nizama salınması və sosial siyasət məsələləri) aiddir yaxud sektorial xarakterdədir (məsələn. Xidmətlər sahəsində Ticarət üzrə Baş Saziş, GATS - General Agreement on Trade in Services). İnvestisiyalara dair çoxtərəfli ümumi müqavilə olmasa da, hazırda bu ideya ilə bağlı məsələ YTT- də müzakirə edilir. Ümumilikdə isə BİS-in sayının artması və onların özünün xarakteri son onilliklərdə milli siyasətin XBİ üçün daha da açılmasına istiqamətləndiyini əks etdirir. Bununla əlaqədar olaraq, XBİ ilə bağlı məsələlər beynəlxalq iqtisadi diplomatiyada ön plana çıxır. Bu, çoxtərəfli səviyyədə keçirilən beynəlxalq ticari-iqtisadi danışıqlarla həmişə əlaqədar olmasa da, müasir dövrdə ikitərəfli və çoxtərəfli, regional səviyyələrdə yaranan vəziyyətdən, bağlanmış müqavilələr və sazişlər nətieəsində meydana çıxan mexanizmlərdən asılıdır.

Qarşılıqlı XBİ axınlarının intensiv artımı ilə bərabər, şirkətlər arasında münasibətlər mürəkkəbləşir, dövlətlərarası səviyyədə, ikitərəfli və çoxtərəfli ticari-iqtisadi danışıqlar zamanı həll edilməli olan çoxsaylı məsələlər meydana çıxır. Təcrübədə BİS-in təyinatından, dəqiq məzmunundan asılı olaraq, XBİ məsələlərinə müəyyən dərəcədə toxunulur. Bir qayda kimi, onların hamısı iqtisadi agentlərin (şirkətlərin) həlledici rol oynamasına şərait yaratmaqla, tənzimləmə rejiminin aşkarlığını yüksəldir, sabitləşdirir və nəticələri əvvəlcədən görmək imkanı yaradır. Bunun niyyəti müvafiq iqtisadi şərait yarandığı halda, XBİ-nin həcmini artınnaqdır. Beləliklə, XBİ üçün həlledici olan amillərə toxunulduğu halda, BİS onun axınlarına təsir göstərə bilir.

Təcrübə göstərir ki, XBİ-nin daha səmərəli tərzdə cəlb edilməsi və bununla əlaqədar fayda əldə olunması üçün yalnız passiv-liberal siyasətin həyata keçirilməsi kifayət deyil. Liberallaşma böyük həcmdə XBİ cəlb olunmasına yardım göstərə bilər, amma ondan maksimum fayda əldə edilməsi üçün bunun kifayət etməyəcəyi bəllidir. Məsələn, qəbul edən ölkə üçün daha yüksək fayda potensialına malik olan XBİ növlərinin (qabaqcıl texnologiyalara yaxud ixracyönümlü sahələrə XBİ qoyuluşları) cəlbi sadəcə ölkəyə XBİ daxil olması və bununla bağlı əməliyyatların liberallaşdırılması ilə müqayisədə daha çətin məsələdir. Ölkələr xarici investorların cəlbində uğur əldə edən kimi, XBİ-

dən daha böyük fayda götürülməsində milli investisiya siyasəti ön plana keçir. Siyasət tədbirləri texnologiyaların modernləşdirilməsini sürətləndirə, yerli səviyyədə satınalmaların həcmini genişləndirə, əldə edilən mənfəətin yenidən investisiyalara yönəldilməsi məbləğini artıra, ətraf mühitin mühafizəsini və istehlakçıların hüquqlarının müdafiəsini gücləndirə bilər və s. Onlar XBİ ilə əlaqədar olan potensial təhlükələr qarşısında sədd qoymağa da qadirdir. Məsələn, onlar anti-inhisar praktikasının genişlənməsini ləngidə, xarici fımıalann öz hərəkətləri ilə fəaliyyət qabiliyyətli ölkə şirkətlərini bazardan sıxışdınuasına yaxud yerli şəraitin özəlliklərini pozmasına müqavimət göstərə bilər. BİS bağlanarkən, bu cür siyasətin həyata keçirilməsi üçün zəruri olan alətlər toplusu, bir qayda kimi, məhduddur yaxud ümumiyyətlə yoxdur.

Bütövlükdə isə, inkişafa səmtləşmiş müddəalar tərəflərin öhdəliklər qəbul etməyə hazırlığından asılı olaraq, imperativ yaxud dispozitiv ola bilər. BİS-də iştirak edən inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında müəyyən uyğunsuzluqları, inkişaf etmiş dövlətlərin inkişaf etməkdə olan, xüsusilə də zəif inkişaf etmiş ölkələrə yardım göstərmək öhdəliyini qəbul etməsi vasitəsilə aradan qaldırmaq mümkündür. İnkişaf etmiş dövlətlərin yoxsul ölkələr qrupuna texnologiyaların ötürülməsində yardım göstərməsini nəzərdə tutan Texnologiyaların Ötürülməsi haqqında Saziş buna nümunədir. TMK-nın yerləşdiyi ölkələrin XBİ axınlarını inkişaf etməkdə olan ölkələrə səmtləşdinnək üçün şərait yaratmaq, özü də bunu müvafiq beynəlxalq təşkilatlar vasitəsilə texniki yardımın göstərilməsi barədə müddəalarla möhkəmləndirmək öhdəliyini qəbul etməsi xüsusilə aktualdır. Predmetin mürəkkəbliyi, inkişaf etməkdə olan ölkələrin çoxunun, xüsusilə də zəif inkişaf etmiş ölkələrin XBİ sahəsində siyasətin təhlili və işlənib hazırlanması, habelə insan resurslarının və institusional bazanın tərəqqisi üçün mali}ryə çətinliklərini nəzərə aldıqda, bu sazişlər böyük əhəmiyyət kəsb edir. İnstitusional tərəqqi inkişaf etməkdə olan ölkələrə XBİ-nin cəlb olunmasında və bundan faydalanmaqda yardım göstərilməsini nəzərdə tutur.

***BİS-in məzmununun razılaşdırılması.*** Ölkələrin XBİ sahəsində milli siyasətinin inkişafına aid olan və beynəlxalq investisiya danışıqları keçirildikdə xüsusilə incə yanaşma tələb edən, ölkələrin əksər hallarda tam əks mövqe tutduqları məsələlərin nizama salınması BİS-in məzmununun razılaşdırılmasında mərkəzi yer tutur. Bu məsələlərə aşağıdakıları aid etmək olar:

• sazişin əsas müddəalarını ümumi şəkildə təsvir və əhatə dairəsini müəyyən etdiyinə görə investisiya anlayışının təyin olunması;

• milli müəssisələrə verilməsi mümkün olan üstünlüklərin həcmini və üsullarını müəyyən etdiyinə görə milli rejimin tətbiq olunma hüdudları (xüsusilə də ölkədə yerləşmək hüququna tətbiq baxımından);

• tənzimləmə hüququ ilə xüsusi mülkiyyət sahiblərinin hüquqları arasındakı sərhəd meyarlarının müəyyənləşdirilməsini nəzərdə tutduğuna görə əmlakın müsadirə olunmasının dövlət siyasəti çərçivəsində yol verilən tənzimləmə tədbiri kimi nəzərdən keçirildiyi hallar;

• qeyri-dövlət subyektlərinin cəlb olunması və investisiya mübahisələrinin nizama salınmasında müstəqillik dərəcəsi barədə məsələ meydana çıxdığına görə, mübahisələrin həlli mexanizmlərinin təsir dairəsi;

• inkişaf məqsədlərinə nail olunmasına imkan yaratdığına görə istehsal-investisiya fəaliyyətinə, stimullara, texnologiyaların verilməsi və rəqabət sahələrində siyasətə dair tələblərdən istifadə olunması.

İnkişaf etməkdə olan ölkələrin çoxunun nöqteyi-nəzərindən geniş, «pozitiv siyahılara» əsaslanan, hər bir ölkəyə öz ehtiyaclarına və vəziyyətinə uyğun olaraq, BİS-də öhdəlikləri hansı şərtlərlə, hansı qrafik üzrə qəbul etməkdə müstəqillik təmin edən GATS tipli yanaşma daha münasibdir. Bu halda gələcək BİS-də ümumi balans əldə olunmasını təmin etmək üçün TMK- nın yerləşdiyi ölkələrin öhdəliklərinə xüsusi diqqət yetirilməlidir. İnkişaf etmiş ölkələrin (məhz onlar TMK-nın yerləşdiyi əsas ölkələrdir) hamısında XBİ axınlarının inkişaf etməkdə olan ölkələrə yönəldilməsinə həvəsləndinnənin müxtəlif təsirli tədbirləri artıq mövcuddur. Bu cür öhdəliklər bir sıra ikitərəfli və regional müqavilələrdə öz əksini tapmışdır. İnkişaf etməkdə olan ölkələr gələcək BİS-də aşkarlıqdan, sabitlikdən və TMK-nın yerləşdiyi ölkələr tərəfindən həyata keçiriləcək tədbirlərin əvvəlcədən açıqlamasından daha böyük fayda əldə edə bilərdi.

TMK-lar inkişaf etməkdə olan və ya keçid iqtisadiyyatlı ölkələrə qoyduqları investisiyalardan əldə etdikləri faydanı, özlərinin fəal korporativ sosial məsuliyyəti çərçivəsində könüllü qaydada yaxud hüquqi baxımdan dəqiq işlənib hazırlanmış prosedurlar çərçivəsində tədbirlər keçirmək vasitəsilə artıra bilər. Qəbul edən ölkələrin dövlət gəlirlərinin artmasına, yerli müəssisələrlə əlaqələrin formalaşmasına və inkişafına, iş yerlərinin yaradılmasına, yerli işçi qüvvəsinin ixtisas səviyyəsinin yüksəlməsinə və texnologiyaların verilməsinə

maksimum dərəcədə şərait yaradan sahələr xüsusilə mühüm əhəmiyyət kəsb edir. Əsas məsələ inkişaf qarşısında qoyulan məqsədləri beynəlxalq investisiya sazişlərinin (BİS) bir hissəsinə çevirməkdir.

Maraqlı nümunə: Rusiyada xarici şirkətlərin (onun iqtisadiyyatının 40%- ə nəzarət edən) mədaxillərindən əldə edilən gəlirlər minimum səviyyədədir.

BİS məsələləri mürəkkəb xarakterlidir. BİS-in bəzi müddəalarının potensial nəticələri axıradək öyrənilmədiyindən, ayrı-ayrı ölkələr düzgün seçim etməkdə çətinlik çəkir. Bununla əlaqədar olan çətinlikləri və məqamları regional səviyyədə NAFTA-nm təcrübəsində, GATS-ın regionlararası səvi}^əsində BİS-lər, çoxtərəfli səviyyədə baxıldıqda, ticarətlə bağlı olan investisiyaların timsalında nümayiş etdirmək olar. Sazişlərin tətbiq və təfsir olunması ilə əlaqədar problemlər tez-tez meydana çıxır. Belə hallarda nəticəsinin əvvəlcədən nəzərə alınması mürəkkəb olan mübahisələr yarana bilər. BİS-lər MDB ölkələrində, o cümlədən Rusiyada daha mürəkkəb və qeyri- müəyyən xarakterdədir; nəticədə ölkələrin bu qrupu xarici şirkətlər üçün böyük məbləğdə izafi mənfəət əldəetmənin mənbəyinə çevrilir.

Milli hökumətlər və beynəlxalq təşkilatlar bu cür problemləri minimum səviyyəyə endinnəyə imkan verən tərzdə hərəkət etməlidir. Amma əsas məsələ, bunu necə etməkdir. UNCTAD-m Baş Katibi R.Rukiperunun söylədiyi fikir bundadır ki, müqavilədə iştirak edən inkişaf etməkdə olan ölkələrin yararlana biləcəyi xüsusi və fərqləndirilmiş hüquqlar və çıxarışlar spektrinin dəqiqləşdirilməsi məqsədilə müvafiq müdafiə tədbirləri hələ ilkin mərhələdə nəzərdə tutulmalıdır. Bundan başqa, onun rəyincə, inkişaf etməkdə olan ölkələrdə, xüsusilə də zəif inkişaf etmiş ölkələrdə sazişlərin yerinə yetirilməsi üçün peşəkarların, o cümlədən maliyyə işçilərinin çatışmaması müşahidə olunduğuna görə, burada beynəlxalq səvij^ədə olan öhdəliklərin yerinə yetirilməsi ilə əlaqədar inzibati yük xeyli mürəkkəb olacaq. Bu, yeni sazişlərin bağlanmasından əvvəl və qəbul olunan öhdəliklər yerinə yetirilərkən siyasətin müxtəlif variantlarının düzgün qiymətləndirilməsi işində inkişaf etməkdə olan ölkələrə yardım göstərilməsi potensialının möhkəmləndirilməsinə yönəlmiş texniki əməkdaşlığın əhəmiyyətini göstərir'. Amma bu məsələnin yalnız metodoloji cəhətidir, əsası isə budur: konkret ölkə tərəfindən müvafiq sazişi kim bağlayır? Bu şəxsin peşə hazırlığı hansı səviyyədədir? Kimin mənafeyini ifadə edir: cəmiyyətin, yoxsa dövlət bürokratiyasmm, hakimiyyət daşıyıcı-

' UNCTAD. World Investment Report, 2003. P. 7.

larinin?

Beləliklə, beynəlxalq müqavilələrin və sazişlərin icrasının hər bir mərhələsində ölkələrin əsas vəzifəsi bağlanılan BİS-in istənilən səviyyədə və kontekstdə məqsədlərinin, məzmununun və yerinə yetirilməsi yollarının razılaşdırılmasında balansın əldə olunmasına yönəlmiş inkişaf prosesini tapmaqdır. Başqa sözlə, böyük həcmdə XBİ-nin cəlbinə və bunlardan böyük fayda əldə olunmasına yönəlmiş siyasətin dəstəklənməsi üçün, inkişaf aspektləri beynəlxalq investisiya sazişlərinin ayrılmaz hissəsi olmalıdır.

## Xülasə

• Kapitalın beynəlxalq hərəkətinin (maliyyə resurslarının ölkədən çıxarılmasının) mahiyyəti və məzmunu kapitalın müəyyən hissəsinin bir ölkədə milli dövriyyədən çıxarılaraq, başqa ölkələrdə ən müxtəlif fonnalarda istehsal prosesinə yaxud digər dövriyyəyə daxil edilməsindədir. Müasir dövrdə investisiya kapitalının ölkədən çıxarılması öz templərinə görə onun beynəlxalq hərəkətinin başqa fonnalarını geridə qoyaraq, üstünlük təşkil edir. Bu meyil XXI əsrin əvvəlində, hətta dünya iqtisadiyyatında tənəzzül şəraitində də möhkəmlənmişdir. Kapitalın ölkədən çıxarılmasının səbəbləri və məqsədləri dəyişməz qalır: kapital sahiblərinin BƏB proseslərindən və müqayisəli üstünlüklərdən yararlanmaqla, mənfəət normasını yüksəltmək.

Müharibədən sonrakı onilliklərdə inkişaf etmiş ölkələrin maliyyə resurslarının beynəlxalq hərəkəti ciddi dəyişikliklərə məruz qalsa da, 1980-1990-cı illərdə xüsusilə intensivləşən yüksəlmə meyli müşahidə olunmuşdur. Xarici investisiyaların yardımı ilə malların və xidmətlərin istehsalı arasındakı ziddiyyətlər qismən həll olunur, əmtəələrin ixracı və idxalı artırılır, intensiv iqtisadi artımın nəticəsi kimi, xidmətlərin və işçi qüvvəsinin ölkədən-ölkəyə axını güclənir, avadanlığa və xidmətlərə tələbat çoxalırdı. Bununla da, mənfəət nonnasmm aşağı düşməsi meyli neytrallaşdırılır, bütövlükdə ümumdünya iqtisadi tarazlığının strateji məsələləri həll olunurdu.

• Dünya iqtisadiyyatında böhranlı enmə başa çatdıqdan sonra, 2003-cü ildə yeni ümumdünya iqtisadi tsiklinin başlanması ilə əlaqədar olaraq, XBİ axınları dünya iqtisadiyyatında, maliyyəsində və ticarətdə 2008-ci ildə baş verən dərin böhranadək yeni dinamizmlə səci}^ələnirdi. Yeni yüksəliş 2009-cu ilin sonundan başlasa da, həm bütövlükdə, həm də regionlar üzrə dayanıqlı

olmamış, yalnız Çin, Hindistan və müəyyən qədər ABŞ kimi ölkələrin dinamikası hesabına saxlanmışdır.

• Kapitalın beynəlxalq hərəkəti miqyasının intensiv genişlənməsi dünya ictimaiyyəti qarşısında ümumdünya kapitallar bazarının inkişafının təmin edilməsi kimi mühüm məsələ qoyur. Kapitalın beynəlxalq hərəkətinin strukturu, onun növləri və fonnalan mürəkkəbləşir. Burada kapitalın ölkədən çıxarılmasının dövlət formalarının əhəmiyyətinin azaldığını düşünmək düzgün olmazdı. Daha da mürəkkəbləşərək, onlar özəl kapitalın istiqamətləndiyi regionlarda və ölkələrdə sosial-iqtisadi və siyasi sabitliyin təmin olunmasının ümumi məsələlərinin həllinə xidmət edir. Təbii ki, özəl kapitalın mənfəətlə işləməsi üçün sosial-iqtisadi ilkin şərtləri möhkəmləndirmək üzrə ənənəvi funksiyası onların öhdəsində qalır.

• TMK-nm böyük investisiya axınları və qlobal fəaliyyəti milli iqtisadi sistemləri vahid istehsal-iqtisadi, investisiya-maliyyə əlaqələrinə cəlb etməklə, onları öz aralarında get-gedə daha sıx bağlayır. Bunun nəticəsi kimi, ölkələrin qarşılıqlı asılılığı güclənir və bu, şübhəsiz ki, proteksionist, ticarət, istehsal, investisiya və başqa maneələri aradan qaldıran, təsərrüfat əlaqələrinin qovuşmasına, əhalinin və işçi qüvvəsinin sərbəst hərəkətinə şərait yaradan pozitiv prosesdir. Bütün bunlar əmək məhsuldarlığını, milli iqtisadiyyatın səmərəliliyini yüksəldir, bilik və texnologiyalarla mübadiləni genişləndirir, amma bununla yanaşı, dünya iqtisadiyyatının qlobal sistemindəki hər hansı «zəncirdə» baş verən pozuntu nəticəsində milli iqtisadiyyat üçün təhlükə yaranması riskini artırır. Bu proseslər eyni zamanda beynəlxalq istehsalı - iqtisadiyyatın TMK-lar tərəfindən nəzarət olunan sektorunu fonnalaşdınr.

• Milli iqtisadiyyatın transmillilik indeksi yüksəldikcə, onun dünya iqtisadiyyatının vəziyyətindən asılılığı güclənir. Milli iqtisadiyyatların artan beynəlmiləlləşməsi investisiya proseslərinin bir növ «ikili» - beynəlxalq və milli səviyyələrdə tənzimlənməsini tələb edir. Buna müvafiq olaraq, dövlətlər XBİ-nin artmasının asanlaşdırılması üçün şərait təmin edirlər. Əvvəlki onilliklərlə müqayisədə, son illərdə ölkələr arasında XBİ axınlarım asanlaşdıran müqavilələrin və razılaşmaların, beynəlxalq investisiya sazişlərinin (BİS) bağlanmasının intensivliyi artmışdır. BİS, İİS və İVAQM sistemi investisiyaların hərəkətinin tənzimlənməsində və bütövlükdə BİM sistemində mühüm yer tutur. Qlobal maliyyə-iqtisadi böhranı liberal yanaşmanın dövlət tənzimlənməsinin güclənməsi ilə əlaqələndirilməsinin

zəruriliyini nümayiş etdirməklə, investisiyaların beynəlxalq tənzimlənməsi sistemində mühüm dəyişikliklərə səbəb olmuşdur.

• İnvestisiyaların cəlbi üzrə konkret tədbirlər, ixtisaslı işçi qüvvəsinin yerli bazasının, texniki potensialın genişləndirilməsi, iri (habelə orta) korporasiyaların ixracla məşğul olan xarici filialları arasında, həmçinin, yerli malgöndərənlərlə əlaqələrin inkişaf etdirilməsi sahəsində güclü səylərlə dolğunlaşdırılmalıdır. Bu geniş aspektlərin nəzərə alınması ixraca səmtləşmiş XBİ-nin qəbul edən ölkənin inkişafına öz nəticələrini göstənuəsi üçün vacibdir. Daha keyfiyyətli XBİ cəlb etməklə yanaşı, həyata keçirilən fəali)^ət növlərinin səviyyəsini də yüksəltməyə şərait yaratdığına görə, mühümlüyü baxımından ölkənin öz potensialının inkişafı birinci yerə qoyulmalıdır.

• Ehtimal ki, orta və uzunmüddətli perspektivdə Rusiyaya XBİ axını böyük qeyri-müəyyənliklə müşayiət olunacaq. Bu, həm daxili siyasətin elementləri və bundan daha çox, infrastrukturun geridə qalması və bununla bağlı olaraq, daxili bazarın həcminin iri kapital massivləri üçün darlığı ilə əlaqədardır. Ərazisi nəhəng, tərkib hissələri əməyin ərazi və istehsal-sahə bölgüsü baxımından başdansovdu şəkildə əlaqələndirilmiş ölkə təsərrüfatına adekvat olan məbləğdə intensiv XBİ axınlarını təmin etmək üçün yalnız xammal layihələri (neft-qaz layihələri üstünlük təşkil etməklə) kifayət deyil. Rusiya iqtisadiyyatına XBİ axınlarının məhdudlaşmasının əsas səbəbi hələ 1970-1980-ci illərdə köhnəlmiş zəif infrastrukturdur. Hökumət ilahi qüvvə tərəfindən (siyasi məharət sayəsində yox) yaradılmış, 10 il ərzində Rusiya xəzinəsinin neft dollarlarmm tükənməz axını ilə dolduğu unikal tarixi şansı əldən buraxmamalı, bundan ölkədə XXI əsr infrastrukturunun yaradılması üzrə böyük obyektlərin tikintisi üçün istifadə etməlidir. Xalqın rifahının yüksəldilməsi məqsədi ilə ölkəyə güclü investisiya axınlarının cəlb olunmasının və dayanıqlı iqtisadi artımın təmin edilməsinin yeganə mexanizmi budur.

• UNCTAD-2010 Hesabatında hökumətlərin, elmi ictimaiyyətin, işgüzar dairələrin diqqətinin iqtisadiyyatın karbohidrogen sektorlarının inkişafına yönəldilməsinin həyati vacibliyi vurğulanır; burada TMK-lar həm ekoloji problemləri yaradan amil, həm də həmin problemin həllinin açarı kimi nəzərdən keçirilir.

## Yoxlama sualları

1. Kapitalın beynəlxalq hərəkətinin təbiəti və səbəbləri nədən ibarətdir? Kapitalın XBİ formasında hərəkət etməsinin səbəbləri nədir?

2. Ölkəyə XBİ daxilolmasının real dinamikasının indeksi nədir? XBİ-nin daxil olduğu və çıxarıldığı aparıcı ölkələr hansılardır? Şirkətin, ölkənin transmillilik indeksinin müəyyənləşdirilməsində XBİ hansı rolu oynayır?

3. Ölkələrin müxtəlif qruplarında XBİ-yə təsir göstərən amilləri sadalayın. XBİ-nin tənzimlənməsinin milli rejimlərində hansı dəyişikliklər baş vermişdir, onların hansı xüsusiyyətləri vardır, QƏ kapitalın hərəkətinə təsiri nə cürdür?

4. İqtisadi qüdrətin 4 mərkəzi: ABŞ - Aİ - Yaponiya - Çin arasında XBİ-nin hərəkətini təhlil edin. Bu mərkəzlərdən hər birinin inkişaf etməkdə olan ölkələrlə investisiya kapitalı, tərəfdaşlığın xarakteri üzrə əlaqələri necədir? XBİ-ni qəbul edən lider ölkələrdə XBİ indeksləri necədir?

5. Qlobal böhran XBİ-nin hərəkətinə nə cür təsir göstərmişdir?

6. «Kapitalın beynəlxalq hərəkətinin formaları», «kapitalın strukturu», «dövlət kapitalı və özəl kapital» anlayışlarını xarakterizə edin. Dövlət kapitalının və özəl kapitalın növlərini, ölkədən çıxarılan kapitalın mənbələrini göstərin. Kapitalın xalis hərəkəti nə deməkdir? İnvestisiyaların hansı növlərini və fonnalarını tanıyırsınız? Kapitalın ixracı nə deməkdir? Kapital ixracının növləri və formaları hansılardır?

7. Dövlətin beynəlxalq investisiya siyasətində (investisiya rejimlərinin dəyişməsində) rolunun yüksəlməsi nədə təzahür olunur?

8. İİS-in və İVAQM-m məzmununu və mahi)^ətini izah edin. Ölkələrin müxtəlif qruplarında BİS sistemini təhlil edin. BİS-in məzmununun razılaşdırılmasmda başlıca məsələ nədir?

9. Beynəlxalq təşkilatlar istehsalçıları və milli hökumətləri karbohidrogen iqtisadiyyatına investisiya yönəltməyə niyə həvəsləndirir?

10. Rusiyada infrastrukturun inkişafı və modernləşdirilməsi üçün XBİ-dən istifadə olunmasının zəruriliyi nədən irəli gəlir?

## Referatlarm mövzuları

1. Kapitalın beynəlxalq hərəkəti; şərtləri və əsası, kapitalın hərəkəti formaları

2. Xarici birbaşa investisiyalar, böhrandan sonrakı dövrdə onların coğrafiyası

3. Rusiyada XBİ: xarici investisiyalar ölkəmizə nə verir?

4. Beynəlxalq investisiya sazişləri (BİS) sistemi, investisiyalar barədə sazişlər (İİS), ikiqat vergitutmanın aradan qaldırılması haqqında müqavilələr (İVAQM)

# Fəsil 15
# TMK DÜNYA İQTİSADİYYATININ BEYNƏLMİLƏLLƏŞMƏSİNİN DƏRİNLƏŞMƏSİNİN ƏSAS AMİLİDİR

## 15.1. TMK: inkişaf naminə ekspansiya, yoxsa super gəlirlər dalınca qaçma?

Ən ümumi şəkildə *TMK-ya* bu cür açıqlama vermək olar: aktivləri bir neçə ölkədə yerləşdirilmiş yaxud iqtisadiyyatın bir və ya bir neçə sahəsində müxtəlif millətlərə mənsub kapitalla təmsil olunmuş, beynəlxalq menecmentlə idarə edilən iri firma.

Son 2-3 onillik ərzində TMK-nm, onların beynəlxalq əməliyyatlarının miqyasının və fonnalarmm dəyişməsi nəticəsində strategiyalarında və strukturunda baş verən dəyişikliklər bu gün mövcud və formalaşmaqda olan bazarların və sahələrin xarakterini müəyyən edir. Belə ki, ötən dövrdə TMK- nm *inteqrasiya olunmuş beynəlxalq istehsal sistemi beynəlxalq şəbəkəyə çevrilmiş* və bunun dairəsində onlar müstəqil yaxud qismən müstəqil olan strukturların fəaliyyətini subpodrat mexanizmləri və ya orijinal avadanlıq istehsalçıları vasitəsilə getdikcə daha geniş əlaqələndirirlər. Bununla yanaşı, indi TMK-lar iştirakçıhğm *paylı olmayan formalarını,* məsələn, infrastruktur layihələri həyata keçirilərkən «inşaat - sahiblik - istismar - ötürülmə» sxemi çərçivəsində fəaliyyəti genişləndirir. TMK-nm dünyada fəaliyyət miqyasının son dərəcə genişlənməsi ilə bərabər, *yeni iştirakçılar və investorlar,* o cümlədən inkişaf etməkdə olan ölkələrin TMK-sı, MRP (Milli Rifah Fondları) və birbaşa investisiyalar üzrə özəl fondlar meydana çıxmışdır. TMK-nm yeni aləmi həm onların yerləşdiyi, həm də onları qəbul edən ölkələrin milli və beynəlxalq səviyyələrdə siyasəti üçün ciddi nəticələr doğurur.

Qismən də olsa, son zamanlar bu səbəbə görə investisiya siyasətində aydın dəyişikliklər baş verməklə, investorların və dövlətin hüquqlarına və vəzifələrinə daha düşünülmüş yanaşma nəzərə çarpır. Hazırki maliyyə-iqtisadi böhranı vəziyyətində, bir tərəfdən, XBİ uğrunda rəqabət mübarizəsinin kəskinləşməsi, digər tərəfdən isə, dövlət siyasəti məsələlərinin həlli çərçivəsində XBİ-nin tənzimlənməsi üzrə səylərin gücləndirilməsi nəzərə

alınaraq, investisiya rejimlərinin liberallaşdırılmasına və xarici investisiya qoyuluşlarının həvəsləndirilməsinə doğru addımlar atılır. Bunun nəticəsində 1950-1970-ci illərin (ilk növbədə, dövlətin aparıcı rolu şəraitində artımın səciyyəvi olduğu) daha aydın ifadə olunan meyliləri ilə 1980-2000-ci illərdə nəzarət olunmayan bazarın başlıca aparıcı qüvvəyə çevrildiyi *siyasi kursların dixtomiyası* baş vennişdir. Dövlət və investorun hüquqları və vəzifələri konsepsiyası daim inkişaf etdiyinə görə, liberallaşma ilə tənzimləmə arasında *düzgün nisbətin tapılmasına* qlobal böhran baş verənədək etinasızlıqla yanaşılsa da, bu, çoxdan aktual məsələyə çevrilmişdir.

*Beynəlxalq və daxili investisiya siyasətləri, başqa sahələrdə (iqtisadi, investisiya, sənaye) yeridilən siyasət arasında uzlaşmanın təmin edilməsi son dərəcə vacibdir* və bu, əlaqələr yaradılmasının dəstəklənməsi, TMK-nm qəbul edən ölkələrdə fəaliyyəti nəticəsində meydana çıxan əlavə təsirlərin (o cümlədən texnologiyaları yayılması) təmin edilməsi məsələlərinə kompleks yanaşmanı tələb edir'.

Direktiv orqanları qarşısında TMK aləminin bütün mürəkkəbliyini və dərinliyini, onların dövlət və inkişaf prosesinin başqa iştirakçıları ilə qarşılıqlı əlaqəsi mexanizmini bütövlüklə dərk etmək vəzifəsi durur. Bu məsələnin həlli üçün üçtərəfli investisiya münasibətləri sistemi TMK-nm yerləşdiyi ölkə, onu qəbul edən ölkə və xarici investorların hüquqları və vəzifələri baxımından dəyişdirilməli, TMK-nm inkişafa verdiyi töhfədən daha səmərəli yararlanmaq lazımdır. Məsələn, çərçivə siyasəti investorlar və inkişaf arasındakı qarşılıqlı təsirin ən vacib zonalanm möhkəmləndirməlidir. Sözsüz ki, TMK-lar mühüm rol oynamalıdır; dünyaya bütün ölkələrin dayanıqlı inkişafını, qabaqcıl texnologiyaların tətbiqini, başqa sözlə, real inkişafın məqsədlərini təmin edən *yeni beynəlxalq investisiya rejimi* lazımdır.

Amma müasir TMK-lar bunu işləyib hazırlamağa qadirdirmi? UNCTAD-ın Hesabatı bu suala cavab vermir və verə də bilməz. Aydındır ki, TMK-nm yeni aləmi investisiya siyasətinin işlənməsinin formalaşmaqda olan sistemi ilə birlikdə «investisiyalar - inkişaf - mənfəət» paradiqmasmm yenilənməsini tələb edir. Bu isə, TMK-nm müxtəlif ölkələrdə göstərdiyi fəaliyyətdən maksimum mənfəət əldə etmək kimi işbazhq məqsədləri çərçivəsindən çox uzaqlara çıxan mürəkkəb məsələdir.

^ ЮНКТАД. Доклад о мировых инвестициях. Обзор ООН. 2010. С. 47.

## 15.2. Müasir TMK-nın genezisi, mahiyyəti və təkamülü

***Genezis.*** Məlumdur ki, inkişafın müasir mərhələsində TMK-lar məhsuldar qüvvələrin (istehsal amillərinin), maliyyə-iqtisadi və istehsal əlaqələrinin və münasibətlərinin intensivləşməsinin və beynəlmiləlləşməsinin başlıca təşkilati qüvvəsi qismində çıxış edir. TMK-nın və onların filiallarının ümumdünya istehsal və satış şəbəkəsi qloballaşma proseslərinin mənbəyi və daşıyıcısıdır. Onlar beynəlxalq iqtisadiyyatın təməli olan beynəlxalq istehsalın maddi bazasına çevrilmişdir.

Dünyanın inkişaf etmiş ölkələrinin iqtisadiyyatını əhatə etmiş istehsalın və kapitalın təmərküzləşməsi prosesləri XIX-XX əsrlərin qovşağında başlanmışdır və bunun nəticələrindən biri təsərrüfatçılıq təşkilatı qismində ilk milli və beynəlxalq müəssisələrin meydana çıxması olmuşdur. Beynəlxalq müəssisələr uzun müddət ərzində əsasən kartellər şəklində yaradılır və inkişaf edirdi; onlar Avropanın müxtəlif ölkələrində fəallıq göstərir, habelə başqa regionlara da nüfuz edirdilər. Belə ki, Almaniya hökuməti tərəfindən himayədarlıq göstərilən alman konsernləri Birinci Dünya müharibəsinədək, sonra isə 1930-cu illərin ikinci yarısından Avropanın, demək olar ki, bütün ölkələrində kifayət qədər təcavüzkarlıqla fəaliyyət göstərirdi.

XX əsrdə TMK-nın fəaliyyətinin məzmunu, metodları və vasitələri, təşkilati quruluşunun prinsipləri də çox güclü dəyişikliklərə məruz qalmışdır; ilk onilliklərdə onlar yalnız tədavül sahələrində fəaliyyət göstərir, qarşılarına nüfuz dairələrinin və bazarların bölüşdürülməsi vəzifəsini qoyurdu. Müasir TMK-lar əsas diqqəti istehsala və bazara, dünyanın ən müxtəlif ölkələrində və regionlarında filialların, satış bölmələrinin yaradılmasına yönəldir və bu halda ərazilərin uzaqda yerləşməsi məsələsi əhəmiyyətli rolunu itirir.

***TMK-nın meydana çıxmasının səbəbləri.*** İlk TMK-lar 1930-cu illərin sonundan meydana çıxmışdır. Bu, onların yaranmasının ən ümumi səbəbinin istehsalın beynəlmiləlləşməsi, kapitalın təmərküzləşməsi və onun istehsal amillərinin inkişafının sürətləndiyi şəraitdə ölkədən çıxarılması faktı olduğunu sübut edir. İnkişaf etmiş ölkələrin iri burjuaziyası kapitalın ölkədən çıxarılması (pul və istehsal formalarında) vasitəsilə mənfəət norması saxlamağa yaxud artırmağa səy göstərir, xaricdə bu məqsədə nail olmağa imkan verən «boşluqlara» müdaxilə etməklə, rəqabət mövqelərini möhkəmləndirirdi. Bu da

aydındır ki, çoxsaylı ticari və siyasi maneələri aşmaq imkanı yaratmaqla, böyük üstünlüklər təmin etdiyinə görə TMK-nın formalaşması ilkin mərhələdə xarici ticarətlə bağlı olmuşdur. Bu məqsədlər üçün TMK-lar müdaxilə etdikləri ölkələrin bazarlarında daxili əməliyyat meydanı rolunu oynayan törəmə müəssisələrdən, uzun müddətdir ki, istifadə edir. Qeyd olunmalıdır ki, ilkin mərhələdə inkişaf etmiş ölkələrin dövlətləri özlərinin iri korporasiyalarının xarici ekspansiyasını dəstəkləməklə, onlara TMK formalaşması üçün şərait yaradırdı. Xaricdə filialların yaradılması beynəlxalq ticarətin tənzimlənməsi üçün tətbiq olunan tarif və qeyri-tarif məhdudiyyətlərindən yan keçməyə kömək edir. Dövlət ilk TMK-lar üçün bu üstünlüklərin inkişaf etdirilməsini dəstəkləyirdi. Dövlət başqa ölkələrlə ticari-iqtisadi müqavilələrin bağlanılması yoluna da qədəm qoymuşdu. TMK-nın təşəkkülünə şərait yaradan başqa amil regional və ümumdünya nəqliyyat infrastrukturunun sürətli inkişafı, rabitə sistemlərinin təkmilləşdirilməsi, müxtəlif şirkətlərin və ölkələrin elmi-texniki əməkdaşlığı olmuşdur. TMK-nın formalaşmasında güclü sıçrayış 1960-1970-ci illərə təsadüf edir. Bunun bir neçə səbəbi vardır və onların ən başhcalarmı sadalayaq:

• müharibədən sonra iqtisadiyyatını uğurla bərpa etmiş Qərbi Avropa və Yaponiya korporasiyalarının və banklarının mövqelərinin möhkəmlənməsi; «Böyük triada»: ABŞ - Qərbi Avropa - Yaponiya çərçivəsində amansız rəqabət mübarizəsinin başlanması;

• Asiya, Afrika və qismən də Latın Amerikasında müstəmləkə imperiyaları dövrünün başa çatması. Amerika korporasiyalarını sıxışdırmağa başlayan Qərbi Avropa və Yaponiya şirkətlərinin bütün qitələrdə qlobal ekspansiyasının başlanması. Qovuşmalar və birləşmələrə doğru meyil bundan təkan almış və nəticədə TMK-nın formalaşmasına, onların xammal və hazır məhsullar bazarlarına daxil olması üçün şərait yaranmışdır;

• ölkələr arasında rəqabətin güclənməsi labüd olaraq şirkətlərin iriləşməsi və əməliyyatlarının transmilliləşməsinə, mövcud satış bazarlarının səmərəliliyinin yüksəlməsinə və genişlənməsinə, yeni bazarların axtarılmasına gətirib çıxardı;

• qovuşmalar və birləşmələr metodundan istifadə olunması; 2007-ci ildə (qlobal böhran başlamazdan əvvəl) TMK-lar 7,5 mindən çox, 1,2 trilyon dollara yaxın transsərhəd əqdləri yerinə yetirmiş, bunlardan 200-dən çoxu dəyəri 1 milyard dollar olan ***meqa-əqdlərdir.***

Müəssisələr (firmalar) mənfəətin artırılması uğrunda mübarizənin, yəni hər bir kapital sahibinin əsas vəzifəsinin həllinin gedişində transmilli korporasiyaya çevrilir. TMK beynəlxalq korporasiya kimi, daxili iqtisadiyyatda kapitalın və istehsalın təmərküzləşmə səviyyəsinin sadəcə milli sərhədlər çərçivəsinə sığmamasınm deyil, həm də dünya iqtisadiyyatının güclü mərkəzi dayağı olan beynəlxalq istehsalın formalaşmasının maddi bazasına çevrilməsinin real göstəricisidir.

***TMK-nın fəaliyyətinin neqativ nəticələn.*** Nəzərəçarpan pozitiv məqamlarla (iqtisadi sistemin dayanıqlığının möhkəmlənməsi, büdcəyə pul daxilolmaları, malların istehsalı, tikinti obyektləri, məşğulluğun genişlənməsi, nou-hau və s.) birgə, TMK-da mənfi cəhətlərinin olması qaçılmazdır:

1) TMK-nın həddən artıq güclü olması bir sıra ölkələrdə hökumətin bəzi planlarının həyata keçirilməsinə mane ola bilər; belə vəziyyətdə onlan qəbul edən ölkənin qanunları əksər halda pozulur;

2) TMK-lar çox vaxt öz mallannm qiymətini bahalaşdırır, özlərinə əlverişli, yerləşdiyi ölkə üçün qeyri-münasib şərtlər diktə edir;

3) TMK-lar qlobal maraqları rəhbər tutur və onların istehsal etdikləri mallar yerli bazarlara çıxarılmayaraq, başqa ölkələrdə fəaliyyət göstərən filiallarına göndərilir;

4) TMK-nın quraşdırma istehsallarının çoxu yerli şəraitə uyğunlaşdırıla bilmədiyi üçün, onları qəbul edən tərəfə, ümumiyyətlə, heç bir fayda vermir. Buna görə də onları qəbul edən ölkələr daha ehtiyatlı olmalı, TMK-lar ilə münasibətlərin işlənib hazırlanmasına təcrübəli, milli maraqları layiqincə təmsil edən mütəxəssisləri cəlb etməlidir.

***TMK anlayışının ən adekvat açıqlanması.*** Bütün deyilənləri nəzərə almaqla, TMK anlayışının ən adekvat təfsiri bu cür olmalıdır: transmilli korporasiya - ticarət, istehsal-texnoloji (investisiya) və kooperasiya əlaqələrini iki və daha çox ölkədə (bəzi hallarda TMK-nın 6 ölkədə fəaliyyət göstərməsinin zəruriliyi nəzərdə tutulur) quran, fəalij^ət göstərdiyi müəyyən təsərrüfat sahəsində ölkənin əsas göstəricilərinə əhəmiyyətli təsir göstərən, adətən, iri firmadır.

Fikrimizcə, göstərilən anlayış formal baxımdan müasir TMK-ya aid edilən iri şirkətlərin indi batmaqda olan «British Petroleum» tipli nəhəng olmaması ilə bağlı yeni meyilləri nəzərə almağa imkan verir. 1990-cı illərin ikinci yarısından başlayaraq və XXI əsrin birinci onilliyində əsasən yüksək

texnologiyaların işlənib hazırlanması, satışı və tətbiqi ilə əlaqəsi olan çoxsaylı «orta» şirkətlər mövcud TMK sisteminə və beynəlxalq istehsala qoşulmuşdur. Müasir statistika TMK-nın hələ 1970-ci illərdə işlənib hazırlanmış meyarlarına əsaslandığına görə, bu yeni təzahürləri nəzərə almır və çoxlu sayda yeni transmilli firmalar təbəqəsi TMK sırasına daxil edilmir. Güman ki, onların sayı 1 milyondan az deyil və bunun 40%-ə yaxmı birinci və ikinci dalğa YSÖ-nin və yeni kapitalist ölkələrinin, 60%-i isə kapitalizmin inkişaf etmiş mərkəzlərinin payına düşür. Özü də, qlobal TMK-lar ilə müqayisədə onların fəaliyyət dairəsi xeyli geniş olmaqla, milli iqtisadiyyatın bütün, o cümlədən sosial (MKT, səhiyyə, təhsil və s.), kənd təsərrüfatı, ekoloji təmiz texnologiyaların hazırlanması və tətbiqi, alternativ enerji mənbələrinin yaradılması və başqa sahələri əhatə edir. Beləliklə, TMK - iqtisadiyyatın beynəlmiləlləşməsinin və maliyyə-təsərrüfat proseslərinin qloballaşmasının ən yüksək mərhələlərinin obyektiv nəticəsidir. Onlar öz inkişafında bir-birindən keyfiyyətcə fərqlənən mərhələlərdən keçmiş və bütöv beynəlxalq istehsalı formalaşdıran real qüvvəyə çevrilmişdir.

***Beynəlxalq istehsalın formalaşması.*** TMK-nın filialları nəinki dünya təsərrüfatının iqtisadi sisteminin tərkib hissəsinə, həmçinin, formalaşmaqda olan beynəlxalq istehsalın mərkəzi həlqəsinə çevrilir. Buna görə də onlardan mənşə ölkələrinin (inkorporasiya olunduqları ölkələrin) maraqlan üçün yeridilən iqtisadi siyasətin aləti qismində istifadə oluna bilər. İqtisadi siyasət BVF-in prioritetləri əsasında müəyyənləşdirildiyinə və bu sahədə addımların atılması barədə ən mühüm məsələlər dövlətlərin özü tərəfindən müstəqil surətdə deyil, TMK və TMB-nin mənzil-qərargahlarında həll olunduğuna görə, onlar iqtisadiyyatın daha çox inkişaf etmiş hissəsi üzərində və buna müvafiq olaraq büdcə üzərində nəzarətini tədricən itirirlər. Gələcəkdə bu qəbildən olan meyillər yalnız güclənəcəkdir.

Ümumi qəbul edilmiş təfsirlərdən birinə əsasən, TMK - istehsal bölmələri bir neçə ölkədə yerləşdirilmiş korporasiya yaxud beynəlxalq biznes əhəmiyyətli (fəaliyyətinin 25-30%-i xaricdə həyata keçirilən), iki və daha çox ölkədə filialları olan şirkətdir. BMT ekspertlərinin müəyyənləşdirdiyinə görə, əvvəlki illərdə illik dövriyyəsi 100 milyon dollardan çox olan və filialları ən azı 6 ölkədə yerləşdirilmiş fınnalar TMK-ya aid edilirdi. Son dövrdə bu təyinə yenidən baxılmışdır və indi əsas əlamət TMK-nın rezident olduğu ölkədən kənarda yerinə yetirdiyi satışların faizlə həcmi göstəricisidir. Bundan sonra

aktivlərin strukturu, ölkələr üzrə səpələnməsi nəzərə alınır. Məsələn, ən böyük həcmdə transsərhəd aktivlərinə (maliyyə sektorundan başqa) lider üçlük - elektron sənayesinin təmsilçisi, xarici aktivlərinin məbləği 400 milyarddan çox olan «General Motors» (ABŞ), telekommunikasiya korporasiyası, xarici aktivləri 200 milyard dollardan artıq olan «Vodafone» (Böyük Britaniya) və avtomobil istehsalçısı, xarici aktivləri təqribən 175 milyard dollar olan «General Motors» (ABŞ) malikdir. Onların hamısı klassik TMK-dır.

Beləliklə, biz TMK-ya daha bir tərif verə bilərik: TMK - istehsal və ticarət-təchizat fəaliyyətini öz ölkəsinin hüdudlarından kənara çıxararaq, beynəlxalq istehsalın fonnalaşmasının təməlini quran, beynəlxalq əmək bölgüsünün obyektiv meyillərindən fəal istifadə edən, istehsalın və kapitalın beynəlmiləlləşməsi proseslərini sürətləndirən, beynəlxalq iqtisadi fəaliyyət sistemində yeni əlaqələrin və qarşılıqlı münasibətlərin bərqərar olmasına şərait yaradan iri firmadır.

UNCTAD-m məlumatlarına görə, dünya ticarətinin 33%-i TMK-nın xarici filiallarının payına düşür, dünyada ÜDM-in 10%-dən çoxu (6 trilyon dollar) onlar tərəfindən istehsal olunur, ümumdünya ETTKİ-də oynadığı rol getdikeə güclənir. Qeydiyyatdan keçmiş patentlərin 80%-dən çoxu onların payına düşür və inkişaf etmiş ölkələrin özəl sektorunda ETTKİ-nin 80%-ə yaxınını onlar maliyyələşdirir.

***TMK-nın strukturu.*** Transmilli korporasiya, adətən baş şirkətdən və xarici filiallardan (törəmə şirkətlərdən və bölmələrdən) ibarətdir. Müasir TMK- nın səciyyəvi xüsusiyyətlərinə aşağıdakıları aid etmək olar:

• özündə, birincisi, baş şirkəti (bir və daha çox), ikincisi, ölkənin hüdudlarından kənarda səpələnmiş filialları, bölmələri, törəmə şirkətləri (xarici aktivlərin payı şirkətin ümumi aktivlərinin dəyərinin 25-30%-i qədər olmalıdır) birləşdirən təşkilati strukturdur;

• istehsal vahidlərinin çoxsaylı ölkələrdə yerləşdirilməsinə əsaslanan beynəlxalq istehsal sistemidir (şirkətin ümumi dövriyyəsinin 1/5 hissəsindən ‘A hissəsinədək xarici əməliyyatların payına düşməli, yəni TMK-nın baş ofisinin yerləşdiyi ölkədən kənarda baş vennəlidir);

• resipiyent-ölkənin nümayəndələrinin mütləq qaydada daxil edildiyi (yerli şəraitə uyğunlaşmaq üçün) beynəlxalq menecment sistemidir.

***TMK-nın növləri və modelləri.*** Müasir iqtisadi ədəbiyyat korporasiyaları çoxmillətli, transmilli, millətlərarası, millətüstü, qlobal və s. bu kimi söz

birləşmələri şəklində verən terminlərlə zəngindir. TMK-nm dünya iqtisadiyyatında həyata keçirdiyi fəaliyyətin yeni təşkilati fonnalarmın düzgün ifadə olunması axtarışlarını əks etdirdiyinə görə, bu terminoloji rəngarənglik müəyyən dərəedə qanunauyğundur. TMK-nın ilk tədqiqatçıları olan bəzi iqtisadçılar (R.Robinson, C.Robinson, L.Teraer, P.Samuelson, R.Barr, K.Savan və başqaları) onları beynəlxalq, multimilli, supermilli korporasiyalar; başqaları (C.Helbreyt, X.Perlmutter, S.Braun, R.Vemon) isə etnosentrist, polisentrist, geosentrist korporasiyalar adlandırır. TMK problemlərinin tədqiqində Kanada, əsasən də, Toronto universitetinin iqtisadçıları böyük rol oynamışdır. Onların əsərlərində aşağıdakılar fərqləndirilirdi:

• ölkəsindən kənarda fəaliyyət göstərən, yerli şəraitə uyğunlaşmaq məqsədi ilə yerləşdiyi dövlətlərin hökumətlərinin tövsiyələrini əldə rəhbər tutan milli şirkətlər;

• adətən yerləşdiyi ölkənin qanunverieiliyini və şəraitini, amma bunu birinci göstərilənlərlə müqayisədə az nəzərə alan multimilli şirkətlər;

• qüdrətinə güvənərək, yerləşdiyi ölkənin milli və dövlət xüsusiyyətləri, qanunvericiliyi və s., yəni qlobal strategiyasına zidd olan, maraqlarına uyğun gəlməyən heç nə ilə hesablaşmayan transmilli şirkətlər.

Tədqiqatçıların hamısı bunların məhz transmilli (beynəlxalq) korporasiyalara şamil olunduğu ilə razılaşır.

TMK haqqında bütün müasir konsepsiyalar firmanın malların və xidmətlərin istehsalı və satışının təşkili üzrə müəssisə olması nəzəriyyəsinə əsaslanır. Beynəlxalq şirkətlərin əksəriyyəti öz fəaliyyətinə milli bazarlara xidmət göstəmıəkdən başlamışdır. Sonra isə onlar yerləşdikləri ölkənin müqayisəli üstünlüklərindən və şirkətin konkret üstünlüklərindən yararlanıb, məhsullarını ölkədən kənara çıxarmaqla yaxud qəbul edən ölkədə istehsallarını təşkil etmək məqsədi ilə xaricə investisiyalar qoyaraq, beynəlxalq bazarlarda fəaliyyətlərini- genişləndirmişlər. TMK-nın əsas xüsusiyyətini - birbaşa investisiyalar əsasında xaricdə yaradılmasını, malların və xidmətlərin istehsalı və satışı üzrə xarici fımıalanmn mövcudluğunu qeyd edərək, onun tədqiqatçıları xarici birbaşa investisiyaların -bir sıra modellərini işləyib hazırlamışlar.

***TMK-nın texnoloji modeli.*** Amerika iqtisadçısı C.Helbreyt TMK-nın əmələ gəlməsini *texnoloji səbəblərlə* əsaslandınmşdır. Onun fikrincə, beynəlxalq şirkətlərin xarici filiallarının təşkili qəbul edən ölkələrdə müasir.

mürəkkəb məhsulların satışı və onlara xidmət göstərilməsi ilə əlaqədar olaraq, mal və xidmətlərin ötürülməsi üzrə ixtisaslaşan müəssisələr sisteminin (şəbəkəsinin) mövcudluğunun zərurətindən irəli gəlir. Bu cür texnoloji strategiya TMK-ya dünya bazarındakı payını artımıağa imkan verir.

***İnhisar (unikal) iistiinlükhr modelini*** amerikalı iqtisadçı S.Haymer işləyib hazırlamış, sonra professor Ç.P.Kindleberger və başqaları tərəfindən inkişaf etdirilmişdir. İnhisarçılıq üstünlükləri nəzəriyyəsinə görə, TMK-nı qəbul edən ölkə öz bazarında «oyun qaydalarını» yaxşı bilən, yerli hakimiyyətlə geniş əlaqələri olan və tranzaksiya xərcləri çəkməyən, yəni sazişlərin bağlanması üçün böjdik vəsait sərf etməyən yerli firmalarla müqayisədə, xarici investora üstünlüklər təmin edilməlidir. Xarici firmalar üçün inhisar üstünlükləri yerli müəssisələrdə istehsal edilməyən orijinal məhsulların buraxılması; böyük məbləğdə mənfəət əldə etmək imkanı verən «miqyas effekti»; TMK-nı qəbul edən ölkənin dövlət tənzimlənməsində xarici investorlar üçün əlverişli şərait hesabına yarana bilər.

TMK-ya şamil olunmaqla ***məhsulun həyat dövrü modeli*** Amerika iqtisadçısı R.Veron tərəfindən firmanın artımı nəzəriyyəsi əsasında işlənib hazırlanmışdır. Bu nəzəriyyəyə görə, istənilən məhsul həyat dövrünün 4 mərhələsindən keçir:

1) bazara giriş;
2) satışların artımı;
3) bazarın doydurulması;
4) satışların azalması.

Daxili bazarda satışların azalması vəzi)^ətindən çıxış yolu ixrac yaxud məhsulun həyat dövrünü uzatmaq üçün onun istehsalının xaricə köçürülməsidir. Bu halda fınnanm artımı, bazarın doydurulması mərhələlərində istehsal və satış xərcləri, adətən ixtisar olunur və bu, malın qiymətinin ucuzlaşması nəticəsində ixracına və xaricdə istehsal həcmini çoxaltmağa imkan yaradır. Bu strategiyadan iri korporasiyalar, xüsusilə də TMK-lar istifadə edə bilər.

Qərbin məşhur iqtisadçılarının (C.Helbreyt, Draker, F.Kotler və başqaları) tədqiqatlarına əsasən, TMK-nm vahid tərifi yoxdur və temıinlərdən ənənəvi semantik istifadəyə uyğun olaraq, onları beynəlmiləl, beynəlxalq korporasiya adlandırırlar. Məsələn, çoxmillətli korporasiyalar (ÇMK) bir neçə (ikidən az olmayan) dövlətin milli şirkətlərini istehsal və elmi-texniki əsasda

birləşdirən iri firmalar kimi nəzərdən keçirilir. Bu korporasiyalara klassik nümunə kimi, adətən 1907-ci ildən fəaliyyətdə olan ingilis-holland «Royal Dutch Shell» şirkəti göstərilir.

F.Kotler ***beynəlmiləl korporasiyalara*** xarici aktivləri olan iri firmalar kimi baxır; onların istehsal-satış fəaliyyəti birdən çox xarici dövlətdə həyata keçirilir. Kotler ***təşkilati prinsipinə*** görə beynəlxalq korporasiyaları 4 əsas tipə bölür:

1) transmilli;
2) çoxmillətli;
3) beynəlmiləl;
4) qlobal.

***Qlobal korporasiya*** tennini xüsusilə iri, aktivləri 100 milyard dollardan artıq olan (bu rəqəm dünya ölkələrinin əksəriyyətinin ÜDM-dən çoxdur) TMK-ya münasibətdə işlədilir. Qlobal korporasiya, adətən öz əməliyyatlarını dünya üzrə səpələnmiş müəssisələr arasında bölüşdürür. Onun üçün ən mühüm meyarlar xərclərə qənaət olunması, müxtəlif ölkələrdə yüksəkixtisaslı işçilərdən istifadə etmək imkanı, bazarda satışın qlobal şəbəkələrinin yaradılması və sairdir. XXI əsrin əvvəlinədək müxtəlif ölkələrin TMK-sı və çoxmillətli şirkətlər arasında həm fəaliyyətin miqyasına, həm də kapitalının tərkibinə görə beynəlxalq olan çoxlu strateji alyanslar yaradılmışdı. Müəssisələrin beynəlxalq fəaliyyətinin dinamik inkişafı və miqyasının genişlənməsi, onlann qarşılıqlı əlaqələrinin güclənməsi və rəqabət ayrı-ayrı müəssisələrin birləşməsinə təkan verir. Ancaq TMK-lar, qovuşmaqdansa, onlara hüquqi şəxs statusunu saxlamağa, başqa firmalarla əməkdaşlığı inkişaf etdirməyə imkan verən qarşılıqlı münasibətlər mexanizmlərinin yaradılmasına üstünlük verir. Nəticədə şirkətlərin keyfiyyətcə yeni növü - bir qrupda birləşən şirkətlərin beynəlxalq birlikləri meydana çıxır.

Qlobal korporasiyanın ən mühüm əlamətləri bunlardır:

• Qlobal korporasiyanın (QK) çoxlu sayda ölkələrin ərazisində fəaliyyət göstərməsi;

• QK quruluş baxımından şəbəkə təşkilatı kimi fəaliyyət göstərir;

• QK hüququ baxımdan bir-biri ilə müqavilələr və razılaşmalarla bağlı olan hüquqi şəxslərin məcmusudur;

• QK inkişaf etmiş, inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrin şirkətlər qrupundan ibarət olsa da, mərkəzi qrup, adətən ümumi korporativ

etikaya daha uyğun işgüzarlıq mühiti fonnalaşan inkişaf etmiş ölkədə yerləşir.

***Beynəlmiləl korporasiya*** - xarici aktivləri olan iri milli korporasiyadır. Əvvəl qeyd etdiyimiz kimi, onların istehsal və ticarət-təchizat fəaliyyəti bir ölkənin hüdudlarından kənara çıxır. Onların bəzisi öz fəaliyyət miqyasını və coğrafiyasını genişləndirərək, ***qlobal beynəlmiləl inteqrasiya olunmuş müəssisələrə,*** yəni qlobal korporasiyalara çevrilmişdir. Onlar, əsasən neft, metallurgiya, kimya, elektrotexnika, elektron, avtomobilqayırma sənayelərində və bank sektorunda fəaliyyət göstərir.

İstehsal strukturu baxımından bütün TMK-lar aşağıdakı 3 qrupa bölünür;

1) üfüqi inteqrasiya olunmuş;
2) şaquli inteqrasiya olunmuş;
3) şaxələndirilmiş.

***Üfüqi inteqrasiya*** müxtəlif ölkələrdə yerləşən şirkətlərin eyni malı istehsal etmək yaxud eyni tipli xidmətləri göstəmıək üçün birləşməsinə imkan yaradır.

***Şaquli inteqrasiya*** istehsalın bir yaxud bir neçə ölkədə təmərküzləşməsidir; bu halda istehsal olunan məhsul, həmin beynəlxalq korporasiyanın tərkibinə daxil olan başqa müəssisələrə istehsal prosesinin növbəti mərhələlərində istifadə edilmək üçün göndərilir.

***Şaxələndirilmiş korporasiya*** özündə ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən müxtəlif (üfüqi və şaquli inteqrasiya olunmuş) şirkətləri birləşdirir.

Bütün hallarda müasir TMK-nın həlledici əlaməti onun fəaliyyətinin əvvəlki onilliklərdə olduğu kimi, kapitalın mənşə ölkəsinə görə deyil, fəaliyyət regionuna görə ***beynəlxalq xarakter daşımasıdır.*** İndi kapitalın hansı ölkədən daxil olması deyil, onun həcmi və hara istiqamətlənməsi, harada istifadə olunması və mənfəətin nədən əldə edilməsi daha böyük əhəmiyyət kəsb edir. Müasir transmilli korporasiyaların böyük əksəriyyəti ilk vaxtlar milli baxımdan çoxmillətli deyil, xüsusiləşmiş kimi təqdim olunsa da, tədricən daha çox ölkədə fəaliyyət göstənnəyə başlamış və transmilli xarakter almışdır.

***TMK-nın əsas əlamətləri.*** TMK-lar aşağıdakı əsas əlamətlərlə xarakterizə olunur:

• TMK dünya təsərrüfatının inkişafının, BƏB proseslərinin fəal iştirakçısıdır; dünyanın qloballaşmasının agentləri məhz onlardır;

• TMK üçün kapitalın hərəkətinin milli sərhədlər çərçivəsində baş verən proseslərdən nisbətən müstəqil olması səciyyəvidir;

• TMK öz əməliyyatlarını dünyanın bir çox ölkələrində həyata keçinnəklə, üınumdünya təsərrüfat münasibətlərinin tənzimlənməsində iştirak edir;

• tərkibi baxımından TMK - idarəçilik qərarlarının yerləşdiyi ölkədəki vahid mərkəzdə qəbul edilən və filialları başqa ölkələrdə olan istehsal, ticarət yaxud maliyyə təyinatlı müəssisələrin beynəlxalq kompleksidir;

• səhmdar kapitalı • üzərində mülkiyyət hüququ yalnız təsisçi-ölkənin nümayəndələrinə məxsusdur;

• filiallar və törəmə müəssisələr müştərək, əsasən milli iştirakçıhqla ola bilər;

• TMK mərkəzləşdirilmiş idarəçiliyi müxtəlif ölkələrdə yerləşən və onun tərkibinə daxil olan müəssisələrin, struktur bölmələrinin - filialların, nümayəndəliklərin, törəmə şirkətlərin müəyyən dərəcədə müstəqilliyi ilə əlaqələndirir;

• TMK-nm kapitalının hərəkəti korporasiyanın yerləşdiyi ölkədə gedən proseslərdən kifayət dərəcədə azaddır;

• bu korporasiyalar filialların, törəmə şirkətlərin, bölmələrin dünyanın bir sıra ölkələrində yerləşdirilməsinə və əsas məsələlər üzrə vahid mərkəzdən idarə olunmasına əsaslanan beynəlxalq istehsal sistemini formalaşdırır;

• TMK onlara müəyyən üstünlüklər təmin edən çoxmillətli səhmdar kapitalına malikdir;

• TMK meyarı qismində fımıamn gəlirlərinin yaxud satışlarının zəruri minimumun 25% həcmində olması müəyyən edilmişdir;

• TMK beynəlmiləl direktorlar şurası tərəfindən idarə edilir;

• TMK resursların müxtəlif növlərini (kapital, işçi qüvvəsi və s.) dünyanın müxtəlif regionlarında yerləşən ölkələr arasında kifayət qədər səmərə ilə yerləşdirməklə, kapitalist müəssisəsinin əsas məqsədi olan 3diksək mənfəətə nail olur; bu zaman istehsalın müxtəlif ölkələr və regionlar arasında optimal yerləşdirilməsi məsələsi həll edilir;

• TMK fasiləsiz surətdə ETTKİ sahəsində fəaliyyəti həyata keçirir, yeni malların, xidmətlərin və texnologiyaların işlənib hazırlanmasını, tətbiqini və yayılmasını təmin edir, bu tədqiqatların universitetlərdə həyata keçirilməsini maliyyələşdirir;

• TMK ölkələr arasında iqtisadiyyat, elm və təhsil, texnoloji sahələrdə beynəlxalq əməkdaşlığın genişlənməsini fəal dəstəkləyir.

Ənənəvi olaraq, kapitalın ölkədən çıxarılması onun beynəlmiləlləşməsinin əsas fonnalarmdan biri kimi çıxış edir. Kapital ölkədən çıxarıldıqca, təsərrüfatçılıq subyektləri dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən korporasiyaların məcmusuna çevrilir. Əlavə dəyər istehsalının beynəlmiləlləşməsi transmilli korporasiyanın kapitalının beynəlmiləlləşməsinin mühüm fonuası kimi çıxış edir. Avtomobillərin, traktorların, kənd təsərrüfatı maşınlarının, kompüterlərin, təyyarələrin, müxtəlif dəzgahların və s. buraxılışının ABŞ, Kanada, Qərbi Avropa, Yaponiya, Latın Amerikası və Asiyanın müəssisələrində təmərküzləşməsinə, bunların dünya səviyyəsində ixtisaslaşmış və şaxələndirilmiş istehsalının təşkilində marağı olan TMK-lar tərəfindən nəzarət edilir. İstehsalın (xidmətlər sahəsinin) bu cür, milli sərhədlər qoyulmadan təşkili, çoxsaylı ölkələrdə fəaliyyət göstərən bir yaxud bir-biri ilə qarşılıqlı əlaqədə olan TMK-lar qrupunun əsasında özəl ticarət-təchizat şəbəkəsinin yaradılmasını nəzərdə tutur. Baş korporasiya müəssisələri ilə istehsal-texnoloji və xüsusilə də maliyyə prosesləri ilə bağlı olduğuna görə, onların hansı ərazidə faliyyət göstənnəsindən asılı olmayaraq, vahid qlobal (qitə) strategiyası işləyib hazırlayır və həyata keçirir.

***TMK-nın fəaliyyət sahələri.*** Ənənəyə görə, TMK-nm əhatə dairəsinə daxildən daha çox, xarici bazarlarda fəaliyyət göstərən, müvafiq istehsal (xidmət) sahələrində əhəmiyyətli paya malik olan ən iri və müasir müəssisələr daxildir. Bu cəhət müəyyən şəraitdə TMK-nm fəaliyyət göstərdiyi ölkələrin iqtisadi problemlərini mürəkkəbləşdirə bilər. TMK-nm hərəkətlərinə nəzarətin, ümumij^ətlə, mürəkkəb olduğu ilə hesablaşsaq, onların zəif, yəni keçid dövrü yaşayan, habelə inkişaf etməkdə olan ölkələrdə nəzarət altına alınmasının az səmərə verəcəyini fərz etmək olar. Emal, hasilat, neft-kimya və neft-qaz, maşınqayırma sənayelərinin müxtəlif sahələrində, elektronikada fəaliyyət göstərən güclü TMK-lar özünün istehsalını və bütün qitələr üzrə səpələnmiş müəssisələri ilə əlaqəsini uzlaşdırır, beynəlxalq kooperasiya və ixtisaslaşma proseslərini qlobal miqyasda idarə edir. Universal sənaye bazasına malik olan TMK həm baş korporasiyada, həm də onun bütün müəssisələrində (filiallarında) istehsalın, əmtəə bazarının yüksək səmərəliliklə planlaşdırıl- masını, kapital qoyuluşları və elmi-tədqiqat işləri sahəsində işlərin uğurla yerinə yetirilməsini milli, qitə və beynəlxalq miqyasda təmin edən əlaqələndirilmiş, vahid sənaye-ticarət siyasətini həyata keçirir. Transfer qiymətləri siyasəti ilə manipulyasiya etməklə, TMK-nm müxtəlif ölkələrdə

fəaliyyət göstərən filialları milli qanunvericiliklərin tələblərindən bacarıqla yayınır. Nəticədə mənfəət normasının azalmağa doğru meyil göstərməsinin təsiri neytrallaşdırılır, kapitalın əsas məqsədi olan mənfəət əldə edilir.

Göstərilən xarakterli hərəkətlər beynəlxalq əmək bölgüsünün əsasının qlobal miqyasda dəyişməsinə gətirib çıxarır. Bu halda ikitərəfli ticarətin get-gedə daha böyük hissəsi (ümumdünya ticarətinin 40%-dən çoxu) eyni TMK- nm müxtəlif ölkələrdə yerləşən müəssisələrinin payına düşür. 15.1-ci cədvəldə transmilli istehsalın əsası kimi çıxış edən 100 ən böyük korporasiyanın siyahısı verilmişdir. Cədvəlin məlumatları TMK aləminin həm ölkələr, həm də iqtisadiyyatın sahələri üzrə sürətlə genişləndiyini göstərir. Emal sənayesinin və neft sektorunun «General Motors» (GM) və «General Electric», «British Petroleum», «Shell», «Toyota» və «Ford Motor» kimi şirkətləri UNCTAD-ın tərtib etdiyi dünyanın 25 ən böyük qeyri-malİ5^ə TMK-sı siyahısında mövqelərin yuxarı sırasını tuturdu. 2009-2010-cu illərdə bir sıra TMK-nm və TMB-nin müflisləşməsi yaxud fəaliyyət şəraitinin pisləşməsi nəticəsində vəziyyət bir qədər dəyişmişdir. Buna baxmayaraq, böhrandan sonra da birinci yüzlüyə daxil olan TMK-nm tərkibi dayanıqlıdır.

UNCTAD-ın hazırladığı ***«Ümumdünya investisiyaları perspektivlərinin Şərhi (2009-2010-cu illər)»*** göstərir ki, qısamüddətli perspektivdə qlobal maliyyə-iqtisadi böhran TMK-nm XBİ sahəsində planlarına mənfi təsir göstərmişdir. Əvvəlki tədqiqatın nəticələrinə görə, böhran TMK-nm 40%-nə təsir göstənnişdisə, 2009-cu ildə onların ən azı 85%-nə sirayət etmişdi. Dünyada olan bütün TMK-lar investisiya planlarının ixtisar olunmasının əsas səbəbi kimi, qlobal iqtisadi tənəzzülü, 79%-i isə birbaşa olaraq, maliyyə böhranını göstərmişdir. Hər iki cəhət həm ayrılıqda, həm də birlikdə TMK-nm XBİ qoyuluşlarına meyil göstərməsinin zəifləməsinə və qabiliyyətinin aşağı düşməsinə gətirib çıxarmışdır. TMK-nm xarici filiallarının ixracı 2008-ci ildəki 6,6 trilyon dollardan 2009-cu ildə 5,1 trilyon dollaradək azalmışdır.

UNCTAD-ın ilkin qiymətləndirməsinə görə, 2008-ci ildə ən iri TMK-nm beynəlmiləlləşməsi templəri xeyli səngimiş, onların ümumi mənfəəti isə 27% aşağı düşmüşdür. Ancaq 500 ən iri şirkətin siyahısı qlobal böhran nəticəsində az dəyişmişdir; 100 ən iri korporasiyanın siyahısında isə, demək olar ki. dəyişiklik bas verməmişdir (cədvəl 15.1).

*Cədvəl 15.1*

## Dünyada ən iri 100 TMK^

| 2009- cu ildə tutduğu yer | 2008-d ildə tutduğu yer | Şirkət | ölkə | Sektor | Bazar kapital-laşması, mln. dollar | Dövriyyə mln. dollar | Xalis mənfəət mln. dollar | Məcmu aktivləri, mln. dollar | İşçilərin sayı | Səhmin qiyməti, dollar | Q/G ** | Dividend gəlirliyi, % | Maliyyə ilinin sonu |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 1 | Exxon Mobile | ABŞ | Neft və qaz | 336 524,9 | 459 579,0 | 45 220,0 | 228 052,0 | 79 900 | 68,1 | 7,8 | 2,3 | 31.12,2008 |
| 2 | 2 | Petro China | Çin | Neft və qaz | 287 185,2 | 156 516,8 | 16 720,8 | 174 493,7 | 477 780 | 0,8 | 8,7 | 5,2 | 31.12.2008 |
| 3 | 11 | Wal-Mart Stores | ABŞ | Parakəndə ticarət | 204 364,8 | 401 244,0 | 13 400,0 | 163 429,0 | 2 100 000 | 52,1 | 15,6 | 1,8 | 31.12.2009 |
| 4 | 6 | indi &Coml Bank of China | Çin | Banklar | 187 885,4 | Məlumat yoxdur | 16 196,2 | 1425 722,0 | 385 609 | 0,5 | 10,8 | - | 31.12.2008 |
| 5 | 5 | China Mobile | Honkonq | Mobil rabitə xidməti | 174 672,9 | 60 251,9 | 16 481,4 | 96 103,2 | 138 368 | 8,7 | 10,6 | 4,6 | 31.12.2008 |
| 6 | 7 | Microsoft | ABŞ | Proqram təminatı və xidmətlər | 163 319,5 | 60 420,0 | 17 681,0 | 72 793,0 | 91000 | 18,4 | 9,7 | 2,4 | 30,06.2008 |
| 7 | 8 | AT&T | ABŞ | Təsbit olunmuş rabitə xidmətləri | 148 511,3 | 124 028,0 | 12 867,0 | 265 245,0 | 302 660 | 25,2 | 11,6 | 6,4 | 31.12.2008 |
| 8 | 17 | Johnson&Johnson | ABŞ | Əczaçılıq və biotexnologiyalar | 145 481,2 | 63 747,0 | 12 949,0 | 84 912,0 | 118 700 | 52,6 | 11,4 | 3,4 | 28.12.2008 |

| 2009- cu ildə tutduğu yer | 2008-ci ildə tutduğu yer | Şirkət | Ölkə | Sektor | Bazar kapital-laşması, mln. dollar | Dövriyyə mln. dollar | Xalis mənfəət mln. dollar | Məcmu aktivləri, mln. dollar | İşçilərin sayı | Səhmin qiyməti, dollar | Q/G | Dividend gəlirliyi, % | Maliyyə ilinin sonu |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 9 | 9 | Royal Dutch Shell | Böyük Britaniya | Neft və qaz | 138 999,2 | 458 361,0 | 26 277,0 | 282 401,0 | 102 000 | 22,5 | 5,3 | 7,1 | 31.12.2008 |
| 10 | 10 | Procter & Gamble | ABŞ | Ev üçün mallar | 138 012,6 | 83 503,0 | 12 075,0 | 143 992,0 | 138 000 | 47,1 | 12,2 | 3,1 | 30.06.2008 |
| 11 | 19 | Chevron | ABŞ | Neft və qaz | 134 786,4 | 264 958,0 | 23 931,0 | 161 165,0 | 67 000 | 67,2 | 5,7 | 3,8 | 31.12.2008 |
| 12 | 13 | Berkshire Hathaway | ABŞ | Sığorta | 133 664,6 | Məlumat yoxdur | 4 994,0 | 267 399,0 | 246 000 | 86 700,0 | 26,9 | - | 31.12.2008 |
| 13 | 20 | China Construction Bank | Çin | Banklar | 133 228,6 | Məlumat yoxdur | 13 530,6 | 1 104 009,0 | 298 581 | 0,6 | 9,7 | 5,0 | 31.12.2008 |
| 14 | 27 | IBM | ABŞ | Proqram təminatı və xidmətlər | 129 995,1 | 103 630,0 | 12 334,0 | 109 524,0 | 398 455 | 96,9 | 10,7 | 2,0 | 31.12.2008 |
| 15 | 14 | Nestle | İsveçrə | Ərzaq istehsalı və emalı | 129 613,8 | 94 918,5 | 15 578,8 | 91729,2 | 283 000 | 33,8 | 8,0 | 3,6 | 31.12.2008 |
| 16 | 16 | BP | Böyük Britaniya | Neft və qaz | 126 660,1 | 361 143,0 | 21157,0 | 228 238,0 | 95 700 | 6,8 | 6,0 | 9,1 | 31.12.2008 |
| 17 | 12 | Petrobras | Braziliya | Neft və qaz | 123 856,5 | 98 623,0 | 15 123,5 | 133 945,0 | 74 240 | 15,4 | 8,9 | 3,4 | 31.12.2008 |
| 18 | 24 | Roche | İsveçrə | Əczaçılıq və biotexnologiyalar | 119 364,5 | 39 395,6 | 7745,8 | 65 711,8 | 67 695 | 137,4 | 15,3 | 3,1 | 31.12.2008 |

| 2009- cu ildə tutduğu yer | 2008-ci ildə tutduğu yer | Şirkət | Ölkə | Sektor | Bazar kapital-laşması, mln. dollar | Dövriyyə mln. dollar | Xalis mənfəət mln. dollar | Məcmu aktivləri, mln. dollar | İşçilərin sayı | Səhmin qiyməti, dollar | Q/G ** | Dividend gəlirliyi, % | Maliyyə ilinin sonu |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 19 | 21 | BHP Biliton | Avstraliya/ Britaniya | Dağ-mədən sənayesi | 118 221,7 | 59 473,0 | 15 390,0 | 75 889,0 | 41 732 | 22,2 | 8,1 | 3,2 | 30.06.2008 |
| 20 | 18 | Total | Fransa | Neft və qaz | 117 854,1 | 210 826,1 | 13 925,3 | 155 570,9 | 96 959 | 49,7 | 8,0 | 6,0 | 31.12.2008 |
| 21 | 26 | Bank of China | Çin | Banklar | 115 243,1 | Məlumat yoxdur | 9404,3 | 1 015 785,0 | 249 278 | 0,3 | 9,1 | 5,7 | 31.12.2008 |
| 22 | 22 | Toyota Motor | Yaponiya | Avtomobil qayırma | 108 917,1 | 261 836,8 | 17 109,8 | 323 279,8 | 316 121 | 31,6 | 5,9 | 4,4 | 31.03.2008 |
| 23 | 3 | General Electric | ABŞ | Sənaye konqlo meratları | 106 765,8 | 180 929,0 | 17 410,0 | 797 769,1 | 323 000 | 10,1 | 5,9 | 12,3 | 31.12.2008 |
| 24 | 37 | Sinopec | Çin | Neft və qaz | 101 805,3 | 207 538,5 | 4349,9 | 112 195,5 | 358 304 | 0,6 | 12,9 | 2,7 | 31.12.2008 |
| 25 | 34 | Coca-Cola | ABŞ | İçkilər, alkoqol | 101 729,2 | 31 944,0 | 5807,0 | 40 519,0 | 92 400 | 44,0 | 17,5 | 3,5 | 31.12.2008 |
| 26 | 38 | Novartis | İsveçrə | Əczaçılıq və biotexnologiyalar | 100 159,6 | 41 459,0 | 8195,0 | 78 299,0 | 96 717 | 37,9 | 10,5 | 4,9 | 31.12.2008 |
| 27 | 31 | JP Morgan Chase | ABŞ | Banklar | 99 885,4 | Məlumat yoxdur | 5605,0 | 2 175 052,0 | 224 961 | 26,6 | 30,9 | 3,2 | 31.12.2008 |
| 28 | 32 | Cisco Systems | ABŞ | Kompüterlər, İT avadanlığı | 97 886,6 | 39 540,0 | 8052,0 | 58 734,0 | 66 129 | 16,8 | 12,4 | - | 26.07.2008 |

| 2009- cu ildə tutduğu yer | 2008-ci ildə tutduğu yer | Şirkət | Ölkə | Sektor | Bazar kapital-laşması, mln. dollar | Dövriyyə mln. dollar | Xalis mənfəət mln. dollar | Məcmu aktivləri, mln. dollar | İşçilərin sayı | Səhmin qiyməti, dollar | Q/G ** | Divident gəlirliyi, % | Maliyyə ilinin sonu |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 29 | 15 | HSBC | Böyük Britaniya | Banklar | 97 408,9 | Məlumat yoxdur | 5728,0 | 2 527 465,0 | 331458 | 5,7 | 12,0 | 12,6 | 31.12.2008 |
| 30 | 61 | Volkswagen | Almaniya | Avtomobil qayırma | 96 625,8 | 149 651,0 | 6249,9 | 220 803,9 | 357 207 | 307,1 | 19,6 | 0,8 | 31.12.2008 |
| 31 | 50 | China Life Insurance | Çin | Həyat Sığortası | 94 731,8 | Məlumat yoxdur | 3109,0 | 152 671,1 | 102 241 | 3,3 | 30,3 | 1,0 | 31.12.2008 |
| 32 | 35 | Telefonica | İspaniya | Təsbit olunmuş rabitə xidmətləri | 93 828,1 | 76 195,7 | 9983,0 | 131357,5 | 251 775 | 19,9 | 9,3 | - | 31.12.2008 |
| 33 | 39 | Apple | ABŞ | İçkilər, alkoqol | 93 615,0 | 32 479,0 | 4834,0 | 39 572,0 | 35 100 | 105,1 | 19,2 | - | 27.09.2008 |
| 34 | 28 | Vodafone Group | Böyük Britaniya | Mobil rabitə xidməti | 92 342,0 | 51918,5 | 9746,2 | 186 246,9 | 72 375 | 1,8 | 9,6 | 6,9 | 31.03.2008 |
| 35 | 33 | Pfizer | ABŞ | Əczaçılıq və biotexnologi... | 91 870,5 | 48 296,0 | 8104,0 | 111148,0 | 81800 | 13,6 | 11,4 | 9,4 | 31.12.2008 |
| 36 | 4 | Газпром | Rusiya | Neft və qaz | 91 498,0 | 70 854,1 | 19 504,4 | 201 333,3 | 436 100 | 3,9 | 4,6 | 2,0 | 31.12.2008 |
| 37 | 62 | Oracle Corporation | ABŞ | Proqram təminatı və xidmətlər | 90 050,2 | 22 430,0 | 5521,0 | 47 268,0 | 84 233 | 18,1 | 16,7 | - | 31.05.2008 |
| 38 | 55 | Verizon | ABŞ | Təsbit | 85 785,1 | 97 354,0 | 6428,0 | 202 352,0 | 223 900 | 30,2 | 13,4 | 5,9 | 31.12.2008 |

| 2009- cu ildə tutduğu yer | 2008-ci ildə tutduğu yer | Şirkət | Ölkə | Sektor | Bazar kapital-laşması, mln. dollar | Dövriyyə mln. dollar | Xalis mənfəət mln. dollar | Məcmu aktivləri, mln. dollar | İşçilərin sayı | Səhmin qiyməti, dollar | Q/G ** | Dividend gəlirliyi, % | Maliyyə ilinin sonu |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Communications | | olunmuş rabitə xidmətləri | | | | | | | | | |
| 39 | 56 | Google | ABŞ | Proqram təminatı və xidmətlər | 83 634,9 | 21 795,6 | 4226,9 | 31 767,6 | 20 222 | 384,1 | 25,9 | - | 31.12.2008 |
| 40 | 42 | Intel Corporation | ABŞ | Kompüterlər, İT avadanlığı | 83 596,8 | 37 586,0 | 5292,0 | 50 715,0 | 83 900 | 15,0 | 16,2 | 3,6 | 27.12.2008 |
| 41 | 47 | GlaxoSmith Kline | Böyük Britaniya | Əczaçılıq və biotexnologiyalar | 80 874,6 | 35 636,7 | 6734,6 | 57 647,7 | 101 133 | 15,6 | 12,0 | 5,9 | 31.12.2008 |
| 42 | 46 | PepsiCo | ABŞ | İçkilər, alkoqol | 80 117,9 | 43 251,0 | 5142,0 | 35 994,0 | 198 000 | 51,5 | 15,8 | 3,2 | 27.12.2008 |
| 43 | 36 | Eni | İtaliya | Neft və qaz | 77 748,5 | 142 263,7 | 11 604,4 | 153 315,9 | 78 880 | 19,4 | 6,1 | - | 31.12.2008 |
| 44 | 48 | Hewlett-Packard | ABŞ | Kompüterlər, İT avadanlığı | 76 835,4 | 118 364,0 | 8329,0 | 113 331,0 | 321 000 | 32,1 | 9,6 | 1,0 | 31.10.2008 |
| 45 | 117 | GDF Suez | Fransa | Kommunal xidmətləri | 75 288,8 | 109 210,0 | 8552,4 | 219 858,5 | 234 653 | 34,3 | 8,8 | 8,4 | 31.12.2008 |
| 46 | 59 | Sanofi-Aventis | Fransa | Əczaçılıq və biotexnologiyalar | 74 022,5 | 36 250,4 | 5063,8 | 94 658,8 | 99 495 | 56,3 | 14,6 | 5,1 | 31.12.2008 |

| 2009- cu ildə tutduğu yer | 2008-ci ildə tutduğu yer | Şirkət | Ölkə | Sektor | Bazar kapital-laşması, mln. dollar | Dövriyyə mln. dollar | Xalis mənfəət mln. dollar | Məcmu aktivləri, mln. dollar | İşçilərin sayı | Səhmin qiyməti, dollar | Q/G ** | Dividend gəlirliyi, % | Maliyyə ilinin sonu |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 47 | 76 | Abbott Laboratories | ABŞ | Əczaçılıq və biotexnologiyalar | 73 714,7 | 29 527,6 | 4880,7 | 42 419,2 | 69 000 | 47,7 | 15,6 | 3,0 | 31.12.2008 |
| 48 | 29 | EOF | Fransa | Elektro energetika | 71 454,5 | 84 523,2 | 4470,8 | 263 367,3 | 155 931 | 39,2 | 15,9 | - | 31.12.2008 |
| 49 | 54 | Philip Morris international | ABŞ | Tütün məmulatları | 71 300,5 | 63 640,0 | 6890,0 | 32 972,0 | 75 600 | 35,6 | 10,7 | 8,3 | 31.12.2008 |
| 50 | 25 | Vale do Rio Doce | Braziliya | Metallurgiya | 68 351,3 | 32 340,1 | 9756,0 | 85 172,0 | 62 490 | 13,5 | 7,2 | 3,7 | 31.12.2008 |
| 51 | 58 | 5amsung Electronics | Cənubi Koreya | Kompüterlər, İT avadanlığı | 65 693,1 | 74 503,3 | 5612,3 | 70 621,3 | 84 721 | 410,6 | 11,0 | 1,4 | 31.12.2007 |
| 52 | 99 | Qualcomm | ABŞ | Kompüterlər, İT avadanlığı | 64 180,1 | 11 142,0 | 3160,0 | 24 563,0 | 15 400 | 38,9 | 20,1 | 1,5 | 30.09.2008 |
| 53 | 104 | McDonald's | ABŞ | Əyləncə və səyahətlər | 60 770,3 | 23 522,4 | 4313,2 | 28 461,5 | 400 000 | 54,6 | - | - | 31.12.2008 |
| 54 | 64 | Wells Fargo | ABŞ | Banklar | 60 345,9 | Məlumat yoxdur | 2655,0 | 1 309 639,0 | 158 900 | 14,2 | 20,3 | 9,1 | 31.12.2008 |
| 55 | 72 | France Telecom | Fransa | Təsbit olunmuş rabitə | 59 539,5 | 70 333,7 | 5350,5 | 125 307,5 | 182 793 | 22,8 | 11,1 | 5,8 | 31.12.2008 |

| 2009- cu ildə tutduğu yer | 2008-ci ildə tutduğu yer | Şirkət | Ölkə | Sektor | Bazar kapital-laşması, mln. dollar | Dövriyyə mln. dollar | Xalis mənfəət mln. dollar | Məcmu aktivləri, mln. dollar | İşçilərin sayı | Səhmin qiyməti, dollar | Q/G | Dividend gəlir-liyi, % | Maliyyə ilinin sonu |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | xidmətləri | | | | | | | | | |
| 56 | 92 | NTT DoCoMo | Yaponiya | Mobil rabitə xidməti | 59 492,9 | 46 929,1 | 4892,3 | 61 859,0 | 22 100 | 1353,7 | 11,9 | - | 31.03.2008 |
| 57 | 95 | Nippon Telegrarh & Telephone | Yaponiya | Təsbit olunmuş rabitə xidmətləri | 59 445,9 | 106 380,0 | 6326,1 | 184 444,2 | 193 831 | 37,8 | - | 0,2 | 31.03.2008 |
| 58 | 45 | Conoco Phillips | ABŞ | Neft və qaz | 57 966,2 | 240 842,0 | -16 998,0 | 142 865,0 | 33 800 | 39,2 | - | 4,8 | 31.12.2008 |
| 59 | 52 | China Shenhua Energy | Çin | Dağ-mədən sənayesi | 57 610,7 | 15 654,4 | 3892,8 | 40 262,1 | 59 543 | 2,3 | 11,5 | 3,0 | 31.12.2008 |
| 60 | 132 | Wyeth | ABŞ | Əczaçılıq və biotexnologiyalar | 57 304,1 | 22 833,9 | 4417,8 | 44 031,7 | 47 426 | 43,0 | 13,0 | 2,6 | 31.12.2008 |
| 61 | 79 | Merck | ABŞ | Əczaçılıq və biotexnologiyalar | 56 381,3 | 23 850,3 | 7808,4 | 47 195,7 | 55 200 | 26,8 | 7,3 | 5,7 | 31.12.2008 |
| 62 | 40 | Banco Santander | İspaniya | Banklar | 56 198,9 | Məlumat yoxdur | 11 671,4 | 1 380 206,0 | 170 961 | 6,9 | - | - | 31.12.2008 |
| 63 | 66 | Statoil Hydro | Norveç | Neft və qaz | 56 150,1 | 97 636,4 | 6479,1 | 86 621,4 | 29 496 | 17,6 | 8,7 | 6,2 | 31.12.2008 |

| 2009- cu ildə tutduğu yer | 2008-ci ildə tutduğu yer | Şirkət | Ölkə | Sektor | Bazar kapital-laşması, mln. dollar | Dövriyyə mln. dollar | Xalis mənfəət mln. dollar | Məcmu aktivləri, mln. dollar | jşçHərin sayı | Səhmin qiyməti, dollar | Q/G ** | Dividend gəlirliyi, % | Maliyyə ilinin sonu |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 64 | 67 | Mitsubishi UFJ Financial | Yaponiya | Banklar | 56 136,7 | Məlumat yoxdur | 6340,7 | 1 922 182,0 | 78 302 | 4,8 | 7,9 | 2,9 | 31.03.2008 |
| 65 | 41 | E.On | Almaniya | Kommunal xidmətləri | 55 552,7 | 114 075,2 | 1664,7 | 206 505,2 | 91 546 | 27,8 | 31,0 | 7,1 | 31.12.2008 |
| 66 | 60 | Unilever | Niderland/B ritaniya | Ərzaq istehsalı və emalı | 54 523,6 | 53 285,4 | 6610,2 | 47 524,7 | 174 000 | 19,7 | 8,4 | 5,1 | 31.12.2008 |
| 67 | 88 | Deutshe Telecom | Almaniya | Mobil rabitə xidməti | 54 141,9 | 81 087,3 | 1950,1 | 161922,1 | 234 887 | 12,4 | 27,8 | 8,3 | 31.12.2008 |
| 68 | 63 | Siemens | Almaniya | Sənaye konqlo meratları | 52 205,5 | 101 680,6 | 7528,0 | 124 213,5 | 420 800 | 57,1 | 6,8 | 3,7 | 30.09.2008 |
| 69 | 30 | Rio Tinto | Avstraliya/B ritaniya | Dağ-mədən sənayesi | 51590,6 | 54 264,0 | 3676,0 | 89 616,0 | 105 785 | 33,7 | 11,8 | 4,5 | 31.12.2008 |
| 70 | 176 | Amgen | ABŞ | Əczaçılıq və biotexnologi yalar | 51 201,9 | 15 003,0 | 4196,0 | 36 443,0 | 16 900 | 49,5 | 12,6 | - | 31.12.2008 |

| 2009- cu ildə tutduğu yer | 2008-ci ildə tutduğu yer | Şirkət | Ölkə | Sektor | Bazar kapital-laşması, mln. dollar | Dövriyyə mln. dollar | Xalis mənfəət mln. dollar | Məcmu aktivləri, mln. dollar | İşçilərin sayı | Səhmin qiyməti, dollar | Q/G ** | Dividend gəlirliyi, % | Maliyyə ilinin sonu |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 71 | 136 | AstraZeneca | Böyük Britaniya | Əczaçılıq və biotexnologiyalar | 50 858,0 | 31601,0 | 6101,0 | 46 784,0 | 66 100 | 35,1 | 8,4 | 6,5 | 31.12.2008 |
| 72 | 84 | BG Group | Böyük Britaniya | Neft və qaz | 50 775,7 | 18 389,1 | 4576,1 | 36 579,1 | 5395 | 15,1 | 11,1 | 1,2 | 31.12.2008 |
| 73 | 102 | Goldman Sachs | ABŞ | ixtisaslaşmış maliyyə xidmətləri | 48 958,3 | Məlumat yoxdur | 2322,0 | 884 547,1 | 30 067 | 106,0 | 22,7 | 1,3 | 28.11.2008 |
| 74 | 57 | Schlumberger | ABŞ | Neft avadanlığı və xidmətlər | 48 588,3 | 27 163,0 | 5435,0 | 31 991,0 | 87 000 | 40,6 | 8,9 | 2,1 | 31.12.2008 |
| 75 | 80 | Reliance Industries | Hindistan | Neft və qaz | 47 249,6 | 27 433,1 | 3914,1 | 34 996,8 | 25 487 | 30,0 | 11,1 | 0,9 | 31.03.2008 |
| 76 | 65 | Роснефть | Rusiya | Neft və qaz | 46 631,9 | 68 991,0 | 11 120,0 | 77 513,0 | 161 912 | 4,4 | 3,8 | - | 31.12.2008 |
| 77 | 85 | British American Tobacco | Böyük Britaniya | Tütün məmulatları | 46 154,3 | 17 739,3 | 3595,6 | 40 318,1 | 96 381 | 23,1 | 12,8 | 5,9 | 31.12.2008 |
| 78 | 112 | Monsanto | ABŞ | Ərzaq istehsalı və emalı | 45 482,2 | 11365,0 | 2024,0 | 17 991,0 | 21 700 | 83,1 | 22,5 | 1,0 | 31.08.2008 |
| 79 | 116 | Occidental Petroleum | ABŞ | Neft və qaz | 45 092,9 | 24 217,0 | 6857,0 | 41 537,0 | 10 400 | 55,7 | 6,6 | 2,2 | 31.12.2008 |

| 2009- cu ildə tutduğu yer | 2008-ci ildə tutduğu yer | Şirkət | Ölkə | Sektor | Bazar kapital-laşması, mln. dollar | Dövriyyə mln. dollar | Xalis mənfəət mln. dollar | Məcmu aktivləri, mln. dollar | İşçilərin sayı | Səhmin qiyməti, dollar | Q/G ** | Dividend gəlirliyi, % | Maliyyə ilinin sonu |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 80 | 101 | CIMOOC | Honkonq | Neft və qaz | 44 265,7 | 18 407,9 | 6484,1 | 30 198,6 | 3584 | 1,0 | 6,9 | 5,9 | 31,12.2008 |
| 81 | 43 | Nokia | Finlandiya | Kompüterlər, İT avadanlığı | 44 153,3 | 66 680,8 | 5244,0 | 52 048,1 | 121723 | 11,8 | 8,4 | 4,5 | 31.12.2008 |
| 82 | 139 | Anheuser- Busch Inbev | Belçika | içkilər, alkoqol | 44 136,3 | 21173,2 | 1 693,6 | 106 922,0 | 119 874 | 27,5 | 21,7 | - | 31.12.2008 |
| 83 | 23 | Bank of America | ABŞ | Banklar | 43 657,4 | Məlumat yoxdur | 4 008,0 | 1 817 943,0 | 243 000 | 6,8 | 12,2 | 8,2 | 31.12.2008 |
| 84 | 109 | SAP | Almaniya | Proqram təminatı və xidmətlər | 43 420,6 | 15 207,3 | 2456,3 | 18 668,2 | 51 530 | 35,4 | 17,2 | 1,9 | 31.12.2008 |
| 85 | 195 | Bristol-Myers-Squibb | ABŞ | Əczaçılıq və biotexnologiyalar | 43 390,8 | 20 597,0 | 5247,0 | 29 552,0 | 35 000 | 21,9 | 13,3 | 5,7 | 31.12.2008 |
| 86 | 147 | Honda Motor | Yaponiya | Avtomobil qayırma | 43 005,2 | 119 546,4 | 5976,3 | 125 648,9 | 178 960 | 23,4 | 7,1 | 3,7 | 31.03.2008 |
| 87 | 140 | Ping An Insurance | Çin | Həyat sığortası | 42 662,9 | Məlumat yoxdur | 2730,7 | 101 013,0 | 82 808 | 6,0 | 32,2 | 1,7 | 31.12.2007 |
| 88 | 142 | Itau Unibanco | Braziliya | Banklar | 42 580,8 | Məlumat yoxdur | 3577,6 | 290 079,8 | 108 000 | 11,1 | 12,8 | 3,6 | 31.12.2008 |
| 89 | 164 | Gilead Sciences | ABŞ | Əczaçılıq və biotexnologiyalar | 42 195,4 | 5335,8 | 2011,2 | 7 018,6 | 3441 | 46,3 | 21,2 | - | 31.12.2008 |

| 2009- cu ildə tutduğu yer | 2008-ci ildə tutduğu yer | Şirkət | Ölkə | Sektor | Bazar kapital-laşması, mln. dollar | Dövriyyə mln. dollar | Xalis mənfəət mln. dollar | Məcmu aktivləri, mln. dollar | İşçilərin sayı | Səhmin qiyməti, dollar | Q/G ** | Divid end gəlirliyi, % | Maliyyə ilinin sonu |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 90 | 82 | L'Oreal | Fransa | Şəxsi istifadə malları | 41 158,4 | 23 066,5 | 2561,9 | 30 187,0 | 67 662 | 68,8 | 15,8 | 2,8 | 31.12.2008 |
| 91 | 114 | Royal Bank Canada | Kanada | Banklar | 41 129,2 | Məlumat yoxdur | 3711,3 | 589 775,3 | 73 323 | 29,2 | 10,5 | 5,6 | 31.10.2008 |
| 92 | 90 | Nintendo | Yaponiya | istirahət üçün mallar | 40 950,2 | 16 657,1 | 2563,1 | 17 952,5 | 3768 | 289,1 | 14,4 | 4,3 | 31.03.2008 |
| 93 | 96 | United Technologies | ABŞ | Aerokosmik və müdafiə sənayesi | 40 554,1 | 58 043,0 | 4689,0 | 56 469,0 | 223 100 | 43,0 | 8,6 | 3,1 | 31.12.2008 |
| 94 | 105 | Bank of Communications | Çin | Banklar | 40 409,7 | Məlumat yoxdur | 4148,8 | 392 034,4 | 77 734 | 0,7 | 8,2 | 4,2 | 31.12.2008 |
| 95 | 124 | CVS/Caremark | ABŞ | Ərzaq və dərmanla pəra kəndə ticarət | 40 012,1 | 87 471,9 | 3212,1 | 60 959,9 | 215 000 | 27,5 | 12,3 | 0,8 | 31.12.2008 |
| 96 | 168 | Home Depot | ABŞ | Parakəndə ticarət | 39 945,0 | 71 288,0 | 2260,0 | 41164,0 | 322 000 | 23,6 | 17,6 | 3,8 | 01.02.2009 |
| 97 | 226 | Teva Pharmaceutical Industries | israil | Əczaçılıq və biotexnologiyalar | 39 785,3 | 11 085,0 | 635,0 | 32 904,0 | 38 307 | 44,7 | 55,1 | 1,2 | 31.12.2008 |

| 2009- cu ildə tutduğu yer | 2008-ci ildə tutduğu yer | Şirkət | Ölkə | Sektor | Bazar kapital-laşması, mln. dollar | Dövriyyə mln. dollar | Xalis mənfəət mln. dollar | Məcmu aktivləri, mln. dollar | İşçilərin sayı | Səhmin qiyməti, dollar | Q/G ** | Dividend gəlirliyi, % | Maliyyə ilinin sonu |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 98 | 94 | RWE | Almaniya | Kommunal xidmətləri | 39 125,8 | 62 459,8 | 3363,6 | 122 855,1 | 65 254 | 70,1 | 11,2 | 8,4 | 31.12.2008 |
| 99 | 146 | Taiwan Semiconductor Manufacturing | Tayvan | Kompüterlər, İT avadanlığı | 38 840,8 | 9627,1 | 2887,7 | 16 150,7 | 24 834 | 1,5 | 13,6 | - | 31.12.2008 |
| 100 | 204 | Westpac Banking | Avstraliya | Banklar | 38 605,0 | Məlumat yoxdur | 2765,8 | 315 033,1 | 28 302 | 13,3 | 9,0 | 7,7 | 30.09.2008 |

Financial Times Global 500, May 2009.

* Q/G - Qiymət/Gəlir nisbəti (P/E - Price to

Cədvəlin məlumatları öz fəaliyyəti ilə bütün dünyanı əhatə edən müasir TMK-nm böyük qüdrətini təsdiqləyir. UNCTAD-2010 Hesabatına əsasən, 2009-cu ildə dünyada 850 min xarici filialı olan 90 min TMK fəaliyyət göstənnişdir. Onların XBİ idxalının ümumi həcmi 17,7 trilyon dollardan çox, ixracı isə 18,9 trilyon dollar olmuşdur. Böhrana baxmayaraq, dünyada ən iri 100 TMK, əvvəlki kimi, bütün TMK-m məcmu beynəlxalq istehsalının əhəmiyyətli hissəsini (2009-cu ildə 5,8 trilyon dollar, 2008-ci ildə 60,1 trilyon dollar) təmin edir. Müqayisə üçün: 2009-cu ildə DDM 55 trilyon dollar (2008- ci ildə - 60,7 trilyon dollar) olmuşdur. TMK-nm xarici filiallarında məşğulluq 79,9 milyon nəfər (1990-cı ildə 24,4 milyon nəfər) idi.

Milli mənsubiyyətə görə dəyişikliklər də maraqlıdır: qlobal şirkətlərin birinci yüzlüyündə cəmi 36 şirkət qalmış, bura Çin (10), Braziliya (3) və Asiya ölkələrindən (15), Almaniya (5), Fransa (5), Avstraliya TMK-sı daxil edilmişdir. Ənənəvi olaraq, siyahıda ingilis (10) və yapon (6) korporasiyaları təmsil edilsə də, onların payı son onillikdə azalır (1990-cı ildə ilk yüzlükdə yapon mənşəli 18 TMK var idi); siyahıda İsveçrə (3), İspaniya (2), Cənubi Koreya, İtaliya, Belçika, Noı-veç, Finlandiya və İsrailin (hər ölkədən 1) TMK-sı daxildir.

500 TMK-dan ibarət siyahı götürüldükdə isə orada Amerikanın TMK-sı dominantdır; ikinci yerdə yapon şirkətləridir; bundan sonra Britaniya, Çin, Fransa, Almaniya, Kanada, Braziliya, Cənubi Koreya, İtaliya və Hindistanın şirkətləri gəlir. Siyahıya sürətlə inkişaf etməkdə olan ölkələrin birinci və ikinci dalğasını təmsil edən Cənubi Koreya, CAR, Tayvan və Honkonq (Çin əyalətləri); Malayziya, Sinqapur («Asiya pələngləri»); Braziliya, Argentina, Çili, Meksika («Latın Amerikası pumaları»); BƏR, Küveyt, Misir, Səudiyyə Ərəbistanı, Livan və Oman («Ərəb gepardları») daxil edilmişdir. Bu siyahıda «FaanpoMwun başçılığı ilə Rusiyanın TMK-nm kiçik qrupu da vardır.

100 ən iri korporasiyanın sektor mənsubiyyətinə gəldikdə isə onların əksəriyyəti yenə də emal sənayesi sahələrində fəaliyyət göstərir. Bu sahələrin ən böyük istehsalçıları sırasına «General Motors», «Toyota Motor Corporation» və «Ford Motor Company» daxil idi. Bununla belə, həmin yüzlükdə xidmətlər sektorundan olan TMK-lar payını dunnadan artırır. Əgər 1993-cü ildə bu siyahıda 14 bu cür şirkət vardısa, 2008-ci ildə onların sayı 26- ya çatmış və ən böyükləri «Vodafon Croup» və «Electricité de France» olmuşdur. Xarici aktivləri böyük həcmdə olduğuna görə, ilkin (neft) sektorun

«Royal Dutch/Shell Group», «British Petroleum» və «Exxson Mobile Corporation» kimi şirkətləri bu siyahıda yüksək mövqe tuturdu. İnkişaf etməkdə olan ölkələrdən isə bu cür TMK-lar siyahısına 7 şirkət, o cümlədən «Hutchison Whampoa Limited» və «CITY Group» kimi şaxələndirilmiş şirkətlər və «LG Corporation» və «Samsung Electronics» kimi elektronika məhsulları istehsalçıları düşmüşdür.

***Qlobal böhranın nəticələri.*** UNCTAD-ın «Ümumdünya investisiyaları haqqında» 2009-cu il Hesabatında göstərilir ki, bütöv bir nəslin həyatında baş vermiş dərin iqtisadi böhran dünyanın təqribən 82000 transmilli korporasiyasında (TMK) və onların 810000 xarici filialında malların və xidmətlərin beynəlxalq istehsalının artımının səngiməsinə səbəb olmuşdur. İllik tədqiqatda 2008-ci ilin və 2009-cu ilin əvvəlindəki böhranın ciddi nəticələrinin TMK-lar tərəfindən hiss edildiyi qeyd olunur. Transmilli şirkətlər arasında mənfəətin aşağı düşməsi, investisiyaların geri götürülməsinin və işçilərin işdən çıxarılmasının miqyasının genişlənməsi kimi təzahürlər, habelə bir sıra iri restruktizasiya və müflisləşmə halları müşahidə olunmuşdur. Bunlara baxmayaraq, TMK-nm xarici filialları qlobal iqtisadiyyat üçün əhəmiyyətini nümayiş etdirir: onlar ümumdünya ÜDM-nin ən azı 10%-ni və təqribən 78 milyon nəfəri iş yeri ilə təmin edir, bu isə, Almaniya kimi sənayeləşmiş ölkənin iqtisadi fəal əhalisindən 2 dəfə çoxdur.

1990-2008-ci illərdəki dövrdə XBİ-nin ümumi həcmi sürətlə artsa da, TMK-nm xarici filiallarında işləyənlərin sayı təqribən 3 dəfə çoxalmışdır. Xarici filiallarda işləyənlərin ən böyük sayı Çindədir. Bununla yanaşı, inkişaf etmiş ölkələrdəki TMK-da məşğulluq azalır. Belə ki, 2001-2007-ci illərdə xarici şirkətlərin ABŞ-da yerləşən filiallarında işləyənlərin sayı yarım milyondan çox azalmış və 5 milyon nəfər təşkil etmişdir. Bu, ətraf mühiti çirkləndirən bir sıra istehsalların inkişaf etməkdə olan ölkələrə köçürülməsinin nəticəsidir. ABŞ-m şirkətləri xaricdə birbaşa investisiyaların ən böyük sərmayəçisi olduğuna görə, xarici filialların yerləşdiyi bütün ölkələr arasında ən çox iş yeri (9,2 milyon) onun xarici filialları tərəfindən yaradılmışdır (2001- 2008-ci illərdə).

***TMK-mn ekspansiyasının səciyyəvi cəhəti,*** malların istehsalının öz nəzarəti altında olan xarici korporasiya və fımıalarda təşkil olunmasıdır. Bu məqam onların perspektiv gördükləri hallarda dinamik artımını şərtləndirir. Xarici bazarlarda əməliyyatlar aparan milli firmanın, bir qayda kimi, xarici

filialları və kapital qoyuluşları yoxdur, gəlirlərini öz ölkəsində istehsal olunan malların və xidmətlərin satışından əldə edir. TMK isə çoxsaylı ölkələrdən olan işçilərin əməyindən bilavasitə istehsal prosesində istifadə edir, yəni milli fımıaya yalnız məhsul satışı prosesinin beynəlmiləlləşməsi xas olduğu halda, TMK üçün *istehsal prosesinin öziiniin beynəlmiləlləşməsi səciyyəvidir.*

Məhsuldar qüvvələrin beynəlmiləlləşməsinə həlledici dərəcədə təsir göstərən və keyfiyyətcə yeni təzahürün - dünya iqtisadiyyatının qloballaşmasının inkişafına imkan yaradan transmilli korporasiyalar özündə istehsal amillərinin təkamülünün sürətlənməsini, intensivləşməsini və inteqrasiyasını təcəssüm edir. Eyni zamanda TMK infonnasiya texnologiyaları inqilabının baş verdiyi şəraitdə məhsuldar qüvvələrin inkişafı nəticəsində yüksələn beynəlxalq səviyyəyə istehsal amillərinin uyğunlaşma dərəcəsini də əks etdirir. Onların beynəlxalq səviyyəyə ayrı-ayrı milli kapitalların qovuşması zəminində şaxələndirihniş inhisarlaşma formasında uyğunlaşması, artıq milli sərhədlər çərçivəsində adekvat surətdə inkişaf edə bilməyən istehsal amillərinin (məhsuldar qüvvələrin) tərəqqisi üçün geniş meydan açır. Ancaq inhisarlaşma, qəti surətdə «ultrainhisarlaşma» yolu ilə gedən birxətli proses deyil. Bunun yanında dövlətin, habelə başqa «mühitin», o cümlədən başlıca olaraq məhz TMK-nm fəaliyyəti nəticəsində yaranan qlobal böhran nəticəsində xeyli güclənən ictimai rəy amilinin təsirini özündə ehtiva edən əks-inhisar prosesləri inkişaf edir.

***TMK-nm strategiyaları.*** *Korporasiyanın strategiyaları* - onun öz məqsədlərinə nail olmaq üçün, dəyişən bazar şəraitində istifadə etdiyi üsullar və metodlardır. Strategiyalarını reallaşdırmaq üçün beynəlxalq korporasiyalar investisiya qoyuluşlarının müxtəlif modellərindən istifadə edir:

- «sıfırdan» investisiya qoyuluşları;
- transplantasiya;
- strateji alyanslar;
- beynəlxalq qovuşmalar və əldəetmələr;
- beynəlxalq çarpazlaşdımıalar.

*«.Sıfırdan» investisiya qoyuluşları* - müxtəlif ölkələrdə yeni müəssisələrin inşa edilməsidir.

*Transplantasiya* - ayrı-ayrı (əsasən quraşdınna) istehsalların qəbul edən ölkəyə köçürülməsidir. Dünya təcrübəsində bu strateji modeli ilk dəfə Yaponiyanın və Cənubi Koreyanın avtomobilqayırma TMK-sı tətbiq etmişdir.

Bu gün Çexiya, Polşa və Macarıstanın zavodları alman və italyan firmaları üçün malları Aİ-yə yenidən ixrac edən yığma sexlərinə çevrilmişdir.

***Strateji alyanslar*** - müəyyən sahələrdə qlobal bazara istiqamətlənmiş rəqabət məsələlərinin birgə həlli üçün yaradılan, lakin digər sahələrdə rəqibabəti davam etdirməyə imkan verən müxtəlif növ firmalararası çevik ittifaqlardır. Strateji alyansların yaradılmasının konkret məqsədlərini bir neçə əsas mövqe üzrə qruplaşdınnaq olar;

• fınualarm ETTKİ sahəsində beynəlxalq əməkdaşlığına əsaslanan texnoloji alyanslar; firmalararası koalisiyaların 38%-i bunların payına düşür;

• müştərək istehsal barədə sazişlər (24%). İstehsal alyanslarının çoxu məhsul buraxılışının miqyası hesabına qənaət əldə olunmasına çalışır. Belə vəziyyətdə firmalar bir halda istehsal zəncirinin müəyyən həlqələrini birləşdirib, qalan əməliyyatlarda tam müstəqilliyini saxlaya, digər halda isə müştərək müəssisə yarada bilər.

• satış sahəsində sazişlər (8%). Satış alyanslarının əsas məqsədi iştirakçılarının qarşılıqlı rəqabətini aradan qaldırmaq yaxud məhdudlaşdırmaq deyil, strateji bazarlarda bir-birinin satış şəbəkələrinə daxil olmaq imkanı yaratmaqdır. «Strateji ailələr» öz aralarında rəqabət aparmayan, lakin strategiyaları bir-birini tamamlayan, bazarda müvəffəqiyyət əldə olunması üçün, qarşılıqlı asılılığı olan firmaların sahibkarlıq fəaliyyətinin ümumiləşmiş formasıdır.

***Beynəlxalq çarpazlaşmalar*** - həm TMK daxilində, həm də ondan kənarda mövcud olan qarşılıqlı əlaqələrin ən geniş yayılmış formasıdır. Bunun nəticəsində ümumi əlaqələri olan TMK qruplarının yaranması onların dayanıqlığını, mənfəətinin sabitliyini yüksəltsə də, iqtisadiyyatda rəqabətin zəifləməsi meylini formalaşdırır. Bu, «strateji ailələrin» yaradılmasının istiqamətlərindən biridir. Əslində söz TMK-nm fəaliyyəti sahəsində həddən ziyadə inhisarlaşmadan, dünya iqtisadiyyatında o qədər də müsbət olmayan prosesdən gedir. Onların fəaliyyətinə nəzarət mexanizminin kəskin zəifləməsi, iri şirkətlərin müdiri}q/ətinin fəaliyyətində 1960-1980-ci illərdə nadir baş verən dələduzluq hallarının 1990-cı illərdə və XXI əsrin birinci onilliyində geniş yayılması buradan irəli gəlir.

1980-ci illərə qədərki dövrdən fərqli olaraq, TMK-nm müasir strategiyaları əhəmiyyətli dərəcədə dəyişmişdir. Onların əsas istiqaməti mümkün qədər çox qazanc əldə etməkdir; yerləşdiyi ölkədə ərazilərin inkişafı,

məşğulluğun artması, texnologiyaların verilməsi və digər sosial, ekoloji məsələlər ikinci və üçüncü sıraya keçmişdir. Rəqabət qabiliyyətinin saxlanması və gücləndirilməsi, sahədə öncüllüyün ələ keçirilməsi, sərt münasibətlər TMK-nın fəaliyyətinin əsas elementlərinə çevrilmişdir. Onların strategiyalarına adətən bu elementlər daxildir:

- istehsalın standartlaşdırılması;
- istehsal güclərinin cəmləşdirilməsi;
- innovasiyalarm yalnız öz müəssisələrində tətbiq olunması;
- dünya üzrə səpələnmiş filialların fəaliyyətinin TMK-nm baş mənzil-qərargahından planlaşdırılması və əlaqələndirilməsi;
- öz sahəsində liderliyə istiqamətlənmə.

Bu strategiya eyni sahədə fəaliyyət göstərən TMK-lar arasında rəqabətin güclənməsinə gətirib çıxarır. Məsələn, Amerikanın («General Motors», «Ford»), Yaponiyanın («Toyota», «Mitsubishi»), Almaniyapm («Volkswagen», «Opel», «Mercedes-Benz »), Fransanın («Peugeot», «Citroën»), İtaliyanın («Fiat»), Cənubi Koreyanın («Kia Motors») avtomobilqayınna korporasiyaları arasında amansız mübarizə gedir. Qiymət rəqabəti sayəsində hər yerdə ənənəvi korporasiyaları sıxışdıran Çin şirkətləri ildırım sürəti ilə bu mübarizəyə qoşulmuşdur. Dünya avtomobil bazarı TMK-lar arasında bölünmüşdür. Dünyanın mülki aviasiyasında şəriksiz dominantlıq 2 TMK-nın - Amerikanın «Boeing» və Avropanın «Airbus» arasında bölüşdürülmüşdür.

Enerji, 0 cümlədən neft şirkətləri arasındakı rəqabət mübarizəsi daha amansızdır. Cəmiyyətin maraqlarına etinasızlıq, həddən atıq böjdik risk, qanunvericiliyin pozulması onların fəaliyyətində geniş yayılmış hallardır.

**16 aprel 2010-cu il tarixində Meksika körfəzinin şelfmdə, Luiziana ştatı sahilinin yaxınlığında nəhəng (■rBritish Petroleum» (BP) korporasiyasının neft platformasında qəza baş vermişdir. Dənizin dibindən çıxarılan neft geniş sel şəklində dənizə axmış, eni 200 km. olan «neft ləkəsi» ətrafdakı bütün canlıları - dəniz yosunlarını, balıqları, quşları məhv edərək, sahilə yaxınlaşmağa başlamışdı. BP-nin məlumatlarına görə, okeana sutkada 20 min ton, başqa mənbələrə əsasən isə 100 min ton barrel neft axırdı. Qəzanın aradan qaldırılması cəhdləri cüzi fayda verir, neftin körfəz sularına axması davam edirdi. Zərər nə qədər idi? Onu hesablamaq belə, çətinlik yaratsa da, 10 milyardlarla dollar həcmində olduğu aydın idi. Prezident Obama ABŞ hökumətinin günahkarın bu qlobal fəlakət nəticəsində dəyən ziyanı bütövlüklə ödəməyə məcbur**

**olunacağını bəyan etdi. Aydın idi ki, qəzanın əsas səbəbi neft nəhənginin təhlükəsizlik texnikası tədbirləri hesabına qənaətə cəhd göstərməsi idi. Bu isə, öz növbəsində, maksimum qazanc əldə etmək istəyindən irəli gəlirdi; dünyada TMK-nm fəaliyyətinin əsas amalı məhz budur. 2009-cu ildə Sibirdəki nəhəng Sayano-Şuşenskaya SES-də faciə baş verdi. Yeni sahiblər (Rusiya TMK-rı) düşünülməmiş özəlləşdirmə nəticəsində bu böyük SES-i ələ keçirərək, onun təhlükəsiz istismarı yollarını tapmaq barədə (bu isə, xeyli maliyyə vəsaiti tələb edir) fikirləşməmişlər. Analoji hadisə Kemerevo vilayətinin «Raspadskaya» şaxtasında olmuş, dərinlikdə baş verən partlayış böyük insan tələfatı ilə nəticələnmişdir. TMK-nın doğma sahillərdən uzaqda, İngiltərədə yaşayan sahibi də təhlükəsizlik tələblərinə etinasızlıqla yanaşmış və şaxtaçıların əmək haqqında qənaət etməyə çalışmışdır.** [*]

Ən iri TMK-lar açıq bəyan etməsələr də, sözsüz ki, *qlobal strategiya* həyata keçirir. Həmin strategiyanın tərkib hissələri bunlardır:

• TMK-nm və onun filiallarının fəaliyyətinin satış bazarları baxımından qlobal miqyasda planlaşdırılması;

• qəbul edən ölkənin maraqlarını nəzərə almadan, qlobal rəqabət mübarizəsinin hərtərəfli, çevik və texnoloji, o cümlədən komprador zümrənin nümayəndələrinin menecmentə cəlb olunması metodlarından istifadə edilməsi;

• ən çox qazanc gətirən sahələrdə fəaliyyət göstərilməsi, burada qabaqcıl elmi-texniki əsasda kifayət dərəcədə qapalı klasterlərin yaradılması;

• TMK-nm müəssisələri əsasında maliyyə mərkəzləri baş mənzil-qərargaha tabe edilən vahid beynəlxalq idarəçilik şəbəkəsinin yaradılması.

***TMK-nm fəaliyyətinə nəzarət.*** TMK-nm fəaliyyəti həmişə müxtəlif ölkələrin ictimaiyyəti tərəfindən narahatçılıqla qarşılanır. Onların fəaliyyətini tənzimləyən dəqiq müddəalar 1970-ci illərin əvvəlində BMT-nin TMK-lar üzrə komitəsi çərçivəsində qəbul edilmişdir. Məsələn, 1974-cü ildə inkişaf etməkdə olan ölkələrin maraqlarının nəzərə alındığı «TMK-nm davranış Məcəlləsi» qəbul edilmişdir. Məcəllədə TMK-nm fəalij^ətini həyata keçirərkən, bütün ölkələrdə həll etməli olduğu sosial-iqtisadi məsələlərin geniş dairəsi müəyyənləşdirilmişdir. Amma sahibkarlıqda təcavüzkarcasma yalnız mənfəət əldə olunmasına istiqamətlənmiş neoliberal-monetar ideologiyanın dominant-lığa başladığı şəraitdə bu «Məcəllə» işləyə bilmədi və qlobal korporasiyaların, onların lobbiçilərinin təzyiqi altında sadəcə olaraq kənara atıldı. Hələ 1976-cı ildə İƏİT çərçivəsində *«Xarici investisiyalar və çoxmillətli şirkətlər haqqında*

***Bəyannamə»,*** habelə «Çoxmillətli Şirkətlər üçün Tövsiyələr» qismində ***Bəyannaməyə Əlavələr*** qəbul edilmişdir. Bu tövsiyələrdə TMK-nm riayət etməli olduğu şərtlərin siyahısı: sosial inkişafın dəstəklənməsi, ETTKİ və təhsilin stimullaşdırılması, yerli kadrların hazırlanması və s. verilmişdir. Lakin qeyd etdiyimiz kimi, bu şərtlər məcburi olmadığından, TMK-lar onlara əməl etmir. Aydındır ki, beynəlxalq ictimaiyyət TMK-nm fəaliyyətini bəşəriyyətin maraqları mövqeyindən tənzimləyən qaydalar külliyyatını işləyib hazırlamalıdır.

***Transfer qiymətləri.*** Beynəlxalq korporasiyaların xarici iqtisadi fəaliyyətini əsaslandıran nəzəriyyələrin, demək olar ki, hamısında transfer qiymətlərindən istifadə olunması yolu ilə transmilli xərclərin azaldılması xüsusi yer tutur.

Transfer qiymətləri beynəlxalq inhisarların korporasiyadaxili ticarətində tətbiq olunan, kortəbii (tələb və təklifin təsiri altında) deyil, şirkətlərin strateji məqsədlərinə əsasən formalaşan daxili şərti-hesablaşma qiymətləridir. Buna görə də onlar tətbiq edilmə məqsədindən və konkret vəziyyətdən asılı olaraq, dünya qiymətlərindən həm yuxarı, həm də aşağı kənarlaşa bilər. Firmadaxili ticarətdə transfer qiymətlərindən istifadə edilməsinin məqsədləri bunlar ola bilər:

- bazarda inhisarçı mövqenin qorunub saxlanması;
- yeni satış bazarlarının ələ keçirilməsi;
- vergilərin və gömrük rüsumlannm minimuma endirilməsi;
- valyuta nəzarətindən yayınma, valyuta möhtəkirliyi, zəif valyutadan güclü valyutaya konvertasiya olunma;
- inflyasiya templərindəki fərqdən istifadə edilməsi;
- mənfəətin köçürülməsi yolu ilə xarici filialın maliyyə vəziyyətinə təsir göstərilməsi;
- törəmə firma vasitəsilə real əldə olunmuş mənfəətin gizlədilməsi və s.

***Qovuşmalar və qəsblər. Qovuşma*** - təsərrüfatçılıq subyektlərinin birləşməsi nəticəsində əvvəl mövcud olan iki və daha çox strukturun birləşməsi yolu ilə vahid iqtisadi zəncirin yaradılmasıdır; fınnalarm birləşməsi nəticəsində onlardan birinin salamat qalması, qalanlarının isə öz müstəqilliyini və mövcudiyyətini itirməsi.

***Şirkətin qəsbi*** - başqa şirkətin öz nəzarəti altına götürülməsi və onun üzərində mülkiyyət hüququnun tam yaxud qismən əldə olunmaqla, müvafiq

surətdə idarə edilməsi. Şirkətin qəsbi çox vaxt onun bütün səhmlərinin və deməli, özünün birjada satın alınması yolu ilə həyata keçirilir.

Qovuşmaların növləri:

• ***üfüqi qovuşmalar*** - bir sahənin eyni məhsul buraxan yaxud istehsalın eyni mərhələlərini yerinə yetirən şirkətlərinin birləşməsidir;

• ***şaquli qovuşmalar*** - hazır məhsul istehsalının texnoloji prosesi ilə bağlanmış, amma müxtəlif sahələrə mənsub olan müəssisələrin birləşməsi, yəni alıcı-şirkətin öz fəaliyyətini xammal mənbələrinə (ilkin istehsal mərhələsinə) yaxud son istehlakçıya çatanadək olan aralıq mərhələlərə qədər genişləndirməsidir. Buna misal olaraq, dağ-mədən, metallurgiya, maşınqayırma və başqa şirkətlərin qovuşmasını göstərmək olar;

• ***qohumluq qovuşmaları*** - bir-biri ilə əlaqəli olan mallar buraxan şirkətlərin birləşməsidir. Məsələn, fotoaparatlar istehsal edən firma foto plyonkası yaxud foto-şəkil çəkmək üçün kimyəvi reaktivlər buraxan firma ilə birləşir.

***İnkişaf etməkdə olan ölkələrdəki TMK.*** TMK-lar aləmində inkişaf etmiş ölkələrin şirkətlərinin dominant mövqe tutmasına baxmayaraq, vəziyyət dəyişir. Dünyada ən iri 100 qeyri-maliyyə TMK-sı sırasında inkişaf etməkdə olan ölkələrin firmalarının sayı 2004-cü ildəki 5-dən, Çin, Hindistan, Cənubi Koreya, Braziliya, Meksika, BƏƏ, Cənubi Afrika və s. hesabına 18-dək çoxalmışdır.

Bazarları formalaşmaqda olan ölkələrin iri TMK-sı öz əməliyyatlarını xüsusilə böyük sürətlə beynəlmiləlləşdirir. 2009-cu ildə inkişaf etməkdə olan ölkələrin 100 ən iri TMK-nm xaricdə satışlarının həcmi və işçilərinin sayı müvafiq olaraq 52% və 75% çoxalmışdır. Buna baxmayaraq, dünyanın ən iri 100 korporasiyası ilə müqayisədə, az ölkədə təmsil edildiklərinə və maliyyə gücü baxımından inkişaf etmiş ölkələrin sahə TMK-na nisbətən zəif olduqlarına görə, onların be3məlmiləlləşmə səviyyəsi xeyli aşağıdır. Bu TMK- lar (xüsusilə Asiya ölkələrinin şirkətləri) üçün ən vacib sahələr elektrotexnika və elektron sənayesi, paltar, ayaqqabı, oyuncaq istehsalı olmuşdur; maşınqayırma şirkətləri sürətlə inkişaf edir və güman ki, tezliklə dünyanın 1000 və 500 ən iri korporasiyası tərkibinə daxil ediləcəkdir.

***Rusiyanın Maliyyə-Sənaye Qrupları (MSQ) və TMK-sı. MSQ*** - baş və törəmə cəmiyyətlər kimi fəaliyyət göstərən və ya rəqabət qabiliyyətini gücləndirən, malların və xidmətlərin satış bazarlarını genişləndirən, istehsalın səmərəliliyini yüksəldən, yeni iş yerləri yaradan investisiya və digər

layihələrin, proqramların həyata keçirilməsi üçün texnoloji və iqtisadi inteqrasiyaya istiqamətlənərək, MSQ yaradılması haqqında müqavilə əsasında öz maddi və qeyri-maddi aktivlərini bütövlüklə yaxud qismən birləşdirən hüquqi şəxslərin məcmusudur. İqtisadiyyatın makro və mikro səviyyələrinin maraqlarının, iqtisadi və sosial problemlərin əlaqələndirilməsini təmin edən, Rusiya iqtisadiyyatında mütərəqqi dəyişikliklərə imkan yaradan korporativ struktur kimi nəzərdə tutulan MSQ, ixracyönümlü iqtisadi artımın obyektinə çevrilməlidir. Bunlar bütövlükdə dövlət mülkiyyətində olan yaxud kapitalında dövlətin payı dominantlıq təşkil edən qruplardır («Газпром», «РЖД», «Ингосстрах» və s.).

MSQ-nin tərkibində ictimai və dini cəmiyyətlər istisna edilməklə, kommersiya və qeyri-kommersiya (o cümlədən xarici) təşkilatları birləşə bilər. MSQ iştirakçıları sırasında istehsal sahəsində fəaliyyət göstərən təşkilatların, habelə banklann olması mütləqdir. Maliyyə-sənaye qruplarının yaradılmasının konsepsiyası, bir texnoloji zəncir müəssisələrinin, aralıq və əlaqəli istehsalların, təchizat, ticarət və satış idarələrinin, ən əsası isə maliyyələş- dirməni həyata keçirə, investorları cəlb edə bilən təşkilatları birləşdirməkdən ibarətdir. MSQ-nin öncül vəzifələrindən biri, tərkibinə daxil olan müəssisələrin fəaliyyətini əlaqələndirmək, vahid qiymət siyasətini yeritmək, maliyyə və idarəetmə resurslarını yenidən bölüşdürmək, ayrı-ayrı müəssisələrin deyil, bütövlükdə qrupun vəziyyətinin yaxşılaşdırılmasına yönəlmiş investisiya proqramlarını işləyib hazırlamaqdır.

MSQ’çərçivəsində ***3 əsas istiqamət*** fərqləndirilir:

- maliyyə;
- sənaye;
- media-korporativ.

Rusiyada keçirilən özəlləşdirmə yeni tip güclü təşkilati-təsərrüfat strukturlarının (dövlət, müştərək və özəl korporasiyalann, konsernlərin, maliyyə-sənaye qruplarının) partlayış şəklində meydana çıxması ilə müşayiət olunsa da, onların əksəriyyəti daxili və xarici bazarlarda «Газпром», РАО ЕЭС (parçalanmasınadək), dəmir yolu korporasiyaları («Российские Железные Дороги»), «Норникель» kimi uğur qazana bilmədi.

MSQ-nin yaranma səbəbləri:

1) yeni təşkilati-təsərrüfatçıhq formalarının - Rusiya iqtisadiyyatında yüksək səviyyədə inteqrasiya olunmuş sahələrarası korporasiyaların yaradıl

masını tələb edən ümumi iqtisadi səbəblər;

2) Rusiyanın beynəlxalq bazara çıxması təkcə daxili milli bazarı əhatə etməyə deyil, həmçinin xarici bazarlarda beynəlxalq korporasiyalarla layiqli rəqabət aparaıağa qadir olan güclü təsərrüfat strukturlarının yaradılması vəzifəsini qoyur;

3) sadəcə olaraq, inhisarçılıq meyilləri.

TMK-nın MSQ-dən fərqi bundadır ki, TMK-da kapital və hakimiyyət baş şirkətə mənsubdur, onun törəmə fımıalanna və filiallarına isə idarəçilik qərarlarını qəbul etmək və mənfəəti böljnək səlahiyyəti verilməmişdir; bundan başqa, TMK-da kapitalların bir-birinə qarşılıqlı nüfuzu baş verir.

MSQ-də isə vəziyyət başqadır;

1) bütün iştirakçılar bir «komandanın» tamhüquqlu və müstəqil üzvləridir;

2) onlar ümumi vəsaitləri hesabına MSQ-nin idarəçilik prosesinin yalnız əlaqələndirmə funksiyasını yerinə yetirən mərkəzi şirkətini təsis edirlər;

3) MSQ-də iştirakçıların aktivləri birləşdirilir.

Rusiyanın MSQ-də vəziyyət qeyri-sabitdir, tez-tez baş verən ziddiyyətlər iştirakçıların bir qisminin getməsinə və yeni üzvlərin gəlməsinə səbəb olur. Bunun nəticəsində, onların fəaliyyəti ictimai istehsal baxımından az səmərə verir.

***Rusiyanın TMK-sı və TMB-si.*** Buraya, ilk növbədə, «Газпром», «РЖД», «Норникель», «ЛУКОЙЛ» «Новолипецкий Металлургический Комбинат» (НЛМК), «Вымпелком», «Роснефть», «Интер РАО ЕЭС», «ФК Уралсиб», «ТНК-БП», «Сургутнефтегаз», «Северсталь», «Мечел», «Татнефть», «НОВАТЭК», «ММК», «АФК Система», «ФСК ЕЭС», «Уралкалий», «РусГидро», «Ростелеком», «Магнит», «Полюс Золото», «ВТБ», «Сбербанк», «Банк Москвы» və s. kimi özəl (səhmdar) və dövlət korporasiyaları aiddir.

«Forbes»-in siyahısının iyirmiliyinə aktivlərinin bazar dəyəri 133 milyard dollar olan «Газпром» daxil edilmişdir; Rusiyanın «ЛУКОЙЛ» neft şirkəti 83 milyard dollar bazar dəyəri ilə bu siyahıda 69-cu yeri tutur. «Forbes»-in dünyada ən iri 2000 şirkətlər və banklar siyahısında Rusiya şirkətlərinin tutduğu yerlər aşağıdakı kimidir: (cədvəl 15.2)

15.2-ci cədvəlin məlumatlarından göründüyü kimi, Rusiyanın iri şirkətlərinin əksəriyyəti neft və qaz hasilatı (və qismən emalı), energetika.

kömürçıxanna, metallurgiya sahələrində fəaliyyət göstərir. Maşınqayırma şirkətləri isə siyahıda, ümumiyyətlə, təmsil olunmamışdır.

***Rusiya TMK-sı və rus kapitalizminin formalaşmasının xüsusiyyətləri.*** Qeyd olunmalıdır ki, Rusiyanın iri korporasiyalarının təşəkkülünə rus kapitalizminin fonna malaşması prosesinin özü dominant təsir göstənnişdir. Bu təşəkkül tapmanın xüsusiyyətləri nədədir? Ölkədə iri korporasiyalar təbii yolla «aşağıdan», kiçik və orta sahibkarlıq mühitində malların və xidmətlərin istehsalı və bunu genişləndirmək uğranda aparılan rəqabət mübarizəsində nəzərəçarpan müvəffəqiyyətlər əldə olunması yolu ilə yaranmamışdır. Onlar «yuxandan», imtiyazlı şəxslərin böyük fabrik və zavodlarla, mədənlərlə, neft və qaz yataqları və başqa istehsal amilləri ilə icra aktları vasitəsilə «mükafatlandırılması» nəticəsində meydana çıxmışdır. Onların sahibləri bazarın, rəqabətin nə olduğunu, xırda sahibkarlıq fəaliyyətinin hansı rol oynadığını, məsuliyyətli sosial siyasət həyata keçirilməsi zəruriliyinin səbəblərini dərk etmirdi. İqtisadiyyatın real sektorunun son dərəcə səmərəsizliyinin, mürəkkəb olan maşmqayınna, kimya, yüksək texnologiya sahələrinin, o cümlədən kənd təsərrüfatı maşınqayırmasının bərbad vəziyyətə düşməsinin, bütün iqtisadiyyatda güclü qeyri-mütənasibliklərin meydana çıxmasının, maşın və texnika, ərzaq idxalının kəskin artmasının səbəbləri məhz bundadır. İri sahibkarlar işləyən müəssisələrin səhmlərini almaq və satmaqla, əsas diqqətin birja oyununa yönəldilməsinə üstünlük verirdi. Bununla əlaqədar olaraq, ölkə iqtisadçılarının bir çoxu (o cümlədən müəllif) Rusiyada baş verən maliyyə böhranının qeyri-adiliyini qeyd edərək, onun təbii (klassik), yəni böhranın tipik səbəbi olan ***malların və xidmətlərin izafi istehsalı*** amilinin təsiri nəticəsində yaranmadığını göstərirdilər. Rusiyadakı böhran, sadəcə olaraq, ABŞ-da və Qərbi Avropada yaxud Yaponiyada olduğu kimi, fond və ipoteka «köpüklərinin» yaranması nəticəsində maliyyə sistemində sabitliyin pozulması nəticəsində əmələ gəlməmişdi. Rusiyadakı böhran iqtisadiyyatda tarazlığın pozulması və bunun maliyyə-bank sisteminin, tənzimləmə qurumlarının zəifliyi, özəl sektorun texniki və struktur geriliyi, aşağı səmərəliyi, dünya bazarlarından və oradakı vəziyyətdən ifrat dərəcədə asılılıq səbəbindən daha da güclənməsinin real nəticəsi olmuşdur. Bununla əlaqədar, Rusiyada iqtisadi və maliyyə böhranını törətmiş əsas amilləri sadalamaq olar':

*Сухарев О.С.* Структурные сдвиги и развитие финансовой и технических систем экономики: анализ эволюционной теории // Журнал экономической теории. 2009. №4 С. 46-47.

*Cədvəl 15.2*
lx

| 2009-cu ildə tutduğu yer | 2008-ci ildə tutduğu yer | Adı | Sahə | Bazar dəyəri milyard dollar |
|---|---|---|---|---|
| 16 | 13 | «Газпром» | Neft və qaz | 133 |
| 69 | 76 | «ЛУКОЙЛ» | Neft və qaz | 45 |
| 77 | 64 | «Роснефть» | Neft və qaz | 83 |
| 93 | 172 | Сбербанк | Bank işi | 58 |
| 157 | 211 | ТНК-БП | Neft və qaz | 28 |
| 173 | 168 | «Сургутнефтегаз» | Neft və qaz | 30 |
| 313 | 450 | «Северсталь» | Metallurgiya | 12 |
| 390 | 570 | НЛМК | Metallurgiya | 19 |
| 437 | 505 | ВТБ | Bank işi | 26 |
| 497 | 682 | «Вымпелком» | Telekommunikasiya | 19 |
| 540 | 899 | ММК | Metallurgiya | 11 |
| 555 | - | «Мечел» | Metallurgiya | 9 |
| 665 | 566 | «Транснефть» | Neft və qaz | 1 |
| 673 | 241 | «Норникель» | Metallurgiya | 30 |
| 729 | 548 | «Татнефть» | Neft və qaz | 11 |
| 770 | 679 | АФК «Система» | Telekommunikasiya | 8 |
| 1040 | 1177 | «НОВАТЭК» | Neft və qaz | 17 |
| 1168 | - | ФСК «ЕЭС» | Energetika | 13 |
| 1200 | 1929 | «Уралкалий» | Kimya sənayesi | 9 |
| 1258 | 1349 | «РусГидро» | Energetika | 12 |
| 1303 | 1297 | Банк Москвы | Bank işi | 4 |
| 1317 | _ | X5 Retail Group | Ticarət və iaşə | 9 |
| 1388 | 1676 | . «Силвинит» | Kimya sənayesi | 6 |
| 1537 | - | ТМК | Metallurgiya | 4 |
| 1577 | - | «Распадская» | Kömür hasilatı | 4 |
| 1775 | - | «Магнит» | Ticarət | 6 |
| 1913 | 1921 | «Ростелеком» | Telekommunikasiya | 4 |
| 1951 | 1866 | «Полюс Золото» | Qızıl hasilatı | 9 |

* Reytinq «Forbes»-in 2009-cu il üzrə məlumatlarına görə, satışın, mənfəətin məbləği, aktivlərin həcmi və bazar dəyəri əsasında tərtib olunmuşdur.

• iqtisadiyyatın maliyyə, sənaye və ictimai sektorları arasında inkişafda və səmərəlilikdə fərqlərin yaranması;

• borc iqtisadiyyatının artması, maliyyə sektorunun və maliyyə axınlarının idarə olunmaması;

• Rusiya iqtisadiyyatının sistem şəklində pozulması, sənaye sektorunda tənəzzül baş verdiyi halda, bank və maliyyə sektorlarının təşəkkülü və genişlənməsi;

• struktur əyintiləri yaradan səmərəsiz maliyyə və pul-kredit siyasəti: təsərrüfat fəaliyyətinin rentabelliyi aşağı olduğu halda, bank faizlərinin yüksəkliyi və s.

Bütün bunlar iqtisadiyyatın sahə və regional səviyyələrdə, habelə şaxələndirilmə baxımından balansın son dərəcə pozulması; inkişaf etmiş ölkələrin və dünyanın sürətlə tərəqqi edən regionlarının TMK-nm beynəlxalq istehsalının artan ehtiyaclarına xidmət göstərilməsinə yönəlmiş yanacaq-xammal sektorunun misli görünməmiş inkişafı ilə yekunlaşmışdır.

## 15.3. TMK-nm fəaliyyətinin çoxfunksiyalıiığı

TMK-lar hətta əməliyyatlarının həcmi onlardan az fərqlənən firmalardan fəaliyyətinin müstəsna dərəcədə çoxcəhətli, vəzifələrinin rəngarəng xarakterdə olması ilə seçilir. Bu, onların fəaliyyət göstərdiyi ölkələrə və regionlara çox güclü təsir göstərir. Aydındır ki, TMK-nm istehsal etdiyi malların və xidmətlərin böyük həcmdə olması beynəlxalq əmək bölgüsünün inkişafı üçün zəmin yaratmışdır. Əməyin ölkələr və müstəqil firmalar arasında bölgüsü firma daxilində beynəlxalq əmək bölgüsü ilə dolğunlaşır. Əməyin bu tərzdə bölgüsü bir mərkəzdən tənzimlənir. Vahid istehsal prosesi müxtəlif ölkələrdə həyata keçirilən əməliyyatlara parçalanır. Müxtəlif ölkələrdə istehsal olunan ayrıca məhsul beynəlmiləlçilik əsasında təşkil olunan istehsal prosesindən kənarda istehlak dəyərinə malik deyil. Beynəlmiləlləşmiş ictimai əməkdən istifadə edilməsi, sənaye mərkəzlərində, ilk növbədə isə, ABŞ, Qərbi Avropa və Yaponiyada yerləşmiş iri korporasiyaların istehsal imkanlarını genişləndirir və əlavə mənfəət əldə etməsinə imkan verir. İri özəl müəssisənin fəaliyyətinin təşkilati forması kimi, TMK beynəlxalq əmək bölgüsünün müasir xarakterinə müvafiqdir və bu, bir tərəfdən, yüksək iqtisadi səmərə verir, digər tərəfdən isə.

yeni vəziyyətlərə uyğunlaşmaq potensialının mövcudluğunu, innovasiyalara qarşı həssaslığı nümayiş etməyə şərait yaradır.

Ekspansiyanın mənfi nəticələrinə (ətraf mühitin çirkləndirilməsi, gəlirlərdəki fərqlərin artması, marketinqdə ifrat dərəcədə istehlakm təbliği, və s.) görə, TMK-nm fəaliyyəti cəmiyyətdə tənqidə səbəb olur. 1970-ci illərdə alimlərin və mütəxəssislərin TMK-ya münasibəti tam ziddiyyətli idi: bir qrup onların məddahı kimi çıxış edir, digəri isə fəaliyyətində neqativ cəhətlərin üstün olduğunu göstərərək, onları ifşa edirdi. 1980-ci illərdən onların fəaliyyətinə nisbətən pozitiv yanaşma üstünlük təşkil etməyə başladı; indi TMK beynəlxalq iqtisadi münasibətlərin demək olar ki, yalnız müsbət cəhətlərə malik, ayrılmaz və obyektiv elementi kimi nəzərdən keçirilir. Bu mütəxəssislərin fikrincə, TMK qəbul edən ölkələrə öz kapitalını, texnologiyalarını, istehsalın təşkili və idarə olunması «zərf şəklində» təqdim etməklə, inkişafın «ideal sürətləndiricisi» kimi xidmət göstərir. Yüksək iqtisadi artımın təmin olunması üçün TMK-dan uğurla istifadə etmiş Cənubi Koreya Respublikasının və Tayvanın təcrübəsi bu cür «sürətləndiricisiyə» nümunə kimi göstərilir.

Mütəxəssislərin bu qrupunun təhlillərində TMK-nm «qəbul edən» ölkənin iqtisadiyyatına müdaxilə etdikcə, onun iqtisadi və siyasi müstəqilliyini məhdudlaşdırması, sosial problemləri kəskinləşdirməsi kimi müşayiətedici məqam ötəri xatırlanır. Hərçənd, onların bir sıra yerli istehsal-iqtisadi məsələləri həll etməklə, müəssisələrin səmərəliliyinin və mənfəətliliyinin yüksəlməsinə, idarəçilik problemlərinin aradan qaldırılmasına, yeni texnologiyaların tətbiqinə, mütəxəssislərin hazırlanmasına və s. kömək göstərməsi inkarolunmazdır. Bununla belə, «iqtisadi fəaliyyətin beynəlmiləlləşməsi nəzəriyyələrinin bir ifratçılıqdan tamamilə əks, TMK-nı ərazi bağlılığından və dövlət nəzarətindən azad olmuş superbirləşmə kimi nəzərdən keçirən digərinə atılması meylinin mövcudluğunu» iddia edən müəlliflər haqlıdır'. Bu cür birtərəfli yanaşmalar XXI əsrin birinci onilliyi ərzində qlobal böhranadək elmi ədəbiyyatda üstün olmuşdur. Onlar tez bir zamanda Rusiyanın da elmi və tədris ədəbiyyatına «keçmişdir».

' Book reviews: Rutherford, Madison, Transnational Corporation. 1993. N° 1. Vol. 2. February. P. **171.**

## 15.4. TMK dövlətlərin qarşılıqlı asılılığının güclənməsinin amili kimi

TMK-nm fəaliyyəti təsərrüfat münasibətlərinin çarpazlaşması yolu ilə ayrı-ayrı dövlətlərin qarşılıqlı asılılığını gücləndiraıişdir. Belə bir cəhət bəlli olur ki, TMK-nm fəaliyyətinin ənənəvi qaydada, milli iqtisadi}ryata və beynəlxalq iqtisadi münasibətlərə yalnız dağıdıcı təsir göstərən amil kimi yanaşmaqla təhlil olunmasından imtina etmək lazımdır. Bu gün təkcə Amerika- Kanada, Yaponiya, Çin və Qərbi Avropa mənşəli TMK-dan bəhs etmək kifayət deyil. Türk, ərəb, Avstraliya, Tayvan, Koreya, Braziliya, Argentina və başqa TMK-lar fəal işləyir; görünür ki, keyfiyyət baxımından iqtisadi islahatlara başlandıqdan sonra Rusiyanın, Ukraynanın, Qazaxıstanın TMK-nm da meydana çıxacağını ehtimal etmək lazımdır; hələlik isə biz bunları (milli kapital əsasında) aşkar etməyə müyəssər olmadıq.

TMK-nm xidmət sahəsində fəaliyyətinin genişlənməsi kapitalın transmilliləşməsində, prinsipcə, yeni məqamdır. Müxtəlif ölkələr arasında investisiya axınlarında əhəmiyyətli irəliləyişlər baş vermişdir. 1980-ci illərin birinci yarısında Böyük Britaniyadan kapital axını ABŞ-m müvafiq göstəricisindən çox olmuşdu. 1980-ci illərin sonu - 1990-cı illərin əvvəlindən dünyada ən böyük kapital investoruna çevrilmiş Yaponiyanın nüfuzu sürətlə artırdı. Dünya təsərrüfatında baş verən dəyişikliklər, bir tərəfdən, TMK-lar tərəfindən stimullaşdırılır, digər tərəfdən isə onların özünü dəyişir. Belə ki, getdikcə daha çox orta ölçülü fınna (o cümlədən inkişaf etməkdə olan ölkələrin) istehsalın və kapitalın transmilliləşməsi prosesinə geniş miqyasda cəlb olunur. Şübhəsiz ki, bütün bunlar TMK-nm rolunu innovasiya proseslərinin sürətləndirilməsi mərkəzi kimi nəzərdən keçirməyə əsas verir. TMK-lar qlobal miqyasda fəaliyyət göstərdiyi üçün, beynəlxalq rəqabət şərtlərində baş verən dəyişikliklərə daha tez reaksiya verə bilir. Həqiqətən də, bir çox sahələrdə (toxuculuq, avtomobilqayırma, elektronika) TMK-lar texnologiyaların inkişaf etmiş ölkələrdən nisbətən zəif olan ölkələrə ötürücüsü rolunu oynayır və bu, təkcə onların filiallarının deyil, həmçinin müxtəlif dövlətlərin firmaları ilə bağlanan subkontrakt müqavilələrinin sayının sürətlə artmasında təzahürünü tapır. TMK-lar fmnaları öz səviyyəsinə «dartıb çıxarmaq», müştərək müəssisələr yaratmaq, tədqiqatların aparılmasında əməkdaşlıq etmək, yeni mallar və texnologiyalar üzrə lisenziya mübadiləsini

həyata keçirmək yolu ilə, onlarla kooperasiya olunmaq üçün başqa müəssisələrlə müqayisədə daha geniş imkanlara malikdir. Kooperasiya haqqında bu cür müqavilələr, adətən müxtəlif ölkələrin firmalarını əhatə etdiyinə görə, transmilli proseslər üçün səciyyəvi olan yeni iqtisadi şərait yaradır. Kooperasiya müqavilələri qeyri-məhsuldar təkrarçılığı aradan qaldırır və əksər hallarda yüksək səmərəliliklə xarakterizə olunur, əmək məhsuldarlığının yüksəldilməsinin, malların və xidmətlərin qiymətlərinin ucuzlaşmasının amili kimi çıxış edir. Bu cür inkişafın əsas səbəblərindən biri, kapitalın transmilliləşməsi, iri və orta transmilli bankların fonnalaşmasıdır. Sənaye korporasiyalarının beynəlxalq ekspansiyası maliyyələşmənin əlavə mənbələrinin tapılması problemini qabartdı və transmilli banklar TMK-nm beynəlxalq kapitallar bazarına qoşulması məsələsində mərkəz mövqelərini tutdu. Bu, beynəlxalq istehsalın fonualaşmasmm möhkəm sənaye-maliyyə bazası oldu.

## 15.5. TMK beynəlxalq istehsalın maddi bazasıdır: qlobal təzahürlər

***Beynəlxalq istehsal.*** Beynəlxalq istehsalın artımı qloballaşma prosesinin mühüm tərkib hissəsidir. «Beynəlxalq istehsal» tennini başqa ölkələrdə yerləşən şirkətlərin istehsal və nəzarət etdiyi mallara və xidmətlərə şamil olunur. Həmin ölkələrdə (qəbul edən ölkələr) istehsala nəzarət, məhsulun hazırlanması ilə birbaşa məşğul olan müəssisələrin əsas vasitələrinin minimum hissəsi üzərində sahiblik hüququnun olmasını təsdiqlən adi səhmlərin minimum zərfinin satın alınması yaxud bu nəzarətin yerinə yetirilməsini təsbit edən müqavilələr (səhmləri satın almadan) əsasında həyata keçirilə bilər. Kapital qoyuluşları yolu ilə yaxud bağlanmış müqavilə əsasında istehsala nəzarət, habelə xaricdə yerləşən müəssisənin (xarici filialın) idarə olunmasında iştirak, beynəlxalq istehsalı xarakterizə edir.

Beynəlxalq istehsal prosesində iştirak edən finnalar (əsasən transmilli korporasiyalar) öz istehsal amillərini, müxtəlif ölkələrdə yerləşən bölmələr arasında müəyyən dərəcədə sərbəstliklə hərəkətə imkan yaradan istehsal infrastrukturunu mərkəzi ofisin ümumi idarəçiliyinə verir. Bu cür istehsal sistemlərinə fəaliyyətin müxtəlif sahələri - ETTKİ-dən başlayaraq, ərazi baxımından qəbul edən ölkənin müxtəlif bölgələrində yerləşmiş, amma son mal və xidmətlərin buraxılması üçün vəhdət halında birləşmiş istehsal, habelə ona

xidmət göstərən mühasibat uçotu, reklam, marketinq, heyətin öyrədilməsi kimi sektorlar daxildir. Bu, inkişaf etmiş ölkələr üçün xüsusilə səciyyəvidir: burada istehsal sistemləri çox vaxt xarici firmaların qovuşması yaxud bir ölkənin firmasının başqa ölkələrdə yerləşən fınnalan satın alması yolu ilə yaradılır. Bir-birindən uzaq məsafədə yerləşən istehsal strukturları ümumi idarəçilik altında birləşdiyi andan etibarən, onların öz ölkəsində və xaricdə (bəzən isə üçüncü ölkələrdə) sərəncamında olan daşınar və daşınmaz istehsal amilləri məhsul buraxılışında daha səmərəli istifadə edilmək üçün TMK-nm iqtisadi vəzifələrinə və strategiyasına uyğun olaraq qruplaşdırılır. İstehsala malik olan yaxud TMK-nı qəbul edən ölkə beynəlxalq məhsul buraxılışında iştirak edən müəssisələrdən, habelə istehsal amilləri bilavasitə istifadə olunduğu yerdən uzaqda yerləşə bildiyi kimi, onlardan istifadə olunması baxımından TMK-nm buraxdığı (baş müəssisədə, ölkənin istehsal güclərində, xarici filialda, yerli istehsal güclərində) bütün məhsullar mahiyyətinə görə beynəlxalqdır. Beynəlxalq istehsal prosesinə onun həyata keçirildiyi ölkə nöqteyi-nəzərindən yanaşıldığı halda, milli şirkətlərin xarici ölkələrin istehsal güclərində, xarici firmaların isə ölkənin istehsal güclərində məhsul buraxılışı nəzərdə tutulur. Beynəlxalq istehsalın əhəmiyyətini daha əyani nümayiş etdirdiyinə görə, məhsulun xarici filiallar tərəfindən istehsal olunması təcrübədə daha geniş yayılmışdır.

Beynəlxalq istehsalı təşkil edən elementlərə müəssisələrin (holdinqə daxil olan şirkətlərin) və onların beynəlxalq istehsalda iştirak edən xarici filiallarının coğrafiyası, sayı, vahid korporativ sistem daxilində qeydiyyat ölkəsi ilə qəbul edən ölkə arasında maliyyə axınları və texnologiyaların verilməsi, beynəlxalq istehsalın əsasını təşkil edən aktivlər, habelə satışların həcmi, ticarət və məşğulluq daxildir. Əslində bu, ölkələrin (TMK və onların filiallarının yerləşdiyi) milli suverenliyi çərçivəsindən kənara çıxarılan müəyyən meqatransmilli ikehsal-iqtisadi kompleksin formalaşması üzrə qlobal meylin yaranmasına dəlalət edir. Qlobal böhranadək TMK-nm nəzərə çarpdırmadan yeritdiyi superliberal iqtisadi nəzəriyyələr bu prosesə güclü təkan verirdi.

## Xülasə

• TMK - dünya ölkələrinin təsərrüfat fəaliyyətinin bütün sahələrində beynəlmiləlləşmənin son dərəcə }mksək səviyyəsi şəraitində kapitalist iqtisadiyyatının inkişafının təbii nəticəsidir. İstehsalın və kapitalın transmil-

liləşməsi, onların beynəlxalq çarpazlaşması prosesləri TMK-nın fəaliyyəti nümunəsində daha aydın əks olunur.

• TMK-nın çoxsaylı nəzəriyyələri olsa da, onların təbiəti və fəaliyyətinin xarakteri barədə ümumi nəticələrlə ziddiyyət təşkil etmir. Transmilli korporasiyaların formalaşması uzunmüddətli tarixi prosesdir və indi fəaliyyət göstərən, dünyanın, habelə əksər ölkələrin iqtisadiyyatında mühüm yer tutan qüdrətli istehsal-maliyyə və başqa korporasiyalarda təcəssüm olunmuşdur.

• Bir neçə onillik ərzində TMK-nın fəaliyyətinin əsas nəticəsi dünya iqtisadiyyatının qüdrətli, kifayət qədər bütöv özəyinin - ümumdünya təsərrüfat və maliyyə proseslərinin həm nəticəsi, həm də sürətləndirilməsinin amili olan *beynəlxalq istehsalın* formalaşmasıdır. Bununla yanaşı, TMK-nın yaratdığı «beynəlxalq istehsal» fenomeni ciddi tədqiqat predmeti olmalıdır.

• Müasir TMK-nın fəaliyyətində aşağıdakı əsas meyillər nəzərə çarpır:

- aktivlərin ümumi həcmində xarici aktivlərin payı üzrə təsnifləşdirildikdə, mənşə ölkəsi baxımından ən iri qrup ABŞ-ın TMK-dır;
- TMK-lar sırasında güclü mövqeyini ümumilikdə qoruyub saxlasa da, 1970-1980-ci illərdə ən dinamik olan yapon TMK-sı qrupu zəifləmişdir;
- Çinin TMK-sı, habelə dinamik inkişaf edən ölkələrin: Braziliya, Cənubi Koreya, Hindistan, Malayziya və s. TMK-sı böjdik sürətlə güclənir;
- Avropanın TMK-sı kapital tutumlu sahələrdə, o cümlədən tədqiqat işlərinə bö3dik məbləğdə xərclər tələb olunan kimya və əczaçılıq sənayelərində, avtomobilqayırma, elektrotexnika, maşınqayırma kimi sahələrdə mühüm mövqelər tutur;
- sahə üzrə bölgü baxımından, ən yüksək transmillilik indeksi kimya və əczaçılıq, bunlardan sonra isə qida və elektron sənayelərindədir; ən aşağı indeks ticarət şirkətləri üçün səciyyəvidir.

• Ən iri TMK-nın mövcud investisiya planlarına görə, yaxın illərdə bu korporasiyaların investisiya fəallığı sürətlə artmalıdır və investisiyaların yerləşdirildiyi əsas rayonlarda, o cümlədən inkişaf etmiş ölkələrdə iqtisadi artım buna müəyyən şərait yaradır.

• Şimali Amerikada yerləşən transmilli korporasiyalar yüksək texnologiya və istehlak mallarının istehsalı üzrə sahələrdə investisiya yerləşdirilməsi

üçün ən mühüm region qismində təkcə Avropanı nəzərdən keçinnir; bu rol ABŞ TMK-nm daha böyük miqdarda yerləşdiyi Çinə keçmişdir.

• Öz növbəsində, Avropanın TMK-sı da ABŞ-a investisiya fəaliyyətlərinin mühüm istiqaməti kimi yanaşır, habelə diqqətini Afrika və Asiyaya da yönəldir.

• Yapon TMK-sı hesab edir ki, onlar üçün ən perspektivli region təkcə ABŞ və Qərbi Avropa deyil, həmçinin, Asiyadır; Çinin yanaşması da bu cürdür, amma onun TMK-sı artıq bütün dünyada fəaliyyət göstərir.

• İqtisadi həyatın beynəlxalq transmilliləşməsinin fərqləndirici cəhəti bundadır ki, əsrin əvvəlində olduğu kimi, artıq o, təkcə bazarın deyil, istehsal və xidmət sahələrinin qlobal miqyasda beynəlmiləlləşməsi əsasında inkişaf edir. Bazar isə, öz növbəsində, malların və xidmətlərin beynəlxalq istehsalına «köklənir». Bu, istehsalın təşkilati fonnalannda müvafiq dəyişikliklərin aparılmasını şərtləndirmişdir.

• Bir qayda kimi, TMK müəyyən maliyyə-sənaye qrupunun özəyi qismində çıxış edir və bunun nəticəsində son illər ərzində maliyyə və sənaye kapitalında yenidən qruplaşma baş venuişdir. XXI əsrin ilk illərində onların yenidən qruplaşması, stmkturlarmda əhəmiyyətli təşkilati dəyişikliklər baş vermişdir. Yenidən qruplaşmanın son məqsədi iri kapitalın texniki-istehsal imkanlarını və maliyyə bazasını möhkəmləndiraıək, ticarət-təchizat mexanizmini təkmilləşdinnək, sənayenin dünya bazarlarında rəqabət qabiliyyətini yüksəltmək. Şərqi Avropanı və Avrasiyanı onlara «qoşmaqdır». Amma bu proses TMK-lar, onların böyük təcrübəyə malik menecerləri tərəfindən idarə olunduğuna və əlaqələndirildiyinə görə aşağıdakılar ilə müşayiət olunurdu:

- bir çox ölkələrdə Amerika, Yaponiya və Qərbi Avropanın, sonradan isə Çinin iri kapitalının mövqelərinin güclənməsi;
- Qərb ölkələrinin iqtisadi əlaqələrinin möhkəmlənməsi və maraqlarının qovuşması, istehsalın kooperasiyasının və ixtisaslaşmasının təkmilləşməsi, qarşılıqlı asılılıq elementlərinin güclənməsi;
- milli müəssisələrin orta ölçülərinin bərqərar olması, onların Amerika, yapon, alman və başqa iri korporasiyalar səviyyəsinə çatdırılması;
- fəaliyyət göstərdiyi ölkələrdə sənaye və bank kapitalının, başqa maliyyə-kredit mənbələrinin qovuşmasının güclənməsi;
- sürətlə artan TMK-sı olan yeni «güc mərkəzlərinin» meydana çıxması və buna müvafiq olaraq, rəqabət mübarizəsinin, o cümlədən TMK-nm

nəzarəti altında müəyyən regionun dominantlığının təmin edilməsi, oradakı ölkələrin «öz filialına» çevrilməsi uğrunda mübarizənin vüsət alması.

• Bu (və başqa) amillər, yuxarıda qeyd edildiyi kimi, məhsuldar qüvvələrin beynəlmiləlləşmə səviyyəsinin kəskin yüksəlməsinə səbəb olmuşdur; bununla bərabər, rəqabət də güclənir. Xarici dövlətin gömrük proteksionizmi və digər məhdudlaşdımıa tədbirlərindən yayınmaq imkanı olan TMK hər hansı inkişaf etmiş ölkədə yerləşmiş mənzil-qərargahından idarə edilən, milli hökumətlərin nəzarəti altından «çıxarılmış» geniş sektor yaradır.

• Göstərilən sektor güclü iqtisadi mexanizm olmaqla, TMK-ya, bir tərəfdən, dövlətin iqtisadi siyasətinin əsas elementlərini təcrid etmək imkanı verir (bu, TMK-nın fəaliyyət göstərdiyi ölkənin iqtisadiyyatının həcmində, kapital qoyuluşlarının istiqamətində, məşğulluqda, xarici ticarətində, inflyasiya meyillərinin güclənməsində konkret təcəssümünü tapır), digər tərəfdən isə, onları ən iri ölkələrin və öz TMK-nın maraqlarına cavab verən qlobal liberallaşma strategiyasına tabe etməyə imkan verir.

• Postsosialist (yeni kapitalist) - MDB və başqa keçid iqtisadiyyatlı ölkələr zonasında TMK-nın formalaşması prosesi vüsət alır. Lakin buradakı şirkətlər həm təşkilati, həm də maliyyə baxımından zəifdir, onlann liderləri (və mülkiyyətçiləri) lazımi təcrübəyə və biliklərə malik deyil (bunun üçün illər tələb olunur). Ən əsası isə onların inkişafı qarşısında kvazidemokrat tərtibatda yarımdiktator rejimlərini qoruyub saxlamaq səyləri nəticəsində yaranan uzunmüddətli siyasi qeyri-sabitlik amili durur (xüsusilə MDB zonasında).

• Amma TMK-nın inkişafının əsas nəticəsi dünya iqtisadiyyatının beynəlxalq istehsal-maliyyə sektoru (beynəlxalq iqtisadiyyat) şəklində yeni, güclü və bütöv özəyinin yaradılmasıdır. Bu, dünya iqtisadiyyatının dayağıdır.

• TMK dünya bazarının qlobal planlaşdırılmasını həyata keçirməklə, onun müxtəlif regional və sahə seqmentlərini əlaqələndinnəklə, rəqabəti ümumdünya səviyyəsində təşkil edir. Onlar müxtəlif təsərrüfatçılıq subyektləri olan bazarların bölgüsünü həyata keçirir, yeni informasiya texnologiyaları əsasında: ayrı-ayrı çevik istehsal qovşaqlarının təşkili, korporasiyaların strukturunun eyniləşdirilməsi, mühasibat uçotunun və auditin təşkili vasitəsilə öz filiallarının hərəkətlərini əlaqələndirirlər. TMK-lar öz filiallarına, zavodlarına və müştərək müəssisələrinə özünün başqa qurumları ilə inteqrasiya olunmuş vahid idarəetmə şəbəkəsi kimi yanaşır. Buna müvafiq olaraq, onlar

TMK-nm, beynəlxalq istehsalın bir hissəsi kimi, fəaliyyət göstərdiyi ölkələrə iqtisadi və siyasi təsir göstərmək imkanlarına malikdir.

• TMK-lar azad bazar qanunlarını təkcə korporasiyaların müə}^ən etdiyi daxili qiymətlərin qüvvədə olduğu TMK daxilində deyil, həmçinin dünya iqtisadiyyatının ən mühüm seqmenti olan beynəlxalq istehsal çərçivəsində də neytrallaşdıran meylin fonnalaşmasına şərait yaratmışdır.

• TMK-lar, bir qayda kimi, istehsal və ticarət müəssisələrini qəbul edən ölkənin maraqlarını nəzərə almadan, özləri üçün rahat olan ərazilərdə yerləşdirir və bu hala qəbul edən ölkənin çox vaxt reallıqda mövcud olmayan «maraqları» barədə iddia qaldırması səbəbindən haqq qazandırıla bilər.

• TMK-nm bəzi tədqiqatçılan həmişə onların başqa ölkələrdə fəaliyyətinin pozitiv nəticələrinə istinad edir. Bu mövqe belə təsəvvürlərə əsaslanır ki, TMK-nm menecerləri «dar millətçilik xurafatından» azad olduğuna görə bu korporasiyaların fəaliyyətinin nəticəsi «hamı üçün nemətdir» və TMK-nm iş şəraiti məhz dinc şərait tələb etdiyinə görə, onların coğrafi baxımdan səpələnməsi «sülhə xidmət edir». Müasir TMK-nm iqtisadi və texnoloji qüvvəsi bütün mübahisəli məsələlərin yalnız danışıqlar vasitəsilə həll olunmasını tələb etdiyindən, bu, müəyyən dərəcədə həqiqətən də belədir. Müasir TMK-lar, bir tərəfdən, istehsal vahidlərinin çoxsaylı ölkələr üzrə səpələnməsinə əsaslanan beynəlxalq istehsal sisteminin bərqərar olmasına şərait yaradır, digər tərəfdən, sürətli inkişafı böyük məbləğdə kapital qoyuluşları və yüksək ixtisaslı heyətin cəlb olunmasını tələb edən öncül istehsal sahələrinə nüfuz edir. Bütün bunlar yaxın keçmişədək onların milliləşdirilməsi cəhdləri təhlükəsi qarşısında etibarlı müdafiəsini təmin etsə də, sonradan qəbul edilən siyasi qərarlar (əsasən də inkişaf etməkdə olan ölkələrdə) nəticəsində nəzərəçarpan itkilərinin qarşısını ala bilmədi.

## Yoxlama sualları

1.TMK anlayışı, onların fəaliyyətinin mahiyyəti və məzmunu. Tarixi genezisi. TMK-nm təsnifatı.

2.TMK-nm və onların filiallarının sayı. TMK və onların filiallarının coğrafi baxımdan cəmləşməsi. Vahid ümumdünya TMK kompleksini xarakterizə edən ümumi göstəricilər hansılardır: işləyənlərin sayı? Dünya üzrə daxili məhsulda yoxsa ümumdünya ticarətində malların və xidmətlərin xüsusi çəkisi?

3. TMK-nın xarici filiallarında istehsalın təşkilinin özəlliyi. TMK-nm inkişaf etməkdə olan ölkələrdəki fəaliyyəti. Bu özəllik nədən ibarətdir?

4. TMK - beynəlxalq istehsalın maddi bazasıdır - tezisinin məzmununu izah edin. Beynəlxalq istehsalın göstəriciləri hansılardır?

5. TMK-nm fəaliyyətinin milli iqtisadiyyat üçün müsbət və mənfi nəticələri.

6. TMK-nm Rusiyadakı fəaliyyətini xarakterizə edin. Rusiya TMK-nın sürətli inkişafının səbəbləri nədir?

## Referatlarm mövzuları

1. TMK-nın tarixi təkamülü; yaranması, inkişafı, perspektivləri
2. ABŞ və digər inkişaf etmiş ölkələrin fəaliyyətinin xüsusiyyətləri
3. İnkişaf etməkdə olan ölkələrin TMK-sı
4. Rusiya iqtisadiyyatmdakı TMK-lar və Rusiya TMK-sı xarici bazarlarda

# Fəsil 16

# DÜNYA HASİLAT SƏNAYESİNDƏKİ TMK-lar

## 16.1. TMK-nın fəaliyyətinin sahədə ümumi təsviri

TMK-nm müxtəlif ölkələrin hasilat sənayesində fəaliyyətinin tarixi sadəcə bimıənah olmamaqla bərabər, dramatikdir, müharibələr, çevrilişlər, əks-çevrilişlər, diktator rejimləri, son dərəcə ağır şərtli müqavilələr, «gözəgörünməz» müharibələr və münaqişələr cəbbəxanasından olan başqa süjetlərlə zəngindir. Hələ XX əsrin əvvəlində hasilat sənayesinin payına xarici birbaşa investisiyaların (XBİ) cüzi faizi düşürdü; onlar əsasən müstəmləkəçi dövlətlərin şirkətlərinin beynəlxalq ekspansiyası ilə əlaqəli idi. İkinci Dünya müharibəsindən sonra daha çox ölkənin müstəmləkədən azadlığa çıxması və OPEC yaradılması ilə əlaqədar olaraq, Avropa TMK-nm mövqeləri zəifləyir və bununla yanaşı, dünya üzrə XBİ-nin ümumi həcmində hasilat sənayesinin xüsusi çəkisi aşağı düşürdü. Problemin məğzi neftin (barrelə görə 1 dollar) və başqa strateji xammalın qiymətlərinin həddən ziyadə ucuz olmasında idi. Buna görə də həmin illərdə dünya üzrə XBİ-nin həcmində başqa sektorların payı yüksək sürətlə artdığı halda, neft-qaz və dağ-mədən sənayelərinin xüsusi çəkisi az idi və getdikcə aşağı düşürdü. Lakin 1970-ci və 1980-ci illərin «neft şokları» nəticəsində mineral xammalın qiymətinin artımı baş verdi və buna müvafiq olaraq, dünya üzrə XBİ həcmində hasilat sənayesinin rolu əhəmİ3^ətli dərəcədə yüksəldi. Xidmətlər sektoru və emal sənayesi ilə müqayisədə bu sahənin göstəriciləri indiyədək aşağı olsa da, dünyanın neft sektoru (qismən isə qaz) dünya iqtisadiyyatının vəzij^ətinə bütövlükdə güclü təsir edir. Başqa xammal növlərinin, o cümlədən metalların, polimetal filizlərin, əlvan metal filizlərinin, habelə ərzağın əhəmiyyəti də yüksəlmişdir.

Ehtiyatların, istehsalın və istehlakm coğrafi cəhətdən qeyri-bərabər bölgüsü mineral xammal bazarlarına xas olan cəhətdir. İnkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrin (qeyd edək ki, onların sayı az, təqribən 30-dur) müxtəlif xammal növlərinin əsas istehsalçısı və ixracatçısı, inkişaf etmiş ölkələr, habelə bazarları fomıalaşmaqda olan ölkələr qrupu xammalın əsas istehlakçısı və idxalçısıdır. Bu əyintilər bəzi hallarda idxalçılar arasında mal göndərişlərinə təminat verilməsi, ixracatçılar arasında isə ÜTT çərçivəsində

qlobal miqyasda həyata keçirilən liberallaşma siyasətinə baxmayaraq, bazarlara sərbəst daxilolma imkanları barəsində narahatçılıq yaradır. Xammal göndərişləri iqtisadi inkişaf üçün zəmridir: heç bir müasir iqtisadiyyat bu məhsullara adekvat, qiymətlərə görə məqbul və bazara təminat verilmiş çıxış olmadan fəaliyyət göstərə bilməz.

Bununla əlaqədar olaraq, TMK-lar həm qəbul edən, həm də yerləşdiyi ölkələr üçün mühüm əhəmiyyət kəsb edir. TMK-lar öz təbii resurslarını əmtəəlik məhsula çevirmək üçün kifayət qədər istehsal gücü olmayan ölkələrə lazımi qədər kapital, bilik verə və bazara çıxış imkanı yarada bilər; yerləşdikləri ölkələr üçün onlar xarici xammal mənbələrinə zəmanətli çıxışın təmin olunması aləti kimi xidmət edə bilər. Həqiqətən də, ən iri TMK-dan bəzisi hasilat sənayesində aktiv fəaliyyət göstərir və son onilliklər ərzində bu sektorda bir neçə yeni, o cümlədən inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrdən iştirakçılar meydana çıxmışdır. Cənub ölkələrindən olan TMK-nm xarici əməliyyatlarının genişlənməsi öz əksini XBİ barədə məlumatlarda tapır. 2000- 2008-ci illər ərzində hasilat sənayesinə XBİ-də inkişaf etmiş ölkələrin payı 2000-ci ildəki 99%-dən 2008-ci ildə 93%-ə düşmüşdür; onlar üçün bu göstərici 2010-cu ilin əvvəlində iqtisadiyyatın böhrandan sonrakı dirçəliş dövrü üçün səciyyəvi idi.

Mineral xammal bazarlarının konyunkturunun qeyri-sabitliyi həm dövlət siyasətinə, həm də TMK-nın investisiya qərarlarına təsir göstərir. 2003-2007-ci illərdəki yüksək qiymətlər faydalı qazıntıların kəşfiyyatı və hasilatı sektorunda investisiya «bum»u yaratmışdı. Misal üçün, əlvan metal yataqlarının kəşfiyyatına özəl investisiya qoyuluşunun həcmi 2002-ci ildəki 2 milyard dollardan 2006-cı ildəki 7 milyard dolların artmış, həmin dövrdə neft və qaz quyuları qazılmasının həcmi 2 dəfə çoxalmış, bunun nəticəsində isə qazma qurğularından istifadə olunma əmsalı 92%-ə yüksəlmişdir. Göstərilən artım meyli 2008-ci ilin ortalarında zəifləsə də, 2009-cu ildə yüksəlməyə başlamış, lakin 2010-cu ilin sonunda belə, 2007-ci il səviyyəsinə çatmamışdır.

***Emal sənayesində*** XBİ-nin əsas hissəsi, əvvəlki kimi, inkişaf etmiş ölkələrdə yerləşdirilir və bu, müəyyən dərəcədə transsərhəd QƏ miqyasının əhəmiyyətli həcmdə olması ilə izah edilir. Amma onların bu sahədə yerləşdirilən XBİ-nin dünya üzrə idxalı həcmindəki xüsusi çəkisi 1990-cı ildəki 90%-dən 2007-ci ildəki 70%-ə düşmüşdür. Son onilliklərdə TMK-nm hasilat sənayesinə investisiya qoyuluşları obyekti qismində inkişaf etməkdə

olan və keçid iqtisadiyyatlı ölkələrin payı xeyli çoxalmışdır. Qiymətləndirmələrə əsasən, 1990-2000-ci illərdə bu sahəyə yatırılan XBİ-nin həcmi 2 dəfədən çox, 2000-2007-ci illərdə isə daha yarım dəfə artmışdır. Faydalı qazıntıların yeni yataqları kəşf olunduqdan sonra XBİ alan daha bir neçə ölkə, o cümlədən Mali, Çad və Ekvatorial Qvineya meydana çıxmışdır. Göstərilən dövrdə Rusiya Federasiyası, Qazaxıstan və Azərbaycan da hasilat sənayesinə XBİ yatırılmasının mühüm obyektinə çevrilmişdir.

Suriya Ərob Respublikası 2 90,3
Papua-Ycni Qvineya I 79,5
Nigeriya I 74,8
Boliviya f 69,6
Botsvana f 68,3
Oman 57,2
Qaza'ustan 49,9
Vı sucla
Tanzaniya Birləşmiş Resp .olikası
Cənubi Afrika Çili Argentina
Banqladeş Monqolustan Rusiya
Federasiyası Kolumbiya Norveç
Myanma Vyetnam Zambiya İordaniya
Avstraliya Kanada Niderland
Birləşmiş Krallıq Peru Pakistan
İndoneziya İtaliya Filippin Rumıniya
Türkiyə Tailand Birləşmiş Ştatlar

0 20 40 50 %

*Şəkil 16.1.* **Bəzi ölkələrə daxil olan XBİ-nin ümumi həcmində hasilat sənayesinin payı***

* UNCTAD. World Investment Report, 2010.

Ölkəyə daxil olan XBİ-də hasilat sənayesinə yatırımların xüsusi çəkisi yerləşdirilmə ölkələrinə görə də fərqlənir. Ölkələrin əsas qrupları arasında daxil olan XBİ-nin ümumi həcminin əhəmiyyətli hissəsi bir sıra dövlətlərin hasilat sənayesinin payına düşür; bunlara misal kimi, inkişaf etmiş ölkələrdən Avstraliya, Kanada və Norveçi; Afrikada Botsvana, Nigeriya və CAR-ı; Latın

Amerikası və Karib dənizi hövzəsi ölkələri regionunda Boliviya, Venesuela, Çili və Ekvadoru; Cənub-Şərqi Avropa və MDB məkanında Qazaxıstanı göstənuək olar (şəkil 16.1).

16.1-ci şəkildə inkişaf etmiş, inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələr qrupundan reprezentativ ölkələr təsvir olunmuşdur. Onların göstəriciləri hasilat sənayesinə gətirilmiş XBİ-nin «mühümlük dərəcəsini», həmin ölkələrdə XBİ-nin ümumi axınları həcmində dəyər ifadəsini əks edir. Belə ki, bu rol dənizə çıxışı olmayan inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrdə son dərəcə yüksək, inkişaf etmiş ölkələr qrupunda isə aşağıdır.

## 16.2. Özəl və dövlət TMK-sı

Dağ-mədən və neft-qaz sahələrində fəaliyyət göstərən TMK-nın xüsusi çəkisi mühüm dərəcədə fərqlənir. 2009-cu ildə dünya üzrə hasilatın dəyər ifadəsi əsasında aparıcılar sırasına daxil edilmiş 25 şirkətdən 14-ü inkişaf etmiş ölkədən idi. Qalan 9 ölkə inkişaf etməkdə olan ölkələrin, 2-si isə Rusiya Federasiyasının korporasiyaları idi. İlk 3 yeri «BHP Billiton» (Avstraliya), «Rio Tinto» (Böyük Britaniya) və KVRX) (Braziliya) tutmuşdur. Siyahıya 3 dövlət şirkəti: «Codelco» (Çili), «Алроса» (Rusiya Federasiyası) və «KGHM Polska Miedz » (Polşa) daxil edilmişdir. Ehtimal edilir ki, «Inco»-nu (Kanada) əldə etdikdən sonra KVRD metal xammalın dünyada ən böyük istehsalçısına çevrilmişdir və 2006-cı ildən Latın Amerikasından olan bu şirkət, ilk dəfədir ki, həmin mövqelərə çıxmışdır. Göstərilən şirkətlərin əməliyyatlarının beynəlmiləlləşmə səviyyəsi xeyli fərqlidir. 2005-2010-cu illərdə dağ-mədən hasilatını həyata keçirən 10 şirkət arasında qəbul edən ölkələrin sayma görə «Rio Tinto» liderlik edir, ondan sonra isə «Anglo-American», «AngloGold Ashanti» və «Glencore International» gəlirdi. Bunlardan fərqli olaraq, «Codelco», KVRD və «Debswana» (Botsvana) xaricdə hasilat güclərinə malik deyil (bax: şəkil 16.2). Qeyd edilməlidir ki, inkişaf etməkdə olan ölkələrin çoxunda və keçid iqtisadiyyatlı ölkələrdə neft-qaz və dağ-mədən sənayelərində ən iri şirkətlər bütövlüklə yaxud qismən dövlət mülkiyyətindədir. Bu, onların konstitusiyalarında «yerin təkinin, bütün faydalı qazıntıların xalqa məxsus» olmasını bəyan edən müddəaya uyğundur. Buna görə də renta bütövlüklə yaxud məbləğinin əksər hissəsi dövlət büdcəsinə köçürülür, TMK isə yalnız yataqların işləndiyi yerlərin dövlət və yerli bürokratiyası ilə «bölüşərək», onun böyük hissəsini mənimsəyir.

***Neft-qaz sektorunda*** xarici aktivlərin həcminə görə ən iriləri özəl şirkətlərdir. Məsələn, bunlardan 10-u UNCTAD-ın 2009-cu ildə tərtib etdiyi dünyanın xarici aktivlərinin həcminə görə 100 ən iri şirkətinin siyahısına daxil edilmişdir. Amma hasilat həeminə görə, inkişaf etməkdə olan ölkələrin TMK- sı dünyanın ən iri şirkətləri sırasında təmsil olunmur. 2005-2009-cu illərdə dünyada 3 ən iri neft və qaz istehsalçısı inkişaf etməkdə olan yaxud keçid iqtisadiyyatlı ölkələrdə yerləşən dövlət müəssisəsi «Saudi Aramco», «Газпром» (Rusiya Federasiyası) və «İran Milli Neft Şirkəti» («İMNŞ») olmuşdur. 2005-2009-eu illərdə «Saudi Aramco»nun illik hasilatı neft və qazın ən iri hasilatçısı olan özəl «Exxson Mobil» (ABŞ) şirkətinin müvafiq göstəricisini təqribən 2 dəfə üstələmişdir. Dünyanın ən iri 50 hasilatçısmm yarısının kapitalında səhmlərin nəzarət zərfi dövlətə məxsusdur, onlardan 23 şirkətin mənzil-qərargahı inkişaf etmiş ölkələrdə, 12 şirkətinki Cənub-Şərqi Avropada, qalan 15 şirkətinki isə inkişaf etmiş ölkələrdə yerləşirdi.




*Şəkil 16.2.* **Qəbul edən ölkələrin metal filizi hasilatı sahəsində* xarici filialların payı**, 2006-2008-ci illər**

M ə n b ə : UNCTAD. World Investment Report, 2010.

* hasilatın dəyər ifadəsi ilə.

** Xarici filialların payına ən azı 10% xarici mülkiyyəti olan bütün şirkətlər daxildir.

Böyük faydalı qazıntı yataqlarına malik inkişaf etməkdə olan ölkələrin bəzisində daxil olan XBİ-nin əsas hissəsi hasilat sənayesinin payına düşür; onların əksəriyyətində bazarın məhdudluğu, istehsal güclərinin zəifliyi səbəbindən böyük həcmdə XBİ cəlb etməyə qadir olan başqa sahələr azdır.

Metal filizlərinin (habelə almazların) hasilatında xarici şirkətlərin xüsusi çəkisi ölkələr üzrə əhəmiyyətli dərəcədə fərqlənir. Qvineya, Zambiya, Mali və Tanzaniya kimi zəif inkişaf etmiş ölkələrdə, habelə Argentina, Botsvana, Qabon, Qana, Monqolustan, Namibiya və Papua-Yeni Qvineyada qeyri-kustar hasilat, demək olar ki bütövlüklə xarici filialların payına düşür. Bu ölkələrdə TMK-lar, bir qayda kimi, yataqların mənimsənilməsi üçün verilən lisenziya fonuasmda, ***konsessiya*** əsasında fəaliyyət göstərir. Metal xammalının iri istehsalçısı olan qalan 10 ölkədə xarici filialların payı qiymətləndinnələrə görə, 50-86% təşkil edir. Bunun əksinə olaraq, İran İslam Respublikası, Polşa və Rusiya Federasiyasında onların payı cüzidir.

***Neft və qaz*** sektomnda xarici filialların payı, dağ-mədən sənayesi ilə müqayisədə, aşağıdır. Beynəlxalq tədqiqatların nəticələrinə əsasən, 2007-2010-cu illərdə dünyada hasil edilən neftin və qazın 22%-i onların payına düşürdü, özü də, orta hesabla götürüldükdə, bu göstərici inkişaf etməkdə olan ölkələr (19%) və keçid iqtisadiyyatlı ölkələr (11%) ilə müqayisədə, inkişaf etmiş ölkələrdə daha yüksək idi (36%). Bununla belə, inkişaf etməkdə olan ölkələrin göstəricilərində böyük səpələnmə müşahidə olunur. Qərbi Afrikada hasilatın cəmi 3%-i xarici filialların payına düşdüyü halda. Böyük Səhranın cənubunda yerləşən Afrika ölkələrində bu göstərici orta hesabla 57% təşkil edirdi. Anqola, Argentina, İndoneziya, Böyük Britaniya, Sudan və Ekvatorial Qvineyada hasilatın yarısından çoxunu xarici şirkətlər verir. Digər tərəfdən, Küveyt, Meksika və Səudiyyə Ərəbistanında xarici filiallar hasilat fəaliyyətində, ümumiyyətlə, iştirak etmir (şəkil 16.3).

Xarici şirkətlərin neft və qaz hasilatının həcminə səhmlərinin nəzarət zərf əcnəbilərə məxsus olan, habelə hasilatın pay bölgüsü haqqında sazişlər, konsessiya, müştərək müəssisələrin təsis olunması yaxud başqa müqavilələrə əsasən yaradılan şirkətlərin hasilatı da daxildir. Xarici şirkətlərin yalnız xidmətlərin göstərilməsi üzrə bağlanılan kontraktlar əsasında iştirakı nəzərə alınmır. Dünyada hasilatın hər bir blokunda yaxud bölgəsində illik hasilatın ümumi həcmi iştirak edən şirkətlər arasında onların xalis məhsul buraxılışının

**həcmindəki payı əsasında, faiz ifadəsində bölüşdürülür.**




3. **Ayrı-ayrı ölkələrin neft və qaz hasilatı sahəsində xarici şirkətlərin payı,* 2005-2009-cu illər**

M ə n b ə : UNCTAD. World Investment Report, 2010.
* Neft ekvivalentində, milyon barrellə.

İnkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrdə yerləşən dövlət şirkətləri dünyada neft və qaz hasilatının böyük hissəsinə nəzarət etsə də, onların fəaliyyətinin beynəlmiləlləşmə səvİ3ryəsi ən iri özəl TMK-lar ilə müqayisədə o qədər də yüksək deyil. Həqiqətən də, 2005-ci ildə 3 ən iri dövlət şirkətindən heç biri xaricdə böyük miqyasda hasilat həyata keçirmədiyi halda, 3 ən iri özəl neft şirkətinin hasilatının 70%-dən çoxu xarici yataqların payına düşürdü. Ancaq inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrin bəzi şirkətləri xaricdəki aktivlərini sürətlə artırır və tezliklə qlobal oyunçulara çevrilir. «NIOC» (İran), «CNPC» (Çin) «Sinopec» (Çin), »ЛУКОЙЛ» (Rusiya

Federasiyası), «OHGC» (Hindistan), «Petrobraz» (Braziliya), «Petronas» (Malayziya) şirkətlərinin xaricdə ümumi hasilatının həcmi 10 il öncə cəmi 22 milyon barrel olsa da, 2008-ci ildə 630 milyon barrel neft ekvivalentini ötüb keçmişdir. 2005-2008-ci illərdə Çinin «NİNC», «CNPC» və «Sinopec», Hindistanın «OHGC Videsh» neft korporasiyası bütün dünyada neft və qaz hasilatına külli məbləğdə investisiya qoymuşdur. Həm «CNPC», həm də «Petronas» 10-dan artıq ölkədə neft və qaz hasilatında iştirak edir. Bazarları formalaşmaqda olan ölkələrin bir neçə neft TNK-sı, müxtəlif səbəblərdən, o cümlədən sanksiyalar üzündən inkişaf etmiş ölkələrin TNK-nm işləyə bilməyəcəyi dövlətlərə investisiya qoyur (cədvəl 16.1).

Dağ-mədən sənayesində 10 ən iri şirkətin dünya üzrə hasilatın həcmindəki payı dunuadan artır. UNCTAD-m qiymətləndirməsinə əsasən, transsərhəd QƏ seriyası başa çatdıqdan sonra 10 ən iri dağ-mədən şirkətinin dünya üzrə enerji daşıyıcısı olmayan faydalı qazıntıların hasilatının dəyər ifadəsində həcmindəki payı 1995-ci ildəki 26%-dən 2008-ci ildə 34%-dək çoxalmışdır. Statistikaya görə, bu pay 2009-2010-cu illərdə də saxlanmışdır. Metalların ayrı-ayrı qrupları üzrə cəmləşmə səviyyəsi daha yüksəkdir; belə ki, 2008-ci ildə dünyada mis hasilatının 58%-i 10 ən iri şirkətin payına düşürdü. Bunun əksinə olaraq, ötən onillikdə neft-qaz sənayesində cəmləşmə səviyyəsi kifayət qədər sabit qalmış, dünya üzrə hasilatın ümumi həcmində 10 ən iri istehsalçının payı təqribən 41% olmuşdur.

*CədvəllG.l*

**Dünyanın ən iri 10 dağ-mədən və neft şirkəti, 2008-ci il ***

| Yer | Şirkətin adı | Yerləşdiyi ölkə | Dövlət mülkiyyəti, % | Dünya üzrə hasilatda payı, % | Hasilat aparılan ölkələrin sayı |
|---|---|---|---|---|---|
| *Dağ-mədən sənayesi* | | | | | |
| 1 | BHP Billiton | Avstraliya | - | 4,8 | 7 |
| 2 | RioTinto | Böyük Britaniya | - | 4,6 | 10 |
| 3 | KVRD | Braziliya | 12 | 4,4 | - |
| 4 | Anglo/American | Böyük Britaniya | - | 4,3 | 9 |
| 5 | Codelco | Çili | 100 | 3,2 | - |
| 6 | Норникель | Rusiya Federasiyası | - | 2,2 | 1 |
| 7 | Phelps Dodge | ABŞ | - | 2,0 | 2 |
| 8 | Grupo Mexico | Meksika | - | 1,6 | 2 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 9 | Newmont Mining | ABŞ | - | 1,3 | 7 |
| 10 | Freeport McMo Ran | ABŞ | - | 1,3 | 1 |
| | Ən iri 10 şirkət birlikdə | | | 29,7 | |
| *Neft-qaz sənayesi* | | | | | |
| 1 | Saudi Aramco | Səudiyyə Ərəbistanı | 100 | 8,8 | - |
| 2 | Газпром | Rusiya Federasiyası | 51 | 7,7 | 2 |
| 3 | İMNŞ | iran islam Respublikası | 100 | 3,9 | - |
| 4 | Exxon Mobil | ABŞ | - | 3,7 | 23 |
| 5 | Pemex | Meksika | 100 | 3,5 | * |
| 6 | British Petroleum | Böyük Britaniya | - | 3,3 | 19 |
| 7 | Royal Dutch Shell | Böyük Britaniya / Niderland | - | 3,2 | 25 |
| 8 | CNPC | Çin | 100 | 2,4 | 14 |
| 9 | Total | Fransa | - | 2,1 | 27 |
| 10 | Sonatrac | Əlcəzair | 100 | 1,9 | 1 |
| | Ən iri 10 şirkət birlikdə | | 40,5 | | |

UNCTAD 2009 (Xammal materialları qrupunun və IMS, 2009-cu il məlumatlarının əsasında).

Hasilat sənayesində işləyən transmilli korporasiyalar tərəfindən yerləşdirilən investisiyaların hərəkətverici qüvvələri və həlledici amilləri fəaliyyət növləri, sahələr və şirkətlər üzrə fərqlənir. İstehsal zəncirinin başlanğıcında (kəşfiyyat və hasilat) XBİ-nin yerləşdirilməsi zaman TMK-nın təbii resursları əldə etmək imkanı və digər layihələrdə iştirak etməsi mülahizələri üstündür. TMK-ya özünün neft emalı zavodlarının yaxud emal sənayesi müəssisələrinin tələbatının ödənilməsi, mineral məhsulların bilavasitə qəbul edən ölkənin, yerləşdiyi ölkənin bazarlarında yaxud beynəlxalq bazarlarda satışı yaxud öz ölkəsinin enerji daşıyıcılarına və başqa mineral məhsullara strateji ehtiyaclarının (həmin ölkənin hökuməti tərəfindən müəyyənləşdirilmiş) ödənilməsi üçün resurslar tələb oluna bilər. Bu mülahizələr son dövrlərdə Asiyanın dövlət TMK-nın xarici əməliyyatlarının genişlənməsinin başlıca amillərindən biri olmuşdur.

***Bazarın mənimsənilməsi mülahizələri*** xaricdə emal üzrə fəaliyyətin

həyata keçirilməsini müəyyən edən əsas amillər sırasına daxildir. Məsələn, Rusiyanın dağ-mədən sənayesinin TMK-sı xaricə investisiya qoyuluşlarını bu fəaliyyətlə bağlı olan bölgü kanalları üzərində nəzarətin genişləndirilməsi məqsədilə həyata keçirir. Səudiyyə Ərəbistanı və Küveytin dövlət neft şirkətləri Çində yerləşən 2 ayrıca neft emalı və neft-kimya müəssisələri çərçivəsində həmin ölkənin «Sinopec» fınuası ilə bir sıra tərəfdaşlıq müqavilələri bağlamışdır.

***Səmərəliliyin yüksəldilməsi mülahizələri*** əsasən TMK-nın istehsal xərclərində ölkələrin fərqdən bəhrələnməyə çalışdığı emal və metal məmulatlarının hazırlanmasının ilkin mərhələsində investisiyalara aiddir.

Strateji aktivlərin əldə olunması mülahizələrini müxtəlif hasilat sahələrində və fəaliyyət növlərində transsərhəd QƏ-nin həcminin xüsusilə genişlənməsi ilə əlaqələndirmək olar: şirkətlər strateji aktivlərin nou-hau fonuasında satın alınması, texnologiyaların başqa şirkətlərdən yaxud texnologiyalarla təchizat üzrə ixtisaslaşmış müəssisələrdən əldə olunması, qlobal status əldə edilməsi prosesini sürətləndirmək məqsədilə satın alınan firmaların resurslarına, imkanlarına və bazarlarına malik olmaq üçün investisiya qoyuluşlarını həyata keçirə bilər.

Öz ölkəsində qəbul edən başqa ölkələrdə yerləşən müəssisələri ilə müqayisə olunduqda, TMK-nın maliyyə resurslarına çıxışın əldə olunması, həm ənənəvi, həm də yeni TMK-nın malik olduğu üstünlüklərə yiyələnməni təmin edir. Hasilat sənayesində beynəlxalq layihələrin həyata keçirilməsi sahəsində təcrübəsi olduğuna görə, TMK-nın fond bazarlarından istifadə etməklə vəsaitləri borc almaq yaxud səfərbər etmək imkanları daha genişdir. Maliyyə vəziyyətinin dayanıqlığı yerləşdiyi ölkənin institusional mexanizmləri ilə də bağlı ola bilər. Bazarları formalaşmaqda olan bəzi ölkələrin dövlət TMK-sı öz hökumətlərinin maliyyə dəstəyindən istifadə sayəsində, xaricdə investisiya qoyuluşlarını həyata keçirərkən daha böyük riskə gedə və mineral xammal resurslarını əldə etmək üçün daha çox pul ödəyə bilir. Bu, Çinin TMK-sı üçün adi haldır; amma xarici TMK-dan narazı qalan ölkələr də bu üsulu seçir.

Bir sıra hallar istisna edilməklə, hüquq sahibinin səciyyəvi üstünlüyü olan firma texnologiyası hasilat sənayesi şirkətlərinin beynəlmiləlləşməsi üçün 0 qədər də vacib deyil. Dağ-mədən əməliyyatlarında və neft-qaz hasilatında istifadə olunan texnologiyalar çox yaxşı məlumdur və açıq bazarda əldə oluna

bilər. Mühüm istisnalar sırasına texnoloji mürəkkəb layihələr, məsələn, dənizdə dərin quyularm qazılması, mayeləşdirilmiş qaz istehsalı, ənənəvi olmayan enerji mənbələrinin mənimsənilməsi aid edilə bilər. Ancaq xaricdə aparılan əməliyyatların genişləndirilməsində müvəffəqiyyət əldə olunmasının həlledici amili uzunmüddətli layihələrin və onlarla bağlı olan risklərin idarə edilməsi sahəsində təcrübədir. Bundan başqa, neft və qaz sahəsində nəqletmə və bölgü kanallarına çıxışın olması konkret flnualarm mühüm potensial üstünlüyüdür.

## 16.3. TMK-nın fəaliyyətinin qəbul edən ölkələr üçün nəticələri

Zəngin təbii sərvətlər faydalı qazıntıları olan ölkələrin iqtisadi inkişafı və yoxsulluq səviyyəsinin azaldılması üçün geniş imkanlar açır. Bu gün inkişaf etmiş dövlətlərə aid edilən bəzi ölkələr, habelə bir çox inkişaf etməkdə olan və keçid iqtisadi}^atlı ölkələr inkişaf prosesinin sürətləndirilməsi üçün malik olduqları faydalı qazıntılardan uğurla istifadə edə bilmişdir (ərəb ölkələri qrupu). Amma başqa hallarda hasilat sənayesində həyata keçirilən fəaliyyətin nəticələri məyusedici olmuş və qalmaqdadır (MDB-nin, Afrikanın bəzi ölkələri).

Mineral xammal ixrac edən ölkələrin çoxu üçün xammalın qiymətlərinin sürətlə bahalaşması ticarət şəraitini yaxşılaşdınmşdır. Bu, ilk növbədə, gəlirləri aşağı olan, milli gəlirinin böyük hissəsi faydalı qazıntı yataqlarının istismarı və onların ixracı hesabına formalaşan ölkələrə aiddir. Lakin təbii resurslar bazasının mövcudluğu hasilat sənayesində TMK-nın iştirakından asılı olmayaraq, inkişaf nöqteyi-nəzərindən müəyyən ölkə üçün avtomatik surətdə faydaya çevrilmir. Təbii resurslarla təmin olunmuş ölkələrin fəaliyyətinin nəticələrini müəyyənləşdirən və TMK-nın iştirakı ilə deyil, tələb ilə təklif, siyasətdə yol verilən səhvlərlə bağlı olan çoxsaylı fundamental amillər mövcuddur. Bununla belə, TMK-lar son nəticəyə təsir göstənnəyə qadirdir. Onlar daxili investisiyaları tamamlaya, istehsalı kapital, texnologiyalar və ixtisaslı idarəçilik kadrları ilə təmin etməklə stimullaşdıra bilər. Adətən, aktivlərin bu cür toplusu gəlirləri aşağı olan, daxili imkanları çatışmayan ölkələrin çoxu üçün zəruridir. Digər tərəfdən, TMK-ya arxalanmaq, danışıq aparan qüvvələrin qeyri-bərabərliyi, bərpa olunmayan resurslar üzərində mülkiyyət hüququ və onlara nəzarət, rentanm bölgüsü, transfer qiymətlərinin

əmələ gəlməsi, müxtəlif ekoloji və sosial xərclər ilə əlaqədar olan təhlükələr meydana çıxara bilər.

Beləliklə, hasilat sənayesində TMK-nm fəaliyyəti onu qəbul edən ölkə üçün həm pozitiv, həm də neqativ iqtisadi, ekoloji, sosial və siyasi nəticələr verə bilər. Hasilat sənayesindən əldə olunan gəlirləri inkişafın stimullaşdırılması məqsədlərinə yönəltmək üçün həmin problemlərin həllinə böyük qüvvə sərf etmək lazımdır.

TMK-nı qəbul edən ölkə qarşısında vəhdət təşkil edən 3 iqtisadi vəzifə durur:

1) hasilat sənayesi sayəsində əlavə dəyər yaratmaq;
2) onu yerli səviyyədə «tutub əldə saxlamaq»;
3) əldə olunan gəlirlərdən mümkün qədər səmərəli istifadə etmək.

Neft və qazdan böyük gəlirlər əldə edib, müxtəlif səbəblər: onlara sərəncam vermək bacanqsızhğı, son dərəcə yüksək korrupsiya amili, qeyri-ardıcıl siyasət yeridilməsi, idarəetmə sistemlərinə kadr seçimində səhvlər və s. ucbatından bundan inkişaf məqsədləri üçün pis istifadə olunması mümkündür.

Əlavə dəyər yaradılması baxımından da TMK-nm iştirakı müxtəlif ölkələr üçün fərqlidir. Kifayət qədər maliyyə resurslarına, mühəndis təcrübəsinə, texniki silahlanmış dövlət neft şirkətlərinə malik inkişaf etməkdə olan ölkələr təbii resurslarının mənimsənilməsi üçün özlərinin potensialını müvəffəqijq/ətlə qurur. Buna tipik nümunə, neft və qazın böyük hissəsini mövcud texnologiyalardan istifadə əsasında, əslində xarici şirkətlərin iştirakı olmadan hasil edən Qərbi Asiya ölkələridir. Maliyyə resursları və kapital tutumlu, yüksək riskli və bəzi hallarda texnoloji baxımdan mürəkkəb layihələri reallaşdırmaq bacarığı olmayan ölkələrdə isə TMK-nm iştirakı faydalı qazıntıların hasilat və ixrac həcmini genişləndirməyə imkan yaradır.

Maliyyələşmənin TMK-dan savayı digər mənbələri mövcud olsa da, ölkələrin bir çoxu onlardan istifadə etmək imkanlarından məhrumdur. Dağ-mədən layihələrinə TMK-nm cəlb edilməsinin üstünlüklərindən biri, qəbul edən ölkənin hökumətinin xarici borcunun yaranmaması və bu cür maliyyələşmənin başqa aktivlərlə, məsələn, texnologiyalar və idarəçilik təcrübəsi ilə müşayiət olunmasıdır. Hasilat sənayesində həyata keçirilən bəzi layihələrdə texnologiyaları və idarəçilik «nou-hau»sunu əldə etmək imkanı, həqiqətən də, ölkələri TMK-nm cəlbinə sövq edən əsas səbəb ola bilər. Ancaq TMK-lar altruist deyil və qazanc əldə etməkdə maraqları var. Onlar, bir qayda

kimi, çəkdikləri xərclərinin və əldə olunan mənfəətin böyük hissəsini tələb edir və bununla da, yaradılan əlavə dəyərin (rentamn) bölgüsünün xarakterinə güclü təsir göstərirlər.

TMK-nm gəlişi, həmçinin yerli məsələlərin həlli ilə əlaqələndirilir: ölkələr onları dəvət etməklə, iş yerlərinin sayını, əmək haqlarını, yerli satınalmaları artınnaq, vergilər, royalti və dividendlər hesabına dövlət gəlirlərini çoxaltmaq istəyir. Hasilat sənayesində irimiqyaslı layihələr həyata keçirilərkən iş yerlərinin sayının artırılması imkanları, adətən məhduddur və buna görə də onlar makroiqtisadi səviyyədə məşğulluğun səviyyəsinə, demək olar ki, təsir göstənnir. Yerli müəssisələrlə müqayisədə, daha böjdik kapital tutumlu texnologiyalardan və proseslərdən istifadə etdiklərinə görə bu cəhət TMK-nm iştirakı ilə həyata keçirilən layihələr üçün xüsusilə səciyyəvidir. Bütövlükdə götürüldükdə, hasilat sənayesində əks-əlaqələrin yaradılması imkanları o qədər də geniş deyil. Bundan başqa, xarici filialların başqa ölkələrin müəssisələri sırasından müxtəlif resurslarla təchiz edənləri seçməsi ehtimalı böyükdür. Gəlirləri aşağı olan ölkələrdə təcrübəli təchizatçıların və ixtisaslı kadrların çatışmazlığı üzündən yerli podratın və növbəti emal prosesinin təşkili imkanları da məhdud ola bilər. Beləliklə, faydalı qazıntıların hasilatı TMK-nı qəbul edən ölkəyə gəlirlərin, özü də büdcəyə daxilolmaların çoxalması formasında çox ciddi birbaşa fayda verir.

Qəbul edən ölkənin xalis gəlirlərinin və TMK-nm hasilat sənayesində apardığı əməliyyatlardan ona düşən gəlirin məbləği, bir tərəfdən, TMK-nm cəlbi nəticəsində yaradılan əlavə dəyərin həcmindən və gəlirin bölgüsü mexanizmindən, digər tərəfdən isə, həmin ölkənin istehsal amillərindən və hökumətindən asılıdır. Ümumilikdə, konkret ölkənin öz müəssisələrinin potensialı və rəqabət qabiliyyəti yüksəldikcə, onun maliyyələşdirmə üsulunu seçmək və layihəni həyata keçirmək imkanları da artır. Daxili imkanları məhdud olan ölkələrdə potensial resursları mallar və xidmətlərə transformasiya etmək üçün yeganə variant çox zaman TMK-ya istinaddır.

Müəyyən layihədən əldə olunan gəlirlərin bölgüsünün xarakteri TMK menecerləri ilə aparılan danışıqlarda onu qəbul edən ölkə hökumətinin tutduğu mövqedə müəyyən dərəcədə əks olunur. Gəlirlərin bölgüsü mexanizminə, həmçinin TMK-nm təcrübəsi, o cümlədən onların uçot metodları, maliyyə texnologiyaları, transfer qiymətlərindən istifadə olunması və mənfəətin ölkədən çıxarılması ehtimalı, qəbul edən ölkədəki işgüzar mühit və s. təsir

Vergi rejimləri məsələləri üzrə aparılan tədqiqatlar layihələrin həyata keçirildiyi vaxt ərzində əldə olunan gəlirlərdə hökumətin payının neft-qaz sektorunda 25-90%, dağ-mədən sənayesində isə 25-60% arasında olduğu barədə fikir söyləməyə əsas verir.

TMK-nın fəaliyyəti iqtisadiyyat üçün, prinsipeə, həm birbaşa, həm də dolayı nəticələr verir. Potensial dolayı iqtisadi nəticə infrastruktura yatırılan səmıayələrlə bağlıdır. TMK-nın hasilat sənayesində fəaliyyəti çox vaxt mineral məhsulların hasilatı, nəqli və ixracı üçün zəruri olan kommunal təsərrüfatın (məsələn, enerji və su təchizatı) inkişafı və nəqliyyat infrastrukturunun (avtomobil və dəmir yolları, limanlar) yaradılması ilə əlaqəlidir. Ehtimal ki, yaşayış məntəqələrində yeni infrastrukturun inkişafı etdirilməsi, onun ucqar rayonlarda yaradılması ilə müqayisədə daha səmərəli olacaq. Lakin problem çox vaxt həm milli, həm də beynəlxalq TMK-nın fəaliyyətində infrastruktur tərkib hissəsinin mövcud olmamasındadır.

Bunu da nəzərə almaq lazımdır ki, yaradılmış gəlirdən ümumi səmərə son nəticədə qəbul edən ölkənin hökumətinin gəlirləri hansı tərzdə bölüşdürməsi, idarə və istifadə etməsi, bundan inkişaf və insanların ehtiyaclarının ödənilməsi üçün necə istifadə olunması ilə müəyyən olunur. İnkişaf etməkdə olan ölkələrin, keçid iqtisadiyyatlı ölkələrin təcrübəsi, ciddi parlament və ictimai nəzarət olmadıqda, TMK-nın pozitiv effekt verə bilmədiyini göstərir.

İstehsal üçün əlverişli şərait yaratmaqla yaxud onu stimullaşdırmaqla, TMK, onu qəbul edən ölkədə iqtisadi fəaliyyətin ümumi nəticələrinə makroiqtisadi sabitlik, inkişaf templəri və gəlirlərin bölgüsü baxımından təsir göstərir. Bu nəticələrin əksər qismi, ümumiyyətlə hasilat sənayesi ilə bağlı olsa da, TMK-nın fəaliyyəti sayəsində əldə olunan gəlir iqtisadi artım qarşısındakı ilkin maneələrin (məsələn, əmanətlərin və investisiyaların aşağı səviyyədə olması) aradan qaldırılmasına kömək edə və buna güclü təkan verə bilər. Bununla belə, hasilat sənayesinin sürətli inkişafı nəticəsində meydana çıxan gözlənilməz gəlirlər cəmiyyətin ciddi nəzarəti və uzunmüddətli inkişaf strategiyasına uyğun olmadan, bacarıqsızla idarə edildikdə, TMK-nın iştirakından asılı olmayaraq, adətən «holland sindromu» adlandırılan mənfi nəticələrə gətirib çıxarır. Beləliklə, TMK-nın fəaliyyəti iqtisadi artıma şərait yaratsa da, bundan daha böyük səmərə ilə yararlanma üçün əldə edilən gəlirlər ədalətlə bölüşdürülməli və düşünülmüş tərzdə istifadə olunmalıdır. Bu isə, çox çətin işdir.

Kimin tərəfindən həyata keçirilməsindən asılı olmayaraq, hasilat sənayesində fəaliyyət ekoloji problemlərin yaranması ilə əlaqədardır. Burada TMK-lar həm mənfi, həm də müsbət rol oynayır. Bir tərəfdən, onlar sadəcə olaraq resursların hasilatı faktına görə (əks halda, bu işlər yerinə yetirilməyəcəkdi) qəbul edən ölkədə ətraf mühitin tənəzzülünü gücləndirə bilər. Digər tərəfdən isə, onlar orta səviyyəli milli şirkətlərlə (o cümlədən kustar və xırda hasilat müəssisələri) müqayisədə daha qabaqcıl istehsal texnologiyalarından istifadə etməklə, təbiətin qorunması sahəsində ciddi idarəetmə standartları tətbiq etməklə ətraf mühitə arzuolunmaz təsirləri azalda bilər. Bununla belə, TMK-nm fəaliyyətinin xalis ekoloji effekti onu qəbul edən ölkənin təbiəti mühafizə normalarından, bunlara riayətin təmin olunması üçün institusional potensialın mövcudluğundan əhəmiyyətli dərəcədə asılıdır. Son illərdə iri, həm dağ-mədən sənayesində, həm də neft-qaz sektomnda möhkəm bərqərar olmuş TMK-lar ekologiya məsələlərinə ciddi fikir verir. Baş verən qəzalara və haqsızlıqlara baxmayaraq, ümumilikdə götürüldükdə, sonuncu 10 il ərzində TMK-nm inkişaf etməkdə olan ölkələrdə təbiəti mühafizə praktikası yaxşılaşmışdır, hərçənd, burada da şirkətlər arasında fərqlər müşahidə olunur. Məsələn, ətraf mühiti mühafizə üzrə qanunvericiliyi inkişaf etmiş və bu sahədə daha yüksək standartları olan ölkələrin TMK-sı ilə müqayisədə, həmin məsələləri yenicə həll etməyə başlayan ölkələrin TMK-nm öz xarici layihələrinin ekoloji nəticələrinin tənzimlənməsinə hazırlığı qeyri-qənaətbəxş ola bilər.

Özəllik bundadır ki, başqa sahələrlə müqayisədə, hasilat sənayesinə yönəldilən investisiyaların çox vaxt daha güclü sosial və siyasi nəticələri mövcuddur. Mənfi sosial və siyasi nəticələr əsasən böyük faydalı qazıntı ehtiyatlarına malik olsa da, institusional bazası zəif, hökumətləri isə xammal satışından əldə edilən külli məbləğdə gəlirlərdən inkişaf məsələlərinin həlli üçün istifadə edə bilməyən yoxsul ölkələrdə müşahidə olunur. Problemlər çox vaxt faydalı qazıntıların konkret növləri, qeyri-qənaətbəxş idarəetmə strukturları və qəbul edən ölkələrin özünü korrupsiya əlaqələri tələsinə salmış hökumətlərinin qanunları, tənzimləyici sənədləri işləyib hazırlamaq və icrasını təmin etmək bacanqsızhğıdır. Başqa amillər də - yerli məmurların fəaliyyətinin səmərəsizliyi, bürokratiyanın yüksək səviyyəsi və s. öz təsirini göstərir. TMK-nm yerli icmalarla qarşılıqlı əlaqələri, onun obyektlərində işləmək üçün miqrant axını və bununla əlaqədar yaranan məsələlər də narahatçılıq doğurur.

Siyasi problemlər resursların istismarından əldə olunan gəlirlərin bölgüsündə fikir ayrılığı, korrupsiya, yaranan gəlirlərdən istifadə etməyə can atan müxtəlif qruplar arasında ixtilaflar yaxud silahlı münaqişələr və hətta müharibələr nəticəsində meydana çıxa bilər. TMK-nın iştirakı müxtəlif sosial məsələlərin həlli zamanı standartların səviyyəsini yüksəltməyə imkan verməklə yanaşı, yeni problemlər yarada bilər. TMK-nın ölkədə olması faktı mövcud idarəçilik üsulunun möhkəmlənməsinin və ya dağılmasının birbaşa, dolayı yaxud gözlənilməz təkanverici səbəbi ola bilər. Faydalı qazıntı yataqlarının idarəetmə sistemi zəif yaxud avtoritar dövlətlərdə yerləşdiyi bəlli olduqda, şirkət orada fəaliyyət göstərməyin məqsədəuyğunluğu barədə dərindən düşünməlidir.

## 16.4. TMK-nın fəaliyyətinin dövlət tənzimlənməsinin zəruriliyi, normalar və üsullar

Dövlət siyasətinin səmərəliliyi və keyfiyyəti faydalı qazıntıların hasilatından TMK-nın iştirakından asılı olmayaraq, dayanıqlı inkişaf prosesi üçün səmərə əldə edilməsinin həlledici amillərindən biridir. Mineral-xammal iqtisadiyyatının idarə olunması çətindir, bunun üçün inkişaf etmiş dövlət idarəçiliyi sistemi və milli inkişaf sahəsində düşünülmüş, dəqiq məqsədlərin müəyyənləşdirilməsi tələb olunur. İdarəçilik kadrları son dərəcə yüksək peşə hazırlığına malik olmalıdır. Burada feodal münasibətlərin «bu mənim adamımdır, mən ona etibar edirəm» modelindən istifadə edilə bilməz. Amma zəngin faydalı qazıntılar yataqlarına malik olan bir sıra inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrdə dövlət siyasətinin işlənib hazırlanması prosesi bəzən inkişafın uzunmüddətli məqsədlərinə nail olunmasına deyil, qısamüddətli fayda əldə edilməsinə yönəlmişdir. Bəzi hallarda mineral resurslardan asan gəlirlərin əldə olunması hökumətlərin öz əhalisi qarşısında məsuliyyətini zəiflədərək, hakim elitanın maraqlarını qorumağa və möhkəmtməyə sövq edir.

Bu amillər qanunun aliliyinə əsaslanan hüquqi sistemin, habelə şirkətləri məhsuldar fəaliyyətə investisiya qoymağa sövq edən institusional mühitin yaradılmasının vacibliyini əyani surətdə nümayiş etdirir. Maddi-texniki infrastrukturun, elmin, təhsilin və səhiyyənin keyfiyyəti də qəbul olunan investisiya qərarlarının xarakterinə təsir göstərir. Bundan başqa, hasilat sənayesindən əldə olunan gəlirlərdən inkişaf məsələlərinin həlli üçün səmərəli

istifadə olunmasına yönəlmiş dövlət siyasəti cəmiyyətdə sosial həmrəyliyin gücləndirilməsi üçün son dərəcə vacibdir. Əldə olunan gəlirlərdən məqsədyönlü istifadə olunmaması və düşünülmüş tərzdə idarə edilməməsi cəmiyyətin məhdud təbəqəsini zənginləşdinnəklə, sosial təlatümlər yarada və siyasi sabitliyi poza bilər. Ümumi çərçivədən başqa, müvafiq sahə qurumları və siyasətin, 0 cümlədən faydalı qazıntı yataqlarının kəşfiyyatı və istismarı, sağlamlığın qorunması və texniki təhlükəsizliyin təmin edilməsi, ətraf mühitin mühafizəsi, yerli icmaların hüquqlarının müdafiəsinin hüquqi və inzibati əsasları yaradılmalıdır.

Ədalətsiz variantlara yol verməmək üçün hasilat prosesində iştiraketmə şansı marağı olan bütün tərəflərə - hökumətə, vətəndaş cəmiyyətinə, mənafelərinə toxunulan icmalara, yerli əhalinin təşkilatlarına, həmkarlar ittifaqlanna və s. verilməlidir. Gəlirlərin məqbul hissəsinin əyalətlər yaxud dövlət idarəçiliyinin nisbətən aşağı səviyyələrində bölgüsü, yerlərdə, yəni hasilat sənayesi müəssisələrinin fəaliyyətinin təsirinə birbaşa məruz qalan rayonlarda sosial münaqişələrin kəskinliyinin azaldılmasının üsullarından biri ola bilər. Amma bunun üçün dövlət idarəçiliyinin adekvat sistemi və yerli hakimiyyət orqanları səviyyəsində strukturlar yaradılmalıdır.

Təbii ki, zaman keçdikcə, hasilat sənayesində əcnəbilərin iştirakının tənzimlənməsi üsulları və metodları dəyişir, lakin ayrı-ayrı ölkələr üzrə kəskin fərqlənir. TMK-nm iştirakı müxtəlif milli qanunlarla, qaydalarla və kontraktlarla tənzimlənir. Bundan başqa, bir çox ölkələrin bağladığı BİS-lər hasilat sənayesində TMK-nm fəaliyyəti ilə birbaşa əlaqəlidir;

Neft-qaz sənayesində TMK-lar öz fəaliyyətini konsessiya, müştərək müəssisələr (MM), hasilatın pay bölgüsü (HPB) və xidmət göstərilməsi üzrə sazişlər kimi müxtəlif müqavilə mexanizmləri çərçivəsində qurur (bax: cədvəl 16.2). Ümumilikdə, 2007-ci il iyun ayına olan vəziyyətə görə neft və qaz istehsal edən inkişaf etməkdə olan ölkələrlə xarici TMK-nm bağladığı bütün kontraktların 50%-dən çoxu HPB-nin payına düşür. Vyetnam, İndoneziya, İraq, Qətər, Çin, Liviya, Sudan və Ekvatorial Qvineya ilə bağlanılan müqavilələrin əksərİ3^əti bu fonuadadır. İkinci yeri konsessiyalar və müştərək müəssisələr tutur: bu fonnalar Əlcəzair, Anqola, Braziliya, Venesuela, Qazaxıstan və Rusiya Federasiyasında üstünlük təşkil edir. Xidmət göstərilməsi üzrə sazişlərə nadir hallarda təsadüf olunsa da, onlar İran İslam Respublikasında və Küveytdə mühüm rol oynayır.

Hər bir kontraktın səmərəliliyi qəbul edən ölkə ilə investor arasında aparılan danışıqlarda onun şərtlərinin necə razılaşdırılmasından asılıdır. Royal-tinin dərəcələri və vergitutma, yerli komponentlərin xüsusi çəkisi, kadrların hazırlanması, həlledici qərarlar qəbul olunarkən qəbul edən ölkənin hökumətinin nəzarəti, dövlət korporasiyalarının iştirakının miqyası məsələləri əksər hallarda müqavilə əsasında müəyyənləşdirilir. Son dövrdə kontraktlara ətraf mühitin mühafizəsi məsələləri barədə müddəalar da daxil edilməyə başlamışdır.

Dağ-mədən sahəsində fəaliyyət göstərən şirkətlər konsessiyam faydalı qazıntıların kəşfiyyatını apanuaq və onları hasil etmək hüququ verən lisenziya formasında alır. İnvestisiya qoyuluşlarının şərtləri, bir qayda kimi, dağ-mədən qanunvericiliyi ilə yaxud faydalı qazıntı yataqlarının mənimsənilməsinə dair kontraktda müəyyən olunur. Zaman keçdikcə, qanunvericilik bazar kon3oınk-turunda və siyasi yönümdə baş verən dəyişiklikləri əks etdirərək, dəyişir. Müasir dağ-mədən qanunvericiliyinin səciyyəvi xüsusiyyətləri hüquqların əsas olmadan ləğv edilməyəcəyinə zəmanətin güclənməsi, əvvəlki dövrlərdə tərtib edilmiş geoloji hesabatların açıqlığı, kəşfij^at işlərinin aparılması üçün ərizələrin verilməsi prosedurunun aşkarlığı, bu işlərin yerinə yetirildiyi sahələrin hüdudlarının daha dəqiq müəyyənləşdirilməsi, torpaqlardan istifadə barədə meydana çıxan mübahisələrin həlli və bunun metodları haqqında müddəaların daxil olunmasıdır. Bəzi ölkələr dağ-mədən sənayesində yerli və xarici kadrların məşğulluğu ilə bağlı olan şərtləri də daxil edir (cədvəl 16.2).

Cədvəlin məlumatları ölkələrin TMK-lar ilə kontraktları hansı formada, nə qədər sayda bağladığını (ümumiyyətlə, bağlanmadığını) təsvir edir. Neft-qaz və dağ-mədən sənayelərində müqavilə mexanizmlərinin inkişafı dövlətin TMK tərəfindən yataqların mənimsənilməsi prosesində tərəflər arasında lazımi balans axtardığını göstərir. Hökumətin əsas xeyrinin faydalı qazıntılann hasilatından əldə edilə gəlir olduğuna görə, onlar bu fəaliyyətdən lazımi məbləğdə mənfəət payı təmin edən mexanizmin yaradılmasına xüsusi diqqət yetirir. Son bir neçə il ərzində mineral xammalın qiymətinin bahalaşmasına əsaslanaraq, bəzi ölkələr vergi rejimlərini yaxud müqavilə münasibətlərinin şərtlərini dəyişməklə, TMK-nm mənfəətindən onlara düşən payın çoxaldılması istiqamətində addımlar atmışdır. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə, habelə keçid iqtisadiyyatlı ölkələrdə tənzimləmə rejimlərində aparılan son dəyişikliklər əvvəlki rejimlərin TMK-nı qəbul edən ölkəyə

*Cədvəl 16.2*

**TMK-nın inkişaf etməkdə olan ölkələrin və keçid iqtisadiyyatı ölkələrinin neft-qaz sənayesində bağladığı kontraktların əsas formaları, iyun 2007-ci il**

| Qəbul edən ölkə | Xarici TMK-nın kontraktlarının əsas növlər üzrə bölgüsü | | | | | | | | | | Müqavilə ərazisinin orta ölçüsü |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Hasilatın pay bölgüsü | | Xidmət yaxud əvəzinin ödənilməsinə minimum zəmanətlə xidmət | | Konsessiya yaxud müştərək müəssisə | | Başqa və ayrıca razılaşdırılmamış | | Cəmi | | |
| | sayı | pay, % | sayı | pay, % | sayı | pay, % | sayı | pay, % | sayı | pay, % | kvadrat km |
| Əlcəzair | 25 | 22,9 | 4 | 3.7 | 66 | 60,6 | 1 | 0,9 | 109 | 100,0 | 2357 |
| Anqola | 21 | 19,1 | - | - | 89 | 80,9 | - | - | 110 | 100,0 | 640 |
| Braziliya | - | - | - | - | 189 | 100,0 | - | - | 189 | 100,0 | 283 |
| Çin | 74 | 97,4 | - | - | - | - | 2 | 2,6 | 76 | 100,0 | 2973 |
| Ekvatorial Qvineya | 20 | 100,0 | - | - | - | - | - | - | 20 | 100,0 | 1333 |
| İndoneziya | ■ 155 | 100,0 | - | - | - | - | - | - | 155 | 100,0 | 2902 |
| iran İslam Respublikası | - | - | 16 | 80,0 | - | - | 4 | 20,0 | 20 | 100,0 | 3575 |
| İraq | 7 | 87,5 | 1 | 12,5 | - | - | - | - | 8 | 100,0 | 625 |
| Qazaxıstan | 9 | 9,7 | - | - | 84 | 90,3 | - | - | 93 | 100,0 | 1558 |
| Küveyt | - | - | 3 | 100,0 | - | - | - | - | 3 | 100,0 | 120 |
| Liviya | 107 | 80,5 | - | - | 26 | 19,5 | - | - | 133 | 100,0 | 4497 |

| Qəbul edən ölkə | Xarici TMK-nın kontraktlarının əsas növlər üzrə bölgüsü | | | | | | | | | | Müqavilə ərazisinin orta ölçüsü |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Hasilatın pay bölgüsü | | Xidmət yaxud əvəzinin ödənilməsinə minimum zəmanətlə xidmət | | Konsessiya yaxud müştərək müəssisə | | Başqa və ayrıca razılaşdırılmamış | | Cəmi | | |
| | sayı | pay, % | sayı | pay, % | sayı | pay, % | sayı | pay, % | sayı | pay, % | kvadrat km |
| **Nigeriya** | 81 | 58,3 | - | - | 57 | 41,0 | 1 | 0,7 | 139 | 100,0 | 579 |
| **Qət ər** | 26 | 100,0 | - | - | - | - | - | - | 26 | 100,0 | 833 |
| **Rusiya Federasiyası** | 5 | 1,1 | - | - | 470 | 98,9 | - | - | 475 | 100,0 | 343 |
| **Səudiyyə Ərəbistanı** | - | - | - | - | - | - | 3 | 100,0 | 3 | 100,0 | 75056 |
| **Sudan** | 14 | 77,8 | - | - | 4 | 22,2 | - | - | 18 | 100,0 | 50770 |
| **Birləşmiş Ərəb Əmirlikləri** | - | - | - | - | - | - | 12 | 100,0 | 12 | 100,0 | 375 |
| **Özbəkistan** | 14 | 43,8 | - | - | - | - | 18 | 56,3 | 32 | 100,0 | 3562 |
| **Venesuela** | 19 | 38,0 | - | - | 20 | 40,0 | 10 | 20,0 | 50 | 100,0 | 597 |
| **Vyetnam** | 1 | 100,0 | - | - | - | - | - | - | 1 | 100,0 | 554 |
| Cəmi | 578 | 34,6 | 24 | 1,4 | 1005 | 60,1 | 51 | 3,1 | 1672 | 100,0 | 2067 |
| MDB istisna edilməklə cəmi | 564 | 51,1 | 21 | 1,9 | 451 | 40,9 | 51 | 4,6 | 1104 | 100,0 | 2852 |

* UNCTAD. World Investment Report. 2009; Transnational Corporations, Extactive industries and Development.

Dövlət siyasətinin dəyişməsinin və milliləşdirmənin əvvəlki dalğaları ilə müqayisə olunduqda, hazırda ölkələr tərəfindən BİS-dən daha çox istifadə olunması yeni məqamdır. Bu müqavilələr hökumətlərin sadaladığımız hərəkətlərini beynəlxalq hüququn müəyyən çərçivəsinə daxil etsə də, son nəticədə heç bir dövlətə mövcud şərtlərlə bağlanmış müqavilə münasibətlərini dayandınuağa mane ola bilmir. Lakin BİS mübahisə yarandığı hallarda investorlara beynəlxalq arbitraj vasitəsilə kompensasiya tələb etmək hüququ verir. Beləliklə, BİS çərçivəsində təmin olunan müdafiə, əsas etibarilə xarici investor bazarı tərk etmək strategiyasını seçərkən aktuallaşır. Bu müdafiənin hüdudları konkret müqavilənin müddəalarının necə ifadə olunmasından və arbitraj instansiyalarında necə təfsir edilməsindən asılıdır. Bundan başqa, dövlət siyasətinin dəyişdirilməsinin nəticələri müəyyən dərəcədə tərəflərin danışıqlarda tutduqları mövqelərin möhkəmliyindən asılıdır. Qiymətli mineral resurslar və neft-qaz yataqlarının mövcudluğu təsdiqlənmiş qəbul edən ölkələr üçün birtərəfli hərəkətlər hasilat sənayesindən daha böyük səmərə əldə olunmasına zəmanət verən məqsədəuyğun davranış ola bilər. Bu yolla getmək istəyən başqa ölkələrin hərəkətlərinin isə tamamilə başqa nəticələr verəcəyi ehtimalı var.

## Xülasə

• Hasilat sahələri, o cümlədən neft-qaz sənayesi müasir iqtisadiyyatın başlıca resursudur. Buna görə də müxtəlif ölkələrin TMK-nm metal və qeyri-metal filizlərinin, kömürün, neftin, qazın və s. hasilatına böyük diqqətlə yanaşması başa düşüləndir. Ehtimal ki, yaxın gələcəkdə bir çox ölkələrin indi ehtiyac duyduğu içməli suya da maraq artacaq.

• Təbii resurslar ölkələr arasında bərabər bölüşdürülməmişdir. Ərazisi böyük olan cəmi bir neçə ölkə idxaldan asılı olmayaraq, özünü lazımi resurslarla təmin edə bilir. Buna görə də TMK-nm həmin resursların mənimsənilməsinə maraq göstərməsi bütövlüklə əsaslıdır. Müvafiq təbii resurslara malik olan ölkələr onlarla əməkdaş etməyə maraq göstərir. Məsələ bu əməkdaşlığın hər iki tərəfə - həm xarici TMK, həm də qəbul edən ölkə üçün hansı şərtlər daxilində faydalı olacağmdadır.

• Hazırda böyük təbii resurslara malik olan, lakin onları mənimsəyə bilməyən Afrika və Latın Amerikası ölkələri TMK-nm əsas maraq obyektinə

çevrilmişdir. Rusiya, Qazaxıstan, Özbəkistan və Azərbaycanın təbii resursları, ilk növbədə isə, neft, qaz, kömür, müxtəlif filizlər, qiymətli metallar və s. onların diqqət mərkəzindədir.

• TMK-lar ilə əməkdaşlıq böyük səmərə verir: ölkə qabaqcıl texnologiyaları əldə edir, xammal resursları mənimsənilərək təsərrüfat fəaliyyətinə cəlb olunur, məşğulluq genişlənir, gəlirlər artır və s. Amma gələcək yaxşı planlaşdırılmalıdır: hökumətlər yalnız xammal layihələrinə aludə olub, emal sənayesi sahələrinin, kənd təsərrüfatının inkişafına, müasir infrastrukturun yaradılmasına lazımi diqqət yetirmədikdə, ölkə qüdrətli TMK- nm tələbatlarına (onlara isə yalnız xammal gərəkdir) möhkəm tellərlə bağlanır. Bu ssenari fərziyyəvi deyil, bu gün böyük təbii resurslara malik inkişaf etməkdə olan ölkələrin üzləşdiyi real vəziyyətdir. Bunun nəticəsində ölkə BƏB prosesinə tabe rolda cəlb olunur.

• TMK-nı qəbul edən ölkələrin hökumətləri ilk növbədə, öz hasilat sənayelərinin dayanıqlı inkişaf məqsədlərinə nail olunması üçün zəmin yaratmasına görə cavabdehdir. Onlar ölkənin neft və mineral resurslarının dayanıqlı inkişafı təmin etməsinə necə yardım etdiyini əvvəlcədən görməyə imkan verən elmi əsaslandırılmış konsepsiyanı işləyib hazırlamalıdır. Bununla bağlı olan siyasətin hazırlanması və həyata keçirilməsi üçün bütün ölkə təsərrüfatını əhatə edən inkişaf strategiyası müəyyənləşdirilməlidir. Faydalı qazıntıların hasilatından gəlirlərin planlaşdırılması və idarə edilməsi, onlardan istifadə olunması məsələləri üzrə dəqiq strategiya həm bütün dövlət, həm də onun milli subyektləri səviyyəsində işlənib hazırlanmalıdır.

• Dövlət orqanları TMK-nm hasilat sənayesində fəaliyyətindən uzunmüddətli və dayanıqlı səmərənin təmin olunmasını əvvəlcədən planlaşdınualıdır. Faydalı qazıntıların hasilatından əldə edilən gəlirlərin özəl sektorun potensialını artınnaq məqsədilə istehsal güclərinin genişləndirilməsinə, insan resurslarının inkişafına və tətbiq olunan texnologiyaların səviyyəsinin yüksəldilməsinə, investisiya qoyuluşlarına, məskunlaşma siyasətinin həyata keçirilməsi üçün evlərin və mənzillərin, yolların inşasına, şəhər və kəndlərdə infrastrukturun yaradılmasına yönəldilməsinə xüsusilə vacibdir. Bundan savayı, direktiv orqanlar həm hasilat sahələri çərçivəsində, həm də yaxın sahələr arasında şaquli əlaqələrin inkişafını dəstəkləməlidir.

• Siyasətin işlənib hazırlanması və həyata keçirilməsi prosesində

hökumət xərclər və əldə edilən fayda arasındakı qarşılıqlı əlaqələri, habelə mineral məhsullar bazarının konyunkturunun sabit olmadığını nəzərə almalıdır. Ölkə öz hasilat sənayesinə TMK-nı dəvət etmək istəyirsə, onun işgüzarlıq mühiti, investisiya qoyuluşu şərtləri və ixtisaslı kadrlarının səviyyəsi rəqibləri ilə müqayisədə kifayət qədər cəlbedici olmalıdır.

• Hökumətlərin birtərəfli qərarlar qəbul etməsinə ehtiyacını azaltmaq üçün işgüzar fəallıq tsiklinin müxtəlif fazalarına davam gətirə biləcək təməl, məsələn, hasilat sənayesindən əldə edilən gəlirlərin büdcəyə səfərbər olunmasının mütərəqqi vergitutma sistemi yaradılmalıdır. Hasilat sahələrində fəaliyyət göstərən firmaların işinin ekoloji və sosial nəticələri də nəzərə alınmalıdır. Son illərdə bu sahədə müəyyən pozitiv meyillər müşahidə olunmaqdadır. Get-gedə daha çox ölkə hasilat sənayesində təbiəti mühafizə məsələlərini tənzimləyən qanunvericilik aktları qəbul edir.

• Faydalı qazıntılar sektorunda fəaliyyəti həyata keçirərkən, TMK-nm rolu, ilk növbədə, qəbul edən ölkənin qanunlarına əməl etməklə, səmərəli istehsalın təşkilinə yardım göstənnəkdən ibarət olmalıdır. Faydalı qazıntı yataqları dövlət idarəçiliyi zəif olan yaxud avtoritar ölkələrdə yerləşdikdə, xarici şirkətlər özlərinin oradakı fəaliyyətinin nəticələrini əvvəlcədən nəzərə almalıdır.

• Həm milli, həm də transmilli şirkətlərin fəaliyyətinə, habelə xammaldan daxil olan gəlirlərdən istifadəyə hərtərəfli parlament və ictimai nəzarətin olması zəruridir.

## Yoxlama sualları

1. TMK-nm hasilat sənayesində faydalı qazıntıların çıxarılmasına və emal olunmasına son dərəcə güclü maraq göstərməsinin səbəbi nədir?

2. Müxtəlif ölkələrin TMK-sı faydalı qazıntıların mənimsənilməsi sahəsində fəaliyyətini dünyanın hansı regionlarında həyata keçirir?

3. Mineral xammal bazarının konyunkturu niyə qeyri-sabitdir? Bu məqam TMK-nm strategiyalarına necə təsir göstərir?

4. Dünyanın hansı ölkələri və onların xammal resursları TMK-nm investisiya q03oıluşları üçün obyekt kimi daha böyük maraq kəsb edir?

5. Hasilat sənayesində (neft, qaz, metal filizləri və s.) xarici TMK-nm payı nə qədərdir? Orada hansı TMK-lar fəaliyyət göstərir?

6. Dünyanın ən böyük 10 dağ-mədən və neft TMK-nı sadalayın.

7. Dünyanın ən böyük qaz TMK-nın adlarını söyləyin. Bu iki qrupda Rusiyanın TMK-sı vanm?

8. Dağ-mədən və neft-qaz sahələrində TMK-nın fəaliyyətinin maraqları nədədir?

9. Qəbul edən ölkələrin öz təbii resurslarının mənimsənilməsinə TMK-nı cəlb etməyə marağı nədir?

10. Hökumətlər TMK ilə münasibətlərini necə qunnalıdır?

11. Rusiyada fəaliyyət göstərən milli və xarici TMK-lar ölkə qanunvericiliyinə riayət edirmi? Onların fəaliyyəti ölkə vətəndaşlarının maraqlarına nə dərəcədə cavab verir?

## Referatların mövzuları

1. Təbii sərvətlərin dünya ölkələrində yerləşməsi və onların mənimsənilməsi sahəsində TMK-nın fəaliyyəti

2. Rusiyadakı xarici TMK-lar və ölkənin təbii sərvətlərinin mənimsənilməsində onların iştirakının nəticələri

3. Təbii sərvətlərin müxtəlif növlərinin mənimsənilməsində xarici TMK-nın fəaliyyətinin təhlili: rəqabətin güclənməsi

# Fəsil 17

# KƏND TƏSƏRRÜFATI İSTEHSALINDA VƏ İNFRASTRUKTUR LAYİHƏLƏRİNDƏ TMK-lar: İNKİŞAF ETMƏKDƏ OLAN VƏ KEÇİD İQTİSADİYYATI ÖLKƏLƏRİ

## 17.1. Dünyada ərzaqla təminatın ümumi vəziyyəti

Kənd təsərrüfatı ərzaqla təchizatda, yoxsul ölkələrdə səfalətin və aclığın aradan qaldırılması üçün son dərəcə böyük əhəmiyyət kəsb edir. Bu sahə kütləvi məşğulluğu təmin etməklə bərabər (xüsusilə kənd yerlərində), milli iqtisadiyyatın artımına mühüm təsir göstərir, inkişaf etməkdə olan ölkələrin bir çoxu üçün xarici valyuta daxilolmalarının mənbəyidir. Kənd təsərrüfatının inkişaf etməkdə olan ölkələrin əksəriyyəti üçün fundamental əhəmiyyətini nəzərə alaraq, bu sahədə ənənə kimi, çoxsaylı problemlərin mövcudluğu və onlara elə ənənəvi surətdə onilliklərlə lazımi diqqətin yetirilməməsi ilə bağlı narahatçılıq anlanılandır.

Bununla belə, son zaman bəzi amillərin təsiri altında bir çox inkişaf etməkdə olan ölkələrin kənd təsərrüfatı sektorunda özəl, o cümlədən xarici şirkətlərin iştirak miqyasının sürətlə genişlənməsi ilə nətieələnmişdir. Bu, problemin müvəffəqiyyətlə həll ediləcəyinə əvvəlki dövrdə müəyyən inamın olmasına baxmayaraq, onilliyin sonuna yaxın və gələcək perspektivdə böyük ərzaq qıtlığı yaranacağının aşkar edilməsi ilə bağlıdır. Buna görə də inkişaf etməkdə olan ölkələrin kənd təsərrüfatı istehsalında məhsuldarlığın yüksəldilməsində və iqtisadi inkişafın dəstəklənməsində xarici şirkətlərin iştirakı, habelə daxili investisiyaların rolu' UNCTAD-m Hesabatında xüsusi qeyd edilir. Kənd təsərrüfatına investisiyaların stimullaşdırılmasmm əsas amilləri qismində müəyyən bölgələrdə torpaqdan və sudan istifadə etmək imkanın mövcudluğu, habelə müxtəlif, o cümlədən Braziliya, Hindistan, Çin, Cənubi Koreya kimi əhalisi böyük, bazar iqtisadiyyatı fonnalaşmaqda olan ölkələrdə, torpaq və su resursları çatışmayan (məsələn. Fars körfəzi ölkələrinin əməkdaş-

^ UNCTAD. World Investment Report, 2009: Transnational Corporations, Agricurtural Production and Development. Table III. 7. P, 31.

lığı Şurasının üzvləri) dövlətlərdə ərzağa tələbatın artması və onun idxalının sürətlə çoxalması çıxış edir.

Kənd təsənlifatı məhsullarına beynəlxalq tələbat başqa amillərin, məsələn, bütün dünyada bioloji yanacağa keçid təşəbbüsü ilə bağlı olaraq, şəkər qamışmın, dənli bitkilərin (məsələn, qarğıdalı), yağlı bitkilərin (soya paxlası) yetişdirilməsinin inkişaf etməkdə olan ölkələrdə təşkili məqsədilə investisiya yatırımları axınının güclənməsinin təsiri altında artır. Bu meyillər son bir neçə il ərzində ərzağın qiymətinin sürətlə bahalaşması və inkişaf etməkdə olan ölkələrdə düyü kimi vacib məhsulun qıtlığının yaranması ilə çarpazlaşır. Bütün bunlar «yeni investorlar» sırasının meydana çıxmasına, kənd təsərrüfatına və torpaq resurslarına möhtəkirlik məqsədilə birbaşa investisiya axınlarının genişlənməsinə süni təkan verdi.

## 17.2. Bəzi ölkələrin aqrar sektorunda birbaşa xarici investisiyaların artması

1980-1990-cı illərlə müqayisə olunduqda, cari onillik ərzində kənd təsərrüfatına XBİ qoyuluşları daha intensiv artmışdır. Amma onların ümumi həcmi qlobal pozitiv effekt alınması üçün hələ kifayət qədər deyil. Belə ki, 2007-ci ildə ölkələrə daxil olan XBİ-nin ümumi məbləği 32 milyard dollar olub, 2008-2009-cu illərdə azalaraq 22 milyard dollara düşsə də, 2010-cu ildən yeni artım nümayiş etdirir. Ümumilikdə götürüldükdə, qeyd etdiyimiz kimi, yüksək artım meyillərinin davam edəcəyi görünməkdə olsa da, onların məbləği başqa sahələrlə müqayisədə xeyli azdır. Buna baxmayaraq, 1990-cı illərin sonunda dünya üzrə kənd təsərrüfatına XBİ axını ildə 1 milyard dollardan aşağı idisə, 2005-2007-ci illərdə bu məbləğ artaraq, ildə 3 milyard dollara çatmışdı. Digər tərəfdən, qəbul edən ölkənin istehsal-satış zəncirinin növbəti həlqələrində (məsələn, yeyinti sənayesində və supennarketlər şəbəkəsində) yer tapan TMK-lar kənd təsərrüfatı istehsalına və podrat işlərinə investisiya qoymaqla, özlərinin bu sahədə iştirak miqyasını xeyli genişləndirir. 2000-ci illərin əvvəlindəki sürətli artımdan sonra, təkcə qida məhsulları və içkilər istehsal edən sahələrə (yəni istehsal-satış zəncirinin sonrakı həlqələri nəzərə alınmadan) XBİ axını 2005-2007-ci illərdə 40 milyard dollardan çox olmuşdur (cədvəl 17.1).

Cədvəlin məlumatları müxtəlif ölkələrin investorları tərəfindən kənd təsərrüfatına yatırılan XBİ-nin xüsusi çəkisinin az olduğunu göstərir. Lakin son

100 ildə inkişaf etmiş ölkələrdə kənd təsəiTüfatı texniki, texnoloji və enerji ilə silahlanma baxımından intensiv tərəqqinin obyektinə çevrilmiş və indi sənayedən geridə qalmırsa, inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrdə vəziyyət tamamilə başqadır: buranın son dərəcə geridə qalmış aqrar strukturlarında sənayeləşmə yenicə başlayır. Həmin ölkələrə XBİ-nin böyük axınlarının yönəldilməsi gərəkdir.

Ümumilikdə isə, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin, keçid iqtisadiyyatlı ölkələrin məcmu XBİ-nin həcmində kənd təsərrüfatına yönəldilən hissənin payı aşağıdır; zəif inkişaf etmiş ölkələrin bəzisində isə, məsələn Kamboca, Laos, Malavi, Mozambik və Tanzaniyada XBİ-nin ümumi axınlarında yaxud həcmində kənd təsərrüfatına yönəldilən hissənin xüsusi çəkisi bir qədər çoxdur. Bu, zəif inkişaf etmiş ölkələr kateqoriyasına aid olunmayan Vyetnam, Honduras, İndoneziya, Malayziya, Papua-Yeni Qvineya və Ekvador kimi ölkələrə da aiddir. Həmin ölkələrdə aqrar sektorun payının çoxluğu milli iqtisadiyyatın strukturu, kənd təsərrüfatı üçün yararlı torpaqların olması (əsasən uzunmüddətli icarə üçün) və hökumətin dəstəkləmə siyasəti kimi amillərdən irəli gəlir (şəkil 17.1).

17.1-ci şəkil inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin böyük qrupunun kənd təsərrüfatına XBİ axınları barədə müəyyən məlumat verir. İnamla demək olar ki, kənd təsərrüfatı XBİ üçün ən az maraq doğuran sahələrdəndir. İnkişaf etməkdə olan ölkələrə yönəldilən XBİ-nin əsas hissəsi ərzaq və ixrac üçün yetişdirilən bitkilərin istehsalına sərf olunur.

Təəssüf ki, bioloji yanacaq üçün xammal istehsalına maraq da getdikcə güclənir və XXI əsrin birinci onilliyinin ortalarından başlayaraq, şumluq torpaqların sahəsinin azaldılması hesabına Afrikada yağlı bitkilərin. Latın Amerikası, Kanada və Qərbi Avropada şəkər qamışmm yetişdirilməsinin genişlənməsi buna nümunədir. Dərhal bundan sonra dünyada ərzaq qıtlığının əlamətləri görünməyə başladı.

*Cədvəl 17.1*

**Kənd təsərrüfatında, meşə təsərrüfatında, balıqçılıqda, qida məhsullarının və içkilərin istehsalında XBİ ***

| Region | XBİ axınları | | | | XBİ-nin ümumi həcmi | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Ölkəyə axın | | Ölkədən axın | | Ölkəyə gətirilmiş investisiyalar | | Ölkədən çıxarılmış investisiyalar | |
| | 1989-1991 | 2005-2007 | 1989-1991 | 2005-2007 | 1990 | 2007 | 1990 | 2007 |
| *Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq (ov daxil olmaqla), milyard dollar, (%)* | | | | | | | | |
| Dünyanın bütün ölkələri | 0,6 (0,3%) | 3,3 (0,2%) | 0,5 (0,2%) | 1,1 (0,1%) | 8,0 (0,4%) | 32,0 (0,2%) | 3,7 (0,2%) | 10,2 (0,1%) |
| İnkişaf etmiş ölkələr | -0,01 | 0,04 | 0,5 (0,2%) | 0,6 (0,42) | 3,5 (0,2%) | 11,8 (0,1%) | 3,4 (0,2%) | 7,5 (0,1%) |
| İnkişaf etməkdə olan ölkələr | 0,6 (1,8%) | 3,0 (0,8%) | 0,05 (0,7%) | 0,5 (0,4%) | 4,6 (1,3%) | 18,0 (0,5%) | 0,3 (1,5%) | 2,4 (0,1%) |
| Cənub-Şərqi Avropa və MDB | - | 0,3 (0,7%) | - | 0,05 (18,2%) | - | 2,2 (0,7%) | - | 0,3 (1,3%) |
| *Qida məhsullarının və içkilərin, o cümlədən tütün məmulatlarının istehsalı, milyard dollar, (%j* | | | | | | | | |
| Dünyanın bütün ölkələri | 7,2 (3,8%) | 40,5 (2,8%) | 12,5 (5,6%) | 48,3 (3,3%) | 80,3 (4,1%) | 450,0 (2,9%) | 73,4 (4,1%) | 461,9 (2,8%) |
| inkişaf etmiş ölkələr | 4,8 (3,2%) | 34,1 (3,2%) | 12,2 (5,6%) | 45,7 (3,4%) | 69,9 (4,4%) | 390,7 (3,4%) | 73,1 (4,1%) | 458,1 (3,2%) |
| İnkişaf etməkdə olan ölkələr | 2,4 (6,8%) | 5,1 (1,4%) | 0,3 (4,1%) | 2,6 (1,9%) | 10,4 (2,9%) | 46,9 (1,2%) | 0,3 (1,4%) | 3,5 (0,2%) |
| Cənub-Şərqi Avropa və MDB | - | 1,4 (3,2%) | - | -0,01 (- 4,5) | - | 12,4 (4,2%) | - | 0,3 (1,7%) |

UNCTAD. World Investment Report. 2009; Transnational Corporations, Extactive Industries and Development, Geneva, 2009.

**a) Axınlar, 2005-2007-ci illər yaxud məlumat olan son 3 illik dövr ərzində orta göstərici**

Kamboca Laos 15,1
Malayziya 12,0
Ekvacfor 10,9
Tanzaniya 10,0
Mozambik Peru
, Honduras
İndoneziya
Ukrayna
Efiopiya
Vyetnam
Vanuatu Fici
Çili
Kosta-Rıka
Maqadaskar
Braziliya Iran İR
Makedoniya
Rusiya Fed.
İordaniya Çın
Yunanıstan
Latviya
Estoniya
Nikaraqua
Rumıniya
Lits'a
Moldova
Bolqarıstan
Polşa
Serbiya
Tunis
Albaniya
Çexiya
Mavrikıya
Monqolustan
Misir
Banqladeş

tzı
1=1
tı
P

10

**b) 2007-ci il yaxud məlumat olan sonuncu ildə məcmu həcm**




*Şəkil 17.1.* **Ayrı-ayrı ölkələrə daxil olan XBİ-də kənd təsərrüfatının payı, 2005-2007-ci illər*, %-lə**

* UNCTAD. World Investment Report. 2009; Transnational Corporations, Agricutural Productions and Development, Figure III. P.6.

Xarici investorların inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrdə maraq göstərdiyi məhsulların əsas növlərinin regionlar üzrə müəyyən ixtisaslaşması vardır. Məsələn, Cənubi Amerika ölkələri XBİ-nin geniş çeşiddə bitkiçilik məhsullarının, məsələn, buğda, düyü, şəkər qamışı, me3vvələr, çiçəklər, soya paxlası, ət və quş ətinin istehsalına yönəldilməsində maraqlıdır.

Mərkəzi Amerika ölkələrində əsasən meyvələr və şəkər qamışı TMK-nın diqqət mərkəzindədir. Afrikada xarici investorlar düyü, buğda və yağlı bitkilərə xüsusi maraq göstərir. Bununla yanaşı, TMK-lar resurslarını Afrikanın cənubunda şəkər qamışına və pambığa. Şərqi Afrikada gülçülüyə yatırır. Cənubi Asiyada xarici investorlar böyük həcmdə düyü və buğda istehsalına yönəlmiş, Asiyanın başqa regionlarında isə onların fəali^^əti əsasən əmtəəlik bitkilərin yetişdirilməsində, heyvandarlıqda və quşçuluqda cəmləşmişdir. Keçid iqtisadiyyatlı ölkələrdə TMK-lar əsasən ət-süd məhsullarının istehsalı ilə məşğul olur, hərçənd ki, son vaxtlar əsasən Qafqaz və Volqaboyu regionlara yaxın ərazilərdə buğda və başqa dənli bitkilərin yetişdirilməsinə də investisiya qoymağa çalışır.

## 17.3. Podrat metodu

Göründüyü kimi, TMK-nın kənd təsərrüfatında fəaliyyəti üçün ən əlverişli metod podratdır. ***Podrat üsıdu ilə kənd təsərrüfatı istehsalım*** fermerlərlə TMK (onun adından çıxış edən agentlər) arasında müqavilə münasibətləri kimi təfsir etmək olar. Bu halda femıerlər TMK-ya müəyyən miqdarda məhsulu razılaşdırılmış qiymətlərlə, müvafiq keyfiyyət standartlarına, müddət və başqa şərtlərə əməl etməklə göndərmək öhdəliyini qəbul edir. Məhsulun spesifikasiyasına və mal göndərişlərinin tələblərinə riayət olunmasına daha yaxşı nəzarət etmək imkanı verdiyinə görə bu üsul, spot bazarlarından fərqli olaraq, TMK üçün daha cəlbedicidir. Eyni zamanda torpağın uzunmüddətli icarəsi yaxud onun üzərində mülkiyyət hüququ ilə müqayisədə, podrat üsulu aşağı riskli, az kapital tutumlu və daha çevikdir. Fermerlərin nöqteyi-nəzərindən, kənd təsərrüfatının podrat üsulu gəlirləri əvvəlcədən müəyyən etməyə, bazarlara çıxmağa, kredit və nou-hau kimi sahələrdə TMK-nın yardımından istifadəyə imkan yaradır.

Kənd təsərrüfatında podratdan və payçılığa əsaslanmayan iştirak formalarından istifadə edən TMK-lar Afrika, Asiya və Latın Amerikasının 110-dan çox ölkəsində fəaliyyət göstərir. Məsələn, 2008-ci ildə qida sənayesində liderlərdən biri olan «Nestle» (İsveçrə) korporasiyasının ən azı 80-dən çox inkişaf etməkdə olan ölkədə və keçid iqtisadiyyatlı ölkələrdə təqribən 600 min fenuerlə müxtəlif növ kənd təsərrüfatı məhsullarının birbaşa göndərilməsi barədə podrat müqavilələri olmuşdur. Bunun kimi, «Olam» (Sinqapur) şirkətinin sahəsində 60 ölkədən (bunun əksəriyyəti inkişaf etməkdə olan

ölkələrdir) təxminən 200 min mal təchizatçısının iştirak etdiyi qlobal kənd təsərrüfatı podratı şəbəkəsi mövcuddur.

Podrat üsulu ilə kənd təsərrüfatı istehsalı nəinki geniş yayılmışdır, habelə bazar iqtisadiyyatı formalaşmaqda olan və yoxsul ölkələrdə əhəmiyyətli dərəcədə cəmləşmişdir. Məsələn, quş əti istehsalının 75%-i və soya paxlası yetişdirilməsinin 35%-i podratçı fermerlərin (o cümlədən TMK-nm iştirakı ilə) hesabına təmin olunur. Vyetnamda da vəziyyət buna bənzəyir: pambığın və təzə südün 90%-i, çayın 50%-i və düyünün 40%-i kənd təsərrüfatı podratı əsasında satılır. Keniyada çayın və şəkərin 60%-i bu metodla istehsal olunur.

Malların geniş nomenklaturu, o cümlədən heyvandarlıq məhsullan, ərzaq və ixrac üçün bitkilər kənd təsərrüfatı podratı ilə əhatə olunmuşdur. Yuxarıda göstərilən «Olam» şirkəti dünya üzrə 17 növ kənd təsərrüfatı məhsullannı (o cümlədən keşyu fındığı, pambıq, ədviyyat, qəhvə, kakao, şəkər) satın alır. «Unilever» (Niderland) korporasiyasının istehsal üçün lazım olan xammalının % hissəsi kənd təsərrüfatı məhsullarından ibarətdir və bunlara palma və qida yağlarının başqa növləri, çay və cövhərlər, pomidor, noxud, müxtəlif tərəvəz çeşidi daxildir. Həmin məhsullar 100 min xırda və nisbətən bö}mk femıerdən, habelə üçüncü tərəfi təmsil edən təchizatçıdan satın alınır.

Kənd təsərrüfatı podratları aqrosənaye kompleksinin ardıcıl istehsal-satış həlqələrində fəaliyyət göstərən müxtəlif tipli TMK-ya, o cümlədən qida məhsulları, bioloji yanacaq istehsalçılarına, pərakəndə satış şəbəkələrinə qəbul edən ölkələrin yerli fenuerləri tərəfindən mal göndərişlərinə zəmanət verir.

## 17.4. Kənd təsərrüfatı istehsalında TMK-nm fəaliyyətinin xüsusiyyətləri

TMK-nm kənd təsərrüfatında fəaliyyətinin özəllikləri vardır., Belə ki, kənd təsərrüfatı sahəsində ixtisaslaşan 25 ən iri TMK, sadəcə kənd təsərrüfatı ilə əlaqədar olan (yəni istehsal-satış zənciri çərçivəsində bu seqmentin əsasən ***aşağı*** və ya ***yuxarı*** həlqələrində işləyən) TMK-dan fərqlənir. Bu qruplardan birincisində inkişaf etməkdə olan ölkələrdən çoxsaylı şirkətlər vardır, ikinci qrupda isə bu, müşahidə olunmur. Xarici aktivlərin həcmi və qrupdakı yeri baxımından ixtisaslaşmış kənd təsərrüfatı TMK-sı inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin şirkətləri arasında, demək olar ki, bərabər bölünmüşdür.

Bu məqam inkişaf etməkdə olan ölkələrin şirkətlərinin də qlobal ərzaq və qeyri-ərzaq kənd təsərrüfatı istehsalının mühüm iştirakçılarına çevrildiyini göstərir. Bununla belə, kənd təsərrüfatı ilə əlaqədar olan TMK-lar qrupunda inkişaf etmiş ölkələrin şirkətləri hələ də dominantlıq edir. Kənd təsərrüfatı üzrə ixtisaslaşmış 25 aparıcı TMK-dan 12-si inkişaf etməkdə olan, 13-ü isə inkişaf etmiş ölkələrdə yerləşir. Bundan əlavə, bu siyahıda inkişaf etməkdə olan ölkələrin TMK-sı - «Sime Darby Berhad» (Malayziya) birinci yeri, ABŞ-ın fınnaları («Dole food» və «Fresh Del Monte») ikinci və üçüncü mövqeləri tutur.

Kənd təsərrüfatı istehsalı ilə əlaqəli olan TMK-lar qrupuna qida məhsullarının, emal sənayesinin müxtəlif mallarının istehsalçıları, pərakəndə və topdansatış ticarətini təmsil edən şirkətlər, habelə kənd təsərrüfatı istehsalını ilkin resurslarla təchiz edənlər daxildir. Bu TMK-lar birbaşa kənd təsərrüfatı ilə məşğul olan TMK-dan böyükdür. Məsələn, qida məhsullarının və içkilərin dünyada ən iri istehsalçısı olan «Nestle» (İsveçrə) TMK-sı 66 milyard dollar məbləğində xarici aktivlərə, ərzaq məhsulları ilə pərakəndə ticarət sahəsində fəaliyyət göstərən «Wal-Mart Stores» (ABŞ) 63 milyard dollar məbləğində aktivlərə nəzarət edir. Bununla yanaşı, kənd təsərrüfatı sahəsində ən irilərdən olan «Sime Darby» (Malayziya) TMK-nın aktivlərinin məbləği cəmi 5 milyard dollardır. Kənd təsərrüfatını ilkin resurslarla təchiz edən ən böyük TMK-lar siyahısına ***yalnız inkişaf etmiş ölkələrin şirkətləri daxildir.*** Qida məhsullarının istehsalı sahəsində 50 aparıcı şirkətdən 39-u inkişaf etmiş ölkələrdə yerləşir. Aqrosənaye kompleksinin başqa TMK-sı ilə müqayisədə, qida məhsullarının və içkilərin istehsalı sahəsində fəalİ3^ət göstərən şirkətlər böyükdür: 10 ən iri şirkətdən hər biri (bunlar isə inkişaf etmiş ölkələrdə yerləşir) təqribən 20 milyard dollar həcmində xarici aktivlərə nəzarət edir; 50 ən böyük firmanın ümumi xarici aktivlərinin ***V-i*** hissəsi onlann payına düşür. Pərakəndə ticarətdə fəaliyyət göstərən və supermarketlər şəbəkəsinə nəzarət edən TMK-lar da kənd təsərrüfatı məhsullarının beynəlxalq satış zəncirində mühüm rol oynayır. Bu sektordakı 25 ən iri TMK-dan 22-si inkişaf etmiş ölkəni təmsil edir (cədvəl 17.2).

Kənd təsərrüfatında fəaliyyət göstərən ənənəvi TMK-dan başqa, bu sahədə dövlət müəssisələrinin, milli rifah fondlarının və beynəlxalq təşkilatların rolu da, getdikcə güclənir. İnvestorların bu sektora daxil olmasının əsas səbəbləri (sövqedici cəhətləri) kənd təsərrüfatında meydana çıxan yeni

təhdidlər, habelə burada biznes üçün açılan yeni imkanlardır. Məsələn, «Agricapital» (Bəhreyndə yerləşən dövlət fondu) ərzaq təhlükəsizliyinin təmin edilməsi üzrə hökumətin yeritdiyi siyasət çərçivəsində xaricdə ərzaq bitkilərinin yetişdirilməsinə investisiyalar qoyur. Eyni zamanda başqa şirkətlər «bum» yaşayan beynəlxalq bazarlara ərzaq məhsulları göndərişlərinə satışından mənfəət əldə etmək məqsədi ilə həyata keçirilən adi biznes layihəsi kimi yanaşır. Bütün bunlar «Vision E» (Birləşmiş Ərəb Əmirlikləri) və «Goldman Sach» (ABŞ) kimi şirkətlər və fondların kənd təsərrüfatına beynəlxalq investisiya qoyuluşlarını artınnası ilə nəticələnir.

*Cədvəl 17.2*

**2007- ci ildə aqrosənaye kompleksində fəaliyyət göstərən ən iri 25 TMK ***

| Yer | İxtisaslaşmış kənd təsərrüfatı şirkətləri | Malgöndərənlər | Qida məhsulları və içki istehsalçıları | Parakəndə satış şirkətləri | Özəl şirkətlər (aqrar sənaye məhsullarının satış həcminə görə sıralanmışdır) |
|---|---|---|---|---|---|
| 1 | **Sime Darby Bhd** (Malayziya) | BASF AG (Almaniya) | Nestle S.A. (İsveçrə) | Wal-Mart Stores, İnc. (ABŞ) | Cargill İnc. (ABŞ) |
| 2 | Dole Food Company İnc. (ABŞ) | Bayer AG» (Almaniya) | İn Bev CA (Belçika) | Metro AG (Almaniya) | Mars İnc (ABŞ) |
| 3 | Fresh Del Monte Produce‘S (ABŞ) | Dow Chemical Co.'^ (ABŞ) | Kraft Foods İnc. (ABŞ) | Carrefour SA (Fransa) | Lactalis (Fransa) |
| 4 | Socfinal Co. (ABŞ) | Deere & Company (ABŞ) | Unilever Britaniya-Niderland | Tesco Böyük Britaniya | Suntory (Yaponiya) |
| 5 | **Charoen Pokphand Foods'*** (Tailand) | E.l. du Pont de Nemours Co.» (ABŞ) | Coca-Cola Co. (ABŞ) | McDonalds (ABŞ) | Dr. August Oetker KG (Almaniya) |
| 6 | Chiquita Brands international (ABŞ) | Syngenta AG (İsveçrə) | SABMİller (Böyük Britaniya) | Delhaize Group (Belçika) | Louis Dreyfus Group (Fransa) |

| Yer | **İxtisaslaşmış kənd təsərrüfatı şirkətləri** | **Malgöndərənlər** | **Qida məhsulları və içki istehsalçıları** | **Parakəndə satış şirkətləri** | **Özəl şirkətlər (aqrar sənaye məhsullarının satış həcminə görə sıralanmışdır)** |
|---|---|---|---|---|---|
| 7 | **Kuala Lumpur Kepong Bhd.** (Malayziya) | Yara International ASA (Norveç) | Diageo plc. (Böyük Britaniya) | Koninklijke Ahold N.V. (Niderland) | Barilla (İtaliya) |
| 8 | KWS Saat AG (Almaniya) | Potash Corporation of Saskatchewan Inc. (Kanada) | Pernod Ricard (Fransa) | Sodexo (Fransa) | Ferrero SpA (İtaliya-Lüksemburq) |
| 9 | **Kulim (Malaysia) Bhd. (Malayziya)** | Kubota Corp. (Yaponiya) | Cadbury plc. (Böyük Britaniya) | Compass Group plc. (Böyük Britaniya) | Keystone Foods llc. (ABŞ) |
| 10 | Camellia plc (Böyük Britaniya) | Monsanto Co. (ABŞ) | Bunge Limited (ABŞ) | Seven & 1 Holdings Ltd. (Yaponiya) | McCain Foods Ltd (Kanada) |
| 11 | Seabord Corporation (ABŞ) | AGCO Corporation (ABŞ) | Fleineken (Almaniya) | **Chaika resorcies enterprises Ltd.** (Honkonq, Çin) | OCI Group Company's (Cənubi Koreya) |
| 12 | CIPEFCo. (ABŞ) | Mosaic Co. (ABŞ) | PepsiCo Inc. (ABŞ) | Yum! Brands Inc. (ABŞ) | Perdue Farms, Inc. (ABŞ) |
| 13 | Anglo-Eastern Plantation (Böyük | Israel Chemicals Ltd. (İsrail) | Molson Coors Brewing Co. | Autogrill S.p.A. (İtaliya) | Bacardi Ltd. (İspaniya) |

| Yer | **İxtisaslaşmış kənd təsərrüfatı şirkətləri** | **Malgöndərənlər** | **Qida məhsulları və içki istehsalçıları** | **Parakəndə satış şirkətləri** | **Özəl şirkətlər (aqrar sənaye məhsullarının satış həcminə görə sıralanmışdır)** |
|---|---|---|---|---|---|
| | Britaniya) | | (Böyük Britaniya) | | |
| **14** | Tyson Foods Inc. (ABŞ) | Provimi CA (Niderland) | Kirin Holdings Company Ltd. (Yaponiya) | Alimentation Couche- Tard Inc. (Kanada) | Soufflé Group (Fransa) |
| **15** | **PPB Group Bhd.** Malayziya) | Bucher industries AG (İsveçrə) | Archer Daniels Midland Company (ABŞ) | Safeway İnc. (ABŞ) | Golden State Foods (ABŞ) |
| **16** | **Carsons cumberbatch plc»** (Şri Lanka) | New Farm Ltd. (Böyük Britaniya) | Associated British Foods plc. (Böyük Britaniya) | Sonae SGPS (Portuqaliya) | Groupe Castel (Fransa) |
| **17** | **TSH Resources Bhd.»** (Malayziya) | Claas KGaA (Almaniya) | Carisberg AG (Danimarka) | George Winston (ABŞ) | G.P. Simplo (Niderland) |
| **18** | **Multi West Resources Bhd.»** (Malayziya) | Sanec S.A. (Niderland) | H.J. Heinz Co. (ABŞ) | **Dairy Farm International Holdings Ltd** (Honkonq, Çin) | Schreiber Foods Inc. (ABŞ) |
| **19** | **Bakrie& brothers Terbuka»** (İndoneziya) | Terra Industries Inc. (ABŞ) | Danone (Fransa) | Jerönimo Martins S.A. (Portuqaliya) | Müller Group. (Almaniya) |

| Yer | İxtisaslaşmış kənd təsərrüfatı şirkətləri | Malgöndərənlər | Qida məhsulları və içki istehsalçıları | Parakəndə satış şirkətləri | Özəl şirkətlər (aqrar sənaye məhsullarının satış həcminə görə sıralanmışdır) |
|---|---|---|---|---|---|
| 20 | PGIGroup PLC» (Böyük Britaniya) | Aktieselskabet Schouw & Co. A/G (Danimarka) | Anheuser-Busch Inc. (ABŞ) | **Kuwait Food Co. (Americana)** (Küveyt) | Bel Group (ABŞ) |
| 21 | FirstFarms A/S» (Slovakiya) | Genus plc.ltd. (Böyük Britaniya) | **Wilmar International Ltd.** (Sinqapur) | Kesko Oyj (Finlandiya) | Perfetti Van Melle (İtaliya-Niderland) |
| 22 | **New Britain Palm Oil Ltd.»** (Papua-Yeni Qvineya) | Scotts Miracle-Gro Co. (ABŞ) | Sara Lee Co. (ABŞ) | Starbucks Co. (ABŞ) | Rich Products (ABŞ) |
| 23 | **Karuturi Global Ltd.»** (Hindistan) | Kverneland ASA (Norveç) | Constellation Brands Inc. (Hindistan) | Burger King Co. (ABŞ) | J. M. Smucker (ABŞ) |
| 24 | Nirefs S.A. (Sinqapur) | Sakata Seeds corp. (Yaponiya) | **Fraser &Neave Ltd.** (Sinqapur) | Maruha Nichiro Holdings Inc. (Yaponiya) | Ariba (ABŞ) |
| 25 | **Country Bird Holdings Ltd** (Cənubi Afrika) | Auriga Industries A/S (Danimarka) | Danisco A/S (Danimarka) | FamilyMart Co. Ltd. (Yaponiya) | Eckes Granini GmbH (Almaniya) |

UNCTAD. World Investment Report. 2009; Transnational Corporations, Agricutural Productions and Development, Table III. P.12.

*Qeyd:* Tünd şriftlə fərqləndirilmiş şirkətlər inkişaf etməkdə olan yaxud keçid iqtisadiyyatlı ölkələrdə yerləşir. Bəzi şirkətlər aqro-sənaye kompleksinin bir neçə sahəsində fəaliyyət göstərir. Belə hallarda onlar fəaliyyətlərinin əsas təmayülü əsasında təsnifləşdirilir.

^Kənd təsərrüfatı istehsalında və plantasiya təsərrüfatında ixtisaslaşmış konqlomerat.

^ Kənd təsərrüfatı üçün tədarük, xüsusilə də məhsulların mühafizəsi, toxum fondlarına xidmət göstərilməsi, tətbiqi botanika, zootexnikə və kənd təsərrüfatı ziyanvericiləri ilə mübarizənin təşkili sahələrində böyük həcmdə işlər yerinə yetirən ümumi təmayüllü kimya/əczaçılıq şirkətləri.

‘^Hüquqi cəhətdən «Del Monte foods» şirkəti ilə bağlı deyil.

«Charoen Pokphand Foods Group»un iştirakçıları fəaliyyəti haqqında məlumatları ayrı-ayrı şirkətlər üzrə verir.

^ Kənd təsərrüfatında geniş təmsil olunan şaxələnmiş şirkət.

## 17.5. İEÖ-nin regional qarşılıqlı əlaqələrinin güclənməsi: «Cənub-Cənub» XBİ artımı

Son illər nəzərdən keçirdiyimiz sahədə mühüm meyil - inkişaf etməkdə olan bir ölkənin digərinin kənd təsərrüfatına investisiya qoyuluşları nəzərə çarpır (bu təzahür Cənub-Cənub adı almışdır). Çox ehtimal ki, zəif inkişaf etmiş ölkələrdə əhalinin sayının artdığına və onların heç də hamısında ərzaq təminatı kifayət qədər olmadığına görə, bu meyil uzunmüddətli perspektivdə daha da güelənəcək. İnkişaf etməkdə olan ölkələrin investorları 2008-ei illərdə transsərhəd birləşmələrinin mühüm mənbəyinə çevrilmişdir və bunu UNCTAD-m Hesabatı əks etdirir. Onların QƏ çərçivəsində xalis satınalmaları dünya üzrə məemu göstəricinin (3563 milyon dollar) 40%-dən çox olmuşdur. «Sime Darby» şirkətinin (Malayziya) Liberiyanm plantasiya təsərrüfatına 800 milyon dollar həcmində investisiyaları, Çinin Mekonq çayı hövzəsində, xüsusilə də Kamboca və Laosda qarğıdalı, şəkər, kauçuk kimi məhsulların yetişdirilməsi üçün kənd təsərrüfatı podratları, «Zambeef» şirkətinin (Zambiya) Qanada və Nigeriyada, «Gmpo Bimbo» qrupunun (Meksika) Latın Amerikasında və Karib dənizi hövzəsi ölkələrində fəaliyyətinin genişlənməsi «Cənub-Cənub» fonnatmda investisiya layihələrinə nümunədir.

Ərzaq böhranı şəraitində həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrin TMK-nm kənd təsərrüfatına investisiya qoyuluşlarına kommersiya məqsədlərindən başqa, ərzaq təhlükəsizliyinin təmin edilməsi də hərəkətverici amillərdən biri olmuşdur. Kənd təsərrüfatının investorları sırasına müxtəlif şirkətlər və fondlar daxildir, özü də, onların çoxu dövlətə məxsusdur yaxud Cənubi Koreya və Qərbi Asıya ölkələri tərəfindən dövlət dəstəyi alır. Bu investor-ölkələrin hökumətləri onlara kənd təsərrüfatı istehsalı üzərində nəzarətə və yetişdirilən məhsulların ölkələrinə ixracına imkan yaradan dövlətlərə investisiya qoyulmasının ərzaq təhlükəsizliyinin ən səmərəli üsulu olması barədə qənaətə gəlmişdir. Bu ölkələrin çoxu üçün başqa dövlətlərin kənd təsərrüfatına XBİ qoyuluşunun ən mühüm amili və hərəkətverici qüvvəsi torpağın özü deyil, irriqasiya təyinatlı su resurslarına çıxış imkanlarının olmasıdır. Buna görə də onların investisiyalarının əsas hissəsi inkişaf etməkdə olan başqa ölkələrə yönəldilir. Cənubun ən böyük investor ölkələri Bəhreyn, Çin, Qətər, Küveyt, Liviya, Səudiyyə Ərəbistanı, Cənubi Koreya və Birləşmiş Ərəb Əmirlikləridir.

investisiya qoyulmasının ən mühüm ölkələri isə Afrika dövlətləridir və burada XBİ alanlar arasında Həbəşistan, Sudan və Tanzaniya fərqlənir.

## 17.6. TMK-nm təsirinin xarakteri

TMK-nm inkişaf etməkdə olan ölkələrdə iştirakı, onu qəbul edən ölkələrin kənd təsərrüfatının əmtəəlik məhsul buraxılışına keçməsi və modernləşdirilməsi prosesinə imkan yaradır. Lakin bu halda TMK-lar həmin prosesin yeganə və əsas hərəkətverici qüvvəsi olmasa da, ölkələrin əksəri)^ətində çox mühüm rol oynamışdır. Onlar öz fəaliyyətini təkcə kənd təsərrüfatına birbaşa kapital qoyuluşları vasitəsilə deyil, həmçinin bu istehsalda ***qeyri-pay iştirakı,*** əsasən də kənd təsərrüfatı podratları yolu ilə həyata keçirir. Bundan başqa, son illərdə iştirakın qeyri-pay formalarından istifadə olunması genişlənir. Bir çox hallarda bu, təcrübənin, nou-haunun və məhsul buraxılışı metodlarının əhəmiyyətli dərəcədə ötürülməsi ilə nəticələnmiş, istehsal məqsədləri üçün verilən kreditlərə və müxtəlif ilkin resurslara çıxışı asanlaşdımıış, əvvəllər əsasən natural təsərrüfatla məşğul olan çoxsaylı fermerlərin bazara çıxmasına imkan yaratmışdır.

TMK-nm kənd təsərrüfatında iştirakı məhsuldarlığın yüksəlməsinə və inkişaf etməkdə olan bir sıra ölkələrdə istehsal həcminin çoxalmasına şərait yaratsa da, mövcud məlumatlar onların fəaliyyətinin həmin ölkələrin özünün qida məhsulları istehsalını artırmasına və ərzaq təhlükəsizliyinin təmin etməsinə necə təsir göstərdiyini müəyyənləşdimıəyə imkan vermir. Məlumatlar yalnız TMK-nm əsasən ixrac üçün əmtəəlik kənd təsərrüfatı məhsullarının istehsalında iştirak etdiyini göstərir (bu sahədə «Cənub-Cənub» XBİ-nin son illərdə artması istisnadır). Ancaq ərzaq təhlükəsizliyi yalnız məhsul göndərişləri ilə məhdudlaşa bilməz. TMK-lar ərzağın əldə olunmasına və istifadəsinə, göndərişlərin sabitliyinə təsir göstərə bilir. Nisbətən uzunmüddətli perspektivdə isə TMK-nm ərzaq təhlükəsizliyinin bu məsələlərinə təsiri, çox güman ki, onları qəbul edən ölkələr üçün daha böyük əhəmiyyət kəsb edəcək.

TMK-nm kənd təsərrüfatı istehsalında iştirakının faydalı olması barədə fikirlərlə həm inkişaf etməkdə olan, həm də keçid iqtisadiyyatlı ölkələrin cəmiyyətlərində, xüsusilə də }mksək təbəqədə rastlaşmaq olsa da, bu fayda avtomatik əldə olunmur. TMK-lar müəyyən müddət ərzində iş yerləri yaratsa və kənd icmalarının gəlirlərini artırsa da, burada sabit meyil yoxdur. TMK-lar

kənd təsərrüfatının müasirləşdirilməsini və natural təsərrüfatdan əmtəəlik məhsul istehsalına keçidi dəstəklədikcə, uzunmüddətli perspektivdə onlar, çox ehtimal ki, gəlirlərin çoxalması məsələsində qeyri-müəyyənlik vəziyyətdə fenner təsəiTüfatlanndakı iş yerlərinin ixtisarını sürətləndirəcək. Bundan başqa, texnologiyaların ötürülməsindən məhdud sayda inkişaf etməkdə olan ölkə yararlana bilmişdir. Belə ki, iri TMK-nm ETTKİ və texnoloji yenilikləri, adətən inkişaf etməkdə olan ölkələrdə becərilən aqro-ərzaq məhsullarının əsas növlərinə səmtləşinəmişdir.

Bu məqamları nəzərə alaraq, UNCTAD-m Hesabatında TMK və yerli fennerlərin səmərəli əməkdaşlığı qarşısında duran konkret maneələrin aradan qaldırılması tövsiyə olunur və bunlara aşağıdakılar daxildir:

- mal göndərişlərini sistemləşdirilmiş və standartlaşdırılmış əsasda təşkil etmələri üçün xırda fennerlərin potensialının kifayət qədər olmaması;
- müvafiq texnologiyaların əldə olunmasında çətinliklər;
- kapitalın çatışmaması;
- mal göndərişlərinin mütəmadiliyi baxımından istehsal güclərinin və obyektlərin uzaqda yerləşməsi;
- fenner təşkilatlarının rolunun zəifliyi;
- TMK və onun tərəfdaşları yaxud üçüncü tərəf arasında yaranan mübahisələrin tənzimlənməsi üçün lazımi hüquqi alətlərin olmaması.

Bu düyünlərin açılınası üçün siyasətin müxtəlif variantları mövcuddur. Onların sırasında yerli fermerlər üçün təhsil və tədris proqramlarını, dövlətin dəstəyi ilə aqrotexniki xidmətlərin göstərilməsini, standartların və sertifikatlaşma prosedurlarının təyin olunmasını, maliyyə vəsaitlərinin verilməsini, yerli fennerlərlə TMK-lar arasında əlaqələrin qurulması üzrə vasitəçilik xidmətlərini, fermer təşkilatlarının yaradılmasına yardımı, hüquqi nəticələrin əvvəlcədən bilinməsinin təmin edilməsi üçün daxili məhkəmələr sisteminin təkmilləşdirilməsini göstərmək olar. Hökumətlər TMK-lar ilə aparılan danışıqlar çərçivəsində fennerlərin maraqlarının qorunması üçün nümunəvi kontraktların işlənib hazırlanmasının mümkünlüyü məsələsini də nəzərdən keçirməlidir.

## 17.7. TMK-nın infrastruktur layihələrində iştirakının ilkin ümumi şərtləri

***infrastruktur - inkişafın əsas amili kimi.*** Məlumdur ki, inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrdə geriliyin əsas səbəblərindən biri istehsal infrastruktumnun kifayət dərəcədə inkişaf etməməsi, yəni avtomobil və ya dəmir yollarının yoxluğu yaxud keyfi}^ətinin aşağı olması, energetika müəssisələrinin azlığı, dəniz, çay, hava limanlarının, boru kəmərlərinin, logistikanm çatışmazlığı, mənzil fondunun (xüsusilə də kəndlərdə) primitivliyi və sairdir. Bu da aydındır ki, keyfiyyətli infrastrukturun yaradılması iqtisadi və sosial inkişafın mühüm ilkin şərtidir. İnfrastrukturun mövcudluğu inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrin inkişaf templərinin sürətləndirilməsi və saxlanması, dünya təsərrüfatına daha intensiv qovuşması, BMT-nin Minilliyin Bəyanatında qoyulan inkişaf məqsədlərinə nail olunmasının ən mühüm ilkin şərtlərindəndir.

Bu yolda iqtisadi cəhətdən geri qalmış ölkələrin, çox güman ki, müstəqil, beynəlxalq ictimaiyyətin və ayrı-ayrı dövlətlərin köməyi olmadan dəf edə biləcəyi xeyli maneələr vardır. İnkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrin infrastruktur sahəsində investisiyalara tələbatı hökumətlər, özəl sektor və başqa tərəfdaşların ayırdığı resurslardan dəfələrlə çoxdur. Bunun nəticəsində maliyyələşmədə nəzərəçarpan kəsir yaranır. DB-nin qiymətləndinnəsinə görə, inkişaf etməkdə olan ölkələr infrastrukturun inkişafına hər il ÜDM-in 3-4%-ni ayırır. Ancaq iqtisadi artım və yoxsulluğun miqyasının azaldılması üçün bu investisiyaların həcmi ən azı 7-9% olmalıdır'.

İkinci Dünya müharibəsindən sonra 1980-ci illərədək infrastruktur sahələrinin inkişaf etdirilməsi bütövlükdə hökumətin vəzifələrinə aid idi və bir sıra hallarda bu sektorda dövlət müəssisələri (DM) yaradılırdı. Sonra sahələr və ölkələr üzrə templərində və miqyasında böyük fərqlər olsa da, bu sektorda tədricən liberallaşma başlandı. Nəticədə birincisi, dövlətin özəl sektor, o cümlədən xarici şirkətlərlə qarşılıqlı münasibətlərində dəyişikliklər baş verdi, ikincisi, özəl kapital tezliklə gəlir vennəyən sahələrə sənnayə yatırmadığına görə, infrastrukturda əks-milliləşdirmə (özəlləşdirmə) ona düzəlməsi mümkün olmayan ziyan vurdu. Bu səbəbdən 1990-cı illərdə həm inkişaf etməkdə olan. *

* UNCTAD. World Investment Report. 2008; Transnational Corporations, Agricutural Productions and Development. P.25.

həm də keçid iqtisadiyyatlı ölkələrdə infrastruktur ağır tənəzzülə uğradı. Bəzi pozitiv təzahürlər yalnız son illərdə müşahidə olunmağa başlamışdır.

Burada nəzərə alınmalıdır ki: birincisi, infrastruktura yönəldilən investisiyaların kapital tutumu, adətən böyükdür və kompleks halda olmalıdır. İkincisi, infrastmktur layihələri çox zaman real şəbəkələrin mövcudluğunu tələb edir, oliqopoliya yaxud inhisar xarakterindədir. Üçüncüsü, bir çox hallarda ictimaiyyət tamamilə düzgün olaraq, infrastruktur layihələrinə vəsait yatırılmalarını siyasi məsələlərə aid edir. Fəaliyyətin bu sahələrinə ***ictimai sərvətlər*** qismində yalnız bütün vətəndaşlar üçün əlçatan olduqda yanaşıla bilər və bəzi hallarda, məsələn, su təchizatında qazanc əldə edilməsi arxa plana keçməlidir. Dördüncüsü, infrastruktur sahələri iqtisadiyyatın rəqabət qabiliyyətinə bütövlükdə həlledici təsir edir, infrastmkturun keyfiyyəti isə XBİ-ni həll edən əsas amillərdəndir. Beşincisi, infrastruktur ölkənin iqtisadi inkişafı və dünya təsərrüfatına inteqrasiyası üçün son dərəcə vacibdir. Bütün bunlar infrastrukturun qurulmasının özəl sektorun deyil, dövlətin obyekti olmasını zəruriləşdirir.

Son dövrdə TMK-nm infrastruktur sektorunda iştirakının miqyası xeyli, xüsusilə də inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrdə genişlənmişdir. İnkişaf etməkdə olan ölkələrin hökumətləri sənayenin infrastruktur sahələrinə və xidmətlər sektoruna özəl müəssisələrin, o cümlədən TMK-nm daxil olması üçün geniş imkanlar yaradır. Belə ki, ölkəyə gətirilən XBİ-nin ümumi həcmində infrastruktur sahələrinin payı sürətlə artır. 1990-2006-cı illəri əhatə edən dövrdə dünyanın bütün ölkələrində infrastruktura yönəldilən XBİ- nin həcmi 31 dəfə artaraq 786 milyard dollara, inkişaf etməkdə olan ölkələrdə isə 29 dəfə çoxalaraq 200 milyard dollara çatmışdır. Göstərilən dövrdə bu rəqəm infrastruktur sahələrinin əksəriyyətində artmaqda davam etmişdir: ən böyük yüksəliş elektrik təchizatı və telekommunikasiyada, nisbətən az isə nəqliyyatda və su təchizatında olmuşdur. Bütövlükdə götürüldükdə, dünya üzrə XBİ-nin ümumi həcmində infrastrukturun payı 1990-cı ildəki 2%-dən yüksələrək, 10%-ə çatmaqdadır. Lakin bu artımın əsas hissəsi telekommunikasiya və enerji-yanacaq təminatı hesabına təmin edilir, çox kiçik hissəsi isə baha başa gələn və biznes üçün maraqlı olmayan yol tikintisi, köhnə mənzil fondunun təmiri və sökülməsi, daxili hava xətlərinin, başqa layihələrin payına düşür.

Digər göstərici infrastruktur layihələrində özəl sektorun iştirakı çərçivəsində xarici investisiya öhdəliklərinin həcmidir. Bu göstərici də TMK-

nın inkişaf etməkdə olan ölkələrə böyük məbləğdə kapital qoyuluşlarının mövcudluğunu sübut edir. 1996-2008-ci illərdə bu cür öhdəliklərin həcmi təqribən 280 milyard dollar olmuşdur. Özü də, 1996-2000-ci illərdə Latın Amerikası və Karib dənizi hövzəsinin ölkələrinə investisiya qoyuluşları üstünlük təşkil edirdisə (öhdəliklərin 67%-i regionun payına düşürdü), XXI əsrin əvvəlindən bu layihələrdə TMK-nın payı Çin, Cənubi Koreya, Malayziya və bir sıra başqa ölkələrin sayəsində Afrika və Asiyada sürətlə artmağa başlamışdır.

Qeyd olunmalıdır ki, infrastruktura yönəldilən investisiyaların qloballaşması prosesi zəif inkişaf etmiş ölkələrdən yan keçir və 2006-2008-ci illərdə inkişaf etməkdə olan ölkələrə qoyulan XBİ-nin cəmi 2%-i onların payına düşürdü. 1996-2008-ci illərdə inkişaf etməkdə olan ölkələrin infrastruktur sahələrinə investisiya qoyuluşları öhdəliklərində onların payı 5%-dən bir qədər çox olmuşdu.

***İştirakın formaları.*** TMK-nın iştirak fomıalan infrastruktur sahələri üzrə fərqlənir. Məsələn, TMK-nın inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrin bazarlarına XBİ ilə çıxmasının dominantlıq təşkil etdiyi sahə telekommunikasiyadır. Elektroenergetikada bunun üçün konsessiya müqavilələrindən (62%), özəlləşdirmə və start layihələrindən daha çox istifadə olunur (36%). Konsessiya müqavilələri əcnəbilərin nəqlİ3^at infrastrukturunda (80%) və su təchizatında (layihələrin 70%-i) iştirakının əsas növlərindəndir. Bundan başqa, su təsərrüfatında idarəçilik və icarə müqavilələrindən tez-tez istifadə olunur (25%). 17.2-ci şəkildəki diaqramlar 1996-2006-cı illərdə inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrin infra-struktur sahələri kompleksində əcnəbilərin iştirakı barədə ümumi təsəvvür yaradır.




*Şəkil 17.2.* **İnkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrin infrastruktur sahələrində əcnəbilərin iştirakı: layihələrin ümumi sayının sahələr üzrə bölgüsü***

*UNCTAD. World Investment Report. 2008; Transnational Corporations and the Infrastructure Challenge Figure III. P. 6.

*Qeyd.* Məlumatlar yalnız özəl sektorun iştirak etdiyi layihələr üzrə investisiya öhdəliklərinə aiddir. Bəzi hallarda bu layihələrə dövlət sektorunun investisiya öhdəlikləri daxildir. Müstəsna olaraq dövlət sektorunun vəsaitləri hesabına maliyyələşdirilən layihələr nəzərə alınmır.

TMK-nın infrastruktur layihələrinin həyata keçirilməsində iştirakı 17.3-cü cədvəldə göstərilmişdir.

*Cədvəl 17.3*

**Müxtəlif infrastruktur sahələrində xarici aktivlərinin məbləğinə görə ən iri TMK-lar (2008-ci il)***

| Yer | Elektroenergetika | Telekommunikasiya | Nəqliyyat | Su təchizatı və kanalizasiya | Təbii qaz | Bir infrastruktur sahəsindən çox |
|---|---|---|---|---|---|---|
| 1 | Electricité de France S.A. (Fransa) | Vodafone Group plc. (Böyük Britaniya) | Grupo Ferrovial (İspaniya) | Veolia Environnement (Fransa) | Gaz de France (Fransa) | Suez S.A (Fransa) |
| 2 | E.ON SE (Almaniya) | Telefonica S.A. (İspaniya) | Abertis (İspaniya) | Gruppo Agbar (İspaniya) | Spectra Energy Corp. (ABŞ) | **Hutchison Whampoa** (Honkonq, Çin) |
| 3 | Endesa, S.A. (İspaniya) | Deutsche Telekom AG (Almaniya) | A.P.Moiler-Maersk Group (Danimarka) | Waste Management İnc. (ABŞ) | Centrica plc. (Böyük Britaniya) | RWE Group (Aimaniya) |
| 4 | Vattenfall (Almaniya) | France Telecom (Fransa) | **DP World** (Dubay) | Shanks Group plc. (Böyük Britaniya) | Gas Natural (İspaniya) | Bouygues (Fransa) |
| 5 | National Grid (ABŞ) | Vivendi inc. (Fransa) | **China Ocean Shipping Co.** (Çin) | Waste services inc. (ABŞ-Kanada) | TransCanada Corp. (Kanada) | **WT L Power** (Honkonq, Çin) |
| 6 | AES Corporation (ABŞ) | Liberty Global inc. (ABŞ) | Canadian National Railway Co. Kanada) | Stericycle inc. (ABŞ) | Enbridge inc. (Kanada) | Babcock & Brown Infrastructure (ABŞ) |

| Yer | Elektroenergetika | Telekommunikasiya | Nəqliyyat | Su təchizatı və kanalizasiya | Təbii qaz | Bir infrastruktur sahəsindən çox |
|---|---|---|---|---|---|---|
| 7 | Fortum (Finlandiya) | Telia Sonera (İsveç-Finlandiya) | Skansca (İsveç) | **Higelakes ltd.** (Honkonq, Çin) | Sempra Enegy (ABŞ) | **ENKA İnşaat ve Sanayi A.Ş.** (Türkiyə) |
| 8 | Duke Energy Corporation (ABŞ) | **Sing Tel** (Sinqapur) | **PSA International** (Sinqapur) | Clean Harbors, Inc. (ABŞ) | El Paso corp. (ABŞ) | **NWS Holdings** (Honkonq, Çin) |
| 9 | EDP Enerjias de Portugal (Portuqaliya) | Telenor (Norveç) | Hochtief AG (Almaniya) | - | Hunting plc.(Böyük Britaniya) | - |
| 10 | International Power plc. (Böyük Britaniya) | Nortel Networks Co. (Kanada) | Winney (ABŞ) | - | \A/illiams Companies (ABŞ) | - |
| 11 | **CLP Holdings** (Honkonq, Çin) | KPN (Niderland) | Macharis airports (Niderland) | - | **Hong Kong and China Gas Company Ltd.** (Honkonq, Çin) | - |
| 12 | Iberdrola S.A. (İspaniya) | BT Group (Böyük Britaniya) | Deutsche Bahn AG (Almaniya) | - | Distriqas (Belçika) | - |
| 13 | Union Fenosa, S.A. (İspaniya) | Verizon Communications (ABŞ) | **Orient Overseas** (Honkonq, Çin) | - | Canadian Utilities Ltd (Kanada) | - |
| 14 | PPL Corporation (ABŞ) | SES S.A (Lüksemburq) | Grupo ACS (İspaniya) | - | Iwatani International Corp. | - |

| Yer | Elektroenergetika | Telekommunikasiya | Nəqliyyat | Su təchizatı və kanalizasiya | Təbii qaz | Bir infrastruktur sahəsindən çox |
|---|---|---|---|---|---|---|
| | | | | | (Yaponiya) | |
| 15 | Atel-Aare Tessin (İsveçrə) | Telecom italia (İtaliya) | Obrascon Huarte Lain (İspaniya) | - | - | - |
| 16. | Public Service Enterprise Group (ABŞ) | **America Mövil** (Meksika) | Kansas-City suzeran (ABŞ) | - | - | - |
| 17 | **Keppel Corporation** (Sinqapur) | **Mobile telecommunications** (Hindistan) | Canadian Pacific Railway (Kanada) | - | - | - |
| 18 | Cofide-SIR Group (İtaliya) | TDC AG (Almaniya) | FirstGroup (Böyük Britaniya) | - | - | - |
| 19 | Edison international (ABŞ) | Portugal Telecom (Portuqaliya) | BBA Aviation plc. (Böyük Britaniya) | - | - | - |
| 20 | Enei S.p.A. (İtaliya) | Tele 2 (İsveç) | **China Communications Construction Co.** | - | - | - |

* CNUCED. World Investment Report. 2008; Transnational Corporations and Infrastructure Challenge, Table III. P. 1. *Qeyd.* Tünd şriftlə qeyd olunmuş şirkətlər inkişaf etməkdə olan

Cədvəldə göstərilən şirkətlər sırasında inkişaf etməkdə olan ölkələrin TMK-sı bu qrupa daxil olan dövlətlərin infrastruktur layihələrində nəzərəçarpan rol oynayır. Asiya və Okeaniyada digər inkişaf etməkdə olan ölkələrin TMK-nm iştirakı (ilk növbədə regionlararası layihələrdə) xüsusilə parlaq ifadə edilir. 1996-2008-ei illərdə Asiya və Okeaniyanın infrastruktur sektorunda xarici investisiya öhdəliklərinin, demək olar ki, yarısı inkişaf etməkdə olan ölkələrdə qəbul edilmişdi, iki sahədə (telekommunikasiya və nəqliyyat) isə xarici öhdəliklərin ən böyük həcmi Cənub TMK-nm payına düşürdü. Afrikada inkişaf etməkdə olan ölkələrin investorları telekommunikasiya sektorunda üstün (öhdəliklərin 58%-i) olmaqla bərabər, başqa infrastruktur sahələrində də mühüm rol oynayır. Afrikada bütün öhdəliklərin 40%-i inkişaf etməkdə olan ölkələrin TMK-nm payına düşür. Latın Amerikasında və Karib dənizi hövzəsi ölkələrində isə inkişaf etməkdə olan ölkələrin investorlarının fəaliyyəti nisbətən məhduddur (bütün öhdəliklərin 16%-i) (bax: şəkil 17.3).

TMK-nın inkişaf etməkdə olan ölkələrin infrastrukturuna böyük həcmdə investisiya qoymasına baxmayaraq, bu məbləğ maliyyələşmədəki kəsirin örtülməsinə kifayət deyil: bunun üçün mümkün olan bütün başqa mənbələrdən əlavə vəsaitlər lazımdır. Məsələn, Afrikada 1996-2006-cı illərdə infrastruktur sektorunda TMK-nm investisiya öhdəliklərinin məcmu həcmi 45 milyard dollar olmuşdur. Bu məbləğ regionun infrastrukturuna tələb olunan investisiyaların ***illik*** məbləğindən o qədər də fərqlənmir. Latın Amerikasında xarici şirkətlərin infrastruktur sahələrinə investisiya yatırımları burada dövlət kapital qoyuluşlarının məbləğinin azalması ilə bağlıdır. Özəl sektorun kapital qoyuluşlarının kütləvi hal alacağına ümid bəsləyərək, region dövlətlərinin çoxunun hökumətləri infrastruktur sahələrinə vəsait ayrılmasını ixtisar edirdi. Ancaq TMK-nm (və milli özəl sektorun) investisiyalarının artımı həmin ixtisarolunmanı tam kompensasiya edə bilmədi. Bu təcrübədən çıxarılmalı olan əsas nəticələrdən biri bundadır ki, TMK-nm iştirak etdiyi hallarda, ölkənin bütün infrastruktur sahələrinin investisiya ehtiyaclarının ödəniləcəyini güman etmək düzgün deyil; onların buradakı iştirakına yalnız milli investisiyalara mühüm əlavə kimi yanaşılmalıdır.

İnfrastruktur sahəsində fəaliyyət göstərən TMK-lar öz layihələri xətti ilə onları qəbul edən ölkələrə texnologiyaları maddi (məsələn, suyun təmizlənməsi üçün xüsusi avadanlıq), habelə «yumşaq» formada (məsələn, təşkilat və

idarəçilik təcrübəsi, nou-hau və s.) ötürür. Birinci halda, məsələn, telekommunikasiya sektorunda beynəl-xalq bazarlara həm inkişaf etməkdə olan, həm də inkişaf etmiş ölkələrin operatorlan-nm çıxması, inkişaf etməkdə olan ölkələr tərəfindən informasiya və kommunikasiya texnologiyalarını əldə edilməsini və istifadəsini asanlaşdırdı. TMK-lar qəbul edən ölkədəki filiallarına satınalmalar və podrat praktikasının təkmilləşdirilməsi, müştəri-lər haqqında məlumatların toplanılması və qeydiyyatdan keçirilməsi metodlarından istifadənin genişləndirilməsi yolu ilə fəaliyyət prosesinin yenidən qurulması üçün «yumşaq» texnologiyaları ötürür.




*Şəkil 17.3.* **Keçid iqtisadiyyatlı ölkələrin infrastruktur sahələrinin investisiya öhdəliklərində xarici investorların, milli özəl və dövlət investorlarının iştirak payı (regionlar üzrə bölgü, 1996-2008-ci illər, %)***

* CNUCED. World Investment Report. 2008; Transnational Corporations and Infrastructure Challenge, Figure III. P. 1.

*Qeyd.* Məlumatlar yalnız özəl sektorun iştirak etdiyi layihələr üzrə investisiya öhdəliklərinə aiddir. Bəzi hallarda bu layihələrə dövlət sektorunun investisiya öhdəlikləri daxildir. Müstəsna olaraq dövlət sektorunun vəsaitləri hesabına maliyyələşdirilən layihələr nəzərə alınmır.

ümumilikdə, aparılan tədqiqatlar göstərir ki, xarici filialların hər iki texnologiya növündən istifadə etməsi əksər hallarda göstərilən xidmətlərin məhsuldarlığının artmasına, onun keyfiyyətinin və etibarlılığının yüksəlməsi ilə nəticələnir. Bununla bərabər, ölkələrdə mövcud olan vəziyyət də mühüm rol oynayır: TMK-nm iştirakı nəticəsində fəaliyyətin səmərəliliyinin yüksəlməsinin ümumi nəticələri tənzimləmə rejiminin düzgün seçimindən asılıdır.

TMK-nm sahəyə verdiyi texnologiyanın təsir dərəcəsi, onun müxtəlif ötürülmə kanalları, o cümlədən müştərək müəssisələr, kadrların rotasiyasının sürəti və nümayiş effekti vasitəsilə milli firmalara çatmasından da asılıdır. Məsələn, Çində elektrik enerjisinin istehsalı sahəsində iri müştərək müəssisələrdə TMK-nm iştirakı xarici investorlarla, onların çinli tərəfdaşları arasında layihələrin idarə olunması sahəsində mütəmadi, çoxtərəfli əməkdaşlığın həyata keçirilməsini nəzərdə mtur. Bu, çinlilərə öz ixtisas səviyyəsini və işin səmərəliyini yüksəltmək imkanı yaratmışdır. İnfrastruktur TMK-nm texnologiyalarının geniş yayılması üçün ölkə müəssisələrində müvafiq peşə üzrə kadrların, o cümlədən yüksək ixtisaslı fəhlələrin olması zəruridir.

Müəyyən dərəcədə ehtiyat etmələrinə baxmayaraq, ölkələrin bir çoxu TMK-nm iştirakı qarşısındakı maneələrin aradan qaldırılması və onların infrastrukturun bəzi sahələrinə eəlb olunması məsələsində irəli getmişdir. İnvestisiyaların Təşviqi Agentliklərinin (İTA) çoxu öz fəaliyyətini infrastrukmr sahələrinə yönəltmişdir. UNCTAD və İnvestisiyaların Təşviqi Agentliklərinin Beynəlxalq Assosiasiyasının birgə keçirdiyi təhlilə əsasən, İTA-nm 70%-i bu eür investisiyaların cəlb olunması ilə fəal məşğul olduqlarını bildirmiş, yalnız 24%-i mənfi cavab vermişdir. İTA-nın təqribən A4 hissəsi infrastrukmra 5 il öncə olduğundan daha böyük əhəmiyyət verdiyini göstərmişdir. İTA-nm elektrik enerjisi istehsalı, İnternet xidmətləri və hava limanları kimi infrastruktur sahələrinə daha çox istiqamətlənməsi onların TMK-nm fəaliyyəti üçün daha çox açıq xarakterdə olduğunu göstərir. İTA-lar elektrik enerjisinin bölgüsü və ötürülməsi sektoruna nisbətən az maraq göstərir. Zəif inkişaf etmiş ölkələrə yönəldilən investisiyaların dinamikası, onların inkişaf etməkdə olan ölkələrin TMK-na daha çox ümid bəsləməsinin (xüsusilə də nəqliyyat infrastrukmru sektorunda) düzgünlüyü barədə fikir söyləməyə əsas verir (cədvəl 17.4).

Məlumatlar İTA-nm fəaliyyətinin nəticələrinin həm sahə, həm də ölkələr nöqteyi-nəzərindən müxtəlif olduğunu göstərir. Birincisi, onların inkişaf etməkdə olan ölkələrdə, ikincisi isə, elektroenergetika, avtomobil yolları, hava limanları sahələrində payı daha çoxdur. Burada TMK-nm ölkə ilə əməkdaşlıq etməsi üçün ümumi şərtlərin və xüsusi şəraitin yaradılmasının böyük əhəmiyyəti vardır. Müvafiq qanunvericilik bazasının yaradılması, habelə bürokratiyanm və rüşvət-xorluğun aradan qaldırılması zəruridir. Əks halda, ölkənin TMK-lar üçün açılması nəticəsində ziyana düşməsi təhlükəsi yaranır. Bundan başqa, istənilən ölkədə tələsik liberallaşma həyata keçirilərsə, bu prosesin dayandırılması əksər hallarda mümkün olmur. Məhz buna görə də islahatlara başlayan ölkələr, ilk növbədə, onların ardıcıllığını müəyyən etməlidir. Bu cür ardıcıllıq potensial investorlar üçün oyun qaydalarını dəqiqləşdirməyə və hökumətlərin konkret layihənin həyata keçirilməsinə daha yaxşı hazırlaşmasına imkan yaradır. Amma reallıqda, xarici investisiyalar üçün şərait kompleks islahat aparılanadək yaradılır və nəticədə, nisbətən zəif pozitiv effekt əldə olunur.

Nüfuzlu tənzimləmə orqanları yaradılanadək, inkişaf etməkdə olan ölkələrin *öz kommunal müəssisələrini dövlət sektorunda saxlaması daha məqsədəuyğundur.* UNCTAD-m Hesabatmdakı bu nəticə prinsip baxımından vacibdir və keçid iqtisadiyyatlı ölkələr qrupuna, o cümlədən Rusiyaya birbaşa aidiyyəti vardır. Hərçənd ki, Rusiyada bu fikir hələ 1992-ci ildə, UNCTAD- dan 17 il öncə Rusiya Ali Sovetinin sədri tərəfindən ifadə olunmuşdu.

Adətən TMK-lar infrastruktur layihələrinin həyata keçirilməsinə cəlb edilərkən, məsuliyyət dövlət orqanları işçilərinin üzərinə qoyulur və onlar məsələyə ikinci dərəcəli, asan kimi yanaşmamalıdır. Bundan başqa, həmin məsuliyyət getdikcə güclənməlidir. İnfrastruktura investisiya qoyuluşları üçün qəbul edən ölkə ilə investor arasında müqavilənin bağlanması üzrə danışıqlar aparılmalıdır. Bu müqavilə hər bir layihənin özəl tələblərini və danışıq aparan tərəflərin niyyətlərini nəzərə alan *xüsusi razılaşmadır.* Buna görə də ölkələr tərəfindən TMK-nm arzu olunan iştirak səviyyəsini və formalarını müəyyənləşdirmək, müvafiq danışıqları aparmaq, layihələrin həyata keçirilməsinə nəzarət etmək təcrübəsinin toplanması zəruridir. Biz əvvəlki fəsillərdən birində «danışıqlar texnologiyasını» nəzərdən keçirərkən müvəffəqiyyətin əsas şərtinin zəka, yüksək peşəkarlıq və şübhəsiz ki, öz ölkəsinin maraqlarını tam həcmdə təmin etmək səyi olduğunu müəyyənləşdirmişdik.

*Cədvəl 17.4*

**İnfrastrukturun konkret sahələrində XBİ-nin stimullaşdırılması ilə məşğul olan İTA-nın xüsusi çəkisi (regionlar üzrə bölgü)'*'**

| İnfrastruktur sahəsi | Bütün ölkələr | İnkişaf etmiş ölkələr | İnkişaf etməkdə olan ölkələr | Afrika | Asiya | Latın Amerikası və Karib dənizi hövzəsi | Cənub-Şərqi Avropa və MDB |
|---|---|---|---|---|---|---|---|
| *Cavab vermiş İTA-nın payı, %* | | | | | | | |
| Nəqliyyat: | | | | | | | |
| • Avtomobil yolları | 31 | 5 | 42 | 43 | 46 | 38 | 48 |
| • Dəniz limanları | 37 | 30 | 42 | 50 | 31 | 44 | 29 |
| • Hava limanları | 41 | 35 | 40 | 57 | 23 | 38 | 71 |
| • Dəmiryolları | 24 | 15 | 28 | 50 | 23 | 13 | 29 |
| Elektrik enerjisi: | | | | | | | |
| • istehsal | 49 | 30 | 56 | 79 | 46 | 44 | 57 |
| • Ötürmə | 19 | 0 | 26 | 36 | 23 | 19 | 29 |
| • Paylama | 17 | 5 | 23 | 36 | 23 | 13 | 14 |
| Telekommunikasiya: | | | | | | | |
| • Stasionar rabitə | 29 | 20 | 30 | 50 | 23 | 19 | 43 |
| • Mobil rabitə | 40 | 40 | 40 | 57 | 38 | 25 | 43 |
| • internet xidmətləri | 44 | 45 | 42 | 71 | 31 | 25 | 57 |
| Su təchizatı və kanalizasiya: | | | | | | | |
| • Su təchizatı | 33 | 26 | 33 | 43 | 23 | 31 | 57 |
| • Kanalizasiya | 26 | 15 | 28 | 29 | 23 | 31 | 43 |
| Cavabların sayı | 70 | 20 | 43 | 14 | 13 | 16 | 7 |

* UNCTAD. World Investment Report, 2008: Transnatoinal Corparations and the Infrastructure Challenge. Table V. P. 3.

# Xülasə

• Dünya əhalisi, xüsusilə də inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrin sakinləri ərzaq mallarının səmərəli tərzdə, tələbatın getdikcə artması nəzərə alınmaqla istehsal edilməsinə möhtacdır. Əhalinin strukturunda baş verən dəyişik-liklər, o cümlədən şəhər sakinlərinin sayının sürətlə artması ərzağa olan tələbatdan asılı deyil. Bundan başqa, aqrar sektorda məşğulluğun ixtisarı kənd təsənlifatmda əmək məhsuldarlığının artmasını tələb edir. Gəlirlər çoxaldıqca, həyat tərzi yaxşılaşdıqca, insanlar daha çox keyfiyyətli ərzaq istehlak edirlər. Dünya əhalisinin sayı isə sürətlə artır və tezliklə Yer sakinlərinin sayı 7 milyard nəfərə çatacaqdır. Deməli, dünyanın müxtəlif ölkələrinin kənd təsərrüfatı daha çox qida məhsulları, heyvanlar üçün yem kimi müxtəlif inqrediyentlərin və aqrar məhsulların emalı sənayesinin tələbatını ödəmək üçün xammal, yarımfabrikatlar istehsal etməlidir.

• Aqrar məhsullar, əvvəllər olduğu kimi, bu gün də çatışmır; dünyada 1 milyarda yaxın insan aclıqdan əziyyət çəkir, milyonlarla adamın bu səbəbdən tələf olması davam edir. Yalnız inkişaf etmiş ölkələrin kiçik qrupu vətəndaşlarını keyfiyyətli ərzaqla təmin edir və bazara böyük həcmdə yeyinti məhsulları - buğda, düyü, ət, süd və s. çıxara bilir. Dünya ölkələrinin əksəriyyəti isə qida məhsullarının əsas növlərini satın almağa məcburdur. Beynəlxalq təşkilatların və TMK-nm buğda becərib heyvan və quşları yemləməkdənsə, müəyyən bitkiləri bioloji yanacaq məqsədilə becərilməsinin daha böyük səmərəliliyi barədə o qədər də uzaqgörən olmayan bəyanatları vəziyyəti daha da mürəkkəbləşmişdir. Nəticədə son bir neçə il ərzində ərzağa ehtiyac duymayan ölkələrin böyük bir qrupunda dənli bitkilərin, heyvanların, quşların istehsalı xeyli ixtisar olunmuşdur. Bu isə, ərzağın qiymətinin bahalaşması və qıtlığının yaranması, bir çox yoxsul ölkələrdə aclıq təhlükəsinin yenidən baş qaldmnası ilə nəticələnmişdir.

• TMK-nın əkinçiliyə və heyvandarlığa maraq göstənnəsi, kəskinləşən ərzaq probleminin həlli üçün mühüm amilə çevrilmişdir. Qeyd olunmalıdır ki, inkişaf etmiş ölkələrin TMK-sı çoxdandır ki, inkişaf etməkdə olan ölkələrin aqrar sektorunda fəaliyyət göstərir. Məsələn, məşhur «United fruit» şirkəti Mərkəzi Amerikanın bir çox ölkələrində böyük plantasiyalara malik idi və onların iqtisadiyyatına güclü təsir göstərirdi («banan respublikası» termini də məhz burada meydana çıxmışdır).

• Ancaq xarici TMK-nın fəaliyyətində nəzərəçarpan canlanma son illərdə müşahidə olunmağa başlamışdır. 2007-ci ildə bütün, əsasən də inkişaf etmiş ölkələrin, habelə Çinin və Cənubi Koreyanın TMK-sı aqrar sektorun inkişafına investisiya kimi 32 milyard dollar yönəltmişdir. Bu, başqa xammal sahələrinə XBİ ilə müqayisədə cüzi məbləğ olsa da, bunun 1990-cı illərdə 1 milyard dollardan az olduğunu xatırlasaq, meyil daha qabarıq görünür.

• Həmin sahədə TMK-nı investisiya qoyuluşundan çəkindirən amil inkişaf etməkdə olan ölkələrdə yetişdirilən aqrar məhsulların qiyınətlərinin ənənəvi ueuz-luğu və əvvəlki onilliklərdə bunun inkişaf etmiş dövlətlər tərəfindən qəsdən aşağı səviyyədə saxlanmasıdır. Ancaq son illər ərzaq mallarının qiymətlərinin ciddi baha-laşması nəticəsində TMK-nın bu sahədə fəallığı güclənmişdir. Hazırda TMK ilə onu qəbul edən ölkə arasında münasibətlərin ən səmərəli forması kənd təsərrüfatı podratı-dır. İnkişaf etməkdə olan ölkələrin aqrar sektoruna həmin qrupdan olan ölkələrin (Çin, Cənubi Koreya, Malayziya, Braziliya və s.) TMK-sı getdikeə fəal qoşulur.

• Son illərdə inkişaf etmiş ölkələrin, habelə sürətlə inkişaf edən ölkələr qrupunun TMK-sı Asiya, Afrika və Latın Amerikasında infrastruktur layihələrinin həyata keçirilməsinə böyük maraq göstərməyə başlamışdır. Məlumdur ki, infrastruktur milli iqtisadiyyatın inkişafının ən əsas şərtlərindən biridir və onun keyfiyyətli, şaxələnmiş avtomobil yolları, dəmir yolu və hava nəqliyyatı, hava limanları, yaxşı logistika olmadan dünya təsərrüfatı münasibətlərinə «qoşulması» qeyri-mümkündür. Ölkələrin xarici və beynəlxalq ticarəti məhdudlaşdığına görə, milli və dünya iqtisadiyyatları da infrastruktur olmadan dolğun inkişaf edə bilməz.

• Buna görə də inkişaf etməkdə olan ölkələrin hökumətləri TMK-nı və onların maliyyə vəsaitlərini milli infrastrukturun inkişafına cəlb etməyə çalışır. Təerübə bu əməkdaşlığın bir çox hallarda TMK-nı qəbul edən ölkəyə böyük fayda verdiyini göstərir. Amma bir sıra eiddi problemlər də aşkara çıxmış və bunlar UNCTAD-m Hesabatında öz əksini tapmışdır (2008-ei il). Məsələ konkret ölkədə infrastrukturun inkişaf etdirilməsinə TMK-nın məhz nə vaxt eəlb olunmasmdadır. Hökumətlər TMK-nın iştirak etdiyi milli layihələrin həyata keçirilməsindən gözlənilən effektin təmin olunması yollarını axtanb tapmalıdır.

• Hər bir ölkənin öz prioritetləri və imkanları olduğuna görə, dövlət və özəl (o cümlədən TMK-nın) investisiyaların birləşməsinin optimal nisbətinin

tapılması vacibdir. TMK-nın infrastruktur sektorunda potensial rolunun müəyyənləşdirilməsi üçün müvafiq siyasətin işlənib hazırlanması və həyata keçirilməsi dövlət məmurlarından böyük hazırlıq və bacarıq tələb edir. Hökumətlər müxtəlif layihələr üzrə prioritetləri müəj^ənləşdinTiəli, seçilən layihələr qarşısında aydın və real vəzifələr qoymalı, onların ölkənin inkişafı strategiyalarında mümkün qədər geniş əks olunmasına çalışmalıdır. Buradan belə nəticə çıxarılır ki, hökumət orqanları layihələrə ümumi rəhbərlik etmək və onların həyata keçirilməsini tənzimləmək, danışıqlar aparmaq üçün lazımi institusional potensiala və ixtisaslı kadrlara malik olmalıdır. Bu məsələ təkcə mərkəzi hakimiyyətə deyil, həmçinin, onların əyalətlər və bələdiyyələr səvİ3^əsindəki orqanlarına da aiddir. Beləliklə, problemin aradan qaldırılmasının əsas üsulu başqa məsələlərin həlli ilə sıx əlaqələndirildiyi hallarda kompleks yanaşma zəruridir.

• İnkişaf etməkdə olan ölkələrin çoxu özünün fiziki infrastrukturunun təkmilləşdirilməsi üçün xarici investisiyaları cəlb etməyə səy göstərsələr də, müasir şəraitdə xarici şirkətləri vəsait qoymağa inandınnaq getdikcə çətinləşir. İnkişaf etmiş və bazarları fonnalaşan iri ölkələrdə tələbatın çoxalması potensial investorların müəyyən risk hüdudunda daha böyük gəlir əldə etmək ümidini yüksəldir. Dərhal böyük məbləğdə kapital qoyuluşları tələb edildikdə və xərclərin tezliklə ödəniləcəyi ehtimalının az, ölkədə işgüzar mühitə təsir göstərən sosial problemlərin mövcudluğu halında isə investisiya qoyuluşları böyük problemə çevrilir.

• Bütün bunlar inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrdə iri infrastruktur layihələrinin əsasən daxili resurslara istinad etməklə həyata keçirilməsinin mümkünlüyü barədə fikir yaradır. Milli özəl şirkətlərin bu cür layihələrdə iştirakına güman az olduğuna görə, dövlətin özünün imkanlarına istinad olunmalıdır. Bu, çox çətin olsa da, inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrdə müasir istehsal infrastrukturunun yaradılmasının yeganə yoludur.

## Yoxlama sualları

1.Hazırda dünyada ərzaqla təminatın ümumi vəziyyəti necədir? Onun qıt və izafi həcmdə olduğu regionlar və ölkələr hansılardır? İnkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrdə kənd təsərrüfatının geriliyinin səbəbləri nədədir?

2. Xarici TMK-nm inkişaf etməkdə olan ölkələrin aqrar sektoruna böyük məbləğdə vəsait yatırmasının hansı səbəbləri var? İnkişaf etməkdə olan ölkələrdən hansıları və niyə TMK-lar üçün daha böyük əhəmiyyət kəsb edir?

3. Son illərdə ayrı-ayrı ölkələr üzrə daxil olan XBİ-də kənd təsərrüfatının xüsusi çəkisi nə qədərdir?

4. TMK-nm qəbul edən ölkənin kənd təsərrüfatında podrat metoduna üstünlük vemrəsinin səbəbi nədir?

5. İnkişaf etməkdə olan ölkələrin aqrar sektorunda fəaliyyət göstərən TMK-nm hansı özəllikləri var?

6. Qərbin ən iri TMK-ları («Nestle», «Wal-Mart») müxtəlif ölkələrin aqrar sektorunda hansı mövqeləri tutur? İnkişaf etməkdə olan ölkələrin 25 TMK-nm mövqeləri necədir?

7. İnkişaf etməkdə olan ölkələrin iri korporasiyalarının aqrar sektordakı yeni rolu: «Cənub-Cənub» nədə təzahür olunur?

8. UNCTAD-m Hesabatında (2008-ci il) TMK-lar ilə yerli fermerlər arasında əməkdaşlığın qumiması qarşısında duran maneələrin dəf olunması üzrə hansı tövsiyələr edilir?

9. İnfrastrukturun ölkənin iqtisadi inkişafının və onun beynəlxalq əmək bölgüsünə qoşulmasının bazisi kimi çıxış etməsinin səbəbi nədədir?

10. TMK-nm inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrin infrastrukturuna marağının güclənməsinin səbəbləri nədir?

11. TMK-lar inkişaf etməkdə olan və keçid iqtisadi^/yatlı ölkələrin infrastruktur layihələrində hansı formalarda iştirak edir?

12. İnkişaf etməkdə olan ölkələrin əsas infrastruktur layihələrinin həyata keçirilməsində xarici TMK-nm və milli özəl şirkətlərin iştirakının səmərəsi nəyə görə aşağıdır?

## Referatların mövzuları

1. Dünyada ərzaqla əlaqədar mövcud olan vəziyyət: problemlər və həlli perspektivləri

2. Aqrar TMK-nm inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrdə fəaliyyəti

3. Xarici TMK-nm inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrdə həyata keçirilən infrastruktur layihələrində iştirakı

# IV Bölmə

# BEYNƏLXALQ MALİYYƏ SİSTEMİ: VALYUTA-MALİYYƏ MÜNASİBƏTLƏRİ

# Fəsil 18

# DÜNYA MALİYYƏ SİSTEMİ

## 18.1. Dünya maliyyə sisteminin tərkibi, quruluşu və strukturu

***Anlayışlar və təyinlər: nəzəri-metodoloji aspekt.*** Nəzərdən keçirdiyimiz məsələnin bir sıra mühüm anlayışları barədə elmi ədəbiyyatda müxtəlif yanaşmalar mövcuddur. Dünya maliyyə sistemi, beynəlxalq valyuta-maliyyə münasibətləri və s. sahələrdə dərsliklərin və dərs vəsaitlərinin müvafiq bölmələrini səhifələməklə, buna əmin olmaq çətin deyil. Belə ki, «ümumdünya valyuta sistemi» «ümumdünya pul-maliyyə sistemi», «ümumdünya valyuta-kredit sistemi» və s. kimi söz birləşmələri şəklində tenninlərdən eyni mənada istifadə olunması ümumi qəbul edilmişdir. Amma burada «valyuta», «pul», «maliyyə» anlayışlarının hansı məzmun kəsb etdiyi aydın deyil.

Bu təzahürlərin müəyyənləşdirilməsində ziddiyyətlərin mövcudluğu, nəzərdən keçirilən sistemlərin özünün dərk olunmasına metodoloji yanaşmada məna baxımından fikir ayrılığı ilə əlaqədardır.

Düşünürəm ki, «dünya maliyyə sistemi» anlayışının vahid tenninoloji açıqlamasından istifadə edilməsi metodoloji və nəzəri baxımdan daha düzgündür və indi beynəlxalq təşkilatların hesabatlarında məhz bu cür yanaşma tətbiq olunur. Bu təklif, həmçinin, aşağıdakı mülahizələrlə əsaslandırılır. «Dünya maliyyə sistemi» termini maliyyə vəsaitlərinin beynəlxalq hərəkətinin məzmun cəhətini, o cümlədən valyuta münasibətləri sahəsinin özünü tam həcmdə ehtiva edir. Burada «valyuta sistemi» və «pul sistemi» anlayışlarının tam açıqlanması, bu terminlər arasındakı ümumi və fərqli cəhətlər araşdırılmalıdır.

*Pıd sistemi* - milli sistemin dövlət pul nişanlarının bilavasitə dövriyyə etdiyi çərçivədir. O, ölkənin maliyyə sisteminin bir hissəsidir. Məntiqi və məzmun baxımından yanaşıldıqda, bir çox hallarda «pul sistemi» ilə «valyuta sistemi» eynidir.

Heç də bütün ölkələrdə valyuta sistemi, maliyyə sisteminin dönərli valyutalarla əməliyyat aparan qurumları və müvafiq həlqəsi qismində çıxış etmir. Çox vaxt bu cür sistemin fraqmentləri, ayrı-ayrı həlqələri fəaliyyət

göstərir. Yalnız milli pul vahidinin bütün dünyada əsas yaxud ehtiyat valyuta vahidi qismində tanınıldığı hallarda «valyuta sistemi» məfhumu ilə «pul sistemi» anlayışı bütövlüklə üst-üstə düşür.

Aydındır ki, «pul» və «valyuta» tenninlərindən sinonim kimi istifadə olunması (buna isə nüfuzlu nəşrlərdə, o cümlədən dərsliklərdə rast gəlmək mümkündür) o qədər də düzgün deyil. Müasir zamanda «pul» məhdudiyyət qoyulmadan dövriyyə edən «pul vahidi» qismində universal mənasını getdikcə itirərək, yalnız daxildə dövretmə imkanına malik olduğundan və «valyuta» sözü «pul» sözünün hərfi mənasında başa düşüldüyünə görə, müəlliflərin çoxu onların bir-birindən fərqləndirilməsinin çətin olduğunu etiraf edir.

Görünür ki, ifadə etdiklərimizin müə}q>^ən izahata ehtiyacı var. Uzun müddət ərzində (Orta əsrlərdən) Qərbi Avropa dövlətlərində puldan (valyutadan) ölkə daxilində və ondan kənarda istifadəsində heç bir fərq olmamışdır. Həmin şəraitdə həm «pul» və «valyuta», həm də «valyuta sistemi» və «pul sistemi» anlayışları bütövlüklə analoji idi. Daha dəqiq desək, «iki sistem» - dünya valyutasını və daxili dövriyyəni tənzimləyən pul sistemləri, ümumiyyətlə, mövcud olmamışdır. Tarixən birinci olaraq pul sistemi yaranmış və burada pulun universal daşıyıcısı kimi qızıl çıxış etmiş, tədavül prosesində, yəni mallar pula dəyişilərkən qızıl külçələrdən və sikkələrdən istifadə olunmuşdur. Qeyd etməliyik ki, müxtəlif formalarda olsa da, qızıl standartı sistemindən bir neçə minillik ərzində istifadə olmuşdur. Rəsmən, qızıldan pul qismində istifadə sistemi XVIII əsrdə Böyük Britaniyada yaradılmış, sonradan Fransada, İtaliyada, alman dövlətlərində, Rusiyada və s. yayılmışdır. Bu sistemin beynəlmiləlləşməsinin səbəbi, güman ki, onun həmin dövrdə bazarın tələbatlarını təmin etməyə qadir olmasıdır. Zaman dəyişdikcə, yeni valyuta- maliyyə sistemlərinin meydana çıxmasına baxmayaraq, onlar da əbədi deyil. ***Qızıl standartı*** valyutaların qızıl paritetləri (yəni qızılın müxtəlif valyutalarla ifadə olunan dəyəri) əsasında mübadilə nisbətlərini müəyyən edirdi. ***Bretton- Vuds sistemi*** 1944-1971-ci illərdə mövcud olan, qızılın təsbit edilmiş dollar qiymətinə və təsbit olunmuş valyuta paritetlərinə əsaslanan valyuta rejimi idi. ***Yamayka sistemi*** 1976-cı ildən qüvvədə olan multi-valyuta standartıdır. Bu standart valyutaların rəsmi bərabərliyinə və hər bir ölkə tərəfindən mübadilə- məzənnə rejiminin müstəqil seçiminə əsaslanır.

Beləliklə, iqtisadi tarixin müəyyən mərhələsində vahid olan valyuta yaxud pul sistemi iki hissəyə parçalandı:

1)milli «valyuta altsistemləri» - vahid dünya təsərrüfatının fəaliyyət göstənnəsini təmin edən valyuta sistemi;

2)milli təsərrüfatların və əhalinin müvafiq tələbatlarını ödəyən dövlət pul sistemi.

Burada belə bir cəhət qeyd edilməlidir ki, beynəlmiləlləşmə indeksi yüksək olan açıq iqtisadiyyatda valyuta sistemi inkişaf etmiş xarakterdədir; bu sistem ölkənin getdikcə genişlənən xarici iqtisadi və başqa əlaqələrini bilavasitə təmin edir. Bu cür ölkələrin milli pul vahidi dünya ehtiyat valyutası statusuna malikdir; ölkənin pul sistemi isə onun valyuta sisteminə möhkəm nüfuz etmişdir və onunla ziddiyyətə girmir.

Qapalı, avtargiya tipli milli təsərrüfatlarda valyuta sistemləri inkişaf etmiş təsisat kimi, ümumiyyətlə, yoxdur: milli iqtisadiyyatla dünya iqtisadiyyatı arasında institusional formada fəaliyyət göstərən daxili valyuta sistemi şəklində birləşdirici həlqənin olmaması səbəbindən, xarici iqtisadi əməliyyatlar hətta müəyyən dərəcədə mütəmadi və intensiv aparıldıqda belə, birdəfəlik əqdlər prinsipi üzrə həyata keçirilir. Buna müvafiq olaraq, milli pul sistemi də qapalı xarakter daşıyır.

*Dünya maliyyə sistemi (geniş mənada)* - milli mali}^ə sistemlərinin tarixən təşəkkül tapmış həlqələrinin, habelə ssuda kapitalının beynəlxalq hərəkətində və maliyyə resurslarının digər yerdəyişmələrində iştirak edən, onların beynəlxalq səviyyədə razılaşdırılmış hüquq normaları və qaydaları (müqavilələr, sazişlər və s.) əsasında tənzimlənməsini həyata keçirən millətlərüstü (dövlətlərarası) təşkilatların və idarələrin məcmusudur.

***Maliyyə sistemlərinin tipləri.*** Dünyada maliyyə sisteminin 3 tipi mövcuddur və fəaliyyət göstərir:

1)*milli valyuta yaxud pul sistemləri* - müəyyən dövlətin ərazisində müvafiq milli qanunvericiliyin əsasında fəaliyyət göstərən valyuta münasibətlərinin təşkili formasıdır. Bu sistem ümumdünya valyuta sistemi ilə sıx bağlıdır və beynəlxalq müqavilələr, sazişlər nəzərə alınmaqla onun tərkib hissəsidir, onunla müvafiq maliyyə, ticari və başqa mexanizmlər vasitəsilə qarşılıqlı əlaqədədir;

2)*regional valyuta sistemləri* - müəyyən qrupa daxil olan ölkələrin ərazisində müvafiq beynəlxalq (dövlətlərarası) müqavilələr və sazişlər əsasında həmin ölkələrin valyuta (pul) münasibətlərinin təşkili formasıdır. Onun bəzi elementləri Latın Amerikası, Afrika və Asiyada mövcud olsa da, hazırda yalnız

Avropanın valyuta sistemi tamdəyərli regional sistem kimi qiymətləndirilə bilər.

3) *ümumdünya valyuta sistemi* - milli və regional valyuta (pul) sistemlərinin, tənzimləyiei beynəlxalq aktların və qaydaların, habelə dünyada maliyyə-iqtisadi proseslərin dinamikasına təsir göstərən beynəlxalq maliyyə təşkilatlarının məcmusudur.

***Valyuta bazan (foreign exchange market)*** - valyutaların ölkələr arasında hərəkətinə imkan yaradan beynəlxalq bazardır. Əməliyyatlar xarici valyutaları alıb-satmaqla, onların məzənnələri və faiz dərəcələri arasındakı fərq hesabına mənfəət əldə edən malİ3^ə qurumları arasında telefon və müasir rabitənin başqa növlərindən istifadə olunmaqla aparılır. Dünyanın bütün maliyyə mərkəzləri ticarətə öz iş vaxtlarında yaxud müvafiq fond birjaları və banklar açıq olduqda başlayır.

*Beynəlxalq pullar* - beynəlxalq maliyyə-iqtisadi və ticari əməliyyatlara xidmət göstərən valyutalardır. Beynəlxalq pulların funksiyaları: tədiyyə vasitəsi, ehtiyatlar, hesab vahidləri.

Beynəlxalq pulların *tipləri* dünya ehtiyat valyutaları, süni valyuta vahidləri və qismən də ölkələrin dönərli valyutaları ilə təmsil olunur. İnkişaf etmiş ölkələrin sərbəst dönərli pul vahidləri *ehtiyat* valyutalarına aid edilir və dünya valyuta ehtiyatlarının əsas hissəsi onlardan ibarətdir.

BVF-in *süni yaxud «səbət» valyuta vahidinə* XBH, habelə avroya keçənədək, Avropa Valyuta İttifaqının valyuta vahidi - EKYU (European Currency Unit) daxildir.

***Valyuta bazarının təbiəti.*** Valyuta bazarının əsas əmtəəsi xarici valyuta ilə ifadə olunmuş istənilən maliyyə tələbidir. Rəsmən, bura başqa ölkələrin borcalanları tərəfindən buraxılmış xarici valyutada qiymətli kağızlar, xarici valyuta, məsələn, funt-sterlinqlə ödənilməli olan köçürmə veksellləri (tratta) və s. daxildir. Bazar mexanizmi nöqteyi-nəzərindən valyuta mübadiləsi bir ölkənin valyutasının digərinin valyutasına dəyişdirilməsidir.

Valyuta bazarının əsas iştirakçıları banklar və diler-banklar, ixracatçılar, idxalçılar, transmilli şirkətlər, maliyyə idarələri, investorlar və dövlət agentlikləridir. Onların hamısının müxtəlif, o cümlədən valyuta bazarında açıq mövqelərin hecinqinə zərurəti, pul vəsaitlərini dünyanın müxtəlif bölgələrinə investisiya kimi yatınuağa və alıcılıq qabiliyyətini bir ölkədən digərinə ötürməyə ehtiyacı vardır.

Xarici valyuta ilə əməliyyatlar aparan ən iri banklar aparıcı maliyyə mərkəzlərinin (London, Nyu-York, Tokio, Frankfurt, Sinqapur, Honkonq) ticarət bölmələrində fəaliyyət göstərir. Bu bankların əsas mərkəzlərdə, ilk növbədə London və Nyu-Yorkda valyuta bazarının müxtəlif sektorlarında işləyən 30-40 brokeri vardır. Ən iri bankların bu cür 50 və daha çox sektoru var və onlar müvafiq sayda valyuta ilə əməliyyat aparır.

İş gününün əvvəlində yerli maliyyə mərkəzləri fəaliyyətə başlamazdan öncə, brokerlər müasir rabitə vasitələri ilə özlərinin dünya üzrə səpələnmiş tərəfdaşları ilə əlaqə saxlayır. Onlar infomıasiya mübadiləsi aparır, işləməyə başlamış ticarət mərkəzlərində baş verən hadisələr, inkişaf meyilləri barədə bir-birinə hesabat verirlər. Bazar vəziyyətinin düzgün qiymətləndirilməsi üçün onlar bu informasiyanı texniki təhlillər, iqtisadi və siyasi şərait haqqında məlumatlarla dolğunlaşdırır. Bu təhlil brokerlərə növbəti bazar fəaliyyətinə daha yaxşı hazırlaşmaq imkanı verir.

Valyuta bazarı alıcılar və satıcıların bir-birinə qarşılıqlı təsir göstərdiyi və birbaşa təmasda olduğu Nyu-York Fond Birjası (NYSE - New York Stock Exchange) kimi ticarət mərkəzinin üstünlüklərinə malik deyil. Bu mənada valyuta bazarı fond birjasından daha çox, birjadankənar qiymətli kağızlar bazarına bənzəyir. Elektron kommunikasiyalar, telefon xətləri və kompüter dəstəklənməsi vasitələri brokerlər arasında əlaqə yaradır. Yüksəksürətli informasiya sistemləri marketmeyker olan banklann dilinq otaqlarında brokerlərin işinin təmin edilməsi üçün həyati əhəmiyyətə malikdir. Bazar qiymətləri xarici şəraitə qarşı çox həssasdır və sürətlə dəyişə bilir. Buna görə də banklar ticarət aparmaq üçün öz bazar tərəfdaşları ilə təcili əlaqə yaratmaq imkanına malik olmalıdır. Bu ehtiyac bazarda fəaliyyət göstərən, xarici valyutada aktivləri olan bankların qarşılaşdığı risklə izah edilir'. Onların fondlarının dəyəri kəskin dəyişə bilər və buna görə də diler-banklar bazar qiymətlərinin onlara ziyan vura bilən həddə çatanadək, əməliyyatlarını aparmaq imkanına malik olmalıdır.

***Valyuta bazarının dünya sistemi.*** Valyuta bazarı dünya sisteminə müəyyən dərəcədə qoşulmuş çoxsaylı milli valyuta bazarlarından ibarətdir. Bu sistem banka istənilən valyuta mərkəzində əməliyyatları aşağıdakı əsaslarda apannaq imkanı verir:

• birinci səviyyə - *pərakəndə ticarət.* Bir milli bazarda aparılan, diler-

^ *Вах: Энг. М.В., Лис Ф.А., Майрер Л.Дж.* Мировые финансы. С. 82-83.

bankın alqı-satqı zamanı müştəri ilə birbaşa təmasda olduğu əməliyyatlar;

• ikinci səviyyə - *topdansatış banklararası ticarət.* Bir daxili bazarda iki diler-bankm valyuta brokerinin vasitəçiliyi ilə qarşılıqlı münasibətlərə girib, əməliyyatlar apannasıdır. Mahiyyətcə, bu, banklararası bazardır;

• üçüncü səviyyə - *beynəlxalq ticarət.* Müxtəlif ticarət mərkəzlərinin diler-banklarmın bir-biri ilə qarşılıqlı əlaqə yaradaraq, iki və daha çox milli bazarda əməliyyat aparılmasıdır. Bu cür əməliyyatlara iki və daha çox bazarda arbitraj əməliyyatları da daxil oluna bilər.

Nəzərdən keçirdiyimiz dünya sistemində vahid qiymət qanununun üstünlük təşkil etməsinə doğru meyil mövcuddur. Buna görə də Nyu-Yorkda dollarla avro, funt-sterlinq, dollarla iyena arasındakı mübadilə nisbəti London, Brüssel, Paris və Tokiodakı kimi olacaq. Bu təzahür *arbitraj* prosesindən irəli gəlir. Bu valyutaların qiymət nisbətlərində hər hansı fərq əmələ gələrsə, diler-banklar və bazarın başqa iştirakçıları dəyəri aşağı düşən valyutanı alacaq yaxud satacaq və dəyəri başqa bazar mərkəzləri ilə müqayisədə yüksələn valyutanı satmağa başlayacaq.

***Dünya maliyyə sisteminin quruluşu.*** Dünya maliyyə sisteminə aşağıdakı təsisatlar, alətlər və mexanizmlər daxildir:

- milli sistemin xarici maliyyə (valyuta) sektoru;
- ehtiyat valyutaları, beynəlxalq hesab vahidləri;
- valyutaların qarşılıqlı dönərliyinin şərtləri, valyuta prioritetləri rejimləri və valyuta məzənnələri rejimlərinin reqlamenti;
- beynəlxalq valyuta likvidliyinin dövlətlərarası tənzimləmə mexanizmləri, valyuta məhdudiyyətlərinin beynəlxalq tənzimlənməsi və beynəlxalq hesablaşmaların əsas formaları;
- dünya valyuta və qızıl bazarlarının rejimləri;
- dövlətlərarası valyuta tənzimlənməsini həyata keçirən beynəlxalq təşkilatlar (BVF, BYİB-BHB, regional banklar: Avropa Mərkəzi Bankı və Dünya Bankı strukturuna daxil olan banklar).

## 18.2. Ssuda kapitalının hərəkəti: ümumdünya kapitallar bazarının institusional subyektləri

Dünya maliyyə sisteminin əsas vəzifəsi *ssuda kapitallarının* nəhəng axınlarının qaydah hərəkətini təmin etməkdir. Sistemin subyektləri də məhz bu

prosesə təsir göstərir. Beynəlxalq maliyyə-kredit münasibətləri ssuda kapitallarının beynəlxalq maliyyənin qlobal kanallarında hərəkətinin mühüm tərəfi olmaqla, mali}^ə və əmtəə resurslarının *qaytarılma, miiddətlilik, faiz ödənilməsi* şərtləri əsasında verilməsi ilə ifadə edilir. Əsas kreditorlar və borcalanlar bunlardır:

- dövlətlər;
- özəl banklar və firmalar (təkcə TMK-lar deyil);
- beynəlxalq və regional banklar, başqa təşkilat və idarələr.

Bu subyektlər dünya maliyyə bazarının əsas, strateji qurumlarını təmsil edir. Burada dövlət özünün mərkəzi və yerli maliyyə orqanları, xəzinədarlığı, emissiya, ixrac-idxal bankları və xarici əməliyyatlar aparmaq səlahiyyəti olan başqa idarələri ilə dünya maliyyə (kredit) bazarında xüsusi yer tutur. Onlann hamısı *bilavasitə kreditor, borcalan* və özəl hüquqi şəxslərin xarici öhdəlikləri üzrə *zəmanətçi* qismində çıxış edir.

Beynəlxalq iqtisadi münasibətlərin dövlət tərəfindən kreditləşdirilməsinə nümunə ikitərəfli və çoxtərəfli əsasda *subsidiyaların* və *yardımların* verilməsidir. *İxrac kreditlərinin* və *birbaşa kapital qoyuluşlarının sığortalanmasında* da dövlətin rolu əhəmiyyətlidir.

Dünya ssuda kapitalları bazarının institusional strukturunda dövlətlərarası və dövlətüstü banklar böyük rol oynayır. Bunlara, ilk növbədə, Bretton-Vuds idarələri: BVF və DB aiddir; bu idarələr sırasında *Beynəlxalq Hesablaşmalar Bankı* (Bazel, İsveçrə) da mühüm yer tutur.

Fəaliyyətində dünyanın, demək olar ki, bütün ölkələrinin iştirak etdiyi qlobal banklarla yanaşı, bir sıra regional və qitə hökumətlərarası banklar da rhövcuddur: Avropa İnvestisiya Bankı (EIB - The European Investment Bank) (1958) və Avropa Mərkəzi Bankı Aİ və inkişaf etməkdə olan aləmin onlara assosiasiya olunmuş ölkələrinə xidmət göstərir; Amerika Ölkələrarası İnkişaf Bankı (lADB - Inter-American Development Bank) (1959), Afrika İnkişaf Bankı (African Development Bank) (1964), Asiya İnkişaf Bankı (Asian Development Bank) (1963), Avropa Yenidənqurma və İnkişaf Bankı (1990) və başqalan. Avroya və bütövlükdə Aİ ölkələrinə xidmət göstərən AMB böyük rol oynayır.

TMK-lar, xüsusilə də onların maliyyə sektorları beynəlxalq kredit münasibətlərinin mühüm subyektləri qismində çıxış edir. Onların böyük məbləğdə korporasiyadaxili yığımları mövcuddur və özlərinin resurslara olan

tələbatının yarısından çoxunu özünümaliyyələşdirmə hesabına ödəyir. Buna baxmayaraq, TMK-lar genişlənən istehsallarına və məhsul satışlarına xidmət göstərilməsi üçün daim vəsaitə möhtacdır. Onların maliyyə əməliyyatları beynəlmiləlləşmişdir və çox hallarda qlobal xarakterdədir. TMK-lar dünya bazarının strukturuna daxil olan bütün bazar tiplərindən; milli, xarici, beynəlxalq və əhəmiyyətli dərəcədə avrobazardan istifadə edirlər. Milli nəzarətlə məhdudlaşdırılmayan kreditləşmə mənbəyi olduğuna, güclü xarici kreditorlarla bağlı olan borcalanalara kredit almaqda üstün şərait yaratdığına görə, avrobazarm payı daim artır. Özünün böyük həcmli aktivlərinə nəzarət etməklə, TMK-lar onlara məxsus olan pul və maliyyə resurslarını daha sərfəli yerləşdinnək üçün kredit bazarlarından, əsasən də milli olmayan kredit bazarlarından istifadə edir. Belə halda onlar valyuta məzənnələrinin və pul bazarlarının faiz dərəcələrinin dəyişməsi ilə üzləşir. Müxtəlif itkilərin (valyuta məzənnəsinin aşağı düşməsi) qarşısını almaq üçün onlar çox fərqli valyuta əməliyyatları aparır və bunun hesabına dünyada məcmu valyuta dövriyyəsi malların və xidmətlərin dövriyyəsindən dəfələrlə böyük sürətlə artır.

## 18.3. Beynəlxalq kredit: təsnifatı

Müasir maliyyə üçün səciyyəvi olan təzahür ***beynəlxalq kreditin*** hərəkət sürətinin və kütləsinin təkcə xarici iqtisadi dövriyyənin deyil, həmçinin, sənaye istehsalının artım templərini ötüb keçməklə, təsərrüfat və maliyyə əlaqələrinin bir-birinə qarşılıqlı nüfuz etməsini stimullaşdırmasıdır. Müxtəlif ölkələrin təsərrüfat əlaqələrinin çarpazlaşması, beynəlmiləlləşmə, istehsal və kapitalın transmilliləşməsi prosesləri ümumdünya maliyyə-kredit münasibətlərinin genişlənməsinə, onların intensivləşməsinə imkan yaradır. Bununla yanaşı, kapitalların bir ölkədən başqasına sərbəst axını ölkələrin, xüsusilə də disproporsiya və qeyri-sabitlik yaradan çətinliklərlə qarşılaşanların iqtisadiyyatına ciddi təsir göstərir.

***Beynəlxalq kreditlərin növləri və formaları.*** Beynəlxalq kreditlər, ilk növbədə, müddətinə görə fərqləndirilir:

- qısamüddətli - 1 ilədək;
- ortamüddətli - 1 ildən 5 ilədək;
- uzunmüddətli - 5 ildən çox.

Tərəflərin danışıqlar zamanı ortamüddətli kreditlər üçün 7 il,

uzunmüddətli kreditlər üçün 10 ildən çox vaxtı nəzərdə tutduğu hallar da mövcuddur, amma biz ümumi qaydalardan danışırıq.

Təminat xarakterinə görə kreditlərin bu növləri var:

• təmin olunmuş (təminat qismində qiymətli kağızlar, veksellər, daşınmaz əmlak və əmtəə sənədlərindən istifadə edilir);

• blank (blank krediti müstəsna qaydada borcalanm solo-veksel formasında öhdəliyi əsasında verilir).

Kreditlər iki növə bölünür:

- kommersiya (xarici ticarət əməliyyatları ilə bağlı olan);
- maliyyə (başqa məqsədlər üçün istifadə olunan).

Kreditlər ***kreditbşdirmə subyektindən*** asılı olaraq fərqləndirilir:

- özəl (firmalar, banklar, vasitəçi brokerlər tərəfindən verilir);
- hökumət;
- qarışıq;
- beynəlxalq və regional valyuta-maliyyə idarələrinin kreditləri.

Ümumdünya kapitallar bazarının inkişafı ssuda kapitalının hərəkətində uzunmüddətli meyillərlə, bu hərəkəti milli səvij^ədə tənzimləyən hüquqi normaların ümumi liberallaşdırılması, qiymətli kağızlardan istifadə çərçivəsinin genişlənməsi, dünya iqtisadiyyatında inteqrasiya prosesləri ilə əlaqəlidir. Mahiyyətcə, ümumdünya kapitallar bazarı ssuda kapitallarının dünya təsərrüfatında hərəkətini təmin edən müxtəlif institusional formaların (şirkətlər, banklar, valjmta-maliyyə idarələri və s.) məcmusudur. Bu bazar, dünya təsərrüfatının sabitliyini təmin etmək və təbii ki, müvafiq əməliyyatların aparılmasından gəlir əldə etmək məqsədlə kapitalı cəmləşdirməyə və bunu müxtəlif ölkələrin təsərrüfat sahələri və sektorları, regionları (qitələr) üzrə yenidən bölüşdürməyə imkan verən milli və millətüstü bazar münasibətləri sistemini yaradır.

***Ssuda kapitalları bazan.*** Geri qaytarılma və faiz ödəmə şərti ilə verilən pul kapitalı olan ssuda kapitalı mühüm rola malikdir. Bu kapital ölkədən- ölkəyə, bir funksional fonnadan başqasına, istehsalın aşağı rentabelli sahələrindən və sektorlarından daha çox mənfəət verənlərinə keçmək imkanına malikdir. Bununla da, kredit istehsal proseslərinin fasiləsizliyini, kapitalların yenidən bölgüsünü və bununla bərabər, mənfəət normalarının bərabərləşməsini təmin edir.

Ssuda kapitalının beynəlxalq yenidənbölgü funksiyasını yerinə yetirməsi

və yerdəyişməsi, xarici bankları və şirkətləri cəlb etmək məqsədilə qeyri-rezidentlərin maliyyə fəaliyyətinin tənzimlənməsində güzəştli rejim yaradan ölkələr üçün səciyyəvidir. Ssuda kapitalının müasir bazan funksional baxımdan qısamüddətli kapitallar bazarına (pul bazarı) və ortamüddətli və uzunmüddətli kapitallar bazarına (kapitallar bazarı) bölünür.

Maliyyə bazarı başqalarından bununla fərqlənir ki, orada pul resursları tipi və qüvvədə olma müddəti fərqlənən qiymətli kağızların buraxılışı vasitəsilə cəlb edilir. Ümumdünya kapitallar bazarında iki növ əməliyyat aparılır: kommersiya (xarici ticarət) və maliyyə (kapitalın ölkədən çıxarılması).

***Əməliyyatların müddətinə görə*** aşağıdakı bazarlar fərqləndirilir:

- Beynəlxalq pul bazarı (qısamüddətli banklararası əməliyyatlar);
- Beynəlxalq kapitallar bazarı (ortamüddətli və uzunmüddətli əməliyyatlar). Bunun özü də iki hissədən ibarətdir:

■ ssuda kapitallarının milli bazarı;

■ avro valyuta və avroistiqrazlar bazarı.

***Avrobazar.*** Beynəlxalq ssuda kapitalları bazarının fəaliyyətinin əsasını avrobazar təşkil edir və depozit-ssuda əməliyyatları ölkə ərazisindən kənarda yerləşən maliyyə mərkəzlərində avrovalyuta ilə aparılır. ***Avrovalyuta*** - mənşə ölkə-sindən kənarda yerləşmiş kredit idarələrində saxlanılan və buna görə də onun valyuta orqanlarının nəzarət səlahiyyətinə aid olmayan istənilən pul vahididir. Saxlanılan və istifadə olunan əsas pul vahidləri dollar, funt sterlinq və iyenadır (marka, frank və başqa valyutalar avro ilə əvəz edilmişdir). Avrobazarm % hissəsindən çoxu dolların payına düşdüyü üçün onu çox vaxt avrodollar adlandırırlar. Burada xarici hesablardakı valyutaların mütləq Avropa banklarında yerləşdirilməsi məcburi deyil; onlar, adətən, ölkədən kənardakı dünya maliyyə mərkəzlərində yerləşdirilir.

Qeyd etdiyimiz kimi, avrovalyuta bazarında depozit-ssuda əməliyyatları 1950-ci illərdən, milli valyutaların dönərliyinin əldə olunması və dolların ekspansiyası şəraitində Qərbi Avropada intensiv surətdə yayılmağa başlayan xarici valyutada aparılır. Avrovalyuta bazarının əhəmiyyəti getdikcə artırdı və 1990-cı illərin ortasına yaxın onun dövriyyəsi 2 trilyon dollardan artıq olmuşdur. Avrodollar bazarının həcmi də təqribən bu qədərdir, lakin onun üzərində nəzarətin çətin olması, bu amilin Aİ ölkələrinin iqtisadi sabitliyinə mənfi təsir göstərəcəyindən ehtiyatlanmağa əsas verir. Bu bazarlar universal olan nəhəng avrobazarı təşkil edir və onun həcmi XXI əsrin əvvəlindən sürətlə genişlənir.

Aİ, Yaponiya, Avstraliya, Kanada və bir sıra başqa ölkələrdə istiqraz borcları formasında çıxış edən, uzunmüddətli kreditin səciyyəvi forması olan *avroistiqrazlar* böyük əhəmiyyətə malikdir. Bu, Qərbi Avropa mərkəzinin möhkəmlənməsini, dünya kapitalizm sistemində onun maliyyə-iqtisadi mövqelərinin kifayət qədər sabitliyini sübut edir.

Buna görə də Qərbi Avropada: London, Sürix, Paris, Lüksemburq, Frankfurt-Mayn, Milan və Madriddə dünyanın nüfuzlu mali}0'ə mərkəzlərinin fəaliyyət göstənnəsi təsadüfi deyil. Uzaq Şərqdə analoji mərkəzlər - Tokio, Sinqapur, Honkonq və Şanxayda, Yaxın Şərqdə - Bəhreyn və Qahirədə, Afrikada - Yohannesburqda fomıalaşmışdır. Təbii ki, maliyyə kapitalının cəmləşməsi, bir tərəfdən, dünya maliyyə sisteminin müxtəlif həlqələrində onun ümumi vəzifələrindən hansının milli yaxud beynəlxalq və regional maliyyə qruplarının maraqları ilə təzad təşkil etməsindən asılı olaraq ziddiyyətləri kəskinləşdirir, digər tərəfdən isə, bu cür beynəlxalq mərkəzlərin sayının məhdud olduğu şəraitdə qaçılmaz olan inhisarlaşma effektini müəyyən qədər aradan qaldırır. Əslində isə, burada «əmək bölgüsü» və ayrı-ayrı qrupların regional-qitə dominantlığı elementi mövcuddur.

Avrobazar ümumdünya bazarının, o cümlədən faiz dərəcələri mexanizminin nisbətən müstəqil altsistemi kimi fəaliyyət göstərir və bu, kapitalların milli bazarları ilə müqayisədə daha çox müştəri cəlb etmək imkanı yaradır (depozitlər və kreditlər üzrə münasib faizlər təklif etməklə). ***ABŞ-ın ssuda kapitalları bazarının*** avrovalyuta bazarı ilə əlaqələri daha sıxdır. Bu bazar dünya kredit bazarının strukturunda ən iridir. Bu, həm illik borcların məbləğinə, həm də əvvəlki kreditlər üzrə ödənilməmiş borcların ümumi məbləğinə aiddir. Ölkədə valyuta sistemi üzərində liberal nəzarət sistemi qeyri- rezidentlərin borcalma və investisiya fəaliyyətini dəstəkləyir. Kiçik istisnalarla kreditlərin və kapital qoyuluşlarının istənilən növləri onlar üçün əlçatandır.

Çoxdan fəaliyyət göstərən milli və xarici kapitallar bazarlarmdakı vəziyyət inkişaf etməkdə olan ölkələrin analoji (funksiyaları və vəzifələri baxımından) bazarlarının yaxın vaxtlarda meydana çıxmasından sonra xeyli mürəkkəbləşmişdir. Həmin bazarlar dinamik amilə çevrilərək, dünya maliyyə bazarlarının təşəkkül tapmış sxemlərinə ciddi təsir göstərir. İqtisadiyyatı transfonnasiya mərhələsində olan, dayanıqlı «keçid» böhranına düçar olmuş ölkələrdə yenicə yaranan mali]/yə bazarlarının rolu isə zəifdir.

ABŞ-m ssuda kapitalları bazarından sonra öz həcminə görə ikinci yeri

kreditlərin və istiqrazların avrobazarı tutur. Həcmi və coğrafi məkan baxımından nəhəng olan bu millətüstü bazar maliyyə-kredit sahəsində ssuda kapitalının bir maliyyə mərkəzindən digərinə ötürülməsinin səciyyəvi mexanizmidir və maliyyə beynəlmiləlləşməsi və qloballaşması proseslərinə şərait yaradır.

## 18.4. Maliyyə sistemlərinin tipləri

Əvvəlcə maliyyə ilə bağlı olan bəzi məfhumları, habelə onların təsnifatını aydınlaşdırmaq lazımdır.

***Beynəlxalq ödənişlər sistemi*** - beynəlxalq maliyyə əməliyyatlarının, yəni müxtəlif ölkələrin rezidentləri arasında fərqli milli valyutalarla ödənişlərin aparılması alətlərinin və metodlarının vahidliyini əks edən ümumi tennindir. Termin valyuta məzənnələrinin, valyuta nəzarətinin müxtəlif sistemlərini, habelə beynəlxalq likvidliklə bağlı problemləri əhatə edir.

***Pıd və valyuta sistemləri*** - dövlətin pul nişanlarının bilavasitə dövriyyədə olduğu milli pul sistemidir. Ölkənin ümumi maliyyə sisteminin bir hissəsidir. Təkcə məntiqi və mahiyyət bənzərliyi deyil, həmçinin məzmun cəhəti nəzərə alındıqda, əksər hallarda «pul sistemi» və «valyuta sistemi» anlayışları eynidir. Başqa hallarda isə «pul sistemi» ilə «pul bazarı» eyni anlayışdır.

Valyuta sistemləri bütün ölkələrdə təsisat və maliyyə sisteminin ümumdünya valyuta sistemi ilə əlaqəsi olan, dönərli valyutalar ilə əməliyyatlar aparan müvafiq həlqəsi kimi fəaliyyət göstənnir. Onların fəaliyyəti təkcə ölkənin iqtisadi inkişaf səviyyəsi ilə deyil, dövlət hakimiyyətinin təşkili, rəsmi qurumların təkmilliyi, idarəçilik mexanizmlərinin təşkilati quruluşu, dövlət və ictimai nəzarətin vəziyyətindən və s. asılı olduğuna görə, çox vaxt bu sistemin yalnız fraqmentləri, ayrı-ayrı həlqələri işləyir.

«Valyuta sistemi» və «pul sistemi» anlayışları yalnız milli pul vahidi dünyada əsas yaxud ehtiyat valyuta vahidi qismində (tam dönərli) tanındığı hallarda üst-üstə düşür. Aydındır ki, praktiki baxımdan «pul» və «valyuta» anlayışlarını sinonim kimi işlətmək o qədər də düzgün deyil. Amma müasir dövrdə «valyuta» sözü «pul» sözünün ilkin mənasında işlənildiyinə, «pul» anlayışının isə məhdudiyyətsiz dövriyyədə olan universal pul vahidi əhəmiyyətini getdikcə itirib, indi yalnız daxili dövriyyə üçün istifadə olunduğunu nəzərə alsaq, bu məfhumları daim fərqləndirmək çox mürəkkəbdir. Bu proses bəzi milli valyutaların (dollar) universal əhəmiyyətinin artması, bir

çoxunun yarandığı andan beynəlxalq pul kimi fonnalaşması (avro) nəticəsində daha da güclənir; rus rublu heç bir məhdudiyyət qoyulmadan Rusiya ərazisində tam dönərlidir.

Sistem daxilində onun 3 növü fərqləndirilir: *qızıl-sikkə, qızıl-külçə və qızıl-deviz standartları* (bax: 18.6-cı paraqraf).

Milli sistem milli valyutaya (ölkənin pul vahidi), dünya maliyyə sistemi isə bir və daha çox ehtiyat valyutasına yaxud beynəlxalq hesablaşma pul vahidinə əsaslanır. Milli valyutalardan başqa, beynəlxalq hesablaşmalarda beynəlxalq valyuta vahidi olan XBH-dən (Yamayka valyuta sistemində) və EKYU-dan (Avropa valyuta sistemində) istifadə edilir.

Beləliklə, *valyuta:*

1) *dövlətin pul sisteminin* əsasında duran *pul vahididir* (məsələn, rus rublu, ABŞ dolları);

2) dövlətin *pul sisteminin* tipidir (qızıl valyuta, kağız valyuta);

3) *beynəlxalq hesablaşmalarda* istifadə olunan *xarici ölkələrin* pul nişanları (əsginazlar, xəzinə biletləri, sikkələr), kredit və ödəmə sənədləridir (veksellər, çeklər və s.) (xarici valyuta).

*Beynəlxalq ehtiyat (əsas) valyuta* - aparıcı kapitalist ölkəsinin beynəlxalq tədiyyə və ehtiyat vasitəsi funksiyalarını yerinə yetirən, başqa ölkələr tərəfindən valyuta paritetinin və valjoıta məzənnəsinin müəyyənləşdirilməsinin bazası kimi istifadə edilən dönərli valyutasının xüsusi kateqoriyasıdır.

*Beynəlxalq hesablaşma pul sistemi* - valyutaların dönərliliyi əsasında müə3^ənləşdirilən xüsusi valyuta kateqoriyasıdır.

Dönərlilik, müəyyən tip valyutanın hökumətin birdəfəlik qərarı ilə yaradıla bilməyən, ölkənin milli iqtisadiyyatının təşəkkülünün gücünü, onun milli valyutasından xaricdə geniş istifadə olunmasını ifadə edən xüsusiyyətidir. Valyutanın dönərlilik dərəcəsi iqtisadiyyatın vəziyyəti və tipi ilə müəyyənləşdirilir. Daha geniş mənada milli valyutanın dönərliliyi daxili bazarın dünya bazarı ilə birbaşa əlaqə mexanizmini ifadə edir, bu isə, ticarətin həqiqətən də çoxtərəfli (ikitərəfli klirinqlərdən fərqli olaraq) xarakterdə olmasını, iqtisadiyyatın xarici rəqabət üçün kifayət dərəcədə açıqlığını nəzərdə tutur. Əvvəl dönərlilik milli valyutanın qızıla dəyişdirilməsinin azadlığını ifadə edirdisə, indi onun əsas əlaməti valyuta məhdudiyyətlərinin hansı səviyyədə olmasıdır.

Burada *möhkəm* və *dönərli* valjmta anlayışları fərqləndirilməlidir.

yüksələndir. Bu valyuta, demək olar ki, həmişə dönərlidir. Dönərlilik to/r? və ***qismən, daxili*** və ***xarici*** olur.

***Tam dönərlilik*** cari və maliyyə əməliyyatları üzrə valyuta məhdudiyyətlərinin olmadığını nəzərdə tutur. Bu, ABŞ, Kanada, Aİ ölkələrinin pul vahidlərinin aid edildiyi, sərbəst dönərli valyutaları (SDV) üçün səciyyəvidir. Bəzi SDV-dən beynəlxalq hesablaşmalarda valyuta ehtiyatlarının yaradılması üçün geniş istifadə olunur. Bunlar ehtiyat yaxud əsas vaİ3oıta adlandırılır.

***Qismən dönərlilik*** müəyyən valyuta məhdudiyyətlərinin saxlanıldığını nəzərdə tutur.

***Daxili dönərlilik*** rezidentlər üçün məhdudiyyətlərin olmadığını bildirir.

***Xarici dönərlilik*** qeyri-rezidentlər üçün məhdudİ3q/ətlərin olmadığını bildirir.

***Valyuta pariteti*** - valyuta sisteminin elementi olmaqla, iki valyuta arasında qanunvericilik qaydasında müəyyən edilən nisbətdir. Bir sıra ölkələrin valyutası apa-rıcı valyutalardan birinə yaxud valyuta səbətinə bağlanmışdır. Valyuta pariteti valyu-ta sisteminin digər mühüm elementi olan valyuta məzənnəsinin əsasını təşkil edir.

***Beynəlxalq valyuta likvidliyi*** də valyuta sisteminin elementidir. Valyuta sisteminin digər elementi ***beynəlxalq kredit dövriyyəsi vasitələridir.*** Beynəlxalq hesablaşmalar təcrübəsi kimi, onlardan istifadə qaydaları da eyniləşdirilmiş beynəlxalq normalarla reqlamentləşdirilir. Cenevrə Konvensiyası (veksel və çek) - sənədli akkreditivlər üçün eyniləşdirilmiş qaydalar və adətlər bunlara aiddir.

***Valyuta məzənnəsi*** ölkənin ***pul vahidinin*** başqa ölkənin ***pul vahidində*** (və ya onun onqat kəmiyyətində) ifadə olunmuş qiymətidir. Çoxsaylı valyuta məzənnələrini müxtəlif əlamətlər üzrə təsnifləşdirmək olar. Məsələn, valyuta məzənnələri mübadilə obyekti olan ödəmə sənədlərinin növlərinə - teleqraf köçürməsinin məzənnəsinə, çeklərin məzənnəsinə, əsginazlarm məzənnəsinə görə fərqləndirilir.

***Valyuta məzənnələri sistemi*** barədə 18.9-cu paraqrafda danışılacaq.

***Beynəlxalq valyuta likvidliyi*** - ayrıca götürülən ölkənin yaxud ölkələr qrupunun öz öhdəliklərini məqbul hesab olunan tədiyyə vasitələri ilə fasiləsiz olaraq ödəmək qabiliyyəti və imkanıdır. Likvidliyin kəmiyyət və keyfiyyət cəhətləri fərqləndirilir. Kəmij^ət cəhəti tələb və öhdəliklərin tənzimlənməsi

üçün istifadə olunan likvid ehtiyatların miqyasını xarakterizə edir. Keyfiyyət cəhəti onların dünya pulu funksiyasını yerinə yetirmək üçün yararhhq dərəcəsini göstərir.

## 18.5. Beynəlxalq maliyyə qurumları: valyuta-kredit və maliyyə təşkilatları

Beynəlxalq maliyyə qurumları dünya maliyyə sistemində, demək olar ki, əsas rol oynayır, bir növ onun karkasını təşkil edir. Bu təşkilatları bir ümumi məqsəd - əməkdaşlığın inkişaf etdirilməsi və ümumdünya maliyyə sisteminin, dünya təsərrüfatının bütövlüyünü, dayanıqlı fəaliyyət göstənnəsinin təmin olunması birləşdirir (qlobal böhran onların bu vəzifənin öhdəsindən gələ bilmədiyini göstərdi). Bunlara aşağıdakı valyuta-kredit təşkilatları aiddir:

- Beynəlxalq Hesablaşmalar Bankı (BHB);
- Beynəlxalq Valyuta Fondu (BVF);
- Dünya Bankı (DB);
- Beynəlxalq İnkişaf Assosiasiyası (BİA);
- İnvestisiyalara Zəmanət üzrə Çoxtərəfli Agentlik;
- Regional inkişaf bankları;
- Aİ-nin valyuta-kredit və maliyyə təşkilatları (o cümlədən AMB).

## 18.6. Ümumdünya valyuta sisteminin təkamülü

***Qızıl standartı sistemi: Paris valyuta sistemi (1816-1914-cii illər)***

***Qızıl standartı*** - pul tədavülünün təşkilinin belə sistemidir ki, burada ölkənin pul vahidinin dəyəri rəsmi qaydada qızılın müəyyən miqdarına bərabərləşdirilir, pullar isə rəsmi müəyyənləşdirilmiş məzənnə üzrə tələbdən asılı olaraq qızıla dəyişdirilən qızıl sikkələr və (və ya) əsginazlar şəklindədir. Tam qızıl standartının mövcudluğu üçün 2 əsas şərtin yerinə yetirilməsi vacibdir:

1) rəhbər pul-kredit idarələrinin milli valyutanı müəyyən dərəcə üzrə istənilən miqdarda qızıla dəyişdinnək (bu məqsəd üçün alınan qızıl külçəsindən qeyri-məhdud sayda qızıl sikkə kəsmək) öhdəliyi;

2) ayrı-ayrı şəxslərin qızılı ixrac yaxud idxal etmək hüququnun olması.

Adətən, pul- kredit idarələri sikkə kəsilməsi xərclərini ödəmək üçün qızılın satışı və alınması arasında müəyyən fərq müəyyənləşdirir. Tarixən qızıl standartının 3 forması olmuşdur:

• qızıl sikkələrin fəal sərbəst tədavülə buraxıldığı, dövlətin isə onları satmağa borclu olduğu ***qızıl-sikkə standartı:,***

• qızıl sikkələrin fəal tədavüldə olmadığı, onların sərbəst qaydada kəsilmədiyi, pul-kredit idarələrinin vəzifəsinin isə qızıl külçə satmaqdan ibarət olduğu ***qızıl külçə standartı;***

• pul-kredit idarələrinin yerli pulu qızıl standartı mövcud olan xarici valyutaya dəyişdirdiyi ***qızıl-valyuta standartı.***

Qızıl standartı sistemi Napoleon müharibələri başa çatdıqdan sonra 1816-1819-cu illərdə Parisdə keçirilən danışıqlarda əldə edilən razılaşmalar nəticəsində beynəlxalq müqavilələrdə təsbit edilmiş və 98 il ərzində mövcud olmuşdur. Bu sistem 1821-ci ildə Parisdə keçirilmiş konfransda rəsmən tanınmışdır. Müəyyənləşdirilmiş qayda 1867-ci ildə razılaşdırılmış Paris valyuta sistemində yekun şəkildə təsbit edilmiş və Birinci Dünya müharibəsi (1914) başlananadək qüvvədə olmuşdur. Sistem qızıl standartının klassik formasına, yəni qızıldan və qızıl sikkələrdən ənənəvi qaydada pul əmtəəsi qismində istifadə ilə əlaqədar olan qızıl-sikkə standartına istinad edirdi. Onun əsasında pulun başlıca forması kimi qanunvericilik qaydasında təsbit edilən qızıl dururdu. Milli valyutaların məzənnələri təsbit olunmuş qaydada qızıla bağlanılır və valyutanın qızıl məzmunu vasitəsilə başqa valyutalarla müqayisə edilirdi; təsbit edilmiş məzənnədən kənarlaşmalar cüzi (± 1%) idi və qızılın xaricə daşınması əsasında müəyyənləşdirilən maksimum kənarlaşmalar - «qızıl nöqtələr» hüdudlarında olurdu. Qızıl-sikkə standartının səciyyəvi əlamətləri bunlardır:

• əmtəələrin qiymətinin qızılla hesablanması, qızıl sikkələrin tədavülə buraxılması və dövlət zərbxanaları tərəfindən sikkələrin məhdudiyyət qoyulmadan, hamı üçün kəsilməsi;

• kredit pullarının nominal üzrə qızıl sikkələrə sərbəst mübadiləsi;

• qızılın ölkəyə gətirilməsinə və ölkədən aparılmasına məhdudiyyət qoyulmaması;

• daxili bazarda qızıl sikkələr və əsginazlarla yanaşı, tam dəyərə malik olmayan xırda pulların və məzənnəsi məcburi qaydada müəyyənləşdirilən dövlət kağız pullarının dövriyyəyə buraxılması.

Paris valyuta sistemi dünya pulu qismində yalnız qızılı qəbul edirdi. Banklar əsginazları sərbəst qaydada qızıla dəyişirdi. İnkişaf etmiş ölkələrdə milli pul vahidinin qızıl məzmunu, yəni qızıl pariteti qanunvericiliklə təsbit olunurdu. *Qızıl pariteti,* müxtəlif ölkələrin pul vahidlərinin rəsmi qızıl məzmunu əsasında nisbətidir; valyuta məzənnələrinin fomıalaşmasınm əsasını təşkil edirdi və 1978-ci ildə BVF tərəfindən ləğv olunmuşdur. Qızıl sikkələrin kəsilməsi dayandırıldıqdan sonra *qızıl standartının qısaldılmış forması* olan, kredit pullarının çəkisi 12,5 kiloqram olan qızıl külçələrinə dəyişdirilməsini nəzərdə tutan *qızıl-külçə standartı* tətbiq edilmişdir. Böyük Britaniyada qızıl- külçə standartı 1925-1932-ci illərdə qüvvədə olmuşdur (bu standart Birinci Dünya müharibəsi başlananadək (1914) tətbiq olunan qızıl-sikkə standartını əvəz etmişdir). Həmin standartın müəyyən elementləri İkinci Dünya müharibəsi başlanana (1939) qədərki dövrdə qüvvədə qalmışdı. Kredit pullarını qızıla dəyişdirmək üçün banka kifayət qədər böyük məbləğ təqdim olunmalı idi. Bu vəziyyət qızılın tədavüldən sıxışdırılaraq, böyük həcmidə beynəlxalq və topdansatış dövriyyəsinə keçməsinə səbəb oldu. Qızıl standartı müəyyən dərəcədə istehsalın, xarici iqtisadi əlaqələrin, pul tədavülünün tədiyyə balanslarının və beynəlxalq hesablaşmaların avtomatik tənzimləyicisi rolunu oynayırdı. Lakin müəyyən müddətdən sonra beynəlxalq hesablaşmalarda qızılla yanaşı, funt sterlinqdən və ABŞ dollarından istifadə olunmağa başlandı. Bunun nəticəsində Genuya valyuta-pul sisteminin təməlinə qoyulan qızıl-deviz standartı meydana çıxdı.

***Nəticələr.*** Qızıl standartından istifadə olunması nəticəsində milli valyutanın məzənnəsi qızıl standartı olan başqa valyutalara nisbətdə məhdud çərçivə daxilində sabitləşmişdir. Qızıl standartının digər nəticəsi, tədiyyə balansında kəsir yarandığı hallarda qızılın ölkədən çıxarılmasına mərkəzi bank tərəfindən əks-təsir göstərilmədikdə, pul kütləsinin azalmasıdır. Pulun kəmiyyət nəzəriyyəsinə uyğun olaraq, qiymətlərin və gəlirlərin çevik dəyişdiyi şəraitdə pul kütləsinin ixtisarı daxili qiymətlərin başqa ölkələrdəki qiymətlərə nisbətən ucuzlaşmasına səbəb ola bilər, valyuta məzənnəsi təsbit edildikdə isə bu hal ixracın stimullaşdırılmasma və idxalın məhdudlaşdırılmasma gətirib çıxarır. Tarazlığa keçid prosesi, tədiyyə balansında kəsir yaranmış ölkədə daha yüksək faiz dərəcələri müə)q/ən olunmaqla, kapital axınlarının cəlb edilməsi yolu ilə asanlaşdırıla bilər’.

^ *Walter A.* World Power and World Money. Harvester Wheatsheaf. London, 1991.

***Genuya valyuta-pul sistemi (1922-1944-cü ilhr).*** Birinci Dünya müharibəsi qızıl standartına sarsıdıcı zərbə endirdi və Genuya valyuta-pul sisteminin meydana çıxmasını şərtləndirdi. Onun əsas prinsipləri ABŞ, Böyük Britaniya və Fransanın (Antantanın liderləri) təşəbbüsü ilə 1922-ci ildə Genuyada (İtaliya) keçirilmiş Beynəlxalq konfransın qərarları ilə müəyyən edilmişdi. Dünyanın aparıcı dövlətləri-nin bu konfransında bütün ölkələrin (ABŞ istisna olmaqla) daxili tədavülündə qızıl standartı ləğv edilmiş, başqa dövlətlərin (Böyük Britaniya, Fransa, Almaniya, İtaliya) kağız pullarının qızıla dəyişdirilməsi dayandırılmışdı. Sonrakı illərdə London və Paris dünyanın əsas ehtiyatı qismində qalan funt sterlinqin böyük həcmdə toplanılması yolu ilə qızıl standartına qayıtmağa kifayət qədər güclü (və müəyyən dərəcədə uğurlu) səylər göstənnişdir. Məsələn, Fransa və Amerikanın iri bankları funtla ifadə edilən aktivlərini əvvəlki sistemin əsas elementi olan qızıla dəyişdirməyə cəhd göstərirdi. Amma bu cəhdlər iki dünya müharibəsi arasındakı dövrdə yaranmış yeni, dünyanın bütün aparıcı ölkələrində iqtisadi vəziyyətin qeyri-sabit olduğu şəraitdə səmərə verə bilməzdi. Digər tərəfdən. Böyük Britaniya tutduğu mövqeləri əldən verirdi və 1931-ci ildə kağız pulları qızıla dəyişdirmək öhdəliyindən qəti imtina etdi (ümumdünya valyuta sisteminin təkamülünə şəkil 18.1-də bax).

***1929-1933-cü illərdəki dünya iqtisadi böhranının təsiri.*** 1929-1933-cü illərdə dünyada baş vermiş iqtisadi böhran nəticəsində kağız pullar kəskin dəyərsizləşdi. «Genuyadan sonra» əldə olunan uğurlar (qızıl standartına qismən keçid) geri qaytarılmadan itirildi və qızıl standartı bütün ölkələrin daxili dövriyyəsindən kənarlaşdırıldı. ABŞ 1933-cü ildə öz valyutasının qızılla əlaqəsini kəssə də, 1934-cü ildə bu bağlılıq nisbətən aşağı səviyyədə (dollar devalvasiya edilərək, məzənnəsi əvvəlkinin 54%-i qədər idi) bərpa olundu.




*Şəkil 18.1.* **Ümumdünya valyuta sisteminin təkamül mərhələləri**

***İkinci Dünya müharibəsinin təsiri.*** İkinci Dünya müharibəsi beynəlxalq iqtisadi münasibətlərdə, o cümlədən dünya maliyyə sistemində xaos yaratdı. Beynəlxalq ticarətin və beynəlxalq maliyyə münasibətlərinin bazası dağıdıldı. Həmin illərdə beynəlxalq hesablaşmaların klirinq forması - ticarətdə qarşılıqlı tələblərin və öhdəliklərin nəzərə alınması meydana çıxdı və sürətlə yayılmağa başladı. İkitərəfli klirinqdə 2 ölkə xərclərinin qarşılıqlı surətdə hesaba alınması barədə razılığa gəlirdi; çoxtərəfli klirinqdə isə sxem mürəkkəb idi və çoxlu sayda amilləri, qarşılıqlı öhdəlikləri və xidmətləri nəzərə almaq zərurəti yaranırdı. Dünyada vahid valyuta sisteminin bərpası tələb olunurdu. Bu vəzifə İkinci Dünya müharibəsinin sonuna yaxın, «Ox» ölkələrinə daxil olan Almaniya, İtaliya və Yaponiyanın iflasa uğraması reallaşdıqda aktuallaşmışdı.

## 18.7. Bretton-Vuds valyuta sistemi (1944-1976-cı illər)

Müharibədən sonra qələbə çalmış əsas ölkələrin qarşısında duran ən mürəkkəb vəzifə beynəlxalq iqtisadi münasibətlərin yenidən qurmaq idi. Dünya ticarətində və dünya maliyyəsində millətüstü tənzimləmə sisteminə heç olmasa, minimum səviyyədə keçid, bəzi ölkələrin müharibə illərində yaranmış borc öhdəliklərinin nizama salınması, dövlətüstü səviyyədə razılaşdırılmalı və əlaqələndirilməli olan bir sıra məsələlərin həlli tələb edilirdi. 1944-cü ilin iyununda Amerikanın Bretton-Vuds şəhərciyində yeni beynəlxalq valyuta sistemi yaradıldı.

Onun mahiyyəti təsbit olunmuş valyuta məzənnələri sisteminə (milli pul vahidlərinə - valyutalara) istinad edilməsindən ibarət idi. Bu sistemin arxitektorları-nın (onların arasında Keyns də var idi) fikrincə, sabit, yalnız cüzi tərəddüdlərə məruz qalan valyutalar bütün dünya pul sisteminin, ilk növbədə isə, Bretton-Vuds kon-fransmın iştirakçısı və eyni zamanda BVF- in yaradıcısı olan aparıcı kapitalist ölkə-lərinin milli sistemlərinin dayanıqlığını təmin etməli idi. BVF-in Nizamnaməsini təsdiqləməklə, konfrans iştirakçısı olan ölkələr, birincisi, yeni valyuta sistemini hüquqi rəsmiləşdirdi, ikincisi, onun əsas prinsiplərini və vəzifələrini müəyyənləşdirdi. Sistemin ən mühüm cəhətlərindən biri milli valyutaların məzənnələrinin ABŞ dollarında yaxud qızılda (1 troya unsiyasına (31,1 qram) görə 35 dollar) təsbit olunması idi. Valyutaların məzənnələri dollara

(və qızıla) olan paritetə nisbətən yuxarı yaxud aşağı 0,75% hüdudlarında tərəddüd edə bilərdi. Milli valyutanın məzənnəsi bu hüduda çatdıqda, yeni valyuta sisteminin iştirakçısı olan ölkənin dövlət bankı dollar ehtiyatını valyuta bazarında satmaqla, öz valyutasını almaq və bununla da onun dollara (və qızıla) «bağlanılmış» məzənnəsini 3diksəltmək öhdəliyini qəbul edirdi. Yeni sistemin bu mexanizmi ölkələr daxilində maliyyə sabitliyini, o cümlədən kreditlər üzrə faizlərin dayanıqlığını təmin edir, bunun nəticəsində isə ölkəyə xarici kapitalın axını, iqtisadi artım üçün əlverişli işgüzar mühit yaradılırdı.

Bretton-Vuds valyuta sistemi dünya iqtisadiyyatının, o cümlədən ümumdünya ticarətinin güclü inkişafına, birbaşa investisiyaların böyük həcmə çatmasına, beynəlxalq maliyyə bazarlarının meydana çıxıb, sürətlə inkişaf etməsinə, pul axınlarının nəhəng miqyas almasına şərait yaradaraq, 1970-ci illərin əvvəlinədək müntəzəm surətdə işləmişdir. Amma zaman ötdükcə, beynəlxalq hesablaşmalarda ABŞ dollarına imtiyazlı mövqe təmin edən Bretton-Vuds sistemində pozuntular meydana çıxmağa başladı.

1960-cı illərin ikinci yarısı Amerika iqtisadiyyatı üçün ümumilikdə əlverişli olmamışdır: ABŞ fınnalarmı sıxışdınnağa başlayan Yaponiya və Aİ korporasiyaları qüvvətlənirdi, əmək məhsuldarlığı aşağı düşürdü, xarici ticarətdə kəsirin məbləği çoxalırdı (xüsusilə Yaponiya ilə), inflyasiyanın səviyyəsi yüksəlir, məşğulluq dərə-cəsi aşağı düşürdü. Dolların dayanıqlığı getdikcə daha böyük şübhələrə səbəb olurdu (ABŞ-m 1 troya unsiyası = 35 dollar nisbətini saxlamaq cəhdləri etiraz doğururdu) və öz əksini Fransa Bankının dolları əsas ehtiyat valyutası kimi qəbul etməməsində, öz ehtiyatlarını dolların bazar dəyəri əsasında yenidən hesablamasında, yəni əslində heç kimlə razılaşdırmadan dolların devalvasiyasını həyata keçirməsində tapmışdı.

***Bretton-Vuds valyuta sisteminin dağılması.*** Sistemin fəaliyyət göstərən mexanizmlərini müasirləşdirmək istiqamətində atılan addımlar kimi, 1969-cu ildə BVF hesablaşmalar üçün XBH tətbiq etdi və qızıl-deviz standartını XBH standartı ilə əvəzlədi. 1971-ci ilin avqustunda ABŞ hökuməti qızıl külçələrinin dollara satılmasını rəsmi olaraq dayandırdı, 1970-1971-ci illərdə isə dövlət qiymətli kağızları üzrə faiz dərəcələrini yol verilən həddən aşağı, 8%-dən 3,3%-ə endirməyə məcbur oldu. Tezliklə, ABŞ dolların 1 troya unsiyası = 35 dollar pariteti üzrə qızıla bağlanmasının

ləğvi barədə qərar qəbul etdi. 1971-ci ildə Bretton-Vudsun əsas iştirakçdarı Qərbi Almaniya və Niderlandın dinamik iqtisadi artımı (o cümlədən əmək məhsuldarlığının yüksəlməsi) və maliyyə sistemlərinin xüsusilə dayanıqlı olması nəticəsində məzənnələri açıq-aşkar azaldılmış olan markanın və quldenin məzənnəsinin sərbəst enib-qalxmasına icazə verilməsi barədə qərar qəbul etdi. Beləliklə, müharibədən sonrakı valyuta sisteminə yenidən baxılması tez bir zamanda onun ləğvi ilə nəticələndi. Fikrimizcə, burada «iflas» termindən istifadə edilməsi düzgün deyil: təcrübədə Bretton-Vuds sisteminin işləməyən həlqələrinin dəyişdirilməsi yaxud ləğvi «iflas» tenuini ilə ifadə olunan təzahürün qarşısını almağa imkan venuişdi. Burada daha çox Bretton-Vuds sistemində aparılan islahatdan, onun ayrı-ayrı hissələrinin sökülməsindən danışıla bilər və bu proses 17 ölkənin milli valyutasının avro ilə əvəz edilməsindən sonra da davam edir.

## 18.8. Yamayka konfransı. Müasir valyuta sistemi

1970-ci illərdə dünyanın aparıcı dövlətlərinin hökumətləri, habelə beynəlxalq maliyyə qurumlarının (BVF, BYİB, Bazel Beynəlxalq Hesablaşmalar Bankı və s.) rəhbərləri dünya iqtisadiyyatının və maliyyəsinin son həddədək beynəlmiləlləşməsi və onların qloballaşması ilə xarakterizə olunan yeni şəraitdə «işləməyən» Bretton-Vuds sisteminin alternativinin axtarışında idi. 1976-cı ildə bu məsələ dünyanın aparıcı ölkələrinin BVF çərçivəsində keçirilən Yamayka konfransında (Kinqston şəhəri) öz həllini əsasən tapmışdı. Konfransın iştirakçıları hüquqi baxımdan BVF-in Nizamnaməsinə Əlavə kimi rəsmiləşdirilmiş Yamayka Sazişini qəbul etdilər (1978-ci ilin yanvarından qüvvəyə minmişdi).

***Yamayka Sazişinin məzmunu.*** Ümumdünya valyuta sisteminə daxil edilən Yamayka Sazişinin mahiyyəti aşağıdakılardan ibarətdir:

• Bretton-Vuds idarələri (BVF, BYİB, DB) özünün millətüstü fəaliyyətini beynəlxalq tənzimləyici idarələr qismində genişləndirir və möhkəmləndirir, onların rolu isə getdikcə artır;

• qızılın valyuta vahidlərinin dəyər ölçüsü qismində funksiyası aradan qaldırılır və buna müvafiq olaraq, qızılın möhkəm qiyməti ləğv olunur. Bu isə, qızılın pul funksiyasının tədricən itinnəsini (demonetizasiya), bir neçə əsr ərzində yerinə yetirdiyi dünya pulu rolunu oynamasının başa çatmasını ifadə edirdi;

• qızıl adi əmtəəyə çevrilir və qiyməti tələblə təklif arasındakı nisbətlə müəyyənləşir. Banklara qızılı sərbəst bazarda formalaşan qiymətlərlə almaq və satmaq imkanı verilir;

• ölkələr arasında valyuta münasibətləri onların milli pul vahidlərinin üzən məzənnələrinə əsaslanır. Məzənnələrin enib-qalxması aşağıdakı amillərlə şərtləndirilir:

■ valyutaların daxili bazarlarda alıcılıq qabiliyyətlərinin faktiki dəyər nisbətləri;

■ milli valyutaların beynəlxalq bazarlarda tələbi və təklifi arasındakı nisbət.

1969-cu ildə BVF-in rəhbərliyinin qərarı ilə tətbiq edilməyə başlanmış kollektiv valyuta vahidi XBH-in niyyəti onu həm qızıla, həm də dollara alternativ kimi, beynəlxalq valyuta sisteminin əsas ehtiyat aktivinə çevirmək olmuşdur. Bu valyuta vahidi müasir beynəlxalq valyuta sisteminin əsas ehtiyat aktivinin maddəsi kimi qalsa da, obyektiv baxımdan «qızılın əvəzedicisinə» çevrilə bilməzdi. Qızıl yaxın gələcəkdə də «qızıl» kimi qalacaq.

Pul (valyuta) bazarı bütövlükdə maliyyə sisteminin, hətta iqtisadiyyatın vəzi)^ətini xarakterizə edən indikator kimi, maliyyə sisteminin mərkəzi həlqəsidir. Bu bazar əməliyyatlarının həcminə görə maliyyə bazarının qalan seqmentlərindən (istiqrazlar və səhmlər bazarları) böyükdür: burada bağlanılan əqdlərin gündəlik məbləği orta hesabla 1,7-1,8 trilyon dollardır (2003-cü il). Müqayisə üçün: istiqrazlar (dövlət və özəl) bazarında aparılan əməlİ3^atlarm gündəlik həcmi 700-900 milyard dollar, səhmlər bazarında isə 130-180 milyard dollardır.

Valyuta bazarında valyuta depozitləri ilə tələb olunanadək aparılan əməliyyatlar üstündür. Buna müvafiq olaraq, valyuta bazarı, xarici valyutaların alqı-satqısı ilə əlaqəli olan və valyuta vəsaitlərinin səfərbər olunması, yığımı və istifadəsi sahəsində mühüm funksiyaları yerinə yetirən sistemdir.

***Valyuta bazarının əsas funksiyaları.*** İlk növbədə onun bu funksiyaları sadalanmalıdır:

• xarici ticarət əməliyyatlarına və kapitalın sərhədi keçməsi ilə bağlı əməliyyatlara valyuta-kredit və hesablaşma xidmətlərinin göstərilməsi;

• xarici ticarət üzrə hesablaşmaların, kapitalların, işçi qüvvəsinin

miqrasiyasını asanlaşdırmaq məqsədilə xarici valyutanın alqı-satqı əməliyyatlarının həyata keçirilməsi;

• kliринq əməliyyatlarının, yəni hesablaşmaların qarşılıqlı tələb və öhdəlikləri nəzərə alınmaqla aparılmasına dair hökumətlərarası müqavilələrin bağlanması;

• banklararası valyutalar bazarının yaradılması;

• məzənnələr arasındakı fərqdən mənfəət əldə etmək üçün valyutaların alqı-satqısı (alver);

• valyuta məzənnələri dəyişərkən, potensial zərərdən sığortalanma (hecinq) üzrə xüsusi əməliyyatlar keçirilərkən riskdən müdafiə olunması'.

***Valyuta bazarının funksiyalarının tamin edilməsinin formaları.*** Valyuta bazarının fəaliyyətini təmin edən funksiyalar bu formalarda yerinə yetirilir: avrovalyuta bazarları, pul köçünnələri, hecinq, klirinq, kredit.

*Xüsusi məqamlar:* avrovalyuta bazarları, tipik beynəlxalq bazar olsa da, aşağıdakı xüsusiyyətləri var:

• bura iri borcalanlarm - hökumətlərin, mərkəzi bankların, dövlət birliklərinin iştirak etdiyi topdansatış bazarıdır və bazarın əksər hissəsi banklararası əməliyyatların payına düşür;

• bu bazar tənzimlənməyə məruz qalmır;

• əsasən qısamüddətli banklararası borclar bazarıdır;

• cari vəsait qoyuluşları üçün deyil, əmanətlər və müddətli vəsait qoyuluşları üçün mövcuddur;

• bu bazarda avrodollar üstünlük təşkil edir.

*Pul köçürməsi* - alıcılıq qabiliyyətinin beynəlxalq miqyasda ötürülməsindən ibarət olan və valyuta bazarı vasitəsilə yerinə yetirilən ən sadə əməliyyatdır. Məsələn, Böyük Britaniyaya səfər edən Rusiya turistinə funt sterlinq lazımdır. Turist valyutanı funt sterlinq şəklində deyil, banknot formasında alır.

*Hecinq* - valyuta bazarı iştirakçısının valyuta məzənnəsinin dəyişməsi nəticəsində potensial ziyan vurulmasından müdafiə vasitəsidir. Bir ölkənin idxalçısı başqa ölkədə mal alarkən, onunla milli valyutada, məsələn, əməliyyat aparıldıqdan sonrakı 2 ay ərzində hesablaşmalıdır. Ancaq müddət ərzində valyutanın məzənnəsi yüksələrsə, alıcı ziyana düşəcək (2 ay öncə

^ *Ревинский Н.А.* **Международная экономика и мировые рынки. Новосибирск, 1998. С. 249.**

aldığı mala görə milli valyutada daha çox pul vahidi ödəməli olacaq). Belə vəziyyətin qarşısını almaq üçün malın alıcısı milli valyutanı əvvəlcədən alıb, onu satıcıya sonradan göndəmıəklə, hesablaşma aparır. Malın bu cür forvard qaydasında alınması onun baza dəyərinin təsbit olunmasına (mal öz sahibini dəyişənədək) yönəlmişdir və bununla da, valyutanın məzənnəsi dəyişdikdə, müştərinin müdafiəsini təmin edir.

*Klirinq.* Beynəlxalq ödənişlər aparıldıqda, valyuta bazarı klirinq mexanizmini təmin edir. Klirinq mexanizmi bankların başqa valyuta (maliyyə) mərkəzlərindəki müvəkkil banklarda saxladıqları xarici valyutada olan depozitləri vasitəsilə fəaliyyət göstərir. Klirinq mexanizmi əqdlərin böyük hissəsini nağdsız qaydada yaxud vəsaitlərin köçürülməsi yolu ilə yerinə yetirməyə imkan yaradır və bu, bir sıra ticarət əməliyyatlarında böyük üstünlük təmin edir.

*Kredit.* Nəzərdən keçirdiyimiz sahədə ixracatçı alıcıya yaxud onun bankına müddətli tratta göndərdiyi halda kreditdən istifadə olunur. Bu zaman tratta diskontlaşdırılır, veksellər bazarında satılır və ixracatçı onun diskontlaşdırılmış dəyərinin alır. Tratta xarici valyutada diskontlaş- dırıldığına görə, bank onu ixracatçıya ötürür və bununla da ixrac əməlİ3^atları asanlaşdırılır.

## 18.9. Valyuta məzənnələri

***Valyuta məzənnəsi*** - bir ölkənin pul vahidinin qiymətinin başqa ölkələrin pul vahidləri ilə ifadə olunmasıdır. Dünya pul (valyuta) sistemində tarazlıq bütün əsas valyutalar arasında mübadilə məzənnələrinin hərəkəti (dəyişməsi) vasitəsilə təmin olunur və bu halda bir valyuta, məsələn, ABŞ dollarından (avrodan) bütün qalan valyutaların qiymətləndirildiyi ümumdünya standartı qismində istifadə edilir. Valyuta məzənnələrinin aşağıdakı tipləri (növləri) vardır:

• *təsbit olunmuş valyuta məzənnəsi ifixed exchange rate)* - valyuta məzənnəsinin malij^ə hakimiyyətinin müdaxiləsi olmadan dəyişdirilməsi mümkün olmayan müəyyən indeksə (məzənnəyə) möhkəm bağlanması;

• *çevik valyuta məzənnəsi {flexible exchange raté)* - məzənnənin enib-qalxmasının bu tipini bir çox hallarda «çirkli üzmə» adlandırırlar (aşağı bax);

• *üzən valyuta məzənnəsi {floating exchange rate)* - valyuta məzənnəsinə müəyyən «dəhliz» daxilində dəyişmək imkanının verildiyi rejimdir;

• *valyuta məzənnəsinin «xalis üzməsi» (clean float)* - üzən məzənnənin pul-kredit sisteminin rəhbər (dövlət) orqanlarının heç bir təsiri olmadan sərbəst dəyişdiyi rejim;

• *valyuta ilanı (snake)* - ilk dəfə yeni beynəlxalq valyutanın, EKYU-nun yaradılması ilə əlaqədar olaraq meydana çıxan sistem. Valyuta məzənnələrinin dəyişmələri, onun hüdudlarını təmsil edən iki divar arasında ilanın hərəkətinə bənzədiyi üçün, sistem, valyuta ilanını yaxud tuneldəki ilan adlandırılır;

• *valyuta məzənnəsinin «çirkli üzməsi» {dirthy floating rate)* — rəsmi hakimijq/ət orqanlarının müəyyən vəziyyətdən başqa ölkələrin mənafeyi və beynəlxalq qaydalarla hesablaşmadan öz xeyrinə istifadə etmək məqsədilə valyuta məzənnəsinin qəflət dəyişməsini dəstəklədiyi halda yaranan valyuta məzənnəsidir;

• *məzənnəsi yüksəldilmiş valyuta (overvalued currency).* Hesab olunur ki, bu halda onun məzənnəsi bazar məzənnəsindən yüksəkdir. Bir qayda kimi, məzənnənin yüksəldilməsi yaxud endirilməsi konkret valyutanın dünya ehtiyat valyutası ilə müqayisəsi yolu ilə müəyyənləşdirilir;

• *məzənnəsi endirilmiş valyuta {undervalued currency).* Bu valyutanın pariteti tədiyyə balansında dayanıqlı profisitə gətirib çıxarır. Məsələn, on illər ərzində ABŞ Yaponiyanı iyenanı süni olaraq aşağı məzənnədə saxlamaqda günahlandırırdı. Hazırda analoji ittihamlar Çin yuanına qarşı yönəlmişdir. Üzən valyuta məzənnələri halında valyutanın məzənnəsinin enməsi, onun alıcılıq qabiliyyəti paritetindən kənarlaşması şəklində təzahür edir və mallar həddən ziyadə ucuzlaşır;

• *çevikliyi yüksəldilmiş valyuta (more flexibility currency)* yaxud sərbəst valyuta məzənnələri. Bu valyutanın məzənnəsi tez-tez dəyişir yaxud tələb və təklifdən asılı olaraq, sərbəst üzür. Ölkənin valyutasına olan tələbat isə mallara, xidmətlərə və maliyyə aktivlərinə tələbatın funksiyasıdır;

• *çevikliyi məhdudlaşdırılmış valyuta (limited flexibility currency).* Bu, üzən məzənnənin müəyyən məhdudiyyətlərin, mövcudluğu, yəni enib-qalxmaların müəyyən hüdudlarda yol verildiyi şəraitdəki növüdür;

• *bağlanılmış yaxud möhkəmləndirilmiş məzənnəli valyuta* (möhkəm

paritet) *(fixed rate of exchange)* milli valyutalar arasında rəsmi qaydada müəyyənləşdirilmiş nisbətdir. Ölkələr öz valyutalarının dəyərini başqa valyutanın yaxud XBH tipli valyutalar toplusunun dəyəri ilə müqayisə edir. Təsbit edilmiş məzənnələr halında valyuta bazarında mütəmadi olaraq izafi tələb yaxud təklif yaranır.

Sərbəst üzən valyutaların bazar dəyəri tələb və təklif qanunu əsasında formalaşdığı halda, valyutaların əksəriyyəti hökumətin nəzarəti altındadır. Bu halda çox vaxt rəsmi (adətən təsbit olunmuş) məzənnə ilə yanaşı, «qara» valyuta bazarı fəaliyyət göstərir. Valyutanın dəyərinə təsir edən ümumi siyasətin həyata keçirilməsinə görə ölkələrin mərkəzi bankları məsuldur; son dövrdə «mərkəzi bankların bankı» qismində çıxış edən, yəni milli bankların bu sahədəki fəaliyyətini əlaqələndirən BHB-nin (Bazel) rolu getdikcə artmaqdadır.

***Valyuta bazarının devalvasiya va revalvasiya vasitəsilə tənzimlənməsi.*** Valyutaların məzənnələri istisnasız olaraq bütün ölkələrin inkişafını müşayiət edən inflyasiya amilinin təsiri altında dəyişdiyinə görə, yalnız inflyasiyanın miqyasından və onun yatırılmasından danışa bilərik. Tənzimləmənin inzibati metodları devalvasiya və revalvasiyadır.

*Devalvasiya* yaxud milli valyutanın məzənnəsinin xarici valyutalara və ya beynəlxalq hesab vahidlərinə (XBH, dollar) nisbətdə aşağı salınması tez-tez baş verən haldır. Əvvəl belə düşünülürdü ki, devalvasiya pul vahidinin qızıl məzmununun rəsmi qaydada azaldılmasıdır. Devalvasiyanın əsas səbəbləri inflyasiya, tədiyyə balansının kəsiri, milli pul vahidinin alıcılıq qabiliyyətinin zəifləməsi və sairdir. Bunlar isə son nəticədə iqtisadiyyatın ümumi vəziyyəti, onun artımı yaxud tənəzzülü (böhranı) əsasında müəyyən olunur.

*Revalvasiya* - devalvasiyanın əksinə olaraq, milli valyutanın məzənnəsinin xarici valyutalara (məsələn, dollara) nisbətdə yüksəldilməsidir. Məsələn, əvvəlki 20 ildə ABŞ, yapon istehsalçılarının mallanm Amerikaya ixrac etməsini azaltmaq, öz istehsalçılarının isə Yaponiyaya ixracını stimillaşdırmaq məqsədilə, bu ölkənin iyenanı revalvasiya etməsinə dəfələrlə nail ola bilmişdi. Revalvasiya ixracın bahalaşmasına səbəb olmaqla, əmtəə ekspansiyasının təsirini zəiflədir. Amma bu tədbir Amerika korporasiyalarına müvəqqəti uğur qazandırsa da, ABŞ bu yolla özünün böyük ticarət kəsiri probleminin, heç olmasa, qismən həll ediləcəyinə ümid

bəsləyirdi. Tənzimləmə metodları kimi, revalvasiya və devalvasiya bütün ölkələr tərəfindən, müxtəlif şəraitlərdə və çox vaxt dolayı yolla istifadə olunaraq, milli valyutanın real dəyərinin yüksəlməsinə yaxud aşağı düşməsinə şərait yaradır.

***Forvard valyuta məz3iməsi.*** Bu məzənnə üzrə valyutanın *forvard bazarına* göndərilməklə, gələeəkdə alına yaxud satıla biləcəyi məzənnəni ifadə edir. Gələcəkdəki müxtəlif təqvim günlərinə müxtəlif məzənnələr müvafiqdir və ehtimallardan asılı olaraq, forvard məzənnəsi həmin gün *mövcud məzənnədən* yuxarı yaxud aşağı ola bilər. Tam ne}4ral ehtimallar vəziyyətində 2 valyuta arasındakı məzənnə nəzəri baxımdan müvafiq ölkələrdəki qısamüddətli faiz dərəcələri arasındakı fərqi əks etdirməlidir. Başqa sözlə, faiz dərəcəsi daha yüksək olan ölkənin valyutası forvard bazarında mövcud olan məzənnəyə nisbətən güzəştlə satılacaq. Bunun səbəbi «gizlədilmiş faiz arbitrajı»dır. Beynəlxalq çevikliyə malik olan qısamüddətli fondların sahibləri onları faiz dərəcələrinin yüksək olduğu ölkələrə köçürür, yerli bazarda həmin ölkənin milli valyutasını alır və onları, tutaq ki, 3 aylıq veksellərdə yerləşdirir. Eyni zamanda onlar valyutaların məzənnələrinin əlverişli olmayan dəyişməsi riskindən sığortalanmaq üçün həmin valyutanın satılması barədə forvard müqaviləsi bağlayırlar. Bu hərəkətlər, adətən valyutanın nağd məzənnəsinin artmasına, forvard məzənnəsinin isə aşağı düşməsinə səbəb olur. Forvard məzənnəsi müəyyən səviyyəyə endikdən sonra vəsaitlərin həmin ölkəyə köçürülməsi əhəmiyyətsiz əməliyyata çevrilir.

Valyuta məzənnəsinin təsbiti qızıl paritetinə (qızıl standart şəraitində milli pul vahidinin zəmanət verilmiş qızıl məzmununa) yaxud beynəlxalq sazişə müvafiq olaraq həyata keçirilir. Klassik qızıl standartı dövründə qızıl pariteti əsasında müəj^ən edilən dayanıqlı məzənnələr tipik sayılırdı. Qızıl paritetinə istinad edən, 1% həcmində kənarlaşmaya yol verilən dayanıqlı valyuta məzənnələri sistemi İkinci Dünya müharibəsindən sonra fəali}^ətdə olan beynəlxalq valyuta sistemində də təsbit edilmişdi. Onun tərtibatçıları qiymətlərin səviyyəsinin bütün kapitalist ölkələrində prinsip baxımından eyni istiqamətdə və eyni templərlə dəyişəcəyini düşünürdülər.

1970-ci illərdə müxtəlif səbəblər (daxili və xarici) üzündən *qiymətlərin nəzarətdən çıxan bahalaşması* baş verdi. Bu səbəblər: dolların qızıla bağlanmasından imtina olunması (1971); iri kapitalist müəssisələrinin sabitləşmiş qiymət sisteminin pozulmasına yönəlmiş hərəkətləri; Yaxın

Şərqdəki müharibə (1973) nəticəsində neftin qiymətinin dəfələrlə bahalaşması (neft şokları) və s. idi. Bütün bunlar dünyanın bütün ölkələrinin daxili qiymətlərində öz əks-sədasını tapdı və hadisələrin bu məcrada inkişafı ***inflyasiyamn*** nəzarətdən çıxaraq, artması ilə nəticələndi. Bu isə, dayanıqlı valyuta sistemini qəti olaraq dağıtdı və valyuta məzənnələri sisteminin özünün dəyişdirilməsi tələbini qoydu. Beləliklə də, valyuta məzənnələrinin hazırki sistemi yarandı.

Müasir valyuta sistemini, adətən «üzən» sistem kimi xarakterizə edirlər, onun «üzməsini» isə dövlətlərin valyuta məzənnələrinə güclü təsir göstərməsini nəzərdə tutaraq, bəzən «çirkli» (dirty floating) adlandırırlar. «Dirty floating» dövlətin bu sahəyə müdaxiləsinin əksidir və ehtikarçı kapitalların axınının qarşısını sadəcə olaraq almaqdan daha genişdir'. Dünya maliyyə sisteminin zəifliyi 2008-2010-cu illərin böhranı zaman aşkar olundu və kapitalların beynəlxalq axınlarını, o cümlədən valyuta məzənnələri sistemini tənzimləyən qurumların kökündən dəyişdirilməsinin zəruriliyini göstərdi.

***«Fişer effekti» və valyuta məzənnələrinin tarazlığı problemi.*** Fişer modeli yaxud effekti (məşhur iqtisadçı İrvinq Fişerin adı ilə) bundan ibarətdir: istənilən ölkədə nominal faiz dərəcəsi gözlənilən inflyasiya nəzərə alınmaqla təshih edilmiş real faiz dərəcəsinə, təqribən bərabər olmalıdır. Vəsaitlərini maliyyə aktivlərinə yatıran investorlar müəyyən mənfəət əldə olunacağına ümid bəsləyir. İnflyasiya, əldə olunması ehtimal edilən mənfəəti azaltdığına görə investorlar yatırılan investisiyaların faizini artırmaqla, planlaşdırılan mənfəətə nail olmaq istəyir; Fişer düsturunun mahiyyəti bundadır.

Beynəlxalq Fişer effekti 2 ölkədə mövcud və gələcək ***spot*** məzənnələri və faiz dərəcələri arasında tarazlığın olmasıdır və bu halda məzənnələrin (faiz dərəcələrinin) paritetinin əldə olunması üçün imkan yaranır.

## 18.10. Valyutanın alıcılıq qabiliyyəti

***Valyutaların alıcılıq qabiliyyətinin pariteti (VAQP)*** baza ölkəsinin bir pul vahidi müqabilində əldə edilməsi mümkün olan müəyyən malların və

^ *Фишер С.* **Экономика / С.Фишер, Р.Дорнбуш, Р.Шмалензи. М.: Дело, 1993. С. 728.**

xidmətlərin standart toplusunun alınması üçün tələb edilən valyutanın miqdarıdır.

VAQP deflyator, istehlak qiymətləri indeksinin analoqu qismində çıxış edir. Onlar arasındakı fərq bundan ibarətdir ki, qiymət indeksləri bir ölkənin valyutasının alıcılıq qabiliyyətinin dəyişməsini vaxt müstəvisində müəyyənləşdirir, VAQP isə eyni vaxt ərzində müxtəlif ölkələrin valyutalarının alıcılıq qabiliyyətinin dəyişməsini ölçür. Burada istehlak qiymətlərinin indeksləri (milli deflyatorlar) ÜDM-in strukturunun vaxt ərzində dəyişməsinin nəzərə alınmaması ilə bağlı olan ehtimallar əsasında qurulur; ölkələrarası VAQP müəyyənləşdirildikdə isə ÜDM-in milli həcmlərinin strukturundakı fərqlərdən müəyyən dərəcədə (hüdudlarda) mücərrədləşməyə yol verilir.

VAQP makroiqtisadi aqreqatların (ÜDM, ÜMM) beynəlxalq müqayisəliyini təmin edən alət qismində çıxış edən statistik kateqoriyadır. AQP müqayisə edilən ölkələrdəki qiymətlər arasında nisbətləri xarakterizə edən əmsallardır və son istifadə metodu ilə hesablanmış ÜDM-in və onun tərkib hissələrinin ölkələr arasında korrektə olunmuş müqayisəsini təmin edir. Ekspertlərin rəyincə, bu məqsədlə VAQP əvəzinə mübadilə məzənnələrindən istifadə olunması, əhalinin rifahı haqqında faktiki məlumatların təhrif olunması ilə nəticələnə bilər. Valyuta məzənnələrində istifadə olunmaqla aparılan hesablamalar müəyyən ölkələrdə buraxılan malların və xidmətlərin miqdarı arasındakı fərqlə yanaşı, onlardakı qiymətlərin səviyyələri arasındakı fərqləri də əks edir. AQP bilavasitə müxtəlif ölkələrdə malların və xidmətlərin qiymətlərinin müqayisə olunması əsasında hesablanır və ondan ÜDM-in müqayisəli göstəricilərinin hesablanması üçün istifadə olunduqda, istehsal edilmiş malların və xidmətlərin həcmləri arasındakı fərqi daha dəqiq göstərir. ÜDM-in xüsusi çəki (hər nəfərə düşən) kəmiyyətlərinin VAQP vasitəsilə vahid qiymət miqyasına gətirilmiş beynəlxalq müqayisələri müxtəlif ölkələrin əhalisinin maddi rifah səviyyəsindəki fərqləri aşkar etməyə, ÜDM-in həcmlərinin müqayisə olunması əsasında Avropa və dünya birliyi ölkələrinin iqtisadi potensialını qiymətləndirməyə imkan verir. Valyutanın alıcılıq qabiliyyətinin aşağıdakı xüsusiyyətlərini qeyd edək.

***Alıcılıq qabiliyyətinin parketi (AQP)*** - mal və xidmətlərin müəyyən toplusunu əldə etmək qabiliyyəti əsasında iki və daha çox sayda valyuta

arasında müəyyən olunan nisbətdir. Dünyanın müxtəlif ölkələrindəki qiymətlər fərqli olduğuna görə AQP valyutaların məzənnələri ilə üst-üstə düşmür.

***Üz3n mübadilə məzənnələri sistemi şəraitində valyutaların müqayisəli xarakteristikaları.*** Valyutaların alıcılıq qabiliyyətindəki («istehlakçı səbətlərinin» əsasında hesablanan) fərq, onların valyuta vahidinə daha çox mal və xidmət almağın mümkün olduğu ölkələrə və ərazilərə doğru yerdəyişməsi ilə nəticələndiyinə görə, bütün başqa şərtlərin eyniliyi vəziyyətində valyutaların məzənnələri alıcılıq qabiliyyətinin bərabərləşməsinə (paritetinə) gətirib çıxarmalıdır.

Burada qeyd olunmalıdır ki, valyuta məzənnələrinin dinamikasını izah edən AQP kapitalların ölkələr arasında «istehlakçı səbətlərinin» müqayisəli dəyərləri ilə əlaqəli olmayan yerdəyişməsini nəzərə almır. Bu cür yerdəyişmələr valyuta məzənnələrinin dinamikasına nəzərəçarpan təsir göstərir. Buna baxmayaraq, AQP nəzəriyyələrinin gəldiyi nəticələrdən müqayisəli tədqiqatlarda, o cümlədən müxtəlif ölkələrdə ÜDM, milli gəlir, əhalinin həyat səvİ3q/əsi tutuşdurularkən istifadə olunur.

Xroniki inflyasiya şəraitində valyutanın ölkə daxilində alıcılıq qabiliyyəti aşağı düşsə də, onun inkişaf templərindəki fərqlər, ehtikarçılığm təsiri və s. ilə əlaqədar olaraq, həmin vaİ3mtanın nisbi alıcılıq qabiliyyəti, daha dəqiq desək, müxtəlif ölkələrin valyutalarının məzənnələri bir-biri ilə müqayisədə enir yaxud yüksəlir. Məsələn, 1950-1990-cı illərdə AFR markasının mütləq alıcılıq qabiliyyəti təqribən 90% aşağı düşdüyü halda, həmin dövrdə başqa ölkələrin valyutalarının daxili alıcılıq qabiliyyətinin daha sürətli enməsi nəticəsində onun valyuta məzənnəsi inkişaf etmiş ölkələrin 16 valyutası ilə müqayisədə 95% yüksəlmişdi.

Qeyd edək ki, qızıl paritetindən imtina olunmasının əsas səbəblərindən biri, malların və xidmətlərin qiymətlərinin sürətlə bahalaşdığı şəraitdə onun qiymətinin sabit (1934-cü ildən troya unsiyasına görə 35 dollar) qalması və nəticədə alıcılıq qabiliyyətinin aşağı düşməsi olmuşdur. 1960- 1970-ci illərdə dayanmadan inkişaf edən bu proses «qızılın qiymətinin» daimi əsasda dollarla ifadə olunmasının ləğvi və onun qiymətinin tələb və təklifdən asılı olaraq dəyişdiyi sərbəst qızıl bazarlarının meydana çıxması ilə nəticələndi. Bu islahat, əvvəllər valyuta mexanizmini, o cümlədən bütün ölkələrin valyutalarının müqayisə edildiyi «mərkəzi valyutanı» təmin edən

təsisatların ləğvini labüdləşdirdi.

30 il ərzində çoxsaylı islahatların və dəyişikliklərin aparılmasından sonra aşağıdakı elementlərə istinad edən, kifayət qədər mürəkkəb və yekcins olmayan ***valyuta sistemi*** yaradıldı:

1) bütün başqa valyutaların öz nisbətlərini, daha dəqiq desək, valyuta məzənnələrini saxlamalı olan ayrı-ayrı milli valyutalar əsas istinad vahidləri (valyutaları) qismində seçildi. Özü də, öz valyuta məzənnəsini valyutalar toplusu əsasında qurulan millətüstü valyuta vahidlərinə nisbətdə saxlayan valyutaların sayı getdikcə artır;

2) valyuta məzənnələrinin tərəddüd dərəcəsi eyni olmamışdır; bunun diapazonu çox genişdir və sərbəst tərəddüddən müəyyən dərəcədə tənzimlənən tərəddüdə qədərdir. Bir sıra ölkələr öz valyuta məzənnələrini bəzi valyutalara münasibətdə müəyyən diapazon hüdudlarında saxlayır, digərlərinə münasibətdə isə onu sərbəst dəyişirdilər («valyuta ilanı», «üzən məzənnə» və s.). Avronun tətbiqi də Avropanın vahid valyutasının məzənnəsinin enib-qalxmasına təsir mexanizmini əsaslı surətdə dəyişdinnişdir.

***Valyutaların məzənnələri.*** Valyutaların dəyişdirildiyi məzənnələr valyuta bazarlarında onlara olan tələb və təklif əsasında müəyyənləşdirilir. Göstərilən tələb və təklifə ***ölkənin tədiyyə balansı,*** onda profisitin yaxud kəsirin olması təsir göstərir. Qeyd edək ki, ölkələrin dönərsiz valyutaları da, onların dünya iqtisadiyyatı sistemində və beynəlxalq iqtisadi münasibətlərdə (ticari, maliyyə və başqa əlaqələrdə) yüksək səvi}^ədə iştirak etməsi səbəbindən dünya valyuta məzənnələri sisteminə istinad edir.

Valyutaların məzənnəsini valyutaya olan tələb və təklif axınlarını tarazlaşdıran qiymət kimi deyil, iki valyutanın nisbi qiyməti kimi nəzərdən keçirən, pul vahidinin dəyərinə təsir edən istənilən amilin valyutanın mübadilə məzənnəsində də öz əksini tapacağına istinad edən monetar təsəvvürlərdən irəli gələn alternativ yanaşma da mövcuddur. Belə hesab olunur ki, amillərdən başlıcası, ölkə daxilində pul kütləsinin dəyişməsidir və insanlar bunun baş verəcəyi və nəticələri barədə ehtimallar qunnağa başlayan kimi, gözləntilərin özü valyutanın məzənnəsinin müəyyən olunmasına güc-lü təsir göstərir. Valyuta məzənnələrinin dəyişkənliyi də məhz bununla izah olunur.

Müasir valyutaların məzənnəsinin əsasında göstərilən amillərdən savayı, ölkənin idxala olan tələbatı və onun ixrac imkanları, milli

iqtisadiyyatın dünya bazarında rəqabət qabiliyyəti, iqtisadi konyunktura, o cümlədən inflyasiya prosesləri və ölkədəki siyasi sabitlik dərəcəsi dumr. Milli valyutanın məzənnəsinin başqa ölkələrin valyutalarının məzənnələrinə nisbətən uzunmüddətli enib-qalxması milli sahibkarların xarici bazarlarda rəqabət qabiliyyətinə təsir göstərir.

Mübadilə vaxtı *müəyyən milli valyutanın* başqa ölkələrin konkret pul vahidlərində ifadə olunmuş *qiyməti* fonualaşır. Bu qiymət tələblə təklif əsasında müəyyənləşdirilən mübadilə yaxud valyuta məzənnəsi adlanır. Bankın aldığı valyutanın qiyməti *alıcının məzənnəsi,* onu satdığı qiymət isə *satıcının məzənnəsi* adlandırılır. Bu qiymətlər arasındakı fərq bankın mənfəətini təşkil edir. İki məzənnənin orta hesab göstəricisi *orta məzənnə* adlanır. Bu göstəricidən dilerlər tərəfindən və iqtisadi müqayisələr zamanı istifadə olunur. İki xarici valyutanın üçüncü valyutaya (adətən dollara) nisbətdə qiymətinin müəyyənləşdirilməsi metodundan da istifadə edilir və nəticədə alman qiymət *b-oss-məzənnə* adlanır.

*Nominal məzənnədən* (rəsmi təsbit olunmuş) başqa, bir ölkənin malının başqa ölkənin malına mübadilə olunma nisbətini, yəni malın bir valyutada ifadə edilmiş qiymətini iki ölkədə əks etdirən *real valyuta məzənnəsi* də fərqləndirilir. Valyuta məzənnəsi ölkənin dünya bazarlarında rəqabət qabiliyyətini qiymətləndirir. Bu məzənnənin qalxması (bir valyutanın başqasına nisbətdə real dəyərsizləşməsi) malların xaricdə nisbətən bahalaşmasını və istehlakçıların yerli mallara üstünlük verəcəklərini ifadə edir. Məzənnənin aşağı düşməsi (real bahalaşma) həmin ölkədə malların qiymətinin yüksəlməsini və rəqabət qabiliyyətinin zəiflədiyini bildirir.

## 18.11. Valyutaların xassələri

Aydınlaşdınnaq lazımdır ki, «valyuta» (milli pul vahidi) özünün daxili xassələrinə malikdir. Belə ki, val}aıta-pul (və ya əksinə) aşağıdakı növlərə bölünür:

1) heç bir məhdudiyyət olmadan istənilən milli valyutaya tam məbləğdə dəyişdirilən, yəni sərbəst dönərli valyuta (SDV);

2) qismən dəyişdirilən yaxud qismən dönərli valyuta;

3) dəyişdirilməyən, yalnız bir ölkə hüdudlarında istifadə olunan valyuta (qapalı).

SDV-nin əsas xassəsi - əmtəə ilə tam təmin olunması sayəsində istənilən başqa valyutaya cari məzənnə üzrə dəyişdirilə bilməsidir; bu halda onun özünün məzənnəsi sabit qalır. Buna görə də SDV bəzən möhkəm valyuta adlandırılır.

Bütün ölkələrdə xarici valyutalar valyuta birjasında kotirovka olunur (bu, hər gün elan və dərc olunur). ***Valyutanın kotirovkası*** - xarici valyutaların məzənnələrinin qüvvədə olan qanunvericilik normalan və müvafiq təcrübə əsasında müəyyən edil-məsidir. Valyutaların kotirovkasmı dövlət və ya iri kommersiya bankları həyata keçirir. Bunun üçün ***birbaşa*** və dolayı üsullardan istifadə olunur. Bütün ölkələr tərəfindən qəbul edilmiş (Böyük Britaniyadan savayı) birbaşa üsulda xarici valyuta-nm pul vahidinin məzənnəsi milli valyutanın müəyyən miqdarı ilə ifadə olunur. Dolayı üsuldan Böyük Britaniyada istifadə edilir və bu zaman vahid qismində qəbul edilmiş funt sterlinq xarici valyutanın müəyyən miqdarında ifadə olunur.

***Valyuta səbəti*** - milli yaxud beynəlxalq (habelə regional, məsələn, avro) valyutanın məzənnəsini müəyyənləşdirmək üçün xarici valyutaların kotirovkası zamanı istifadə olunan valyutaların toplusudur. Valyuta səbəti mübadilənin ümumi iqtisadi şərtlərinin və valyutaların alıcılıq qabilİ3^ətinin dəyişməsini kifayət qədər əsaslandırılmış şəkildə nəzərə almağa imkan yaradır. Valyuta səbəti hesablanarkən, tərəzi qismində konkret ölkənin müvafiq ölkələr qrupunun ÜDM-də və xarici ticarət dövriyyəsində xüsusi çəkisi barədə məlumatlardan istifadə edilir.

Valyuta səbəti sabit kəmiyyət deyil və ölkənin xarici iqtisadi əlaqələrində və maliyyə sahəsində baş verən dəyişikliklər nəzərə alınmaqla, tərəddüdlərə məruz qalır. Milli valyutanın səmərəliyinin ən mühüm göstəricilərindən biri, milli təsərrüfatın fəaliyyətinin nəticələrindən, bütün istehsal amillərinin məhsuldarlığından asılı olan ***alıcılıq qabiliyyətidir.*** Buna görə də milli valyutanın alıcılıq qabiliyyəti də sabit kəmiyyət deyil. Həmin kəmiyyət, qiymətlər indeksinin qurulması vasitəsilə, müqayisəli vaxt sıraları ərzində eyni tərkibli mal və xidmət toplularının qiymət səviyyələrinin dinamikalarının nisbəti əsasında hesablanır. Beynəlxalq müqayisələr aparılan tədqiqatlarda müxtəlif ölkələrin milli valyutalarının alıcılıq qabiliyyəti beynəlxalq qiymətlər indeksinin qurulması vasitəsilə, eyni tərkibli mal və xidmət toplularının milli qiymətlərinin nisbəti kimi müəyyənləşdirilir.

Beynəlxalq valyuta bazarında milli valyutanın məzənnəsinin qorunub saxlanması üçün ölkənin mərkəzi bankı valyuta müdaxiləsini həyata keçirir. Bu müdaxilə emissiya funksiyasının beynəlxalq bazarlarda valyutanın məzənnəsinin formalaşması prosesinə təsir göstənnəsinin üsullarından biridir. Valyuta müdaxiləsinin həyata keçirilməsi üçün mənbə xarici borclar, kreditlər, habelə ölkədə valyutanın yenidən bölgüsüdür.

Beynəlxalq valyuta vahidləri və sərbəst dönərli valyutalar ölkələr tərəfindən beynəlxalq hesablardakı borcları tənzimləmək yaxud milli valyuta üçün ehtiyat qismində istifadə olunan *ehtiyat valyutalarını* təşkil edir.

## 18.12. Ehtiyat valyutası

*Ehtiyat valyutası* - dövlətin beynəlxalq ticarətdə və başqa beynəlxalq hesablaşmalarda istifadə etmək məqsədilə öz valyuta ehtiyatlarının bir hissəsi kimi saxladığı xarici valyutaya verilən addır. Bu qisimdə tanınmaq üçün ehtiyat vaİ50itası aşağıdakı dörd şərtə cavab verməlidir:

- sabit (dayanıqlı) daxili və beynəlxalq əhəmiyyətə (dəyərə) malik olmalıdır;
- beynəlxalq ticarətdə mühüm rol oynayan valyuta olmalıdır;
- xarici valyuta bazarında (foreign exchange market) sərbəst dəyişdirilə bilməlidir;
- sərbəst dönərli olmalıdır.

Ehtiyat valyutaları qismində, adətən *dollar, avro, İsveçrə frankı, funt sterlinq və iyenadan* istifadə olunur. Avropa valyutaları avroya dəyişdiriləndək, *alman markası* və *fransız frankı* da ehtiyat valyuta rolunu ounayırdı. Müsbət saldosu valyuta daxilolmaları nəticəsində yaranan xarici ticarətdən də, valjoıta ehtiyatlarının artırılması üçün istifadə edilir.

*Qızıl və dollar əsas ehtiyat valyutasıdır.* Qeyd edək ki, hazırda əsas qızıl saxlayanlar təqribən eyni səvİ3^ədə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdir. Bu təəccüblü görünməməlidir: Şərqi Asiya ölkələrinin əhalisi iqtisadi vəziyyətdən asılı olmayaraq, əsrlər boyu ənənəyə görə sərvət qismində qızıl toplamağa üstünlük verir; eyni zamanda Avropada və ABŞ- da qızıla lazımi halda istifadə oluna bilən birbaşa pul ekvivalenti kimi yanaşılır. Aparılan tədqiqatlar da göstərir ki, Çin, Hindistan, Cənubi Koreya, Tayvan və Sinqapur iri qızıl-valyuta ehtiyatları olan ölkələrin ilk onluğuna

daxildir. Çin Almaniyanı ötüb keçərək, üçüncü yerə çıxmışdır, amma Honkonqun ehtiyatları nəzərə almarsa, 600 milyard dollarlıq ehtiyatın sahibi kimi, ikinci yeri tutacaq. 2001-2008-ci illərdə Rusiyanın da dollarda və qızılda valyuta ehtiyatları artmışdır (ancaq daha çox dollar və avroda). Bu, dünyanın neft, qaz, metallar bazarında əlverişli vəziyyət yaranmasının nəticəsidir.

2002- 2009-ci illərdə valyuta ehtiyatlarının artımı müəyyən dərəcədə ölkəyə xarici kapital axını ilə əlaqədar olsa da, bəzi hallarda bu amil mənfi nəticələr vennişdi. Bəzi ölkələrdə (İndoneziya, Tailand, Cənubi Koreya) ehtikarçılıq kapitalı-nm qəflətən ölkədən axması 1997-ci ildə valyuta- maliyyə böhranına səbəb olmuş, hökuməti val)mta ehtiyatlarının bir hissəsini xərcləməyə və hətta kömək üçün bey-nəlxalq təşkilatlara müraciətə vadar etmişdi. Lakin sonrakı dövrdə baş verən iqtisadi artım ölkələrin bu qrupunda ehtiyatların yenidən artırılmasına imkan vermişdi.

Uzun müddətdir ki, ABŞ-da qızıl-valyuta ehtiyatlarının ixtisan müşahidə olunur və bu, dollar olmayan sərbəst valyutaların yığımının azalması, habelə dünyada ən böyük milli qızıl ehtiyatının dəyərsizləşməsi ilə əlaqədardır. Ancaq bu vəziyyət nə Amerikaya, nə də ümumdünya valyuta sisteminə nəzərəçarpan təsir göstənnəmişdir. Ölkələrin əsasən dollar valyuta standartına üstünlük verməsi, dünya iqtisadi birliyinin dollara beynəlxalq hesablaşmaların aparılması və yığım üçün ən geniş yayılmış və sabit valyuta kimi daimi, son illərdə isə getdikeə artan tələbatı, ABŞ-a be}məlxalq hesablaşmaları milli valyuta ilə heç bir məhdudiyyət olmadan aparmağa imkan verir. Dünya təcrübəsində beynəlxalq hesablaşmalar, tədiyyələr, kredit və ehtiyat məqsədləri üçün istifadə olunan pul vahidləri arasında ABŞ-m milli valyutası, sözsüz ki, üstünlüyə malikdir. Avronun rolu da getdikcə güclənməkdədir və 2003-2007-ci illərdə dolları bir qədər sıxışdırsa da, qlobal böhran zamanı mövqelərini itirməyə başlamışdır. Avro 2010-cu ilin ikinci yarısından dolların zəifləməsi hesabına yenidən möhkəmlənməyə başlamışdır.

Yaxın dövrlərdə aparıcı ölkələrin və BVF-in siyasəti dünya pul-maliyyə mexanizmindən qızılın sıxışdırılaraq, başqa likvid vasitələr və maliyyə aktivləri ilə əvəz edilməsinə yönəlmişdi. Güman edirik ki, qızıl olmayan vəziyyətin, ümu-miyyətlə, təsəvvür edilməməsi və yaxın dövrdə onun ehtiyatların hesablanması üçün həm yuxarıya, həm də aşağıya

tərəddüd edən əbədi göstərici olmasını nəzərə alaraq, bu siyasət uğur qazana bilməz. 2010-cu ildə dünyanın qızıl-valyuta ehtiyatlarında qızılın xüsusi çəkisi bazar qiyməti üzrə 1990-cı ildəki 29%-dən 15%-ə düşmüşdür. İnkişaf etmiş ölkələrdə bu göstərici orta hesabla 34%-dən 24%-ə, inkişaf etməkdə olan ölkələrdə isə 15%-dən cüzi, 4%-ə enmişdir (Çin, Hindistan, Cənubi Koreya və Braziliya istisna olunmaqla). Hökumətlərin qızılla müqayisədə, sərbəst dönərli valyutalara üstünlük vennəsi göz qabağındadır. Amma bunun da izahı var: həmin ölkələrə pulun çatışmadığı ağır vəziyyətdə ***valyuta hesablaşma vahidləri*** lazımdır.

Əvvəlki əsrlərin təcrübəsi göstərir ki, qızıl «özü-özünün qeydinə qaldığı» üçün onun taleyi heç bir narahatçılıq doğurmamalıdır. Bu nöqteyi-nəzər XXI əsrdə qızıl yığımının yeni mərhələsinin başlanması ilə təsdiqlənir.

Nəzəriyyəyə görə, əsas kapitalist ölkələrinin valyuta ehtiyatlarının müəyyən hissəsini təşkil edən qızıl valyutasından beynəlxalq iqtisadi münasibətlərdə təkrarən istifadə olunması mümkündür. Buna görə də gələcəkdə ondan tədiyyə balanslarının kəsirinin örtülməsi üçün istifadə olunmasını istisna edilməməlidir. Amma qızılın bütün yaxud ilkin funksiyalarının çoxunun bərpa olunması real görünmür. Bunu məhdudlaşdıran mühüm amillərdən biri son 10-15 il ərzində qızılın qiymətinin əvvəllər iqtisadi tarixdə məlum olmamış həddə qalxaraq tərəddüd etməsidir. Qızılın 1934-cü ildən başlayaraq 1960-cı illərədək dəyişməz qalan qiyməti (1 troya unsiyasına görə 35 dollar) 1980-ci ilin yanvarında 1 troya unsiyasına görə 850 dollar, 1980-1990-cı illərdə əsasən 300-500 dollar civarında olmuş, 2001-2005-ci illərdə 550 dollara qalxmışdır. 2006-cı ilin İ30inunda qızılın qiyməti 700 dollar həddini aşmış, 2008-ci ildə 1000 dollara yaxınlaşmışdır; 2010-cu ilin ortalarında qızılın 1 troya unsiyasının qiyməti 1300 dollardan çox, 2011-ci ilin ortalarında isə 1555 dollar olmuşdur.

## 18.13. Qızıl-valyuta ehtiyatları

Qızıl-valyuta ehtiyatları 2 elementdən ibarətdir: qızılın özü və sərbəst dönərli valyutalar.

***Qızıl və başqa ehtiyatlar.*** Ümumi iqtisadi nəzəriyyədən məlumdur ki, pul və sərvət yığımı qızılın funksiyalarına aiddir. Qədim vaxtlardan dövlətin

sərvəti qızılla, onun ehtiyatlarının mövcudluğu ilə əlaqələndirilirdi. Xəzinənin qızılı ümumilikdə dövlət sisteminin sabitliyi amili kimi nəzərdən keçirilirdi. Maraqlıdır ki, hələ eramızdan əvvəl qızıl ehtiyatları olmayan bəzi hökmdarların onu cadugərlərin köməyi və kimyəvi təcrübələrin aparılması yolu ilə əldə etmək səyləri ilə yanaşı, hətta məhv etmək cəhdləri də olmuşdur. Buna görə də BVF, ABŞ, Böyük Britaniya və İsveçrənin 1980-ci illərdə həyata keçirilən libertarian iqtisadi siyasətdən «məstləşib» ke3msçi tənzimləmə sistemini dağıdarkən qızılı ən adi əmtəə elan edib, ondan yaxa qurtannaq cəhdləri ağlasığmaz görünür. Amma qızıl heç zaman «adi əmtəə» olmamış və olmayacaq: onun əsrarəngiz füsunkarlığı nə doqmatik, nə də rasional yanaşmadan təhlil oluna bilməz. Qeyd etmişik ki, qızıl özü-özünün qeydinə qalır və əsas problem *milli valyutaların, o cümlədən dolların sabitliyinin necə təmin olunmasıdır.* Belə bir sual meydana çıxır: aparıcı dövlətlərin liderləri qızılı məhv etməyə çalışan qədim hökmdarlardan nə ilə fərqlənir? Razılaşaq ki, bu sual o qədər də mənasız deyil.

Maliyyə sisteminin sabitliyinin təmin olunması, o cümlədən xəzinədə xüsusilə möhkəm, sərbəst dönərli valyutaların mövcudluğunun təmin edilməsi funksiyası dövlətlərin valyuta tənzimləmə qurumlarının funksiyalarına aiddir. Dövlətin qızıl-valyuta ehtiyatlarının artırılması imkanlan bu hallarda yaranır:

- qızıl ölkənin özündə hasil olunduqda;
- qızıl satın alındıqda;
- ticarətdə ixracın idxalı mütəmadi olaraq üstələdiyi halda.

Dünyada ticarətin və qarşılıqlı mübadilənin başqa növlərinin miqyasının genişləndiyi şəraitdə ölkələrin rəsmi orqanlarının sərəncamında olan beynəlxalq likvid vasitələrin ehtiyatları da çoxalır. Statistika göstərir ki, ötən onillik ərzində bu ehtiyatların dünya üzrə məbləğinin mütləq artımı onun 1990-cı illərdəki artımından və nisbi orta illik artım templərindən 2 dəfədən çox (6,8% müqabilində 3,1%) olmuş, habelə əvvəlki onilliyin müvafiq göstəricilərini üstələmişdir.

Bununla belə, beynəlxalq ehtiyatların bu qlobal kütləsində həm struktur, həm də onların ayrı-ayrı ölkələr və iqtisadi-coğrafi regionlar arasında bölgüsü baxımından nəzərəçarpan dəyişikliklər baş vermişdir. Əvvəlki illərdə olduğu kimi, ehtiyatların ümumi kütləsinin artımı müstəsna olaraq valyuta komponenti hesabına baş veraıiş, qiymətli metalların

qiymətinin ucuzlaşması nəticəsində rəsmi qızıl ehtiyatlarının dəyəri 1980-ci illərdə dünya ehtiyatlarının strukturunda ixtisar olunmuşdur (15%-dən bir az yuxarı). Son illərdə qızılın qiyıuəti bir qədər bahalaşmışdır. Bu hal qızıl ehtiyatlarının əksər hissəsinə malik olan inkişaf etmiş ölkələrə daha çox təsir göstərmişdir. Amma məsələnin təhlilində yalnız bunu nəzərə almaq düzgün olmazdı. Birincisi, son onillikdə inkişaf etmiş ölkələr qrupunda valyuta yığımları əvvəlki illərlə, ikincisi isə, inkişaf etməkdə olan ölkələrlə müqayisədə zəif templərlə artırdı (cədvəl 18.1).

18.1-ci cədvəl 1972-2010-cu illəri əhatə edən dövrdə dünyada qızıl-valyuta (qızıl və valyuta) ehtiyatlarının artım dinamikasını əks etdirir. Ənənəyə görə, dünyanın likvid tədiyyə vasitələri fondunun dinamikası ilk növbədə inkişaf etmiş ölkələrdəki vəziyyətdən asılı olmuşdur. Yuxarıda deyildiyi kimi, 1990-cı illərdə bu fondun doldurulmasında inkişaf etməkdə olan ölkələr daha böyük rol oynamağa başlamışdır; onların ümumi valyuta və qızıl ehtiyatlarının eəmi inkişaf etmiş ölkələrin ehtiyatlarından bir qədər az olsa da, valyuta ehtiyatlarının məcmu həcmi ilk dəfə olaraq onları üstələmişdi. 1990-cı illərin əvvəlində inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin valyuta ehtiyatları 65:35, qızıl-valyuta ehtiyatları isə 70:30 nisbətində qiymətləndirilirdi.

Aydındır ki, bu, meyillərdən biri olsa da, dayanıqlı inkişafda yalnız bu amil başlıca rol oynamır (cədvəl 18.2).

*Cədvəl 18.1*

**Dünyanın qızıl-valyuta ehtiyatları (ilin sonuna, milyon XBH)***

| Region | 1972 | 1982 | 1992 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|---|
| Bütün ölkələr | 146,6 | 361,0 | 753,8 | 4110,9 | 4599,7 | 6772,9 | - |
| Sənayesi inkişaf etmiş ölkələr cəmi: | 113,3 | 214,0 | 426,4 | 997,5 | 1046,3 | - | - |
| ABŞ | 12,1 | 29,9 | 52,9 | 46,8 | 1046,3 | 42,1 | 45,25 |
| Kanada | 5,5 | 3,4 | 8,6 | 25,9 | 48,6 | - | - |
| Avrozona (o cümlədən AMB) | - | - | - | 148,7 | 27,7 | - | - |
| AMB | - | - | - | - | 160,4 | - | 53,352 |
| Fransa | 9,2 | 17,8 | 22,522 | 31,8 | - | 30,4 | 28,5 |
| Almaniya | 23,5 | 43,9 | 69,4 | 31,8 | 30,6 | 38,6 | 38,08 |
| İtaliya | 5,6 | 15,1 | 22,4 | 20,7 | 33,63 | 35,3 | - |
| Yaponiya | 16,9 | 22,0 | 52,9 | 603,7 | 645,7 | 1003,3 | 1014,7 |
| İsveçrə | 5,9 | 16,9 | 27,1 | 29,4 | 30,6 | - | - |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Böyük Britaniya | 5,2 | 11,9 | 27,3 | 31,3 | 29,2 | 41,6 | - |
| inkişaf etməkdə olan ölkələr, cəmi | 33,2 | 145,6 | 327,4 | 3113,3 | 3553,4 | - | - |
| *Regionlar üzrə:* | | | | | | | |
| Afrika | 3,9 | 7,7 | 13,0 | 183,7 | 230,2 | - | - |
| Asiya | 7,9 | 44,4 | 191,0 | 1892,9 | 2136,2 | - | - |
| Çin (Tayvan və Flonkonqsuz) | - | 10,7 | 15,4 | 969,0 | - | 1246,0 | 2450,0 |
| Hindistan | 1,0 | 4,2 | 4,5 | 169,3 | 164,6 | 245,9 | 248,2 |
| Cənubi Koreya | 0,485 | 2,5 | 12,4 | 165,9 | 142,5 | 201,2 | - |
| Qərbi Avropa | 2,6 | 5,3 | 13,7 | 537,3 | 628,4 | - | - |
| Rusiya | - | - | - | 295,3 | - | 438,2 | 415,3 |
| Yaxın Şərq | 9,4 | 64,0 | 44,3 | 216,9 | 230,2 | - | - |
| Qərb yarımkürəsi | 9,0 | 25,5 | 65,1 | 282,3 | 328,3 | - | - |
| Braziliya | 3,8 | 3,5 | 16,4 | 113,5 | 132,0 | 207,5 | 252,3 |
| Meksika | 1,0 | 0,8 | 13,8 | 55,1 | 57,0 | - | - |
| *Memorandum:* | | | | | | | |
| Neft ixrac edən ölkələr | 9,9 | 67,1 | 46,3 | 313,2 | 349,4 | - | - |
| inkişaf etməkdə olan və neft ixrac etməyən ölkələr, o cümlədən Tayvan | 23,3 | 78,5 | 281,0 | 2800,0 | 3204,0 | - | - |

* Economic Report of the President. USA. Washington, 2009; International Monetary Found (IMF). September 2010, Special ed. Washington, 2010.

*Qeyd.* Beynəlxalq ehtiyatlar maliyyə orqanlarının qızılla əmanətlərini, BVF-in ehtiyat mövqelərini və xarici valyutanı ehtiva edir.

Cədvəldən göründüyü kimi, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr qızıl saxlayan qismində təqribən eyni nisbətdə çıxış edir.

*Cədvəl 18.2*

**1990- 2010-cu illərdə qızıl-valyuta ehtiyatlarına malik olan əsas ölkələr (dövrün sonu, milyard dollar)***

| Ölkələr, ölkə qrupları | Xarici valyuta | | Valyua və qızıl * | |
|---|---|---|---|---|
| | 1990 | 2010 | 1990 | 2010 |
| *inkişaf etmiş ölkələr* | | | | |
| Yaponiya | 78,5 | 1051,4 | 87,8 | 32,1 |
| ABŞ | 72,3 | 46,7 | 173,1 | 11,0 |
| Almaniya | 67,9 | 37,5 | 104,5 | 143,3 |
| İspaniya | 51,2 | 13,1 | 57,2 | 11,2 |
| İtaliya | 62,9 | 35,1 | 88,6 | 98,2 |

| | | | | |
|---|---|---|---|---|
| İsveçrə | 29,2 | 200,8 | 61,3 | 41,6 |
| Fransa | 36,8 | 31,5 | 68,3 | 97,7 |
| Niderland | 17,5 | 8,8 | 34,4 | 25,8 |
| Norveç | 15,3 | 37,8 | 15,8 | 0 |
| Avstriya | 9,4 | 5,5 | 17,2 | 11,1 |
| *inkişaf etməkdə olan ölkələr* | | | | |
| Çin | 29,6 | - | 34,5 | - |
| Tayvan | 72,4 | - | 77,7 | - |
| Sinqapur | 27,7 | 208,1 | 27,7 | 0,2 |
| Honkonq | 24,6 | 255,1 | 24,6 | 0,08 |
| Braziliya | 7,4 | 264,1 | 9,2 | 1,4 |
| Cənubi Koreya | 14,8 | 281,6 | 14,9 | 0,07 |
| Tailand | 13,3 | 148,8 | 14,3 | 4,0 |
| Hindistan | 1,5 | 256,2 | 5,6 | 20 |
| Malayziya | 9,8 | 85 | 10,7 | 1,4 |
| Meksika | 9,9 | 104 | 10,2 | 0,3 |

* Qızıl bazar qiyməti üzrə: 1990-cı il - 1 troya unsiyasına görə 385 dollar; 1997-ci il - 1 troya unsiyasına görə 334,55 dollar; sentyabr 2010-cu il - 1 troya unsiyasına görə 1312 dollar.

Dünya təcrübəsində beynəlxalq hesablaşmalar, tədiyyələr, kredit və ehtiyat məqsədləri üçün istifadə olunan pul vahidləri arasında ABŞ valyutasının üstünlüyü şübhəsizdir. Eyni zamanda Çinin beynəlxalq ticarətinin dünya ticarətində nüfuzu get-gedə artdıqca, yuanm təzyiqi də güclənir; avronun mövqeləri də möhkəmdir (cədvəl 18.3).

Cədvəlin məlumatlarından göründüyü kimi, bütün başqa milli və regional valyutalarla müqayisədə, dollar hələlik iyerarxiyada birinci yer tutur. Eyni zamanda yuxarıda göstərdiyimiz kimi, inkişaf etmiş ölkələrin qızıl-valyuta və qızıl ehtiyatları azalır. BVF-in məlumatlarına görə, 1990-cı ilin sonunda rəsmi qızıl ehtiyatları 35 580 ton olmuşdur. 2009-cu ilin ortasına yaxın bu kəmiyyət 29 630 tonadək, yəni 17% azalmışdır. Azalan 5950 tonun böyük hissəsi Avropa ölkələrinin mərkəzi banklarının AMB ilə razılaşma əsasında satışlarının payına düşür. Həmin dövrdə başqa mərkəzi banklar öz ehtiyatlarını nisbətən sabit səviyyədə saxlaya bilmişdi.

Qeyd olumnahdır ki, müxtəlif banklarda və yarımrəsmi idarələrdə yerləşən qızıl ehtiyatlarının həcmi heç kim tərəfindən rəsmi qaydada hesablanmamışdır. Buna görə də bəzi ölkələr öz qızıl ehtiyatlannı fəal surətdə artırırdı. Məsələn, 2009-cu ilə yaxın Əlcəzairin ehtiyatlan 14 tondan 174 tona,

Bolqanstanın ehtiyatlan 8 tondan 40 tona çatmışdır. Çinin qızıl ehtiyatları 2001-ci ildə 105 ton, 2002-ci ilin sonunda 205 ton, 2009-cu ilin sonunda 1054 ton olmuşdur və qızıl alınması bu cür templərlə davam edərsə, 2011-ci ildə öz ehtiyatlannı 2000 tona çatdıra bilər. İsrailin hazırda qızıl ehtiyatı yoxdur. Rusiyanın qızıl ehtiyatı 2011-ci ilin fevralında 790 tona yaxınlaşmışdır.

***Cədvəl 18.3***

**Xarici valyuta ehtiyatlarının strukturu**
**(dövrün sonuna, milyard dollar)***

| Ehtiyatların saxlanma forması | 1985 | 1990 | 2009 | 2010, sentyabr |
|---|---|---|---|---|
| Ehtiyatların ümumi məbləği | 382,1 | 844,5 | 8169,0 | 8421,5 |
| ABŞ dolları | 202,8 | 388,2 | 2837,1 | 2931,0 |
| Yapon iyenası | 26,5 | 63,4 | 134,1 | 156,3 |
| Funt sterlinq | 9,9 | 24,6 | 195,3 | 199,2 |
| Avro | - | - | 1250,2 | 1249,7 |
| Başqa valyutalar | 48,1 | 142,0 | 141,5 | 177,9 |

* International Financial Statistics, 1997, 2000, 2010.

«Güclü valyutalar» ətrafında baş verən istənilən ciddi böhran diqqəti qızıla yönəldir və bu hal 2008-2009-cu illərdə yaranmışdır.

Dünyada qızıl ehtiyatlarının azalması bir sıra iri ölkələrin və beynəlxalq təşkilatların (BVF) səmərəsiz yük kimi yatan və heç bir gəlir gətirməyən maliyyə aktivini saxlamağın (xüsusilə də qiymətli metalların ucuzlaşdığı şəraitdə) qeyri-mümkünlüyü barədə qənaətə gəlməsinin nəticəsidir (cədvəl 18.4).

1990-cı illərdə Kanada, Avstraliya, Niderland, Belçika, Avstriya dövlət ehtiyatında olan qızılın satışı ilə fəal məşğul olurdular. Bu ölkələrin satdığı metalın ümumi çəkisi 2000 tondan çox idi və bununla əlaqədar olaraq, rəsmi qızıl ehtiyatları Avstriya, Belçika və Avstraliyada 2 dəfə, Niderlandda 40%, Kanadada isə 5 dəfəyə yaxın azalmışdı. İndi «sarı metalın» aparıcı istehsalçılarından biri olan bu dövlət, öz rəsmi ehtiyatlarında onun yalnız simvolik həcmini, cəmi 100 ton saxlamışdır.

1999- cu ildə BVF, ABŞ, Böyük Britaniya və İsveçrə öz qızıl-valyuta ehtiyatlarının böyük hissəsinin açıq bazarlarda satıldığını bəyan etdi (cədvəl 18.5).

*Cədvəl 18.4*

**Ölkələrin və təşkilatların qızıl ehtiyatları**
**(min ton xalis metal)***

| **Qrzıl ehtiyatları saxlayanlar** | **1980** | **1990** | **1998** | **2010** |
|---|---|---|---|---|
| Ölkələrin qızıl ehtiyatları | 29,7 | 29,2 | 25,2 | 27,1 |
| Beynəlxalq təşkilatların fondları | 6,1 | 6,4 | 5,4 | 3,6 |
| Beynəlxalq Valyuta Fondu | 3,2 | 3,2 | 1.5 | 2,9 |
| Avropa Valyuta Qurumu | 2,7 | 2,9 | 2,5 | 0,5 |
| Beynəlxalq Flesablaşmalar Bankı | 0,2 | 0,3 | 0,2 | 0,1 |
| Görünən qızıl ehtiyatı | 35,8 | 35,6 | 31,5 | 30,5 |

World Gold Council, 2010.

*Cədvəl 18.5*

**Qızıl ehtiyatlarının ən iri sahibləri**
**(min ton xalis metal) ***

| **İnkişaf etmiş ölkələr** | **1990** | **1998** | **2010** | **İnkişaf etməkdə olan ölkələr** | **1990** | **1998** | **2010** |
|---|---|---|---|---|---|---|---|
| ABŞ | 8146 | 8160 | 8133 | Hindistan | 395 | 420 | 557 |
| Almaniya | 3701 | 3701 | 3402 | Çin | 332 | 405 | 1054 |
| Fransa | 3182 | 3782 | 2435 | Venesuela | 356 | 356 | 363 |
| İtaliya | 2592 | 2592 | 2451 | Livan | 287 | 287 | 286 |
| İsveçrə | 2590 | 2590 | 1040 | Əlcəzair | 160 | 174 | 173 |
| Niderland | 1708 | 1150 | 612 | Səudiyyə Ərəbistanı | 143 | 143 | 322 |
| Yaponiya | 754 | 754 | 765 | Braziliya | 142 | 124 | 33 |
| Böyük Britaniya | 736 | 726 | 310 | CAR | 127 | 117 | 124 |
| Portuqaliya | 615 | 625 | 382 | Türkiyə | 127 | 117 | 116 |
| İspaniya | 607 | 610 | 281 | Argentina | 132 | 102 | 54 |

* International Financial Statistics, 2010.

Dünyanın aparıcı ölkələrinin və BVF-in qızılı ümumdünya pul-maliyyə mexanizmindən sıxışdınlaraq, başqa likvid vasitələr və maliyyə aktivləri ilə əvəz olunmasına yönəldilmiş siyasəti göz qabağında olsa da, müəyyən dərəcədə özünü doğruldur. Prinsipcə, qızılın olmadığı hal, ümumiyyətlə, təsəvvür olunmazdır. Qızıl yaxın gələcəkdə enmə yaxud yüksəlmə istiqamətində hərəkət edərək, ehtiyatların hesablanmasının əbədi

## 18.14. Maliyyə alətləri: bazarın mexanizmləri - derivativlər

***Derivativ*** (ingiliscə - derivative) qiyməti yaxud şərtləri baza kimi götürülən maliyyə alətinin müvafiq parametrlərinə istinad edən törəmə maliyyə alətidir. Adətən, derivativin satın alınmasının məqsədi baza aktivinin əldə olunması deyil, onun qiymətinin dəyişməsindən gəlir qazanmaqdır. Beləliklə, ehtikarçı tərkib hissəsi onda əvvəlcədən mövcuddur. Derivativin fərqləndirici xüsusiyyəti, onun sayının baza alətinin sayına bərabər olmamasıdır. Adətən, baza aktivinin emitentinin derivativ buraxılışı ilə heç bir əlaqəsi olmur.

***CFD*** (Contract for differences) - fərq üzrə müqavilə olub, baza aktivinin qiymətinin dəyişməsindən mənfəət əldə olunmasını təmin edən alətdir. Məsələn, şirkət özü səhmləri üzrə derivativ buraxmadığı və onlarla ticarət etmədiyi halda, onun səhmlərinin əsasında bağlanılan CFD müqavilələrinin ümumi sayı buraxılmış səhmlərin sayından bir neçə dəfə çox ola bilər.

Derivativin aşağıdakı xüsusiyyətləri var:

• dəyəri faiz dərəcəsinin, malın yaxud qiymətli kağızın qiymətinin, mübadilə məzənnəsinin, qiymətlərin yaxud faiz dərəcələrinin indeksinin, kredit reytinqinin yaxud kredit indeksinin, başqa dəyişən kəmiyyətlərin (bəzən «bazis» adlandırılan) dəyişməsinin ardınca dəyişir;

• satın alınması üçün başqa alətlərlə müqayisədə az ilkin investisiyalar tələb olunur;

• ödənişlər gələcəkdə yerinə yetirilir.

Mahiyyətcə, derivativ iki tərəf arasında bağlanılan, onların müə}^ən aktivi yaxud məbləği müəyyən edilmiş gün və ya onun yaxınlaşdığı tarixədək razılaşdırılmış qiymətlə vermək öhdəliyini (hüququnu) təsbit edən müqavilədir.

Derivativin törəmə maliyyə aləti qismində müəyyənləşdirilməsinə başqa yanaşmalar da var. Bu yanaşmalara əsasən, başqa maliyyə alətinə istinad etdiyinə görə, müddətlilik əlamətinin olması vacib deyil. Digər baxışa görə, yalnız qiymətlər arasındakı fərq hesabına gəlir əldə edilməsini təklif edən və malların və başqa baza aktivinin göndərilməsi üçün istifadə olunmasını nəzərdə tutmayan alətlər törəmə hesab oluna bilər.

Müxtəlif ölkələrin təhlilçiləri əsaslı olaraq, derivativlərin böyük həcmini qlobal böhranın ən ağır formada genişlənməsinin səbəblərindən biri hesab edirlər. Belə ki, müxtəlif məlumatlara görə, böhran ərəfəsində derivativlərin əlaqəli olduğu bütün şirkətlərin, fondların, bankların və s. dəyəri 100 milyard dollardan çox olmadığı halda, dünya maliyyə sistemində 800 milyarddan 1 trilyon dolları adək məbləğdə derivativ dövriyyədə olmuşdu. Beləliklə, 2008-ci ildə partlayan «iri sabun köpükləri» yaradılmışdı. Buna görə də böhrana düçar olmuş bütün ölkələrdə həm törəmə maliyyə alətlərinin, həm də hecinq-fondlarınm güclü tənqidi təsadüfi deyil. Rusiyada «Qiymətli kağızlar bazarı haqqında» 22 aprel 1994-cü il tarixli №39-03 Qanunda müəyyən olunduğu kimi, törəmə maliyyə alətlərinin çoxu qiymətli kağız kimi tanınılmır. Emitentin opsionu istisnahq təşkil etsə də, «törəmə qiymətli kağız» kimi tenninlə rastlaşmaq mümkündür: qiymətli kağızlara əsaslanan alətlər (istiqraz üzrə forvard müqaviləsi, səhmlər üzrə opsion, depozitari qəbzi) bu anlayışla əhatə olunur.

***Valyuta əqdlərinin formaları.*** Valyuta əqdlərinin aşağıdakı formaları başlıca rol oynayır: fyuçers kontraktları, spot müqavilələri, müddətli müqavilələr (forvard müqaviləsi) svoplar (valyutaların icra müddəti müxtəlif olan müddətlərdə alqı-satışı üzrə eyni zamanda yerinə yetirilən əməliyyatlar).

***Spot (kassa) alətləri:*** Spot məzənnələri matrisindən istifadə olunması mübadilə məzənnələrinin bazar sisteminə aydınlıq gətirilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Buna valyutanın ən yüksək məzənnəsinin təsbit olunması və sonradan valyutanın məzənnəsinin axtarılan, gündəlik nəşrlərdə dərc olunmayan əks kəmiyyətinin hesablanması əsasında nail olunur.

***Fyuçers*** (fyuçers müqaviləsi) *{ingiliscə* futures). Bu törəmə malİ3^ə aləti, yəni baza aktivinin alqı-satqısı haqqında müddətli birja müqaviləsi XVIII əsrdən qüvvədədir. Müqavilə bağlanarkən, tərəflər (alıcı və satıcı) aktivin bütün parametrlərini əvvəlcədən müəyyənləşdirməklə, onun yalnız qiymətinin səviyyəsi və göndərilmə müddətini razılaşdırır və öhdəliklərini yerinə yetirənədək birja qarşısında məsuliyyət daşıyırlar.

Fyuçersi təşkil olunmuş bazarda dövriyyədə olan forvard müqaviləsinin standartlaşdırılmış növü kimi nəzərdən keçirmək olar. Fyuçerslərin iki əsas növü var:

1) müqavilənin yerinə yetirildiyi tarixdə alıcının əldə etməli, satıcının

isə spesifikasiyada müəyyən edilmiş miqdarda baza aktivini satmalı olduğunu nəzərdə tutan göndəriş fyuçersi. Göndərişlər birja müzaidələrinin son tarixində təsbit olunmuş hesablaşma qiyməti ilə yerinə yetirilir;

2) baza aktivi fiziki göndərilmədən, kontrakt qiyməti ilə kontraktın yerinə yetirildiyi tarixdə aktivin faktiki qiyməti arasındakı məbləğdə müqavilə iştirakçıları arasında pul hesablaşmalarının aparılmasını nəzərdə tutan hesablaşma (göndərişsiz) fyuçersi. Adətən baza aktivinin qiymətinin dəyişməsi riskinin hecinqi yaxud ehtikarçıhq məqsədi üçün istifadə olunur.

***Svop*** (ingiliscə - swap) - mənfəəti artırmaq (xərcləri və riskləri azaltmaq) yaxud faiz dərəcələrinin dəyişdirilməsi üçün aktivlərin və passivlərin başqa ödəniş müddətləri olan eyni cür aktivlərə yaxud passivlərə mübadilə olunması (faiz svopu, valyuta svopu, kredit-defolt svopu) üzrə bağlanılan müqavilə.

Valyuta bazarlarını birləşdirən həlqə kimi, svop fəaliyyəti xarici valyutalarla əməliyyatlar keçirilərkən ***diskontun mahiyyətinin*** başa düşülməsində başlıca rol oynayır. Svop fəaliyyətinin uzun müddət həyata keçirilməsi qaçılmaz olaraq müəyyən xarici valyutanın spot məzənnəsinin yüksəlməsinə və forvard yaxud satış məzənnəsinin aşağı düşməsinə gətirib çıxarır. Bunun nəticəsində forvard əməliyyatlarında diskont fonnalaşsa da, müəyyən mərhələdə diskontun fasiləsiz artımı, habelə valyuta bazarında mükafatın yaxud diskontun yenidən bərabərləşməsi (tarazlıq və ya daha dəqiq desək, bu cür tarazlaşmaya meyil) baş verdiyinə görə, investorların arbitraj əməliyyatlarına marağı zəifləyir.

***Forvard*** (forvard müqaviləsi) ***{ingiliscə*** - forward) bir tərəfin (satıcının) müqavilə ilə müəyyənləşdirilmiş müddətdə başqa tərəfə (alıcıya) əmtəəni (baza aktivini) vennəsini yaxud alternativ pul öhdəliyini yerinə yetinnəsini, alıcının isə həmin baza aktivini qəbul edib, dəyərinin ödəməsini nəzərdə tutan müqavilədir (törəmə maliyyə alətidir). Müqavilənin şərtlərinə görə, tərəflər arasında öhdəliyin yerinə yetirildiyi vaxt baza aktivinin göstəricisindən asılı olan məbləğdə qarşılıqlı pul öhdəlikləri meydana çıxır, müqavilədə razılaşdırılmış qaydada və müddət ərzində yaxud tarixdə yerinə yetirilir.

Müxtəsər desək,/brvorJ ***əqdləri*** - xarici valjmta ilə aparılan müddətli əməliyyatlardır. Spot (kassa) əqdlərində valyuta müştəriyə dərhal, forvard (müddətli) əqdlərində isə dəqiq müəyyənləşdirilmiş vaxt ərzində verilir. Bu

halda spot və forvard məzənnələri arasındakı fərq qiymət proqnozları (ehtimalları) əsasında müəyyən olunur. Məsələn, xarici idxalçı böyük həcmdə əmtəə partiyasının alınması planlaşdırılan ölkənin milli valyutasının məzənnəsinin yüksəlməsini (enməsini) gözləyirsə, mah alacağı vaxt yaranan yeni valyuta şəraitinə əsaslanaraq, ehtimal etdiyi mənfəətdən asılı olaraq müvafiq aləti - spot yaxud forvardı seçəcək. Forvard mübadilə məzənnəsinin spot mübadilə məzənnəsi ilə müqayisədə üstünlüyü mükafat yaxud diskont təmin etməsi və faiz dərəcələrinin dəyişməsinə daha çevik reaksiya venuəsidir. Bununla bərabər, forvard aləti dünyanın maliyyə mərkəzlərinin qarşılıqlı uyğunlaşmasını daha yüksək dərəcədə təmin edir. Bu uyğunlaşma mexanizmində müddətli əqdlər üzrə faiz dərəcələri arasındakı fərqləri nəzərə alan diskontlar (mükafatlar) başlıca rol oynayır.

Forvard *hesablaşma yaxud göndəriş* forvardı. Hesablaşma (göndərişsiz) forvardı (NDF - non-deliverable forwards) baza aktivinin göndərilməsi ilə bitmir. Göndəriş forvardı (DF - deliverable forwards) baza aktivinin göndərilməsi və əqdin (müqavilənin) şərtlərinə müvafiq olaraq ödənilməsi ilə başa çatır.

*Birjadankənar müddətli əqd* (öhdəliklərin yerinə yetirilməsi təxirə salınmış) də göndəriş forvardıdır. *Açıq tarixli forvard* - hesablaşmaların aparılması (yerinə yetirilməsi) tarixi göstərilməyən forvard kontraktıdır. *Aktivin forvard qiyməti* - müvafiq aktiv üzrə forvard kontraktlarının cari qiymətidir.

***«İsti pullar»*** - inflyasiyanın nəticələrindən yayınmaq yaxud valyutaların məzənnəsinin dəyişməsi, ölkələr arasında vergitutmadakı fərqlər sayəsində əlavə mənfəət əldə etmək məqsədilə sahibləri tərəfindən bir istifadə sahəsindən digərinə və ya bir ölkədən başqasına köçürülən iri həcmdə qısamüddətli ehtikarçılıq kapitalı, pul vəsaitləridir. «İsti pulların» əsas hərəkətverici qüvvəsi iqtisadi yaxud siyasi qeyri-sabitlik, inflyasiya, valyuta böhranıdır. Yerdəyişməsi qəflət olduğuna görə «isti pullar» təhlükəlidir; onlar canlanma və yüksəliş dövründə iqtisadi «bum» yaradır, tənəzzül vəziyyətində isə inflyasiyanın gücləndirilməsi, tədiyyə balansının tarazlığının pozulması, valyuta məzənnələrinin enib-qalxması vasitəsilə böhran təzahürlərini kəskinləşdirir.

***Rusiyada müddətli əqdlər bazarı.*** Böhrana qədərki dövrdə məbləği yüz milyonlarla dollar təşkil etsə də, Rusiyanın derivativlər bazarı həcminə

görə Qərbin müvafiq bazarından xeyli geridədir. Onun inkişafını ləngidən bir sıra səbəblər mövcuddur: maliyyə bazarının yeni formalaşması, onun dövlət tərəfindən dəstəklənməməsi, qanunvericilikdəki boşluqlar. Ölkənin müddətli əqdlər bazarının yarandığı 1992-ci ildə, habelə sürətlə inkişaf etdiyi 1997-1998-ci illərdə tamdəyərli qanunvericilik bazası olmamışdır. Onun tənzimlənməsinin əsasları Rusiya Ali Sovetinin 22 fevral 1992-ci ildə qəbul etdiyi RF-in «Əmtəə birjaları və birja ticarəti haqqında» 2383-1 №-li Qanununda müəyyən olunmuşdur. Qanun artıq köhnəlmiş, vəziyyət dəyişmişdir və onun bir çox müddəalarının yenilənməsinə ciddi ehtiyac vardır.

Ümumiyyətlə, ölkədə müddətli əqdlərin tənzimlənməsinin 4 səviyyəsi mövcuddur: qanunvericilik (hüquqi çərçivə), məhkəmə qərarları, müqavilə bazası, işgüzar əməliyyatların aparılması adətləri. Qanunvericilik (mülki, vergi, bank, anti-inhisar, müflisləşmə haqqında), təəssüf ki, hələ kifayət qədər inkişaf etməmişdir və mahiyyətcə, mütərəqqi dəyişikliklərin aparılmasına baxmayaraq, bir çox hallarda hələ də təzadlıdır.

Rusiyanın müddətli əqdlər bazarında fəalİ3^ət göstərən universal alətlər bunlardır:

- göndərişsiz əmtəə fyuçersləri (non-deliverable commodity futures);
- əmtəə indeksləri (commodity index);
- göndərişli valyuta forvardları (deliverable currency forwards);
- hesablaşma valyuta forvardları; (non-deliverable currency forwards);
- göndərişli valyuta opsionları (deliverable currency option );
- göndərişsiz valyuta opsionları (non-deliverable currency option );
- valyuta faiz svopları (cross currency swaps);
- faiz svopları (interest rate swaps).

*SVİFT {SWIFT - Society for Worldwide Interbank Financial Telecommunication — Ümumdünya Banklararasi Maliyyə Telekommunikasiyaları Birliyi).* Valyuta bazarlarında aparılan əməliyyatlar barədə informasiyanın müştərilə-rin qərar qəbul etməsi üçün böyük əhəmiyyəti var. Bu informasiyanı mənzil-qərargahı Brüsseldə yerləşən SVİFT özəl qeyr- kommersiya təşkilatı verir. SVİFT-in 2 mindən çox üzvü vardır və onların əksəriyyəti bank idarələridir. Onun elektron informasiya ötürücüləri mərkəzləri xarici valyuta ilə aparılan əməliyyatlar, ödəmə-lərin, beynəlxalq

ticarət sənədlərinin etibarlılığının təsdiqi və s. haqqında məlumat-ları ötünnəyə imkan verən beynəlxalq xətlərlə birləşdirilmişdir. Onun alternativi olan Britaniyanın «Röyter» *{ingiliscə* - Reuters) isə valyutalar haqqında nisbətən az məlumatlıdır. SVİFT dünyanın bütün maliyyə mərkəzləri ilə əməkdaşlıq edir, Nyu-Yorkun valyuta və avrodollar əqdləri üzrə *Banklararası Klirinq Hesablaşmaları Sistemi (CHİPS - Clearing House Inter-Bank Payments System)* vasitəsilə hesablaşmalar aparan iri banklarının çoxuna (150-dən artıq) xidmət göstərir.

***2008- 2010-cu illərin qlobal böhranı ilə əlaqədar olaraq dünya maliyyə sistemində institusional dəyişikliklər.*** 2008-ci ildən genişlənən maliyyə-iqtisadi böhranının miqyasını anladıqca (bu böhranın o qədər də tez başa düşülmədiyi qeyd olunmalıdır), sistemyaradıcı dövlətlər' konkret hərəkətlərə keçməyə başladı. Belə ki, qlobal maliyyə nəzarəti sahəsində ümumi razılaşdırılmış tədbirlərin həyata keçirilməsi üzrə aparıcı dövlətlərin real əməkdaşlığı möhkəmlənirdi. Bu zəruriliyin siyasi cəhətdən dəstəklənməsində qlobal maliyyə nəzarəti sistemi üçün bir sıra yeni mexanizmlərin hazırlanmasını və tətbiqini təmin edən G-8 və G-20 böyük rol oynamışdır. Qeyd etmişik ki, sonuncu ümumdünya böhranı zamanı maliyyə-iqtisadi inkişaf sahəsində qərarların və əsas tövsiyələrin qəbulu G-8-dən G-20-yə «keçmişdir»; bu məqam aparıcı dövlətlərin bazar iqtisadiyyatı fonnalaşan ölkələrin iştirakı olmadan (BİF) *əhəmiyyətli dərəcədə təsir göstərmək iqtidarında olmadığını* məxsusi formada təsdiqləyir. G-20 1999-cu ildə inkişaf etmiş ölkələrlə BİF arasında iqtisadi və maliyyə siyasətinin mühüm məsələlərinin müzakirəsinin genişləndirilməsi məqsədilə yaradılmışdır. Qlobal böhran şəraitində böhranın aradan qaldırılması tədbirlərinin işlənib hazırlanması və həmin məsələlər üzrə ayrı-ayrı ölkələrin fəaliyyətinin əlaqələndirilməsi üçün məhz bu qrupun daha münasib olduğu aşkarlandı. 15 noyabr 2008-ci ildə Vaşinqtonda G-20-nin birinci sammiti keçirildi. Onun yekunu olaraq, beynəlxalq maliyyə sahəsində bir sıra yeni təşəbbüslərin həyata

Sistem yaradan dövlətlərə ümumdünya ÜDM-nin, ticarətinin və əhalisinin ən böyük payları düşənlər aid edilir. Bazar münasibətlərinin inkişaf səviyyəsinə görə onların tərkibinə inkişaf etmiş və bazar iqtisadiyyatı formalaşan ölkələr daxil edilir.

^ G-20-nin tərkibinə ABŞ, Almaniya, Argentina, Avstraliya, Böyük Britaniya, Braziliya, CAR, Cənubi Koreya, Çin, Fransa, Hindistan, İndoneziya, İtaliya, Kanada, Meksika, Rusiya, Səudiyyə Ərəbistanı, Türkiyə, Yaponiya, habelə Aİ, BVF və DB (kollektiv üzv qismində) daxildir.

keçirilməsini nəzərdə tutan Bəyannamə qəbul edildi. Onlardan bəzilərini, Sistemdə yeni təsisatların yaranmasımı ifadə edənləri sadalayaq:

• G-20 nəzdində Tədqiqat Qrupu (TQ) yaradılmış və ona qlobal kredit bazarının işində baş verən böhranın və «pozuntuların» səbəblərinin öyrənilməsi, bu cür halların yaranmasının qarşısının alınması üzrə tədbirlərin hazırlanması və bunun G-20 sammitində baxılmaq üçün təqdim olunması tapşırılmışdı;

• G-8 nəzdində fəaliyyət göstərmiş Maliyyə Sabitliyi Forumu (MSF) genişləndirilmiş və G-20-nin orqanı olan Maliyyə Sabitliyi Şurası (MSŞ) yaradılmışdı. Onun qarşısında BVF ilə birgə dünya maliyyə bazarlarına təsir göstərilməsinə yönəlmiş təkliflərin hazırlanması vəzifəsi qoyulmuşdu;

• tövsiyələr əvvəlcə MSF-in strateji hesabatları, onun yenidən təşkilindən sonra isə MSŞ-nin G-20 üçün Flesasbatları kimi rəsmiləşdirilmişdi. Burada maliyyə riskləri sahəsində xarici işlər nazirləri və mərkəzi bank rəhbərləri səviyyəsində aparılan işlərin şəffaflığının təmin edilməsi, habelə maliyyə alətlərinin qiymətləndirilməsi təcrübəsinin yayılması, vahid standartlar bazası əsasında maliyyə hesabatlığına görə məsuliyyətin artırılması barədə razılaşmalar öz əksini tapmışdır.

• BVF-ə və genişləndirilmiş MSŞ-yə dünya iqtisadiyyatında tsiklliyin aradan qaldırılması üzrə tənzimləmə tədbirlərinin və tövsiyələrin hazırlanması tapşırılmışdır;

• tənzimləmə agentlərinə işində böyük qüsurlar aşkar edilən beynəlxalq reytinq təşkilatlarının fəaliyyətinə nəzarəti gücləndirmək tapşırılmışdır. Bu təşkilatların ən nüfuzluları 2009-cu ildə Kredit-Reytinq Agentliklərinin Davranış Məcəlləsinin (lOSCO - International Organization of Securities Commissions) prinsipləri əsasında yenidən işlənmiş Davranış Məcəlləsini qəbul etmişdir;

• tənzimləmə orqanlarına banklarda risklərin idarə olunmasının səmərəliliyinin yüksəldilməsi üzrə tövsiyələri təkmilləşdirmək, risklərin idarə olunması sahəsində daha ciddi tədbirlərin tətbiqi məqsədilə daxili nəzarət mexanizmlərinə yenidən baxmaq tapşırılmışdır;

• Bazel komitəsi risklərin idarə olunmasının ən mühüm sahələrində nəzarətin həyata keçirilməsi üzrə tövsiyələrini təkmilləşdirməyə borcludur; komitə risklərin idarə olunması üzrə yeni təlimat və likvidliyin itirilməsi risklərinin ağlabatan idarəçiliyi və nəzarət prinsiplərini işləyib hazırlamışdır;

• milli və regional tənzimləmə orqanlarına təşkilatlar arasında qarşılıqlı əlaqələrin beynəlxalq səviyyədə tənzimlənməsinin təkmilləşdirilməsi sahəsində işin güeləndirilməsi barədə göstəriş verilmişdir;

• nəzarət orqanları bütün iri beynəlxalq maliyyə idarələrində nəzarət kollegiyalarının yaradılmasında sıx əməkdaşlıq etməlidir. 2009-2010-cu illərdə həmin *nəzarət kollegiyaları* göstərilən MSF-də (MSŞ-də) sistem yaradan maliyyə-bank qurumlannm çoxunda təşkil olunmuşdur;

• tənzimləmə orqanları böhran şəraitində idarəçiliyin beynəlxalq mexanizmlərinin möhkəmləndirilməsi məqsədilə lazımi tədbirləri həyata keçirməyə borcludur. Beynəlxalq səviyyədə nəzərdə tutulan tədbirlərdən biri, bazarları formalaşan ölkələrin daha geniş iştirakını təmin etmək üçün MSF-in genişləndirilməsidir. Buna müvafiq olaraq MSF genişləndirilmiş, onun tərkibinə G-20-nin yeni ölkələri - Argentina, Braziliya, CAR, Cənubi Koreya, Çin, Hindistan, İtaliya, Səudiyyə Ərəbistanı və Türkiyə, habelə Avropa İttifaqı daxil edilmiş, MSF-in özü isə MSŞ-yə çevrilmişdir;

• BVF və MSŞ-in hazırladığı ilkin xəbərdarlıq mexanizmi BVF/DB-nin 2009-cu il yaz sessiyasında işə başlamışdır. BVF MSŞ ilə sıx əməkdaşlıq şəraitində qlobal böhrandan müvafiq nəticələrin çıxarılmasında aparıcı rol oynamalıdır. (Bunun üçün BVF-in əvvəlki onilliklər ərzində G- 20 və başqa beynəlxalq təşkilatlar, xüsusilə də BMT çərçivəsində hazırlanmış yeni göstərişlərə uyğun gəlməyən iqtisadi libertari-ançılığm güclü təsiri altında olan təhlil bölmələrinin tərkibi dəyişməlidir. - R.X.);

• «Vaşinqton fəaliyyət planında» göstərilən konkret tədbirlərin həyata keçirilməsi məqsədilə 4 işçi qrup yaradılmışdır;

■ İQ-1 «Maliyyə bazarlarında tənzimləmənin keyfiyyətinin və şəffaflığın yüksəldilməsi»,

■ İQ-2 «Beynəlxalq əməkdaşlığın genişləndirilməsi və malİ5^ə bazarlarının bütövlüyünün təmin olunması»,

■ İQ-3 «BVF-in yenidən qurulması»,

■ İQ-4 «Dünya Bankı və başqa çoxtərəfli inkişaf bankları».

Bütün bu tədbirlər və tövsiyələr 2 aprel 2009-cu ildə Londonda G-20 sammitində dövlət başçılarının keçirilən görüşündə baxılmaq üçün təqdim olunmuş və bütövlükdə təsdiq edilmişdi. «İyirmiliyin» London sammitində dövlət liderlərinin Bəyanatı və 3 əlavə Sənəd: *«Dünya maliyyə sisteminin möhkəmləndirilməsi haqqında» Bəyannamə, «Resursların beynəlxalq*

*maliyyə qurumları vasitəsilə verilməsi haqqında» Bəyannamə və «Vaşinqton fəaliyyət planının həyata keçirilməsinin nəticələri haqqında» Hesabat* qəbul olunmuşdur. Bu sammitdə Maliyyə Sabitliyi Forumu (MSF) qəti olaraq Maliyyə Sabitliyi Şurasına (MSŞ) çevrildi. Onun funksiyaları xeyli genişləndirildi. Məsələn, indi dünya malİ5^ə sistemində zəif yerlərin müəyyənləşdirilməsi, hakimiyyət orqanları arasında əlaqələrin qurulması və infomıasiya mübadiləsinin təşkili, standartlann işlənib hazırlanmasına görə eavabdeh olan qurumların fəaliyyətinin monitorinqi, nəzarət kollegiyaları ilə qarşılıqlı əlaqələrin qurulması onun vəzifələrinə aid edilmişdir. Makroiqtisadi və maliyyə risklərinin aşkarlanması məqsədi üçün ilkin xəbərdarlıq prosedurlarının yerinə yetirilməsində də Şuraya mühüm rol ayrılmışdır.

«Maliyyə sisteminin möhkəmləndirilməsi haqqında» Bəyannamədə və başqa sənədlərdə heeinq fondlarına nəzarətin güeləndirilməsi və törəmə maliyyə alətlərinin (derivativlərin) tənzimlənməsi üzrə öhdəliklər qəbul olunmuşdur. Bank Nəzarəti üzrə Bazel Komitəsinə (Committee on Banking Supervision of the Bank for International Settlements) yaxud adlandırıldığı kimi, «Bazel-2»-yə *sistem yaradan bankların kapital qoyuluşlarının minimum məbləğinə yenidən baxılması* və beynəlxalq statusa malik olan bankların fəaliyyətində müəyyən olunmuş meyarlara riayət edilməsinə nəzarətin gücləndirilməsi məqsədilə tövsiyələrin hazırlanması tapşırılmışdır.

Ümumilikdə isə, millətüstü tənzimləmə elementinin möhkəmləndirilməsi mövqeyindən beynəlxalq maliyyə sisteminin keyfiyyətcə yenidən qurulması məsələsi qarşıya qoyulur. Lakin bu sənədlərdə ABŞ başda olmaqla, aparıcı ölkələrin və BVF/DB-nin ümumdünya liberallaşdın İması və dünya maliyyə bazarının əsas «oyunçuları» üçün daha əlverişli imkanlar yaradılmasına yönəlmiş əvvəlki prinsipal siyasətinin tam iflasa uğraması barədə heç nə deyilmir.

***Böhranların qarşısının alınması üçün alətlərin təkmilləşdirilməsi üzrə BVF-in fəaliyyəti.*** BVF maliyyə böhranlarının yayılmasının ləngidilməsinə təsir göstəmıək üçün öz kreditləşdinnə alətlərini genişləndirmiş və təkmilləşdirmişdir. Alətlərin təkmilləşdirilməsi üzrə aparılan işlər çərçivəsində BVF-in İcra Şurası (Executive Board) mövcud olan çevik kredit xətti (ÇKX) üzrə verilən kreditlərin müddətini və məbləğini artırmasına, əsaslandırılmış siyasət yeritməsinə baxmayaraq, ÇKX-nin yüksək tələb-

lərinə cavab verməyən üzv-dövlətlər üçün yeni preventiv kredit xəttini (PBCX) açmaq qərarına gəlmişdir. BVF-in sərəncamçı direktoru Domenik Stross-Kan bəyan etmişdir ki, «Bu qərarlar BVF-in böhranların qarşısını almaq üçün istifadə etdiyi alətlər toplusunu genişləndirir və gücləndirir, bizim üzv-dövlətlərin maliyyə müdafiəsinin qlobal sisteminin möhkəmləndirilməsi sahəsində birgə işimizdə atılan mühüm addımların təntənəsidir. Genişləndirilmiş çevik kredit xətti və yeni preventiv kredit xətti üzv-dövlətlərə bazar qiymətlərinin həddən artıq dəyişməsindən (volatilliyindən) müdafiə olunmaqda. Fond tərəfindən dəstəklənmə təmin edilir.

Fondun sığorta tipli alətləri möhkəmləndirməsi ölkələrə böhranların qarşısının alınmasına yönəlmiş tədbirlərin vaxtında həyata keçirilməsində, habelə sistemin böhranı baş verdikdə, özlərini qorumaqda yardım etməlidir. Stross-Kan əlavə etmişdir ki, «maliyyələşmənin yenidən baxılmış alətləri əsaslandırılmış iqtisadi siyasət yeridən ölkələri həvəsləndirir. Güman edirik ki, bu kredit xətlərinin daha çox ölkə üçün açılması imkanının olması beynəlxalq valyuta-maliyyə sistemində sabitliyi daha da möhkəmləndirəcək.»

Bu islahatlar qlobal maliyyə sisteminin müdafiəsi məsələsi üzrə G-20-nin Seulda (Cənubi Koreya, noyabr 2010-cu il) keçiriləcək iclasının gündəliyinə daxil edildiyi şəraitdə aparılmışdır'.

ÇKX Fond tərəfindən kreditləşdirmə əsaslarına 2009-cu ilin martında əhəmiyyətli dərəcədə yenidən baxılması çərçivəsində yaradılmışdı. Bu alət əsas iqtisadi göstəriciləri çox yaxşı olan, əsaslandırılmış iqtisadi siyasətin həyata keçirilməsində uğurlar qazanan üzv-dövlətlər üçündür və onlara bu siyasətin təsdiq olunması anında xətdən istifadə etmək yaxud siyasət baxımdan dəyişkən şəraitdə preventiv vasitə kimi yararlanmaq imkanı verir. İcra Şurasının təsdiq etdiyi təkmilləşdirmələrə bunlar daxildir:

• kredit xəttinin qüvvədə olma müddətinin 2 dəfə artırılması (əvvəl ÇKX üzrə razılaşmalar 6 ay ərzində yaxud bu müddətdən sonra aralıq hesabat verilməklə 1 il qüvvədə olurdusa, indi 1 ilə yaxud bu müddətdən sonra aralıq hesabat verilməklə 2 il müddətinə qüvvədədir);

• üzv-dövlətin kredit xəttinin onun BVF-də kvotasının 1000%-i həcmində olan hüdudun ləğvi. Bu halda kredit verilməsinin hüdudu konkret ölkənin maliyyələşməyə tələbatı əsasında müəyyən edilir;

**Международный Валютный Фонд. Департамент внешних связей. Вашингтон, округ Колумбия, 30 августа 2010 г.**

• kreditin nəzərdə tutulan həddinin və kreditin verilməsinin BVF-in likvidlik mövqeyinə təsirinin qiymətləndirilməsinin ilkin mərhələsində İcra Şurasının iştirak etməsi tələbinin qoyulması yolu ilə prosedurların ciddiləşdirilməsi.

Yeni preventiv kredit xətti, ÇKX meyarlarına cavab verən ölkələrlə müqayisədə, daha çox sayda ölkə üçün əlçatandır. Təcrübədə ölkənin meyarlara cavab verməsi 5 ümumi sahə əsasında qiymətləndirilir:

1) xarici mövqe və bazara çıxış;
2) vergi-büdcə siyasəti;
3) pul-kredit siyasəti;
4) maliyyə sektorunun etibarlılığı və ona nəzarət;
5) məlumatların adekvatlığı.

PKX bu sahələrdən çoxu üzrə yaxşı göstəricilərin olmasını tələb etsə də, bu meyarlardan biri yaxud ikisi üzrə mötədil zəifliyi olan üzv-dövlətlərin preventiv resurslardan istifadə etmək imkanının olmasına icazə verir. PKX-nin əsas cəhətləri bunlardır:

• vəziyyətin yoxlanması prosesində keçmişdəki iqtisadi zəiflik amillərinin təsi-rinin azaldılması məqsədilə sadələşdirilmiş şərtlər qoyulması. Bu halda işlərin gedişi-nə proqramın yerinə yetirilməsi haqqında yarımillik icmallar vasitəsilə nəzarət edilir;

• razılaşma təsdiqləndikdən sonra kvotanın 500%-i miqdarında kredit almaq imkanının 12 aydan sonra 1000%-ə qaldırılması.

BVF-in yenidən qurulmasının digər istiqaməti kvotalara və Fondun idarə olunması sisteminə təkrarən baxılmasıdır. BVF-in İcra Şurasının təsdiq etdiyi təkliflər kvotalarda və Fondun idarə olunması sistemində əhəmiyyətli dəyişikliklərdə, habelə BVF-in legitimliyinin və təsir gücünün yüksəlməsində öz əksini tapacaqdır. İcra Şurasının bu qərarından sonra BVF-in sərəncamçı direktoru Dominik Stross-Kan bəyan etmişdir: «Bu tarixi razılaşma Fondun 65 illik fəaliyyəti ərzində idarəetmə sisteminin fundamental surətdə yenidən qurulmasıdır və bazarı formalaşmaqda və inkişaf etməkdə olan ölkələrin dünya iqtisadiyyatında artan rolunu daha dolğun əks etmək üçün öz nüfuzunun onların xeyrinə mühüm yenidən- bölgüsüdür».

BVF-in İcra Şurası onun yenidən qurulması çərçivəsində kvotalara 14-cü ümumi yenidən baxılmasını onların 2 dəfə artırılaraq, təqribən 476,8

milyard XBH-ə (cari mübadilə məzənnələri üzrə 755,7 milyard ABŞ dollarına yaxın) çatdırılması və üzv-ölkələrin kvotalarının əhəmiyyətli dərəcədə restruktizasiyası ilə yekunlaşdırmağı təklif edir. Bu təkliflər kvotaların 6%-dən çoxunun həddən artıq təmsil olunan ölkələr hesabına dinamik inkişaf edən, bazarları formalaşmaqda və inkişaf etməkdə olan, amma kifayət dərəcədə təmsil olunmayan ölkələrin xeyrinə yenidən bölüşdürülməsini təmin etməlidir. Şura daha böyük təmsilçiliyi, tam seçkili olan İera Şurasının formalaşmasına yönəlmiş təklifləri də qəbul etmişdir.

187 üzv-dövlətin təmsil olunduğu. Fondun gündəlik fəaliyyətinə nəzarəti həyata keçirən İcra Şurası islahatların bu zərfini və kvotaların artırılmasını. Fondun razılaşmalarının maddələrinə düzəlişlər edilməsi barədə təklifi təsdiq üçün Direktorlar Şurasına təqdim etmişdir. Düzəliş təyin olunan icraçı direktorların kateqoriyalarının ləğvi ilə nəticələnməlidir. Direktorlar Şurası tərəfindən təsdiq edildikdən sonra kvotaların artırılması və düzəliş üzv-dövlətlər tərəfindən qəbul olunmalıdır. Əksər hallarda, bu proses parlament müzakirələri və təsdiqi ilə bağlı olduğuna görə, ölkələr onun 2012-ci ildə keçiriləcək iclasa qədər başa çatmasına səy göstərməlidir. İcra Şurası kvotaların restruktizasiyası və artırılmasının qüvvəyə minməsi müddətini 2012-ei ilin oktyabrında keçiriləcək İllik iclasadək, islahatların aparılmasını isə Şuraya seçkilərin 2012-ci ildə keçirilməsi nəzərdə tutulan müddətinədək başa çatdırılmasını müəyyən etmişdir.'

Təklif edilən dəyişikliklər 18.6 və 18.7-ci cədvəldə sistemləşdirilmişdir.

**^ Международный Валютный Фонд. Департамент внешних связей. 5 ноября 2010, в Вашингтон, округ Колумбия,**

*Cədvəl 18.6*

**Təklif olunan kvotalar və səslərin sayı^ %**

| Kvotaların və səslərin sayının strukturu | Kvotaların hesablanma payı | ÜDM tərkib hissəsi nəzərə alınmaqla pay^ | Kvotaların payı | | | Səs saylarının payı | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | Sinqapura qədər | İkinci raunddan sonra^ | Təklif edilən | Sinqapura qədər | İkinci raunddan sonra [3,4] | Təklif edilən [3,4] |
| İqtisadiyyatı inkişaf etmiş ölkələr | 58,2 | 60,0 | 61,6 | 60,5 | 57,7 | 60,6 | 57,9 | 55,3 |
| iqtisadiyyatı inkişaf etmiş əsas ölkələr (G-7) | 42,9 | 48,0 | 46,0 | 45,3 | 43,4 | 45,1 | 43,0 | 41,2 |
| Amerika Birləşmiş Ştatları | 17,0 | 21,6 | 17,4 | 17,7 | 17,4 | 17,0 | 16,7 | 16,5 |
| Başqaları | 25,9 | 26,4 | 28,6 | 27,7 | 26,0 | 28,1 | 26,3 | 24,7 |
| İqtisadiyyatı inkişaf etmiş başqa ölkələr | 15,3 | 11,9 | 15,6 | 15,1 | 14,3 | 15,4 | 14,9 | 14,1 |
| Bazarları formalaşmaqda olan və inkişaf etməkdə olan ölkələr | 41,8 | 40,0 | 38,4 | 39,5 | 42,3 | 39,4 | 42,1 | 44,7 |
| İnkişaf etməkdə olan ölkələr | 34,1 | 33,2 | 30,9 | 32,4 | 35,1 | 31,7 | 34,5 | 37,0 |
| Afrika | 3,1 | 2,9 | 5,5 | 4,9 | 4,4 | 6,0 | 6,2 | 5,6 |
| Asiya ^ | 17,7 | 17,3 | 10,3 | 12,6 | 16,1 | 10,4 | 12,8 | 16,1 |
| Yaxın Şərq, Malta, Türkiyə | 6,2 | 5,2 | 7,6 | 7,2 | 6,7 | 7,6 | 7,3 | 6,8 |
| Qərb Yarımkürəsi | 7,0 | 8,0 | 7,5 | 7,7 | 7,9 | 7,7 | 8,2 | 8,4 |
| Keçid iqtisadiyyatlı ölkələr | 7,7 | 6,8 | 7,6 | 7,1 | 7,2 | 7,7 | 7,6 | 7,7 |
| Cəmi | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| *Sorğu maddələri* | | | | | | | | |
| **Ai-27** | 31,3 | 27,6 | 32,9 | 31,9 | 30,2 | 32,5 | 30,9 | 29,4 |

| Kvotaların və səslərin sayının strukturu | Kvotaların hesablanma payı | ÜDM tərkib hissəsi nəzərə alınmaqla pay^ | Kvotaların payı | | | Səs saylarının payı | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | Sinqapura qədər | İkinci raunddan sonra^ | Təklif edilən | Sinqapura qədər | İkinci raunddan sonra 3,4 | Təklif edilən 3,4 |
| BİA ərəfəsi ^ | 1,8 | 1,7 | 3,5 | 3,2 | 3,2 | 4,0 | 4,5 | 4,5 |
| ikinci raunddan sonra dəyişiklik | - | - | - | - | - | - | - | - |
| Kifayət qədər təmsil olunmamış ölkələr (faiz-bənd ilə dəyişmə) | - | - | - | - | 6,2 | - | - | 5,8 |
| Kifayət qədər təmsil olunmamış ölkələr (faiz-bənd ilə dəyişmə) | - | - | - | - | 5,7 | - | - | 5,4 |
| Dinamik İEO KİÖ (faiz-bənd ilə dəyişmə) ® | - | - | - | - | 6,0 | - | - | 5,7 |
| İEO KİÖ (faiz-bənd ilə dəyişmə) | - | - | - | - | 2,8 | - | - | 2,6 |
| Vahid azaldıcı əmsal ^ | - | - | - | - | 53,9 | - | - | - |

M ə n b ə : Финансовый Департамент МВФ. Департамент внешних связей. 5 ноября 2010, Вашингтон, округ Колумбия.

^ Bölgü mexanizminin təsviri.

^ ÜDM-in VAQP üzrə 60% bazar və 40% mübadilə məzənnələrindən istifadə olunmaqla 0,95 əmsalı əsasında azaldılmış tərkib hissə göstəricisi.

^ Meyarlara cavab verən 64 üzv-ölkənin hələ qüvvəyə minməmiş birdəfəlik artımlarını daxil edir; həmçinin BVF-ə müvafiq olaraq 2009-cu ilin 29 iyununda və 24 iyulunda daxil olan Kosovo və Tuvalunu əhatə edir. Kvotaların artırılmasına razılıq verməyən və onları ödəməyən iki ölkə üçün 11-ci Yenidən baxılma çərçivəsində təklif olunmuş kvotalar tətbiq edilir.

^ Baza səsi onların ümumi sayının qəbul edilmiş faiz miqdarından istifadə olunmaqla hesablanır. Səs və iştirak hüquqlarının genişləndirilməsi məqsədi ilə təklif eilən, amma hələ qüvvəyə minməmiş düzəlişə əsasən bu sayın 5,502%-dən istifadə olunmaqla hesablanır.

^ Hüquq BVF-in şərtlərinə cavab verən, 2008-ci ildə əhalinin hər nəfərinə düşən illik gəliri BİA-nın limitindən {1135 dollar) yaxud «kiçik ölkələr» üçün müəyyən edilmiş həddən iki dəfə aşağı olan ölkələrlə məhdudlaşır. Zimbabve həmin qrupa daxil edilmişdir.

® Kifayət qədər təmsil olunmamış İEÖ, üstəgəl dinamik inkişaf edən İEO KİÖ kimi müəyyənləşdirilmiş, VAQP üzrə ÜDM-i ikinci raunddan sonra təyin olunan kvotaya bölünməsindən alınan qismətdən yuxarı olan və təmsilçiliyi 25%-dən çox olan ölkələri əhatə edir.

’ ÜDM-in tərkib hissəsi göstəricisi ilə seçmə üsulu ilə artırıldıqdan sonrakı fərqin vahid proporsional azalması.

*Cədvəl 18.7*

**Səslərin sayının və kvotaların dəyişməsinin ümumiləşdirici cədvəli***

| BVF-in üzv-dövlətlərinin səslərinin payı | Sinqapuradək olan dövrə nisbətən | İkinci raunddan sonrakı dövrə nisbətən |
|---|---|---|
| *Səs paylarının yenidən bölgüsü (faiz-bənd)* | | |
| Kifayət dərəcədə təmsil olunmayan ölkələrə | 8,2 | 5,8 |
| Dinamik inkişaf etməkdə olan ölkələr və keçid iqtisadiyyatlı ölkələr (İEO KİÖ) | 8,8 | 5,7 |
| İEO KİÖ | 5,3 | 2,6 |
| Neft ixracatçısı olmayan İEO KİÖ^ | 7,7 | **3,9** |
| *Kvota paylarının yenidən bölgüsü (faiz-bənd)* | | |
| Kifayət dərəcədə təmsil olunmayan ölkələrə | 8,5 | 6,2 |
| Dinamik inkişaf etməkdə olan ölkələr və keçid iqtisadiyyatlı ölkələr (İEO KİÖ) | **9,0** | 6,0 |
| İEO KİÖ | **3,9** | 2,8 |
| Neft ixracatçısı olmayan İEO KİÖ^ | 6,4 | 4,2 |
| Kvota payları artmış ölkələrin sayı | 54 | 61 |
| İqtisadiyyatı inkişaf etmiş ölkələr | 10 | 8 |
| İEO KİÖ | 44 | 102 |
| Kvota payları artmış yaxud saxlanılmış ölkələrin sayı | 54 | 110 |
| İqtisadiyyatı inkişaf etmiş ölkələr | 10 | 8 |
| İEO KİÖ | 44 | 102 |
| Kvotasının nominal artımı 150%-dən çox olan ölkələrin sayı | 40 | 16 |
| iqtisadiyyatı inkişaf etmiş ölkələr | 6 | 3 |
| İEO KİÖ | 34 | 13 |
| Düzəiiş əmsald | 65,8 | 55,7 |

*BVF. Xarici Əlaqələr Departamenti, 5 noiyabr 2010-cu il. Vaşinqton, Kolumbiya əyaləti.

^ İEO KİÖ aid olan neft ixracatçıları27 ölkədən ibarət olan «yanacaq ixracatçıları» funksional qrupuna daxil edilən dövlətləri təmsil edir.

^ Düzəliş əmsalı kvotaların faktiki və hesablanmış payları arasında fərqlərin dərəcəsini əks edir. Sinqapura qədər olan dövrə Kosovo və Tuvalu daxil olunmamışdır.

Ümumilikdə isə, beynəlxalq maliyyə sisteminin millətüstü tənzimləmə elementinin möhkəmləndirilməsi baxımından yenidən təşkil olunması nəzərdə tutulur. Təəssüf ki, burada da ABŞ başda olmaqla, aparıcı ölkələrin və BVF/DB-nin ümumdünya liberallaşdırılması və dünya maliyyə bazarının əsas «oyunçuları» üçün daha əlverişli imkanlar yaradılmasına yönəlmiş əvvəlki prinsipal siyasətinin tam iflasa uğraması barədə heç nə deyilmir.

# Xülasə

• Beynəlxalq maliyyə sistemi - milli sistemlərin, habelə pul vəsaitlərinin ölkələr arasında hərəkətinin, beynəlxalq maliyyə bazarları agentlərinin fəaliyyətinə nəzarəti həyata keçirən beynəlxalq maliyyə qurumlarının tənzimlənməsi ilə əlaqədar olan müqavilələr, qaydalar və başqa beynəlxalq razılaşmaların məcmusudur. Geniş mənada, dünya maliyyə sistemi milli maliyyə sistemlərinin, maliyyə-kredit fəaliyyətini həyata keçirən beynəlxalq təşkilatların və idarələrin, habelə onların regional strukturlaşdırılmış altsistemləri (məsələn, Avropa valyuta sistemi), sistemi tənzimləyən noraıalar və qaydalar, ixtisaslaşmış beynəlxalq təsisatlar daxil olmaqla, «ümumdünya valyuta (pul) sistemi» adlandırılan həlqələrinin məcmusudur.

• Milli iqtisadiyyatların beynəlmiləlləşməsi proseslərinin gücləndiyi müasir dövrdə dünya maliyyə sistemi dünya təsərrüfatının ən güclü qloballaşmış altsistemidir. Bu, ilk növbədə, ölkələrin maliyyə sistemlərinə aiddir. Tarixən xarici iqtisadi əlaqələrin ilkin formasının pulsuz təsəvvür edilməyən ticarət olduğu məlumdur. Bəşər tarixinin ilk dövrlərində pul funksiyalarını müəyyən əmtəələr (mübadilə malları yaxud müasir temiinologiyaya uyğun olaraq satılan mallar) oynayırdı. Bu da mühümdür ki, indiyədək istənilən, ən sadə əqd belə, *dəyər ölçüsünün ekvivalenti kimi pul vahidindən* istifadə olunması yolu ilə həyata keçirilir. Pulun maliyyə yaxud pul sisteminin ilkin, əsas «hüceyrəsi» kimi səciyyəvi olan bu xassəsi dünya maliyyəsinin beynəlmiləlləşməsi prosesində onun xüsusi dinamikliyini şərtləndirmiş, davam edən qloballaşmanın (qeyd edək ki, maliyyə qloballaşması dünya iqtisadiyyatının qloballaşmasının əsas həlqəsidir) təməlini təşkil etmişdir. Bəzi hallarda beynəlxalq maliyyə inteqrasiyasının ayrı-ayrı regional həlqələrinin təşəkkülü, Aİ ölkələrində olduğu kimi, çox dərin xarakter almışdır. Burada bütün milli malİ3^ə sistemləri müəyyən muxtariyyatını saxlamaqla, mahiyyətcə, vahid maliyyə (valyuta) sisteminə inteqrasiya olunmuşdur.

• Beləliklə, dünya maliyyə sisteminin formalaşmasına hərəkət kimi baxıldıqda, bir qədər *asimmetrik xarakterdədir.* Burada izah olunmalıdır ki, milli maliyyə sistemlərini (daha doğrusu, onun ayrı-ayrı fraqmentlərini) təhlil edərkən, biz onların dəqiq təsvirinə cəhd göstərmirik. Bu, başqa tədqiqatların mövzusudur. Niyyətimiz bir ölkənin başqaları ilə əlaqələrinin həyata

*əsas kanalları* (banklar, fondlar, maliyyə mərkəzləri, maliyyə-kredit təsisatları, kapital bazarları və s.) nümayiş etdirmək; vahid dünya maliyyə sisteminin formalaşmasında, onun təşəkkülündə beynəlxalq maliyyə qurumlarının rolunu göstənnəkdir. Dünya maliyyə sisteminin tərkibi və strukturu mürəkkəbdir və burada hər bir həlqənin (burada valyuta məzənnələri sistemi xüsusi fərqləndirilməlidir) öz əhəmiyyəti var.

• Dünya malij^ə sisteminin və onun subyektlərinin fəaliyyətinin əsas vəzifəsi ssuda kapitalının hərəkətini nizamlamaq və kredit resurslarını qlobal maliyyə kanalları vasitəsilə bölməkdir. ABŞ-ın ssuda kapitalları bazarı və Avropanın kreditlər və istiqrazlar bazarı maliyyə resurslarının dünya axınlarında dominant mövqelər tutur. Amma sistemin öz vəzifələrini yerinə yetirə bilməməsi nəticəsində 2008-ci ildə güclü maliyyə-iqtisadi böhran başlamışdır və indi də davam edir.

• Müasir vaİ50ita sistemi uzun çəkən tarixi təkamülün, qızıl standartı sistemindən milli pul vahidlərinin paritetləri sisteminə əsaslanan müasir pul-valyuta sisteminə keçidin məhsuludur. Genuya sistemindən Bretton-Vuds sisteminə, sonra isə Yamayka sisteminə keçid iqtisadi tələblərdən, dünya təsərrüfatında baş verən dəyişikliklərin nəzərə alınması zərurətindən yaranmışdır. Həmin dəyişikliklərə dünya müharibələri və qlobal böhranlar güclü təsir göstərmiş və göstərməkdədir.

• Bazarın mexanizmləri və alətləri (derivativlər, fyuçerslər, opsionlar və s.) maliyyə bazarlarının başa düşülməsində böyük rol oynayır. Pul, maliyyə, valyuta bazarlarının ayrı-ayrı seqmentlərinin necə fəaliyyət göstərdiyini və fond bazarlarında baş verən ümumi dəyişiklikləri yalnız bunlar yaxşı mənimsənildiyi halda dərk etmək mümkündür.

• Müasir dünyada maliyyə bazarları təkcə böhranın başladığı ölkənin daxilində deyil, həmçinin, onun ətrafındakı makroiqtisadi şəraitdə baş verən dəyişikliklərlə əlaqəlidir. Kapitalın həm ölkəyə, həm də ölkədən axınını yaratdığına görə böhranın genişlənməsində xarici amillər daxili amillərdən az rol oynamır. Maliyyənin idarə olunmasının qlobal sistemində dünya iqtisadiyyatı və mali}^əsi sistemlərində baş verən qeyri-mütənasibliklərin aradan qaldırılmasının mexanizmi yoxdur. Bu, dünya maliyyəsinin bütün əsas təsisatlarına sirayət etmiş qlobal böhran zamanı aşkarlanmışdır.

• Valyuta məzənnələrinin idarə olunması rejimi qısamüddətli borcların yığılıb qalması problemi ilə əlaqədardır. Həmin rejimdən ən çevik istifadə

halında belə, arzulanan nəticə yalnız xarici borcun azalması ilə müşayiət olunduqda, əldə edilə bilər. BVF və liberal xarici iqtisadi siyasət tərəfdarlarının narazılığına səbəb olsa da, bu vəzifələrin yerinə yetirilməsi, əksər hallarda kapitalın hərəkəti üzərində nəzarətin sərtləşdirilməsini tələb edir. Amma yaxın dövrdə baş vermiş ümumdünya böhranı onların mövqeyində də dəyişikliklərə səbəb olmuş və millətüstü tənzimləmə mexanizmlərinin möhkəmləndirilməsinə yönəlmiş tədbirləri həyata keçirməyə vadar etmişdir.

• Maliyyə-iqtisadi proseslərin qlobal tənzimlənməsi hələ formalaşmaqda olan sahədir. Bu sahə beynəlxalq iqtisadi münasibətlərin əsas subyektlərindən - dövlətlər və hökumətlərdən, BMT-nin əsas maliyyə-iqtisadi təşkilatlarından, beynəlxalq, millətüstü, kollektiv və regional orqanlardan və təşkilatlardan, TMK, TMB, BVF, DB və ekspertlər birliyindən ibarətdir.

• Qlobal böhran zamanı BVF-in nəzarət hüquqları artırılmış, maliyyə böhranlarının qarşısının səmərəli tərzdə alınmasına yönəlmiş bir sıra tədbirlər həyata keçirilmiş, G-20 çərçivəsində Maliyyə Sabitliyi Şurası yaradılmış, hecinq fondlarının və bankların, ofşor zonalannda yerləşən şirkətlərin fəaliyyətinə nəzarət artırılmışdır.

• Hazırda dünya maliyyə sistemində aparılmış institusional dəyişikliklərə, kapitalın dünya miqyasında hərəkətində baş verən real proseslərə, həm ümumdünya (qlobal), həm də regional-qitə inteqrasiyasına uyğunlaşma prosesi davam edir.

• Bunun əsasında dünya maliyyəsində iki meylin: 1) ümumdünya inteqrasiya prosesinə cəlb olunmuş dövlətlərin maliyyə qurumlarının tarazlaşmasma və eyniləşməsinə aparan qlobal və 2) Qərbi Avropada ən klassik fonnada inkişaf edən regional-qitə güclənməsi baş verir. Bunların hər ikisinin müəyyən dərəcədə müxtəlif istiqamətli və qarşılıqlı ziddiyyətli olmasına baxmayaraq, dünya və milli maliyyə sistemlərində baş verən dəyişiklikləri sürətləndirir, onları müasirləşməyə məcbur edir. Hər iki meyil, bir tərəfdən, maliyyə sistemlərinin tarazlaşmasma və eyniləşmə-sinə, digər tərəfdən isə, onların funksiyalarının universallaşmasma, müxtəlif maliyyə alətlərinin yaranmasına, maliyyə alətləri ilə yanaşı, birgə tənzimlənməli olan maliyyə problemlərinin də bir ölkədən digərinə köçürülməsinə səbəb olur.

• Beynəlxalq təşkilatlar aparıcı dövlətlərin liderlərinin dəstəyi sayəsində böhran nəticəsində yaranan ziddiyyətlərin aradan qaldırılması vasitələrinin axtarışında kifayət qədər yüksək fəallıq nümayiş etdirmişdir. Belə ki. Bank

Nəzarəti üzrə Bazel Komitəsinə müxtəlif ölkələrdə ümumi vəziyyətin qəflətən mürəkkəb-ləşməsinə səbəb olmaması üçün bankların kapitallarının səviyyəsini tənzimləmək tapşırılmışdır. «Bazel-2» rejimi çərçivəsində bütün ölkələrə kapitala dair tələbləri tədricən «Kapitalın Yetərliyi haqqında» Sazişə uyğunlaşdırmaq tövsiyə edilmişdir. Bazel Komitəsinə milli hakimiyyətlərlə birgə olaraq, etibarlı likvidlik ehtiyatlarına münasibətdə maliyyə təsisatlarının stimullaşdırılması mexanizminin yaradılması tapşırılmışdır. Eyni zamanda BVF və Maliyyə Sabitliyi Şurasına (MSŞ) G-20-nin növbəti iclasına hökumətlərə maliyyə təsisatının sistemyaradıcı olub-olmamasının qiymətləndinnək üçün rəhbər göstərişlərin işlənib hazırlanması tapşırılmışdır. Hecinq fondlarının fəaliyyətinə nəzarət gücləndirilmişdir. Bu fondlar və rəhbər şirkətlər qeydiyyatdan keçməli, nəzarət və yoxlama orqanlarına məlumatlarını təqdim etməlidir. Risk-menecmentə və hecinq fondları ilə işləyən qurumlara dair tələblər müəyyənləşdirilmişdir. İlk dəfə olaraq, törəmə maliyyə alətlərinin, yəni derivativlərin tənzimlənməsi mexanizmi yaradılmışdır. Bu məqsədlə kredit derivativləri bazarlarının standartlaşdırılması, o cümlədən klirinq hesablaşmaları mərkəzlərinin yaradılması nəzərdə tutulmuşdur.

• BVF idarəetmə sistemlərinin yenidən qurulmasına başlamışdır: məsələn, 2013-cü ilədək inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrin kvotalarının 5% artırılması nəzərdə tutulmuşdur. Qurumla əməkdaşlıqdan imtina edən ölkələrdə yaradılan ofşorlar, vergi sığınacaqları üzərində nəzarət gücləndirilmişdir. Beynəlxalq öhdəliklərini yerinə yetimıəyən ölkələrə qarşı «razılaşdırılmış tədbirlərin həyata keçirilməsinin» qarşısını almaq üçün onlara banklar və şirkətlər haqqında məlumatları açıqlamaq təklif edilmişdir. Bu ölkələrə G-20 tərəfindən qəbul olunmuş, lakin tətbiqinə dair sərt şərtlər qoyulmamış beynəlxalq standartlardan istifadə etmək tələbi irəli sürülmüşdür. Yeni şəraitdə G-20 bu qərarın bütövlüklə icra edilməsinə nail olmaq niyyətindədir. Məsələn, istənilən ölkə bundan yayınmağa çalışdığı halda Çirkli Pulların Yuyulmasına Qarşı Maliyyə Tədbirlərinin Hazırlanması Qrupu (FATF - The Financial Action Task Force) mexanizmi işə düşməlidir.

## Yoxlama sualları

1. Dünya maliyyə sistemi anlayışı və onun məzmunu.
2. Valyuta bazarı nədir?
3. Dünya maliyyə sistemlərinin - valyuta sistemlərinin tipləri.

4. Valyuta məzənnəsi və dönərli valyuta anlayışları.

5. Ümumdünya valyuta sisteminin təkamülü - əsas mərhələlər.

6. Valyuta tənzimlənməsinin alətləri (mexanizmləri).

7. Valyuta məzənnələri, onların fəali]/yət mexanizmi.

8. Valyutaların alıcılıq qabiliyyəti. Valyutaların xassələri.

9. Valyuta bazarlarında ehtikarçılıq amilinin güclənməsi nədə təzahür olunur? 2008-2009-cu illərin qlobal maliyyə-iqtisadi böhranına derivativlər necə təsir göstənmişdir?

10. Rusiyada derivativlər bazarı.

11. Valyuta məzənnələri sistemi: onun rolu, təyinatı. Nəyi tənzimləyir və müasir iqtisadiyyatdakı hansı prosesləri əks etdirir?

12. Dünyada valyutaların hansı əsas tipləri mövcuddur? XBH-in rolu nədədir?

13 Ümumdünya böhranının aradan qaldırılması və onlann gələcəkdə baş verməsinin qarşısının alınması üçüm beynəlxalq təşkilatlar tərəfindən hansı tədbirlər həyata keçirilmişdir?

## Referatların mövzuları

1. Beynəlxalq maliyyə sistemi anlayışı, onun tərkibi və strukturu

2. Beynəlxalq valyuta sistemlərinin təşəkkül mərhələləri: Bretton-Vudsdan Genuya sisteminədək

3. Dünyanın maliyyə mərkəzləri və beynəlxalq birjalar

4. Dünya valyutalarının müasir mövqeləri: müqayisəli təhlil, 2008-2010- cu illərin ümumdünya böhranının təsiri

5. Qlobal böhranla əlaqədar olaraq dünya maliyyə-valyuta sistemində dəyişikliklər

# Fəsil 19
# AVROPANIN MALİYYƏ SİSTEMİ
## 19.1. Avropa valyuta sisteminin (European Monetary Sistem) təşəkkülünün çətin yolu

***Təkamülü.*** Dünyanın ən yeni valyutasının tarixi ötən əsrin ortalarından başlamışdır. 1958-ci ildə Avropanın bir sıra dövlətləri vahid Avropa bazarının yaradılması məqsədlərinin bəyan olunduğu müqavilə imzaladı. 1986-cı il Vahid Avropa Aktı, 1992-ci il Avropa İttifaqının yaradılması haqqında Akt birləşmə istiqamətində atılan addımlar olmuşdur. Avropa ərazisində valyuta ittifaqının yaradılmasının məqsədləri 1969-cu ildə Haaqada razılaşdırılmış, vahid valyutadan istifadəyə başlanması isə 1980-ci ilə təyin olunmuşdu.

Amma 1971-ci ildə dünya maliyyə sisteminin böhranı düzəlişlərə səbəb oldu və yeni valyuta yalnız 1999-cu ildə meydana çıxdı. Müvafiq qanunların və sənədlərin qəbulu, ən başlıcası isə, onların ruhuna və bütün müddəalarına riayət olunması Avropada yeni valyutanın - avronun meydana çıxmasına şərait yaratdı.

1957-ci ildə «altılıqdan» ibarət olan AİB yaradıldıqdan sonra vahid Avropa öz valyutasının və buna müvafiq olaraq Avropanın vahid valyuta-maliyyə sisteminin təməlinin qurulmasına doğru dönmədən irəliləyirdi. Prosesin əsasən başa çatdırıldığı və Avropa İttifaqının vahid valyuta sistemi yaradılanadək. Birliyin bütün siyasəti miqyasına və ümumi əhəmiyyətinə görə möhtəşəm olan bu vəzifəyə tabe edilmişdi.

***Avropa valyuta sistemi*** - ümumdünya valyuta-maliyyə sisteminin mühüm hissəsi, onun ən mütəşəkkil və mərkəzləşdirilmiş regional altsistemidir. Bu altsistem həm Avropa bazarlarının kredit resursları ilə təchiz olunması, həm də dünya bazarının ehtiyaclarına xidmət göstərilməsi üzrə vəzifələri və funksiyaları yerinə yetirir. Avropa Valyuta Sisteminin əsas məqsədləri bunlardır;

- iqtisadi inteqrasiyanın əldə olunmasını təmin etmək;
- dollar standartına istinad edən Yamayka valyuta sisteminin müqabilində öz valyutası olan Avropa sabitlik bölgəsini yaratmaq;
- bazarı dolların ekspansiyasından müdafiə etmək;

• AİB üzvü olan dövlətlərin iqtisadi və maliyyə siyasətlərini yaxmlaşdımıaq.

AİB-in əhalinin (370 milyon nəfərdən çox) pul xidmətlərinə olan tələbatının ödənilməsində, Avropa İttifaqının qurumlarının inkişafındakı rolu əhəmiyyətlidir. AİB-in yaradılmasına doğru irəliləyiş uzun müddət davam etmiş, öz inkişafında bir neçə mərhələdən keçmiş və Avropanın vahid valyutası - avronun meydana çıxması ilə başa çatmışdır. Ancaq buna qədər EKYU yaradılmışdır. EKYU qədim fransız qızıl sikkəsidir və 1979-cu ildə AİB ölkələri tərəfindən hesablaşma vahidi kimi qəbul edilmişdir. Əvvəlcə EKYU Avropanın 9 dövlətinin valyutası əsasında qiymətləndirilirdi və həmin ölkələr onun təminatı üçün 2800 ton qızıl (amma qızıl yalnız yazı şəklində idi) və dollar aktivlərini deponentləşdirmişdi. AİB-in valyutası avropalılar tərəfindən qızıl standartı iflasa uğradıqdan və Bretton-Vuds valyuta sisteminin böhranı nəticəsində Yamayka sisteminin tətbiqindən sonra işlənib hazırlanmışdır. Tədricən EKYU hesablaşma vahidindən, demək olar ki, real pula, beynəlxalq hesablaşmaların tənzimlənməsi alətinə çevrildi. Ancaq EKYU-nun yaradıcıları onu sadəcə hesablaşma vahidi kimi deyil, birləşməkdə olan Qərbi Avropanın ehtiyaclarını ödəyə bilən gələcək valyuta sisteminin nümunəsi kimi nəzərdən keçirirdilər. Yamayka konfransından sonra AİB strukturlarında Avropanın gələcəyi ciddi müzakirə olunurdu. 1979-cu ildə ***Avropa valyuta sistemi*** tətbiq edildikdə isə EKYU onun əsası oldu. Aİ-nin 1991-ci ilin dekabrında Maastrixdə keçirilən sessiyasında XX əsrin sonunadək EKYU-nun real tədi}^ə vasitəsinə çevrilməsi barədə qərar qəbul edildi (o vaxt yeni pul vahidinin məhz EKYU adlanacağı nəzərdə tutulurdu və avro haqqında heç bir fikir yox idi).

Avropa Valyuta Sistemində hər bir valyutanın EKYU-da ifadə olunan məzənnəsi müəyyənləşdirilmiş və valyutaların ikitərəfli əsas məzənnələri onun əsasında hesablanırdı. Valyutaların faktiki məzənnələri müəyyənləşdirilmiş həddən ən çoxu ± 2,26% kənarlaşa bilərdi (məzənnəsi müvəqqəti olaraq 6% kənarlaşa bilən italyan ***lirəsi*** istisna edilməklə). Böyük Britaniya və İsveçin Aİ-nin yaradılmasında iştirakı davam etsə də, onlar bu yeni valyuta sistemində iştirakdan imtina etdilər.

Həmin dövrdə milli valyutaların EKYU-ya nisbəti aşağıdakı kimi olmuşdur:

- Belçika frankı - 39,7897;
- Danimarka kronu - 7,72336;

- AFR markası - 2,48208;
- Fransa frankı - 5,84700;
- Niderland quldeni - 2,74362;
- İrlandiya funtu - 0,668201;
- İtaliya lirəsi - 1157,79.

Bu məhdudİ3ryətlərə əməl olunması Aİ-nin üzv-dövlətləri tərəfindən ilkin məbləği 25 milyard ABŞ dolları olan ümumi fonda 20% qızıl və 20% başqa ehtiyatlar köçürüldükdən sonra onların sərəncamına verilən EKYU resursları kütləsinin tənzimlənməsi yolu ilə təmin olunmalı idi. Ayrı-ayrı ölkələr öz valyutalarının məzənnəsini müəyyən olunmuş diapazon hüdudunda saxlaya bilmədikdə, onun məzənnəsi valyutanın devalvasiyası yaxud revalvasiyası vasitəsilə dəyişdirilir və bununla da müxtəlif valyutalar üçün EKYTJ-nun əsas norması dəyişdirilirdi. EKYU-nun yaradıldığı vaxtdan bir neçə belə dəyişiklik aparılmışdır (məsələn, AFR markası yüksəlmiş, Fransa frankı enmişdi və s.).

Yeni valyutanın konstruktorlarımn ideyasına görə, onun yaradılması AİB-i yalnız bir valyutanın, yəni dollara əsaslanan Bretton-Vuds sistemindəki ABŞ dollarının məzənnəsinin qarşısıalınmaz enib-qalxmasının mənfi nəticələrindən qorumaq, onun dominanthğmı aradan qaldırmaq məqsədi güdürdü. Beləliklə, sadə hesablaşma vahidi deyil, Avropa İttifaqının bütün valyuta-pul sisteminin istinad etdiyi, yaradıcılarının niyyətinə görə ABŞ dollarından asılılıqdan nisbətən azad olan, real fəaliyyət göstərən valyuta meydana çıxırdı. Aİ-nin üzv-dövlətləri Amerika dollarının iri saxlayıcıları olduğundan və tədiyyə balanslarının tarazlaşdırılması, cari ticarət üzrə ödəmələrin, valyuta bazarlarının tənzimlənməsi və s. üçün ondan geniş istifadə etdiklərinə görə, təbii ki, burada tam sərbəstlik mümkün deyil və bu, heç nəzərdə də tutulmurdu.

***İnteqrasiya olunmuş valyuta zonası.*** Avropa iqtisadiyyatının qurulmasında əldə edilən müvəffəqiyyətlər inteqrasiya olunmuş valyuta zonasının formalaşmasının təməlini qoydu. Məlumdur ki, bunun üçün 2 elementin birləşdirilməsi:

1)təsərrüfatçılıq subyektlərinin və fiziki şəxslərin valyuta ilə əməliyyatlar apannası, mallar və xidmətləri alıb-satması üçün milli valyutaların sərbəst dönərliyinin tətbiqi;

2)milli valyutaların müəyyən hədd daxilində («ilan», «dəhliz» hüdudlarında) sabitliyinin təmin olunması - tələb edilirdi.

ümumiyyətlə, həll olunmuşdu. Lakin EKYU valyuta hesab oluna bilən pul vahidinin əsas cəhətlərini özündə ehtiva etmədiyinə görə valyutanın bütün əlamətlərinə cavab vermirdi. Burada aşağıdakı funksiyalar nəzərdə tutulur;

1) tədiyyə vasitəsi;
2) yığım vasitəsi;
3) hesablaşma vasitəsi (əmtəələrin dəyəri pul vahidi ilə ölçülür).

Tədiyyə vasitəsi leqallıq tələbinə cavab verməli, yəni malların və xidmətlərin dəyərinin ödənilməsi üçün mütləq qaydada ödənişə qəbul olunmalıdır. İstiqrazlar, valyuta və pul bazarları EKYU əsasında fəaliyyət göstərsə də, bu pul vahidi banknot olmadığından, ödəniş üçün qəbulu mütləq deyildi.

## 19.2. AİB-in tədricən Avropa İttifaqına çevrilməsi, avroya keçid

***Avropa ittifaqı ilə birlikdə avronun meydana çıxması.*** 1 iyul 2001-ci ildən 12 Aİ ölkəsi (15 üzvdən) vahid hesablaşma valyutasına - *avroya* keçdi və *avrozona* yaratdı. Yeni pul vahidinin tətbiqinə başlamasından sonrakı kiçik müddət nəzərə alınmasa (Yuqoslaviyanın NATO tərəfindən bombardman olunması ilə eyni vaxta düşməsi), bir çox nüfuzlu şəkkaklann fikrinə əks olaraq, avro özünü dayanıqlı valyuta kimi göstənnişdir.

Ancaq avronun yolu çox çətin, aradan qaldırılması tələb edilən ziddiyyətlərlə bol olmuşdur. Bəzi hallarda subyektiv-tarixi, milli, psixoloji problemlər baş qaldırırdı. Məsələn, artıq qəbul olunmuş EKYU adından imtina edildi. Aydınlaşdırıldı ki, bəzi iri dövlətlər (ilk növbədə Almaniya) Fransanın tarixi valyutasının Ümumavropa pul vahidi kimi qəbul olunmasının əleyhinədir və bununla da bütün avropalıları qane edən, neytral *«avro»* adı meydana gəldi. SSRİ-nin süqutu Avropa cəmiyyətinin siyasi elitasında ruh yüksəkliyi yaratdı, yeni, daha mürəkkəb perspektivlər və vəzifələr aşkar olundu. Həmin vəzifələr 1991- ci ilin dekabrında Aİ başçılarının Maastrixdə keçirilən sessiyasında son dərəcə aydın təqdim olunmuşdu. 7 fevral 1992-ci ildə isə sonradan bütün dünyaya *Maastrix Müqaviləsi* kimi məlum olan *Avropa İttifaqı haqqında Müqavilə* bağlandı. AİB transformasiya olunaraq Aİ-yə çevrildi və milli parlamentlər tərəfindən ratifikasiya edildikdən sonra 1 noyabr 1997-ci ildən qüvvəyə mindi.

Eyni zamanda Avropanın yeni pul vahidini milli pul vahidi qismində qəbul etməyə razı olan, yəni avrozonaya daxil olmaq istəyən dövlətlərə dair konkret tələblər müəyyənləşdirildi.

Valyuta sistemlərinin birləşdirilməsinin üstünlükləri bunlardır:

- pul-kredit və valyuta tənzimlənməsinin vahid hüquqi məkanının yaradılması;
- əməliyyatlara hesablaşma xidmətlərinin göstərilməsi üzrə xərclərin azalması, pul köçünnələrinin çatdırılma müddətlərinin qısalması;
- əlavə xərclərə qənaət olunması və s.

Avropanın mərkəzi banklarının vahid sistemi fəaliyyətinə aşağıdakı tədbirlərin həyata keçirilməsindən başladı:

1) 1 yanvar 1999-cu ildən qarşıdakı hesablaşmaların bütün növləri üzrə avrozona ölkələrinin valyutasının məzənnəsi avroya nisbətdə təsbit edildi. Bu tədbir qarşılıqlı nağdsız hesablaşmalarda avrodan və ona bağlanan milli valyutalardan paralel istifadənin başlanğıcı oldu;

2) 1 yanvar 2002-ci ildən avro əsginazları və sikkələri üzv-dövlətin milli valyutaları ilə paralel istifadə olunması və sonuncuların avroya dəyişdirilməsi üçün dövriyyəyə buraxıldı;

3) 30 avqust 2002-ci ildə AMB Frankflırt-Ma3mda nağd avronun təqdimatını keçirdi. Qeyd olunmalıdır ki, həm bütövlükdə Avropa İttifaqının, həm də Avropa Valyuta İttifaqının inkişafı və genişlənməsi Avropanın vahid valyutaya keçidlə tamamlanmadı. Avropa İttifaqına 12 yeni üzv: Macarıstan, Kipr, Latviya, Litva, Malta, Polşa, Slovakiya, Sloveniya, Çexiya, Estoniya və Bolqarıstan qəbul olundu. Amma onlar avtomatik olaraq avronu tətbiq edə bilməzdi və bunun üçün müvafiq hazırlıq mərhələsindən keçməli idilər.

Bu ölkələrin qəbulu planı bəzilərinin avroya 1 yanvar 2007-ci ildən, qalanlarının isə 2010-cu ildən gec olmayaraq keçməsini nəzərdə tutsa da, qlobal böhranla əlaqədar olaraq həmin müddətlər qeyri-müəyyən vaxta qədər təxirə salındı. Aİ-nin yeni üzv-dövlətlərinin əhalisinin avroya münasibəti müxtəlifdir. Məsələn, Baltikyanı dövlətlərin əhalisinin əksəriyyəti və hökumətləri 2007-ci ilədək avroya keçidin tərəfdarı kimi çıxış edirdi (Estoniya 1 yanvar 2011-ci ildən avroya keçən 17-ci, keçmiş sovet respublikaları arasında isə 1-ci ölkə olmuşdur). Avropa İttifaqının başqa yeni üzvləri təmkinlik göstərir və milli pul vahidinin «dəyişməsində» və yaxın illərdə avroya keçiddə fayda görmür.

***Meyarlar.*** Maastrix Müqaviləsi yeni valyutanı tanıyan və təsdiq edilmiş qrafik üzrə milli valyuta sistemlərinin əvəzinə onu dövriyyəyə buraxmaq niyyətində olan Aİ ölkələrinə dair dəqiq meyarlar formalaşdırmışdır. Həmin meyarlar aşağıdakılardır;

1) inflyasiyanın səvi}q/əsi;
2) Mərkəzi Bankın faiz dərəcələri;
3) dövlət büdcəsinin kəsirinin səviyyəsi;
4) valyuta məzənnələrinin tərəddüd hədləri;
5) dövlət borcunun həcmi (ÜDM-ə % nisbəti) və iqtisadiyyatın vəziyyətini, onun perspektivlərini xarakterizə edən başqa əlavə göstəricilər (bütün bunlar Kopenhagen meyarları adlanır).

*İnflyasiyanın illik səviyyəsi.* Onun orta səviyyəsi qiymətləri daha dayanıqlı olan 3 ölkənin orta səviyyəsindən 1,5%-dən yüksək olmamalıdır. Bu halda göstəricinin Ümumavropa istehlak qiymətləri indeksinə uyğun olaraq təshihinə yol verilir.

*Faiz dərəcələrinin səviyyəsi.* Üzv-ölkənin uzunmüddətli dövlət istiqrazları üzrə orta gəlirliliyi, bir il ərzində inflyasiya səviyyəsi ən aşağı olan 3 ölkənin müvafiq orta dərəcəsindən 2%-dən çox olmamalıdır.

*Dövlət büdcəsi kəsirinin səviyyəsi.* Həcminin kəskin azaldığı, azalmağa davam etdiyi və baza kəmiyyətinə yaxınlaşdığı hallar yaxud sonuncunun müstəsna qaydada müvəqqəti artırıldığı hallar (əmsal baza səviyyəsinə yaxın qalır) istisna edilməklə, illik kəsir ÜDM-in 3%-dən yüksək olmamalıdır.

*Valyuta məzənnələrinin tərəddüd hədləri.* Üzv-ölkənin valyutası Avropa Valyuta Sisteminin valyuta məzənnələri mexanizminə qoşulmalı və tərəddüdün adi çərçivəsi daxilində ən azı 2 il ərzində saxlanmalıdır.

*Dövlət borcunun həcmi.* Bu həcm ÜDM-in bazar qiymətləri üzrə məbləğinin 60%-dən çox olmamalıdır.

Bu göstəricilərdən hər biri həlledicidir və avroya keçid qarşısında maneə rolunu oynayır.

*Vahid valyuta sisteminin fəaliyyətini təmin edən qurumlar.* Maastrix Müqaviləsi Avropada və dünyada formalaşan yeni valyuta-pul sistemi üçün güclü təşkilati təməlin yaradılmasını nəzərdə tutmuşdur. Avropa Valyuta Sisteminin üzvü olan dövlətlərin Avropa Mərkəzi Banklar Sistemi (AMBS) yaradılmışdır və müvəffəqiyyətlə fəaliyyət göstərir. Bu təşkilat aşağıdakı funksiyaları yerinə yetirir:

- Aİ-nin valyuta siyasətini müəyyənləşdirir və həyata keçirir;
- beynəlxalq valyuta əməliyyatlarını yerinə yetirir;
- üzv-dövlətlərin rəsmi xarici valyuta ehtiyatlarını saxlayır və onları idarə edir;
- ödəmələr sisteminin fəaliyyətini dəstəkləyir.

***Avropa Mərkəzi Bankı (AMB).*** Avropa Mərkəzi Banklar Sisteminin qarşısında qojmIan vəzifələrin yerinə yetirilməsində AMB müstəqil surətdə yaxud milli mərkəzi banklar vasitəsilə mühüm rol oynayır. AMB-nin kapitalı üzv-dövlətlərin milli mərkəzi bankları tərəfindən, ölkələrin demoqrafik və iqtisadi vəziyyəti nəzərə alınmaqla fonnalaşmışdır. Burada hər bir ölkənin avrozonanm əhalisində və ÜDM-də orta çəkili payı həlledici göstərici qismində götürülmüşdür. Milli mərkəzi bankların valyuta ehtiyatları da müəyyən miqdarda AMB-də cəmləşdirilmişdir. AMBS-nin ümumi millətüstü gəliri üzv-dövlətlərin bankları arasında yuxarıda göstərilən meyarlar əsasında bölüşdürülür. AMB Aİ üzvü olmayan aparıcı dövlətlərin valyutalarına nisbətən avronun həddən artıq yaxud xaotik tərəddüdlərinin qarşısını almaq məqsədilə valyuta bazarlarına müdaxilə etmək imkanlarına malikdir. Bunun üçün AMB-nin Nizamnaməsinə uyğun olaraq, avrozona dövlətlərinin milli emissiya bankları 99,6 milyard avro dəyərində (194,8 milyard alman markası ekvivalenti) qızıl ehtiyatlarını və 227 milyard avro məbləğində (444 milyard alman markasından çox) valyuta ehtiyatlarını mənzil-qərargahı Frankfurt- Maynda yerləşən Avropa Mərkəzi Bankına vermişdir. Həmin şəhər artıq Londondakına analoji olaraq Avrositi yaxud Nyu-Yorkdakı kimi Manhetten adlandırılır. Burada Almaniyanın ən iri bankları, habelə xarici maliyyə qurumlarının 100-dən artıq nümayəndəliyi fəalİ3^ət göstərir. AFR-in birja dövriyyəsinin 80%-dən çoxu bu şəhərin payına düşür və burada əhalinin hər 10 nəfərindən biri bank sahəsində çalışır.

## 19.3. Avro və dollar müasir ümumdünya valyuta sistemində

inteqrasiya prosesi nəticəsində Avropa vahid iqtisadi məkanın yaradılmasına və inteqrasiya proseslərinin daha da sıxlaşması üçün institusional bazanın hazırlanmasına doğru irəliləyir.

Keyfi}^ət yeniliyi bundan ibarətdir ki, Avropanın regional pul vahidi yaradılmışdır və özünün iqtisadi bazasına və iqtisadi məkanına istinad etdiyinə görə, avronun uğur qazanacağına ümid bəsləmək olar. Avropa ilə ABŞ arasında sadəcə siyasi mübarizə getmir, burada obyektiv iqtisadi proseslər təsirini göstərir. Avronun iqtisadi bazası genişləndikcə, dünya pulu funksiyasını yerinə yetirməsində payı və rolu artacaq, ABŞ dollarının xüsusi çəkisi isə aşağı düşərək, bu dövlətin dünya iqtisadiyyatında tutduğu real yeri əks edəcək. Deməli, dolların başqa ölkələrdə də dünya pulu funksiyasını yerinə yetirməsi imkanları zəifləyəcək. Əlbəttə, burada Aİ-nin daxili vəzi}^ətindən asılılıq çox güclüdür: qlobal böhran onun mühüm ziddiyyətlərini açıb göstənnişdir.

Aİ ilə ABŞ arasında iqtisadi potensialın nisbəti avro və dollar arasındakı nisbətdə əks olunur. Avronun ilkin məzənnəsi 1,17 dollar olmuşdu. Avro, sadəcə olaraq, EKYU-nun məzənnəsini qəbul etdiyinə görə, bu məzənnənin bazar üzrə deyil, hesablamalar əsasında müəyyənləşdirildiyi yeganə haldır. Bundan sonrakı 2,5 il ərzində avronun məzənnəsi dollara nisbətdə 1 EKYU = 0,89 dollar nisbətinə, yəni 40% düşmüşdü. 2001-ci ilin ortasından böyük dəyişiklik baş verdi və avronun məzənnəsi dollara nisbətdə indiyədək artmaqdadır. 2004-cü ildə bu nisbət, demək olar ki, 1 avro = 1,3 dollara çatmışdı. Ümumilikdə isə 2004-cü ildə məzənnə 1,2 dollar ətrafında olmuş, 2011-ci ilin iyununda isə 1,4 dollara çatmışdı.

Dünyanın qədəm qoyduğu XXI əsrdə avroya əsaslanan yeni ümumdünya valyuta sisteminin mühüm xüsusiyyəti ilk dəfə olaraq regional beynəlxalq valyutanın meydana çıxmasıdır. Əvvəlki valyuta sistemləri isə milli valyutaların qarşılıqlı əlaqəsi ilə xarakterizə olunurdu. Avro məhz bununla dollardan və dünya ölkələrinin başqa milli valyutalarından fərqlənir. Avronun peyda olması nəticəsində onun hələlik mövcud olmayan vahid dünya valyutası funksiyasını yerinə yetirilməsinə doğru mahiyyət baxımından addım atılmışdır. Əvvəlki hər iki ümumdünya valyuta sistemi (Bretton-Vuds və Yamayka) dollara istinad etdiyinə görə, mahij^ətcə, amerikapərəst idi. XBH və EKYU isə, əslində bir neçə milli valyutaya əsaslanan sintetik pul vahidləri olmuşdur. Avro milli deyil, getdikcə daha böyük iqtisadi məkanı fəth edən regional beynəlxalq pul vahididir. Analoji beynəlxalq valyuta sistemlərinin dünyanın başqa bölgələrində də, məsələn. Latın Amerikasında və Asiyada yaradılacağı istisna deyil. Hazırda ümumdünya valyuta sistemində əsas yeri, sözsüz ki.

dollar tutur. Valyuta bazarlarında aparılan əməliyyatların 80%-dən, dünya valyuta ehtiyatlarının 60%-dən, istiqrazlarla yerinə yetirilən əməliyyatların yarısından çoxu dolların payına düşür. Beynəlxalq İnkişaf Bankının məlumatlarına görə, ümumdünya ticarətinin yarısından çoxuna dollar xidmət göstərir. Avroda nominasiya olunmuş beynəlxalq tranzaksiyalarm həcmi artıq 25%-ə çatmışdır. Təkcə Avropa və ABŞ-a gəldikdə isə indiyədək ABŞ-dan idxalın 90%-i və hətta Avropadan ABŞ-a ixracın 80%-i dollarda nominasiya olunmuşdur.

Avro öz fəaliyyətinə Avropa iqtisadi məkanında başlamışdır və ən azı, daxili ticarəti öz üzərinə götürmüşdür. Bununla bərabər, avrozona üzvləri olan dövlətlərin mərkəzi banklarının valyuta ehtiyatlarından dolların çıxarılması prosesi başlamışdır. Maliyyə alətlərinin hələlik dollarla aparılan əməliyyatları da avro ilə əvəz olunacaqdır. Dünya iqtisadiyyatının indiyədək dollarla xidmət edilən seqmentləri də avroya keçəcək. Bunlar dolların bir qismini azad etməklə, ona olan tələbatı deyil, təklifini artıracaq. Beləliklə də, valyuta məzənnələri sahəsində avronun dollarla müqayisədə perspektivləri daha əlverişlidir.

Avronun Avropa iqtisadi məkanı yaxud avrozona çərçivəsindən kənara çıxması dolların əsaslandığı prinsiplər üzrə həyata keçirilir. Avro hələlik 17 dövlətin iqtisadi potensialına istinad edən regional beynəlxalq valyuta olsa da, yuxarıda qeyd etdiyimiz kimi, onun ÜDM hissəsində fəaliyyət miqyası artıq dollarla bərabərləşir və xarici ticarətdə onu xeyli üstələyir. Beləliklə, ümumdünya valyuta sistemində ilk dəfə olaraq, iqtisadi potensialı baxımından dollardan geri qalmayan valyuta meydana çıxmışdır.

***Yuanın dollar, avro və başqa valyutalarla rəqabət perspektivləri.*** 2010-cu ilin payızında «valyutaların dünya müharibəsi», ilk növbədə isə, dollar, avro və Çin yuanı arasında mübarizənin real əlamətləri müşahidə olunurdu. Həm amerikalılar, həm də avropalılar Çini yuanın məzənnəsini süni olaraq aşağı salmaqla, mallarının ABŞ və Avropa bazarlarındakı mövqelərini möhkəmlətməsində təqsirləndirirdi. Ancaq bu müharibədə Çin ABŞ ilə tərəfdaş olmaqla bərabər, həm də ən yaxşı müdafiə olunmuş iştirakçı idi. Çin valyutası sərbəst dönərli olmadığına görə, ona hücum olunması məhdudlaşırdı. Dünya böhranı başladıqda, Pekin beynəlxalq ticarət əməliyyatlarında öz valyutasından daha geniş istifadə etməyə başladı.

2010-cu ilin noyabrında Vaşinqtonda səfərdə olarkən, Ümumçin Xalq Nümayəndələri Məclisinin (Çinin qanunvericilik orqanı) Xarici İşlər üzrə

Komitəsi sədrinin müavini Ça Peysin bəyan etmişdi ki, «Çin dünya ehtiyat valyutası qismində dolların yuanla əvəz olunmasını planlaşdırmır». BVF yuanm cari əməliyyatlar üzrə dönərli olmadığından, dünya valyutalarından biri kimi tanınmasının qeyri-mümkünlüyünü və onu XBH səbətinə daxil etmək niyyəti güdmədiyini bildirərək, Çin məmurunun sözlərinin düzgünlüjninü təsdiqlədi'.

Yuanm dönərli olmaması ona bir sıra ciddi üstünlüklər təmin edir. Məsələn, oktyabrın əvvəlində «Financial Times»in səhifələrində ÇXR ilə valyuta müharibəsi planının mümkünlüyünü müzakirə edərkən. Beynəlxalq iqtisadiyyatın öyrənilməsi üzrə Peterson İnstitutunun direktoru Fred Berqsten (prezident Barak Obamanm komandasına yaxın olan, ABŞ-ın ən nüfuzlu iqtisadçılarından biri) belə nəticəyə gəlmişdir ki, Çin vaİ3nıtasma hücum etmək 0 qədər də asan olmayacaq. Sərbəst dönərli olmadığına görə, Vaşinqton lazımi qədər yuanı bazardan əldə edə bilmir.

Çin ticari hesablaşmalarda yuandan istifadə olunması üzrə səylərini gücləndirmişdir. Eyni zamanda Çin məmurları və hakimiyyətə yaxın olan ekspertlər bu hərəkətlərin daha geniş planın bir hissəsi olduğunun gizli saxlanmasının mənasız olduğunu hesab edir. Çox güman ki, yuanı tədricən dünya valyuta ehtiyatına çevirmək strategiyası mövcuddur. Onun əsas prinsiplərini partiya kabinetlərinə yaxın olan iqtisadçıların fikirlərini öyrənməklə dərk etmək mümkündür. Böhran başlayan kimi, Çinin ekspert dairələrində ən çox müzakirə olunan mövzu 3aıanm dünya valyutasına çevrilməsi idi. Məsələn, Çin İctimai Elmlər Akademiyasının Dünya Maliyyəsinin Öyrənilməsi Mərkəzindən Li Tzın əsərlərində 4 mərhələdən ibarət olan bu strategiyanı təsvir edir. ***Birinci*** mərhələ qonşu ölkələrlə hesablaşmaların yuanla aparılmasını nəzərdə tumr. ***İkinci*** mərhələdə bütün dünya ölkələrinin Çinlə ticari hesablaşmalarında yuandan istifadə olunmalıdır. ***Üçüncü*** mərhələdə yuan ev təsərrüfatlarının, müəssisələrin və maliyyə qurumlarının vəsait qoyuluşları üçün dollar və avro kimi cəlbedici alətinə çevrilməlidir. ***Dördüncü,*** yekun mərhələ çərçivəsində yuan dünya ehtiyat valyutalarından birinə çevrilməli, başqa ölkələrin mərkəzi bankları tərəfindən həvəslə alınmalıdır.

Pekin qarşıya qoyduğu məqsədə doğru ardıcıllıqla və inamla addımlayır. Belə ki, 2000-ci illərdə strategiyanın birinci mərhələsini həyata keçirərkən,

^ КоММерсаНТ, 2010. 23 **Ноабра. С. 8.**

mümkünlüyünü təsbit etməyə başlamışdır. Bu, Çindən idxal edən şirkətlərə mübadilə xərclərində və valyuta risklərinin sığortalanmasında qənaət etmək imkanı yaradır. Rusiya istiqamətində yuana tələbat hələ o qədər də böyük deyil; 2009-cu ildə RF ilə Çin arasında rublla ticarətin həcmi 16 milyard rubla yaxın olduğu halda, yuanla 200 dəfəyə yaxın az olmuşdu (2009-cu ildə ölkələr arasında ümumi ticarət dövriyyəsi 39 milyard dollara yaxın idi). Amma Pekin Rusiya ilə hesablaşmaların milli valyutada aparılmasında israrlıdır.

Böhran başlayandan sonra Pekin yuanm rolunun möhkəmləndirilməsi üzrə səylərini xüsusilə gücləndirmişdir. 2008-ci ilin qışından Pekin yuan satmaqla qonşu ölkələrlə valyuta svopları bağlamağa başlamışdır (əqdlər Cənubi Koreya, Honkonq, Malayziya və Belarusla bağlanıb). 2009-cu ilin yazında isə Çinin maliyyə orqanları beynəlxalq ticarətdə hesablaşmaların yuanla aparılmasına imkan verən sxemi bəyan etmişdir. HSBC bankının proqnozlarına görə, 2012-ci ilin sonuna yaxın yuanla aparılan ticari hesablaşmaların həcmi 2 trilyon dollara yaxud ÇXR-in ümumi xarici ticarət dövriyyəsinin 50%-ə çata bilər. Ticarət həcminin artmasına vergi tədbirləri də təsir göstənnəlidir: 2010-cu ildə Çin Maliyyə Nazirliyi xarici tərəfdaşlarla hesablaşmaları yuanla aparan şirkətlər üçün vergi güzəştlərinin tətbiq ediləcəyini bildirmişdir.

Pekinin niyyətinə görə, dünyanın əsas valyutaları ilə birgə yuanla müzaidələrin keçirilməsi bu sxemi genişləndirməlidir. Belə ki, China Foreign Exchange Trade (CFETS) ticarət platformasında artıq yuanla ABŞ dolları. Böyük Britaniyanın funtu, yapon iyenası, Honkonq dolları və Malayziya riqqiti dəyişdirilir, rubl-yuan cütlüyünün müzaidələri başlanmışdır. CFETS-də həyata keçirilən müzaidələr tam sərbəst aparılmır, sistem market-meyker bankların orta çəkili məzənnəsini müəyyənləşdirir, bir ticarət sessiyası ərzində tərəddüdlər isə hər iki tərəfə 5% həcmində məhdudlaşdırılır (dollar üçün dəhliz daha dardır - cəmi 0,5%). Rubl-yuan birbaşa müzaidələri 15 dekabr 2010-cu ildə Moskva Banklararası Valyuta Birjasında (MBVB) işə başlamışdır və Şanxay fond birjasının rəhbərliyi onun təcrübəsinin öyrənilməsini planlaşdırmışdır. 2011-ci ildə isə Çinin müzaidələri öz ticarət sahəsində keçirməsi mümkündür.

Ticarətin yuana keçməsinin dəstəklənməsi ilə yanaşı, Pekin yuanla denominasiya olunan qiymətli kağızlar bazarının əcnəbilərin iştirak etdiyi hissəsinin inkişaf etdirilməsini də stimullaşdırır. Hələ 2007-ci ildə Çin Dövlət

inkişaf Bankı 14 milyard yuanlıq (təxminən 1,8 milyard dollar) istiqraz buraxmışdır və ötən dövrdə real sektorun bir çox bankları bundan nümunə götürmüşdür. 2010-cu ilin avqustunda isə McDonald's Honkonqda bu cür istiqrazların 200 milyon yuan (təqribən 29 milyon dollar) məbləğində sınaq partiyasını buraxdı. Çin bazarında fəaliyyət göstərən Rusiya şirkətləri də bu maliyyə alətinə maraq göstərir.

Li Tzmm təsvir etdiyi strategiyanın ***birinci*** və ***ikinci*** mərhələsinə uyğun olan bu hərəkətlər yuanm ən əsas regional valyuta kimi təşəkkül tapması ilə nəticələnməlidir. Yuanın ümumdünya səviyyəsinə çıxışı isə 2020-ci ilədək mümkündür və «Standart Chartered»in proqnozuna görə həmin il Çin iqtisadiyyatı ABŞ iqtisadiyyatım ötüb keçə bilər. Pekində ümid edirlər ki, bu vaxt ÜDM-də daxili istehlakm payının artımı ölkənin ixracdan asılılığını azaltmağa imkan verəcək və yuan dönərli valyutaya çevriləcək'. Bizim fıkrimizcə, bu hadisə artıq 2015-ci ilədək baş verə bilər.

Beləliklə, XXI əsrin ümumdünya valyuta sistemində avronun, dolların və yuanm rolu və yeri Aİ, ABŞ və Çinin iqtisadi qüdrətinin nisbəti əsasında müəyyən olunacaq. Avropa inteqrasiyasında baş verən meyillər avronun xeyrinə olsa da, ABŞ-m öz inteqrasiya proseslərini ölkənin və Şimali Amerikanın hüdudlarından kənara çıxarmağa cəhd edəcəyi nəzərə alınmalıdır. Ancaq Çin də öz nüfuzunu Uzaq Şərqin və Asiyanın geniş məkanında sürətlə gücləndirir. Buna görə də təkcə Çin 3aıanmm beynəlxalq valyuta kimi peyda olacağını deyil, həmçinin, mərkəzi Çində və Yaponiyada yerləşən Asiya valyuta zonasının yaranacağı istisna edilməməlidir. Beləliklə, XXI əsrin ikinci onilliyinin sonunda ümumdünya rəqabətinin 3 qüvvə mərkəzinə - ABŞ, Aİ və Çinlə Yaponiya ilə birlikdə regionun başqa ölkələrinə istinad edən ən azı 3 beynəlxalq valyuta zonasının möveudluğu mümkündür. Amma bu, müasir dövrün mövqelərindən baxışdır və yaxın gələcəkdə dünya iqtisadiyyatında və siyasətində vəziyyətin sürətlə dəyişməsi nəticəsində hadisələrin necə cərəyan edəcəyini söyləmək çox çətindir. Hazırda isə yalnız həm dolların, həm də avronun xeyli zəiflədiyini qeyd edə bilərik.

^ КоММерсаНТ, **2010. 23** Ноаöра. **С. 8.**

## Xülasə

• AİB yaradan Qərbi Avropa dövlətlərinin valyutalarının birləşdirilməsinin əsas ideyası, obyektiv ehtiyac kimi, Birliyin inkişafının birinci mərhələsində meydana çıxmışdır. 1969-cu ilin dekabrında Haaqada keçirilən görüşdə Avropa Birliyinin liderləri ölkələrinin valyutalarının birləşdirilməsi təşəbbüsü ilə çıxış etdilər. Təbii ki, bu halda AİB dünyanın iqtisadi məkanında Qərbi Avropa dövlətlərinin maraqlarını mümkün qədər güclü müdafiə etməyə, öz daxilində iqtisadi birliyi təmin etməyə və beynəlxalq hesablaşmaların əksər hissəsinin həyata keçirildiyi dollardan asılılığı zəiflətməyə çalışırdı.

• Birinci mərhələdə valyuta məzənnələrinə təsirin gücləndirilməsi səyləri üstün idi. 1972-ci ildə AİB-in 6 ölkəsi valyutalarının birgə «sərbəst üzməsi» mexanizminin yaradılması haqqında müqavilə imzaladı. Bu mexanizm «valyuta ilanı» adını almışdır. Onun məqsədi müqavilə iştirakçılarının valyutalarını əlaqələndirmək və bir-biri ilə nisbətdə kənarlaşmasının 1,25%- dən çox olmamasına yol verməməkdir. ABŞ dollarına nisbətdə birgə tərəddüdün sərhədləri ±1,125% müəyyənləşdirilmişdi. Məzənnələri müəyyən olunmuş hüdudlarda saxlamaq üçün, iştirakçı ölkələrin mərkəzi bankları valyuta müdaxilələrini həyata keçirməli idi. Müdaxilənin maliyyələşdirilməsi üçün həmin ölkələrin mərkəzi bankları bir-birinə svop formasında 45 günlük qısamüddətli kreditlər verilməsi barədə razılığa gəldi. Müstəsna hallarda kreditlər 5 ay müddətinə verilə bilərdi.

• AİB-in qəbul etdiyi qərarlara (Avropa Valyuta Sistemi haqqında Saziş) uyğun olaraq, 13 mart 1979-cu ildən AİB-in 6 dövləti (Fransa, AFR, İtaliya, Belçika, Niderland, Lüksemburq) tərəfindən yaradılan Avropa Valyuta Sistemi fəaliyyətə başladı. Göstərilən saziş Avropada ümumi valyuta vahidini - EKYU-nu tətbiq edirdi. EKYU-nun fəaliyyətinin təmin olunması məqsədilə müdaxilələrin maliyyələş-dirilməsi üçün resurslar kimi istifadə olunan kreditlərin müddəti 2-5 ilədək artırıldı və müdaxilələrin özü ikitərəfli oldu. Qeyd edək ki, əvvəl bu müdaxiləni valyutası ucuzlaşmış ölkənin mərkəzi bankı həyata keçirirdisə, EKYU-nun tətbiqindən sonra bunu valyutası bahalaşan ölkənin mərkəzi bankı yerinə yetirirdi. Göstərilən halda müəyyən valyutanın kənarlaşma həddi ±2,25%-dək artırılmış, bəzi hallarda isə (məsələn, İtaliya, İspaniya, Portuqaliya və Böyük Britaniyada) ±6%-ə yol verilmiş, 1993-cü ildə

• 1989-cu ildə «Delor planı» - valyuta məzənnələrinin möhkəmləndirilməsinə və ayrı-ayrı milli bankların federal prinsip əsasında fəalij^ət göstərən birləşmiş Avropa bankları sisteminə çevrilməsinə yönəlmiş 3 mərhələdən ibarət proqram qəbul olunmuşdur. Birinci mərhələdə Avropa İttifaqının bütün ölkələrinin valyuta mexanizminə cəlb olunması vəzifəsi qoyulurdu; ikinci mərhələdə Aİ iştirakçıları valyuta məzənnələrinin tərəddüd hədlərinin daralmasını təmin etməli və makroiqtisadi siyasətin həyata keçirilməsinə vahid yanaşmam möhkəmləndirməli idi; üçüncüdə - milli valyutaları vahid valyutaya dəyişdinuəli, pul-kredit siyasətinin həyata keçirilməsini isə AMB-yə həvalə etməli idi. Qeyd edək ki, nəzərdə tutulan bütün vəzifələr yerinə yetirilmişdir.

• Planın həyata keçirilməsində gələcək vahid valyutanın prototipi qismində EKYU-ya mühüm rol ayrılırdı. EKYU-dan keçid valyutası kimi istifadə olunması iştirakçı-ölkələrin vahid valyutaya ümumi yanaşmasının fonualaşması imkanını yaradırdı. AİB-in büdcə gəlirlərinin və xərclərinin uçotunun EKYU-da aparması sayəsində o, birlik daxilində hesablaşma vahidi (nağdsız dövriyyə vasitəsi kimi) funksiyasını, mərkəzi banklar arasında yerinə yetirilən qarşılıqlı hesablaşmalarda ödəniş aləti funksiyasını, rəsmi ehtiyatlar funksiyasını (yəni nağd fonuada hesablaşma funksiyası istisna edilməklə, pula xas olan hər 3 funksiyanı) yerinə yetirməyə başladı.

• AİB-in Aİ-yə çevrildiyi zaman, 1 noyabr 1993-cü ildən qüvvəyə minən Maastrix Müqaviləsi vahid valyutaya keçilməsinin mühüm mərhələsi olmuşdur. Bu Müqaviləyə görə, vahid valyutaya keçid 3 mərhələdən ibarət olmalı idi. Birinci mərhələdə (31 dekabr 1993-cü ilədək) vahid daxili bazarın formalaşması başa çatmış və iştirakçı-dövlətlərin əsas makroiqtisadi göstəricilərinin yaxmiaşdırılması üzrə iş aparılmışdır. Bu göstəricilər üçün sərt tələblər müəyyənləşdirilmişdi: inflyasiyanın səviyyəsi qiymətlərin artımı ən aşağı olan 3 ölkənin orta səviyyəsindən 1,5%-dən yüksək olmamalıdır; dövlət büdcəsinin kəsiri ÜDM-in 3%-dən çox olmamalıdır; dövlət borcu ÜDM-in 60%-dən aşağı olmalıdır; faiz dərəcələri inflyasiya səviyyəsi ən aşağı olan 3 ölkənin müvafiq orta dərəcəsindən 2 faiz-bənd kənarlaşmamalıdır (Kopenhagen meyarları).

• İkinci mərhələdə (31 dekabr 1998-ci ilədək) Avropa ölkələrinin mərkəzi bankları sisteminin fəaliyyət qaydaları və üzv-dövlətlərin iqtisadi siyasətinin əlaqə-ləndirilməsi metodları işlənib hazırlanmış, valyuta-maliyyə

sistemi ejmiləşdirilmişdi.

• Üçüncü mərhələdə (30 iyun 2002-ciilədək) Avropanın vahid valyutasının tətbiqi və milli valyutaların ona dəyişdirilməsi nəzərdə tutulmuşdu. Maastrix Müqaviləsinə uyğun olaraq, 1 yanvar 1999-cu ildən Aİ birləşmənin yeni səviyyəsinə - İqtisadi və Valyuta Birliyinə (AVB) keçdi. Bu tarixdən etibarən valyuta birliyinin iştirakçıları nağdsız ödəmələr üzrə vahid valyutadan - avrodan istifadə etməyə başladı. Ən çətin məsələnin həllinə, avronun nağd pul dövriyyəsinə buraxılmasına hazırlıq başlandı. İştirakçı-ölkələr bütün malların qiymətinin avro ilə yenidən hesablanması üzrə çox mürəkkəb iş yerinə yetirilmiş, əhali arasında bunun prinsipləri və texnikası barədə geniş təbliğat kampaniyası keçirilmiş, satıcılar və alıcılar üçün milli pul vahidinin avroya nisbətini izah edən müxtəlif növ sorğu cədvəlləri milyonlarla tirajla nəşr olunmuşdu. Bütün bunlar avrozona ölkələrində maraqlar arasında toqquşmasız, pozuntular baş vennədən avroya keçidə imkan yaratmışdı.

• Hazırlıq dövrünün müddəti 3 il müəyyənləşdirilmişdi və bütün vəzifələr yerinə yetirilmişdi. 1 yanvar 2002-ci ildən bütün iştirakçı dövlətlər üçün eyni olan əsginaz və sikkə formasında nağd avro dövriyyəyə buraxılmışdı; 30 iyun 2002-ci ilədək Aİ-nin 12 ölkəsində milli pul nişanları bütövlüklə dövriyyədən çıxarılmış, avro isə hesablaşma pul vahidi funksiyasını real yerinə yetirməyə, dollarla rəqabətə başlamışdı. Dövriyyəyə buraxılarkən, avro dollara nisbətdə 1 avro =1,17 dollar kimi qiymətləndirilmişdi. Sonradan avronun məzənnəsi 2002-ci ilin sonunadək aşağı düşmüş, 2003-cü ilin əvvəlindən isə avronun dollara nisbətində yüksəliş meyilləri başlanmışdır (2006-cı ilin yanvarında 1 avro = 1,20 dollar). Aİ iştirakçısı olan ölkələrin iqtisadi potensialını nəzərə alsaq, dünya üzrə ÜDM-in 15%-i onların payına düşür (ABŞ-a təqribən 20%) və yaxın perspektivdə avronun dollara olan məzənnəsinin yüksəlişə doğru meylini ehtimal etmək olar. Burada nəzərə alınmalıdır ki, ABŞ özünün «ikiqat kəsirinin» azalmasına, korporasiyalarının xarici iqtisadi ekspansiyasının güclənməsinə imkan yaratdığı üçün, qısamüddətli perspektivdə dolların başqa valyutalara nisbətdə bir qədər zəifləməsi meylinə maraq göstərir. Uzunmüddətli perspektivə gəldikdə isə beynəlxalq maliyyə mövqelərində dolların «çökməsi» baxımından ciddi dəyişiklik baş verəcəyi gözlənilmir. Çox güman ki, dollar və avro hər birinin mühüm rol oynadığı, bir-birindən ayrılmaz mövcud olduqları qlobal maliyyə-valyuta sistemində sabitliyi dəstəkləməklə, sülh şəraitində fəaliyyət göstərəcək.

Bununla yanaşı, valyutaların hər ikisi xeyli zəifləmişdir və ABŞ ilə Aİ arasında kəskinləşmiş maliyyə-iqtisadi problemlərin güclü təsirinə məruzdur.

## Yoxlama sualları

1. Avropa valyuta sisteminə və avroya keçiddə hansı mərhələlərin fərqləndirilməsi vacibdir? Avropa Valyuta Sistemi necə inkişaf edirdi? Bu sistemdə EKYU hansı rolu oynamışdır?
2. Vahid valyuta sisteminin formalaşdırılması və avroya keçid məqsədilə AİB - Aİ-də hansı maliyyə qurumları yaradılmışdı? Bu prosesdə Avropa valyuta institutunun və Avropa Mərkəzi Bankının rolu nədən ibarətdir? Onların strukturunu və fəaliyyətinin xüsusiyyətlərini təsvir edin.
3. Vahid valyuta-pul sisteminin yaradılmasına doğru irəliləyişdə Maastrix razılaşmalarının hansı əhəmiyyəti olmuşdur?
4. Avroya keçmək istəyən ölkələr üçün hansı meyarlar müəyyənləşdirilmişdi?
5. Aİ üzvü olan dövlətlərdən bəzisi avroya keçməkdən niyə imtina etmişdir?
6. Avro ABŞ dollarını sıxışdıracaqmı?
7. 2010-cu ilin payızında avro, dollar və yuan arasında baş venniş «valyuta müharibəsinin» səbəbləri nədir?

## Referatlarm mövzuları

1. Avropa valyuta sisteminin təşəkkülü mərhələləri
2. Aİ ölkələrinin avroya keçməsinin çətin yolu və bu hadisənin beynəlxalq əhəmiyybti
3. Böyük Britaniya, Norveç və Danimarkanın avroya keçməkdən imtina etməsinin səbəblərinin təhlili
4. MDB məkanında ümumi pul vahidinin (avro tipində) yaradılmasının mümkünlüyü və Rusiyanın tam dönərli rubla keçməsi perspektivləri

# Fəsil 20
# BEYNƏLXALQ BANKLAR VƏ MALİYYƏ MƏRKƏZLƏRİ

Bu fəsil, birincisi, transmilli bankların, o cümlədən Bretton-Vuds təsisatlarının (BVF, DB, habelə BHB); ikincisi, beynəlxalq kommersiya banklarının, o cümlədən İslam banklarının (bank fəaliyyətinin təşkilinin yeni fomıasl kimi); üçüncüsü, beynəlxalq maliyyə mərkəzlərinin fəaliyyətinin təhlilinə həsr edilmişdir. Beləliklə, burada ümumdünya maliyyə sisteminin kredit resurslarının beynəlxalq maliyyə bazarları kanalları vasitəsilə bütün dünya üzrə nəhəng miqyasda bölüşdürülməsi mexanizmində son dərəcə mühüm rol oynayan başlıca subyektlərindən bəhs olunacaq.

## 20.1. Transmilli banklar (TMB)

***Bank əməliyyatlarının universallaşmasına doğru meyiL*** TMB-nin yaranma mənbələri və fəaliyyəti elmi ədəbiyyatda yaxşı təsvir olunsa da, bunun Ən Yeni dövrdə bəzi xüsusiyyətlərini göstərək:

• TMB-nin pulun (maliyyə vəsaitlərinin) sahibləri ilə investorlar arasındakı vasitəçi rolunun güclənməsi, yəni ssuda kapitalının toplanması və hərəkəti işində TMB-nin kredit rolunun artması;

• TMB-nin vəsaitlərin hərəkətinin (sahibdən borcalana doğru) çoxsaylı formaları və kanalları ilə xarakterizə olunan, fonnalaşan dünya maliyyə bazarlarında həlledici rolu;

• TMB-nin kommersiya bankları tərəfindən beynəlxalq ödəmələrin geniş miqyasda yerinə yetirilməsi. Onların sərbəst pul vəsaitlərini cəlb edərək, beynəlxalq bazarlarda qaytarılma, müddətlilik və ödənişlilik şərtləri ilə müxtəlif əməlİ3^atlarm aparılması üçün universal maliyyə həlqəsi qismində çıxış etməsi;

• yüksək dərəcədə etibarlılığına görə TMB-nin pul sahibləri üçün cazibəli olması. Güman ki, 1980-1990-cı illərdə və XXI əsrin başlanğıcından TMB-nin sayının partlayış sürəti ilə çoxalmasının və investisiya vəsaitlərinin həcmi baxımından bank idarələrinin artımını ümumilikdə üstələməsinin səbəbi də, məhz bundadır. İnvestisiyaların səviyyəsini əmanətlərin müvafiq payı ilə

şərtləndirilməsini və məhdudlaşmasını ifadə edən milli əmanətlər və yığımlar (investisiyalar) arasındakı məntiqi əlaqədən asılı olmayaraq, TMB-nin artımının nisbi müstəqilliyi də bununla izah edilir.

Bütün bunlar bank kapitalının transmilliləşməsi prosesinin intensiv inkişafına, dünyanın aparıcı bank idarələrinin bir-biri ilə çarpazlaşmasma şərait yaratmışdır. Qüdrətli ABŞ TMB-nin böyük məbləğdə vəsaitləri Böyük Britaniya, Kanada, Avstraliya və Avropanın qiymətli kağızlarla ticarət edən maliyyə təşkilatlarına yatınnası halları çoxalmışdır. Keçirdiyi staqnasiyaya baxmayaraq, Yaponiyanın aparıcı bankları son onillik ərzində ABŞ, Qərbi Avropa və Asiyanın kommersiya banklarının və bank olmayan maliyyə qurumlarının səhmlərinə xeyli vəsait qoymuşdur. Avropanın TMB-si də strateji alyanslara qoşulmaqla, başqa ölkələrin banklarını satın almaqla (o cümlədən inkişaf etməkdə olan ölkələrin), dünyanın ən müxtəlif ölkələrində fəaliyyət göstərən TMB-yə iri məbləğdə vəsait yatırmaqla, analoji hərəkət edirdi.

Nəzərdən keçirdiyimiz proseslər məhz TMB-nin daşıyıcı kimi çıxış etdiyi ümumdünya maliyyə qloballaşması prosesinin inkişafının əks olunmasıdır. Bununla bərabər, dünyanın maliyyə cəhətdən böyük gücə və iqtisadiyyatının müxtəlif sahələrində, regional-sahə seqmentlərində nüfuza malik olan qüdrətli bank-maliyyə qrupları arasında bölüşdürülməsi meyli formalaşır.

Statistik məlumatlara əsasən aktivlərinin həcminə görə ən iri banklar və investisiya şirkətləri arasında ABŞ bankları liderdir; onlardan sonra Yaponiya, Böyük Britaniya, Almaniya, İsveçrə və Fransanın, Çin, Cənubi Koreya və Latın Amerikası ölkələrinin bankları gəlir; Türkiyə, ərəb. Afrika, Şərqi Avropa banklarının rolu artır. Qeyd edək ki, hər bir bankın aktivləri onun bazar dəyərini 2-3 dəfə üstələ-yir və bu, böyük maliyyə qüdrətinin göstəricisidir. Digər məqam, ən irilər iyerarxiya-sında müxtəlif bankların çevik mövqe tutmasıdır. Bunu, bankların daha bir neçə onluğunun göstəricisinin ən iri bankların göstəricilərinə təqribən bərabər olduğuna və artımda dinamizm göstərərək, asanlıqla onların yerini tuta bilməsi ilə izah etmək mümkündür. Bəzi banklar ən irilərin növbəti siyahısının yuxarı mövqelərini, sözün əsl mənasında, zor tətbiq etməklə tutur. Bu hal son illərdə intensiv surətdə yayılan qovuşmaların, strateji alyansların yaxud qəsblərin nəticəsidir.

## 20.2. Beynəlxalq Valyuta Fondu (BVF)

Beynəlxalq maliyyə-iqtisadiyyat sahəsində güclü nüfuza malik olan təşkilatlar sırasında mənzil-qərargahı Vaşinqtonda (ABŞ) yerləşən Beynəlxalq Valyuta Fondu (BVF) mühüm əhəmiyyət kəsb edir. Əhatə miqyasının qloballığı və üzv-dövlətlərlə əlaqələrinin sıxlığı sayəsində dünyanın çox ölkələrində BVF-in nümayəndəlikləri açılmışdır. BVF 1944-cü ildə Bretton- Vudsda keçirilən, Bretton-Vuds valyuta sisteminin təməlini təşkil edən yeni valyuta siyasəti prinsiplərinin müəyyənləşdirildiyi Beynəlxalq konfransda yaradılmışdır.

Hazırda 187 dövlət BVF-in üzvüdür. Dövlətlər üçün üzvlük BVF-in müəyyən etdiyi müddətlərdə və şərtlərlə açıqdır. Bolqarıstan, Namibiya, İsveçrə, Rusiya (1992-ci ildən), Estoniya, Latviya, Litva, Albaniya, Moldova, Qazaxıstan, Ennənistan, Belarus, Qırğızıstan, Marşall adaları, Gürcüstan BVF-in yeni üzvləridir.

BVF-in ali rəhbər orqanı üzv-dövlətlərin nümayəndələrindən ibarət olan (adətən, valyuta siyasətinin həyata keçirilməsinə görə cavabdeh nazir yaxud mərkəzi bankın müdiri ilə müavini), 5 il müddətinə təyin edilən ***İdarəedicilər Şurasıdır (Board of Governors).*** İdarəedicilər Şurası özünün bir çox səlahiyyətlərini İcra Şurasına, yəni BVF-də maliyyə-iqtisadi, operativ və inzibati məsələlərin, o cümlədən üzv-dövlətlərə kreditlərin verilməsi, onların valyuta siyasətinə nəzarət edilməsi üzrə işlərin aparılmasını Müdiriyyətə həvalə edir.

BVF-in İcra Şurası 5 il müddətinə sərəncamçı-direktoru seçir və o. Fondun 140-dan çox ölkədən olan 2700 nəfər əməkdaşına başçılıq edir. Direktor Avropa ölkələrindən birinin nümayəndəsi olmalıdır.

Dünya Bankından (yoxsul ölkələrə yardım edir) fərqli olaraq, BVF-in fəaliyyəti nisbətən qısa müddət davam edən makroiqtisadi böhranlar üzərində cəmləşmişdir. Dünya Bankı kreditləri yalnız yoxsul ölkələrə, BVF isə kreditləri qısamüddətli maliyyə öhdəliklərinin yerinə yetirilməsi ünün xarici valyutaya ehtiyacı olan istənilən üzv-dövlətə verir.

BVF-in rəsmi məqsədləri bunlardır:

- valyuta-maliyyə sahəsində beynəlxalq əməkdaşlığı dəstəkləmək;
- istehsal resurslarının inkişafı, məşğulluğun və üzv-dövlətin real gəlirlərinin yüksək səviyyəsini əldə etmək üçün beynəlxalq ticarətin

• valyutaların sabitliyini təmin etmək, üzv-dövlətlər arasında valyuta sahəsində nizamlanmış münasibətləri saxlamaq və rəqabət üstünlüyünün əldə olunması məqsədilə valyutanın dəyərsizləşdirilməsinin qarşısını almaq;

• üzv-dövlətlər arasında çoxtərəfli hesablaşmalar sisteminin yaradılmasına, habelə məhdudiyyətlərin aradan qaldırılmasına yardım göstənuək;

• onun üçün imkanlar yaradan üzv-ölkələrə tədiyyə balansmdakı tarazlığın pozulmasının aradan qaldırılması üçün müvəqqəti olaraq xarici valyutada vəsaitlər vermək.

BVF valyuta sahəsində beynəlxalq əməkdaşlıq üzrə aparıcı beynəlxalq valyuta-maliyyə təşkilatıdır. Onun əsas məqsədi beynəlxalq valyuta sistemində, yəni ölkələrə (və onların vətəndaşlarına) bir-birindən malları və xidmətləri satın almaq imkanı yaradan mübadilə məzənnələri və beynəlxalq ödəmələr sistemində sabitliyi qoruyub saxlamaqdır. Bu, dayanıqlı iqtisadi artımın və əhalinin həyat səviyyəsinin təmin olunması üçün zəruridir.

BVF-in üzv-dövlətlərinin hamısı özünün milli, regional və qlobal iqtisadi siyasətlərinin nəticələrinin müzakirəsi üçün forum kimi fəaliyyət göstərən İcra Şurasında təmsil olunmuşdur. İllik hesabatlarda İcra Şurasının və BVF-in rəhbərliyinin və heyətinin 1 maydan 30 aprelədək dövrü əhatə edən maliyyə ili ərzində fəaliyyəti işıqlandırılır.

BVF-in fəaliyyətinin əsas istiqamətlərinə aşağıdakılar daxildir:

• üzv-dövlətə maliyyə böhranının qarşısını almaqda yaxud tənzimlənməsində kömək edə biləcək siyasətin həyata keçirilməsi, makroiqtisadi sabitliyə nail olunması, iqtisadi artımın sürətləndirilməsi və yoxsulluq səviyyəsinin endirilməsi tədbirlərinə dair məsləhətlərin verilməsi;

• tədiyyə balansında yaranan problemlərin, yəni başqa ölkələrə olan ödəmələr üzrə borcunun valyuta gəlirlərindən çox olduğu vəziyyətin nizamlanması məqsədilə üzv-dövlətə müvəqqəti maliyyələşmənin təmin edilməsi;

• üzv-dövlətin əsaslandırılmış iqtisadi siyasət həyata keçirməsi üçün lazım olan biliklər bazasının və qurumların yaradılması məqsədilə, onun xahişi əsasında texniki yardım və kadr hazırlığında kömək göstərilməsi.

***Fondun idarə olunmasının ümumi strukturu.*** BVF üzv-dövlətlərin hökumətləri qarşısında hesabatlıdır. BVF-in təşkilati strukturunun zirvəsində 187 üzv-dövlətin hərəsindən bir direktor və onun bir müavininin daxil edildiyi

Direktorlar Şurasına həvalə olunmuşdur və bunların bəziləri istisna edilməklə, onun tərəfindən İcra Şurasına verilə bilər. Direktorlar Şurasının iclasları adətən ildə bir dəfə, BVF və DB-nin İllik Yığıncağı zamanı keçirilir.

BVF-in gündəlik işi onun mənzil-qərargahında, üzv-dövlətlər yaxud onların qrupları tərəfindən seçilmiş 24 icraçı direktor və İcra Şurası tərəfindən təyin edilən, onun Sədri olan Sərəncamçı-direktor tərəfindən yerinə yetirilir. Sərəncamçı-direktor eyni zamanda BVF heyətinin rəhbəridir. İcra Şurasının iclasları adətən həftədə bir neçə dəfə keçirilir.

Bütün üzv-dövlətlərin təmsil olunduğu iki idarəedicilər komitəsi - Beynəlxalq Valyuta-Maliyyə Komitəsi (International Monetary and Financial Committee) və İnkişaf üzrə Komitə (Joint IMF - World Bank Development Committee) mövcuddur. BVMK - məşvərətçi orqandır və hazırda BVF-in 24 direktorunun təmsil etdiyi eyni ölkədən yaxud ölkələr qrupundan olan 24 direktordan (və ya onların müavinlərindən) ibarətdir. BVMK tövsiyələr verir və Direktorlar Şurası qarşısında Fondun rəhbərliyinə nəzarət və beynəlxalq valyuta-maliyyə sisteminin uyğunlaşdırılınası sahəsində onun vəzifələrinə aid olan məsələlər üzrə hesabat verir. Adətən onun iclasları ildə iki dəfə, yaz və illik yığıncaqları vaxtı keçirilir.

İnkişaf üzrə Komitə (rəsmi olaraq; Bankın və Fondun Real Resursların İnkişaf etməkdə olan ölkələrə Verilməsi üzrə İdarəedicilər Şuralarının Birləşmiş Nazirlər Komitəsi) Dünya Bankı ilə BVF-in müştərək orqanıdır və onun tərkibinə DB-nin yaxud BVF-in 24 direktoru və ya onların müavini daxildir. Komitə BVF və DB-nin İdarəedicilər Şuralarına inkişafın ən mühüm məsələləri üzrə, habelə inkişaf etməkdə olan ölkələrdə iqtisadi artımın dəstəklənməsi üçün lazım olan maliyyə resurslarına dair tövsiyələr verir. BVMK-də olduğu kimi, onun iclasları da, adətən ildə iki dəfə keçirilir.

***Müstəqil qiymətləndirmə şöbəsi.*** Müstəqil Qiymətləndirmə Şöbəsi (MQŞ) 2001-ci ildə BVF-də şəffaflığın və hesabatlığın təmin olunması, onun biliklərin toplanması ənənələrinin möhkəmləndirilməsi məqsədilə siyasətinin və fəaliyyətinin müstəqil və obyektiv tərzdə qiymətləndirilməsi üçün yaradılmışdır. MQŞ-nin işinin əsas metodu Fondun mandatına uyğun olan məsələlər: BVF-in siyasətinin ümumi tədbirlərinin mütəmadi qaydada qiymətləndirilməsi; BVF-in iqtisadi siyasətə dair tövsiyələrinin həm nəzarət, həm də BVF-in resursları ilə dəstəklənən proqramlar baxımından ölkələrarası müqayisəli təhlilinin aparılması; ölkələrdə yerinə yetirilmiş əməliyyatların

qiymətləndirilməsi üzrə müstəqil təhlilin həyata keçirilməsidir. MQŞ öz səlahiyyətləri çərçivəsində Fondun rəhbərliyindən asılı deyil və çıxardığı nəticələri təqdim etdiyi Fondun İcra Şurasından ayrıca fəaliyyət göstərir.

BVF-in beynəlxalq ticarət siyasəti məsələlərinin həllinə cəlb olunmasının qiyıuətləndirilməsi MQŞ tərəfindən 2009-cu maliyyə ilinin sonunda başa çatdırılmış və 2009-cu ilin iyununda Şurada baxılmaq üçün qəbul edilmişdir. Şura ilin əvvəlində BVF-in idarə olunmasının MQŞ tərəfindən qiymətləndirilməsinin müzakirəsi ilə yanaşı, onun 2008-ci ilin yanvarında BVF-in resursları ilə dəstəklənən proqramlarda nəzərdə tutulan struktur dəyişikliklərinin aparılması tələblərinin yerinə yetirilməsinə dair rəhbərlik planına da baxmışdır. Tövsiyələrin yerinə yetirilməsi üzrə rəhbərlik planları MQŞ tərəfindən xarici qiymətləndirilmə keçirildikdən sonra yaradılan təməlin bir hissəsidir və MQŞ-nin Şura tərəfindən bəyənilən tövsiyələrinin yerinə yetirilməsi üzərində mütəmadi nəzarətin və monitorinqin aparılması məqsədi daşıyır.

2009- cu ilin yanvarında Şura MQŞ-nin 2008-ci il üzrə tövsiyələrin yerinə yetirilməsi barədə dövri Hesabatını müzakirə etdi. Müzakirə nəticəsində Şura MQŞ-nin tövsiyələrinin Fondun fəaliyyətinə güclü təsir göstərdiyi barədə qənaətə gəldi. Hesabatın nəticələri İcraçı direktorlar tərəfindən dəstəkləndi və növbəti dövri hesabatın həyata keçirilməsi üçün nəzarət göstəriciləri təsdiq edildi.

2009-cu maliyyə ilinin sonuna MQŞ qiymətləndirmə üzrə iki hesabat hazırladı: «BVF-in üzv-dövlətlərlə qarşılıqlı münasibətləri» və «BVF-in elmi tədqiqatlar proqramı». Bunlarla yanaşı, qlobal iqtisadi və maliyyə böhranı ərəfəsində Fondun rolunun qiymətləndirilməsi, o cümlədən inkişaf etmiş ölkələrə münasibətdə nəzarətin səmərəliliyi məsələləri: sistemli risklərin aşkar olunması (məsələn, zəif cəhətlərin qiymətləndirilməsi); çoxtərəfli məsləhətləşmələr və bazarları formalaşan bəzi ölkələrdə kapitalla əməliyyatlar və maliyyə sektoru sahəsində tövsiyələrə münasibə-tin öyrənilməsinə başlanılması bəyan edildi. MQŞ-in direktoru Tomas Beme 2009-cu il iyulunda tutduğu vəzifədən istefa vermək haqqında niyyətini bildirdikdən sonra gələcək mövzuların təklifi və seçimi yeni direktor təyin olunanadək təxirə salındı.

MQŞ-nin fəaliyyəti və hesabatları barədə əlavə məlumatlar www.ieo-imf org saytında yerləşdirilmişdir.

***B VF-in audit mexanizmlərinə*** xarici auditor firması, daxili audit bölməsi

və bu iki strukturun işinə nəzarət edən Xarici Audit üzrə Komitə daxildir (XAK).

İcra Şurası XAK ilə məsləhətləşməklə xarici auditor firmasım seçir və İcraçı Direktor tərəfindən təyin olunur. Firma hər il xarici audit yoxlamalarının aparılma-sına və BVF-in maliyyə hesabatlarının, V Maddənin 2 (b) bölməsinə və heyətin pensiya təminatı Planına uyğun olaraq idarə edilən hesabların auditinin yekunları üzrə hesabatların təqdim olunmasına görə cavabdehdir. Xarici auditor fınnası, adətən 5 il müddətinə təyin olunur. Hazırda BVF-in xarici auditoru Deloitte&Touche LLP fınnasıdır. Firma 30 aprel 2009-cu ildə başa çatmış maliyyə ilində BVF-in maliyyə hesabatlarının auditinin nəticələri üzrə məruzəsini qeyd-şərtsiz təqdim etmişdir.

Daxili audit Daxili Təftiş və Nəzarət İdarəsi (DDTNİ) tərəfindən, risklərin idarə olunması proseslərinin səmərəliliyinin, BVF-in fəaliyyətinə nəzarət və idarəçiliyin yoxlanılması məqsədilə müstəqil həyata keçirilir. DDTNİ Risklərin İdarə Olunması üzrə Məşvərət Komitəsinin (RİOMK) katiblik funksiyalarını da yerinə yetirir. DDTNİ hər il təqribən 25 auditor yoxlaması və təftişi, 0 cümlədən maliyyə təftişləri, informasiya texnologiyalarının, əməliyyat mexanizmlərinin və səmərəlili-yin yoxlanmasını həyata keçirir. Maliyyə təftişləri zamanı nəzarət mexanizmlərinin, BVF-in maliyyə aktivlərinin və hesablarının qorunmasının təmin olunması və idarə edilməsinin adekvatlığı nəzərdən keçirilir. İnformasiya texnologiyalannm yoxlan-ması aparılarkən informasiya sistemlərinin münasibliyi və informasiyanın qorunması səviyyəsi qiymətləndirilir. Əməliyyat mexanizmləri və onların səmərəliliyi, mövcud proseslər və bununla bağlı olan nəzarət mexanizmləri, əməliyyatların səmərəliliyi və təsiri onların BVF-in ümumi məqsədlərinə uyğunluğunu yoxlamaq üçün aparılır. DDTNİ-nin mütərəqqi təcrübəyə uyğun olaraq BVF və XAK rəhbərliyi qarşısında hesabatlı olması onun müstəqilliyini təmin edir. Bundan başqa, DDTNİ hər il İcra Şurasını öz iş proqramı, apardığı yoxlamalar və təftişlər nəticəsində çıxardığı nəticələr və verdiyi tövsiyələr barədə məlumatlandırır.

XAK İcra Şurası tərəfindən seçilən və Sərəncamçı Direktor tərəfindən təyin edilən 3 üzvdən ibarətdir. Fondun reqlamentinə uyğun olaraq, XAK illik auditor yoxlamaları üzərində nəzarəti həyata keçirir. Onun səlahiyyətləri İcra Komitəsi tərəfindən təsdiqlənir. Komitənin üzvləri rotasiya qaydasında 3 il müddətinə təyin olunur və Fonda tabe deyil. XAK üzvləri müxtəlif üzv-

dövlətlərin vətəndaşıdır, hər il keçirilən auditor yoxlamalarına nəzarəti həyata keçimıək üçün lazımi biliklərə və ixtisas dərəcəsinə malik olmalıdır. Bir qayda kimi, XAK üzvlərinin beynəlxalq mühasibat-auditor firmalarında, dövlət qulluğunda və ya elmi idarələrdə iş təcrübəsi olmalıdır.

XAK öz üzvləri arasından sədr seçir, işinin qaydasını müəyyənləşdirir və illik auditin keçirilməsinə nəzarət etmək məsələlərində BVF rəhbərliyindən asılı deyil. Adətən, XAK öz yığıncaqlarını Vaşinqtonda (ABŞ), ildə 3 dəfə - audit keçirildikdən sonra yanvarda və iyunda və İcra Şurasına Hesabatın təqdim olunması üçün iyulda - keçirir. BVF heyəti və xarici auditorlar XAK üzvləri ilə il ərzində məsləhətləşmələr aparır. İllik yoxlama keçirildikdən sonra XAK auditin nəticələri barədə İcra Şurasına qısa məlumat verir, xarici auditor fınnasınm hesabatını Sərəncamçı Direktor və İcra Şurası vasitəsilə İdarəedicilər Şurasının baxılmasına təqdim edir.

***BVF-in əsas funksiyaları bunlardır:***

- fondun üzv-dövlətlərinin pul siyasəti sahəsində beynəlxalq əməkdaşlığının dəstəklənməsi;
- dünya ticarətinin inkişafının dəstəklənməsi;
- dondun üzv-dövlətlərinin kreditləşdirilməsi;
- fondun üzv-dövlətlərinin pul mübadiləsi məzənnələrinin sabitləşdirilməsi;
- fondun debitorları olan ölkələrə məsləhətlərin verilməsi.

Fondun nizamnamə kapitalı üzv-dövlətlərin üzvlük haqlan hesabına formalaşır. Adətən Fondun hər bir üzvü öz kvotasının 25%-ni XBH yaxud başqa üzv-dövlətin valyutasında, qalan 75%-i isə öz milli valyutasında ödəyir. BVF-in rəhbər orqan-larmda səslər üzv-dövlətlərin kvotalarının həcminə əsasən bölünür. Qeyd etdiyimiz kimi. Fondun yenidən təşkili ilə əlaqədar olaraq, kvotalara yenidən baxılacaq, inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrin kvotası 5% artırılacaq, buna müvafiq olaraq, bir sıra inkişaf etmiş ölkələrin kvotası isə azaldılacaq.

BVF-də səslərin «orta çəki» prinsipi qüvvədədir: üzv-dövlətlərin Fondun fəaliyyətinə səsvermə vasitəsilə təsir göstərmək imkanı onların kapitaldakı payı əsasında müəyyənləşdirilir. Hər bir dövlət kapitala ödədiyi üzvlük haqqının məbləğindən asılı olmayaraq 250 «baza» səsinə malikdir və bundan əlavə, ödənişin hər 100 min XBH-ə görə bir əlavə səs qazanır. Bu qayda aparıcı dövlətlərə həlledici səs çoxluğu təmin edir. Qeyd etdiyimiz kimi, həmin

qaydaya dəyişiklik ediləcəkdir.

İdarəedicilər Şurasında qərarlar, adətən sadə səs çoxluğu ilə (səslərin yarısından az olmayaraq), operativ yaxud strateji əhəmiyyət kəsb edən mühüm məsələlər üzrə isə «xüsusi çoxluqla» (üzv-dövlətlərin səslərinin müvafiq olaraq 70 yaxud 85%-i) qəbul olunur.

BVF-in təşkilati strukturunda Beynəlxalq Valyuta və Maliyyə Komitəsi (BVMK) əhəmiyyətli rol oynayır. Onun sələfi Beynəlxalq Valyuta Sistemi Məsələləri üzrə Müvəqqəti Komitə olmuşdur. Komitə BVF-in 24 direktorundan (o cümlədən Rusiyadan olan) ibarətdir və ildə 2 dəfə öz sessiyalarına toplanır. Bu Komitə Direktorlar Şurasının məşvərət orqanıdır və direktiv qərarlar qəbul etmək hüququna malik deyil. Buna baxmayaraq, mühüm funksiyalar yerinə yetirir; İcra Şurasının fəaliyyətini istiqamətləndirir; dünya valyuta sisteminin və BVF-in fəaliyyətinə dair strateji qərarları işləyib hazırlayır; Direktorlar Şurasına BVF-in Müqavilələrinin maddələrinə dəyişikliklər edilməsi barədə təkliflər verir. İnkişaf üzrə Komitə - BVF və DB-nin Direktorlar Şuralarının Birləşmiş Nazirlər Komitəsi (Joint IMF - World Bank Development Committee) də buna bənzər rol oynayır.

BYİB və BHB borclu ölkələrin dövlət tənzimlənməsi proqramlarına maliyyə yardımı göstərmək, özəl və dövlət kredit əməliyyatları üçün katalizator kimi təsir etmək imkanı verən mövqe tutduğu üçün Beynəlxalq Valyuta Fondu onlarla sıx əməkdaşlıq edərək, bir sıra «xilasedici» müqavilələrin bağlanmasında həlledici rol oynamışdır.

Kreditlərin verilməsinin çoxsaylı qaydaları ***{tranşlar siyasəti*** kimi məlumdur) BVF üzvlərinin onun ümumi resurslarından istifadə etmək imkanını nəzarətə götürür. Ümumilikdə, qaydalar üzv-dövlətlərin xarici valyuta almasını, onların BVF-də olan kvotasını tam bölünə bilən müəyyən hədlə məhdudlaşdırır, lakin bu kəmiyyət bütün mövcud imkanlardan istifadə edə bilən ölkələr üçün 440%-dən çox olmamalıdır. Bu imkanlar tədiyyə balansı, iqtisadi artım, iş yerlərinin yaradılması, maliyyə sabitliyi, struktur islahatları, ödəmələr və ticarət məhdudiyyətləri siyasəti üzrə BVF-in irəli sürdüyü şərtlərə əməl edən ölkələrə verilir. Borcalanın qəbul etməli olduğu şərtlər ***kreditlərin şərtlənməsi*** adlanır. Adi ehtiyat yaxud qarantiyalı kreditlərdən başqa, BVF tərəfindən üzv dövlətlərin tədiyyə balansının struktur çətinliklərinin aradan qaldırılmasına və struktur islahatlarını həyata keçirməsinə imkan yaratmaq üçün ixracdakı müvəqqəti tərəddüdlərin maliyyələşdirilməsi, xarici valyuta

ehtiyatlarının kreditləşdirilməsi, ortamüddətli kreditlərin 4 ilədək prolonqasiyası (vaxtının uzadılması) üzrə kompensasiya sxemi müəyyənləşdirilmişdir. (Son 2 xidmət gəlirləri aşağı olan ölkələrə iqtisadi artım imkanlarını yaxşılaşdırmaqda yardım məqsədi daşıyır).

1960-cı illərin əvvəlində qızıl hasilatının qeyri-adekvat həcmdə çoxalması ilə bağlı olaraq, beynəlxalq likvidliyin artırılması barədə müzakirələr başlandı. 1967-ci ildə BVF-in Rio-de-Janeyroda keçirilən iclasında ilk dəfə olaraq XBH-dən istifadə-nin sxemi təklif olunmuşdu. 1969-cu ildə BVF üzvləri Fondun Əsasnaməsinin müvafiq maddəsinə XBH ilə işləməyə icazə verən düzəlişlər edilməsinə razılıq verdilər. Onun birinci buraxılışı 1970- ci ildə, növbəti buraxılışları isə 1970-1990-cı illərdə baş verdi. 1976-cı ilin mayında Kinqstonda (Yamayka) Yamayka Sazişinin bağlanmasından sonra BVF-in Nizamnaməsində əsaslı dəyişikliklər aparıldı. Saziş qızılın beynəlxalq valyuta sistemindəki əhəmiyyətini azaltdı, üzən valyuta məzənnələri sistemini bəyəndi, XBH-nin qiymətləndirilməsi və istifadə olunmasının mümkün sahələrinə yenidən baxdı, BVF-in qızıl ehtiyatlarının inkişaf etməkdə olan üzv- dövlətlərə yardım göstərilməsi üçün satılmasına icazə verdi. Kreditlərin verilmə-sindən başqa, BVF-in mühüm vəzifələrindən biri üzv-dövlətlərin makroiqtisadi siyasətinin istiqamətlərini dünya səviyyəsində saxlamaq üçün valyuta məzənnələri sahəsində siyasətə nəzarət etməkdir. Bu nəzarət üzv- dövlətlərin ildə bir dəfə yaxud iki ildə bir dəfə toplantılarının keçirilməsi ilə həyata keçirilir.

BVF-in əsas vəzifəsi beynəlxalq pul-kredit və maliyyə sistemlərinin - beynəlxalq ticarətin aparılması mümkün olmayan beynəlxalq hesablaşmalar və mübadilə məzənnələri sistemlərinin sabitliyini təmin etməkdir. BVF-in fəaliyyəti iqtisadi sabitliyə, iqtisadi böhranların qarşısının alınmasına və baş verdiyi hallarda nəticələrinin aradan qaldırılmasına imkan yaratmalıdır. Bu fəaliyyət iqtisadi artımın stimullaşdırılmasına və yoxsulluğun azaldılmasına yönəlmişdir. Həmin məqsədlərə çatmaq üçün Fond 3 əsas funksiyanı yerinə yetirir: maliyyə sahəsində qlobal nəzarət, ölkələrə texniki yardım göstərilməsi, hökumətlərin sabitləşdirmə proqramlarının kreditləşdirilməsi.

***Nəzarət funksiyası,*** ilk növbədə, iqtisadi siyasət məsələləri üzrə dialoq rejimində aparılan mütəmadi məsləhətləşmələr vasitəsilə yerinə yetirilir. Fond ildə bir dəfə üzv-dövlətlərin hər birində iqtisadi vəziyyəti təfsilatı ilə qiymətləndirir. Buna müvafiq olaraq, ölkələrin rəhbərliyi ilə məsləhətləşmələr

aparılır və milli valyutanın mübadilə məzənnəsinin sabitləşməsinə, iqtisadi artıma şərait yaradan proqramlar müzakirə olunur. Fərdi məsləhətləşmələr zamanı əldə olunan məlumatlar ümumiləşdirilir, dünya və regional inkişaf və proqnozlar haqqında Hesabata daxil edilir. Yekun göstəricilər ildə 2 dəfə dünya iqtisadiyyatının icmalında və dünyada maliyyə sabitliyi haqqında Hesabatda dərc olunur.

BVF-in ***texniki yardımı*** və müxtəlif treninqlər ölkələrin səmərəli maliyyə-kredit siyasəti hazırlaması və həyata keçinnəsi imkanlarını genişləndinnək məqsədi ilə əsasən vəsaitləri geri qaytarılmaması qaydasında göstərilir. Bu yardım bir neçə istiqamət üzrə, o cümlədən vergi və pul-kredit siyasəti, valyuta siyasəti, bank və maliyyə sistemlərində tənzimləmə və nəzarət, habelə milli statistikanın indikatorlarının beynəlxalq standartlara yaxınlaş-dırılması istiqamətində göstərilir.

BVF üzvü olan dövlət tədiyyə balansının maliyyələşdirməkdə çətinlik çəkdikdə, Fond güzəştli şərtlərlə kredit ayırmaqla yardım edir. Ölkələrə tədiyyə balansının problemlərini aradan qaldınnağa imkan verən ***maliyyə yardımı*** da buna yönəlmişdir. BVF tərəfindən maliyyələşdirilən müvafiq proqramlar milli hökumətlər tərəfindən Fondla sıx əməkdaşlıq şəraitində hazırlanır; Fond tərəfindən sonrakı maliyyə yardımlarının göstərilməsi isə ölkənin işlənib hazırlanan proqramı necə yerinə yetinnəsindən asılıdır.

BVF həm təkbaşına, həm də Dünya Bankı və başqa beynəlxalq təşkilatlarla birlikdə yoxsulluğun aradan qaldırılmasına (inkişaf etməkdə olan ölkələrdə) istiqamətlənmiş tədbirləri həyata keçirir. Güzəştli kreditlərin verilməsi yolu ilə maliyyə yardımı Yoxsulluğun Azaldılması və Artımın Stimullaşdırılması Proqramı (PRGF - Poverty Reduction and Grown Facility), habelə Xarici Borcu Yüksək Olan Yoxsul Ölkələrin Borc Yükünün Azaldılması Proqramı (Heavy Indepted Poor Countries; HIPC Initiative) vasitəsi ilə göstərilir. Gəlirləri aşağı olan ölkələrin əksə-riyyətində bu yardım yoxsulluğun azaldılması strategiyası üzrə sənədlər (PRSP - Poverty Reduction Strategy Parers) əsasında göstərilir. Hökumətlər tərəfindən hazır-lanan (ictimaiyyət nümayəndələri və xarici tərəfdaşlarla məsləhətləşmələrdən sonra) bu sənədlər ölkələrdə iqtisadi artımın və yoxsulluğun azaldılmasının stimul-laşdırılmasma istiqamətlənmiş iqtisadi, struktur və sosial siyasətlərin əsasında durur.

BVF dünya maliyyə sisteminin tənzimlənməsində səmərəliliyinin

xadimlərinin fikrincə, 2008-2010-cu illərin qlobal böhranının xüsusilə ağır fonuada keçməsinə səbəb olmuşdur. Buna görə də BVF son dövrlərdə əsaslı tənqidlərə məruz qalır, onun yenidən təşkilinin müxtəlif yolları və beynəlxalq maliyyə sistemi subyektlərinin fəaliyyəti üzərində nəzarətin gücləndirilməsi təklif olunur. Görünür ki, qarşısıalınmaz, nəzarətsiz radikal liberallaşma dövrü arxada qalmışdır. Son dövrdə BVF-in, Vaşinqtonun və onların avropalı müttəfiqlərinin qlobal böhrandan qorxuya düşmüş və daha böyük faciələrin baş verəcəyini güman edən liderlərinin hələ 2008-ci ildə zəruri hesab olunan dərin islahatlar çərçivəsində etdiyi bəzi güzəştlər bunu söyləməyə əsas verir.

***BVF-in yeni nəzarət funksiyaları.*** 2010-cu ilin sentyabrında BVF G-20-nin qərarlarına uyğun olaraq, hər il 25 aparıcı ölkənin (o cümlədən Rusiyanın) milli maliyyə sisteminin dayanıqlığını yoxlamağa başladığını bəyan etdi. Bu cür testin metodikası hələ müəyyənləşdirilməsə də, bura iri milli bankların, dövlət büdcəsinin stress-testlərinin keçirilməsinin, maliyyə nəzarətinin keyfiyyətinin və bir sıra başqa mövqelərin beynəlxalq normalara və standartlara cavab verməsi baxımından yoxlanılmasının daxil ediləcəyi bəllidir. BVF-in ekspertlərinin sözlərinə görə, maliyyə qurumları kafılik və risk səviyyələri üzrə qiymətləndiriləeək, suveren risklər isə dövlət borcunun həcmi (ÜDM-ə nisbətdə), dövlət büdcəsinin kəsirinin məbləği, ticarət balansının saldosu və başqa indikatorlar əsasında təhlil olunacaq.

Aydındır ki, bu yenilik yaxın dövrdə (böhran başlayanadək) beynəlxalq təşkilatlar və təhlilçilərin ümumdünyadünya maliyyə təhlükəsizliyinin müəyyən sisteminin BVF-in fəaliyyət çərçivəsindən kənarda yaradılmasının zəruriliyi haqqında ideyasından qaynaqlanır. Bu ideya son illərdə keçirilən sammitlərdə aparıcı dövlətlərin liderləri tərəfindən dəfələrlə təqdir olunmuşdur. Amma BVF-in bu cür fəaliyyətdə iştirakının konstruktiv xarakterdə olacağı aşkar bir fakt səbəbindən şübhəlidir: onun çoxsaylı təhlilçi aparatı və illik hesabatların hazırlanması üçün cəlb etdiyi ekspertlər Hayek-Fridmanm libertarian ideyaları əsasında son dərəcə siyasiləşmiş, doqmatik ruhlu nümayəndələrdir. Bu ideyalar isə, tamamilə düzgün olaraq, qlobal böhranın səbəblərindən biri kimi qiymətləndirilir. Buna görə də BVF-in öneül vəzifəsi - təhlilçilərin və ekspertlərin yeni tərkibini formalaşdırmaqdır. Əks halda, baha başa gələn bu təşkilatın dünya maliyyəsini sağlamlaşdınuaq üzrə son dərəcə mürəkkəb məsələlərin həllində heç bir faydası olmayaeaq. Məsələn, bütün əlamətlər fəlakətli böhranın yaxınlaşmasını göstərdiyinə, bir sıra iqtisadçıların

məqalələrində həyəcan bildirməsinə baxmayaraq, dünya iqtisadiyyatının daimi monitorinqini aparan BVF hətta 2007-ci ilin sonuna Hesabatlarında belə, təhlükəli vəziyyətin yaranması barədə heç bir fikir ifadə etmirdi.

BVF-in statusunun gücləndirilməsi, onun dünyada əsaslı ləkələnmiş adını bir qədər təmizləyə bilsə də, onun stress-testlər üzrə çıxardığı nəticələri sırf tövsiyə xarakteri daşıdığına görə, praktiki baxımdan ciddi pozitiv məna kəsb edəcəyi şübhə doğurur. Digər tərəfdən, BVF üçün siyasət və ideologiya məsələləri obyektiv iqtisadi təhlillə müqayisədə dominant olduğundan, onun Hesabatlarında milli iqtisadiyyatların dayanıqlılıq meyarları kifayət dərəcədə sərt yaxud yumşaq ola bilər. Belə ki, 2010-cu ildə 90 Avropa bankının tədqiq edilməsi üçün stress-testlərin qəbul olunan şərtləri həddən ziyadə yumşaq olmuşdur. Bu halda BVF-də «bazarı sakitləşdirmək» məqsədilə yalnız real vəziyyəti əks etdirdiklərini gizlətmirdilər. Amma bu məsələ ümumdünya təşkilatı kimi tanınan, çoxsaylı işçi heyətinin saxlanmasına dünyanın onlarca dövləti tərəfindən vəsait ayrılan və pozitiv fəaliyyət göstərəcəyinə ümid bəslənilən BVF-in deyil, elementar reklamın və bankların ictimaiyyətlə əlaqələr xidmətlərinin səviyyəsindədir. Qeyd edək ki, siyasi oyunlar BVF-in köhnə xəstəliyidir: gah kommunizmin yoxa çıxdığı və ölkə iqtisadiyyatının, az qala, daş dövrünə yuvarlandığı Rusiyada kommunizmlə mübarizə aparır, gah da Asiya böhranına cəmi 3 gün qalmış Kuala-Lumpurda keçirilən toplantıda Malayziya və bütün ASEAN ölkələrində aparılan islahatlara BVF prezidenti Kamdessyunun sözləri ilə heyrətlənərək, «böhranların birdəfəlik keçmişdə qaldığına» əminliyini bildirirdi. Nəticə isə BVF-in Kuala-Lumpurdakı bölməsinin bağlanması, Malayziyanın BVF-in bütün tövsiyələrindən qətiyyətlə imtina edərək, tez bir zamanda böhran məngənəsindən can qurtarması olmuşdur.

BVF-in ölkələrin (xüsusilə də problemli ölkələrin) rəhbərliyinə tövsiyələrlə müşayiət olunan müraciətləri, təşkilatın tarixində dəfələrlə olduğu kimi, bazarlardakı vəziyyəti daha da mürəkkəbləşdirə bilər. Buna görə də dünya iqtisadiyyatının tənzimlənməsində millətüstü elementin gücləndirilməsini zəruri hesab ediriksə, yəqin ki, özünü son dərəcədə doğrultmayan BVF'və DB kimi beynəlxalq təşkilatların səlahiyyətlərini artırmaqdan çəkinməliyik. Hər iki təşkilatın özü daxili islahatların aparılmasına, bütün rəhbərliyinin və neolibertian siyasətinin dəyişdirilməsinə möhtacdır. Yalnız islahatlar aparıldıqdan sonra Fondun üzv-dövlətlərinin

qruplarının nəzarətsiz fəaliyyətini, «bazarın» hüdudsuz imkanlarını tərənnüm etməyən ekspertlərin fikrinə diqqətlə yanaşması əsasında həmin təşkilatlara yüksək səlahiyyətlərin verilməsi mümkündür.

## 20.3. Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB) yaxud Dünya Bankı (DB)

Bu bank BMT-nin valyuta-maliyyə məsələləri üzrə 1944-cü ilin iyulunda Bretton-Vudsda keçirilən konfransının qərarlarına müvafiq olaraq, 1945-ci ildə BVF ilə birlikdə yaradılmışdır. Eyni zamanda Dünya Bankı da adlandırılan bu banka BVF kimi, BMT-nin ixtisaslaşmış idarəsi statusu verilmişdir. DB-nin əsas məqsədi üzv-dövlətlərin iqtisadi inkişafını dəstəkləməkdir. Bankın kreditləri əsasən yolların, elektrik stansiyalarının, məktəblərin, xəstəxanaların inşası, sənaye sahələrinin, telekommunikasiyaların müasirləşdirilməsi üzrə investisiya layihələrinin həyata keçirilməsinə istiqamətlənmişdir. Borcların bir hissəsi ölkələrin iqtisadi sistemlərində sabitliyin təmin olunması və səmərəliliyin yüksəldilməsi məqsədilə aparılan bazar islahatlarının maliyyələşdirilməsi üçün verilir.

***Bankın vəzifələri.*** İlk dövrdə BYİB Avropanın müharibədən sonrakı bərpası üçün kapital resurslarının toplanması və yerləşdirilməsi ilə məşğul olurdu. 1948-ci ildə bank Avropanın Bərpası Proqramını (European Recovery Programme) başladı, lakin sonra onun əsas vəzifəsi özəl kapitaldan münasib şərtlərlə istifadə etmək imkanı olmayan üzv-dövlətlərin inkişafına borc verilməsi yolu ilə yardım göstənnək oldu. Hazırda BYİB və onun yaratdığı filiallar (Dünya Bankının qrupu) inkişaf etməkdə olan ölkələrə və kapitalizmə transfonnasiya yoluna qədəm qoyan keçmiş sosialist dövlətlərinə yardım göstərilməsində mühüm rol oynayır.

Yaradıldığı dövrdən etibarən Dünya Bankının ***tərkibi və təşkilati quruluşu*** böyük dəyişikliklərə məruz qalmışdır. BYİB üzvlərinin sayı 1946-cı ildəki 38 dövlətdən 1996-cı ildə 180 dövlətədək artmışdır. Yeni törəmə təşkilatların yaradılması nəticəsində BYİB özündə 4 beynəlxalq maliyyə qurumunu birləşdirən Dünya Bankı qmpuna çevrildi. 1956-cı ildə borcları yalnız üzv-dövlətlərin hökumətlərinin zəmanəti ilə verən BYİB-dən fərqli olaraq, özəl sektorun layihələrini malijq/ələşdirən Beynəlxalq Maliyyə Korporasiyası (IFC - International Financial Corporation) yaradıldı. 1960-cı

ildə ən yoxsul ölkələrə faizsiz güzəştli kreditlər verən Beynəlxalq İnkişaf Assosiasiyasının (IDA - International Development Association) əsası qoyuldu. 1988-ci ildə yaradılan İnvestisiyalara Zəmanət üzrə Çoxtərəfli Agentliyin (MIGA - Multilaterial Investment Guarantee Agency) vəzifəsi xarici investorlara qeyri-kommersiya siyasi risklər üzrə zəmanət vemıəkdir. Xarici birbaşa investisiya axınlarının artması 1966-cı ildə Dünya Bankı qrupunun fəaliyyəti ilə bağlı olan İnvestisiya Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəzin (ICSID - International Centre for Settlement of Investment Disputes) yaradılmasını zəruriləşdirdi. ICSID-in vəzifəsi xarici investorlarla borcalan ölkələrin hökumətləri arasında baş verən mübahisələrin nizamlanması və arbitrajıdır.

***Dünya Bankının təşkilatı qunıhışu*** BVF-ə bənzəyir. Bankın resursları eyni zamanda BVF üzvü olan dövlətlər tərəfindən təqdim edilmişdir, amma əsas kapitala dünya iqtisadiyyatının lideri olan «yeddilik» tərəfindən nəzarət edilir. Faktiki üzvlük haqqı abunə kapitalının bir hissəsi olmaqla, onun 10%-dən aşağıdır. Uzunmüddətli borclar bank tərəfindən, adətən 20 ilə, qaytarılmasının 5 il təxirə salınması şərtilə verilir.

***BYIB-in fəaliyyətinin reqlamenti.*** Bank haqqında razılaşma (Nizamnamə) onun fəaliyyətini reqlamentləşdirən əsas qaydaları müəyyən edir. Belə ki, bank iqtisadi artıma yardım göstərərkən, yalnız səmərəli kapital qoyuluşlarına borc vennəlidir. Kreditin ayrılması haqqında qərar, onun geri qaytarılma ehtimalı nəzərə alınmaqla qəbul olunur. Kredit yalnız hökumətə, onun tərəfindən zəmanət verilməsi şərti ilə verilir. Borcun, satınalmaları yalnız bir ölkədən həyata keçinnək şərti ilə verilməsi qadağandır. Borcun verilməsi haqqında qərar iqtisadi mülahizələrə əsaslanmalıdır. Bankın ilk kreditləri Qərbi Avropa ölkələrinə dağıdılmış iqtisadiyyatlarını bərpa etmək imkanı yaratdı. Hazırki vəziyyətdə bank Afrika, Asiya, Latın Amerikası, Karib dənizi hövzəsi ölkələri. Şimali Afrika, Yaxın Şərq, Mərkəzi və Şərqi Avropanın dövlətlərinə borclar verir.

***Bankın vəsaitləri*** müxtəlif mənbələrdən formalaşır. Əsas mənbə müxtəlif borc öhdəliklərinin maliyyə bazarlarında satılmasıdır. Əməliyyatların zəmanətçisi kimi bütün üzv-dövlətlər çıxış edir. Mükəmməl maliyyə siyasəti nəticəsində bankın qiymətli kağızları dünyada ən etibarlılarından biri hesab edilir. Bu qiymətli kağızlar pensiya fondları, sığorta şirkətləri, başqa banklar, fiziki şəxslər tərəfindən həvəslə satın alınır. Başqa mənbələr isə səhmdar

kapitalı, bölüşdürülməmiş mənfəət, habelə bankın varlı üzvlərinin ödədiyi haqlardır. Maliyyənin ehtiyatla idarə olunması zəmanət verilmiş kapitaldan borclar yaxud inzibati xərclər üçün istifadənin qadağan edilməsində öz ifadəsini tapır. Geri qaytarılmamış borcların ümumi məbləği, ödənil-miş və ödənilməmiş abunə kapitalının, bölüşdürülməmiş mənfəətin və aktiv saldonun ümumi məbləğindən çox olmamalıdır (kommersiya bankları, adətən öz kapitalından dəfələrlə artıq olan kapitalla riskə gedir). Bank apardığı əməliyyatlar üzrə risklərin minimuma endirilməsi üçün başqa tədbirlərdən də istifadə edir. Üzv-dövlətlərə borc-ları onların hökumətlərinin zəmanəti ilə verir. Borcun geri qaytarılması, adətən 5 illik güzəştli müddətlə 10-15 il təşkil edir. BYİB-in faiz dərəcələri hər 6 aydan bir dəyişir və adətən 7%-dir. Borc almaq hüququna yalnız əhalinin hər nəfərinə düşən gəliri ən azı 5055 ABŞ dolları olan ölkələr malikdir. Varlı ölkələrin, o cümlədən yuxarıda göstərilmiş ən iri 5 səhmdarın borc almaq hüququ yoxdur.

***Bankın rəhbərliyi.*** BYİB-in ali idarəetmə orqanı İdarəedicilər Şurasıdır. Şuraya bankın üzvü olan hər dövlətdən bir idarəçi və onun bir müavini daxildir. Banka yeni üzvlərin qəbul olunması və üzvlüyün dayandırılması, səhmdar kapitalının artırılması, mənfəətin bölgüsü və başqa beynəlxalq təşkilatlarla müqavilələrin bağlanması İdarəedicilər Şurasının müstəsna səlahiyyətidir. Adətən idarəedici vəzifəsinə BYİB üzv-dövlətlərinin maliyyə nazirləri və ya mərkəzi banklarının rəhbərləri təyin olunur. İdarəedicilər Şurası ildə bir dəfə, payızda BVF ilə birgə yığıncağını keçirir.

***İcraçı Direktorlar Şurası*** Dünya Bankının prezidentini təyin edir. Həmin şəxs idarəçi, icraçı direktor yaxud onların müavinləri vəzifəsini eyni vaxtda yerinə yetirə bilməz. Prezident İcraçı Direktorlar Şurasının iclaslarında sədrlik edir, amma səslərin tam yarı bölündüyü hallar istisna edilməklə, səs hüququna malik deyil.

***Bankın Prezidentinin*** səlahiyyətləri çox genişdir. O, vəzifəli şəxslərin və işçi heyətin işə qəbul olunmasına və azad edilməsinə, işin təşkilinə və struktur islahat-larma görə məsuldur. Bundan başqa, İcraçı Direktorlar Şurası şərtləri və məbləği yalnız prezident tərəfindən bəyənilmiş borcları təsdiq edə bilər. Bretton-Vuds qurum-ları yaradılarkən əldə olunmuş qeyri-rəsmi razılaşmaya görə, BYİB-in Prezidenti amerikalı, BVF-in Sərəncamçı Direktoru isə avropalı olmalıdır. Ənənəyə görə, bankın prezidentinin namizədliyini ABŞ-dan olan icraçı direktor müəyyənləşdirir.

Bankın Parisdə, Brüsseldə, Londonda və Tokioda 4 xarici ofisi, habelə bütün borcalan ölkələrdə daimi nümayəndəlikləri vardır. XXI əsrin əvvəlində bankın Vaşinqton ofisinin 9 mindən çox işçisi vardı.

Dünya Bankı «Yeni minillikdə inkişafın məqsədləri (2005-2015-ci illər)» adlı onillik fəaliyyət proqramını hazırlamışdır. Bu proqrama aşağıdakı vəzifələr daxil edilmişdir:

- yoxsulluğun və aclığın aradan qaldırılması;
- ümumi ibtidai təhsilin təmin olunması;
- kişi və qadınların bərabərliyinin dəstəklənməsi, qadınların hüquqlarının və imkanlarının genişləndirilməsi;
- uşaq ölümünün azaldılması;
- analığın mühafizəsinin yaxşılaşdırılması;
- İİV/QİÇS, malyariya və başqa xəstəliklərlə mübarizə aparılması;
- ətraf mühitin dayanıqlı inkişafının təmin edilməsi;
- bütün ölkələrin sosial-iqtisadi inkişafı məqsədilə qlobal tərəfdaşlığın formalaşdırılması.

Dünya Bankı öz konkret fəaliyyətində BYİB kreditlərinin verilməsi mexanizmindən istifadə etməklə, gəlirləri orta səviyyədə olan ölkələri onların bazarlarının inkişaf səviyyəsinə uyğun olan faiz dərəcələri ilə kreditləşdirir. DB-nin başqa maliyyə qurumu - Beynəlxalq İnkişaf Assosiasiyası (BİA) gəlirləri aşağı səviyyədə olan ölkələri minimum faiz dərəcələri ilə yaxud faizsiz kreditləşdirir.

Dünya Bankının fəaliyyətinin növləri və istiqamətləri:

- pul vəsaitlərinin səfərbər edilməsi;
- kreditlər;
- qrantlar.

Dünya Bankı BYİB və BİA vasitəsilə əsasən 2 növ kredit verir: investisiya kreditləri və inkişaf məqsədləri üçün kredit. *İnvestisiya kreditləri* müxtəlif sektor-larda sosial-iqtisadi inkişaf layihələri çərçivəsində malların istehsalı, xidmətlərin göstərilməsi və işlərin görülməsi məqsədlərinə verilir. *İnkişaf üçün kreditlər* (əvvəl struktur dəyişiklikləri üçün kredit adlanırdı) siyasi və institusional islahatların aparıl-masına yardım göstərilməsi məqsədilə maliyyə vəsaitlərinin ayrılması yolu ilə verilir.

*Qrantların* məqsədi layihələrin işlənib hazırlanmasına yeniliklərin tətbiqinin, təşkilatlar arasında əməkdaşlığın dəstəklənməsi və marağı olan yerli

idarələrin layihələrə cəlb olunmasıdır. Son illərdə BİA-nın qrantları birbaşa maliyyələşdimıə yaxud tərəfdaşlıq sazişləri çərçivəsində aşağıdakı məqsədlərə istifadə olunmuşdur;

- borc yükünün yüngülləşdirilməsi;
- kanalizasiya və su təchizatı xidmətlərinin işinin təkmilləşdirilməsi;
- malyariya kimi yoluxucu xəstəliklərin yayılmasının qarşısını almaq məqsədilə immunizasiya və vaksinasiya proqramlarının dəstəklənməsi;
- İİV/QİÇS pandemiyası ilə mübarizə;
- vətəndaş cəmiyyəti təşkilatlarının dəstəklənməsi;
- istixana qazları tullantılarının azaldılması üçün stimulların yaradılması;
- başqa xidmətlərin göstərilməsi (ölkənin problemlərinin həllinə imkan yaradan təhlil və məsləhətvenrıə xidmətləri, ınaariflǝndinTiə fəaliyyəti və biliklərin yayılması və s.).

## 20.4. Beynəlxalq İnkişaf Assosiasiyası (BİA)

Müstəqil surətdə, lakin BYİB rəhbərliyinin ümumi siyasəti çərçivəsində (və deməli, BVF siyasətinin məcrasında) fəaliyyət göstərən bir sıra regional banklar və başqa mühüm maliyyə qurumları Dünya Bankının struktur bölmələridir. Bunların arasında 1960-cı ilin sentyabrında müstəqillik əldə etmiş yeni ölkələrə maliyyə yardımı göstərilməsi məqsədilə yaradılan Beynəlxalq İnkişaf Assosiasiyası mühüm rol oynayır. Hüquqi baxımdan BİA BYİB-dən müstəqil fəaliyyət göstərən malİ3q/ə təşkilatı olsa da, əslində onun strukturuna daxildir: ümumu rəhbər işçi heyətdən istifadə olunur, ümumi illik hesabatlar nəşr edilir, BYİB prezidenti eyni zamanda BİA-nın prezidentidir. BİA-nın öz İdarəedicilər Şurasının və Statistika Şurasının olmasına baxmayaraq, əslində BYİB-in rəhbərliyi altında olan etimad fondudur, onun maliyyələşdirdiyi layihələri eyni standartlar əsasında seçir, eyni layihələri həyata keçirir, və e}mi prosedurlar tətbiq edir. Fərq yalnız borca xidmət göstərilməsi şərtlərinin nisbətən yüngül olmasıdır.

BİA-nın kreditləri, 10 illik güzəştli müddət daxil olmaqla, 35-40 ilə verilir. Kreditlərin məbləği XBH ilə ifadə olunsa da, əslində vəsaitlər xərclərin çəkiləcəyi valyutada verilir. Faizlər tutulmur, amma kreditin istifadə olunmamış məbləğinin 0,5% həcmində xidmət haqqı alınır. Beynəlxalq ictimaiyyət BİA-nı yoxsul ölkələrə kömək edən səmərəli təşkilat kimi qəbul

edir. BİA-ya 170 ölkə daxildir, üzvlük BYİB-ə qəbul olunan bütün ölkələr üçün açıqdır. Yalnız ən yoxsul ölkələr BİA-dan kredit almaq hüququna malikdir. Rəsmi meyarlara görə, bunlar əhalisinin hər nəfərə düşən gəliri 1465 ABŞ dolları və az olan ölkələrdir. Amma təcrübədə BİA-nm kreditləri yalnız əhalisinin hər nəfərinə düşən gəliri 905 dollar və az olan ölkələrə verilir. Hər nəfərə düşən gəliri 1465 dollardan az olan ölkələr bir hissəsi BYİB-in borcundan, digəri isə BİA-nm kreditindən ibarət olan yardım ala bilər. BYİB-in borcları hər nəfərə düşən gəliri 5295 dollardan az olan ölkələrə verilir. Hər nəfərə düşən gəlir 5295 dolları keçdikdə, ölkə BYİB-dən borc götünnək hüququnu itirir və Dünya Bankının tenninologiyasma görə, «kamal attestatı alır».

Məlumatlara əsasən, 1990-cı illərdə BİA-nm kreditlərinin 44%-i Afrika, 25%-i Cənubi Asiya, 14%-i Şərqi Asiya, 5%-i Latın Amerikası və Karib dənizi hövzəsi ölkələrinin, 2%-i Yaxın Şərq və Şimali Afrika dövlətlərinin payına düşmüşdür.

Sponsorlar üzvlük haqlarını BİA-nm sərəncamına illik 3 tranşla verirlər. Maliyyələşmənin xüsusiyyətlərinə görə BİA üzvləri 2 qrupa bölünür. Rusiyanın daxil olduğu birinci qrup ABŞ, Kanada, Qərbi Avropa dövlətləri, Yaponiya, Avstraliya, Yeni Zelandiya, CAR və Küveytdən ibarətdir və üzvlük haqlarını BİA-nm əməliyyatlarında məhdudiyyətsiz istifadə oluna bilən sərbəst dönərli valyutalarla ödəyir. İnkişaf etməkdə olan ölkələrdən ibarət ikinci qrup üzvlük haqlarının 10%-ni sərbəst dönərli valyuta ilə, qalan 90%-i isə öz valyutasında ödəyir. İkinci qrupa daxil olan ölkələrin üzvlük haqlan BİA-nm layihələrinin maliyyələşdirilməsində yalnız onların hökumətləri ilə bağlanılan xüsusi müqavilə əsasında istifadə edilə bilər.

## 20.5. Beynəlxalq Maliyyə Korporasiyası (BMK)

Bu koıporasiya 1956-cı ildə inkişaf etməkdə olan ölkələrin özəl sektoruna yardım göstərilməsi məqsədilə yaradılmışdır. Rokfeller Komitəsinin Hesabatına izahatda xüsusi qeyd olunurdu ki, «BMK-nm əsas funksiyası özəl kapitalla rəqabət aparmaq deyil, onun investisiyalarını tamamlamaq və dəstəkləməkdir»’.

^ *Matecki B.* The Establishment of the International Finance Corporation and United States Policy. A Case Study in International Organization. L., 1957. P. 42.

*BMK-nın ali orqanı* BYİB-in İdarəedicilər Şurasının üzvlərindən ibarət olan İdarəedicilər Şurasıdır, BYİB-in prezidenti BMK-nın prezidentidir. Cari əməliyyatları İcraçı Direktorlar Şurası həyata keçirir. Lakin BİA-dan fərqli olaraq, korporasiya maliyyə və hüquqi baxımdan BYİB-dən tam ayrılmaqla bərabər, özünün işçi heyətinə də malikdir.

*BMK-nın məqsədi* inkişaf etməkdə olan ölkələrə özəl sektorun möhkəmləndirilməsini və özəl biznesin yaradılmasını dəstəkləmək yolu ilə onların iqtisadi artımına yardım etməkdir. Korporasiyanın əsas vəzifəsi özəl investorlara və maliyyə qurumlarına inkişaf etməkdə olan ölkələrə səmərəli kapital qoyuluşlarında kömək göstənnəklə, katalizator rolunda çıxış etməkdir. BMK kreditləri 12 illik güzəşt müddəti olmaqla 3-15 ilə, bazara yaxın şərtlərlə verir. Passivlərinin 80%-ə yaxınını maliyyə bazarlarından cəlb edir, 20%-ni isə BYİB-dən borc alır. Bir qayda kimi, korporasiya öz layihələrində başqa investorların iştirakını tələb edir, özünün payı isə 25-35% olur. Onun fəaliyyətinin mühüm cəhəti borc vennəklə yanaşı, bilavasitə özəl müəssisələrin kapitalına vəsait qoymasıdır.

*İnvestisiyalara Zəmanət üzrə Çoxtərəfli Agentlik* (MIGA) 1988-ci ilin aprelində üzv-dövlətlərin iqtisadi inkişafına xarici investisiyaların stimullaşdırılması vasitəsilə yardım göstərmək məqsədilə yaradılmışdır. MIGA-nm təşkilatı strukturu Dünya Bankı qrupuna daxil olan digər təşkilatlarda olduğu kimidir. BYİB-in prezidenti eyni zamanda MIGA-nm da prezidentidir. Agentlik onun üzvü olan dövlətlərin milli iqtisadiyyatına xarici investorların qoyduğu kapitalların siyasi xarakterli qeyri-kommersiya risklərindən, o cümlədən mülkiyyətdən məhrum olunmadan, müharibədən və vətəndaş iğtişaşlarından qorunacağına maliyyə zəmanəti verir. Bu cür zəmanətlər iqtisadi islahatlarla yanaşı, siyasi dəyişikliklərin də baş verdiyi ölkələrə investisiya axınlarının qarşısını alan maneələri aradan qaldırmağa imkan verir. Bununla bərabər. Agentlik inkişaf etməkdə olan ölkələrin hökumətlərinə xarici investisiyaların cəlb olunmasının mali}^ə, iqtisadi və hüquqi məsələləri üzrə məsləhətvermə xidmətləri göstərir.

2010- cu ilin əvvəlinə MIGA risklərin örtülməsi üçün ümumi məbləği 11 milyard dollar olan 500-ə yaxın zəmanət (o cümlədən Rusiya, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və başqalarına iqtisadiyyatın maliyyə, infrastruktur, faydalı qazıntıların hasilatı, telekommunikasiya, energetika və turizm kimi sahələrində) vermişdir. Zəmanətlər əsasən xarici və ya müştərək

həyata keçirdiyi layihələrə investisiyalar üçün verilir.

***DB-nin fəaliyyətinin yekunları.*** Fəaliyyət göstərdiyi 65 il ərzində Dünya Bankı təqribən 140 ölkədə həyata keçirilən 8 mindən artıq layihəni dəstəkləmək məqsədlərinə 500 milyard ABŞ dolları ayınnışdır. Bank iqtisadi, siyasi və mədəniyyət şəraiti fərqlənən ölkələrdə layihələrin hazırlanması və həyata keçirilməsi sahəsində unikal təcrübə toplayaraq, nəinki mühüm maliyyə qurumuna, həmçinin, biliklər və təcrübənin dünya miqyaslı xəzinəsinə çevrilmişdir. Bank öz fəaliyyətində bütün beynəlxalq iqtisadi təşkilatlarla sıx əməkdaşlıq edir.

## 20.6. Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB)

Bu bank 1990-cı ildə Fransa Prezidenti Jiskar d'Estenin təşəbbüsü ilə yaradılmış və 1991-ci ildən fəaliyyətə başlamışdır. Onun təsisçisi 40 dövlət olmuş, sonradan üzvlərinin sayı 56-dək çoxalmışdır (RF 1992-ci ildən üzvdür və bankın kapitalında kvotası 4%-dir).

*Bankın vəzifələri:*

• əməliyyatları müstəsna olaraq Mərkəzi və Şərqi Avropa dövlətlərində aparmaq;

• bu dövlətlərdə demokratiya qurumlarının inkişafını və insan hüquqlarına hömıətlə yanaşılmasını dəstəkləmək;

• kommersiya bankı ilə inkişaf bankı funksiyalarını əlaqələndinnək;

• Avropada ümumi vəzij^ətin yaxşılaşmasına yardım etmək.

AYİB-in təsis olunması haqqında Sazişin 1-ci maddəsində göstərilir ki, bank üçün ən başlıcası, siyasi və iqtisadi qurum elementlərini əlaqələndinnək. Mərkəzi və Şərqi Avropa ölkələrində iqtisadi islahatların həyata keçirilməsini, özəl sahibkarlıq fəaliyyətini dəstəklənmək, orada demokratik islahatların aparılmasını sürətləndinnəkdir.

*Bankın fəaliyyətinin əsas istiqamətlən:*

• özəl yaxud özəlləşdirilən müəssisələrin malİ3^ələşdirilməsi;

• infrastrukturun inkişafı layihələrinin maliyyələşdirilməsi;

• konkret layihələr üzrə məsləhət-texniki yardımın göstərilməsi.

Özəl yaxud özəlləşdirilən müəssisələr, kommersiya müəssisələrindən və ya onların vasitəçilərindən ərizələri qəbul edən Kommersiya Departamenti tərəfindən maliyyələşdirilir. Müvafiq ərizəyə baxılarkən, layihənin kommersiya

üstünlükləri, bankın konkret ölkəyə münasibətdə yeritdiyi strategiya və verilən təklifin ətraf mühitə təsiri qiymətləndirilir. Adətən bu proses layihə haqqında tam informasiya alındıqdan sonrakı 2 ay ərzində davam edir.

Özəl sektorun inkişafına, özəlləşdirməyə, xarici birbaşa investisiyaların dəstəklənməsinə; maliyyə qurumlarının və sənaye sektoru obyektlərinin yaradılmasına və möhkəmləndirilməsinə; kiçik və orta müəssisələrə yardım göstərilməsinə; ətraf mühitin yaxşılaşdırılmasına yönəlmiş layihələr bank üçün prioritet təşkil edir. Bank özəl və özəlləşdirilən müəssisələr tərəfindən təqdim olunan layihələrin güclü sponsorlarının və etibarlı biznes planlarının olmasını tələb edir.

***AYİB-in h'editfəaliyyəti*** maliyyələşdirmənin bu növlərini əhatə edir:

• maksimum müddəti kommersiya müəssisələri üçün 10 il, infrastrukturun inkişafı sahəsində layihələr üçün isə 15 il olan kreditlərin verilməsi;

• nizamnamə kapitallarına investisiya qoyulması;

• borc öhdəliklərinə abunə və satın alınmasına zəmanət verilməsi və iştirak.

Kommersiya təşkilatlarına, o cümlədən özəlləşdirilən dövlət müəssisələrinə kreditlər hökumət zəmanəti tələb olunmadan verilir. Adətən AYİB maliy- yələşdinuəsini borcalanm bazar dəyəri əsasında müəyyənləşdirilən xərclərinin 35%-i ilə məhdudlaşdırır. Bankın təqdim etdiyi maliyyələşdirmənin minimum məbləği təqribən 5 milyon EKYU həcmindədir. Bank faiz dərəcələrini bazadan yüksək bazar faiz dərəcəsindən (adətən LIBOR) marja əsasında müəyyən edir. Faizlər üzən yaxud təsbit olunmuş (svop əməliyyatları aparılmaqla) faiz dərəcələri ilə verilə bilər. Maıjamn həcmi kreditin şərtlərindən asılıdır.

Bank 100-dən artıq obyekt üzrə məsləhət-texniki yardım göstərir. Prioritet sahələr (o cümlədən Rusiyada) özəlləşdirmə, konversiya, maliyyə sektorunun inkişafı, AES-in təhlükəsizliyi, kənd təsərrüfatı, aqrar biznes, nəqliyyat, telekom-munikasiya, sosial sahə, ekologiyadır. Mənzil-qərargahı Londonda yerləşir, dünyanın bir çox ölkələrində, ilk növbədə isə, AYİB-in əsas əməliyyatlarının istiqamətləndiyi Şərqi Avropa dövlətlərində nümayəndəlikləri vardır.

***AYİB-in rəhbərliyi.*** Bankın işlərinə prezidentin başçılığı altında Direktorlar Şurası rəhbərlik edir; direktorlar və prezident hər birinin maliyyə

## 20.7. Beynəlxalq Hesablaşmalar Bankı (BHB)

BHB bank qurumlarının fəaliyyətinin tənzimlənməsində vacib rol oynayır. Bu bank Bretton-Vuds idarələri sisteminə daxil deyil; 1930-cu ildə Qərbi Avropanın bir sıra dövlətləri üçün kommersiya əməliyyatlarının aparılmasını əlaqələndirən, qızıl-valyuta əməkdaşlığının təşkilatçısı rolunu oynayan dövlətlərarası bank kimi yaradılmışdır. Həmin vaxtdan onun funksiyaları əhəmİ3^ətli dərəcədə dəyişərək və artaraq, bütün İƏİT ölkələrinə yayılmışdır. Bank beynəlxalq maliyyə əməliyyatlarının aparılmasında, habelə valyuta məzənnələri siyasətinin həyata keçirilməsində mərkəzi banklarla sıx əməkdaşlıq edir. İndi bank qlobal xarakterli beynəlxalq idarələr (BVF) sisteminin mühüm yardımçı orqanına çevrilmişdir.

*BHB-in məqsədləri.*

- mərkəzi banklar arasında əməkdaşlığa yardım göstərmək;
- beynəlxalq maliyyə əməliyyatları üçün əlverişli şərait yaratmaq;
- beynəlxalq maliyyə müqavilələri bağlanarkən, tərəflərə vəkalət verilmiş şəxs qismində yardım göstərmək.

*BHB-in fəaliyyətinin əsas istiqamətləri*

- səhmdarı olan mərkəzi bankların (onlar banka münasibətdə müştəri, sahib yaxud rəhbər qismində çıxış edir) tapşırığı əsasında əməlİ3^atlar aparmaq;
- həm özünün, həm də mərkəzi bankların hesabına qızılın satın alınması, satılması, mübadiləsi və saxlanması;
- veksellərin və birinci dərəcəli başqa qısamüddətli öhdəliklərin uçotu və yenidən uçotu, alınması və satılması;
- həm özünün, həm də mərkəzi bankların hesabına xarici valyutanın və qiymətli kağızların (səhmlər istisna edilməklə) alınması və satılması;
- mərkəzi banklardan vəsaitlərin cari hesablara və əmanətə qəbul olunması;
- İƏİT ölkələrinin valyuta məzənnələri sisteminə təsir göstərilməsi;
- bankın vəkalət verilmiş şəxs kimi çıxış etdiyi müqavilələr üzrə hökumətlərin vəsaitlərinin, habelə Direktorlar Şurasının qərarı əsasında başqa vəsaitlərin qəbul edilməsi;

Nizamnaməsinə əsasən, *BHB-ə aşağıdakılar qadağandır.*

- təqdimolunma əsasında ödənilən banknotlar buraxmaq;

• köçünnə veksellərini akseptləşdirmək;

• hökumətlərə ssuda vermək (dövlət istiqrazlarının satın alınması istisna edilməklə);

• istənilən müəssisə üzərində nəzarəti əldə etmək;

• öhdəliyini yerinə yetirməməsi səbəbindən borcalandan banka keçən daşınmaz əmlakın fayda ilə satılması üçün tələb olunan müddət, həmin öhdəliyinin yerinə yetirilməsi müddətindən çox olduqda, həmin əmlakı qəbul etmək.

***Bankın kapitalı.*** Səhmdar kapitalı əsasən Avropa dövlətlərinin ən iri mərkəzi banJdarına mənsubdur. AYİB-in ali orqanı səhmdarların hər il keçirilən ümumi yığıncağıdır. Səsvermədə yalnız mərkəzi bankların nümayəndələri iştirak edir. Səslər səsvemıə anında əldə olan səhmlərin sayından asılı olmayaraq, abunə zamanı hər banka abunə üçün ayrılmış səhmlərin sayma əsasən bölünür. Ümumi yığıncaqda illik hesabat təsdiq edilir.

***Rəhbərlik.*** Bankı 5 təsisçi mərkəzi bankın rəhbərinin daxil olduğu Direktorlar Şurası idarə edir. Onlardan hər biri Şuraya öz ölkəsinin maliyyə, sənaye yaxud ticarət dairələrindən bir təmsilçi daxil edir. Mərkəzi bankların rəhbərləri istisna olunmaqla. Direktorlar Şurasının üzvü vəzifəsinə hökumət, qanunvericilik orqanlarının yaxud dövlət qulluqçuları təyin oluna bilməz.

Şuranın sədri, onun müavini və BHB-in prezidenti Şuranın üzvləri sırasından 3 ildən çox olmayan müddətə seçilir. BHB-in Aparatı Bank (əməliyyat) idarəsindən, Valyuta-İqtisad İdarəsindən və Katiblikdən ibarətdir. Dövlətlərarası qurum olmaqla, BHB səhmlər üzrə divident ödəyən səhmdar cəmiyyəti kimi, kommersiya əsasında fəaliyyət göstərir. 1960-cı ildən BHB Avropa valyuta sisteminin dəstəklənməsi üzrə müxtəlif müqavilələrin mərkəzi olmuş, 1970-ci illərdən isə Avropa Valyuta Əməkdaşlığı Fondunun vəsaitlərini saxlayan kimi çıxış etmiş, Avropa val}aıta sisteminə daxil olan ölkələrin valyutalarının məzənnəsinin dəstəklənməsi üzrə hesablaşmalarda iştirak etmişdir.

***Bank Nəzarəti üzrə Bazel Komitəsi.*** Bu Komitənin tənzimləyici fəaliyyəti adətən Bazel-1 adlandırılırdı. Müəyyən islahatlar aparıldıqdan sonra 2004-cü ildən Bazel-2 adlanır. Qlobal böhranla əlaqədar olaraq, onun fəaliyyəti daha əhəmiyyətli dəyişikliklərə məruz qalmış (bunların bəzisi 2012-ci ilin sonundan qüvvəyə minəcək) və Bazel-3 adlandınlır. Dəyişikliklər bunlardan ibarətdir.

beynəlxalq maliyyə kapitalları bazarlarında yüksək riskli əməliyyatlar aparması məhdudlaşdırılır. Məsələn, əvvəl onlar sərbəst şəkildə səhmlərə yaxud neftə investisiya qoya bilirdisə, indi bu təcrübə faktiki olaraq başa çatmışdır. Bankın bu cür əməliyyatlarla məşğul olan müvafiq strukturları (proprietary trades) ləğv olunur.

İkincisi, beynəlxalq bankların hecinq fondlarına malik olması qadağan edilmişdir. 2008-2010-cu illərdə maliyyə-iqtisadi böhranının qloballaşmasına məhz onların möhtəkirlik fəaliyyəti mühüm təsir göstərmişdir.

Üçüncüsü, beynəlxalq bankların ehtiyat fondları artır. Əlbəttə, bu tədbirlərin böyük əhəmiyyətinə baxmayaraq, onlar, çətin ki, qısa müddətdə dünya bank sisteminin tamamilə «təmiz» əməliyyatlar aparan səmərəli sistemə çevrilməsi ilə nəticələnəcəkdir. Əgər onların fəaliyyətinin təməlində «mənfəət, mənfəət və nəyin bahasına olursa-olsun, yenə də mənfəət» prinsipi durursa, cüzi dəyişiklik baş verəcək, banklar dünya mali)^ə sisteminin sabitliyinin pozulması hesabına olsa belə, yüksək gəlir qoparmağın yollarını axtarıb tapacaq. Buna görə də əhəmiyyəti az olmayan başqa, o cümlədən mənəvi-etik prinsiplər və məqsədlər ön plana çəkilməli, mənfəətin «ədalətli» həddi, ictimai inkişafın məqsədləri, direktorların əmək haqqının kəskin azaldılması və s. kimi müddəalar daxil olmaqla, tənzimləmə doktrinasının özü dəyişdirilməlidir.

## 20.8. İslam bankları

Hələ 1970-ci illərdə İslam dininin yayıldığı bir sıra dövlətlərdə səciyyəvi xüsusiyyətləri olan bank qurumları fonnalaşmağa başlamışdır. Onların təməlini Qurandan irəli gələn konseptual müddəalar təşkil edirdi:

• insan əmlakın (pul vəsaitlərinin, malların, daşınmaz əmlakın) sahibi deyil; insana ömür müddətində resurslara (əmlaka, maliyyə vəsaitlərinə və s.) sərəncam vermək hüququ Allahın buyruğu ilə verilmişdir;

• bu vəsaitlər passiv (sərvət kimi) deyil, fəal yaradıcı rol oynamalı, ancaq ehtikarçılıq məqsədləri üçün istifadə edilməməlidir (məsələn, kazinoda oynamaq, törəmə maliyyə alətlərindən - derivativlərdən istifadə etmək qadağandır);

• müsəlmanın vəsaitlərinin və əmlakının başlıca təyinatı, bütün cəmiyyətin xeyri üçün fəal tərzdə, səmərə ilə istifadədir; bu halda əmlakı idarə edən şəxsin (əslində, ona xüsusi mülkiyyətçi rolu ayrılır) özünün maddi mükafatlandırılması elementinə böyük diqqət yetirilir. Əsas məqsəd mülkiyyətçinin pul

kütləsinin artırılması deyil, real əlavə dəyərin yaradılması, mallar və xidmətlər kütləsinin çoxaldılmasıdır;

• insanın istismarı (əməyin məeburi formalarından istifadə heç ağıla gətirilmir), şantaj, təhdid və sair yollarla hərəkətlərə məeburiyyət qəti qadağandır;

• müsəlmanın ixtiyarında olan resursların xərclənməsi yaxud dəyişdirilməsi istismar hərəkəti hesab edilməsə də, onlardan iqtisadi baxımdan səmərə ilə istifadə və buna müvafiq olaraq, əmlakdan (vəsaitlər, maşınlar, texnologiyalar və s.) istifadəyə görə mükafat alınmasına zəmanət verilməsi nəzərdə tutulur;

• əvvəlki şərtdən, adətən kredit əməli}o^atlan zamanı baş verən, eyni məbləğdə pulun dəyişdirilməsinə yol verilmədiyi barədə nəticə çıxarılır; əmlakdan istifadə olunması mexanizmi onun sahiblərinin işgüzar tədbirdən əldə olunan mənfəətdə yaxud zərərdə pay iştirakına istinad edir.

Yuxarıda göstərilən prinsipal müddəalar müsəlman ölkələrindəki banklara və bank funksiyalarını yerinə yetirən digər təşkilatlara da şamil olunur. Müsəlman banklarını bütün başqa banklardan fərqləndirən cəhət ***ssuda üzrə faizlərdən*** imtina olunmasıdır. Bu məqam onlara ənənəvi, çoxsaylı, o cümlədən möhtəkirliyin təsirinə məruz qalan «pulun qiyməti» meyarını daha adekvat olan «kapitalın səmərəliliyi» kateqoriyası ilə əvəz etmək imkanı verir. Bununla da, mənfəət norması ilə cəlb edilən maliyyə vəsaitləri bilavasitə iqtisadiyyatın müvafiq sektorlarına yönəldildiyinə görə, borcla maliyyələşdirmə aradan qaldırılır. Mütəxəssislər bu cür yanaşmanı vəsaitlərin kapitalda birbaşa iştirak ***{equity financing)*** yolu ilə səfərbər olunduğu səhmlər bazarının fəaliyyəti ilə eyniləşdirilməsini düzgün hesab edirlər.

Belə fikir yayılmaqdadır ki, səhmdar kapitalı hesabına maliyyələşdirmə korporativ maliyyənin gələcəyidir və İslam üçün yad olan borcla maliyyələşdirmə yaxud ənənəvi kredit onun tam əksi kimi çıxış edir.

Beləliklə, hələ VII əsrdə Quranda əsası qoyulan iqtisadi nəzəriyyənin yeni inkişaf mərhələsi başlayır. Müsəlman etikasının əsas şərtlərinə az sayda ölkədə - İran, Pakistan və Sudanda, qismən Səudiyyə Ərəbistanı, BƏƏ, Küveyt və başqa ölkələrdə əməl olunur. Amma yuxarıda göstərdiyimiz prinsiplərdən başqa bankların, ilk növbədə isə, digər ölkələrdə (sadalamadığımız) yaradılanların fəaliyyətində kifayət qədər uğurla istifadə edilir. 1975-ci ildə Hökumətlərarası İslam İnkişaf Bankı və ilk kommersiya bankı - «Dubay İslam

Bankı» (Dubai Islamic Bank) yaradılmış və hər ikisi müvəffəqiyyətlə fəaliyyət göstərir. Bu banklar uğurla inkişaf edir, müxtəlif müsəlman dövlətlərində inkişaf proqramlarının həyata keçirilməsinə yardım göstərir.

Hazırda İslam prinsiplərini rəhbər tutan banklar dünyanın 40 ölkəsində fəaliyyət göstərir və bu, onların yüksək rəqabət qabiliyyətinə (adi banklarla müqayisədə) malik olmasının sübutudur. «IBM», «General Motors», «Alcatel» kimi məşhur korporasiyalar onların xidmətlərindən getdikcə daha çox istifadə edir. «Chase Manhattan», «Goldman Sachs», «JP Morgan Chase» və başqa banklar öz strukturlarında İslam bölmələri açır. 1997-ci ildə «Citibank» Bəhreyndə özünün «Citi Islamic Investment Bank» törəmə bankını açmışdır. Dünyada bu tipli, ümumi kapitalı 30 milyard dollar və məcmu aktivləri təxminən 380 milyard dollar olan 200 maliyyə idarəsi fəali}^ət göstərir. Onların xalis mənfəəti 5,2 milyard dollar, aktivlərinin rentabelliyi 1%, bank tərəfindən nəzarət olunan aktivlərinin rentabelliyi isə 15% olmuşdur.

***İslam banklarının fəaliyyət prinsipləri.*** İslam bankları öz fəaliyyətində şəriət prinsiplərinə və alətlərinə: müdaraba, muşaraka, icara, bey əs-səlam, murabaha və s. (göstərilənlər əsasdır) istinad edir.

*Müdaraba* - bankın növbə ilə gah trast idarəedicisi (əmanətçiləri vəsaitləri ilə işlədikdə), gah da müştəri (layihənin maliyyələşdirilməsindən əldə edilən gəlirin bir hissəsi bankın və onun müştərilərinin mənfəətini təşkil edir) qismində çıxış etməsini nəzərdə tutan inam əsasında maliyyələşdirmədir.

*Muşaraka* - layihənin yaxud əməliyyatın bank və sahibkarın birgə səyi nəticəsində həyata keçirilməsi üzrə tərəfdaşlıq növüdür. Bu halda bank özünün mənfəət payını işin nəticələrindən asılı olaraq, ümumi paydan divident şəklində alır.

*İcara* - lizinqin klassik növüdür.

*Bey əs-səlam* - əməliyyatın avans maliyyələşdiriməsi. Adətən kənd təsərrüfatında istifadə edilir və kontraktasiya müqaviləsinə bənzəyir.

*Murabaha* - adətən ticarət əməliyyatlarında, «xərclər üstəgəl əlavə məbləğ» prinsipi əsasında maliyyələşdirmə formasıdır.

Bütün bunlar göstərir ki, sırf ərəb adları altında pul tədavülünün ən müxtəlif formaları, maliyyə resurslarından maddi sərvətlərin artırılması və mənfəət əldə olunması məqsədilə istifadəsinin xüsusi mülkiyyət prinsipinə (amma *müsəlman yalnız Allah tərəfindən ona veriləna malik olduğundan,* bu prinsip təsdiqlənmir) əsaslanan, çoxdan məlum olan mexanizmləri pərdələnir.

Bununla belə, İslam bankının fəaliyyətinin məğzi komissiya agenti rolunu oynamaqla (əqdin yalnız uğurla nəticələndiyi halda mənfəət əldə etməklə) maliyyə vasitəçisi funksiyasını axıradək yerinə yetinnəkdir. Bu halda bank maliyyələşmədə öz vəsaitləri ilə hər hansı tərzdə iştirak etmirsə, kapitalı risk zonasından kənarda qalır. Buna müvafiq olaraq, əmanətçilər qarşısında öhdəliklər yaranmır.

Mudaraba və muşarakada müəyyən olunanlardan başqa, İslam bankının bir özəlliyi də var: adi bank pulu borca götürür və borca verir (başqa sözlə, pulu alır və satır), İslam bankı isə malları satın almaqla və satmaqla məşğul olur, pul isə bu əməliyyatlarda yalnız xidmət funksiyasını (dəyər ölçüsü funksiyası) yerinə yetirir. Bu isə, dünya ölkələrinin əsrlər boyu təşəkkül tapan, bankların ticarət və istehsalat funksiyalarını yerinə yetirməyərək, səylərini əmanət qəbul edib, onu müəyyən faiz müqabilində ssuda verilməsi üzərində cəmləşməsini nəzərdə tutan qanunvericiliyi və bank təcrübəsi ilə ziddiyyət təşkil edir. Buna görə də İslam bankları bu ziddiyyəti aradan qaldırmağa cəhd göstərib, öz əməliyyatlarına pul buraxmaqla yanaşı, biznes dünyasında yaranan vəziyyəti nəzərə almaqla, filiallarının və bölmələrinin açılması ilə razılaşır.

Bununla belə nəzərə alınmalıdır ki, ümumilikdə İslam bankları şəriət normalarına və ənənəvi İslam etikasına uyğun olmayan əməliyyatlar və fəaliyyət sahələri hesabına mənfəət əldə etməyə meyilli deyil. Bu səbəbdən bank öz müştərisini onun maliyyə vəziyyətindən daha çox, şəxsiyyəti baxımından qiymətləndirir. Məhz bu, müasir sahibkarlıq üçün zəruri olan etik prioritetdir.

İslam banklarının fəaliyyətini təhlil edən mütəxəssislər dünya bank sistemində müəyyən yer tapmasına baxmayaraq, İslam banklarının əhəmiyyətli dərəcədə inkişaf etməsinə ümid bəslənməsinin düzgün olmadığını qeyd edirlər. Güman ki, İslam bank modelinin təsiri banklar və müştərilər arasındakı münasibətlərdə etik, mənəvi cəhətdən daha əhəmiyyətli olacaq. Hamının varlanmağa çalışdığı və bunun üçün bütün vasitələrdən və üsullardan istifadə etdiyi dövrdə bu «materiya», demək olar ki, itirilmişdir. Şübhəsiz ki, gələcəkdə sahibkarlığın məhz mənəvi-etik cəhətlərinə daha çox diqqət yetiriləcək. Burada bəzi alimlər tərəfindən keçmişdə iqtisadi tərəqqinin çox güclü amillərindən olan, amma Ən Yeni Dövrdə liberallıq dəyərlərində «əridilmiş» protestant etikası ilə əlaqə təsəvvürə gətirilir. «Protestant etikasının» xüsusi rolu barədə tezisin mübahisəli olmasına baxmayaraq, məsələnin özünün qoyu-luşu İslam

banklarının iş prinsiplərinin izah olunması qədər pozitiv xarakterə malik-dir. Ehtimal ki, yoxsul müsəlman ölkələrində «aşağıların» çox zaman şüurlu olmadan «qızılın» qüdrətinin artması və qloballaşma şəraitində şəxsiyyətə, ailəyə və cəmiyyə-tin ənənəvi dayaqlarına dağıdıcı təsir göstənnəsi əleyhinə etirazının dayanmadan genişlənməsi, İslam iqtisadi modelinin ilkin həlqəsi olan İslam bankları sisteminin meydana çıxmasının və getdikcə daha çox təşəkkül tapmasının əsas amilidir.

*İslam İnkişaf Bankı (IDB - İslamic Development Bank)* - 1974-cü ildə İslam Konfransı Təşkilatı tərəfindən müsəlman ölkələrinin və regionlarının iqtisadi inkişafını dəstəkləmək məqsədilə yaradılan regional inkişaf bankıdır. Quran prinsiplərini əldə rəhbər tutan, sələmçiliyi inkar edən bank faizlə ssuda və kredit vermir. Bank səhmləri almaqla yaxud nominal komissiya haqqı müqabilində sənayenin inkişafı layihələrini maliyyələşdirir. Bundan əlavə, bank üzv-dövlətlərə lazım olan idxalı maliyyələşdinnəkdə kömək edən kreditlər verir. Son illərdə bu bank fəalİ3^ətini ABŞ-da və Aİ ölkələrində genişləndirmişdir.

## 20.9. Beynəlxalq maliyyə mərkəzləri: Nyu-York, London və Tokio

***Beynəlxalq mərkəzlərin yaradılmasının ilkin şərtləri.*** Son onilliklərdə kapitalın beynəlxalq hərəkətində və dünya maliyyə sistemində baş verən mühüm hadisələrdən biri, kapitalın transmilliləşməsi, onun ölkələr arasında axınının sürətlənməsi nəticəsində maliyyə bazarlarının qloballaşmasıdır. Öz növbəsində, ABŞ, Böyük Britaniya və Yaponiyada beynəlxalq malİ3^ə mərkəzlərinin yaradılması bu qloballaşmanın birbaşa nəticələrindən olmuşdur. İqtisadçılar analoji maliyyə mərkəzlərinin Frankfurt-Mayn, Paris, Sürix və Şanxayın pul bazarları ətrafında fonnalaşması prosesinin getdiyini qeyd etsələr də, onların beynəlxalq mərkəz səviyyəsinə «çatmadığını», aşağıda sadaladığımız əsas meyarlara hələ uyğun gəlmədiyini göstərirdilər:

- bazar agentlərinin fəaliyyəti, istehlak, yığım və istehlak sahəsində yüksək dərəcədə iqtisadi sərbəstliyin olması;
- maliyyə mərkəzinin yerləşdiyi ölkənin valyutasının sabitliyi və milli maliyyə sisteminin dayanıqlı olması;
- yerləşdiyi ölkədə maliyyə qurumlarının və alətlərinin səmərəliliyi;

• yüksək iqtisadi inkişafının ümumi nəticəsi kimi, fəal və çevik bazarların (uzunmüddətli və qısamüddətli bazarlar, əqdlər üzrə bazarlar, fyuçers əqdləri üzrə bazarlar, əmtəə bazarları, qiymətli kağızlar bazarları) mövcudluğu;

• yerləşdiyi ölkədə əqdlərin istənilən növlərinin yerinə yetirilməsini və maliyyə, iqtisadiyyat barədə infonnasiyanm alınmasını və ötürülməsini təmin edən universal rabitənin olması;

• yerləşdiyi ölkədə müvafiq hüquqi məkanın və sosial iqlimin mövcudluğu*.

Dünyanın Nyu-York, London, Tokio, Sürix, Lüksemburq, Frankfurt-Mayn, Sinqapur, Şanxay və digər maliyyə mərkəzləri pul axınlarının tənzimlənməsinin alətləri qismində çıxış edən mexanizmlər əsasında nəhəng maliyyə vəsaitlərinin mərkəzləşdirildiyi məntəqələrdir. Bu mərkəzlərdə beynəlxalq valyuta, kredit və maliyyə əməliyyatları aparan, qiymətli kağızlarla, qızılla əqdləri yerinə yetirən banklar və ixtisaslaşdırılmış maliyyə-kredit qurumları cəmləşmişdir.

Birinci Dünya müharibəsinədək hökmran mövqe tutan maliyyə mərkəzi London olmuşdur. Bu, Böyük Britaniyada kapitalizmin yüksək dərəcədə inkişaf etməsinin, onun başqa ölkələrlə geniş ticarət əlaqələrinin, funt sterlinqin nisbətən dayanıqlılığının, ölkənin kredit sisteminin inkişafının nəticəsi idi. Birinci Dünya müharibəsindən sonra dünyanın aparıcı maliyyə mərkəzi ABŞ-a keçdi. 1960-cı illərdə Qərbi Avropa və Yaponiyada, sonradan isə Çində yeni mərkəzlərin peyda olması səbəbindən, ABŞ-ın dünyanın maliyyə mərkəzi kimi inhisarçı mövqeyi sarsıldı. Aİ ölkələri öz maliyyə mərkəzlərini yaratmağa çoxdan çalışırdı. 1999-cu ildə avronun tətbiqi nəticəsində Aİ miqyasına görə ABŞ-dan sonra ikinci fond bazarına çevrildi. Qiymətli kağızlar və derivativlər (törəmə qiymətli kağızları) bir valyutada - avroda nominasiya olunduğu üçün valyuta riski aradan qaldırılır. London ənənəvi olaraq, bu sahədə Nyu-York maliyyə mərkəzi ilə rəqabət aparır. Avropada dünya maliyyə mərkəzləri qızılla əməliyyatların aparılması sahəsində birincilik uğrunda Londonla mübarizə aparan Sürix, habelə Lüksemburqdur. Yaponiyanın dünya təsərrüfatında mövqelərinin möhkəmlənməsi sayəsində Tokio, son illərdə isə Honkonqdan əlavə Şanxay (Çin) dünya mərkəzlərinə çevrilmişdir.

Kredit idarələrinin əsasən qeyri-rezidentlərlə, bu dövlət üçün xarici olan

^ *Энг М.* Мировые финансы / М.Энг, Ф.А.Лис., Л.Дж.Маурер. М.: Дека, 1998. С. 230.

valyutada əməliyyatları aparan dünya maliyyə mərkəzlərinin yerləşdiyi ölkələr «ofşor» adını almışdır. Bu termin təxminən avrobazar anlayışının eynidir. Bu maliyyə mərkəzlərində aparılan əməliyyatlar üzrə yerli vergilər tutulmadığına və valyuta məhdudiyyətlərinə məruz qalmadığına görə, «vergi limanları» qismində istifadə olunur. Hazırda Amerikanın, Avropanın və Asiyanın 13 dünya mali}^ə mərkəzində xarici bankların 10 mindən çox filialı və şöbəsi yerləşir.

Eyni zamanda beynəlxalq tranzit maliyyə əməliyyatlarını fəal surətdə yerinə yetirən ofşor bank mərkəzlərinin (Honkonq, Sinqapur, Baham, Havay, Kayman adaları və s.) dairəsi genişlənir. Şanxay maliyyə mərkəzinin əhəmiyyəti sürətlə artır.

Başqa nöqteyi-nəzərə əsasən, çoxsaylı mali}^ə mərkəzləri mövcuddur və fəalİ3^ət göstərir. Onların arasında miqyasına və roluna görə əsasən inkişaf etmiş ölkələrdən olan 1000 filialı və şöbəni əhatə edən, Nyu-York, London, Tokio, Sürix, Lüksemburq, Lrankfurt-Mayn, Honkonq və başqa şəhərlərdə yerləşən 13 maliyyə mərkəzi vardır. Bu malİ3^ə mərkəzlərini şərti olaraq 3 qrupa bölmək olar:

- inkişaf etmiş ölkələrin - ABŞ, Yaponiya, Böyük Britaniya, Almaniya, İsveçrə, fransa, İtaliya, İspaniya, Avstriya, Niderland və Kanadanın bank sistemləri;
- Asiyadan, Latın Amerikasından olan (Cənubi Koreya, Braziliya, Argentina, Meksika və s.) yeni sənaye ölkələrinin, habelə Çin, Hindistan, Yaxın Şərq və Afrikanın bəzi ölkələrinin bank sistemləri;
- TMB-nin öz güclü milli bank və maliyyə idarələri olmayan inkişaf etməkdə olan ölkələrin (Honkonq, Sinqapur, Karib dənizi hövzəsi ölkələrinin əsasən ABŞ, Böyük Britaniya və Kanada banklarına xidmət göstərən ölkələri (Baham, Kayman və Antil adaları). Yaxın Şərqdə neft dollarlarınm mərkəzi olan Bəhreyn) ərazisində yerləşən filiallarından ibarət bank sistemləri.

Beləliklə, ofşor zonaları, o cümlədən Men, Kipr, Malta adaları, Lixtenşteyn və İrlandiya müstəqil maliyyə mərkəzləri qismində nəzərdən keçirilir*.

***Nyu-York beynəlxalq maliyyə mərkəzinin dünya maliyyə bazarları ilə əlaqələri.*** ABŞ-m maliyyə bazarı beynəlxalq maliyyə bazarları ilə 3 mühüm kanal vasitəsilə əlaqələndirilmişdir: maliyyə qurumları, transmilli korpora-

^ *Ревинский И.А.* Международная экономика и мировые рынки. Новосибирск, 1998. С. 272.

siyalar və qiymətli kağızlar bazarları. Son onilliklərdə TMK-lar və iri banklar ümumdünya istehsal, marketinq, maliyyə və servis şəbəkələrini yaratmışdır. Milli və beynəlxalq maliyyə bazarlarının mühüm sektorları üçün nəhəng investisiya kapitalı toplamaq qabiliyyətinə malik olduğuna görə, onların dinamik artım imkanları var. Bu mənada Nyu-York həm ABŞ, həm də xarici TMK və banklar üçün mühüm əməliyyat bazasıdır.

***London beynəlxalq maliyyə mərkəzi.*** Hesab edilir ki, 1690-cı ildə İngiltərə bankının və Kral birjasının yaradılması London maliyyə bazarının təşkilati bazasının təməlini qoymuşdur. Merkantilist ticari-iqtisadi və maliyyə siyasəti, habelə XVIII əsrin sənaye inqilabı iki əsr ərzində Londonun dünyada yeganə maliyyə mərkəzinə çevirmişdi. Bu status Britaniya imperiyasının iqtisadi qüdrətinə və funt sterlinq dünya valyuta (pul) sisteminin əsasında duran əsas pul vahidi rolunu oynadığına görə, Britaniya qızıl standartına istinad edirdi.

Birinci və İkinci Dünya müharibələri arasındakı dövrdə Nyu-York dünyada maliyyə bazarı kimi birinci yer tutan Londonun mövqelərini xeyli zəiflətsə də, 0, öz aparıcı mövqeyini saxladı və 1960-cı illərdən beynəlxalq avrovalyuta bazarına çevrildi. Londonun mövqeyinin möhkəmlənməsi istiqamətində atılan növbəti addım 1987-ci ildə Beynəlxalq Fond Birjasının yaradılması nəticəsində qiymətli kağızlarla ticarət sahəsində cəlbedici yerə çevrilməsi oldu. XXI əsrin əvvəlində də bu rol dəyişmədən yüksək səviyyədə qalır.

***Tokio beynəlxalq maliyyə mərkəzi.*** Tokiodakı mali}ryə mərkəzi 1868-ci ildən, Meydzi İntibah dövründə yapon hakim dairələrinin Qərbi Avropa dövlətlərindən və ABŞ-dan kapitalı, texnologiyaları və istehsal-idarəçilik təcrübəsini intensiv surətdə mənimsəməyə başladıqda formalaşmışdır. 1878-ci ildə Tokio Fond Birjası fəaliyyətə başlasa da, yalnız 1960-1970-ci illərdə «yapon iqtisadi möcüzəsi» sayəsində Yaponiya dünyada ikinci sənaye dövləti kimi tanındıqdan sonra beynəlxalq status əldə etmişdir. Tokio beynəlxalq maliyyə mərkəzinin fonnalaşması qəti olaraq 1980-ci illərdə Yaponiya xarici valyutanın iri saxlayıcısma çevrildikdə başa çatmışdır. Həmin vaxt ölkə iyenanı liberallaşdınmş və tərəfdaşlarının, xüsusilə də ABŞ-m uzun müddət ərzində tələb etdiyi kimi, xarici valyuta axınları üçün qapılarını açmışdı.

1990-cı illərin iqtisadi çətinlikləri başqa mərkəzlərlə müqayisədə Tokionun beynəlxalq maliyyə mərkəzi kimi artımını zəiflətsə də, ümumilikdə

verən böhran nəticəsində oradakı pul və qiymətli kağızlar bazarlarının başqa mərkəzlərə, o cümlədən Tokioya köçməsi sayəsində bir qədər kompensasiya olunmuşdu. Sürətlə inkişaf edən bir sıra regional fond birjalarının (Şanxay, Seul, Kuala-Lumpur, Sidney) meydana çıxmasına baxmayaraq, 2002-ci ildən yapon iqtisadiyyatının dinamik artımı və bank sektomnun bir qədər sağlamlaşması Tokio fond birjasının rolunun güclənməsinə imkan vermişdir.

## 20.10. Ofşor maliyyə mərkəzləri

*Ofşor mərkəz anlayışı {ingiliscə off-shore* - sahildən uzaqda yerləşən, ölkə ərazisindən kənar). Bu mərkəz ölkənin bütün ərazisində yaxud onun işgüzar, istehsal, maliyyə-bank, ticari və başqa şərait barəsində xüsusi imtiyazlı rejimin qüvvədə olduğu bölgələrində yerləşə bilər. Onun mahiyyəti şirkətlərə, banklara və başqa təsərrüfatçılıq subyektlərinə, ilk növbədə, vergitutmada, habelə fımalarm qeydiyyata alınmasında, maliyyə, idxal-ixrac fəaliyyəti sahəsində maneəsiz fəaliyyətdə güzəştlərin tətbiqinin, aşağı tariflərinin müəy-yənləşdirilməsinin (və ya ümumİ3^ətlə, rüsum tutulmamasmm) qanunvericiliklə rəsmiləşdirilməsidir. Bu ölkələrdə və bölgələrdə (zonalarda, mərkəzlərdə) müvafiq fınnalara və banklara münasibətdə xüsusi konfidensial rejim tətbiq edilir.

***Ofşor maliyyə mərkəzlərinin formalaşması.*** Ofşor bank mərkəzlərinin yaranması 1960-cı illərə avrovalyuta bazarının sürətli artımı dövrünə təsadüf edir. Bir çox ölkələr, xüsusilə də kiçik dövlətlər ofşor maliyyə mərkəzləri yaratmaqla, sırf yerli problemləri (məşğulluğun artımı, maliyyə resurslarının cəlb olunması və s.) həll etməyə cəhd göstərirdi. Buna görə də həmin ölkələr bankların, şirkətlərin və başqa təşkilatların öz əməliyyatlarını həyata keçirmək üçün nail olmaq istədikləri güzəştləri həvəslə onlara təqdim edirdi. Ofşor maliyyə mərkəzlərinin sürətli inkişafı bir sıra məqamlarla şərtləndirilirdi:

• malİ3^ə vəsaitlərinin ölkəyə və ölkədən axınını tənzimləyən xüsusi qaydaların olmaması;

• əqdlərin beynəlxalq əsasının olması nəticəsində onların ölkənin daxili qanunvericiliyinin tətbiqindən azad edilməsi və mərkəzin anklav tipində, xüsusi rejim şəraitində fəaliyyətinin asanlaşması;

•yaradılan maliyyə mərkəzləri əsasında müasir rabitə vasitələrinin və informasiya texnologiyalarının inkişafı;

• mərkəzin yüksək səviyyədə sabit daxili sosial-siyasi şəraitdə fəaliyyət göstənnəsi, ölkənin maliyyə sisteminin dayanıqlılığı, əqdlərin konfidensiallığmı təmin edən işgüzar mühitin yaradılması;

• gərgin beynəlxalq nəqliyyat (su, yerüstü, hava nəqliyyatı) qovşaqlarında yaxud onların yaxınlığında yerləşdiyinə və beynəlxalq bazarlarla birləşdiyinə görə ofşor mərkəzlərin münasibliyi.

***Ofşor maliyyə mərkəzlərinin tipləri.*** Ofşor maliyyə mərkəzlərinin təməli yerli maliyyə bazarlarından maliyyə resurslarının transfomıasiya olunmasının tranzit kanalları kimi istifadə edən, habelə onlar üçün «sakit limanlar» axtaran banklar tərəfindən qoyulmuşdur. İlk ofşor bazarları 1960-cı illərdə Asiyada (Sinqapur), Nassauda (Baham adaları), Kayman adalarında. Panamada (Latın Amerikası); 1970-ci illərdə Bəhreyndə (Fars körfəzi), Filippində (Cənub-Şərqi Asiya), Noraıan adalannda və Şennonda (Avropa); 1980-ci illərdə ABŞ-da (Nyu-York, Mayami, Los-Anceles) İsveçrədə, Almaniyada, Niderlandda (Amsterdam), Belçikada (Brüssel), Kanadada (Toronto), Yaponiyada (Tokio), Tayvanda (Taybey), Honkonqda; 1990-cı illərdə Hibraltarda, Kipr, Virciniya adalarında. Mərkəzi Amerika ölkələrində, CAR-da və s. yaradılmışdır.

Ofşor maliyyə mərkəzlərinin göstərilən siyahısı, aparılan əməliyyatların tam «qapalılığı» şəraitində bank sahiblərinə və onlann bölmələrinə vergitutmada və başqa məsələlərdə maksimum güzəştlərin təqdim olunması ilə səciyyələnir. Bu xüsusiyyətlər iri transmilli banklann həmin ofşorlar vasitəsilə dünyanın müxtəlif regionlarına nəhəng məbləğdə pul köçürmələri əməliyyatları apamıasına şərait yaratmışdır. Pulların əsas saxlayıcıları TMB-lər olduğuna görə ofşor mərkəzlərinə onlar nəzarət edir; bu ofşor mərkəzləri vasitəsilə yüzlərlə milyard dolların keçmiş SSRİ zonasından tranşlar fonnasmda köçürülməsi üzrə çoxsaylı maliyyə əməliyyatlarında marağı olan subyektlər də məhz onlar idi. Buna görə də onların sahiblərinin həmin pulları (və ya bir hissəsini) Rusiyaya və MDB-nin başqa ölkələrinə köçürmək «xahişləri» mövzusunda mülahizələr adi sadəlövhlükdür. Həmin pullar qızıl (sərvət) şəklində yatmayıb, dövriyyədədir, beynəlxalq pul funksiyasını yerinə yetirir və sahiblərinə təlatümlü Rusiyanın kapitallar bazarlarında əldə edilməsi mümkün olmayan sabit və etibarlı mənfəət təmin edir.

Ofşor bazar çərçivəsində fəaliyyət göstərən banklar və onlann şöbələri sırf beynəlxalq bank və başqa əməlij^atlarla məşğul olduqlarına görə güzəştlər əldə edir. Ofşor maliyyə mərkəzləri əməliyyatları əsasən ölkədə yaxud zonada

yerinə yetirilməsi üçün nəzərdə tutulan sərbəst ticarət zonalarından məhz bununla fərqlənir. Ofşor maliyyə mərkəzləri bir sıra əsas əlamətlərinə yaxud fəaliyyət tipinə görə fərqlənir. Hüquqi status və fəaliyyət xarakteri baxımından onların ən azı 3 tipi müəyyənləşdirilmişdir:

1) dünyanın 3 aparıcı maliyyə mərkəzi (Nyu-York, London və ya Tokio) ilə təşkilati yaxud hüquqi əlaqələri olan mərkəzlər. Buna müvafiq olaraq, anklav ofşorlar bu mərkəzləri (onlardan birini) lazımi beynəlxalq xidmətlərlə təmin edir. Göstərilən ofşorlar məhz bunun üçün yaradılır yaxud maliyyə mərkəzləri ofşorlarda öz şöbələrini açır. Bu bazarlarda daxili hesablardan ayrılıqda xüsusi (beynəlxalq) hesablar açılır və onlara güzəştli rejim şamil edilir;

2) daxili və xarici əməliyyatları birləşdirildiyinə və məhdudiyyətlərdən azad olunduğuna görə, yalnız qeyri-rezidentlər arasında əqd bağlanılan mərkəzlər;

3) banklar arasında bağlanılan əqdlərin vergilərdən tamamilə azad edildiyi yaxud vergi dərəcələrinin və bank əməliyyatlarına görə ödəmələrin cüzi olduğu mərkəzlər (cədvəl 20.1).

Ofşor maliyyə mərkəzləri rolunu Avropanın bank mərkəzləri - London, Paris, Lüksemburq, Lixtenşteyn və ənənəvi olaraq, bankları nəinki etibarlı, həm də ən «qapalı» şöhrəti qazanan İsveçrə yerinə yetirir; onlar dünyanın bütün valyuta bazarlarında, o cümlədən avrovalyuta bazarlarında işləyir. Burada kapital özünün klassik yenidənbölgü funksiyasını yerinə yetirməklə, qeyri- rezidentlərin maliyyə fəaliyyətinin güzəştli tənzimlənməsi xarakterindən asılı olaraq, kapitalların bir ölkədən digərinə yerdəyişməsinə şərait yaradır.

Xarici hüquqi və fiziki şəxslərlə əməliyyatların aparılması üzrə ixtisaslaşmış banklar və başqa maliyyə-kredit idarələri onları vergilərin azaldılması, valyuta nəzarətindən azadolma və başqa güzəştlər təmin edən, daxili bazarın rezidentlərinin hesablarından ayrılmış xüsusi hesablar üzrə yerinə yetirir. Beləliklə, ssuda kapitallarının daxili bazarı xarici, beynəlxalqdan təcrid olunur, ölkə ərazisində yerləşən və beynəlxalq əməliyyatlarla məşğul olan kredit idarələri isə onun iqtisadiyyatının bir hissəsi hesab edilmir.

*Cədvəl 20.1*

**Ən iri ofşor mərkəzlərində vergilər, vergi dərəcələri və bank faizləri**

| ölkə | Vergilərin növləri və bank faizlərinin dərəcələri | | | | |
|---|---|---|---|---|---|
| | Orta səviyyədən gəlir vergisinin dərəcəsi | korporativ | Mənfəətin ölkədən çıxarılması və repatriasiyası üzrə | Bank faizindən | Royalti tipli ödənişlərdən, səviyyədən faiz |
| Antilya | Vergilər yoxdur, qeydiyyat haqqı | | | | |
| Antiqua və Barbados | 25 | 40 | - | 40 | 25 |
| Antil adaları (Niderland) | 37-44 | 27-34 | - | - | - |
| Aruba | 5-32 | 27-34 | - | - | - |
| Baham adaları | - | - | - | - | - |
| Barbados | 25-40 | 40 | 15 | 15 | 15 |
| Beliz | 15-45 | 35 | - | 25 | 25 |
| Bermuda adaları | - | - | - | - | - |
| Britaniya və Virciniya adaları | 3-20 | 15 | - | - | - |
| Haiti | 10-30 | 10-30 | 15 | 15 | 15 |
| Qayana | 33,3 | 35-45 | 15 | 25 | 25 |
| Qvadelupa və Martinika | 5-56,8 | 34 | 25 | 18 | 18 |
| Qviana (Fransa) | 5-56,8 | 34 | 25 | 18 | 18 |
| Qrenada | - | 30-40 | - | - | - |

| Ölkə | Vergilərin növləri və bank faizlərinin dərəcələri | | | | |
|---|---|---|---|---|---|
| | **Orta səviyyədən gəlir vergisinin dərəcəsi** | **korporativ** | **Mənfəətin ölkədən çıxarılması və repatriasiyası üzrə** | **Bank faizindən** | **Royalti tipli ödənişlərdən, səviyyədən faiz** |
| Dominika | **20-40** | **30** | **30** | **15** | **30** |
| Dominikan Respublikası | **15-30** | **30** | **30** | **15** | **30** |
| Kayman adaları | - | - | - | - | - |
| Montserrat | **5-20** | **20-30** | - | **20** | **20** |
| Men | **0-20** | - | - | - | - |
| Puerto-Riko | **9-38** | **22** | **25** | **17** | **17** |
| Sent-Vinsent | **10-55** | **45** | **15** | **25** | **25** |
| Sent-Klts və Nevis | **5-55** | **40** | - | **10** | **10** |
| Surinam | **18-50** | **35-45** | **25** | - | - |
| Terks və Kaykos | - | - | - | - | - |
| Trinidad və Tabaqo | **5-35** | **45** | **15** | **30** | **30** |
| Yamayka | **25** | **33,3** | **33,3** | **33,3** | **33,3** |

*Q e y d .* Tire (-) verginin olmadığını ifadə edir.

Bu idarələr ölkənin ərazisində fəaliyyət göstərərək, qeyri-rezidentlərlə, valyuta nəzarəti qaydalarının yol verdiyi bəzi hallarda isə rezidentlərlə onun ərazisinə münasibətdə xarici əməliyyatlar aparır. Qeyd etməliyik ki, əvvəl beynəlxalq maliyyə mərkəzinin yaradılması üçün inkişaf etmiş milli bank sisteminin, iri fond birjasının və sabit valyutanın mövcudluğu zəruri idi. Hazırda isə bunun üçün çevik maliyyə qanunvericiliyinin, xarici bankların filiallarını və şöbələrini açmaq hüququnun, gəlirlərdən vergi tutulmaması yaxud bunun güzəştli xarakterinin mövcudluğu, birja, bank və s. əməliyyatlarının yerinə yetirilməsinin sadələşdirilməsi kifayətdir.

Qlobal böhran zamanı G-20 çərçivəsindəki ofşorlar, o cümlədən İsveçrə güclü tənqid obyekti olmuşdur. Bu ofşor «zonalarında» və ölkələrində fəaliyyət göstərən banklara və müəssisələrə yanaşmanın ciddiləşdirilməsinə cəhdlər göstərilmişdir. Bu problem banklarının və iri şirkətlərinin böyük hissəsi ofşorlarda inkorporasiya olunmuş Rusiya üçün də aktualdır. Ancaq G-20-nin «sərt» qərarını Rusiya tərəfi gözlənilmədən qəbul etməmişdir. Buna basmayaraq, ofşorlarda gizlənərək vergiləri ödəməkdə yayman və başqa yolverilməz hərəkətlər edən bankların və şirkətlərin fəaliyyətində şəffaflığın gücləndirilməsinə doğru istiqamətlənən tədbirlər həyata keçirilməkdədir.

## 20.11. Beynəlxalq bank «pul»ları: Paris və London klubları

***Paris klubu*** 1962-ci ildə BVF ilə borclar haqqında Baş Saziş bağlayan ölkələrin - «Group-10» ətrafında kreditor-dövlətlərin yaratdığı qeyri-fonnal birlikdir. «10-lar qrupunun» peyda olmasının birbaşa səbəbi xarici borcun ödənilməsi ilə əlaqədar olaraq 1956-cı ildə Argentinada yaranan böhranıdır. «Qrup» təkcə Argentina ilə deyil, başqa ölkələrlə də bağlı olaraq danışıqların aparılması orqanına çevrilmişdi. Sonradan bu funksiyalar ***Paris klubuna*** keçdi. Klub daimi üzvlüyü nəzərdə tutmur, əksinə, Paris klubu çərçivəsində həyata keçirilən danışıqlar prosesində borclu ölkənin hökuməti və onun kreditorları iştirak edir. Ənənə üzrə iclaslar Fransa xəzinədarlığının böyük məmurunun sədrliyi altında keçirilir.

Paris klubunun borcların restruktizasiyası üzrə fəaliyyətini müəyyənləşdirən mühüm prinsip bütün kreditorların hüquq bərabərliyidir. Saziş bağlamazdan öncə, Paris klubunun xidmətlərindən istifadə edən ölkələr BVF-

in bəyəndiyi iqtisadi proqramın həyata keçiriləcəyi öhdəliyini qəbul etməli və onunla borc barədə müqavilə imzalamalıdır. BVF-in borclarının verilməsinin ayrılmaz şərti olan sabitləşdinnə proqramı, adətən borcalan ölkədə məcmu tələbatın məhdudlaşdırılma-sına və milli ixracın artırılmasına istiqamətlənmişdir. Kreditorlar bu proqramı borcalan ölkənin xarici borclar üzrə ödəmələri həyata keçirməsinə başlaması üçün cari əməliyyatlar hesabının tarazlaşdırıl- masınm zəruri şərti hesab edirlər.

Hazırda Paris klubuna 19 ölkə (o cümlədən 1997-ci ildən Rusiya) daxildir. Onun iclaslarında inkişaf etməkdə olan ölkələrin dövlət borcu məsələlərinə baxılır. İnkişaf etməkdə olan ölkələr və postsovet ölkələri tərəfindən borcların qaytarılması problemi kəskinləşdiyindən, klub 1980-1990- cı illərdə xüsusilə fəal işləmişdir; onun iclaslarında BVF-in, BYİB-in, İƏİT-in, UNIDO-nun müşahidəçiləri iştirak edir. Rusiyanın və MDB-nin başqa ölkələrinin Qərbi Avropadan olan kreditorlara borcu azaldığına görə, London və Paris klubları Afrikanın və Latın Amerikasının inkişaf etməkdə olan ölkələrinin borclarına daha böyük diqqət yetinnəyə başlamışdır.

***London klubu*** başqa ölkələrə verdikləri pul vəsaitlərinin qaytarılması zərurəti ilə qarşılaşan, Paris klubunun xidmətlərindən istifadə imkanlan olmayan özəl kom-mersiya banklarını birləşdirir. Bu özəl kredit idarələri danışıqların aparılması üçün ən iri kommersiya banklarının (400-dən çox) daxil olduğu London klubuna müraciət edir. Klub 1980-ci illərdə beynəlxalq borclar probleminin kəskinləşməsi ilə əlaqədar olaraq yaradılmışdır. London klubu BVF və «Böyük Yeddiliyin» tövsiyələrinə əməl edir. Ümumi etirafa əsasən, London klubu yalnız özəl bankları təmsil etdiyinə görə, onunla danışıqlar aparmaq Paris klubu ilə müqayisədə xeyli çətindir.

## Xülasə

• Vahid beynəlxalq maliyyə sistemi - milli maliyyə sistemlərinin, ilk növbədə onların xarici sektorlarının, çoxsaylı beynəlxalq maliyyə idarələrinin və təşkilatları-nm, bankların, habelə TMK-nın maliyyə bölmələrinin məcmusudur. Beynəlxalq maliyyə qurumlarına güclü özəl kommersiya bankları, beynəlxalq dövlətüstü və başqa idarələr, be}məlxalq maliyyə-bank idarələri (o cümlədən BMT sistemində) daxildir. Beynəlxalq valyuta sistemi qlobal maliyyə sisteminin mühüm hissəsidir.

• Beynəlxalq valyuta bazarlarında müxtəlif ölkələrin val}aıtaları dünya valyutalarına transfomıasiya olunur və maliyyə qurumları arasında hərəkət edir. Onların transformasiyası beynəlxalq pul, yəni beynəlxalq maliyyə-iqtisadi və ticari əməliyyatlara xidmət göstərən valyuta vasitəsilə baş verir. ABŞ-m milli valyutası olan dollar başlıca beynəlxalq pul vahididir. Avro da, ancaq nisbətən kiçik miqyasda analoji fıınksiyanı yerinə yetirir.

• Beynəlxalq banklar nəhəng məbləğdə maliyyə resurslarını səfərbər edib, mənfəət əldə olunması üçün investisiya kimi istifadə edilməsi məqsədilə bir ölkədən başqasına köçürməklə, vahid dünya maliyyə sisteminin fonnalaşmasında getdikcə daha böyük rol oynayır. Nəticədə kapitalın transmilliləşməsi, onun dövlətlərarası (ölkələr arasında) yerdəyişməsi və çarpazlaşması, qlobal və regional-qitə xarakterli iri bank-maliyyə qruplarının əmələ gəlməsi prosesi sürətlənir.

• Bretton-Vudsun qurumları olan BVF və DB, onların qitə-regional bankları maliyyə bazarlarının tənzimlənməsində mühüm rol oynayır. Qlobal böhran dövründə bu bankların rolu G-20-nin tövsiyələrinə müvafiq olaraq gücləndirilmişdi. Amma əvvəlki uğursuzluqlarını nəzərə alsaq, BVF-in pozitiv nəticə əldə edəcəyi şübhə doğurur.

• Dünya maliyyə bazarı maliyyə qruplarının və maliyyə mərkəzlərinin əsas fəaliyyət sahəsidir; TMB-lər kreditlər verir, ödəmə əməliyyatlarını aparır, qiymətli kağızlarla çox müxtəlif işləri yerinə yetirir. TMB-lər tərəfindən, habelə hecinq fondları və derivativlər vasitəsi nəhəng həcmdə özəl kommersiya (ssuda) kapitalının hərəkətə gətirilməsi dünya maliyyəsinə və iqtisadiyyatına, milli maliyyə və iqtisadi sistemlərinin vəziyyətinə xüsusilə güclü təsir göstərir. Onların açıq-aşkar neqativ rolunu nəzərə alaraq, dünyanın iqtisadi güclərinin liderləri G-20 çərçivəsində keçirilən sammitlərdə fəaliyyətləri üzərində nəzarətin ciddiləşdirilməsi barədə qərar qəbul etmişdir. Bu məqsədlə Maliyyə Sabitliyi Şurası yaradılmış və ona BVF ilə birgə bu sahədə nəzarət instansiyası səlahiyyəti verilmişdir.

• Beynəlxalq borclanma məsələlərini tənzimləyən Paris və London klubları fəaliyyətinin səciyyəvi olması ilə fərqlənir. Bu borclar (xüsusilə də yoxsul ölkələrdə) artdığına görə, həmin qurumların beynəlxalq borclanma problemlərinin həllində tənzimləyici rolu güclənir.

## Yoxlama sualları

1. Dünya maliyyə sisteminin və valyuta sistemlərinin tiplərinin mahiyyətini izah edin. Onların tarixi təkamülü necə və hansı səbəblərdən baş vennişdir?

2. BVF və DB niyə Bretton-Vuds idarələri adlanır? Onlar dünya valyuta sistemində hansı rolu oynayır?

3. Beynəlxalq maliyyə bazarlarının mahiyyətini və məzmununu izah edin.

4. BVF nə vaxt və hansı məqsədlə təsis olunmuşdu? Onun əsas vəzifələri nədir? Qlobal böhran dövründə BVF-in fəaliyyəti niyə tənqid olunurdu?

5. BYİB nə vaxt və hansı məqsədlə təsis olunmuşdu? DB sisteminə hansı başqa beynəlxalq maliyyə qurumları daxildir? Bu bank hansı ölkələrə yardım göstərir?

6. BYİB və Bazelin əsas vəzifələri nədən ibarətdir? Bank fəaliyyətinə nəzarət üzrə Bazel Komitəsi hansı rolu oynayır?

7. AYİB nə vaxt və hansı məqsədlər üçün yaradılmışdır?

8. AMB-nin funksiyaları nədən ibarətdir?

9. İslam banklarının fəaliyyətinin özəlliyi nədədir?

10. Beynəlxalq maliyyə mərkəzlərinin formalaşmasının təhlilini verin. Onlardan əsasları hansılardır və harada yerləşir? Bu mərkəzlər necə fəaliyyət göstərir?

11. Ofşor regional maliyyə mərkəzləri; onların xüsusiyyətləri. Bu mərkəzlərin tipləri.

12. Paris və London bank klubları («pulları»), onların fəaliyyətinin ümumi və özəl cəhətləri.

13. Dünya iqtisadiyyatında böhranların aradan qaldırılması və inkişafındakı tsikllərin hamarlanması məqsədilə G-20 sammitlərində hansı tədbirlər görülmüşdü?

## Referatların mövzuları

1. G-20 çərçivəsində dövlət və hökumət başçılarının Vaşinqtonda və Londonda keçirilən sammitlərinin əsas qərarları

2. BVF və DB qlobal maliyyə sistemində: fəalİ3^ətlərinin xüsusiyyətləri və nəticələri

3. Dünya iqtisadiyyatında beynəlxalq maliyyə mərkəzləri

# Fəsil 21

# DÜNYA QİYMƏTLİ KAĞIZLAR BAZARI: FOND VƏ VALYUTA BİRJALARI

## 21.1. Dünya qiymətli kağızlar bazarı valyuta bazarının bir hissəsi kimi

***Qiymətli kağızlar bazan anlayışı.*** Əvvəlcə qeyd edək ki, valyuta bazarı həcminə görə dünyanın ən böyük maliyyə bazarı olmaqla, onun müxtəlif alətlərinin (tərkib hissələrinin) qarşılıqlı əlaqədə fəalij^ət göstəmıəsində həlledici rol oynayır. Valyuta və bütövlükdə maliyyə bazarlarının əsasını ***qiymətli kağızlar bazan*** təşkil edir. Dünya qiymətli kağızlar bazarı pul vəsaitlərinin sahibləri ilə istehlakçıları arasında əqdlərin yerinə yetirilməsinə imkan yaradan mexanizmdir. Bu bazarda qısamüddətli qiymətli kağızlarla (bu, pul bazarıdır) və uzunmüddətli qiymətli kağızlarla, məsələn, istiqrazlar və səhmlər formasında ticarət aparılır.

Dünya iqtisadiyyatı üçün ***kapitallar bazarı*** daha səciyyəvidir. Dünya kredit bazarının dünya fond bazarı ilə sıx əlaqədə fəaliyyət göstənuəsi uzunmüddətli kapitalların hərəkəti ilə bağlıdır. Xarici ölkələrə uzunmüddətli bank kreditlərinin (10 ilədək) verilməsi uzunmüddətli kapitalların hərəkət formalarından biridir. Amma beynəlxalq kreditin formaları dollarla, avrovalyuta ilə və başqa valyutalarla (bazarlardan və əməliyyatlardan asılı olaraq) verilən ssudalarla məhdudlaşmır. Pul vəsaitlərinin səfərbər olunmasının mühüm vasitələrindən biri də qiymətli kağızların buraxılmasıdır. Onların vasitəsilə investor qismində çıxış edən həm nəhəng TMK-nm, həm də öz səhər yeməyinin bir hissəsini qiymətli kağızlara çevirən adi qulluqçunun pul vəsaiti birbaşa olaraq əldə edilir'.

***Pul (valyuta) bazarlarının və kapitallar bazarlarının təsnifatı.*** Pul bazannm özəlliyi burada keçirilən qısamüddətli əməliyyatların 1 gündən 365 günədək, kapitallar bazarında isə 1 ildən çox müddətdə həyata keçirilməsidir. Dövr edən və dövr etməyən alətlər bazarları fərqləndirilir. ***Dövr edən aktivlər***

^ *Schryer R.* A Simple Effective Method to Collect Your Money // Opportunity World. 2000. September. P. 67.

borc (veksellər, notlar, istiqrazlar) və pay (mülkiyyət titulları yaxud səhmlər) qiymətli kağızlarından ibarətdir.

Emitentin buraxdığı *kağızlar ilkin bazarda* yerləşdirilir və bundan sonra *təkrar bazarda (birjada)* dövr edir. Fond birjalarında ticarət *listinqə (ticarətə buraxılış)* daxil edilmiş birinci dərəcəli adi səhmlərlə və dönərli istiqrazlarla aparılır. Məsələn, Nyu-York Fond Birjasının (New York Stock Exchange) listinqinə 2200 adi imtiyazlı səhm və səhmə çevrilən 950 istiqraz daxil edilmişdir. Qlobal böhranadək elektron bazarda *{over the coımter* - piştaxta üzərindən) nisbətən kiçik şirkətlərin səhmləri, korporativ istiqrazlar və imtiyazlı səhmlər, xəzinədarlığın və bələdiyyələrin qiymətli kağızları, pul bazarının müxtəlif alətləri, o cümlədən diskontlu, faizli qiymətli kağızlar, banklararası kreditlər və depozitlər, xariei valyuta bazarının alətləri (spot, forvard, opsionlar və svoplar) satılırdı. Elektron bazar iri şirkətləri cəlb etməklə, sürətlə inkişaf edir.

*Dövr etməyən kreditlər (depozitlər) bazarı banklararası* və *müştəri* hissələrinə bölünür. Bundan əlavə, beynəlxalq pul bazarları və kapital bazarları əqdin yerinə yetirildiyi valyutadan və tərəflər arasındakı əqdin qeydiyyat yerindən (rezidentlik prinsipi) asılı olaraq təsnifləşdirilir.

Müvafiq olaraq, aşağıdakı bazarları fərqləndirə bilərik:

1) daxili valyuta bazarı;
2) xarici, 0 cümlədən ofşor bazar;
3) maliyyə bazarları.

Beynəlxalq bazarların tərkibi və quruluşu 21.1-ei şəkildə göstərilmişdir.

***Qiymətli kağızlar.*** Qiymətli kağız sahibinin gəlir yaxud əmlak üzərində hüquqlarını təsdiq edən hüquqi sənəddir (mülkiyyət tituludur).

Qiymətli kağızlar emitentlə (qiymətli kağızı buraxan şəxs) həmin kağızlann sahibləri arasında, adətən divident yaxud faiz şəklində gəlir ödənilməsini, habelə bu sənədlərdən irəli gələn pul və ya digər hüquqların başqa şəxslərə ötürülməsi imkanını nəzərdə tutan qarşılıqlı münasibətləri müəyyənləşdirir. Hazırda *avroistiqrazlar, avrosəhmlər* və *avroveksellər* də borc vəsaitlərinin cəlb olunmasına xidmət edən əsas fond qiymətli kağızları qismində çıxış edir.

Sahiblik hüququnun xarakterinə görə qiymətli kağızlann aşağıdakı növləri fərqləndirilir:

• təqdim edənə. Bu qiymətli kağız üzərində sahiblik hüququnun reallaş

dırılması və təsdiqi üçün onun təqdim edilməsi kifayətdir; bunlara təqdim edənə səhmlər və istiqrazlar, təqdim edənə çeklər və daxilolma şəhadətnamələri, adi anbar şəhadətnamələri (varrantlar), təqdim edənə kono- sament (yükün nəqletmə üçün qəbulunu təsdiq edən sənəd) və s. aiddir.

• adlı qiymətli kağızlar. Onları saxlayanın hüquqları qiymətli kağızın mətninə və qiymətli kağızın qeydiyyat kitabına daxil edilmiş sahibinin adı yaxud emitentin qanunvericiliyə uyğun olaraq aparmalı olduğu elektron qeydiyyat əsasında müəyyənləşdirilir. Adlı qiymətli kağızlar arasında, ilk növbədə, adlı səhmlər, istiqrazlar və sertifikatlar fərqləndirilir.

• order qiymətli kağızları. Onları saxlayanın hüquqları qiymətli kağızı təqdim edən və bu kağızın üzərində imzalanmış və möhürlənmiş ötünnə qeydlərinin olması ilə təsdiqlənir; bunların arasında veksellər mühüm rol oynayır.




*Şəkil 21.1.* **Beynəlxalq pul bazarlarının və kapital bazarlarının təsnifatı və strukturu**

*Əməliyyatların və əqdlərin xarakterindən,* habelə *buraxılmasının məqsədlərindən asılı olaraq* qiymətli kağızların aşağıdakı növləri fərqləndirilir:

• fond qiymətli kağızları. Fond birjasında dövriyyədə olan səhmlər və istiqrazlar;

• əmtəə dövriyyəsinə və müəyyən əmlak əqdlərinə xidmət edən kommersiya qiymətli kağızları: veksellər, çeklər, konosamentlər, anbar və girov şəhadətnamələri, girov kağızları.

Fond qiymətli kağızları sahibinin əmlak və digər tələbləri göstərilən *əsas* və adətən gəlirin (dividentin, faizin) alınması ilə əlaqədar olaraq sahibinin əlavə hüquqları, tələblər, şərtlər təsbit olunan *köməkçi* növlərə bölünür. Köməkçi qiymətli kağızlara mütəmadi gəlir əldə etmək hüququ verən kuponlar və kupon almaq hüququ verən talonlar aiddir. Əsas qiymətli kağız (səhm, istiqraz) adlı olduqda belə, kuponlar təqdim edənə verilir. Əsasdan a3n-ılan köməkçi qiymətli kağızlar müstəqil qiymətli kağıza çevrilərək, birjadankənar bazarda dövriyyə edə bilər. Başqa sözlə, bu kağızlar birja dövriyyəsinə çıxarılmır.

Fond birjasında *qiymətli kağızların iki kateqoriyası* dövriyyədədir:

1) istiqrazlar - faiz dərəcəsi təsbit edilən və borcun əsas məbləğinin gələcəkdə müəyyən tarixdə qaytarılacağı öhdəliyi göstərilən borc qiymətli kağızları;

2) səhmlər - sahibinin səhmdar kapitalında bilavasitə payım təmsil edən qiymətli kağız.

Qiymətli kağızlar hüquqi şəxslər: dövlət və kommersiya təşkilatları tərəfindən buraxılır. Hüquqi və fiziki şəxslər qiymətli kağızların alıcıları ola bilər. Fond qiymətli kağızlarının emissiyasının (buraxılmasının) məqsədi emitentin (qiymətli kağızı buraxan hüquqi şəxs) kapitalının artırılması üçün pul vəsaitlərinin mərkəzləşdirilməsi və toplanması, onun fəaliyyətinin maliyyələşdirilməsidir. Dövlət qiymətli kağızları büdcə kəsirini örtmək üçün də buraxır.

Qiymətli kağızlar bazarda asanlıqla satılan və alınan maliyyə aktivləridir. Əsasən investisiyaların maliyyələşdirilməsi məqsədilə borc vəsaitlərinin cəlb olunmasında daha geniş istifadə olunan qiymətli kağızlar hökumətlər və şirkətlər tərəfindən buraxılan, geri ödəmələri (borcun faiz artımı ilə qaytarılmasını) nəzərdə tutan istiqrazlardır. Bu sektor dünyanın ən böyük maliyyə bazarına çevrilmişdir və borc alınmasının vasitəsi kimi, dövlət

istiqrazlardan daha çox istifadə edir. Ən iri sənaye korporasiyalarının menecerləri qiymətli kağızların hərəkətini diqqətlə izləyərək, cari siyasətlərində onların məzənnələrini nəzərə alırlar'.

*İstiqraz* - faizi təsbit olunmuş, dövlət yaxud fınna tərəfindən borc öhdəliyi qismində buraxılan qiymətli kağız növüdür. Bu, riski minimum olan kredit növüdür. İstiqrazlar birjada bazar qiymətləri ilə satılıb-alınır. İstiqrazlar 10 ilədək (qısamüddətli) və 10 ildən çox (uzunmüddətli) müddətə buraxılır.

İstiqrazlar *xarici istiqrazlara* və *avroistiqrazlara* bölünür. Xarici istiqrazlar borcalanm ölkəsindən kənarda satılsa da, onun valyutasında ifadə olunur. Xarici valyuta ilə nominasiya olunmuş milli istiqrazlar da xarici istiqrazlara aid olunur. Avroistiqrazlar bazara müxtəlif ölkələrin təşkil etdiyi bank sindikatları tərəfindən çıxarılır və valyutası başqa olan ölkələrdə yerləşdirilir.

***Avroistiqrazlar bazarı.*** *Avroistiqrazlar* beynəlxalq bazarlarda satılan, geniş yayılmış qiymətli kağızlardır. Avroistiqrazlarm ənənəvi xarici istiqrazlar üzərində əsas üstünlüyü, bir neçə ölkənin bazarlarında yerləşdirilmək imkanının olması və dövlət tənzimlənməsinə nisbətən az məruz qalmasıdır. Əsas satış bazarının Londonda yerləşməsinə baxmayaraq, onların Avropada satılması mütləq deyil. Avroistiqrazlarm milli sərhədləri yoxdur və eyni zamanda beynəlxalq sığorta sindikatlarının vasitəçiliyi ilə bir neçə maliyyə mərkəzində satıla bilər. Onların nominalı başqa ölkənin valyutasında, o cümlədən avrodollarla və avroiyena ilə müəyyən olunur. Hazırda avrovalyuta bazarlarında buraxılan bütün istiqrazlar avroistiqraz adlanır.

*Avroistiqrazlar bazan* - borcun məbləği, onun geri qaytarılmasının şərtləri və müddətləri, faizlərin alınma qaydaları təsbit olunmuş, avrovalyuta ilə ifadə edilən borc öhdəlikləri şəklində rəsmiləşdirilmiş dayanıqlı münasibətlər sistemidir. Bu bazar xarici əmanətçilər üçün cəlbedici və əlçatandır. Onun əsas üstünlükləri dövlət tərəfindən sərt nəzarətin olmaması, ssudanm uzunmüddətli (10-15 il) xarakteri və vəsaitləri eyni vaxtda bir neçə ölkədə almaq imkanıdır. Avrokreditlərdən fərqli olaraq, avroistiqrazlar sahibinə borcalanm pul siyasətinə təsir göstənnək imkanı vermir, yəni BVF-in tələblərinə riayət olunur. Buna görə də avroistiqrazlar bazarına krediti qa3üarma reytinqi yüksək olan borcalanlar buraxılır. İstiqrazların emissiyası üzrə faiz dərəcələri təsbit edilən yaxud üzən ola bilər.

' *EnglerC.* Managerial Accounting. Irvin Homewood, Boston, 1989. P. 392-393.

istiqrazlar sosial infrastruktur, şəhər təsərrüfatı obyektlərinin və başqa bələdiyyə proqramlarının maliyyələşdirilməsi məqsədləri üçün yerli hakimiyyət orqanları tərəfindən də buraxıla bilər. Bunlar *bələdiyyə istiqrazları* adlandırılır. Bu cür qiymətli kağızların investorlar üçün faydası, vergi güzəştlərinin olmasıdır. Federal quruluşlu inkişaf etmiş ölkələrdə bu istiqrazlar fond bazarının böyük hissə-sini təşkil edir. Məsələn, ABŞ-da göstərilən istiqrazlar dövlət və bələdiyyə qiymətli kağızlarının ümumu həcminin 25%-ni, Almaniyada isə yarısından çoxunu təşkil edir.

***Korporativ istiqrazlar.*** İstiqrazlar iri şirkətlər tərəfindən istehsalın genişləndirilməsi və modernləşdirilməsi məqsədi ilə əlavə kapital cəlb etmək üçün də buraxılır. Qiymətli kağızlara müəssisənin əmlakı ilə zəmanət verildiyinə görə, bunlar *korporativ istiqraz* adlanır. Yalnız iri və məşhur finnalar əhali tərəfindən etimad göstəriləcəyinə ümid bəsləyə bilər. İstiqrazlar bazarına çıxmazdan əvvəl şirkət ixtisaslaşmış agentlikdən krediti qaytanna qabiliyyəti barədə rəy almalıdır. İstiqrazın taleyi və ödəniləcək faizin dərəcəsi bu qiymətləndirmədən asılıdır. İstiqraz üzrə borcun verilməsinin investorlar üçün cəlbediciliyini artınnaq məqsədilə, korporativ istiqrazlar müxtəlif xassələrlə buraxılır:

- indeksləşdirilmiş istiqrazlar;
- mənfəətdə iştirak hüququ verən istiqrazlar;
- başqa qiymətli kağızlara, ilk növbədə, səhmlərə dəyişdirilə bilən istiqrazlar;
- geri qaytarılan (müddət başa çatanadək geri alınan) istiqrazlar;
- faizi üzən istiqrazlar və s.'

Müştəriyə təklif olunan geniş seçim istiqraz buraxan iri şirkətə öz fəaliyyətinin məqsədyönlü strateji planlaşdırılmasını həyata keçinnəyə, işlədiyi sahədə ümumi sabit mühit yaratmağa imkan verir.

Xarici istiqrazlarla ticarətin əsas mərkəzləri Nyu-Yorkda, Sürixdə, Tokioda, Londonda, Amsterdamda, Frankfurt-Maynda yerləşir.

*Fond qiymətli kağızlarının emissiyası* onların sayı, hər bir qiymətli kağızın (səhmin, istiqrazın) nominal qiyməti və buraxıldığı məbləğ göstərilməklə, kütləvi xarakterdə olması ilə fərqlənir. Eyni buraxılışdan olan qiymətli kağızlar bir-birinə bərabərdir və kapitalda yaxud istiqraz fondunda olan müəyyən payı ehtiva edir. Fond qiymətli kağızlarının buraxılışı müvafiq

*PeeuHCKuO H.A.* Vkəs. com. **c.** 289.

dövlət orqanında qeydiyyatdan keçməlidir və burada qiymətli kağızın hər bir buraxılışına kod verilir.

Fond birjalarının əsrlərlə fəaliyyət göstərdiyi ölkələrdə, onların yaranma dövründən başlayaraq, emitentlər və əmanətçilər üçün hüquqi nonnalar işlənib hazırlanmışdır, qiymətli kağızların buraxılışını və satışını tənzimləyən ciddi qanunlar mövcuddur. Qiymətli kağızların buraxılışının, ilkin yerləşdirilməsinin və təkrar satışının qanunvericiliklə tənzimlənməsinin zəruriliyi baş vermiş birja böhranları, o cümlədən 1929-1933-cü illərin dünyada ən böyük birja böhranı ilə təsdiqlənmişdir. Onun nəticəsində bir çox ölkələrdə qiymətli kağızların buraxılışını və dövriyyəsini tənzimləyən qanunlar qəbul olunmuşdu. ABŞ-da buraxılış proseduru 1933-cü il «Qiymətli Kağızlar haqqında» Qanunu ilə reqlamentləşdirilir. Emitent-şirkət özünün fəaliyyəti və səhmin yaxud istiqrazın buraxılması ilə bağlı olan bütün məlumatları; işlərin cari vəziyyəti, gəlirlərin əldə olunması perspektivləri, son illər ərzində bağladığı əqdlər, qiymətli kağızların əvvəlki buraxılışlarının təsviri barədə və sair informasiyanı təqdim etməyə borcludur. Bu məlumatlar xüsusi federal (dövlət) orqanları tərəfindən yoxlanılır, tam və dürüst hesab edildikdə, yeni səhmlərin yaxud istiqrazların buraxılışına icazə verilir. Buraxılış barədə məlumatlar xüsusi cədvəldə ümumiləşdirilir və prospektlərdə dərc olunur.

## 21.2. Birjalar

***Birja anlayışı.*** Birja - xüsusi mülkiyyətə malik olan, birbaşa hüquqi məsuliyyət daşıyan, iştirakçıları qarşısında müvafiq hərəkətləri yerinə yetirmək səlahiyyəti verilən və müəyyənləşdirilmiş tələblərə cavab verən hüquqi şəxsdir. Tarixən birja əmtəə bazarlarını formalaşdıran klassik iqtisadi qurum kimi nəzərdən keçirilir. Onun fəaliyyətinin hüquqi, təşkilati və iqtisadi əsasları vardır. Fəaliyyətinin təşkil olunması baxımından birja, müvafiq avadanlıqla təchiz olunaraq, üzvlərinin istifadəsinə verilən «ticarət yeridir».

İqtisadi baxımdan birja, qanunlar və digər nonnativ aktlar, öz qaydaları əsasında fəaliyyət göstərən, tələb və təklif nəticəsində yaranan qiymətlərlə mallar, qiymətli kağızlar, valyuta və s. ilə ticarət aparılan topdansatış bazarıdır.

***Valyuta və fond birjalarının təkamülü: tarixi baxış.*** Müasir birjaların sələfi olan ilk birjalar XV-XVI əsrlərin qovuşduğu dövrdə meydana çıxmışdır. Bunlar əmtəə birjaları idi və tezliklə fond, sonra isə valyuta, fyuçers və opsion birjaları yarandı. 1611-ci ildə təşkil olunan Amsterdam birjası indiyədək

mövcud olan ən qədim birja sayılır. 1913-cü ilədək Amsterdam birjası müxtəlif mallarla ticarət edən universal birja idi. Bu birja sonradan ixtisaslaşmış fond birjasına çevrildi və burada yalnız qiymətli kağızlarla ticarət aparılır. Böyük Britaniyada fond birjası yüz il gec, 1773-cü ildə, bundan bir qədər əvvəl Fransada, sonra isə ABŞ-da, 1900-cü ildə Rusiyada fəal fonualaşmağa başlamışdır. Yaponiyanın fond birjası Avropadan xeyli gec inkişaf etməyə başlamışdır, müasir mənada başa düşülən fond birjası isə yalnız İkinci Dünya müharibəsindən sonra yaradılmışdır. Amma XX əsrin sonuna yaxın yapon birja bazarı ABŞ və Böyük Britaniyanmkı ilə yanaşı, ən irilər sırasındadır. 2001-2007-ci illərdə iqtisadiyyatı artan müxtəlif ölkələrdə birjalar (Şanxay birjası, Latın Amerikası, Qərbi Asiya ölkələrinin birjaları) sürətlə inkişaf edirdi.

***Valyuta birjalarının özəllikləri.*** Başqa birjalarla müqayisədə, valyuta birjalarının inkişafının fərqli xüsusiyyətləri olmuşdur. Bu xüsusiyyətlər, ilk növbədə, 1922-ci ildə Genuya valyuta sisteminə keçməzdən əvvəl dünya ölkələri arasında dayanıqlı və rəsmiləşmiş valyuta münasibətlərinin mövcud olmaması ilə əlaqədardır. İngilis funtunun hələ 1816-cı ildən, ABŞ dollarının 1837-ci ildən, alman markasının 1875-ci ildən qızıl məzmununun olmasına baxmayaraq, 1922-ci ilədək qızıl hamı tərəfindən qəbul olunan (nadir istisnalarla) yeganə ödəniş vasitəsi idi. Valyutalar arasındakı mübadilə məzənnələri hesablanmır, onların qızıl məzmununa müvafiq olaraq paritetlər müəyyənləşdirilirdi. Beləliklə, birja əmtəəsi qismində valyutalar deyil, daha çox əmtəə birjasının əlamətləri xas olan birjalarda satılan qızıl çıxış edirdi (hesablaşmalar aparılarkən, qızıl tərəzidə çəkilirdi). 1922-ci ildən başlayaraq, qızılın demonetizasiyasmm hüquqi, əslində isə faktiki prosesi - qızıl-deviz standartına keçid, 1971-ci ildən, xüsusilə də 1976-cı ildə Yamayka valyuta sisteminin qəbulundan sonra isə qızılın rəsmi demonetizasiyası başlandı.

Qızılın demonetizasiyası prosesi genişləndikcə, valyuta birjalarının rolu güclənirdi. Ancaq 1980-ci illərin əvvəlində üzən valyuta məzənnələri fonunda fərdi EHM-lər sahəsində həlledici texnoloji sıçrayışın baş verməsi valyuta birjalarının inkişafının dayanması və onun birjadankənar elektron sistemlərlə əvəz olunması ilə nəticələndi. İndi də birja fəaliyyətində əhəmiyyətli dəyişikliklər baş verir. Artıq bir neçə onillikdir ki, inkişaf etmiş ölkələrin milli birjaları beynəlxalq iqtisadi münasibətlərin fonualaşmasınm beynəlmiləlləşmə, inteqrasiya və buna müvafiq olaraq, kapitalın hərəkətinin sürətlənməsi kimi amillərinin güclü təsiri altındadır. Bundan başqa, son 20 ildə inkişaf etmiş

ölkələrdə kapitalın yerdəyişməsi qarşısında maneələrin, demək olar ki, tamamilə aradan qaldırılması, habelə üzən valyuta məzənnələri rejiminə keçid və milli valyutaların (ABŞ dolları, yapon iyenası) sərbəst istifadə olunan yaxud sərbəst dönərli statusunun alması ən böyük milli birjaların beynəlxalq birjalar sırasına keçməsi üçün obyektiv ilkin şərait yaratdı.

*Birjada aparılan əməliyyatlar.* Birja əməliyyatları ticarət prosesində satıcılar və alıcılar arasında əqdlərin bağlanmasından ibarətdir.

*Birja əqdi* - birja dövriyyəsinə buraxılan mallara dair hüquqların və öhdəliklərin qarşılıqlı surətdə verilməsi barədə birja müzaidələri zamanı bağlanılan müqavilədə (kontraktda) əks olunan razılaşmadır.

*Birja fəaliyyəti anlayışı.* İstənilən birja fəaliyyətinin əsasım ticarət prosesini asanlaşdıraıaq, satıcıların və alıcıların maraqlarını qiymətlərin əlverişsiz dəyişməsindən qoruya bilən səmərəli mexanizmlər işləyib hazırlamaq məqsədilə onun üzvləri tərəfindən təşkil olunan birja ticarəti təşkil edir. Beləliklə, iştirakçılarının nöqteyi-nəzərindən birja ticarəti, mənfəət əldə olunması məqsədilə təşkil olunan kommersiya fəaliyyətinin müstəqil növüdür.

***Birja fəaliyyətinin xüsusiyyətləri.*** Birja fəaliyyətinin əsas cəhətləri və xüsusiyyətləri onun təzahürünün xarakteri ilə əlaqədardır. Birja fəalij^əti ilk növbədə:

- mallarm istehsalı və istehlakı yerlərində, habelə iri maliyyə mərkəzlərində cəmləşir;
- bazis aktivlərinin xüsusi növləri üzrə, iri partiyalarla yaxud böyük həcmdə aparılır;
- müntəzəm olaraq keçirilir;
- müzaidələrin aşkarlığı və şəffaflığı ilə fərqlənir;
- qiymətlərin əmələ gəlməsinin sərbəstliyi ilə səciyyələnir;
- birja vasitəçiləri tərəfindən aparılır.

***Birjanın funksiyaları.*** Birja aşağıdakı əsas funksiyaları yerinə yetirir:

- bazar qiymətlərinin aşkar olunması və tənzimlənməsi;
- əqdlərin yerinə yetirilməsinə zəmanət verilməsi;
- birja ticarətinin hərtərəfli təşkili;
- birja kontraktlarının işlənib hazırlanması və standartlaşdırılması;
- informasiya fəaliyyəti.

Birja əməliyyatlarının aparılmasının reqlamenti və əqdlərin bağlanması qaydaları hər bir birja tərəfindən müstəqil müəyyən olunur. Bundan başqa.

birja tərəf-müqabillər arasındakı aşağıdakı münasibətləri tənzimləyən aşağıdakı xüsusi qaydaları işləyib hazırlayır:

- əqdlərin hazırlanması;
- əqdin bilavasitə bağlanması;
- bağlanmış əqdin rəsmiləşdirilməsi;
- əqdin yerinə yetirilməsi;
- əqdlər üzrə hesablaşmalar.

***Birja əqdinin mərhələləri, brokerlər və dilerlər.*** **İstənilən birja əqdində 3 mərhələni fərqləndinnək olar: birinci mərhələ - sifarişlərin tərtibi və qeydiyyatı; ikinci mərhələ - sifarişlərin birja ticarətinə qəbul olunması və əqdlər bağlanarkən onların icrası; üçüncü mərhələ - birja əqdinin qeydiyyatdan keçirilməsi və əqdlər üzrə hesablaşmalar.**

**Dünya birja fəaliyyətində agentlərin 2 növü mövcuddur: brokerlər və dilerlər.** *Broker* **- birja bazarında komissiya müqaviləsi əsasında işləyən, yəni müştərinin tapşırıqlarını onun adından, təsbit olunmuş komissiya mükafatı müqabilində yerinə yetirən maliyyə vasitəçisidir.** *Diler* **- maliyyə əməliyyatlarını tapşırıq müqaviləsi əsasında müstəsna olaraq öz adından və öz hesabına yerinə yetirən maliyyə vasitəçisidir.**

## 21.3. Fond bazarı və fond birjası

***Fond birjası anlayışı və onun fəaliyyəti.*** *Fond birjası* **səhmlərin, istiqrazların və başqa qiymətli kağızların (fondların) sərbəst bazarıdır. Fond bazarında qiymətli kağızların sahibləri birja üzvlərinin (vasitəçi rolu** 03**oaayan) yardımı ilə alqı-satqı əqdlərini həyata keçirirlər.**

**Birjaların adətən səhmdar fonnasında təşkil olunması, sahibkarlıq fəaliyyətinin bu növünün tarixən təşəkkül tapmış ənənələri, qİ**3**Tnətli kağızlar üzərində mülkiyyət hüququnun hissələrə bölünmə dərəcəsi, səhm və istiqrazların pul vəsaitlərinin yerləşdirilməsi obyekti qismində əhəmiyyəti ilə izah olunur. Birjanın üzvləri (mülkiyyətçisi, sahibi və s.) qiymətli kağızlarla fərdi qaydada ticarət edənlər, habelə banklar, digər kredit idarələri ola bilər.**

**Fond birjalarının faalİ**3**q/əti ölkənin qanunları və başqa normativ aktlarla tənzimlənir. Buna müvafiq olaraq, birjanın idarə heyəti şirkətlərin (qiymətli kağızları birjaya buraxılan) onun fəaliyyətində iştirak etmək imkanını ■tənzimləyən qaydaları müəyyənləşdirir. Birja qiymətli kağızların satış həcmi,**

əldə olunan mənfəətin məbləği, səhmlərin bazar dəyəri və s. dair meyar- tələblərə cavab venuəlidir.

Fond birjaları maliyyə resurslarının sahələr arasında yenidən bölgüsünün iyerarxiya əsasında qurulmuş yöndəmsiz, xərc tələb edən və səmərəsiz şaquli sisteminin əvəz olunması üçündür. Birja ticarətinin obyekti qismində sekyuritizasiya, yəni qiymətli kağızlarla maliyyə-kredit münasibətlərinin rəsmiləşdirilməsi prosesində meydana çıxan qiymətli kağızların müxtəlif növləridir. Birja maliyyə bazarının əsas tənzimləyicilərindən biri kimi çıxış edir. Birjanın əsas rolu maliyyə və ssuda kapitallarının hərəkətinə xidmət göstərməkdir: bir tərəfdən, bu kapitalları toplamaq və cəmləşdimıək, digər tərəfdən isə dövlətləri və müxtəlif təsərrüfat strukturlarını kreditləşdinnək və maliyyələşdirmək. Ölkə iqtisadiyyatında fond birjasının oynadığı rol, ilk növbədə, kapitalist bazarı əsasında yaranan ticari-iqtisadi və maliyyə münasibətlərinin «kamilliyindən», ümumilikdə qiymətli kağızlar bazarının inkişaf dərəcəsindən asılıdır.

***Fond birjalarının funksiyaları.*** Fond birjalarının əsas funksiyalarına bunlar aiddir:

• qiymətli kağızların satışı yolu ilə sərbəst pul kapitallarının və yığımların səfərbər olunması və cəmləşdirilməsi;

• dövləti və başqa təsərrüfat təşkilatlarını onların qiymətli kağızlarını almaq vasitəsilə kreditləşdirmək və maliyyələşdirmək;

• qiymətli kağızlara qoyulan vəsaitlərin likvidliyinin yüksək səviyyəsini təmin etmək.

Fond birjası qiymətli kağızlara olan tələb və onlann təklifini cəmləşdirməyə, birja qiymətqoyması əsasında tarazlığını təmin etməyə imkan verir, səhmdar kapitalından istifadə olunmasının real səviyyəsini əks etdirir.

*Birja hərracı.* Birja əqdinin birinci mərhələsi sifarişdir. Ərizə müvafiq tərzdə rəsmiləşdirildikdən (doldurulduqdan) sonra birja ticarəti sisteminə daxil edilir. Birjanın tipindən (açıq, qapalı), habelə ticarəti aparılan aktivin bazarından, ilk növbədə isə, onun likvidliyindən asılı olaraq, birja hərracının yaxud müzaidəsinin aparılmasının müxtəlif formaları mövcuddur. Tələbin yaxud təklifin həcmi kiçik olduqda, ticarət *sadə hərrac* şəklində aparılır. Sadə hərracın 3 növü vardır: ingilis, holland, qiyabi.

Müasir beynəlxalq təcrübədə valyuta bazarının və qiymətli kağızlar bazarının vəziyyəti yüksək likvidliklə səciyyələnir. Bu, ikiqat hərracın

formasının seçilməsini müəyyənləşdirir'. İkiqat hərracın 2 fonnası vardır: onkol və fasiləsiz.

*Onkol* hərracda birjanın müvəkkili qiymətli kağızların alınması və satışı üçün sifarişləri cəmləşdirir və sonra birja dövriyyəsini maksimuma çatdıran qiymət müəyyən edir. Beləliklə, alıcıların və satıcıların bağladığı əqdin klirinq qiyməti müəyyən edilir. Müəyyən müddətdən, kifayət miqdarda sifariş daxil olduqdan sonra birja müvəkkili birja dövriyyəsini maksimuma çatdıran yeni qiymət təyin edir. Bunun nəticəsində hər bir «yaylım atəşi» bazarı mümkün qədər çox sifarişdən təmizləyir; bu cür «yaylım atəşi» ilə işləyən ən böjdik bazarlar Avstriya, Belçika, Almaniyadadır və bu, ticarəti aparılan aktiv üzrə daimi tələbatın və təklifin olmasını, bazarın likvidliyini göstərir, *fasiləsiz hərraca* keçməyə imkan yaradır.

*Fond birjalarında əqdlər.* Qiymətli kağızlarla birja əməliyyatları yaxud birja əqdləri deyildikdə, əməliyyat iştirakçılarının birja qiymətləndirilməsinə və dövriyyəsinə buraxılmış qiymətli kağızlara münasibətdə hüquqlarının təyin olunmasına, ləğvinə yaxud hüquq və vəzifələrinin dəyişdirilməsinə yönəlmiş, birjanın iş vaxtı ərzində onun sahəsində bağlanılan ticarət müqavilələri başa düşülür. «Qiymətləndirməyə və dövriyyəyə buraxılmış qiyıuətli kağızlara münasibətdə» ifadəsi *listinq prosedurunu* - qiymətli kağızın ticarət aparılanlar siyahısına daxil edilməsini nəzərdə tutur. Hər bir şirkətin öz qiymətli kağızlarını müvafiq birjanın listinə (siyahısına) daxil etməsi onların ticarətə buraxılması üçün əsas şərtdir.

*Listinq* - təşkil olunmuş bazar üçün əlverişli şərait yaradan, ən etibarlı və keyfiyyətli kağızları müəyyənləşdirməyə imkan verən, onların likvidliyini yüksəldən, bazarın dəstəklənməsi sistemidir. Hesab edilir ki, listinqə dair ən ciddi şərtlər Nyu-York birjasmdadır. Burada kotirovkaya buraxılmaq üçün şirkət aşağıdakı tələblərə cavab verməlidir:

- sonuncu ildə vergilər ödənilənədək gəliri ən azı 2,5 milyon dollar olmalıdır;
- əvvəlki 2 il ərzində mənfəəti 2 milyon dollardan az olmamalıdır;
- öz mülkiyyətindəki maddi aktivlərin xalis dəyəri ən azı 18 milyon dollar olmalıdır;
- ən azı 1,1 milyon dollar dəyərində ictimaiyyətin sərəncamında olan səhmlərə sahiblik etməlidir;

^ Биржевая деятельность / под. ред. А.Г.Грязновой, Р.В.Корнеевой, В.М.Галанова. М., 1996.

- dəyəri ən azı 18 milyon dollar olan səhmlər zərfinə nəzarət etməlidir;
- 100 səhm saxlayan ən azı 2000 nəfər səhmdarı olmalıdır;

•son 6 ay ərzində bu emitentin səhmləri ilə ticarətin orta aylıq məbləği 100 min dollardan az olmamalıdır.

Yalnız məhdud sayda ən iri korporasiyalar bu cür yüksək tələblərə cavab verə bilər. Qiymətli kağızlarla birja münasibətlərinin obyektləri səhmlər, istiqrazlar (dövlət, bələdiyyə, korporativ), veksellər (dövlət, bələdiyyə, korporativ depozit sertifıkatlan, ABŞ-m depozitar qəbzləri), törəmə qiymətli kağızlar (qiymətli kağızlar üzrə fyuçerslər və opsionlar), varrantlar ola bilər.

*Fyuçers əqdləri.* Fyuçers əqdləri (futures transactions) - əmtəə və fond birjalarında həyata keçirilən səhmin verilməsini, ona görə pul ödənişlərinin isə razılaşdırılmış müddətdə, adətən bir ay ərzində yerinə yetirilməsini nəzərdə tutan əməliyyatlardır. Dünyada buğda, qarğıdalı, sair dənli bitkilər, qəhvə, şəkər, bal, mazut, faner, pul vəsaitləri, xəzinədarlıq biletləri, istiqrazların bəzi növləri və s. gələcək göndərişləri üzrə təşkil olunmuş bazarları fəalİ5^ət göstərir. Göstərilənlərin qiymətləri əhəmiyyətli dəyişikliklərə məruz qalır. Buna görə də marağı olan şəxslərə gələcəkdə yarana biləcək qiymətlərin qeyri- müəyyənliyi ilə bağlı olan riskin səviyyəsini aşağı salmağa imkan verən xüsusi fyuçers bazarları yaranmışdır.

Fyuçers bazarında müəyyən malın, məsələn, buğdanın gələcəkdə (adətən 18 ayadək) göndərilməsinin qiyməti elan olunur. Buğdanın göndərilməsinə dair standart müqavilədə onun həcmi və gələcəkdə göndərilməsinin tarixi müəyyənləşdirilir. Kiçik istisnalar edilməklə, fyuçers əqdlərinin öhdəlikləri real malın göndərilməsi ilə deyil, qiymət fərqinin alınması yaxud ödənilməsi ilə başa çatır.

*Valyuta sərvətləri ilə aparılan birja əməliyyatları yaxud birja əqdləri* dedikdə, birjanın iş vaxtında onun sahəsində, birjada ticarəti aparılan valyutalar üzrə bağlanılan birja əqdləri nəzərdə tutulur. Qiymətli kağızlarla aparılan əməliyyatlar kimi, birjanın valyuta əməliyyatları da *kassa* və *müddətli* növlərə bölünür. Qiymətli kağızlarla hesablaşmaları 7 gün müddətinədək aparılan kassa əməliyyatlarından fərqli olaraq, valyutalar üzrə kassa əməliyyatlannm yerinə yetirilmə müddəti dəqiq müəyyənləşdirilir. Bu əməliyyatlar üzrə hesablaşmalar əqd bağlandıqdan sonrakı 2 gün ərzində aparılmalıdır. Nəzəri baxımdan kassa əməliyyatlarının 3 növündən istifadə edilir;

- «bu gün» - val}aıtalaşdırmamn (hesablaşmaların) əqdin bağlandığı gün

yerinə yetirilməsi;

- «sabah» - əqdin bağlanıldığı gündən sonrakı gün valyutalaşdırma;
- «spot» - əqdin bağlanıldığı gündən sonrakı 2 gün ərzində valyutalaşdırma.

Amma dünya təcrübəsində kassa birja əqdləri üzrə hesablaşmaların müstəsna olaraq «spot» şərtləri əsasında aparılması qəbul olunmuşdur.

Valyuta əqdlərinin ikinci növü ***müddətli*** yaxud /brvart/ müqavilələridir. Bu cür əqdlərin vacibliyi bazar iştirakçılarının valyuta əqdləri üzrə hesablaşmaların hansı məzənnə əsasında keçiriləcəyini əvvəlcədən müəyyənləşdinuək istəyindən irəli gəlir. Forvard valyuta müqaviləsi əsasında satıcı müə}^ən müddətdən (bir il ərzində) sonra alıcıya valyutanı vermək, alıcı isə bunu qəbul edib, razılaşdırılmış şərtlərə uyğun olaraq dəyərini ödəmək öhdəliyini qəbul edir.

Müddətli (forvard) məzənnənin əsasını forvard müqaviləsinin bağlandığı vaxt kassa əməliyyatları üzrə məzənnə, habelə əlavə (report, ajio) yaxud güzəşt (deport, dizajio) təşkil edir. Reportun yaxud deportun həcmi təkcə forvard əməliyyatının həcmindən deyil, həmçinin, ayrı-ayrı valyutalar üzrə faiz dərəcələrindəki fərqlərdən asılıdır. Bu əlavələr və güzəştlər «svop» dərəcələri adlandırılır. Müddətli əqd üzrə məzənnə, müqavilə bağlandığı vaxt valyuta bazarındakı tələblə təklif arasında nisbət, müxtəlif valyutaların faiz dərəcələri arasında fərq əsasında müəyyən olunur.

Forvard məzənnəsi aşağıdakı düsturla hesablanır:

Forvard məzənnəsi = «Spot» məzənnəsi (1 + aparıcı milli banklarda SDV ilə depozitlər üzrə % dərəcəsi) / (1+ LİBOR məzənnəsi üzrə % dərəcəsinin səviyyəsi)

***Opsion*** **-** hər hansı aktivin alqı-satqısı üzrə müqavilədir. Müqavilə əsasında opsionun alıcısı müəyyən aktivi əqddə təsbit olunmuş qiymətlə və müəyyənləşdiril-miş tarixdə almaq yaxud satmaq hüququnu (vəzifəsini yox) əldə edir və bu hüquqa görə mükafat adlandırılan müə5^ən məbləğdə pul ödəyir. Opsionun alıcısı (saxlayanı) müqaviləni yerinə yetirmək qərarına gələrsə, opsionun satıcısı konkret öhdəliklərini icra etməyə borcludur. Alıcı opsionu icra etmək, yəni aktivi almaq yaxud satmaq qərarına gələrsə, bunu yalnız kontraktda təsbit olunmuş qiymətlərlə edə bilər. Mükafat (opsionun qiyməti) həmişə alıcı tərəfindən satıcıya ödənilir.

***Opsionun tipləri.*** Opsion icra olunması baxımından 2 növə bölünür:

• Amerika opsionu - müqavilənin müddəti başa çatanadək istənilən gün icra edilə bilər;

• Avropa opsionu - yalnız müqavilə müddətinin başa çatdığı gün icra oluna bilər.

*Opsionlarm növləri.* Adətən opsionlarm bu növləri fərqləndirilir:

- «koll» (almaq üçün) - opsionu saxlayana aktivi almaq hüququ verir;
- «put» (satmaq üçün) - opsionu saxlayana aktivi satmaq hüququ verir.

*Opsionlar bazarının tipləri.* Rəsmi nöqteyi-nəzərdən opsionlarm *birja* və *birjadan kənar bazarı* mövcuddur; son bir neçə onillik ərzində birja bazarı inkişaf etdikcə, birjadankənar bazar xeyli ixtisar olunmuşdur. Opsionlarla ticarətin birja texnikası çox cəhətdən f3mçers ticarətinə bənzəyir. Fyuçers müqavilələri kimi, opsionlar da standartlaşdırılmış müqavilədir və dəyişən kəmiyyət yalnız qiymətdir. *Spredin* (alqı və satış qiymətləri arasında fərq) sərhədləri opsionlarm qiymətindən asılı olaraq, birjaların özü tərəfindən müəyyənləşdirilir. Kontraktları istənilən vaxt almaq və satmaq imkanı verdiyinə görə, müzaidələrin bu cür sistem əsasında təşkili onların yüksək likvidliyini təmin edir.

***Fond bazan.*** Ssuda kapitalı, ilk növbədə, fond bazarlarında (milli, regional və beynəlxalq) cəmləşir. Bu bazarı bank kreditlərindən fərqləndirən cəhət pul vəsaitlərinin qiymətli kağızların (tipi və istifadə müddəti müxtəlif olan) buraxılması yolu ilə cəlb edilməsidir. Öz növbəsində, bu bazar istiqrazlar, kommersiya veksellləri, səhmlər və başqa qiymətli kağızlar bazarlarına bölünür. Borclanmanm bir fonnasımn digəri ilə əvəz olunması nəticəsində ssuda əməliyyatları mexanizminin səciyyəvi transfomasiyası baş verir. Dünyanın bütün ölkələrində bu bazarın təşəkkül tapmış, kapitalın hərəkətinin tənzimlənməsi üzrə çoxsaylı əməliyyatların aparılması nəticəsində dinamik inkişaf edən qurumları mövcuddur.

*Birja mütəxəssislərinin tipləri.* Birja qaydalarına uyğun olaraq, mütəxəssislərin 4 tipi var:

- müntəzəm;

• yardımçı - müntəzəm mütəxəssislər olmadıqda, onların funksiyalarının yerinə yetirilməsini öz üzərinə götürə bilər;

• assosiasiya olunmuş - bunlar müntəzəm mütəxəssislərə kömək göstərir, amma kotirovkaları elan etmək və öz hesablarına müqavilələri icra etmək hüququna malik deyil; onların bütün hərəkətləri yalnız müntəzəm yaxud

yardımçı mütəxəssislərin iştirakı ilə yerinə yetirilə bilər;

• müvəqqəti - bu mütəxəssislər fövqəladə hal yarandıqda yaxud əməliyyatların artan həcmi tələb etdikdə, birjanın müdiriyyəti tərəfindən təyin olunur.

Birja mütəxəssisinə aşağıdakı funksiyaların icrası həvalə olunmuşdur;

• cari bazar qiyməti əmrlərdə göstərilənlərdən əhəmiyyətli dərəcə fərqləndiyi hallarda birja üzvləri tərəfindən verilən limitləşdirilmiş sifarişlərin icrası. Bu sifarişləri birjanın başqa üzvlərinin adından, bazar və sifariş qiymətləri üst-üstə düşən məqamda icra etməklə, mütəxəssis onlara başqa əmrlərin yerinə yetirilməsi ilə məşğul olmaq imkanı yaradır;

• öz hesabına diler yaxud prinsipal qismində fəaliyyət göstərilməsi. Mütəxəssis məsuliyyət daşıdığı səhmlər bazarının fəaliyyətinin saxlanması üçün mümkün qədər səy göstərməlidir. Tələb və təklif arasında müvəqqəti disproporsiya yarandığı hallarda mütəxəssis qiymətlərin kəskin dəyişməsinə yol vennəmək və bazarın lazımi «dərinliyini» təmin etmək məqsədilə «kağızları» öz hesabına almağa və satmağa borcludur. Bununla da mütəxəssis səhmlərin məzənnələrinin dinamikasının ardıcıllığını və fasiləsizliyini təmin edir, bazarın likvidliyini yüksəldir.

Birjanın fəaliyyət göstərən başqa iştirakçıları (üzvləri);

• ticarət zalının brokerləri yaxud «iki dollarlıq» brokerlər komissiya brokerlərinm sifarişləri icra etmək üçün vaxtı çatmadıqda, onların tapşırıqlanm yerinə yetirir;

• qeydiyyatdan keçmiş treyderlər. Bunlar, mahiyyətcə, diler olsalar da, mütəxəssislərdən fərqli olaraq, səhmlərin hərəkətinin nəticələrinə görə məsuliyyət daşımır. Birjanın bu üzvləri istənilən qiymətli kağızlarla əməliyyatları öz adından və öz hesabına yerinə yetirə bilsələr də, müştərilərin sifarişlərini icra etmək onlara qadağandır.

***Sifarişlər.*** Birjalarda qiymətli kağızların alqı-satışı üçün sifarişlərin bir neçə növü var;

- bazar / limitləşdirilmiş;
- stop-əmrlər;
- gündəlik / açıq (vaxt göstərilməyən).

Sifarişlərdə onların icrasının xüsusi şərtləri göstərilə bilər; «Açılış qiyməti ilə icra etməli», «Dərhal icra etməli», «Ləğv et» və s.

Nyu-York Fond Birjasında sifarişlərin icra olunması proseduru bu cürdür;

nümayəndələrə» telefonla tapşırıq verir. Sifarişin şərtləri vərəqəyə yazılır, texniki əməkdaş orada olan bütün lazımi məlumatları xüsusi qurğuya daxil edir və rabitə kanalları vasitəsilə NFB-yə ötürür. Əmrin icra (nadir hallarda isə icra olunmamaq) formasında konkret nəticəsi təsbit olunur. Bütün xırda sifarişlər (2000-dək səhm) broker firmalarından birbaşa mütəxəssisin kompüterinə (Super DOT sistemi) daxil olur və onun tərəfindən müstəqil yerinə yetirilir. Müştərinin öz brokerinə sifarişi verməsi ilə onun icrası arasındakı müddət 30 saniyədən 1 dəqiqəyədək çəkir. Adətən, bütün sifarişlərin 15-20%-i müzai- dələrin açılışı zaman yerinə yetirilir. Müzaidələr başlanılanadək daxil olmuş bütün sifarişlər tələb və təklifin ümumi vəziyyətinin müəyyənləşdirilməsi məqsədilə çeşidlənir. Mütəxəssisin vəzifəsi müzaidələr başlanana qədər əldə olan limit sifarişləri əsasında «kağızın» qiymətini müəyyən etməkdir. Bütün cüt sifarişlər vahid - müzaidələrin açılış qiyməti ilə icra olunur.

Bir qayda kimi, iri sifarişlər broker fınnalarmdan özünün birjadakı nümayəndəsinə daxil olur. Növbəti əmri alan broker onu yalnız müvafiq ticarət postunda yerinə yetirməlidir. Əmr «bazar üzrə», bazarın özü isə həmin anda kifayət qədər fəal olduqda, sifariş «birja izdihamında» (bu vəziyyətdə broker «pozitiv təşəbbüs» göstərə bilər) yerinə yetiriləcək.

Broker «limitləşmiş əmr» aldıqda isə vəziyyət bir qədər çətinləşir. Bu halda broker sifarişin icra olunmasını komissiya haqqı müqabilində mütəxəssisə həvalə edir; mütəxəssis isə həmin sifarişi özünün necə deyərlər, qeyd dəftərinə daxil edir.

Ticarətin nəzərdən keçirdiyimiz mexanizmləri nisbətən kiçik həcmli səhm zərfləri ilə əməliyyat aparıldığı hallarda tətbiq olunur. Səhmlərin böyük blokları ilə ticarət aparıldıqda isə onlar ilkin olaraq fond birjasının ticarət zalından kənarda diqqətlə öyrənilir, amma ***mütləq*** ticarət zalında icra olunur. Bu, bazarın həlledici tələbidir. Həmin bazarın digər tələbi iri zərflərlə aparılan əməliyyatların adi, başqa sözlə, fasiləsiz, «ikiqat» hərracların gedişində fonnalaşan qiymətlərlə yerinə yetirilməsidir. Eyni zamanda bu gün qüvvədə olan «blok əməliyyatları», başqa sözlə, səhmlərin iri zərfləri ilə ticarətin dövriyyəsinin yarısından çoxu NFB-nin payına düşür. Onların göstəricilərinin dəyişməsi, prinsip etibarilə, birjanın ümumu «mühitini» müəyyən edir.

## 21.4. Beynəlxalq birjalar

***Beynəlxalq fond birjaları.*** Aparılan əməliyyatların miqyasına görə qlobal əhəmiyyətə malik olan fond birjaları sırasında bunlar fərqlənir:

- Nyu-York Fond Birjası (New York Stock Exchange);
- Amerika Fond Birjası (American Stock Exchange - ASE yaxud AMEX);
- NASDAQ (National Association of Securities Dealers Automated Quotation);
- Tokio Fond Birjası (Tokyo Stock Exchange);
- London Fond Birjası (London Stock Exchange);
- Alman Birjası (Deutche Boerse);
- Avropa Birjası (Euronext);
- Frankfurt Fond Birjası (Frankfurter Westpapierboerse);
- Paris Fond Birjası (Paris Stock Exchange).

*Beynəlxalq birjaların özəllikləri.* Beynəlxalq birjaların fəaliyyət göstərdiyi ölkələrdə milli birjaların ümumi sayının xeyli azalması, bəzilərində isə birləşmə prosesi nəticəsində ticarəti aparılan hər mal üzrə yalnız bir birjanın fəaliyyət göstənnəsi qanunauyğunluğu müşahidə edilir.

Əlamətdardır ki, «həlledici» yaxud «möhkəm» valyutası olan ölkələrin heç birində ixtisaslaşmış valyuta birjası yoxdur. Valyuta bazarı müstəsna olaraq banklararası xarakter daşıyır. Xarici valyuta üzrə fyuçers, opsion və başqa müddətli müqavilələr müvafiq ixtisaslaşmış fyuçers yaxud opsion birjalarında yayılmışdır. Buna görə də gələcəkdə inkişaf etmiş ölkələrdə beynəlxalq birja deyildikdə, fyuçers və opsion birjaları nəzərdə tutulacaq. Hazırda yüksək dərəcədə inkişaf etmiş birja valyuta bazarı yalnız Almaniyada fəaliyyət göstərir. XXI əsrin əvvəlində dünyada lOO-dək iri birja (əmtəə birjalarından başqa) mövcud idi və onlardan 55-i dünya bazarları siyahısına daxil edilmişdi. Onların əksəriyyəti ABŞ-da (13), Yaponiyada (9) və Almaniyada (9) yerləşirdi. İlk növbədə aşağıdakı birjalar qeyd olunmalıdır:

- Çikaqo Opsionlar birjası (Chicago Board Exchange);
- Nyu-York Fyuçers Birjası (New York Futures Exchange);
- London Beynəlxalq Maliyyə Fyuçersləri və Opsionları Birjası (London International Financial Futures and Potions Exchange);
- Alman Müddətli Kontraktlar Birjası (Deutsche Termin Boerse);

- Paris Opsionlar Birjası (Marche des Potins Negotiables de Paris);
- Sinqapur Beynəlxalq Valyuta Birjası (Singapore International Monetary Exchange).

***Açıqlama. Beynəlxalq birjalar*** daimi fəaliyyət göstərən topdansatış bazarının xüsusi növüdür. Müxtəlif ölkələrin işgüzar dairələrinin nümayəndələri onun üzvü ola bilər. Burada alqı-satqı obyektlərinə çevrilən müəyyən mallar üzrə müvafiq əqdlər bağlanılır.

Beynəlxalq birjaların fəaliyyətinin möhtəkirlik cəhətləri xüsusi əhəmiyyətə malikdir. Reuters, Dow Jones Telerate yaxud Bloomberg kimi birjadankənar elektron sistemlərindəki kimi aşkar ifadə olunmasa da, beynəlxalq birjaların fəaliyyəti ilə möhtəkirlik əməliyyatları arasında birbaşa asılılıq mövcuddur. Beynəlxalq möhtəkirlər yüksək gəlirli və eyni zamanda etibarlı investisiya alətləri üçün, sözün əsil mənasında, ova çıxmışdır. Birja bazarları məhz yüksək etibarhğı ilə fərqlənməsi sayəsində ehtikarçı əhval- ruhiyyəli investorların böyük məbləğdə pul vəsaitlərini cəlb edə bilir. Bu sahədə İnternet ildırım sürətli əməliyyatlar aparılmasının aləti kimi böyük əhəmiyyət kəsb edir.

## 21.5. Nyu-York Fond Birjası (NFB)

Əməliyyatlarının miqyasına görə birinci yer tutan Nyu-York Fond Birjası (NYSE -New York Stock Exchange) 1871-ci ildə yaradılmışdır. Birja özünün indiki adını 1863-cü ildə almışdır. Uzun müddət ərzində könüllü assosiasiya olan NFB 1972-ci ildən üzvlərinin mülkiyyətində olan qeyri-kommersiya korporasiyasıdır. 1953-cü ildən etibarən NFB-nin üzvlərinin sayı dəyişməz - 1366 qalır. Birjanın üzvü olmaq üçün burada qiyməti tələb və təklifdən asılı olaraq dəyişən konkret yer almaq lazımdır. Birjadakı yerlərin təqribən ⅓ hissəsi icarəyə götürülür. NFB-nin üzvləri fiziki şəxslərdir. Nizamnaməsinə uyğun olaraq, əməkdaşı birjanın üzvü olan istənilən fınna NFB-nin assosiasiya olunmuş üzvü ola bilər.

NFB-də ticarətə yalnız listinqdən keçən qiymətli kağızlar buraxılır. Avropa ölkələrinin birjalarından fərqli olaraq, burada «ikinci» və «üçüncü» siyahı yoxdur. NFB-də ticarət aparılmasına icazə verilmiş bütün qiymətli kağızlara dair vahid tələblər müəyyən edilir. ABŞ-m və dünyanın başqa ölkələrində fəaliyyət göstərən birjalarla müqayisədə NFB-də listinqə dair tələblər çox sərtdir. Məsələn, qiymətli kağızlarla ticarətə yalnız müvafiq növ

üçün ayrılmış yerdə müvafiq ticarət postunda icazə verilir. Ümumilikdə 16 belə post mövcuddur. Hər bir ticarət postunda bir neçə onluq səhm təhkim olunmuşdur.

## 21.6. Amerika Fond Birjası (AFB)

Amerika Fond Birjası (AMEX - American Stock Exchange) - həcminə görə ABŞ-m ikinci fond birjasıdır və bu ölkədə satılan səhmlərin təqribən 1/10 hissəsi burada dövriyyədədir. AFB-nin qədim ənənələri mövcuddur: o, açılan zaman brokerlər səhmləri almaq yaxud satmaq üçün küçədə toplaşırdılar. Onun «curb exchange»' adı da buradan yaranmışdır. Əqdin bağlanılması barədə klerkə məlumat vennək üçün əl ilə işarə verilirdi. AFB qapalı məkana yalnız XX əsrin əvvəlində köçmüşdür.

Birja əməliyyatları yalnız birjada kotirovka olunan və onun direktorlar şurasının tələblərinə cavab verən şirkətlərin səhmləri ilə aparılır. Səhmləri AFB-də kotirovka olunan şirkətlərin əksəriyyəti kiçik müəssisələrdən ibarət olduğuna görə, Amerika Fond Birjasının tələbləri Nyu-Yorkdakı ilə müqayisədə mötədildir. AFB-də səhmlərinin birja dövriyyəsi kifayət qədər olan, maraq göstərən investorlara infonuasiya verən şirkətlər qeydiyyatdan keçir. Şirkətlər hər il maliyyə hesabatlarını, hər rüb mənfəət və ziyanları barədə hesabatlarını birjaya təqdim etməli, öz əməkdaşlarının fmuanın səhmləri ilə apardıqları əməliyyatları məhdudlaşdırmalıdır. Bəzi şirkətlərin səhmləri bir neçə birjada qiymətləndirilir. Müəyyən səhmlərə maraq zəifləyirsə, onlar birja kotirovkasmdan çıxarılır.

Fond birjasının ərazisində yalnız onun üzvü olan fınualarm səhm almaq yaxud satmaq ixtiyarı var. Birja üzvü olan firmalar qiymətli kağızları özünə yaxud müştərilərisi üçün alır yaxud satır. Birja üzvlərinin əksəriyyəti broker firmalarıdır. Birja üzvləri müxtəlif rol oynayırlar. Birincisi, onlar səhmləri özlərinin qiymətli kağızlar portfeli üçün alan yaxud satan birja dilerləri ola bilər. İkincisi, onlar müştəridən yaxud fond birjasında işləməyən başqa brokerlərdən aldığı komissiya mükafatı müqabilində müqavilələr bağlayan brokerləri səhmlərlə təchiz edirlər. Birja üzvlərinin bəzisi müəyyən növ səhmlər üzrə, digərləri isə qiymətli kağızların kiçik partiyaları üzrə ixtisaslaşır.

^ ingilis dilində "curb exchange» "səki qırağında birja» deməkdir (*Рубцов Б.В.* Зарубежные фондовые рынки. М., 1996).

## 21.7. Beynəlxalq fond birjaları

Qeyd edək ki, NFB və AFB beynəlxalq fond birjalarıdır. Milli fond birjaları ilə müqayisədə, beynəlxalq fond birjaları daha mühüm rol oynayır. Onlar, yerləşdikləri ölkənin milli maliyyə bazarlarını tənzimləyən orqan olmaqla yanaşı, beynəlxalq təsərrüfat əlaqələrinin inkişafının fonnalarım, istiqamətlərini və xarakterini müəyyənləşdirən təşkilatlardır. Biz 1990-cı ildə dünya üzrə kapitalın hərəkət miqyasının əmtəə dövriyyəsi həcmindən on dəfələrlə çox olduğunu qeyd etmişik. Bu vəsaitlərin böyük hissəsi beynəlxalq fond birjalanndan keçir. Belə ki, sonuncu onillikdə ÜDM-də qiymətli kağızlarla aparılan əməliyyatların payı ABŞ-da 9%-dən 93%-dək, Almaniyada 8%-dən 58%-dək, Yaponiyada 7%-dən 119%-dək artmışdır. Son bir neçə il ərzində bu meyil ümumdünya böhranmadək yalnız güclənmiş, həmin vaxt isə bir qədər səngimişdir. Maliyyə mərkəzlərinin qloballaşmasının sürətləndiyi şəraitdə bir be3məlxalq fond birjasında kotirovkanm hətta cüzi dəyişməsi belə, dərhal başqalarında öz əks-sədasını tapır, müvafiq təlatümlər doğurur. Xatırladaq ki, qlobal böhran da ilk növbədə 2008-ci ildə Nyu-York Fond Birjasında başlamışdı. Mütəxəssislər ümumilikdə götürüldükdə, beynəlxalq fond birjalarında milli birjaların bütün xüsusiyyətlərinin ehtiva olunduğunu qeyd edirlər. Buna baxmayaraq, milli birjanın beynəlxalq birja qismində təsnifləşdirilməsi üçün onun 3 əsas şərtə uyğun olması zəruridir:

- xarici kapital üçün əlçatanhğınm təmin edilməsi;
- birja əməliyyatları nəticəsində əldə olunan mənfəətin ölkədən çıxarılmasına təminat verilməsi;
- çox zaman ehtikarçıhq xarakteri daşıyan arbitraj əqdlərinin bağlanması.

Aparıcı ölkələrdə fəaliyyət göstərən əsas milli birjalar bu meyarlara cavab verir.

## 21.8. Tokio Fond Birjası (TFB)

Tokio Fond Birjasının (TSE - Tokyo Stock Exchange) əsası 1878-ci ildə qoyulmuş və İkinci Dünya müharibəsinədək mənfəət əldə etmək məqsədi güdən kommersiya təşkilatı olmuşdur. Yalnız 1949-cu ildə dünya ticarətinin vəziyyəti və dünya iqtisadiyyatında Yaponiyanın mövqeyi nəzərə alınmaqla, fəaliyyət şəraiti və ticarət prosedurları əhəmiyyətli dərəcədə dəyişməyə

başlamışdır.

Birjanın nizamnaməsinə uyğun olaraq, hazırda yalnız 124 hüquqi şəxs: broker-diler firmaları TFB-nin üzvüdür. Bunlardan 123 fınna birjanın müntəzəm üzvü, biri isə saytoridir. Bütün fınualar birjada öz əməkdaşı ilə təmsil olunur. «Müntəzəm» üzvlər broker-diler əməliyyatlarını, saytori isə «müntəzəm üzvlər» arasında vasitəçilik əməliyyatlarını həyata keçirir. Saytoriyə öz hesabına əməliyyat apannaq qadağan olunmuşdur. Ölkədə qiymətli kağızlarla aparılan əməliyyatların 80%-dən çoxu TFB-nin payına düşür. Məsələn, 2008-ci ildə burada 3000-dən artıq müxtəlif emitentin səhmi listinqə daxil edilmişdi.

TFB-də tiearətin əsas metodu açıq ikiqat hərrae - «birja izdihamından» «səs vasitəsilə» ticarətdir. Açılış məzənnəsi saytori tərəfindən kağızların alınması və satışı üçün toplanmış sifarişlər əsasında «yaylım atəşi» metodu ilə müəyyənləşdirilir. Sifarişlər birjaya onun üzvü olan formaların kontorlarından telefon yaxud kompüterlərin terminalları vasitəsilə daxil olur və sonra fınnalarm ticarət zalında işləyən əməkdaşlarına ötürülür. 1990-cı ildən TFB-də saytori tərəfindən icra olunan xırda sifarişlərin (2001-ci ilin əvvəlində 6000 səhmə qədər) avtomatik ötürülməsi sistemi fəaliyyət göstərir.

TFB təsbit olunmuş komissiya haqlan prinsipini qoruyub saxlamış azsaylı iri fond birjalarından biridir. Komissiya haqqının dərəcəsi əqdin məbləğindən asılıdır və 10 növə bölünür. 1,15% maksimum dərəcə əqdin məbləği 1 milyon iyenadan az olduqda, minimum 0,075% + 785 min iyena isə əqdin məbləği 1 milyard iyenadan çox olduqda, tətbiq edilir. Ancaq bu sahədə də dəyişikliklər baş verir. 1994-cü ildə iri əqdlər üzrə təsbit olunmuş komissiya haqları ləğv edilmişdir; 1998-2007-ci illərdə komissiya haqları sistemi yaranan konyunktura müvafiq olaraq əhəmiyyətli dərəcədə dəyişdirilmişdi.

1980-1990-cı illərdə qəbul olunan qərarlar nəticəsində TFB xarici broker-diler finnalannm fəaliyyətinə qadağaları aradan qaldırsa da, 1990-cı illərin ortasında onun ümumi dövriyyəsində həmin fınnalarm payı 6%-dən yüksək olmamışdı. Buna baxmayaraq, qlobal maliyyə şəbəkələrinin kanalları vasitəsilə dünyanın müxtəlif ölkələrinə istiqamətlənən nəhəng həcmdə kapitalların burada cəmləşməsinə görə, TFB-nin beynəlxalq fəaliyyətinin miqyası əhəmiyyətlidir. Ehtimal ki, dünya iqtisadiyyatında depressiyanın aradan qaldırılması müddətinin uzanması nəzərə alınmaqla, gələcəkdə TFB-nin əhəmiyyəti xeyli güclənəcəkdir.

## 21.9. London Fond Birjası (LFB)

London Fond Birjası (LSE - London Stock Exchange) 1773-cü ildə təşkil olunmuşdur. 1802-ci ildə qəbul olunan qaydalar 1986-cı ilədək, demək olar ki dəyişiklik aparılmadan qüvvədə olmuşdur. 1986-cı ilin noyabrında əvvəllər assosiasiya olmuş LFB özəl şirkətə çevrilmişdir. Onun səhmdarları hərəsinin 1 səsi olan broker-diler firmalarıdır. 1990-cı illərin sonunda birjanın üzvlərinin sayı 1270-dən artıq olmuşdu. İkinci Dünya müharibəsindən sonra ingilis fond birjalarının inteqrasiyası prosesində onların hamısı LFB-nin regional bölmələrinə çevrilmişdir. 1986-cı ilədək London birjasının üzvləri qəti surətdə brokerlərə və cobberlərə bölünürdü. Birincilər əməliyyatları yalnız komissiya haqqı müqabilində yerinə yetirir, ikincilər isə müştərilərin agent tapşırıqlarını yerinə yetirmək hüququ olmayan diler idi. Birjanın üzvü ortaqhq şəklində birləşən fiziki şəxslər ola bilər. Komissiya haqları təsbit olunmuşdu, səhmlərlə ticarət «səslə», ticarət zalında aparılırdı.

Son 2 onillikdə baş verən, «böyük silkələnmə» adını almış mühüm dəyişikliklər nəticəsində qiymətli kağızlarla bağlanılan əqdlər üzrə komissiya haqlarının təsbit olunması, birja üzvlərinin broker və cobberlərə bölgüsü ləğv edilmişdir. Elektron sistem əsasında yeni ticarət sisteminə keçid son dərəcə mühüm hadisə olmuşdur. Bu dəyişikliklər birjada səs hüququnun təkamül yolu ilə fiziki şəxslərdən korporasiyalara keçməsini möhkəmləndirmişdir. London Fond Birjasının tərkibinə firma və təşkilatların aşağıdakı qrupları daxildir:

- broker-diler fımraları. Onlar əqdləri öz hesabına icra etsələr də, qiymətli kağızların alqı-satqısı üzrə investorların tapşırıqlarını yerinə yetirirlər. Bu firmaların bəzisi yalnız bir, broker yaxud diler rolunda çıxış edir;
- market-meyker firmaları. Bu firmalar birjanın üzvüdür və iş günü ərzində müəyyən qiymətli kağızları kotirovka etməlidir; onlar birjada yerinə yetirilən bütün əməliyyatlarda mərkəzi yer tuturlar;
- broker-dilerlər. Onlar «giltlər» üzrə vasitəçi rolunda çıxış edir;
- fond birjasının pul brokerləri. Bunlar birjanın başqa üzvlərinə pul vəsaitlərini borca vennək hüququ olan birja üzvləridir. Fond birjasında öz «taxçasına» malik olmaqla, onlar burada mühüm rol oynayır.

Qiymətli kağızlar üzrə beynəlxalq birja dövriyyəsinin Ya hissəsinin, o cümlədən Avropada səhmlərlə aparılan beynəlxalq əməliyyatların 90%-dən

çoxunun London Fond Birjasının payına düşməsi faktı burada həyata keçirilən maliyyə əməliyyatlarının miqyası haqqında təsəvvür yaradır.

## 21.10. London Beynəlxalq Maliyyə Fyuçersləri Birjası (LBMFB)

London Beynəlxalq Maliyyə Fyuçersləri Birjası (LIFFE - London International Financial Futures and Options Exchange) 1982-ci ildə yaradılmış və ABŞ ərazisində yerləşməyən ilk maliyyə fyuçersləri birjası olmuşdur. LBMFB-nin 215 üzvü arasında maliyyə qurumlarının, sənaye qruplarının nümayəndələri, habelə fiziki şəxslər - öz hesabına ticarət edən təcrübəli treyderlər vardır. Bu birja tipik beynəlxalq birjadır: onun üzvlərinin 30%-i ingilis firmalarıdır, 1990-cı illərin ortasında isə təqribən 60%-i Avropanın, ABŞ-m, yapon şirkətlərinin payına düşürdü. Hazırda Qərbi Avropa firmalarının payı xeyli artmış, ABŞ fınnalarınm payı isə əvvəlki səviyyədə qalmışdır. 1998-ci ildə birjada hər gün təqribən 850 min müqavilə satılır, əsrimizin ilk onilliyində isə ticarətin həcmi hər il təxminən 50% artırdı.

Birjada ticarətin əsas metodu treyderlər və market-meykerlər arasında xüsusi «birja çalalarında» «səs» və əllə verilən standart işarələr vasitəsilə əqdlərin bağlanmasıdır. Hər bir «çalanın» yanında nizam-intizama riayət olunmasına nəzarət edən və mübahisə yarandığı halda münsif rolunu oynayan birja nümayəndəsi var. Opsionlarla ticarətdə market-meykerlər də iştirak edir və onlar cavabdeh olduqları opsionlara daimi nəzarət öhdəliyi götürürlər. Onlar bu opsionlar üzrə broker qismində, yəni komissiya haqqı əsasında iştirak edə bilməz. Başqa opsionlar üzrə isə onlar üçün qadağan yoxdur. Birjanın digər iştirakçıları əqdləri broker, diler qismində yerinə yetirə, opsionları müstəqil qiymətləndirə bilər.

Bütün əqdlər üzrə hesablaşmaların London Klirinq Palatası (LCH - London Clearing House) vasitəsilə aparılması iştirakçılara əks-müqavilə bağlamaqla, real göndəriş həyata keçirmədən və aldığı maliyyə alətlərinə görə tam məbləği ödəmədən oyundan çıxmaq imkanı yaradır. Başqa sözlə, müqavilənin iştirakçısı istənilən anda özünün uzun yaxud qısa mövqeyini bağlaya bilər.

## 21.11. Birja fəaliyyətini tənzimləyən beynəlxalq təşkilatlar

Bu sahədə fəaliyyət göstərən əsas təşkilatlar aşağıdakılar aiddir:

• Fond Birjalarının Beynəlxalq Federasiyası (FIBV - International Federation of Stock Exchanges). Təşkilat əlaqələndirmə və vahid standartların hazırlanması ilə məşğul olur. Dünya üzrə kapitallaşdırılmış maliyyə vəsaitlərinin 98%-i Federasiya üzvlərinin payına düşür;

• Qiymətli Kağızlar üzrə Komissiyalann Beynəlxalq Təşkilatı (lOSCO - International Organization of Securities Commissions). Təşkilatın üzvləri fond bazarlarının iştirakçısı olan ölkələrin müvafiq (tənzimləmə) orqanlarıdır. Bu təşkilat əlaqələndimıə, əməkdaşlıq və qarşılıqlı təcrübənin öyrənilməsi əsasında işin təkmilləşdirilməsi imkanlarını da öyrənir;

• Beynəlxalq Fond Bazarları İştirakçılarının Assosiasiyası (ISMA - International Securities Market Association). Bu Assosiasiya beynəlxalq avroistiqrazlar bazarını tənzimləyən demək olar ki, yeganə təşkilatdır; peşəkar iştirakçılardan, ilk növbədə, ən iri transmilli bankların nümayəndələrindən ibarətdir.

• Fyuçers Bazarlarının Beynəlxalq Assosiasiyası (FIA - Futures Industry Association). Bu təşkilat da müvafiq milli, regional və qlobal bazarlarda birja fəaliyyətinin tənzimlənməsində mühüm rol oynayır.

Tənzimləmə barədə danışılarkən nəzərə alınmalıdır ki, beynəlxalq təşkilatların fəaliyyəti əsasən tövsiyə və məsləhətvermə xarakteri daşıyır. Məsələn, onlar tərəfin-dən birjaların cari fəaliyyəti barədə kompleks hesabatlar və beynəlxalq standartlar hazırlanır, nəzəri tədqiqatlar aparılır. Milli, xüsusilə də dövlət tənzimləmə orqanları-nm rolunun nisbətən zəifləməsi, maliyyə tənzimləməsi sahəsindən «dövlətin getməsini» ifadə etməsə də, beynəlxalq birjaların rolunun güclənməsinin sübutudur. Burada əsasən tənzimləmənin yeni formaları və dövlətin funksiyalarının optimallaş-ması, onun birbaşa təsir formalarının millətüstü və qlobal tənzimləmə elementlərinin gücləndirilməsi yönümündə dolayı formalannm universallaşması nəzərdə tutulur.

## 21.12. Birja indeksləri

Səhmlərin məzənnələrinin dinamikasının operativ qiymətləndirilməsi və proqnozlaşdırılması, çoxsaylı emitenti olan qiymətli kağızlar bazarları üzrə

məlumatlardan istifadənin sadələşdirilməsi məqsədilə, fond birjalarında qiymətlərin hərəkətinin ümumiləşdirici göstəriciləri olan fond indekslərindən istifadə edilir. Məsələn, Nyu-York Fond Biıjasmda 5000-dən çox emitentin, London Fond Birjasında 4000-dən çox milli səhmdar cəmiyyətinin, Tokio Fond Birjasında 3000-dən çox milli şirkətin, Frankfurt Fond Birjasında 2500- dən çox emitentin qiymətli kağızları dövriyyədədir. İndeks müəyyən sayda səhmin qarışıq məzənnəsini göstərməklə yanaşı, iqtisadiyyatın vəziyyətini əks etdirir. İndeksin artım meylinin dayanıqlı olması ölkə iqtisadiyyatının yüksəlişini bildirir, indeksin aşağı düşməsi isə iqtisadiyyatda yaxud onun hər hansı sektorunda mənfi təzahürlərin baş verməsinin əlamətidir. İndekslər müəyyən şirkətlərin bazardakı vəziyyəti daha dəqiq əks etdirən səhmlərinin məzənnə dəyərinin orta kəmiyyətini ifadə edir.

Ən qocaman, nüfuzlu və geniş yayılmış fond indeksi *Dou-Cons* indeksidir *(DJl - Dow Jones Index).* Bu indeks Nyu-York Fond Birjasının səhmlərinin qiymətlərini əks etdirir. Onun bir neçə növü var. *Sənaye Dou-Cons indeksi* səhmləri Nyu-York Fond Birjasında kotirovka olunan 30 ən böyük sənaye şirkətinin səhmlərinin məzənnəsinin hərəkətinin sadə orta göstəricisi kimi hesablanır (qiymətli kağızların məzənnə dəyərinin 20%-i). Bu indeks bazar fəallığının göstəricisidir, onun tərkib hissələri isə' ən böyük korporasiyaların ABŞ iqtisadiyyatında və onun bazarlarında tutduğu mövqedən asılı olaraq dəyişir. İndeks birjanın bağlandığı anda şirkətlərin listinqə daxil edilmiş səhmlərinin qiymətlərinin toplanılması nəticəsində alınan rəqəmin bazar dövriyyəsində olan səhmlərin sayma bölünməsi yolu ilə hesablanır. *Nəqliyyat Dou-Cons indeksi* 20 nəqliyyat şirkətinin (hava, dəmir yolu, avtomobil nəqliyyatı) səhmləri üzrə qiymətlərin hərəkətini xarakterizə edir. *Kommunal Dou-Cons indeksi* qaz və elektrik təchizatı sahəsində fəaliyyət göstərən 15 şirkətin səhmləri əsasında hesablanır. *Mürəkkəb Dou-Cons indeksi* 65 (30+20+15) sənaye, nəqliyyat və kommunal sahələri şirkətlərinin indeksləri əsasında müəyyən olunur. Bütün digər indekslər Dou-Cons göstərieisinə cavab reaksiyası verdiyinə görə dünya və regional birjalardakı səhmdarlar onun hərəkətini diqqətlə izləyir.

*NASDAQ* (National Association of Securities Dealers Automated Quotation) elektron birjasının indeksi də sürətlə genişlənir.

*«Financial Times» qəzetinin fond indeksi (FT-SE 100)* - London Fond birjasında kotirovka olunan 100 ən mühüm səhmin qiymətlərinin indeksidir.

indeks 1984-cü ildən, sənaye müəssisələrinin sadə səhmlərinin fond indeksinin emal sənayesi tərəfə həddən artıq yönəldiyinə görə 1000 bazası əsasında tətbiq olunmağa başlamışdır. «Financial Times» qəzeti tərəfindən dərc olunan bu indeks, hazırda səhmlərin qiymətlərinin ən çox sadalanan göstəricisinə çevrilmişdir.

## Xülasə

• Dünya iqtisadi sisteminin fəaliyyətini təmin edən ümumdünya maliyyə sistemi onun qloballaşmaya daha çox məruz qalan seqmentidir. Meqa və makroiqtisadi sabitlik maliyyə bazarlarının genişlənməsi, kapitalların beynəlxalq hərəkəti, milli korporasiyaların və maliyyə qurumlarının ölkə xaricinə çıxması və s. üçün zəmin yaradır. Eyni zamanda dünya maliyyə sisteminin və onun sektorlarının dayanıqlı inkişafı dünya iqtisadiyyatının uzunmüddətli və sabit artımının baza amili qismində çıxış edir. Beynəlxalq banklar və maliyyə mərkəzləri bu sistemin «aparıcı konstruksiyalarıdır». Əvvəl belə hesab olunurdu ki, mühitin dəyişməsinə adekvat reaksiya vermək imkanı yaradan qiymətli kağızlar bazarına - törəmə maliyyə alətlərinin birja bazarına xüsusi çeviklik məxsusdur. Derivativlərin nəhəng kütləsi dünyada maliyyə sabitliyinin təməlinin dağılmasına və 2008-2010-cu illərin qlobal böhranının geniş miqyasda yayılmasına təsir göstərdiyinə görə, bu rəy neqativ istiqamətdə sürətlə dəyişmişdir. Müasir informasiya vasitələrinin birjaların fəaliyyətinə tətbiq olunması onların ənənəvi strukturlarına keyfiyyət dəyişiklikləri gətirir, birjalar və müştərilər arasındakı münasibətləri təkmilləşdirir. NASDAQ tipli elektron birjadankənar təşkilatlar qocaman ənənəvi birjaların üzərinə hücuma keçərək, onların texnoloji və təşkilati cəhətdən müasirləşməsini sürətləndirir.

• Böyük həcmdə maliyyə resurslarını cəmləşdirərək (xüsusilə maliyyə mərkəzlərində), kreditləşmə məqsədlərinə yönəldən iri milli və beynəlxalq fond bazarlarının rolu əhəmiyyətli dərəcədə artır. Bir tərəfdən, fond bazarlarının ixtisaslaşması, digər tərəfdən isə maliyyə bazarlarının beynəlmiləlləşməsinin, müasir kompüter və telekommunikasiya texnologiyalarının inkişafının təbii nəticəsi kimi, onların unifikasiyası meylləri güclənir. Bu, fond birjalarından rəqabət mübarizəsinin yeni şərait nəzərə alınmaqla gücləndirilməsini tələb edir və müvafiq olaraq, onların fəaliyyətinin formaları və metodları arasındakı fərqləri hamarlayır.

• Müasir dövrdə fond birjalarının inkişafına təsir edən əsas amillər göstərilən xidmətlərin dəyərinin aşağı salınması, rəqabətə mane olan sərhədlərin və əngəllərin aradan qaldırılması, birjaların idarəçiliyində islahatların aparılması, ticarətin təşkilinin yeni texnologiyalarının və mexanizmlərinin tətbiqidir (bu halda həmin birjalarda fırıldaqçılıq elementi də güclənir). Fond birjalarının fəalİ3^ətinin kommersiya yönümünün güclənməsi və alternativ özəl ticarət sistemlərinin yaradılmasını birja idarəçiliyində aparılan islahatlara aid etmək olar. Stokholmun, Helsinkinin, Kopenhagenin, Amsterdamın, İtaliyanın, Avstraliyanın, Afinanın və s. fond birjaları bu cür transformasiya olunaraq, 1990-cı illərdə və XXI əsrin ilk illərində səhmdarlaşmaya məruz qalmışdır.

• Fond bazarları alyansların yaradılması, birləşmələr və qovuşmalar, kooperasiya, elektron ticarət sistemlərinin yayılması ilə xarakterizə olunan dövrə qədəm qoymuşdur. Ənənə üzrə ticarətin zal və «səsli» hərrac (open outcry) rejimindən istifadə edən birjalar tədricən ticarətin elektronlaşması üzrə qərar qəbul edir (məsələn, SVOP, EUREX ilə danışıqlarda, Pacific Exchange ilə kooperasiya planlarının müzakirəsində və s.). Analoji proseslər Avropada da gedir: məsələn, Frankfurt - London alyansının (Deutche Boerse and London Exchange). Güman ki, tezliklə Amsterdam, Brüssel, Madrid, Milan, Paris və Sürixin fond birjaları da bu ittifaqa qoşulacaq.

• Əməliyyatlarına görə bənzər olan maliyyə idarələrinin inteqrasiyası prosesi də genişlənir. Bu cür qoA/uşmalar (və ya alyanslar) fond birjalannm ənənəvi funksiyalarının universallaşmasma xidmət edir. Mütəxəssislər Amsterdam Fond Birjasım, Avropa Opsion Birjasını və Depozitarisini vahid holdinq çərçivəsində birləşdirmiş Amsterdam Birjasını nümunə göstərirlər. Bu qovuşma nəticəsində bazar iştirakçılarına xidmətlər kompleksi təklif edən birja xarakterli güclü beynəlxalq infrastruktur təşkilatı yaranmışdır.

• Ümumilikdə, birjaların inkişafında 2 meyillə bağlı olan köklü dəyişikliklər baş verir. Birincisi, ümumdünya qlobal meyildir və dövlətlərin maliyyə qurumları arasındakı fərqlərin hamarlanmasına və unifıkasiya olunmasına aparır. İkincisi, Aİ ticari-iqtisadi bloku çərçivəsində baş verən proseslərlə bağlıdır: iştirakçı-ölkələr bilavasitə millətüstü orqanlar tərəfindən vacib hesab olunan dəyişiklikləri həyata keçirir. Hər iki meyil bir tərəfdən, maliyyə sistemlərinin eyniləşməsinə, digər tərəfdən isə onların funksiyalarının universallaşmasma, maliyyə alətlərinin müxtəlifləşməsinə, bir ölkədən digərinə

maliyyə alətləri ilə bərabər, tənzimlənməsinə ehtiyac olan problemlərin də ötürülməsinə səbəb olur.

• Ənənəvi maliyyə mərkəzləri - ABŞ, Qərbi Avropa və Yaponiya artmaqda olan yeni maliyyə mərkəzləri, ilk növbədə, Cənub-Şərqi Asiyadakı (əsasən Çində) ilə birlikdə dünya iqtisadiyyatının önəmli ehtiyaclarının ödənilməsinə xidmət göstərir. Dünyanın məhz bu regionlarında fəaliyyət göstərən milli, regional və beynəlxalq birjalara ən böyük dinamizm xasdır.

• 2008-2010-cu illərin ümumdünya maliyyə-iqtisadi böhranı dünya malİ3^ə sisteminin əsas qurumlarında əhəmiyyətli dəyişikliklərin aparılmasının zəruriliyini sübut etdi.

## Yoxlama sualları

1. Dünya qiymətli kağızlar bazarının strukturu necədir?
2. İstiqrazlar bazarının və beynəlxalq istiqrazlar bazarının fəaliyyətini izah edin.
3. Birja nədir; anlayışı, təkamülü.
4. Valyuta və fond birjalarının təhlilini verin. Birjada hansı əməliyyatlar aparılır? Fond bazarı və fond birjası nədir? Onlar hansı funksiyaları yerinə yetirir? Birja hərracının mahiyyətini izah edin. Fond birjalarında hansı əqdlər yerinə yetirilir?
5. ABŞ-m, Aİ dövlətlərinin, Yaponiyanın, Çinin fond bazarlarının müqayisəli təhlilini aparın.
6. Beynəlxalq birjaların fəalİ5^ətinin özəllikləri nədədir? Nyu-York, Tokio, London fond birjalarının, NASDAQ-m, Euronext-in, London beynəlxalq maliyyə fyuçersləri birjasının fəaliyyətində özəl cəhətlər varmı?
7. Birja fəaliyyətini tənzimləyən beynəlxalq fond əməliyyatları necə yerinə yetirilir?
8. Birja indekslərinin əhəmiyyəti nədədir?
9. İnkişaf etməkdə olan və iqtisadiyyatı transformasiya olunan ölkələrdə səhmlər və istiqrazlar bazarlarının formalaşmasının xüsusiyyətlərini izah edin.
10. Hazırda dünya maliyyə bazarlarının vəziyyəti necədir?
11. ABŞ-m dövlət qiymətli kağızlarını və onların dünya bazarlarına təsirini təhlil edin. Bəzi ölkələr onları niyə alır?
12. 2008-2010-cu illərin qlobal böhranı başa çatdıqdan sonra beynəlxalq birja şirkətlərinin fəali}^ətində hansı meyillər güclənməyə başlamışdır?

## Referatlann mövzuları

1. Dünya qiymətli kağızlar bazarı: anlayışı, məzmunu, strukturu
2. Valyuta və fond birjaları - fond bazarı və fond birjaları
3. Milli və beynəlxalq birja qurumlarının inkişafında yeni meyillər

# V Bölmə

# BİM SİSTEMİNDƏ BEYNƏLXALQ TƏŞKİLATLAR

# Fəsil 22

# BEYNƏLXALQ TƏŞKİLATLARIN FƏALİYYƏTİNİN XÜSUSİYYƏTLƏRİ

## 22.1. Beynəlxalq əməkdaşlıq və iqtisadi münasibətlərin beynəlxalq-hüquqi tənzimlənməsi

ölkələr bir-biri ilə ticarət edir, müqavilələr bağlayır, müxtəlif işlərin - mallar və xidmətlərlə ticarətin, obyektlərin inşası yaxud müəssisələrin satın alınması, borclar, kreditlər və s. yerinə yetirilməsinin ümumi qaydaları barədə razılaşmalar əldə edir. Bu hərəkətlərin hamısında - ən sadəsindən başlayaraq, çoxsaylı ölkələrin və şirkətlərin iştirak etdiyi ən mürəkkəbinədək *ikitərəfli* yaxud *çoxtərəfli beynəlxalq iqtisadi əməkdaşlığın mahiyyəti* və *məzmunu* ifadə olunur. Bu cür əməkdaşlıq prosesində çox zaman əsrlər bo}aı təşəkkül tapmış *adətlərə* və *ənənələrə* istinad edən müvafiq *qaydalar* işlənib hazırlanır. Bu qaydalar beynəlxalq hüquq subyektləri arasında bağlanılan *müqavilələrlə* birlikdə beynəlxalq hüququn mənbələrindən biri kimi çıxış edir və *beynəlxalq konvensiyalar* adlandırılır.

***iqtisadi hüquq anlayışı.*** *Beynəlxalq iqtisadi hüquq* dövlətlər və beynəlxalq hüququn başqa subyektləri arasında iqtisadi münasibətlər sahəsində yaranan əlaqələri tənzimləyən prinsiplərin, nonualarm, ümumi qəbul olunmuş qaydaların məcmusudur. Mənbəyi dövlətlərin hökumətləri arasındakı müqavilə bazası ilə yanaşı, BMT və onun təşkilatları tərəfindən işlənib hazırlanmış sənədlər, adət və ənənələr (hərçənd, onlar məhdud rol oynayır və nadir təsadüf edilir) olduğuna görə, iqtisadi hüquq rəngarəng özəllikləri ilə fərqlənir. Məsələn, BMT-nin Baş Məelisinin yaxud onun idarələrinin (UNCTAD) dövlətlər tərəfindən ratifikasiya olunan tövsiyələri beynəlxalq hüququn adi nonuasma çevrilir; qeyd edək ki, ratifikasiya etmədikdə belə, dövlətlər bunları nəzərə almağı üstün tutur. BVF (və Dünya Bankının) malİ3^ə-iqtisadi siyasət sahəsində 1990-cı illərdə qəbul etdiyi tövsiyələr tam mübahisəsiz xarakter daşımasa da, ölkələrin əksəriyyəti tərəfindən milli qanunvericilikdən üstün tutulurdu. Buna görə də müasir BİM sisteminə müəyyən dərəcə təsir göstərən beynəlxalq iqtisadi təşkilatların fəalİ3^ət mexanizmi və xüsusiyyətləri, habelə onların hazırladığı və dövlətlərə ümumi qaydalar kimi təklif etdiyi hüquqi

normalar barədə dəqiq təsəvvürlərə malik olmaq zəruridir.

Bütün ölkələr arasındakı iqtisadi münasibətlərin beynəlxalq tənzimlənməsi iqtisadi hüququn bazasında həyata keçirilir. Beynəlxalq normadan asılı olaraq, bu tənzimləmənin müxtəlif səviyyələri var;

1) ümumi (universal);
2) regional;
3) ikitərəfli.

Universal nonnalar bütün subyektlərin münasibətlərini tənzimləyərək, *ümumi beynəlxalq hüququ* təşkil edir. Beynəlxalq hüquq normalan *dispozitiv* və *imperativ* hissələrə bölünür. Birinci halda beynəlxalq norma ölkənin davranışının ümumu qaydalarını təyin edir, konkret hərəkətlər isə onun özü tərəfindən müəyyənləşdirilir; ikinci halda, yəni imperativ normada dövlət onun tələblərini qeyd-şərtsiz yerinə yetirməlidir. BMT Baş Məclisinin, BMT Təhlükəsizlik Şurasının, BMT-nin Nizamnaməsindən irəli gələn müqavilələri və qətnamələri bunlara aiddir. Dövlətlərin BMT-nin Nizamnaməsinə zidd olan istənilən müqaviləyə istinad etməsinin yaxud imtiyazlarından bəhrələnməsinin qeyri-qanuniliyi ümumi qəbul olunmuşdur. Bu tənzimləmədə beynəlxalq iqtisadi təşkilatların böyük qrupu mühüm rol oynayır.

***BİM-in beynəlxalq tənzimlənməsinin vəzifələri.*** Beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsinin əsas vəzifələri bunlardır:

• dünyanın bütün regionlarında iqtisadi artımın, xüsusilə də konyunktura və xarici siyasi amillərin təsirinə qarşı xüsusi həssaslığını nəzərə alaraq, maliyyə sahəsində sabitliyin və dayanıqlığın təmin edilməsi;

• əməkdaşlığın müxtəlif formaları vasitəsilə ölkələr arasında iqtisadi əməkdaşlığın dəstəklənməsi;

• ticari-iqtisadi əməkdaşlıqda ayrı-seçkiliyin tam aradan qaldırılmasına səy göstərilməsi (məsələn, YTT-nin Dohada (Qətər, 2001-ci il) keçirilən Ticarət raundunun ilkin mərhələsində nəzərdə tutulduğu kimi);

• inkişaf etməkdə olan ölkələrdə və yeni kapitalist ölkələrində özəl sahibkarlığın inkişafına hərtərəfli yardım edilməsi;

• onlara böhranlı vəziyyətlərdən çıxmaq üçün etibarlı hesab edilən metodlarla kömək göstərilməsi;

• ümumdünya iqtisadi əməkdaşlıqda iştirak edən dövlətlərin makroiqtisadi siyasətinin əlaqələndirilməsi. Əvvəlkilər kimi, sonuncu vəzifənin də, sözsüz ki, pozitiv məramı olsa da, real təcrübəyə deyil, sadəlövh-romantik

ümidlərə əsaslanır. Ölkələrin iqtisadiyyatı keyfi]/yət cəhətdən o qədər fərqlənir ki, hələ onilliklər ərzində onlara münasibətdə vahid iqtisadi siyasətin tətbiqi mümkün olmayacaq. Bununla belə, bu cür siyasətin əlaqələndirilməsinin mexanizmini bilmək, təkmilləşdirmək və müasir şəraitə adekvat olan yeni mexanizmləri işləyib hazırlamaq lazımdır.

## 22.2. Beynəlxalq iqtisadi təşkilatların təsnifatı

Dünya təsərrüfatı sistemində tənzimləməni həyata keçirən beynəlxalq iqtisadi təşkilatlar təşkilati prinsipinə görə və çoxtərəfli tənzimləmə sahəsi üzrə təsnifləşdirilir.

Beynəlxalq iqtisadi təşkilatların təşkilati prinsip əsasında təsnifatı onun BMT sistemində iştirak edib-etməməsinə əsaslanır, habelə təşkilatların təmayülü və fəaliyyətinin məqsədlərini nəzərə alır. Bu cür yanaşmada beynəlxalq iqtisadi təşkilatları aşağıdakı qruplara bölmək olar:

- BMT sisteminin beynəlxalq iqtisadi təşkilatları;
- BMT sisteminə daxil olmayan beynəlxalq iqtisadi təşkilatlar;
- regional iqtisadi təşkilatlar.

*Beynəlxalq iqtisadi təşkilatların çoxtərəfli tənzimləmə sahələri üzrə təsnifatı onların aşağıdakı qruplara ayrılmasını nəzərdə tutur:*

- dünya təsərrüfatının tənzimlənməsi sistemində regional iqtisadi təşkilatlar;
- iqtisadiyyat və sənaye sahəsini, dünya təsərrüfatının müəyyən sahəsini tənzimləyən beynəlxalq iqtisadi təşkilatlar;
- dünya ticarətinin tənzimlənməsi sistemində beynəlxalq iqtisadi təşkilatlar;
- sahibkarlıq fəaliyyətinin tənzimlənməsini həyata keçirən beynəlxalq və regional beynəlxalq iqtisadi təşkilatlar;
- beynəlxalq təsərrüfat əlaqələrinin inkişafını dəstəkləyən qeyri-hökumət beynəlxalq təşkilatları.

Yuxarıda göstərilmiş ilk dörd kateqoriyaya daxil olan beynəlxalq və regional iqtisadi təşkilatlar *hökumətlərarası təşkilatlardır* (dövlətlərarası yaxud çoxtərəfli də adlandırılır). Hökumətlərarası təşkilatlardan savayı, təsnifata dünya təsərrüfat əlaqələrinin inkişafını dəstəkləyən qeyri-hökumət iqtisadi təşkilatları və birlikləri də daxil edilmişdir (şəkil 21.1 və 21.2).




*Səkil 22.1.* **Beynəlxalq iqtisadi təşkilatların təşkilati prinsip əsasında təsnifatı"***

■ *герчикова И.Н.* Международные экономические организации. М., 2000. С. 46.

Gördü3aimüz kimi, burada beynəlxalq iqtisadi münasibətlər sistemində həm ümumi, həm də ayrı-ayrı istiqamətlər üzrə əməkdaşlıq və bunun tənzimlənməsinə cəlb olunmuş çoxsaylı beynəlxalq iqtisadi təşkilatlardan söhbət açılacaq.




*Şəkil 22.2.* **Dünya təsərrüfat əlaqələrinin çoxtərəfli tənzimlənməsi sahəsində beynəlxalq iqtisadi təşkilatların təsnifatı***

* *герчикова И.Н.* Указ. соч. С. 47-48.

## 22.3. Beynəlxalq təşkilatların iqtisadi fəaliyyətinin ümumi təsviri

Beynəlxalq iqtisadi təşkilatlar həm əməkdaşlığın, həm də ticarət və iqtisadiyyat sahəsində çoxtərəfli dövlətlərarası münasibətlərin tənzimlənməsinin mühüm alətidir, razılaşdırılmış məqsədləri, daimi orqanları, habelə təşkilati nonnaları, o cümlədən nizamnaməsi, qərarların qəbulu proseduru və s. mövcuddur. Beynəlxalq tənzimlənmədə qarşılıqlı əlaqələndirmə metodları qismində beynəlxalq təşkilatın işləyib hazırladığı və qəbul etdiyi, icrası onun bütün üzvləri üçün məcburi olan qətnamələr və göstərişlər; hökumətlər arasında bağlanılan çoxtərəfli sazişlər; regional və qeyri-hökumət təşkilatları səviyyəsində razılaşmalar və müqavilələr və s. qəbul olunur. Əməkdaşlıq və onun tənzimlənməsi bazarlarda sabitlik və proqnozlaşdırmanın mümkünlüyü rejiminin əldə edilməsi yolu ilə marağı olan ölkələr arasında dünya təsərrüfatı əlaqələrinin daha da inkişaf etdirilməsi üçün ilkin şərtlərin yaradılmasına yönəlmişdir.

Müasir dövrdə iqtisadi əməkdaşlığın çoxtərəfli tənzimlənməsinin əsas istiqamətlərinə bunlar aid edilir;

• marağı olan ölkələr tərəfindən ticari-iqtisadi əlaqələrin müqavilə- hüquqi bazasının, o cümlədən ən mühüm prinsip və normaların yaradılması;

• dünya təsərrüfatı əlaqələrinə ticari-iqtisadi və siyasi təsir vasitələri kompleksinin milli səviyyədə tətbiq olunmasına dair razılaşmaların əldə olunması, iqtisadi siyasətin ayrı-ayrı alətlərindən istifadə edilməsinin çərçivələrinin və imkanlarının müəyyənləşdirilməsi;

• razılaşmaların əldə olunmasına və iştirakçı-dövlətlər, onların birlikləri və qruplaşmaları arasında baş qaldıran mübahisəli problemlərin həllinə şərait yaradan beynəlxalq qurumların yaradılması və daha da inkişaf etdirilməsi;

• ticari-iqtisadi əlaqələrin təşkili sahəsində informasiya və təcrübə mübadiləsi.

Dünyada iqtisadi problemlərin müzakirəsinə və tənzimlənməsinə yüksək və ya aşağı səviyyələrdə cəlb olunmuş 100-dən çox beynəlxalq təşkilat var. Onlar tərkibinə, ölçüsünə, funksiyalarına, habelə dünya təsərrüfatı proseslərinə təsiri baxımından fərqlənir. Beynəlxalq təşkilatları müxtəlif meyarlara uyğun olaraq təsnifləşdirmək mümkündür.

Müasir beynəlxalq təşkilatlar sırasında iki əsas tip fərqlənir: ***hökumətlərarası*** və ***qeyri-hökumət.*** Onların hər ikisinin rolu əhəmiyyətlidir: dövlətlərin həyatın müxtəlif sahələrində ünsiyyətinə, yaxınlaşmasıma və əməkdaşlığına şərait yaradırlar.

Beynəlxalq hökumətlərarası təşkilat beynəlxalq hüquqa müvafiq olaraq yaradılır və hər hansı dövlətin, beynəlxalq ictimaiyyətin maraqlarına toxunmamalıdır. Onun yaradılmasının əsasında ***beynəlxalq müqavilə*** (konvensiya, saziş, protokol və s.) durur. Bu müqavilənin tərəfləri qismində suveren dövlətlər, son vaxtlar isə, həmçinin, hökumətlərarası təşkilatlar çıxış edir.

İstənilən beynəlxalq təşkilatın yaradılmasının məqsədi dövlətlərin müəyyən sahədə səylərini birləşdirməkdir. BMT, demək olar ki, bütün sahələrdə dövlətlərin fəaliyyətini əlaqələndirir və onların arasında vasitəçi kimi çixiş edir. Bəzi hallarda dövlətlər beynəlxalq münasibətlərin ən çətin məsələlərinin müzakirəsini və barəsində qərar qəbul olunmasını onlara həvalə edir. Hər bir beynəlxalq təşkilatın müvafiq təşkilati strukturunun mövcudluğu onun daimi xarakterdə olmasını təsdiqləyir və bununla da, beynəlxalq əməkdaşlığın digər fonnalarından fərqlənir. Beynəlxalq təşkilatın mühüm əlaməti, onun təsis aktında təsbit edilən hüquq və vəzifələrinin olmasıdır. Beynəlxalq təşkilat öz səlahiyyətlərini aşa bilməz.

Beynəlxalq təşkilatların digər tipi hökumətlərarası müqavilələr əsasında təsis olunmayan BQHT-dir. Bu təşkilatlar ən azı bir dövlət tərəfindən tanınmalı, amma fəaliyyətini ən azı iki dövlətdə həyata keçirməlidir. Bu cür təşkilatlar təsisat aktı əsasında yaradılır və hazırda onların sayı 8000-dən çoxdur. BQHT-lər müasir beynəl-xalq münasibətlərin bütün sahələrində fəal rol oynayır, çoxsaylı ölkələrdə işləyir.

İstənilən tip beynəlxalq təşkilat fəaliyyət göstərdiyi sahədə müxtəlif problemlərin həlli məqsədilə yaradılır. İqtisadi və başqa problemlərin həlli üçün hazırda hər il 1000-dən çox konfrans keçirilir. Bu konfranslarda beynəlxalq müqavilələr işlənib hazırlanır və qəbul edilir, sazişlər bağlanır, beynəlxalq münasibətlərin konkret sahəsində əməkdaşlıq prinsipləri müəyyənləşdirilir.

## 22.4. BMT və onun qurumları, əsas funksiyaları və vəzifələri

Həm üzvlük üzrə universallığı, həm də səlahiyyətinə aid olan problemlərə görə, Birləşmiş Millətlər Təşkilatı (BMT) dövlətlərarası tənzimləmə sistemində ən mühüm rol oynayır.

Nizamnaməsinə uyğun olaraq, BMT-nin qarşısındakı məqsədlər bunlardır:

• beynəlxalq sülhü və təhlükəsizliyi dəstəkləmək; sülhün pozulmasına səbəb ola biləcək mübahisələri yaxud vəziyyətləri ədalətlilik və be3məlxalq hüquq prinsiplərinə müvafiq surətdə qaydaya salmaq yaxud həll etmək;

• millətlərin bərabərliyi və müqəddəratını həll etmək prinsipinə hörmət əsasında xalqlar arasında dostluq münasibətlərini inkişaf etdinnək;

• hərtərəfli əməkdaşlığı həyata keçinnək, insan hüquqlarına hörmət və hamı üçün əsas azadlıqlar prinsipləri əsasında iqtisadi, sosial, mədəni və humanitar xarakterli beynəlxalq problemlərin həllinə yardım göstərmək;

• millətlərin qarşıya qoyduğu məqsədlərə nail olunması üçün etdiyi hərəkətlərin əlaqələndirilməsi mərkəzinə çevrilmək.

BMT-nin ixtisaslaşmış qurumları olan BVF və Dünya Bankı qrupu, habelə ÜTT ümumdünya əhəmiyyətli təşkilatlara aiddir. BMT-nin beynəlxalq valyuta-kredit və maliyyə münasibətlərində birbaşa rolu məhduddur.

BMT-nin strukturunda regional iqtisadi komissiyalar (Avropa İqtisadi Komissiyası, Afrika üçün iqtisadi Komissiya, Latın Amerikası və Karib dənizi hövzəsi ölkələri üzrə İqtisadi Komissiya, Asiya və Sakit Okean regionu ölkələri üçün İqtisadi Komissiya və s.), habelə funksional və xüsusi komissiyalar ayrıca blok şəklində təmsil olunmuşdur. Bu təşkilatlardan hər birinin konkret məqsədləri və vəzifələri var və onlar beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsinə real töhfə verir. 2005-ci ilin mayında dünya ictimaiyyəti qlobal inkişaf problemlərinin həllində aparıcı beynəlxalq forum olan BMT-nin 60 illik yubileyini qeyd etmişdir. BMT müasir dünyada əmin- amanlığın bərqərar olmasında böyük rol oynayır. İndi mövcud olan beynəlxalq hüquq normaları ilk dəfə onun Nizamnaməsində təsbit olunmuşdu.

## 22.5. BMT-nIn yaradılması

12 iyun 1941-ci ildə Londonda imzalanmış Bəyannamə Birləşmiş Millətlər Təşkilatının yaradılmasına doğru ilk addım olmuşdur. Bəyannamədə antihitler koalisiyası üzrə müttəfiqlər «həm müharibə, həm də sülh dövründə başqa azad xalqlarla birgə işləmək» öhdəliyini qəbul edirdi. Həmin ilin avqustunda ABŞ Prezidenti F.D.Ruzvelt və Böyük Britaniyanın Baş naziri U.Çörçil Atlantik Xartiyası kimi məşhur olan sənəddə sülhün və təhlükəsizliyin qorunması məqsədilə beynəlxalq əməkdaşlıq prinsiplərinin məcmusunu təklif etdilər. Əlbəttə ki, bu zaman İkinci Dünya müharibəsinin qarşısını ala bilməmiş Millətlər Liqasının təcrübəsi nəzərə alınmışdı. 1942-ci ilin yanvarında «Ox» dövlətlərinə (Almaniya - İtaliya - Yaponiya) qarşı müharibə aparan 26 müttəfiq ölkənin nümayəndəsi Atlantik Xartiyanı dəstəklədiklərini bildirərək, 26 dövlətin Bəyannaməsini imzaladı. Bu sənəddə ilk dəfə rəsmi olaraq. Prezident Ruzvelt tərəfindən təklif edilmiş «Birləşmiş Millətlər» adından istifadə olunmuşdur. Sonra 30 oktyabr 1943-cü ildə Moskvada imzalanmış Bəyannamədə Sovet İttifaqı, Böyük Britaniya, Amerika Birləşmiş Ştatları və Çinin hökumətləri sülhün və təhlükəsizliyin qorunması üçün tezliklə beynəlxalq təşkilatın yaradılmasına çağırdı. Bu məqsəd Amerika Birləşmiş Ştatları, SSRİ və Böyük Britaniyanın rəhbərlərinin 1 dekabr 1943-cü ildə Tehranda keçirilən görüşündə bir daha təsdiqlənmişdi.

BMT-nin ilk konkret cizgiləri Vaşinqtondakı Dumbarton-Oks (Dumbarton Oaks) malikanəsində keçirilən konfransda müəyyənləşdirilmişdi. Məhz bu konfransda BMT-nm fəaliyyətinin əsas prinsipləri ifadə edilmiş, strukturu və funksiyaları müəyyən olunmuşdu. Yalta (Krım) konfransında Ruzvelt və Çörçil Ukrayna SSR-in və Belarusiya SSR-in BMT-də təsisçi dövlət qismində iştirakına razılıq vermişdi (bu addım 1944-cü ildə ikinci cəbhə açılanadək Almaniya ilə təkbətək müharibə apanmş SSRİ-yə hörmət əlaməti idi). Antihitler koalisiyasının rəhbərləri BMT-nin Nizamnaməsinin işlənib hazırlanması üçün 25 aprel 1945-ci ildə San-Fransiskoda Birləşmiş Millətlərin Konfransını çağınnaq qərarına gəldilər.

BMT-nin yaradılması üzrə təsis konfransı 25 aprel - 26 iyun 1945-ci il tarixində ABŞ-da keçirilmişdi. Bu konfransın İkinci Dünya müharibəsi başa çatanadək çağırılması. Yerdə sülhü təmin edə bilən universal dövlətlərarası təşkilatın yaradılması məsələsi üzrə müttəfiqlər arasında qarşılıqlı anlaşma əldə

edilməsinin sübutu idi. BMT-nin Nizamnaməsi rəsmi olaraq 24 oktyabr 1945- ci ildə qüvvəyə mindi və bu tarix onun ad günü hesab olunur.

BMT bəşəriyyətin üzləşdiyi problemlərin həllinin mərkəzi sayılır. BMT-nin fəaliyyəti onunla bağlı olan və sistemini yaradan 30-dan artıq təşkilatla birgə həyata keçirilir.

BMT ümumdünya hökuməti deyil və qanunlar qəbul etmir, amma beynəlxalq münaqişələrin həllinə və bütün bəşəriyyətin mənafelərinə toxunan məsələlər üzrə siyasətin işlənib hazırlanmasına imkan yaradan vəsaitləri verir. BMT-də bütün - həm kiçik və böyük, həm də varlı və yoxsul üzv-dövlətlərin müxtəlif siyasi baxışları və sosial sistemləri var: onlar öz rəyini bildirə və bu prosesdəki səsvennədə iştirak edə bilər.

Birləşmiş Millətlər Təşkilatında 6 əsas orqan vardır. Bunlardan 5-i - Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Qəyyumluq Şurası və Katiblik BMT-nin Nyu-Yorkdakı mərkəzi idarələrində yerləşir. Altıncı orqan - Beynəlxalq Məhkəmə Haaqadadır (Niderland).

BMT-nin fəaliyyətində ümumdünya siyasi məsələlərin həlli ilə yanaşı, iqtisadi aspektlər də mühüm yer tutur və bu, onun iqtisadi funksiyalarının genişlənməsində təzahür olunur. Dünya təsərrüfatının, beynəlxalq iqtisadi münasibətlərin getdikcə daha çox sahəsi onun öyrənilmə, təhlil, problemlərin həll yollarının və vasitələrinin axtarılması, müvafiq tövsiyələrin işlənib hazırlanması predmetinə çevrilir. Ümumdünya iqtisadi münasibətlərində və beynəlxalq əmək bölgüsündə baş verən proseslər mürəkkəbləşdikcə, dünya iqtisadiyyatının problemləri dərinləşdikcə, beynəlxalq iqtisadi əməkdaşlıq genişləndikcə, BMT-nin iqtisadi fəaliyyətinin əhəmiyyəti də artır.

Beynəlxalq, o cümlədən iqtisadi sahədə əməkdaşlığın məqsədləri BMT-nin Nizamnaməsinin 1-ci maddəsində yığcam şəkildə ifadə olunmuşdur; «...iqtisadi, sosial xarakterli beynəlxalq problemlərin həlli sahəsində beynəlxalq əməkdaşlığı həyata keçinnək...». Nizamnamənin IX və X fəsilləri bütövlükdə iqtisadi və sosial əməkdaşlıq məsələlərinə həsr olunmuşdur. Belə ki, 55-ci maddədə BMT çərçivəsində iqtisadi əməkdaşlığın konkret məqsədləri göstərilir: «...sülh və dostluq münasibətlərinin bərqərar olması üçün sabitlik və əmin-amanlıq şəraiti yaratmaq», «...əhalinin‘həyat səviyyəsini yüksəltmək və tam məşğulluğuna nail olmaq», «...iqtisadi, sosial tərəqqi və inkişaf şəraitinin yaradılmasını dəstəkləmək». BMT çərçivəsində beynəlxalq əməkdaşlığın 2-ci maddədə təsbit olunan ümumi prinsipləri bütövlüklə iqtisadi problemlər

sahəsində əməkdaşlığa da şamil olunur.

BMT-nin əsas vəzifələrindən biri daha yüksək həyat standartlarının, tam məşğulluğun təmin olunmasına yardım göstərilməsi, sosial-iqtisadi tərəqqi və inkişaf üçün şərait yaradılmasıdır. BMT sisteminin fəaliyyətinin 70%-i məhz bu məsələlərlə əlaqədardır. Bu fəaliyyətin əsasında, yoxsulluğun aradan qaldırılmasının və insanların rifahının yüksəldilməsinin bütün dünyada sülhün bərqərar olunmasına şərait yaradacağına doğru zəruri addım olduğuna inam durur.

BMT inkişaf məqsədlərinə istiqamətlənmiş hərəkətlərə dair beynəlxalq konsensusun hazırlanmasında həlledici rol oynayır. 1960-cı ildən başlayaraq. Baş Assambleya 10 illik beynəlxalq inkişaf strategiyaları seriyası çərçivəsində prioritetlərin müəyyənləşdirilməsi və məsələlərin qarşıya qoyulmasını dəstəkləyir. Konkret məsələlərin həllinə yönəlmiş bu proqramlarda sosial-iqtisadi inkişafın bütün istiqamətlərində tərəqqi əldə olunmasının vacibliyi daim qeyd edilir. BMT dayanıqlı inkişafın təmin olunması, qadınların vəziyyətinin yaxşılaşdırılması, insan hüquqlarına riayət olunması, ətraf mühitin mühafizəsi kimi həlledici sahələrdə yeni vəzifələrin müəyyən olunması və onların həlli proqramlarının işlənib hazırlanması üzrə işini davam etdirir.

2000- ci ildə keçirilən ***Minilliyin Sammitində*** dünya liderlərinin təsdiqlədiyi ***Minilliyin Bəyannaməsində*** son dərəcə yoxsulluğun və aclığın ləğvi; ümumi ibtidai təhsilin təmin edilməsi; cinslər arasında bərabərliyin dəstəklənməsi və qadınların hüquqlarının və imkanlarının genişləndirilməsi; uşaq ölümü səviyyəsinin aşağı salınması; analığın qorunması sahəsində vəziyyətin yaxşılaşdırılması; HİV/QİÇS, malyariya və başqa xəstəliklərlə mübarizənin gücləndirilməsi, 2015-ci ilədək kəmiyyətcə ifadə oluna bilən bir sıra göstəricilərin əldə olunması sayəsində ekoloji dayanıqlığın təmin olunması və s. kimi əsas vəzifələr formalaşdırılmışdır. Məsələn, gündəlik gəliri 1 dollardan aşağı olanların sayının 2 dəfə azaldılması; ümumi ibtidai təhsilin təmin edilməsi; təhsilin bütün səviyyələrində cinslər arasında qeyri- bərabərliyin aradan qaldırılması; analığın qorunması sahəsində vəziyyətin yaxşılaşdırılması yolu ilə uşaq ölümünün kəskin aşağı salınması nəzərdə tutulmuşdur.

BMT sistemi sosial-iqtisadi məqsədlərə nail olunmasının dəstəklənməsi sahəsində çoxtərəfli fəaliyyət göstərir. İxtisaslaşmış təşkilatların mandatları sosial-iqtisadi fəaliyyətin praktiki olaraq, bütün sahələrini əhatə edir. Bu təşkilatlar dünyanın bütün ölkələrinə texniki və başqa fonualarda praktiki

yardım göstərir. BMT və onun ixtisaslaşmış təşkilatları arasında əlaqələndirilmə *Birləşmiş Millətlər Təşkilatı Sistemi Rəhbərlərinin Əlaqələndirilmə Şurası* vasitəsilə təmin olunur. Onun tərkibinə Baş Katib, ixtisaslaşmış təşkilatların, fondların, proqramların. Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin və ÜTT-nin rəhbərləri daxildir.

60-cı yubiley sessiyasının (sentyabr 2005-ci il) dövlət və hökumət başçılarının iştirak etdiyi Assambleyasının plenar iclasında Minilliyin Bəyannaməsində nəzərdə tutulan öhdəliklərin yerinə yetirilməsi sahəsində BMT-nin əldə etdiyi nailiyyətlərin hərtərəfli icmalı verilmişdir. Sessiyada milli, regional və qlobal səviyyələrdə tərəqqinin təmin olunması üçün inkişaf və qlobal əməkdaşlıq münasibətlərinin beynəlxalq səviyyədə razılaşdırılmış məqsədlərinə nail olunmasının vacibliyinə xüsusi diqqət yetirilmişdir; BMT səviyyəsində keçirilən konfranslarda və görüşlərdə iqtisadi, sosial və əlaqədar sahələrdə əldə olunmuş razılaşmaların yerinə yetirilməsi məsələləri xüsusilə qeyd olunmuşdur. BMT-nin idarələrinin ümumi strukturu və təşkili 22.3-cü şəkildə verilmişdir.

BMT idarələrinin təşkili sistemi çox mürəkkəbdir. Ümumilikdə isə BMT-nin həyata keçirdiyi iqtisadi fəaliyyəti 4 istiqamət üzrə fərqləndirmək olar;

- bütün ölkələr üçün ümumi olan qlobal iqtisadi problemlərin həlli;
- sosial-iqtisadi inkişaf səviyyəsi fərqlənən dövlətlər arasında iqtisadi əməkdaşlığın dəstəklənməsi;
- inkişaf etməkdə olan ölkələrin iqtisadi artımının dəstəklənməsi;
- regional iqtisadi inkişaf problemlərinin həlli.

Təcrübədə göstərilən istiqamətlər üzrə iş informasiya, texniki-məsləhətvennə, maliyyə kimi fəaliyyət formalarından istifadə olunmaqla yerinə yetirilir.

BMT-nin işinin *informasiya* cəhəti, həm Katibliyin, həm də bütün digər idarələrin ən geniş fəaliyyət sahəsidir. Daha böyük əhəmİ5^ət kəsb edən məsələlər siyasi müzakirələrin gündəliyinə daxil edilir, yazılı hesabatlar və arayışlar tərtib olunur. Bütün materiallar idarələrin müxtəlif bölmələrində diqqətlə nəzərdən keçirilir və yalnız əsaslı hazırlıq işindən (o cümlədən hesabatlar və məruzələr dərc olunduqdan) sonra BMT sisteminin müvafiq idarələrində açıq müzakirəyə çıxarılır.




*Şəkil 22.3* **Birləşmiş Millətlər Təşkilatının sistemi (strukturu)**

Bu fəaliyyətin məqsədi üzv-dövlətlərin iqtisadi siyasətinin istiqamətlərinə ümumi təsir göstərməkdir. Əslində, bu iş gələcək üçün yerinə yetirilir. Dərc olunan müxtəlif məlumatlar, statistik göstəricilər mütəxəssislər arasında yüksək qiymətləndirilir. İlkin statistik məlumatların eyniləşdirilməsi, toplanması və işlənilməsi üzrə iş Statistika Komissiyası və Statistika Departamenti tərəfindən yerinə yetirilir. Uçot və statistika sahəsində fəaliyyət zəif inkişaf etmiş ölkələr üçün çox əhəmiyyətlidir; bir tərəfdən, çox vaxt onların özünün iqtisadi əsaslandırılmış statistika metodları olmur, digər tərəfdən isə, həmin ölkələrin bazarlarına girmək istəyən xarici təsərrüfat subyektləri üçün real infonnasiya əldə etməyin yeganə yolu bu məlumatlardan istifadə etməkdir.

*BMT-nin texniki-məsləhətvermə fəaliyyəti* buna ehtiyacı olan dövlətlərə texniki yardım şəklində həyata keçirilir. Bu cür yardımın göstərilməsinin prinsipləri hələ 1946-cı ildə müəyyən olunmuşdur:

• ölkənin tərəqqisini təmin etməli, amma dövlətin daxili işlərinə xaricdən iqtisadi və siyasi müdaxilə vasitəsinə çevrilməməlidir;

• yalnız həmin ölkənin hökuməti vasitəsilə göstərilməli və yalnız həmin ölkə üçün təyin olunmalıdır;

• mümkün olduğu qədər ölkənin özünün arzuladığı fonnada göstərilməlidir;

• konkret xarakter daşımalı, texniki cəhətdən 3diksək keyfiyyət tələblərinə cavab verməlidir.

*Valyuta-maliyyə və kredit fəaliyyəti* əsasən BMT ilə əlaqədar olan beynəlxalq təşkilatlar: BVF, BYİB, BMK, BİA vasitəsilə həyata keçirilir. Bu strukturlar rəsmi cəhətdən BMT-nin ixtisaslaşmış təşkilatları olsa da, əslində, ondan asılılığı zəifdir və özlərinin çox zaman ÜTT və ECOSOC-un hesabatlarında dərc olunan tövsiyələrə zidd olan müstəqil konseptual ideyaları ilə çıxış edir.

BMT çərçivəsində iqtisadi əməkdaşlıq orqanları sisteminin əsas struktur bölmələri qismində onun Nizamnaməsində göstərilən 6 əsas orqandan üçü: Baş Assambleya, İqtisadi və İctimai Şura və Katiblik çıxış edir.

## 22.6. BMT Baş Məclisi (BMT BM) və onun əsas qurumları

Nizamnaməyə uyğun olaraq, BMT Baş Məclisi BMT-nin beynəlxalq əməkdaşlıq sahəsində funksiyalarının yerinə yetirilməsinə görə məsuldur və bu sahədə konkret fəaliyyətə rəhbərliyi *İqtisadi və İctimai Şura (ECOSOC)* vasitəsilə həyata keçirir. Assambleyanın əsas vəzifəsi iqtisadi xarakterli ən mühüm, həlledici problemlərin müzakirəsi üçün BMT çərçivəsində ali forum qismində çıxış etməkdir. Assambleya nəzərdən keçirilən sahədə öz funksiyalarını əsasən ikinci komitə (iqtisadi və maliyyə məsələləri üzrə) vasitəsilə yerinə yetirir. Bu, Assambleyanın əsas komitələrindən biridir. Assambleya beynəlxalq əməkdaşlıq sahəsində BMT-nin Ticarət və İnkişaf üzrə Konfransını (UNCTAD) yaxud BMT-nin Sənaye İnkişafı Təşkilatı (UNIDO) kimi idarələrini təsis edir.

***İqtisadi və İctimai Şura (ECOSOC).*** Bu təşkilat BMT-nin iqtisadi mexanizmi sistemi iyerarxiyasında ikincidir. 1946-cı ildə yaradılan ECOSOC BMT-nin sosial-iqtisadi sahədəki fəaliyyətini əlaqələndirir. ECOSOC-un 54 üzv-dövləti BMT-nin Baş Məslisi tərəfindən seçilir, özü də Təhlükəsizlik Şurasının 5 daimi üzvü onun da dəyişməyən üzvləridir. ECOSOC-un Ali orqanı - Şuranın sessiyasıdır. Hər il 3 sessiya keçirilir:

- yaz sessiyası - sosial-hüquqi və humanitar məsələlər üzrə;
- yay sessiyası - iqtisadi və sosial məsələlər üzrə;
- xüsusi sessiya - təşkilati məsələlər üzrə.

ECOSOC-un fəaliyyətində 3 əsas funksiya fərqləndirilir:

- beynəlxalq iqtisadi və sosial problemlərin yüksək səvi)^ədə müzakirəsi və prinsipal siyasi xəttin işlənib hazırlanması üçün məsul ixtisaslaşmış forumdur;
- BMT-nin iqtisadi və sosial məsələlər üzrə bütün fəaliyyətini, onun ixtisaslaşmış idarələrinin fəaliyyətini əlaqələndirir;
- iqtisadi və sosial inkişafın, beynəlxalq əməkdaşlığın ümumi və xüsusi problemləri üzrə ixtisaslaşmış tədqiqatların aparır, əldə edilən nəticələrin ümumirir.

ECOSOC bunların fəaliyyətini əlaqələndirir:

- daimi komitələrin (iqtisadi, sosial və s.);

• funksional komissiyaların və altkomissiyalarm (statistika, sosial inkişaf və s.), regional iqtisadi komissiyaların (Avropa İqtisadi Komissiyası, Afrika üçün İqtisadi Komissiya və s.);

• BMT-nin ixtisaslaşmış komissiyalarının (FAO, UNIDO və s.).

BMT-nin Nizamnaməsinin 68-ci maddəsinə müvafiq olaraq, öz funksiyalarını yerinə yetimıək üçün ECOSOC sessiyalar arasındakı müddətdə işləyən köməkçi orqanlar yarada bilər. Flazırda 11 daimi komitə və komissiya (təbii resurslar üzrə, qeyri-hökumət təşkilatları üzrə və s.), 6 funksional komissiya (statistika, sosial inkişaf və s.), 5 regional iqtisadi komissiya və bir sıra başqa orqan fəaliyyət göstərir.

***ECOSOC-un strukturu.*** İqtisadi və Sosial Şura BMT-nin 14 ixtisaslaşmış idarəsinin, 10 funksional komissiyanın və 5 regional komissiyanın işini əlaqələndirir; BMT-nin 11 fondundan və proqramından hesabatlar alır; BMT sisteminin təşkilatlarına və üzv-dövlətlərə proqram xarakterli tövsiyələr verir. BMT-nin Nizamnaməsinə müvafiq olaraq, ECOSOC əhalinin həyat səviyyəsinin yüksəldilməsi, tam məşğulluğunun təmin edilməsi və sosial- iqtisadi tərəqqi üçün şərait yaradılmasına yardım göstərilməsinə; sosial və iqtisadi, səhiyyə sahələrində beynəlxalq problemlərin həlli yollarının tapılmasına; mədəniyyət və təhsil sahələrində beynəlxalq əməkdaşlığın dəstəklənməsinə, insan hüquqlarına və ümumi azadlıqlara hərtərəfli hörmət göstərilməsinə görə məsulİ3^ət daşıyır. BMT-nin insan və maliyyə resurslarının 70%-dən çoxu ECOSOC-un sərəncammdadır. Öz mandatını yerinə yetirərkən ECOSOC elmi, işgüzar dairələrin nümayəndələri və qeydiyyatdan keçmiş 2100-dən çox qeyri-hökumət təşkilatı ilə məsləhətləşmələr aparır. Şura hər ilin iyul ayında müddəti 4 həftə çəkən əsas sessiyasını növbə ilə Nyu- Yorkda və Cenevrədə keçirir. Sessiya çərçivəsində yüksək səviyyəli bir neçə iclas keçirilir. Bu iclaslarda milli hökumətlərin nazirləri və beynəlxalq təşkilatların başçıları və yüksək vəzifəli digər şəxslər ümumdünya əhəmiyyəti olan ayrıca mövzunu müzakirə edirlər. Son illərdə ECOSOC həlledici strateji sahələrdə aparıcı rolu öz üzərinə götürür. 1999-cu ildə keçirilən yüksək səvi)^əli iclaslarda «Yoxsulluq problemləri üzrə Manifest» qəbul olunmuş və bu sənəddə yeni minillik ərəfəsində inkişafın məqsədləri müəyyənləşdirilmişdi. Bu məqsədlər BMT-nin Nyu-Yorkda keçirilən Minilliyin Sammiti tərəfindən bəyənilmişdir. 2000-ci ildə keçirilən yüksək səviyyəli iclasda qəbul olunmuş nazirlər Bəyannaməsində «rəqəm

verilməsi nəticəsində 2001-ci ildə Məqsədli İKT (infonnasiya-kommunikasiya texnologiyaları) qrupu yaradılmışdır. 1998-ci ildən ECOSOC əsas sessiyaların çərçivəsindən kənarda Bretton-Vuds idarələrinin - BVF-in və DB-nin əsas komitələrinə başçılıq edən maliyyə nazirlərinin iclaslarını keçirir.

Köməkçi və ECOSOC ilə əlaqədar olan orqanlara aşağıda göstərilən komissiyalar, komitələr və başqa orqanlar aiddir.

*Funksional komissiyalar.*

- Statistika Komissiyası;
- Əhali və inkişaf üzrə Komissiya;
- Sosial inkişaf üzrə Komissiya;
- İnsan hüquqları üzrə Komissiya;
- «Group-3» (Aparteid cinayətlərinin qarşısının alınması və ona görə cəzalandırma haqqında Beynəlxalq Konvensiyaya uyğun olaraq yaradılmışdır);
- Zorakılıq yaxud könüllü olmayan yoxaçıxmalar üzrə İşçi Qrup;
- İnsan hüquqlarının daimi olaraq kobud surətdə pozulması hallarının öyrənilməsi üzrə İşçi Qrup;
- Əsassız saxlanmalar üzrə İşçi Qrup;
- İnkişaf hüququ üzrə açıq tərkibli İşçi Qrup;
- İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyanın Fakültativ Protokolunun işlənib hazırlanması üzrə açıq tərkibli İşçi Qrup;
- Yerli xalqların hüquqları haqqında Bəyannamənin işlənib hazırlanması üzrə açıq tərkibli İşçi Qrup;
- Struktur yenidənqurmaları və iqtisadi, sosial və mədəni hüquqlar proqramlarına aid olan baza rəhbər prinsiplərinin işlənib hazırlanması üzrə açıq tərkibli İşçi Qrup;
- İnsan hüquqlarının dəstəklənməsi və müdafiəsi üzrə altkomissiya;
- Milli, etnik, dini və dil azlıqlarına mənsub olan şəxslərin hüquqlan məsələsi üzrə İşçi Qrup;
- Köləliyin müasir fonnaları üzrə İşçi Qrup;
- Yerli xalqlar üzrə İşçi Qrup;
- Altkomissiyaların iş metodları üzrə sessiya İşçi Qrupu;
- Ədliyyə üzrə İşçi Qrup;
- Transmilli korporasiyaların iş metodları və fəaliyyəti üzrə sessiya İşçi Qrupu;

- Məlumatlar üzrə İşçi Qrup;
- Qadınların vəziyyəti üzrə İşçi Qrup;
- Narkotik vasitələr üzrə İşçi Qrup;
- Yaxın və Orta Şərqdə narkotiklərin qeyri-qanuni dövriyyəsi və bununla bağlı məsələlər üzrə altkomissiya;
- Narkotiklərə dair qanunlara əməl olunmasının təmin edilməsi üzrə milli idarələrin başçılarının Müşavirəsi;
- Cinayətlərin qarşısının alınması və cinayət hüququ üzrə Komissiya;
- İnkişaf məqsədləri üçün elm və texnika üzrə Komissiya;

® Dayanıqlı inkişaf üzrə Komissiya;

- Açıq tərkibli xüsusi işçi qruplan;
- Energetika və dayanıqlı inkişaf üzrə açıq tərkibli xüsusi hökumətlər-arası Ekspertlər Qrupu;
- BMT-nin meşələr üzrə Forumu.

*Regional komissiyalar.*

» Afrika üçün İqtisadi Komissiya (ECA);

- Asiya və Sakit Okean Ölkələri üçün İqtisadi və Sosial Komissiya (ESCAP);
- Avropa İqtisadi Komissiyası (UNECE);
- Latın Amerikası və Karib dənizi hövzəsi Ölkələri üçün İqtisadi Komissiya (ECLAC);
- Qərbi Asiya Ölkələri üçün İqtisadi və Sosial Komissiya (ESCWA).

*Daimi komitələr:*

- Proqram və əlaqələndinrıə üzrə Komitə;
- Yaşayış məntəqələri üzrə Komitə;
- Hökumətlərarası idarələrlə danışıqlar üzrə Komitə.

*Xüsusi orqanlar:*

- İnformatika üzrə açıq tərkibli xüsusi İşçi Qrup;

*Hökumət ekspertlərindən ibarət olan ekspert orqanları:*

- Təhlükəli yüklərin daşınması və kimyəvi maddələrin qlobal səviyyədə razılaşdırılmış təsnifatı və markalanması üzrə Ekspertlər Komitəsi;
- BMT-nin Coğrafi Adlar üzrə Ekspertlər Qrupu.

*Şəxsən çıxış edən üzvlərdən ibarət olan ekspert orqanları:*

- İnkişaf Sahəsində Siyasət üzrə Komitə;
- Birləşmiş Millətlər Təşkilatının dövlət idarəçiliyi və maliyyə sahəsində

Proqramı üzrə Ekspertlərin Müşavirəsi;

- Vergitutma sahəsində beynəlxalq əməkdaşlıq üzrə xüsusi Ekspertlər Qrupu;
- İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitə;
- İnkişaf məqsədləri üçün energetika və təbii resurslar üzrə Komitə;
- Yerli xalqların məsələləri üzrə daimi Forum.

*ECOSOC ilə əlaqəli olan orqanlar.*

- Narkotiklər üzərində nəzarət üzrə beynəlxalq Komitə;
- Qadınların vəziyyətinin yaxşılaşdırılması üzrə Beynəlxalq tədris və elmi-tədqiqat institutunun Qəyyumuq Şurası;
- Əhali məsələləri üzrə BMT Mükafatının verilməsi üzrə Komitə;
- BMT-nin HİV/QİÇS üzrə birgə Proqramının ƏlaqələndiiTnə Şurası.

*Baş Assambleyanın iqtisadi, sosial və əlaqəli sahələrdə köməkçi orqanları:*

- Proqram və Əlaqələndimıə üzrə Komitə;
- İnkişaf etməkdə olan ölkələr arasında texniki əməkdaşlığın icmalı üzrə yüksək səvij^əli Komitə;
- BMT-nin Uşaq Fondu (UNICEF);
- BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı (UNCTAD);
- BMT-nin Qadınlar üçün İnkişaf Fondu; (UNFEM)
- BMT-nin İnkişaf Proqramı (UNDP);
- BMT-nin Qaçqınlar üzrə Baş Komissarlığı (UNHCR);
- BMT-nin Əhali Fondu (ETNPFA);
- BMT-nin Fələstin qaçqınlarına yardım və işlərin təşkili üzrə Yaxın Şərq Agentliyi (EJNRWA);
- Dünya Ərzaq Proqramı (WFP).

***BMT-nin Katibliyi.*** Katiblik BMT-nin iqtisadi əməkdaşlıq orqanları sistemində üçüncü əsas həlqədir. Katiblik BMT sisteminə daxil olan başqa qurumların normal fəaliyyətini təmin edən inzibati-icra orqanıdır. Katibliyin əsas vəzifəsi konkret tapşırıqları yerinə yetinnəkdir. Katibliyin mərkəzi aparatının əməkdaşlarının əksəriyyəti iqtisadiyyat xidmətində çalışır. BMT-nin iqtisadiyyat aparatının tərkibinə bir neçə bölmə daxildir və onlardan ən böyüyü iqtisadi və sosial məsləhətlər üzrə Departamentdir.

## 22.7. BMT-nin əsas təşkilatlarının və qurumlarının fəaliyyəti

***BMT-nin Ticarət və İnkişaf üzrə Konfrans (UNCTAD - United Nations Conference for Trading and Development).*** 1964-cü ilin sonunda BMT-nin Baş Məclisi beynəlxalq ticarət təşkilatı olmayan UNCTAD-ın BMT- nin orqanı qismində təsis olunması barədə qətnamə qəbul etdi.

UNCTAD xammal, hazır məmulatlar və yarımfabrikatlarla beynəlxalq ticarət, nəqliyyat, sığorta, xarici ticarətin kreditləşdirilməsi, texnologiyaların verilməsi və s. məsələlərin geniş dairəsini nəzərdən keçirir. UNCTAD-ın fəaliyyəti təfsilatı ilə aşağıda göstərilir.

***BMT-nin Sənaye İnkişafı Təşkilatı (UNIDO - United Nations Industrial Development Organization).*** BMT-nin bu ixtisaslaşmış təşkilatı inkişaf etməkdə olan ölkələrin sənayeləşməsinə, milli və beynəlxalq resursların səfərbər olunması vasitəsilə sənayelərinin inkişafına yardım proqramlarının həyata keçirilməsi üçün yaradılmışdır. UNIDO 1966-cı ildə təsis edilmişdir. Ali orqanı 2 ildə bir dəfə çağırılan Baş Konfransdır. UNIDO-nun əsas idarəetmə orqanları Sənaye İnkişafı üzrə Şura və Proqram və Büdcə Məsələləri üzrə Komitədir. UNIDO-nun mənzil-qərargahı Vyanada yerləşir.

Dünya təcrübəsində bu təşkilatın fəaliyyəti operativ və yardımçı hissələrə bölünür və BMT-nin Baş Məclisinin xüsusi qətnamələri ilə reqlamentləşdirilir. Operativ fəaliyyətə bunlar aiddir:

- inkişafın müasir mərhələsində mövcud olan siyasi, iqtisadi, maliyyə vəziyyətini nəzərə almaqla, ölkələrə sənayeləşmə proqramlarının işlənib hazırlanması üzrə tövsiyələr vermək və konkret yardım göstərmək;
- sənaye müəssisələrinin və başqa iri obyektlərin inşasının əsaslandırılması üzrə elmi-tədqiqat işlərinin təşkili və bilavasitə yerinə yetirilməsinə ölkələrə kömək etmək;
- zəif inkişaf etmiş ölkələrdə inkişaf və istehsalın idarə olunması məsələləri üzrə orqanların yaradılmasını və fəali}^ətini dəstəkləmək;
- xammal resurslarından istifadə olunması üzrə konkret proqramların həyata keçirilməsində ölkələrə texniki yardım göstərmək və tövsiyələr vermək.

Bu təşkilatın yardımçı fəaliyyəti alınan məlumatların toplanmasından, işlənmə-sindən, ümumiləşdirilməsindən, dərc olunmasından və yayılmasından ibarətdir.

1986-cı ildən UNIDO BMT sisteminin ixtisaslaşmış idarəsi statusunu almışdır. Yenidənqurma təşkilatın fəaliyyətinin əsas istiqamətlərinə, məqsədinə, prinsiplərinə toxunmayaraq, inzibati, maliyyə, kadr müstəqilliyi məsələlərinə aid idi. Hazırda UNIDO-nun özünün üzv-dövlətlərin üzvlük haqları hesabına formalaşan və əsasən Katiblik kimi aparatın saxlanmasına xərclənən büdcəsi var. UNIDO-nun əməliyyat fəaliyyəti əsasən BMT-nin İnkişaf Proqramının və UNIDO-nun üzv-dövlətlərinin könüllü ödənişləri hesabına yaradılan Sənaye İnkişafı Fondunun vəsaitləri hesabına maliyyələşdirilir. UNIDO fəaliyyəti inkişaf etməkdə olan ölkələrə yardım göstərilməsinə istiqamətlənən ixtisaslaşmış təşkilat statusuna malikdir.

***Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP - United Nations Development Programme).*** Bu təşkilat BMT Baş Məclisinin yardımçı orqanı, investisiya qoyulmazdan əvvəl həm texniki, həm də maliyyə yardımı göstərilməsi üzrə beynəlxalq proqramdır. Bu təşkilatın fəaliyyəti həmçinin, inkişaf etməkdə olan ölkələrdə iqtisadiyyatın mühüm sahələrinin dəstəklənməsinə yönəlmişdir. Proqram 1965-ci ildə yaradılmışdır, rəhbər orqanı Direktorlar Şurasıdır. Hər il Şuranın 2 sessiyası keçirilir, bunların arasındakı müddətdə isə təşkilata Nyu-Yorkda yerləşən Katiblik rəhbərlik edir. UNDP-nin fəaliyyəti könüllü ödənişlər hesabına maliyyələşdirilir. Könüllü ödənişlərin məbləğini planlaşdınuaq mümkün olmadığına görə təşkilatın büdcəsi təsbit edilmir və ildən-ilə dəyişir.

Hazırda UNDP-nin fəaliyyəti 6 əsas istiqamətdə cəmləşmişdir: yoxsulluqla mübarizə, idarəçilik fəaliyyətinin inkişafı, inkişaf etməkdə olan ölkələr arasında fəaliyyətin müxtəlif sahələrində texniki əməkdaşlıq, ətraf mühitin mühafizəsi, təbii resurslardan səmərəli istifadə, qadınların inkişafda iştirakı və inkişaf məqsədləri üçün texnologiyaların səviyyəsinin yüksəldilməsi. UNDP-nin himayədarlığı altında irriqasiya, balıqçılıq, meşə massivlərinin istismarı və başqa sahələrdə konkret layihələrin həyata keçirilməsinin konkret nümunələri mövcuddur.

***BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (UNFAO - Food and Agriculture Organization).*** Bu təşkilat BMT-nin mühüm ixtisaslaşmış idarələrindəndir və vəzifəsi kənd təsərrüfatı üzrə hökumətlərarası təşkilatların fəaliyyətini, habelə əhalinin kənd təsərrüfatı məhsulları ilə təchizatı sahəsində fərdi və kollektiv təşəbbüsləri əlaqələndirməkdir. FAO 1945-ci ildə yaradılmışdır, ali orqanı 2 ildə bir dəfə çağırılan Konfransdır. Təşkilatın

qərargahı Romada yerləşir. FAO inkişaf etməkdə olan ölkələrə kənd təsərrüfatı, meşə və balıqçılıq təsərrüfatları sahələrində yardım göstərir. Bu yardım həm maddi, həm də qeyri-maddi fonnada göstərilir. İnkişaf etməkdə olan ölkələrə ərzaq göndərilir, onlara kənd təsərrüfatı istehsalının inkişafında texniki yardım göstərilir, bu sahədə ixtisaslı kadrlar hazırlanır, yardım alan üzv-dövlətlər üçün tövsiyələr hazırlanır və s. FAO-nun himayədarlığı altında 1996-cı və 2002-ci illərdə ərzaq problemi üzrə ümumdünya forumları keçirilmişdir.

ECOSOC-un qərarı ilə təsis olunan və onun tərəfindən əlaqələndirilən regional iqtisadi komissiyalar da BMT-nin strukturuna ayrıca blokla daxil olur.

***BMT-nin Avropa iqtisadi Komissiyası (UNECE - United Nations Economic Commissions for Europe).*** Komissiya 1947-ci ildə müharibədən sonrakı Avropanın bərpası məqsədilə BMT-nin 5 illik səlahiyyəti olan müvəqqəti orqanı qismində yaradılmışdı. 1951-ci ildən UNECE BMT-nin daimi orqanı statusu qazanmışdır. UNECE-in rəhbər orqanı hər il Cenevrədə keçirilən Sessiyadır. UNECE ölkələr arasında ticarətin, elmi-texniki əməkdaşlığın inkişafına yardım göstərir. UNECE-in tərkibinə kimya, kənd təsərrüfatı və s., cəmi 15-ə yaxın müxtəlif ixtisaslaşmış komissiya daxildir. Son illərdə UNECE öz fəaliyyətini əsasən ekologiya, enerjidən səmərəli istifadə, nəqliyyat (ətraf mühitin işlənmiş qazlarla çirkləndirilməsi) və meşə resursları məsələləri üzərində cəmləşdinuişdir.

***BMT-nin Afrika üçün iqtisadi Komissiyası (UNECA - United Nations Economic Commission for Africa).*** Komissiya Afrika xalqlarının inkişafına lazımi kömək göstərilməsi, ümumilikdə Afrika qitəsinin inkişaf problemlərinin öyrənilməsi və təhlili məqsədi ilə 1958-ci ildə yaradılmışdır. Təşkilatın ali orqanı Komissiyanın hər il keçirilən Sessiyasıdır. Sessiyalar arasındakı müddətdə rəhbərlik İcraiyyə Komitəsi tərəfindən həyata keçirilir. ECA-nm 4 subregional şöbəsi var; Şimali Afrika üçün (Tanjer, Mərakeş), Qərbi Afrika üçün (Niamma, Niger), Şərqi Afrika üçün (Lusaka, Zambiya) və Mərkəzi Afrika üçün (Kinşasa, Zair).

ECA-nm əsas vəzifəsi regionun iqtisadi inkişafı üçün tədbirlər işləyib hazırlamaq, üzv-dövlətlərin sorğuları əsasında tövsiyələr verməkdir.

Son illərdə ECA səlahiyyətinə aid olan məsələlər dairəsini bir qədər genişləndirmişdir. Məsələn, məsləhət və texniki yardım göstərilməsi çərçivəsində quraqlıqla mübarizə, irriqasiya, kadrların hazırlanması sahəsində

yardımlar etmişdir. Son illər ECA-mn büdcəsi başqa komissiyalarla müqayisədə artmışdır.

***Latın Amerikası və Karib dənizi hövzəsi ölkələri üçün iqtisadi Komissiya (ECLAC - Economic Commission for Latin America and Caribbean).*** Komissiya 1948-ci ildə yaradılmışdır. Ali orqanı 2 ildə bir dəfə çağırılan Sessiyadır. Sessiyalar arasındakı müddətdə Komissiyanın işinə Latın Amerikasından olan 40 üzv-dövlət, habelə ABŞ, Kanada, Böyük Britaniya, Fransa, İspaniya və Niderlandın daxil olduğu Komitə rəhbərlik edir. ECLAC-m tərkibində daimi orqanlar - Mərkəzi Amerika ölkələrinin iqtisadi əməkdaşlığı üzrə Komitə, Karib dənizi hövzəsi ölkələrinin inkişafı və iqtisadi əməkdaşlığı üzrə Komitə, Ticarət üzrə Komitə, Elökumət ekspertlərinin Komitəsi fəaliyyət göstərir. ECLAC-m fəaliyyətinin əsas istiqamətləri yuxarıda göstərdiyimiz komitələrə bənzəyir. ECLAC-ın və ECA-mn büdcələri təxminən eynidir.

***Asiya və Sakit Okean Ölkələri üçün iqtisadi və Sosial Komissiya (ESCAP - Economic and Social Commission for Asia and the Pacific).*** Bu Komissiya BMT-nin regional orqanı kimi 1947-ci ildə yaradılmışdır. Ali orqanı hər il keçirilən Sessiyadır. ESCAP-ın Katibliyi Banqkokda yerləşir. Regionun əksər ölkələri, habelə ABŞ, Niderland, Böyük Britaniya, Fransa ESCAP-ın üzvləridir.

Komissiyanın 1994-cü ildə Dehlidə keçirilən 50-ci sessiyasında XXI əsrin astanasında Asiya-Sakit Okean regionunda iqtisadi əməkdaşlığın möhkəmləndiril-məsi haqqında Bəyanat qəbul olunmuşdur və təşkilat bu sənədə uyğun olaraq inkişaf edir. İnkişafın mümkün istiqamətləri işlənib hazırlanarkən, regionun xüsusiyyətləri nəzərə alınmışdır.

***Qərbi Asiya üçün İqtisadi və Sosial Komissiya (ESCWA - Economic and Social Commission for Western Asia).*** Komissiya 1974-cü ildə yaradılmışdır və onun tərkibinə regionun 14 dövləti daxildir. Təşkilatın ali orqanı 2 ildə bir dəfə çağırılan Plenar Sessiyadır. ESCWA-nın Katibliyi planlaşdırma, sənaye, kənd təsərrüfatı və s. şöbələrdən ibarətdir, Bağdadda yerləşir.

Qeyd olunmalıdır ki, regionda iqtisadi inkişaf buradakı siyasi vəziyyətdən əhəmiyyətli dərəcədə asılıdır. ESCWA-nın qarşıya qoyduğu vəzifələr, ilk növbədə, regionda iqtisadi inkişaf üçün əlverişli şərait yaratmaqdan, iqtisadi əlaqələri möhkəmlətməkdən, texniki xarakterli tədqiqatlar aparmaqdan və s. ibarətdir.

1994-cü ildə Komissiya Əmmanda icra olunmaq üçün 5 mövzu üzrə proqram qəbul etmiş və onlara sonradan dəfələrlə əlavələr olunmuşdur (1998, 2000, 2008-ci illərdə):

- təbii resurslardan səmərəli istifadə;
- regionda həyat səviyyəsinin yüksəldilməsi;
- üzv-dövlətlər arasında iqtisadi əməkdaşlığa yardım göstərilməsi;
- regional əhəmiyyətli hadisələrə nəzarət, inkişafın müasir mərhələsində qlobal dəyişikliklərin öyrənilməsi;
- inkişafın başqa regionlar üçün səciyyəvi olmayan, konkret bölgənin xüsusiyyətlərindən irəli gələn çətinliklərini əks edən xüsusi problemlər.

Qeyd etməliyik ki, son illərdə ESCWA-nm büdcəsi yuxarıda nəzərdən keçirdiyimiz başqa təşkilatlarmkı ilə müqayisədə təqribən 40-50% azalmışdır. 2003- 2004-cü illərdə müəyyən artım - cəmi 7% əldə olmuşdu.

## 22.8. BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı (UNCTAD)

Qeyd etdiyimiz kimi, UNCTAD BMT-nin Baş Məclisinin ticarət və inkişaf üzrə əsas orqanı, ticari-iqtisadi siyasətin dövlətlərarası çoxtərəfli tənzimlənməsinin mühüm alətidir. Dünya müstəmləkə sisteminin dağıldığı şəraitdə UNCTAD-m təsis edilməsi inkişaf etməkdə olan ölkələrin dünya ticarətinə «ədalətli şərtlərlə» inteq-rasiya olunması səylərini əks etdirirdi. Həmin dövrdə yaradılan başqa beynəlxalq təşkilatlar, o cümlədən GATT, iqtisadiyyatı zəif inkişaf etmiş ölkələrin maraqlarını kifayət dərəcədə ifadə etmirdi. Buna görə də BMT-nin Baş Məclisi əsas ideyası (məqsədi) dünya iqtisadiyyatında və ticarətində əsas meyillərin təhlili, inkişaf etmək-də olan ölkələrin iqtisadi artımına şərait yaradan ticarət siyasətinin fomıalaşdırılması və həyata keçirilməsi olan daimi təşkilatın yaradılması barədə qərar qəbul etdi.

UNCTAD-m Nizamnaməsi yoxdur. Onun məqsədləri, funksiyaları təşkilati strukturu, fəaliyyəti ilə bağlı bütün prosedurlar BMT Baş Məclisinin 1995 №-li Qətnaməsində ifadə olunmuşdur’. Bu Qətnaməyə əsasən, BMT-nin, onun ixtisaslaşmış idarələrinin yaxud Atom Enerjisi üzrə Beynəlxalq

^ Резолюция № 1995 (XXI) ГА ООН от 30 декабря 1964 г. «Учреждение Конференции Организации Объединенных Наций по торговле и развитию в качестве органа Генеральной Ассамблеи».

Agentliyin üzvü olan dövlətlər Konfransın iştirakçısı ola bilər. 2004-cü ilin əvvəlində UNCTAD-ın tərkibinə 194 dövlət, o cümlədən MDB-nin 12 ölkəsi daxil idi. Konfrans öz əsas funksiyaları kimi bunları müəyyənləşdirmişdir:

• beynəlxalq, o cümlədən inkişafı fərqli olan ölkələr arasında ticarətin dəstəklənməsi;

• beynəlxalq ticarət və iqtisadi inkişafın müvafiq problemləri ilə bağlı olan idarələrin BMT çərçivəsində fəaliyyətinin əlaqələndirilməsi;

• hökumətlərin və regional iqtisadi qruplaşmaların ticarət sahəsində siyasətinin əlaqələndirilməsi.

Konfransda təmsil olunan hər dövlət 1 səs hüququna malikdir. Qərarlar səsvennədə iştirak edən nümayəndələrin Ys hissəsinin çoxluğu ilə qəbul olunur.

UNCTAD-m illik büdcəsi təqribən 50 milyon ABŞ dolları məbləğindədir və mütəmadi olaraq Birləşmiş Millətlər Təşkilatının büdcəsindən ayrılır. Texniki əməkdaşlıq sahəsində fəaliyyət donorlar və benefisiar-dövlətlər tərəfindən ayrılan büdcədənkənar vəsaitlərdən, habelə müxtəlif təşkilatlar tərəfindən ildə təxminən 25 milyon ABŞ dolları məbləğində maliyyələşdirilir.

UNCTAD BMT-nin İqtisadi və İctimai Şurası (ECOSOC), Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP), Beynəlxalq Ticarət Mərkəzi (ITC), Ümumdünya Ticarət Təşkilatı (ÜTT), Dünya Bankı (DB), Beynəlxalq Valyuta Fondu (BVF) və başqa təşkilatlarla birgə fəaliyyət göstərir. Mindrantda (1996), Banqkokda (2001), San-Pauluda (2004) keçirilən sessiyalarında əsrimizin əvvəlində UNCTAD-m fəaliyyətinin əsas istiqamətləri müəyyənləşdirilmişdir. Onlardan ən əsasları aşağıdakı göstərilir.

***Qloballaşma və inkişaf sahəsində strategiya.*** UNCTAD dünya iqtisadiyyatının inkişafının əsas meyillərini, o cümlədən qloballaşmanı öyrənir, ölkələrin müxtəlif qruplarının iqtisadiyyatının inkişafına onun təsirini qiymətləndirir. İnkişafın konkret problemləri və bu sahədə inkişaf etməkdə olan və keçid iqtisadİ3^ath ölkələrdə istifadə oluna biləcək müsbət təcrübə təhlil olunur. Maliyyə axınları və borclarla bağlı məsələlər öyrənilir. İnkişaf etməkdə olan ölkələrə borclann tənzimlənməsində yardım göstərilir. Ticarət və inkişafa aid məlumatlar bazası genişləndirilir.

***Mallar və xidmətlərlə beynəlxalq ticarət və xammal məsələləri.*** UNCTAD aşağıdakı istiqamətlərə yönəlmiş siyasəti işləyib hazırlayır:

• tələb və təklifə toxunan disproporsiyaların azaldılması yolu ilə xammal bazarlarının fəaliyyətinin yaxşılaşdırılmasına;

• inkişaf etmiş ölkələrin emal olunmamış xammal ixracından həddən ziyadə asılılığının istehsalın və ixracın şaquli və üfüqi diversifikasiyası, habelə kənd təsərrüfatı məhsullarının əvəz olunması vasitəsilə tədricən aradan qaldırılmasının təmin edilməsinə;

• xammal sahəsində ticarət maneələrinin tədricən aradan qaldırılmasına;

• xammalın qiymətlərinin dəyişməsi ilə bağlı risklərin qiymətlərin hecinqi mexanizmindən (əmtəə fyuçersləri, opsionlar, svoplar) istifadə etməklə minimuma endirilməsinə;

• ixracdan daxilolmaların kompensasiya əsasında maliyyələşdirilməsinə.

***investisiyalar, texnologiyalar və sahibkarlığın inkişafı.*** UNCTAD xarici birbaşa investisiya (XBİ) axınlarında qlobal meyilləri, onların ticarətlə, texnologiya-larla və inkişafla əlaqəsini öyrənir. Konfransın fəaliyyəti çərçivəsində kiçik və orta sahibkarlığın dəstəklənməsi mexanizmləri işlənib hazırlanır. Bununla inkişaf etməkdə olan ölkələrdə texnoloji potensialın və innovasiya fəaliyyətinin inkişafının dəstəklənməsinə yönəlmiş siyasət müəyyən olunur. Konfrans inkişaf etməkdə olan ölkələrə investisiya axınlarının stimullaşdırılmasında və investisiya mühitinin yaxşı-laşdırılmasmda kömək edir. Onun ixtisaslı kadrların hazırlanması, ticarətin səmərəli təşkili üçün xidmətlər infrastrukturunun yaradılması proqramlarının hazırlanmasında və həyata keçirilməsində rolu böyükdür. Ümumilikdə, UNCTAD xidmətlər infrastrukturunun inkişafı sahəsində milli siyasətin işlənib hazırlanmasında böyük iş aparır, inkişaf etməkdə olan ölkələrdə informasiya texnologiyalarının əlçatanlığınm asanlaşdırılması sayəsində qlobal elektron ticarətin genişlənməsini dəstəkləyir.

***UNCTAD və zəif inkişaf etmiş, dənizə çıxışı olmayan və adalarda yerləşən inkişaf etməkdə olan ölkələr.*** UNCTAD zəif inkişaf etmiş ölkələrin problemləri, o cümlədən ölkələr üzrə kompleks proqramlar fonuasmda texniki yardım göstərilməsi üzrə işləri əlaqələndirir. Konfrans zəif inkişaf etmiş ölkələr üçün fəaliyyət proqramlarının həyata keçirilməsində, inkişaf etməkdə olan ada dövlətlərinin dayanıqlı inkişafı üzrə Barbados fəaliyyət proqramında və dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr arasında tranzit daşımaları sahəsində Qlobal əməkdaşlıq planında iştirak edir. Zəif inkişaf etmiş ölkələr üçün məqsədli fondların idarəçiliyi həyata keçirilir.

***Yoxsulluqla mübarizə.*** UNCTAD yoxsulluqla mübarizəyə kompleks yanaşmadan istifadə olunmasının tərəfdarıdır. Konfrans öz səylərini insan

resurslarının və sosial infrastrukturun inkişafı; iş yerlərinin yaradılması və əhalinin yoxsul təbəqələrinin əmək məhsuldarlığının yüksəldilməsi; gəlirlərin və sosial nemətlərin bölgüsü üzərində cəmləşdirir. Ticarətin genişlənməsinin yoxsulluqla mübarizəyə təsiri öyrənilir.

*inkişaf etməkdə olan ölkələr arasında əməkdaşlığın genişləndirilməsi.* UNCTAD inkişaf etməkdə olan ölkələr arasında subregional, regional və regionlararası iqtisadi əməkdaşlıq təcrübəsini öyrənir; zəif inkişaf etmiş ölkələrdə iqtisadi geriliyin aradan qaldırılması üzrə dünya birliyinin fəaliyyət proqramlarını işləyib hazırlayır.

***Mövcudluğunun 40 ili ərzində UNCTAD-ın fəaliyyətinin bəzi yekunları.*** 11-ci sessiyasının keçirilməsi nəticəsində UNCTAD tərəfindən bir sıra mühüm beynəlxalq sazişlər bağlanmışdır, o cümlədən:

*ticarət sahəsində:*

• ümumi preferensiyalar sistemi (1971). Bu sistem sayəsində inkişaf etməkdə olan ölkələr tərəfindən ixrac olunan mallar inkişaf etmiş ölkələrin bazarlarında preferensial (güzəştli) rejim altına düşür;

• inkişaf etməkdə olan ölkələr arasında ticarət preferensiyalarmm qlobal sistemi haqqında saziş (1989);

• məhdudlaşdırıcı işgüzar təcrübə üzərində nəzarət üçün çoxtərəfli əsasda razılaşdırılmış ədalətli prinsiplər və qaydalar kompleksi (1980);

• BMT-nin ticarətin səmərəliliyi üzrə keçirdiyi Beynəlxalq Simpoziumun işinin yekunları əsasında Ticarət Məsələləri üzrə Qlobal şəbəkənin yaradılması (1994);

*xammal sahəsində:*

• kakao, şəkər, təbii kauçuk, cut və cut məmulatları, tropik oduncaq, qalay, zeytun yağı və buğda üzrə beynəlxalq əmtəə müqavilələri;

• beynəlxalq ehtiyatların saxlanmasının və xammal sahəsində ETTKİ layihələrinin həyata keçirilməsinin maliyyə dəstəklənməsi məqsədilə xammal üçün ümumi fondun yaradılması (1989);

*borclar və inkişaf sahəsində:*

• Şura tərəfindən gəlirləri aşağı səviyyədə olan inkişaf etməkdə olan ölkələr üçün borclanma şərtlərində retroaktiv düzəlişlərin aparılması barədə Qətnamə qəbul edildikdən sonra (1978) 50-dən artıq inkişaf etməkdə olan yoxsul ölkənin borc yükü 6,5 milyard ABŞ dollarından çox məbləğdə azaldılmışdı;

• borcların restruktizasiyası sahəsində beynəlxalq tədbirlərin rəhbər prinsipləri (1980);

*zəif inkişaf etmiş və dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələrin və inkişaf etməkdə olan tranzit ölkələrinin dəstəklənməsi sahəsində:*

• dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr və inkişaf etməkdə olan tranzit ölkələri ilə donorlar birliyi arasında əməkdaşlığın qlobal çərçivəsi haqqında (1995);

• zəif inkişaf etmiş ölkələr üçün fəaliyyət proqramı (1990-cı illər);

• zəif inkişaf etmiş ölkələr üçün 2001-2003-cü illərdə fəaliyyət proqramı;

*nəqliyyat sahəsində:*

• BMT-nin xətti konfranslarının keçirilməsi haqqında Məcəllə (1974);

• yüklərin dəniz daşımaları haqqında BMT-nin Konvensiyası (1978);

• yüklərin qarışıq beynəlxalq daşımaları haqqında BMT-nin Konvensiyası (1980);

• gəmilərin qeydiyyatı şərtləri haqqında BMT-nin Konvensiyası (1986);

• dəniz girovları və ipotekaları haqqında BMT-nin Konvensiyası (1993).

UNCTAD-m gərgin fəaliyyəti nəticəsində beynəlxalq təşkilatlar və hökumətlər tərəfindən aşağıdakı mühüm qərarlar qəbul edilmişdir:

• inkişafın hədəf göstəricilərinin müəyyən olunması, o cümlədən ÜDM-in 0,7%-nin inkişaf etməkdə olan ölkələrə və 0,15%-nin zəif inkişaf etmiş ölkələrə ayrılması barədə razılaşma;

• ixracdan daxilolmaların kompensasiya əsasında maliyyələşdirilməsinin Beynəlxalq Valyuta Fondu tərəfindən müəyyən edilmiş mexanizminin təkmilləşdirilməsi;

• borcu yüksək olan zəif inkişaf etmiş ölkələrin beynəlxalq kommersiya bankları qarşısındakı borclarının azaldılması.

Konfransın fəaliyyətinin mühüm funksiyalarından biri ticarət və inkişaf haqqında illik hesabatların dərc olunmasıdır. Bu hesabatlarda meydana çıxan beynəlxalq və regional meyillər, ticari, investisiya və maliyyə axınlarının qarşılıqlı təsiri təhlil edilir. Məsələn, dünyada investisiyalar haqqında Hesabatda xarici birbaşa investisiyalar (XBİ) və TMK-nm fəaliyyəti sahəsindəki meyillər təqdim olunur; zəif inkişaf etmiş ölkələr üzrə hesabatda onların əsas problemləri, beynəlxalq səviyyədə dəstəklənməsi tədbirləri şərh olunur. UNCTAD tərəfindən dərc olunan beynəlxalq ticarət və inkişaf üzrə

Statistik məcmuədə ümumdünya və regional inkişafın əsas göstəriciləri: əhalinin hər nəfərinə düşən ÜDM, artım templəri, tədiyyə balansının vəzİ5^əti, XBİ, maliyyə resurslarının axını və borclar haqqında məlumatlar verilir, dəniz daşımalar sahəsində meyillər şərh olunur. UNCTAD-m nəşrləri əsasında tərtib olunan Sorğu kitabında ölkələr, habelə milli və beynəlxalq qanun yaradıcılığı sahəsində fəaliyyət üçün əhəmiyyət kəsb edən digər dövri və birdəfəlik tədqiqatların nəticələri əks olunur.

Konfrans 4 ildə bir dəfədən az olmayaraq nazirlər səviyyəsində çağırılır. Konfransın sessiyalarının keçirilməsinin vaxtı və yeri BMT-nin Baş Assambleyası tərəfindən, Konfransın və Ticarət və İnkişaf üzrə Şuranın tövsiyələri nəzərə ahn-maqla müəyyən olunur. Sessiyalar arasında UNCTAD-ın daimi fəaliyyət göstərən icra orqanı *Ticarət və İnkişaf üzrə Şuradır.* Şura, lazım olduqda, adətən ildə 2 dəfə toplaşır. Bundan başqa. Şuranın qlobal siyasət, dünya ölkələrinin iqtisadiyyatının qarşılıqlı əlaqələri, ticarət və valyuta-kredit münasibətləri, struktur yenidənqurmaları və iqtisadi islahatlar üzrə xüsusi sessiyaları və iclasları keçirilir. 1997-ci ildən Şuranın işçi orqanları 3 komissiyadır: mallar və xidmətlərlə ticarət üzrə; investisiya-lar, texnologiyalar və maliyyə məsələləri üzrə; sahibkarlıq və biznes məsələləri üzrə. Şura hər il Konfransa və BMT-nin Baş Məclisinə fəaliyyəti haqqında hesabatlar təqdim edir. 1964-cü-2004-cü illərdə 11 sessiya keçirilmişdir:

- birinci - 1964-cü ildə (Cenevrə, İsveçrə);
- ikinci - 1968-ci ildə (Dehli, Hindistan);
- üçüncü - 1972-ci ildə (Santyaqo, Çili);
- dördüncü - 1976-cı ildə (Nayrobi, Keniya);
- beşinci - 1979-cu ildə (Manila, Filippin);
- altıncı - 1983-cü ildə (Belqrad, Yuqoslaviya);
- yeddinci - 1987-ci ildə (Cenevrə, İsveçrə);
- səkkizinci - 1992-ci ildə (Kartahena, Kolumbiya);
- doqquzuncu - 1996-cı ildə (Midrand, CAR);
- onuncu - 2000-ci ildə (Banqkok, Tailand);
- on birinci - 2004-cü ildə (San-Paulu, Braziliya).

UNCTAD-m sessiyaları beynəlxalq ticarətin ən aktual problemlərinin inkişaf etməkdə olan ölkələrin iqtisadi geriliyinin aradan qaldırılması baxımından müzakirə-sinə həsr edilmiş dövlətlərarası iqtisadi forumlardır. Sessiyanın yekununda müxtəlif hüquqi qüvvəsi olan qətnamələr.

konvensiyalar, sazişlər, məcəllələr qəbul edilir. Qəbul olunan qərarlar tövsiyə xarakteri daşısa da, təşkilatın analitik hesabatları layiqincə qiymətləndirilməlidir. Bu hesabatlar fundamental tədqiqat bazasına istinad etməklə, müxtəlif ölkələrə və onlann təşkilatlarına dünyadakı ümumi ticari-iqtisadi vəziyyəti nəzarətdə saxlamağa, dərc olunan məlumatlardan öz xarici iqtisadi əlaqələrinin inkişafı planlarında istifadə etməyə imkan verir.

Beləliklə, UNCTAD-m yaradılması ilk dövrdə müstəmləkə sisteminin dağılması və siyasi müstəqillik qazanan gənc dövlətlərin dünya ticarətinə yeni, bərabərlik əsasında inteqrasiya olunmaq cəhdləri ilə şərtləndirilmişdi. UNCTAD bu məsələlərin həllində onlara kömək göstəmıəli idi. Müasir dövrdə UNCTAD-m əsas məqsədlərindən biri, inkişaf etməkdə olan ölkələrin beynəlxalq ticarəti onlar üçün daha əlverişli olan şərtlərlə apannaq səylərini cəmləşdirməkdir. Bu, onların iqtisadi müstəqilliyinin möhkəmləndirilməsi və milli təsərrüfatlarının inkişafı üçün lazımi baza yaratmağa imkan verəcəkdir. Konfransın maliyyələşdirilməsi BMT-nin büdcə-sindən və büdcədənkənar resurslar hesabına həyata keçirilir. UNCTAD-ın fəaliyyəti-nin 2 əsas istiqaməti var; 1) inkişaf etməkdə olan ölkələrin dünyanın xammal və kənd təsərrüfatı məhsulları bazarlarında mövqelərini möhkəmlətmək; 2) inkişaf etməkdə olan ölkələrin ixracının əmtəə strukturundakı disproporsiyanın dərin emal olunmuş mallar qmpunun genişləndirilməsi hesabına tədricən aradan qaldırılması.

UNCTAD-m strukturu 22.4-cü şəkildə təsvir olunmuşdur.

UNCTAD-m fəaliyyəti nəticəsində bir sıra mühüm beynəlxalq sazişlər, o cümlədən prefercnsial, xüsusilə də xammalla ticarət rejimləri; zəif inkişaf etmiş ölkələrin borclarının azaldılması; dəniz daşımalarının tənzimlənməsi və s. bağlanmışdır.

***Fəaliyyətdə olan təşkilatlar - hüquqi şəxslər (hüquq subyektləri).*** İndi ayrıca götürülmüş dövlət inkişafın yeganə subyekti olmasa da, əvvəlki kimi, öz tərəqqisinə görə əsas cavabdehlik daşıyır. Dövlətin vəzifəsi yaxud xalqlann hüququ kimi nəzərdən keçirilməsindən asılı olmayaraq, inkişaf səriştəli dövlət idarəçiliyi, ardıcıl milli siyasət və xalqın bu məqsədə sadiqliyini tələb edir. Hərtərəfli inkişaf məsələlərini xaricdən kömək olmadan həll edə bilməyən cəmiyyətlər məlum olsa da, onların sayı azdır. İnkişaf beynəlxalq əməkdaşlığın, o cümlədən dövlətin səylərinə başqa təşkilatlar tərəfindən yardım göstərilməsini tələb edir.




*Şəkil 22.4.* **UNCTAD-ın fəaliyyətinin təşkili strukturu**

Hər bir dövlətin inkişafa öz yanaşması vardır. Hətta bir ölkədə inkişafın bir-biri ilə bağlı olan məsələləri çox zaman müxtəlif dövlət idarələrinin fəaliyyət dairəsinə daxildir. Hazırda ölkənin hökuməti inkişaf sahəsində fəaliyyət göstərən müəyyən beynəlxalq təşkilatda növbə ilə müxtəlif - kənd təsərrüfatı, ətraf mühit, maliyyə, iqtisadiyyat və xarici işlər nazirlikləri ilə təmsil oluna bilər.

İndi ideyaların diapazonu, vəsaitlərin məbləği, layihələrin və cəlb olunan qrupların dairəsi baxımından, inkişaf həqiqətən də qlobal fəaliyyət sahəsinə çevrilmişdir. İnkişaf subyektlərinin - dövlət və özəl, milli və beynəlxalq sayı da getdikcə artır. İnkişaf subyektlərinin və iştirakçılarının çoxsaylı olması nəticəsində isə bəzi cəmiyyətlərdə bu sahədəki səylərin nizamlanması üçün təhlükə yarana bilər. İnkişaf sahəsində aparılan iş daha yüksək səviyyədə əlaqələndirilmə tələb edir. Bundan başqa, resursların inkişafın müxtəlif parametrləri arasında bölgüsü, əvvəlki kimi, qeyri-mütənasibliklə səciyyələnir və buna görə də fəaliyyətin bir çox növləri (xüsusilə də sosial sahədə) kifayət qədər maliyyələşdirilmir. İnkişafa cəlb olunmuş hər bir strukturun öz konkret vəzifələri, proqramı, maraq göstərən qrupları və hərəkət üslubu olduğuna görə

paritetlərin müəyyənləşdirilməsi və əlaqələndirilməsi həlledici əhəmij^ət kəsb etməyə başlayır. Beynəlxalq əməkdaşlığın yaradılan sistemi daxili resursların və xarici köməyin (həm texniki, həm də maliyyə) sülh, iqtisadiyyat, ətraf mühit və demokratiya naminə səfərbərliyini təmin etməlidir.

Nizamnaməyə əsasən BMT-nin orqanlarına inkişaf sahəsində həvalə olunan funksiyalar əlaqələndinnənin yeni səviyyəsini tələb edir. Nizamnamənin IV, IX və X fəsillərinə müvafiq olaraq. Baş Assambleya beynəlxalq iqtisadi və sosial əməkdaşlıq sahəsində əsas məsuliyyəti daşıyır. Fəaliyyətinin ilk 50 ili ərzində Assambleya bütün dövlətlərə aid olan inkişaf məsələlərinin müzakirəsi və müvafiq qərarların qəbul edilməsi üçün universal foruma çevrilmişdir. İqtisadi və İctimai Şura Nizamnamənin X fəslində nəzərdə tutulan funksiyalarına və səlahiyyətlərinə görə, inkişafa aid olan məsələlərin öyrənilməsində və əlaqələndirilməsində geniş vəzifələr dairəsinə malikdir. VII fəslin müddəalarına görə Təhlükəsizlik Şurası sanksiyaların tətbiqi obyektinə çevrilən dövlətlərdə, habelə onunla qonşu və başqa ölkələrdə inkişafın gedişi prosesinə müdaxilə etmək hüququna malikdir. Katiblik məsələlərin mahiyyəti üzrə yardım göstərilməsinin, o cümlədən inkişafın planlaşdırılması və inkişaf siyasətinin işlənib hazırlanması, statistika, energetika, təbii resurslar, dövlət-inzibati fəaliyyət sahələrində inkişafın ehtiyaclarının müəyyənləşdirilməsi üçün texniki kömək göstərilməsinin və məsləhətlər verilməsinin mənbəyidir. Vəzifələrin müxtəlif orqanlar arasında səpələnməsi, hərəkətlərin əlaqələndirilməsinin vacibliyini aydın göstərir. Katiblik regional komissiyaların vasitəsilə sektorlararası proqramların və texniki əməkdaşlıq planlarının üzv-dövlətlərin mənafeyi naminə əlaqələndirilməsinə xidmət edir.

BMT-nin proqramları və fondları hər il operativ fəaliyyətə külli məbləğdə vəsait yönəldir. Onların işi irəlilədikcə, yeni təzahürlər meydana çıxır. Mövzular və məqsədlər üzrə maliyyələşdirməyə doğru meyil, BMT-nin İnkişaf Proqramının (UNDP) qarşısında yeni vəzifələr qoyur və resipiyent- dövlətlərin insanların rifahı naminə dayanıqlı inkişaf proqramlarının ardıcıllıqla həyata keçirilməsini dəstəkləyir. Digər meyil əsas istinad nöqtəsinin inkişafdan, fövqəladə yardım göstərilməsi üzərinə keçirilməsidir. Məsələn, Dünya Ərzaq Proqramının işi barədə danışıldıqda, görürük ki, onun göndərişlərinin ümumi həcmi rekord səviyyəyə çatsa da, uzunmüddətli inkişaf məqsədlərinə deyil, təqribən 3/5 hissəsi zərurət üzündən fövqəladə yardım göstərilməsinə yönəldilmişdir. Zorakılıq, sosial sarsıntılar yaxud ehtiyacla

təqib olunan təqribən 25 milyon qaçqın və 30 milyon məcburi köçkünün köməyə ehtiyacı var. 2009-2010-cu illərdə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı tərəfindən bu məqsədlərə 2800 milyon ABŞ dolları sərf olunmuşdur.

BMT sisteminin ixtisaslaşmış təşkilatlarının öz nizamnamələri, büdcələri və rəhbər orqanları var. Onlar birlikdə xalis şəkildə güzəştli şərtlərlə 9,3 milyard ABŞ dolları məbləğində borc və onlarla əlaqədar olan 12,3 milyard ABŞ dolları məbləğində kreditlər verir. İxtisaslaşmış təşkilatların operativ vəsaitlərinin təqribən 40%-i BMT-nin proqramlarından və fondlarından daxil olur. Üzv-dövlətlər də onlara konkret layihələrin yerinə yetirilməsi üçün vəsait ayırmalıdır. Yeni təzahürlər də meydana çıxır. Xeyli müddət ərzində DB və BVF əsasən makroiqtisadi sabitliyin və iqtisadi artımın konkret problemləri ilə məşğul olan təşkilatlar kimi nəzərdən keçirilirdi və hesab olunurdu ki, uzunmüddətli sosial inkişaf məsələləri BMT-nin başqa təşkilatlarının səlahiyyətindədir. Qlobal inkişafın yönümündə və xarakterində baş verən dəyişikliklər bu dixotomiyanın başqa tərzdə dərk olunmasını tələb edir. Birincisi, «ilkin» və «törəmə» məsələlər arasındakı fərq çözülür. Belə ki, indi Bretton-Vuds idarələri sosial inkişaf və struktur yenidənqurması proqramları ilə əlaqədə sosial müdafiə sistemlərinin yaradılması məsələləri ilə məşğul olur. BVF məsləhətvermə yardımının göstərilməsinə daha çox cəlb edilir və yüksək səmərəliliklə inkişaf məqsədləri üçün orta müddətə vəsaitlər ayırır. Dünya Bankı borc verərkən ekoloji nəticələrə diqqət yetirir və struktur yenidən-qunnalarmm sosial cəhətlərinin maliyyələşdirilməsinə vəsait ayırır. İkincisi, beynəlxalq kreditlərin və investisiyaların miqyasının artdığı şəraitdə DB-nin kreditləri bilavasitə öz mülahizələri əsasında verməsi artıq əvvəlki kimi böyük rol oynamır, bunun əvəzində isə özəl kapital bazarları üçün ölkənin kredit qabiliyyəti göstəricisi kimi böyük çəkiyə malikdir. Üçüncüsü, kreditlərin şərtləri hökumətlərin siyasət məsələlərində hərəkət azadlığını məhdudlaşdırır və bununla da, daxili qeyri-sabitlik riskini yüksəldir. Bütün bu təzahürlər Bretton-Vuds təşkilatlarının siyasi məsələlər üzrə məsləhətlərinin və onların əməliyyatlarının inkişaf subyektlərinin yanaşmaları və təcrübəsi ilə daha güclü əlaqələndirilməsinin zəruriliyini sübut edir.

Regional sazişlər və təşkilatlar dünyada getdikcə daha nəzərəçarpan təzahürə çevrilir və hər il inkişaf məqsədlərinə təqribən 5,5 milyard dollar ayrılır. Regionçuluq BMT-də təcəssüm olunan beynəlmiləlçiliyin alternativi və

ona zidd deyil. Regional əməkdaşlıq hərtərəfli inkişafın zəruri şərtlərindəndir. Regional ticari birliklər milli müəssisələrin məhsullarının satış bazarlarını genişləndirir və ticarət üçün imkanlar açan regionlararası müqavilələrin bağlanmasını stimullaşdırır. Regional səviyyədə göstərilən yardım sayəsində bütün region miqyasında inkişaf problemlərini həll etmək və harada meydana çıxmasından asılı olmayaraq, praktiki ehtiyacları həll etmək mümkündür. Su resursları, elektrikləşmə, nəqliyyat, rabitə və səhiyyə sistemləri kimi sahələrdə ümumregional yanaşmaların tətbiqi müsbət nəticələr verir. Regional əlaqələndirmə transmilli səviyyədə qəbul edilən qərarların tarazlaşdırılmasmı, nisbətən aşağı bürokratik strukturlar arasında rəqabət nəticəsində meydana çıxan problemlərin həllini təmin edir. Ancaq regionçuluq özündə proteksionizm və yeni bürokratik təbəqələrin yaranması təhlükəsini də daşıyır. Hərtərəfli inkişaf zərurətindən yaranan regionçuluğun daha yüksək əlaqələndinnəyə təsir göstərməsi üçün bu prosesin diqqətlə idarə olunması gərəkdir.

Qeyri-hökumət təşkilatları (QHT) həyata keçirilməsinə hər il 10 milyard ABŞ dolları xərclənən layihələri həyata keçirir. Münaqişələr yarandıqda, artıq uzun illər ərzində sülhün bərpasında fəal rol oynayan QHT-lər həmin yerə birincilər sırasında gəlir, zərər çəkmiş əhaliyə təcili fövqəladə yardım göstərir, müharibə nəticəsində parçalanmış cəmiyyətin bərpasının təməlini qoyur. Çevik struktura, özəl maliyyə vəsaitlərini səfərbər etmək imkanlarına və fədakar heyətə malik olan QHT-lər inkişaf məqsədlərinə xidmət edə bilən böyük potensiala malikdir. Son onilliklərdə qeyri-hökumət təşkilatlarının sayının və nüfuzunun fenomenal artımı müşahidə edilir. Onlar yeni qlobal şəbəkələr yaradır və böyük beynəlxalq konfransların iştirakçıları kimi, müstəsna dərəcədə mühüm rol oynayırlar. Qeyri-hökumət təşkilatları ilə BMT-nin səylərinin birləşdirilməsi, onlar arasında məsləhətvermə və əməkdaşlıq sahəsində daha məhsuldar münasibətlərin qurulması zamanı yetişmişdir.

Beynəlxalq özəl investisiya axınlarının yüz milyard dollar həcminə çatması əhalinin məşğulluğunun artması, texnologiyaların ötürülməsi, kadrların hazırlanması, ticarətin inkişafının dəstəklənməsi üçün geniş imkanlar açır. Bu proses nəticəsində yaranan dinamizm ölkələrin durğunluq keçirən iqtisadiyyatını canlandırır, onların dünya iqtisadi sisteminə inteqrasiyası üçün imkanlar açır. Xarici birbaşa investisi-yalar ölkələrin öz inkişafında istifadə edə biləcəyi texnoloji imkanların sayma pozitiv təsir göstərə bilər. Özəl

sahibkarlıq, əvvəl müstəsna olaraq dövlət orqanlarının səlahi}q/ətinə aid edilən problemlərin həlli işində pozitiv amil kimi getdikcə daha çox qəbul olunur. Bəzi ölkələrdə özəl şirkətlər kommunal xidmətlər sahəsində, məsələn, telekommunikasiyada, nəqliyyatda, energetikada, tullantıların emalında və su təchizatında səmərəli fəaliyyət göstərir. Bir sıra hallarda dövlət şirkətlərinə verilən subsidiyaları məqsədli subsidiyalarla əvəz etmək yolu ilə bəzi istehlakçılardan xidmətlərin real dəyərini almaq, dövlət vəsaitlərini isə daha geniş, ilk növbədə, sosial-mədəni xarakterli ehtiyacların ödənilməsinə yönəltmək düzgün olardı.

Akademik və elmi cəmiyyətlər hələ bir neçə əsr öncə elmi axtarışların və tədqiqatların qlobal sistemini yaratmağa başlamışdır. İndi planetimizdə nəzəri biliklərlə, araşdırmalarla və yaradıcılıqla məşğul olan minlərlə tədqiqat mərkəzinə malik olan, ideyalar və təcrübə ilə mübadiləni bir an ərzində təmin edən təşkilatlar var. Bu təşkilatlar əsasən fənlərarası, habelə millətlərarası xarakter daşıyan işləri ilə köhnə kateqoriyaları yenidən təşkil edir, onları yeni, sosial baxımdan faydalı modellərə inteqrasiya edir. Müəyyən təməl maraqlarını, dəyərləri və nonuaları bölüşdürərək, elmi cəmiyyət ümumdünya əlaqələr şəbəkəsini təşkil edir. Bu cəmiyyət uzun müddət ərzində toplanılan elmi və humanitar nailiyyətlərindən cari problemlərin həlli, elmi-texniki tərəqqinin sürətləndirilməsi, insan hüquqlarının müdafiəsi, beynəlxalq ictimaiyyətin diqqətinin inkişaf üzərində cəmləşdirilməsi üçün istifadə edir.

İqtisadi siyasətin işlənib hazırlanması hərtərəfli, etibarlı infonuasiya bazasının qurulmasını tələb edir. Hökumət və özəl qurumlar tərəfindən planlaşdırma və qərarların qəbulu prosesləri yalnız dəqiq və ən yeni məlumatlara istinad etdikdə, səmərəli ola bilər. Əhalinin iqtisadi, sosial və siyasi həyatda iştirakı, onun yaxşı məlumatlandırıldığı halda fəallaşa bilər.

Adekvat məlumat bazasına malik olmayan ölkə apardığı ikitərəfli və çoxtərəfli danışıqlarında əlverişsiz vəziyyətə düşür. Onların beynəlxalq iqtisadi, demoqrafik, sosial və ekoloji proseslər barədə məlumat əldə etmək imkanı təkcə düşünülmüş qərarların qəbul olunması üçün deyil, beynəlxalq bazarlarda həyata keçirdikləri əməliyyatların rəqabət qabiliyyətinin və səmərəliliyinin təmin olunması üçün də vacibdir. Məlumatları və statistik göstəriciləri fəal surətdə toplamaq yolu ilə BMT sistemi üzv-dövlətlər üçün mühüm, amma hələ də lazımi qədər istifadə olunmayan informasiya kapitalıdır. BMT informasiya və kommunikasiya infrastrukturlarının yaradılması və

təkmilləşdirilməsi sahəsində texniki əməkdaşlığın ön cərgəsindədir. Bu səylərin əhəmiyyəti hamı tərəfindən bəyənilsə də, üzv-dövlətlər tərəfindən daha fəal dəstəklənməlidir.

BMT məlumatların toplanması və sistemləşdirilməsi məsələlərinə ümumi və müqayisəli yanaşmaları işləyib hazırlayır, rabitə vasitələri üçün vahid standartlar tətbiq edir, məlumatların toplanması metodlarını təkmilləşdirir, beynəlxalq səviyyədə səmərəli informasiya mübadiləsinə yardım göstərir, məlumatların təhlilində və qiymətləndirilməsində, kadrların hazırlanmasında, infonnasiyadan istifadə olunmasında yardım göstərir.

BMT sistemi demoqrafik planlaşdırma, səhiyyə, dövlət idarəçiliyi və dövlətin inzibati fəaliyyəti, sosial təminat məsələlərinin həlli üçün məşğulluq, əməyin ödənilməsi və gəlirlər barədə məlumatların toplanması, təhlili və istifadəsi sahələrində beynəlxalq əməkdaşlığın təşkilinin təşəbbüskarıdır. Bu fəaliyyətin məqsədi xalqlara və hökumətlərə düşünülmüş qərarlar qəbul etməkdə yardım göstənnəkdir. Birləşmiş Millətlər Təşkilatı bəşərijryətin tərəqqisinin kəmiyyətcə qiymətləndirilmə-sinə yeni mövqedən yanaşaraq, insan inkişafının yalnız ÜDM-in əhalinin hər nəfərinə düşən məbləği göstəricisi ilə məhdudlaşdırılmayan statistik təsvirini verməyə səy göstərir. UNDP tərəfindən dərc olunmuş «İnsan resurslarının inkişafı haqqında Hesabat» inkişafın qiymətləndirildiyi parametrlərə yenidən baxılmasının başlanğıcını qoymuşdur.

Ölkələrdə iqtisadi fəallığı nəzarətdə saxlamaq yaxud iqtisadi, sosial və ekoloji dəyişiklikləri müşahidə etməyə imkan verən dürüst statistik göstəricilər düşünülmüş qərarların qəbul olunmasının ilkin şərtidir və milli inkişafda irəliləyişlərin əldə olunmasında uğurların zəminidir. Ölkələrin öz iqtisadi statistikası barədə dolğun təsəvvürlər əldə etməsi üçün yeni milli hesablar sistemi çox vacibdir. Elm ailə planlaşdırılmasmm yeni, təhlükəsiz, sadə və səmərəli metodlarının işlənib hazırlanması, ekoloji təhlükəsiz enerji mənbələrinin aşkarlanması, aqrotexnikanm təkmilləşdirilməsi, epidemioloji şəraitin yaxşılaşdırılması və bir sıra başqa tədqiqatlar sayəsində inkişaf variantlarının seçim dairəsini genişləndirə bilər. O qədər də açıq bəyan olunmasa da, sosial araşdırmalar, humanitar elmlər və sənətşünaslıq sahələrində aparılan tədqiqatlar da mühüm əhəmiyyətə malikdir. Çoxdan etiraf olunduğu kimi, onlar insan həyatını rəngarəngləşdirməklə yanaşı, cəmiyyətin çoxsaylı fonnada təzahür olunan əsas xüsusiyyətlərinə və ehtiyaclarına yeni

Dini icmalar, yerli assosiasiyalar və özünəyardım qrupları kimi aşağı təşkilatlar inkişafın iqtisadi, sosial, insani və ekoloji cəhətlərinin qarşılıqlı əlaqəsini dərk edir. Onlar, kiçik olduğu üçün diqqətdən yayma biləcək icmaların ehtiyacları ilə təmasda olduğuna görə, inkişaf sahəsində biliklərin toplanılması prosesinə qarşılıqlı istiqa-mətlənmə xarakteri verir. Aşağı və yerli təşkilatların fəaliyyəti maliyyə çətinlikləri ilə qarşılaşdığına görə, bir çox hallarda onların texniki yardıma ehtiyacı var. Vəsaitlərin əsasən yerli səviyyədə səfərbər olunması tələbinin qoyulmasına baxmayaraq. Birləşmiş Millətlər Təşkilatı aşağı təşkilatlara yardım göstərməklə, mikro-səviyyədə keçirilən tədbirləri dəstəkləyə bilir. Müasir dövrdə inkişaf prosesində iştirak edən şəxslərin sayı, onların fəaliyyətində əks olunan qlobal meyillər, problemlərin və onların həlli mexanizmlərinin qarşılıqlı asılılığı inkişaf problematikasmm daha dərindən dərk olunması və inkişaf məqsədlərinə nail olunma-sında daha qətiyyətli addımların atılmasının vacibliyini əyani surətdə sübut edir.

## 22.9. BMT sisteminin tərkibinə daxil olmayan beynəlxalq təşkilatların fəaliyyəti

İƏİT vaxtilə 1947-ci ildə ABŞ-m dövlət katibi A.Marşall tərəfindən təklif edilmiş və «Marşall planı» adı ilə məşhurlaşmış Avropanın Bərpası Proqramı (European Recovery Programmer) bazasında yaradılan Avropa İqtisadi Əməkdaşlıq Təşkilatının, İƏT-in xələfidir. 1948-ei ildə 16 Avropa dövlətinin bərpasını nəzərdə tutan bu proqramın əlaqələndirilməsi üçün İƏT yaradılmışdı.

Təşkilatın üzvləri Avstriya, Belçika, Danimarka, Fransa, Yunanıstan, İslandiya, İtaliya, Lüksemburq, Niderland, Norveç, Portuqaliya, İsveç, İsveçrə, Türkiyə, Böyük Britaniya, Almaniyanın ingilis-amerikan və fransız işğal zonaları idi. 1949-cu ildə Almaniya təşkilatın tam hüquqlu üzvü oldu, 1950-ei ildə isə Kanada və ABŞ assosiasiya olunmuş üzv kimi qəbul edildi. İlkin dövrdə təşkilatın fəaliyyəti əsasən Avropanın Bərpası Proqramının həyata keçirilməsi ilə məhdudlaşırdısa, sonradan onun çərçivəsində üzv-dövlətlər arasında ticarətin liberallaşdırılması və çoxtərəfli hesablaşmalar sisteminin yaradılması yolu ilə iqtisadi əməkdaşlığın stimullaşdırılmasma istiqamətlənmiş proqramlar həyata keçirilmişdi.

1960-cı ildə Parisdə İƏT iştirakçıları və bir sıra ölkələr arasında İƏİT-in

təsis olunması haqqında Konvensiya imzalandı və onların parlamentləri tərəfindən ratifikasiya olunduqdan sonra 1961-ci ildə qüvvəyə mindi. İƏİT-ə 31 dövlət daxildir: Avstraliya, Avstriya, Belçika, Böyük Britaniya, Maearıstan, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İslandiya, İspaniya, İtaliya, Kanada, Lüksemburq, Meksika, Niderland, Yeni Zelandiya, Norveç, Polşa, Portuqaliya, Koreya Respublikası, ABŞ, Türkiyə, Finlandiya, Fransa, Çexiya, İsveçrə, İsveç, Yaponiya, Sloveniya, Slovakiya.

*İƏİT-in əsas vəzifələri və funksiyaları:*

- üzv-dövlətlərdə iqtisadi artımın stimullaşdırılması və maliyyə sabitliyinin saxlanmasına yönəlmiş siyasətin formalaşdırılması, əlaqələndirilməsi və həyata keçirilməsi;
- üzv-dövlətlərin inkişaf etməkdə olan ölkələrə maliyyə və texniki yardımın göstərilməsi sahəsində səylərinin stimullaşdırılması və əlaqələndirilməsi;
- ayrı-seçkilik tədbirlərini istisna edən beynəlxalq ticarətin genişlənməsini dəstəkləmək;

*İƏİT-in sadələşdirilmiş sxemi:*

- Baş orqan - Şura (Baş Katiblik);
- Direktorluqlar;
  - icra direktorluğu;
  - maliyyə, büdcə-vergi siyasəti və sahibkarlıq üzrə direktorluq;
  - ərzaq məhsulları, kənd təsərrüfatı və balıqçılıq üzrə direktorluq;
  - ictimai}^ət və kütləvi infonuasiya vasitələri ilə iş üzrə direktorluq;
  - inkişaf məsələlərində əməkdaşlıq üzrə direktorluq;
  - İƏİT-ə daxil olmayan ölkələrlə əməkdaşlıq üzrə direktorluq;
  - ticarət üzrə direktorluq;
  - ətraf mühitin mühafizəsi üzrə direktorluq;
  - iqtisadiyyat məsələləri üzrə direktorluq;
  - statistika üzrə direktorluq;
  - dövlət sektorunun idarəçiliyi üzrə xidmət;
  - təhsil, məşğulluq, əmək və sosial məsələlər üzrə direktorluq;
  - elm, texnologiyalar və sənaye üzrə direktorluq.

Təşkilatı bütün üzv-dövlətlərin təmsil olunduğu Şura idarə edir. İƏİT-in fəaliyyəti beynəlxalq katibliklə birlikdə konkret problemləri tədqiq edən və siyasi, 0 cümlədən iqtisadi inkişaf, texniki əməkdaşlıq, beynəlxalq ticarət.

energetika və ətraf mühitin mühafizəsi sahələrində tövsiyələr hazırlayan 100-dən çox ixtisaslaşmış komitə və işçi qrupları tərəfindən həyata keçirilir. Şura 1974-cü ildə təsis olunmuşdur.

İƏİT-in rəhbərliyi altında hazırlanan sənədlər sırasında TMK-nın Davranış Məcəlləsini (BMT tərəfindən 1970-ci illərdə qəbul edilmişdir), habelə TMK-nın maliyyə hesabatlarının hazırlanması qaydalarına həsr olunmuş rəhbərlik qaydalarını xatırlatmaq lazımdır. İƏİT-in idarələri müasir dövrün siyasi, iqtisadi, mədəni və başqa qlobal və regional problemlərinin müzakirə olunduğu beynəlxalq forumları dəstəkləməklə, böyük faydalı iş görür.

İƏİT-in təşkilatları:

• Beynəlxalq Enerji Agentliyi (lEA - International Energy Agency);

• Nüvə Enerjisi üzrə Agentlik (NEA - Nuclear Energy Agency);

• Təhsil Sahəsində Tədqiqatlar və Yeniliklər Mərkəzi (CERI - Centre for Education Research and Innovation);

• İnkişaf Mərkəzi (DC - Development Center);

• Ərazilərin İnkişafı Xidməti - (SDT - Service of Development of Territories).

*Beynəlxalq Nüvə Enerjisi Agentliyinin* məqsədi energetika sahəsində beynəlxalq əməkdaşlığı stimullaşdırmaq və üzv-dövlətlərin neft idxalından asılılığını azaltmaqdır. 1974-cü ildən fəaliyyət göstərir.

*Nüvə Enerjisi üzrə Agentlik* İƏİT üzvü olan dövlətlər arasında atom enerjisindən sülh məqsədləri üçün istifadənin inkişafı sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsinə xidmət edir.

*Təhsil Sahəsində Tədqiqatlar və Yeniliklər Mərkəzi* 1968-ci ildə təhsil sahəsində tədqiqat fəaliyyətinin inkişafının həvəsləndirilməsi və dəstəklənməsi məq-sədilə təsis olunmuşdur. İƏİT-in üzvü olan bütün dövlətlər CERI-nin iştirakçısıdır.

*İƏİT-in İnkişaf Mərkəzi* təşkilatın Şurasının qərarı ilə 1962-ci ildə, üzv-dövlətlərin iqtisadi inkişaf, habelə iqtisadi yardım göstərilməsi üzrə ümumi siyasətinin işlənməsi və yeridilməsi təcrübəsi sahəsində biliklərini və təcrübəsini birləşdirmək məqsədilə yaradılmışdır. İƏİT-in üzvü olan bütün dövlətlər Mərkəzin fəaliyyətində iştirak edir.

İƏİT-in işində ixtisaslaşmış orqan *o\ar\ İnkişafa Yardım Komitəsi* (DAC - Development Assistance Committe) mühüm rol oynayır. Üzv-dövlətlərə,

habelə inkişaf etməkdə olan ölkələrə yardım göstərilməsi; inkişaf etməkdə olan ölkələrə verilə biləcək resursların lazımi həcmdə təmin olunması; ölkələrə dayanıqlı inkişafın təmin olunmasında, dünya iqtisadiyyatında iştirak potensialının yaradılmasında yardım göstərilməsi kimi məsələlərə baxılma onun funksiyalarına aiddir. 1993-cü ildən DAC inkişaf üçün rəsmi yardım alan ölkələrin siyahısına yenidən baxmışdır və buraya Mərkəzi və Şərqi Avropanın dövlətləri daxil edilmişdir. 1995-ci ildə qəbul olunan «Dəyişmiş dünyada inkişaf sahəsində əməkdaşlıq» adlı sənəddə üzv-dövlətlərin dayanıqlı iqtisadi və sosial inkişafın təmin edilməsinə yönəlmiş səylərinin dəstəklənməsinin əsas istiqamətləri göstərilir. 1990-cı ildə İƏİT çərçivəsində təşkilatla Şərqi Avropa ölkələri arasında əlaqələrin tənzimlənməsi məqsədilə Avropanın keçid iqtisadiyyatlı ölkələri ilə əməkdaşlıq Mərkəzi təsis olunmuşdur. Bu Mərkəzdə aşağıdakı istiqamətlər üzrə kadr hazırlığı da aparılır: iqtisadi inkişaf və strukturun yenidən qurması; rəqabət; əmək bazarı; banklar və sosial siyasət; bank işi və maliyyə və s.

İƏİT üzv-dövlətlər üçün açıq olan «İnvestisiyalar üzrə Çoxtərəfli Saziş» işləyib hazırlamışdır. Komitələr qrupu sənayedə və kənd təsərrüfatında iqtisadi resurslardan səmərəli istifadə olunmasına yardım məsələləri ilə də məşğul olur. İƏİT-in fəaliyyəti təşkilatın üzvü olan dövlətlərin ödədiyi üzvlük haqları hesabına maliyyələşdirilir. İƏİT-in bir sıra beynəlxalq təşkilatlarla - BƏT, UNESCO, BVF, UNCTAD və s. ilə rəsmi münasibətləri var.

***G-7 və G-8.*** «Group-7» (G-7) 1975-ci ildə Fransa Prezidenti Jiskar d'Estenin təşəbbüsü əsasında dünyanın aparıcı dövlətlərinin rəhbərlər tərəfindən iqtisadiyyatın ən mühüm məsələlərinin hər il müzakirə edilməsi məqsədilə yaradılmışdır. Bu qrupa ABŞ, Yaponiya, Almaniya, Böyük Britaniya, Fransa, İtaliya və Kanada daxil idi.

Qeyd etməliyik ki, bu ölkələrin liderləri daim, xüsusilə də 1990-cı illərdə dünya sosializm sistemi dağıldıqdan və kapitalizm dəyərlərini seçən yeni ölkələr üçün köklü dəyişikliklər dövrü başlandıqdan sonra dünya iqtisadiyyatının aktual problemlərinə diqqət yetirmişdir. 1997-ci ildə Rusiyanın G-7-yə daxil olması barədə təklifin verilməsi də məhz həvəsləndirici qrant kimi qəbul olunmalıdır.

Ancaq 2003-cü ilədək Rusiyanın tam hüquqla «yeddiliyin» tərkibinə daxil .olması baş verməmişdi və əsas iqtisadi məsələlərə liderlər tərəfindən əvvəlki kimi bu çərçivədə baxılırdı. Rusiyanın iqtisadi vəziyyətinin, xüsusilə

də neft-qaz sektorundakı mövqelərinin möhkəmlənməsi və ölkə prezidentinin müstəqil xarici siyasət yeritməsi, Qərbin «kiçik tərəfdaşı» statusundan imtina etməsi onunla münasibətlərə yenidən baxılmasına təkan venuiş oldu. Ehtimal ki, məhz bu amillər həmin məsələdə həlledici rol oynamışdır. Rusiyanın ÜDM-nin həm ümumi həcmi, həm də əhalinin hər nəfərinə düşən məbləği göstəricilərinin təkcə inkişaf etmiş ölkələrdən deyil, həmçinin, inkişaf etməkdə olan ölkələrin böyük qrupundan geridə qalmasına baxmayaraq, G-7-nin liderləri beynəlxalq iqtisadi münasibətlərə ciddi təsir göstərən (qeyri-rəsmi olsa da) bu təşkilatda Rusiyaya bərabərhüquqlu status vennişdir. Xatırladaq ki, 2005-ci ildə Şotlandiyada keçirilmiş sammitdə «səkkizliyin» liderləri zəif inkişaf etmiş ölkələrə (yoxsulluq səviyyəsinə görə inkişaf etməkdə olan ölkələrin siyahısını qapayan) 50 milyard dollar həcmində yardım göstərilməsi, habelə inkişaf etməkdə olan ölkələrin borclarının silinməsi barədə qərar qəbul etmişdilər. Faktiki qiymətləndinnəyə əsasən, Rusiya 2005-ci ildə silinən borcların məbləğinə (15 milyard dollar) görə aparıcı yerlərdən birindədir.

***«Group-77»*** - İnkişaf etməkdə olan ölkələrə iqtisadiyyatın inkişafı planlarının fonualaşdırılmasında və be3məlxalq ticarətdə UNCTAD çərçivəsində yardım göstərilməsi məqsədilə yaradılmışdır. Hazırda bu qrupa 122 ölkə daxildir.

***«Group-10»*** - BVF çərçivəsində yaradılan qrupdur və Belçika, Böyük Britaniya, İtaliya, Kanada, Niderland, ABŞ, AFR, Fransa, İsveç, Yaponiya onun üzvləridir. BVF üzvü olmayan İsveçrə assosiasiya olunmuş üzvdür.

***«Group-5»-3*** - ABŞ, Fransa, Yaponiya, Almaniya və Böyük Britaniya daxildir. Adətən maliyyə nazirləri və ya mərkəzi bankların direktorları səviyyəsində təmsil olunan bu ölkələr ildə bir dəfə iqtisadi məsələlər üzrə müşavirə keçirir.

«Group-5» 2005-ci ildə ÜTT çərçivəsində keçirilən danışıqların sonuncu raundu (Doha, Qətər, 2001-ci il) zamanı inkişaf etmiş ölkələrlə kompromis əldə edilməsi məqsədilə yaradılmışdır. Buraya Braziliya, Çin, Hindistan, Meksika və CAR daxildir. Həmin dövrdən «beşlik» G-8 ilə əməkdaşlıq edir və bu münasibətlər 2008-2010-cu illərin qlobal böhranı dövründə xüsusilə intensiv olmuşdu.

***«Group-20».*** G-20 sənayesi inkişaf etmiş və bazarları formalaşmaqda olan ölkələrin dövlət və hökumət başçılarını birləşdirən qeyri-rəsmi beynəlxalq forumdur. G-20-nin üzvləri; Argentina, Avstraliya, Braziliyä, Böyük Britaniya,

Almaniya, İndoneziya, Hindistan, İtaliya, Kanada, ÇXR, Meksika, Rusiya Federasiyası, Səudiyyə Ərəbistanı, Türkiyə, Fransa, CAR, Cənubi Koreya, Yaponiya, Avropa İttifaqı (Aİ), BVF və DB-dir. BVF və DB tərəfindən forumda BVF-in sərəncamçı direktoru və DB-nin prezidenti, habelə bu təşkilatların komitələrinin - Beynəlxalq Valyuta-Maliyyə Komitəsinin (International Monetary and Financial Committee), İnkişaf üzrə Komitənin (Development Committee) sədrləri iştirak edir. Dünya üzrə ÜDM-in 90%-i, ticarətin 80%-i (Aİ daxilində ticarət daxil olmaqla), habelə əhalinin Ya hissəsi G-20 ölkələrinin payına düşür.

Qlobal iqtisadi böhran zamanı G-8-in nüfuzunun azalması, G-20-nin isə artması meyilləri açıq-aşkar görünməyə başladı. Mahiyyətcə, son sammitlərin ən vacib qərarları artıq G-20 çərçivəsində qəbul olunur.

*Nazirlər qrupu-20.* «Group-20» (G-20) beynəlxalq forumunun yaradılması haqqında qərar *«yeddilər» ölkələrinin* maliyyə nazirlərinin və mərkəzi bank rəhbərlərinin *25 sentyabr 1999-cu ildə Vaşinqtonda* keçirilən görüşündə qəbul edilmişdir. G-20-ni yaradılması ideyası «Group-7»-nin liderlərinin Kölndəki (iyun, 1999-cu il) görüşündə «...sistemyaradıcı ölkələr arasında Bretton-Vuds sistemi çərçivəsində dialoq üçün qeyri-rəsmi mexanizm işləyib hazırlamaq» barədə birgə öhdəliyindən irəli gəlmişdir. Bu ideya görüş haqqında rəsmi məlumatda inkişaf etdirilmiş və «dünyanın sistem yaradan əsas dövlətləri arasında iqtisadi və maliyyə siyasətinin həlledici məsələləri üzrə dialoqun genişləndirilməsi, dünya iqtisadiyyatı-nın bütün ölkələrin mənafeyi naminə sabit və dayanıqlı inkişafına nail olmaq məq-sədilə əməkdaşlığın gücləndirilməsi» G-20-nin məqsədi kimi müəyyən olunmuşdur.

Maliyyə nazirlərinin və mərkəzi bankların rəhbərlərinin G-20-nin təsis olunması üzrə Konfransı 15-16 dekabr 1999-cu ildə Berlində keçirilmişdir. G-20-nin özünün əməkdaşlar ştatı yoxdur. Sədr-ölkə öz sədrliyi müddətində qrupun işini əlaqələndirən və görüşləri təşkil edən müvəqqəti Katiblik təyin edir. G-20-nin sədri rotasiya əsasında 1 il müddətinə seçilir və üzv-dövlətlərin maliyyə nazirlərinin, mərkəzi banklarının rəhbərlərinin və onların müavinlərinin (Rusiya Bankının sədri daimi əsasda iştirak edir) görüşünün (görüşlərinin) keçirilməsini təmin edir; üzv-dövlətlərin «nazirlər» görüşünün yekun sənədində toxunulacaq əsas məsələlərin müzakirəsi üçün seminarları təşkil edir.

Təsis olunduğu vaxtdan etibarən ilk 3 il ərzində G-20-yə Kanada sədrlik

dəyişir. G-20 ölkələri 5 qrupa bölünmüşdür, onlardan hər birindən sədr 5 ildə bir dəfə seçilir.

G-20-nin əvvəlki, cari və gələcək sədrlərindən ibarət olan «Üçlüyünün» təsisi barədə qərar 2002-ci ildə qəbul edilmişdir.

«Üçlüyə» iclasların gündəliyinin tərtibi, məruzəçilərin seçilməsi (G-20-nin üzvləri ilə məsləhətləşmələrdən sonra), iclasların təşkili məsələləri həvalə edilmişdir. Hazırda «Üçlük» Braziliya, Böyük Britaniya və Koreya Respublikasından ibarətdir.

***G-20-nin Vaşinqton (15 noyabr 2008-ci il) vo London (2 aprel 2009-cu il) Sammitləri.*** Qlobal böhranın ən güclü tüğyan etdiyi dövrdə, 15 noyabr 2008-ci ildə ABŞ-ın Prezidenti C.Buş Vaşinqtonda 2 qrupun - G-8 və G-20- nin sammitini çağırdı və onları dünyada baş verən iqtisadi böhranın aradan qaldırılması üzrə əlaqə-ləndirilmiş tədbirlərin həyata keçirilməsinin vacibliyinə inandırmağa çalışdı. Bir çox təhlilçilərin rəyinə görə, dünyanın aparıcı iqtisadi gücləri gündəliyə daxil edilən məsələlərin heç biri üzrə ümumi rəyə gələ bilmədi. Amma həyati əhəmiyyət kəsb etdiyinə görə, razılaşma nəyin bahasına olursa-olsun, əldə olunmalı idi: G-20 ölkələri dünya üzrə istehsal olunan ümumi məhsulun 90%-ni cəmləşdirirdi və onların qəbul edəcəyi qərar qlobal böhranın dinamikasını mühüm dərəcədə müəyyənləşdirirdi.

Əslində, G-20-nin tarixində ilk olan bu sammit bütövlükdə beynəlxalq iqtisadi münasibətlər sistemi üçün mühüm mərhələ olmuşdur. Zahirən dünyanın aparıcı iqtisadiyyatlarının rəhbərlərinin bu görüşünün praktiki baxımdan heç bir əhəmiyyətli nəticə verməməsi təəssüratı yaransa da, əslində belə deyildi. Məsələn, onun Yekun sənədində ən iri maliyyə qurumları üzərində maliyyə nəzarətçiləri kollegiyalarının və mühasibat hesabatının vahid ümumdünya standartlarının yaradılması diqqətəlayiqdir. Sammitdə dünya maliyyəsinin idarə olunması prinsiplərinin dəyişdirilməsinin. Maliyyə Sabitliyi Forumunun (maliyyə nəzarətinin texniki tərəfini tənzimləyən və mərkəzi banklardan ibarət olan təşkilat) tərkibinin genişləndirilməsinin, BVF və Dünya Bankının əsaslı yenidən qurulmasının vacibliyi qeyd olunmuşdu.

Bununla yanaşı, Sammitin ən mühüm nəticələrindən biri qismində, G-20-nin dünyadakı rolunun dəyişməsini və aparıcı ölkələrin «səkkizlik» kimi nüfuzlu klubunun təsir gücünün zəifləməsini (bunu əminliklə demək olar) göstərmək olar.

*G-20-nin London Sammiti.* Belə görünürdü ki, «iyinniliyin» London

görüşü qlobal xarakterli qərarların qəbulunun yeni mühüm mərkəzinin formalaşmasının ifadəsidir. Bir sıra mühüm qərarların qəbul olunmasına aşağıda göstərilən 2 məqam təsirini göstənnişdir.

Birincisi, onların Vaşinqton görüşü dövründə bəzi (bəlkə də əksər) ölkələr 2009-cu ildə böhranın genişlənməsinin dayanacağını, zəifləyəcəyini, payızın əvvəlində isə canlanma fazasının başlanacağını ehtimal edirdi. Bir çox ekspert-təhlilçilər və beynəlxalq təşkilatlar qlobal böhranın məhz bu cür keçəcəyini təsvir edirdi. Əslində isə, tamamilə əks hal yarandı: böhran daha da dərinləşdi, investisiyalar ixtisar olundu, işsizlik artdı, sosial və əmək şəraiti pisləşdi. Bu cür inamsızlıq və qeyri-sabitlik vəziyyətində qlobal iqtisadi siyasətin bir sıra prinsipal müddəalarına (hərçənd hamısına yox), beynəlxalq maliyyə-iqtisadi təşkilatlann (BVF, G-8) fəaliyyəti məsələlərinə toxunan ümumi anti-böhran tədbirləri üzrə razılığın əldə olunması üçün nisbətən əlverişli siyasi fon yarandı.

Bununla əlaqədar qeyd olunmalıdır: 2009-cu il London sammiti *Avropa qitəsində iqtisadiyyatın tənzimlənməsi modelinin yaradılmasında* böyük uğur olmuşdur. Sammitin yekun Bəyanatında Almaniya və Fransanın, demək olar ki, bütün tələbləri nəzərə alınmışdı. «Böyük yeddilik» nəzdindəki Maliyyə Sabitliyi Forumu (MSF) Maliyyə Sabitliyi Komitəsinə (Financial Stabilility Board) çevrilmişdir, MSF-nin Beynəlxalq Flesablaşmalar Bankı nəzdində Bazeldə fəaliyyət göstərən azsaylı Katibliyi isə qlobal maliyyə vəziyyətinə daha böyük səmərə ilə nəzarət edə biləcək ciddi orqanla əvəz olunmuşdur. Bütün tərəflər sistem baxımından mühüm olan hecinq fondları üzərində nəzarətin sərtləşdirilməsinin vacibliyi ilə razılaşdı. Hecinq fondlarının 52%-nin ofşor zonalarının, qalanlarının 65%-nin ABŞ-ın, 16%-nin Böyük Britaniyanın və yalnız 15%-nin avrozona ölkələrinin payına düşdüyü nəzərə alınarsa, bu, son dərəcə mühüm, sıçrayış əhəmiyyəti olan qərar olmuşdu. Beləliklə, maliyyə sahəsinin cəmi 7%-nə nəzarət edən, amma bunun ciddi tənzimlənməsi tərəfdarları olan ölkələr qalan iştirakçıların fəaliyyətinə «göz qoymaq» hüququ qazandı.

Lakin dünyanın inkişaf etməkdə olan ölkələri (Çin, Hindistan, Braziliya, CAR, Rusiya və başqaları) ümumilikdə öz təkliflərini reallaşdıra bilmədi. Sammitdən əvvəl Rusiya tərəfi «qərarların qəbulunda demokratiyanı və nəticələrinə görə bərabər məsuliyyəti», «risklərin ədalətli bölgüsünü», BVF kvotalarının «düzgün» bölgüsünü və «hamıya bəlli olan qaydaları əsasında

fəaliyyət göstərən beynəlxalq valyuta-maliyyə sisteminin əvvəlcədən proqnozlaşdırılması imkanının olmasını» nəzərdə tutan tədbirlərin uzun siyahısını təqdim etmişdi. Rusiya tərəfi hesab edirdi ki, «ölkələrin əksəriyyəti öz ehtiyatlarını xarici valyutada saxladığına görə onların etibarlılığına əmin olmalıdır» və buna «ehtiyat valyutaların emitenti olan ölkələr tərəfindən mütləq qaydada riayət edilməli olan beynəlxalq makroiqtisadi və büdcə siyasəti standartları» kömək edə bilər. Rusiya nümayəndələrinin «ehtiyat qismində istifadə olunan valyutaların siyahısının genişləndirilməsi» tələbinə Çin də qoşulmuşdu. Amma bu məsələ, ölkələrin əksəriyyətinin ABŞ-a qarşı tənqidi münasibətinə baxmayaraq, dolların alternativini görməməsi səbəbindən geniş müzakirə olunmadı.

Avropalılar (ilk növbədə, Fransa Prezidenti N.Sarkozi və Almaniya Kansleri A.Merkel) Maliyyə Sabitliyi Komitəsinə ali menecerlərin mükafatlandırılmasmm beynəlxalq standartlarını müəyyənləşdirmək səlahiyyətinin verilməsinə nail oldular’.

Yeri gəlmişkən, Rusiyanın iri korporasiyalarında ali menecerlərin mükafatı avropalılarla müqayisədə çoxdur və amerikalıların həddən artıq şişirdilmiş mükafatlandırma formalarına uyğundur. Təzad bundadır ki, Rusiya korporasiyalarının, demək olar ki, hamısı və onların idarəçiliyi son dərəcə səmərəsizdir, nə müasir şirkətlərin, nə də menecerlərin iş standartlarına uyğun deyil. Amma bu menecerlərlə adi işçilərin əmək haqqındakı fərq Avropadakı və Amerikadakı ilə müqayisə 40-50 dəfə çoxdur.

İndi bütün ölkələr öz bank sektorunun vəziyyəti barədə tam informasiya venuəyə borcludur (2002-ci ilədək ABŞ bundan imtina edirdi).

London sammitinin ən mühüm qərarlarından biri də ofşorların sayının və orada hərəkət sərbəstliyinin məhdudlaşdırılmasıdır. Bu zaman dörd əsrdən artıq müddətdə öz müştərilərinin bank sirrini qoruyan İsveçrənin güclü müqaviməti qarşıya çıxdı. Amma bu ölkə ABŞ, Fransa, Almaniya və Böyük Britaniyanın birgə təzyiqinə davam gətinnədi. Mühasibat hesabatlığının vahid sisteminin vacibliyi hamı tərəfindən qəbul olunmuşdur və onun ABŞ-ın GAAP deyil, Avropanın IFRS əsasında yaradılacağı ehtimalı daha çoxdur. Nəhayət, reytinq agentlikləri ciddi beynəlxalq nəzarət altında yenidən qeydiyyatdan keçməlidir.

^ 2007-ci ilin yekunlarına görə, avrozonanın 50 iri korporasiyasının rəhbər şirkətlərinin mənfəəti ABŞ şirkətləri ilə müqayisədə cəmi 15% az olmasına baxmayaraq, 14,8 dəfə aşağı bonus və əmək haqqı almışdı.

Amerikalılar bütün bu təkliflərlə razılaşsa da, tətbiq olunmasının iri korporasiyalar, onların hökumətdəki və parlamentdəki lobbiçiləri tərəfindən müqavimətlə qarşılanması ehtimalı var.

***Beynəlxalq Dəniz Təşkilatı*** *{IMO - International Maritime Organization,* 1982-ci ilədək Hökumətlərarası Dəniz Məşvərət Təşkilatı) - BMT tərəfindən özünün ixtisaslaşmış idarələri siyahısına daxil edilmiş beynəlxalq hökumətlərarası təşkilatdır. 1958-ci ildə Dəniz konfransının BMT- nin rəhbərliyi altında 1948-ci ildə keçirilmiş konfransının qərarına uyğun olaraq yaradılmışdır. Təşkilata 140 dövlət (o cümlədən Rusiya və assosiasiya olunmuş üzv - Syanqan, Honkonq) daxildir.

IMO-nun məqsədləri dəniz gəmiçiliyinin texniki məsələləri, dəniz üzgüçülüyünün təhlükəsizlik nonrıalarma riayətin təmin olunması, bir sıra dövlətlər tərəfindən ticarət gəmiçiliyində tətbiq edilən ayrı-seçkilik hallarının aradan qaldırılmasıdır.

IMO beynəlxalq dəniz konvensiyalarının layihələrini işləyib hazırlayır və onlara riayət olunmasına nəzarət edir, gəmiçilik məsələləri üzrə konfranslar çağırır. IMO çərçivəsində *dənizdə təhlükəsizlik, hüquqi məsələlər, dəniz mühitinin mühafizəsi və texniki əməkdaşlıq üzrə* komitələr fəaliyyət göstərir.

IMO-nun fəaliyyəti əsasən tövsiyə və məşvərət xarakteri daşıyır. Ali orqanı 2 ildə bir dəfə çağırılan *Assambleyadır,* onun sessiyaları arasında təşkilata assambleya tərəfindən seçilən, 32 nəfərdən ibarət *Şura* rəhbərlik edir. IMO-nun inzibati işçi orqanı *Katiblikdir*. Mənzil-qərargahı Londonda yerləşir.

***Beynəlxalq Mülki Aviasiya Təşkilatı*** *(İCAO - International Civil Aviation Organization)* BMT-nin hökumətlərarası ixtisaslaşmış idarəsidir, I944-CÜ ildə təsis olunmuş, 1947-ci ildə fəaliyyətə başlamışdır. Dövlətlər arasında əməkdaşlıq və mülki aviasiya sahəsində be}məlxalq standartların işlənib hazırlanması məsələləri ilə məşğul olur, üzv-dövlətlərin kadr hazırlığı və ixtisas dərəcəsinin yüksəldilməsi sahəsində təcrübəsini ümumiləşdirir. SSRİ 1970-ci ildən ICAO-nun üzvü idi. Ali orqanı Assambleyadır (3 ildə bir dəfə toplaşır). Monrealda (Kanada) yerləşir.

***Ümumdünya Həmkarlar İttifaqları Federasiyası*** *{WFTU - World Federation of Trade Unions)* - demokratik həmkarlar ittifaqlarının ən böyük beynəlxalq birliyidir. Həmkarlar ittifaqlarının 1945-ci ildə Parisdə keçirilən I Ümumdünya konqresində təsis olunmuşdur. Nizamnaməsinə uyğun olaraq, WFTU-nun əsas vəzifələri: müharibələrə və onları doğuran səbəblərə qarşı

mübarizə aparmaq, dünya zəhmətkeşlərinin mənafelərini qorumaq, dünyanın bütün ölkələrində həmkarlar ittifaqlarının zəhmətkeşlərin iqtisadi və sosial hüquqlarına və iqtisadi azadlıqlarına təcavüzə qarşı mübarizəsinin təşkili, zəhmətkeşlərin beynəlxalq həmrəyliyi məsələləri üzrə həmkarlar ittifaqı üzvləri arasında maarifçilik işinin təşkili və s. ibarətdir. WFTU-yə 100-dən çox ölkənin həmkarlar ittifaqları (200 milyondan artıq üzv) daxildir.

WFTU nəzdində həmkarlar ittifaqlarının sahələr üzrə beynəlxalq birlikləri yaradılmışdır. Fəhlələrə tətillər keçirərkən, təbii fəlakətlər, qəzalar baş verdikdə yardım göstərilməsi, habelə müstəmləkədən azad olmuş ölkələrdə həmkarlar ittifaqı hərəkatının maddi dəstəklənməsi məqsədilə Zəhmətkeşlərin Beynəlxalq Həmrəylik Fondu fəaliyyət göstərir.

WFTU BMT-də və onun ixtisaslaşmış təşkilatlarında - BƏT, ECOSOC, UNESCO, FAO, UNIDO və UNCTAD-da məşvərətçi statusdan istifadə edir.

***Beynəlxalq Azad Həmkarlar İttifaqları Konfederasiyası*** *(ICFTU - International Confederation of Free Trade Unions)* - həmkarlar ittifaqlarının üzvlərinin sayına görə ikinci beynəlxalq birliyidir. 1949-cu ildə Ümumdünya Həmkarlar İttifaqları Federasiyasının parçalanması nəticəsində yaradılmışdır. 100-dən çox ölkənin həmkarlar ittifaqlarını birləşdirir. ICFTU-nun özəyini Qərbi Avropanın və Şimali Amerikanın həmkarlar ittifaqları təşkil edir.

***Avropa Həmkarlar İttifaqları Konfederasiyası*** *{ETUC - Enropean Trade Union Confederation)* — 36 ölkənin (27 Aİ-nin üzv-dövləti, Andorra, İslandiya, Xorvatiya, Lixtenşteyn, Monako, Norveç, San-Marino, İsveçrə və Türkiyə). Onun əsas məqsədi «Avropa sosial modelini», yəni iqtisadi tərəqqinin sosial müdafiə, sosial bazar iqtisadİ3^atı ilə ahəngdar olan cəmiyyət yaratmaqdır.

***Panavropa Regional Həmkarlar İttifaqları Şurası*** *(PERC - Pan-European Regional Council).* Həmkarlar İttifaqları Beynəlxalq Konfederasiyasının (ITUC) 4 regional bölməsindən biridir. Avropanın 55 ölkəsinin 87 milli həmkarlar ittifaqını birləşdirir.

***Parlamentlərarası İttifaq*** *(JPU - İnter-Parliamentary Union)* — 100-dən çox ölkənin parlament üzvlərindən (milli parlament qruplanndan) ibarət olan bejməlxalq qeyri-hökumət təşkilatıdır. 1889-cu ildə Parisdə təsis olunmuşdur. SSRİ 1955-ci ildə ittifaqın üzvü olmuşdur. IPU-nun nizamnaməsi təşkilata daxil olan parlamentlərin üzvləri arasında əlaqələrin, demokratik qurumların möhkəmləndirilməsi və inkişafı üzrə fəaliyyətin, habelə sülhün qorunması və

xalqlar arasında əməkdaşlığın dəstəklənməsini nəzərdə tutur. IPU-nun qərarları üzv-dövlətlərin parlamentləri tərəfindən tövsiyə kimi qəbul olunur.

***Beynəlxalq Kooperasiya Alyansı*** (ICA - International Co-operative Alliance) - istehlak, kənd təsərrüfatı, kredit və s. kooperativlərin milli və regional ittifaqlarını və federasiyalarını birləşdirən beynəlxalq qeyri-hökumət təşkilatıdır. 1895-ci ildə yaradılmışdır, 60-dan çox ölkənin milli təşkilatlarını və 7 beynəlxalq kooperasiya təşkilatını birləşdirir. ICA-nın əsas məqsədləri kooperasiya hərəkatının inkişafını dəstəkləmək, müxtəlif ölkələrin kooperasiyaları arasında əməkdaşlıq əlaqələri qunnaq, sülhü və təhlükəsizliyi möhkəmlətməkdir. ICA-nın konqreslərində SSRİ «Sentrosoyuzunun» və başqa ölkələrin mütərəqqi kooperasiya təşkilatlarının təşəbbüsü ilə kooperasiya və həmkarlar ittifaqı hərəkatlarının fəaliyyətinin birləşməsinə, *transmilli korporasiyalar* əleyhinə mübarizənin gücləndirilməsinə, Avropa ölkələri arasında əməkdaşlığın genişlənməsinə istiqamətlənmiş bir sıra qərarlar qəbul olunmuşdur. BMT-nin İqtisadi və İctimai Şurası və UNESCO yanında məşvərət statusuna malikdir. ICA-nın Ali orqanı Konqresdir. Mənzil-qərargahı Cenevrədə (İsveçrə) yerləşir.

***Beynəlxalq Qırmızı Xaç*** *(IRC - International Red* Cross) - məqsədi yaralılara, hərbi əsirlərə və müharibənin digər qurbanlanna, xəstələrə və təbii fəlakətdən zərər çəkənlərə yardım göstərmək olan milli və beynəlxalq təşkilatların birliyidir. IRC-ə Qınmzı Xaç və Qızıl Aypara (müsəlman ölkələrində). Qırmızı Şir və Günəş (İran) milli cəmiyyətləri. Qırmızı Xaç Cəmiyyətləri Liqası *(LRCS - League of Red Cross Societies)* və Beynəlxalq Qırmızı Xaç Komitəsi *(ICRC - International* Committee of the *Red* Cross) daxildir. IRC-ə daxil olan milli və beynəlxalq təşkilatlar hüquqi cəhətdən müstəqildir. IRC-in Ali orqanı Beynəlxalq Konfransdır. IRC-in rəhbər orqanları Cenevrədə (İsveçrə) yerləşir.

***Beynəlxalq Olimpiya Komitəsi*** *(lOC - International Oiympic Committee)* - müasir olimpiya hərəkatının ali orqanıdır. 1894-cü ildə Parisdə keçirilən Beynəlxalq konqresdə yaradılmışdır. lOC-un vəzifəsi mütəmadi olaraq Olimpiya Oyunlarını keçirmək və onların təkmilləşdirmək, həvəskar idmanın inkişafını dəstəkləmək, bütün ölkələrin idmançıları arasında dostluğu möhkəmləndirməkdir. lOC milli olimpiya komitələrinin (NOC) və beynəlxalq federasiyaların tanınması haqqında qərarlar qəbul edir (lOC tərəfindən 160 NOC, 30 beynəlxalq federasiya tanınmışdır). Olimpiya Oyunlarının proqramını

və keçirilmə yerini müəyyənləşdirir. lOC qeyri-olimpiya idman növləri üzrə federasiyaların fəaliyyətini də dəstəkləyir. lOC-un İcra Komitəsi 8 il müddətinə seçilən prezidentdən, onun 3 müavinindən və 5 üzvdən ibarətdir. lOC-un mənzil-qərargahı Lozannada (İsveçrə) yerləşir.

## 22.10. Avropa Şurasının, Britaniya Millətlər Birliyi (BCN), Şimal Əməkdaşlığı (NC), Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (OSCE), «İslam Konfransı» Təşkilatının (QIC) fəaliyyətinin xüsusiyyətləri

*Avropa Şurası (CE - Coımcil of Europe)* - 1949-cu ildə yaradılmış genişprofilli hökumətlərarası təşkilatdır. Onun mənzil-qərargahı Strasburqda (Fransa) yerləşir. Avropa Şurasının üzvləri Avropanın 40 ölkəsidir (Rusiya 1996-cı ildə qəbul edilmişdir).

Avropa Şurası öz səylərini aşağıdakı fəaliyyət istiqamətlərinə yönəldir;

- insan hüquqları;
- kütləvi informasiya vasitələri;
- hüquqi sahədə əməkdaşlıq;
- sosial və iqtisadi məsələlər;
- səhiyyə, təhsil, mədəniyyət, irs, idman, gənclərin problemləri, yerli və regional idarəetmə;
- ətraf mühit.

Avropa Şurasının fəaliyyəti konvensiya və sazişlərin işlənib hazırlanmasına yönəlmişdir və üzv-dövlətlər onların əsasında qanunvericiliklərini eyniləşdirir və orada dəyişikliklər aparır. Avropa Şurasının rəhbər və direktiv orqanı *Nazirlər Komitəsidir*. Onun tərkibinə 40 üzv-dövlətin xarici işlər nazirləri yaxud daimi nümayəndələri daxildir.

*Avropa Şurasının Parlament Assambleyası - AŞPA (PACE - Parliamentary Assembly of the Coımcil of Europe)* Avropa Şurasının məşvərətçi orqanıdır və 40 milli parlamentin nümayəndələrindən ibarətdir. Parlament Assambleyası çərçivəsində aşağıdakı iqtisadi və sosial istiqamətlərə rəhbərlik edən xüsusi komitələr yaradılmışdır:

- iqtisadi məsələlər və inkişaf məsələləri;
- kənd təsərrüfatı və kənd yerlərinin inkişafı;
- elm və texnika;

• sosial məsələlər;
• ətraf mühit.

Avropa Şurası ümumavropa qanunvericiliyinin işlənib hazırlanmasında, 0 cümlədən elmi-texniki tərəqqinin nailiyyətləri ilə əlaqədar meydana çıxan hüquqi və etik xarakterli problemlərin həllində mühüm rol oynayır. CE tərəfindən hazırlanan konvensiyalar, onları ratifikasiya edən dövlətlər üçün məcburi qüvvəyə malik olan hökumətlərarası hüquqi əməkdaşlığın əsas elementləridir. Sahibkarlıq fəaliyyətinin hüquqi təminatı konvensiyalan sırasına cinayətkarlıq fəaliyyətindən əldə edilmiş gəlirlərin yuyulması, aşkar olunması, götürülməsi və müsadirəsi haqqında konvensiya daxildir. Nazirlər səviyyəsində əməkdaşlığın fənlərarası orqanı olmaqla (28 üzv-dövlət daxildir), «Pompidou Group» narkomaniya və narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi ilə mübarizə məsələləri ilə məşğul olur.

CE ətraf mühit və regional planlaşdırma sahəsində Avropada ətraf mühitin mühafizəsinə və ərazilərin kompleks abadlaşdınıması və inkişafının planlaşdırılması üzrə bir sıra normativ aktlar hazırlamışdır. Avropada canlı təbiətin və ətraf mühitin mühafizəsi üzrə Bern Konvensiyası kimi məlum olan sənəd təbiətin mühafizəsinin bütün cəhətlərini əhatə edir. Bu Konvensiya 1982-ci ildə qüvvəyə minmiş və Avropa Şurasının üzvü olan 28 dövlət, bir sıra başqa ölkələr, o cümlədən Afrikanın Seneqal və Burkina-Faso ölkələri tərəfindən ratifikasiya olunmuşdur. 1970-ci ildən mütəmadi çağırılan Nazirlərin Regional Planlaşdırma Məsələləri üzrə Avropa Konfransı (CEMAT - Conference of Ministers Responsible for Spatial/Regional Planning) qarşısında birləşmiş Avropada fasiləsiz iqtisadi və sosial inkişafı, ətraf mühitin mühafizəsini nəzərdə tutan regional planlaşdımıa siyasətinin həyata keçirilməsi məqsədini qoyur.

Avropa Regional Planlaşdırma Xartiyası regional planlaşdırmanın qlobal, funksional və uzunmüddətli konsepsiyasını işləyib hazırlamış və burada əsas prioritetlər müəyyənləşdirilmişdir: regionların harmonik sosial-iqtisadi inkişafı; ətraf mühitin qorunması və torpaqdan səmərəli istifadə olunması.

Sosial sahədə Avropa Şurası sosial müdafiə səviyyəsinin yüksəldilməsini və məşğulluğa yardım göstərilməsini, peşə hazırlığını və zəhmətkeşlərin hüquqlarının qorunmasını təmin etmək niyyətindədir. 1997-ci ildə 2 tövsiyə qəbul olunmuşdur: məşğulluq üzrə dövlət xidmətlərinin təşkili, fəaliyyəti və rolu haqqında; kiçik və orta müəssisələrin inkişafı haqqında. İş yerlərinin əsas

əmək bazarlarından kənarda yaradılması, Avropa ölkələrinin iqtisadiyyatında struktur dəyişikliklərinin sosial və iqtisadi nəticələrinin təhlili üzrə iş aparılmaqdadır.

Son dövrlərdə 1956-cı ildə yaradılan və Avropa Şurasının maliyyə orqanı kimi Sosial İnkişaf Fondunun fəaliyyətində sosial yönüm daha çox nəzərə çarpır. Fond aşağıdakı istiqamətlərin maliyyələşdirilməsi üçün investisiya kreditlərinin ümumi dəyərinin 40%-i həcmində vəsait ayırır;

- iqtisadi baxımdan əlverişsiz olan zonalardakı kiçik və orta müəssisələrdə iş yerlərinin yaradılması;
- peşə hazırlığı üzrə proqramların həyata keçirilməsi;
- mənzil tikintisi və sosial infrastruktumn yaradılması;
- ətraf mühitin mühafizəsi - təmizləyici qurğular, tullantıların yenidən emalı;
- kənd bölgələrinin müasirləşdirilməsi - baza infrastrukturunun yaradılması.

Avropa Şurasının fəaliyyətinin mühüm cəhəti istehlakçıların sağlamlığının qorunması sisteminin yaradılmasıdır. Bu fəaliyyət çərçivəsində ərzaq məhsulları istehsal edilərkən, habelə dərmanlarda, kosmetikada, onların qablaşdırılmasmda istehlakçılar üçün təhlükəli olan kimyəvi vasitələrdən istifadəyə nəzarət sistemlərinin inkişafı stimullaşdınhr.

*Britaniya Millətlər Birliyi (BCN - British Commonwealth of Nations).* Bu qrupa Britaniya imperiyasının keçmiş müstəmləkələri və dominionları daxildir. Hazırda Birlik suveren müstəqil dövlətlərin könüllü təşkilatıdır və məqsədi əməkdaşlıq və qarşılıqlı yardım göstərməkdir. Birlik müqavilə əsasında yaradılma-mışdır, yazılı konstitusiya aktı yaxud nizamnaməsi yoxdur. Üzv-dövlətlərin qarşılıqlı münasibətləri 1931-ci il Vestminster statutunda müstəqil, bərabər hüquqlu və könüllü birləşmiş ölkələr kimi müəyyənləşdirilmişdir. 1971-ci ildə qəbul olunmuş Birliyin prinsipləri haqqında Bəyannamədə geniş ümumi maraq dairəsi: sülhün və təhlükəsizliyin qorunması; bütün vətəndaşların bərabər hüquqları; tərəqqinin təmin olunması üçün beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi; ölkələrin maddi rifahı səviyyələrindəki fərqlərin kəskinliyinin zəiflədilməsi; vətəndaşlann demokratik və siyasi proseslərdə iştirak hüququnun təmin edilməsi - olan ölkələrin əməkdaşlığının könüllülüyü təsdiqlənir. 53 ölkə Birliyin üzvüdür.

Birliyin fəaliyyətinin əsas istiqamətləri bunlardır:

• siyasi və iqtisadi əməkdaşlığın dəstəklənməsi;

• üzv-dövlətlərin iqtisadiyyatının dayanıqlı inkişafına yardım göstərilməsi;

• məsləhətvemıə, təmsilçilik və infonnasiya funksiyalarının yerinə yetirilməsi;

• Birliyin proqramlarının hazırlanması və yerinə yetirilməsi, iqtisadi və sosial inkişaf, texnologiya, elm, təhsil, peşə hazırlığı, insan hüquqları, demokratiya və s. məsələlər üzrə konfransların, seminarların, praktikumlarm və başqa tədbirlərin həyata keçirilməsi.

Birliyin başçısı Böyük Britaniyanın Kraliçasıdır.

Birlik dövlətlərinin hökumət başçılarının görüşləri 2 ildə bir dəfə keçirilir. Bu görüşlərdə beynəlxalq vəziyyət məsələləri, regional problemlər, iqtisadi, sosial, mədəniyyət məsələləri. Birliyin proqramları müzakirə olunur. Qərarlar konsensus əsasında qəbul edilir. Nazirlərin məşvərət və məsləhətləşmə xarakterli görüşləri mütəmadi olaraq maliyyə, ticarət, təhsil, əmək və s. nazirlərinin iştirakı ilə keçirilir.

Mərkəzi əlaqələndirici orqan və əsas hökumətlərarası struktur Baş katibin rəhbərlik etdiyi Katiblikdir. Baş katib və onun 3 müavini (siyasi məsələlər üzrə; iqtisadi və sosial məsələlər üzrə; texniki əməkdaşlıq məsələləri üzrə) hökumətlərin başçıları tərəfindən təyin olunur. Katiblik proqramlann hazırlanması və konfransların, seminarların təşkili, müxtəlif tədbirlərin keçirilməsi ilə məşğul olur. Katiblik təqribən 300 təşkilatla, o cümlədən 200 qeyri-hökumət təşkilatı ilə əlaqə saxlayır. Katiblik öz işində üzv-dövlətlərdə peşəkar qruplar arasında əlaqələrin genişlənməsini dəstəkləyən, assosiasiyaların yaradılmasına, konfransların keçirilməsinə və peşə hazırlığına yardım göstərən Birlik Fonduna istinad edir.

Katibliyin fəaliyyəti 5 müxtəlif büdcədən (fonddan) - Birliyin büdcəsindən; Birliyin Elmi Şurasının büdcəsindən; Texniki Əməkdaşlıq Fondundan; Birliyin Gənclər proqramı xətti ilə; Texnologiyaların İdarə Olunması üzrə Məşvərətçi Qrup - tərəfindən ayrılan vəsaitlər hesabına maliyyələşdirilir. Birliyin Texniki Əməkdaşlıq Fondu hökumətlərin ianələri hesabına maliyyələşdirilir. Bu Fond Katibliyin inkişaf sahəsində işinin əsas maliyyə təminatçısıdır. Fond üzv-dövlətlərə kömək edir, ekspertlərin, məsləhətçilərin xidmətləri, milli kadrların hazırlanması üzrə xərcləri ödəyir.

***Şimal Əməkdaşlığı (NC - Nordic Coımcil).*** Hazırda bu təşkilata 1952-ci

ildə təsis olunan Şimal Şurası və 1971-ci ildə yaradılan Şimal Nazirlər Şurası daxildir. Onun 5 üzv-dövləti var: Danimarka, Norveç, İsveç, Finlandiya, İslandiya. İqtisadi sahədə Şimal Əməkdaşlığının qarşısına qoyduğu məqsədlər bunlardır:

• transsərhəd əməkdaşlığı dəstəkləmək və yerli əhali üçün fayda verən layihələri həyata keçirmək;

• Şimal ölkələrində istehsal olunan məhsulların keyfiyyətinin və rəqabət qabiliyyətinin yüksəldilməsini təmin etmək;

• ətraf mühitin mühafizəsini və təbii resurslardan ekoloji istifadəni təmin etmək;

• məşğulluq səviyyəsini yüksəltmək, əmək şəraitini və sosial təminatı yaxşılaşdırmaq.

Təşkilat EC ilə, xüsusilə də ekoloji siyasət və təbii resurslardan balanslaşdırılmış istifadə olunması, beynəlxalq cinayətkarlıq və narkotiklərin qeyri-qanuni dövriyyəsi, tədqiqatlar sahəsində siyasət üzrə sıx əməkdaşlıq edir. Şimal Əməkdaşlığı çərçivəsində iqtisadi problemlərin həlli ilə aşağıdakı təşkilatlar məşğul olur:

• Texnoloji və Sənaye İnkişafının Şimal Fondu (Oslo, Norveç) - texnoloji inkişafın və innovasiyaların stimullaşdırılması;

• Şimal İnnovasiya Bankı (Helsinki, Finlandiya) - Şimal regionunun inkişafına bank şərtləri ilə borcların və zəmanətlərin verilməsi; layihələrin maliyyələşdirilməsi və Şimal ölkələrinin ixracının dəstəklənməsi;

• Şimal Layihə Fondu (Helsinki, Finlandiya) - Şimal ölkələrinin sənayesinin və ticarətinin rəqabət qabiliyyətinin yüksəldilməsi; regionda sənaye sahəsində əməkdaşlığın inkişafına yardım göstərilməsi.

Şimal Şurasının fəaliyyəti onun nizamnaməsi ilə, 1962-ci ilin mayından isə Helsinki Müqaviləsi və Şimal Şurasının reqlamenti ilə tənzimlənir. Onun vəzifəsi Şimal ölkələrinin parlamentləri və hökumətləri arasında əməkdaşlığa yardım göstərməkdir. Şimal Nazirlər Şurası 1971-ci ildə Helsinki Müqaviləsinə edilən dəyişikliklər əsasında yaradılmışdır. Onun səlahiyyətləri dairəsinə Şimal Şurasına təkliflər vermək yolu ilə Şimal ölkələri arasında əməkdaşlığın idarə olunması və Şuranın tövsiyələrinin yerinə yetirilməsi daxildir.

*Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı - ATƏT (OSCE - Organization for Security and Co-operation in Europe).* Təşkilat 1975-ci ildə dialoqun, danışıqların aparılması, siyasi və mədəni əməkdaşlıq (o vaxt Qərb və

SSRİ arasında), habelə üzv-dövlətlərin siyasi iradəsinin ifadə olunması məqsədilə yaradılmışdır.

ATƏT-in iqtisadi sahədə funksiyaları aşağıdakı müddəalarla müəyyənləşdirilir:

• bütün Avropanın dayanıqlı iqtisadi inkişafının təmin edilməsi;

• beynəlxalq təşkilatlarla təmasların və praktiki əməkdaşlığın möhkəmləndin İməsi;

• ətraf mühitin mühafizəsi sahəsində real əməkdaşlıq;

• Avropada sülhün və təhlükəsizliyin, habelə insan hüquqlarının, bütün Avropa xalqlarının iqtisadi və sosial tərəqqisinin, rifahının təmin olunması.

ATƏT hər bir vətəndaşın hüquqlarını, o cümlədən mülkiyyətə sahiblik və sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq hüququnu təyin etməklə, onların öz iqtisadi, sosial və mədəni hüquqlarından istifadə etmək hüquqlarını təsdiqləyir. ATƏT-in 55 üzvü var. Onun strukturuna daxil olan Ali vəzifəli şəxslər Komitəsi iqtisadi forum qismində ildə bir dəfə sessiya keçirir. Qeyd edək ki, ATƏT-in 1996-cı ildə Praqada keçirilən dördüncü iqtisadi forumunda Biznes üzrə Avropa Şurasının yaradılması haqqında qərar qəbul edilmişdi.

1991-ci ildə qəbul olunan Sülh və Əməkdaşlıq haqqında Roma Bəyannaməsində ATƏT bütün Avropa ölkələrinin, habelə ABŞ və Kanadanın insan hüquqları, əsas hüquqlar, demokratiya, qanunçuluq, təhlükəsizlik və iqtisadi azadlıq sahələrində ümumi normaların müzakirəsi üçün toplaşdığı yeganə Avropa forumu kimi nəzərdən keçirilir.

ATƏT-in BMT ilə münasibətləri BMT-nin Katibliyi ilə bağlanılmış çərçivə müqaviləsinə və BMT-nin Baş Məclisində müşahidəçi statusuna əsaslanır. BMT-nin Nizamnaməsinə uyğun olaraq, ATƏT Avropada baş verən münaqişələrin Təhlükəsizlik Şurasının müzakirəsinə çıxarılanadək sülh yolu ilə həllinə səy göstənnəli olan regional təşkilatdır.

***«İslam Konfransı» Təşkilatı (OIC - Organisation of İslamic Cooperation)*** 1969-cu ildə müsəlman ölkələrinin dövlət və hökumət başçılarının Rabatda (Mərakeş) keçirilən Konfransında yaradılmışdır. Onun Nizamnaməsi 1972-ci ildə qəbul edilmişdir. OIC regional təşkilat deyil və müxtəlif bölgələrdə yerləşən müsəlman dövlətlərini birləşdirir. OlC-in üzvü yalnız müsəlman dövlətləri ola bilsə də, bu cəhət onu dini təşkilata çevirmir. OIC - qarşısına ən mühüm beynəlxalq problemlər üzrə müsəlman dövlətlərinin mövqelərinin yaxmiaşdırılması, siyasətlərinin əlaqələndirilməsi məqsədi qoyan

tipik beynəlxalq təşkilatdır. OlC-ə 50 müsəlman dövləti, o cümlədən Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan daxildir. Rusiya 2005-ci ildən təşkilatda müşahidəçi kimi iştirak edir.

OlC-in məqsədləri:

• iqtisadi, sosial, mədəni, elmi sahələrdə əməkdaşlığın inkişafı;

• üzv-dövlətlər arasında beynəlxalq təşkilatlarda məsləhətləşmələr keçirilməsi;

• müsəlman həmrəyliyinin möhkəmləndirilməsi;

• müsəlman xalqlarının milli istiqlaliyyət uğrunda mübarizədə birləşdirilməsi;

• irqçiliyin və müstəmləkəçiliyin bütün fonnalarınm və təzahürlərinin aradan qaldırılmasının dəstəklənməsi;

• torpaqlarının azad olunması uğrunda mübarizə aparan Fələstin xalqına yardım göstərilməsi.

OlC-in Ali orqanı - İslam dünyasının ən mühüm siyasi, iqtisadi, sosial və dini problemlərini müzakirə etmək və bu istiqamətlərdəki siyasətləri əlaqələndirmək məqsədilə 3 ildə bir dəfə çağırılan dövlət və hökumət başçılarının Konfransıdır. Üzv-dövlətlərin nazirlərinin Konfransı OlC-in cari məsələlərini müzakirə etmək üçün hər il çağırılır. 1980-ci ildə nazirlər Konfransı tərəfindən İKT-nin Baş Katibliyinin 11 nazirinin daxil edildiyi, daimi fəaliyyət göstərən nazirlər Komitəsi yaradılmışdır. OIC çərçivəsində bir sıra daimi komitə və komissiya fəaliyyət göstərir. Baş Katibliyə 2 il müddətinə seçilən Baş Katib rəhbərlik edir. OIC BMT-də daimi müşahidəçi statusuna

## 22.11. Beynəlxalq Əmək Təşkilatı

Beynəlxalq Əmək Təşkilatı (ILO - International Labour Organization) - dünyanın müxtəlif ölkələrini təmsil edən hökumətləri, sahibkarları və zəhmətkeşləri bərabər hüquq əsasında birləşdirən beynəlxalq təşkilatdır.

***Məqsədləri və vəzifələri.*** BƏT əmək münasibətlərinin beynəlxalq normalarını və onlara riayət olunmasına nəzarət prosedurlarını işləyib hazırlayır. Təşkilat 1919-cu ildə Versal müqaviləsi əsasında. Millətlər Liqasının tərkib hissəsi kimi yara-dılmışdır. İkinci Dünya müharibəsi dövründə BƏT-in mənzil-qərargahı Monrealda (Kanada) yerləşirdi. 1944-cü ilin mayında Filadelfiyada keçirilən Baş Konfransda müharibədən sonrakı dövrdə BƏT-in

məqsədlərini müəyyən edən Bəyannamə qəbul edilmişdi. 1946-cı ildə BMT-nin Baş Məclisi BƏT və BMT arasında müqaviləni təsdiq etmiş və BƏT-i BMT-nin ixtisaslaşmış təşkilatı qismində tanımışdır.

Cenevrədə (İsveçrə) yerləşir. Üzv-dövlətlərinin sayı 206-dır (2006-cı ildə). SSRİ 1934-1940-cı illərdə BƏT-in üzvü olmuşdur. 1954-cü ildə təşkilata yenidən qəbul edilmişdir, Rusiya 1969-cu ildən BƏT-in üzvüdür. BƏT Nobel mükafatına layiq gömlmüşdür.

BƏT-in fundamental prinsipləri bunlardır:

- əmək əmtəə deyil;
- söz azadlığı və birləşmək azadlığı - daimi tərəqqinin zəruri şərtləridir;
- yoxsulluq istənilən yerdə ümumi ictimai rifah üçün təhlükə yaradır;
- əmək qabiliyyətli hər bir insan işləmək və ona görə layiqli həyat tərzi keçinnəyə imkan verən mükafat almaq hüququna malikdir.

Nizamnaməsinə uyğun olaraq, *BƏT-in məqsədləri* sosial ədalət əsasında ümumi və möhkəm sülhün əldə edilməsi, bütün insanların irqindən, əqidəsindən, cinsindən asılı olmayaraq, öz maddi rifahına və mənəvi inkişafına azadlıq və ləyaqətinə hörmət, iqtisadi dayanıqlıq və bərabər imkanlar şəraitində nail olmasına imkanlar açmaqdır.

BƏT tam məşğulluğun təmin olunmasına, həyat səviyyəsinin yüksəldilməsinə, zəhmətkeşlərin əməyinin təhlükəsizliyinə və sağlamlığına, insanın əsas hüquqlarına riayət olunmasına çalışır, iqtisadi və sosial proqramların yerinə yetirilməsinə, sahibkarlar və işçilər arasında əməkdaşlığın güclənməsinə yardım göstərir.

Bu məqsədlə BƏT əmək və həyat şəraitinin yaxşılaşdırılmasının beynəlxalq siyasətini və proqramlarını işləyib hazırlayır, əmək münasibətlərinin aşağıda göstərilən sahələrində beynəlxalq standartlan müəyyənləşdirən konvensiyaları və tövsiyələri qəbul edir:

- birləşmək sərbəstliyi və təşkilatlanma hüquqlarının müdafiəsi;
- məcburi əməyin qadağan olunması, əmək fəaliyyəti ilə məşğuliyyətdə ayrı-seçkiliyə yol verilməməsi;
- əməyin ödənilməsində bərabər hüquqlar;
- əmək haqqına zəmanət;
- sosial təminatın minimum normaları;
- əmək şəraitinin yoxlanılması;
- analığın qorunması;

- ödənişli məzuniyyətlər;
- muzd xidmətləri və s.

BƏT-in Konvensiyasını ratifikasiya edən dövlət, üzərinə onun müddəalarını reallaşdırmaq və bunun yerinə yetirilməsi barədə Beynəlxalq Əmək Bürosuna mütəmadi qaydada hesabatlar vermək öhdəliyini qəbul edir. Ratifikasiya olunan konvensiyalara münasibətdə BƏT milli qanunvericiliyin mövcud normalara uyğunluğu barədə informasiya verilməsi xahişi ilə müraciətlə kifayətlənir. Konvensiyaların müddəaları müvafiq tövsiyələr əsasında inkişaf etdirilir.

Texniki əməkdaşlıq proqramları üzv-dövlətlərə əməyin təşkili və müəssisələrin idarə edilməsində, əmək qanunvericiliyinin, sosial təminat sistemi üçün ixtisaslı işçilərin hazırlanmasında və s. yardım göstərilməsini nəzərdə tutur.

BƏT-in rəhbər orqanları Beynəlxalq Əmək Konfransı və İnzibati Şuradır.

BƏT-də məşvərət funksiyalarını yerinə yetirən üçtərəfli komitələr və şuralar var. BƏT-in regional və xüsusi konfransları regional yaxud sahə marağı doğuran məsələlərə baxır.

BƏT, həmçinin sosial-əmək sahəsində elmi-tədqiqatlar aparır və nəşrlər edir, Turindəki (İtaliya) Beynəlxalq Tədris Mərkəzində mütəxəssislərin peşə hazırlığını həyata keçirir.

2009-cu ilin yanvarında BƏT «Dünyada əmək haqqı: 2008-2009-cu illər» mövzusunda geniş hesabat dərc etmişdi. Burada göstərilir ki, qlobal iqtisadi böhran nəticəsində milyonlarla muzdlu işçinin əmək haqqı aşağı düşür. BƏT-in Baş direktoru Somavia qeyd edirdi ki, «dünyanın müxtəlif regionlarında 1,5 milyard muzdlu işçi üçün çətin zaman başlayır». Hesabatda həmçinin, qeyd olunur ki, hazırda muzdlu işçilər məşğulların təqribən yarısını təşkil edir və onların payı getdikcə artır. İqtisadi artım templərinin aşağı düşməsi və digər neqativ təzahürlər milyonlarla zəhmətkeşin (xüsusilə də az ödəniş alanların) real əmək haqqının aşağı düşməsi ilə nəticələnəcək, bir sıra ölkələrdə isə orta təbəqənin də vəziyyətini pisləşdirəcəkdir.

1995-2007-ci illərdə dünyanın əksər ölkələrində əmək haqqının zəif sürətlə artması səciyyəvi idi. Həmin dövrdə ölkələrin yarısında real əmək haqqının artımı ildə 1,9%-dən çox olmamışdı. Bu halda da regionlar arasında əhəmiyyətli fərqlər müşahidə olunurdu. İnkişaf etmiş ölkələrdə əmək haqqı ildə orta hesabla 0,9%, Latın Amerikası və Karib dənizi hövzəsi ölkələrində 0,3%,

Asiya ölkələrində 1,7%, Mərkəzi və Cənub-Şərqi Avropa ölkələrində (Aİ üzvü olmayan) və MDB-də 14,4% artmışdı. BƏT-in icmalında qlobal və regional qiymətləndirmələr payına dünya əhalisinin təqribən 70%-i düşən 83 ölkədə əmək haqqına dair məlumatlara (Afrika və Yaxın Şərq üzrə rəqəmlər dürüst deyildi) əsaslanırdı.

Əmək haqqındakı qeyri-bərabərlik artmaqda davam edir. 1995-2000-ci illərdə əmək haqqının maksimum və minimum məbləği arasındakı fərq, məlumatlar olan ölkələrin % hissəsində çoxalmışdı. İnkişaf etmiş ölkələrdə əmək haqqının maksimum və minimum səviyyələri arasındakı fərqin artımının ən yüksək templəri ABŞ, Almaniya və Polşada müşahidə olunurdu. Ölkələrin bəzi qruplarında da bu fərq artmışdır (xüsusilə Argentina, Çin və Tailandda). Fransa, İspaniya, Braziliya və İndoneziyada əmək haqqındakı bərabərsizlik müəyyən qədər azalsa da, son 2 ölkədə hələ də əhəmiyyətli dərəcədədir. Kişilərin və qadınların əməyinin ödənişindəki fərqlər zəif templərlə azalır. Məlumatlar olan ölkələrin 80%-də qadınların və kişilərin orta əmək haqqı arasındakı nisbət təqribən 80% artsa da, dəyişikliklərin kəmiyyəti cüzidir. Ölkələrin əksəriyyətində qadınların əmək haqqı kişilərin əmək haqqının 70-90%-nə bərabərdir, Asiya ölkələrində isə bundan da azdır. Son illərdə dünyada əmək haqqının səviyyəsi və bölgüsü barədə əsas meyillərin təhlilinə istinad edərək. Hesabatın müəllifləri əmək haqqının artımının iqtisadi artım templərindən geri qaldığını, iqtisadi tənəzzül dövrlərində isə zəiflədiyini qeyd edirlər. 1995-2007-ci illərdə ÜDM-in əhalinin hər nəfərə düşən həcminin 1% azalması əmək haqqının 1,55% aşağı düşməsi ilə nəticələnirdi. ABŞ, Yaponiya və İspaniyada real əmək haqqının artımı sıfra yaxın, Çin, Rusiya və Ukraynada ildə 10%-ə çatırdı. Hindistan, Meksika, Polşada və CAR-da əmək haqqının illik artımı orta göstəriciyə yaxınlaşaraq, 2% təşkil edirdi. 1995-2010-cu illərdə ÜDM-in əhalinin hər nəfərinə düşən həcmi 1% artdıqda, əmək haqqı 0,76% çoxalırdı. Əmək haqqının elastikliyi, onun artımının ÜDM-in əhalinin hər nəfərinə düşən həcminin çoxalmasından geri qaldığını göstərir. Elastiklik 1995-2000-ci ildəki 0,8%-dən 2001-2010-cu ildəki 0,72%-dək azalmışdır. Ölkələrin, demək olar ki, Y4 hissəsində ÜDM-in əmək haqqına yönəldilən hissəsinin azalması (mənfəətdən və gəlirlərin başqa növlərindən ibarət paydan fərqli olaraq) meyli müşahidə olunurdu. İqtisadi artım zamanı dəyişikliklərə zəif reaksiya verən əmək haqqı, iqtisadi tənəzzül dövründə həddən artıq kəskin dəyişir və bu meyil müasir dünyadakı vəzi}^ət üçün səci)q/əvi haldır.

## 22.12. Bazarın ayrı-ayrı seqmentlərində fəaliyyət göstərən beynəlxalq dövlətlərarası təşkilatlar

Dünya bazarının ayrı-ayrı seqmentlərində fəaliyyət göstərən beynəlxalq təşkilatlar çox vaxt ölkələrin geniş yaxud dar çərçivəsindən ibarət olan əmtəə təşkilatları (müqavilələri) fonuasmda çıxış edir. Bu səbəbdən onların tərkibinə çox zaman aşağıdakılar daxil edilir:

• Neft ixrac edən ölkələr Birliyi, 1960-cı il (OPEC - Organization of the Petroleum Exporting Countries);

• Qalay üzrə beynəlxalq müqavilələr (1956-cı il);

• Kakao üzrə beynəlxalq Müqavilələr (mütəmadi olaraq 1960-cı ildən bağlanır);

• Toxuculuq malları üzrə beynəlxalq müqavilələr (1974-cü il).

«Beynəlxalq təşkilat» və «Beynəlxalq müqavilə» anlayışları arasındakı fərq çox vaxt o qədər də aydın görünmür (burada ikitərəfli müqavilələr nəzərə alınmır). Bəzi faktiki beynəlxalq təşkilatlar rəsmi baxımdan müqavilədir və əksinə: beynəlxalq müqavilə əsasında daimi əsasda təşkilati funksiyaları yerinə yetirən, vaxtaşırı olaraq üzv-dövlətlərin görüşünü təşkil edən, statistik və başqa infonuasiyanı toplayan və ümumiləşdirən, nəşrlər edən katiblik yaradılır.

***OPEC.*** Neftin qiymətinin sabitləşdirilməsi məqsədilə neft hasil edən dövlətlər tərəfindən yaradılmış hökumətlərarası təşkilatdır. İqtisadiyyatı neft ixracından əhəmiyyətli dərəcədə asılı olan ölkələr bu təşkilatın üzvüdür. Daimi fəaliyyət göstərən təşkilat kimi, OPEC 10-14 sentyabr 1960-cı ildə Bağdadda keçirilmiş konfransda yaradılmışdır. Əvvəlcə təşkilatın tərkibinə İran, İraq, Küveyt, Səudiyyə Ərəbistanı və Venesuela (yaradılmanın təşəbbüskarı) daxil olmuşdu. Təşkilatı təsis edən 5 dövlətə sonradan daha 9 dövlət qoşulmuşdur: Qətər (1961), İndoneziya (1962-2008-ci illər. 1 noyabr 2008-ci ildə OPEC tərkibindən çıxmışdır), Liviya (1962), Birləşmiş Ərəb Əmirlikləri (1967), Əlcəzair (1969), Nigeriya (1971), Ekvador (1973-1992, 2007), Qabon (1974-1994), Anqola (2007).

2007-ci ildə tərkibində baş verən dəyişikliklər: Anqolanın yeni üzv kimi qəbul olunması və Ekvadorun yenidən qayıtması nəzərə alınmaqla, hazırda OPEC-ə 12 dövlət daxildir. 2008-ci ildə Rusiya karteldə daimi müşahidəçi

olmaq istəyini bəyan etmişdir. OPEC-in mənzil-qərargahı əvvəlcə Cenevrədə (İsveçrə) olmuş, 1 sentyabr 1965-ci ildən Vyanada yerləşir.

OPEC-in məqsədi üzv-dövlətlərin neft hasilatı sahəsində fəaliyyətini əlaqələndirmək və ümumi siyasətini işləyib hazırlamaq, neftin qiymətini sabit səviyyədə saxlamaq, istehlakçılara neftin vaxtında göndərilməsini təmin etmək, neft sahəsinə qoyulan investisiyalardan gəlir əldə etməkdir. OPEC üzvü olan dövlətlərin energetika və neft nazirləri beynəlxalq neft bazarını qiymətləndirmək və onun gələcək inkişafını proqnozlaşdırmaq üçün hər il 2 dəfə görüş keçirirlər. Bu görüşlərdə bazarın sabitləşdirilməsi üçün lazım olan hərəkətlər barədə qərar qəbul olunur. Bazar tələbindan asılı olaraq neft hasilatının həcminin dəyişdirilməsi barədə qərarlar OPEC-in konfranslarında qəbul edilir. OPEC-in üzv-dövlətləri dünyanın neft ehtiyatlarının % hissəsinə nəzarət edir. Dünyada hasil olunan neftin 40%-i və onun ixracının yarısından çoxu bu dövlətlərin payına düşür. Neft hasilatını artırmaqla yaxud azaltmaqla, OPEC onun qiymətlərinə kifayət dərəcədə güclü təsir göstərir. Bu təsir 2008-2010-cu illərin qlobal böhran dövründə özünü əyani surətdə göstərmişdir. 2008-ci il iyulun sonundan oktyabradək olan dövrdə neftin barrelinin qiymətinin 35-40 dollara düşdüyü nəzərə alınmazsa, dünya sənayesində depressiyaya baxmayaraq, ümumilikdə, neftin qiymətində kəskin dəyişiklik baş vemıəmişdi.

## 22.13. Beynəlxalq valyuta-kredit və maliyyə-iqtisad təşkilatları

Beynəlxalq valyuta-kredit və malİ3^ə-iqtisadi təşkilatları şərti olaraq ***beynəlxalq maliyyə qurumları*** adlandınnaq olar. Onları ümumi məqsəd - əməkdaşlığın inkişafı, mürəkkəb və təzadlı dünya təsərrüfatının bütövlüyünün və dayanıqlığının təmin olunması, beynəlxalq val}aıta-kredit və maliyyə münasibətlərinin tənzimlənməsi, qurumların iştirakçıları arasında anlaşılmazlıqların aradan qaldırılması birləşdirir.

Bu qurumlara aşağıdakılar daxildir:

- Beynəlxalq Hesablaşmalar Bankı - BHB;
- Beynəlxalq Valyuta Fondu (BVF);
- Dünya Bankı (DB);

- Beynəlxalq İnkişaf Assosiasiyası (BİA);
- İnvestisiya Təminatı üzrə Çoxtərəfli Agentlik (İTÇA);
- Regional inkişaf bankları;
- Aİ-nin valyuta-kredit və maliyyə təşkilatları.

## Xülasə

• Müxtəlif ölkələrin, təşkilatların əməkdaşlığının, şəxslərarası ünsiy yətin çoxsaylı fonnalarmdan və sahələrindən ibarət olan müasir beynəlxalq iqtisadi əlaqə-lər sisteminin özəl cəhətləri və xüsusiyyətləri beynəlxalq təşkilatların dünya ictimaiy-yətinin həyatında iştirakının getdikcə genişlənməsi ilə səciyyələnir. Dövlətlərin beynəlxalq fəaliyyəti, onların siyasi və iqtisadi əməkdaşlığı, yaratdıqları beynəlxalq təşkilatların nizamnamə üzrə işi çərçivəsində beynəlxalq iqtisadi hüquq normaları formalaşmış və onun əsasında ***beynalxalq iqtisadi əməkdaşlığın tənzimlənməsi*** həyata keçirilir. Beynəlxalq təşkilatlar bu əlamətlər (prinsiplər) əsasında təsnifləşdirilir: universallıq səviyyəsinə görə - BMT sisteminə daxil olub-olmaması; regionallığma görə - regional iqtisadi təşkilatlar, sənaye-iqtisadi əməkdaşlığı ümumilikdə və onların ayrı-ayrı sahələrini (nüvə energetikası, maliyyə) tənzimləyən təşkilatlar; humanitar sahəni (təhsil, elm, səhiyyə, əqli mülkiyyət münasibətləri və s.) tənzimləyən təşkilatlar, beynəlxalq ticarəti tənzimləyən təşkilatlar; ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq və regional təşkilatlar; sahibkarlıq subyektlərinin fəaliyyətini dəstəkləyən təşkilatlar; beynəlxalq qeyri-hökumət təşkilatları. Qeyd edək ki, beynəlxalq iqtisadi təşkilatların bütün bu qrupları («qeyri-hökumət təşkilatları» kimi göstərilən qrup istisna olunmaqla) hökumətlərarası təşkilatlardır. Müxtəlifliyinə baxmayaraq, onları; birincisi, bir ölkə çərçivəsindən kənara çıxan iqtisadi münasibətləri tənzimləmələri, ikincisi, millətüstü statusa (hərçənd, müxtəlif dərəcədə) malik olmaları birləşdirir. Bu təşkilatlar beynəlxalq hüquqi normalar, o cümlədən iqtisadi hüququn normaları əsasında fəaliyyət göstərir.

• Sürətli inteqrasiya və qloballaşma şəraitində beynəlxalq iqtisadi təşkilatlar sisteminin dünya iqtisadiyyatına və BİM-ə pozitiv tənzimləyici təsir göstərməsi, dünya kapitalist təsərrüfatının inkişafının tsiklik xarakterindən, habelə ölkələrin iqtisadi siyasətdə yol verdiyi səhvlərdən yaranan neqativ təzahürləri müəyyən qədər neytrallaşmağa adekvat imkan yaratması xüsusi

qeyd edilməlidir. Ölkələr vahid dünya və regional təsərrüfat kompleksində bir-birindən güclü asılı olduğundan, hökumətin (yaxud hökumətlərin) səhv qərarı nəticəsində meydana çıxan təlatümlər qaçılmaz surətdə başqa iqtisadiyyatlara da sirayət edir. Həmin ölkənin (ölkələrin) beynəlmiləlləşmə dərəcəsi yüksəldikcə, onun problemləri regional və dünya iqtisadiyyatı sistemi üzərində daha intensiv keçir. Bu təzahürlər 1990-cı illərdə iqtisadiyyatı transformasiya olunan dövlətlərdə, o cümlədən Rusiyada müşahidə edilmiş və çox vaxt bəzi nüfuzlu beynəlxalq təşkilatların səhv qərarlarının (hökumətlərə verdikləri tövsiyələrin) nəticəsində baş vermişdir.

• Beynəlxalq iqtisadi təşkilatların həm qlobal, həm də regional səviyyədə əsas funksional vəzifələri bunlardır:

■ dünya iqtisadiyyatının və beynəlxalq iqtisadi münasibətlərin ən mühüm problemlərinin öyrənilməsi və onların həllinə yönəlmiş tədbirlərin həyata keçirilməsi;

■ valyutaların sabitliyinin təmin olunması;

■ ticarətdə maneələrin aradan qaldırılmasının dəstəklənməsi və dövlətlər arasında əmtəə mübadiləsinin genişlənməsinin təmin edilməsi;

■ texniki və iqtisadi inkişafa yardım üçün maliyyə vəsaitlərinin ayrılması;

■ əmək şəraitinin və əmək münasibətlərinin yaxşılaşdırılmasının stimullaşdırılması;

■ ticari-iqtisadi əlaqələrin tənzimlənməsi və maliyyə sistemlərinin sağlamlaşdırılması sahəsində qətnamələrin və tövsiyələrin qəbul olunması.

• Be3məlxalq hökumətlərarası təşkilatlar çoxtərəfli əməkdaşlığın təşkilati formaları kimi, dövlətlər tərəfindən obyektiv zərurət meydana çıxdıqda yaradılır və beynəlxalq iqtisadi münasibətlərin inkişafı ehtiyacları ilə şərtləndirilir. Bu təşkilatlar ölkələrin əməkdaşlığını inkişaf etdirməklə yanaşı, dünya iqtisadiyyatında baş verən iqtisadi prosesləri tənzimləyir. Həmin beynəlxalq tənzimləmənin əsas istiqamətləri iqtisadiyyat və sənaye, nəqliyyat, valyuta-maliyyə, dünya ticarəti, əqli mülkiyyət, məhsulların standartlaşdırılması və sertifikatlaşdırılması, elm və texnika, beynəlxalq kommersiya və işgüzarlıq təcrübəsi sahələrində əməkdaşlıqdır.

• Əməkdaşlığın göstərilən növlərinin və formalarının həyata keçirilməsi ilə müvafiq profili və səlahiyyəti olan beynəlxalq iqtisadi təşkilatlar məşğul olur. BMT-nin təşkilatlan, habelə regional təşkilatlar beynəlxalq iqtisadi

əməkdaşlığı ECOSOC, ixtisaslaşmış idarələr və BMT ilə əlaqəli muxtar qurumlar vasitəsilə təmin edir. Burada iqtisadi sahədə əməkdaşlıq edən və buradakı inteqrasiya proseslərini stimullaşdıran regional təşkilatlar, habelə regional fondlar və banklar böyük rol oynayır. İqtisadi əməkdaşlığın ən vacib vəzifələrindən biri inkişaf etməkdə olan ölkələrə iqtisadi artımın təmin olunmasında, təsərrüfatın baza sahələrinin genişləndirilməsində, ən əsası isə, insanların rifahının və sosial vəziyyətinin yaxşılaşdırılmasında yardım göstərməkdir.

• Sənaye sahəsində hökumətlərarası əməkdaşlığın başlıca vəzifəsi istehsal üzrə birbaşa kooperasiya əlaqələrini inkişaf etdirmək, bu sahədə müştərək fəaliyyəti genişləndirmək, sənayeyə xarici investisiyalar cəlb etmək, müxtəlif növ texniki yardımlar göstərməkdir. Bu məsələnin həlli, habelə inkişaf etməkdə olan ölkələrə texniki yardım göstərmək, BMT idarələrinin sənaye əməkdaşlığı sahəsində fəalİ5^ətini əlaqələndinnək üçün BMT çərçivəsində UNIDO və UNDP kimi ixtisaslaşmış təşkilatlar yaradılmışdır.

• Valyuta-maliyyə sahəsində beynəlxalq əməkdaşlıq BMT-nin ixtisaslaşmış idarələri olan BVF, BYİB, habelə AYİB, BHB (Bazel) və regional banklar çərçivəsində həyata keçirilir. Amma qeyd edək ki, bu maliyyə-bank idarələrinin BMT-dən asılılığı zəifdir və çox vaxt onların siyasəti onun ECOSOC və UNCTAD kimi idarələrinin hesabatlarının müddəaları ilə bütünlüklə ziddir. Bu maliyyə-bank idarələrinin əsas vəzifəsi qarşılıqlı valyuta hesablaşmaları, ödəmələr, kreditləşmə üçün şərait yaratmaqdır. BVF və BYİB qlobal səviyyədə beynəlxalq valyuta-maliyyə əməkdaşlığını faktiki olaraq öz əlində cəmləşdirmişdir və çoxsaylı ölkələrin milli iqtisadi siyasətinin fonualaşmasına çox güclü təsir göstərir. Dünya Bankının baş təşkilatı olan BYİB, ilk növbədə, inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatının inkişafına, orada istehsalın və infrastrukturun yaradılması üçün vəsaitlərin səfərbər olunmasına kömək edir. BVF dünya valyuta sistemini araşdırmaqla, onun sabitliyini təmin edir; beynəlxalq valyuta siyasətinə və mübadilə məzənnələrinə, üzv-dövlətlərin beynəlxalq valyuta əməliyyatlarında iştirakına nəzarət edir, qısamüddətli və uzunmüddətli kreditlər verir. 2008-2010-cu illərin ümumdünya böhranı həm BVF-in, həm də Dünya Bankının fəaliyyətinin son dərəcə səmərəsizliyini, onun əsaslı «təmirə» ehtiyacının olduğunu göstərdi.

• BMT çərçivəsində nəqliyyat sahəsində dövlətlərarası əməkdaşlıq ixtisaslaşmış təşkilatlar: mülki aviasiya üzrə - ICAO, dəniz nəqliyyatı üzrə -

IMO fəaliyyət göstərir. Dəmir yolu daşımaları sahəsində beynəlxalq sərnişin daşımalarının inkişafını dəstəkləmək üçün vahid tarif siyasətinin həyata keçirilməsi məqsədi daşıyan Sərnişin daşımaları üzrə Avropa Konvensiyası (1975) qüvvədədir. Dəmir yolu daşımaları məsələləri ilə 1884-cü ildə əsası qoyulmuş Dəmir Yolu Konqreslərinin Beynəlxalq Assosiasiyası da məşğuldur. Onun əsas funksiyası elmi-texniki, iqtisadi və inzibati problemlərin müzakirəsi üçün beynəlxalq konqreslərin hazırlanması və keçirilməsidir. Avtomobil nəqliyyatı məsələləri ilə 1948-ci ildə yaradılmış Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı məşğuldur. Bu İttifaq «Avtomobil nəqliyyatı ilə yüklərin daşınması haqqında» Gömrük Konvensiyasının (1975), «Beynəlxalq yük daşımaları müqaviləsi haqqında» Konvensiyanın (1956) və ona əlavə edilmiş Protokolun (1978), habelə avtomobil nəqliyyatına dair digər konvensiyaların hazırlamuasmda iştirak etmişdir.

• Dünya ticarəti sahəsində beynəlxalq tənzimləmə BMT çərçivəsində bu təşkilatlar tərəfindən yerinə yetirilir: ÜTT, UNCTAD, Beynəlxalq Ticarət Mərkəzi UNCTAD/ÜTT, habelə UNCITRAL. Mallar və xidmətlərlə beynəlxalq ticarət UNCTAD və ÜTT tərəfindən tənzimlənir. UNCTAD-m əsas məqsədi xammal, sənaye malları, habelə «gözəgörünməz» məhsullarla (texnologiyaların verilməsi, turizm və s.) ticarəti dəstəkləmək, ticarətin maliyyələşdirilməsi məsələlərini həll etməkdir. UNCTAD-m fəaliyyətində inkişaf etməkdə olan ölkələrin Beynəlxalq Ticarət Mərkəzi ilə əməkdaşlığı problemləri diqqət mərkəzindədir. Statusuna görə BMT-nin Baş Məclisinin köməkçi orqanı olan Beynəlxalq Ticarət Hüquqları üzrə Komissiya (UNCITRAL - United Nations Commission on International Trade Law) həlledici rol oynayır. Bu təşkilat 1966-cı ildə beynəlxalq ticarət hüququnun inkişafı (o cümlədən beynəlxalq konvensiyaların və sənədlərin layihələrinin hazırlanması yolu ilə) məqsədilə yaradılmışdır. UNCITRAL tərəfindən «Malların beynəlxalq alqı-satqısmda iddia müddətləri haqqında» Konvensiya (1974) və ona düzəlişlərin edilməsi haqqında Protokol (1980), «Yüklərin dəniz yolu ilə daşınması haqqında» Konvensiya (1974), BMT-nin «Malların beynəlxalq alqı-satqısma dair müqavilələr haqqında» Konvensiyası və s. hazırlanmışdır. Xammalın müxtəlif növləri ilə beynəlxalq ticarətin tənzimlənməsi üçün çoxtərəfli sazişlər imzalanmış, ixracatçı və idxalçı dövlətlərin iştirakı ilə (qalay, buğda, kakao, şəkər, təbii kauçuk, qəhvə, zeytun yağı, pambıq, cut, qurğuşun və sink) yaxud yalnız ixracatçıların daxil olduğu

(neft üzrə - OPEC) bir sıra beynəlxalq təşkilatlar yaradılmışdır.

- Beynəlxalq Ticarət Palatası (BTP), Gömrük Tariflərinin Dərc Olunması üzrə Beynəlxalq Büro (BİTD - International Customs Tariffs Bureau), Xüsusi Hüququn Unifikasiyası üzrə Beynəlxalq İnstitut (UNIDRİOT - International Institue for the Unification of Private Law) mühüm rol oynayır. UNCITRAL-da olduğu kimi, Beynəlxalq Ticarət Palatasında da tövsiyə xarakterli beynəlxalq hüquqi aktları hazırlamaqla, sahibkarlar arasında kommersiya və maliyyə münasibətlərini tənzimləyən milli qanunvericiliklərin hannonizasiyası və eyniləşdirilməsi üzrə ciddi iş aparılır. BTP tərəfindən hazırlanmış Ticarət Terminlərinin Təfsirinin Beynəlxalq Qaydalarını (Inkotenus - 2010) buna misal göstərmək olar.

- Beynəlxalq Əmək Təşkilatının (BƏT) və onun bölmələrinin də rolu mühümdür. Bu rol inkişaf etmiş ölkələrdə zəhmətkeşlərin real hüquqi vəziyyətinin təhlilində və bu sahədə ictimaiyyətə geniş informasiya çatdırılmasında; insan fəaliyyətinin ən müxtəlif sahələrinin tənzimlənməsi, sosial və başqa hüquqlarının qorunması ilə əlaqədar olan konkret konvensiyaların, sazişlərin, müddəaların işlənib hazırlanmasında təzahür olunur. Hökumətlərin çoxu BƏT ilə hesablaşır.

- Beynəlxalq iqtisadi təşkilatların ümumilikdə pozitiv rolunu qeyd edərkən, aydın təsəvvür olunmalıdır ki, BMT də daxil olmaqla onların ən nüfuzlusu belə, müasir dövrün heç bir qlobal problemini (o cümlədən ərzaq, ekologiya, yoxsulluq və s.) həll edə bilməmişdir. BMT dünya sosializm sisteminin süqutundan qlobal siyasi sabitliyi obyektiv möhkəmləndirmək, dünyada silahlı münaqişələrin sayını, dövlət-lərin müdafiə xərclərini və silah alverinin həcmini kəskin azaltmaq, yoxsul ölkələrə yardımı dəfələrlə çoxaltmaq üçün imkanlarından istifadə etməmişdir. Məsələn, 1990-cı illərdə yoxsul ölkələrə göstərilən yardımın həcmi 1980-ci illərlə müqayisədə təqribən 2 dəfə azalmış, lokal silahlı münaqişələrin sayı və intensivliyi artmış, bahalı silah sistemlərinin istehsalı üzrə proqramlar başlanmış, zahirən ən etibarlı görünən müttəfiqlər və tərəfdaşlar arasında belə, beynəlxalq siyasi və iqtisadi münasibətlər sistemində siyasi ziddiyyətlər adi normaya çevrilmişdir. İdeoloji mübarizənin kəskinliyi zəifləməmiş, əksinə, beynəlxalq təşkilatların fəaliyyətinə sirayət edərək, onların yerinə yetirdiyi nizamnamə vəzifələrinin təsir gücünü azaltmışdır.

- Bu təşkilatlarda sayına görə nəhəng olan bürokratiyanm, həmin

idarәlәrin yaradılmasının xoş mәramı ilә tәzad tәşkil edәn korporativ maraqları meydana çıxmışdır. 1980-ci illәrdәn tәbliğ edilәn, yalnız bir mәqsәdi - varlanmağı qarşısına qoymuş «müvәffәqiyyәt qazanmış insanı» ön plana çәkәn inkişaf strategiyalarının modellәri, әnәnәvi mәnәvi vә etik dәyәrlәrin, demәk olar ki, tam itirilmәsinә sәbәb olmuş, müasir cәmiyyәtin humanizmdәn sapdırılması meyillәrini yaratmışdır. Qәddarlıq, yaxınlarının taleyinә biganәlik, humanizm ideyalarının unudulması milli mәmurların ümumi cәhәtinә çevrilәrәk Atlantikadan Sakit Okeanadәk bütün ölkәlәr-dәki dövlәt idarәlәrini bürüyür, sonra isә beynәlxalq tәşkilatların rahat ofislәrinә süzülür. Ümum- dünya sәviyyәli mәmurların fonnalaşdırdığı universal korporativ maraqlar vә dәyәrlәr çox vaxt onların qarşısında qoyulan rәsmi vәzifәlәrlә uzlaşmır.

- Hazırki qlobal iqtisadi, sosial vә siyasi sәbatsızhğın sәbәblәri mövcud olan beynәlxalq iqtisadi qayda-qanunun açıq-aşkar әdalәtsizliyindә vә qeyri-bәrabәrliyindә axtarılmalıdır. Qeyd edәk ki, BMT vә digәr nüfuzlu beynәlxalq tәşkilatlar, dünyanın әn güclü dövlәtlәri, elmi cәmiyyәtlәr, onların yüksәk tәbәqәdәn olan dairәlәri müasir qlobal sosial-iqtisadi reallığı, onun әdalәtsizliyini dәrk etmәkdә acizlik göstәrir. Qlobal böhrandan nәticә çıxarılması da nәzәrә çarpmır.
- Yeni qlobal iqtisadi rejim konkret vә ciddi mәhdudiyyәtlәr, o cümlәdәn sәmәrәli tәnzimlәmә mexanizmlәri, bütün dövlәtlәr üçün ümumi olan etibarlı siyasәt vә eyni zamanda milli iqtisadi strategiyanın seçilmәsindә «geniş dәhliz» nәzәrdә tutmalıdır. Beynәlxalq әmәkdaşlıq üçün әn geniş baza yaradan beynәlxalq iqtisadi tәşkilatların әsas vәzifәsi bundan ibarәtdir. 2008-2010-cu illәrin qlobal böhranı hәm BMT sisteminin, hәm dә başqa, o cümlәdәn Bretton-Vuds tәşkilatlarının (BVF, Dünya Bankı) fәaliyyәtindә bÖ3dik dәyişikliklәrin aparılmasının zәruriliyini qabarıq şәkildә göstәrdi.

## Yoxlama sualları

1. Beynәlxalq tәşkilatlar vә müasir dövrün qlobal problemlәri. Bir çox problemlәr niyә qlobal adlandırılır? Onların mahiyyәti vә mәzmunu nәdәn ibarәtdir?
2. Be5mәlxalq tәşkilatlar vә beynәlxalq hüquq. Beynәlxalq iqtisadi hüquq anlayışı vә onun mәzmunu. Beynәlxalq iqtisadi hüquq - beynәlxalq iqtisadi münasibәtlәrin tәnzimlәnmәsinin hüquqi bazasıdır. Beynәlxalq tәşkilatlar

beynəlxalq hüququn və dövlətlərin beynəlxalq iqtisadi əməkdaşlıq sahəsində fəaliyyətinin reqlamentləşdirilməsinin mənbəyidir.

3. Müasir dövrdə BMT və onun ixtisaslaşdırılmış təşkilatlarının rolu nədən ibarətdir?
4. BMT sisteminə hansı iqtisadi təşkilatlar daxildir?
5. BMT-nin İqtisadi və İctimai Şurasının fəaliyyəti.
6. Regional və iqtisadi komissiyaların fəaliyyəti.
7. Ticarət və İnkişaf üzrə Konfransın (UNCTAD) fəaliyyəti.
8. BMT-nin Sənaye İnkişafı üzrə Proqramı (UNDP).
9. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO).
10. BMT sisteminə daxil olan iqtisadi təşkilatların operativ fəaliyyəti necə maliyyələşdirilir?
11. Regional iqtisadi komissiyaların fəaliyyətinin öncül istiqamətləri hansılardır?
12. ECOSOC, FAO, UNDP və başqa regional komissiyaların yaradılmasının zəruriliyi nədən yaranmışdır? ECOSOC-un praktiki fəaliyyəti nədən ibarətdir?
13. BMT-nin iqtisadi komissiyalarının Afrika, Latın Amerikası və Asiya regionunun ölkələrinin inkişafında nəticələri nədən ibarətdir?
14. ATƏT-in fəaliyyətini izah edin. Təşkilat hansı məsələləri həll edir?
15. Avropa Şurası və lƏİT hansı məsələləri həll edir?

## Referatlann mövzuları

1. Beynəlxalq iqtisadi təşkilatların təsnifatı
2. Millətlər Liqasından Birləşmiş Millətlər Təşkilatmadək. BMT-nin əsas vəzifələri
3. Müasir dövrün qlobal problemləri: təsnifatı, yanaşmalar, həlli yolları
4. BMT-nin iqtisadi fəaliyyəti: əsas istiqamətləri, qərarların formalaşmasının xüsusiyyətləri

# Fəsil 23

# ÜMUMDÜNYA TİCARƏT TƏŞKİLATI (ÜTT) VƏ ƏLAQƏDAR TƏŞKİLATLAR

## 23.1. Tariflər və Ticarət üzrə Baş Saziş Təşkilatı (GATT)

Beynəlxalq ticarətin tənzimlənməsində 1947-ci ildən 1994-cü ilədək qüvvədə olmuş *Tariflər və Ticarət üzrə Baş Saziş* (GATT - The General Agreement on Tariffs and Trade) mühüm rol oynamış və sonradan onu Ümumdünya Ticarət Təşkilatı (ÜTT) (WTO - World Trade Organization) əvəz etmişdir. Dünya ölkələrinin əksəriyyəti GATT üzvü olmuşdu: 2005-ci ildə burada 160 ölkə müxtəlif səviyyədə iştirak edirdi. Dünya ticarətinin 4/5 hissəsindən çoxu bu beynəlxalq təşkilatın fəaliyyət dairəsinə daxildir.

GATT İkinci Dünya müharibəsindən sonra, beynəlxalq iqtisadi əməkdaşlıq sahəsində müxtəlif çoxtərəfli təşkilatların, o cümlədən DB və BVF kimi Bretton-Vuds idarələrinin meydana çıxdığı dövrdə müvəqqəti əsasda yaradılmışdı. Əvvəlcə, GATT-ın iştirakçısı olan 23 dövlət Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış idarəsi kimi düşünülmüş Beynəlxalq Ticarət Təşkilatının nizamnaməsinin tərtib olunmasında iştirak edən 50 dövlət sırasına daxil idi. Nizamnamədə dünya ticarətini tənzimləyən müddəalarla yanaşı məşğulluğa, xammal haqqında sazişlərə, işgüzar fəaliyyətin məhdudlaşdırılması, beynəlxalq investisiyalar və xidmətlər və s. aid olan qaydaların toplusundan ibarət olmalı idi.

*GATT çərçivəsində keçirilən danışıqların birinci raundunun nəticəsində* beynəlxalq statuslu, dünya ticarətinin 'A hissəsini (1940-cı illərin sonunda 10 milyard dollar) əhatə edən 45 000 tarif qaydası nizama salındı. Bu ticarət qaydaları *Tariflər və Ticarət haqqında Baş Saziş* adını aldı və 1948-ci ilin yanvarından qüvvəyə mindi.

1960-cı illərin ortasınadək GATT üzvlərinin ys hissəsi iqtisadi inkişafın müxtəlif mərhələlərində idi və inkişaf etməkdə olan ölkələrin bu təşkilata tam hüquqlu üzv qismində birləşmək səyləri aydın görünürdü. Çətin keçən danışıqlardan sonra 1965-ci ildə Baş Sazişə inkişaf etmiş dövlətlər tərəfindən inkişaf etməkdə olan ölkələrə göstərilən yardımı GATT-ın sessiyasının Qətnaməsində «şüurlu və məqsədyönlü səylər» kimi qiymətləndirən yeni

müddəalar əlavə olunmuşdu. 1979-cu ildə «Ümumi preferensiyalar sistemi haqqında rejim haqqında» qəbul edilən qərara əsasən inkişaf etməkdə olan ölkələr GATT-da hökmran mövqe tutan keçmiş metropoliyalarına müəyyən dərəcədə «bağlanılmaqla», dünya ticarət sisteminin daimi hüquqi amili kimi tanınmışdır.

***GATT çərçivəsində təşkil olunan beynəlxalq ticarət danışıqlarının raundları.*** GATT-ÜTT-in əsas fəaliyyəti beynəlxalq ticarət danışıqlarının hazırlanması və keçirilməsi üçün şərait yaratmaq; tariflərin azaldılması və qeyri-tarif maneələrinin mülayimləşdirilməsi üzrə çoxtərəfli müqavilələrin bağlanması üçün ***raundların*** yaxud ***turların, danışıqların*** (aparıldığı yerin adma görə) keçirmək. Müqavilələrin şərtlərinə əsasən, ölkələr konkret dövr ərzində tarif dərəcələrinin aşağı salınması barədə razılaşma əldə edə bilər. Amma endirilmə dərəcəsinin müqavilənin bütün iştirakçıları üçün eyni olması vacib deyil. Danışıqlar aparılan malların çeşidi böyük olduğundan, onların hər biri üzrə ayrılıqda danışıq aparılması çox çətin, ayrılıqda götürülən mal üzrə hər bir ölkə ilə razılaşma əldə edilməsi isə, qeyri-mümkündür. Buna görə də ölkələr danışıqlara xarici ticarətlərində güzəşt tətbiq oluna bilinəcək malları təqdim edir. Danışıqlar nəticəsində gömrük tariflərinin azaldılması təcrübəsi ölkələrin öz aralarında mal mübadiləsini sərbəstləşdirməyə meyil göstərməsini, maneə olan gömrük tariflərinin isə çox çətin və qarşılıqlı güzəştlər tələb edən danışıqlar yolu ilə aradan qaldırıldığını göstərir.

GATT-m fəaliyyətinin əsas mərhələləri, adətən danışıqların və razılaşmaların ticarət raundları adlanan iri mərhələləri ilə əlaqələndirilir. GATT-ın birinci, Cenevrə raundu 1947-ci ildə keçirilmişdir. Növbəti raundlar bunlardır:

- Anessi (Annecy), Yuxarı Savoya, Fransa raundu (1947);
- Torki (Torquay), Böyük Britaniya raundu (1950-1951);
- Dillon raundu (Dillon Round) (1961);
- Kennedi raundu (1964);
- Tokio raundu (1976-1979)
- Uruqvay raundu (1991-1996);
- Doha, Qətər raundu (2001-ci ildən indiyədək).

Danışıqların hər bir raundu və GATT, 1995-ci ildən isə ÜTT çərçivəsində qəbul olunan qərarlar dünya ticarəti üçün mühüm əhəmiyyət kəsb etmiş, qlobal ticarət siyasətinin formalaşmasına güclü təsir göstərmiş və burada

GATT-ÜTT mər-kəzi həlqə olmuşdur.' Danışıqların yeni raundu 2001-ci ildə ÜTT üzvü olan ölkələrin ticarət nazirlərinin ***Dohada (Qətər)*** keçirilən Beynəlxalq konfransından başlandı.

Əvvəl keçirilən ticarət raundlarının əksəriyyətində tariflərin aşağı salınması məsələsi müzakirə olunurdusa, sonuncu raundlarda Ticarət və Tariflər haqqında Baş Sazişin özünün maddələrinə yenidən baxılması yaxud genişləndirilməsi prosesi başlandı. Kennedi raundu GATT-da yeni anti-dempinq müqaviləsi barədə razılaşma əldə olunması ilə bitdi. 1979-cu ilin noyabrında Tokio raundundakı danışıqlar başa çatdıqdan sonra tarif güzəştləri zərfi, habelə qeyri-tarif tədbirləri və GATT-m hüquqi çərçivəsinin təkmilləşdirilməsi barədə bir sıra yeni müqavilələr bağlandı. Tariflərin ixtisarı nəticəsində, dünyanın ən böyük 9 sənaye bazarında hazır məhsullar üzrə orta çəkili tarif (orta tarifin faktiki ticarət axınlarına nisbətdə dəyişməsi) 7%-dən 4,7%-dək, başqa sözlə, 34% aşağı düşdü. Müqayisə üçün: 1940-cı illərin
•2
sonunda GATT yaradılarkən gömrük rüsumlarının orta səviyyəsi 40% ıdı.

Tokio raundunun danışıqlarında GATT çərçivəsində mürəkkəb qeyri-tarif maneələrinin, xüsusilə də göstərilən 5 konkret sahədə aradan qaldırılmasına xüsusi diqqət yetirilmişdi:

- sənaye standartları;
- dövlət satınalmaları;
- subsidiyalar və kompensasiya rüsumları;
- lisenziyalaşdımıa;
- gömrük qiymətləndirilməsi.

Tokio raundunun iştirakçıları bu sahələrin hər birində GATT üzvü olan ölkələrin Davranış Məcəlləsini qəbul etməyə razılıq vennişdir.

Subsidiyalara və kompensasiya rüsumlarına aid olan Saziş yaxud «Davranış Məcəlləsi» daxili subsidiyaları başqa ölkələrə mənfi təsir göstənnəməsi şərti ilə, siyasətin yolverilən aləti qismində qəbul edir. Kənd təsərrüfatı məhsulları istisna edilməklə, ixracın subsidiyalaşdırılması qadağan olunur. Bu Saziş müəyyən ölkənin subsidiyaları nəticəsində öz firmalarının əsassız zərər çəkdiyini hesab edən dövlətin həmin ölkəyə qarşı kompensasiya rüsumunu tətbiq etməsinə yol verir.

^ United Nations Conference on Trade and Development. Trade and Development Report. 2003. UN.N.Y., Geneva, 2003. P. 47.

^ ГАТТ: структура и деятельность. Женева, 1992; Wall Street Journal, 1989. July 21. P. A12.

Məsələn, «Lisenziyalaşdımıa Məcəlləsi» ÜTT iştirakçılarını lisenziyalaşdırma qaydalarını xeyli sadələşdirməyə, həm xarici, həm də ölkə firmalarının diskriminasiyasına yol verməməyə məcbur edir. Eyni zamanda «Gömrük Qiymətləndirilməsi Məcəlləsi» müvafiq qiymətləndirmənin SIF yaxud FOB qiymətləri əsasında aparılmasına yol verir; lakin bu halda bəzi metodlar, məsələn, malın idxalçı ölkədə satış qiyməti əsasında qiymətləndirilməsi qadağan olunur.

*GATT-ın Uruqvay raundu* 1980-1990-cı illərdə keçirilən ən böyük ticarət danışıqlarıdır. Uruqvay raundunun mühümlüyü haqqında onun iclaslarında müzakirə olunan' əsas məsələlərin siyahısını nəzərdən keçirməklə rəy söyləmək olar:

- tariflərin getdikcə aşağı salınması;
- qeyri-tarif tədbirləri;
- tropik məhsulların tənzimlənməsi (həmin dövrdə onların dəyər ifadəsi təqribən 20 milyard dollara bərabər idi);
- təbii resurslar əsasında istehsal edilən məhsullar;
- toxuculuq malları və geyim;
- kənd təsərrüfatı - GATT-ın konkret maddələri;
- müdafiə qeyd-şərtləri;
- subsidiyalar və kompensasiya tədbirləri;
- mübahisələrin həlli;
- əqli mülkiyyət üzərində hüquqlar;
- investisiya tədbirləri;
- GATT sisteminin fəaliyyəti;
- xidmətlərlə ticarət.

Qeyd olunmalıdır ki, Uruqvay raundu ümumi beynəlxalq ticarət siyasətində böyük əhəmiyyət kəsb etmiş, dünya ticarətinin liberallaşması istiqamətində irəliləyişlərə səbəb olmuş, ölkələr və regionlar arasında iqtisadi əməkdaşlığın həcminin artması ilə nəticələnmişdir.

## 23.2. Ümumdünya Ticarət Təşkilatı (ÜTT)

1995-ci ilin yanvarında GATT qəti surətdə ÜTT-yə çevrildi. Ticarətin tənzimlənməsi sahəsində ümumdünya universal təşkilat kimi, ÜTT-nin dünyadakı nüfuzu getdikcə artır. Dünyanın aparıcı ölkələri onun mühüm

vəzifələrini və funksiyalarını əsasən dəstəkləyir. ÜTT-nin xidmətlər sahəsinin ən mühüm sektorları; maliyyə axınları, telekommunikasiya xidmətləri, xidmət göstərmək məqsədilə fiziki şəxslərin sərhədi keçməsi və s. üzrə danışıqlarda fəallığı güclənir.

***ÜTT-nin funksiyaları-.*** ÜTT-nin funksiyaları təşkilatın Nizamnaməsinin 2-ci maddəsində göstərilmişdir. ÜTT-nin fəaliyyəti onun yaradılması haqqında Müqavilənin, mallar və xidmətlərlə ticarət üzrə çoxtərəfli sazişlərin, habelə könüllü iştirak əsasında çoxtərəfli ticarət sazişlərinin (Plurilateral) məqsədlərinə nail olunması, tətbiqi, buna nəzarət edilməsi, reallaşdırılması ilə əlaqədardır.

Qlobal iqtisadi siyasətin həyata keçirilməsində daha yüksək anlaşmanın əldə edilməsi üçün ÜTT lazımi hallarda BVF, BYİB və onun filialları ilə əməkdaşlıq edir. ÜTT öz üzvləri arasında onların Sazişə aid olan çoxtərəfli ticarət münasibətləri barədə danışıqların keçirilməsi imkanını təmin edir. ÜTT öz üzvləri arasında çoxtərəfli danışıqların keçirilməsi üzrə forum, nəzərdə tuta, ÜTT üzvü olan ölkələrin ticarət nazirləri Konfransının qərarlarına uyğun olaraq, bu cür tədbirlərin keçirilməsi üçün strukturlar yarada bilər.

***ÜTT-nin təşkilati strukturu.*** Nizamnamənin 4-cü maddəsinə uyğun olaraq, ÜTT-nin ali orqanı onun bütün üzvlərinin nümayəndələrinin daxil olduğu Nazirlər Konfransıdır *{Ministerial Conference).* Konfrans 2 ildə bir dəfədən az olmayaraq çağırılır. ÜTT üzvü tərəfindən müvafiq müraciət daxil olduqda. Konfrans çoxtərəfli ticarət sazişlərinə aid olan bütün məsələlər üzrə qərarlar qəbul etməyə səlahiyyətlidir. Bu halda Konfrans qərarların qəbul olunmasının ÜTT-nin yaradılması haqqında Sazişdə və çoxtərəfli ticarət müqavilələrində müəyyən olunmuş prosedurlarına riayət etməlidir.

Nazirlər Konfransının iclasları arasındakı dövrdə onun funksiyalarını Baş Şura *{General Coımcil)* yerinə yetirir. Şura ÜTT üzvlərinin nümayəndələrindən formalaşdırılır və lazım olduqda toplanır. Baş Şuranın funksiyalarına mütəmadi əsasda Sazişin fəaliyyətinə və nazirlərin qərarlarının yerinə yetirilməsinə nəzarət, mübahisələrin həlli *{Despute Settlement Body),* ticarət siyasətinin vaxtaşırı icmalı *{Trade Polisy Review Mechanism)* aiddir. ÜTT strukturunun sxemi 23.1-ci şəkildə göstərilmişdir.

Göründüyü kimi, ÜTT bir-birindən fərqlənən, ticarət tənzimlənməsi qaydalarını işləyib hazırlayan, onların dünya təcrübəsində tətbiqini təhlil etmək vəzifələrini yerinə yetirən çoxsaylı orqanlardan ibarətdir. ÜTT çoxtərəfli ticarət

danışıqlarının Uruqvay raundunun Razılaşmalar zərfi (1986-1994) onun üzvlərinin ticari-siyasi münasibətlərini tənzimləyir. Bu sənədlər müasir beynəlxalq ticarətin hüquqi bazisini təşkil edir. ÜTT-nin təsis edilməsi haqqında Saziş üzv-dövlətlərin çoxtərəfli ticari münasibətlərinə təsir göstərən problemlərin tənzimlənməsi, Uruqvay raundunun razılaşmalarının yerinə yetirilməsi üzərində nəzarət üçün daimi fəaliyyət göstərən forumun yaradılması nəzərdə tutulur. ÜTT bir çox cəhətdən GATT kimi fəaliyyət göstərsə də, ticarət razılaşmalarının daha geniş spektrinə nəzarət edir (o cümlədən xidmətlərlə ticarət və əqli mülkiyyət hüquqlarının ticarəti üzrə məsələlər), qərarların qəbulu və təşkilatın üzvləri tərəfindən onlara riayət olunması prosedurlarının təkmilləşdirilməsi sahəsində daha böyük səlahiyyətlərə malikdir. Ticarət mübahisələrinin həllinin unikal mexanizmi ÜTT-nin ayrılmaz tərkib hissəsidir. 1947-ci ildən ümumdünya ticarətinin liberallaşdırılması və inkişaf perspektivlərinin qlobal problemlərinin müzakirəsi GATT/ÜTT başçılığı altında keçirilən çoxtərəfli ticarət danışıqları çərçivəsində keçirilir. İndiyədək Uruqvay raundu daxil olmaqla, 9 çoxtərəfli ticarət danışığı keçirilmişdir. ÜTT-nin başlıca məqsədi dünya ticarətini daha da liberallaşdırmaq və ədalətli rəqabət şəraitini təmin etməkdən ibarətdir.

*GATT-ÜTT-ninprinsipləri və qaydaları:*

- ticarətdə qarşılıqlı surətdə daha əlverişli şərait rejiminin yaradılması;
- xarici mənşəli mallara və xidmətlərə milli rejimin qarşılıqlı surətdə tətbiqi;
- ticarətin tənzimlənməsində tarif metodlarına üstünlük verilməsi;
- kəmiyyət və başqa məhdudiyyətlərdən istifadədən imtina olunması;
- ticarət siyasətinin aşkarlığı;
- ticarət mübahisələrinin məsləhətləşmələr və danışıqlar yolu ilə həll edilməsi.

*ÜTT-nin vəzifələri və məqsədləri:*

- Uruqvay raundunun sənədlər zərfmdəki sazişlərin və razılaşmaların yerinə yetirilməsinə nəzarət;
- ticarət mübahisələrinin həlli;
- üzv-dövlətlərin milli ticarət siyasətinin monitorinqi;
- inkişaf etməkdə olan ölkələrə ÜTT-nin səlahiyyətləri çərçivəsində texniki yardım göstərilməsi;
- ixtisaslaşmış beynəlxalq təşkilatlarla əməkdaşlıq.




*Şəkil 23.1.* **ÜTT-nin təşkilati strukturu**

***ÜTT-də üzvlükdən əldə olunan üstünlükləri*** aşağıdakı kimi cəmləşdirmək olar:

• ÜTT üzvü olan dövlətlərlə ticarət münasibətlərinin əvvəlcədən müəj^ənləşdirməyin mümkünlüyü və inkişafının sabitliyi, o cümlədən onların xarici iqtisadi siyasətinin aşkarlığı əsasında dünyanın mallar və xidmətlər bazarlarına çıxış üçün əlverişli imkanların əldə olunması;

• ticarət üzrə müqabil tərəfdən milli maraqlanna zərər vurulduğu halda ÜTT-nin mübahisələrin həlli mexanizmindən istifadə etməklə, ticarətdə ayrı-seçkiliyi aradan qaldımağın mümkünlüyü;

• beynəlxalq ticarətin yeni qaydaları işlənib hazırlanarkən çoxtərəfli ticarət danışıqlarında fəal iştirak etməklə özünün cari və strateji ticari-iqtisadi maraqlarının müdafiə olunmasının mümkünlüyü.

ÜTT-nin bütün üzv-dövlətləri «Çoxtərəfli Ticarət Sazişləri» termini ilə birləşdirilmiş əsas razılaşmaların və hüquqi sənədlərin yerinə yetiriləcəyinə dair öhdəlik qəbul edir.

## 23.3.1994-cü il Tariflər və Ticarət üzrə Baş Saziş - Uruqvay raundu

1994-cü il Tariflər və Ticarət üzrə Baş Saziş (GATT-94) beynəlxalq ticarətin inkişafında xüsusilə mühüm rol oynamışdır. Bu sənəd danışıqların Uruqvay raundu nəticəsində qəbul olunmuş, mallarla ticarəti tənzimləyən beynəlxalq müqavilədir. GATT-94 və 1947-ci ilin Tariflər və Ticarət üzrə Baş Sazişi (GATT-47) tamamilə müxtəlif sənədlərdir. GATT-94 özündə bunları ehtiva edir: GATT-47 (müvəqqəti tətbiqi haqqında Protokol istisna edilməklə); Uruqvay raundunda GATT-47-nin bəzi maddələrinin təfsiri barədə əldə edilmiş razılaşmalar; mallarla ticarəti tənzimləyən 12 müqavilə (GATT ilə əlaqədar sənədlər adlandırılır). GATT-94 ÜTT üzvləri üçün məcburi olduğu halda, GATT-47-dən üzv-dövlətlərin qanunvericiliyi ilə maksimum uyğun olduğu dərəcədə (GATT-47-nin müvəqqəti tətbiqi barədə Protokola əsasən) istifadə edilirdi. Beləliklə, GATT-94-də GATT-47-nin əsas qüsurlarından biri aradan qaldırılmışdı.

GATT ilə əlaqəli olan müqavilələr GATT-94-ə ayrılmaz tərkib hissə kimi daxil edilmişdir. Bu müqavilələr ÜTT üzvlərinin hamısı üçün məcburi xarakter daşıyır. Bununla da, Uruqvay raundunadək əldə olunmuş müqavilələrin bəzi

mühüm maddələrinin yalnız danışıqlarda iştirak edən dövlətlərə şamil olunması təcrübəsinə son qoyuldu. Məsələn, «Gömrük dəyəri haqqında» Sazişdə («Gömrük dəyəri Məcəlləsi» adlanır) 12 dövlət, Subsidiyalar üzrə Məcəllədə isə 13 dövlət iştirak edirdi.

Çoxtərəfli ticarət sisteminin qarşısında müxtəlif ölkələrin istehsal sahələri və sahibkarlıq subyektləri üçün sabitlik və müəyyənlik şəraitinin, ölkələrin bir- biri ilə ədalətli rəqabət şərtləri əsasında ticarət apara biləcəyi mühitin yaradılması məqsədi qoyulmuşdu.

Ticarətdə daha əlverişli şərtlərin əsas düsturu, hər bir ölkənin «müqavilə iştirakçısı olan bütün ölkələrə təxirə salınmadan və heç bir şərt qoyulmadan ticarətdə eyni münasibət göstərilməsindən ibarətdir». Amma bəzi xidmət növləri üzrə ticarətdə daha əlverişli şərait rejiminin tətbiqi mümkün olmadığına görə tərəflərin bu düsturdan istisnalar etmək hüququ nəzərdə tutulmuşdur. Bu istisnaların tətbiqinin şərtləri Sazişə əlavədə göstərilmişdir və onlara nonnal şəraitdə 5 ildən sonra yenidən baxılması və 10 ildən sonra qüvvədən salınması mümkündür.

Bazarlara çıxış məsələsinə gəldikdə isə, hər bir iştirakçı «başqa iştirakçıların xidmətlərinə və xidmət istehsalçılarına öz qanunvericiliyində razılaşdırılmış və konkretləşdirilmiş məhdudiyyətlərdən və şərtlərdən pis olmayan davranış təmin etməlidir». Bazarlara çıxış barədə müddəanın məqsədi xidmətlərin istehsalçılarının sayı, sazişlərin ümumi məbləği, əməliyyatların yaxud cəlb olunmuş heyətin ümumi sayına münasibətdə məhdudiyyətləri tədricən aradan qaldırmaqdır. Xidmət göstərən müəssisələrin hüquqi formaları, xarici kapitalın yaxud xidmətlərin xarici istehsalçılannm iştirakı barədə məhdudiyyətlərin sayı da ixtisar olunmalıdır.

Xidmət sahələrinin və mallarla ticarətin keçmişdə GATT-da qəbul olunmuş sxemlər əsasında bir-birinə bərabərləşdirilməsi, GATT-ın mövcudluğu dövründə əmtəə bazarının formalaşmasını çətinləşdirən ziddiyyətlərin və nöqsanların yenidən təkrar olunması ilə nəticələnmişdir.

***Ticarətlə əlaqədar olan investisiya tədbirləri üzrə Saziş (TRIMs - Agreement on Trade Related İnvestment Measures).*** Ticarətlə əlaqədar olan investisiya tədbirləri üzrə Saziş şərti olaraq 2 hissəyə bölünür. Bu Sazişin birinci hissəsində ÜTT-nin üzv-dövlətlərinin üzərinə xarici investisiyaların tənzimlənməsi zamanı beynəlxalq ticarətin inkişafına mane olan tədbirlər tətbiq etməmək öhdəliyi qoyulur, ikinci hissədə isə fikrimizcə, praktiki baxımdan ən

vacib olan məqam, həmin konkret təkliflərin özü göstərilir. Saziş yalnız mallarla ticarətlə əlaqəsi olan investisiya tədbirlərinə şamil olunur (yuxarıda qeyd etdiyimiz kimi, xidmətlər sahəsində xarici investisiyaların tənzimlənməsi GATT yolu ilə həyata keçirilir).

TRIMs-i ÜTT-nin başqa Sazişlərindən fərqləndirən əsas cəhət onun normalarının ÜTT üzvü olan ölkələrin ərazisində birbaşa təsir qüvvəsinə malik olmasıdır. Başqa sazişlərin müddəaları isə həmin ölkələrin milli qanunvericiliyinə daxil edilməlidir. Sazişin preambulasmda göstərilir ki, onun məramı «bütün ticarət tərəfdaşlarının, xüsusilə də inkişaf etməkdə olan ölkələrin iqtisadi artımını sürətlən-dirmək və rəqabət sərbəstliyini təmin etmək yolu ilə dünya ticarətinin genişlənmə-sinə və tədricən liberallaşdırılmasına şərait yaratmaqdır». Başqa sözlə, bu sənəddə xarici investisiyaların genişlənməsi və azad rəqabətin təmin olunmasının zəruriliyi vurğulanır. Bu isə, ilk növbədə, inkişaf etmiş ölkələrin maraqlarına cavab verir (inkişaf etməkdə olan ölkələrin faydasının rəsmən önə çəkilməsinə baxmayaraq).

İnkişaf etmiş ölkələr ticarətlə əlaqəli olan, ümumi və başqa istisnalar altına düşməyən bütün investisiya tədbirləri haqqında ÜTT-nin Katibliyinə 90 gün ərzində məlumat verməli və hazırda tətbiq etdikləri tədbirləri ÜTT ilə Saziş bağlanıldığı gündən sonrakı 2 il ərzində dayandırmalıdır. İnkişaf etməkdə olan ölkələr qadağan olunmuş bu cür tədbirləri 5 il müddətində, ən zəif inkişaf etmiş ölkələr isə 8 il müddətində, bu vaxtın uzadılması imkanı ilə (keçid iqtisadiyyatlı ölkələr üçün bu güzəşt nəzərdə tutulmamışdır) dayandırmalıdır.

Keçid müddəti ərzində ÜTT üzvü olan ölkələr ticarətlə əlaqəli olan və Katibliyə məlumat verdikləri investisiya tədbirlərinin tətbiqi şərtlərini sərtləşmə istiqamətində dəyişdirə bilməz.

TRlMs-in gələcək təkamülü nəzərdə tutur ki. Saziş qüvvəyə mindikdən sonrakı 5 il ərzində Mallarla Ticarət üzrə Şura onun tələblərinin yerinə yetirilməsinə nəzarət edəcək və lazımi hallarda nazirlər Konfransına düzəlişlər barədə təkliflər verəcəkdir.

Qarşıya qoyulan məqsədə uyğun olaraq, ÜTT-nin üzv-dövlətləri milli rejimdə və ticarətdə kəmiyyət məhdudiyyətlərinin tətbiqində GATT-94-ün müddəalarına uyğun olmayan tədbirlərdən çəkinməlidir. Burada xarici kapitallı müəssisələrə qarşı milli qanunlar yaxud inzibati əmrlər əsasında tətbiq edilən məcburetmə tədbirləri nəzərdə tutulur. Sazişə əlavədə ticarətlə əlaqəli olan, GATT-ın yuxarıda göstərilən normaları ilə uzlaşmayan kimi nəzərdən keçirilən

investisiya tədbirlərinin siyahısı vardır. Qadağan edilən tədbirlərə bunlar daxildir:

• xaricilərin iştirak etdiyi müəssisələrin istehsal prosesi üçün ölkədə buraxılan malları müəyyən həcmdə yaxud dəyərlə satın almaq yaxud istifadə etmək («yerli komponentlərin istehlakı») tələbinin qoyulması;

• xarici malların satın alınmasının yaxud istifadə edilməsinin yerli malların ixracının həcmi yaxud dəyəri ilə uzlaşdırılması («balanslaşdırılmış ticarət») tələbinin qoyulması;

• istehsal məqsədləri üçün idxal olunan malların müəssisənin hesablarına valyuta daxilolmalarının məbləği ilə əlaqələndirilməsi, başqa sözlə, xarici valyutanın əldə olunma imkanının məhdudlaşdırılması («xarici valyuta balansına dair tələblər») tələbinin qoyulması;

• müəssisənin ixracının təsbit olunmuş həcmlə yaxud buraxdığı məhsulun pay hissəsi ilə məhdudlaşdırılması («ixrac komponentinə dair tələblər») tələbinin qoyulması.

Xarici kapitallı müəssisənin yaradılması üçün şərt yaxud subsidiyaların verilməsi və ya vergilərdən müvəqqəti azadolma ilə əlaqələndirilməsindən (bəzi hallarda inkişaf etməkdə olan ölkələrə istisna kimi şamil edilməyə bilər) asılı olmayaraq, sadalanan tədbirlərin tətbiqi qadağandır. Eyni zamanda ÜTT üzvlərinə ticarətlə əlaqəli olan, lakin əhalinin həyatının və sağlamlığının müdafiəsi, milli təhlükəsizlik, tədiyyə balansının tarazlaşdırılması mülahizələri əsasında ümumi istisnalar kateqoriyasına daxil edilən investisiya tədbirlərini tətbiq etmək qadağan deyil. İnvestorlara qarşı texnologiyaların verilməsi, nou-hau və s. barədə tələblərin irəli sürülməsi ticarət şərtlərinin təhrif olunması kimi nəzərdən keçirilmir.

Sazişin digər maddələri prosedur-təşkilati xarakter daşıyır. Məsələn, bu maddələrə əsasən blokun tələblərinin başqa ölkələr üzrə fərqləndirilmiş qaydada tətbiqi mümkündür.

***Əqli Mülkiyyət Hüquqlarının Ticarı Məsələləri üzrə Saziş (TRIPS - Trade Related Intellectual Property Rights).*** Əqli Mülkiyyət Hüquqlarının Ticari Məsələləri üzrə Sazişin (TRIPS) məzmunu beynəlxalq ticarətdə əqli mülkiyyət hüquqlarının qorunmasının təmin olunmasından ibarətdir. Mütləq qeyd olunmalıdır ki, daha bÖ3dik əhəmiyyətli müqavilələrin (məsələn. Sənaye mülkiyyətinin qorunması haqqında Paris Konvensiyası (1967), Ədəbi]/yat və İncəsənət əsərlərinin qorunması haqqında Bern Konvensiyasının (1971) və s.)

iştirakçısı olmayan ÜTT üzv-dövlətləri bağladıqları beynəlxalq müqavilələri TRIPS-ə əsasən tətbiq etməlidir. Bundan əlavə, TRIPS-in əqli mülkiyyət üzərində hüquqların başqa növlərinə dair tələblərinə riayət olunması bütün iştirakçı ölkələr üçün məcburidir. Bu cür yanaşma, ölkənin müvafiq beynəlxalq müqavilədə iştirakından asılı olmayaraq, hamı üçün vahid hüquqi rejim təmin edir. TRIPS çərçivəsində Saziş iştirakçıları öz üzərinə bu öhdəlikləri qəbul edir:

- müəlliflik hüquqları və əlaqəli hüquqlar haqqında;
- əmtəə nişanları barədə;
- coğrafi adlardan istifadə olunması barədə;
- sənaye nümunələri haqqında;
- patentlər;
- inteqral mikrosxemlərin topologiyaları haqqında;
- konfıdensial informasiyanın qorunması haqqında.

Qeyd etmək vacibdir ki. Saziş müəyyən olunmuş hüquqi rejimə bütün səviyyələrdə nəzarətin bütöv sisteminin yaradılmasını nəzərdə tutur. Milli səviyyədə dövlətlər əqli mülkiyyət üzərində hüquqların qorunmasının milli mexanizmlərini hazırlamalıdır. Milli qanunvericiliklərdə bu müdafiənin vasitələri və mexanizmləri nəzərdə tutulmalıdır. Əqli mülkiyyət sahibinin hüquqlarının pozulması haqqında əsaslandırılmış şikayəti (məsələn, malın saxta olması barədə) əsasında dövlətin gömrük orqanlanna əmtəəni sərbəst dövriyyəyə buraxmamaq imkanı verən prosedur mexanizmi yaradılmalıdır. TRIPS-də milli nəzarət sistemində məhkəmə sisteminə xüsusi diqqət yetirilir.

ÜTT səviyyəsində nəzarət Əqli mülkiyyət üzərində hüquqlann ticari məsələləri üzrə Şura vasitəsilə həyata keçirilir. İştirakçı ölkələr Sazişin təsiri altına düşən bütün qanunlar, qanunaltı aktlar, prosedurlar barədə Şuranı xəbərdar etməlidir.

## 23.4. Xidmətlər sahəsində Ticarət üzrə Baş Saziş (GATS - The General Agreement on Trade İn Services)

Bu Saziş iqtisadi qanunvericiliyin Uruqvay raundu tərəfindən qəbul olunan yeniliklərindən biridir. Xidmətlərlə ticarətin çoxtərəfli hüquqi tənzimləmə ilə əhatə olunması əvvəlcə mallarla ticarətin tənzimlənməsinə çox bənzəyirdi. Yekun aktının tərkib hissəsi olan xidmətlərlə ticarətin tənzim-

lәmәnin 3 növü ilә tәmin olunur;

• bütün üzv-dövlәtlәrә şamil edilәn, baza öhdәliklәrindәn ibarәt olan çәrçivә razılaşması;

• hәr bir ölkәnin ticarәtin liberallaşmasına yardım edәcәk özәl öhdәliklәrini әks etdirәn milli qanunvericilik;

• xidmәtlәrin konkret sahәlәrindә ayrı-ayrı xüsusi hallara aid olan bәzi әlavәlәr.

Əsas Sazişin I hissәsi onun tәsir sahәsini, yәni bir iştirakçının әrazisindәn digәrinin әrazisinә göndәrilәn xidmәtlәri; iştirakçıların birinin әrazisindә digәr iştirakçının istehlakçılarına göstәrilәn xidmәtlәri (mәsәlәn, turizm); bir iştirakçının digәrinin әrazisindә fәaliyyәt göstәrәn tәşkilatları tәrәfindәn göstәrilәn xidmәtlәri (mәsәlәn, bank xidmәtlәri); bir iştirakçının fiziki vә ya hüquqi şәxslәri tәrәfindәn başqasının әrazisindә göstәrilәn xidmәtlәr (mәsәlәn, tikinti yaxud mәslәhәtvennә xidmәtlәri) müәyyәnlәşdirir.

***ÜTT-nin Kankunda keçirilәn V Nazirlәr konfransının (2003-cü il), Honkonqda keçirilәn VI Nazirlәr konfransının (2005-ci il), Cenevrәdә keçirilәn mini-konfransının (2008-ci il) uğursuzluqlarının sәbәblәri.*** Yuxarıda qeyd etdiyimiz kimi, beynәlxalq ticarәt danışıqlarının yeni raundu 2001- ci ildә Dohada (Qәtәr) başlamışdı. Hәmin vaxtdan onun iştirakçıları arasında әn mühüm mәsәlәlәr üzrә ciddi ziddiyyәtlәr baş qaldırmışdır. Belә ki, Kankunda (2003-cü il) növbәti dәfә 2 әsas tәrәfin - inkişaf etmiş vә inkişaf etmәkdә olan ölkәlәrin maraqları toqquşdu. Kankundakı konfransın özәlliyi vahid blokla çıxış edәn vә inkişaf etmiş ölkәlәrdә kәnd tәsәrrüfatı subsidiyalarının ixtisarı tәlәbini qoyan inkişaf etmәkdә olan ölkәlәrin G-21 qrupunun formalaşması oldu. Ölkәlәrin bu qrupunun mövqeyinin başa düşülmәsi vә danışıqların iflasa uğramasının sәbәblәri bunlardır; kәnd tәsәrrüfatı mәsәlәlәri, investisiyalar sahәsindә razılaşmalar vә onlar tәrәfindәn hәyata keçirilәn gömrük siyasәti.

***Kәnd tәsәrrüfatı.*** Uzun müddәtdir ki, ÜTT-dә çәtinlik yaradan maneәdәn biri kәnd tәsәrrüfatıdır. Reallıq budur ki, inkişaf etmәkdә olan ölkәlәrin әksәriyyәti xarici bazarlara kәnd tәsәrrüfatı mәhsullarından başqa heç nә tәklif edә bilmir, inkişaf etmiş ölkәlәr isә öz sәrhәdlәrini bu mәhsullar üçün bağlamaqla yanaşı, fermerlәrinә böyük mәblәğdә subsidiyalar verir. Əvvәlki onilliklәrdә inkişaf etmiş ölkәlәr inkişaf etmәkdә olanları öz aqrar sektorunun maliyyәlәşdirilmәsi üçün dövlәt subsidiyalarından hәddәn çox istifadәdә

günahlandırırdısa, indi sonuncular inkişaf etmiş ölkələrdən bu məqsədlərə ayrılan dövlət vəsaitlərinin ixtisarını tələb edir.

*İnvestisiyalar üzrə sazişlər.* Bu məsələdə əsas ziddiyyətlərdən biri inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin maraqları arasında balansın, prinsipcə, mümkün olmamasıdır. Çünki inkişaf etməkdə olan ölkələrə investisiyaların böyük hissəsi inkişaf etmiş ölkələrdən daxil olur. İnkişaf etməkdə olan ölkələr iddia edir ki, investisiyalar üzrə sazişlərin layihələri varlı ölkələrin korporativ investorlarına onların sərbəst iqtisadi siyasət həyata keçirmək imkanlarını məhdudlaşdırır. Buna görə də onlar inkişaf etmiş ölkələrdən daxil olan investisiyalar üçün resipiyent ölkənin özəllikləri nəzərə alınmaqla xüsusi şərtlərin tətbiqində israrlıdır. Başqa sözlə, onlar bu sahədə öz nəzarətini gücləndirmək niyyətindədir, bu isə, ÜTT-nin yaratmağa səy göstərdiyi universal sazişin ruhuna ziddir.

*Gömrük siyasəti.* Yoxsul ölkələrdən idxal inkişaf etmiş ölkələrin ümumi idxalının **'A** hissəsindən azdır və bunun da Ys hissəsi həmin ölkələrin bazarlara «daxil olarkən» çox yüksək (15%-dən artıq) gömrük rüsumları ilə qarşılaşır. ABŞ və Kanadada ən yüksək gömrük rüsumları toxuculuq mallarına və paltarlara, Aİ-də isə kənd təsərrüfatı məhsullarına tətbiq edilir. İnkişaf etmiş ölkələrin tez-tez istifadə etdiyi müdafiə mexanizmlərindən biri də malın istehsalı artdıqca, idxal rüsumlarının yüksəldilməsidir. Qlobal böhran dünyanın müxtəlif ölkələrində proteksionizm meyillərinin güclənməsinə səbəb olmuş, bu isə, inkişaf etməkdə olan ölkələr qrupuna ciddi təsir göstərmişdir. Bu məqam ÜTT-nin Doha raundunun məhsuldarlıqla başa çatdırılmasının zəruriliyini bir daha göstərir.

***ÜTT-nin Honkonqda keçirilən VI Nazirlər Konfransı*** (13-18 dekabr 2005-ci il) Doha raundunun tammiqyash razılaşmalarının işlənib hazırlanması yolunda aralıq mərhələ olmuşdur. Danışıq aparan tərəflər kövrək kompromis əldə etməklə, uğursuzluqdan yaxa qurtara və danışıqlar prosesini davam etdirmək şansını qoruyub saxlamağa müvəffəq oldu. Honkonq konfransında qəbul olunan nazirlər bəyannaməsi 2004-cü ildən sonrakı dövrdə keçirilən çoxtərəfli ticarət danışıqlarının yekunlarını əks etdirdi və 2006-cı il Doha raundunun başa çatdırılması üzrə işlərin istiqamətlərini müəyyənləşdirdi. Lakin bu baş vermədi.

2005-2008-ci illər ərzində raundun başa çatdırılması müddətləri dəfələrlə dəyişdirilmişdi. 2006-cı ilin iyuluna yaxın danışıqlann praktiki olaraq dalana

dirəndiyi aydınlaşdı. Danışıq aparan əsas tərəflərin mövqelərində əhəmiyyətli, əsasən də kənd təsərrüfatı məsələləri üzrə fərqlər qalırdı. Tərəflərdən heç birinin güzəştə getmədiyini nəzərə alaraq, ÜTT-nin Baş Katibi P.Lami Doha raundunun danışıqlarının dayandırılması barədə qərar qəbul etmək məcburiyyəti qarşısında qaldı. ÜTT-nin Cenevrədə keçirilən mini-konfransında (2008-ci il) dünya ticarətinin 7 aparıcı ölkəsi (Avstraliya, Braziliya, Çin, Avropa ittifaqı, Hindistan, Yaponiya və ABŞ) əsas məsələlərin həlli üçün ümumi məqbul olan variant təklif etdi. Amma aparılan müzakirələr nəticəsində yeni kəskin ziddiyyətlər aşkar olundu. Bu dəfə danışıqlardakı uğursuzluğun səbəbi, bir tərəfdən, ABŞ, digər tərəfdən isə, Hindistan, Çin və İndoneziya arasında kənd təsərrüfatı məhsullarının idxalı şərtlərinə dair fikir ayrılığı oldu. Vaşinqton həmin ölkələrin kənd təsərrüfatı məhsullarının milli istehsal-çılarmı Qərb idxalçılarının ucuz idxalından müdafiə etmək məqsədilə tədbirlər görülməsini nəzərdə tutan mövqeyi ilə razılaşmadı. Amma ABŞ-ın ticarət damşıq-larmdakı nümayəndəsinin bəyanatına görə, iştirakçı ölkələr razılıq əldə olunmasına çox yaxınlaşmışdı. Nəticədə ABŞ, Al və inkişaf etməkdə olan ölkələr arasındakı həlledici məsələlər üzrə, o cümlədən kənd təsərrüfatı, əqli mülkiyyət sahələrində ziddiyyətlər çox kəskin olduğuna görə ÜTT-nin raundu «dondurulmuşdur».

## 23.5. Beynəlxalq ticarət sistemi

Dünya iqtisadiyyatı və beynəlxalq iqtisadi əlaqələr inkişaf etdikcə, burada həlledici rol oynayan beynəlxalq ticarət tədricən dayanıqlı bir sistemə çevrildi. Onu bu cür ifadə etmək olar: *beynəlxalq ticarət sistemi* dövlətlərin mallarının və xidmətlərinin xarici ticarət axınlarının, fiziki və hüquqi şəxslərin xarici ticarət fəaliyyətinin, bu çoxşaxəli fəaliyyəti birbaşa yaxud dolayısı ilə tənzimləyən beynəlxalq təşkilatların və qurumların məcmusudur.

*Dünya ticarət sisteminin strukturu və quruluşu.* Dünya ticarəti tərkib və struktur baxımından müxtəlif iyerarxiya səviyyələrindən və bunun tənzimlənməsi mexanizmlərinin məcmusundan ibarətdir. Bunlar aşağıda göstərilən həlqələr, təsisatlar və başqa alətlərdir (mexanizmlərdir):

- ölkənin xarici ticarəti;
- beynəlxalq şirkətlərin xarici ticarəti;
- ölkələrin inteqrasiya qrupları arasında ticarət (Al ölkələri arasında ticarət buna klassik nümunədir);

• regional ticarət;

• dünya ticarətinin qaydalarını müəyyənləşdirən yaxud buna dair tövsiyələr verən beynəlxalq təşkilatlar (ÜTT, BVF, UNCTAD və BMT-nin digər qurumları);

• ticarət və onunla əlaqədar olan məsələlər üzrə beynəlxalq üçtərəfli, ikitərəfli, regional müqavilələr və sazişlər.

Müasir beynəlxalq ticarət statistikasında ticarət sisteminin 2 tip uçotu aparılır: ümumi ticarət sistemi və xüsusi ticarət sistemi.

***Ümumi ticarət sistemi*** ölkənin statistik ərazisi (xarici ticarət üzrə dərc olunan statistik məlumatların aid olunduğu) onun iqtisadi ərazisi ilə üst-üstə düşdükdə və ölkənin iqtisadi ərazisindən çıxarılan bütün mallar ixraca aid olunduqda tətbiq olunur.

***Xüsusi ticarət sistemi*** inteqrasiya qruplarının iştirakçısı olan ölkələr tərəfindən və dövlətlərin başqa müqavilə münasibətləri əsasında yaradılır və tənzimlənir.

## 23.6. Beynəlxalq Ticarət Palatası (BTP)

Beynəlxalq Ticarət Palatası (ICC - International Chamber of Commerce) beynəlxalq qeyri-hökumət təşkilatı, işgüzar dairələrin və birliklərin federasiyasıdır. Təşkilat 1919-cu ildə Atlantik-Sitidə (ABŞ) keçirilən beynəlxalq ticarət konfransında təsis olunmuşdur; 1920-ci ilin iyunundan fəaliyyət göstərir. Parisdə yerləşir. Nyu-York, Cenevrə və Honkonqda şöbələri var. ***BTP-nin rəsmi məqsədi*** beynəlxalq iqtisadi münasibətlərin yaxşılaşmasının dəstəklənməsi əsasında açıq dünya iqtisa-diyyatmı, işgüzar adamların və onların təşkilatlarının qarşılıqlı faydalı əməkdaşlığını daha da inkişaf etdirmək, xalqlar arasında dostluq münasibətlərini möhkəmlətməkdir.

Palatanın fəali}^əti azad və ədalətli rəqabət prinsiplərinə əsaslanan bazar iqtisadiyyatı sisteminin qurulmasına, istənilən formada proteksionizmə qarşı mübarizəyə, bütün ölkələrin dünya iqtisadiyyatına tam inteqrasiya olunmasına, dövlətlərin sərhədləri üzərindən kommersiya mübadiləsinin asanlaşdırılmasına, işgüzar fəallığın yüksək standartlarına, mülkiyyətə hönnətin və uzunmüddətli beynəlxalq kommersiya əlaqələrinə inamın möhkəmləndirilməsinə yönəlmişdir.

Palatada üzvlük 2 səviyyədədir:

• üzvlərinin işgüzar və peşə maraqlarını təmsil edən və siyasi məqsədlər

güdməyən milli komitələr və onlara bərabər təşkilatlar səviyyəsində;

• «bilavasitə üzvlər», yəni ölkədə BTP-nin milli komitələri olmadıqda, Palata üzvlüyünə qəbul olunan hüquqi və fiziki şəxslər.

Palatanın rəhbər orqanları Konqres, Şura və İcra Komitəsidir. Konqres 3 ildən bir. Palatanın fəaliyyətini yekunlaşdırmaq, beynəlxalq iqtisadi münasibətlərin aktual problemləri üzrə tövsiyələrin qəbul olunması üçün çağırılır. Ayrı-ayrı mövzuların müzakirəsi üçün konfranslar çağırılır. Qərarlar Ys səs çoxluğu ilə qəbul edilir. Konqresin işində hökumətlərin, beynəlxalq və milli təşkilatların nümayəndələri məşvərətçi səs hüququ ilə iştirak edir.

Prezidentin başçılıq etdiyi Şura Konqresin çağırılmasını hazırlayır, konqreslər arasındakı dövrdə Palatanın işinə rəhbərliyi həyata keçirir, təşkilata yeni üzvləri qəbul edir. Şura milli komitələrin nümayəndələrindən ibarətdir. Onların səsinin sayı (3 səsədək) milli komitə tərəfindən Palatanın büdcəsinə ödənilən üzvlük haqqının məbləğindən asılıdır. Şuranın tərkibinə bir səs hüququ olan «bilavasitə üzv» daxildir. Şuranın sessiyalan 2 ildən bir keçirilir.

İcra Komitəsinin tövsiyəsi ilə Şura tərəfindən prezident. Beynəlxalq Arbitraj Məhkəməsinin sədri. Palatanın coğrafi strukturu nəzərə alınmaqla, tərkibinin ⅓hissəsi hər il dəyişən İcra Komitəsinin üzvlərini seçilir.

***Katibliyin*** tərkibinə milli komitələrin səlahiyyətli nümayəndələrindən ibarət olan ***İnzibati komissiya*** daxildir. BTP ticarət-sənaye palatalarının fəaliyyəti haqqında sorğu kitabları nəşr edir və aylıq informasiya bülletenləri buraxır.

***Baş Katib*** Şuranın və İcra Komitəsinin tapşırığı ilə təşkilati-texniki və inzibati funksiyaları yerinə yetirir, BTP-nin məşvərətçi statusa malik olan BMT təşkilatları ilə əlaqələr saxlayır. Katibliyin tərkibinə milli komitələrin səlahiyyətli nümayəndələrindən ibarət olan ***İnzibati Komissiya*** daxildir.

## Xülasə

• BTP - ticarət qaydalarını, gömrük tariflərini və dünya ticarəti ilə əlaqədar olan digər məsələləri tənzimləyən, daimi fəaliyyət göstərən universal beynəlxalq təşkilatdır. Sələfi GATT-dan fərqli olaraq, BMT sisteminin ixtisaslaşmış təşkilatıdır. GATT Sazişi BMT-nin ixtisaslaşmış təşkilatı statusuna malik deyildi və BMT sistemi ilə bağlı olan hökumətlərarası idarəyə aid olunurdu. ÜTT öz normativ statusunu jmksəltmişdir: məsələn, GATT-dan

fərqli olaraq, ÜTT Komitənin qərarı ilə uduzmuş hesab olunan tərəfə, həmin qərarın qəbul olunmasını dayandırmağı qadağan etmək hüququna malikdir. Mübahisələrin həlli üzrə orqan və ÜTT-nin apelyasiya orqanı hökumətlərdən ÜTT qarşısında öhdəliklərinin yerinə yetirilməsini tələb edə, şikayətçi hökumətə eavab ticarət tədbirləri həyata keçinnək səlahiyyəti (ticarət qaydasının pozulması faktı təsdiqləndikdə) verə bilər.

• Hüquqi baxımdan ÜTT səciyyəvi cəhətləri olan, norma və qaydaları dünya üzrə mallar və xidmətlərlə ticarətin təqribən 97%-nə şamil olunan çoxtərəfli müqavilədir. Təkcə Uruqvay raundunun razılaşmalar zərfinə ümumilikdə 50-dən çox beynəlxalq ticarət sazişi və digər hüquqi sənəd daxildir və onlardan ən vacibi ÜTT-nin təsis olunması haqqında Sazişdir.

• Beynəlxalq ticarəti tənzimləyən universal ticarət nonnaları ticarət raundlarında, çox dar çərçivəyə daxil olan bəzi sənədlər isə ÜTT üzvü olan ölkələrin səlahiyyətli nümayəndələrinin iştirak etdiyi konfranslarda qəbul olunur. Ticarət danışıqlarının sonuncu raundu 2001-ci ildə Qətərin paj^axtı Dohada başlamışdır. İnkişaf etməkdə olan ölkələrin bəzisi (Çin, Braziliya, Argentina, CAR və s.) ilə ABŞ və Aİ arasında çox güclü ziddİ3^ətlər nəticəsində raund faktiki olaraq baş tutmamışdır. Ziddiyyətlər əsasən ölkələrin 2 qrupunun aqrar siyasətə fərqli yanaşmasından yaranmışdır. İnkişaf etmiş ölkələr onilliklər ərzində inkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatının dövlət tərəfindən dəstəklənməsinin ixtisar olunmasını tələb etsələr də, öz fermer təsərrüfatlarına hərtərəfli yardım göstərir. Bunun nəticəsində inkişaf etməkdə olan ölkələrin aqrar məhsulları dünya bazarlarında rəqabətə davam gətirmir. Bu dəfə inkişaf etməkdə olan ölkələr həmin ölkələrdə dövlətin kənd təsərrüfatından «getməsi» barədə sərt tələblər irəli sürmüş və nəticədə danışıqlardakı maneələr keçilməz olmuşdur.

ÜTT çərçivəsində qəbul olunan sazişlərin böyük bir qismi, o cümlədən Ticarətlə Əlaqədar Olan İnvestisiya Tədbirləri üzrə Saziş (TRIMs), Əqli Mülkiyyət Hüquqlarının Ticari Məsələləri üzrə Saziş (TRIPS), Xidmətlər Sahəsində Ticarət üzrə Baş Saziş (OATS) mühüm rol oynayır.

## Yoxlama sualları

1. Tariflər və Ticarət üzrə Baş Saziş (GATT) nə vaxt, kim tərəfindən və hansı məqsədlə təşkil edilmişdir? GATT danışıqlarının birinci raundunun nəticələri necə olmuşdur?

2. GATT - ÜTT-nin əsas danışıq «meydançaları» kimi ticarət raundlarının rolu nədən ibarətdir? Ən mühüm beynəlxalq ticarət və tarif qaydaları hansı raundlarda qəbul edilmişdir? Neçə raund keçirilmişdir?

3. ÜTT-nin məqsədləri və vəzifələri nədən ibarətdir? ÜTT-nin təşkilati quruluşu necədir?

4. 2001-ci ildə Dohada (Qətər) başlamış ticarət danışıqlarının sonuncu raundu niyə yarımçıq qalmışdır?

5. ÜTT çərçivəsində hansı mühüm Sazişlər fəaliyyət göstərir və onlar hansı münasibətləri tənzimləyir?

## Referatların mövzuları

1. ÜTT-nin (GATT-ın) əsas vəzifələri və məqsədləri, fəaliyyətinin nəticələri
2. Dohada (Qətər, 2001-ci il) başlayan ticarət raundunun uğursuzluğunun səbəbləri
3. Rusiyanın ÜTT üzvü olmaq səylərinin səbəbləri: mümkün nəticələr

# VI Bölmə

# XXI ƏSRDƏ BƏŞƏRİYYƏTİN QLOBAL PROBLEMLƏRİ

# Müasir qlobal problemlərin təsnifatı

***Terminlər məsələsi və qloballaşma probleminin genezisi tədqiqat predmeti kimi.*** Qlobal problemlər 1960-cı illərdə, yəni «qloballaşma» termininin meydana çıxmasından 20 il öncə dünya ictimaiyyətinin, müxtəlif ölkələrin siyasi və elmi dairələrinin geniş müzakirə obyektinə çevrilmişdir. Dərsliyin əvvəlki fəsillərində aydınlaşdırdığımız kimi, *qloballaşma* təsərrüfatçılıqda, maliyyədə, siyasətdə, sosial sferada, mədəniyyətdə və fəaliyyətin başqa sahələrində infonnasiya-kommunikasiya texnologiyaları əsasında beynəlmiləlləşmənin yeni mərhələsidir. *Qlobal problemlər* isə həm insanın planetar miqyasda fəaliyyəti, həm də təbiətdə baş verən, insanla mütləq bağlılığı olmayan dəyişikliklər nəticəsində fonnalaşan ən böyük ziddiyyətlərdir. Pedaqoji praktika göstərir ki, tələbələr bu iki anlayışın özündə ehtiva etdiyi, prinsip baxımından tamamilə müxtəlif olan məzmunu çox vaxt qarışdırır və buna görə də onların fərqləndirilməsi zəruridir.

Qlobal problemləri, ilk növbədə, onların universal, ümumi xarakteri birləşdirir. Bir qayda kimi, onlar müasir sivilizasiyanın tipindən, onun fəaliyyətinin istehsal-təsərrüfat formasından və buna müvafiq olaraq, təbiət və cəmiyyətlə qarşılıqlı əlaqəsi sahəsində məhsuldar qüvvələrin (istehsal amillərinin) tipindən irəli gəlir. 1960-cı illərdə 3 qlobal problem daha aydın surətdə təsnifləşdirilmişdi.

*Bunlardan birincisi* - nüvə silahı daşıyan raketlərin Kubada yerləşdirilməsinə görə ABŞ və SSRİ arasında atom müharibəsinin başlanmasının real təhlükəsi idi (1961-ci il). Həmin vaxt nüvə fəlakətinin baş vennə təhlükəsinin qarşısını böyük çətinliklə almaq mümkün oldu; bu zaman bəşəriyyət nüvə- raket müharibəsinin baş vermə təhlükəsinin aradan qaldırılması kimi qlobal problemin həllinin yalnız aparıcı dövlətlərin deyil, bütün dünya ictimaiyyətinin vəzifəsi olduğunu dərk etdi.

*İkinci qlobal problem* - inkişaf etməkdə olan ölkələrdə, xüsusilə də Afrikada və Asiyanın əhalinin sıx məskunlaşdığı regionlarında, habelə Latın Amerikası ölkələrinin böyük qrupunda sürətlə yayılan və getdikcə kəskinləşən aclıq təhlükəsidir. Əhalisi nəhəng, illik artım tempi isə 3,1% olan Hindistan da daim aclıq təhlükəsi altındadır. BMT-nin məlumatlarına görə, artıq bu gün Asiya, Afrika və Latın Amerikasında əhalinin 'A hissəsindən çoxu yoxsulluq və səfalət həddində yaşayır, ərzaq mallarının qıtlığı isə ölkələrin bu qrupunda

xroniki xarakter almışdır.

*Üçüncü qlobal problem* - insan və ətraf mühit arasındakı münasibətlərdə böhrandır. 1972-ci ildə amerikalı tədqiqatçılar, ər-arvad D.E. və C.Medouzun «İnkişafın hüdudları. Roma klubuna Hesabat» əsəri nəşr olunmuşdur. Bu əsər bütün dünyada böyük əks-səda doğurdu; müəlliflər ilk dəfə olaraq insanla təbiətin təmasda olmasının dağıdıcı təsirini göstərmişdilər. Nəticə belə idi: bəşəriyyət ətraf mühiti son 200 ildə olduğu kimi intensivliklə dağıdacaqsa, özü məhv etdiyi təbiətin dağıntıları altında həlak olacaq. Bu dövrdən başlayaraq, qlobal ekoloji problem aktuallığa çevrildi.

***Qlobal problemlərin müasir təfsiri.*** Son onilliklərdə qlobal problemlərin sayı durmadan artaraq ümumbəşəri xarakter daşıyan, çətin həll olunan məsələlərin və ziddiyyətlərin yaranmasının dinamikasını əks etdirir. Qlobal problemləri müəyyən qruplar üzrə bölmək olar.

Problemlərin *birinci qrupu* dünyanın sosial-iqtisadi, mədəni və siyasi inkişafı sahəsindədir; *ikincisi* - ekoloji xarakterli problemlərdir; *üçüncüsü* - dünyada nüvə müharibəsinin baş veməsi, müharibələr, silahlı münaqişələrin yayılması ilə bağlı problemlərdir. Buna uyğun olaraq, XXI əsrin aşağıdakı qlobal problemlərini sadalamaq olar:

• əhalinin böyük hissəsinin onillikdən-onilliyə «süzülərək», qlobal qeyri-sabitliyin getdikcə şiddətlənən təhlükəli meyillərini fonualaşdıran yoxsulluq və səfillik;

• planetimizin bir çox bölgələrində və dünyanın onlarca ölkəsində ərzaq böhranı - gah dünya ictimaiyyətinin nəzərindən yayınan, gah da real faktların qarşısıalınmaz təsiri nəticəsində yenidən diqqət mərkəzinə çevrilən problem;

• cəmiyyət və təbiət arasındakı münasibətlərdə planetar miqyaslı problemin - qlobal ekoloji böhranın genişlənməsi;

• bərpa olunmayan təbii ehtiyatların tükənməsi ehtimalı nəticəsində gələcəkdə xammal böhranının baş verməsinin mümkünlüyü;

• enerji böhranı - bizim dövrün reallığı. Bu problem enerji mənbələrinin (ilk növbədə, neft və qaz) azsaylı ölkələrin ərazisində cəmləşməsi nəticəsində yaranmışdır;

• əhalinin beynəlxalq miqrasiyası (əmək, siyasi, məcburi və s.);

• insanın təhlükəsizliyinin, demokratik dövlətdə onun hüquq və azadlıqlarının təmin olunması;

• sülhün qorunması, nüvə müharibəsinin, regional silahlı münaqişələrin

baş verməsinin qarşısının alınması, silahların ixtisar olunması;

• beynəlxalq terrorizmə və ekstremizmə qarşı mübarizə.

Təsnifatdan göründüyü kimi, qlobal problemlərin böyük hissəsi nisbətən yaxın dövrdə fonnalaşmış, qalanları isə «köhnələrdən», ənənəyə çevrilmişlərdən «cücərmişdir». Dünya ictimaiyyəti bu problemlərin həllində öz acizliyini göstərdikcə, onlar qar uçqunu şəklində artmaq və dərinləşmək xüsusiyyətinə malikdir. Problem-lərin digər özəlliyi, aralarında sıx əlaqələrin və asılılığın olması və bu səbəbdən birinin həll edilməməsi nəinki onun dərinləşməsi, həm də yenilərinin meydana çıxması yaxud başqasının (başqalarının) mürəkkəbləşməsi ilə nəticələnməsidir.

Biz sadalanan qlobal problemlərin hamısını nəzərdən keçirməyib (onların çoxuna əvvəlki fəsillərdə müəyyən dərəcədə toxunulmuşdur), fənnimizin məntiqinə daha uyğun olanların üzərində dayanacağıq; özü də, burada qlobal iqtisadi problemlərin məhz iqtisadi cəhətləri araşdırılacaq.

Mövcud *beynəlxalq iqtisadi münasibətlər sisteminin* modernləşdirilməsi və yeni beynəlxalq iqtisadi qayda-qanunun bərqərar olması (bunun özü də qlobal problemdir) bilavasitə qlobal problemlərlə həmsərhəddir. Bir tərəfdən, onun özü müstəqil problemdir, digər tərəfdən isə, bəşəriyyətin həll etməyə çalışdığı əsas qlobal problemlərin hər birinə sirayət etmişdir.

Qlobal iqtisadi problemlərin (yoxsulluq, dayanıqlı artım və s.) həlli üçün onların prioritetliyini müəyyənləşdirən ilkin şərtləri fərqləndirmək lazımdır.

Birincisi, aydındır ki, dünya iqtisadiyyatının inkişafı üçün müəyyən şərait olmalıdır. Bu mənada hərbi hazırlıq xərclərinin azaldılması mühüm ilkin şərt kimi görünür. Məsələn, 1990-cı illərdə silahlanmaya hər il trilyon dollar xərclənirdisə, sonuncu onillikdə bu rəqəm 1,5 trilyon dollara çatmışdır. Bütün ETTKİ-nin ***'A*** hissəsi hərbi məqsədlərlə aparılır.

İkincisi, cəmİ3^ətlərdə iqtisadi sabitlik, bərabərlik və ədalət təmin olunmalı, ilk növbədə isə, sosial fərqlər azaldılmalıdır. Dünya iqtisadiyyatının beynəlmiləlləşməsi və qloballaşması prosesi sürətləndiyindən, siyasi inkişafın etibarlı yolunun seçimi beynəlxalq iqtisadi əməkdaşlıq sisteminin özündə köklü dəyişikliklərin aparılmasına istinad etməlidir. Ticarət, maliyyə, energetika, ətraf mühit bir-biri ilə ən sıx surətdə əlaqəli olan, hər birinin a}Tılıqda və birlikdə həlli təhlükəsizlik baxımından *kompleks yanaşma tələb edən* sahələrdir. Qarşıdakı onillik üçün özündə aşağıdakı elementləri ehtiva edən qlobal iqtisadi strategiyanın işlənib hazırlanması zəruridir:

• etibarlı və dayanıqlı iqtisadi artıma, işsizliyi ixtisar etməyə şərait yaradan siyasət;

• sabit tiearət dövriyyəsini və dünya bazarlarına daha sərbəst çıxış təmin edən tədbirlər;

• malların rəqabət əsasında deyil, xəre amillərinə istinadən ədalətli qiymətinin müəyyənləşdirilməsinə və saxlanmasına yönəlmiş tədbirlər;

• Avrasiya ölkələrinin iqtisadiyyatının diversifıkasiyasınm stimullaşdırılması;

• Asiyanın, Afrikanın və Latın Amerikasının iqtisadi cəhətdən geridə qalmış ölkələrinin inkişafı məqsədlərinə ayrılan yardımın həcminin artırılmasını və əməkdaşlığın genişləndirilməsi; Avrasiya və inkişaf etməkdə olan ölkələrin xarici borc yükünün yüngülləşdirilməsi tədbirlər.

Üçüncüsü, ekoloji problemlər sahəsində məsələlərin hərtərəfli həlli təmin olunmalıdır. Bəşəriyyət insanın fəaliyyəti ilə ətraf mühitin məhdud imkanları arasında güclü ziddİ3^ətlərin mövcudluğunun dərk edildiyi tarixi dövrü yaşamaqdadır. Nəzərə alınmalıdır ki, ətraf mühitin qorunmasına yönəlmiş təsirli tədbirlərin çoxu əsrimizin ikinci onilliyində həyata keçirilməlidir və bəşəriyyətin bu sahədə ayrı-ayrı ölkələrin milli eqoizminə qalib gəlməsi həyati əhəmiyyət kəsb edir. İlk növbədə 3 aktual məsələ həll olunmalıdır:

1) ekoloji təfəkkür dövlət hakimiyyətinin ən yuxarı təbəqələrinə və hökumətlə sənaye dairələri arasındakı münasibətlərə, şirkətlərin menecmentinə nüfıız etməlidir;

2) «reaksiya verib müalicə etmək» prinsipi «əvvəlcədən görmək və qarşısını alınaq» strategiyası ilə əvəz olunmalıdır;

3) xüsusilə ciddi ekoloji problemlərin: silahlı münaqişələrin nəticələrinin, ərzaq qıtlığının, planetimizdə iqlim dəyişməsinin həlli üçün təxirəsalınmaz tədbirlər görülməlidir. Sonuncu problemin həlli energetika, xüsusilə də təhlükəsiz alternativ enerji mənbələrinin tapılması sahəsində uğurların əldə olunmasından əhəmiyyətli dərəcədə asılıdır. Meşələrin məhvi məsələsi kəskindir: kəsilən 10 ağac əvəzinə bu gün cəmi 1 ağac əkilir.

Dünya sosializm sisteminin və SSRİ-nin süqutundan sonra beynəlxalq aləmdə fəaliyyət göstərən amillərin və qüvvələrin sayı daim artmaqdadır. Dünya birliyinin sabahkı günü təkcə iri dövlətlərin - ABŞ, Yaponiya, Almaniya, Çin, MDB ölkələri və s. deyil, həmçinin, sürətlə artan YSÖ-nin, TMK-nm və beynəlxalq iqtisadi münasibətlərin başqa iştirakçılarının

qərarlarından, regional səviyyədə həyata keçirilən və qəflətən qlobal miqyas alan siyasi və başqa tədbirlərdən asılıdır. Öz növbəsində elm və texnika bu prosesləri dəfələrlə sürətləndirir. Bütün bunlar dünya birliyində bütün ölkələrin maraqlarına cavab verən müəyyən nonualarm bərqərar olunması ilə yanaşı etikanın, mənəviyyatın və bəşəriyyətin mədəni dəyərlərinin nəzərə alınmasını tələb edir. Buna görə elmi-texniki inqilab dövründə yeni, son dərəcə vacib amilə çevrilən, şəxsi və ictimai maraqları milli sərhədlərdən kənara çıxaran fərd amilinə diqqətin artırılması labüdləşir. Problemlər yalnız dünya birliyinin hər bir üzvünün maraqlarının özəlliyi nəzərə alınmaqla, kapitalın möhtəkir təbiəti tərəfindən ilahiləşdirilmiş bazarı ümumi tənləşdirici kimi təfsir' edən dağıdıcı-doqmatik konsepsiyalar olmadan həll edilə bilər. Məsələn, beynəlxalq iqtisadi münasibətlər sahəsində milli qanunvericiliklərin beynəlxalq hüquq normalarına yaxmiaşdırılması zəruridir. Bu cür yanaşma, inkişaf etmiş ölkələrdə belə zəifləməsi hiss olunan sosial müdafiə məsələsinə diqqətin artırılmasını tələb edir.

Dünyanın və onun tərkib hissələrinin vəhdətinin, bütün sosial-iqtisadi problemlərin həllinin eyni məqsəd daşıdığının subyektiv amil tərəfindən dərkolunma səviyyəsi, yaşadığımız dövrdə bu cür yanaşmaların və amalların reallaşması şansını daha da artırır.

Dünyada strateji tarazlığın pozulması ilə müşayiət olunan qlobal hərbi-siyasi balansın dəyişməsi ilə bağlı problem xüsusi diqqət tələb edir. Bu kəskin strateji sıçrayış dünya sosializm sisteminin «kənara atılması» və əsas geosiyasi mərkəzlərin, «qeyri-sabitlik qövsü» məkanının Balkanlardan Qafqaz vasitəsilə Orta Asiyaya, oradan isə Monqolustana, Çinə, Sibirə, Rusiyanın Uzaq Şərqinə köçürülməsi nəticəsində baş venuişdir. Bu vəziyyətin tədqiqi heç bir əsası olmadan yubadılaraq, Rusiyanın, Ukraynanın, Qazaxıstanın, Orta Asiya dövlətlərinin və başqa ölkələrin xarici siyasətində nəzərə alınmır. Qlobal tarazlığın pozulmasının mümkün nəticələrindən biri, hüdudu görünməyən «böhranlar qövsündə» Balkanlardan Çinə və Sibirədək, habelə başqa qitələrdə və ölkələrdə, 0 cümlədən Avropa və ABŞ-da etnik və subetnik münaqişələrin dini müharibə elementləri ilə birləşməsidir.

# Fəsil 24

# QLOBAL YOXSULLUQ VƏ DÜNYADA ƏRZAQ BÖHRANI

## 24.1. Qlobal yoxsulluq probleminin anlayışı, mahiyyəti və məzmunu

Məlumdur ki, yoxsulluq ilk növbədə və əsasən həyati zərurət olan qida məhsullarının kəmiyyəti və keyfiyyəti ilə ifadə olunur. Ərzaq böhranı, onun daimi müşayiətçisi olan yoxsulluq və səfalət inkişaf etməkdə olan ölkələr regionlarında: Asiya, Afrika və Latın Amerikasında (şərti olaraq «Yoxsul Cənub») cəmləşmişdir. Dünya əhalisinin 80%-i yaxud 4,6 milyard adam burada cəmləşmişdir və onların təxminən 90%-i lazımi qidalanmadan, elementar tibbi xidmətdən məhrumdur, daxmalarda, xarabalıqlarda yaşayır. Onların peşə hazırlığı yoxdur, qaneedici sayda iş yerləri ilə təmin olunmamışlar, əmək qabiliyyətli hər 3 nəfərdən biri tam, gizli yaxud qismən işsizdir; onların əksəriyyəti sosial müavinətlərdən məhrumdur. Bunu da qeyd edək ki, beynəlxalq ekstremizm məhz bu cür şəraitdə formalaşmış, sonradan isə fəallaşmışdır.

Məhz «Yoxsul Cənubdan» milyonlarla qaçqın bütün dünya üzrə səpələnib, əsasən «Varlı Şimal» ölkələrində cəmləşərək, burada külli sayda ziddiyyətlər yarat-mış, ümumilikdə isə qlobal miqrasiya problemini formalaşdırmışdır. Eyni zamanda daha bir qlobal problemin - demoqrafiyanın neqativ təsiri özünü göstənnəkdədir.

Əks qütbdə, yəni «Varlı Şimal»m inkişaf etmiş ölkələrində yaşayan 20%-dən az əhali isə öz sosial-iqtisadi problemlərini ümumilikdə uğurla həll etmişdir. Bəzi tədqiqatçılar tərəfindən bu vəziyyət «Cənub - Şimal» qlobal problemi şəklində ifadə olunsa da, bizim fikrimizcə, məsələ yoxsul ölkələrin üzləşdiyi çətinliklərin həllinin dünyada dayanıqlı iqtisadi inkişafa, yəni müasir dövrün başqa qlobal probleminə açıq-aşkar tabe edildiyinə görə siyasi xarakter daşıyır.

Beləliklə, sosial təzahür kimi, yoxsulluq müasir dövrün ən mühüm qlobal problemlərindəndir. Dünya təcrübəsində yoxsulluğun 3 əsas konsepsiyası fərqlənir: mütləq, nisbi və subyektiv.

***Mütləq yoxsulluq*** - fiziki mövcudluq üçün zəruri olan minimum təminat və şərait nöqteyi-nəzərindən müəyyənləşdirilən yoxsulluq səviyyəsidir. Mütləq yoxsulluq konsepsiyası əsas ehtiyacların (yaşayış minimumunun) müəyyən olunması təməlində qurulmuşdur və xronologiyaya görə birinci yaranmışdır. Yoxsulluğun XIX əsrin sonu - XX əsrin əvvəlində Böyük Britaniyada aparılan empirik tədqiqatları məhz buna istinad edirdi. Mütləq yoxsulluq öyrənilərkən 2 məsələni həll etmək lazımdır:

- yoxsulluq həddi qismində istifadə edilə bilən göstərici hazırlanmalıdır;
- yoxsulluq həddinin müqayisəsi üçün göstəricilər sistemi müəyyən edilməlidir.

Dünya Bankı tərəfindən mütləq yoxsulluq həddi göstəricisi gündə 1,25 dollar (məzənnə VAQP üzrə hesablanır) dolanışıq xərci müəyyən edilmişdir.

***Nisbi yoxsulluq*** - müəyyən cəmiyyətdə vətəndaşların əksərİ3^ətinin həyat standartına nisbətən müəyyən edilən yoxsulluq səviyyəsidir. Dünya təcrübəsində həyat səviyyəsinin və keyfiyyətinin qiymətləndirilməsi üçün sosial indikatorlar sistemindən: ÜDM-in əhalinin hər nəfərinə düşən məbləği; yoxsulluq həddindən aşağı səviyyədə yaşayanların sayı və xüsusi çəkisi; istehlak qiymətləri indeksi; uşaq və ana ölümünün səviyyələri; ömür müddəti; ÜDM-də sosial xərclərin xüsusi çəkisi; yoxsulluğun bir sıra başqa göstəriciləri (sosial ehtiyaclara xərclər, ibtidai təhsil, səhiyyə xidmətləri almağın mümkünlüyü, içməli su ilə təminat və s.) istifadə edilir.

Əhalinin həyat səviyyəsinin keyfiyyətini əks edən göstəricilər sistemi ilk dəfə 1960-cı ildə BMT-nin tədqiqatları əsasında yaradılmışdır. Bu sistemin son variantına 12 əsas göstəricilər qrupu daxildir:

1) əhalinin demoqrafik xarakteristikaları (doğum, ölüm, xəstəlik, ömür müddəti və s.);
2) həyatın sanitar-gigiyena şəraiti;
3) ərzaq məhsullarının istehlakı;
4) yaşayış şəraiti və uzun müddət istifadə edilən istehlak malları (avtomobil, soyuducu, televizor və s.);
5) təhsil və mədəniyyət;
6) məşğulluq və əmək şəraiti;
7) əhalinin gəlirləri və xərcləri;
8) yaşayışın dəyəri və istehlak qiymətləri;
9) nəqli}^at vasitələri;

10) istirahətin, bədən tərbiyəsi və idmanın təşkili;

11) sosial təminat;

12) insan azadlığı.

Sadalanan qruplardan başqa, BMT-nin Statistika Komitəsi həyat keyfiyyətinin qiymətləndirilməsi üçün vacib, amma BMT ekspertlərinin rəyinə görə onu birbaşa xarakterizə etməyən göstəricilərin daxil olduğu ümumi bölmə fərqləndirir. Bura aşağıdakılar aid edilmişdir;

1) milli gəlir;

2) ÜDM-in əhalinin hər nəfərinə düşən məbləği və onun orta illik artım əmsalı;

3) sosial xidmətlərin həcmi və növləri;

4) əhalinin fərdi istehlaka yönələn xərcləri, onun strukturu və orta illik artım əmsalı, əhalinin sıxlığı;

5) əhaliyə göstərilən nəqliyyat xidmətləri;

6) rabitə vasitələrinin, nəşriyyatın işi və sair.

Ölkə əhalisinin həyat səviyyəsi ÜDM-dən istifadənin strukturu ilə də xarakterizə olunur. Fərdi son istehlakm (fərdi istehlak xərclərinin) strukturunun təhlili xüsusilə vacibdir. İstehlakda uzun müddət istifadə edilən malların və xidmətlərin payının çox olması əhalinin həyat səviyyəsinin, ölkənin iqtisadi inkişafının nisbətən yüksək olduğunu göstərir.

Həyat səviyyəsini təkcə ərzaq mallarının deyil, həmçinin, qeyri-ərzaq mallarının: parça, paltar, ayaqqabı, trikotaj və s. istehsalının əhalinin hər nəfərinə düşən həcmi də səciyyələndirir. Əhalinin hər 1000 nəfərinə yaxud orta statistik ailəyə düşən bir sıra uzun müddət istifadə olunan malların; soyuducu, paltaryuyan maşın, televizor, minik avtomobilləri, video aparatları, fərdi kompüterlər və s. mövcudluğu (yaxud ölkədə istehsalı) göstəriciləri də bunların analoqudur.

Əhalinin həyat səviyyəsinin təhlili adətən qarşılıqlı bağlılığı olan 2 göstəricinin: istehlak səbətinin və yaşayış minimumunun müəyyənləşdirilməsi ilə müşayiət olunur.

***İstehlak səbəti (İS)*** - insan üçün həyati zəruriliyi olan əmtəə qrupunun toplusudur. ***Yaşayış minimumu*** - insanların cəmiyyətdə maddi təminatının rəsmi tanınılan, pul vəsaitlərinin həcmi ilə ifadə edilən səviyyəsidir. Bu göstəricidə, birincisi, inkişaf etməkdə olan və postsosialist ölkələrinin yoxsulluq göstəricisinin yaxınlaşması prosesi və 1990-cı illərdə kifayət qədər 3diksək

səviyyədə sabitləşməsi; ikincisi, inkişaf etmiş ölkələrdə (XX əsr ərzində ABŞ, Yaponiya, Böyük Britaniya və Fransada) yoxsulluq səviyyəsinin dumıadan aşağı düşməsi öz əksini tapmışdır. Burada həmin meyillərin 1980-ci illərin ikinci yarısından səngiməsi və XXI əsrin ilk beşilliyində bir qədər sabitləşməsi nəzərə çarpır. Bu, dünyanın inkişaf etməkdə olan ölkələrin böyük qrupunda yoxsulluğun yenidən genişlənməsinin nəticəsidir.

Mütləq yoxsulluğun miqyasının azalmasında müəyyən irəliləyiş əldə olunsa da, çox güman ki, Minilliyin Bəyannaməsində 2015-ci ildə ifrat yoxsulluğun miqyasının 2 dəfə azaldılmasını nəzərdə tutan vəzifəni yerinə yetinnək mümkün olmayacaq. Dünya Bankının məlumatlarına görə, inkişaf etməkdə olan ölkələrin gündə 1,25 dollardan az məbləğə yaşayan əhalisinin sayı 1981-ci ildəki 1,9 milyard nəfərdən 2005-ci ildə 1,4 milyard nəfərədək azalmışdır (2005-ci ilin VAQP üzrə). Yoxsulluğun miqyası ilə bağlı vəziyyətin bir qədər yaxşılaşması əhəmiyyətli dərəcədə iqtisadi artımla izah edilir. Son 20 ildə dayanıqlı inkişafın müşahidə olun-duğu ölkələr və regionlar yoxsulluğun miqyasının ixtisarına nail olmuşdur (xüsusilə şəhərlərdə). Bunlara Çin və Hindistan kimi ölkələr aiddir. Yoxsulluğun aşağı düşən göstəricisi məhz bu ölkələrin əldə etdiyi uğurlarla izah olunur. Amma heç də bütün ölkələrdə hiss olunacaq tərəqqi baş vennəmişdir. Yoxsulların sayının mütləq göstəricisi Böyük Səhradan Cənubda yerləşən ölkələrdə. Latın Amerikasının, Yaxın Şərqin və Şimali Afrikanın, habelə Mərkəzi Asiyanın bir sıra dövlətlərində artmışdır.

Bu meyilləri nəzərə alsaq, belə bir sual meydana çıxır: yoxsulluğun miqyasının azaldılması üzrə qlobal cəhdlər uğurlu yaxud uğursuz hesab edilməlidir? Əgər Çin və Hindistanda bu məsələdə tərəqqi əldə edilibsə, bunu inkişaf etməkdə olan, xüsusilə də iqtisadiyyatı geridə qalan ölkələr barəsində söyləmək mümkün deyil.

***Beynəlxalq yoxsulluq həddi*** - yoxsulluğun ölkələr üzrə statistik göstəricilərinin hesablanması nəticəsində əldə olunan orta göstəricisidir. Bir sıra, xüsusilə də inkişaf etməkdə olan ölkələr üçün səciyyəvi hesab edilən yoxsulluq əsasən kənd yerlərində cəmləşmişdir: yoxsulların % hissəsi xırda fermerlər (çox güman ki, formal) yaxud muzdurlar, ⅓hissəsi inkişaf etməkdə olan ölkələrin kənd ticarətçiləridir (onların isə böyük ailələri var). Əhalinin bu qrupunun məşğulluğu, ehtimal ki, şərti xarakterdədir. Yoxsulluq doyunca yeməməkdən əziyyət çəkən qadınlara və uşaqlara xüsusilə ağır təsir göstərir.

Bəzən bu problem təhlil olunarkən, yoxsulluq həddindən aşağıda yaşayanların gəlirləri ilə yoxsulluq həddi üçün müəyyən edilmiş hədd arasındakı fərq kimi hesablanan «səfalət dərəcəsi» göstəricisindən istifadə edilir. Yoxsulluğun aradan qaldırılması üzrə dövlət siyasəti həyata keçirilmədikdə, yoxsulluq, bir qayda kimi, səfalətə keçir. Hazırda yoxsulluğun beynəlxalq meyarı hər nəfər üçün gündəlik 1,25 ABŞ dollarıdır. Ehtimal edilir ki, dünyada 1 milyard adam bu «qırmızı xətdən» aşağı səviyyədə olan məbləğlə dolanır (2010-cu ilin sonuna olan məlumat).

Mütəxəssislər düzgün qeyd edirlər ki, hər bir ölkə üzrə beynəlxalq yoxsulluq həddindən aşağıda yaşayan adamların sayının sadəcə hesablanmasının bir metod kimi çoxlu qüsurları var və bu təzahürün həqiqi şəklini verə bilməz. Buna görə də məsələnin həllinə daha düzgün və əsaslandırılmış yanaşılmasına imkan yaradan müxtəlif konstruksiyalar meydana çıxır.

## 24.2. Yoxsulluq necə ölçülür? Todaro modeli

Professor M.R.Todaro yoxsulluğun həm inkişaf etməkdə olan, həm də keçid iqtisadiyyatlı ölkələr üçün praktiki əhəmiyyətə malik qrafik təsvirini təklif etmişdir.

Aşağıda göstərilən diaqramda (A və B ölkələri) yoxsulluq həddi ***{PV)*** ilə əhalinin illik gəlirləri arasındakı ştrixlənmiş sahə yoxsulluq dərəcəsini ifadə edir.




*Şəkil 24.1.* **Yoxsulluğun diaqramı (Todaroya görə);**

*A* - yoxsulluğun nisbətən yüksək səviyyəsi;

*B* - yoxsulluğun nisbətən aşağı səviyyəsi.

Diaqram illik gəlir əsasında 2 ölkədə yoxsulluğun səviyyəsini göstərir. ***A*** ölkəsində yoxsulluq dərəcəsi ***B*** ölkəsi ilə müqayisədə çoxdur.

Qeyd olunmalıdır ki, səfalətə keçən yoxsulluq müasir Rusiyada müşahidə olunan kifayət qədər geniş təzahürdür. 2001-2010-cu illərdə yoxsulluğun və onun ifrat forması olan səfalətin ixtisan meyilləri nəzərə çarpırdı. Lakin ümumdünya maliyyə-iqtisadi böhranının baş verməsi nəticəsində yoxsulluq, səfalət üçün baza yaratmaqla, yenidən hücuma keçdi.

## 24.3. Gəlirlərin bölgüsü ilə qeyri-bərabərlik arasındakı əlaqə

Vaxtı ilə hələ klassik iqtisadçılar qeyri-bərabərliyin eəmiyyətin inkişafında güelü ləngidiei amil olduğunu göstərirdilər. A.Smit, D.Rikardo, T.Maltus, K.Marks, onların müasirləri və ardıcılları (A.Marşall, C.Klark, C.Robinson, C.Helbreyt və başqaları) kapitalizmin abırsız məddahları və nuvoriş-alverçilərinin vəkilləri kimi çıxış etməyərək, ətrafdakı ümumi yoxsulluq və ədalətsizlik mühitində onların israfçı-lıq hüququnu müdafiə etmirdilər. Biz onların əsərlərində bəzi sənayeçilərin və tacir-lərin iqtisadi quruluşu nüfuzdan salaraq topladıqları sərvətdən və hətta xüsusi mülkiyyətdən yalnız şəxsi varlanma üçün istifadə etməsindən narahat olduqları ilə rastlaşa bilərik. Bu alimlər əsərlərində xüsusi mülkiyyət hüququ və sahibkarlıq azadlığı prinsipi ilə cəmiyyətin əmək qabiliyyətli hissəsinin iqtisadi həyata cəlb olunması və əməyi ilə özünə layiqli həyat şəraiti təmin edə bilməyən vətəndaşlara sosial yardım göstərilməsi prinsipinin hannonizasiyası ideyasını elmi əsaslandınnağa çalışırdılar. Onların bu mülahizələri kapitalizmin hələ ilkin inkişaf mərhələlərində aşkar olunmuş sosial təzadların: bir tərəfdən, dövlətin iqtisadi siyasəti ilə sahibkarlıq arasında, digər tərəfdən isə, onun sosial siyasəti arasındakı barışmaz ziddiyyətlərin təhlilinin nəticəsi olmuşdur. Kapitalist-sahibkarın heç zaman insanların, xüsusilə də onun müdafiəyə daha çox ehtiyaeı olan hissəsinin - qadınların, uşaqların, ahılların, xəstələrin və s. maraqlarını qorumaq funksiyasını öz üzərinə götürməyəcəyinin sübut olunması, XIX əsrdə Qərbi Avropa cəmiyyətlərində K.Marksm iqtisadi nəzəriyyəsi-nin siyasi nöqteyi-nəzərdən qavranılmasmm ən güelü cəhəti

olmuşdur. Həmin dövrədək bu cəmiyyətlər kökündən çürümüş siyasi rejimləri smdınuaq üçün «yetişmişdi» və bunun üçün yalnız mərkəzi ideya lazım idi. Bu ideya K.Marks tərəfindən kapitalizmin ədalətsiz bölgü quruluşu (bu ideya heç vaxt və heç kim tərəfindən təkzib olunmamışdır) kimi təhlilində göstərilmiş və Qərbi Avropa sosial-demokratlarının proqramının əsas ehkamı qismində qəbul edilmişdir. Qərbi Avropanın kiçik məkanında zəhmətkeşlərin sosial rifahı məsələsini qismən həll etdikdən sonra həmin ölkələrin sosial-demokratiyası buna aktual problem kimi yanaşmaqdan imtina edərək, 100 il ərzində partiyalarının rəmzi olmuş bərabərsizliyin nəzəri əsaslandmnalarım öz proqramlarından çıxarmışdılar. Amma XX əsrin sonuncu onilliyində qeyri- bərabərliyin yeni, sürətlə artan fərqi dünyanın bir çox iqtisadçılarında narahatçılıq doğurmağa başladı, yoxsulluğun qlobal artımı, kütlələrin mütləq və nisbi yoxsullaşması (xüsusilə də inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrdə) meyilləri gücləndi. Bu meylin rəvanhqla XXI əsrə keçməsi beynəlxalq tədqiqatçılar və müxtəlif beynəlxalq təşkilatların, o cümlədən BMT-nin hesabatları tərəfindən təsdiqlənir.

Gəlirlərin bölgüsü ilə qeyri-bərabərlik arasındakı birbaşa əlaqələrin axtarışı ilə bir çox iqtisadçı-alimlər məşğul olmuşdur. 1980-ci ildən bu problematika BMT-nin, habelə başqa maliyyə-iqtisad qurumlarının, o cümlədən BVF-in və DB-nin tədqiqat işlərinin əsas istiqamətlərindən birinə çevrilmişdir. Hazırda tədqiqat məqsədləri üçün gəlirlərin bölgüsünün 2 əsas göstəricisi fərqləndirilir; gəlirlərin mütləq kəmiyyət (həcmi) üzrə bölgüsü və gəlirlərin istehsal amilləri üzrə funksional bölgüsü.

***Gəlirlərin bölgüsü.*** Bu bölgünün əsasında əhalinin müəyyən qruplarının durması ayrı-ayrı şəxslərin (onların qruplarının) və ev təsərrüfatlarının gəlirlərinin təhlil olunmasını və əhalinin ümumi gəlirlərində xüsusi çəkisinin müəyyən edilməsini şərtləndirir. Ümumi qəbul olunmuş metod gəlirlərin məbləği artdıqca, əhalinin sayının kvantillərə və desillərə (1/5 və 1/10 hissələrə) bölünməsindən ibarətdir. Bundan sonra ümumi gəlirdən hər bir qrupa düşən pay müəyyənləşdirilir. Ümumi gəlir 100% kimi qəbul olunur, sonra isə müvafiq olaraq qruplar üçün kvantiliyalar üzrə hesablanır (məsələn, birinei qrup əhalinin 20%-i - gəlirləri ən aşağı, dördüncü yaxud beşinci qrup isə gəlirləri ən yüksək olanlardır). Qeyri-bərabərlik göstəricisi bunun əsasında müəyyənləşdirilir'.

^ *Todapo М.П.* Экономическое развитие. М., 1997. С. 131.

***Lorens əyrisi.*** Professor Konrad Lorens hələ XX əsrin əvvəlində əhalinin müxtəlif qrupları ilə onların gəlirlərinin həcmi arasında qarşılıqlı əlaqəyə yanaşmasını ifadə etmişdir. İqtisad elmində bu yanaşma «Lorens əyrisi» adını almışdır (şəkil 24.2).




*Şəkil 24.2.* **Lorens əyrisi**

o - əhali qruplarının bölgüsü; *b* - nisbətən bərabər bölgü; c - nisbi bərabərsizlik.

Lorensin modelində gəlir əldə edənlər üfüqi ox üzərində bütün gəlir alanların sayma faiz nisbəti ilə qruplar üzrə yerləşmişdir. Şaquli oxda əhalinin ümumi gəlirin hər bir qrupunun payına düşən payı qeyd olunur. Diaqonalm hər bir nöqtəsində əldə olunan gəlirin faiz göstəricisi, onu alanların əhalinin ümumi sayındakı xüsusi çəkisi göstəricisinə bərabərdir. Beləliklə, burada gəlirlərin əhali qrupları üzrə hesablanması və yoxsulluğun aşkarlanması üçün ideal model təsvir olunmuşdur. Göstərilən şəkil bu təzahürün inkişafını yaxşı təsvir edir: Lorens əyrisi dərinləşdikcə, əhalinin müxtəlif qruplarının gəlirləri arasındakı fərq artır; *c* modeli gəlirləri son dərəcə fərqlənən, *b* modeli isə fərqlər ən az olan və gəlirlərin nisbətən bərabər bölündüyü cəmiyyətləri göstərir.

***S.Kuznetsin hipotezi.*** Ölkələrin böyük qrupunda gəlirlərə təsir göstərən əsas amilləri tədqiq edərkən S.Kuznets iqtisadi artımın ilkin mərhələlərində gəlirlərin bölgüsünün pisləşməyə doğru meyil etməsi barədə fərziyyə irəli sürmüşdür. Bu asılılıq qrafik şəklində çevrilmiş V hərfi kimi təsvir olunur. *Kuznets əyrisinin* bu forması ÜDM-in əhalinin hər nəfərinə düşən həcminin artmasına (yaxud azalmasına) müvafiq olaraq gəlirlərin bölgüsündə baş verən dəyişiklikləri əks etdirir (şəkil 24.3).




*Şəkil 24.3.* **Gəlirin bölgüsündə dəyişikliklər (Kuznets əyrisi)**

İnkişaf etmiş ölkələrdə yoxsulların sayı nisbətən az olsa da, yoxsul və ehtiyacı olan adamlar tamamilə olmayan ölkə mövcud deyil. Aydındır ki, yoxsulluq kapitalizmin mənfi xüsusiyyətlərindən biridir və bu sistemə üzvi surətdə xas olan ***sosial təzahürdür.***

***Cini əmsalı.*** Kuznetsin əyrisinə Cininin cəmləşmə əmsalını yaxud Cini əmsalını tətbiq etməklə', müxtəlif ölkələrdə yoxsulluq səviyyəsinin dəyişməsini, habelə cəmiyyətin strukturunda gəlirlər arasındakı fərqi müəyyənləşdirmək olar. Cini əmsalı ölkədə gəlirlərin nisbi bərabərsizlik dərəcəsinin göstəricisidir. Bu əmsal diaqonal xətlə Lorens əyrisi arasındakı sahənin əyrinin yerləşdiyi kvadratın sahəsinə bölünməsi yolu ilə hesablanır. 24.4 şəklində Cini əmsalı ştrixlənmiş A sahəsinin BCD üçbucağının bütün sahəsinə nisbəti kimi təsvir olunmuşdur.

$$\textbf{Cini əmsalı} = \frac{A \textbf{ sahəsi}}{BCD \textbf{ sahəsi}}$$

^ Kuznets.S. Economic Grown and Income Inequality//American Economic Review. № 45. March 1995. P. 2-6. Amantiative Aspects of the Econimic Grown of Nation // Economic Development and Cultural Ghange. № 11. March 1963. P. 204.




*Şəkil 24.4.* **Cini əmsalı**

Cini əmsalı sıfırdan (mütləq bərabərlik) vahidədək (mütləq qeyri-bərabərlik) dəyişə bilən aqreqatlaşdırılmış göstəricidir. Bu əmsal aşağıdakı düstürla da hesablana bilər:

$$G = 1 + \frac{1}{n} - \frac{2}{n^2 y} \cdot [y_1 + 2 \cdot y_2 + 3 \cdot y_3 + \dots + n \cdot y_n]$$

Burada: ***$y_1$, .... $y_n$*** - azalma qaydasında fərdi gəlirlər, ***y*** - orta gəlir, ***n*** - fərdlərin sayıdır.'

Cini əmsalı nisbi göstəricidir. Bundan əlavə, əmsal 2 diapazon üçün eyni olduğu halda, onlardan birindəki bölgü digəri ilə müqayisədə daha bərabər ola bilər. Beləliklə, bu düstur tamamilə dəqiq nəticə alınması üçün təyin olunmayaraq, müəyyən ümumi kəmiyyətin əldə olunmasına imkan verdiyinə görə, cəlbedicidir. Məsələn, Rusiya və Latın Amerikası ölkələri üçün Cini əmsalı eyni, 0,35 diapazonunda (yüksək qeyri-bərabərlik) tərəddüd etdiyi halda, ABŞ-da 0,48, Aİ ölkələrində 0,30 (burada isə İsveç, Danimarka, Norveç və Finlandiyada - 0,26, yəni Cini əmsalı minimal səviyyədədir) səviyyəsində bərqərar olmuşdur.

^ Словарь современной экономической теории / под общ. ред. Д.У.Пирса, М., 1997, С. 204.

*Gəlirin funksional bölgüsü.* Milli gəlirin istehsal amillərindən hər birinin (əmək, kapital, toıpaq, təhsil, texnologiya) payına düşən hissəsinin müəyyən olunması üçün gəlirin funksional yaxud gəlirlərin əldə olunma mənbələri üzrə bölgüsü metodundan da istifadə olunur. Amilin qiymətinin təyin edilməsi üçün baza göstəriciləri qismində tələb və təklif əyrilərindən istifadə olunur. Bu halda inkişafın tipi (modeli) çox mühüm rola malikdir: inkişaf etmiş sahələrdə iqtisadiyyat texnoloji cəhətdən ümumilikdə eynicinslidir; inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkə-lərdə isə hər bir sektorun müxtəlif gəlir verdiyi «dual» iqtisadiyyat nəzərdə tutulur.

***Dual inkişaf modeli.*** Dual inkişaf prinsipi iqtisadi nəzəriyyədə yeni olmayaraq, 2 müxtəlif səviyyəli (müasir və keçid) münasibətlərin «birgə mövcudluğuna» əsaslanır. İnkişafın bu tipinin özünün də müxtəlif növlərinin mövcudluğunu inkişaf etməkdə olan ölkələrin təcrübəsi əyani sübut edir. H.Filds tədqiqatında dual inkişafın bu növlərini fərqləndirmişdir:

• Luisin modelində təsvir olunmuş inkişaf tipi: əmək haqqı sabit saxlanmaqla, müasir sektorun genişləndirilməsi hesabına artım. Bu növ inikşaf etmiş ölkələrin inkişaf modelinə təqribən uyğundur və Yaponiya, Tayvan və Cənubi Koreyanın inkişaf modelindən bir qədər fərqlənir;

• müasir sektorda istehsalın artımının orada məşğulluq səviyyəsinin artması ilə müşayiət olunmadığı inkişaf tipi. Burada gəlirlərin çoxalması fomıasmda artımın nəticələri əhalinin dar təbəqəsinin arasında bölüşdürülür. Göstərilən tip (model) Latın Amerikasının və Afrikanın bir çox ölkələri üçün səciyyəvi olmuşdur;

• ənənəvi sektor hesabına inkişaf tipi (modeli). Burada tərəqqinin əsas nəticələri həmin sektorda məşğul olan işçilər arasında bölüşdürülür. Fildsə görə, bu model öz klassik foraıasında maoçu Çin və digər sosialist ölkələri üçün səciyyəvi idi.

Buna baxmayaraq, iqtisadçılar gəlirlərin bölgüsünə təsir göstərən mənbələrə münasibət göstərilməsi məsələsində müxtəlif ölkələrdə bu prosesə hansı iqtisadi və sosial amillərin təsir etdiyinə dair müəyyən fikir söyləyə bilməmişdir və burada əlavə tədqiqatlar tələb olunur.

***Lorens əyrisi, ÜDM-in dinamikası və «Argentina fenomeni».*** Mütəxəssislər yuxarıda göstərdiyimiz Lorens əyrisindən iqtisadi inkişafın müəyyən mərhələsində ÜDM-in təhlili zamanı gəlirlərin bölgüsünün ölçülməsi üçün istifadə edir. Bu halda tsiklik enmənin qısamüddətli dövrləri nəzərə

alınmazsa, tədqiq olunan zamanın ayrıca götürülən mərhələsində ÜDM-in artdığı nəzərdə tutulur. XX əsrin ilk onilliklərində iqtisadi geriləmənin (əlbəttə ki, sülh dövründə) yalnız bir dəfə - 1929-1933-cü illərin Böyük böhranı dövründə, ABŞ-da və Qərbi Avropada ÜDM-in dayanmadan və sürətlə aşağı düşdüyü zaman baş verməsinə görə, bu, çox məntiqi görünürdü. İqtisadi tarixdə diqqəti cəlb edən və öyrənilməsi tələb olunan ən azı 2 belə hadisə olmuşdur. Bunlardan birincisi, Argentina iqtisadiyyatında bir sıra daxili və xarici amillərin qovuşması əsasında meydana çıxmışdır. 1870-ci ildə bu ölkə əhalinin hər nəfərinə düşən milli gəlirin məbləğinə görə Almaniyanı qabaqlayaraq, dünyada 11-ci yeri tuturdu. İndi isə Argentina bu göstərici üzrə hətta 50 ölkə siyahısına da daxil deyil.

Göstərilən fenomeni tədqiq edərkən, amerikalı alim U.Rostou buna istinad edirdi ki, iqtisadiyyatın inkişafının müəyyən mərhələsində həlledici göstərici *milli gəlirin əhalinin hər nəfərinə düşən məbləği deyil, texnologiyanın səviyyəsidir.* Buradan belə nəticə çıxarılır ki, Argentinada uzun müddət ərzində (1914-cü ilədək) iqtisadi sıçrayış üçün şərait fonualaşmışdır. Bu cür məntiqi konstruksiyanın qurulması Rostouya belə bir nəticə çıxarmağa əsas verdi ki, «bu ölkə sıçrayış mərhələsinə Birinci Dünya müharibəsi dövründə daxil olmuş və ... 1930-cu illərin ortasında həqiqətən də baş verən uzunmüddətli sıçrayışı indiki dövrədək (1960-cı il) ümumilikdə uğurlu hesab etmək olar»’.

Argentinanın uzunmüddətli artım dövrünə Luis, Kuznets, Lorens və Cini metodikalarının əhalinin müxtəlif sosial stratları ilə onharın gəlirlərinin həcmi arasında əlaqələrin və qarşılıqlı asılılığın aşkar olunması mövqeyindən yanaşılması, iqtisadi artımı ləngidən daxili amilləri eyniləşdimıəyə imkan yaratmışdır. Bunlara nümunə kimi, XIX əsrin ikinci yarısından Argentinanın öncül hesab edilən sənaye sahələrində dinamik yüksəlişin istehsalda məşğulluğun artımı ilə müşayiət edilməsini göstəmıək olar. Bu cür inkişafın nəticələri ölkə əhalisinin məhdud stratı arasında bölüşdürülür və qalan hissəsinin gəlirlərinin və yığımlarının çoxalmasına səbəb olmurdu; buna müvafiq olaraq, yığımlar artım üçün zəmin yaradan uzunmüddətli amilə çevrilmirdi.

Amma Rostounun istinad etdiyi Argentina təerübəsi, onun işləyib hazırladığı artım mərhələləri konsepsiyasının bu ölkəyə münasibətdə tətbiq

*Ростоу* У. Стадии экономического роста. Претер. Нью-Йорк, 1961. '
Тодаро М. Экономическое развитие. С. 124.

edildiyi halda inkar olunduğunu göstərir; onun, kitabı yazarkən istinad etdiyi göstəricilər əsasında çıxardığı fundamental nəticələrin Argentinaya tətbiq edildikdə, düzgün olmadığı aşkarlandı. Həmin dövrdə, yəni XIX əsrin ortalarında Argentinanın iqtisadi artım göstəriciləri mənfi, daxili investisiyalarının həcmi az (8,3%) olduğundan, ölkə, Rostounun özünün ideyasına görə sıçrayış mərhələsi üçün tələb olunan investisiya həddindən aşağı səviyyədə yerləşirdi. M.Todaro tamamilə haqlı olaraq iddia edirdi ki, «Latın Amerikasının və Afrikanın bir çox ölkələri kimi, Argentina da ... iqtisadi tərəqqinin ilkin vəziyyətə qayıtması və zahirən görünən sabit artımın dayanması fenomenini təsdiq etdi.» . Bu mühüm ümumiləşdirmə bir dəfə nail olunan səviyyənin əldən buraxılmayacağı barədə stereotipi ləğv edir.

Növbəti onilliklərdə (1970-ci illərdən sonra) Argentina, Rostounun ideyasının əksinə olaraq, «sıçrayış üçün qüvvə toplamaq» əvəzinə, «getdikcə sönən artım» nümayiş etdirirdi. Bu tarixi fenomenin əhəmiyyəti, həm dinamik artım dövründə, həm də onun «sönməsinin» uzun çəkən mərhələlərində gəlirlərin bölgüsünün struktur təhlilini apannaq üçün istifadə edilən bəzi modellərin və statistik metodların tətbiq olunmasına imkanlar açmasındadır. Statistik göstəricilərin olması bu cür hesablamaların həyata keçirilməsini təmin edir*. Argentinanın uzunmüddətli iqtisadi artım dövrünə Luis, Kuznets, Lorens və Cini metodikalarının əhalinin müxtəlif sosial stratları ilə onların gəlirlərinin həcmi arasında əlaqələrin və qarşılıqlı asılılığın aşkar olunması mövqeyindən yanaşılması iqtisadi artımı ləngidən daxili amilləri eyniləşdinnəyə imkan yaratmışdır. Bunlara nümunə kimi, həmin XIX əsrin ikinci yarısından Argentinanın öncül hesab edilən sənaye sahələrində dinamik artımın istehsalda məşğulluğun artımı ilə müşayiət olunmamasını göstərmək olar. Bu cür inkişafın nəticələri ölkə əhalisinin məhdud stratı arasında bölüşdürülür və qalan hissəsinin gəlirlərinin və yığımlarının artmasına səbəb olmurdu; buna müvafiq olaraq, yığımlar artım üçün zəmin yaradan uzunmüddətli amilə çevrilmirdi.

Bir qədər sonra, artıq XX əsrin ikinci yarısında inkişafın bu yolu (inkişaf modeli) Latın Amerikasının digər ölkələri və Afrika üçün səciyyəvi olmuşdur;

^ H.Fİlds Luisun təsvir etdiyi dual inkişaf ssenarilərində Lorens əyrisindən istifadə olunmasının variantlarını göstərmişdir *{Fields G.S. Poverty,* inequality and Development. Cambridge: University Press, 1980. P. 46-56; Who benefits form economic development? A reexamination of Brazilian growth in the 1960s // American Economic Review. № 67. September 1977, P. 186).

bu məsələnin tədqiqi ilə Lorents, Filds və başqa alimlər məşğul olmuşdur'.

Bir çox alimlər tərəfindən aparılmış tədqiqatlar ÜDM-in artımı ilə gəlirlərin bölgüsü arasında möhkəm əlaqənin mövcud olmaması barədə fikirləri təsdiqləmişdir. Onlar ÜDM-in artımının, onun nəticələrinin cəmiyyətin bütün təbəqələri arasında bərabər surətdə istifadə olunmasından asılılığı barədə geniş yayılmış səhv fikri təkzib etdilər. Bu fikirlər Dünya Bankı çərçivəsində aparılan tədqiqatların nəticələri ilə üst-üstə düşür. Həmin tədqiqatlarda «yüksək artım templərinin çox hallarda daha böyük qeyri-bərabərlik dərəcəsi ilə müşayiət olunduğu» göstərilir“. Amma burada bizim üçün bu cür uyğunsuzluğun, prinsipcə, mümkünlüyü və iqtisadiyyatın artımı ilə əhalinin əsas qruplarının gəlirləri arasında əlaqənin olmaması daha önəmlidir.

Artımın göstərilən (və başqa) modellərdən və metodikalardan istifadəsinin başlıca nəticələri (xüsusən Argentina timsalında) səngiyən artım mərhələlərində cəmiyyətin stratifikasiyasmm destruktiv proseslərini xarakterizə edən göstəricilərdir:

• yüksək artım mərhələləri, bir qayda olaraq, cəmiyyətdə getdikcə çoxalan gəlirlərin az-çox bərabər bölgüsü ilə yanaşı, onun ən yüksək və ən aşağı təminatlı təbəqələri arasındakı fərqin azalması ilə müşayiət edilir. 1870- 1914-cü illərdə Argentinada bu fərq 1 : 3, 1955-ci ilin əvvəlində isə 1 : 5 nisbətində olmuşdu;

• yüksək artım mərhələsində sosial stratlarda orta təbəqə, habelə iri və kiçik sahibkarlar arasındakı mövqedə qərarlaşan sahibkarlıq stratmda («orta sinif» anlayışı ilə səhv salınmamalıdır) böyük aralanma baş verir;

• yüksək artım şəraitində öndə gedən iri iqtisadi agentlər (şirkətlər, banklar), onun dinamik qüvvəsi, müasir texnologiyaların daşıyıeısı olan sahələr daha əlverişli vəziyyətə düşür. İqtisadi artımın nəticələrinin bölgüsü barədə ən güclü münaqişələr də məhz bu mühitdə baş verir; bu sərvətin bərabər bölgüsü həmin iqtisadi agentləri təmin etmədiyinə görə, onlar «oyun qaydalarının» dəyişdirilməsinə çalışırlar. Beləliklə, yüksək artım templəri heç də həmişə və bütün ölkələrdə yoxsulluğun azalmasına birbaşa təsir göstərmir.

• milli iqtisadiyyatın ixracyönümlü sahələrinin hipertrofiya olunmuş şəkildə inkişafı hesabına baş verən sürətli iqtisadi artım 1970-1990-eı illərdə və

^ The Effect on Income Distribution of Development, the Growth Rate and Economic Strategy // Journal of Development Economics, 1986. № 23. P. 55-63.

^ Worldbank. World Development Report, 1991. N.Y.: Oxford University Press, 1991.

XXI əsrin birinci onilliyində inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələr üçün bir qaydaya çevrilməsi nəticəsində onların cəmiyyətlərində stratifıkasiya fərqləri dərinləşmiş, mövcud sosial-siyasi gərginlik güclənmişdir.

***Rusiyada «Argentina fenomeni».*** 1990-cı illərdə «Argentina fenomeni» Rusiyada böyük inandırıcılıqla təkrar olundu. Reqress və səngiyən artım reallığa çevrilmişdir və ölkənin yaxın dövrdə bu cür qüsurlu inkişafdan kənara çıxacağına ümid bəsləmək üçün əsas yoxdur. İqtisadi siyasətin əsasını xammal sahələrinin (neft, qaz, əlvan metallar, oduncaq) ixraca yönəlməsi təşkil etdiyini nəzərə alsaq, isbat etmək olar ki, Rusiya hələ onilliklər ərzində müvafiq nəticələrlə (yoxsulluq və səfalətin yayılması, bir tərəfdən, varlanan komprador sahibkarların (alverçilərin) dar stratı, digər tərəfdən isə, əhalilin əksəriyyəti arasında uçurumun dərinləşməsi)' «Argentina modelinin» məngənəsində qalacaqdır. 2001-2010-ci illərdə ölkəyə külli məbləğdə neft dollarlarmm axını nəzərə alınaraq, onlardan səmərəli istifadə olunduğu təqdirdə vəziyyətin dəyişəcəyi ehtimal edilirdi. Hələlik isə bu iki amildə irəliləyişlər cüzidir, tarifləri və qiymətləri dəfələrlə artıraraq, sosial sahələrin (səhiyyə, təhsil, mənzil-kom- munal təsərrüfatı) özəlləşdirilməsi cəhdləri isə cəmiyyətdə böyük gərginlik yaradır.

***Qloballaşma şəraitində yoxsulluğun artması.*** 1990-cı illərdə qlobal liberallaşma tərəfdarları dünya ictimaiyyətini yoxsulluq və səfalətin yalnız bütün ölkələr «başdan-başa özəlləşdinnəni», milli iqtisadiyyatların açılmasını, onun sektorlarının dövlət tərəfindən dəstəklənməsinin dayandırılmasını, ticarətin tam sərbəstləşdirilməsi tədbirlərinin həyata keçirilməsini nəzərdə tutan liberal islahatlar yoluna qədəm qoyduqdan sonra aradan qaldırılaeağına, demək olar ki, inandıra bilmişdilər. Güman edilirdi ki, bu cür islahatlar qloballaşmanın tələblərinə cavab verir, sonuncu isə onun proseslərinə maneçilik törədilməsə, bütün ölkələrin xeyrinə olacaqdır. Dünyanın, demək olar ki, bütün ölkələrinin bu cür siyasət yeritdiyi ötən onillikdəki inkişafın bəzi yekunlan UNCTAD-m Baş Katibi R.Rikupero tərəfindən təşkilatın iclaslarından birində səsləndirilmişdir. O, azad ticarət və sərbəst maliyyə axınları tərəfdarlarının qloballaşmanın iqtisadi inkişafa, məşğulluğun artmasına, əmək haqqının və rifahın yüksəlməsinə müsbət təsir göstərəcəyi barədə ümidlərinin doğrulmadığını bəyan etmişdir. Dünya iqtisadiyyatının ləng və pərakəndə artımı şəraitində qloballaşmanın üstünlüklərindən heç də bütün dövlətlər və ayrı-ayrı ölkələr hüdu-

^ *Хасбулатов Р.И.* Мировая экономика. Теория, принципы, политика. Т. 1. С. 340.

dunda regionlar istifadə edə bilməmişdir. Varlılarla yoxsullar arasındakı fərq artmışdır. İnkişaf etməkdə olan ölkələrjn çoxunda yoxsulluğun miqyası genişlənmişdir. 1990-cı illərin əvvəlində inkişaf etmiş ölkələrdə ÜDM-in əhalinin hər nəfərinə düşən orta həcmi inkişaf etməkdə olan ölkələrdən 17 dəfə çox idisə, 2010-cu ildə bu nisbət 20:1 olmuşdur. Aparılan islahatların nəticəsi budur.

1997-ci ildə Baş Katibinin tövsiyəsi ilə BMT *yoxsulluqla mübarizə üzrə birinci onilliyə keçidin başlandığını* bəyan etdi. Bir çox beynəlxalq təşkilatlar, 0 cümlədən İnkişafa Yardım Komitəsi (İYK), «İnkişaf məqsədləri üçün tərəfdaşlıq» Hesabatını hazırlamış İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) bu ideyanı dəstəklədiklərini bildirdi. Qarşıya qoyulan vəzifə 2015-ci ilədək yoxsulların sayını yarıbayarı (800 milyondan 400 milyonadək) azaltmaqdır. Sonra bu müddəa BMT-nin başqa təşkilatları, habelə DB tərəfindən də əsas məqsəd kimi qəbul edilmişdi. Amma XXI əsrin birinci onilliyinin sonuna yaxın dünyada aclıqdan əziyyət çəkənlərin sayı azalmamış, yoxsul ölkələrin sayı isə bəzi keçmiş sosialist ölkələrinin, o cümlədən Mərkəzi Asiya dövlətlərinin hesabına çoxalmışdır.

## 24.4. Qlobal yoxsulluq probleminin anlayışı, mahiyyəti və məzmunu

***Dünyada əhalinin ərzaqla təminatının ümumi vəziyyəti.*** *Ərzaq problemi.* Müharibədən sonrakı onilliklərdə bəşəriyyət Yer əhalisinin əksər hissəsinin ərzaq təminatının ənənəvi probleminin həll edilməsinə nail ola bilməmişdir. Bu problem yalnız inkişaf etmiş ölkələr qrupu üçün aktuallığını itirmişdir; təqribən 30 ölkədə problem qismən, ümumilikdə isə BMT-nin üzvü olan 200 dövlətdən 60-65-də həll olunmuşdur. Müharibədən sonrakı onillikdə ərzaq mallarının istehlakı ümumilikdə bütün regionlarda çoxalsa da, bu göstərici qitələr və ayrı-ayrı ölkələr üzrə fərqlənir. Bununla yanaşı, istehsalın artımı əhalinin müvafiq çoxalması ilə tarazlaşır. Belə ki, son 30 il ərzində taxıl yığımı 2 dəfə. Yer əhalisinin sayı isə 1,8 dəfə çoxalmışdır. Tədqiqatçıların fikrincə, gələcəkdə bu meyil daha neqativ hal ala bilər: əhalinin artımı fonunda torpağın məhsuldarlığının aşağı düşməsi dünyadakı tarazlığa əlavə yük deməkdir.

***Problemin regional-iqtisadi cəhətləri.*** Müharibədən sonrakı onilliklərdə Yerin ərzaqla təminat baxımından müəyyən cəhətlərlə səciyyələnən coğrafi

bölgələri qəti olaraq müəyyənləşmişdir.

Birincisi, Qərbi və Şimali Avropa, Şimali Amerika, Avstraliya, Yaponiya daxil olmaqla, dünyanın sənaye bölgələridir və bu regionlar yüksək keyfiyyətli ərzağın qıtlığı ilə deyil, artıqlığı ilə qarşılaşır. Amma inkişaf etmiş ölkələrin ərzaq təhlükəsizliyinin məhz inkişaf etməkdə olan ölkələrdəki aclığa əsaslanması tədqiqatçıların diqqətindən yayınır; inkişaf etməkdə olan ölkələrdə TMK-nm nəzarəti altında olan, məhsulları inkişaf etmiş ölkələrin bazarları üçün nəzərdə tutulan böyük aqrar anklavlar yaradılmasaydı, aqrar sektorun yüksək məhsuldarlığına baxmayaraq həmin dövlətlərin öz resursları bunun üçün çətin ki, kifayət edərdi.

İkincisi, bu bölgələr ərzaqla təminat səviyyəsi BMT ÜST-in tələbləri baxımından müəyyən olunmuş nonnalara yaxınlaşan Avropanın Cənubunda, o cümlədən Yunanıstan, Portuqaliya, Türkiyə və Ön Asiyada, Latın Amerikası dövlətlərinin əksəriyyətində, Məqrib və ASEAN ölkələrində yerləşir.

Üçüncüsü, ərzaq təminatı BMT ÜST-in standartlarından «yol verilən kənarlaşma» hüdudlarında olan Şərqi Avropa, MDB və Baltikyanı ölkələr, habelə Hindistan, Misir, İndoneziyadır.

Dördüncüsü, əhalisinin əksər hissəsi ərzaq böhranının bütün ağırlığını çəkən inkişaf etməkdə olan ölkələrdir (bunlara parlaq nümunə Böyük Səhranın Cənubunda yerləşən dövlətlərdir).

Elmi-texniki tərəqqinin qüdrətinə inam artıq 1960-1970-ci illərdə təsdiqlənməyə başladı və dünyanın inkişaf etməkdə olan bölgələrində «yaşıl inqilab» yayıldı. Bu tenuin kənd təsərrüfatı istehsalının məhsuldarlığını əhəmiyyətli dərəcədə yüksəldən aqrotexniki, texnoloji və istehsal-təşkilati tədbirlərin məcmusunu ifadə edir. Burada yüksək məhsuldarlıqlı və xəstəliklərə qarşı davamlı toxumların, ilk növbədə isə dÜ5m və buğda növlərinin tətbiqinə xüsusi diqqət yetirilir. Müvəf-fəqiyyətin zəruri şərtlərindən biri su və mineral gübrələrlə təchizatdır. Bütün bunlar inkişaf etməkdə olan bəzi ölkələrə ildə bir neçə dəfə məhsul yığmaq imkanı verdi. Start götürdüyü ilk onillikdən sonra «yaşıl inqilab» heyrətamiz nəticələr nümayiş etdirdi (xüsusilə də «yaşıl inqilabın» vətəni olan Hindistanda); əhalisinin yüksək templərlə artmasına baxmayaraq (Çindən fərqli olaraq, «ailə planlaşdırılması» siyasəti Hindistan cəmiyyəti tərəfindən qəbul edilmədi. Raciv Qandinin öldürülməsi-nin də məhz bu siyasəti həyata keçirməkdə israrlı olması ilə əlaqələndirilir), ölkə tez bir zamanda özünü ərzaqla tam təminetmə yoluna qədəm qoydu.

Amma 1980-ci illərin əvvəlində potensialı tamamilə tükəndiyindən, «yaşıl inqilab» boğulmağa başladı. Bunun səbəbi isə kənd təsərrüfatı istehsalının fasiləsiz artımı üçün hər il böyük məbləğdə investisiyalar, Qərbi Avropa ölkələri və ABŞ-ın səviyyəsinə uyğun olan güclü texnoloji baza yaradılması zəruri olduğu halda, onun məhdud tədbirlər kompleksinə istinad etməsi idi. Bəs yoxsul ölkələr bu qədər böyük məbləğdə vəsaiti haradan əldə etməli idi? Təcrübə buğda və düyünün yüksək məhsuldarlıqlı, xəstəliklərə qarşı davamlı növlərinin tətbiqi kimi tədbirlərin yalnız müvəqqəti uğur qazandırdığını göstərdi. Buna görə də növbəti onilliklərdə Çin və Hindistan «yaşıl inqilabın» məhdud nəticələrini nəzərə alaraq aqrar sektorun texnoloji bazasının dunnadan genişləndirilməsi yolunu seçdi.

Ərzaq böhranından çıxış yolu gen mühəndisliyinin geniş yayılmasında görünürdü və tezliklə onun məhsulları mağazaların piştaxtalarında peyda oldu. Ancaq mütəxəssislər, o cümlədən tibb alimləri həyəcan təbili vururlar; geni modifikasiya olunmuş məhsullar (qarsıdah, buğda, soya, quş və heyvanların əti, süd) insanın sağlamlığına, ilk növbədə isə, onun həyata sağlam uşaq gətinnək qabiliyyətinə son dərəcədə mənfi təsir göstərir; bu məhsullarla qidalanan uşaqlar zəif, xəstə böyüyürlər. Ərzaq qıtlığı probleminin həllinin bu istiqamətinin perspektiv olması ağlasığmazdır. Bu, daha çox kütləvi alıcıların maraqlarına zərər gətirməklə, aqrofirmalarm əlavə gəlir əldəetmə mənbəyidir (aydındır ki, varlı sosial stratlar təbii mənşəli, ekoloji təmiz qida məhsulları ahr).

Dünyada ərzağın istehsalında açıq-aşkar neqativ meyil XXI əsrin ötən onilliyində, sahibkarlar bir sıra ölkələrdə və qitələrdə böyük, məhsuldar torpaq sahələrini ərzaq və yem (heyvanlar üçün) taxılının yetişdirilməsi üçün istifadədən çıxararaq, qarğıdalıdan, soyadan, başqa yağlı bitkilərdən bioloji yanacağın istehsalı layihələrini maliyyələşdirməyə başladıqda yarandı. Əlbəttə, onların bu addımı atmasına ötən onillik ərzində neftin ağlasığmaz dərəcədə yüksək qiyməti öz güclü təsirini göstənnişdir. Belə vəziyyətdə neft hasil edən onlarca ölkə əldə etdikləri gəlirləri hara xərcləyəcəklərini bilmirsə, 100-ə yaxın ölkə yanacağın qiymətinin bahalaşması nəticəsində ağır yük altına düşərək, yoxsuluğa daha sürətlə yuvarlanır.

Nəzərdən keçirdiyimiz problemin həllinin daha bir istiqaməti, məhsuldar torpaqları az, maliyyə resursları isə çox olan bəzi ölkələrin (Qərbi Afrika, Cənub-Şərqi Asiya ölkələri, Çin, Avropanın kiçik dövlətləri) öz ehtiyaclarını

ödəmək üçün son illərdə intensiv surətdə Afrika, Latın Amerikasın və Rusiyada torpaqları satın almağa, orada ixtisaslaşmış fenner təsərrüfatları yaratmağa başlamasıdır.

Qeyd etməliyik ki, dünya ərzaq probleminin həllində özünü qida məhsulları ilə təmin etməyə nail olmuş Çin böyük rol oynamışdır (dünyanın 6,6 milyard əhalisinin 1,3 milyard nəfəri onun payına düşür). Amma uzunmüddətli perspektivdə ərzaq təminatı sahəsində onun (habelə əhalisi 1,1 milyard nəfər təşkil edən Hindistanın) mövqeyi hansı dərəcədə dayanıqlıdır? Aydındır ki, bu suala cavab venuək üçün xüsusi tədqiqatların aparılması gərəkdir.

Bununla belə, dünya aqrar sektorunun bir sıra dənli və başqa qida məhsullarının, texniki bitkilərin qiymətləri dayanmadan artaraq, ümumilikdə ərzaq mallarının qiymətlərinin bahalaşmasının sabit meylini yaradır. Bu problem inkişaf etmiş ölkələrdə nəzərəçarpan surətdə ifadə olunmasa da (ailələrin gəlirlərinin çoxlu-ğuna görə), inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrdə ərzaq mallarının qiymətlərinin bahalaşması ailələrin əksəriyyəti üçün başağrısına çevrilmişdir.

***Aclıq anlayışı və onun təbiəti.*** FAO-nun qiymətləndirməsinə görə, kəskin aclıqdan əziyyət çəkən insanların ümumi sayı 1970-ci illərin əvvəlində 400 milyon nəfər olmuş, 1980-ci ildə 500 milyon nəfərə yaxınlaşmış, sonradan (1990-cı illərin əvvəlində) isə Afrikada yaranan böhranlı vəziyyətlə əlaqədar 600-700 milyon nəfər arasında tərəddüd etmiş, 2011-ci ilin başlanğıcında 1 milyard nəfəri ötüb keçmişdir’.

Qeyd etməliyik ki, həmin qiymətləndinnədə yalnız orqanizmin salamat qalması üçün kifayət edən enerji ehtiyaclarının təmin olunmasını nəzərdə tutan, aclığın son həddə çatan «kritik səviyyəsi» qəbul edilmişdir. Aclığın müəyyənləşdiril-məsi üçün daha sərt yanaşma tətbiq olunarsa, inkişaf etməkdə olan ölkələrdə aclıq-dan əziyyət çəkənlərin sayı daha da çoxalacaq. Ərzaqla əlaqədar vəziyyətin drama-tizmi bundadır ki, müstəmləkədən azad olmuş ölkələrdə bu hadisə nəinki kütləvi, həm də daimi, əhalinin geniş təbəqələrinin həyatını müşayiət edən xarakter daşıyır.

Aclığın təbiətini ictimai hadisə kimi dərk etmək üçün onun «gizli» (xroniki) və «aşkar»- məhsulsuzluq yaxud təbii fəlakətlər, hərbi münaqişələr

^ Обзор мирового экономического проложения ООН. Экономический и Социальный Совет. Женева, 2009. С. 309.

səbəbindən (o cümlədən 1992-1993-cü illərdə Rusiya hakimiyyətin məsuliyyətsizliyi üzündən ölkənin Şimal rayonlarına ərzaq mallarının göndərilməməsi) kütləvi aclıq hallarının yaranması fomıalannda təzahür etdiyi nəzərə alınmalıdır. Birinci fonua - səfalət və bununla bağlı olaraq əhalinin alıcılıq qabiliyyətinin son dərəcə aşağı düşməsi nəticəsində baş verən ***xroniki aclıq*** inkişaf etməkdə olan ölkələrin əhalisinin elementar yaşayış vasitələrindən məhrum olan böyük hissəsinin həyat tərzinə çevrilən, milyonlarla insanın daimi fiziki məhrumiyyətlərinə gətirib çıxaran «gözəgörünməz» böhran kimi təzahür edir. Təzad bundadır ki, aclıqdan və doyunca yeməməzlikdən məhz qida məhsullarının istehsalçıları - aztorpaqlı və torpaqsız kəndlilər, icarədarlar, kənd təsərrüfatı fəhlələri əziyyət çəkir. Ehtiyac altında sıxılaraq, onlar qida məhsullarını özlərini və ailələrini dolandınuaq üçün kifayət edən həcmdə istehsal etmək və almaq iqtidarında deyil. Ümumilikdə isə inkişaf etməkdə olan ölkələrdə xroniki aclıqdan əzab çəkənlərin 80%-i kənd yerlərində yaşayır.

Xroniki aclıq azadlığa çıxmış ölkələrin xalqlanna əmək resurslarının təkrar istehsalında əvəzolunmaz zərər vurur, ömür müddətini qısaldır, ölüm göstəricisini yüksək səviyyədə saxlayır. Aclığın yığılan məhsulun həcmindən və milli ərzaq fondunun vəziyyətindən asılı olmayan «gizli» formasında bu fəlakətin sosial mənşəyi aşkar görünür.

***Problemin sosial-iqtisadi cəhətləri.*** İnkişaf etməkdə olan ölkələrin əhalisinin əksər qismi aqrar sektorda məşğul olduğuna görə, burada başlıca problem kəndlilərin torpaqlarının azlığıdır. Artıq 1960-cı ildə becərilən torpaqların əhalinin hər nəfərinə düşən sahəsi kiçik idi. BMT-nin ərzaq və kənd təsərrüfatı təşkilatı olan FAO-nun siyahıyaalmasma görə, həmin vaxt bu sahə Asiyada 0,35 hektar, Afrikada 0,9 hektar. Cənubi Amerikada 1,14 hektar idi. Bunun nəticəsində işsiz kəndlilərin sayı sürətlə artırdı. Məsələn, 1961-1971-ci illəri əhatə edən dövrdə onlann xüsusi çəkisi 24%-dən 38%-dək artmış, 1972-1991-ci illərdə artım templərinin xeyli zəifləməsinə baxmayaraq 14-17%, onilliyin sonunda isə cüzi azalaraq 13-15% olmuşdur. Bu səviyyə 2001-2010- cu illər ərzində də qalmışdır. Buna baxmayaraq, inkişaf etməkdə olan ölkələrin çoxunda torpaq sahələrindən, sadəcə, istifadə olunmur. İş bundadır ki, həmin torpaqlar əsasən onun kənd təsərrüfatı dövriyyəsinə buraxılmasında marağı olmayan şəxslərin - latifundistlərin, qəbilə başçılarının, iri aqrosənaye şirkətlərinin, avtoritar rejimlərin zabitlərinin və məmurlarının özəl mülkiyyətindədir.

Belə vəziyyət böyük sosial dəyişikliklərin, o cümlədən həqiqətən demokratik torpaq islahatının keçirilməsinin zəruriliyini bir daha sübut edir. FAO-nun məlumatlarına görə, inkişaf etməkdə olan ölkələrdə becərilən torpaqların sahəsi 784 milyon hektar, inkişaf etmiş ölkələrdə olduğundan 1,8 dəfə çoxdur.

Təsadüfi deyil ki, ümumi əhalisi 1,4 milyard nəfər təşkil edən 50-dən çox inkişaf etməkdə olan ölkədə ərzaqla təchizatın mütləq azalması müşahidə edilir. Bununla əlaqədar, ədəbiyyatda «ərzaq təhlükəsizliyi» anlayışı peyda olmuşdur. FAO-nun açıqlamasına əsasən, «ev təsərrüfatı ailənin bütün üzvləri üçün ərzaq məhsulları həm fiziki, həm də iqtisadi cəhətdən kifayət dərəcədə əlçatan olduğu və ona bu əlçatanlığı itirmək təhdidi olmadığı halda ərzaqla təminat baxımından təhlükəsiz hesab oluna bilər».

Burada «ev təsərrüfatı» deyildikdə, ailə təsərrüfatı, ayrı yaşayan vətəndaşların iqtisadi imkanları nəzərdə tutulur. Aclığın təzahürünün göstərilən açıqlamasına ciddi riayət etsək, bir çox ölkələrin, o cümlədən MDB ölkələrinin buna düçar olduğunu görürük. Ərzaq təhlükəsizliyi ilə qidalanma arasında əlaqə bundan ibarətdir ki, «ərzaq təhlükəsizliyi» insanlann lazımi qədər qidalanması üçün zəruri, amma kifayət olmayan şərtidir. İnsanların qidalanmasının tam dəyərliliyi ev təsərrüfatının (ailənin) qida rasionu, xəstəliklərin qarşısının alınması və sağlamlıq üçün əlverişli mühit yaradılması, habelə ev təsərrüfatını idarə etmək bacarığı kimi amillərlə müəyyənləşdirilir.

***Problemin kompleks xarakteri: nəzəri-metodoloji cəhətlər. Gerilik və asılılıq amillərinin qarşılıqlı təsiri.*** İnkişaf etməkdə olan ölkələrdəki ərzaq problemi həm daxili, həm də xarici şərtlər və səbəblər kompleksinin qarşılıqlı təsiri nəticəsində yaranmışdır. Daxili səbəblərdən ən mühümləri onların iqtisadiyyatının ümumilikdə, xüsusilə də kənd təsərrüfatının birtərəfliliyi və geriliyi, bu sahədə arxaik aqrar münasibətlərinin qalmasıdır. Ərzağa ictimai tələbatın dəyişən strukturu ilə bu ehtiyacları ödəməli olan qida məhsullarının yerli istehsalı sektorunun arasındakı uyğunsuzluq da məhz bundan irəli gəlir.

Problemdə bir sıra: sosial, iqtisadi, siyasi, demoqrafik, aqrar-texnoloji, iqlim, resurs, ekoloji, mədəni-etnik amillər bir-birinə güclü təsir göstərir.

***Problemin şərhi.*** Tədqiqatçıların çoxunun irəli sürdüyü konsepsiyalarda aclığın əsas səbəbləri kimi bioloji və başqa təbii amillər göstərilir. Kifayət qədər geniş yayılmış bu nəzəriyyələrdə aclığın mənbəyi demoqrafik determinizmin neomaltusçu mövqelərindən izah olunur. T.Maltusun müasir

ardıcılları inkişaf etməkdə olan ölkə-lərdəki aclığın başlıca səbəbinin 1950-ci illərin ortasından başlayaraq əhali artımının sürətlənməsi - demoqrafik partlayış olduğunu iddia edirlər. Bu fenomenin özü isə birtərəfli yanaşılmaqla, sırf bioloji hadisə, insanların «nəslini qoruyub saxlamaq» məqsədilə çoxalmaq eəhdi kimi nəzərdən keçirilir. Afrikada, Asiyada və Latın Amerikasında ətraf mühitin sürətlə pisləşməsinin səbəbləri bu konsepsiyalarda əhali artımı ilə əlaqələndirilir. Aelığı demoqrafik və ekoloji vəziyyətlə bağlayan fikirlər söylənilir. Beləliklə də, aclığın baş verməsində açların özü günahlandırılır. Ərzaq probleminin çoxamilli xarakterini sadələşdirdiyinə, ailənin planlaşdırılması üzrə demoqrafik siyasətə istinad etməklə, onun sosial məqamlarını izah etmədiyinə görə məsələyə bu cür yanaşma, mahiyyətcə, elmə zidd, siyasi baxımdan mürtəce və prak-tiki cəhətdən faydasızdır. Təbii ki, ailənin planlaşdırılmasmm əhəmiyyəti gələcəkdə artacaq, amma diqqəti məsələnin yalnız bu, özü də yaxın perspektivdə həlledici rol oynamayacaq cəhəti üzərində cəmləşdinnək böyük ehtimalla ağlabatan deyil.

İnkişaf etməkdə olan ölkələrin BƏB sisteminə «qoşulmasının» qeyri-ekvivalent xarakteri orada ərzaqla təminat vəziyyətinin gərginləşməsinin başlıca səbəblərindən biridir. Müstəmləkə və azadlıq əldə olunduqdan sonrakı dövrlərdə iqtisadi artım tərzi inkişaf etməkdə olan ölkələrin kənd təsərrüfatında məhsuldar qüvvələrin tərəqqisini ləngitmiş, onu metropoliyanın ehtiyaclarını ödəyən biryönlü, monokultur ixtisas-laşmış sahəyə çevimıişdir. Təkrar istehsal prosesinin dərin deformasiyası ölkələrin geridə qalmasına, çoxmilyonlu xalq kütləsinin səfalətinə səbəb olmuşdur. Bununla da, nəinki müstəmləkəçilik dövründə, hətta inkişaf etməkdə olan ölkələrin siyasi müstəqilliyi şəraitində tipik hadisəyə çevrilmiş kütləvi aclığın sosial-iqtisadi şərtləri fomıalaşmışdır. Əlbəttə, aclığı müstəmləkəçilər «icad etməmiş» və onlar «yaymamışdır». Bu hal insanların təbiət qüvvələri qarşısında acizliyinin, inkişaf etməkdə olan ölkələrdə məhsuldar qüvvələrin zəifliyinin sübutu kimi, həmişə mövcud olmuşdur. Amma müstəmləkəçilik bu fəlakəti dəfələrlə gücləndirmiş, miqyasını genişləndirmiş və bununla da, keçmiş müstəmləkələr azadlığa çıxdıqdan sonra aclığın aradan qaldırılması uğrunda mübarizəni çətinləşdirmişdir. İnkişaf etməkdə olan ölkələrin beynəlxalq əmək bölgüsünə «cəlb edilməsinin» müasir sistemi bu cür əlaqələri möhkəmləndirərək, aqrar sektorun inkişafını ləngidir, kütləvi aclığın aradan qaldırılmasına imkan vermir.

İqtisadi zəiflik, istehsal strukturunun, nəqliyyat əlaqələrinin, rabitənin

lazımi dərəcədə inkişaf etməməsi inkişaf etməkdə olan ölkələrin əhalisinin ərzaqla təminatını pisləşdirir, ayrı-ayrı regionlara, fəlakət bölgələrinə qida məhsullarının və beynəlxalq yardımın çatdırılmasında çətinliklər yaradır.

İqtisadiyyatı geridə qalmış ölkələrdə sahibkarlıq münasibətlərinin təkmilləşdirilməsinin inkişaf etmiş ölkələrdən asılı olması, vəziyyəti daha da mürəkkəbləşdirir. Ərzaq probleminin ilkin səbəblərinin təhlili göstərir ki, sahibkarlıq fəaliyyətinin inkişaf etməkdə olan ölkələr zonasında geniş yayılmış asılı tipi, onların Qərb ölkələrinin ərzaq potensialına tabeçilikdən çıxmasına imkan vennəyən perspektivdir. İnkişaf etməkdə olan ölkələrin borclarının artması da bu perspektivin möhkəmlənməsinə xidmət edir: bu borc 1970-ci ildəki 300 milyard dollardan 1980-ci ildə 573 milyard dollaradək və 1991-ci ildəki 1,4 trilyon dollardan 2010-cu ildə 1,7 trilyon dollaradək artmışdır.

***Ərzaq təhlükəsizliyinin təmin olunması yolunda yaranan ziddiyyətlər.*** Qeyd olunmalıdır ki, müvafiq texniki bazanın (süni suvarma və lazımi miqdarda gübrələr) yaradılması ilə müşayiət olunmadığına görə, taxıl məhsullarının yüksək məhsuldarlıqlı növləri son dərəcədə ləng yayılır. Aqrar sahədə elmi-texniki tərəq-qinin qarşısını kəsən ən güclü maneə kənd bölgələrinin sosial-iqtisadi strukturunun geriliyidir. Ölkələrin bir çoxunda yüksək məhsuldarlıqlı növlərdən yalnız dövlət təsərrüfatları və ayrı-ayrı iri kooperativlər istifadə edə bilir. Buna görə də indiyədək əkin sahələrinin yalnız eüzi hissəsi bu növlər altındadır. Hətta Asiyanın bu prosesə cəlb edilmiş inkişaf etməkdə olan ölkələrində 1980-ei illərin əvvəlində əkin sahələri-nin yarısından bir qədər çox hissəsi buğdanın, 25%-i düyünün yeni növləri üçün ayrılmışdı.

İnkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatı istehsalının mexanikləşdirilməsinin aşağı səviyyəsinin mühüm səbəblərindən biri də əmtəə istehsalçılarının əksəriyyətinin maşın və avadanlıq almaq üçün vəsaitinin olmamasıdır. Bu imkandan yalnız varlı mülkədarlar və fermerlər istifadə edə bilirlər. Məsələn, Hindistanda traktorların 90%-i torpaq sahəsi 25 akrdan az olmayan fenuerlərin cəmi 4-5%-nə məxsusdur. İnkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatının yeni texnika ilə silahlanması qarşısında duran digər mühüm maneə işçi qüvvəsinin dəyərinin ucuz olmasıdır. Məlumdur ki, bu dəyər maşınlardan istifadənin hüdudlarını müəyyən edir. Hərçənd, müasir dövrdə bu amilin təsiri müəyyən modifikasiyaya məruz qalır: inkişaf etməkdə olan ölkələrin iri mülkədarları mexanikləşdinnədən xırda icarədarlara və muzdurlara təzyiq vasitəsi, ***«torpaqların təmizlənməsi»*** aləti kimi yanaşır.

inkişaf etməkdə olan ölkələrin kənd təsərrüfatında əmək məhsuldarlığı primitiv səviyyədə qalaraq, inkişaf etmiş ölkələrin müvafiq göstəricisindən 20-25 dəfə aşağıdır. Bu cəhət əkinçiliyin istehsal mədəniyyətində - aşağı məhsuldarlıqda, yeni torpaq sahələrinin fasiləsiz surətdə dövriyyəyə cəlb olunaraq, vəhşiliklə istismar olunmasına əsaslanan ekstensiv inkişaf tipində öz izini qoyur. «Yaşıl inqilab» çərçivəsində həyata keçirilən aqrar proqramlara hətta kiçik kapital qoyuluşları belə, Meksika, Hindistan, Filippin və «orta inkişaf» səviyyəli bir sıra ölkələrə ərzaq təminatını xeyli yaxşılaşdırmağa, bəzi hallarda isə qida məhsullarının idxalını dayandınnağa imkan vennişdir. İnkişaf etmiş ölkələrdə tərəvəz və taxıl anbarlarının, kənd təsərrüfatı məhsullarının ilkin emalı müəssisələrinin və s. inşa olunması ərzaq təminatını xeyli yaxşılaşdıra bilər. Onların yoxluğu yaxud vəziyyətinin pisliyi səbəbindən yığılan məhsulun yarıya qədəri məhv olur. Bu məsələnin həlli inkişaf edən ölkələrdə beynəlxalq ərzaq yardımlarının ümumi həcmindən də çox məhsulu qorumağa, habelə qida məhsullarının idxalını dayandınnağa şərait yaradardı.

Ərzaq probleminin kökündən həlli sülh uğrunda mübarizə, tərk-silah olunma və silahların ixtisarı, beynəlxalq iqtisadi təhlükəsizliyin bərqərar edilməsi ilə sıx əlaqədardır. Dünyanın bütün bölgələrində silahlanma yarışının səngiməsi qeyri-məhsuldar məqsədlərə israf olunan vəsaitlərin bir hissəsini aclığın aradan qaldırılmasına və bəşəriyyətin həyati əhəmiyyət kəsb edən başqa problemlərinin həllinə yönəltməyə imkan verərdi. Mütəxəssislərin rəyinə görə, inkişaf etməkdə olan ölkələrin özünü ərzaqla təmin etməsinə nail olmaq üçün dünya üzrə müdafiə məqsədlərinə yönəldilən vəsaitlərin cari həcminin cəmi 3%-i kifayətdir.

Amma təcrübə inkişaf etməkdə olan ölkələrin xalqlarının ərzaq təhlükəsizliyi qlobal probleminin qəti surətdə həlli üçün təkcə obyektiv ilkin şərtlərin mövcudluğunun kifayət olmadığım göstərdi. Bunun üçün bir sıra varlı ölkələrin mərhəməti əsasında deyil, planetin bütün xalqlarının ümumi maraqlarım nəzərə almaqla qurulan qlobal siyasət də lazımdır.

Geridə qalmış aqrotexniki metodlarının tətbiqi, əmək məhsuldarlığının aşağı səviyyədə olması nəticəsində yaranan vəziyyətdə inkişaf etməkdə olan ölkənin kənd təsərrüfatında məşğul olan bir nəfər özünü və ailəsini çətinliklə dolandırdığı halda, bir fermer ABŞ-da 75, Qərbi Avropada 50, Yaponiyada isə 35 nəfərin tələbatını ödəyir.

Alimlərin proqnozlarına əsasən, 2025-ci ildə planetimizin əhalisi 8,5

milyard nəfərə çatacaq, onun 83%-i isə inkişaf etməkdə olan ölkələrdə yaşayacaq. Bu məqam ərzaqla təminat problemini getdikcə mürəkkəbləşdirəcək. BMT-nin Ətraf Mühit və İnkişaf Konfransının hesabatının «Kənd təsərrüfatının dayanıqlı fəaliyyətinə və kənd bölgələrinin inkişafına yardım» bölməsində də bu sayda əhalinin mövcud resurslar hesabına ərzaqla və başqa kənd təsərrüfatı məhsulları ilə təmin edilməsinin mümkünlüyü məsələsinin açıq qalması dəfələrlə qeyd olunur.

Ərzaq təhlükəsizliyini, sadəcə olaraq, qida məhsullarının istehsalını çoxaltmaqla təmin etmək mümkün deyil. Kənd təsərrüfatına yönəldilən investisiyalar əhalinin ən zəif qrupları arasında aclığı aradan qaldırmağa imkan yaradan sosial müdafiə tədbirləri ilə dolğunlaşdırılmahdır. Məsələn, inkişaf etməkdə olan ölkələrin çoxunda qadınlar ərzaq istehsalında, qidalanmada və ailələrin gəlirlərində mühüm rol oynayır. Məhz buna görə də ərzaq təhlükəsizliyi sahəsində proqramların işlənib hazırlanmsı və həyata keçirilməsində qadınların sağlamlığı, təhsili və məşğulluğu ilə bağlı olan məsələlər başhea amillərdən birinə çevrilir.

Ən yoxsul ölkələrdə aclıq çox hallarda ərzaq qıtlığı ilə deyil, onu əldə etməyin qeyri-mümkünlüyü ilə əlaqədardır. Bu cür vəziyyət mürəkkəb amillərin qarşılıqlı təsirinin nəticəsidir. Aztəminatlı şəxslərin qida məhsullarını almaq imkanından məhrum olması ilə yanaşı, kənd təsərrüfatı və ərzaq mallarının bir çox növləri gömrük tariflərinin yüksək olması yaxud infrastruktur və nəqliyyat sistemlərinin yoxluğu ucbatından ölkələr arasında mübadilə edilə bilmir. Əmlak hüquqlarının dəqiq müəyyən olunmaması onları torpaqdan kreditlərin təminatı kimi istifadə etmək imkanından (xırda fenner təsərrüfatının bu kreditlərə ehtiyacı var) məhrum etdiyinə görə, çətinliklə dolanan kəndlilər natural təsərrüfat hüdudlarından kənara çıxa bilmir. Ərzaq təhlükəsizliyi sistemi lazımi səviyyədə təşkil edilmədiyinə görə ölkələrin bir çoxu mallarının artıq qalan hissəsini sata bilmir. Meşələrin qırılması, göl və çaylann çirklənməsi, əkin sahələrinin amansızcasına istismarı əhalinin sürətli artımı şəraitində torpağın məhsuldarlığını azaldır, onun üzərinə düşən «yükü» ağırlaşdırır.

## Xülasə

• XXI əsrin ikinci onilliyinin əvvəlində dünya əhalisinin böyük hissəsinin yoxsulluğu, əsrlər öncə olduğu kimi, indi də bəşəriyyətin qlobal

problemlərindən biridir. Müstəmləkəçilik dövrünün başa çatmasından sonra (1960-cı illər) ciddi siyasi amillər, məsələn, beynəlxalq gərginliyin zəifləməsi, iki qlobal sistem (kapitalizm və sosializm) arasında dinc yanaşı yaşama prinsipinin tanınması və s. meydana çıxdıqdan sonra dünyanın ictimai rəyi yoxsul ölkələrin iqtisadi və sosial problemlərinin tezliklə həll olunacağı barədə romantik xəyallara köklənmişdi. Həmin illərdə BMT çərçivəsində qəbul olunan qərarda inkişaf etmiş ölkələrin öz illik ÜDM-nin 1%-ni yoxsul ölkələrin inkişafına yardım məqsədlərinə ayırması nəzərdə tutulurdu. BMT-nin yardım göstərilməsi üzrə təşkilatları, o cümlədən UNDP fəaliyyətə başladı.

• Yarım əsr keçdikdən sonra dünyada yoxsulluğun vəziyyəti dəyişsə də, onun tam sovuşduğunu demək olmaz. İnkişaf etmiş ölkələr qrupunda (33 dövlət) yoxsulların sayı əhalinin 12-13%-i, 10 ölkədə isə 3%-dən aşağıdırsa, inkişaf etməkdə olan təqribən 80 ölkədə əhalinin yarısından çoxu, 40-da isə əhalinin 60%-dən çoxu yoxsullardan ibarətdir. Yoxsulluq keçmiş SSRİ-nin əhalisinin böyük qismi hesabına da artır (300 milyon əhalinin 40%-i bu kateqoriyaya daxildir). Yoxsulluğun regional-qitə bölgüsü də bərabər deyil: 49 ən yoxsul ölkə əsasən Afrika (Böyük Səhranın Cənubu), Asiya, Latın Amerikası, habelə Mərkəzi Asiyada (keçmiş SSRİ-yə aid olan hissə) yerləşir.

• Elmin, texnikanın, təhsilin tərəqqisinə baxmayaraq, yoxsulluq və qeyri-bərabərlik bəşəriyyətin qlobal problemi kimi qalmaqdadır. Yoxsul əhalinin əksər hissəsi Asiyanın, Afrikanın və Latın Amerikasının inkişaf etməkdə olan ölkələrində yaşayır. Bu problemin həllində əhəmiyyətli irəliləyiş əsasən Çində və Hindistanda baş verir və əhalisinin sayı (6,6 milyard dünya əhalisinin 2,5 milyard nəfəri) nəzərə alınarsa, həmin ölkələrin böyük nailiyyəti hesab edilməlidir.

• Yer əhalisinin əsas kütləsi inkişaf etməkdə olan ölkələrdə cəmləşmişdir və yaxın perspektivdə müxtəlif səbəblərdən, o cümlədən yeni iş yerlərinin açılması gözlənilmədiyinə görə onların məşğulluq səviyyəsinin yüksələcəyinə ümid azdır. Bu mühitdə ən radikal baxışlar, mövcud iqtisadi və siyasi quruluşun dəyişdirilməsi, qlobal ictimai məhsulun yenidən bölgüsü tələbləri baş qaldırır.

• Artımın mövcud modelləri, «mərkəz» və «əyalət» arasında münasibətlər sistemi indiki vəziyyətdə saxlandığı halda, inkişaf etməkdə olan ölkələrin əksəriyyəti geriliyi, yoxsulluğu, səfaləti və aclığı aradan qaldırmağa imkan verən iqtisadi inkişafa nail ola bilməyəcək.

• Əhalinin təminatlı hissəsinin («qızıl milyard») inkişaf etmiş ölkələrdə cəmləşməsinə baxmayaraq burada da cəmiyyət təbəqələşmiş, güclü yenidənbölgü mexanizmləri yoxsulluğu aradan qaldırmamışdır. İnkişaf etməkdə olan ölkələrin çoxunda işsizliyin yüksək səviyyədə olması və hətta yavaş templərlə aşağı düşməsi belə (əhalinin artımı şəraitində) təkcə həmin ölkələr üçün deyil, siyasi qeyri-sabitlik müşahidə edilən bütün regionlar üçün də potensial təhlükə yaradır, sosial-iqtisadi vəziyyətin pisləşməsi isə ümumi təşvişi gücləndirir.

• XXI əsrin ikinci onilliyi ərəfəsində inkişaf etmiş, keçid iqtisadiyyatlı və inkişaf etməkdə olan ölkələr arasındakı fərqi əks etdirən nisbət bu cürdür - 1 : 8 : 20.

• Yer əhalisinin durmadan artdığı şəraitdə insanların keyfiyyətli qida ilə təmin olunması getdikcə çətinləşir. Bu problemi «yaşıl inqilab» vasitəsilə həll etmək cəhdləri nəzərəçarpan nəticə vennəmişdir. Müasir texnologiyalar əsasında yenidən qurulması tələb olunan çətin sahələrə vəsait qoyulması üçün yoxsul ölkələr böyük məbləğdə maliyyə resurslarına möhtacdır. Səmərəli beynəlxalq əməkdaşlıq və irihəcmli yardım olmadan, yoxsul ölkələr özünün ərzaq təhlükəsizliyini təmin edə bilməz.

• Mütləq yoxsulİLiğun miqyasının azaldılması işində əhəmiyyətli irəliləyiş əldə edildiyinə baxmayaraq, çox güman ki, bəşəriyyət Minilliyin Bəyannaməsində məqsəd kimi qoyulan «2015-ci ilədək yoxsulluğun son həddi miqyasının 2 dəfə azaldılmasına» nail olmayacaq. DB-nin məlumatlarına görə inkişaf etməkdə olan ölkələrin gündə 1,25 dollardan az məbləğinə yaşayan əhalisinin sayı 1981-ci ildəki 1,9 milyard nəfərdən 2005-ci ildəki 1,4 milyard nəfərədək azalmışdır (2005-ci ilin VAQP üzrə hesablandıqda). İlkin hesablamalara görə, 2011-ci ilin əvvəlində bu rəqəm yenidən 1,5 milyard nəfərə çatmışdır. Yoxsulların sayının mütləq göstəricisi Afrikada Böyük Səhranın Cənubunda yerləşən ölkələrdə. Latın Amerikası, Yaxın Şərq və Şimali Afrika, habelə Mərkəzi Asiya dövlətlərində yüksəlmişdir.

• Bu meyillər nəzərə alınmaqla, belə bir sual meydana çıxır: yoxsulluğun miqyasının ixtisar olunması üzrə qlobal səylər önəmli hesab edilə bilərmi? Bu cəhdlər Çində və Hindistanda uğurlu hesab edilə bilsə də, bunu inkişaf etməkdə olan başqa, xüsusilə də ən zəifləri barədə demək mümkün deyil. Həmin ölkələrdəki artım yoxsulluğun miqyasını ixtisar etməmiş, kənd təsərrüfatında məhsuldarlıq isə aşağı səviyyədə qalmaqdadır. Çox ehtimal ki, mövcud

beynəlxalq iqtisadi və siyasi quruluşla əlaqədar ən radikal baxışlar burada meydana çıxır, qeyri-bərabərlik və ictimai məhsulun yenidən bölgüsünün zəruriliyi ideyaları bu mühitdə yaranır.

• Gəlirlərlə yoxsulluq arasındakı əlaqələrin dərəcəsi müxtəlif illərdə K.Lorens, S.Kuznets kimi iqtisadçı-alimlər tərəfindən təklif olunan düsturlar, habelə Cini əmsalı və s. ilə ifadə olunur. Amma praktiki cəhətdən müxtəlif alətlərdən istifadə edən beynəlxalq ictimaiyyət dünya əhalisinin yoxsul (və əksər) hissəsi ilə inkişaf etmiş ölkələrin əhalisi arasındakı fərqlərin azaldılması üzrə ümumi siyasəti işləyib hazırlaya bilməmişdir.

• Əhalinin təmin olunmuş hissəsi («qızıl milyard») dünyanın inkişaf etmiş dövlətlərində cəmləşmişdir. Amma burada da cəmiyyətdə təbəqələşmə baş vennişdir, güclü yenidənbölgü mexanizmlərinin mövcudluğuna baxmayaraq, yoxsulluq aradan qalxmır.

• İnkişaf etməkdə olan ölkələrdə işsizliyin sabit yüksək səvi}^ədə qalması və hətta tədricən azalması (əhalinin sayının artması şəraitində) belə, təkcə həmin ölkələrin özü üçün deyil, siyasi qeyri-sabitliyin saxlandığı regionlar üçün də böyük təhlükə yaradır, sosial-iqtisadi vəziyyətin pisləşməsi isə ümumi həyəcanı gücləndirir.

• Aydındır ki, hökumətlər iqtisadi inkişaf prosesi çərçivəsində əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması üçün məqsədyönlü səylər göstərməlidir. 1993-2007-ci illərdə dünya iqtisadiyyatının 4-4,5% hüdudunda ümumi artımı Afrikanın və Latın Amerikasının bir çox ölkələrində aclıqdan əziyyət çəkənlərin ərzaqla təchizat probleminin həllinə, sosial və ekoloji gərginliyin zəifləməsinə az təsir göstərmiş, dünya əhalisinin rifahının nəzərəçarpan dərəcədə yüksəlməsinə səbəb olmamışdır. İnsanların xəstələnmə səviyyəsi aşağı düşməmiş, dünyanın təqribən 70 ölkəsində işsizlik əvvəlki kimi qalmış və hətta artmışdır. Görünür ki, bu məsələlər təkcə obyektiv şəraitlə deyil, həmçinin, inkişafın 1990-cı illərdə bir sıra beynəlxalq təşkilatlar, ilk növbədə, BVF, dünyanın iri dövlətləri tərəfindən tətbiq olunmağa başlamış qlobal nəzəri konsepsiyaları ilə bağlıdır.

## Yoxlama sualları

1. Bəşəriyyətin əsas qlobal problemlərini sadalayın.
2. Yoxsulluq və ərzaq qıtlığı problemləri hansı səbəbdən qlobal hesab olunur?

getdikcə artan intensivliyi nüvə müharibəsindən daha təhlükəlidir, nəticələrinin aradan qaldırılması isə dəfələrlə çətin olan risk yaradır. Nüvə müharibəsinin qarşısını almaq imkanı «düymə basılanadək» qalacağı halda, ətraf mühitin dağılması xərçəng xəstəliyi kimi, asta-asta planetimizə yayılır; bu prosesi ümidsiz vəziyyət yarananadək təcili tədbirlər görmək hesabına ləngitmək olar.

Mahiyyətcə, ekoloji problemin kəskinləşməsi dünya əhalisinin insan fəaliyyətinin amansız təsiri nəticəsində kasadlaşmış ətraf mühitdən keyfiyyət cəhətdən yeni asılılığa keçdiyini göstərir.

## 25.2. Problemlərin təsnifatı

Qlobal ekoloji problemlər sırasına bunlar daxildir:

1) atmosferin istilik balansında, okean sularının cərəyanında, suyun dövranında baş verən fəsadlarla əlaqədar olaraq Yerdə baş verən hadisələrin bir hissəsi kimi, qlobal iqlim dəyişməsi. Atmosferdəki karbon qazının miqdarı ilə Yerin orta hərarəti arasındakı qarşılıqlı əlaqəni nəzərə alsaq, bu cəhətdən istixana effektinə xüsusi diqqət yetirilməlidir;

2) qlobal istiləşmənin ehtimal olunan əsas səbəblərindən biri istixana qazlarının tullanmasıdır. Belə ki, tullantılar Yerdən istilik şüalanmasını saxlayır və istixana effekti yaradır;

3) bərpa olunan təbii ehtiyatlardan (meşələr, içməli su, bioloji resurslar və s.) təbiəti özünübərpa qabiliyyətindən artıq miqyasda istifadə edilməsi;

4) təbii ehtiyatların tükənməsi, ətraf mühitin zərərli maddələrlə (ksenobiotiklərlə) çirklənməsi, adi zəhərli maddələrin yol verilən qatdıq səviyyəsindən dəfələrlə artıq miqdarda toplanması təbii sistemlərin (torpaq qatının, təbii suların, landşaftın) pozulmasına gətirib çıxarır;

5) bioloji müxtəlifliyin sürətlə azalması, yəni bir çox heyvanların və bitkilərin əvəzolunmaz surətdə məhvi;

6) «planetin ciyəri» olan meşələrin qırılması nəticəsində atmosfer balansının sürətlə pozulması;

7) ozon qatının nazikləşməsi' (son illərdə bu qatda qəflətən əmələ gələn dəliklərdən Yerə böyük miqdarda ultrabənövşəyi şüaların keçməsi insanlara

^ Ozon qatı (ozonosfer) - stratosfer hüdudlarında (10-50 km hündürlükdə) yerləşir. Tərkibində Yer səthinə kosmik şüalanmanın (o cümlədən ultrabənövşəyi radiasiyanın) böyük hissəsinin keçməsinin qarşısını alan ozonun zəngin olması ilə fərqlənir.

son dərəcə mənfi təsir göstərir). Tədqiqatçılar hesab edir ki, son 15 ildə orta və yuxarı en dairələrində toplanan ozoniın orta illik həcmi təqribən 12-13% azalmışdır. Ehtimal olunur ki, «ozon dəliyinin» yaranmasında və genişlənməsində əsas rolu freon oynayır;

8)planet əhalisinin çoxluğu, təbii ehtiyatlardan səmərəsiz və israfçılıqla istifadə olunması, ərazilərin düşünülməmiş urbanizasiyası.

Beynəlxalq ekoloji siyasətin prioritetlərinin müəyyən olunması xüsusilə çətin problemdir. Bəzi hökumətlərin fəaliyyətsizliyinə görə digərləri əziyyət çəkir, ən çətin və məsuliyyətli qərarları qəbul edənlər isə çox vaxt uduzmuş vəziyyətdə qalır. Amma aydındır ki, bu problemlər bütün səviyyələrdə nəzərə alınmalıdır. Ozon qatının nazikləşməsi, istixana qazlarının tullanması kimi problemlər ***qlobal*** xarakterlidir. Torpağın, suyun və havanın transsərhəd sənaye çirklənməsi ***regional*** xarakterdə ola bilər. İçməli suyun çirklənməsi xarakterinə görə ***lokal, regional*** və ***qlobal*** (Dünya Okeanının çirklənməsi) ola bilər.

İnsan fəaliyyətinin təbiətə antropogen təsiri böhran nöqtəsinə çatmışdır. Planetin ekologiyası getdikcə pisləşir və buna radiasiya, səs-küylə, kimyəvi maddələrlə çirklənmə, məişət tullantıları güclü təsir göstərir.

***İstixana qazları.*** Hazırki dövrdə bəşəriyyət üçün ən böyük və birbaşa təhlükə mənbəyinin 80%-i müasir energetika olan istixana qazlarıdır. Atmosferə tullanan istixana qazlarının ümumi həcmində ölkələrin payı müxtəlifdir. İstixana qazlarının 50%-i atmosferə ABŞ, Çin, Rusiya, Almaniya, Yaponiya tərəfindən tullanır. Bu problem uzun müddət BMT-də müzakirə olunmuş və nəhayət, Kiotoda (Yaponiya) istixana qazlanmn müvafiq tullantılarının azaldılmasını nəzərdə tutan Kioto protokolu imzalanmışdır. Güman ki, prezident Buşun başçılıq etdiyi ABŞ hökuməti bu protokolu imzalamaqdan imtina etməsəydi, sənəd gələcəkdə təbiətin mühafizəsi üzrə daha ciddi tədbirlərin həyata keçirilməsi üçün baza kimi qəbul edilə bilərdi. BMT-nin analoji sənədin qəbul olunmasına yönəlmiş daha bir cəhdi 2009-cu ildə Kopenhagendə (Danimarka) boşa çıxdı: bu dəfə Çin, onun ölkənin inkişafına mənfi təsir göstərəcəyinə əsaslanaraq, öz narazılığını bildirdi.

Mütəxəssislər təbiətdə normal «istixana effektinin» zəruri olmasını müəyyən etmişdir: əks halda planetimizin səthində havanın hərarəti -18° C səviyyəsində dayanardı. Amma iş burasındadır ki, sənaye inqilabı dövründən bəri istixana qazlarının və insan fəaliyyətinin nəticəsində yaranan tullantıların həcmi tədricən Dünya Okeanı və ya fotosintez prosesləri vasitəsilə udula

bilməyən həcmədək çoxalmışdır. ...Qnlarm yarısından çoxu indiyədək atmosferdə qalır. Nəticədə 1950-ci illə müqayisədə atmosferin karbon qazı ilə çirklənməsi ⅓qədər, metanla 170-175%, oksidləşmiş azotla 170-175% artmışdır. Əvvəlki dövrdə paleoiqlim tsikllərində çirklənmə hərarətin artımından sonra baş verirdisə, indi bunun əksi olan hal müşahidə edilir.

XIX əsrin ortaları ilə müqayisədə Yerin atmosferi artıq 0,76°C istiləşmişdir, proqnozlara görə bu rəqəm XXI əsrin ortalarında +2°C, sonunda isə hətta +4-6°C-yə çata bilər. Bu cür təkamülün isə hava və iqlim üçün qarşısıalınmaz fəlakətlərlə (quraqlıq, tufan, buzlaqların əriməsi nəticəsində okeanların səviyyəsinin yüksəlməsi, məhsuldarlığın aşağı düşməsi, insanların və heyvanların xəstəlikləri və s.) nəticələnə biləcəyi təhlükəsi var. Belə hallar ilk növbədə əhali sıxlığı böyük olan ərazilərdə özünü büruzə verəcək. Bütün qitələrin ölkələri bu risk zonası altındadır; son 150 il ərzində Avropanın iqlimi başqa ərazilərdən daha çox, 1° C istiləşmişdir.

## 25.3. Ekoloji problemlər inkişaf etməkdə olan ölkələrin tərəqqisini ləngidir

Ekoloji problemlər inkişaf etməkdə olan ölkələrin uzunmüddətli tərəqqisini ləngidə bilər. Keçid iqtisadiyyatlı ölkələrin əksəriyyətində bir neçə onillik ərzində ətraf mühitin qorunması məsələlərinə etinasız yanaşma, böyük ərazilərin zəhərlənməsi və uzunmüddətli perspektivdə iqtisadi fəalİ3^əti təmin etmək qabiliyyətini itirməsinə gətirib çıxarmışdır. Ən varlı ölkələrdə istehlakm mövcud modelləri bütün dünyanın gələcək inkişafını təhlükə altına qoyaraq, planetimizin resurslarının tükənməsinə səbəb olur.

İnkişaf və ətraf mühit bir-birindən ayrılmaz məfhumlardır, bu sahələrdən birinin problemləri digərindən ayrıca müvəffəqiyyətlə həll oluna bilməz. Ətraf mühit inkişaf üçün lazım olan resursların mənbəyidir. Onun vəziyyəti mühüm meyar, qomnması isə inkişaf prosesində daimi diqqətin mərkəzində olan predmetdir. Uğurlu inkişaf üçün ekoloji qəbildən olan mülahizələri nəzərə alan siyasət tələb edilir. Bu qarşılıqlı əlaqə ilk dəfə 1992-ci ildə BMT-nin Ətraf Mühit və İnkişaf üzrə Konfransında (UNCED - United Nations Conference on Environment and Development) təsdiqlənmişdir. Bu konfrans BMT-nin başqa təşkilatları tərəfindən qəbul olunan sənədlər hazırlanarkən ətraf mühitin

qorunması tələblərinin nəzərə alınması üçün model kimi istifadə edilir. Ancaq problem bu sənədlərin icbari qüvvəyə malik olmamasındadır.

Atom-elektrik stansiyalarının sayının artması insan həyatı və təbiət üçün xüsusi təhlükə yaradır. Onların bəşəriyyətə mümkün təsirinin təxmini ssenarisi Çemobil faciəsi timsalında nümayiş olunmuşdur: insanların həlak olması, şəhərlərin viranəyə çevrilməsi, torpağın, meşələrin, suyun zəhərlənməsi, xüsusi təhlükəli radioaktiv maddələrin hava yolu ilə minlərlə kilometr ərazidən kənarda şəhər və kəndlərin üzərinə yağıntı şəklində tökülməsi. İndi də gözümüzün qarşısında Yaponiyanın Fukusima AES-də baş verən qəza ilə əlaqədar, miqyasına görə bundan az olmayan faciə yaşanmaqdadır.

Vyetnam, Kamboca, Laos, Əfqanıstan, Afrika və Mərkəzi Amerikada baş verən müharibələr də ekoloji böhranın sürətlənməsinə təsirini göstənnişdir. Əsrlər boyu toxunulmamış cəngəlliklərin böyük əraziləri, sözün əsil mənasında, külə çevrilmişdir. Amma təbiəti təkcə birbaşa hərbi hadisələr məhv etmir. Yüzlərlə hərb gəmisi Dünya Okeanının dərinliklərinə saysız-hesabsız mərmi atmaqla, səthinə milyonlarla ton neft buraxmaqla, onu istənilən təcrübənin keçirilməsi mümkün olan mühit kimi nəzərdən keçirir.

Raketlər də atmosferin mürəkkəb qatını dağıdır: biz bu uçuşların nəticələrindən xəbərdarıqmı? Bundan da güclü proseslər - ağılsızcasma silahlanma, metal, kimya məhsulları, enerji, istehsalının, suyun müdafiə sənayesinə cəlb olunması və s. gedir. Bunun nəticəsində onların getdikcə daha az hissəsi bilavasitə insanın ehtiyaclarının ödənilməsi üçün qalır. Bəzi ölkələrin hökumətlərinin müasir silah növlərinin istehsalını getdikcə azaltmağın və azad olan iri həcmdə vəsaitləri sülh şəraitində inkişaf problemlərinin həllinə, ekoloji təhlükəsiz istehsalın yaradılması bazasında yeni texniki sivilizasiyanın yaradılmasına yönəltməyin zəruriliyini dərk etmək iqtidarında olmaması bəşəriyyət üçün ən böyük faciədir.

## 25.4. Yerin təbii resurslarının qorunması

Təbiətə qayğı göstərilməsi, onun məhvi prosesinin dayandırılması insanlar, cəmiyyətlər və dövlətlər qarşısında duran ən aktual məsələlərdir. Əksər hallarda ölkənin təbii sərvətləri inkişaf üçün ən münasib və gərəkli olan resurslardır. Cəmiyyət öz təbii resurslarının uzunmüddətli potensialının qorunması ilə bağlı olan mürəkkəb məsələlərin həlli üzərində çalışmalıdır. Bir-

biri ilə rəqabət aparan ehtiyaclar və maraqlar arasında tarazlığın təmin olunması vacibdir. Müasir sosial və iqtisadi ehtiyaclar bizim və gələcək nəsillərin həyatının asılı olduğu bu resursların uzun müddət ərzində varlığına və ekoloji sistemlərin həyat qabiliyyətinə ziyan vurmayan tərzdə ödənilməlidir.

Ekoloji tənəzzül insanların bilavasitə istifadə etdiyi çoxsaylı resursların həm keyfiyyətinə, həm də kəmiyyətinə mənfi təsir göstərir. Təbii ehtiyatların vəziyyətinin pisləşməsinə kifayət qədər diqqət verilməməsinin nəticələri faciəvi ola bilər. Suyun çirklənməsi balıq ehtiyatlarına zərbə vurur. Torpağın şoranlaşması və eroziyası məhsuldarlığı azaldır. Kənd təsərrüfatı təyinatlı torpaqların korlanması və meşələrin qırılması quraqlığa və torpaq qatının eroziyasına səbəb olmuş, planetin bəzi rayonlarında aclığı adi hala çevinnişdir. Dəniz resurslarının həddən artıq istismarı və tükənməsi dəniz kənarında yaşayan cəmiyyətlər üçün təhlükə yaradır. Oduncaq tədarükü və rütubətli tropik meşələrin qırılması mühüm təbii yaşayış vasitələrinin məhvinə gətirib çıxarmış və qlobal bioloji müxtəlifliyə ziyan vurmuşdur. Təbii resursların ekoloji cəhətdən düşünülməmiş tərzdə hasilatı nəticəsində böyük ərazilər viranə qalmış və çirklənmişdir. Ən böyük təhlükə isə bir çox hallarda tənəzzülün nəticələrinin aradan qaldırılmasının qeyri-mümkünlüyüdür.

Təbii ehtiyatların qorunması müəyyən məhdudiyyətlərin tətbiqini nəzərdə tutsa da, eyni zamanda sahibkarlıq fəaliyyətində yeni iqtisadi təfəkkürün yaranması üçün çoxsaylı mühüm stimulların və imkanların meydana çıxmasının mənbəyidir. Əhalinin yüksəktəminath təbəqəsinin həyat tərzini və enerji istehlakma münasibətinin dəyişməsi daha səmərəli texnoloji proseslərdən istifadə olunması ilə yanaşı, qlobal inkişafın dayanıqlı modelinin yaradılmasına imkan verəcək. Təbii ehtiyatların idarə olunması və qorunması məsələlərinin milli inkişaf strategiyasına daxil edilməsi çoxlu sayda müsbət nəticələr verə bilər. Bir sıra ölkələrin iqtisadiyyatının asılı olduğu turizm əhəmiyyətli faydalar, o cümlədən həyati əhəmiyyət kəsb edən infrastruktunın yaradılmasını, birbaşa və dolayı məşğulluğun artmasını, xarici valyuta daxilolmalarının çoxalmasını, ekoloji biliklərin yayılmasını, beynəlxalq əlaqələrin genişlənməsini, milli şüurun möhkəmlənməsi üçün unikal imkanların açılmasını təmin edə bilər. Turizmin inkişafının təbiətin qorunmasını təmin edə biləcək həyat qabiliyyətli strategiyasının hazırlanması vacibdir.

BMT, habelə onun bir sıra üzv-dövlətləri tərəfindən irəli sürülən təşəbbüslər də inkişaf sahəsində atılan bütün addımlara yerli icmaların cəlb

olunmasının mühümlüyünü göstərir. Bu proqramların həyata keçirilməsi nəticəsində yerli əhalinin, sadəcə kənar benefisiar qismində deyil, marağı olan tərəf-müqabil kimi iştirakı yeni perspektivlər açır. Bu proqramlar bir çox yerlərdə təbiətin qorunmasının üstünlüklətinin dərindən dərk olunmasına, yerli icmaların ətraf mühitin, havanın təmizliyinin saxlanmasında iştirakının genişlənməsinə, kənd yerlərində gəlirlərin artmasına səbəb olaraq, çox yaxşı nəticələr vermişdir. Onlar çoxlarının öyrənməsi üçün mühüm nümunə kimi xidmət edir.

Ancaq ətraf mühit ilə inkişaf arasındakı qarşılıqlı əlaqə yalnız təbii resurslardan səmərəli istifadə olunması ilə məhdudlaşmır. Yaşadığımız dünyada ekoloji tarazlığın saxlanması və qorunması bəşəriyyətin inkişafının mühüm hərəkətverici qüvvəsi olmaqla yanaşı, insanların salamat qalmasının mühüm amilidir. Cəmiyyətin rifahı havanın, suyun keyfiyyətinin aşağı düşməsi və digər ekoloji risklər nəticəsində insanların sağlamlığının pisləşməsi, erkən ölümü ilə sarsılır. Zəhərli maddələr birbaşa yaxud ətraf mühitin dəyişməsi nəticəsində dolayısı ilə sağlamlığa mənfi təsir göstərir. Sağlamlığa təhdidlər çox müxtəlif - ultrabənövşəyi şüalanmadan, ərzağın və suyun keyfiyyətinin pisləşməsinədək formada meydana çıxır.

Toksik kimyəvi maddələr və ağır metallar çayları, gölləri, dənizləri və başqa su təchizatı mənbələrini çirkləndirir. Bu çirkləndirici maddələrin çoxu içməli sudan adi sutəmizləmə üsulları ilə ***aynXa*** bilmir.

Təbiətdən istifadənin yaxşılaşdırılması vəzifəsi sahibkarlardan, ev təsərrüfatlarının mülkiyyətçilərindən, fermerlərdən, beynəlxalq ictimaiyyətdən və hökumətlərdən davranış tərzinin dəyişdirilməsini tələb edir. Ekoloji dəyərlərin iqtisadi fəaliyyətdə lazımınca əks olunması üçün məqsədyönlü siyasət gərəkdir. Həm dövlət, həm də özəl müəssisələr fəaliyyətinin ekoloji fəsadlarına görə məsuliyyət daşımalı, hökumətlər isə ekoloji cəhətdən səmərəli inkişafa şərait yaradan siyasətin işlənib hazırlanmasında və strategiyaların həyata keçirilməsində aparıcı rol oynamalıdır.

Ətraf mühit, cəmiyyət, iqtisadiyyat və siyasət arasında mövcud olan qarşılıqlı əlaqə inkişafın ekoloji cəhətinə milli mövqedən yanaşmanın əhəmiyyətini vurğulayır. Yoxsulluqla ekoloji dayanıqlılıq arasındakı əlaqə xüsusilə inandırıcıdır. Yoxsul icmalarda çox vaxt ənənəvi torpaqlardan istifadənin ciddi etik normaları mövcud olsa da, demoqrafik təzyiqin güclənməsi və resursların çatışmazlığı onları ətraf mühitə zərər vurmadan

yaşamağın qeyri-mümkün olduğu vəziyyətə qoiuır. Əhalinin yaşayış vasitələrini çətinliklə tapan ən yoxsul təbəqələrini yalnız salamat qalmaq məsələsi düşündürür. Onlar əksər hallarda ətraf mühitin tənəzzülünün həm qurbanı, həm də günahkarıdır. Ətraf mühitin durumunun yaxşılaşdırılmasına yönəlmiş siyasət, məsələn, su ehtiyatlarının çirkləndirilməsinin azaldılması cəmiyyətin ən yoxsul təbəqələrinin vəziyyətinə daha güclü müsbət təsir göstərir. Yoxsulluğun miqyasının azaldılması üzrə səmərəli siyasət əhali artımının qarşısını ala və ətraf mühit üzərinə düşən ağırlığı azalda bilər.

Texniki əməkdaşlığa və resurslardan səmərəli istifadə olunmasına yardım edən siyasət də ekoloji problemlərin həlli yollarının tapılmasında rol oynaya bilər. Xərclər və əldə olunan fayda, iqtisadi fəaliyyətin ətraf mühitə təsiri arasındakı nisbət daim dəyişir. Dayanıqlığın artırılmasının açarı istehsalın azaldılmasında deyil, onun başqa üsullarla həyata keçirilməsindədir. Artan gəlirlərin ətraf mühitin yaxşılaşdırılmasına, təbii ehtiyatların tükənməsinin və tənəzzülünün qarşısının alınmasına yönəldilməsi dəymiş zərərin nəticələrinin aradan qaldırılması ilə müqayisədə daha az xərc tələb edir.

Meşələrin qırılmasının və ətraf mühitin tənəzzülünün nəticələri kəskin münaqişələrə səbəb olan gərginliyin artmasına gətirib çıxarır. Getdikcə daha çox regionda «yoxsulluq - resursların tükənməsi - münaqişə» üçbucağı həddən artıq tanış hadisəyə çevrilir. Bütün dünyada ətraf mühitin tənəzzülündən və resursların tükənməsindən can qurtamıağa çalışan qaçqın qrupları onsuz da böyük problemləri olan şəhərlər üçün əlavə yük yaradır.

## 25.5. Qlobal ekoloji problemlər qlobal yanaşma tələb edir

Resurslar uğrunda mübarizə nəticəsində meydana çıxan münaqişələr bütün ölkələrin ətraf mühit və inkişafla əlaqədar olan problemlərin həllində ümumi marağının olmasına dəlalət edir. Ətraf mühit və inkişaf sahəsində mövcud olan genişmiqyaslı ümumi məsələlərin uğurlu həlli üçün beynəlxalq əməkdaşlıq tələb edilir. Ekoloji tənəzzülün fəsadları milli sərhədlərdən kənara çıxdıqda, artıq bir ölkənin hüdudlarında olduğu kimi, ümumi qanunvericilik bazasına, eynitipli tənzimləyici mexanizmlərinə, vahid iqtisadi stimullara yaxud milli hökumətin məcburiyyətə əl atmasına ümid etmək olmaz.

Beynəlxalq ekoloji problemlərin həlli müstəqil dövlətlər arasında inandırma qüvvəsi və danışıqlarla möhkəmləndirilmiş əməkdaşlığın ümumi prinsiplərinə və qaydalarına əsaslanmalıdır. Qonşu ölkələr ümumi resurslardan,

məsələn, beynəlxalq çaylardan yaxud dənizlərdən birgə istifadə etdikdə, regional ekoloji problemlərin potensial siyasi nəticələri meydana çıxa bilər. Çoxtərəfli əməkdaşlıq obyekti olan atmosfer havası və okeanlar kimi qlobal ekoloji resurslar da mövcuddur. Bir ölkəyə məxsus olan, amma dünyanın bütün əhalisi üçün dəyər kəsb edən resursların, məsələn, ətraf mühitin, nadir heyvan və bitki növlərinin qorunması sahəsində isə hər bir dövlət beynəlxalq əməkdaşlığa güvənə bilər.

## 25.6. Dayanıqlı inkişaf

«Dayanıqlı inkişaf» tennini ilk dəfə BMT-nin Ətraf Mühit üzrə Beynəlxalq Komissiyasının (Bmtland Komissiyası) hazırladığı «Bizim ümumi gələcəyimiz» Hesabatında (1987) ifadə olunmuşdur. Onun mahiyyəti gələcəkdə insanı əhatə edən mühitə mənfi təsir göstənnəyən sosial-iqtisadi şərait yaratmaqdır. Sonradan bu tennin dayanıqlı iqtisadi artım və inkişaf prinsipinə və konsepsiyasına çevrilmiş və BMT-nin Ətraf Mühit və İnkişaf üzrə Rio-de-Janeyroda keçirilən 2-ci Konfransında (UNCED - United Nations Conference on Environment and Development, UNCED-2, Braziliya, 1992) öz əksini tapmışdır. Konfransın işində 179 ölkənin nümayəndəsi, o cümlədən bir sıra ölkələrin dövlət və hökumət başçıları iştirak etmişdir. Dayanıqlı inkişaf konsepsiyası özündə aşağıdakıları ehtiva edir:

• təbiətlə ahəngdarlıqda sağlam və məhsuldar həyat hüququna malik olan insanların diqqət mərkəzində olmasının tanınılması;

• ətraf mühitin qorunması inkişaf prosesinin komponentinə çevrilməlidir və ondan ayrılıqda nəzərdən keçirilə bilməz;

• inkişaf etmək hüququ həm indiki, həm də gələcək nəsillərin tərəqqiyə və ətraf mühitin qorunmasına olan ehtiyacını bərabər təmin edən tərzdə reallaşdırılmalıdır;

• Yer əhalisinin *'A* hissəsinin payına dünya üzrə ümumi gəlirlərin cəmi 1/7 hissəsinin düşdüyü nəzərə alınaraq, xalqların həyat səviyyəsi arasındakı fərqlərin, yoxsulluğun və səfalətin aradan qaldırılması.

Üçlüyün vəhdətini təşkil edən konsepsiya ***iqtisadi, sosial*** və ***ekoloji*** tərkib hissələrindən ibarətdir. İnkişafın dayanıqlığına iqtisadi yanaşma məhdud miqdarda resurslardan səmərəli istifadə olunmasını və ekoloji texnologiyaların (təbii ehtiyatlara, eneıjiyə, materiallara qənaət edən) tətbiqini, o cümlədən xammalın hasilatını və yenidən emalını, ekoloji qənaətbəxş malların yaradıl-

masını, tullantıların minimuma endirilməsini, yenidən emalım və məhvini nəzərdə tutur. Dayanıqlığın sosial tərkib hissəsi sosial və mədəni sistemlərin sabitliyinin saxlanmasına, o cümlədən insanlar arasında münaqişələrin sayının azaldılmasına, sərvətlərin ədalətli bölgüsünə yönəlmişdir. Bu konsepsiya çərçivəsində insan inkişafın obyekti deyil, subyekti qismində çıxış edir. Dayanıqlı inkişafın ekoloji tərkib hissəsi bioloji və fiziki təbiət sistemlərinin bütövlüyünün təmin olunmasını nəzərdə tutur.

UNCED-2 tərəfindən bəyənilmiş tədbirlər Proqramı (Agenda-21 - XXI əsrin Gündəliyi) konsepsiyanı beynəlxalq öhdəliklər səvi}^əsinə keçirdi və onun çərçivəsində hökumətlər, sahibkarlar və ictimai təşkilatlar üçün səmt göstəricisi kimi 100 proqram sahəsi müə3^ənləşdirilmişdi. Proqram «Cənub» və «Şimal» arasında razılaşmanı əks etdirdi. İnkişaf etməkdə olan ölkələrin («Cənub») nümayəndələri ətraf mühitin dağıdılmasının əsas amili kimi, diqqəti «Şimal»m güclü təsərrüfat komplekslərinin istehlakçı xarakterinə və TMK-nın mənfəət dalınca qaçmasına yönəldirdi. «Şimal»m nümayəndələri isə həmin problemlərin səbəbi kimi inkişaf etməkdə olan ölkələrin düzgün olmayan ekoloji və demoqrafik siyasətini göstərirdi. Son nəticədə bu 2 mövqe arasında ortaq məxrəc müəyyən olunmuşdu.

İqtisadi inkişafın xalis faydalarının təbii resursların qorunması şərti ilə maksimuma çatdırılması zəruridir. Bu, bərpa olunan resurslardan onların regenerasiya qabiliyyətindən yüksək olmayan, bərpa olunmayan ehtiyatlardan isə optimal səmərə ilə istifadəni nəzərdə tutur. Bunun üçün istifadə edilən təbii resurslar texniki-texnoloji tərəqqi ilə əvəz olunmalıdır. Beləliklə də, iqtisadi inkişafla ətraf mühit arasında ahəngi təmin edən vahid qayda müəyyənləşdirilir.

Həmin vaxt iqtisadi artımın heç də bütün hallarda inkişafa səbəb olmadığı, bu 2 məfhum arasında müəyyən ziddiyyətin mövcudluğu barədə ideya irəli sürülmüşdü. Məsələn, neft və qazla zəngin olan ölkə onların hasilatını getdikcə artıraraq, iqtisadiyyatın başqa sahələrinin inkişafına əhəmiyyət verməyə, bununla bərabər ətraf mühiti çirkləndirə, təbiətlə insan arasında tarazlığı poza bilər. Bu cür fəaliyyətin yekunu artım kimi qiymətləndiriləcək. Amma bu artım inkişaf hesab oluna bilərmi? Əlbəttə ki, yox. Buna görə də dövlət siyasəti, sadəcə ***iqtisadi artımın*** deyil, ***tarazlıq və dayanıqlıq təmin edən inkişafın*** əldə olunmasına yönəlməlidir. Konsepsiyaya müvafiq olaraq, bu cür yanaşma iqtisadi proseslərin beynəlxalq və dövlətlər

səviyyəsində tənzimlənməsini nəzərdə tutduğuna görə, dünyanın inkişafının ahəngdarlığını və dayanıqlığını təmin edə bilər. Buradan da sahibkarlığın dövlət tərəfindən kifayət qədər ciddi tənzimlənməsinin zəruriliyi meydana çıxır.

2002- ci ildə Yohannesburqda Dayanıqlı İnkişaf üzrə Ümumdünya Sammiti keçirilmişdir. Bir sıra mühüm qərarların qəbul edilməsinə baxmayaraq, onlar da formal sənəd kimi qalmaqdadır. Çox maraqlıdır ki, hələ sammitə hazırlıq gedərkən, BMT-nin Baş Katibi olmuş Kofi Annan «dayanıqlı inkişaf» ifadəsinin sadəcə «andiçməyə» çevrildiyini, əslində isə bu konsepsiyanın həyata keçirilməsi üçün heç bir iş görülmədiyini etiraf etmişdi. Buna baxmayaraq, texniki əməkdaşlığa və resurslardan səmərəli istifadə olunmasına yönəlmiş dayanıqlı inkişaf siyasəti ekoloji problemlərin həllində mühüm rol oynayır.

Qeyd etməliyik ki, təbii resurslara, ətraf mühitə və insanların həyat təminatı sistemlərinin üzərinə düşən ağırlıq dünyada ekoloji durumun kəskin pisləşməsinə gətirib çıxanmşdır və bu proses gələcəkdə də davam edəcək. Deməli, səbəb-nəticə sisteminin mərkəzində ətraf mühit ilə iqtisadi fəaliyyət arasında bir-birinə qarşılıqlı təsir göstərən əlaqələr durur və bəşəriyyətin gələcəyi bundan asılıdır. İnsan həyatının saxlana və inkişaf edə biləcəyi məkan ətraf mühitin hüdudundadır. Beləliklə, ətraf mühit və iqtisadi inkişaf bir-biri ilə qeyd-şərtsiz və sıx surətdə bağlıdır, bizim gələcəyimiz isə bu əlaqələri nə dərəcədə düzgün nəzərə almağımızdan asılıdır.

Ayrı-ayrı ölkələrin və BMT-nin ciddi niyyətləri və hərəkətləri çox zaman iri dövlətlərin korporasiyalarının mənfəət əldə etmək məqsədi ilə yol verdikləri eqoist davranış ilə neytrallaşdırılır.

2011- ci ilin yanvarında Kankunda (Meksika) BMT-nin iqlim üzrə növbəti Sammiti keçirilmişdir. Onun yekun sənədində yenə də karbon qazının xeyli azaldılmasının zəruriliyi vurğulanır. Əfsus ki, sənəddə çox mühüm olan məqsədə çatmağın mexanizmi göstərilmir. Bunun «qarşılıqlı güzəşt» olacağı iddia edilir. Amma bu halda qarşılıqlı güzəşt yersizdir və məsul şəxslər tullantılara dair hamı üçün məcburi olan meyarlar müəyyənləşdinnəli idi. Bunun əvəzində isə başqa alətlər: «İqlim dəyişməsi probleminin həllində yoxsul ölkələrə yardım göstərilməsi Fondunun (yaşıl iqlim fondu)» yaradılması, ölkələrin iqlimi qorumaq planlarının dəstəklənməsi üçün «Adaptasiya komitəsinin» təsis olunması nəzərdə tutulmuşdur. Amma ən əsası.

qəbul olunan Sazişdə təklif olunan tədbirlərin, o cümlədən tullantıların azaldılmasının hüquqi baxımdan icbariliyi məsələsinin açıq qalmasıdır. Bu cür məcburi olmayan qərar Rusiya və Yaponiyanın mövqeyinin nəticəsidir. Bu 2 ölkə onlara zəhərli tullantıların məcburi qaydada ixtisarına dair Kioto protokolunda nəzərdə tutulan ciddi qaydalardan yayınmaq imkanı verən ifadələrə nail olmuşdur.

***Ekoloji böhran iqtisadiyyatı.*** Ekoloji təhlükəsizlik problemi iqtisadi təhlükəsizliyə nail olunması, təbii resursların kimyəvi istismarını, zəhərli istehsalların və təhlükəli tullantıların ixracını istisna edən bərabərhüquqlu iqtisadi münasibətlərin təsbit olunması ilə sıx əlaqəlidir. Bu fikir BMT-nin Ətraf mühit və inkişaf üzrə Rio-de Janeyroda keçirilmiş Konfransında səsləndirilmişdir. Amerika alimi, Vaşinqton Ümumdünya Müşahidə İnstitutunun direktoru Braun bununla əlaqədar olaraq qeyd edirdi ki, təbii təminat sistemlərin intensiv surətdə dağıdılması və getdikcə pisləşən, hazırda ənənəvi hərbi təhlükə ilə rəqabət aparan ekoloji şərait milli və beynəlxalq təhlükəsizliyi təhdid edir.

Məhz buna görə də burada beynəlxalq əməkdaşlığın vahid meyarlara, ümumi qəbul edilmiş universal yanaşmalara əsaslanan inkişaf etmiş formalarından istifadə olunmalıdır. Bu məqsədlə mövcud beynəlxalq ekoloji təşkilatların fəaliyyətinə dinamizm verilməli və bir sıra yeniləri yaradılmalıdır. Aydındır ki, onların müvafiq maliyyə bazası təmin olunmalı, ehtimal ki, həmin ölkələrə ətraf mühitin qorunması proseslərinin tənzimlənməsində millətüstü hüquqlar verilməlidir.

Hələlik isə ölkələrin və beynəlxalq təşkilatların «ekoloji büdcəsi» nisbətən kiçikdir, onların həcmi sürətlə artsa da, həll etdikləri məsələlərin miqyasına adekvat deyil. 1970-ci ildə bəşəriyyət təbiətin qorunması məqsədlərinə 40 milyard dollar, 1980-ci ildə 75 milyard dollara yaxın, 1990-cı ildə təqribən 150 milyard, 2000-ci ildə isə 250 milyard dollar xərcləmişdir. 2010-cu ildə mütəxəssislərin hesablamalarına görə 1,2-1,5 trilyon dollar xərc tələb olunduğu halda, bu məqsədə cəmi 260 milyard dollar sərf edilmişdir.

Ətraf mühitin keyfiyyətinin pisləşməsi əleyhinə mübarizənin əsas istiqamətləri ekoloji təhlükəsizlik meyarlannm işlənib hazırlanması və ekoloji təhlükəsiz texnologiyaların kütləvi surətdə tətbiqidir. Əlbəttə, səmtin bu cür dəyişməsi ilkin bahalığma görə, müasir təfəkkür baxımından qəbul edilmir. Amma dərk olunmalıdır ki, bəşəriyyət üçün ən böyük təhlükə törədən

problemin həllinin başqa yolu yoxdur. Burada sıx beynəlxalq əməkdaşlıq çox vacibdir.

Bu əməkdaşlığın özəlliyi beynəlxalq iqtisadi münasibətlərin mövcud olan bütün formalarından: sənaye-istehsalat və elmi-texniki sahələrdə, xammalın, yanacaq və enerji resurslarının hasilatı, bölgüsü və istifadəsi, valyuta-maliyyə sahələrində və s. əməkdaşlıqdan istifadənin nəzərdə tutulmasıdır.

Ekoloji əməkdaşlıq obyektiv olaraq universal bazaya əsaslanmalı, problemin reallıqlarını əks etdinnəlidir. Misal kimi. Dünya okeanının problemini götürək. Burada siyasi sərhədlər yoxdur, okean dünyagörüşü şərtlərinə tabe deyil. Küləklər, çaylar, qrunt suları vəhdəd təşkil edən təbiətin öz qanunlarına tabe olan hissələridir. Aydındır ki, bəşəriyyət təbiətin dağılması prosesini zəiflətmək, onun insanın Yerdə nonual yaşamasını təmin edən hissəsini bərpa etmək üzrə səylərini birləşdirməlidir. Bunun üçün Dünya okeanı ilə məşğul olan ölkələrin, milli və beynəlxalq təşkilatların maraq dairəsini hərbi-strateji və siyasi mövqelərdən bəşəriyyətin qlobal ekoloji vəzifələri müstəvisinə keçirmək lazımdır.

Amma bu sahədə beynəlxalq səviyyədə yerinə yetirilən işlərdə yalnız dünyanın bütün ölkələrinin birgə səyinə istinad edildiyi halda uğur qazanıla bilər. Su hövzələri, çaylar və s. ilə əlaqədar olan hər bir yeni texniki kəşf, texnologiya, məhsul, fəaliyyət sərt tələblər sisteminə cavab vennəli və bunların arasında ekoloji təhlükəsizlik birinci yerə qoyulmalıdır. Bu cür yanaşmada ekologiya üzrə beynəlxalq əməkdaşlıq səmərəli olacaq, lazımi maliyyə bazasına, yeni beynəlxalq iqtisadi təfəkkürün tərkib hissəsi kimi, fonualaşmış ekoloji düşüncəyə istinad edəcək.

## Xülasə

• Qlobal ekoloji problemlər insanın varlığına real təhlükədir. İnsanın birbaşa müdaxiləsi nəticəsində torpaqda, havada və suda tənəzzül prosesləri baş verir. Məsələn, hər il yüzlərlə heyvan, minlərlə bitki növü yoxa çıxır, meşələr qırılır, su çirklənir, atmosferə böyük miqdarda karbon qazı buraxılması nəticəsində ozon dəlikləri yaranır. Bunun nəticəsində iqlim dəyişməsi baş verir, qütblərdəki buzlaqlar əriyir. Dünya okeanının səviyyəsi tədricən, amma dayanmadan qalxır.

• İqlim dəyişməsi ilə bağlı olan problemlərin həlli üçün birdəfəlik, fərdi qaydada görülən işlər kifayət deyil. İstixana qazlarının havaya buraxılmasının

azalması üçün hamı daha ciddi səylər göstənnəlidir. Kioto protokolunun və BMT-nin iqlim dəyişməsi haqqında çərçivə Konvensiyasının imzalandığı vaxtdan 15 il keçməsi faktı bu səylərin təxirəsalınmaz olduğunu bir daha sübut edir. Ancaq inkişaf etmiş ölkələr öz bəyanatlarına tam riayət etsə belə, iqlim dəyişməsi ilə bağlı olan problemlərin həlli üçün təkcə onların səyi kifayət etməyəcək. Hazırkı vəziyyətdə inkişaf etmiş, inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrin qarşılıqlı əlaqələndirilmiş fəaliyyəti zəruridir. Buna isə yalnız dayanıqlı iqtisadi artıma və inkişafa keçidin dərk olunması şərti ilə nail olmaq mümkündür.

• Meşələrin qırılmasının və ətraf mühitin tənəzzülünün nəticələri regional gərginliyə səbəb olmuş, kəskin, o cümlədən silahlı münaqişələrə gətirib çıxarmışdır (məsələn. Yaxın Şərq münaqişəsi). Bütün dünyada ətraf mühitin tənəzzülündən və resursların tükənməsindən can qurtarmağa çalışan qaçqın qmpları şəhərlər üçün əlavə problem yaradır. Aydındır ki, ətraf mühit sahəsində genişmiqyaslı ümumi məsələlərin həlli və inkişaf üçün bütün ölkələrin və xalqların qlobal əməkdaşlığı zəruridir.

• Ekoloji problemlər miqyasına görə fərqlənir. Kiçik torpaq sahələri, su hövzələri və s. çirkləndikdə, onlar yerli, ölkə miqyasında və ümumdünya xarakterdə olur. Bir neçə ölkəyə aid olan və potensial siyasi nəticələr verə bilən regional ekoloji problemlər müxtəlif ölkələr ümumi resurslardan, məsələn, beynəlxalq çaylardan və regional dənizlərdən istifadə etdikdə, yarana bilər. Atmosfer və okeanlar kimi meqaqlobal ekoloji resurslar da mövcuddur və onlar çoxtərəfli fəaliyyətin obyektinə çevrilməlidir.

• Bir ölkəyə məxsus olan, amma beynəlxalq ictimaiyyət üçün əhəmiyyət kəsb edən resurslar, məsələn, təbii yaşayış mühitinin və nadir növlərin qorunmasında konkret dövlətlər ümumi varidatın qorunub saxlanmasında beynəlxalq əməkdaşlığa güvənmək hüququna malikdir.

• Dayanıqlı iqtisadi inkişaf konsepsiyası BMT-nin sənədlərində, məsələn, BMT-nin Rio-de Janeyrodakı Konfransında (1992-ci il), dayanıqlı inkişaf üzrə Yohannesburqda keçirilən Ümumdünya Sammitində (2002-ci il) rəsmi olaraq təsdiqlənmişdir. Onun mahiyyəti iqtisadi inkişafdan əldə olunan xalis faydaları təbii resursların saxlanması şərti ilə maksimuma çatdırmaqdır. Bu isə, bərpa olunan təbii resurslardan onların regenerasiya qabiliyyətini aşmamaq, bərpa olunmayan resurslardan isə optimal səmərəlilik şərti ilə istifadə edilməsi deməkdir. Bunun üçün təbii resurslardan istifadə texniki-

texnoloji tərəqqi ilə əvəz olunmalıdır. Beləliklə, iqtisadi artım ilə ətraf mühit arasında ahəngdarlığa əməl olunmasını nəzərdə tutan qayda müəyyənləşdirilir.

• Bütün dövlətlər dayanıqlı iqtisadi artım konsepsiyası ilə razılaşaraq öz milli siyasətlərinin bunun əsasında işlənib hazırlanacağını vəd etsə də, həmin sözlərdən real hərəkətlərə keçməmişdir. Bu vədlər dəfələrlə ən yüksək tribunalardan, o cümlədən Minilliyin Sammitində (Nyu-York, 2000-ci il) səsləndirilmişdir. Bu forumda dünyanın liderləri yenidən «XXI əsrin Gündəliyi»ndə ifadə olunmuş dayanıqlı inkişaf prinsiplərini dəstəklədiklərini, istehsalın və istehlakm səbatsız modellərini dəyişməyə hazır olduqlarını bəyan etmişlər.

• Problem həmin konsepsiyanın pozitiv xarakterinə baxmayaraq, ölkələrin, xüsusilə də iri dövlətlərin iqtisadi siyasətinin bir hissəsinə çevrilməsidir. Ətraf mühitin pisləşməsinin əsas səbəbi də budur. Nəticə isə göz qabağındadır: son 30 il ərzində neoliberal-monetar ideologiya inkişaf etmiş ölkələrin iqtisadi siyasətinin metodoloji bazası kimi dünyaya yayılmış və inkişaf etməkdə olan, keçid iqtisadiyyatlı ölkələrin üzərinə köçürülmüşdür. Bu metodologiya iqtisadi proseslərin tənzimləyicisi kimi dövlətin hər hansı fəallığını inkar edir. Bundan başqa, bəzi dövlətlər iri korporasiyaların təbiətqoruyucu işlərə çəkilən xərclərini azaltmaq hesabına gəlirlərin artınnasım, təbii resursların həddən artıq istismarı və ətraf mühitin çirkləndirilməsi sayəsində beynəlxalq rəqabət qabiliyyətini gücləndirməsini təmin etmək üçün ekoloji müdafiə normalarını endirməyə başlamışdır. Dövlət məmurlarının, o cümlədən çox nüfuzlularınm bu cür məsuliyyətsizliyi, iri (və orta) özəl korporasiyaların dağıdıcı fəaliyyəti ilə birlikdə ətraf mühitin vəziyyətinin getdikcə sürətlənən pisləşməsinin başlıca səbəbidir. Onlar təbiətlə ünsiyyətdə olan fiziki və hüquqi şəxslərin fəaliyyətini tənzimləyən beynəlxalq sənədləri qəbul etməyə tələsmir. Bunsuz isə ekoloji fəlakət təhlükəsinin qarşısının alınması üçün zəruri olan təbiətqorujmcu tədbirlərin mürəkkəb kompleksini həyata keçirmək mümkün deyil.

## Yoxlama sualları

1.insanla, təbiət arasında ziddiyyətlərin mahiyyəti və məzmunu nədən ibarətdir, onlar necə fomıalaşmışdır?

2.Göstərilən ziddiyyətlər hansı səbəbdən qlobal ekoloji problem adlandırılır?

3. Ekoloji problemlər necə təsnifləşdirilir: a) tipinə görə; b) miqyasına görə?

4. Böyük həcmdə havaya buraxılan istixana qazları hazırda niyə daha çox ehtimal edilən təhlükə sayılır? Onların atmosferdə izafi çoxluğu hansı nəticələr verə bilər?

5. «Dayanıqlı iqtisad inkişaf» məfhumunun mənasını açın. Bu konsepsiya necə, harada və hansı şəraitdə formalaşmışdır? Dünyanın aparıcı dövlətləri tərəfindən onun qəbul olunmamasının səbəbləri nədir?

6. Torpağın, su3oın, havanın çirklənməsinin qarşısının alınması məqsədilə beynəlxalq təşkilatlar tərəfindən hansı tədbirlər görülür? Onlar nə dərəcədə təsirli olmuşdur?

## Referatların mövzuları

1. Müasir dövrün ekoloji problemləri
2. BMT və başqa beynəlxalq təşkilatların ekoloji fəlakətin qarşısının alınması üzrə fəaliyyəti
3. Dayanıqlı iqtisadi inkişaf konsepsiyası: uğursuzluğunun səbəbləri

# Fəsil 26

# SÜLHÜN QORUNMASI, NÜVƏ MÜHARİBƏSİNİN VƏ SİLAHLI MÜNAQİŞƏLƏRİN QARŞISININ ALINMASI

## 26.1. Problemin qoyuluşu

Göstərilən qlobal problemlər müxtəlif dərəcədə birbaşa olaraq iqtisadi inkişafla bağlıdır. Amma XXI əsrdə elə bir problem də mövcuddur ki, onu həll etmədən, mühümlüyünə baxmayaraq bütün qalanları az əhəmiyyətli görünür. Bu, insanların həyatının hansısa uzaq perspektivdə deyil, ən yaxın vaxtda saxlanması məsələsidir. Söhbət Yerdə sülhün qorunmasından, raket-nüvə müharibəsinin qarşısının alınmasından gedir. Bu təhlükə getdikcə mürəkkəbləşən, avtomatik işləyə bilən hərbi-texnoloji sistemlərin tətbiqindən, nüvə silahı elementlərinin «səpələnməsi» prosesinin davam etməsindən yaranır. Bu silahın beynəlxalq ekstremist qrupların əlinə keçməsinin mümkünlüyü də nəzərdən qaçırılmamalıdır.

***Blokların qarşıdurmasının sonu.*** Dünyanın müharibədən sonrakı dövrdə inkişafı planetin dayanmadan müharibəyə doğru sürükləndiyi halda, hər biri özünün sülhə istiqamətləndiyini sübut etməyə çalışan 2 dünya sisteminin blok şəklində qarşıdurması ilə müşayiət olunurdu. Bu qarşıdurma hər iki sistemin siyasi elita rəhbərlərinin daxili işlərə münasibəti, müxtəlif dünyagörüşü dəyərlərinə mənsubiyyəti və bunların dövlətlərarası əlaqələrə ən münaqişəli fonnalarda köçürülməsi ilə səciyyələnirdi.

Güzəştə getməmək həm Şərqdə, həm də Qərbdə əsas prinsipə çevrilmiş, daxili siyasətdə «cadugər ovu», xarici siyasətdə isə «soyuq müharibə» nəzəriyyəçilərini, əks sistemin «rədd edilməsini» qidalandırırdı. Belə şəraitdə hər iki sistemin hakim dairələri üçün konstitusiyaya, demokratiyaya və insan hüquqlarına zərbə vurmaqla subyektiv elementi, «başçılıq» amilini gücləndirən qızğın silahlanma siyasəti daha əlverişli idi. Amma «başçılar» bu cür inkişaf şəraitində hərbi istehsalın, məntiqin, psixologiyanın, təfəkkürün, hərbi doktrinaların və onların qüdrətli daşıyıcılarının və s. nəticəsi kimi, qızğın silahlanmanı nəzarət altından çıxaran muxtariyyət meyillərinin fonnalaşdığma

diqqət yetinnəmişdi. Bu tərzdə inkişafın nəticələrindən biri hərbiləşmə proseslərinə periferiya ölkələrinin cəlb olunması nəticəsində qızğın silahlanmanın qloballaşmasıdır. Bu proses böyük həcmdə maddi, maliyyə və insan resurslarının cəmiyyət üçün zəruri olan istehsal və xidmət sahələrindən qeyri- məhsuldar, səmərəsiz məqsədlərə cəlb edilməsi ilə nəticələnmişdir.

1980-ci illərdə müxtəlif dövlətlərin ordularında 29 milyon nəfər (inkişaf etmiş ölkələrdə 11 milyon, inkişaf etməkdə olan ölkələrdə 18 milyon) xidmət edirdi, hərbi istehsal sahəsində 100 milyondan artıq adam işləyirdi. Dünyanın elmi işçilərinin '*A* hissəsi hərbi sənaye istehsalı və tədqiqatları sahəsində çalışırdı.

Ümumilikdə isə dünyada elmi tədqiqatların maliyyələşdirilməsinə yönəldilən vəsaitlərin 30%-dən çoxu hərbi-sənaye sahəsinə xərclənirdi. Silah cəbbəxanasının ağlasığmaz parametrləri də buradan irəli gəlir: nüvə potensiallarının ümumi gücü milyon bombadan çoxdur, onlardan hər biri Xirosima üzərinə atılmış bombanın gücünə bərabərdir (hər Yer sakininə 3 ton trotilə yaxın). London Beynəlxalq Strateji Tədqiqatlar İnstitutunun qiymətləndirməsinə əsasən, ABŞ-m xaricdə daimi iştirakını 470 min nəfər, SSRİ-nin isə 770 min nəfər təmin edirdi. SSRİ dağıldıqdan sonra Rusiyanın MDB iştirakçısı olan ölkələrdə (Ennənistan və Qırğızıstan) heyəti 10 min nəfərdən artıq olmayan kiçik hərbi bazaları qalsa da, dünyada təhlükənin azalmaması təəccüb doğurur. Prinsipcə yeni, məsələn, neytron bombasından yaxud qanadlı raketlərdən daha böyük dağıdıcı gücə malik olan, onlardan keyfiyyətcə fərqlənən silah növlərinə keçid üçün real imkanın yaranması xüsusilə təhlükəlidir. Bununla yanaşı, ənənəvi, lakin zərbə endirmək təsirinə görə taktiki nüvə silahına bərabər sayıla bilən silahlar da modernləşdirilir.

Yaxın dövrədək beynəlxalq iqtisadi, siyasi, mədəni, elmi-texniki, hərbi və s. münasibətlərin özəlliyi, onların dünyanın ən mühüm qüvvə mərkəzləri və sosial-iqtisadi, fundamental sivil dəyərlərin daşıyıcısı olan SSRİ və ABŞ arasındakı münasibətlərdə birbaşa əks olunmasından ibarət idi. Bütün dünya ictimaiyyətinin onlar arasındakı münasibətlərin «hərarətini», tarazlığın saxlanmasını diqqətlə izləməsi də təsadüfi deyildi.

«Soyuq müharibə» başa çatdıqdan sonra tamamilə aradan qaldırılmasa da, planetin nüvə silahından məhvolma təhlükəsi xeyli azalmışdır. Bununla bərabər, dünyanın inkişafı qlobal qeyri-sabitliyin yeni mərhələsinə qədəm qoymuşdur. Hərbi qarşıdumıamn aradan qaldırılması nəticəsində problemlər

yeni keyfiyyət almış, mövcud və potensial regional və yerli münaqişələr təhlükə mənbəyinə çevrilmişdir. SSRİ-nin süqutu isə ən azı yaxın perspektivdə sabitliyi pozan yeni amildir. Dünya siyasətində tarazlığın pozulması bəşəriyyəti qlobal qeyri-sabitliyə sürükləmişdir.

Belə vəziyyətdə beynəlxalq təhlükəsizliyin yeni modellərinin axtarılması ən mühüm məsələyə çevrilmişdir və milli təhlükəsizliyin yaranan şəraitə adekvat olan yeni konsepsiyalarının işlənib hazırlanması onun tərkib hissəsidir. Bu modellər qlobal təhlükəsizliyin ümumi konsepsiyasının təməlini qoya bilər. «Milli təhlükəsizlik» anlayışının özü beynəlxalq siyasətdə, iqtisadiyyatda baş verən köklü dəyişikliklərin, elmi-texniki tərəqqinin, ekoloji tarazlığın pozulmasının və başqa amillərin təsiri altında əhəmi^/yətli dərəcədə genişlənmiş və mürəkkəbləşmişdir. İndi bu anlayış özündə təkcə dövlətin suverenliyinin və ərazi bütövlüyünün silahlı müdafiəsini deyil, həmçinin müharibənin qarşısının alınmasına, iqtisadi və texnoloji təhlükəsizliyin, daxili sabitliyin, ölkənin normal həyat fəaliyyətinin, vətəndaşların hüquqlarının müdafiəsinin təmin olunmasına yönəlmiş tədbirləri ehtiva edir. Buna görə də milli təhlükəsizliyin hərbi-iqtisadi tərkib hissəsinə, başqa sözlə desək, milli iqtisadiyyata yeni mövqelərdən yanaşmanın zəruriliyi açıq-aşkardır.

Bir tərəfdən, beynəlxalq gərginliyin artırılması və qızğın silahlanmaya qarşı həmin gərginliyin zəiflədilməsi kursunun həyata keçirilməsinin labüdlüyü son dərəcə aydınlaşmışdır. Digər tərəfdən isə, pozulmuş hərbi-siyasi tarazlığın bərpası üçün Avrasiya təhlükəsizliyinin düşünülmüş doktrinası əsasında MDB məkanında ölkələrin güc nöqtəsi yaradılmalıdır.

Həddən artıq hərbi xərclər insan, təbii və maliyyə resurslarını kənara yayındırmaqla, xarici və daxili borcları artınnaqla, milli təsərrüfat subyektlərində ümumi təkrar istehsal prosesi ilə bağlı olmayan muxtar sənaye «anklavları» yaratmaqla inflyasiyaya səbəb olur. Ümumilikdə, dünya üzrə istehsalın 6%-i silahlanmanın payına düşür, bəzi əsas sahələrdə isə bu rəqəm daha böyükdür. Şübhəsiz ki, silahlanmanın sürətlənməsi beynəlxalq münasibətlərə, onların sabitliyinə mənfl təsir göstərir və nəticədə BMT Nizamnaməsinin əsas müddəaları pozulur. Məlumdur ki, hərb iqtisadiyyatının inkişafı milli təhlükəsizlik konsepsiyasının üzvi hissəsi olan dövlətin hərbi doktrinasından həlledici dərəcədə asılıdır. Bununla belə, ölkənin iqtisadi imkanlarını və müasir hərbi-iqtisadi inkişafın xüsusİ3^ətlərini nəzərə almadan etibarlı, iş qabiliyyətili hərbi doktrinanın hazırlanması qeyri-mümkündür.

Hazırda Rusiyanın və MDB ölkələrinin hərb iqtisadiyyatı son dərəcə ağır vəziyyətə düşmüşdür. Bir tərəfdən, «soyuq müharibə» dövründən iri hərbi-istehsal aparatı və silah ehtiyatlan miras qalmışdır. Digər tərəfdən, hərbi sənayenin dağılması davam edir, silahların keyfiyyəti xeyli aşağı düşmüşdür. Müstəqil dövlətlərin yaranması hərbi müəssisələr arasında kooperasiya əlaqələrinin qırılmasına, hərbi əmlakın, o cümlədən silahların, döyüş texnikasının, müdafiə obyektlərinin, hərbi şəhərciklərin, hətta donanmaların istifadə üçün olmasa da, heç olmazsa, sərfəli satmaq üçün bölüşdürülməsi uğrunda mübarizəsinə gətirib çıxarmışdır. Artıq Rusiya, Ukrayna və Qazaxıstanda «hərbi-sənaye kompleksi» adlandırıla biləcək məfbum yoxdur. Bu kompleks başabəla islahatçılar tərəfindən tamamilə dağıdılmışdır.

Hələ Adam Smit, David Rikardo və Kari Marksm dövründən başlayaraq, bəzi nəzəriyyəçilər hərbi xərclərin iqtisadi artıma mənfi təsirini, başqaları isə bunun müsbət nəticələrini; məşğulluq dairəsinin genişlənməsini, bu sahədə işləyənlərin əmək haqqının jdiksək olmasını əsaslandırırdı. Buna görə də məsələ təkcə siyasətçilər və hərbçilər, onların korporativ maraqlan ilə tamamlanmır. Hərbi məmulatlar istehsalından mülki məhsulların istehsalına kütləvi surətdə keçid həm siyasətçilərin, həm də qızğın silahlanmada varlanma mənbəyi görənlərin düşüncə tərzində «konversiya» baş vennəsi şərti ilə mümkündür. Məsələn, ABŞ-m Kolumbiya universitetinin professoru S.Melmanın fikrincə, bu ölkədə 5,6 milyon adamın Pentaqonun sifarişlərinə görə işi vardır və yaşayışını təmin edə bilir. Onların ailə üzvləri də əlavə olunarsa, bu sifarişlər sayəsində 20 milyon nəfər dolanır. Bura gəlirləri iqtisadiyyatın hərbi sahələrində məşğul olan şəxslərlə bağlı olan müəssisələr və firmalar da əlavə edilməlidir. Bu isə, yuxarıda qeyd etdiyimiz kimi, ABŞ əhalisinin böyük hissəsini təşkil edir. Buna baxmayaraq, ABŞ-ın HSK-nın xüsusi çəkisinin artırılması ilə əlaqədar olan stereotipdən əl çəkmək lazımdır: onun ölkə iqtisadiyyatmdakı payı 15-20% təşkil edir və bura 500 ən iri korporasiyanın təqribən 1/10 hissəsi daxildir. Bundan HSK-nın maraqlarının ölkənin biznesinin maraqlan ilə eyniləşdirilməsinin düzgün olmadığı barədə nəticə çıxarılır.

Qərbin iqtisadi ədəbiyyatında çoxdandır ki, hərbi xərclərin iqtisadi və texnoloji inkişafı ləngitməsini təsdiq edən araşdırmalar aparılır. Amerika iqtisadçılarının patriarxı C.Helbreytin fikrinə görə, bu xərclər inflyasiya xarakterlidir, malların və xidmətlərin bahalaşmasına səbəb olur, xammal və

texniki mütəxəssisləri mülki sahələrdən yayındırır. Əlbəttə, ölkələrin hərbi-sənaye kompleksində işləyənlərin maaşının artması istehlakçı tələbini artırsa da, malların və xidmətlərin təklifinin çoxalmasını ifadə etmir, əmək məhsuldarlığını aşağı salır, iri həcmdə resursları mülki sahələrdən uzaqlaşdırır və s.

Hərbi-sənaye proqramları dövlət büdcəsinin kəsirini artırır. Xroniki büdcə kəsiri və insanların yaşayış səviyyəsinin aşağı olduğu vəziyyətdə (Rusiyada və başqa ölkələrdə) hərbi xərclər ən müasir sənaye müəssisərini, xammalı, yüksək ixtisaslı işçiləri, ən yaxşı elmi kadrları bu məqsədlərə cəlb etməklə xüsusilə dağıdıcı təsir göstərir.

Təkcə Qərbin aparıcı ölkələrinin iqtisadiyyatı götürüldükdə isə, burada iqtisadi tsiklin müəyyən, istehsal güclərindən istifadənin azaldığı dövrlərində hərbi xərclərin son istehlakı stimullaşdıiTnası və iş yerləri yaratması şübhəsizdir. Amma uzunmüddətli dövrdə bu xərclər iqtisadiyyata mənfi təsir göstərir. Bunu həm xaricdə, həm də ölkəmizdə keçirilən, son onillikdə hərbi xərcləri yüksək və aşağı olan ölkələrin iqtisadi göstəricilərinin müqayisə olunduğu tədqiqatlar sübut edir. Həmin tədqiqatlar nəticəsində belə qanunauyğunluq aşkar olunmuşdur: hərbi xərclərin nisbətən az olduğu ölkələrdə iqtisadi göstəricilər daha yaxşıdır (Yaponiya, Almaniya, Skandinaviya dövlətləri).

Tərk-silah olunma və konversiya prosesləri genişləndikcə, hərbi sənayedə yaxud onunla əlaqədar sahələrdə məşğul olanlar üçün işsizlik probleminin meydana çıxması qaçılmazdır. Lakin konversiya təcrübəsi, məsələn, İkinci Dünya müharibəsindən sonra bir çox ölkələrdə müəssisələrin müharibədən əvvəlki mülki məhsulların buraxılışına keçməsi bu tezisi təkzib edir. Böyük Britaniya, ABŞ və AFR iqtisadçılarının çoxsaylı tədqiqatları göstərir ki, mülki istehsalla müqayisədə, hərbi sənayedə bir iş yerinin yaradılmasına xeyli çox (bəzi hesablamalara görə 4 dəfə) kapital qoyuluşu tələb edilir. ABŞ konqresinin büdcə bürosunun məlumatlarına əsasən hərbi məqsədlərə xərclənilən hər 10 milyard dollar dinc proqramlara yönəldiyi halda olduğundan 40 min az iş yeri yaradır.

İndiyədək hərbi tədqiqatlara istiqamətləndirilən xərclərin elmi-texniki tərəqqiyə imkanlar açması barədə rəy geniş yayılmışdır. Bəzi hallarda hərbi texnikanın işlənib hazırlanması aviasiyada, hesablama texnikasında və bir sıra başqa sahələrdə texnoloji yeniliklərə səbəb olsa da, müdafiə xərcləri çox baha başa gəlir və elmi-texniki tərəqqinin stimullaşdırılmasmm səmərəsi aşağı olan üsuludur. BMT-nin məlumatlarına əsasən, 1980-ci illərdə hərbi sahədə aparılan

tədqiqatların 1/5 hissəsindən azı sonradan dinc məqsədlər üçün istifadə edilmişdi. Yalnız 20%-i səmərə ilə nəticələnən bu tədqiqatlar ilə bütün alim və mühəndislərin 40%-nin məşğul olduğunu nəzərə alsaq, nəticə göz qabağındadır; 1980-ci illərin sonunda həyata keçirilmiş hərbi proqramlar bəşəriyyətin elmi-texniki və mədəni inkişafı qarşısında mühüm maneəyə çevrilmişdir. Bu cəhət keçmiş SSRİ-də, onun süqutundan sonra isə milli təsərrüfatlarının böyük hissəsi məhz hərbi sənaye kompleksi ilə bağlı olan Rusiya və Ukraynada özünü xüsusilə güclü büruzə vennişdir. Bu məqam 1990-cı illərdə miqyaslı iqtisadi böhrana və bacarıqsız konversiya nəticəsində onun daha da dərinləşməsinə səbəb olmuşdur. Hərbi istehsalın təkamülü, onun fəaliyyətinin xüsusiyyətləri müasir vəziyyətdəki konversiyanın əvvəlki dövrlə müqayisədə daha böyük çətinliklərlə və xərclərlə əlaqəli olduğunu şərtləndirir.

***Tərk-silah olunma və milli təhlükəsizlik siyasəti.*** Bizim hərbi xərclərin həddən artıq olması və azaldılmasının zəruriliyi heç bir şübhə doğurmur. Hədsiz hərbi xərclərin iqtisadi təhlükəsizliyi təhdid etməsini ölkəmiz öz təcrübəsinin arzuolunmaz nəticələri ilə sübut etmişdir. Amma belə bir məqam da yaddan çıxarılmamalıdır ki, müasir dövrdə hərbi xərclərin düşünülmədən azaldılması bir fövqəldövlətin qüdrəti-nin gücləndiyi şəraitdə ölkəmizin müdafiə qabilİ3q/ətini zəiflədə bilər. Bunu demək kifayətdir ki, 1992-1993-cü illərdə Rusiya hökuməti qarşısına ordu və donanmanın hərbi hazırlıq dərəcəsini əslində sıfra endirmək vəzifəsini qoymuşdu və yalnız parla-mentin səyləri nəticəsində müdafiə məqsədlərinə ayrılan xərclər 2 dəfə artırılmışdı.

Milli təhlükəsizlik konsepsiyasında hərbi-iqtisadi inkişafın daxili qanunauyğunluqlarının bütün məcmusu nəzərə alınmalıdır. Elmi-texniki tərəqqi bu sahədə başlıca amildir. Qərb ölkələrinin hərb iqtisadiyyatında əsas diqqət yüksək texnologiyalı silahların yeni tiplərinin yaradılması üzərində cəmləşdirilir, təsərrüfatçılıq şəraitində dərin dəyişikliklər baş verir. ABŞ və Qərbi Avropada hərbi məmulatlar buraxan iri fınnalardan heç biri hərbi sənayenin yenidən qurulması prosesindən kənarda qalmamışdır.

Qeyd olunmalıdır ki, son illərdə dünyanın siyasi həyatında bir sıra dərin keyfiyyət dəyişiklikləri baş vermişdir və onlann gələcəkdə genişlənməsi mühüm pozitiv nəticələr verə bilər. Beynəlxalq münasibətlərdə dünyanın reallıqlannı əlverişli istiqamətdə böyük sürətlə və birmənalı olmayan tərzdə dəyişdirən və transformasiya edən qlobal zəncirvari reaksiyasını yarada biləcək «kritik kütlə» toplanır; amma əks-transforaıasiyanın baş verəcəyi də istisna edilmir.

Beynəlxalq hərbi-siyasi münasibətlərin özünün məzmunu da dəyişir. Bir yaxud bir neçə dövlət tərəfindən öz tərəfdaşlarına və ya opponentlərinə ənənəvi və adiləşmiş hədələmə, təzyiq göstərmə, güc tətbiqi praktikasından müəyyən dərəcədə çəkinmə müşahidə olunur. Hələ lazımi dərəcədə olmasa da, siyasi məharət beynəlxalq münasibətlərdə ön plana çıxır. Bütün məsələlərdə yeni, müxtəlif qütblü dünya tarazlıq sisteminin qurulması zərurəti yaranır. Bəşəriyyət əvvəlki «iki dünya - iki sistem» sərt sistemindən yaxa qurtararaq, dünyanın vahid, sistem və altsistemlərin isə dəfələrlə çox olmasını dərk edir - sintez ümumdünya meylinə çevrilir. Beynəlxalq münasibətlərə ideoloji təsirin kənarlaşdırılması, ictimai inkişafın problemlərinin və perspektivlərinin daha geniş təsəvvür olunması dünyanın siyasi qüvvələrinin əksər hissəsinə müxtəlif ölkələrin qarşılıqlı münasibətlərindəki problemlərin məzmununu yeni, adekvat surətdə dərk etməyə və onların həlli yollarını tapmağa imkan yaradır.

Dünya ictimaiyyəti getdikcə belə fikirdə qərarlaşır ki, uzunmüddətli perspektivdə qlobal hərbi, ekoloji yaxud maliyyə-iqtisadi fəlakətlərin baş verməsinin, kütləvi epidemiyaların, aclığın, beynəlxalq terrorizmin yayılmasının qarşısını almağın yeganə yolu fəal əməkdaşlıq və hərtərəfli beynəlxalq təhlükəsizlik sisteminin yaradılmasıdır. İdeoloji qarşıdurma, geosiyasi rəqabət, ərazi iddiaları, təbii sərvətlər və xammal uğrunda mübarizə səbəblərindən dövlətlər arasında baş verən münaqişələrin nəinki aradan qaldırılmadığı, hətta bəzən yeni qüvvə ilə alovlandığı şəraitdə belə, onlar göstərilən təhlükələr qarşısında solğunlaşır və cılız görünür. Tərk-silah olunma üzrə danışıqlarda, qanlı regional münaqişələrin sülh yolu ilə həllində irəliləyişlər baş verir.

Bu, qızğın silahlanmanın ixtisarı və məhdudlaşdırılması uğrunda mübarizədə ağlabatan qarşılıqlı güzəştlərin axtarılmasını ön plana çıxarır. «Soyuq müharibə» başa çatdıqdan sonra dünyada baş verən dərin geosiyasi dəyişikliklərin qlobal sistemdə pozitiv hərbi-siyasi nəticələr (yeni dünya müharibəsinin baş vennə təhlükəsinin kəskin azalması, silahların və silahlı qüvvələrin ixtisarı, dövlətlər arasında münasibətlərin yaxşılaşması və s.) verməsi ilə yanaşı neqativ meyillərə (təhlükəsizliyin əvvəlki sabitləşdiricilərinin itirilməsi, müharibələrin və silahlı münaqişələrin yeni mənbələrinin yaranması. Avrasiyanın geniş məkanında xaotik proseslərin güclənməsi və s.) də gətirib çıxarmasına görə, bu güzəştlərin zəruriliyi xüsusilə aktuallaşır.

Bununla belə, mütəxəssislərin bir çoxu demokratikləşmənin, demoqrafik partlayışın və qloballaşmanın bunlara bənzər proseslərinin müə3q/ən şəraitdə

yeni müharibələrə və münaqişələrə təkan verə biləcəyini istisna etmir. Hər halda demokratikləşmə bəzilərinin düşündüyü kimi, hərbi sarsıntıların qarşısını ala biləcək vasitə hesab oluna bilməz.

1990-cı illərdə qeyri-sabitliyin və hərbi təhdidlərin yeni regionları (Balkanlar, Qafqaz, Mərkəzi Asiya, beynəlxalq terrorizm və ekstremizm) yaranmışdır. Dünyada baş verən dəyişikliklər pozitiv meyillərlə yanaşı milli və dini zəmində çoxsaylı münaqişələrə gətirib çıxarmışdır. Mütəxəssislər isbat edir ki, gələcəkdə baş verəcək silahlı münaqişələrin 90%-i təcrübənin göstərdiyi kimi, çoxmillətli kontingentlərin yardımı ilə həll olunacaq. Bütün bunlar beynəlxalq təhlükəsizliyin təmin olunmasının üsullarına və vasitələrinə baxışı əməkdaşlığın gücləndirilməsi istiqamətində dəyişdirir. Deməli, müasir dövrdə dövlətlərin hərbi siyasətinin qloballaşması onların həm öz ölkəsinin, həm də bütün dünyanın təhlükəsizliyinin təmin olunması üçün birləşməsi və əməkdaşlıq ehtiyaclarının ifadəsidir.

XXI əsrin formalaşmaqda olan qlobal hərbi siyasəti dövlətlərin qarşılıqlı münasibətlərində güc tətbiqinin aradan qaldırılmasının labüdlüyünə, bütün dünyada tərk-silah olunmaya, hər cür təcavüzün və ümumiyyətlə, «düşmən» kateqoriyasından, məqsədə nail olmağın vasitəsi kimi müharibədən imtina edilməsinə əsaslanır, hamı üçün hərbi təhlükəsizlik təmin edə bilən dünyəvi hakimiyyət strukturlarının yaradılması vəzifəsini qarşıya qoyur. Yeni siyasət orduların gələcək vəziyyətini, funksiya və vəzifələrini, hərbi strukturların iş prinsiplərini, inkişafı və fəaliyyəti istiqamətlərini müəyyənləşdirən «yeni genetik kodun» təməlini qoyur.

Yeni formalaşan hərbi siyasət hərbidən daha çox, müdafiə və hətta «müharibə əleyhinə» xarakter daşımalıdır. Onun əsas amalı müharibəyə, xüsusilə də raket-nüvə münaqişəsinə yol verilməməsi, sülh şəraitində həyatın bərqərar olunmasıdır. Bu siyasət dövlətin təhlükəsizliyinin dinc yollarla (siyasi, iqtisadi, diplomatik) təmin olunmasına üstünlük verilməsini, hərbi potensialın məhdud-laşdırılmasmı, mümkün rəqibin qəflətən hücum etmək imkanından məhrum edilməsini, müharibələrin və münaqişələrin qarşısının alınmasını nəzərdə tutmalıdır.

Müasir dövrdə dövlətlərin hərbi siyasətlərinin razılaşdırılması prosesi kifayət qədər məqsədyönlü, planauyğun və fəal xarakter alır. Bu məqsədlə NATO, Rusiya, MDB-nin başqa ölkələri arasında əlaqələr intensivləşmişdir (seminarlar, konfranslar, komanda-qərargah təlimləri, nümayəndə heyətlərinin

mübadiləsi, bir-birinin hərbi akademiyalarında kadrların hazırlanması və s.).

Ümumilikdə isə, dünyadakı strateji vəziyyəti əsasən Rusiya-Amerika nüvə qarşıdurması təhlükəsinin azaldılması, Rusiya və ABŞ arasında sıx strateji əməkdaşlıq, «soyuq müharibənin» maddi və siyasi nəticələrinin aradan qaldırılması kimi amillər müəyyən edəcək. Bu baxımdan silahlar üzərində milli və beynəlxalq nəzarətin gücləndirilməsi həm Rusiya, Ukrayna, həm də MDB- nin başqa ölkələri üçün həlledici əhəmiyyətə malikdir.

## 26.2. Tərk-silah iqtisadiyyatı problemi baxımından beynəlxalq əməkdaşlıq

Sülhməramlı meylilərin üstünlük təşkil etməsinin nəticəsi kimi, dünyanın aparıcı dövlətlərinin tərk-silah olunması bütün dünya ictimaiyyətinin maraqlarına təsir göstərir. Özü də bunun kifayət qədər bahalı fəaliyyət olduğu aşkarlanmışdır. Qeyd olunduğu kimi, inkişaf etmiş ölkələrin hamısı öz hərbi qüvvələrini ehtimal olunan müharibənin aparılması üçün vasitələrlə təmin edən hərbi-sənaye kompleks-lərinə (HSK) malikdir. Bu müharibənin baş verməsi yalnız ehtimal olunsa da, hərbi istehsal və xərclər həmişə konkretdir və iqtisadiyyatda öz əksini tapır. Buna görə də mütəxəssislər həmişə sadəcə «konversiyanın» deyil, hərbi-sənaye komplekslərinin sökülməsi iqtisadiyyatının konsepsiyasını işləyib hazırlamağa çalışmış və burada konversiya onun yalnız struktur həlqələrindən biri kimi çıxış etməlidir. Problem ölkələrin çoxu üçün aktualdır və sırf zahiri təhlil zamanı göründüyü kimi, o qədər də ağrısız ötüşmür. Məsələ təkcə bu sahədə çalışan və bir qayda kimi, imtiyazlı şəraitdə yaşayan milyonlarla insanda, qızğın silahlanmanın maddi infrastrukturunda deyil, həmçinin hərbiləşdirmənin vətəndaş cəmiyyətinə sirayət edərək, onun «müdafiə təfəkkürünü» stimullaşdıran qeyri-maddi tərkib hissəsindədir. Əlbəttə, bu halda hərbi xərclərin ixtisar olunması problemi ölkələrin həm sosial, həm də iqtisadi vəziyyətinə birbaşa təsir göstərdiyi üçün son dərəcə aktualdır.

Məsələn, 1980-1990-cı illərdə aparılan hesablamalar dünyada silahlanmaya yalnız 1 il ərzində xərclənən vəsaitlərin torpaqdan istifadənin müasir metodlarından istifadə olunduğu halda 150 milyon hektar sahənin suvarılmasına yönəldildikdə, 1 milyarddan çox insanın ərzaqla təmin edilə biləcəyini göstənnişdi. Bu pullar il ərzində 500 milyon adam üçün 100 milyon müasir mənzilin inşası və 650 milyon uşağın təhsil ala biləcəyi 1 milyon

məktəbin lazımi avadanlıqla təchizatı üçün kifayət edərdi. Dünyada aclığın, ən təhlükəli xəstəliklərin, savadsızlığın tamamilə aradan qaldırılması üçün isə hərbi məqsədlərə istiqamətləndirilən vəsaitlərin ümumi həcminin cəmi 6-10%-i kifayət edər.

Bundan başqa, hərbi obyektlər (poliqonlar, anbarlar, atıcılıq meydanları, aerodromlar və s.) altında olan böyük torpaq sahələri kənd təsərrüfatı və başqa mülki məqsədlərlə istifadə oluna bilər. Məsələn, milyonlarla avtomobil, traktor, minlərlə gəmi, neft və neft məhsulları, anbarlar, minlərlə zavod bacarıqla istifadə olunduğu halda dünya ölkələrinin milli iqtisadiyyatının inkişafı üçün güclü stimuldur.

## 26.3. Konversiya və dövlətin iqtisadi sağlamiaşdırılması

Getdikcə daha çox mütəxəssis və alim mürəkkəbliyinə baxmayaraq, hərbi istehsalın konversiyasının qeyri-adi hadisə olmadığı barədə qənaətə gəlir. İstənilən ölkənin iqtisadiyyatında strukturun yenidən qurulması prosesi daim gedir, köhnəlmiş məhsulların istehsalı yenilərinin buraxılması ilə əvəz olunur. Hərbi sənaye sahələrində buraxılan silah növləri də fasiləsiz yenilənir. Buna görə də konversiyanın hərbi-siyasi qərarlarla sıx əlaqədar mürəkkəb problem olmasına baxmayaraq, burada aradan qaldırıla bilməyən iqtisadi və sosial maneələr mövcud deyil. Digər tərəfdən, demək olar ki, bütün ölkələrdə hərbi sənayenin dövlət nəzarəti altında yaxud ondan asılı olması bu sahədə qərarların qəbulunu asanlaşdırır. Məsələn, ABŞ-da hərbi texnikanın 90%-i özəl fınnalar tərəfindən buraxılsa da, həmin məmulatlar dövlət tərəfindən Müdafiə Nazirliyi vasitəsilə sifariş edilir və satın alınacağına, istehsalçı fınualarm mənfəət əldə edəcəyinə təminat verilir. Mütəxəssislərin, o cümlədən BMT ekspertlərinin qeyd etdiyi kimi, məhz dövlət hərbi istehsalların mülki istehsala keçirilməsində başlıca rol oynamalı, hərbi müəssisələri taleyin ümidinə buraxıb, onların rəhbərlərinin və mühəndislərinin «rus zirəkliyinə» güvənməməlidir.

Hərbi elm sahəsinin yönümünün dəyişdirilməsi ən bahalı və çətinliklə təkrar istehsal olunan resurs - yüksək ixtisaslı elmi və mühəndis kadrlarla əlaqədar olduğuna görə xüsusilə diqqətli yanaşma tələb edir. Bu mənada bəzi ölkələrin təcrübəsi ibrətamizdir. Həmin ölkələrin hökumətləri silahların və hərbi texnikanın satınalmalarını ixtisar etməklə bərabər, hərbi ETTKİ xərclərini demək olar ki, əvvəlki səviyyədə saxlayır, bəzi proqramlar üzrə isə hətta artırır. Konversiya proqramlarının həyata keçirilməsinin əsas şərtlərindən

birinin nəzərdə tutulan tədbirlərin planlara yenidən baxıldıqdan sonra qalan hərbi-texniki proqramlara ziyan vurmaması olduğu nəzərə almarsa, bu addım özünü doğruldur. Hərbi və mülki sahələrdə çalışan bütün işçilər tərk-silah olunmanın və konversiyanın sakit və dinc həyat üçün əsas, bəşəriyyətin ekoloji, enerji, tibbi və s. problemlərinin həlli üçün təməl yaradacağına əmin olmalıdır.

Konversiyanın hazırlanmasına diversifikasiya prosesi, yəni hərbi sahələrin mülki sahələrə nüfuz etməsi şərait yaradır və bu, onların hərbi sifarişlərin daxil olmasından, hərbi-siyasi konyunkturanın tərəddüdlərindən asılılığını zəiflədir.

İnkişaf etmiş ölkələrin hərbi sənayesinin nisbətən aşkar kon3oınktura şəraitində inkişaf etməsi orada yeni sahələrin və istehsalların sürətli elmi- texniki inkişafını stimullaşdırırdı: məlumdur ki, ***innovasiyalar ilk növbədə hərbi sahələrdə tətbiq edilirdi.*** Korporasiyaların menecerləri firmalarının mənfəətini hərbi yaxud mülki bizneslə eyni dərəcədə əlaqələndirdiyi üçün, innovasiyaları dərhal bir sahədən digərinə köçürürdülər. Konversiya proseslərinin templəri obyektiv olaraq iqtisadi, texniki, texnoloji, təşkilati, sosial, vaxt və s. amillərlə məhdudlaşdığına görə, bu məqam mühüm şərtlərdən biridir. Onların hərtərəfli nəzərə alınması, çevikliyi və operativliyi Qərb ölkələrinə konversiya problemlərini nisbətən asan həll etməyə imkan yaradır.

Rusiyada və bir sıra ölkələrdə konversiya əvvəlcədən hərtərəfli hazırlıq aparılmadan, dəqiq elmi konsepsiya olmadan amiranə formada, hərbi sənaye müəssisələrinin təşəbbüsü nəzərə alınmadan həyata keçirilməyə başlamışdır. Tətbiq olunan metodlar hər yerdə müdafiə sənayesi müəssisələrinin qabaqcıl elmi-texniki və istehsal potensialından səmərəsiz istifadə etməsinə, sosial gərginliyə, yüksək ixtisaslı kadrların axınına gətirib çıxarırdı. Təkcə 1992-ci ildə Rusiyanın müdafiə kompleksi təqribən 650 min nəfər itirmişdi. Həyata keçirilən konversiya ilk addımlardan iqtisadiyyatda dağıdıcı proseslər, kooperasiya əlaqələrinin pozulması, 1992-1999-cu illərdə ayrı-ayrı sahələrin idarəetmə sisteminin sonu görünməyən yenidən qurulması ilə müşayiət olunmuşdu. Sonrakı illərdə də vəziyyət düzəlməmişdi.

Bununla yanaşı qeyd olunmalıdır ki, konversiya müəssisələrində istehlak mallarının buraxılış həcminin artması da müşahidə edilmirdi. 1991-ci ildə onların istehsal etdiyi televizorların sayı 1990-cı illə müqayisədə 240 min ədəd, soyuducular 110 min ədəd, radioqəbuledici cihazlar 310 min ədəd azalmışdı. 1992- 1999-cu illərdə cüzi artmaya baxmayaraq, HSK müəssisələrində mülki

məhsulların buraxılışının artması əsas meylə çevrilməmişdi.

«HSK sindromu» Rusiya hakimiyyətinə 1991-ci ildən sonra müdafiə sənayesi rəhbərlərinin potensial siyasi və iqtisadi qüvvəsindən vaxtında istifadə etməyə, bu sənayedə islahatlar aparmağa imkan vermədi. «HSK-nın qüdrəti» və onun «islahatlar ideyasına düşmən mövqe tutması» barədə şişirdilmiş təsəvvürlər hökuməti ondan islahat aləti kimi istifadə etmək əvəzinə, faktiki ləğv olunmasına istiqamətləndirdi. Ali rəhbərliyin gizli göstərişləri hökumət məmurları və hətta Rusiyanın Müdafiə Nazirliyi tərəfindən alqışlandı. Müdafiə sənayesinə son dərəcə qətiyyətlə və qüvvə ilə iqtisadi zərbə endirildi. Əfasnəvi qüdrəti olan HSK çökməli və özündən sonra total konversiya üçün «tikinti materialına» çevrilən, planetin hər tərəfindən tökülüb gələn fırıldaqçıların oğurlaya biləcəyi çoxsaylı, düşkünləşmiş xırda qəlpələrə parçalanmalı idi.

İslahatların birinci mərhələsində Rusiya Elmlər Akademiyası da müdafiə sənayesinə münasibətdə qəribə mövqe tutmuşdu. Ümumi qəbul edilmiş sxemə əsasən, onilliklər ərzində akademik elmin ən son nailiyyətlərindən müdafiə sənayesində istifadə olunurdu. Akademiyanın ‚gördÜ3di işlər lazımınca qiymətləndirilirdi. Bu mənada SSRİ ABŞ-dan, Almaniyadan yaxud Fransadan heç nə ilə fərqlənmirdi.

Ənənə üzrə «yuxarıdan gələn» göstərişlərə tabeçilik HSK-də əmək haqqının ən aşağı səviyyədə müəyyənləşdirilməsi, fəhlələrin, mühəndislərin, alimlərin məcburi məzuniyyətə göndərilməsinə imkan yaratdı. Nəticədə ölkənin sənayesi on minlərlə yüksək ixtisaslı mütəxəssisi itirdi.

## 26.4. Qlobal müharibə ehtimalı ilə müşayiət olunan hərbi və başqa təhdidlərin təsnifatı

Yuxarıda nəzərdən keçirdiyimiz məsələlər əsasən hərbi-sənaye istehsalına aid idi. İndi isə müharibənin qarşısının alınması ilə bağlı olan qlobal vəzifəyə hansı problem qruplarının daxil olduğunu nəzərdən keçirək. Bu ümumi problemin özü də məntiqə uyğun olaraq qurulan müstəqil problemlər (altproblemlər) yaxud vəzifələr sırasına bölünür:

1) bütün dünyada yerli və regional silahlı toqquşmalar daxil olmaqla, silahlı münaqişələrin dayandırılması, aradan qaldırılması və qarşısının alınması;

2) silah tətbiq olunan daxili münaqişələr baş verdiyi halda ciddi beynəlxalq nəzarət qoyulması;

3) hərbi çevriliş baş verdiyi halda dərhal müdaxilə olunması. Konstitusiyaya zidd çevrilişlər çox vaxt beynəlxalq təşkilatların və dünyanın nüfuzlu dövlətlərinin tam laqeyd yanaşması şəraitində baş verir;

4) dövlətin qanlı qiyamları təşkil etmiş hər bir vəzifəli şəxsinin məsuliyyətə cəlb olunması. Cəzasızlıq başqaları tərəfindən təqlid edilmə üçün ən yaxşı nümunədir;

5) xarici ölkələrə satış üçün nəzərdə tutulmuş bütün silah növlərinin istehsalının ixtisar olunması: birinci mərhələdə ağır hərbi texnikanın, sonrakı mərhələlərdə isə polis texnikası istisna edilməklə, bütün növlərin; silahları reklam vasitəsi olduğuna görə silah sərgilərinin qadağan edilməsi; xaricə silah satışının narkotik ticarətinə bərabər tutulması; beynəlxalq silah bazarının ləğvi;

6) bütün ölkələrə münasibətdə nüvə silahının və başqa kütləvi qırğın silahlarının yayılmaması rejiminin sərtləşdirilməsi; nüvə silahına malik olan ölkələrin beynəlxalq öhdəliklər qəbuluna məcbur olunması; hər hansı ölkənin (ölkələrin) nüvə dövlətlərinin rəsmi siyahısından çıxarılması barədə ikitərəfli (gizli) razılaşmaların ləğvi;

7) fəaliyyət göstərən və tikilməkdə olan AES-də atomdan dinc məqsədlər üçün istifadə edilməsi sahəsində Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (lAEA - International Atomic Energy Agency) səlahiyyətlərinin gücləndirilməsi. Bu, indiyədək ərazisində AES olmayan ölkələrin həmin proqramları həyata keçirməyə başladığı dövrdə xüsusilə mühüm əhəmiyyət kəsb edir;

8) qlobal vəzifənin - tədricən nüvə silahından imtinanın yerinə yetirilməsi məqsədilə nüvə silahına malik olan dövlətlərin beynəlxalq sammitinin keçirilməsi. Aydındır ki, nüvə silahı olan dövlətlər onun məhvinə başlamasa, onların sayı getdikcə artacaq. Bununla yanaşı, həmin silahın terrorist qrupların (həm beynəlxalq, həm də milli) əlinə keçməsi təhlükəsi güclənməkdədir;

9) suya, dəniz heyvanlarına və bitkilərinə misilsiz ziyan vurduğuna görə raketlərin və böyük dağıdıcı gücə malik olan digər mərmilərin Dünya okeanına buraxılmasının (yerdən, havadan, sualtı qayıqlardan) qadağan edilməsi;

10) kosmik fəzadan hərbi məqsədlər üçün istifadə etmək cəhdlərinin qarşısının alınması.

BMT çərçivəsində ABŞ və SSRİ-nin nüvə silahına malik olması sayəsində üçüncü dünya müharibəsinin qarşısının alınması barədə məsələnin həqiqətə uyğunluğunun öyrənilməsi də mühüm olardı. Təhlilçilər arasında geniş yayılmış bu tezis düzgün olmayan, nüvə silahına malik ölkələrin cəbbəxanasının saxlanmasına və möhkəmləndirilməsinə yönəlmiş fikir kimi təsəvvür edilir. Sözsüz ki, mürəkkəb olan bu məsələlərin birdəfəlik həlli hamıya kimin sülhə qarşı çıxdığını sübut edər, dövlətlərin yeni təhlükələr qarşısında öz əvvəlki ixtilaflarını geridə qoymaq və bəşəriyyətin sülh şəraitində inkişafı üçün mühit yaratmağa qadir olduğunu göstərərdi.

***Raket-nüvə silahı.*** İlk atom bombası yaradıldıqdan və İkinci Dünya müharibəsinin sonunda (1945-ci ildə) Yaponiyanın Xirosima və Naqasaki adalarının sakinləri üzərində sınaqdan keçirildikdən sonra (bu vaxt 100 min adam həlak olmuşdu) bəşəriyyət bu silahın nə qədər dağıdıeı qüvvəyə malik olduğunu dərk etdi. Yarım əsrdən çox müddət ərzində ABŞ və SSRİ raket-nüvə silahının dağıdıcı gücü getdikcə artan növlərini yaratmaqda bir-biri ilə mübahisə aparırdı. Qiymətləndirmələrə görə, hər iki ölkə bu məqsədə 50 trilyon dollardan çox pul xərcləmişdi. SSRİ bu maliyyə vəsaitlərinin yarısını iqtisadiyyatın müasirləşdirilməsinə və insanların rifahının yaxşılaşdırılmasına yönəltsəydi, nəinki parçalanmaz, hətta ÜDM-i 10-12 milyard dollara çatdırmaqla dünyada ABŞ-dan sonra ikinci yeri tutar, 320 milyon əhali həyat səviyyəsi göstəricisinə görə müasir Fransa ilə bərabərləşərdi.

2010-cu ildə Amerika senatının (Rusiya Dövlət Dumasından sonra) ABŞ və Rusiya arasında strateji hücum silahlarının ixtisarı və məhdudlaşdırılması üzrə tədbirlər haqqında Müqaviləni (SSİMM) imzalanması böyük əhəmiyyətə malikdir. Müqavilə 8 aprel 2010-cu ildə Praqada iki ölkənin prezidentləri - Dmitriy Medvedev və Barak Obama tərəfindən imzalanmışdır. Bu Müqavilə 31 iyul 1991-ci il SSİMM-1 və 24 may 2002-ci il Moskva Sazişini əvəz etdi.

Sənəddə Müqavilə qüvvəyə mindikdən sonrakı 7 il ərzində tərəflərdən hər birinin cəbhə boyu düzülmüş qitələrarası ballistik raketləri, sualtı qayıqların və ağır bombardmançı təyyarələrin ballistik raketlərini 700 vahidədək, onların üzərindəki döyüş başlıqlarını 1550 vahidədək endirməsi nəzərdə tutulur.

Müqavilə strateji hücum silahlarının ölkə ərazisindən kənarda yerləşdirilməsini qadağan edir. Strateji hücum və strateji müdafiə silahlarının qarşılıqlı əlaqəsi barədə müddəa və onların ixtisarında bu qarşılıqlı əlaqənin artan əhəmiyyəti hüquqi vəzifə kimi təsbit olunmuşdur. Müqavilənin qüvvədə

olma müddəti 10 ildir. Tərəflər müqavilənin qüvvədəolma müddətinin 5 ildən çox olmayan dövr üçün uzadılması barədə razılaşa bilər. Müqavilədə ondan çıxmağın şərtləri göstərilmişdir. Sənəd ratifikasiya . barədə fənnanlarla mübadilədən sonra qüvvəyə minir.

Bu Müqavilənin yerinə yetirilməsi planetimizin intihar silahından azad olacağına ümidlər yaradır. Amma bu, yalnız başlanğıcdır. Dünyanın əsas nüvə dövlətləri olan ABŞ və Rusiya öz istilik-nüvə silahlarını ixtisar etmədən, başqa ölkələrdən nüvə bombasından azad olmağı tələb edə bilməz. Bu sahədə dünyanın başqa ölkələrinə nümunə göstənnək məsuliyyəti bizim ölkələrin üzərinə düşür. Bu Müqavilə bütün bəşəriyyətə işarədir. Prezident Obama son məqsədin Global Zero («Qlobal Sıfır») olduğunu bəyan etmişdir. Əlbəttə, bu çoxlu məchulları olan çətin yoldur və Amerika nüvə silahından birtərəfli qaydada imtina etməyəcək. Bu səbəbdən nüvə klubunun başqa üzvlərinə: Böyük Britaniya, Fransa, Çin, Hindistan, Pakistan və İsrailə güclü təzyiq göstərilməlidir. Amma bu realdırını? Bu məqsədə çatmaq üçün həm öz ölkəsində, həm də beynəlxalq siyasi aləmdə danılmaz nüfuza malik olan güclü liderlərin böyük səy göstərməsi zəruridir.

Sülh və təhlükəsizlik, qızğın silahlanmanın dayandırılması, dövlətlərin qarşılıqlı münasibətlərindən hərbi münaqişələrin istisna edilməsi, mübahisəli məsələlərin yalnız danışıqlar yolu ilə həlli bəşəriyyətin həyati əhəmiyyət kəsb edən vəzifələridir. Onların həlli BMT-nin, xüsusilə də Təhlükəsizlik Şurasının yaradıldığı gündən, fəaliyyətinin əsas amalı olmuşdur. Üçüncü dünya müharibəsinin qarşısı alınsa da, müharibələr və silahlı münaqişələr, dövlət çevrilişləri, xalqın iradəsinə əks olaraq hakimiyyətin ələ keçirilməsi bir sıra, xüsusilə də təkcə demokratik inkişafın deyil, həm də dövlətin özünün fəaliyyətinin mədəni köklərinin olmadığı ölkələrin həyatında adi haldır. Eyni zamanda aydındır ki, fasiləsiz iqtisadi, sosial-mədəni və siyasi inkişaf üçün vətəndaş həmrəyliyinə və müdrik idarəçiliyə, mehriban qonşuluğa əsaslanan dinc, münaqişəsiz şərait olmalıdır. Yaxın qonşularla yola getməmək, onlarla münasibətlərdə gərginlik yaratmaq hökumətlərin qeyri-adekvathğmın ilkin əlamətləridir.

Dünyanın müxtəlif hissələrində, qitələrində həm ölkə daxilində, həm də ölkələr arasında baş verən silahlı münaqişələr qaçqınların meydana çıxmasına, şəhər və kəndlərin, min illər boyu qorunub saxlanmış maddi və mədəni sərvətlərin məhvinə səbəb olur, yoxsulların və səfillərin sayını çoxaldır. İnsan

azadlığını və hüquqlarını boğan diktator və avtoritar rejimlər mövcud olmaqdadır. Bəzi hökmdarlar beynəlxalq müqavilələri kobudcasına pozmaqla, kütləvi qırğın silahlarını yaratmış yaxud yaratmağa səy göstərirlər; onlar tərəfindən özgə torpaqlarının zəbt edilməsi silahlı münaqişələr və terrorist hücumları üçün potensial yaradır; quldurlar dünya ictimai^/yətinin gözü qabağında və çox təəccüblü acizliyi vəziyyətində sərnişin və yük gəmilərini ələ keçirir. Ən «demokratik» dövlətlər yoxsul ölkələri böyük miqdarda silahla təchiz edərək, onların inkişafa yönəldə biləcək vəsaitlərini əlindən almaqla, bu ölüm saçan biznesdən gəlir əldə edir.

***Silah ticarətinin dayandırılması. Silahla beynəlxalq ticarətin tamamilə dayandırılması,*** dünya silah bazarının ləğvi problemi çoxdan yetişmişdir. Tərksilah olunma nəticəsində cəmləşdirilə bilən böyük məbləğdə maliyyə vəsaitləri yoxsul, inkişaf etməkdə olan ölkələrin inkişafına yönəldilməlidir. Bu halda BMT-nin üç onillik əvvəl təsdiqlədiyi prinsip: inkişaf etmiş ölkələrin ÜDM-nin 1%-nin inkişaf etməkdə olan ölkələrə yardım göstərilməsinə, təhsilə, səhiyyəyə, yoxsulluğun aradan qaldırılmasına yönəldilməsi reallaşdırıla bilər. Yalnız bu siyasət təkcə daxili münaqişələr deyil, həm də be3məlxalq terrorizm və ekstremizm yaradan qlobal sosial mühitin «mülayimləşdirilməsinə» aparıb çıxaracaq.

## Xülasə

- Sülh və təhlükəsizlik, qızğın silahlanmanın dayandırılması, hərbi münaqişələrin aradan qaldırılması BMT, xüsusilə də onun Təhlükəsizlik Şurasının əsas məqsədləridir. Üçüncü dünya müharibəsinin qarşısını almaq mümkün olsa da, müharibələr və silahlı münaqişələr, dövlət çevrilişləri, xalqın iradəsinə əks olaraq hakimiyyətin ələ keçirilməsi və hətta Parlamentin gülləboranı bir sıra, xüsusilə də təkcə demokratik inkişafın deyil, həm də dövlətin özünün fəaliyyət göstərməsinin mədəni köklərinin olmadığı ölkələrin həyatında adi haldır.
- Eyni zamanda aydındır ki, fasiləsiz iqtisadi, sosial-mədəni və siyasi inkişaf üçün vətəndaş həmrəyliyinə və müdrik idarəçiliyə, mehriban qonşuluğa əsaslanan dinc, münaqişəsiz şərait olmalıdır. Yaxın qonşularla yola getməmək, onlarla müna-sibətlərdə gərginlik yaratmaq hökumətlərin qeyri-adekvatlığmm ilkin əlamətləridir.
- Dünyanın müxtəlif hissələrində, qitələrində həm ölkə daxilində, həm

də ölkələr arasında baş verən silahlı münaqişələr qaçqınların meydana çıxmasına, şəhər və kəndlərin, min illər boyu qomnub saxlanmış maddi və mədəni sərvətlərin məhvinə səbəb olur, yoxsulların və səfillərin sayını çoxaldır. İnsa azadlığını və hüquqlarını boğan diktator və avtoritar rejimlər mövcud olmaqdadır. Bəzi hökmdarlar beynəlxalq müqavilələri kobudcasına pozmaqla, kütləvi qırğın silahlarını yaratmış yaxud yaratmağa səy göstərirlər; onlar tərəfindən özgə torpaqlarının zəbt edilməsi silahlı münaqişələr və terrorist hücumları üçün potensial yaradır; quldurlar dünya ictimaiyyətinin gözü qabağında və çox təəccüblü acizliyi vəziyyətində sərnişin və yük gəmilərini ələ keçirir. Ən «demokratik» dövlətlər yoxsul ölkələri böyük miqdarda silahla təchiz edir.

• Yoxsulluğun və aclığın aradan qaldırılması, ekoloji fəlakətin qarşısının alınması, dayanıqlı inkişafın təmin olunması sahəsində fəaliyyətin nəticələri Yerdə sülhün və təhlükəsizliyin bərqərar olmasından asılı olduğuna görə, yaxın perspektivdə bu problemin həlli bəşəriyyət üçün daha aktual olacaqdır.

• Göstərilən problemin strukturu mürəkkəbdir: buraya, bir tərəfdən bütün, 0 cümlədən yerli silahlı münaqişələrin dayandırılması (qarşısının alınması), silah istehsalının ixtisarı və onunla beynəlxalq ticarətin tamamilə dayandırılması, mübahisəli beynəlxalq məsələlərin yalnız sülh danışıqları yolu ilə həll olunması, digər tərəfdən isə, nüvə silahından azad dünyaya doğru irəliləyiş daxildir.

• 8 aprel 2010-cu ildə Rusiya və ABŞ prezidentləri tərəfindən imzalanmış, 2010-cu ilin dekabrında Amerika senatı və Rusiya Dövlət Duması tərəfindən ratifikasiya olunmuş Strateji Hücum Silahları haqqında Müqavilə iki ölkənin nüvə qarşıdurması təhlükəsinin azaldılması istiqamətində mühüm nailiyyət olmuşdur. Bununla belə, silahların ixtisar olunmasının başqa istiqamətlərində, o cümlədən hərbi əməliyyatların aparılmasının son dərəcə bahalı olan sistemlərinin yaradılmasının qarşısının alınması sahəsində irəliləyiş hiss olunmur; həm ABŞ, həm də Rusiya müdafiə məqsədlərinə getdikcə daha çox maliyyə vəsaiti ayırır.

## Yoxlama sualları

1. Dünyada nüvə müharibəsi təhlükəsinin qarşısının alınması, bəşəriyyət üçün sülh və təhlükəsizliyin təmin edilməsi məflıumlarınm məzmunu nədən ibarətdir?
2. Bu problemin təsnifatını verin; bura hansı tərkib hissələri daxildir?
3. Konversiya nədir? Bu proses Rusiyada necə həyata keçirilib?
4. 2010-cu ildə Rusiya və ABŞ arasında bağlanmış strateji hücum silahları üzrə Müqavilə barədə nə bilirsiniz? Bu Müqavilənin yalnız iki dövlət üçün deyil, dünyanın bütün ölkələri üçün əhəmi]/yəti nədən ibarətdir?
5. Nüvə silahının yayılmaması rejiminin sərtləşdirilməsinin, silahla beynəlxalq ticarət üzərində qadağan qo3aılmasmm zəmriliyi nədən qaynaqlanır?
6. İqtisadiyyat və hərbi büdcələr arasında hansı əlaqə mövcuddur?

## Referatlarm mövzuları

1. Nüvə silahı olmayan dünya mümkündünnü?
2. ABŞ və SSRİ arasında nüvə qarşıdurmasının tarixi
3. NATO ölkələrinin və Rusiyanın müdafiə xərcləri: zərurət, yoxsa düşünülməmiş israfçılıq?

# Ədəbiyyat


1. *Авдокуиаш, Е.Ф.* **Международные экономичеекне отношения: учебник / Е.Ф.Авдокушин. - М. : Экономисть, 2004.**

2. *Аганбегяп, А.* **Экономика России на распутье. Выбор посткризнсного пространства / А.Аганбегян. - М., 2010.**

3. *Барр, Р.* **Политическая экономия / Р.Барр : пер с англ. - В 2 т. - М., 1995.**

4. *Бартенев, С.А.* **Экономические теории и школы : курс лекций / С.А.Бартенев. - М., 1996.**

5. *Бжезинский, 35.* **Великая шахматная доска / 36.Бжезинский : пер. с англ.-М., 1999.**

6. *Бжезинский, 36.* **Еще один шанс. Три президента и кризис американской сверхдержавы / 36.Бжезинский : пер. с англ. - М.; Международные отношения, 2010.**

7. *Б.пауг, М.* **Методология экономической науки, или Как экономисты объясняют / М.Блауг : пер. с англ. - М., 2004.**

8. *Ван дер Вее, Г.* **История мировой экономики / Г.Ван дер Вее : пер. с франц. - М., 1990.**

9. *Веблен, Т.* **Теория праздного класса / Т.Всблсн : пер. с франц. - М., 1984.**

10. **География мирового развития. Выпуск 1. Сб. научи, трудов Института географии РАН / под. ред. Л. М.Синцерова. М., 2009. - С. 606.**

11. *Герчикова И.Н.* **Международные экономические организации / И.Н.Герчикова. - М.: Консалтбанкир, 2001.**

12. **Глобализация мирового хозяйства: учебн. пособие/под ред. М.Н. Осьмовой, А.В.Бойченко. -М.: ИНФРА-М, 2006.**

13. **Глобалистика: энциклопедия / под. ред. И.И.Мазур, А.Н.Чумаков. - М., 2003.**

14. **Государство и развитие человеческого потенциала в конце XX - начале XXI века / отв. ред. Л.Ф.Лебедева. - М. : ИСКРАМ, 2008.**

15. *Гурова, И.П.* **Мировая экономика : учебник / И.П.Гурова. - М.: Омега-Л, 2008.**

16. *Дынкин, А.А.* **Мировая экономика: прогноз до 2020 года / А.А.Дынкин. - М.: МАГИСТР, 2007.**

17. *Зарицкий, Б.Е.* **Людвиг Эрхард. Секреты «экономического чуда» / Б.Е.Зарицкий.- М.: Изд-воБЕК,1997.**

18. **История мировой экономики / под ред. Г.Б.Поляка, А.Н.Марковой. - М., 2004.**

19. *Кейнс, Дж.* **Общая теория занятости, процента и денег / Дж.Кейнс: пер. с англ. - М.: Экономика, 1999**

20. *Киреев, А.П.* **Международная экономика: в 2 ч. / А.П.Киреев - М.: Международные отнощения, 2002.**

21. *Колесов, В.П.* **Международная экономика: учебник / В.П.Колесов, М.В.Кулаков. - М., 2004.**

22. *Кондрашова, Л.К.* **Китам ищет своп путь / Л.К.Кондрашова. - М.; Институт Дальнего Востока РАН, 2006.**

23. *Костюнин, Г.М.* **Азиатско-Тихоокеанская экономическая интеграция / Г.М.Костюнин. - М.: РОССПЭН. 2002.**

24. *Кругман, П.* **Кредо либерала / П.Кругман : пер. с англ. - М., 2009.**

25. *Кругман, П.* **Международная экономика. Теория и политика / П. Кругман, М. Обстфельд : пер. с англ. - СПб., 2004.**

26. *Ломакин В.К.* **Мировая экономика / В.К.Ломакин. - М.: ЮНИТИ, 2007.**

27. *Лукьянович, КВ.* **Морской транспорт в мировой экономике / К.В.Лукьянович. - М.: МГУП, 2004.**

28. **Международные экономические отношения / под ред. В.Е.Рыбалкина. - М.: ЮНИТИ- ДАНА, 2007.**

29. **Международная экономическая интеграция : учеб, пособие / под. ред. д-ра экон. наук, проф. Н.Н.Ливеицева. - М.: Экономистъ, 2006.**

30. **Международные валютно-кредитные и финансовые отношения : учебник / под. ред. Л.Н.Красавиной. - М.: Финансы и статистика, 2006.**

31. **Мизес, Л. фон. Индивид, рынок и правовое государство / пер. с англ. - СПб., 1999.**

32. **Мировая экономика и международные экономические отношения / под ред. А.С.Булатова, Н.Н.Ливеицева. - М. : Магистр, 2008.**

33. **Мировая экономика и международный бизнес : учебник / колл, авт.; под общ. ред. проф. Щенина. - 4-е изд., перераб. и доп. - М.; КНОРУС, 2007.**

34. **Мировая экономика / под. ред. Б.Н.Смитенко. - М.: Высшее образование, Юрайт-Издат, 2009.**

35. **Мировая экономика. Глобальные тенденции за 100 лет / под ред. И.С.Королева. - М., 2003.**

36. **Мировая экономика / под ред. С.А. - М. : МГУ, 2006.**

37. **Мировая экономика : учебн. пособие для дистанционной формы обучения / под ред. С.В.Ивановой. - М. : Изд-во Рос. экон. акад., 2008.**

38. **Мировая экономика. Экономика зарубежных стран : учебник / под ред. В.П.Колесова, М.Н.Осьмовой. - М. : Флинта, 2000.**

39. **Мировая экономика: глобальные тенденции за 100 лет / под ред. И.С.Королева. - М.: Экономистъ, 2003.**

40. **Мировая экономика: учебник для вузов / под ред. проф. Ю.А.Щербанина. - М.: ЮНИТИ- ДАНА, 2004.**

41. **Мировая экономическая мысль : в 5 т. / рук. научн. проекта Г.Г.Фетисов. - М., 2004.**

42. *Михайлов А.И.* **Мировое хозяйство в пространственно-временном континууме / А.И.Михайлов. - М.: Академический проект, 2009.**

**43. Национальная экономика в условиях глобализации / под ред. И.П.Фамннского. - М.: Магистр, 2007,**

**44. Новый курс экономической теор]1и : учебник в 2 кн. / авт. проекта д.э.н., проф. Г.П.Журавлева. - 2-е изд. Москва-Тамбов, 2010.**

**45.** *Норберг, Ю.* **В защиту глобального капитализма / Ю.Норберг: пср. с англ. - М.: Магистр, 2007,**

**46.** *Паньков, В. С.* **Глобализация экономики : сущность, проявление, вызовы и возможности для России / В,С.Паньков. - Ярославль : Верхняя Волга, 2009.**

**47. Петти, В. Трактат о налогах и сборах / пер. с англ. - М., 1997.**

**48.** *Пищик В.Я.* **Европейская валютная интеграция / В.Я.Пищик. - М.: Финансовая Академия при Правительстве РФ, 2007.**

**49.** *Погорлецкий, А.И.* **Экономика зарубежных стран / А.И.Погорлецкнй. - СПб, 2000.**

**50.** *Портер, М.* **Конкурентная стратегия: методика анализа отраслей и конкурентов / М. Портер: пер. с англ. - М.: Альпина Бизнес Букс, 2006.**

**51. Россия и Китай: сотрудничество в условиях глобализации. - М.: Институт Дальнего Востока РАН, 2005.**

**52.** *Самуэльсон, П.* **Экономика : в 2 т. / П.Самуэльсон - М., 1977.**

**53.** *Смит, А.* **Исследование о причинах богатства народов. - Книга первая / А.Смит : пер. с англ., - М., 1977.**

**54.** *Стиглиц, Дж.* **Справедливая доля для всех. Как торговля может содействовать развитию / Дж.Стиглиц, Э.Чарлтон : : пср. с англ., - М., Весь Мир, 2007.**

**55. Теория международных отношений на рубеже столетий / под ред. К.Буса, С.Смита: пер. с англ., - М.: Гардарики, 2002.**

**56.** *Улин, Б.* **Межрегиональная и международная торговля / Б.Улин, пер. с англ. - М.: Дело, 2004.**

**57.** *Уткин А.И,* **Большая восьмерка: цена вхождения / А.И.Уткин. - М: Алгоритм, 2006.**

**58.** *Фридмен, М.* **Количественная теория денег / М.Фридмен, пер. с англ. - М.: Дело, 1996.**

**59.** *Фаминский, К.П.* **Мировое хозяйство: динамика, структура производства, мировые товарные рынки (вторая половина XX - начало XXI в.) / К.П.Фаминский. - М.: Магистр, 2007.**

**60. Хайек, Ф. Индивидуализм и экономический порядок / Ф.Хайек, пер. с англ. - М.: Изограф,** 2000.

**61.** *Халевинская, Е.Д.* **Мировая экономика и международные экономические отношения : учебник / Е.Д.Халевинская. - М.: Магистр, 2009.**

**62.** *Халевинская, Е.Д.* **Всемирная Торговая Организация и российские интересы / Е.Д.Халсвииская, Е.В.Вавилова. - М.: Магистр, 2009.**

63. *Хаштгпюн. С.* Столкновение цивилизаций / С.Хантинггои: пер. с англ. - М.: Издательство ACT, 2003.

64. Харрод, Р. Классики кейнсианства : в 2 т. / Р.Харрод, Э.Хаисен : пер. с англ. - В 2 т. - М., 1997.

65. *Хасбулатов, О.Р.* Развитые страны: центры и псрнфериц. Опыт региональной экономической политики / О.Р.Хасбулатов. - М.: Экономика, 2009.

66. *Хасбулатов, Р.И.* Мировая экономика и международные экономические отношения: в 2 т. / Р.И.Хасбулатов (и др.). - М.: Гардарики, 2006.

67. *Хасбулатов, Р.И.* Мировая экономика. Теория, принципы и политика : в 2 т. / Р.И.Хасбулатов. - М., 2001.

68. *Хейфец, Б.А.* Долговая политика России / Б.А.Хейфец. - М.: Научный эксперт ; ЗАО «Издательство «Экономика»»», 2007.

69. *Цыганков, П.А.* Теория международных отношений / П.А.Цыганков. - М., 2005.

70. *Щецина, Р.К.* Мировая экономика / Р.К.Щенина, **Л.Л.**Калинина. - М.: РГГУ, 2008.

71. Экономика США: учебник / под ред. И.Б.Супяна. - СПб. : Питер, 2003.

72. Экономическая теория : учебник для вузов / под ред. Г.П.Журавлевой, В.М.Юрьева. - М., 2001.

73. Экономический и Социальный Совет ООН. «Обзор мирового экономического и социального положения» (ежегодное издание ООН).

74. Энциклопедия стран мира / отд. обществ, наук РАН ; гл. ред. акад.РАН Н.А.Симония. - М., 2004.

75. *Эппниг, Р.* Путеводитель по мировой экономике / Р.Эппниг : пер. с англ. - М. : Международные отношения, 2006.

76. Development. UN Conference on Trade and Development. UN, New York and Geneva (доклады UNCTAD).

77. Economic Report of the President. Washington (ежегодные экономические доклады Президента США Конгрессу).

78. Euro statistics. Data for Short-term economic analysis. Euro stat statistical books. European commission.

79. European Union Economics. A comparative study / ed. by Franc Comers. - 3'^'* edition. - United Kingdom, Edinburg Gate, Harlow. - New York, 1998.

80. Far Eastern Economic Review (Дальневосточный экономический обзор).

81. http://cpp. eurostat.ec.europa.eu (Avropa Statistika İdarəsinin rəsmi saytı).

82. http://europa.eu/index_en.htm (Avropa İttifaqının rəsmi saytı).

83. http://germany.rust.rade.org. (Rusiya Federasiyasının xarici ölkələrdəki nümayəndəliklərinin informasiya sistemi).

84. http://www.cia.gov (MK.İ-nin rəsmi saytı).
85. http://www.gks.ru (Ros.statın rəsmi saytı).
86. http://www.imf.org./ (BVF-in rəsmi saytı).
87. http://www.mid.ru/(Rusiya XİN rəsmi saytı).
88. http://www.oecd.org./ (IƏİT rəsmi saytı).
89. http://www.tpprfru/ (Rusiya Ticarət-Sənaye Palatasının rəsmi saytı).
90. http://www.udprf ru/ (RF Prezidentinin İşlər İdarəsinin rəsmi saytı).
91. http://www.un.org./russian (BMT-nin rus dilində rəsmi saytı).
92. http://www.unctad org./ (UNCTAD-m rəsmi saytı).
93. http://www.weforum.org./en/index.htm/ (Dünya İqtisadi Forumunun rəsmi saytı).
94. http://www.worldbank.org./ (Dünya Bankının rəsmi saytı).
95. http://www.wto.com/ (ÜTT-nin rəsmi saytı).
96. The Economist, London (Böyük Britaniyanın iqtisadi həftəlik nəşrləri).
97. World investınent Report on Direct investment.
98. Доклад о мировом развитии: 2003-2010. - М.: Изд-во Всемирного Банка, 2010.
99. «Мировая экономика и международные отношения» aylıq jurnalı.
100. «США - экономика, политика, культура» aylıq jurnalı.
101. 16 dekabr 2008-ci ildə və 21-22 aprel 2009-cu ildə G.V.Plexanov adma RİA-da keçirilmiş beynəlxalq elmi-praktiki konfransın materialları. - М.: ГОУ ВПО «РЭА им. Г.В.Плеханова», 2009.

**Avropa İttifaqının fəaliyyəti barədə əsas məlumatları**
**aşağıdakı internet-saytlardan götürmək olar:**

http://europa.eu.int. (Avropa İttifaqının rəsmi saytı).

http://www.delrus.cec.eu.int (Avropa Komissiyasının Moskva nümayəndəliyinin rəsmi saytı).

**Şengen zonası ölkələrinə səfər qaydaları barədə məlumatı bu saytlardan götürmək olar:**

http://www.shengen-visa.ru/

http://www.europa.eu.int/comm/justicejtome/lsj/freetravel/thridcountry_en.htm

http://www.turizm.ru/visas/

**R.I.Xasbulatov**

# BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏR

Çapa imzalanmışdır; 09.01.2015
Format: 70x.,100 1/16. Həcmi; 50,5 ç.v.
Sifariş № 434. Tiraj; 500

"Zərdabi LTD" MMC
Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel: (+994 12)514-73-73